ƏZİZ OXUCULAR!

Sizə təqdim etdiyimiz "Əlamətdar və tarixi günlər təqvimi" 1961-ci ildən nəşr edilir. Əvvəllər 3 aydan bir - ildə 4 dəfə nəşr edilən təqvim, 1970-ci ilin oktyabr ayından etibarən "Kitabxana işçisinə kömək", 2005-ci ildən isə yenidən "Əlamətdar və tarixi günlər təqvimi" adı ilə nəşr olunur.

Bu illər ərzində təqvim daha da təkmilləşdirilmiş, mövzu üzrə bölmələrin sayı artırılaraq həcmi genişləndirilmiş, geniş məlumat mənbəyi kimi formalaşdırılmışdır.

Təqvimi nəşr etməkdə əsas məqsəd geniş oxucu kütləsinə və mütəxəssislərə respublikanın ictimai-siyasi, iqtisadi, mədəni, elmi həyatında baş verən mühüm əlamətdar hadisələri və başqa dəqiqləşdirilmiş məlumatları çatdırmaqdır. Mədəniyyət işçiləri, müəllimlər, kütləvi informasiya vasitələri və əsasən də kitabxana işçiləri üçün nəzərdə tutulan bu vəsaitin hər buraxılışının müqəddiməsində nəşrin məzmunu, forması geniş şəkildə açılır.

Təqvimin bu sayı dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 875 illik yubileyinə həsr olunmuşdur.

Bəşər bədii fikrinin nadir hadisəsi olan Nizami yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınmış Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir.

Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkküründü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər axtarışının zirvəsində dayanaraq, dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur.

Nizami irsi uzun zamandan bəri dünya elmi-ədəbi fikrinin diqqət mərkəzindədir. Ölkəmizdə dahi şairin əsərləri dəfələrlə nəşr olunmuş, ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülmüş, çox sayda tədqiqatlar meydana gətirilmiş, eləcə də dünya nizamişünaslığında ilk dəfə olaraq əsərlərinin elmi tənqidi mətni hazırlanmışdır.

Təqvimdə Nizami Gəncəvinin həyat və fəaliyyətinə dair zəngin məlumatlar öz əksini tapmışdır.

2016

KBT Я25
UOT (059)

Baş redaktor: **K.M.Tahirov,**
professor,
Əməkdar mədəniyyət işçisi

Məsul katib: **N.Alışova**

Redaktor: **Gülbəniz Səfərəliyeva,**
Əməkdar mədəniyyət işçisi

Əlamətdar və tarixi günlər təqvimi - 2016 /baş red. K.Tahirov; red. G.Səfərəliyeva; məsul katib N.Alışova; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası.-Bakı, 2015.-430 s.

© Azərbaycan Milli Kitabxanası, 2015

ISBN 978 9952 504 20 0

Təqvim - 2016

Təqvimdə 2016-ci ildə yubileyləri qeyd olunacaq görkəmli şəxsiyyətlər haqqında məlumatlar və əlamətdar hadisələr aşağıdakı bölmələr üzrə verilmişdir:

Milli ədəbiyyat; Folklor; Dünya ədəbiyyatı; Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq; Musiqi. Opera. Balet; Teatr. Kino; Milli Qəhrəmanlar; Siyasət. Hərbi iş; Tarix; Fəlsəfə. İqtisadiyyat. Hüquq; Mədəniyyət.Maarif.Təhsil; İdman; Coğrafiya. Geologiya; Riyaziyyat. Fizika. Astronomiya; Kimya. Biologiya. Tibb; Texnika; Kitabxanaşünaslıq. Biblioqrafiya; Tarixdə bu gün.

Təqvimə milli və dünya ədəbiyyatının, incəsənətin, elmin, texnikanın və müxtəlif elm sahələrinin ən görkəmli nümayəndələri, eləcə də tarixi hadisələr haqqında məlumatlar daxil edilmişdir.

Hər bir məlumatda yubileyi qeyd olunacaq şəxsin doğulduğu gün, ay, il, əlamətdar hadisənin başvermə tarixi göstərilmişdir.

2016-cı ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında "Əlavələr" bölməsindən məlumat əldə etmək olar.

Oxucuların təqvimdən istifadəsini asanlaşdırmaq məqsədilə hər ayın ilk səhifəsində mündəricat verilmiş, təqvimin sonunda isə ***köməkçi əlifba göstəric****isi* tərtib edilmişdir.

Təqvim materialları üçün ədəbiyyat seçilərkən yeni və məzmunca ən uyğun kitablara, jurnal və qəzet məqalələrinə, ən çox müraciət olunan internet resurslarına və Milli Kitabxananın nəşrlərinə üstünlük verilmişdir.

Nəşrlə bağlı rəy və təkliflərini bildirən mütəxəssislərə və oxuculara əvvəlcədən minnətdarlığımızı bildirir, fikir və iradlarını Azərbaycan Milli Kitabxanasına göndərmələrini xahiş edirik.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57;
E-mail: metodik@anl.az

Meymun ili

Yaponiyada və digər Şərq ölkələrində qəbul edilmiş təqvimə əsasən 12 illik dövr daxilində hər bir il müəyyən heyvan işarəsi altında keçir. Şərqdə çox məşhur olan bu təqvimə əsasən 2016-cı il Meymun ilidir. İl 2016-cı ilin fevral ayının 8-də başlayacaq. Meymun ilində dünyaya gələnlərin xarakteri aşağıdakı kimidir:

Meymunda yumor hissi güclü olsa da o, bic və hiyləgərdir. Ünsiyyətcildir, elə təəssürat yaradır ki, bütün heyvanlarla yola gedir. Meymun zahirən çox lütfkar və xidmətkar olsa da başqaları haqqında neqativ düşünür və fikirlərini başqalarına qarşı mehriban münasibəti ilə gizlədir. O, digər bütün heyvanlara nifrət edir və özünü hamıdan yüksək sayır.

Meymun ilində anadan olanlar intellektualdırlar. Onlarda öyrənmək, bilik qazanmaq ehtirası güclüdür. Çox oxumuşdurlar, məlumatlıdırlar, gözəl yaddaşları var.

Onlar ən etibarsız və ziddiyyətli adamlardır. Ağıllı, çevik, zirək və orijinaldırlar, ən mürəkkəb problemləri asanlıqla həll edirlər. Meymunun insanları ələ salmaq, axmaq yerinə qoymaq sahəsində xüsusi məharəti vardır. Ən güclü, dözümlü və diribaş olan Əjdahanı belə ələ sala bilir. Demək olar elə fəaliyyət meydanı yoxdur ki, meymunlar orada rahat olmasınlar. İstənilən işi təcili görmək istəyirlər. Lakin onları işlərindən ayırmaq və fikirlərindən daşındırmaq asandır. Ən yüngül maneə belə qanlarını qaraldıb planlarını poza bilər. Bir çoxları öz qətiyyətsizlikləri ilə fərqlənirlər. Onlar temperamentli və öz bildiklərini edən, tez qızışan, lakin yola gələn olurlar. Qərar qəbul etməyi bacarır, sağlam düşüncəyə malik olurlar. Maneçilik olmadıqda bir çoxları şöhrət qazana bilərlər.

Çox hiyləgər və diplomatik olan meymun ən çətin vəziyyətlərdən çıxa bilir. O, müstəqildir, fərdiyyətçidir. Ona heç bir təsir göstərmək olmur, özü müəyyən bir variantı seçir. Bir sıra mənfi xüsusiyyətlərinə baxmayaraq (şöhrətpərəstlik, yalançılıq, məsxərəçilik) xoşa gəlməyi bacarır.

Meymun istənilən sahədə (siyasət, diplomatiya, kommersiya, sənaye, maliyyə) uğur qazana bilər.

Ə d ə b i y y a t

Meymun ili //Ulduzlar və talelər.- Bakı, 2010.- S.141.

Meymun ili //Ulduz falları: Druidlərin falı. Qərb zodiak falı. Şərq Yapon falı. Şərq Çin falı /tərc. ed. İ.İsgəndərov, M.İsgəndərova; red. T.Məmmədov.- Bakı, 2006.-S.75-76.

Meymun ili //Bürclər taleyimizdən xəbər verir /tərc. və tərt. ed. R.Nəbioğlu.- Bakı, 2010.- S.145-146.

1 yanvar
Gün çıxır 08:04
Gün batır 17:43
31 yanvar
Gün çıxır
07:52
Gün batır
18:15

YANVAR

22 dekabr-
20 yanvar
Oğlaq bürcünün ünsürü torpaq, planeti Saturn, düşərli günü çərşənbə axşamı, şənbə, düşərsiz günü bazar ertəsi, cümə axşamıdır. Metalı dəmir, uğurlu rəngi tünd-yaşıl, qara, göy, uğursuz rəngi ağdır. Uğurlu daşı rubin, oniks, enerji verən çiçəyi ağ qərənfil, qara lalə, uğurlu rəqəmi isə 3 və 5-dir.

C.	1
Ş.	2
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	7
C.	8
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	14
C.	15
Ş.	16
B.	17
B.E.	18
Ç.A.	19
Ç.	**20**
C.A.	21
C.	22
Ş.	23
B.	24
B.E.	25
Ç.A.	26
Ç.	27
C.A.	28
C.	29
Ş.	30
B.	31

- *Yeni il (01.01)*
- ***Ümumxalq Hüzn Günü (20.01.1990)***
- *Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzvlüyə qəbul olunmasının (25.01.2001) 15 ili*
- *Gömrük İşçiləri Günü (30.01.1992)*

875 il Nizami Gəncəvi 1141-1209

"Nizami fəlsəfəsinin mərkəzində varlığın ən böyük sərvəti, mənəvi zənginlik və müdrikliyin tükənməz mənbəyi olan insan dayanır. Nizami insanın cəmiyyətdəki rolunu özünün dünyagörüşü süzgəcindən keçirərək, yaradıcılığında antik yunan və Roma irsini, Şərq fəlsəfəsini və Şərq poeziyasının çoxəsrlik ənənələrini əks etdirə bilmişdir. Nizaminin ürəkləri vəcdə gətirən təkrarolunmaz lirikası və qəhrəmanlıq eposunda onun həqiqi humanizm ideyalarını ehtiva edən fəlsəfi konsepsiyası öz əksini tapmışdır. Məhəbbətin yenilməz qüdrəti, həyatın və ölümün mənası, ideal cəmiyyət, dünyanın və kainatın möhtəşəm sirləri haqqında yaratdığı poemalar əsrlər boyu Şərqdə əsl sənət nümunəsi olaraq qalmışdır. Onun poemalarının xüsusiyyətləri və yaratdığı poetik obrazların dərinliyi Qərbin dahi Höte kimi mütəfəkkirlərini heyran qoymuşdur...

Heydər Əliyev,
Azərbaycan xalqının ümummilli lideri

YANVAR

2016

Milli ədəbiyyat

Əməkdar jurnalist, Naxçıvan MR Əməkdar incəsənət xadimi, nasir, ssenarist, publisist İbrahimov Sadıq Qurban oğlunun (Sadıq Elcanlı) (12.01.1956) anadan olmasının 60 illiyi 8

Şairə, Əməkdar incəsənət xadimi Ələkbərzadə Mədinə Nurulla qızının (Mədinə Gülgün) (17.01.1926-17.02.1992) anadan olmasının 90 illiyi 9

Yazıçı Qutqaşınlı İsmayıl bəy Sultan Nəsrulla oğlunun (27.01.1806/1809-14.08.1861/69) anadan olmasının 210 illiyi 10

Dünya ədəbiyyatı

Amerika yazıçısı Cek Londonun (Con Qriffit Çeyni) (12.01.1876-22.11.1916) anadan olmasının 140 illiyi 11

Rus yazıçısı Saltıkov-Şedrin Mixail Yevqrafoviçin (26.01.1826-10.05.1889) anadan olmasının 190 illiyi 12

Musiqi.Opera.Balet

Əməkdar artist, müğənni Əzimi Səfurə Əli qızının (06.01.1946-27.11.2001) anadan olmasının 70 illiyi

Sənətşünaslıq üzrə fəlsəfə doktoru İsmayılzadə Rauf Yusif oğlunun (07.1936-07.2015) anadan olmasının 80 illiyi

Xalq artisti, müğənni Ağayev Ağadadaş Həmid oğlunun (10.01.1956) anadan olmasının 60 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Əkbərov Tahir İsmayıl oğlunun (Tahir Əkbər) (20.01.1946) anadan olmasının 70 illiyi 13

Əməkdar incəsənət xadimi, bəstəkar Adıgözəlzadə Həsənağa Əfrasiyab oğlunun (23.01.1946) anadan olmasının 70 illiyi

Xalq artisti, qarmon ifaçısı İsrafilov Aftandil Eynulla oğlunun (24.01.1941) anadan olmasının 75 illiyi

Avstriya bəstəkarı Motsart Volfqanq Amadeyin (27.01.1756-05.12.1791) anadan olmasının 260 illiyi

Teatr. Kino

Xalq artisti Dadaşov Rafael Məlik oğlunun (04.01.1946) anadan olmasının 70 illiyi 14

Xalq artisti, kinorejissor Quliyev Eldar Tofiq oğlunun (18.01.1941) anadan olmasının 75 illiyi 15

Xalq artisti, jonqlyor Abdullayev Xosrov Abdulla oğlunun (29.01.1926-31.03.1980) anadan olmasının 90 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Elgiz Kərim oğlunun (05.01.1971-12.03.1992) anadan olmasının 45 illiyi 16
Azərbaycanın Milli Qəhrəmanı Ramazanov Şamil Ağasəf oğlunun (19.01.1976-17.03.1995) anadan olmasının 40 illiyi 17
Azərbaycanın Milli Qəhrəmanı Nəsirov Yalçın Canhəsən oğlunun (23.01.1976-24.03.1995) anadan olmasının 40 illiyi 18

Siyasət.Hüquq.Hərbi iş

Hüquq elmləri doktoru, professor Rəhimov İlham Məmmədhəsən oğlunun (14.01.1951) anadan olmasının 65 illiyi
Amerika maarifçisi, dövlət xadimi, alim Franklin Bencaminin (17.01.1706-17.04.1790) anadan olmasının 310 illiyi 19

Tarix

Tarix elmləri doktoru, professor Abbasov Məmməd Əsgər oğlunun (05.01.1931) anadan olmasının 85 illiyi
Tarix elmləri doktoru, professor İsgəndərli Anar Camal oğlunun (10.01.1956) anadan olmasının 60 illiyi
Akademik Əlizadə Əbdülkərim Əli oğlunun (11.01.1906-03.12.1979) anadan olmasının 110 illiyi 20
Akademik Hacıyev İsmayıl Muxtar oğlunun (21.01.1951) anadan olmasının 65 illiyi 21
Əməkdar elm xadimi, tarix elmləri doktoru Aşurbəyli Sara Balabəy qızının (27.01.1906-17.07.2001) anadan olmasının 110 illiyi 22

Mədəniyyət.Maarif.Təhsil

Filologiya elmləri doktoru, Əməkdar elm xadimi Dadaşzadə Araz Məmməd oğlunun (30.01.1936-04.11.1990) anadan olmasının 80 illiyi 23

Fəlsəfə.İqtisadiyyat

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru Vəliyev Teymur Süleyman oğlunun (15.01.1926-03.04.2002) anadan olmasının 90 illiyi 24
İqtisad elmləri doktoru, professor Mehdiyev İmran Əzim oğlunun (21.01.1936) anadan olmasının 80 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Akademik Xəlilov Zahid İsmayıl oğlunun (14.01.1911-04.02.1974) anadan olmasının 105 illiyi 25

Kimya.Biologiya.Tibb

Əməkdar həkim, tibb elmləri doktoru, mikrobioloq-immunoloq Mahmudbəyova Məryəm Fərəməz qızının (02.01.1921-1992) anadan olmasının 95 illiyi **26**

Tibb elmləri doktoru Ağayev Faiq Firidun oğlunun (12.01.1951) anadan olmasının 65 illiyi

Əməkdar həkim, professor Hüseynova Nəsibə Ağa İsmayıl qızının (25.01.1926) anadan olmasının 90 illiyi **26**

Kitabxanaşünaslıq.Biblioqrafiya

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının yaradılmasının (21.01.1921) 95 illiyi **27**

Tarixdə bu gün

Yeni il bayramı (01.01.) **28**

İstiqlal Muzeyinin yaradılmasının (09.01.1991) 25 illiyi **29**

Bakı İslam İnstitutunun yaradılmasının (14.01.1991) 25 illiyi

Ümumxalq Hüzn Günü (20.01.1990) **30**

Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzvlüyə qəbul olunmasının (25.01.2001) 15 ili **31**

Gömrük İşçiləri Günü (29.01.1992)

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin yaradılmasının (30.01.2006) 10 illiyi **32-33**

60 illiyi

Sadıq Elcanlı 1956

Nasir

Sadıq Qurbanqulu oğlu İbrahimov (Sadıq Elcanlı) 1956-cı il yanvar ayının 12-də Dəvəçi rayonunun (indiki Şabran) Surra kəndində anadan olmuşdur. Siyəzən şəhər 1 saylı internat məktəbində 8-ci sinfə qədər təhsil almış, Bakıda 5 saylı kimya-biologiya təmayüllü internat məktəbində onuncu sinfi bitirmişdir.

1974-1979-cu illərdə S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinin (indi Bakı Dövlət Universiteti) filologiya fakültəsində təhsil almışdır. 1981-1984-cü illərdə C.Məmmədquluzadənin ev-muzeyində elmi işçi, baş mühafiz, 1984-1986-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri şirkətində ştatdankənar müxbir, 1986-1992-ci illərdə ədəbiyyat və incəsənət redaksiyasında böyük redaktor, 1992-1997-ci illərdə "Azərbaycantelefilm" Yaradıcılıq Birliyinin baş redaktoru, Ədəbiyyat və publisistika baş redaksiyasının baş redaktoru olmuş, 1996-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində "Ədəbi-dram verilişləri" redaksiyasının baş redaktorudur.

Bədii yaradıcılığa XX əsrin 70-ci illərində başlamışdır. Dövri mətbuatda vaxtaşırı çıxış edir. "Qudyalçay nəğmələri", "Yaşıl budaqlar", "Səhər" və s. almanaxlarda hekayələri çap olunmuşdur. İlk povest və hekayələr toplusu olan "Sirli səsin sorağı" 1985-ci ildə nəşr edilmişdir. Əllidən artıq bədii televiziya filminin, eyni zamanda televiziya verilişlərinin ("Vətən", "Qurtuluş", "Vətəndaş", "Araz", "Yurd yeri" və s.) yaradıcısı və ssenari müəllifidir.

Nasirin "mifoloji-fantastik roman" kimi təqdim etdiyi "Əbədi sevginin xatirələri", "Yaddaş yarası", "Qanlı quzğun meydanı", "Mənim mövqeyim", "Sükutun sonu" (bu kitabda üç romanı, üç povesti, dörd kinopovesti, iyirmiyə yaxın hekayəsi əhatə olunmuşdur) kitabları çap edilmişdir.

Sadıq Elcanlı 1992-ci ildə "Azərbaycan Respublikasının Əməkdar jurnalisti" fəxri adına layiq görülmüşdür. Ona Naxçıvan Muxtar Respublikasının "Əməkdar incəsənət xadimi" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Qanlı quzğun meydanı: (mifoloji-fantastik roman) /S.Elcanlı; red. G.Kərəm qızı.- Bakı: Gənclik, 1994.- 280 s.
Elcanlı, S.Mənim mövqeyim: publisistika, ədəbi tənqid, esselər, müsahibələr, resenziyalar, sənət haqqında hekayələr, kinopovestlər /S.Elcanlı; Z.Şahsevənli.- Bakı: Gənclik, 1999.- 556 s.
Sükutun sonu: [romanlar, povestlər və hekayələr] /S.Elcanlı.- Bakı: Şirvannəşr, 2003.- 928 s.
Yaddaş yarası: [roman] /Sadıq Elcanlı; red. S.Məsiyev.- Bakı: Yazıçı, 1991.- 192 s.
"Poeziya": Aşkarlığın gizlinləri /S.Elcanlı //Ədəbiyyat qəzeti.- 2015.- 9 yanvar.- S.10.
Ədəbi həyat reallıqdan fantastikaya, fantastikadan reallığa (Sadıq Elcanlının romanları haqqında) //Ədalət.- 2014.- 11 oktyabr.- S.20.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org

90 illiyi

Mədinə Gülgün 1926-1991

Şairə

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Mədinə Gülgün; ön söz. müəl. Elçin.- Bakı: Şərq-Qərb, 2004.-224 s.

Mən bu ömrü yaşadım /Mədinə Gülgün.- Bakı: Nurlan, 2010.- 208 s.

Yora bilməz yollar məni /Mədinə Gülgün.- Təbriz, 1991.- 96 s.

Əhməd, V. Artıq demə laylay ki, yatan ellər oyanmış... Həbib Sahirin, Hökümə Billurinin, Mədinə Gülgünün şeirləri haqqında /V.Əhməd //Xalq cəbhəsi.- 2015.- 6 yanvar.- S.14.

Əliyev, F. Mədinə Gülgün yaradıcılığında Vətən /F.Əliyev //Kredo.- 2014.- 22 noyabr.- S.15.

İsmayıl. Mədinə Gülgünün Azərbaycan "davası" ... /İsmayıl //Şərq.- 2014.- 18 iyul.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

www.kitabxana.net

Mədinə Nurulla qızı Ələkbərzadə (Mədinə Gülgün) 1926-cı il yanvar ayının 17-də Bakıda anadan olmuşdur. Burada ibtidai təhsilini tamamlayaraq 1938-ci ildə ailəliklə Cənubi Azərbaycana – Ərdəbil şəhərinə köçmüşlər. Sonra Təbriz şəhərində yaşamış, əmək fəaliyyətinə burada toxuculuq karxanasında başlamışdır. Cənubi Azərbaycanda milli hökumət yarandığı dövrdə Təbriz dram teatrında çalışmış, gənc yaşlarından milli demokratik hərəkata qoşulmuşdur. "Azərbaycan" qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. 1946-cı ildə Təbriz qadınlar klubunun büro üzvü seçilmişdir. 1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) dil və ədəbiyyat fakültəsinə daxil olmuş, 1952-ci ildə həmin fakültəni bitirmişdir.

Bədii yaradıcılığa 1940-cı illərdən başlasa da, ilk şeirlərini 1945-ci ildə Təbrizdə "Vətən yolunda", "Azərbaycan" qəzetlərində və almanaxlarda çap etdirmişdir. "Vətən yolunda" qəzeti redaksiyasının nəzdindəki "Şairlər məclisi"nin (1945) və milli hökumət dövründə Təbrizdə yaranmış "Yazıçılar və şairlər cəmiyyəti"nin (1946) üzvü kimi fəaliyyət göstərmişdir.

"Təbrizin baharı" adlı ilk şeir kitabı 1950-ci ildə işıq üzü görmüşdür. Kitabda 1945-1949-cu illər ərzində yazdığı şeirlər toplanmışdır. Həyatının ilk illəri Azərbaycan xalqının azadlıq və milli istiqlaliyyət uğrunda apardığı mübarizə illərinə təsadüf etmiş və bu şeirlərində də öz əksini tapmışdır.

Şairənin Bakıda, Təbriz və Moskvada otuzdan artıq kitabı nəşr edilmişdir. Onlardan "Təbrizin baharı", "Savalan ətəklərində", "Çinar olaydı", "Omrün payız dayanacağı", "Firidun", "Seçilmiş əsərləri" və başqaları daha çox diqqəti cəlb edir. Təbrizdə ərəb qrafikası ilə "Yora bilməz yollar məni" və "Mən bu ömrü yaşadım", Kanadada isə "Təbrizim mənim" adlı kitabları işıq üzü görmüşdür. Bu kitabların başlıca mövzusu insan, azadlıq, Təbriz həsrəti, insanlara canı yanan bir ana qəlbinin arzu və istəkləridir. Müəllifin şeirlərində ayrılıq, vüsal həsrəti, vətən nisgili dərin, inandırıcı boyalarla ifadə olunmuşdur. Onun bir sıra lirik şeirlərinə mahnılar bəstələnmişdir.

Milli hökumət irtica qüvvələri tərəfindən dağıldıqdan sonra Mədinə Gülgün mühacirətdə yaşamalı olmuş, bədii yaradıcılıqla yanaşı, ictimai-siyasi fəaliyyətini də davam etdirmişdir. Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin üzvlüyünə namizəd, SSRİ-də yaşayan iranlı siyasi mühacirlər cəmiyyəti Azərbaycan şöbəsinin plenum üzvü, eləcə də Asiya və Afrika ölkələri həmrəyliyi Azərbaycan Respublika Komitəsinin üzvü seçilmişdir.

Əsərləri bir sıra xarici dillərə tərcümə olunmuşdur. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanları (1960, 1974, 1986), "Şərəf Nişanı" ordeni (1980), "21 Azər" (1946), "Əmək veteranı" (1948) və digər medallarla təltif olunmuşdur. 1987-ci ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Mədinə Gülgün 1991-ci il fevral ayının 17-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

210 illiyi İsmayıl bəy Qutqaşınlı 1806-1869

Yazıçı

Ə d ə b i y y a t

Əsərləri /H.İ.Qutqaşınlı; ön söz. müəl. C.Qəhrəmanov; tərt. ed. və elmi red. Ə.Tahirzadə.- Bakı: Lider, 2005.- 224 s.

Məmmədov, X. İsmayıl bəy Qutqaşınlının xatirə ev-muzeyi /Xalis Məmmədov; red. Anar İsabəyli.- Bakı: Şirvannəşr, 2004.- 44 s.

Azərbaycanın ən məşhur general yazıçısı /D.Əhməd //Kaspi.- 2012.- 1-3 sentyabr.- S.15.

İsmayıl bəy Qutqaşınlı xatirələrdə: Ürəkdən qələmə, qələmdən kağıza... //Mədəniyyət.- 2015.- 30 yanvar.- S.12.

Qəbələ səhnəsində "Rəşid bəy və Səadət xanım" //Mədəniyyət.- 2014.- 25 iyul.- S.7.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.anl.az

www.adam.az

www.kitabxana.net

İsmayıl bəy Nəsrulla Sultan oğlu Qutqaşınlı 1806-cı il (bəzi mənbələrdə 1809) yanvar ayının 27-də keçmiş Qutqaşın mahalında (indiki Qəbələ) anadan olmuşdur. Dini təhsil almış, ərəb, fars dillərini öyrənmiş, klassik Azərbaycan və Şərq ədəbiyyatı ilə yaxından tanış olmuşdur.

1822-ci ildə rus ordusunda xidmətə başlamış, Peterburqda 4 il kadet məktəbində oxumuşdur. 1822-ci ildə bu məktəbi bitirib, Əlahiddə Qafqaz Korpusu tərkibindəki Gürcüstan qrenadyor alayında sıravi əsgər kimi hərbi xidmətə başlamışdır.

Rusiya-İran (1826-1828) və Rusiya-Türkiyə (1827-1829) müharibələrində iştirak etmişdir. Müharibələr qurtardıqdan sonra o, hərbi xidmətini davam etdirmiş, vəzifəsi ilə əlaqədar bir müddət Varşavada yaşamışdır. Hərbi işi dərindən öyrənmiş, sıravi əsgərlikdən general-mayor rütbəsinə qədər yüksəlmişdir. Çar hökuməti zamanı hərbi qulluqda qüsursuz fəaliyyətinə görə 10-dan yuxarı ən yüksək və müxtəlif dərəcəli ordenlərə, böyük həcmdə pul mükafatlarına, qiymətli hədiyyələrə, fərqlənmə nişanlarına, qızıl və gümüş qılınclara layiq görülmüşdür.

Xidmət illərində bir sıra mütərəqqi rus ziyalıları ilə dostluq əlaqəsi yaratmış, rus və Qərbi Avropa mədəniyyətlərinin nailiyyətlərinə yiyələnmiş, dövrünün ən savadlı Azərbaycan ziyalılarından biri olmuşdur. Eyni zamanda o, Azərbaycanın böyük maarifçi alimləri - M.F.Axundzadə, Q.Zakir, A.Bakıxanov və başqaları ilə yaxından dostluq etmişdir.

1841-ci ildə istefaya çıxaraq Vətənə qayıtmış, Qutqaşın və Şamaxıda müəllimlik etmişdir. 1852-ci ildə həyat yoldaşı ilə Yaxın Şərq ölkələrinə səyahətə getmiş, 1854-cü ildə Türkiyə Anadolu ordusunun baş komandanlığı ilə əlaqə saxlamaqda günahlandırılaraq həyatının sonuna qədər nəzarət altında qalmışdır. Böyük ədib iki dəfə həcc ziyarətində olmuş, 1967-ci ildə çap olunmuş "Səfərnamə" adlı yol qeydlərini yazmışdır. Burada, təkcə şəxsi həyatı barədə deyil, Azərbaycan haqqında və Osmanlı imperiyasına daxil olan ərəb ölkələri haqqında orijinal məlumatlar istənilən qədərdir.

İsmayıl bəy Qutqaşınlı Azərbaycan ədəbiyyatına müasir nəsr, hekayə janrını gətirən yazıçıdır. Onun 1835-ci ildə Varşavada hərbi qulluqda olarkən fransız dilində buraxılan "Rəşid bəy və Səadət xanım" hekayəsi, bu dildə nəşr edilmiş ilk Azərbaycan bədii əsəridir.

Yazıçının "Tutu" adlı əsəri də olmuş, ancaq bu əsər günümüzə gəlib çatmamışdır. Uzun illər nasir kimi təhlil edilmiş İsmayıl bəy Qutqaşınlının "İki quşun söhbəti" adlı şeiri onun poetik dünyasından xəbər verir. Qutqaşınlının şeirlərini "Miskin" təxəllüsü ilə yazdığı məlumdur. Şeir 2004-cü ildə ilk dəfə "Azərbaycan" qəzetində çap edilərək oxucuların diqqətinə çatdırılmışdır.

İsmayıl bəy Qutqaşınlı 1869-cu ildə (bəzi mənbələrdə 1861) vəfat etmiş, Qəbələdəki Soltanbaba qəbiristanlığında dəfn edilmişdir. Qəbələ də və Bakıda adına küçə var. Qəbələdə ədibin heykəli ucaldılmış, ev-muzeyi yaradılmışdır.

140 illiyi

Cek London 1876-1916

Amerika yazıçısı

Con Qriffit Çeyni (Cek London) 1876-cı il yanvar ayının 12-də San-Fransisko şəhərində anadan olmuşdur. Yazıçının anası Flora Vellman musiqi müəllimi idi. Doğma atası U.Çeyni ondan imtina etmişdir. Cek London dünyaya gəldikdən sonra anası elə həmin il Con London adlı əlil və müharibə veteranı ilə ailə qurmuş, uşaq atalığının soyadını - Con London soyadını daşımağa başlamışdır.

14 yaşında konserv fabrikində işləmiş, lakin çox ağır olduğundan işi tərk etməli olmuş, qadağan edilməsinə baxmayaraq San-Fransisko limanında dəniz ilbizləri ovu ilə məşğul olmuşdur. 1893-cü ildə Yaponiya sahillərinə və Beringə dəniz pişiyi ovuna çıxan gəmiyə matros düzəlmişdir. İlk dəniz səfəri onda olduqca böyük təəssüratlar oyatmaqla gələcək yaradıcılığına böyük təsir göstərmişdir.

Cek London XX əsrin ilk onilliyində ən məhsuldar işləyən və ən çox nəşr edilən Amerika yazıçısı olmuşdur. O dünya ədəbi proseslərini diqqətlə izləmiş, ədəbiyyat sahəsində xidmətləri ilə ən böyük korifeylər cərgəsində dayanmışdır. Yaradıcılığa 1893-cü il noyabr ayının 12-də dərc edilən "Yaponiya sahillərində tayfun" adlı oçerki ilə gəlmiş və bu onun ədəbiyyat karyerasının başlanğıcı olmuşdur.

1896-cı ildə Berkeley Universitetinə daxil olmuş, 1897-ci ildə maddi problemlər səbəbindən universiteti tərk edərək, Alyaskaya qızıl axtarı-şına getmişdir. Bu səfəri 1898-ci ildə San-Fransiskoya qayıdan yazıçıya qızıl əvəzinə gələcək əsərlərinin qəhrəmanlarını bəxş etmişdir.

İlk Şimal hekayələri 1899-cu ildə dərc edilmiş, 1900-cü ildə isə onun ilk kitabı "Canavar oğlu" – hekayələr toplusu nəşr edilmişdir. Sonralar "Ataların tanrısı" (Çikaqo, 1901), "Şaxtanın övladları" (Nyu-York, 1902), "İnsana inam" (Nyu-York, 1904), "Ayüzlü" (Nyu-York, 1906), "İtirilmiş sima" (Nyu-York, 1910) hekayələrindən ibarət toplu, "Həyat eşqi", "Qarlar qızı" (1902), "Dəniz canavarı" (1904) "Martin İden" (1908/09-cu ildə) yazıçıya böyük şöhrət gətirmişdir. Əsərlərinin motivləri əsasında 50-dən artıq film çəkilmişdir.

Onun əsərlərini dilimizə ilk dəfə hələ XIX-XX əsrlərdə X.Əzizbəyli və A.Əliyev tərcümə etmiş, "İtirilmiş səma", "Ağ diş" və "Belyu qoxusu" kitabları ərəb əlifbası ilə çapdan çıxmışdır. XX əsrin altmışıncı illərindən onun yaradıcılığına maraq daha da artmışdır. Xüsusilə "Martin İden" avtobioqrafik romanı tərcümə ədəbiyyatımız tarixində ciddi hadisə sayıla bilər. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə yazıçının "Seçilmiş əsərləri" 2005-ci ildə nəşr edilmişdir.

Cek London 1916-cı il noyabr ayının 22-də Kaliforniyanın Qlen-Ellen şəhərciyində vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /C.London; ön söz. müəl. Z.Ağayev.- Bakı: Öndər, 2005.- 512 s.

Dəmir daban: [roman] /C.London; ruscadan tərc. Y.Əzimzadə.- [Bakı]: [Qanun] [Əli və Nino], 2014.- 299 s.

Oyun: [roman] /C.London; ruscadan tərc. R.Şıxəmirova.- [Bakı]: [Qanun], [2013].- 244 s.

Martin İden: [roman] /C.London; tərc. İ.İbrahimov.- Bakı: Qanun, 2013.- 462 s.

Mustafa, Ə. Dahinin müəmmalı ölümü /Ə.Mustafa //Zaman.- 2013.- 16 yanvar.- S.12.

Полное собрание романов: в двух томах: [романы] /Джек Лондон; пер. с англ.; [ред. Б.Акимов; коммент. А.Филиппова].- Москва: Престиж Бук, Армада-Арбалет, Литература, 2010.- Т.2.- 1230 с.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.anl.az

www.kitabxana.net

Dünya ədəbiyyatı

190 illiyi

Mixail Saltıkov-Şedrin
1826-1889

Rus yazıçısı

Ədəbiyyat

Seçilmiş əsərləri /M.Y.Saltıkov-Şedrin; rus dil. tərc. ed.: B.Musayev, İ.Vəliyev, E.Cabbarov; ön söz. müəl. İ.Vəliyev.- Bakı: Şərq-Qərb, 2006.- 240 s.

Hekayələr /M.Y.Saltıkov -Şedrin; [tərc. ed. B.Musayev].- Bakı: Gənclik, 1973.- 134 s.

Nağıllar və hekayələr /M.Y.Saltıkov-Şedrin; [red. R.Salamova].- Bakı: Gənclik, 1988.- 195 s.

Господа Головлевы: [сказки]/М.Салтыков-Щедрин.- Москва: АСТ, Транзиткнига, АСТ Москва, 2006.- 412 с.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.elibrary.azlib.net

www.kitab.biz

Mixail Yevqrafoviç Saltıkov-Şedrin (əsl soyadı Saltıkov, təxəllüsü Nikolay Şedrin) 1826-cı il yanvar ayının 26-da (bəzi mənbələrdə 15-də) Tver quberniyasının Spas-Uqol kəndində anadan olmuşdur.

10 yaşında Moskva Dvoryan İnstitutuna daxil olmuş, 2 ildən sonra isə nümunəvi tələbə kimi Sarkoselski liseyə keçirilmişdir. Elə orada da yazıçılıq fəaliyyətinə başlamışdır. Balaca Mixail uşaqlıq illərindən mütaliəni çox sevmiş, Moskva Dvoryan İnstitutunda təhsil alarkən V.A.Jukovski, A.S.Qriboyedov, M.Y.Lermontov kimi sənətkarların yaradıcılığından bəhrələnmişdir.

Bir çox yaşıdları kimi yaradıcılığa şeirlə başlamış və ilk yaradıcılıq nümunələri ara-sıra "Библиотека для чтения", "Современник" jurnallarında dərc edilmişdir. Şedrinin yaradıcılığı təhkimçi mütləqiyyət üsuli-idarəsinə qarşı yönəldilmişdi ("Quberniya oçerkləri", 1856-1857, "Pompadurlar və pompadurşalar" və s.).

Onun satirik obrazları xalqın ictimai şüuruna daxil olmuşdur. "Bir şəhərin tarixi" (1869-1870) əsərində rəsmi tarixçiliyi təqlid edərək, şəhərin böyüklərinin gülməli satirik obrazlar qalereyasını yaratmışdır. Sosial-psixoloji "Cənab Qolovlyovlar" (1875-1880) romanında zadəganların mənəvi və fiziki iflasını təsvir etmişdir.

1858-1868-ci illərdə dövlət xidmətində çalışan Şedrin sonralar "Современник" jurnalının redaksiya heyətinə daxil olmuş, senzura təqiblərinə məruz qalmasına baxmayaraq, redaksiyadaxili çəkişmələrdə jurnalın redaktoru N.A.Nekrasovla birlikdə N.Q.Çernışevski və N.A.Dobrolyubov kimi inqilabçı demokratların siyasi baxışlarını müdafiə etmişdir.

Şedrin 1857-1863-cü illərdə yazdığı "Nəsrlə satira", "Günahsız nağıllar" kimi silsilə hekayə və məqalələrində Rusiyada çürüməkdə olan rejimi ilkin göstərənlərdən idi. "Zamanın xüsusiyyətləri", "Əyalət haqqında məktublar" satirik oçerklər silsi-ləsində Şedrin Rusiyanın mütərəqqi fikirli adamlarını xalqın siyasi tərbiyəsi ilə məşğul olmağa səsləyirdi.

"Современник" jurnalı bağlandıqdan sonra N.A.Nekrasov kimi o da "Отечественные записки" jurnalına keçərək, taleyini axıra kimi bu jurnala bağlamış, jurnalın redaktoru olmuşdur.

Bədii yaradıcılığının zirvəsi olan "Bir şəhərin tarixi" (1869-1870), "Nəcib nitqlər" (1872-1876), "Müasir idilliya" (1877-1881), "Xalacığaza məktublar" (1881-1882) əsərlərində mütləqiyyət və təhkimçilik quruluşu kəskin satira atəşinə tutulmuş, o dövr rus cəmiyyətinin sosial ziddiyyətləri, kapitalist münasibətlərinin yaranması göstərilmişdir. Saltıkov ömrünün son illərində "Nağıllar" (1882-1886), "Həyatın təfərrüatı" (1886-1887) və s. kimi bədii sənət inciləri yaratmışdır. Onun bədii və publisistik əsərləri rus ədəbiyyatında tənqidi realizmi daha da inkişaf etdirmişdir.

Dahi rus yazıçısı Mixail Saltıkov-Şedrin 1889-cu il may ayının 10-da Sankt-Peterburq şəhərində vəfat etmişdir.

70 illiyi
Tahir Əkbər
1946

Bəstəkar

Tahir İsmayıl oğlu Əkbərov (Tahir Əkbər) 1946-cı il yanvar ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1960-cı ildə F.Dzerjinski adına musiqi məktəbinin fortepiano şöbəsinə daxil olmuş, 1965-ci ildə oranı bitirmişdir.

Həmin ildə indiki Həmzə Həkimzadə Niyazi adına Daşkənd Musiqi Kollecinin musiqi nəzəriyyəsi şöbəsinə daxil olmuş, 1969-cu ildə təhsilini musiqişünas kimi başa vurmuşdur.

1970-ci ildə Muxtar Əşrəfi adına Daşkənd Dövlət Konservatoriyasının bəstəkarlıq şöbəsinə daxil olmuş, burada tanınmış bəstəkar, professor Boris Zeydmanın sonuncu azərbaycanlı tələbəsi olmuşdur.

1985-ci ildən Azərbaycan Bəstəkarlıq İttifaqının üzvüdür. Tahir Əkbər müxtəlif janrlarda - xor musiqisi, simfonik və kamera əsərləri yaratmışdır. "Simfonik rənglər", ilahiyyat mövzusunda yazdığı "Amin" əsəri Azərbaycan professional musiqisində yeni janrlar hesab olunur.

Bəstəkarın bəstələdiyi onlarca mahnı, o cümlədən "Dərdin alım", "Heç küsməyin yeridirmi?", "Azərbaycan", "Əzizim", "Heyfim gəldi", "Qalardım", "Bir qız bir oğlanındır", "Xəzəllərin rəqsi" və başqa mahnılar görkəmli ifaçılarımız Şövkət Ələkbərova, Mirzə Babayev, Zeynəb Xanlarova və digər müğənnilər tərəfindən uğurla ifa olunmuşdur.

Onun mahnıları nəinki Azərbaycan, hətta qardaş Türkiyə müğənnilərinin də ifalarında sevilə-sevilə səslənmişdir. Nəşə Karaböcək bəstəkarın "Heç küsməyin yeridirmi?" mahnısını repertuarına daxil etmiş, müntəzəm olaraq ifa etmişdir. Tahir müəllimin "Amin" mahnısı müğənni Brilliant Dadaşovanın ifasında Norveçdə Nobel mükafatının 100 illiyi ilə əlaqədar olaraq diskə salınmış və dünya xalqlarını sülhə çağıran bu disk Avropada geniş yayılmışdır.

Şanxayda keçirilən VIII Beynəlxalq Asiya müsabiqəsində Tahir Əkbərin "El oğlu, hay ver..." əsəri 26 ölkədən finala çıxan qaliblərdən biri olmuşdur. Bu mahnı dünya azərbaycanlılarına ünvanlanan və onları həmrəyliyə çağıran əzəmətli bir əsərdir. Bunun davamı kimi Dünya Azərbaycanlılarının II qurultayı ərəfəsində ulu öndər Heydər Əliyevin xatirəsinə həsr etdiyi "Həmrəylik" himni xor və simfonik orkestrin ifasında səslənmişdir.

Bəstəkarın yaradıcılığı dövlət tərəfindən qiymətləndirilmiş, 2006-cı il noyabr ayının 9-da filarmoniyada Bəstəkarlar Birliyinin təqdimatı və Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin sərəncamı ilə Tahir Əkbərin 60 illik yubileyi təntənəli surətdə qeyd edilmişdir. 2012-ci il 18 sentyabr tarixində Milli Musiqi Günü ilə əlaqədar olaraq dövlət başçısının Sərəncamı ilə Tahir Əkbər "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

"Ya Rəbb" (İlahiyyat duaları, təsəvvüf musiqisi) [Notlar]: solistlər, xor, bədii qiraət və simfonik orkestr üçün poema /T.Əkbər; söz. C.Novruz.- Bakı, 2006.- 31 s.

У мавзолея [Ноты]: поэма-кантата для смешанного хора a capella и колоколов /Акперов Таир; слова А.Суркова.- Баку, 1983.- 22 с.

Sarıyeva, İ. Klassik musiqimiz dünyada çox tanınan azərbaycançılıq brendinə çevrilib: Tahir Əkbər: "Azərbaycan Şərq və Qərb musiqisinin qovuşduğu bir məmləkətdir" /İ.Sarıyeva //Bakı xəbər.- 2011.- 14 mart.- S.14.

İnternetdə

www.anl.az
www.president.az

70 illiyi

Rafael Dadaşov 1946

Aktyor

Rafael Məlik oğlu Dadaşov 1946-cı il yanvar ayının 4-də Naxçıvanda anadan olmuşdur. Naxçıvandakı Aleksandr Puşkin adına 3 saylı rus orta məktəbini bitirmişdir.

1966-1972-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsində təhsil almışdır. 1967-1974-cü illər ərzində Bakı Dövlət Sirkində işıqçı, Dəbli Geyimlər Evində maniken, Naxçıvan MR Mahnı və Rəqs Ansamblında aparıcı konfransye, SSRİ Ümumittifaq Dövlət Sirkində rejissor-inspektor işləmişdir. 1974-cü il oktyabr ayının 10-dan 1976-cı il iyul ayının 1-dək Naxçıvan MR-nın Xalq Yaradıcılığı Evində təlimatçı, eyni zamanda oranın Televiziya və Radio Komitəsində diktor olmuşdur.

1976-cı ildən Akademik Milli Dram Teatrının aktyor truppasının üzvüdür. İlk dəfə Tofiq Kazımovun quruluş verdiyi Maqsud İbrahimbəyovun "Ümid" ("Mezazoy əhvalatı") psixoloji dramının tamaşasında Zaur rolunu oynamışdır. Əsərin ilk tamaşası 27 noyabr 1976-cı ildə göstərilmişdir. Rafael Dadaşov bu möhtəşəm sənət ocağının səhnəsində Don Juan ("Bəşərin komediyası, yaxud Don Juan" M.İbrahimov), Klavdi ("Hamlet" U.Şekspir), Bəhram ("Fitnə" A.Şaiq), Rövşən ("Əliqulu evlənir" S.Rəhman), müstəntiq ("İstintaq" R.İbrahimbəyov), Knyaz Xasay ("Xurşidbanu Natəvan" İ.Əfəndiyev), Qədim ("Büllur sarayda" İ.Əfəndiyev), Fikrət və Rəşad ("Kimdir haqlı?" B.Vahabzadə), Mirzə Fətəli ("Mirzə Şəfi" N.Xəzri), Vasif ("İblis" H.Cavid), Qiyas ("Şəhərin yay günləri" Anar), Camal ("Nişanlı qız" S.Rəhman), Həsən Soltan ("Şeyx Xiyabani" İ.Əfəndiyev), Mayis ("Sevgililərin cəhənnəmdə vüsalı" İ.Əfəndiyev), Ədhəm Tağıyev ("Dəlilər və ağıllılar" İ.Əfəndiyev), Tesey ("Fedra" J.Rasin), Şeyx Nəsrullah ("Ölülər" C.Məmmədquluzadə) və s. maraqlı obrazlar yaratmışdır.

Azərbaycan Dövlət Televiziyasında hazırlanmış çoxlu teletamaşaların iştirakçısı olmuşdur. Onlardan: Anarın "Ötən ilin son gecəsi" (Rüstəm), K.Haldoninin "Mehmanxana sahibəsi" (Sinyor Kavaler), A.Qəhrəmanovun "Səni axtarıram" və "Bağışla" (Vasif müəllim), H.Cavidin "Topal Teymur" (Orxan), Ü.Hacıbəylinin felyetonları əsasında "Ordan-burdan" (Həmid), İ.Əfəndiyevin "Mənim günahım" (Sahib), "Sarıköynəklə Valehin nağılı" (Müstəntiq), İ.Səfərlinin "Göz həkimi" (Rauf), A.Laurinçyukasın "Qapalı orbit" (Kostas), Arturo Rafin "İblis qadın" (Şef) pyeslərinin, U.Şekspirin sonetləri əsasında kompozisiyanın (Sevgili qəhrəman) və b. teletamaşalarında oynadığı obrazlar yaddaqalan və uğurludur. Aktyor "Var olun, qızlar", "Yarımçıq qalmış serenada", "Yay vaxtı xəzan yarpaqları", "Bəxt üzüyü", "Mənim ağ şəhərim", "Xüsusi vəziyyət" bədii, "Qaçaq Süleyman" televiziya filmlərinə çəkilmişdir.

Rafael Dadaşov aktyorluq sənətində qazandığı nailiyyətlərə görə 20 mart 1987-ci ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 15 may 2006-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat

Rəhimli, İ. Rafael Dadaşov //Rəhimli İ.S. Üç əsrin yüz otuz ili (Akademik Milli Dram Teatrı bu gün).- Bakı, 2003.- S.102-104.

Səlimqızı, C. Sənətkarlar dilə gəldi: Rafael Dadaşov: "Yaradıcılıq düşərgələrinin keçirilməsi Azərbaycanda da ənənəyə çevrilməlidir" /C.Səlimqızı //Mərkəz.- 2012.- 22 noyabr.- S.14.

İnternetdə

www.anl.az

adam.az

www.az.wikipedia.org

75 illiyi

Eldar Quliyev 1941

Kinorejissor

Eldar Tofiq oğlu Quliyev 1941-ci il yanvar ayının 18-də Bakıda anadan olmuşdur.

1960-1966-cı illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun rejissorluq fakültəsində Sergey Gerasimovdan sənətkar dərsi almışdır. 1967-ci ildən "Azərbaycanfilm" kinostudiyasında çalışan rejissor kifayət qədər tanınmış bədii, sənədli film və ssenarilərin müəllifidir.

İlk ekran əsəri 1967-ci ildə "Azərbaycanfilm" kinostudiyasında lentə alınan "Biri vardı, biri yoxdu..." adlı ilk qısametrajlı film olmuşdur.

1969-cu ildə ilk böyük ekran əsəri olan "Bir cənub şəhərində" filmi ilə özünü təsdiqləmiş və bu filmlə Azərbaycan kinosunda yeni bir mərhələnin təməli qoyulmuşdur. Bu film dünya ekranlarına çıxandan bir müddət sonra üç Azərbaycan filmi ilə birgə YUNESKO-nun kinoşedevri adlandırılmışdır.

Kinorejissorun 1979-cu ildə çəkdiyi "Babək" filmi istər professionallığına, istər kütləviliyinə, eləcə də batal səhnələrinin miqyasına görə heç də xaricdə istehsal olunan məşhur və bəyənilmiş kinolardan geri qalmır. Mühüm faktlardan biri də budur ki, film həmin illərdə 60-a yaxın ölkə tərəfindən satın alınmışdır.

E.Quliyevin yaradıcılığında mənəvi-əxlaqi məsələlərin, müasirlərimizin xarakterlərinin psixoloji tədqiqi əsas yer tutur. Ölkəmizdə tarixi filmlərin yaradıcısı kimi də tanınmış kinorejissorun "Səmt küləyi" (1974), "Sevinc buxtası" (1977), "Babək" (1979), "Nizami" (1982) və "Təxribat" (1989) filmləri ekranlarımızda bu gün də uğurla nümayiş etdirilir.

Kinorejissor E.Quliyev bədii filmlərə quruluş verməklə yanaşı faşizm üzərində böyük qələbənin 60 illiyinə həsr edilmiş xüsusi layihə üzrə Bakının və bakılıların bu qələbəyə verdiyi töhfələrdən bəhs edən "Unudulmuş qəhrəman" adlı publisistik filmi, "Abşeron ritmləri" filmkonsertini (1970), "Səməd Vurğun" (Y.Əfəndiyevlə birlikdə), "Dostuma məktub" (H.Mehdiyevlə birgə) sənədli filmləri, 2006-cı ildə ümummilli lider Heydər Əliyevin dövlət başçısı olduğu vaxtlarda gənclərə qarşı olan yüksək diqqətindən bəhs edilən "Heydər Əliyev. Dünyaya pəncərə" filmi çəkilmişdir. Onun ssenariləri əsasında "Bizim Nəsibə xanım" və "Özüm və zaman haqqında" (T.İsmayılovla birgə), "Şəhidlik zirvəsi" (X.Muradov və O.Mirqasımovla birgə) sənədli filmləri lentə alınmışdır.

Tanınmış kinorejissor "İstanbul reysi" və bir çox filmin həm də ssenari müəllifi olmuşdur. Çəkdiyi filmlərin bir neçəsi kinofestivallarda mükafatlara layiq görülmüşdür.

"Debüt" studiyasının bədii rəhbəri, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində Kino kafedrasının professorudur. Eldar Quliyev Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Dövlət mükafatı laureatı olmuş, 1982-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüşdür. Qırmızı Əmək Bayrağı Ordeni, 2011-ci ildə "Şöhrət" və "Şərəf" ordenləri ilə təltif edilmişdir.

Ədəbiyyat

E.T.Quliyevin "Şərəf" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 13 yanvar 2011-ci il //Azərbaycan.- 2011.- 15 yanvar.- S.4.

Kazımzadə, A. Eldar Quliyev /A.Kazımzadə //Azərbaycan kinematoqrafçıları: portretlər.- Bakı, 2002.- Bur.1.- S.190-200.

Nərimanoğlu, M. Bir ömrün kino salnaməsi /Məhəmməd Nərimanoğlu //Azərbaycan.- 2011.- 1 may.- S.7.

İnternetdə

www.az.wikipedia.org
www.anl.az
www.azerbaijanfilm.az
www.kino-teatr.ru

45 illiyi

Elgiz Kərimov 1971-1992

Milli Qəhrəman

Elgiz Kərim oğlu Kərimov 1971-ci il yanvar ayının 5-də Bərdə rayonunda anadan olmuşdur. 1987-ci ildə orta təhsilini başa vurmuş, həmin il də hərbi xidmətə çağırılmışdır. Əsgəri borcunu yerinə yetirdikdən sonra doğma yurduna qayıtmışdır.

Elgiz erməni işğalçılarının vətənimizə hücumu ilə barışa bilməmiş və 1991-ci ildə könüllü özünümüdafiə batalyonlarından birinə yazılmışdır. Əsgəran yaxınlığında gedən şiddətli döyüşlər zamanı xüsusi fəallıq göstərmişdir. 1992-ci il 12 mart tarixində o mühasirəyə düşmüş, döyüşçü dostlarını xilas etmək üçün Naxçıvanik kəndinə gəlmiş, bir saata yaxın davam edən döyüş zamanı ermənilərin mühasirəsi yarılmış, döyüşçülər azad edilmişdi. Bu döyüşdə Elgiz Kərimov ağır yaralanmış və 21 yaşında vətən uğrunda qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Kərimov Elgiz Kərim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Bərdə rayonunda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Elgiz Kərim oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.25.- (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Elgiz Kərim oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.149.

Kərimov Elgiz Kərim oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.113.

Seyidzadə, M. Kərimov Elgiz Kərim oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.114.

Zeynalov, R. Kərimov Elgiz Kərim oğlu (1971-1992) //Zeynalov R. Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 1996.- S.53.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

40 illiyi

Şamil Ramazanov 1976-1995

Milli Qəhrəman

Şamil Ağasəf oğlu Ramazanov 1976-cı il yanvar ayının 19-da Ağsu rayonunun Rəhimli kəndində anadan olmuşdur. 1983-1993-cü illərdə burada orta məktəbdə təhsil almışdır. 19 mart 1994-cü ildə Ağsu rayonunda hərbi xidmətə çağırılmışdır. Gəncə şəhərindəki "N" saylı hərbi hissədə təlim keçən Şamil komandirlərin verdiyi tapşırıqları layiqincə yerinə yetirmiş, tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənmişdi.

1995-ci il məlum 13-17 mart hadisələri zamanı silahlı dəstənin zərərsizləşdirilməsi zamanı cəsur əsgər qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Ramazanov Şamil Ağasəf oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Milli Qəhrəman Ağsu rayonunun Rəhimli kəndində dəfn edilmişdir. Ağsu rayonunun mərkəzi kinoteatrı qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Ramazanov Şamil Ağasəf oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

Əsgərov, V. Ramazanov Şamil Ağasəf oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.239.

Ramazanov Şamil Ağasəf oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.173.

Seyidzadə, M. Ramazanov Şamil Ağasəf oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.185.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

Milli Qəhrəmanlar

40 illiyi

Yalçın Nəsirov
1976-1995

Milli Qəhrəman

Yalçın Canhəsən oğlu Nəsirov 1976-cı il yanvar ayının 23-də Astara rayonunun Sərək kəndində anadan olmuşdur.

1982-1992-ci illərdə Sərək kənd orta məktəbində təhsil almışdır. 1994-cü il aprel ayının 19-da Milli Orduya çağırılmışdır. İki ay daxili qoşunların tərkibində təlim keçərək, hərbi xidmətini Tərtər və Şamaxı rayonlarında davam etdirmişdir. O, Vətənimizi azad və bütöv, güclü görmək arzusu ilə yaşayırdı.

1995-ci il mart ayının 13-dən 17-nə kimi dövlət çevirilişinə cəhdin qarşısının alınmasında iştirak etmişdir. Martın 17-dən 18-nə keçən gecə dəstənin zərərsizləşdirilməsi zamanı Yalçın ağır yaralanmış, xeyli qan itirdiyindən həyatını xilas etmək mümkün olmamışdı. Yalçın Nəsirov mart ayının 24-də aldığı yaradan Sabunçu rayon xəstəxanasında vəfat etmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Nəsirov Yalçın Canhəsən oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Astara rayonu Sərək kənd orta məktəbi qəhrəmanın adını daşıyır. Rayondakı "Qəhrəmanlar" parkında büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəsirov Yalçın Canhəsən oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra).

İsgəndərova, R. Astaranın ilk Milli Qəhrəmanı /R.İsgəndərova.- Bakı: Mütərcim, 2006.- 60 s.

Əsgərov, V. Nəsirov Yalçın Canhəsən oğlu //Əsgərov V. Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.228.

Nəsirov Yalçın Canhəsən oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.-S.166.

Seyidzadə, M. Nəsirov Yalçın Canhəsən oğlu //Seyidzadə M. Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.174.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

310 illiyi Bencamin Franklin 1706-1790

Dövlət xadimi

Bencamin Franklin 1706-cı il yanvar ayının 17-də Bostonda anadan olmuşdur. 17 uşaqlı ailənin 15-ci övladı olmuşdur.

Müstəqil təhsil almışdır. Maddi sıxıntı üzündən məktəbə yalnız 2 il gedə bilmiş, 12 yaşından qardaşının mətbəəsində çalışmağa başlamışdır. 1727-ci ildə Filadelfiyada şəxsi mətbəəsini yaratmışdır. 1731-ci ildə Amerikada ilk dəfə olaraq pulsuz kütləvi kitabxana yaratmışdır. Həmin dövr üçün bu görünməmiş addım idi.

1743-cü ildə Amerika Fəlsəfə Cəmiyyətinin və Filadelfiya Akademiyasının yaradıcısı olmuşdur.

1737-1753 illərdə Pensilvaniyanın, 1753-1774-cü illərdə isə bütün Şimali Amerika koloniyalarının poçtmeysteri vəzifəsini icra etmişdir.

1776-cı ildə İngiltərəyə qarşı ittifaq yaratmaqdan ötrü Fransaya səfir göndərilmişdir. Xüsusi diplomatik bacarığı nəticəsində fransız-amerikan danışıqları uğurla başa çatmışdır.

1783-cü ildə Versal danışıqlarında Böyük Britaniyanın Amerikanı suveren və müstəqil olduğunu rəsmən tanıması da onun əməyinin nəticəsidir.

1785-ci ildə vətəninə qayıdanda qanunverici yığıncağın prezidenti seçilmişdir.

Bir çox ölkələrin, o cümlədən Rusiya Elmlər Akademiyasının üzvü (1789-cu ildə, Rusiyanın ilk amerikalı üzvü) seçilmişdir.

Bencamin Franklin Amerika Konstitusiyasının müəlliflərindən biri olmuşdur.

Elmdə elektrik və optika sahəsindəki tədqiqatları ilə tanınır. O, Pensilvaniyada ilk yanğınsöndürmə idarəsinin yaradıcısıdır.

ABŞ-ın baniləri arasında yeganə şəxsdir ki, Amerika Birləşmiş Ştatlarının yaranmasında əsas rol oynayan hər üç sənədə imza atmışdır. Bunlar ABŞ İstiqlal Bəyannaməsi, ABŞ Konstitusiyası və 13 Britaniya koloniyasının müstəqillik uğrunda apardığı müharibəni bitirən 1783-cü il Versal sülh müqaviləsidir.

1928-ci ildən Franklinin portreti ABŞ-ın 100 dollarlıq pul əskinaslarının, müxtəlif illərdə poçt markalarının üzərin-də təsvir olunur. Bir çox şəhərlərdə büstü, abidəsi qoyulmuşdur.

O, yalnız dövlət qulluqçusu və qurucusu kimi deyil, həm də alim kimi o dövrün ən məşhur simalarından idi. Belə ki, müasir dövrdə ən çox müzakirə edilən insan hüquqları ilə bağlı elmi yanaşmanın banilərindən biri olmuşdur. Franklin yaşamaq hüququ, azadlıq hüququ və mülkiyyət hüququnu insanın təbii ayrılmaz hüquqlarından sayırdı. Onun elmi pamfletləri və məqalələri əsasında günümüzdə ən inkişaf etmiş dövlətlər insan hüquqları sahəsində öz daxili strategiyalarını müəyyən edirlər.

Bencamin Franklin 1790-cı il aprel ayının 17-də Filadelfiyada vəfat etmişdir.

Ədəbiyyat

Dombrovski, V. Franklinin həyatı: bioqrafik povest /V.Dombrovski, A.Şmulyan; tərc. ed. Z.Balıyev.- Bakı: Gənclik, 1979.- 156 s.

Время - деньги! /Б.Франклин.- Москва: АСТ, [2015].- 317 с.

Айзексон, У. Бенджамин Франклин. Биография /Уолтер Айзексон; пер.: В.Кузин, Д.Айше.- Москва: «Манн, Иванов и Фербер», 2013.- 480 с.

Иванов, Н. Отцы-основатели. Рождение США /Н.Иванов, П.Черкасов, А.Исеров.- Москва: АСТ-Пресс, [2013].- 126 с.

İnternetdə

www.anl.az

www.americansights.ru

www.az.wikipedia.org

110 illiyi

Əbdülkərim Əlizadə 1906-1979

Akademik

Ə d ə b i y y a t

Akademik Əbdülkərim Əlizadə: Azərbaycan şərqşünaslıq elminin banisi: sənədlər, məktublar, xatirələr /tərt. Z.Əlizadə; red. Y.Mahmudov.- Bakı: Təhsil, 2005.- 196 s.

Əlizadə Əbdülkərim Əli oğlu //Azərbaycan Sovet Ensiklopediyası.-Bakı, 1980.- C.IV.- S.170.

Социально-экономическая и политическая история Азербайджана: XIII-XIV вв.: [монография] /Абдул-Керим Али-заде (предисл.); ред. И.Петрушевский; отв. за вып. З.Али-заде; Ин-т Стратегических Исследований Кавказа (ISSC).- Баку: Кавказ, 2012.-460 с.

К вопросу об освещении ширванско-грузинских отношений в XI-XII веках /А.Али-заде //Изв. АН Азерб. ССР. Сер. истории, философии и права.- 1977.- №4.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.istoriya.az

Əbdülkərim Əli oğlu Əlizadə 1906-cı il yanvar ayının 11-də Bakı yaxınlığındakı Bilgəh kəndində anadan olmuşdur.

1927-ci ildə Leninqrad Şərq İnstitutuna qəbul olmuş, 1930-cu ildə həmin institutu bitirmişdir.

1935-1941-ci illərdə SSRİ EA-nın Şərqşünaslıq İnstitutunda, eyni zamanda Leninqrad Şərq İnstitutunda və Leninqrad Dövlət Universitetində çalışmışdır. 1935-ci ildə namizədlik dissertasiyası müdafiə etmişdir. 1941-ci ildən ömrünün sonunadək Azərbaycan EA sistemində işləmiş, 1944-1950-ci illərdə Tarix İnstitutunun direktoru olmuşdur.

Ə.Əlizadə 1954-cü ildə tarix elmləri doktoru elmi dərəcəsi almış, 1955-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir. 1950-1957-ci illərdə qədim və orta əsrlər tarixi şöbəsinin, sonra şərqşünaslıq şöbəsinin müdiri, ictimai elmlər üzrə akademik katib olmuşdur.

1958-1963-cü illərdə akademiyanın Şərqşünaslıq İnstitutunun ilk direktoru olmuşdur. 1963-cü ildən ömrünün sonuna kimi Şərqşünaslıq İnstitutunun Mətnşünaslıq və məxəzləri çapa hazırlama şöbəsinə rəhbərlik etmişdir.

Akademik Ə.Əlizadə görkəmli şərqşünas İ.P.Petruşevski ilə birlikdə Azərbaycanın orta əsrlər tarixşünaslığının əsasını qoymuşdur. Azərbaycanın və qonşu Yaxın Şərq ölkələrinin Səlcuqilər və monqollar dövrü tarixinin tədqiqatçısıdır. Alimin 1956-cı ildə nəşr olunmuş "XIII–XIV əsrlərdə Azərbaycanın sosial-iqtisadi və siyasi tarixi" adlı sanballı monoqrafiyası (rus dilində) və 60-dan artıq elmi məqaləsi Azərbaycanın və eləcə də qonşu Şərq ölkələrinin orta əsrlər tarixinin öyrənilməsi sahəsində xüsusi əhəmiyyət kəsb edir. Onun rəhbərliyi ilə onlarla elmlər doktoru və elmlər namizədi yetişmişdir. Nizami Gəncəvinin "İsgəndərnamə" əsərinin "Şərəfnamə" hissəsinin elmi-tənqidi mətnlərini hazırladığı üçün 1948-ci ildə ona SSRİ Dövlət mükafatı verilmişdir. Nizami Gəncəvinin "Sirlər xəzinəsi"ni, Rəşidəddinin "Cami Ət-Təvarix", Məhəmməd ibn Hinduşah Naxçıvaninin "Dəstur Əl katib fi təyin əl məratib", A.A.Bakıxanovun "Gülüstani İrəm" və bir sıra başqa əsərlərin elmi-tənqidi mətnlərini hazırlamışdır.

Şərqşünasların Münhen (1957), Moskva (1960), Tehran (1966, 1969), Ankara (1961, 1970), Varşava (1955), Təbriz (1969) konqreslərinin və digər elmi məclislərinin iştirakçısı olmuş, Azərbaycanın tarix elminin yeniliklərini, nailiyyətlərini dünya alimlərinə çatdırmışdır. Ə.Əlizadənin 60-a qədər elmi əsəri nəşr olunmuşdur. Əsərləri ingilis, alman, ərəb, türk, fars və bir sıra başqa dillərə tərcümə olunmuşdur.

Akademik 1960-cı ildə "Əməkdar elm xadimi" fəxri adına, 1978-ci ildə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüş, "Qırmızı Əmək bayrağı", "Qafqazın müdafiəsi", "Böyük Vətən müharibəsində şərəfli əməyə görə", "Şərəf nişanı" orden və medalları ilə təltif olunmuşdur.

Əbdülkərim Əlizadə 1979-cu il dekabr ayının 3-də Bakıda vəfat etmişdir. Paytaxtın mərkəzi küçələrindən biri akademikin adını daşıyır.

65 illiyi İsmayıl Hacıyev 1951

Akademik

İsmayıl Muxtar oğlu Hacıyev 1951-ci il yanvar ayının 21-də Naxçıvan MR Culfa rayonunun Xanəgah kəndində anadan olmuşdur.

1968-ci ildə Göydərə kənd orta məktəbini bitirmişdir. 1970-1974-cü illərdə APİ-nin (indiki ADPU) tələbəsi olmuşdur.

1974-1977-ci illərdə Culfa rayonunun Xoşkeşin kənd məktəbində müəllim kimi fəaliyyət göstərmişdir. 1978-2003-cü illərdə Naxçıvan Dövlət Pedaqoji İnstitutunda (indiki NDU) müəllim işləmişdir. 1992-ci ildə namizədlik 1999-cu ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. 1983-1984-cü illərdə NDU-da ictimai-peşələr fakültəsinin dekanı, 1984-1985-ci illərdə tarix-filologiya fakültəsinin dekan müavini, 1994-1996-cı illərdə Naxçıvan Özəl Universitetində, 1996-1997-ci illərdə NDU-da elmi işlər üzrə prorektor, 1997-2003-cü illərdə tədris işləri üzrə prorektor vəzifələrində çalışmışdır. 2000-ci ildən NDU-nun professorudur. 2003-cü ilin yanvarında AMEA Naxçıvan bölməsinin sədri, 2007-ci ilin aprelində isə AMEA Rəyasət Heyətinin üzvü seçilmişdir. 2003-cü ildən AMEA-nın akademiki, 2002-ci ildən Nyu-York EA-nın həqiqi üzvüdür.

30-a yaxın monoqrafiya, kitab, kitabça, dərs və tədris vəsaitlərinin, 200-dən artıq elmi məqalənin müəllifidir. Elmi əsərlərindən 34-ü xaricdə çap olunmuşdur. "Heydər Əliyev və milli-tarixi yaddaşın bərpası", "Mustafa Kamal Atatürk və Naxçıvan", "Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsi", "İntibahın 15 ili", "Azərbaycan Xalq Cümhuriyyəti və Naxçıvan" və s. əsərləri elmi sahədə ciddi qəbul edilir. Onun rəhbərliyi ilə ikicildlik "Naxçıvan ensiklopediyası" (2005), "Naxçıvan abidələri" ensiklopediyası (2008), Naxçıvan tarixi atlası (2010) nəşr edilmişdir.

Beynəlxalq səviyyəli sammit, simpozium və elmi konfranslarda iştirak və məruzələrlə çıxış etmişdir.

Akademik AMEA Naxçıvan Bölməsinin "Xəbərlər" jurnalının baş redaktoru, İxtisaslaşdırılmış Dissertasiya Şurasının sədri, Respublika ET-nin Təşkili və Əlaqələndirmə Şurasının, AMEA-nın "Məruzələr"i, "Xəbərlər"i (Tarix, fəlsəfə və hüquq seriyası), "Dialoq Avrasiya" (Türkiyə), "Tarix və onun problemləri" və başqa jurnalların redaksiya heyətinin, Azərbaycan Milli Ensiklopediyasının Redaksiya Heyətinin üzvüdür.

2000-ci ildə II çağırış Naxçıvan MR Ali Məclisinin, 2005-ci ildə III çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilmişdir.

Onun rəhbərliyi ilə 2 doktorluq, 11 namizədlik dissertasiyası müdafiə edilmişdir. 35-dən artıq monoqrafiya və kitabın elmi redaktorudur.

İ.Hacıyev 2001-ci ildə ABŞ-ın Bioqrafiya İnstitutunun "İlin adamı" tituluna, 2010-cu ildə isə "Qızıl medal"ına layiq görülmüşdür. 2008-ci ildə Y.Məmmədəliyev mükafatı, 2009-cu ildə Türkiyə Cümhuriyyəti Avrasiya Kültür və Sənət Qurumunun, Hüseyn Qazi Kültür və Sənət Vəqfinin mükafatları ilə təltif edilmişdir.

2009-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Ermənilərin Azərbaycana qarşı ərazi iddiaları və qanlı cinayətləri: [monoqrafiya] /İ.Hacıyev; red. H.Səfərli.- Naxçıvan: [Əcəmi], 2012.- 191 s.

Heydər Əliyev siyasəti: tarixdə və günümüzdə: [monoqrafiya] /İ.Hacıyev; red. Ə.Qasımov.-Naxçıvan: [Əcəmi NP Birliyi], 2013.- 293 s.

Naxçıvan qədim Şərq sivilizasiyaları ilə sıx bağlı olan diyar: [3 cilddə] /İ.Hacıyev.- Naxçıvan: [Əcəmi], 2014.- 119 s.

Naxçıvan Muxtar Respublikasının ictimai-siyasi həyatı, sosial-iqtisadi və mədəni inkişafı: 1991-2011-ci illər /İ.Hacıyev; elmi red. E.Cəfərli.- Bakı: [Əcəmi], 2011.- 271 s.

Rüstəmov, F. Azərbaycan elminin layiqli nümayəndəsi: Akademik İsmayıl Hacıyev-60 /F.Rüstəmov //Azərbaycan müəllimi.- 2011.- 4 fevral.- S.11.

www.science.gov.az

www.meclis.gov.az

www.az.wikipedia.org

110 illiyi Sara Aşurbəyli 1906-2001

Tarixçi alim

Sara Balabəy qızı Aşurbəyli 1906-cı (digər sənədlərə görə 1905-ci) il yanvar ayının 27-də Bakıda, neft sənayeçisi Bala bəy Aşurbəyovun ailəsində dünyaya gəlmişdir. 1913-cü ildə "Müqəddəs Nina" Bakı qız tədris müəssisəsinin aşağı hazırlıq sinfinə qəbul olunmuş, 1917-1920-ci il inqilabi hadisələri təhsilini bitirməyə mane olmuşdur.

1925-ci ildə İstanbulda Müqəddəs Janna d-Ark adına kolleci bitirmişdir. 1925-30-cu illərdə ADU-nun şərqşünaslıq fakültəsinin tarix şöbəsində təhsil almışdır. Təhsil illərində BXMŞ məktəblərində müəllimlik etmiş, 1928-ci ildən 1931-ci ilədək Azərbaycan Dövlət Muzeyində, Azərbaycanı Öyrənən Cəmiyyətin tarix-etnoqrafiya şöbəsində elmi işlə məşğul olmuş, daha sonra Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunda elmi katib işləmişdir. 1933-1937-ci illərdə - əvvəlcə SSRİ EA Zaqafqaziya Filialı Azərbaycan Şöbəsinin tarix bölməsində, daha sonra SSRİ EA Azərbaycan Filialının Tarix İnstitutunda kiçik elmi işçi vəzifəsində çalışmışdır.

1937-ci ilin əvvəlində qısa müddət Leningrad Şərqşünaslıq İnstitunda işləmişdir. 1941-ci ildə API-nin xarici dillər fakültəsini bitirmişdir. Həmin il Ə.Əzimzadə adına Azərbaycan Rəssam-lıq Məktəbini də bitirmiş, Azərbaycan Dram Teatrında rəssam-dekorator işləmişdir. Ali təhsilini başa vurduqdan sonra Azərbaycan Dövlət Universitetində baş müəllim, Azərbaycan Pedaqoji İnstitutunda dekan vəzifəsində çalışmışdır.

Sonralar Azərbaycan Tarixi Muzeyində Orta əsrlər tarixi şöbəsinin müdiri, Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunda baş elmi işçi, Tarix İnstitutunda elmi katib, baş elmi işçi və aparıcı elmi işçi vəzifəsində işləmiş, 1993-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun aparıcı elmi işçisi vəzifəsində çalışmışdır.

1949-cu ildə Leninqrad Şərqşünaslıq İnstitutunda dissertasiya müdafiə edərək tarix elmləri namizədi, 1965-ci ildə Tbilisidə monografiya üzrə dissertasiya müdafiə etdikdən sonra tarix elmləri doktoru elmi dərəcəsinə yiyələnmişdir.

S.Aşurbəyli Azərbaycan Rəssamlar İttifaqının üzvü idi. Dəfələrlə müxtəlif sərgilərdə iştirak etmişdir. Rus, ingilis, fransız, alman, ərəb, fars və türk dillərini bilirdi.

Bu böyük alimin fəaliyyəti ictimai xarakter daşımışdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev 90 illiyi münasibətilə alimə göndərdiyi məktubda onun elmi və ictimai fəaliyyətini belə səciyyələndirmişdir: "...Sizin tarixi həqiqətlərə istinad edən fundamental elmi tədqiqatlarınız Azərbaycan elminə sədaqətlə xidmətin parlaq nümunəsidir".

Azərbaycan tarixşünaslığındakı fundamental və akademik fəaliyyətinə görə alim müxtəlif fəxri adlar, orden və medallarla təltif edilmişdir: 1982-ci ildə Azərbaycanın "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1986-cı ildə Azərbaycan SSR Dövlət Mükafatı laureatı olmuşdur. 1986-cı ildə "Xalqlar dostluğu" ordeni ilə, 1996-cı ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Xəzər Universitetinin Fəxri doktoru adını almışdır.

Sara xanım Aşurbəyli 2001-ci il iyul ayının 17-də vəfat etmişdir. Görkəmli alimin xatirəsi əbədiləşdirilmiş, Bakı küçələrindən birinə onun adı verilmişdir.

Ədəbiyyat

Bakı şəhərinin tarixi: Orta əsrlər dövrü /Sara Aşurbəyli.- Bakı: [Əbilov, Zeynalov və oğulları], 2005.- 696 s.
Şirvanşahlar dövləti /S.Aşurbəyli; ön söz. E.Günaydın; tərc.ed. İ.Umudlu (azərb.), Ə.N. Əfəndiyev (ing.); rəssam. İ.Məmmədov.- Bakı: Apostrof, Parni iz Baku, 2009.- 564 s.
Şirvanşahlar dövləti /Sara Aşurbəyli.- Bakı: [Əbilov, Zeynalov oğulları], 2006.- 189 s.
Şirvanşahlar dövləti: VI-XVI əsrlər /S.Aşurbəyli; ruscadan tərc. ed. A.Bağırov; red. E.Məmmədyarova.- Bakı: Avrasiya press, 2006.- 416 s.
Vəzir, M. Sara Aşurbəyli /Mehriban Vəzir //Vəzir M. Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC); layihənin müəl. və rəhb. Ş.İsmayılova.- Bakı, 2008.- S.35-36.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.ebooks.az

80 illiyi

Araz Dadaşzadə 1936-1990

Araz Məmməd oğlu Dadaşzadə 1936-cı il yanvar ayının 30-da Bakı şəhərində, akademik Məmməd Arif və görkəmli pedaqoq Zümrüd Axundovanın ailəsində anadan olmuşdur.

1952-1957-ci illərdə S.M.Kirov adına ADU-da (indiki BDU) təhsil almışdır. 1957-1960-cı illərdə Azərbaycan SSR EA-nın Azərbaycan Tarixi Muzeyində işləmişdir.

1960-1963-cü illərdə Azərbaycan SSR EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunun aspiranturasında oxumuş, 1963-1966-cı illərdə Nizami adına Dil və Ədəbiyyat İnstitutunda kiçik elmi işçi, 1968-1976-cı illərdə isə institutun Orta əsrlər şöbəsinin baş elmi işçisi olmuşdur.

Ömrünün böyük bir hissəsi Azərbaycan Sovet Ensiklopediyasının nəşrə hazırlanması və nəşri ilə bağlıdır. 1966-1968-ci illərdə ensiklopediyanın Baş redaksiyasında Ədəbiyyat və İncəsənət redaksiyasının müdiri, 1976-1988-ci illərdə isə baş redaktorun birinci müavini işləmişdir. 1988-ci ildən ömrünün sonunadək ASE-nin Baş redaktoru vəzifəsində çalışmışdır. ASE Baş redaksiya heyətinin və elmi redaksiya şurasının, Azərbaycan Yazıçılar İttifaqı təftiş komissiyasının (1976), "Ədəbiyyat və incəsənət" qəzeti redaksiya heyətinin üzvü (1977-1982; 1988), 1988-ci ildən Azərbaycan Yazıçılar İttifaqı "Xatirə" irs komissiyasının sədr müavini, Azərbaycan EA-nın Terminologiya Komitəsi Rəyasət Heyətinin üzvü olmuşdur.

Ədəbi fəaliyyətə 1956-cı ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Tərli kürəklər" kinofilminə yazdığı eyniadlı resenziya ilə başlamışdır. Ədəbiyyat və incəsənət sahəsində çoxsaylı məqalə və rəylərin müəllifidir. Hekayələri "Azərbaycan", "Kirpi" və bir sıra digər nəşrlərdə çap edilmişdir.

Onun elmi fəaliyyəti XVIII əsr Azərbaycan poeziyası və xüsusilə M.P.Vaqifin həyat və yaradıcılığı ilə bağlıdır.

1964-cü ildə namizədlik, 1977-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir.

Alim "Molla Pənah Vaqif (həyat və yaradıcılığı)" (1966), "Певец жизни (Vaqif haqqında düşüncələr)" (1968), "XVIII əsr Azərbaycan lirikası" (1980), "Поэзия добра и красоты" (1986) kitablarının müəllifidir. Onun 1968-ci ildə M.P.Vaqifin anadan olmasının 250 illiyi ilə əlaqədar yazdığı "Molla Pənah Vaqif (həyat və yaradıcılığı haqqında oçerk)" kitabçası Azərbaycan, ingilis, fransız, türk, ərəb, fars, rus dillərində çap edilmişdir.

"Odlar yurdu" bədii filminin, diafilm və sənədli filmlərin ssenari müəllifidir. Ssenari müəllifi olduğu "Tülküyə uyduqda" kukla multfilmi (1972, rejissor: M.Rəfiyev) ilk və yeganə genişekranlı Azərbaycan cizgi filmidir.

Tərcüməçiliklə də məşğul olmuş, R.Taqorun "Bağban" əsərini (1961, Anarla birlikdə) və S.A.Tolstayanın "Mənim həyatım" kitabını (1981) Azərbaycan dilinə tərcümə etmişdir.

1989-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Araz Dadaşzadə 1990-cı il noyabr ayının 2-də vəfat etmiş və Bakıda, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Molla Pənah Vaqif: həyat və yaradıcılığı /A.Dadaşzadə; red. H.Araslı; AzSSR EA Nizami adına Ədəbiyyat və Dil İnstitutu.- Bakı: AzSSR EA, 1966.- 188 s.

XVIII əsr Azərbaycan lirikası /A.Dadaşzadə; red. H.Araslı; AzSSR EA Nizami ad. Ədəbiyyat İn-tu.-Bakı: Elm, 1980.- 228 s.

Əhmədov, T. Araz Dadaşzadə //Əhmədov T. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə: ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.67.

Yusifli, C. Araz Dadaşzadə elm yollarında /C.Yusifli //Ədəbiyyat məcmuəsi: Nizami adına Ədəbiyyat İn-tunun Əsərləri.- 2013.- C.XXIV.- S.242-245.

Yusifli, C. Ədəbiyyatşünaslığımızda zəngin bir portret – Araz Dadaşzadə /C.Yusifli //525-ci qəzet.- 2011.- 25 fevral.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.azlib.net

90 illiyi

Teymur Vəliyev 1926-2002

Alim

Teymur Süleyman oğlu Vəliyev 1926-cı il yanvar ayının 15-də Ağdamda anadan olmuşdur.

Orta təhsilini Ağdamda almış, 1951-ci ildə K.Marks adına Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunu (indiki ADİU) bitirdikdən sonra aspiranturada təhsilini davam etdirmiş və namizədlik dissertasiyası müdafiə etmişdir.

1966-cı ildə respublikada iqtisadiyyat elmi üzrə ilk doktorluq dissertasiyası müdafiə edənlərdən biri olmuş və Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu yenidən təşkil olunarkən tədris işləri üzrə prorektor kimi fəaliyyət göstərmişdir. 1971-ci ildən Azərbaycan Dövlət Universitetində 20 ildən çox kafedra müdiri və 12 il tədris işləri üzrə prorektor, Azərbaycan Dövlət İqtisad İnstitutunda 8 il elm və texnika üzrə prorektor vəzifələrində çalışmışdır.

T.Vəliyev 1953-cü ildən pedaqoji fəaliyyətlə məşğul olmuş, respublikanın ali məktəblərində iqtisadi nəzəriyyədən (siyasi iqtisad) dərs demişdir. Azərbaycan Dövlət Pedaqoji İnstitutunda işlədiyi zaman İctimai elmlər kafedrasında siyasi iqtisad bölməsinin rəhbəri, Azərbaycan Dövlət Pedaqoji İnstitutunda dekan vəzifəsində çalışmışdır.

T.Vəliyevin elmi tədqiqatlarının əsas istiqamətlərindən biri respublikanın sosial-iqtisadi həyatı, ümumi mənafeyi baxımından faydalı və mühüm əhəmiyyət kəsb edən iqisadi inkişafın tarazlaşması problemi olmuşdur. 1972-1987-ci illərdə "Ekonomiçeskiye nauki" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. SSRİ Ali və Orta ixtisas Təhsili Nazirliyinin Ali Attestasiya Komissiyasının siyasi iqtisad üzrə ekspert komissiyasının üzvü, Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin elmi-metodiki şurasının siyasi iqtisad bölməsinin büro sədri, bir neçə namizədlik və doktorluq dissertasiyalarının ixtisaslaşdırılmış müdafiə şurasının sədri, iqtisadiyyat üzrə jurnalların redaksiya heyətinin üzvü, AMEA-nın İqtisadiyyat İnstitutunda doktorluq dissertasiyası üzrə ixtisaslaşdırılmış müdafiə şurasının həmsədri olmuşdur. AzDİU-da nəşr olunan "İqtisad elmləri: nəzəriyyə və praktika" jurnalının baş redaktoru, iqtisadi nəzəriyyə, kommersiya üzrə ixtisaslaşdırılmış müdafiə şurasının sədri olmuşdur.

Alim respublika, habelə xarici ölkə nəşriyyatlarında çap olunmuş 150-dən çox elmi əsərin müəllifidir. 1999-cu ildə "İqtisad elminin nəzəri əsaslarının tarixi təkamülü" monoqrafiyası, 2000-ci ildə N.Məmmədovla birgə hazırladığı "İzahlı iqtisadi terminlər" adlı lüğət kitabçası nəşr edilmişdir.

Elm, təhsil-təlim sahəsindəki xidmətləri dövlət tərəfindən qiymətləndirilmiş, 1981-ci ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür. 1983-cü ildə Azərbaycan SSR EA-nın müxbir üzvü seçilmişdir. 1986-cı ildə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin Fəxri fərmanı ilə təltif olunmuşdur. SSRİ Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin gümüş medalına, SSRİ-nin və Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsil Nazirliyinin, EA-nın fəxri fərmanlarına layiq görülmüşdür.

Teymur Vəliyev 2002-ci il aprel ayının 3-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

İqtisadiyyatın əsasları: IX-XI siniflər üçün dərslik /T.Vəliyev, N.Məmmədov.- Bakı: Maarif, 2003.- 336 s.

İqtisadi nəzəriyyə: dərslik /elmi red. T.Vəliyev, Ş.Qafarov; BDU.- Bakı: Bakı Universiteti nəşriyyatı, 2002.- 516 s.

İqtisadi nəzəriyyə: dərslik /müəll. kol. və red. T.Vəliyev, Ş.Qafarov; rəyçilər: M.Meybullayev, Ə.Babayev; BDU.- Bakı: Azpoliqraf LTD, 2004.- 514 s.

XIX əsrin ikinci yarısında Azərbaycan iqtisadi fikir tarixindən /elmi red. T.Vəliyev, A.Həsənov, C.Hüseynov və b.; Azərbaycan Dövlət İqtisad İnstitutu.-Bakı, 1994.- 62 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.amea-iqtisadiyyat.org

www.science.gov.az

105 illiyi Zahid Xəlilov 1911-1974

Akademik

Zahid İsmayıl oğlu Xəlilov 1911-ci il yanvar ayının 14-də Tiflis quberniyasının Ekatrinenfeld nahiyəsinin (indiki Bolnisi rayonu) Saraçlı kəndində anadan olmuşdur. Tiflisdə orta məktəbi və Türk Pedaqoji Texnikumunu bitirdikdən sonra 1929-cu ildə Bakıda Azərbaycan Dövlət Universitetinin (indiki BDU) riyaziyyat şöbəsinə daxil olmuş, 1930-1934-cü illərdə universitet bağlandığına görə ali təhsilini Azərbaycan Pedaqoji İnstitutunda başa vuraraq yenidən Tiflisə qayıtmış və Dəmir yolu Nəqliyyatı Mühəndisləri İnstitutunda işləmişdir.

1937-ci ildə Tiflisdə Riyaziyyat İnstitutunun aspiranturasına daxil olmuş, 1940-cı ildə dissertasiya müdafiə edərək Qafqaz türkləri arasında ikinci (İbrahim İbrahimovdan sonra) fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alan şəxsdir. Elə həmin il ADU-ya dəvət edilmiş, ömrünü həmişəlik Azərbaycan və onun elmi ilə bağlamışdır. 1946-cı ildə isə doktorluq dissertasiyası müdafiə etmiş, 35 yaşında Azərbaycanın ilk fizika-riyaziyyat elmləri doktoru olmuşdur. 1955-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

1944-1960-cı illərdə BDU-da nəzəri mexanika kafedrasının müdiri, 1950-1956 və 1967-1974-cü illərdə Riyaziyyat və Mexanika İnstitutunun direktoru, 1957-1959-cu illərdə Azərbaycan EA Fizika-riyaziyyat və Texnika elmləri bölməsinin akademik-katibi, akademiyanın vitse-prezidenti seçilmiş, 1962-1967-ci illərdə Azərbaycan SSR EA-nın prezidenti olmuşdur. 1967-ci ildən ömrünün sonuna qədər isə özünün yaratdığı Riyaziyyat və Mexanika İnstitutuna rəhbərlik etmişdir. Əsas tədqiqatları funksional analiz, onun inteqral və diferensial tənliklərə tətbiqi, bütöv mühit mexanikası, avtomatik idarəetmə sisteminin riyazi nəzəriyyəsi, tətbiqi riyaziyyat və riyaziyyatın başqa sahələrinə aiddir. Alim funksional analiz məktəbinin əsasını qoyaraq poliharmonik tənliklər sistemi üçün ümumi sərhəd məsələsini həll etmiş, dəyişənlərinə ayrılmayan qarışıq məsələlərin həlli üçün Furye üsulunun analoqunu, qarışıq tipli model tənlikləri üçün şəbəkə üsulunu vermişdir. O, mücərrəd sinqulyar operatorlar nəzəriyyəsini yaratmış, yeraltı hidromexanikanın neft və qaz yataqlarının işlənməsində tətbiq olunan bir çox məsələnin həllini vermiş, Banax fəzasında öz-özünə qoşma olmayan operatorun spektrini tədqiq etmişdir. Z.İ.Xəlilov əski sovetlər birliyində funksional analiz üzrə ilk monoqrafiyalardan biri olan "Funksional analizin əsasları"nın (1949, rus dilində) müəllifi olmuşdur. Onun tərəfindən qazın və qazlaşdırılmış neftin süzülmə nəzəriyyəsinin ümumi məsələsi həll edilmişdir. "Funksional analiz və onun tətbiqləri" ümumittifaq jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Onun rəhbərliyi ilə 30-dan çox elmlər namizədi və elmlər doktoru yetişmişdir.

Akademik Z.İ.Xəlilov "Əməkdar elm və texnika xadimi" fəxri adına layiq görülmüş, SSRİ Ali Sovetinə deputat seçilmiş, iki dəfə Qırmızı Əmək Bayrağı ordeni, "Şərəf nişanı" ordeni və keçmiş SSRİ-nin bir neçə medalı ilə təltif olunmuşdur. Azərbaycan Riyaziyyatçılar Cəmiyyətinin prezidenti seçilmişdir.

Xəlilov Zahid İsmayıl oğlu 4 fevral 1974-cü ildə Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakı şəhərində adına küçə və məktəb var.

Ə d ə b i y y a t

İstinad nöqtəsi: [Zahid Xəlilov-100] /[ön söz. Z.Məmmədəli].- Bakı: Qismət, 2011.- 246 s.

Hacıyeva, Z. Xəlilov Zahid İsmayıl oğlu //Hacıyeva Z. AMEA prezidentləri. Şanlı yolun mərhələləri.- Bakı, 2014.- S.56-61.

Специальные вопросы функционального анализа и их применении к теории дифференциальных уравнений и теории функции /Халилов З.- Баку, 1968.- 132 с.

Функциональный анализ: Некоторые вопросы теории дифференц. уравнений и теории функции: Сборник статей /Ред. акад. З.И.Халилов.- Баку: Изд.АН,Аз.ССР, 1967.- 214с.

Асланов, Р. Захид Исмаил оглы Халилов, (1911-1974) //Асланов Р. Знаменитые математики: историко-математические

95 illiyi — Məryəm Mahmudbəyova 1921-1992 — *Mikrobioloq-immunoloq*

Məryəm Fərəməz qızı Mahmudbəyova 1921-ci il yanvar ayının 2-də Naxçıvan şəhərində anadan olmuşdur.

1953-cü ildə Q.M.Musabəyov adına Azərbaycan Elmi-Tədqiqat Virusologiya və Gigiyena İnstitutunda işləmiş, 1966-cı ildə tibb elmləri doktoru alimlik dərəcəsi almışdır. 1976-1979-cu illərdə Azərbaycan Elmi-Tədqiqat Qanköçürmə və Hemotologiya İnstitutunda İmmun-hemotologiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. Tədqiqatı müasir təbabətin aktual məsələlərinin (bioloji aktivliyi yüksək olan mikromolekulların, zülalların, nuklein turşusunun həll olunan antigen fraksiyalarının) öyrənilməsinə həsr olunmuşdur.

Musabəyovanın antigen quruluşa aid tədqiqatlarından immun preparatların istehsal texnologiyası sahəsində, habelə xəstəliklərin profilaktika və diaqnostikasında geniş istifadə edilir.

Azərbaycan səhiyyəsi sahəsindəki xidmətlərinə görə 1973-cü ildə "Azərbaycanın Əməkdar həkimi" fəxri adına layiq görülmüşdür.

Mərəym Mahmudbəyova 1992-ci ildə Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Mahmudbəyova Məryəm //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1982.-C.6.- S.396.

Mahmudbəyova Məryəm Fərəməz qızı //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.291.

25 — 90 illiyi — Nəsibə Hüseynova 1926 — *Həkim*

Nəsibə Ağa İsmayıl qızı Hüseynova 1926-cı il yanvar ayının 25-də Bakıda anadan olmuşdur.

1943-cü ildə Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) daxil olmuş, 1948-ci ildə Moskvadakı N.İ.Piroqov adına II Tibb İnstitutunu bitirmişdir. Həmin ildən Azərbaycan Dövlət Tibb İnstitutunun uşaq xəstəliklərinin propedevtikası kafedrasının kliniki ordinatoru vəzifəsində çalışmışdır. 1950-1951-ci illərdə Laçın şəhərindəki qadın və uşaq məsləhətxanasının müdiri, 1955-1959-cu illərdə Ana və Uşaqların Mühafizəsi Elmi-Tədqiqat İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifəsində çalışmışdır.1959-cu ildən Azərbaycan Dövlət Tibb İnstitutunun Hospital pediatriya kafedrasının dosenti olmuş, 1969-cu ildə tibb elmləri doktoru alimlik dərəcəsi almış, 1970-ci ildən isə həmin kafedranın professorudur.

1959-1961-ci illərdə İraqda həkim işləmiş, 1971-1976-cı illərdə Bakı şəhərində baş pediatr, 1976-cı ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin baş uşaq qastroenteroloqu olmuşdur.

Əsasən uşaqların qidalanması məsələlərinə dair tədqiqatlar aparmışdır. 200-dən artıq elmi məqalənin və metodiki tövsiyələrin müəllifidir.

1970-1992-ci illərdə ATİ-nin müalicə-profilaktika fakültəsinin Uşaq xəstəlikləri kafedrasının müdiri, 1992-ci ildən həmin kafedranın professoru vəzifəsində çalışmışdır.

1986-cı ildə "Əmək Veteranı" medalı, 1990-cı ildə "Azərbaycanın Əməkdar həkimi" fəxri adını almış, 2010-cu il 20 sentyabr tarixində Azərbaycanda tibb təhsilinin və elminin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Hüseynova Nəsibə Ağa İsmayıl qızı //Azərbaycan qadını ensiklopediyası /red. hey. R.Mehdiyev [və b.]; baş red. İ.Vəliyev; [müəl. X.Abbasov [və b.]].-Bakı, 2002.- S.182.

95 illiyi

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası 1921

Müstəqil Azərbaycan Respublikasında qədim və zəngin tarixə malik olan sahəvi kitabxanalardan biri də Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasıdır (REKTK). Kitabxana cəmiyyətimizin intellektual-mənəvi potensialının artmasında, aqrar siyasətin və kənd təsərrüfatı elminin təbliğində, elm və texnikanın inkişafında əvəzsiz rol oynayır. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası 1921-ci ildə Xalq Torpaq Komissarlığı (XTK) tərəfindən yaradılmış və l923-cü il aprel ayının 12-də XTK-nın 47/213 saylı əmri ilə Mərkəzi Kənd Təsərrüfatı Kitabxanası kimi fəaliyyətə başlamışdır. 1967-ci ildən Azərbaycan SSR Nazirlər Sovetinin Respublika Kənd Təsərrüfatı Nazirliyi nəzdində Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası kimi öz fəaliyyətini davam etdirir.

REKTK Respublika Prezidentinin fərman və sərəncamlarını təbliğ edən, respublikanın nazirlik, şirkət, idarə və müəssisələrinə, elmi-tədqiqat və layihə institutlarına, elm və texnika, kənd təsərrüfatı sahəsində tədqiqat aparan ayrı-ayrı mütəxəssislərə, tələbələrə, aspirantlara və magistratura pilləsində təhsil alanlara məlumat-biblioqrafiya və kitabxana xidməti göstərən respublika mərkəzi hesab olunur.

1982-ci ildən Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası respublikada kənd təsərrüfatı ədəbiyyatı üzrə depozitar mühafizə mərkəzidir.

Kitabxana - M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, Azərbaycan Tibb Universitetinin Kitabxanası, Bakı Dövlət Universitetinin Elmi Kitabxanası, Respublika Elmi Pedaqoji Kitabxanası və s. ilə sıx əlaqə qurmuşdur. REKTK-sı Azərbaycan Respublikasında kənd təsərrüfatı kitabxanaları üzrə elmi metodiki mərkəz hesab olunur.

REKTK ənənəvi kitab təbliği və kitabxana-biblioqrafiya xidmətlərindən əlavə xarici ölkələrin jurnallarını, dövri və ardı davam edən nəşrlərini, avtoreferatları, plakatları və digər sənədləri özündə əks etdirən, metodiki fəaliyyətlə məşğul olan böyük müəssisədir.

Kitabxananın fondunda 1 005 655 nüsxə milli və xarici dillərdə olan kitab, jurnal, ensiklopediya, lüğətlər və digər nəşrlər toplanmışdır. Sahəvi aspektlər üzrə fondun tərkibi ictimai-siyasi, kənd təsərrüfatı və elmlər üzrə qarışıq ədəbiyyatlardan ibarətdir. Nadir nüsxələr fondunda 3000 nüsxəyə yaxın ədəbiyyat mühafizə olunur. Kitabxana Azərbaycan Respublikası ərazisində yerləşən 51 şəbəkə və 39 filial kitabxanaya mərkəzləşdirilmiş formada metodiki köməklik göstərir.

Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası kitabxanalararası mübadilə yolu ilə MDB-nin 47 kənd təsərrüfatı kitabxanaları ilə kitab mübadiləsi aparır, eləcə də Polşa, Koreya, Fransa, Almaniya, Türkiyə və başqa ölkələrin kitabxanaları ilə sıx əlaqə yaradır. Hazırda Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında 5 şöbə (Elmi-metodik, Xidmət, Komplektləşdirmə, kitabişləmə və kataloqlaşdırma, Məlumat-biblioqrafiya, Depozitar fondun mühafizəsi), 3 bölmə fəaliyyət göstərir.

Ədəbiyyat

Cəfərov, A. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasında oxuculara kitabxana xidmətinin müasir vəziyyəti və inkişaf istiqamətləri /A.Cəfərov //Kitabxanaşünaslıq və informasiya.- 2010.- №3.- S.67-75.

Qardaşov, R. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanasının biblioqrafik fəaliyyətinin əsas istiqamətləri /R.Qardaşov //Kitabxanaşünaslıq və Biblioqrafiya.- 2008.- №1(22).- S.184-188.

Quliyeva, V. Respublika Elmi Kənd Təsərrüfatı Kitabxanası müstəqillik illərində /V.Quliyeva //Kitabxanaşünaslıq və İnformasiya.- 2014.- №3.- S.125-130.

İnternetdə

www.anl.az

www.static.bsu.az

www.files.preslib.az

Tarixdə bu gün

Yeni il

Dünya xalqlarının böyük əksəriyyəti yeni ilin başlanğıcını dekabrın 31-dən yanvarın 1-nə keçən gecə qeyd edirlər. Yeni il Yer kürəsinin bütün guşələrində dini etiqadlarından asılı olmayaraq müxtəlif xalqlar tərəfindən geniş qeyd olunan ən məşhur bayramlardandır. Yeni ili bayram etməklə insanlar belə hesab edirlər ki, bütün uğursuzluq və kədərli anlar köhnə ildə qalır, yeni il yeni arzular və ümidlər gətirir.

Yeni il bayramı Azərbaycanda da geniş qeyd edilir. Bu bayramın öz tarixçəsi var. Bəzi fərziyyələrə görə Yeni ili ilk dəfə qədim çinlilər qeyd ediblər. Digər mənbələrdə bu, qədim germanlar və romalıların adı ilə bağlanır. Başqa bir mənbə isə ənənənin Mesopotamiyada yarandığını sübut etməyə cəhd etmiş, bayramın yaranmasının azı 25 əsrlik tarixi olduğunu iddia etmişdir.

Yeni ilin yanvarın 1-dən hesab olunması xristianlığın tarixi ilə bağlıdır. Rəvayətə görə, İsa peyğəmbər dekabrın 24-də anadan olduğu üçün xristianlar bu günü İsa Məsihin doğulması şərəfinə Milad bayramı kimi qeyd edirlər. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21-25 dekabr) "xilaskar allahın doğulması" ilə əlaqədar keçirilən qədim bütpərəst mərasimi olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Bu bayram 431-ci ildə qanuniləşdirilmişdir. Bizim istifadə etdiyimiz təqvim də məhz miladi təqvim adlanır. Bu təqvimə əsasən yeni il yanvarın 1-dən başlanır.

Yeni ilin rəmzlərindən biri Şaxta babadır. Şaxta babanı müxtəlif ölkələrdə müxtəlif cür adlandırırlar. Bütün hallarda Şaxta baba uşaqların sevimlisidir. Yeni il gecəsində onlar evlərə heç vaxt əliboş gəlmir, torbalarındakı hədiyyələrlə uşaqları sevindirirlər.

Dekabrın 31-i gecəsi insanlar bayram süfrəsi ətrafında toplaşırlar. İlin başa çatdığını göstərən saat zənginin təntənəli səsləri altında sağlıqlar söyləyir, sonra isə şampan şərabı ilə dolu qədəhləri toqquşdurur, yeni ildə bir-birinə xoş günlər və sağlamlıq arzulayırlar.

Yeni il bayramını al-əlvan, bərli-bəzəkli yolkasız təsəvvür etmək qeyri-mümkündür. Əlbəttə, bu yolka təbii küknar ağacından olsa və yarpaqları ətir saçsa daha gözəl olardı. Amma təbiəti qorumaq naminə süni yolkalarla da keçinmək olar. Çoxları yolka bəzəmək ənənəsini də xristian diniylə əlaqələndirir. Əslində isə, həyat rəmzi olan yolkanın bəzənməsi tarixi xristianlıqdan əvvəl başlamış və hansısa bir dinlə bağlı deyil. Yeni il yolkası haqqında ilk yazılı məlumat XVI əsrə təsadüf edir. Həmin mənbələrə görə, o vaxt alman şəhəri olan Strasburqda Yeni il gecəsi həm kasıb, həm də adlı-sanlı zadəgan ailələrində şam ağacları rəngli kağızlar, meyvələr və şirniyyatla bəzədilirmiş. Vaxt keçdikcə bu adət bütün Avropaya yayılır. Amerikaya isə yolkanı burada məskunlaşan almanlar gətirmişlər. 1851-ci ildə burada ilk dəfə təntənəli şəkildə yolka fənərlərinin yandırılması mərasimi keçirilmişdir. O vaxtdan hər il Yeni il bayramında Ağ evin qarşısında bu mərasim keçirilmiş, beləcə yolka bütün dünyada məşhurlaşmışdır.

Ədəbiyyat

Əlibalaqızı, S. Dünyada Yeni il: Fərqli ənənə və mərasimlər /S.Əlibalaqızı //Mədəniyyət.- 2014.- 30 dekabr.- S.15.

İkramqızı, F. Yeni il gəzə-gəzə... /F.İkramqızı //İki sahil.- 2012.- 26 dekabr.- S.22.

İkramqızı, F. Yeni ili necə qarşılamalı? /F.İkramqızı //İki sahil.- 2013.- 29 dekabr.- S.13.

Mustafayev, O. Dünya xalqlarının yeni il ənənələri /O.Mustafayev //Azərbaycan müəllimi.- 2012.- 28 dekabr.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.sun.az

www.teqvim.az

25 illiyi İstiqlal Muzeyi 1991

Azərbaycan İstiqlal Muzeyi 1991-ci il yanvar ayının 9-da yaradılmışdır. Muzeyin yaradılmasında məqsəd ən qədim zamanlardan müasir dövrə qədər Azərbaycan xalqının mədəni-tarixi həyatındakı mühüm hadisələri və xalqımızın azadlığı uğrunda çarpışan fədailərin mübarizə yolunu əks etdirməkdir. Muzeydə 20 000-dən artıq eksponat mövcuddur. Burada rəsm və heykəltaraşlıq əsərləri, xəritələr, şəkillər, kitablar, pul əskinazları və başqa eksponatlar nümayiş etdirilir. Azərbaycanın ilk dövlət muzeyi olan İstiqlal Muzeyinin əsası 1919-cu ilə qoyulmuşdur.

Muzey 6 zaldan ibarətdir. 1-ci zalda Azərbaycanın dövlət rəmzləri - nümayiş olunur. Burada XVIII əsrin II yarısında Azərbaycanın xanlıqlara bölünməsi, Azərbaycan uğrunda Rusiya ilə İran arasında gedən müharibələrə (1804-1828), Gülüstan (1813) və Türkmənçay (1828) müqavilələrinin bağlanmasına dair materiallar da yer almışdır. Həmçinin, işğal altında olan Cəbrayıl və Füzuli rayonlarının tarix-diyarşünaslıq muzeylərinin eksponatları da nümayiş olunur.

2-ci ekspozisiya zalı XIX əsrin II yarısından XX əsrin əvvəllərinədək olan dövrü əhatə edir. Burada mədəniyyət və elm, neft sənayesinin inkişafı ilə bağlı xeyli sayda materiallar yer almışdır. 1918-ci il 31 mart soyqırımına həsr olunmuş fotofaktlar, arxiv materialları, sənədlər, Azərbaycan Xalq Cümhuriyyətinin fəaliyyətini əks etdirən materiallar bu ekspozisiya zalında nümayiş etdirilir.

İstiqlal Muzeyinin 3-cü zalı Cənubi Azərbaycanın Məşrutə hərəkatını əks etdirən materiallarla zəngindir. Burada 1905-1911-ci illər azadlıq hərəkatının rəhbəri Səttarxan və onun silahdaşlarının, fədai dəstələrinin fəaliyyəti, həmçinin o dövrdə Azərbaycanın iqtisadiyyatının, mədəniyyətinin inkişafını əks etdirən materiallar yer almışdır.

Repressiya illərini və Böyük Vətən müharibəsində ön və arxa cəbhədə qəhrəmanlıq göstərən azərbaycanlıların qəhrəmanlığını əks etdirən materiallar muzeyin 4-cü ekspozisiya zalında nümayiş olunur.

Qarabağ hadisələri muzeyin 5-ci zalında əks olunmuşdur. Burada 1988-ci ildən başlayaraq Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsi nəticəsində zəbt olunmuş rayonları, 1990-cı ilin qanlı yanvar hadisələrini, Xocalı faciəsinin dəhşətlərini əks etdirən fotolar, müxtəlif sənədlər, nümayiş olunur.

Müasir Azərbaycan tarixi muzeyin 6-cı ekspozisiya zalında nümayiş etdirilir. 1993-cü il iyun ayının 15-də Heydər Əliyev Bakıya gəlişi - Milli Qurtuluş Günü tarixindən başlayaraq ölkəmizin keçdiyi inkişaf yolu haqqında muzeyin ziyarətçilərinə geniş məlumat verilir. Burada müstəqil Azərbaycanın dövlət və ordu quruculuğunu, xarici siyasətini, iqtisadiyyatını, Azərbaycanın tarixi üçün çox əhəmiyyətli olan "Əsrin müqaviləsi"nin (1994) bağlanması, ölkəmizin mədəniyyətini, beynəlxalq təşkilatlarda iştirakını əks etdirən fotoxronika nümayiş olunmaqla yanaşı, Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin fəaliyyətini əks etdirən materiallar diqqəti cəlb edir.

İstiqlal Muzeyi Muzey Mərkəzində yerləşir. Muzey üçün Bakıda yeni bina inşa edilir.

Ədəbiyyat

Fariz. "Ümid yeri": İstiqlal Muzeyi hərbi hissədə Milli Qurtuluş Günü ilə bağlı tədbir keçirib /Fariz //Mədəniyyət.- 2014.- 13 iyun.- S.14.

İstiqlalımızın muzeyi - Azərbaycan İstiqlal Muzeyi: İlk rəsmi dövlət muzeyi... //Azadlıq.- 2012.- 9 may.- S.14.

Şəmsi, F. İstiqlal Muzeyi: müstəqilliyimizin yaşıdı /F.Şəmsi //Respublika.-2014.- 6 dekabr.- S.6.

Şəmsi, F. "İstiqlal Muzeyinin fəaliyyətində Azərbaycan dövlətçiliyinin təbliğatı böyük yer tutur" /F.Şəmsi //Palitra.- 2012.- 14 sentyabr.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadliq.info

www.citylife.az

Ümumxalq Hüzn Günü 1990

20 Yanvar faciəsi Azərbaycan xalqının hüzn və şərəf günüdür. Xalqımız bu faciədə həyatdan getmiş övladlarına matəm saxlamaqla bərabər, eyni zamanda onların şəhidlik zirvəsinə baxaraq başını dik tutmalıdır. Çünki Vətən və torpaq şəhidləri ilə ucalır. 26 il öncə Azərbaycan xalqının taleyində də nəhs və qorxunc günlər yaşanırdı. Xalqımız qırmızı imperiyanın "Qızıl ordusu"nun, sovet hərb maşınının hücumuna məruz qalmış, təcavüzə uğramış, günahsız insanlar güllələbaran edilmiş, milli heysiyyətimiz tankların tırtılları altına atılmışdı.

20 Yanvar faciəsi Azərbaycan xalqını qorxutmaq, onun milli oyanışını, torpaq (Qarabağ) uğrunda mübarizliyini məhv edib sındırmaq məqsədi daşıyan mənfur planın tərkib hissəsi idi. Unutmamalıyıq ki, 20 Yanvar Azərbaycan xalqının tarixində, sadəcə, ağı və acı ilə xatırlanacaq gün deyil, həm də xalqımızın şan və şərəf günüdür. 1990-cı ilin 20 yanvarı Azərbaycanın istiqlaliyyət yolunun ilk şəhidlik zirvəsi idi. Ötən illər ərzində "Qanlı Yanvar"ın tarixi, mənəvi, siyasi və s. aspektləri təhlil edilmiş, hadisəyə Azərbaycan dövləti tərəfindən hüquqi qiymət verilmişdir.

...Həmin gün Azərbaycanın o vaxtkı rəhbərliyinin istəyi və SSRİ rəhbərliyinin əmri ilə Azərbaycanda kommunist rejimini saxlamaq və milli azadlıq hərəkatını boğmaq məqsədilə Bakıya böyük bir ordu (rəsmi rəqəm 35 mini göstərir) yeridilmişdir. SSRİ Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi və Dövlət Təhlükəsizlik Komitəsinin hazırlayıb həyata keçirdiyi "Udar" adlı əməliyyatda əsas rolu xüsusi təyinatlı "ALFA" və SSRİ DTK-nın "A" təxribat qrupları oynayırdı. Sovet qoşunlarının təcavüzü nəticəsində Bakıda faciə zamanı 137 insan öldürülmüş, 744 nəfər ağır xəsarət almış, 841 nəfər isə qanunsuz olaraq həbs edilmişdir. Sovet ordusunun əməliyyatları nəticəsində 200 mənzil, ev, şəxsi və dövlət əmlakı dağıdılmışdır. Öldürülənlər arasında beş millətin nümayəndələri, qadınlar və uşaqlar var idi. Qara Yanvarın indiyədək özündə saxladığı sirlər çoxdur. 100 cildlik istintaq materialının 69 cildi Bakıdan Moskvaya, keçmiş SSRİ Prokurorluğuna aparılmış və bir daha geri qaytarılmamışdır.

XX əsrdə totalitarizmin törətdiyi ən qanlı terror aktları sırasında 20 Yanvar cinayəti də var. Bu, bəşəriyyət və insanlıq əleyhinə törədilmiş dəhşətli əməl idi. Dinc əhaliyə qarşı həyata keçirilən cəza tədbirləri zamanı 1949-cu ilin Cenevrə Konvensiyasının, Beynəlxalq Hərbi Tribunalın Əsasnaməsinin, Beynəlxalq İnsan haqları Bəyannaməsinin, insan haqlarına dair digər beynəlxalq aktların çoxsaylı müddəaları pozulmuşdu. Bu məqamlar 20 Yanvar hadisələri ilə bağlı aparılmış ən səthi tədqiqatlarda da təsdiqlənir.

O gün Moskvada matəm saxlayan Heydər Əliyevin etiraz səsi bütün dünyaya yayılmışdı. O gün heç kəs başını aşağı əymədi, "Azadlıq!" sədası göylərə qalxdı. Biz o azadlığı qanımız bahasına əldə etdik... İndi nəyin bahasına olursa-olsun biz hamımız azadlığımızı qorumalıyıq. Budur bizim şəhidlər qarşısında müqəddəs borcumuz!

Ədəbiyyat

Ağla, qərənfil, ağla...: Bakı. Fəlakətin gerçək məqamları /M. A. Qasımova, O. B. Qasımov ; red. Ə. Ə. Qasımov.-Bakı: [s. n.], 2014.-244 s.

Məhərrəmov, V.M. Qanlı gecə, qanlı tarix /V.M.Məhərrəmov.- Bakı: Hərbi Nəşriyyat, 2011.- 95 s.

20 yanvar. Tariximizin qanlı və şanlı səhifəsi /layih. rəh. Ə.Həsənov, A.Aslanov; tərt., red. Ə.Mehdiyev, V.Əliyev, D.İsmayılov, E.Qədirli; tərc.: N.İsmayılov, N.Xıdırov, Ş.Əliyev [və b.].- Bakı: AzərTAc, 2014.- 353 s.

Tariximizin qanlı yaddaşları Xalqımızın hüquq və azadlıqlarının tapdandığı 20 Yanvar, Xocalı faciələri və 31 Mart azərbaycanlıların soyqırımı günü hər il ümumxalq hüzn günü kimi geniş qeyd edilir /Məmmədhəsən //Azad Azərbaycan .-2015.- 18 yanvar.- S. 5.

Sarıyeva, İ. Gənc nəslin vətənpərvərlik tərbiyəsində 20 Yanvar ibrətləri... /İ.Sarıyeva //Bakı xəbər.- 2014.- 17-19 yanvar.- S.15.

www.20 january.az

15 illiyi Azərbaycanın Avropa Şurasına üzv seçilməsi 2001



2001-ci il yanvar ayının 25-də Avropa Şurası Parlament Assambleyasının Strasburqdakı qərargahının qarşısında respublikamızın üçrəngli bayrağı yüksəldilmiş, ölkəmizin AŞPA-ya tamhüquqlu üzv qəbul edilməsi ilə əlaqədar ulu öndər Heydər Əliyevin iştirakı ilə təntənəli mərasim keçirilmişdir. Bununla da Azərbaycanın Qərbə inteqrasiyası istiqamətində irəliyə doğru mühüm addım atılmışdır.

Müstəqil dövlətimizin həyatında demokratik ictimai və siyasi dəyişikliklərin baş verməsi, beynəlxalq standartlara uyğun yeni qanunların qəbul olunması, Konstitusiyada və qanunlarda insan hüquq və əsas azadlıqlarının təsbit olunması, Azərbaycanın insan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa Konvensiyasına qoşulmağa hazır olmasını bəyan etməsi ölkəmizi Avropa ailəsinə daha da yaxınlaşdırmışdı. Azərbaycanda qəbul olunan qanunların Avropa Şurasının ekspertləri tərəfindən yüksək qiymətləndirilməsi Avropa məkanının diqqətini ölkəmizə yönəltmişdi. Bununla birlikdə, Azərbaycanın dövlət başçısı Heydər Əliyevin 1996-cı il 8 iyul tarixli "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlıq proqramının həyata keçirilməsi üzrə tədbirlər haqqında" Sərəncamı Avropa Şurası ilə ölkəmiz arasında əməkdaşlığın yaradılmasında və növbəti illər üçün fəaliyyət planı kimi mühüm əhəmiyyət kəsb etmişdir.

1998-ci il yanvar ayının 20-də "Avropa Şurası və Azərbaycan Respublikası arasında əməkdaşlığın dərinləşdirilməsi sahəsində tədbirlər haqqında", 1999-cu il mayın 14-də "Azərbaycan Respublikası ilə Avropa Şurası arasında əməkdaşlığın dərinləşdirilməsi və Azərbaycan Respublikasının Avropada mənafelərinin müdafiə edilməsi sahəsində tədbirlər haqqında" Heydər Əliyevin imzaladığı Sərəncamlar ölkəmizin Avropa Şurasına qəbul edilməsi üçün səylərin artırılmasına və məqsədyönlü fəaliyyətə böyük zəmin yaratmışdı. Ulu öndər Azərbaycanın Avropa Şurasına üzvlük naminə fəaliyyətini getdikcə gücləndirmiş, bu yönümdə riskli və prinsipial addımlar atmaqdan belə çəkinməmişdir.

Nəhayət, 2001-ci il yanvarın 17-də Avropa Şurası Nazirlər Komitəsinin nümayəndələri səviyyəsində keçirilmiş iclasda Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair tarixi qərar qəbul olunmuşdur. Ölkəmizin şuraya üzv olması ilə respublikamız Avropa ilə əlaqələrinin tarixində yeni mərhələyə qədəm qoydu. Bu qurum müstəqil Azərbaycan üçün yeni, habelə daha yüksək tribuna kimi qiymətləndirilirdi. Ən başlıcası isə, ölkəmiz informasiya blokadasından çıxaraq öz milli maraqlarını, əsl həqiqətləri olduğu kimi beynəlxalq ictimaiyyətin diqqətinə çatdırmaq istiqamətində qətiyyətli addımlar atdı.

AŞPA-nın Azərbaycan parlamenti nümayəndə heyətinin iştirak etdiyi ilk sessiyasından başlayaraq Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə dair reallıqları özündə əks etdirən sənədlər yayıldı. Əməkdaşlıq möhkəmləndikcə AŞPA-nın müxtəlif dövlətlərdən olan üzvləri ölkəmizin qarşılaşdığı problemlər, torpaqlarımızın 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması və bu işğal zamanı bir milyondan artıq soydaşımızın öz doğma ev-eşiklərindən didərgin salınmaları barədə müfəssəl məlumat əldə etdilər.

Ədəbiyyat

Azərbaycan və Avropa Şurası /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. ed.: G.Hüseynova, A.Babayeva.- Bakı, 2008.- 90 s.

İmaməliyeva, Ü. Azərbaycanın Avropa Şurası ilə əlaqələri: siyasi əməkdaşlığın istiqamətləri /Ü.İmaməliyeva; elmi red. R.Mirzəzadə.- Bakı: Şirvannəşr, 2007.- 166 s.

Mehdiyev, A. Azərbaycan Avropa Şurasında: 2001-2005 /A.Mehdiyev; red. T.Kazımov.- Bakı: Elm və təhsil, 2011.- 246 s.

Süleymanov, E. Azərbaycan 10 il Avropa Şurasında /E.Süleymanov; elmi red. E.Lintner; [ön söz. müəl. J.P.Anri].- Bakı: Xəzər, 2011.- 45 s.

Əhmədov, E. Azərbaycanın Avropa Şurasına üzvlüyü ölkəmizin dünya birliyinə inteqrasiyasını daha da sürətləndirib /E.Əhmədov //Xalq qəzeti.- 2012.- 25 yanvar.- S.4.

İnternetdə

www.anl.az

www.mfa.gov.az

YANVAR
30

Tarixdə bu gün

10 illiyi

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi 2006

Azərbaycan Respublikası Prezidentinin 30 yanvar 2006-cı il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi əsasında Mədəniyyət və Turizm Nazirliyi yaradılmışdır. Azərbaycan Respublikası Prezidentinin 18 aprel 2006-cı il tarixli 393 nömrəli Fərmanı ilə Mədəniyyət və Turizm Nazirliyi haqqında əsasnamə təsdiq edilmişdir. Bu əsasnamə əsasən yeni nazirliyin fəaliyyətinin əsas istiqamətlərini, vəzifələrini, hüquqlarını, fəaliyyətinin təşkili məsələlərini müəyyən edir.

Nazirlik əsasən dövlət büdcəsindən maliyyələşir. Bakı şəhərində yerləşir.

Mədəniyyət və Turizm Nazirliyi - mədəniyyət, incəsənət, turizm, tarix və mədəniyyət abidələrinin qorunması, nəşriyyat, kinematoqrafiya sahələrində dövlət siyasətini tənzimləyən icra hakimiyyəti orqanıdır.

Nazirlik sisteminə daxil olan ali və orta ixtisas təhsil müəssisələrinin, uşaq musiqi, incəsənət, rəssamlıq və muğam məktəblərinin fəaliyyətinə nəzarəti həyata keçirmək, tədris plan və proqramlarını müvafiq qaydada təsdiq etmək, təhsil müəssisələri şəbəkəsinin inkişafı və maddi-texniki bazasının gücləndirilməsi üçün tədbirlər görür.

Nazirlik tarix və mədəniyyət abidələrinin qorunması, kinematoqrafiya və turizm sahələrində qanunvericiliklə nəzərdə tutulmuş hallarda və qaydada müvafiq fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) və ya xüsusi icazə, habelə hüquq müəyyənedici sənədlər verir, yüksək bədii dəyərli əsərlərin yaradılması üçün dövlət sifarişlərini həyata keçirir, dövlət mülkiyyətində olan muzeylərin, kitabxanaların, rəsm qalereyalarının və sərgi salonlarının fondlarını zənginləşdirmək və komplektləşdirmək məqsədi ilə maddi mədəniyyət və nəşr nümunələrini satın almaq, onların qorunması, uçotu, mühafizəsi, təbliği və nümayişini təmin etmək kimi vəzifələri də icra edir.

Hazırda Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyət dairəsinə 28 teatr, 6308 tarix və mədəniyyət abidəsi, 1 sirk və 12 konsert müəssisəsi, 3002 kitabxana (işğal olunmuş ərazilərdə 927 kitabxana), 2708 klub, 189 dövlət muzeyi (filiallarla birlikdə), 234 uşaq musiqi, incəsənət və rəssamlıq məktəbi, 33 rəsm qalereyası və sərgi salonu, 21 dövlət qoruğu, 60 mədəniyyət və istirahət parkı, 1 zoopark, Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz, 4 asudə vaxt Mərkəzi, 6 təsərrüfat təşkilatı, "Azərbaycanfilm" də daxil olmaqla 7 film istehsalı studiyası, 134 şəhər və rayon kinoteatrı, Dövlət Film Fondu (Naxçıvan filialı ilə birlikdə), Respublika Kitabxana Kollektoru, bir qəzet ("Mədəniyyət"), iki jurnal ("Mədəniyyət.az", "Baku Guide") redaksiyası, Dövlət Turizm İnstitutu, Bakı Xoreoqrafiya Akademiyası, Azərbaycan Milli Kitabxanası, Respublika Mədəniyyət Müəssisələri İşçilərinin İxtisasartırma Mərkəzi, Mingəçevir Turizm Kolleci, Milli Kulinariya Mərkəzi, 62 şəhər və rayon mədəniyyət və turizm şöbəsi, Naxçıvan MR Mədəniyyət və Tu-

rizm Nazirliyi, Bakı, Gəncə, Sumqayıt şəhər turizm idarələri, Şəki Atçılıq Mərkəzi, Bakı Turizm İnformasiya Mərkəzi, Lənkəran Uşaq düşərgəsi daxildir.

Nazirlik Azərbaycan Respublikasında beynəlxalq və daxili turizmin inkişafının məqsədli proqramlarını hazırlamaq, turizm infrastrukturunun və sənayesinin inkişafına dair, ölkə ərazisində turizm zonalarının və turizm xidməti sahələrinin yaradılmasına investisiyanın cəlb olunması sahəsində öz səlahiyyətləri daxilində tədbirlər görmək funksiyalarını daşıyır.

Mədəniyyət və Turizm Nazirliyi təşkil olunduğu ildən dövlət rəhbərliyi tərəfindən mədəniyyət və turizmlə bağlı qəbul edilən qərarlar bu sahələrin ahəngdar inkişafına, əldə olunan bir çox nailiyyətlərə mühüm zəmin yaradıb. Ötən illərdə imzalanmış prezident fərmanları və sərəncamları, qəbul olunmuş qanunlar və dövlət proqramları bunun bariz təsdiqidir. Nazirlik yarandığı gündən etibarən mədəniyyət və incəsənətimizin dünyada təbliği və tanıdılması, mədəni irsin qorunması, nəşriyyat işi, mədəniyyət obyektlərinin, yeni kitabxanaların tikintisi, yenidən qurulması və müasir avadanlıqlarla təchiz olunması sahəsində konkret tədbirlər görülür.

Bir çox uğurlu mədəniyyət proqramlarını reallaşdıran Heydər Əliyev Fondu ilə daha çox müştərək tədbirlərin keçirilməsi böyük uğurların əldə olunmasına səbəb olmuşdur.

2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin yaradılması haqqında" Fərman imzalamışdır.

Mədəniyyət və Turizm Nazirliyinin apardığı uğurlu siyasət nəticəsində mədəniyyətin və turizmin inkişafında böyük dəyişikliklər baş vermişdir. Son illər respublikamızda kitab nəşri, kitabxana işi, milli ədəbiyyatın təbliği sahəsində bir sıra uğurlar əldə edilmişdir. Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə hər il görkəmli mütəfəkkir və ədiblərin yubileyləri qeyd edilir, yerli və beynəlxalq kitab sərgilərində, regionlarda kitab bayramlarında nazirliyin iştirakı ilə Azərbaycan kitabı uğurla təmsil olunur. Qeyri-maddi mədəni irsin qorunması, təbliği və təşviqi məqsədilə Mədəniyyət və Turizm Nazirliyi tərəfindən həyata keçirilən "2010-2014-cü illər üçün Xalq Yaradıcılığı Paytaxtları" proqramı uğurla başa çatmışdır.

Nazirlik dövlətlərarası müqavilələrə uyğun olaraq Avropa, Asiya və İslam ölkələri, ABŞ və Latın Amerikası ölkələri ilə beynəlxalq mədəniyyət proqramlarını həyata keçirir.

Çoxtərəfli əməkdaşlıq çərçivəsində BMT, MDB, GUAM, Qaradəniz İqtisadi Əməkdaşlıq Təşkilatı, Avropa İttifaqı, İslam Konfransı Təşkilatı, YUNESKO, Dünya Turizm Təşkilatı, TÜRKSOY, İSESKO və digər beynəlxalq qurumlar vasitəsi ilə Azərbaycan mədəniyyətini dünyada təbliğ edir, eyni zamanda dünya mədəni sərvətlərinin ölkəmizdə tanıdılması sahəsində əhəmiyyətli proqramlar həyata keçirir.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin mətbu orqanları olan "Mədəniyyət" qəzeti və "Mədəniyyət.az", "Baku Guide" jurnalları vasitəsilə mədəniyyət, incəsənət və turizm sahəsində bütün yeniliklər, mühüm məlumatlar geniş ictimaiyyətin diqqətinə çatdırılır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Prezidentinin 2006-cı il 18 aprel tarixli 393 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 sentyabr 2014-ci il //Azərbaycan.- 2014.- 13 sentyabr.- S.4.

Mədəniyyət və turizm fəaliyyətinə dair qanunlar toplusu /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; burax. məs. A.Əhmədzadə.-Bakı: Səda, 2007.-197 s.

Mədəniyyət və Turizm Nazirliyi haqqında Əsasnamə .-Bakı: Qanun, 2006.-15 s.

Qarayev, Ə. Ölkəmizin dinamik inkişafı mədəniyyət və turizm sahələrində də əksini tapır /Əbülfəs Qarayev //Azərbaycan.-2015.- 30 yanvar.- S.5.

www.mct.gov.az

1 fevral
Gün çıxır 07:51
Gün batır
18:16
28 fevral
Gün çıxır 07:17
Gün batır 18:47

FEVRAL

21 yanvar-
18 fevral

Dolça - nişanı havadır. Saturn və Uranın himayəsindədir. Günəşin Dolça bürcündən keçdiyi dövrdə doğulanlar xaraktercə emosional, təbiətcə həssas olurlar.

B.E.	1
Ç.A.	2
Ç.	**3**
C.A.	4
C.	5
Ş.	6
B.	7
B.E.	8
Ç.A.	9
Ç.	**10**
C.A.	11
C.	12
Ş.	13
B.	14
B.E.	15
Ç.A.	16
Ç.	**17**
C.A.	18
C.	19
Ş.	20
B.	21
B.E.	22
Ç.A.	23
Ç.	**24**
C.A.	25
C.	**26**
Ş.	27
B.	28
B.E	29

- *Gənclər Günü (02.02.1997)*
- *Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)*
- ***Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992)***
- *Beynəlxalq Ana Dili Günü (21.02.1999)*
- ***Xocalı Soyqırımı günü (26.02.1992)***

875 il Nizami Gəncəvi 1141-1209



Nizami Gəncəvi yaradıcılığı səkkiz əsrdən artıqdır ki, xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmişdir. Böyük sənətkarın bütün həyatı və zəngin ədəbi fəaliyyəti həmin dövrdə təkcə Azərbaycanın və Qafqazın ən iri şəhəri deyil, eyni zamanda, Yaxın və Orta Şərqin mühüm mədəniyyət mərkəzi kimi tanınan Gəncə ilə bağlıdır. Şair ömrü boyu burada yaşayıb yaratmış və dünya poeziyasına bir-birindən dəyərli söz sənəti inciləri bəxş etmişdir. Nizami Gəncəvi ümumbəşəri mahiyyət daşıyan, ecazkar poetik qüvvəyə malik yaradıcılığı ilə Şərq bədii təfəkküründü elmi-fəlsəfi fikirlərlə zənginləşdirmiş və şeiriyyəti görünməmiş yüksəkliklərə qaldırmışdır. Mütəfəkkir şairin məşhur "Xəmsə"si insanlığın mənəvi sərvətlər xəzinəsinin zirvəsində dayanaraq dünya ədəbiyyatının şah əsərləri sırasında layiqli yer tutur. Qüdrətli söz ustasının bəşəriyyətin bədii fikir salnaməsində yeni parlaq səhifə açmış ölməz əsərləri bu gün də insanların mənəvi-əxlaqi kamilləşməsinə misilsiz xidmət göstərir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

FEVRAL

2016

Milli ədəbiyyat

Xalq şairi Həsənzadə Nəriman Əliməmməd oğlunun (18.02.1931) anadan olmasının 85 illiyi **40**

Əməkdar incəsənət xadimi, yazıçı Talıbzadə Abdulla Mustafa oğlunun (Abdula Şaiq) (24.02.1881-24.07.1959) anadan olmasının 135 illiyi **41**

Xalq yazıçısı Vəliyev Əli Qara oğlunun (27.02.1901- 02.02.1983) anadan olmasının 115 illiyi **42**

Dünya ədəbiyyatı

Özbək şairi, mütəfəkkiri və dövlət xadimi Nəvai Nizaməddin Mirəlişir oğlunun (Əlişir Nəvai) (09.02.1441- 03.01.1501) anadan olmasının 575 illiyi **43**

Tatar şairi Cəlilov Musa Mostafa oğlunun (Musa Cəlil) (15.02.1906-25.08.1944) anadan olmasının 110 illiyi **44**

Rus yazıçısı Leskov Nikolay Semyonoviçin (16.02.1831-05.03.1895) anadan olmasının 185 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Rus mənzərə rəssamı, realist mənzərə janrının banilərindən biri Şedrin Silvestr Feodosiyeviçin (13.02.1791-08.11.1830) anadan olmasının 225 illiyi

Xalq rəssamı, Əməkdar incəsənət xadimi, boyakar Mirzəzadə Böyükağa Məşədi oğlunun (21.02.1921-03.11.2007) anadan olmasının 95 illiyi **45**

Xalq rəssamı, Əməkdar incəsənət xadimi Sadıqzadə Oqtay Seyid Hüseyn oğlunun (24.02.1921-20.12.2014) anadan olmasının 95 illiyi **46**

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, bəstəkar Məmmədov Rəşid Rza oğlunun (02.02.1936) anadan olmasının 80 illiyi

Xalq artisti Axundzadə Yusif Yevgenyeviçin (06.02.1946) anadan olmasının 70 illiyi

Əməkdar incəsənət xadimi, bəstəkar Quliyev Məmməd Mehdi oğlunun (09.02.1936-02.10.2001) anadan olmasının 80 illiyi **47**

Xalq artisti, tarzən Mansurov Bəhram Məşədi Süleyman bəy oğlunun (12.02.1911-14.05.1985) anadan olmasının 105 illiyi **48**

Əməkdar incəsənət xadimi, xor dirijoru İmanova Gülbacı Əliəkbər qızının (13.02.1956) anadan olmasının 60 illiyi 49

Əməkdar incəsənət xadimi, bəstəkar Nağıyev Faiq Həbib oğlunun (15.02.1946) anadan olmasının 70 illiyi

Xalq artisti, müğənni İsmayılova Səkinə Qulu qızının (24.02.1956) anadan olmasının 60 illiyi 50

Teatr. Kino

Xalq artisti Qədirov Əliabbas Gülabbas oğlunun (13.02.1946-08.03.2006) anadan olmasının 70 illiyi 51

Xalq artisti Hüseynova Sofiya Həsən qızının (17.02.1926-30.07.2015) anadan olmasının 90 illiyi 52

Əməkdar incəsənət xadimi, kino rejissoru İsmayılov Həbib Ələkbər oğlunun (21.02.1906-31.12.1966) anadan olmasının 110 illiyi 53

Xalq artisti, rejissor Bədəlbəyli Şəmsi Bədəl oğlunun (23.02.1911-23.05.1987) anadan olmasının 105 illiyi 54

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Bəşir Bəylər oğlunun (02.02.1976-17.03.1995) anadan olmasının 40 illiyi 55

Azərbaycanın Milli Qəhrəmanı Hacıyev Etibar Firudin oğlunun (05.02.1971-15.06.1992) anadan olmasının 45 illiyi 56

Siyasət.Hüquq.Hərbi iş

Hərbi xadim, general-mayor Kazımov Əli İmran oğlunun (17.02.1956) anadan olmasının 60 illiyi

Hərbi xadim Şadlinski Abbasqulu bəy Xanbaba bəy oğlunun (24.02.1886-02.1930) anadan olmasının 130 illiyi 57

Fəlsəfə.İqtisadiyyat

Filosof alim Tusi Nəsirəddin Məhəmməd ibn Həsənin (17.02.1201-23.06.1274) anadan olmasının 815 illiyi 58

Tarix

Tarix elmlər doktoru Bağırova İradə Səid qızının (12.02.1956) anadan olmasının 60 illiyi

Mədəniyyət.Maarif.Təhsil

İctimai xadim, dilçi, jurnalist, tərcüməçi Hacıbəyli Ceyhun bəy Əbdülhüseyn oğlunun (02.02.1891-22.10.1962) anadan olmasının 125 illiyi 59

Maarifçi, pedaqoq Cuvarlı (Cuvarlinski) Cavad Nəcəf bəy oğlunun

(15.02.1886-1963) anadan olmasının 130 illiyi
Akademik, sənətşünas alim Salamzadə Əbdülvahab Rəhim oğlunun (16.02.1916-19.08.1983) anadan olmasının 100 illiyi 60 61

Coğrafiya.Geologiya

Geologiya-mineralogiya elmləri doktoru, professor Əlizadə Zəkəriyyə Mabud oğlunun (04.02.1936) anadan olmasının 80 illiyi
Akademik, geoloq Əzizbəyov Şamil Əbdürrəhim oğlunun (16.02.1906-14.05.1976) anadan olmasının 110 illiyi 62

Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Yaqubov Məmməd Haqverdi oğlunun (02.02.1941) anadan olmasının 75 illiyi 63

Kimya.Biologiya.Tibb

Görkəmli oftalmoloq, tibb elmləri doktoru, professor Məlik-Aslanova Püstə Süleyman bəy qızının (02.02.1926-2001) anadan olmasının 90 illiyi 64

Texnika.Mühəndis işi

Metallurgiya sahəsində alim, texnika elmləri doktoru, professor Qasımzadə Nadir Hacı Yusif oğlunun (23.02.1911) anadan olmasının 105 illiyi
Dünya şöhrətli alim, qeyri-səlis məntiq nəzəriyyəsinin yaradıcısı, professor Ələsgərzadə Lütfəli Rəhim oğlunun (Lütfi Zadə) (04.02.1921) anadan olmasının 95 illiyi 65

Kitabxanaşünaslıq.Biblioqrafiya

Pedaqoji elmlər namizədi, dosent, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü İsmayılov Nadir İslam oğlunun (05.02.1956) anadan olmasının 60 illiyi 66

İdman

Əməkdar bədən tərbiyəsi və idman xadimi, Fəxri bədən tərbiyəsi və idman əlaçısı Abdul-Qədirov İsmayıl Qafar oğlunun (15.02.1936) anadan olmasının 80 illiyi 67

Tarixdə bu gün

Gənclər Günü (02.1997) 68
Gənclərin I Ümumrespublika Forumunun (02.02.1996) keçirilməsinin 20 ili
Ümumdünya Xərçənglə Mübarizə Günü (04.02)
Azərbaycan SSR Ali Sovetinin sessiyasında «Azərbaycan Respublikası» adı və üçrəngli bayrağı təsdiq edilmişdir (05.02.1991)
Beynəlxalq İnternet Təhlükəsizliyi Günü (09.02.2004)

Azərbaycan Televiziyasının fəaliyyətə başlamasının 60 ili (14.02.1956)
Azərbaycan Hərbi Hava Qüvvələri Günü (14.02.1992)
Azərbaycan qadınlarının birinci qurultayının keçirilməsinin (08(11).02.1921) 95 illiyi
Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü (17.02.1992) **69**
Azərbaycanda ilk rəsmi telefon xəttinin ("Nobel qardaşları cəmiyyəti" tərəfindən) (18.02.1881) çəkilməsinin 135 illiyi
Beynəlxalq Ana Dili Günü (21.02.1999) **70**
Xocalı Soyqırımı günü (26.02.1992) **71-72**
Bakıda I Beynəlxalq Türkoloji Qurultayın (26.02-06.03.1926) keçirilməsinin 90 illiyi **73-74**

QAN YADDAŞIMIZ!

Vətən torpaqları bizi gözləyir!

1988-ci ilin fevral ayından Ermənistanın Azər-baycan Respublikası ərazisinə qarşı təcavüzünə, Azərbaycan torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğalına başlanmışdır. Ermənistan Respublikası "Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında" Haaqa Konvensiyasının və "Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında" Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur.

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının Dağlıq Qarabağ ərazisi və onun ətrafındakı 7 inzibati rayon işğal edilmişdir.

Beləliklə, Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 10 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizləmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir.

İşğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln m²-dən artıq olan 150 min yaşayış binası dağıdılmış, 4366 sosial mədəni obyekt, 695 tibb ocağı məhv edilmişdir.

İşğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı, hidrotexniki qurğular, bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq Muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspoziyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix Muzeyinin, Ağdamdakı Çörək Muzeyinin, Zəngilandakı Daş Abidələr Muzeyinin də aqibəti belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

1988-1993-cü illərdə işğal edilmiş Azərbaycan əraziləri:

Dağlıq Qarabağ: işğal tarixi – 1988-1993-cü illər, ərazisi 4,4 000 km²

Xankəndinin işğal tarixi - 28 dekabr 1991-ci il (ərazisi - 1043 km², əhalisi-57000)
Xocalının işğal tarixi - 26 fevral 1992-ci il (ərazisi - 936 km², əhalisi-25332)
Şuşanın işğal tarixi - 8 may 1992-ci il (ərazisi - 289 km², əhalisi-31499)
Laçının işğal tarixi - 17 may 1992-ci il (ərazisi – 1835 km², əhalisi 72 228)
Xocavəndin işğal tarixi - 2 oktyabr 1992-ci il (ərazisi - 1458 km² , əhalisi-41 725)
Kəlbəcərin işğal tarixi - 2 aprel 1993-cü il (ərazisi - 3054 km², əhalisi-85 228)
Ağdərənin işğal tarixi - 7 iyul 1993-cü il (ərazisi - 1705 km², əhalisi-14000)
Ağdamın işğal tarixi - 23 iyul 1993-cü il (ərazisi - 1 154 km², əhalisi-175400)
Cəbrayılın işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1049 km², əhalisi-54430)
Füzulinin işğal tarixi - 23 avqust 1993-cü il (ərazisi - 1386 km² , əhalisi-105000)
Qubadlının işğal tarixi - 31 avqust 1993-cü il (ərazisi - 802 km², əhalisi-37 400)
Zəngilanın işğal tarixi - 29 oktyabr 1993-cü il (ərazisi - 707 km², əhalisi-33900)

85 illiyi Nəriman Həsənzadə 1931

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 7 cilddə /N.Həsənzadə.-Bakı: Prometey, 2010.-C.1.-811 s.; C.2.-2010.-736 s.; C.3.-2011.-354 s.; C.4.- 2010.-260 s.; C.5.-2011.-606 s.

İllər... pillələr... talelər... /N.Həsənzadə; red. N.Həsənzadə.- Bakı: Oğuz eli, 2011.-200 s.

Nizami: Müasirim haqqında poema /N.Həsənzadə.-Tehran: Alp, 2010.-85 s.

Mustafayeva, E. Nəriman Həsənzadənin yaradıcılığında tarixilik və müasirlik: filol. e. üzrə fəls. d-ru elmi dər. al. üçün təq. ed. dis.: 10.01.01. /E.Mustafayeva; AMEA, Nizami ad. Ədəbiyyat İntu.-Bakı, 2010.-121 s.

Nəriman Həsənzadə haqqında yazılanlar /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; tərt. N.Həsənzadə; red. G.Əmrullahqızı.- Bakı: [Nağıl Evi], 2012.- K.I.-570 s.

www.anl.az
www.az.wikipedia.org

Nəriman Əliməmməd oğlu Həsənzadə 1931-ci il fevral ayının 18-də Qazax rayonunun Poylu stansiyasında anadan olmuşdur. O, ibtidai və orta təhsilini öz rayonunda, ali təhsilini isə 1949-1953-cü illərdə indiki Gəncə Dövlət Pedaqoji Universitetinin filologiya fakültəsində almışdır.

1961-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirərək ikinci ali təhsil almış, Moskvada ikiillik Ali Ədəbiyyat Kurslarında oxumuşdur. 1962-1965-ci illərdə Azərbaycan Dövlət Universitetinin "Azərbaycan ədəbiyyatı tarixi" kafedrasının aspirantı olmuş, 1965-ci ildə dissertasiya müdafiə edərək elmlər namizədi alimlik dərəcəsi almışdır.

1962-ci ildə Respublika Televiziya və Radio Verilişləri Komitəsində böyük redaktor, 1976-1990-cı illərdə "Uşaq və Gənclər ədəbiyyatı nəşriyyatı"nda redaktor, "Azərbaycan gəncləri" qəzetində, "Azərbaycan" jurnalında şöbə müdiri, "Ədəbiyyat və incəsənət" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır. 1991-2001-ci illərdə mətbuat və informasiya nazirinin birinci müavini vəzifəsində çalışmışdır. 1954-cü ildə Azərbaycan Yazıçılar İttifaqının (Birliyinin), sonralar isə İdarə Heyətinin üzvü seçilmişdir. 1991-1995-ci illərdə millət vəkili olmuşdur.

Hal-hazırda Milli Aviasiya Akademiyasında Humanitar fənlər kafedrasının müdiri vəzifəsində çalışır, Elmi Şuranın üzvüdür. 2004-cü ildə Azərbaycan yazıçılarının XI qurultayında katibliyin qərarı ilə Ədəbiyyat Fondu İdarə Heyətinin sədri təyin edilmişdir.

2002-ci ildə Beynəlxalq Elmlər Akademiyasının (Azərbaycan bölməsi) müxbir üzvü, 2004-cü ildə akademiki seçilmişdir.

Mətbuatda 1953-cü ildən çıxış edir. Əsərləri keçmiş SSRİ və bir çox xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir.

Nəriman Həsənzadə epik-dramatik poemalar müəllifi kimi də tanınmışdır: "Nəriman" "Zümrüd quşu" "Kimin sualı var?" və s. poemaları iki dildə (Azərbaycan və rus) nəşr edilmişdir.

Onun "Bütün Şərq bilsin" pyesi əvvəlcə Sumqayıt Dövlət Dram Teatrında (1980), sonra Akademik Milli Dram Teatrında (1982), Moskvanın V.Mayakovski adına Akademik Dram Teatrında (1983) göstərilmiş və mükafatlandırılmışdır. "Atabəylər" (1984) və "Pompeyin Qafqaza yürüşü" (1997) mənzum pyesləri Akademik Milli Dram Teatrında və Naxçıvan MR Dövlət Musiqili Dram Teatrında tamaşaya qoyulmuşdur. Xalq şairi 34 bədii - poetik toplunun, 2010-cü ildən nəşr edilən yeddicildlik "Seçilmiş əsərləri"n, "Tariximiz, taleyimiz" adlı irihəcmli elmi-ədəbi-tənqidi məqalələr toplusunun, "Poylu - beşiyim mənim" (2007), "Nuru Paşa" (2010), "İllər... pillələr... talelər..." (2011) kitablarının müəllifidir. 100-dən artıq şeirinə musiqi bəstələnmişdir. Bəstəkar R. Mustafayevlə "Nəriman" və N.Əliverdibəyovla "Vətən" kantatalarını işləmişdir. Xalq şairi Nəriman Həsənzadənin xarici mətbuat səhifələrində "Vətənsiz" (Rumıniya, 2009) və "Nuru Paşa" (Türkiyənin 9 jurnalında) poemaları dərc edilmişdir.

Nəriman Həsənzadənin yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Əməkdar incəsənət xadimi", 2005-ci ildə isə "Xalq şairi" fəxri adlarına layiq görülmüşdür.

2001-ci ildə "Şöhrət" ordeni, 2011-ci ildə "Şərəf" ordeni ilə təltif edilmişdir. Azərbaycanın və Belarusun Fəxri Fərmanları ilə təltif olunmuşdur. Fərdi prezident təqaüdçüsüdür.

135 illiyi Abdulla Şaiq 1881-1959

Yazıçı

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 3 cilddə /A.Şaiq; tərt. ed. K.Talıbzadə.-Bakı: Avrasiya Press, 2005.-C.1.-496 s.; C.2.-568 s.; C.3.-536 s.

Xatirələrim /A.Şaiq; [red. R.Hacıyeva].-Bakı: Gənclik, 1973.-363 s.

Tıq-tıq xanım /A.Şaiq-[Bakı]: [Beşik], [2009].-30 s.

Abdulla Şaiq: kitab-albom /T.Əhmədov; layih. rəhb. Ə.Qarayev; red. Ü.Talıbzadə; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: E.L. Nəşriyyat Poliqrafiya Şirkəti MMC, 2009.-124 s.

Əsədli, M. Abdulla Şaiq və teatr: 1910-1958 /Minəxanım Əsədli; elmi red. və ön söz. müəl. K.Talıbzadə.-Bakı: Nurlan, 2003.- 154 s.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.elyazmalarinstitutu.com

Abdulla Mustafa oğlu Talıbzadə (Abdulla Şaiq) 1881-ci il fevral ayının 24-də Tiflisdə ruhani ailəsində anadan olmuşdur. İlk təhsilini şəhər müsəlman məktəbində almış, 1893-cü ildə ailə vəziyyəti ilə əlaqədar olaraq Xorasana gəlmiş və dövrünün mütərəqqi ziyalısı Yusif Ziyanın məktəbində təhsilini davam etdirmişdir. On doqquz yaşlı Abdulla Xorasanda mükəmməl təhsil almış, tarix, məntiq, psixologiya elmlərini, Şərq, Azərbaycan, rus ədəbiyyatını öyrənmişdir. A.Talıbzadə 1901-ci ildə Bakıya gəlmiş və 1934-cü ilədək müəllimlik etmişdir.

Abdulla Şaiqin ilk mətbu əsəri "Laylay" adlı uşaq şeiri olmuşdur. O, 1906-cı ildən milli uşaq poeziyasının incilərini yaratmış, şeirləri "Dəbistan" və "Məktəb" uşaq-gənclər toplularında işıq üzü görmüşdür. O, "Nicat" cəmiyyətinin idarə heyətinə üzv seçilmiş, ədəbi-bədii problemlərlə, maarif və məktəb işləri ilə məşğul olmuşdur.

Abdulla Şaiq çoxcəhətli ədəbi, pedaqoji və elmi fəaliyyətlə məşğul olmuşdur. İnqilabdan əvvəlki yaradıcılığında romantizm meyilləri duyulmuş, lirik şeirlərində azadlıq, tərəqqi arzuları, nikbinlik, mübariz ruh əsas yer tutmuşdur. "Məktub yetişmədi" (1908) hekayəsi və "Əsrimizin qəhrəmanları" (1913-1918) povestində iqtisadi-ictimai bərabərsizlik, xalqın ağır və faciəli həyatı əks edilmişdir. "Bizimdir" (1923), "Azadlıq pərisinə" (1925), "Zərbəçi" (1933), "Döyüş nəğməsi", "Vətən nəğməsi" kimi şeirlərində yeni həyatın, vətənin, əməkçi insanların tərənnümünə xüsusi yer verilmişdir. Azərbaycan nəsrində tarixi roman janrının inkişafında mühüm addımlardan olan "Araz" (1938) romanında Bakı proletariatının inqilabi mübarizəsi, "İldırım" dramında (1926) Azərbaycan kəndində baş verən ictimai toqquşmalar təsvir olunmuşdur.

Abdulla Şaiq Azərbaycan uşaq ədəbiyyatının görkəmli nümayəndələrindəndir. "Tülkü həccə gedir", "Yaxşı arxa", "Tıq-tıq xanım", "Şələquyruq" mənzum hekayələrində gözüaçıqlıq, təvazökarlıq, doğruçuluq, təbiəti sevmək təbliğ edilir. "Gözəl bahar", (1910), "El oğlu" (1939), "Vətən" (1941), "Nüşabə" (1945), "Ana" (1946) pyesləri gənc nəsildə vətənpərvərlik tərbiyəsinin aşılanmasına həsr olunmuşdur. "May nəğməsi", "Top oyunu", "Bənövşə", "Qərənfil", "Bülbül" kimi uşaq şeirləri, nağıl və poemaları bu gün də öz dəyərini saxlayır. Onun poeziyası qəhrəmanlıq, xəlqilik, vətənpərvərlik və gözəllik poeziyasıdır, uşaq şeirləri elə o zamandan dərslik, proqram və oxu kitablarının bəzəyi olmuşdur. O, həm də 1910-cu ildə yazdığı "Gözəl bahar" pyesi ilə milli uşaq teatrının özülünü qoymuşdur.

Abdulla Şaiqin xalq maarifi sahəsində mühüm xidmətləri olmuş, "Uşaq çeşməyi" (1907), "Gülzar" (1912), "Milli qiraət kitabı" (1922), "Qiraət kitabı" (1924) və s. dərsliklər yazmış, ali məktəblərdə mühazirələr oxumuşdur.

Görkəmli ədib tənqid və ədəbiyyatşünaslıq sahəsində də çalışmış, M.Füzuli, İ.Nəsimi, M.P.Vaqif, M.F.Axundov, M.Ə.Sabir, A.Səhhət, H.Cavid, M.Hadi haqqında elmi məqalələr dərc etdirmişdir. Dünya ədəbiyyatı ilə yaxşı tanış olmuş, rus və fars dillərini mükəmməl bilmiş, Nizami, Şekspir, Defo, Krılov, Puşkin, Lermontov, Qorki və başqalarından tərcümələr etmişdir.

Ədəbiyyat sahəsindəki fəaliyyətinə görə 1940-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Abdulla Şaiq 1959-cu il iyul ayının 24-də Bakıda vəfat etmişdir.

Azərbaycan Dövlət Kukla Teatrına Abdulla Şaiqin adı verilmiş, ev-muzeyi yaradılmış, Bakı küçələrindən biri və bir neçə kitabxana onun adı ilə adlandırılmışdır.

115 illiyi

Əli Vəliyev 1901-1983

Yazıçı

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Vəliyev; tərt. T.Qaraqaya; red. U.Rəhimoğlu.- Bakı: Avrasiya Press, 2005. - 320 s.

Budağın xatirələri /Ə.Vəliyev; red. A.Məsud; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: İrfan, 2012.- K.I.- 445 s.; K.II.-490 s.
Qəhrəman: [roman] /Ə.Vəliyev.-Bakı: Gənclik, 1983.-316 s.

Əli Vəliyev: biblioqrafik göstərici /H.Həmidova, Q.Məmmədov.- Bakı: Yazıçı, 1982.-146 s.

Yadda qalan xatirələr: [Ə.Vəliyev haqqında] /tərt. ed. S.Vəliyeva.-Bakı: Azərbaycan Tərcümə Mərkəzi, 1996.- 240 s.

İ n t e r n e t d ə

www.anl.az
www.azerbaycanli.org
www.az.wikipedia.org
www.azyb.net
www.adam.az

Əli Qara oğlu Vəliyev 1901-ci il fevral ayının 27-də keçmiş Zəngəzur qəzasının Ağudi kəndində anadan olmuşdur. İlk təhsilini doğulduğu kənddə almış, 1917-ci ildə 3 sinifli rus məktəbini bitirmiş, 1923-cü ildə Şuşa firqə məktəbinə daxil olmuş, sonra Bakı mərkəzi firqə məktəbində və müharibəçilər qrupunda təhsilini davam etdirmişdir. Yay pedaqoji kurslarında təhsilini artırmış və Şuşada orta təhsil haqqında sənəd almışdır. 1928-ci ildə Azərbaycan Dövlət Darülfünunun (indiki BDU) pedaqoji fakültəsinin tarix-ictimaiyyət şöbəsinə daxil olmuş, 1931-ci ildə oranı bitirmişdir. 1933-1934-cü illərdə "Şərq qapısı" qəzetinin redaktoru olmuşdur. 1935-1937-ci illərdə Azərbaycanın bir sıra rayonlarında partiya işində, 1937-1941-ci illərdə Azərbaycan Sovet Yazıçıları İttifaqında (indiki AYB), Azərbaycan İncəsənət İşçiləri İttifaqında, Voroşilov Rayon İcraiyyə Komitəsində (indiki Səbail rayonu) məsul vəzifələrdə çalışmışdır.

1942-1945-ci illərdə "Kommunist" qəzetinin redaktor müavini, 1945-1950-ci illərdə məsul redaktoru vəzifəsində, 1950-1954-cü illərdə Azərbaycan Yazıçılar İttifaqının məsul katibi, 1954-1959-cu illərdə "Azərbaycan" jurnalının məsul redaktoru vəzifəsində çalışmışdır.

Yaradıcılığa Bakı mərkəzi firqə məktəbində oxuyarkən başlamış, fəal fəhlə-kəndli müxbiri kimi "Kommunist", "Kəndli", "Gənc işçi", "Yeni fikir" qəzetlərinin səhifələrində müxtəlif məqalələrlə çıxış etmişdir. 1930-cu ildə "Allahın səyahəti" və "Nənəmin cəhrəsi", 1937-1941-ci illərdə "Qarlı dağlar", "Qəhrəman", "Ordenli çoban" və "Sübut" kitabları çap olunmuşdur.

1941-1942-ci illərdə Böyük Vətən müharibəsi cəbhələrində yazıçı-jurnalist kimi iştirak etmiş, "Cəbhə hekayələri" kitabını yazmışdır. 1954-cü ildə "Gülşən" povesti və "Çiçəkli" romanı M.F.Axundov adına Respublika Dövlət mükafatına layiq görülmüşdür. 1959-cu ildə rus dilində "Ürək dostları" romanı, 1960-1970-ci illərdə "Seçilmiş əsərləri"nin II-VI cildləri, görkəmli söz ustası S.Rəhimovun anadan olmasının 60 illiyinə həsr edilmiş "Xalq yazıçısı" monoqrafiyası, "Turaclıya gedən yol", "Budağın xatirələri" (Azərbaycan və rus dillərində) romanları, "Zəngəzur qartalları", "Bir cüt tərlan" povestləri, "Uşaqlara sovqat", "Əziz nəvələrimə", "Anaqız", "Bir cüt ulduz" nağıl və hekayələri, 1971-ci ildə "Samovar tüstülənir", "Gəncliyimi tapdım" (rus dilində), povest və hekayələr kitabları, 1972-ci ildə "Durna qatarı" oçerklər kitabı nəşr edilmişdir.

1974-cü ildə 2 kitabdan ibarət "Budağın xatirələri" romanı, 1975-ci ildə "Yeni həyat" hekayələr kitabı, 1976-cı ildə "Zamanın ulduzları", "İstedad" (rus dilində) povest və hekayələr kitabları, 1977-1980-ci illərdə "Qarabağda qalan izlər", "Narahat adam" romanları, "Qənirsiz gözəl", "Zamanın ulduzları" (rus dilində) povest və hekayələri, "Şamama Həsənova" oçerki çap olunmuş, bir sıra povest, hekayə, oçerk və ədəbi-tənqidi məqalələri dövri mətbuatda dərc edilmişdir.

1945-ci ildə "1941-1945-ci illərdəki Böyük Vətən müharibəsində şərəfli əməyə görə" medalı, 1959-cu ildə Qırmızı Əmək Bayrağı ordeni, 1971-ci ildə Lenin ordeni və "Əmək veteranı" medalı, Qızıl qələm mükafatı və "Xalq maarifi əlaçısı" döş nişanı almış, 1974-cü ildə "Azərbaycan SSR Xalq yazıçısı" fəxri adına layiq görülmüş, 1976-cı ildə SSRİ Ali Sovetinin Rəyasət heyətinin Fəxri fərmanı, 1981-ci ildə Oktyabr İnqilabı ordeni ilə təltif olunmuşdur.

Əli Vəliyev 1983-cü il fevral ayının 2-də Bakı şəhərində vəfat etmişdir.

Dünya ədəbiyyatı

575 illiyi

Əlişir Nəvai
1441-1501

Özbək şairi

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Nəvai.- Bakı: Öndər nəşriyyat, 2004.- 423 s.

Mühakəmətül-lüğateyn- İki dilin mübahisəsi: Cağatay türkcəsindən tərcümə /Ə.Nəvai; tərc. və ön söz. müəl. K.V.Nərimanoğlu; red. Ş.Əhmədova.- Bakı: Yurd, 1999.- 64 s.

Əlişir Nəvai Azərbaycan ədəbiyyatşünaslığında: məqalələr toplusu /topl., tərt. ed. və nəşrə hazırl. A.Ülvi; elmi red. V.Arzumanlı; elmi məsl. C.Nağıyeva; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.- Bakı: Qartal, 2009.- 359 s.
Nağıyeva, C. Azərbaycanda Nəvai /C.Nağıyeva.- Bakı: "Tural-Ə" NPM, 2001.- 262 s.
Qasımov, Y. Əlişir Nəvai və yeni özbək poeziyası /Y.Qasımov //Türkologiya: jurnal.- 2013.- №1.- S.33-41.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.kh-davron.uz

Nizaməddin Mir Əlişir oğlu Nəvai (Əlişir Nəvai) Teymurilər sarayına yaxın zadəgan ailəsində 1441-ci il fevral ayının 9-da Heratda anadan olmuşdur.

Təhsilini Herat, Məşhəd və Səmərqənd şəhərlərində almış, şəxsi mütaliəsi nəticəsində dövrünün ən görkəmli alimlərindən biri kimi tanınmışdır. Kiçik yaşlarından özbək və fars dillərində şeirlər yazmış, 15 yaşında şair kimi şöhrət qazanmışdır.

1468-ci ildə məktəb yoldaşı Hüseyn Baykara hakimiyyət başına gəldikdən sonra Nəvai möhürdar təyin olunmuş, 1472-ci ildə vəzir rütbəsinə yüksəlib əmir titulu almışdır. Dövrünün alim, şair, musiqiçi, rəssam və xəttatlarını himayə etmiş, öz hesabına mədrəsə və xəstəxanalar açmış, yollar çəkdirib körpülər saldırmış, kanallar qazdırmış, karvansaralar tikdirmiş, sarayda əməkçi xalqın müdafiəçisi kimi tanınmışdır. Lakin Nəvainin bu nəcib işləri irticaçı dairələrdə narazılıq doğurmuş, şairə böhtan və iftiralar atılmışdır. 1476-cı ildə Nəvai vəzirlikdən imtina etməyə məcbur olmuşdur. Bir müddət Astrabad vilayətinin hakimliyinə göndərilmiş (1487), 1488-ci ildə Herata qayıdaraq, ömrünün axırınadək yaradıcılıqla məşğul olmuşdur.

Əlişir Nəvai 16-sı mənzum, 16-sı mənsur olmaqla bir-birindən dəyərli 32 əsər yazmışdır. "Mühakəmət-ül Lüğəteyn", "Məcalisün-Nəfais", beş məsnəvidən ibarət "Xəmsə" və şeirlərinin topladığı "Divan" onun ən məşhur əsərləridir. "Mühakəmət-ül Lüğəteyn" əsərində türk və fars dilləri müqayisəli şəkildə qarşılaşdırmış, türk dilinin hansı baxımdan üstün olduğunu açıqlamışdır. "Məcalisün-Nəfais" şairlər və ədiblər təzkirəsidir. Bu əsərdə XV əsrdə Türküstan və İranda yetişən şairlərin həyat və yaradıcılıqlarına dair dəyərli məlumatlar verilmişdir. "Xəmsə"sində "Fərhad və Şirin", "Leyli və Məcnun" kimi mənzum romanları, Makedoniyalı İskəndərin həyatından bəhs edən "Səddi-İskəndəri", Sasani hökmdarı Bəhram Gurun həyatından bəhs edən "Səbəy-Səyyarə" adlı tarixi əsərləri, əxlaq və təsəvvüfə dair fikirlərini əks etdirir.

Qəzəllər, müxəmməslər, rübailər, müstəzadlar, müfrədlərdən ibarət divanları isə Orta Asiya türk dilinin ən gözəl nümunələridir. Ə.Nəvai 6 divan yaratmış, ilk şeirlərini "Bədaye ülbidayə" (1470-ci ilin əvvələri) adlı divanında toplamış, 2-ci divanını "Nəvadir ül-nəhayə" (1476-1483) adlandırmışdır. 1498-1499-cu illərdə özbək dilində yazdığı lirik şeirləri "Çahar divan" adlanan 4 cilddə toplanmışdır. Fars dilindəki qəzəlləri isə "Divani-Fani" adı ilə məşhurdur.

Nəvai Azərbaycan ədəbiyyatının klassikləri Xaqani, Nizami və Nəsiminin əsərlərini dərindən öyrənmiş, onlarla məktublaşmışdır. Onun əsərləri bir sıra xalqların dillərinə tərcümə olunmuşdur, əlyazmaları dünyanın ən iri kitabxanalarında mühafizə olunur.

Şairin əsərlərinin süjetləri əsasında çoxlu musiqili əsərlər (opera, balet və s.), həyat və yaradıcılığından bəhs edən bədii əsərlər (Aybəkin "Nəvai" romanı və s.) yaradılmış, haqqında bədii film ("Əlişir Nəvai", 1948) çəkilmişdir. Nəvai şəhəri şairin şərəfinə adlandırılmışdır. Özbəkistanda adına maarif və mədəniyyət müəssisələri, ali məktəb və küçə var.

Əlişir Nəvai 1501-ci il yanvar ayının 3-də Heratda vəfat etmişdir.

Bakıda şairin adına küçə var. Adını daşıyan parkda heykəli ucaldılmışdır. Nəvai irsinin tədqiqatçısı H.Araslıya 1968-ci ildə "Özbəkistan SSR Əməkdar elm xadimi" adı verilmişdir.

Dünya ədəbiyyatı

110 illiyi

Musa Cəlil
1906-1944

Tatar şairi

Musa Mostafa oğlu Cəlilov (Musa Cəlil) 1906-cı il fevral ayının 15-də Orenburq vilayətinin Şarlık rayonundakı Mostafa kəndində anadan olmuşdur. İlk təhsilini mollaxanada alan Musa 1914-1917-ci illərdə Orenburqdakı Hüseyniyyə mədrəsəsində oxumuşdur. 9 yaşında şeir yazmağa başlayan şairin ilk şeiri 1919-cu ildə "Qızıl yıldız" qəzetində çap olunmuşdur. 1919-cu ildə komsomola daxil olmuş və bolşeviklərlə ağqvardiyaçılar arasında gedən savaşda bolşeviklərin sıralarında döyüşmüşdür.

1922-ci ildə Tatarıstanın paytaxtı Kazan şəhərinə gəlmiş və qəzetdə işləməyə başlamışdır.

1925-ci ildə onun şeirlər toplusu "Biz gedirik" adı altında çap edilmiş, elə həmin il Orenburq komsomol komitəsinə işə göndərilmişdir.

İki il Orenburq və Orskidə komsomol işində çalışan şair 1927-1931-ci illərdə Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində təhsil almışdır. Moskvada oxuduğu illərdə komsomolun mərkəzi komitəsinin orqanı olan "Kiçik qardaşlar", "Oktyabr balaları" jurnallarına redaktorluq etmişdir. 1929-cu ildə şairin "İptaşka" şeir kitabı çap olunmuşdur.

1933-1934-cü illərdə Moskvadakı "Kommunist" qəzetinin ədəbiyyat və incəsənət şöbəsinə rəhbərlik edən Musa Cəlilin "Ordenli milyonlar" şeir kitabı çap edilmişdir. 1935-ci ildə o, Moskva Dövlət Universitetində açılan Tatar Opera Studiyasına işə dəvət edilmiş, studiya 1938-ci ildə Tatarıstana köçürüləndə Musa Cəlil də Kazana gəlmiş və ədəbi hissə müdiri vəzifəsində işləmişdir. 1935-1941-ci illərdə yazdığı "Altunsaç", 1940-cı ildə tamamladığı "İldar" librettolarını Tatarıstan Dövlət Opera Balet Teatrına səhnələşdirmək üçün təhvil vermişdir.

Musa Cəlilin şairliyi ilə yanaşı, rəssamlıq qabiliyyəti də olmuş, musiqi istedadı libretto yazmasında ona çox kömək etmişdir. O, bəzi şeirlərinə xalq mahnılarının üslubunda mahnılar da yazmışdır. Musa Cəlil 1939-cu ilin iyulunda Sovetlər Birliyi Yazıçılar İttifaqının Tatarıstan şöbəsinin katibi seçilmişdir.

Lakin İkinci Dünya müharibəsi Musa Cəlilin həyat yolunu tamam dəyişmişdir. 1941-ci ilin yayından Musa Cəlil "Otvaqa" (İgidlik) cəbhə qəzetində hərbi müxbir kimi fəaliyyətə başlamışdır. Onun tərənnüm etdiyi Sovet Ordusu 1942-ci ildə Voloxov cəbhəsində ağır itki verərək şairi yaralı və hərbi müxbiri də səngərdə qoyub geri çəkilmişdir. Beləcə, Musa Cəlilin əsirlik, ailəsinin və qohumlarının isə işgəncəli həyatı başlamışdır.

1944-cü ildə Moabit düşərgəsindəki antifaşist gizli təşkilatın üzvləri Almaniyanın xüsusi xidmət orqanları tərəfindən yaxalanmış, uzun və ağır işgəncəli dindirmələrdən sonra gizli təşkilatın ideoloqu Musa Cəlilin günahkar olduğu sübut edilmiş, 1944-cü il avqust ayının 25-də Berlin yaxınlığındakı Plyotsenze hərbi həbsxanasında öldürülmüşdür. Stalinin ölümündən sonra gizli antifaşist təşkilatlarında Sovetlərin öndə olduğunu göstərmək üçün Musa Cəlilə ölümündən sonra 1956-cı ildə "Sovet İttifaqı Qəhrəmanı" adı verilmiş və şeirləri dünya dillərinə tərcümə edilərək yayılmışdır.

Ədəbiyyat

Moabit dəftəri: şeirlər /M.Cəlil; tərc. ed. X.Rza; ön söz. P.Xəlilov.- Bakı: Yazıçı, 1979.- 275 s.

Mustafin, R. Qəhrəman şairin izi ilə: kitab axtarış /R.Mustafin; tərc. ed. V.Quliyev.- Bakı: Gənclik, 1988.- 196 s.

Abbaslı, T. Ədib. Əsgər. Əsir. Edam. Təqib. Təltif...: [Musa Cəlil haqqında] /T.Abbaslı //Mədəniyyət.- 2011.- 16 fevral.- S.12.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.ali-shamil.tr.gg

95 illiyi Böyükağa Mirzəzadə 1921-2007

Rəssam

Böyükağa Məşədi oğlu Mirzəzadə 1921-ci il fevral ayının 21-də Bakıda anadan olmuşdur. O, Əzim Əzimzadənin rəhbərliyi ilə boyakarlıq sənətinin əsaslarını mənimsəyərək, 1939-cu ildə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirmişdir. 1940-cı ildə Moskva Rəssamlıq İnstitutuna daxil olmuş, lakin müharibənin başlanması səbəbindən təhsilini davam etdirə bilməmişdir. Ancaq 1973-cü ildən Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil ala bilmişdir.

Əmək fəaliyyətinə Azərbaycan Dövlət Rəssamlıq Texnikumunun müəllimi kimi başlamışdır. Ömrünün son günlərinədək pedaqoji fəaliyyətlə məşğul olmuş, Azərbaycan Dövlət İncəsənət İnstitutunda kafedra müdiri və Azərbaycan Rəssamlıq Akademiyasının professoru vəzifələrində çalışmışdır.

Onun rəngkarlıq, qrafika, səhnə rəssamlığı və digər janrlarda, müxtəlif mövzularda yaratdığı əsərlər qiymətli sənət nümunələri kimi rəssamlıq tariximizə həmişəlik daxil olmuşdur.

Portret janrında ustalıqla yaratdığı "Dirijor Niyazinin portreti" (1951), "Gənc rəssamın portreti" (1967), "Ədilənin portreti" (1969), "Şıxəli Qurbanovun portreti" (1969) "Aşıq Ələsgərin portreti" (1972), "Çəhrayı geyimli qız" (1973), "Şəmsi Bədəlbəylinin portreti" (1975), "Bəstəkar Xəyyam Mirzəzadənin portreti" və s. boyakarlıq əsərlərində tarixi şəxsiyyətlərin və müasirlərinin daxili aləmi, xarakteri və mənəvi zənginlikləri bütün dolğunluğu ilə öz əksini tapmışdır. O, güllərlə bağlı natürmortları: "Sarı güllər", "Tüstü ilə natürmort", "Dolça ilə natürmort", "Qızılgüllər", "Güllərlə natürmort", "Bankalı natürmort" rəssamın yaradıcılığında xüsusi yer tutur. Böyükağa Mirzəzadə fırçasının məhsulu olan bu tablo və lövhələr özünün yüksək emosional təsir qüvvəsi ilə seçilir, insanı doğma vətəni və onun təbiətini sevməyə çağırır.

Teatr rəssamı kimi də səmərəli fəaliyyət göstərmişdir. Uzun illər ərzində Azərbaycan teatrında "Qaynana" (1965, Z.Bağırov), "Milyonçunun dilənçi oğlu" (1966, Ş.Qurbanov), "Bayadera" (1973, İ.Kalman), "Mənim günahım" (1967, İ.Əfəndiyev) və s. kimi iyirmiyə yaxın tamaşaya səhnə tərtibatı vermişdir.

Rəssamın əsərləri 1940-cı ildən etibarən Çexoslovakiya, Fransa, İtaliya və onlarca xarici ölkələrin sərgi salonlarında və rəsm qalereyalarında müvəffəqiyyətlə nümayiş etdirilmiş, sənətsevərlərin rəğbətini qazanmışdır.

O, 1960-cı ildə "Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi", 1966-cı ildə Üzeyir Hacıbəylı adına Dövlət mükafatına və 1967-ci ildə isə "Xalq rəssamı" fəxri adına layiq görülmüş, 1998-ci ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Böyükağa Mirzəzadə 2007-ci il noyabr ayının 3-də ömrünün 87-ci ilində vəfat etmişdir.

Ədəbiyyat

Böyükağa Mirzəzadə [İzomaterial]: rəngkarlıq və qrafika /layih. rəhb. R.Həşimov; tərt. E.Məmmədov; bədii tərt. və dizayn T.Qorçu; mətnin müəl. Ş.Məlikova; tərc. E.Triller; red. S.Babullaoğlu; ideya Xalq Bank.- Bakı: Tutu, 2010.- 212 s.

Əliyeva, F. Böyükağa Mirzəzadə: Zamanın sınağından keçmiş rəssam /F.Əliyeva //Mədəniyyət.-2011.- 2 mart.- S.15.

Quliyev, Ə. Azərbaycan rəssamlığında kolorit ustası - Böyükağa Mirzəzadə /Ə.Quliyev //525-ci qəzet.- 2012.- 1 fevral.- S.7.

Mirzəzadə Böyükağa Məşədi oğlu //Cəlil Məmmədquluzadə Ensiklopediyası.- Bakı, 2008.- S.197.

www.anl.az
www.az.wikipedia.org
www.mct.gov.az
www.elibrary.azlib.net

95 illiyi

Oqtay Sadıqzadə 1921-2014

Rəssam



Ə d ə b i y y a t

Oqtay Sadıqzadə [İzo-material]: rəngkarlıq, qrafika lay. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. G.Qacar; ing. dilinə tərc. İ.Peart, S.İbrahimova, Ə.Məlikova; fotolar Ə.Ağasiyev; baş dizayner İ.Eldarova.- Bakı: Sərvət [Şərq-Qərb], 2013.- 104 s.

Qafarzadə, R. Oqtay Sadıqzadə yaradıcılığı Azərbaycan təsviri sənəti kontekstində: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 6215.01 /R.Qafarzadə; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Rəssamlıq Akademiyası.- Bakı, 2013.- 24 s.

Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə //Azərbaycan.- 2014.- 23 dekabr.- S.8; Mədəniyyət.- 2014.- 24 dekabr.- S.2.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.mct.gov.az
www.anspress.com
www.azerbaycanli.org

Oqtay Seyid Hüseyn oğlu Sadıqzadə 1921-ci il fevral ayının 24-də Bakının Novxanı kəndində anadan olmuşdur. Valideynlərini repressiya illərində itirmiş və gənc yaşlarından rəssamlığa maraq göstərməyə başlamışdır.

1935-1939-cu illərdə Bakı Rəssamlıq Texnikumunda təhsil alaraq ilk əsərləri ilə sənətşünasların diqqətini cəlb etmişdir. 1941-ci ildə repressiyaya məruz qalmış ailənin nümayəndəsi kimi sürgün olunmuş, lakin düşdüyü ağır şəraitə baxmayaraq yaradıcılığını davam etdirmişdir.

1946-cı ildə Bakıya qayıtdıqdan sonra kitab qrafikası ilə məşğul olmuş və bu sahədə nəzərə çarpacaq uğurlar qazanmışdır. Təhsilini davam etdirmək üçün Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş və 1956-cı ildə oranı qrafika ixtisası üzrə bitirmişdir.

Təhsilini başa vurduqdan sonra Bakıda Azərnəşrdə bədii redaktor kimi əmək fəaliyyətinə başlayan Oqtay Sadıqzadə dünya təsviri sənətinin nailiyyətlərindən bəhrələnməklə, ədəbi fikrin qüdrətli simalarından Mirzə Fətəli Axundzadə, Hüseyn Cavid, Cəfər Cabbarlı, Rəşad Nuri Güntəkin, Onore de Balzak, Viktor Hüqo, İvan Turgenev, Maksim Qorkinin və digər söz ustalarının əsərlərinin dərin emosional təsir gücünə malik yaddaqalan obrazlarını yaratmışdır.

N.Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin, Milli Azərbaycan Tarixi Muzeyinin, Üzeyir Hacıbəyli, Hüseyn Cavid, Səməd Vurğun və Bülbülün ev-muzeylərinin tərtibatında rəssamın əsərlərinə xüsusi yer verilmişdir. Onun "Nizami Gəncəvi və dünya mədəniyyəti" adlı monumental silsilə əsərləri, Qətran Təbrizinin, Xurşidbanu Natəvanın portretləri, "1937-ci il repressiyasının qurbanları" tablosu və "Hüseyn Cavidin aləmi" adlı rəsmləri obrazların təkrarolunmazlığı, kompozisiya üsullarının müxtəlifliyi və rəngkarlıq həllinin mükəmməlliyi ilə seçilir.

Sənətkarın əsərləri Azərbaycan Dövlət İncəsənət Muzeyində, eləcə də Tretyakov qalereyası kimi mötəbər mədəniyyət mərkəzində nümayiş etdirilir, dünyanın bir çox ölkələrin şəxsi kolleksiyalarında saxlanılır.

Oqtay Sadıqzadə 1977-ci ildə "Əməkdar incəsənət xadimi", 1992-ci ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 1999-cu ildə "Şöhrət", 2011-ci ildə "Şərəf" ordenləri və 2014-cü ildə Azərbaycan Respublikasının Dövlət mükafatı ilə təltif edilmişdir. 2002-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Xalq rəssamı Oqtay Sadıqzadə 2014-cü il dekabr ayının 20-də Bakı şəhərində vəfat etmişdir.

80 illiyi

Məmməd Quliyev 1936-2001

Bəstəkar

Ə d ə b i y y a t

"Dədə Qorqud diyarı" -Azərbaycan [Notlar]: bariton, soprano, xor və simfonik orkestr üçün bir hissəli oratoriya /M.Quliyev.-Bakı, 2002.- 32 s.

Simfoniya-rekviyem (Xocalı şəhidlərinə) [Notlar] /M.Quliyev.- Bakı, 1994.-22 s.

"Şəbi-hicran" [Notlar]: xor və simfonik orkestr üçün romantik poema /M.Quliyev; söz. Füzuli.-Bakı, 2002.-19 s.

Yaxan düymələ: Xalq mahnısı [Notlar] /M. Quliyev .-Bakı, 1995.- 18 s.

İsmayılova, G. Milli musiqi mədəniyyətimizin görkəmli nümayəndəsini xatırlarkən... Məmməd Quliyev - 75// 525-ci qəzet.- 2011.- 12 may.- S.6.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev-foundation.org

www.musigi-dunya.az

Məmməd Mehdi oğlu Quliyev 1936-cı il fevral ayının 9-da Göyçay rayonunda anadan olmuşdur.

1958-ci ildə Bakı Musiqi Texnikumunu tar sinfi üzrə bitirərək Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasına - Qara Qarayevin sinfinə daxil olmuşdur. 1963-cü ildə diplom işi kimi təqdim etdiyi ilk irihəcmli əsəri - I simfoniyası, Dövlət imtahan komissiyası tərəfindən yüksək qiymətləndirilmişdir. XX əsrin 60-cı illərində yaradıcılıq yoluna qədəm qoyan bəstəkarın maraqlı, orijinal və yüksək bədiiliyi ilə seçilən əsərləri nəinki respublikamızda, habelə onun hüdudlarından kənarda da musiqi ictimaiyyətinin diqqətini cəlb etmiş, əsərləri Ümumittifaq müsabiqələrdə, qurultay və plenumlarda uğurla səslənmişdir. Məmməd Quliyev 30 ildən artıq pedaqoji fəaliyyətlə məşğul olmuş, A.Zeynallı adına Bakı Musiqi Kollecində alətşünaslıq, dirijorluq fənlərini tədris etmişdir. İctimai musiqi xadimi kimi Məmməd Quliyev 1966-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının, İdarə Heyətinin üzvü, habelə "Simfonik musiqi bölməsi"nin fəal üzvlərindən biri olmuşdur.

Xalq mahnılarının melodiya və formasını götürüb özünəməxsus şəkildə orkestrləşdirən M.Quliyev, ilk dəfə olaraq Azərbaycan bəstəkarları arasında məhz xalq mahnılarından ibarət "7 Azərbaycan xalq mahnısı" ("Dəli ceyran", "Süsən sünbül", "Yaxan düymələ" və s.) adlı irihəcmli silsilə mahnı bəstələmiş və onu, bu əsərin ilk ifaçısı, Əməkdar incəsənət xadimi, müğənni R.Adıgözəlova ithaf etmişdir. M.Quliyevin 20 pyesdən ibarət olan "Fortepiano üçün albom" əsərində bəstəkar hər muğamı bir pyes şəklində təqdim etmişdir.

M.Quliyev "Aldanmış ulduzlar" (M.F.Axundovun povesti əsasında) operasının, 7 simfoniyanın, instrumental konsertlərin, irihəcmli xor əsərlərinin, o cümlədən "Dədə Qorqud diyarı" (Fikrət Qocanın sözlərinə) kantatasının, "Şəbi-hicran" (Füzulinin sözlərinə) lirik poemanın, kamera-instrumental əsərlərin müəllifidir. Xocalı qurbanlarına həsr olunmuş faciəli "Simfoniya-rekviyem" isə yaşanan ağrılı-acılı hisslərin ifadəsi kimi dəyərləndirilir. Bəstəkar, şair F.Qocanın sözlərinə yazdığı 5 solist, qarışıq xor və simfonik orkestr üçün "Azərbaycan" adlı III simfoniyasındakı solo vokal partiyalarda qədim mərasim mahnısı olan ağıdan bacarıqla və yaradıcı şəkildə istifadə etmişdir.

Yaradıcılığında daim muğam ənənələrinə müraciət etmiş bəstəkar xüsusilə simfonik yaradıcılığında bu üsuldan geniş istifadə etmişdir. Onun 4 saylı "Muğam" simfoniyası, Kamera orkestri üçün "Muğamsayağı" əsərini göstərmək olar.

Görkəmli bəstəkar 1992-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Məmməd Quliyev 2001-ci il oktyabr ayının 2-də Bakıda vəfat etmişdir.

105 illiyi

Bəhram Mansurov 1911-1985

Tarzən

Bəhram Məşədi Süleyman bəy oğlu Mansurov 1911-ci il fevral ayının 12-də Bakıda anadan olmuşdur. Bəhram Mansurov uşaqlıqdan evlərində təşkil olunan musiqi məclislərinin şahidi olub. Babası Məşədi Məlik bəy dövrünün açıq fikirli şəxslərindən biri, həm də istedadlı musiqişünas, mahir çalğıçı idi. Onun tara, musiqiyə olan həvəsini görən atası Məşədi Süleyman Bəhrama həmişə deyərmiş: "Mən hiss edirəm ki, sən tarı birdən-birə çalacaqsan. Sənə öyrətmək lazım deyil". Doğrudan da Bəhram 8 yaşından tarı sinəsinə basaraq uşaq arzularını tarın kövrək tellərinə kökləyir.

Bəhram Mansurovun 19 yaşı olanda Müslüm Maqomayev onu ilk notlu xalq çalğı alətləri orkestrinə, daha sonra isə Opera və Balet Teatrına solist-tarzən kimi dəvət etmişdir.

1929-cu ildən Azərbaycan Dövlət Şərq Orkestrində, sonralar 1931-ci ildə Azərbaycan Radiosu Xalq Çalğı Alətləri Orkestrində fəaliyyət göstərmiş, Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş, 1932-ci ildə isə Opera və Balet Teatrında Hüseynqulu Sarabski, Yavər Kələntərli, Hüseynağa Hacıbabəyov, Əlövsət Sadıqov, Həqiqət Rzayeva kimi korifeylərlə işləmişdir. Rübabə Muradova, Sara Qədimova, Əbülfət Əliyev, Gülxar Həsənova, Zeynəb Xanlarova, Mais Salmanov, Bakir Haşımov, Qulu Əsgərov, Arif Babayev, Baba Mirzəyev və başqa sənətkarları müşayiət etmişdir.

Bəhram Mansurovun ifasında "Çahargah" (1970) və "Rast" (1978) muğamları nota köçürülmüş, 1971-ci və 1975-ci illərdə "Bayatı-Şiraz", "Humayun", "Şur", "Bayatı-kürd", "Çahargah" muğamları ilk dəfə YUNESKO xətti ilə vallara və CD-lərə yazılmış, bütün dünyaya yayılmışdır.

Sadıqcandan sonra klassik Azərbaycan muğamlarını qoruyub saxlayan və təbliğ edən yeganə tarzən idi. Dəfələrlə beynəlxalq simpozium və konsertlərdə Azərbaycan musiqisini təmsil etmişdir. 1978-ci və 1983-cü illərdə Səmərqənddə keçirilən Beynəlxalq Muğam Simpoziumunda Azərbaycan muğamlarını məharətlə dinləyicilərə çatdırmışdır.

Onun ifasında bütün muğamlar, dəraməd, diringə, təsnif və rənglər bəstəkar Eldar Mansurov tərəfindən nota salınmışdır.

Bəhram Mansurovun yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1956-cı ildə "Azərbaycanın Əməkdar artisti", 1978-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1959 və 1967-ci illərdə iki dəfə "Şərəf Nişanı" ordeni, 1976-cı ildə "Əmək veteranı" medalı və digər mükafatlarla təltif edilmişdir.

Görkəmli tarzən Bəhram Mansurov 1985-ci il may ayının 14-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Bəhram Mansurov [Elektron resurs]: Bəhram Mansurovun 100 illik yubileyinə həsr olunmuşdur /Heydər Əliyev Fondu.- Bakı: Çaşıoğlu, 2011.-5 CD; 2 DVD. + Qoşma kitab (23 s.)

Ömür qıysa...: xatirələr /B.Mansurov; tərt. M.Mansurova, E.Mansurov.- Bakı: Səda, 2003.- 161 s.

Xatirələr /tərt. ed. E.Mansurov; red. İ.Dadaşov.- Bakı: EQ, 2005.- 139 s.

Mansurov, E. Mansurovlar: Azərbaycan Respublikasının Xalq artisti, görkəmli tarzən Bəhram Mansurovun anadan olmasının 100 illiyinə ithaf edilir /E.Mansurov; elmi red. İ.Rəhimli.-Bakı: Çaşıoğlu, 2011.- 285 s.

Xəlilzadə, F. Havanı da muğamlardan alırdı /F.Xəlizadə //Azərbaycan.- 2011.- 13 fevral.- S.6.

Sarıyeva, İ. Azərbaycan musiqi mədəniyyətinin beşiyi başında duran soyad - Mansurovlar... /İ.Sarıyeva //Bakı xəbər.- 2014.- 27 noyabr.- S.12.

www.anl.az
www.heydar-aliyev-foundation.org
www.musigi-dunya.az

60 illiyi

Gülbacı İmanova
1956 — Xor dirijoru

Gülbacı Əliəkbər qızı İmanova 1956-cı il fevral ayının 13-də Bakı şəhərində anadan olmuşdur. Azərbaycan Dövlət Konservatoriyasının məzunudur.

1980-cı ildən Bakı Musiqi Akademiyasında (BMA) xor dirijorluğu ixtisasından və xor fənnlərinin metodikasından fənlərini tədris etmişdir. 1989-cu ildən Ş.Məmmədova adına Opera studiyasında baş xormeyster kimi fəaliyyət göstərmişdir.

1993-cü ildən etibarən Bakı Musiqi Akademiyasının Dirijorluq kafedrasında çalışır. 1996-cı ildə Azərbaycan Dövlət Xor Kapellasına bədii rəhbər və baş dirijor vəzifəsinə təyin edilmişdir. Onun repertuarına Azərbaycan və dünya xalqlarının xor musiqisi, o cümlədən Amerika spiriçuelsi, klassik və müasir musiqi əsərləri, xüsusilə F.Əlizadənin "Journey İmmortalitu" oratoriyası daxil edilmişdir.

G.İmanovanın rəhbərliyi altında S.Qunonun "Santa Sesiliya" messası və milli kapellanın ilk dəfə ifa etdiyi V.Adıgözəlovun "Təntənəli kontata"sı kimi əsərlər Azərbaycan səhnəsində ilk dəfə ifa olunmuşdur.

Gülbacı xanım müxtəlif operalara xor partiyaları hazırlamış, "Traviata", "Aida", "Trubadur", "Təlxəklər", "Kənd namusu", "Çar gəlini", "Aleko" və s. tamaşaların xormeysteri olmuşdur.

1999-cu ildən BMA-nın Dirijorluq kafedrasında dosent, sonra professor kimi fəaliyyət göstərmişdir. Müəllimlik etdiyi vaxtdan bir sıra dirijor-xormeyster yetişdirmişdir. Onlar arasında beş magistr, on bakalavr və bir neçə assistent-aspirant var.

1996-cı ildə Gürcüstan respublikasının, 1999-2000-ci illərdə Türkiyə Cümhuriyyətinin fəxri fərmanlarına və mükafatlarına layıq görülmüşdür.

2000-ci ilin oktyabr ayında "Azərbaycanın Əməkdar incəsənət xadimi", 2007-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

2011, 2014-cü illərdə Azərbaycan Respublikası Prezidentinin mükafatı ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Adilə Yusifovanın "Uşaqlara məhəbbətlə" uşaq xoru üçün əsərləri [Notlar]: Xor dirijorluğu ixtisası üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti /A.Yusifova, G.İmanova; red. G.Abdullazadə; rəyçi. S.İbrahimova, Y.Kuzmaxova; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyov ad. Bakı Musiqi Akad.- Bakı: Adiloğlu, 2009.- 100 s.

Xəyyam Mirzəzadənin xor əsərləri: metodik tövsiyələr /G.İmanova; [elmi red.: G.İmanova; C.Həsənova; rəy.: C.Mahmudova, L.Məmmədova]; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Resp. Təhsil Prob. İn-tu; Ü.Haqcıbəyli ad. Bakı Musiqi Akad.- Bakı, 2008.- 16 s.

Xor musiqimizin bu günü Gülbacı İmanova: "Əvvəlki illərlə müqayisədə xora maraq daha yüksəkdir" /G.İmanova; müsah. apardı H.Nizamiqızı //Mədəniyyət.- 2012.- 10 oktyabr.- S.7.

Qadın iradəsi və dirijor idarəsi /G.İmanova; müsah. apardı Ü.Həsənli //Baku Post.- 2013.- 18 sentyabr.- S.10.

Gülbacı İmanova //Qadınlar Azərbaycanın musiqi həyatında /layih. müəl., tərt. və red. A.Bayramova.- Bakı, 2004.- S.102.

İ n t e r n e t d ə

www.anl.az; www.csl-az.com; www.musigi-dunya.az

60 illiyi

Səkinə İsmayılova 1956

Xanəndə

Ədəbiyyat

Birliyimizin nümayişi: Ziyalı sözü - vətəndaş mövqeyi /S.İsmayılova. Xalq artisti//Azərbaycan .- 2015.- 14 may.- S.4.

Əsl tələbə odur ki, müəllimindən irəli getsin /S. İsmayılova. //Üç nöqtə .- 2012.- 14 iyul.- S.13.

Xatun sənətkar... "Muğamı təkcə kişi xanəndələr inkişaf etdirməyib" /S.İsmayılova //Şərq.- 2013.- 25 dekabr.- S.14.

Muğam dünyanı heyrətləndirməkdədir /S.İsmayılova; müsah. apardı G.Allahverdiyeva //Ekran-efir.- 2014.- 28 noyabr. - S. 10.

Muğamı qavalla ifa edən ilk qadın xanəndə /S.İsmayılova; müsah. apardı T.Vahid //Mədəniyyət.- 2011.- 18 fevral.- S.5.

Səkinə İsmayılova //Qadınlar Azərbaycanın musiqi həyatında /layih. müəl., tərt. və red. A.Bayramova.- Bakı, 2004.- S.103.

Səkinə Qulu qızı İsmayılova 1956-cı il fevral ayının 24-də Bakı şəhərində anadan olmuşdur.

1972-ci ildə ümumrespublika "Oxu tar" müsabiqəsində "Yurdumuz geyib əlvan" mahnısını ifa etmiş, müsabiqənin I dərəcəli diplomuna layiq görülmüş, 1973-cü ildə "İstedadlar axtarırıq" müsabiqəsində "Gəl bizə yar" xalq mahnısının ifasına görə müsabiqənin I dərəcəli diplomu və Mədəniyyət Nazirliyinin (indiki Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi) fəxri fərmanı ilə təltif olunmuşdur.

1974-cü ildə Asəf Zeynallı adına Musiqi Məktəbinin muğam sinfində ustad xanəndə, pedaqoq Nəriman Əliyevdən dərs almışdır. Burada təhsilini başa vuraraq Opera və Balet teatrının səhnəsində çıxış etməyə başlamışdır. 1990-cı ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini bitirmişdir.

Xalq mahnıları və muğamların əvəzedilməz ifaçısı olan Səkinə İsmayılova Azərbaycan muğam sənətini İran, Türkiyə, İraq, Səudiyyə Ərəbistanı, Vyetnam, Yaponiya, Hindistan, Avstriya, Almaniya, Hollandiya, İsveç, Fransa, Norveç, Danimarka, Macarıstan, Lüksemburq, ABŞ kimi ölkələrdə dəfələrlə yüksək səviyyədə təmsil etmişdir.

Opera və Balet Teatrının səhnəsində əksər muğam operalarında aparıcı partiyaları "Leyli və Məcnun"-da Leyli, "Əsli və Kərəm" də Əsli, "Gəlin qayası"nda Gülbahar, "Aşıq Qərib" də Şahsənəm, "Vaqif"də xanəndə qız və bir çox digər rollarda uğurla çıxış etmiş və etməkdədir.

Səkinə İsmayılova Milli Konservatoriyanın dosenti, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin baş müəllimidir.

Heydər Əliyev Fondunun dəstəyi ilə Azərbaycan Mədəniyyəti Fondunun layihəsi əsasında Mədəniyyət və Turizm Nazirliyinin yaxından iştirakı və Azərbaycan Televiziyasının təşkilatçılığı ilə keçirilən muğam televiziya müsabiqələrində münsif kimi iştirak etmişdir.

Səkinə İsmayılova müasir Azərbaycan muğam ifaçılığında ilk dəfə olaraq qadın ifaçılardan ibarət olan muğam üçlüyü yaratmışdır. Bir çox xarici ölkələrdə qastrol səfərlərində olan xanəndə Azərbaycan muğamını beynəlxalq səviyyədə təbliğ etmişdir.

2009-cu ilin martında ölkəmizdə ilk dəfə olaraq keçirilən I Beynəlxalq Muğam Festivalında respublikamızı təmsil etmişdir.

1991-ci ildə rejissor və ssenari müəllifi Ş.Ələkbərovun "Qəzəlxan" filmində mahnı ifaçısı kimi, 1995-ci ildə "Hacı Arif" filmində arxiv kadrlarında, 2005-ci ildə rejissor M. Əjdəroğlunun "Nəriman Əliyev"adlı filmində, rejissor A.Qazıyev və ssenari müəllifi R. Zöhrabovun "Xalq Təranələri" filmində iştirak etmişdir.

1988-ci ildə Əməkdar artist, 1992-ci ildə Xalq artisti adına layiq görülmüşdür. Müğənni Prezident mükafatçısı olmuşdur.

70 illiyi

Əlabbas Qədirov 1946-2006

Aktyor

Əlabbas Gülabbas oğlu Qədirov 1946-cı il fevral ayının 13-də Bakıda anadan olmuşdur. Dəmiryolçular klubunda Xalq artisti Ağadadaş Qurbanovun rəhbərlik etdiyi dram kollektivinin üzvü olmuş, aktyorluq vərdişlərinin ibtidai əsaslarını öyrənmişdir.

1965-ci ildə M.Əliyev adına Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Tələbəlik illərində institutun Tədris teatrının ştatlı aktyoru kimi C.Cabbarlının "Aydın" (Surxay), H.Cavidin "Azər", A.Salinskinin "Təbilçi qız" (Fyodr) əsərlərində maraqlı rollar oynamışdır. Elə buna görə də, Ə.Qədirov son kursda oxuyanda Mehdi Məmmədov onu Akademik teatrda quruluş verdiyi H.Cavidin "Xəyyam" faciəsində Yusif roluna dəvət etmişdir. O gündən etibarən o, Milli Dram Teatrının aktyoru olmuş, 26 dekabr 2001-ci ildə teatrın bədii rəhbəri və direktoru təyin edilmişdir.

Aktyor çox sayda teletamaşalarda oynamış, bu tamaşaların bir qismi televiziyanın "Oızıl fond"una daxil edilmişdir. Onlardan S.S.Axundovun, "Laçın yuvası" (Cahangir), M.Muradan "Təkan" (Dilqəm), İ.Əfəndiyevin "Atayevlər ailəsində" (Cahangir), M.F.Axundzadənin "Hacı Qara" (Heydər bəy), Ə.Haqverdiyevin "Bəxtsiz cavan" (Fərhad), M.Bayciyevin "Duel" (İsgəndər), Dazortsevin "Qəbula gələn sonuncu adam" (Kişi) əsərlərini göstərmək olar.

Uzun illər gənclər üçün "Məşəl", sonralar əyləncə xarakterli "Komediyalar aləminə səyahət" verilişlərinin aparıcısı olmuşdur. On yeddi (bədii-sənədli) filmdə çəkilən aktyorun kinoda debütü "Xatirələr sahili" filmindəki İmran roludur. Kinoda ilk böyük rolu isə rejissor G.Əzimzadənin 1974-cü ildə diplom işi kimi çəkdiyi "Nəğmə dərsi" novellasındakı ("Ömrün səhifələri" kinoalmanaxı) ata obrazı, sonuncu rolu isə "Küçələrə su səpmişəm" (2004) filmində oynadığı Çərkəz dayı obrazıdır.

Milli kinoda yaratdığı Mənsur ("Evin kişisi", 1978), Cəlil ("Qızıl uçurum", 1980), Fəzl ("Babək", 1979), Fərid ("Qocalar, qocalar...", 1982), Sultanov ("İşarəni dənizdən gözləyin", 1986) və digər obrazları yaddaqalandırlar. İstedadlı aktyor "Sevinc buxtası" filmində yaratdığı (1977) Nazim roluna görə 1978-ci ildə Respublika Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmişdir, 2000-ci ildən universitetinin professoru idi.

Sənətdə qazandığı nailiyyətlərə görə 1982-ci ildə "Əməkdar artist", 1989-cu ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 2006-cı ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Sevilən sənətçi, Xalq artisti Əlabbas Qədirov 2006-cı il mart ayının 8-də, 60 yaşında vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Kazımzadə, A. İstəklə məqsəd üst-üstə düşəndə... /A.Kazımzadə //Mədəniyyət.- 2011.- 11 fevral.- S.10.

Oktay."Biz gedərik bu dünyadan..." /Oktay //Xalq cəbhəsi.- 2012.- 29 mart.- S.13.

Təranə. Qeyri-adi adam /Təranə //Kaspi.-2011.- 15 fevral.- S.15.

Bürcəliyeva, Ş. Sənət onun həyatı idi /Ş.Bürcəliyeva //Mədəniyyət.- 2013.- 22 fevral.- S. 12.

İ n t e r n e t d ə

www.anl.az
www.adam.az
www.az.wikipedia.org
www.teatrplyus.az

90 illiyi

Sofiya Hüseynova 1926-2015

Aktrisa

Sofiya Həsən qızı Hüseynova 1926-cı il fevral ayının 17-də Bakıda anadan olmuşdur. Orta məktəbi Naxçıvanda bitirmişdir. Şagird vaxtlarında anası, Naxçıvanın ilk aktrisası Xədicə Qazıyeva ilə uşaq rollarında səhnəyə çıxmışdır. Anasının tövsiyəsi ilə 1944-cü ildən teatrın truppasına daxil olmuş, 1945-ci ildə qısa müddət Zaqatala DDT-də işlədikdən sonra yenə Naxçıvana qayıtmışdır.

1942-ci ildən C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının aktrisası olmuşdur. Sofiya xanımın səhnədə ilk rolu Səməd Vurğunun "Vaqif" dramındakı gürcü qızı Tamara olmuşdur.

1950-ci ilin ortalarından başlayaraq S.Hüseynova bir müddət Naxçıvanın "Araz" Dövlət Mahnı və Rəqs Ansamblında rəqs qrupunun solisti kimi də fəaliyyət göstərmişdir.

1954-cü ildə o, yenidən Naxçıvan Teatrının truppasına qayıtmış, 1955-ci ildə İslam Səfərlinin "Göz həkimi" pyesindəki Nərminə və Nəcəf bəy Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" ("Hacı Qənbər") komediyasındakı Cəvahir obrazları ilə tamaşıçıların dərin rəğbətini qazanmışdır. 1962-ci ildə Naxçıvan Dövlət Dram Teatrında yenicə fəaliyyətə başlayan rejissor və aktyor İldırım Cabbarov quruluş verdiyi İskəndər Coşqunun "Komsomol poeması" tamaşasında Humay rolunu ona həvalə etmiş, aktyorluq fəaliyyəti ərzində ilk böyük rolu olan Humayı aktrisa məharətlə ifa etmişdir.

Sofiya xanım müxtəlif səpkili zəngin səhnə obrazları yaratmışdır. Ən yaxşı rolları Gülçöhrə ("Arşın mal alan", Ü.Hacıbəyov), Zalxa ("Toy", S.Rəhman), Ana ("Ana", H.Cavid), Xuraman ("Vaqif", S.Vurğun), Sara ("Solğun çiçəklər", C.Cabbarlı), Kruçinina, Larisa ("Günahsız müqəssirlər", "Cehizsiz qız", A.N.Ostrovski), Xanuma ("Xanuma", A.Saqareli), Tərgül ("Məhsəti", Kəmalə) və s. olmuşdur.

Naxçıvan Teatrında 1966-1986-cı illərdə tamaşaya qoyulmuş rus və Avropa dramaturgiyasının ən gözəl nümunələrində Melita (G.Fiqeryedo "Ezop", 1966), Tatyana (B.Lavrenyov "Hücum", 1967), Nadya (A.Makayonok "Tribunal", 1972), Diana (Lope de Veqa "Nə yardan doyur, nə əldən qoyur", 1974), Kruçinina (A.Ostrovski "Günahsız müqəssirlər", 1984), Klitemnestra (Sofokl "Elektra", 1986) kimi maraqlı və yaddaqalan obrazlar silsiləsi yaratmışdır.

Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin müvafiq fərmanları ilə 1974-cü il iyun ayının 1-də "Azərbaycan Respublikasının Əməkdar artisti", 1982-ci il dekabr ayının 1-də isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. Müstəqillik dövründə də daim dövlət qayğısı ilə əhatə olunmuş, 1996-cı ildə "Şöhrət" ordenilə təltif edilmişdir. Prezident təqaüdçüsü olmuşdur.

Sofiya Hüseynova 30 iyul 2015-ci ildə (89 yaşında) vəfat etmişdir.

Ədəbiyyat

Hüseynova Sofiya Həsən qızı //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.193.

Oktay. Səhnəmizin Sofyası. Sofya Hüseynova maraqlı və yaddaqalan obrazlar silsiləsi yaratmışdır /Oktay //Xalq Cəbhəsi.- 2013.- 18 yanvar.- S.15.

Qasımov, Ə. Səhnəmizin Sofyası /Ə.Qasımov //Qobustan: sənət toplusu.- 2012.- №4.- S.60-63.

Rəhimli, İ. Sofya Hüseynova //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.233.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azcinema2.i2ic.com

110 illiyi Həbib İsmayılov 1906-1966 Kinorejissor

Həbib Ələkbər oğlu İsmayılov 1906-cı il fevral ayının 21-də Naxçıvan MR-da anadan olmuşdur.

1931-ci ildə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) (bəzi mənbələrdə Moskvada Dövlət Teatr Sənəti İnstitutu) rejissorluq və aktyorluq fakültəsini bitirmişdir.

1936-cı ildə Gəncə teatrına bədii rəhbər təyin olunmuşdur. Mirzə Fətəli Axundzadənin "Lənkəran xanının vəziri", Cəlil Məmmədquluzadənin "Ölülər", Cəfər Cabbarlının "1905-ci ildə", Mirzə İbrahimovun "Həyat" pyesləri onun quruluşunda səhnəyə qoyulmuşdur. 1941-1943-cü illərdə Bakı, Gəncə, Mahaçqala teatrlarında bədii rəhbər, rejissor və baş rejissor kimi çalışmışdır.

Şıxəli Qurbanov adına Azərbaycan Dövlət Musiqili Teatrının ilk bədii rəhbəri olmuş, teatrda Zülfüqar bəy Hacıbəyovun "Aşıq Qərib" operasına (1939), Boris Aleksandrovun "Molinovkada toy", Məmməd Səid Ordubadi və Səid Rüstəmovun "Beş manatlıq gəlin" (1940) musiqili komediyalarına quruluş vermişdir.

1943-cü ildən kino sahəsində də fəaliyyət göstərmişdir. "Naxçıvan", "Dağıstan MSSR-in 25 illiyi", "Pambıqçılıqda qabaqcıl metodların tətbiqi" və s. sənədli filmlərin, "Ögey ana", (1959. Həmin il Kiyevdə keçirilən Ümumittifaq kinofestivalında mükafata layiq görülmüşdür), "Böyük Dayaq" (1963) bədii filmlərinin rejissoru olmuşdur.

Pedoqoji fəaliyyətlə məşğul olmuş, tələbələrə rejissorluğun sirlərinin öyrətmişdir.

Kino sahəsindəki xidmətləri yüksək qiymətləndirilmiş və 1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmışdür.

Görkəmli rejissor Həbib İsmayılov 1966-cı il dekabr ayının 31-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

İsmayılov Həbib Ələkbər oğlu //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.217.

İsmayılov Həbib Ələkbər oğlu //Azərbaycan sovet ensiklopediyası: 10 cilddə.-Bakı, 1980.- C.IV.- S.551.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.azcinema2.i2ic.com

105 illiyi Şəmsi Bədəlbəyli 1911-1987

Rejissor

Ə d ə b i y y a t

Rəhmanzadə, F. Bədəlbəyililər /F.Rəhmanzadə; red. İ.Kərimov; məsl. T.Bədəlbəyli-Ağdamskiy; burax. məsul Ə.Məhərrəmov.- Bakı: Nurlan, 2006.-244 s.

Rəhimli, İ. Şəmsi Bədəlbəyli /İ.Rəhimli //Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.316.

Şərif, A. Şəmsi Bədəlbəyli /A.Şərif //XX əsr Azərbaycanının yaradıcı nəsilləri.- Bakı, 2007.- S.108-109.

Рагимбейли, Н. Шамси Бадалбейли-жизнь в искусстве /Н.Рагимбейли; [Общество "Книга" Азербайджанской Республики].- Баку, 2008.- 202 с.

İ n t e r n e t d ə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.shamsi.musigi-dunya.az

Şəmsi Bədəl oğlu Bədəlbəyli 1911-ci il fevral ayının 23-də Şuşada anadan olmuşdur. Bakıda orta məktəbi bitirdikdən sonra Azərbaycan Pedaqoji Texnikumuna daxil olmuş, təhsil illərində özfəaliyyət dərnəyində aktyorluq istedadını sınamışdır. 1927-ci ildə texnikumu bitirmiş, 1927-1932-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında təhsil almışdır. 1932-ci ildən etibarən Ş.Bədəlbəyli özünü rejissor kimi sınayaraq, A.Tuqanov, İ.Hidayətzadə və R.Təhmasib kimi görkəmli rejissorlara assistentlik etmişdir. 1934-cü ildə isə o, Moskva şəhərində "Malıy Teatr"da rejissor kimi təcrübə keçməyə göndərilmişdir.

Ş.Bədəlbəyli 1938-ci ildən etibarən Azərbaycan Dövlət Dram Teatrında müstəqil surətdə rejissorluq fəaliyyətinə başlamış, ilk yaradıcılıq işi Mirzə Fətəli Axundovun "Müsyö Jordan və Dərviş Məstəli şah" komediyası olmuşdur. İlk işi ona uğur gətirmiş, tamaşa yüksək qiymətləndirilmişdir. 1939-cu ildə "Ölülər" komediyasına və Sabit Rəhmanın "Xoşbəxtlər" əsərinə verdiyi quruluş da uğurlu alınmışdır. Onun quruluş verdiyi son tamaşa Şekspirin "Kral Lir" pyesi olmuşdur.

İkinci Dünya müharibəsi dövründə Ş.Bədəlbəyli hərbi müxbir kimi İrana ezam edilmiş, öz həmkarları ilə birlikdə "Vətən uğrunda" qəzetində ədəbi işçi kimi çalışmış, həm də həvəskar aktyorlarla birlikdə Ü.Hacıbəylinin "Arşın mal alan", Zülfüqar Hacıbəylinin "Əlli yaşında cavan", "Evli ikən subay" əsərlərini tamaşaya qoymuşdur.

1943-cü ildə Bakıda Musiqili Komediya Teatrı yaradılımış və Ş.Bədəlbəyli teatra rejissor təyin edilmişdir. 1942-1949, 1956-1961 və 1963-1974-cü illərdə bu teatrda müəyyən fasilələrlə baş rejissor, bədii rəhbər və direktor vəzifələrində çalışmışdır. 1974-1976-cı illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktoru və bədii rəhbəri vəzifəsində, 1976-cı ildən isə ömrünün sonuna kimi Teatr Cəmiyyətinin sədri vəzifəsində səmərəli fəaliyyət göstərmişdir.

Rejissor Opera və Balet Teatrında "Koroğlu", "Əsli və Kərəm", "Sevilya bərbəri" kimi operalara da quruluş vermiş, hətta 1957-ci ildə onu Türkmənistan Opera və Balet Teatrına dəvət etmişlər. O, burada "Koroğlu" operasını tamaşaya qoymuşdur.

Ş.Bədəlbəyli kino sənətinin də inkişafında öz əməyini əsirgəməmiş, bir sıra bədii və sənədli filmlərdə ("O qızı tapın", "Axırıncı aşırım", "Xatirələr sahili" və s.) aktyor kimi də iştirak etmişdir.

Teatr sənətinin inkişafında göstərdiyi böyük xidmətlərə görə 1943-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 29 iyul 1964-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Görkəmli rejissor Şəmsi Bədəlbəyli 23 may 1987-cı ildə Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

40 illiyi

Bəşir Kərimov 1976-1995

Milli Qəhrəman

Bəşir Bəylər oğlu Kərimov 1976-cı il fevral ayının 2-də Füzuli rayonunun Qacar kəndində anadan olmuşdur. 1991-ci ildə kənd orta məktəbinin səkkizinci sinfini bitirərək Füzuli şəhərindəki texniki-peşə məktəbində təhsilini davam etdirmişdir. Erməni qəsbkarları bu illərdə Azərbaycan torpaqlarına-Qarabağa geniş planlı hücumlar edirdilər.

1993-cü ildə ermənilər Qacar kəndinə hücum etdikləri vaxt Bəşir erməni yaraqlılarına qarşı igidliklə vuruşmuşdur. Qacar kəndi işğal olunduqdan sonra ailəsi ilə birlikdə Dilağarda kəndində məskunlaşmışdır.

1994-cü ildə Bəşir Beyləqan Rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır. Gəncə şəhərində "N" saylı hərbi hissədə qulluq etmişdir. 1995-ci il 13-17 mart hadisələri zamanı, dövlətçiliyimiz uğrunda silahlı dəstənin zərərsizləşdirilməsində iştirak etmiş və bu qarşıdurma zamanı həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli, 307 saylı Fərmanı ilə Kərimov Bəşir Bəylər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Bəşir Bəylər oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.-1995.- 5 aprel.- S.1.(Ölümündən sonra).

Kərimov Bəşir Bəylər oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.110.

Seyidzadə, M. Kərimov Bəşir Bəylər oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.113.

Əsgərov, V. Kərimov Bəşir Bəylər oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.148.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

45 illiyi

Etibar Hacıyev 1971-1992

Milli Qəhrəman

Etibar Firudin oğlu Hacıyev 1971-ci il fevral ayının 5-də Qərbi Azərbaycanın Vardenis rayonunun Zod kəndində doğulmuşdur. Zod kənd orta məktəbini bitirdikdən sonra bir müddət sovxozda işləmişdir. Erməni millətçiləri və separatçıları tərəfindən oradakı soydaşlarımız qovulan zaman onun ailəsi Kəlbəcər rayonuna köçmüşdür.

1989-cu il 13 iyun tarixində hərbi xidmətə çağırılmış və Perm şəhərində hərbi xidmətini başa vurduqdan sonra ailəsinin məskunlaşdığı Göygöl rayonuna gəlmişdir.

1992-ci ildə Etibar Hacıyev könüllü olaraq Milli Orduya yazılmış və torpaqlarımızın müdafiəsinə qalxmışdır. Böyük Canbar, Kiçik Canbar, Buzlaq, Erkəc kəndlərinin düşmən tapdağından azad edilməsində xüsusi fədakarlıq göstərmişdir. 1992-ci il iyun ayının 15-də Goranboy rayonunda Ağcakənd kəndinin azad edilməsi uğrunda gedən döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Hacıyev Etibar Firudin oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Göygöl rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Göygöl rayonunun Yeni Zod kəndindəki küçələrdən biri qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hacıyev Etibar Firudin oğlu – sıravi – Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 12.- S.35.- (Ölümündən sonra).

Əsgərov, V. Hacıyev Etibar Firidun oğlu /Vüqar Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.104-105.

Məhərrəmov, Q. Hacıyev Etibar Firidun oğlu //Qəşəm Məhərrəmov, İntiqam Məhərrəmov. Başı dumanlı Göyçə.- Gəncə, 2007.- S.42.

Seyidzadə, M. Hacıyev Etibar Firudin oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.80.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

130 illiyi

Abbasqulu bəy Şadlinski 1886-1930

Hərbi xadim

Abbasqulu bəy Xanbaba bəy oğlu Şadlinski 1886-cı il fevral ayının 24-də İrəvan quberniyasının Böyük Vedi kəndində anadan olmuşdur.

1894-cü ildə Vedidə ikiillik rus-tatar məktəbində oxumuş, lakin maddi çətinlik üzündən təhsilini davam etdirə bilməmişdir. 1902-ci ildə atasından qalma kiçik torpaq sahəsini əkib-becərməklə məşğul olmuşdur.

Rusiyada 1905-1907, İranda 1905-1911-ci illər inqilabları onun ictimai-siyasi dünyagörüşünün formalaşmasına mühüm təsir göstərmişdir. 1907-ci il fevral inqilabından sonra Şadlinski həyatını xalq işi uğrunda mübarizəyə həsr etmişdir. 1918-ci ilin əvvəllərində Naxçıvan, İrəvan, Dərələyəz, Zəngəzur və başqa ərazilərdə daşnak-erməni silahlı dəstələrinin azərbaycanlılara qarşı soyqırımlarının qarşısını almaq məqsədi ilə o, Vedidə erməni-daşnak quldur dəstələrinə qarşı könüllü xalq birləşməsi olan "Qırmızı tabor"u təşkil etmişdir.

1918-1919-cu illərin yay aylarında daşnak hərbi hissələrinin Vediyə hücumlarının qarşısının alınmasında böyük şücaət göstərən "Qırmızı tabor"çular sonradan Şadlinskinin əmri ilə kəndi döyüşlə tərk etmiş, Vedibasar və Zəngibasar əhalisinin əksər hissəsi ilə İran ərazisinə keçərək, Mərənd şəhəri ətrafında mövqe tutmuşdular.

28 iyul 1920-ci ildə Naxçıvanda Sovet hakimiyyəti elan olunduqdan sonra Nəriman Nərimanovun dəvətini qəbul edərək, sentyabrın 17-də 200 nəfərlik "Qırmızı tabor" dəstəsi ilə Naxçıvana gəlmiş, ilk vaxtlar Naxçıvan sərhədlərinin qorunmasına, sonra Zəngəzur istiqamətində öz dəstəsinin daşnak hissələri ilə fəal döyüş əməliyyatlarına başçılıq etmiş, 1921-ci ilin fevralı - aprelin əvvəlində isə İrəvanda daşnak qiyamının yatırılmasında qəhrəmanlıq göstərmişdir. Daşnaklarla döyüşlərdə göstərdikləri şücaətə görə, Şadlinski başda olmaqla, "Qırmızı tabor"un 19 nəfər üzvü Ermənistan SSR-nin "Qırmızı bayraq" ordeni ilə təltif olunmuşdur.

1921-ci ilin yayında Ermənistanda və Zəngəzurda daşnak fitnəkarlıqlarına son qoyulduqdan sonra Şadlinski 1922-ci ilin sonunadək Naxçıvanda qalmış və buranın sərhədlərinin qorunmasına rəhbərlik etmişdir.

Vediyə qayıdan Şadlinski 1922-1928-ci illərdə Ermənistanda bir sıra məsul təsərrüfat vəzifələrində çalışmış, yeni yaradılan Dəvəli sement zavodu tikintisinin rəhbəri təyin olunmuşdur.

Abbasqulu bəy Şadlinski düşmənləri tərəfindən 1930-cu ilin fevral ayında öldürülmüşdür.

Fərman Kərimzadənin "Qarlı aşırım" romanı və onun süjeti əsasında rejissor Kamil Rüstəmbəyov tərəfindən çəkilən "Axırıncı aşırım" bədii filmi Şadlinskinin həyat və fəaliyyətindən bəhs edir.

Ədəbiyyat

Ələkbərli, Ə. Abbasqulu bəy Şadlinski /Ə.Ələkbərli; red. V.Şadlinski.- Bakı: Sabah, 1996.-320 s.

İsrafilqızı, N. Abbasqulu bəy Şadlinski: poema /Nəsibə İsrafilqızı; red. S.İslamoğlu.- Bakı: Nurlar NPM, 2006.- 184 s.

Şadlinski, V.B. Şadlinskilər: Şəddadi, Şadı, Şadlılar /V.B.Şadlinski; red. M.Çəmənli.- Bakı: Təhsil, 2011.- 285 s.

Əliyev, A. Milli-mənəvi dəyərəçevrilənqəhrəmanlıq salnaməsi /A.Əliyev //525-ci qəzet.- 2011.- 13 yanvar.- №6.- S.6.

Kəngərli, A. Abbasqulu bəy Şadlinski kim olub? /A.Kəngərli; müsah. apardı Eltürk Elnur //Təzadlar.- 2013.- 5 mart.- S.11.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

815 illiyi

Nəsirəddin Tusi 1201-1274

Filosof

Nəsirəddin Məhəmməd ibn Həsən oğlu Tusi 1201-ci il fevral ayının 17-də Həmədan şəhərində anadan olmuşdur. Mütəfəkkirin əsl adı Məhəmməd olmuş, dövrünün ağıllı, bilikli, görkəmli alimi olduğuna görə xalq ona Nəsirəddin adını vermişdir. İlk təhsilini atası Məhəmməd İbn Həsəndən almış, sonra Tus şəhərində məktəb və mədrəsədə təhsilini davam etdirmişdir. Təhsil aldığı şəhərə böyük məhəbbətlə əlaqədar "Tusi" təxəllüsünü götürmüşdür.

1259-cu ildə Tusinin təklifi ilə Cənubi Azərbaycanın Marağa şəhəri yaxınlığında rəsədxana inşa olunmuşdur. Rəsədxananın yeri elə dəqiq seçilmişdir ki, orada indi də rəsədxana fəaliyyət göstərir. Sonralar Şərqdə inşa olunan rəsədxanalar məhz Marağa rəsədxanasının planı əsasında tikilmişdir. Dünyanın hər yerindən məşhur alimlər dəvət edilmiş, faktiki olaraq rəsədxana riyaziyyat və astronomiya üzrə böyük elm mərkəzinə çevrilmişdir. Tusi Yaxın və Orta Şərq ölkələrinə səfər edib qiymətli kitablar toplayaraq Marağaya gətirmiş, rəsədxanada böyük bir kitabxana yaratmışdır.

XII əsr elmlərinin bütün sahələrini özündə cəmləşdirən nadir ensiklopedik biliyə mənsub olan alim, bu elm sahələrinə dair "Evklidin şərhi", "Hərəkətdə olan yer kürəsi", "Almacestin təhlili", "Gecə və gündüz", "Teleskop haqqında", "İki göy cismi", "Günəşin çıxması və qürubu", "Kainat cismlərinin zühuru", "Kürə və silindr", "Konuslar" kimi 101 əsəri artıq 750 ildir ki, dünyanın ən böyük alimləri tərəfindən öyrənilmiş, təhlil və tədqiq olunmuşdur. Onun "Evklidin həndəsi üsulları kitabı" ("Kitabe osule Erlides dər həndəsi") uzun müddət tədris vəsaiti kimi istifadə edilmişdir.

Təsadüfi deyil ki, o, Azərbaycanın siyasi fikir tarixində ilk dövlət nəzəriyyəçisi hesab olunur. "Maliyyə haqqında" risaləsində verilən qayda-qanunlar sonralar bir çox orta əsr dövlətlərində qanunlar toplularına daxil edilmişdir.

Görkəmli alim, filosof Nəsirəddin Tusi 1274-cü ildə Bağdada səfəri zamanı vəfat etmiş və Bağdad şəhərinin Kazımiyyə mahalındakı "Cəlil məscid"də dəfn olunmuşdur.

1981-ci ildə anadan olmasının 780 illik yubileyi geniş qeyd olunmuş, şərəfinə medal təsis edilmiş, abidələri ucaldılmış, portreti yaradılmışdır. Azərbaycan Respublikasının bir sıra elm, təhsil və mədəni-maarif müəssisəsinə, o cümlədən, Azərbaycan Milli Elmlər Akademiyası Şamaxı Astrofizika Rəsədxanasına, bir sıra küçələrə Nəsirəddin Tusinin adı verilmişdir. YUNESKO-nun qərarı ilə anadan olmasının 800 illik yubileyi dünya miqyasında qeyd edilmişdir. Bu münasibətlə ulu öndər Heydər Əliyevin "Nəsirəddin Tusinin anadan olmasının 800 illiyi haqqında" 13 iyun 2000-ci il tarixli Fərmanı ilə yubiley komissiyası yaradılmışdır.

Ədəbiyyat

Əxlaqi-Nasiri /N.Tusi; farscadan tərc. ed., müqəd. və şərh. R.Sultanov; red. R.Sadıqov; Heydər Əliyev Fondu.-Bakı: [s.n.], [2009.].- 397 s.

Xacə Nəsirəddin Tusi: biblioqrafiya /AMEA M.Füzuli ad. Əlyazmalar İn-tu; tərt. ed. A.Xəlilov, A.Musayeva; elmi red. A.Ramazanov.- Bakı: XXI-Yeni nəşrlər Evi, 2004.- 167 s.

Quliyev, A. Nəsirəddin Tusi dövlət, siyasət və qanun haqqında: (M.N.Tusinin 800 illik yubileyi münasibətilə) /A.Quliyev.- Bakı, 2001.- 268 s.

Rzayev, A. Nəsirəddin Tusi: (Həyatı, elmi dünyagörüşü) /A.Rzayeva.- İkinci nəşri.- Bakı, 2001.- 352 s.

Sarıyeva, İ. Şöhrətli Marağa rəsədxanası və Nəsirəddin Tusi dühası... /İ.Sarıyeva //Bakı xəbər.- 2014.- 20 oktyabr.- S.12.

İnternetdə

www.anl.az

125 illiyi

Ceyhun bəy Hacıbəyli 1891-1962

Publisist

Ə d ə b i y y a t

Seçilmiş əsərləri : mühacirət dövrü /C. Hacıbəyli; tərc.ed., tərt. ed. və ön sözün müəl. M. Əmrahov.-Bakı: Elm, 2006.-98 s.

İsmayıl. Ceyhun bəy Hacıbəyli fenomeni. Bu böyük mütəfəkkirin irsi azərbaycançılıq ideologiyasının əsas qayəsini təşkil edir /İsmayıl // Şərq.- 2014.- 30 may.- S.11.

Ceyhun Hacıbəyli / Azərbaycan mühacirət irsi /materialları haz., ön sözün müəl. və elmi red. N. Yaqublu ; "Milli Jurnalistika Konqresi" İctimai Birliyi.-Bakı: Elm və təhsil, 2011.-S.71-75.

Tahirli, A.Ceyhun Hacıbəyli //İdrak işığında : [ədəbi-tənqidi, elmi-publisistik məqalələr toplusu] /A. H. Tahirli .- Bakı: Ozan, 2010.-S.35-104.

Tahirli, A. /Ceyhun Hacıbəyli publisistikasının səciyyəvi cəhətləri /A.Tahirli //Kaspi .-2014.- 30 sentyabr.- S. 16-18.

www.anl.az

Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci il fevral ayının 2-də Şuşa şəhərində anadan olmuşdur. Şuşa və Bakı məktəblərində oxumuş, bakılı milyonçu, sahibkar Murtuza Muxtarovun təşəbbüsü və maddi dəstəyi ilə Peterburq Universitetində hüquq fakültəsində bir il təhsil almış və Fransaya gedərək Sorbonna Universitetində siyasi biliklər fakültəsində ali təhsilini davam etdirmiş, ərəb, fars, qədim türk, alman, fransız dillərini və mədəniyyətlərini dərindən öyrənmişdir Gənclik illərindən Qərbi Avropanın bir sıra dövri mətbuatında məqalələrini "Dağıstanlı", "Ceyhun Dağıstanlı", "Azəri" kimi imzalarla dərc etdirmişdir.

Ceyhun Hacıbəyli yaradıcılığının ilk dövründə qələmini felyeton janrında sınamışdır .Onun "Pristav Ağa" felyetonu "Proqres" qəzetinin 1907-ci il 6 və 7-ci saylarında "Daqestanskiy" imzası ilə çap olunmuşdur.

1910-cu ildə "Hacı Kərim" povestini yazmış və 1911-ci ildə kitab şəklində çap etdirmişdir. Lakin həmin povestdən sonra uzun müddət yaradıcılıqdan uzaqlaşmışdır.

1918-1919-cu illərdə fəal publisist kimi çalışmış, bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin rəsmi orqanı olan "Azərbaycan" qəzetinin redaktoru olmuşdur.

C.Hacıbəyli S.Ə.Nəbati, M.F.Axundov, M.Ə.Sabir, A.Divanbəyoğlu, H.B.Zərdabi, Ə.B.Haqverdiyev, N.B.Vəzirov kimi Azərbaycan klassiklərinin və onun müasirləri olan türk şairi Tofiq Fikrət, tatar şairi Abdulla Tukay yaradıcılığına həsr etdiyi onlarla elmi-publisistik məqalənin müəllifidir. Mühacirətdən əvvəl "Bakı", "Azərbaycan", "Kaspi", "Proqress", "İrşad", "Tərəqqi", "Russkaya molva" (Peterburq) və başqa qəzetlərdə yüzlərlə publisistik məqalə, hekayə dərc etdirən C.Hacıbəyli 1917-ci ildə "Известия", "İttihat" və "Azərbaycan" (rus dilində), sonralar "Müsəlman milli komitəsinin əxbarı" qəzetlərinin redaktoru olmuşdur.

1920-ci ildə Azərbaycanda keçmiş Sovet hakimiyyəti qurulandan sonra Fransaya mühacirət etmiş, ömrünün sonlarınadək orada yaşamışdır. Yaradıcılığında tərcüməçiliyə geniş yer verən Ceyhun Hacıbəyli mühacirətdə xeyli gözəl əsərlərimizi fransız, ingilis dillərinə çevirmişdir. Üzeyir bəy Hacıbəylinin "Arşın mal alan" komediyası məhz Ceyhun bəyin tərcüməsində 1925-ci il iyun ayının 4-də Parisin "Femino" teatrında səhnəyə qoyulmuşdur. Fransız oxucularına H.Cavid, C.Cabbarlı kimi şair-dramaturqlarımızı da C. Hacıbəyli tanıtmışdır.

Parisdə "Qafqaz", "Azərbaycan", Münxendə "Azərbaycan" jurnallarının təsisində və nəşrində böyük rolu olmuşdur. Bir çox əsərin, o cümlədən "Azərbaycan mətbuatının tarixi", "Qarabağ dialekti və folklor", "Azərbaycanda antiislam təbliğatı və onun metodları" və s. əsərlərin müəllifidir. C.Hacıbəyli "Azadlıq" radiostansiyasının fəaliyyətində yaxından iştirak etmiş, Münhendə "SSRİ-ni Öyrənən Universitet"in müxbir üzvü seçilmişdir.

Azərbaycan ədəbiyyatını, incəsənətini, tarixini yetərincə təbliğ edən Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1962-ci ildə Parisdə vəfat etmiş və Sen-Kulu qəbiristanlığında dəfn edilmişdir.

130 illiyi Cavad bəy Cuvarlı 1886-1963

Maarifçi

Cavad bəy Nəcəf bəy oğlu Cuvarlı (Cuvarlinski) 1886-cı il fevral ayının 15-də Cəbrayıl qəzasının Cuvarlı kəndində anadan olmuşdur. Qarğabazar kənd məktəbini bitirmiş, 1902-ci ildə Zaqafqaziya Müəllimlər Seminariyasına daxil olmuş, 1906-cı ildə seminariyanı Məmməd Qocayev, Pənah Qasımov, Məmməd Qarayev, Əli Mustafayev, İbrahim Səfərov kimi tanınmış şəxslərlə birgə bitirmişdir.

1907-ci ildən 1917-ci ilədək Yelizavetpol quberniyasının Gəncə şəhər altısinifli məktəbində müəllim, 1918-ci ildən Gəncə və Şamaxı qəza xalq məktəblərində, 1921-ci ildən 1929-cu ilədək maarif komissarlığında inspektor vəzifəsində çalışmışdır.

Vəzifəsi ilə əlaqədar tez-tez kəndlərə getmiş, mədəni-marif işlərinin təşkilinə, xüsusilə qızların təhsil almasına diqqət yetirmişdir. Maarif komissarlığına verdiyi hesabatında qızların təhsili sahəsində yerli təşkilatların işini tənqid etmiş, əsaslı tədbir görmək barədə məsələ qaldırmışdır.

O, 1931-ci ilə kimi Bakıda texnikumda, 1931-ci ildən 1933-cü ilə kimi fəhlə təhsili kombinatında işləmişdi. 1933-cü ildə zəngin müəllimlik təcrübəsindən istifadə məqsədilə onu Bakıda açılmış Azərbaycan Dövlət Elmi Tədqiqat Pedaqoji İnstitutuna dəvət etmişlər. O, "XIX əsrdə Azərbaycan pedaqogika tarixi üzrə" biblioqrafiya hazırlamışdır. Yaşlılar üçün "Qırmızı əkinçi" qrammatika kitabını tərtib etmiş, əsgərliyə çağırılan gənclər ücün "Vətən uğrunda" dərsliyini hazırlamışdır. Əlifbayaqədərki dövr üçün leksik dərslər üzrə metodiki vəsait tərtib etmiş, rus dilinin öyrənilməsi metodikasına dair 52 adda 100 çap vərəqi həcmindən çox məqalələr, kitablar yazmışdır. Onun 8-10-cu siniflər üçün "Rus dili" dərsliyi bir neçə illər yenidən nəşr olunmuş və ən yaxşı dərslik kimi istifadə edilmişdir.

1939-cu ildən 1943-cü ilə kimi M.F.Axundov adına Müəllimlər İnstitutunda (Bakı Slavyan Universiteti) və 1943-cü ildən ömrünün sonuna kimi V.İ.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunda (Azərbaycan Dövlət Pedaqoji Universitetində) rus dili üzrə baş müəllim vəzifəsində çalışmışdır. Cavad bəy Cuvarlı həm də bir sıra elmi və metodiki əsərlərin müəllifidir.

İkinci Dünya müharibəsi dövründə xalq maarifi sahəsindəki fəaliyyəti ilə əlaqədər "1941-1945-ci illərdəki fədakar əməyinə görə" medalı, fəxri fərmanla təltif edilmiş və ona V.İ.Leninin altıcildlik əsəri təqdim edilmişdir. O, müəllimlik fəaliyyəti ilə yanaşı həm də bir sıra ictimai işlər aparmış, keçmiş Yelizavetpol (Gəncə) qəzasının Maarif İşçiləri İttifaqının katibi, Ağamalıoğlu adına Torpaqşünaslıq, Maarif İşçiləri Həmkarlar Təşkilatının sədri olmuşdur.

Görkəmli maarif xadimi, pedaqoq Cavad bəy Cuvarlı 1963-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan dilində olmayan ibtidai, tam olmayan orta məktəblərdə Azərbaycan dilindən oxu metodikası /C.Cuvarlı; red. S.Cəfərov; Azərb. XMK Azərb. Dövlət Elmi-Tədqiqat İn-tu.- Bakı: AzSSR XMK, 1940.- 54 s.

Pedaqojya müsahibələri: 1927-il Quba yay pedaqoji kurslarında oxunan leksiyalar /C.Cuvarlı; red.: Ə.Yusifov, M.Ələkbərli, Ə.Cabbarlı.- Bakı: Quba yay pedaqoji kursları nəşriyyatı, 1927.- 15 s. Məktəb və cocuq.

Çingizoğlu, Ə. Cuvarlinskilər /Ə.Çingizoğlu //"Soy" dərgisi.- №5 (25).- 2009.- S.17-21.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.ebookxp.org

100 illiyi

Əbdülvahab Salamzadə 1916-1983

Akademik

Ə d ə b i y y a t

Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri /A.Salamzadə, K.Məmmədzadə; elmi red. M.Hüseynov; Az.SSR EA, Memarlıq və İnc. İn-tu.- Bakı: Elm, 1985.-265 s.

Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri /Ə.Salamzadə.- Bakı: İşıq, 1976.-82 s.

Şəkinin memarlıq abidələri /Ə.Salamzadə, K.Məmmədzadə; red. M.Üseynov; AzSSR EA Tarix İn-tu.- Bakı: Elm, 1987.-140 s.

Salamzadə Əbdülvahab Rəhim oğlu //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı,1980.-C.VIII.-S.266.

Zeynalova, A.Tariximizə tarix qatan sənətşünas: Akademik Əbdülvahab Salamzadənin xatirəsinə /A.Zeynalova //Xalq qəzeti.- 2011.- 4 may.- S.13.

İ n t e r n e t d ə

www. az.wikipedia.org

www.anl.az

www.muallim.edu.az

www.azyb.net

Əbdülvahab Rəhim oğlu Salamzadə 1916-cı il fevral ayının 16-da Şamaxıda anadan olmuşdur.

1944-1983-cü illərdə Elmlər Akademiyasının (indiki AMEA) Memarlıq və İncəsənət İnstitutunda çalışmışdır. 1951-ci ildən institutun Memarlıq tarixi və nəzəriyyəsi şöbəsinin müdiri (1957-ci ildən eyni zamanda direktor müavini), 1962-ci ildən Azərbaycanın Tarix və Mədəniyyət Abidələrini Mühafizə Cəmiyyətinin sədr müavini idi. Tarixi abidələrin bərpa işlərində yaxından iştirak etmişdir.

Milli memarlıq tariximizi öyrənən ilk alimlərdəndir. Dünya memarlıq tarixinə qüdrətli sənətkarlar bəxş etmiş Azərbaycan memarlığı uzun illər ətraflı şəkildə öyrənilməmiş, yurdumuzun sənət abidələri isə ənənəvi olaraq qonşu xalqların mədəni təsirinin nümunəsi kimi qələmə verilmişdi. Naxçıvan, Şirvan memarlıq məktəbləri kimi sənət tariximizin öyrənilməsi, Təbriz və Aran memarlıq məktəblərinin elmi cəhətdən müəyyənləşdirilməsi, onların kəşfi bilavasitə akademik Əbdülvahab Salamzadənin xidmətidir.

Alim bütün ömrü boyu Azərbaycanın bölgələrini gəzmiş, tarixi abidələrin vəziyyəti ilə tanış olmuş, onların ölçülərinin çıxarılmasında, bərpa eskizlərinin çəkilməsində iştirak etmiş, abidələrinin bərpası və mühafizəsinin elmi əsaslarını hazırlamışdır. Onun müxtəlif illərdə yazdığı "Abidələr danışır" (Bakı, 1952), "Azərbaycan memarlıq abidələri" (Bakı, 1958), "Əcəmi Naxçıvani" (Bakı, 1976), "Arazboyu abidələr" (K.Məmmədzadə ilə birgə; Bakı, 1979) və bir çox başqaları hələ uzun illər boyu elmə xidmət edəcək. Bu görkəmli alimin M.Hüseynov və L.Bretanitski ilə birgə hazırladığı "Azərbaycan memarlıq tarixi" adlı fundamental əsəri isə (rus dilində; Moskva, 1963) milli memarlıq tariximizdə müstəsna əhəmiyyətə malikdir.

1965-ci ildə sənətşünaslıq doktoru, 1967-ci ildə professor elmi dərəcəsi almış, 1968-ci ildə Azərbaycan SSR EA-nın müxbir üzvü, 1983-cü ildə həqiqi üzvü seçilmişdir.

O, həm də Azərbaycan şəhərsalma tarixinin ilk tədqiqatçısı olmuş, Şuşa, Şəki kimi qədim şəhərlərimizin şəhərsalma mədəniyyətini tədqiq etmişdir. Azərbaycanın bir çox memarlıq abidəsinin bərpa layihəsinin tərtibçisi, Molla Pənah Vaqifin 1982-ci ildə Şuşada açılmış türbəsinin müəllifidir. 1976-cı ildən ASE elmi redaksiya şurasının üzvü olmuşdur.

1960-cı ildə Azərbaycan SSR-in "Əməkdar inşaaatçısı", 1982-ci ildə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, "Qırmızı əmək bayrağı" ordeni və medallarla təltif edilmişdir.

Akademik Əbdülvahab Salamzadə 1983-cü il avqust ayının 19-da Bakıda vəfat etmişdir.

110 illiyi Şamil Əzizbəyov 1906-1976

Akademik

Şamil Əbdürrəhim oğlu Əzizbəyov 1906-cı il fevral ayının 16-da anadan olmuşdur. 1925-ci ildə orta məktəbi bitirmiş və Azərbaycan Politexnik İnstitutuna (hazırda ATU) daxil olmuş, 1930-cu ildə ali təhsilini mühəndis-geoloq ixtisası üzrə tamamlamışdır.

1934-1943-cü illərdə Azərbaycan Sənaye İnstitutu Petroqrafiya kafedrasında çalışmış, 1934-cü ildə "Gəncəçay və Qoşqarçayın orta və aşağı axım hövzələrinin dağ süxurları və faydalı qazıntıları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1938-1941-ci illərdə Geologiya İnstitutunda direktor müavini vəzifəsində çalışmışdır.

1943-cü ildə "Kiçik Qafqazın şimal-şərq hissəsinin filiz zonasının petrologiyası" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1944-cü ildə professor elmi rütbəsini almışdır.

1945-ci ildə Azərbaycan SSR EA-nın həqiqi üzvü seçilmişdir.

1945-1959-cu illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki ADNA) Kristalloqrafiya, mineralogiya və petroqrafiya kafedrasının müdiri vəzifələrində çalışmışdır. 1945-1947-ci illərdə Azərb.SSR EA vitse-prezidenti və Azərbaycan SSR EA Geologiya-kimya elmləri və neft bölməsinin sədri, 1959-1976-cı illərdə Azərbaycan SSR EA Rəyasət Heyətinin üzvü və Yer elmləri bölməsinin akademik katibi, 1947-1976-cı illərdə eyni zamanda Geologiya İnstitutunda Petrologiya laboratoriyasının rəhbəri olmuşdur. Petrologiya və metallogeniya sahəsində böyük alim Ş.Əzizbəyov respublikada petroqrafiya məktəbinin əsasını qoyanlardan biri olmuşdur.

Elmi əsərləri əsasən Kiçik Qafqazın geologiya və petroqrafiyasına həsr olunmuş, "Naxçıvan Muxtar Respublikasının geologiyası" adlı sanballı əsəri xüsusi əhəmiyyətə malikdir.

Naxçıvan MSSR-də (indiki Naxçıvan MR) və ölkənin cənub bölgəsində apardığı geoloji tədqiqatların nəticəsində bu regionların geoloji, tektonik, strukturformasion xəritələrini tərtib etmişdir. Onun elmi-tədqiqat işləri müxtəlif faydalı qazıntı yataqlarının axtarışı və kəşfi üçün elmi əsas olmuşdur. Çoxcildli "Azərbaycanın geologiyası" monoqrafiyasının müəlliflərindən biridir.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Qırmızı Ulduz" ordeni (1944), "1941-1945-ci illərdə Vətən müharibəsində şücaətli əməyə görə", və "Qırmızı Əmək Bayrağı" (1953) medalları ilə təltif olunmuş, 1960-cı ildə "Azərbaycan SSR Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Görkəmli akademik Şamil Əzizbəyov 1976-cı il may ayının 14-də Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Petroqrafiya: kristallooptika və süxur törədən minerallar /Ş. Ə. Əzizbəyov ; [red. A. S. Bayramov].- Bakı:Azərneftnəşr, 1952.- 378 s.

Ş.Ə.Əzizbəyov: biblioqrafiya /tərt. ed. N.Qurbanov, N.Listenqarten; red. İ.Səfərov; Azərb. SSR EA., Əsaslı kitabxana.-Bakı: AzSSR EA, 1966.- 82 s.

Əzizbəyov Şamil Əbdürrəhim oğlu //Azərbaycanın geoloq və geofizik alimləri.- Bakı: "Nafta –press", 2004.- S.136.

Əzizbəyov Şamil Əbdürrəhim oğlu //Azərbaycan sovet ensiklopediyası: 10 cilddə.-Bakı, 1980.- C.IV.- S.147.

Геология и вулканизм Талыша /Азизбеков Ш..- Баку,1978.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

75 illiyi

Məmməd Yaqubov 1941

Alim

Məmməd Haqverdi oğlu Yaqubov 1941-ci il fevral ayının 2-də Naxçıvan MR Culfa rayonunun Milax kəndində anadan olmuşdur. 1957-ci ildə Naxçıvan şəhər 1 saylı orta məktəbi bitirmiş, 1957-1962-ci illərdə Azərbaycan Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsində təhsil almışdır. 1965-ci ildən BDU-da çalışır.

1966-cı ildə "Bir sinif inteqro-diferensial tənliklərin həllərinin davamı və dayanıqlığı haqqında" mövzusunda fizika-riyaziyyat elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1992-ci ildə isə "Paylanmış parametrli sistemlərdə optimal sürüşgən rejimlər və optimallıq üçün zəruri şərtlər" mövzusunda dissertasiyasını müdafiə etmiş, fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsini almışdır.

Məmməd Yaqubov 1996-cı ildən BDU-nun mexanika-riyaziyyat fakültəsinin İdarəetmə nəzəriyyəsinin riyazi üsulları kafedrasının müdiridir. Variasiya hesabı və optimallaşdırma üsulları, dinamik proqramlaşdırma üsulu, optimal idarəetmənin təqribi üsulları fənləri üzrə dərs aparır. "Bir tərtibli adi diferensial tənliklər", "V-VI siniflərdə olimpiada çalışmaları", "Ümumtəhsil məktəblərinin X sinfi üçün riyaziyyatdan tədris materialının tematik planı və yoxlama yazı işi nümunələri", "Необходимые условия оптимальности для систем с импульсными воздействами при нелокальных краевых условиях", "О свойствах скользящих режимов в процессах, описываемых нелинейным уравнением третьего порядка" kimi 100-dən artıq elmi əsərin müəllifi olmuş, bir sıra beynəlxalq seminar, simpozium və konfranslarda iştirak etmişdir.

Azərbaycanda təhsilin və elmin inkişafındakı xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2009-cu il tarixli Sərəncamı ilə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ə d ə b i y y a t

Riyaziyyat: (qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün dərs vəsaiti) /M.Yaqubov və b.; red. hey.: A.Bağırov və b.; elmi red. M.Abbaszadə; rəy.: F.Mustafayeva, M.Ağayarov, K.Şirinov, Ə.Rüstəmov; Tələbə Qəbulu üzrə Dövlət Komissiyası.- Bakı: Şərq-Qərb, 2007.- 855 s.

Riyaziyyat: məsələ və misallar: dərs vəsaiti /M.Yaqubov [red.], T.İsmayılov, İ.Ağakişiyev; rəy.: S.Həsənov, F.Məmmədov, H.Zeynalov.- Bakı: Çaşıoğlu, 2009.-543 s.

Riyaziyyat: qəbul imtahanlarına hazırlaşanlar, yuxarı sinif şagirdləri və müəllimlər üçün dərs vəsaiti /M.Yaqubov, İ.Abdullayev, Ə.Yaqubov və b.; elmi red. M.Abbaszadə; Tələbə Qəbulu üzrə Dövlət Komissiyası.- Bakı: [s.n.], 2006.- 856 s.

Əsl ziyalı və alim ömrü: Elm xadimləri: M.Yaqubovun anadan olmasının 70 illiyi münasibətilə /Y.Məmmədov //Azərbaycan.-2011.-2 fevral.- S.7.

О корректной разрешимости уравнения с доминирующей производной с нелокальными граничными условиями //Математика, информатика, физика в науке и образовании: Сборник научных трудов к 140 летию МПГУ.-Москва, 2012.- С.95-97.

О свойствах скользящих режимов в процессах, описываемых нелинейным уравнением третьего порядка //Bakı Universitetinin xəbərləri: fizika-riyaziyyat elmlər seriyası.- 2011.- №3.- С.29-36.

www.anl.az

90 illiyi Püstə Məlik-Aslanova 1926-2001

Oftalmoloq

Püstə Süleyman qızı Məlik-Aslanova 1926-cı il fevral ayının 2-də Qaryagin (indiki Füzuli) rayonunda anadan olmuşdur.

1949-cu ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu (indiki Azərbaycan Tibb Universiteti) bitirmiş, 1956-cı ildə "Bəd xassəli yenitörəmələrə qarşı skelet əzələlərinin morfo-fizioloji reaksiyasına dair materiallar" mövzusunda namizədlik dissertasiyasını, 1971-ci ildə isə "Gözün yaşla əlaqədar dəyişiklikləri" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1957-2001-ci illərdə Azərbaycan Elmi Tədqiqat Oftalmologiya İnstitutunun Patomorfologiya və elektron mikroskopiya laboratoriyasının müdiri vəzifəsində çalışmışdır. O, respublikada yeganə yüksəkixtisaslı oftalmopatomorfoloq olaraq, ölkənin oftalmologiyasına əvəzsiz xidmətlər göstərmiş və 1984-cü ildə professor elmi rütbəsinə layiq görülmüşdür.

Onun fəal iştirakı ilə təşkil olunmuş traxomanın laborator diaqnostikası bu ağır göz xəstəliyinin respublikada tam ləğv olunmasını mümkün etmişdir. Alimin səyləri nəticəsində institutda tətbiq edilmiş histokimyəvi üsullar, elektron, lyuminessent və polyarizasiyon mikroskoplarla aparılan müayinələr görmə üzvünün xəstəliklərinin morfoloji diaqnostika prinsiplərinin işlənməsinə qiymətli töhfə olmuşdur.

Görmə üzvünün yenitörəmələrinin morfoloji diaqnostikası işində böyük xidmətləri olmuşdur.

Professor Püstə Məlik-Aslanova 150-dən artıq elmi əsər, iki monoqrafiya çap etdirmişdir. İki doktorluq və bir çox namizədlik dissertasiyalarının rəhbərliyində iştirak etmişdir.

Görkəmli alim, həkim Püstə Məlik-Aslanova 2001-ci ildə Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Məlik-Aslanova Püstə Süleyman bəy qızı //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı,1980.- C.VI.- S.489.

Возрастные изменения глаза и зрительно-нервного пути: морфогистохимические исследования /П.С.Мелик-Асланова, З.А.Алиева.- Баку: Азернешр, 1980.- 122 с.

Методическое рекомендации по выявлению ферментов опухолей глаза в свете электронно-микроскопических исследований /П.С.Мелик-Асланова.- Баку, 1981.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.gender-az.org

95 illiyi

Lütfi Zadə 1921

Alim

Lütfi Zadə (əsl adı Lütfəli Rəhim oğlu Əsgərzadə) 1921-ci il fevral ayının 4-də Bakıda anadan olmuşdur. Lütfi ilk təhsilinə Bakıdakı 16 saylı məktəbdə başlamış, lakin 10 yaşında ikən ailəsi ilə birlikdə Bakını tərk edərək Tehrana köçmüşdür. Təhsilini amerikalıların Albors missioner məktəbində davam etdirmişdir.

1948-ci ildə Massaçusets Texnologiya İnstitutunda (ABŞ) elektron mühəndisliyi üzrə magistr dərəcəsini almışdır. 1959-cu ildən Berkli Universitetində professor kimi çalışmış, 1963-cü ildən isə Elektrik mühəndisliyi və kompüter elmləri kafedrasına rəhbərlik etmişdir. Hal-hazırda professor Lütfi Zadə həmin universitetdə ömürlük professor və Soft Computing İnstitutunun direktoru kimi fəaliyyət göstərir.

L.Zadəyə dünya şöhrəti qazandıran, dünya elmində inqilab hesab olunan qeyri-səlis məntiq nəzəriyyəsi riyaziyyatın əsası olan ikili çoxluq anlayışına "qeyri-səlis çoxluq" kimi yeni ifadə vermişdir. Elmdə qeyri-səlis ölçünün daxil edilməsi təbiətdə və cəmiyyətdə gedən proseslərin qeyri-müəyyənliyini daha adekvat nəzərə almağa imkan yaradır.

1989-cu ildə qeyri-səlis məntiq nəzəriyyəsinin sənayedəki uğurlarına görə Yaponiyanın elm adamlarına verdiyi ən yüksək mükafat - "Honda" mükafatı ilə təltif olunmuşdur. Bu gün bu nəzəriyyə Amerikanın "General Motors", "General Electric", "Motorola", "Dupont", "Kodak" və başqa şirkətləri tərəfindən istehsalatda geniş tətbiq olunur. Hazırda bu nəzəriyyədən iqtisadiyyatda, psixologiyada, linqvistikada, siyasətdə, fəlsəfədə, sosiologiyada, dini məsələlərdə, münaqişə problemlərində də istifadə olunur.

Bundan əlavə 5 fundamental elmi nəzəriyyə təklif etmişdir: "təəssüratlar nəzəriyyəsi", "sistemlər", "sözlə işləyən kompüter", "optimal süzgəclər" və "soft kompyutinq" nəzəriyyəsi.

Onun məşhur vəziyyətlər fəzası, dinamik sistemlərin idarə olunma və müşahidə olunma nəzəriyyələri müasir idarəetmə elminin əsasını təşkil edir. ABŞ-ın Milli Kosmik Tədqiqatlar Mərkəzi (NASA) bu nəzəriyyələr əsasında idarəetmə sistemlərini tədqiq edir, layihələndirir və tətbiq edir.

Çoxlu sayda mötəbər cəmiyyətlərin və fondların mükafatlarına layiq görülmüş, medallarla təltif edilmişdir. Onlarla xarici dövlət və ictimai təşkilatların fəxri doktorudur. 54 beynəlxalq jurnalın elmi redaktoru və ya redaksiya heyətinin üzvü olan Lütfi Zadə dünyada əsərlərinə ən çox istinad edilən alimlərdən sayılır. Kaliforniyanın Berkli şəhərində "İnformasiya Texnologiyaları üzrə Zadə İnstitutu" yaradılmışdır. Lütfi Zadə AMEA-nın fəxri üzvü seçilmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 7 fevral 2011-ci il tarixli Sərəncamı ilə Lütfi Zadə elm və texnologiyaların inkişafında, mədəniyyətlərarası dialoqun qurulmasında xidmətlərinə görə "Dostluq" ordeni ilə təltif olunmuşdur.

Böyük alim haqqında "Müasir elmin korifeyi" (F.Tağıyev, Ş.Məmmədov), "Dünya dahilərsiz yaşaya bilmir" (M.Səməd) adlı kitablar yazılmış, "Uzaq və yaxın Lütfi Zadə" (quruluşçu rejissoru - O.Babazadə, ssenari müəllifi - M.Səməd) sənədli film çəkilmiş, Lütfi Zadə irsi və Süni İntellekt Assosiasiyası, Lütfi Zadə adına Beynəlxalq Müasir EA-sı yaradılmışdır.

Ədəbiyyat

Möhbəddin, S. Dünya dahilərsiz yaşaya bilmir /M.Səməd; elmi red. M.Mərdanov; red. Ş.Vəliyev; elmi rəyçi. R.Əliyev; Qafqazın Strateji Tədqiqatlar İnstu.-Stokholm: CA&CC Press, 2008.- 188 s.

Zadə, F. Qeyri-səlis məntiqin atası ilə həyatım və səyahətlərim /Fey Zadə; seriyanın məsul red. E.İsmayılov; rus. çevirəni və çapa hazırl. Ü.Hüseynova; red. M.Axundova; Qafqazın Strateji Tədqiqatlar İnstitutu.-Bakı: Qafqaz, 2006.-368 s

Hüseynova, Ü. Sadəcə dahi Lütfi Zadə // Dahilərin ömür yolu: oçerklər, xatirələr /AMEA, Şəki Regional Elmi Mərkəzi; tərt. ed.: Z.Əlizadə (ön söz), İ.Rövşən; elmi red. Ə.Tahirzadə; tərc. ed. İ.Salmanov [və b.].- Bakı: Elm və təhsil, Nurlan, 2010.- S.9-18.

İnternetdə

www.anl.az

www.adau.edu.az

60 illiyi

Nadir İsmayılov 1956

Alim

Nadir İslam oğlu İsmayılov 1956-cı il fevral ayının 5-də Beyləqan rayonunun Əmirzeyidli kəndində anadan olmuşdur. 1973-cü ildə Şahsevən kənd 1 saylı orta məktəbi bitirmişdir.

1974-cü ildə indiki BDU-nun Kitabxanaşünaslıq-biblioqrafiya fakültəsinə daxil olmuş, əla qiymətlərlə oxuduğuna görə C.Cabbarlı adına təqaüdə layiq görülmüş, 1979-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1979-cu ilin sentyabr ayının 5-dən dekabr ayının 30-dək M.F. Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının Elmi-metodiki şöbəsində böyük kitabxanaçı vəzifəsində çalışmışdır.

1979-1982-ci illərdə BDU-nun Biblioqrafiyaşünaslıq kafedrasının əyani aspirantı olmuş, 1982-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının müəllimidir.

1987-ci ildə Moskva Dövlət Mədəniyyət və İncəsənət Universitetində "Təbabət üzrə məhəlli kitabxana-biblioqrafiya ehtiyatlarının inkişafı, müasir vəziyyəti və təkmilləşdirilməsi yolları (Azərbaycan materialları əsasında)" mövzusunda dissertasiya işini Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, professor Zöhrab Əliyevin rəhbərliyi altında müdafiə edərək Pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

1992-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının dosentidir. Azərbaycanda təbabətin biblioqrafiyası, biblioqrafiyaşünaslıq, biblioqrafiyaşünaslığın tədrisi metodikası, soraq biblioqrafiya xidmətinin təşkili və idarə olunması və s. fənləri tədris edir. 3 monoqrafiya, 9 kitab, 150-ə yaxın məqalənin müəllifidir. Bunlardan "Azərbaycan biblioqrafiyasının biblioqrafiyası" (2003), "Xəzər dənizi və neft" (2003), "Kitabxanada biblioqrafik tərtibatın metodikası" (2004), "Heydər Əliyev və Azərbaycan elmi" (2010), "Kitabxanada ölkəşünaslıq üzrə biblioqrafik fəaliyyətin təşkili" (2004) adlı vəsaitlər xüsusilə əhəmiyyətlidir.

2013-cü ildə Almaniyanın "Lambert" akademik nəşriyyatında "Azərbaycanın kitabxana-biblioqrafiya və informasiya resursları: inkişaf mərhələləri, vəziyyəti və təkmilləşdirilməsi yolları" adlı monoqrafiyası rus dilində çap olunmuşdur.

Nadir İsmayılov səmərəli elmi və pedaqoji fəaliyyəti ilə yanaşı, həm də gözəl təşkilatçılıq və idarəçilik keyfiyyətlərinə malikdir. Müxtəlif fasilələrlə 1994-2003-cü illərdə Kitabxanaçılıq-informasiya fakültəsində dekan müavini vəzifəsində çalışmış, 2007-ci ildən Biblioqrafiyaşünaslıq kafedrasının müdir əvəzi olmuş, 2012-ci ildə kafedra müdiri vəzifəsinə təyin olunmuşdur.

Bir sıra respublika və beynəlxalq konfranslarda iştirak etmişdir. Onun elmi məsləhətçiliyi ilə iki fəlsəfə doktoru hazırlanmışdır. Əsas tədqiqat sahəsi: Azərbaycanın kitabxana-biblioqrafiya resursları, onların yerləşməsi və istifadəsi problemləri, Azərbaycan biblioqrafiyasının tarixi, nəzəri-metodiki və təşkilati problemləridir.

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən "Qabaqcıl Təhsil İşçisi" döş nişanı, Fəxri fərmanı və Bakı Dövlət Universitetinin Fəxri fərmanı ilə təltif olunmuşdur.

2014-cü ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü seçilmişdir.

Ədəbiyyat

Azərbaycan biblioqrafiyasının biblioqrafiyası: Biblioqrafik vəsaitlərin göstəricisi /BDU, Respublika Elmi-Texniki Kitabxanası; tərt. ed. N.İsmayılov; elmi red.Z.Əliyev.- Bakı: Mütərcim, 2003.-112 s.

Kitabxanada ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik fəaliyyət: nəzəri-tarixi, təşkilati-metodiki məsələləri /N.İsmayılov, Q.Hacıyeva; elmi red. Z.Əliyev; Azərb. Resp. Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyi; Respublika Elmi-Texniki Kitabxanası; BDU.-Bakı: Mütərcim, 2004.- 111 s.

Kitabxanada oxuculara soraq-biblioqrafiya xidmətinin təşkilində İKT-nin yeri /N.İsmayılov //Kitabxanaşünaslıq və Biblioqrafiya.-2014.- № 1.- S.47-51.

İnternetdə

www.anl.az

www.adau.edu.az

80 illiyi

İsmayıl Abdul-Qədirov 1936

İdman xadimi

İsmayıl Qafar oğlu Abdul-Qədirov 1936-cı il fevral ayının 15-də anadan olmuşdur. Peşəkar idmana 14 yaşında gəlmiş, 1950-ci ildə Dinamo idman cəmiyyətində yunan-roma güləşi ilə məşğul olmağa başlamışdır. 1950-ci ildə Azərbaycan Bədən Tərbiyəsi və İdman İnstitutunu (indiki Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası) bitirdikdən sonra institutun Güləş və onun metodikası kafedrasında işləməyə başlamışdır.

Bir neçə ildən sonra özünü məşqçilik sahəsində sınayaraq 1965-1968-ci illərdə məktəblilərdən ibarət yığma komandanın məşqçisi olmuşdur. Yetirmələri 1967-ci ildə SSRİ məktəblilərinin 10-cu yubiley Spartakiadasında III yerə layiq görülmüşdur.

1961-ci ildə "Bədən tərbiyəsi və idman əlaçısı" adına layiq görülən İ.Abdul-Qədirov, həmin il güləş üzrə respublika hakimi, 5 il sonra isə Ümumittifaq dərəcəli hakimliyə qədər yüksəlmişdir.

1980-1990-cı illərdə onun elmi-pedaqoji fəaliyyəti özünü daha qabarıq büruzə vermiş, neçə-neçə elmi əsərin, 30 dərslik və tədris vəsaitinin müəllifi olmuşdur. Məşqçilik fəaliyyəti dövründə 25-dən artıq idman ustası, 50-dən çox idman ustalığına namizəd hazırlamışdır.

1980-ci ildən başlayaraq, çalışdığı kafedraya rəhbərlik edən İ.Abdul-Qədirov 10 il bu vəzifəni daşıdıqdan sonra, dekan vəzifəsinə təyin edilmişdir.

1991-ci ildə elmi-pedaqoji fəaliyyəti nəzərə alınaraq, ona dosent elmi dərəcəsi verilmiş, 2009-cu ildən isə Bədən tərbiyəsinin nəzəriyyəsi və metodikası kafedrasının professoru olmuşdur.

Azərbaycan idmanı, idmançı kadrların yetişdirilməsi sahəsindəki uzunmüddətli və məhsuldar əməyi dəfələrlə Ümumittifaq və respublika idman komitələri tərəfindən diplom və fəxri fərmanlarla qiymətləndirilmişdir.

1990-2002-ci illərdə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü olan görkəmli idman xadimi, 2001-ci ildə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "Tərəqqi" medalına, 2006-cı ildə "Azərbaycan Respublikasının Əməkdar bədən tərbiyəsi və idman xadimi" fəxri adına layiq görülmüş, 2010-cu ildə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Uşaqlarla məktəbdənkənar iş: metodik göstəriş /Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Komitəsi, ADBTİ; tərt. D.Quliyev, İ.Abdul-Qədirov, İ.Tereşşenko; rəy.: H.Ağayev, Z.Babayev; elmi red. İ.Bayramov.-Bakı: ADBTİ, 1990.-47 s.

Abdul Qədirov İsmayıl Qafar oğlu //Azərbaycan Milli Ensiklopediyası: A-Argelander.-Bakı, 2009.- C.I.- S.25.

İnternetdə

www.anl.az

www.idman.com.az

Gənclər Günü 1997

Ə d ə b i y y a t

Gənclər bayramı gəncliyin milli şüurunun formalaşmasında necə rol oynayır? /İ.Sarıyeva //Bakı xəbər.- 2014.- 3 fevral.- S.12.

Gənclər dövlətin aparıcı qüvvəsini təşkil edir: 2 fevral Gənclər Günü /R.İsmayılov //Kaspi.-2012.- 2 fevral.-S.6.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.lib.aliyevheritage.org

Müstəqilliyimizin və ərazi bütövlüyümüzün qorunması, hüquqi demokratik dövlət quruculuğu prosesinin həyata keçirilməsi vəzifələri gənclərin ayrı-ayrı siyasi qurumlarda deyil, ümummilli dövlət mənafeləri əsasında səfərbər olunması, vahid gənclər siyasətinin hazırlanıb həyata keçirilməsi zərurətini ortaya atmışdı.

1993-cü ilin iyununda ümummilli lider Heydər Əliyev hakimiyyətə qayıtdığı dövrdən Azərbaycan gəncliyini ölkənin taleyi üçün mühüm işlər görməyə çağırmışdı. Məhz elə 1993-cü ildən etibarən dövlət gənclər siyasəti öz işinə başlamış, gənclərin cəmiyyətdə layiqli yer tutmasını təmin etmək üçün yaradılmışdır. Ulu öndər gənclərin dövlətin və cəmiyyətin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini vacib məsələlərdən biri kimi elan etmişdi. Bu məqsədlə 1994-cü il iyulun 26-da Gənclər, İdman və Turizm Nazirliyi yaradılmışdır. 1995-ci ildə isə o, Azərbaycan gənclərinin forumunun keçirilməsi təşəbbüsünü irəli sürmüş, 2 fevral 1996-cı il tarixində müstəqil Azərbaycan gənclərinin ilk forumu keçirilmişdir. Forumda ulu öndər Heydər Əliyev şəxsən iştirak etmişdir.

1 Fevral 1997-ci il tarixdə forumun ildönümü münasibəti ilə gənclərin bir qrupunu qəbul edən ulu öndər Heydər Əliyev "2 fevral - Azərbaycan gəncləri gününün elan edilməsi haqqında" Sərəncam imzalamışdır. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan "Dövlət Gənclər Siyasəti haqqında" fərman ulu öndərin gənclərə böyük önəm verdiyinin təzahürü kimi qiymətləndirilə bilər.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də gənclər siyasətinə eyni diqqətlə yanaşmış, 2005-ci ildə "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər)təsdiq edilmişdir.

Azərbaycanda Gənclər Günü ilə bağlı hər il silsilə tədbirlərin təşkil olunması, təhsil, elm və digər sahələrdə yüksək nailiyyət qazanmış gənclərin xüsusi mükafatlarla təltif edilməsi, gənclər tərəfindən təqdim olunmuş layihələrin maliyyələşdirilməsi, istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, konfrans-seminarlarda iştirakının təmin edilməsi, müxtəlif istiqamətlər üzrə yarışların keçirilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci il "Gənclər ili" elan edilmiş, 6 aprel 2011-ci il tarixində "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı haqqında Sərəncam imzalanmış, Gənclər Fondu yaradılmışdır. Dövlət Proqramının əsas məqsədi Azərbaycan Respublikasında gənclər siyasətini daha da inkişaf etdirmək, gənclərin menecment sahəsində fəal iştirakına şərait yaratmaq, gənc mütəxəssislərin işlə təminatı və digər sosial-iqtisadi problemlərinin həllini təmin etməkdir.

Tarixdə bu gün

Xocavənd rayonunun Qaradağlı kəndinin işğalı günü 1992



Qaradağlı kəndinin işğalı Xocalı qətliamına qədər Azərbaycanın yaşadığı ən faciəli hadisə, erməni işğalçı dəstələrinin törətdiyi müdhiş bir qırğın idi. Ermənilər Xocalı soyqırımına son "hazırlığı", həmin qətliamın "baş məşqini" məhz Qaradağlı kəndində keçmişdilər.

1988-ci ildən mənfur qonşularımızın torpaq-ərazi iddiası başlayan dövrdən etibarən Qaradağlı kəndinin dinc sakinləri hər gün ermənilərin hücumuna məruz qalmışdır. Erməni təxribatçıları tərəfindən törədilmiş terror aktları nəticəsində 1991-ci ilin 28 iyun tarixində 3 nəfəri qadın olmaqla 6 nəfər diri-diri yandırılmış, 1991-ci ilin sentyabr ayında sərnişin avtobusunun güllələbaran edilməsi nəticəsində 8 nəfər öldürülmüş, çoxlu sayda insan yaralanmış, güllə yarası alanlardan 5 nəfəri sonradan dünyasını dəyişmişdir. 17 fevral 1992-ci il tarixində erməni hərbi birləşmələri tərəfindən keçmiş SSRİ Silahlı Qüvvələrinin 366-cı motoatıcı alayının hərbi texnikasının və canlı qüvvəsinin dəstəyi ilə Dağlıq Qarabağ bölgəsindəki mühüm yaşayış məntəqələrindən biri - Xocavənd (Martuni) rayonunun Qaradağlı kəndi işğal edilmişdir. 118 nəfər əsir götürülmüş, 33 nəfər ermənilər tərəfindən güllələnmiş, öldürülən və yaralı halda olanları bir yerdə təsərrüfat quyusuna tökərək üzlərini torpaqlamışlar. Əsirlikdə saxlanılanlara qarşı vəhşi, vandalizm hərəkətləri ilə davranılması, insanların başlarının kəsilməsi, diri-diri basdırılması, dişlərinin çəkilməsi, ac-susuz saxlanılması, döyülərək öldürülməsi insanlığa qarşı törədilmiş cinayət hadisəsi idi. 140-a yaxın uşaq yetim qalmışdır. Ümumilikdə Qaradağlı kəndində 91 nəfər, kənd sakinlərinin hər 10 nəfərindən biri qətlə yetirilmişdir.

Öldürülənlərdən 10 nəfəri qadın, 8 nəfəri məktəbli olmuşdur.

İşğal nəticəsində kənddə 200 ev, 1 mədəniyyət evi, 320 yerlik orta məktəb binası, 25 çarpayılıq xəstəxana binası və digər obyektlər dağıdılmışdır. Kəndin 800 nəfərə yaxın sakini məcburi köçkün düşmüşdür.

İşğal altında olan başqa torpaqlarımız kimi Qaradağlı kəndi də azad olunacağı günü gözləyir.

Ədəbiyyat

Qaradağlı, Ə.Qaradağlı qəhrəman kənddir /Ə.Qaradağlı; red. S. Ağayev .-Bakı: Şuşa, 2010.-130 s.

Zülfüqarlı, M. Qaradağlı faciəsi. 17 fevral 1992-ci il /M.Zülfüqarlı.-Bakı: Qanun 2010.-35 s.

Qaraca, B.Qaradağlıdan başlayan faciələr : Qaradağlı faciəsindən 23 il keçir /B.Qaraca //Azərbaycan .-2015.- 17 fevral.- S.5.

Unudulmayan dərdlər: Qaradağlı faciəsindən 23 il keçir /L.Quliyev //Azərbaycan .-2015.- 17 fevral.- S.5.

Qurbanqızı, S. Xocalıdan əvvəl yaşanmış "İkinci Xocalı Soyqırımı": Qaradağlı faciəsi dünyanın diqqətindən kənarda qalan ikinci Xocalı faciəsidir /S.Qurbanqızı //Olaylar.- 2014.- 18 fevral.- S.13.

Rəhimli, F. Qaradağlı dağı /F.Rəhimli //Ədalət.- 2014.- 18 fevral.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.garadaghli.org

Beynəlxalq Ana Dili Günü 1999

YUNESKO (UNESCO) 1999-cu il fevral ayının 21-ni Beynəlxalq Ana Dili Günü elan etmişdir.

Dünyada məhv olmaq təhlükəsi ilə üzləşən dillərin qorunması məqsədilə hər il keçirilən Beynəlxalq Ana dili Günü hər kəsə öz doğma dilinin varlığını hiss etmək, onunla qürur duymaq, onu qorumaq, inkişaf etdirmək hüququ olduğunu bir daha xatırladır. Ən sadə şəkildə desək, dil ünsiyyət vasitəsidir, bununla bahəm, dil millətin simasını səciyyələndirən amillərdən biri, bəlkə də, birincisidir. O, hər hansı bir xalqın varlığının təzahürü, onun milli sərvəti, qan yaddaşıdır. Bu qənaət tarixin bütün dövrlərində bəşər övladlarının qeyd-şərtsiz qəbul etdiyi, sübuta ehtiyac duyulmayan aksiomadır. Millətin dilinin dövlət statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Dilin dövlət dili statusu qazanması həqiqətən qürur gətirən tarixi hadisədir. Azərbaycan dili bu tarixi hadisəni yaşayıb.... Və bu gün dilimizin dövlət statuslu dillər arasında olmasına görə dilimizin mənəvi dirilik atributuna çevrilməsi yolunda böyük fədakarlıqlar göstərmiş, "Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir. Şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm" deyən ümummilli lider Heydər Əliyevə minnətdar olmalıyıq. Ölkəmizdə Ana dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir. Bu siyasətin əsası hələ 1970-ci ildə qoyulub: Heydər Əliyev həmin il Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan dilində çıxış edib. Az keçməmiş bu dil dövlət əhəmiyyətli tədbirlərə yol açıb. Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1995-ci ildə qəbul edilən Konstitusiya ilə dövlət dilinin adı bərpa olundu. Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edildi. ...Azərbaycan Konstitusiyasının 45-ci maddəsi ilə hər kəsin Ana dilindən istifadə etmək, istədiyi dildə tərbiyə və təhsil almaq, yaradıcılıqla məşğul olmaq hüququ təsbit olunur. Konstitusiyamıza görə, heç kəs Ana dilindən istifadə hüququndan məhrum edilə bilməz. 2002-ci il 30 sentyabr tarixdə "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi, dünya azərbaycanlılarının Azərbaycan dili ilə bağlı milli-mədəni özünümüdafiə ehtiyaclarının ödənilməsi istiqamətində daha bir addımdır. Bu sənəd ümummilli lider Heydər Əliyevin xalqımıza və onun dilinə tükənməz məhəbbətinin, qayğısının parlaq nümunələrindən biridir. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür. Ana dilimizi qorumaq, inkişaf etdirmək bizim də borcumuzdur.

Ə d ə b i y y a t

Babayev, E.Azərbaycan dilinə böyük sevgi ilə: 21 Fevralda Beynəlxalq Ana dili günü qeyd edildi /E.Babayev //Ekran-efir .-2015.- 27 fevral.- S.7.

Salmanlı, R.Milli mənliyimizin təməl daşı : 21 fevral Beynəlxalq Ana Dili Günüdür /R.Salmanlı //Azərbaycan .-2015.- 21 fevral.- S.7.

FEVRAL

26

Tarixdə bu gün

Xocalı Soyqırımı günü 1992

- **Xocalı rayonu**
- **Ərazisi: 936 km²**
- **Əhalisi: 25332 nəfər**
- **İşğal tarixi: 26.02.1992**
- **İnternet saytı http://xocali-ih.gov.az**

Ötən əsrin 1992-ci ilinin fevralında tarixdə görünməmiş qətliam baş verdi. Türkləri özlərinin əbədi düşməni hesab edən ermənilər məskunlaşdıqları türk torpaqlarında insanlığa xas olmayan vəhşiliklər törətməklə, Xocalı adlı bir yurd yerini yer üzündən sildilər – insanlar amansızlıqla qətlə yetirildilər, əsir götürüldülər, şəhər isə oda qalandı. Bu, Qarabağ müharibəsinin ən qəddar səhifəsi idi.

1992-ci il fevralın 25-dən 26-na keçən gecə isə erməni-daşnak silahlı qüvvələri və keçmiş sovet 366-cı motoatıcı alayı Xocalıya divan tutdu, ən dəhşətli soyqırım törədildi. Buna qədər isə Xocalı erməni-daşnaklar tərəfindən tam mühasirəyə alınmışdı. Yollar tamam kəsilmiş, Xocalı taleyin ümidinə buraxılmışdı. Halbuki xocalılar erməni-daşnak hərbi qüvvələrinə mərdliklə müqavimət göstərir, şəhəri çətinliklə də olsa qoruyub saxlayırdılar. Düşmən elə buna görə də Xocalı sakinlərini vəhşiliklə, qəddarlıqla və kütləvi surətdə qətlə yetirdi.

Faciənin miqyası son dərəcə böyük və dəhşətli idi. Ağdam istiqamətində düzlər, dərələr, dağlar günahsız insanların cəsədləri ilə dolmuşdu. Yergöy qan ağlayırdı. Ermənilər qadınlara və uşaqlara, qocalara və xəstələrə rəhm etmədən hamını güllələyərək süngüdən keçirmişdilər. Xocalı soyqırımına siyasi qiymət verən və bu barədə dünyanın ən yüksək tribunalarından danışan ümummilli lider Heydər Əliyev Xocalı sakinləri ilə görüşündə demişdir: "... biz toplaşıb Xocalı faciəsinin cavabını verək, şəhidlərin qanının yerdə qalmaması gününü görək. Azərbaycanın ərazi bütövlüyünü təmin edək. Müstəqil Azərbaycanın hüdudlarını tamamilə bərpa edək. İnanıram ki, Azərbaycan xalqı belə qüdrətə malikdir".

Bu faciə zamanı böyük bir yaşayış məntəqəsi yer üzündən silinib, azərbaycanlılara qarşı amansız soyqırımı törədilib: 613 nəfər qətlə yetirilib, 1275 nəfər əsir götürülüb. Qanunsuz erməni silahlı qüvvələri mühasirədən çıxıb qaçmağa müvəffəq olmuş azərbaycanlıları milli mənsubiyyətlərinə görə yollarda, keçidlərdə, meşələrdə təqib edərək vəhşicəsinə öldürüblər. Habelə azğınlaşmış erməni hərbçiləri əsir və girov götürdükləri azərbaycanlıları xüsusi amansızlıqla, işgəncə verərək qətlə yetiriblər. Mühasirədən çıxıb qaçmağa müvəffəq olan sakinlər təqib edilərək Kətik meşəsində, Naxçıvanik yolunda, Qaraqaya ətrafında, Dəhraz kəndi yaxınlığında, Şelli istiqamətində, Əsgəran asfalt yolunun 86-cı kilometrliyində və digər ərazilərdə amansızlıqla qətlə yetiriliblər. Əsir götürülənlərdən 18 nəfəri Əsgəran rayon Daxili işlər şöbəsində işgəncə verilməklə öldürülüb. Hücum zamanı dinc əhaliyə qarşı ağlasığmaz vəhşiliklər törədilib, dözülməz işgəncələr verilib, insanların başlarının dərisi soyulub, müxtəlif əzaları kəsilib, gözləri çıxarılıb. Xocalıya hücum edən erməni dəstələri ölkə iqtisadiyyatına 170 milyon dollardan artıq ziyan vurub. Şəhərin toxuculuq fabriki, onlarla ictimai iaşə obyekti dağıdılıb. 200 nəfərdən çox insan müxtəlif dərəcəli əlilə çevrilib. Ermənilər buna görə cavab verməlidirlər. Əgər bunu edə bilməsək, gələcək nəsillər bizi heç vaxt bağışlamayacaqdır!

Azərbaycan Respublikasının Milli Məclisi 24 fevral 1994-cü ildə 1992-ci il fevralın 26-da erməni təcavüzkarları tərəfindən törədilmiş, Azərbaycan xalqının milli faciələrindən və bəşər tarixinin qanlı səhifələrindən biri olan Xocalı hadisələri hər il fevralın 26-da "Xocalı soyqırımı günü" elan olunması barədə qərar vermiş və Xocalı hadisələri barəsində həqiqətin dünya xalqlarına çatdırılması və "Xocalı soyqırımı günü"nün beynəlxalq miq-

yasda keçirilməsi üçün dünya azərbaycanlılarına müraciət etmişdir.

Hər il fevralın 26-da saat 17.00-da Azərbaycan xalqı Xocalı soyqırımının qurbanlarının xatirəsini yad edir.

Doğma yurdlarından didərgin düşmüş və Azərbaycanın 48 rayonuna səpələnmiş Xocalı sakinləri Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli, Ermənistanın Azərbaycana qarşı təcavüzünün dəf edilməsi, ölkənin ərazi bütövlüyünün bərpa edilməsi ümidi ilə yaşayırlar. Onlar dünya xalqlarına, dövlətlərinə, beynəlxalq təşkilatlara haqq-ədaləti və həqiqəti müdafiə etmək, Xocalıda törədilmiş terrorizm, etnik təmizləmə faktlarını pisləmək barədə müraciətlər edirlər. Heydər Əliyev Fondu ötən illər ərzində Xocalı soyqırımının dünya ictimaiyyətinə, beynəlxalq aləmə çatdırılması istiqamətində böyük işlər görüb. Dünyanın, Avropanın onlarla ölkəsində Xocalı soyqırımının ildönümlərində tədbirlərin, sərgilərin keçirilməsi, filmlərin nümayiş olunması və sair bu qəbildəndir. Xocalı soyqırımına dair müxtəlif dillərdə Heydər Əliyev Fondu tərəfindən filmlər hazırlanıb, həmin filmlərin təqdimatı keçirilib. Həmçinin Xocalı soyqırımı ilə bağlı fotosərgilərin təqdimatı dünyanın onlarla ölkəsində düzənlənib. Xocalı soyqırımı ilə bağlı xarici kütləvi informasiya vasitələrinin əməkdaşlarının qələmə aldıqları məqalələrin sərgisi keçirilib. Bununla yanaşı, "Xocalı uşaqların gözü ilə" rəsm sərgisi və sair böyük tədbirlər təşkil olunub. Bunlar hamısı Heydər Əliyev Fondunun və ələlxüsus ölkənin birinci xanımı, millət vəkili Mehriban xanım Əliyevanın Xocalı soyqırımının tanıdılması istiqamətində çox böyük xidmətləridir. Özü də nəinki Xocalı soyqırımının, ümumilikdə bütün Azərbaycan həqiqətlərinin təbliği istiqamətində bu xidmətlər ölçüyəgəlməzdir. Eyni zamanda Leyla xanım Əliyeva dünya ictimaiyyətinin diqqətini erməni işğalçılarının Azərbaycan xalqına qarşı törətdikləri dəhşətli cinayətlər haqqında obyektiv məlumatlara cəlb etmək, sözügedən faciələrə beynəlxalq səviyyədə siyasi-hüquqi qiymət vermək, eyni zamanda, Azərbaycanın Qarabağ münaqişəsində milli maraqlarının müdafiə olunması məqsədilə "Xocalıya ədalət – Qarabağa azadlıq" ("Justice for Khojaly, Freedom for Karabakh") devizi altında beynəlxalq kampaniyanın keçirilməsi təşəbbüsü ilə çıxış etmişdir.

"Xocalıya ədalət!" - dünyada bu kampaniyaya qoşulan insanların sayı günü-gündən çoxalmaqdadır. Bu kampaniya və təbii ki, bu istiqamətdə görülən işlər bundan sonra da davam edəcək. Amma söhbət ondan gedir ki, bizim hər birimiz bu kampaniyalara dəstək verməliyik. Harada yaşamağından asılı olmayaraq – Azərbaycanda da, Azərbaycandan kənarda da. Hərənin gücü nəyə çatırsa, Azərbaycan həqiqətlərinin, Xocalı həqiqətlərinin təbliğ edilməsi, bütövlükdə Qarabağ savaşında şəhid, əlil olmuş, yaralanmış qəhrəmanlarımızın, ümumən Azərbaycan xalqının başına gətirilən bütün müsibətlərin təbliğ edilməsi, erməni yalanlarının qarşısının alınması istiqamətində öz fəaliyyətini ortaya qoymalıdır.

Tarix heç nəyi unutmur!

Allah bütün şəhidlərə rəhmət eləsin!

Ə d ə b i y y a t

Fələk belə qismət yazmaz, Xocalı!: kitab Xocalı Soyqırımı gününə həsr olunur /G.Pənah; red. A.Arif qızı; dizayn S.Hüseynzadə; [ön söz. müəl. Ə. R. Xələfli, S. Tahir].-Bakı: UniPrint, 2011.-306 s.

Xocalı soyqırımı/[Qarabağ Azadlıq Təşkilatı] ; red. hey. A. Nağı [və b.]; [naşir N. Həbibov].-Bakı: [s. n.], 2014.-36 s.

Xocalı soyqırımı-20: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F. Axundov ad. Azərb. Milli Kitabxanası tərt. M.Məmmədova; burax. məs. və ixt. red. K.Tahirov; red. G.Səfərəliyeva.- Bakı, 2012.- 313 s.

Leyla Əliyeva: "Xocalıya Ədalət!": Beynəlxalq erməni terroruna qarşı yeni strateji model: üç cilddə /V.Səmədov, R.Vəlizadə; ön sözün müəl. R.Hüseynov; baş elmi məsl. A.Mustafayeva; elmi red. İ.Quliyev, C.Bəhramov; red. İ.Məmmədova, S.Sadıxqızı; Azərb. MEA, İnsan Hüquqları İn-tu; "Xocalıya Ədalət!" Beynəlxalq Təbliğat və Məlumatlandırma Kampaniyası; "Kaspian İzvestiya" Beynəlxalq İnformasiya Agentliyi.-Bakı: [s. n.], 2014.- C.1.- 341 s.; C.2.- 373 s.; C.3.-476 s.

Khojaly genocide/Embassy of the Republic of Azerbaijan Jakarta.Jakarta: [s.n.], 2015.-44, [44] p

İ n t e r n e t d ə

www.khojaly.org.az

www.azerigenocide.org

FEVRAL

26

90 illiyi — I Türkoloji Qurultay 1926

Yeni Türk Əlifba Komitəsi, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin birgə qərarı ilə çağırılan Birinci Türkoloji qurultay (sənədlərdə I Ümumittifaq Türkoloji Qurultay) 1926-cı il 26 fevral-5 mart tarixində Bakı şəhərində, Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin binasında-tarixi "İsmailiyyə"də (indiki AMEA Rəyasət Heyətinin binası) keçirilmişdir. Qurultayda 131 nəfər nümayəndə və xeyli qonaq iştirak edirdi. Nümayəndələr arasında təkcə SSRİ-dən deyil, bir sıra avropa ölkələrindən görkəmli türkoloqlar yer almışdı.

Qurultayın iclaslarında (17 iclas) türk xalqlarının tarixi, etnoqrafiyası, mədəniyyəti, dil və ədəbiyyatlarına həsr olunmuş 37 elmi məruzə dinlənilmiş, həmin məruzələr üzrə müvafiq qətnamələr və tövsiyələr qəbul edilmişdi. I Türkoloji qurultayda türk dillərinin yeddi böyük problemi müzakirə olunmuşdu: 1. Əlifba problemi; 2. İmla-orfoqrafiya problemi; 3. Termin problemi; 4. Tədris-metodika problemi; 5. Qohum və qonşu dillərin qarşılıqlı əlaqəsi və interferensiya problemləri; 6. Türk dillərinin ədəbi dil problemləri, o cümlədən ortaq ədəbi dil problemi; 7. Ulu dil nəzəriyyəsi və türk dillərinin tarixi problemləri.

Görkəmli türkoloq alimlərdən B.Çobanzadə "Türk ləhcələrinin yaxın qohumluğu haqqında", H.Zeynallı "Türk dillərində elmi terminologiya sistemi haqqında", F.Ağazadə "Türk dillərində düzgün yazı", V.V.Bartold "Türk xalqlarının tarixinin müasir vəziyyəti və öyrədilməsinin yaxın vəzifələri", C.Məmmədzadə "Türk xalqlarının əlifba sistemləri haqqında", H.Şərəf "Ərəb və latın sistemli şriftlər və onların türk-tatar xalqları üçün tətbiqi məsələləri", F.Köprülüzadə "Türk xalqlarınınədəbidillərininkişafı", S.F.Oldenburq "Türk xalqları arasında ölkəşünaslıq işlərinin metodları", A.A.Müller "Türk xalqlarının təsviri sənəti haqqında", A.N.Samoyloviç "Türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və yaxın vəzifələri", A.R.Zifeldt-Simumyaqi "Türk dillərində elmi terminologiyanın yaranma prinsipləri məsələsi haqqında", S.Y.Malov "Qədim türk dillərinin öyrənilməsinin müasir vəziyyəti və perspektivləri", N.F.Yakovlev "Türk millətlərinin sosial və mədəni şəraitləri ilə bağlı əlifba sisteminin qurulması problemləri" mövzularında maraqlı elmi məruzələrlə çıxış etmişdilər.

I Türkoloji qurultayın proqramı, orada müzakirə olunan gündəlik məsələlər hazırda da türkologiyamızın qarşısında duran ən vacib məsələlərdir.

Qurultay dünya mədəniyyəti tarixində türk xalqlarının da payının az olmadığını bir daha sübuta yetirmiş və əsas diqqət mərkəzində olan bütün türkdilli xalqlar üçün latın qrafikasına əsaslanan yeni əlifbanın qəbul edilməsinə dair qəti qərar qəbul edilmişdir.

Dünya şöhrətli alim, akademik M.Ş.Şirəliyevin təşəbbüsü ilə Moskva, 1966-cı ildə Bakıda I Ümumittifaq türkoloji qurultayın 40 illiyini keçirməyə icazə verdi. Yubiley qurultayında SSRİ-nin Moskva, Leninqrad, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tatarıstan, Başqırdıstan dilçiləri ilə yanaşı, dünyanın başqa türkoloji mərkəzlərindən də tanınmış türkoloqlar iştirak etmişdilər. Qərara alınmışdı ki, dörd ildən bir türkoloji qurultay keçirilsin, ancaq qurultay konfrans adı ilə keçirilmiş və gündəlikdə siyasi məzmundan ehtiyat edərək ancaq dil məsələləri əhatə olunmuşdur. Bu konfransın sonuncusu 1988-ci ildə Bişkəkdə çağırılmışdı.

Bakı türkoloji qurultayının 40 illik yubileyində qərara alınmışdı ki, türk dilçiliyinin ümumittifaq mətbuat orqanı kimi "Советская тюркология" adlı jurnal nəşr olunsun. Bu jurnalın nəşri Azərbaycana etibar olunmuş, SSRİ EA ilə Azərbaycan EA-nın müştərək elmi nəzəri mətbuat orqanı kimi akademik M.Ş.Şirəliyevin baş redaktorluğu (1970-1987) ilə nəşr edilmişdi. Jurnalda türk dillərinin nəzəri məsələləri, leksika, fonetika, morfologiya və sintaksis ilə bağlı görkəmli Rusiya və SSRİ-nin türk respublikaları dilçilərinin, tanınmış dünya türkoloqlarının dəyərli məqalələri çap olunmuşdu. Dilçilik məsələləri ilə yanaşı, türk folkloruna, türk xalqlarının ədəbi abidələrinə, aktual tarix məsələlərinin işıqlandırılmasına da yer verilirdi. 1987-1991-ci illərdə jurnala SSRİ EA-nın müxbir üzvü, görkəmli sovet türkoloqu Ədhəm Rəhim oğlu Tenişev baş redaktorluq etmiş, onun müavini kimi istedadlı gənc Azərbaycan dilçisi Aydın Məmmədov çalışmışdı. 1992-ci ildən jurnal Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunun mətbuat orqanı kimi, professor A.Axundovun baş redaktorluğu ilə və "Türkologiya" adı ilə nəşr olunmağa başladı, lakin maliyyə problemləri səbəbindən jurnal vaxtlı-vaxtında nəşr edilmədi və nəşri dayandırıldı.

Bu gün müstəqil Azərbaycanda milli dil siyasəti və quruculuğu sahəsində ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli və "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 9 avqust 2001-ci il tarixli müvafiq fərmanlar ana dilimizin inkişafında mühüm istiqamətverici sənədlər hesab edilir. Bütün bunlar Türkoloji qurultayın qərarlarının müasir dövrümüzdə məntiqi davamı olmaqla, həmin qərarların tarixi əhəmiyyətini təsdiq edir və onların obyektiv zərurətdən meydana gəldiyini göstərir. Ümummili lider Heydər Əliyevin əsasını qoyduğu mədəni quruculuq strategiyası prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Belə ki, dövlət başçısının "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 12 yanvar 2004-cü il və "2005-2006-cı illərdə Azərbaycan dilində latın qrafikası ilə çapı nəzərdə tutulan əsərlərin siyahısının təsdiq edilməsi haqqında" 27 dekabr 2004-cü il, "Birinci Türkoloji qurultayın 80 illik yubileyi haaqqında" 9 noyabr 2005-ci il tarixli Sərəncamları mahiyyət etibarilə Heydər Əliyevin dil siyasətininin davamı olmaqla, I Türkoloji qurultayın tarixi tövsiyələrinin yeni əsrdə gerçəkləşməsinin ifadəsi kimi dəyərləndirilməlidir

Tarix və zaman I Türkoloji qurultayın qəbul etdiyi qərar və tövsiyələrin doğruluğunu, həyatiliyini və elmiliyini bir daha təsdiq etmişdi.Azərbaycan respublikası 90 il əvvəldə olduğu kimi bu gün də türkologiyanın aparıcı mərkəzlərindən biri, Şərq və Qərb sivilizasiyalarının qovuşduğu, geosiyasi baxımdan önəmli məkan, intellektual potensialı zəngin olan mədəni ölkə, avropa yönümlü demokratik dövlətdir. Odur ki, növbəti II Türkoloji qurultayın da məhz Azərbaycanda keçirilməsi məqsədəuyğun olardı.

Ə d ə b i y y a t

Çobanov, M. I Türkoloji qurultay və türk dillərinin müasir problemləri : Ədəbi dilimiz xalqımızın milli sərvətidir /M. N. Çobanov; red. N. Cəfərov; Azərbaycan Atatürk Mərkəzi.-Bakı: AzAtaM, 2006.-C.I.-152 s.

Latın əsaslı yeni türk əlifbası və I Bakı türkoloji qurultayı: Biblioqrafiya /Tərtibçilər: K. V. Nərimanoğlu; Ə. Ağakişiyev; S. Abdullayeva; Red.: M. Vəliyeva.-Bakı: Çinar-Çap, 2006.-40 s.

Sarıyeva, İ. Azərbaycan tarixində böyük hadisə - türk dünyasını birləşdirən I Türkoloji Qurultay... /İ.Sarıyeva //Bakı xəbər.-2015.- 2 iyun.- S. 15.

Первый Всесоюзный Тюркологический съезд: 26 февраля-5 марта 1926 г. : стенографический отчет /М-во Культуры и Туризма Азерб. Респ., Нац. Библиотека Азерб. им. М. Ф. Ахундова; отв. за вып. В. Бахманлы ; ред. А. Асадзаде.-Баку: Нагыл Еви, 2011.-550 с.

1 mart
Gün çıxır 07:15
Gün batır 18:48

31 mart
Gün çıxır 07:27
Gün batır 20:20

MART

19 fevral-
20 mart

Balıq bürcünün Nişanı sudur. Yupiter və Neptunun himayəsindədir. Günəşin Balıqlar bürcündən keçdiyi dövrdə doğulanlar incə intuisiyalı olmaqla yanaşı, daim bir narahatlıq hissi də keçirirlər.

Ç.A.	1
Ç.	2
C.A.	**3**
C.	4
Ş.	5
B.	6
B.E.	7
Ç.A.	8
Ç.	9
C.A.	**10**
C.	11
Ş.	12
B.	13
B.E.	14
Ç.A.	15
Ç.	16
C.A.	**17**
C.	18
Ş.	19
B.	20
B.E.	21
Ç.A.	22
Ç.	23
C.A.	**24**
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	29
Ç.	30
C.A.	**31**

- *Beynəlxalq Qadınlar Günü (08.03.1910)*
- *Qızıl Aypara Günü (10.03.2008)*
- *Milli Teatr Günü (10.03.1873)*
- *Beynəlxalq Novruz Günü (21.03.2010)*
- *Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997)*
- ***Azərbaycanlıların Soyqırımı günü (31.03.1918)***

875 il Nizami Gəncəvi 1141-1209

Nizami Gəncəvi ilə bağlı son yubiley tədbirləri dahi sənətkarın 850 illiyi ilə əlaqədar 1991-ci ildə keçirilməli idi. Lakin ölkədəki dərin siyasi, iqtisadi və sosial böhran buna imkan vermədi. Bütün bunları nəzərə alan Prezident İlham Əliyev 2011-ci ildə dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyinin geniş şəkildə qeyd olunması üçün Sərəncam imzaladı.

Dövlətimizin başçısının tapşırıqlarına əsasən Gəncədə Heydər Əliyev Fondunun dəstəyi ilə dahi şairin muzeyi inşa olundu. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev inşa olunmuş muzeyin açılışında iştirak edib. Muzey Nizami Gəncəvi məqbərəsinin yaxınlığında tikilmiş, qarşısında N.Gəncəvinin büstü qoyulmuşdur. Muzeydə ulu öndər Heydər Əliyev və Nizami Gəncəvi guşələri yaradılmış, şairin həyat və yaradıcılığını əks etdirən monitor quraşdırılmışdır. Muzeydə dahi mütəfəkkirin həyat və yaradıcılığı haqqında geniş məlumatlarla zəngin elektron məlumat köşkü quraşdırılmışdır. Nizami Gəncəvinin zəngin irsini əks etdirən eksponatların yerləşdiyi muzeydə ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Nizami Gəncəvinin yubileylərinin keçirilməsi, məqbərəsinin bərpa edilməsi, əsərlərinin tərcümə və tədqiq olunması ilə bağlı sərəncam və qərarları sərgilənir. Burada dahi şairin 800, 840 illik yubileyləri münasibətilə nəşr olunan kitab və monoqrafiyalar nümayiş etdirilir.

Şairin 870 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən nəşr olunan "Xəmsə" və monoqrafiyalardan, o cümlədən Avstriya, Rusiya, Almaniya, Böyük Britaniya milli kitabxanalarında, Misirin İsgəndəriyyə kitabxanası, Fransanın Strasburq kitabxanası və ABŞ-ın Metropol Muzeyində qorunan nadir "Xəmsə" əlyazmalarının və miniatürlərinin orijinalları və nüsxələrindən ibarət guşə yaradılmışdır.

MART 2016

Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şairə Billuri Hökumə İbrahim qızının (03.03.1926-22.11.2000) anadan olmasının 90 illiyi **80**

Xalq şairi Rüstəmzadə Süleyman Əliabbas oğlunun (Süleyman Rüstəm) (12.03.1906-10.06.1989) anadan olmasının 110 illiyi **81**

Nasir Mustafayev Əmir Gülbala oğlunun (12.03.1936-27.07.2007) anadan olmasının 80 illiyi **82**

Şair, tərcüməçi, publisist İsmayılzadə İsa Mustafa oğlunun (15.03.1941-14.07.1997) anadan olmasının 75 illiyi **83**

Əməkdar incəsənət xadimi, şair, tərcüməçi Məmmədsalahlı Ələkbər Baba oğlunun (Ələkbər Salahzadə) (15.03.1941-01.09.2013) anadan olmasının 75 illiyi

Şair Qasımov (Qasımzadə)Böyükağa Məmməd oğlunun (18.03.1916-29.08.1957) anadan olmasının 100 illiyi

Xalq şairi Vəkilov Səməd Yusif oğlunun (Səməd Vurğun) (21.03.1906-27.05.1956) anadan olmasının 110 illiyi **84**

Yazıçı Veysəlli Nemət Bayramalı oğlunun (21.03.1941) anadan olmasının 75 illiyi

Şair Kərimov Əli Paşa oğlunun (Əli Kərim) (22.03.1931-30.06.1969) anadan olmasının 85 illiyi **85**

Yazıçı, jurnalist Babayev Nurəddin Həsən oğlu (23.03.1921-25.09.1991) anadan olmasının 95 illiyi **86**

Şair, nasir Xanlarov Seyran Əsgər oğlunun (Seyran Səxavət) (23.03.1946) anadan olmasının 70 illiyi **87**

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, bəstəkar Bağırov Zakir Cavad oğlunun (16.03.1916-08.01.1996) anadan olmasının 100 illiyi **88**

Əməkdar incəsənət xadimi, professor Əliyev Azad Sabir oğlunun (29.03.1951-30.03.2014) anadan olmasının 65 illiyi **89**

Xalq artisti, xanəndə Cabbar Məşədi İsmayıl oğlunun (Cabbar Qaryağdı oğlu) (31.03.1861-20.04.1944) anadan olmasının 155 illiyi **90**

Xalq artisti, pianoçu Babayev Rafiq Fərzi oğlunun (31.03.1936-19.03.1994) anadan olmasının 80 illiyi **91**

Teatr. Kino

Xalq artisti Qurbanov Ağadadaş Gülməmməd oğlunun (08.03.1911-25.06.1965) anadan olmasının 105 illiyi **92**

Xalq artisti Haqverdiyev Əyyub Məmmədəli oğlunun (15.03.1911-12.06.1996) anadan olmasının 105 illiyi **93**

Xalq artisti Kazımzadə Kazım Cəfər oğlunun (Kazım Ziya) (21.03.1896-20.11.1956) anadan olmasının 120 illiyi **94**

Azərbaycanın və SSRİ-nin Xalq artisti və teatr rejiroru Axundov Ruhulla Fətulla oğlunun (Sidqi Ruhulla) (28.03.1886-05.05.1959) anadan olmasının 130 illiyi **95**

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Nəzərli Hikmət Baba oğlunun (07.03.1966-26.02.1992) anadan olmasının 50 illiyi **96**

Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Nurəddin İslam oğlunun (16.03.1951-10.02.1995) anadan olmasının 65 illiyi **97**

Azərbaycanın Milli Qəhrəmanı Nəsrəddinov Rafiq Hüseyn oğlunun (18.03.1961-06.09.1992) anadan olmasının 55 illiyi **98**

Azərbaycanın Milli Qəhrəmanı Əsədov Əsəd Soltan oğlunun (22.03.1956-29.10.1991) anadan olmasının 60 illiyi **99**

Siyasət.Hüquq.Hərbi iş

General-mayor Haşımbəyov Əliyar bəy Mehdi oğlunun (08.03.1856-29.05.1920) anadan olmasının 160 illiyi **100**

Əməkdar hüquqşünas, 3-cü dərəcəli Dövlət ədliyyə müşaviri Rəfiyev Akif Bəşir oğlunun (23.03.1936) anadan olmasının 80 illiyi **101**

Türkçülüyün əsas ideoloqlarından biri, sosioloq, şair və publisist Mehmet Ziya (Ziya Göyalp) (23.03.1876-25.10.1924) anadan olmasının 140 illiyi **102**

Tarix

Tarix elmləri doktoru, professor, AMEA-nın müxbir üzvü Əfəndiyev Oqtay Əbdülkərim oğlunun (26.03.1926-26.02.2013) anadan olmasının 90 illiyi **103**

Fəlsəfə.İqtisadiyyat

Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvü, fəlsəfə elmləri doktoru, professor Şükürov Ağayar Məhəmməd oğlunun (25.03.1946-2008) anadan olmasının 70 illiyi **104**

Neftçi, buruq ustası Məmmədov Abbas Zaman oğlunun (24.03.1916-01.01.1976) anadan olmasının 100 illiyi

Mədəniyyət.Maarif.Təhsil

AMEA-nın müxbir üzvü, Əməkdar elm xadimi, tənqidçi, ədəbiyyatşünas Qarayev Yaşar Vahid oğlunun (05.03.1936-25.08.2002) anadan olmasının 80 illiyi **105**

AMEA-nın müxbir üzvü, filologiya elmləri doktoru, professor Hüseynov Böyükağa Murtuza oğlunun (07.03.1926-31.05.1983) anadan olmasının 90 illiyi **106**

Yazıçı-publisist, filologiya elmləri doktoru, professor Vəliyev İsmayıl Ömər oğlunun (18.03.1951) anadan olmasının 65 illiyi **107**

Krım-tatar publisisti, pedaqoq, ictimai xadim Qaspralı (Qasprinski) İsmayıl bəy Mustafa ağa oğlunun (21.03.1851-11.09.1914) anadan olmasının 165 illiyi **108**

Ədəbiyyatşünas, tənqidçi, filologiya elmləri doktoru, professor Bəktaşi İnayət Heydər oğlunun (25.03.1931-09.09.1989) anadan olmasının 85 illiyi **109**

Coğrafiya.Geologiya

Akademik Bağırzadə Faiq Məmməd oğlunun (20.03.1926-24.03.1988) anadan olmasının 90 illiyi **110**

Coğrafiya elmləri doktoru, professor Kərəmov Nurəddin Kərəm oğlunun (20.03.1911 -13.08.1981) anadan olmasının 105 illiyi **111**

Türk səyyahı, coğrafiyaşünası, tarixçisi, etnoqrafı, şair Çələbi Evliyanın (Tam adı Çələbi ibn Dərviş Muhəmməd Zillindir) (25.03.1611-1679/82) anadan olmasının 405 illiyi **112**

Kimya.Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, tibb elmləri doktoru, professor Məmmədov Yaqub Cavad oğlunun (03.03.1941) anadan olmasının 75 illiyi **113**

Akademik, kimya elmləri doktoru Nağıyev Tofiq Murtuza oğlunun (04.03.1941) anadan olmasının 75 illiyi **114**

Texnika elmləri doktoru, kimyaçı alim Qəmbərov Yunis Heydər oğlunun (05.03.1926-07.09.1991) anadan olmasının 90 illiyi **115**

Akademik, Əməkdar elm xadimi Əliyev Cəmil Əziz oğlunun (30.03.1946) anadan olmasının 70 illiyi **116**

Texnika.Mühəndis işi

Dövlət xadimi, energetik, texnika elmləri namizədi, professor Bayramzadə Əlirza Baxşəli oğlunun (18.03.1911-01.08.1963) anadan olmasının 105 illiyi

İsveçli ixtiraçı və sənaye sahibkarı Nobel Emmanuelin (böyük) (24.03.1801-03.09.1872) anadan olmasının 215 illiyi

Tarixdə bu gün

Ümumdünya Mülki Müdafiə Günü (01.03.1972)

Azərbaycanın BMT-yə qəbul olunması günü (02.03.1992)

Ümumdünya Yazıçılar günü (03.03.1986)
Bədən Tərbiyəsi və İdman Günü (05.03.2005)
Qızıl Aypara Günü (07.03.2008)
Beynəlxalq Qadınlar Günü (08.03.1910)
Milli Teatr Günü (10.03.1873)
Daxili Qoşunlar Günü (12.03.1995)
Ümumdünya İstehlakçılar Günü (15.03.1961)
Novruz bayramı (20-22.03)
Beynəlxalq Novruz Günü (21.03.2010) **117**
Beynəlxalq Poeziya Günü (21.03)
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü (21.03.1966)
Beynəlxalq Teatr Günü (27.03.1948)
Olimpiya muzeyinin yaradılmasının (27.03.2001) 15 illiyi
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü (28.03.1997) **118**
Azərbaycanlıların Soyqırımı Günü (31.03.1918) **119-120**

90 illiyi

Hökumə Billuri 1926-2000

Şairə

Hökumə İbrahim qızı Billuri 1926-cı il mart ayının 3-də Cənubi Azərbaycanın Zəncan şəhərində anadan olmuşdur. 1933-1943-cü illərdə "Azəri" qız məktəbində təhsil almış və sonra həmin məktəbdə müəllim kimi çalışmağa başlamışdır. Sovet ordusu İranda olduğu dövrdə ictimai-siyasi fəaliyyətə başlamış, vilayət partiya komitəsinin üzvü olmuşdur. İlk şeirlərini orta məktəbdə ikən fars, sonra Azərbaycan dilində yazmışdır. Azərbaycan dilində yazdığı "Fəhlə", "Gözlərim", "Sübh açıldı" və s. şeirləri və məqalələri 1945-ci ildə "Azər" ,"Vətən yolunda" qəzetlərində, "Azərbaycan" jurnalında dərc edilmişdir. 1945-1946-cı illərdə Azərbaycan Demokrat Partiyası Zəncan Vilayət Komitəsi təbliğat şöbəsinin sədr müavini, SSRİ ilə İran arasında mədəni rabitə cəmiyyəti Zəncan şöbəsinin sədr müavini, mədəniyyət evi kitabxanasının müdiri vəzifələrində çalışmışdır. Cənubi Azərbaycanda inqilabi hadisələrin fəal iştirakçısı olduğuna görə "21 Azər" medalı ilə təltif edilmişdir. 1946-cı ilin dekabr ayından etibarən Şimali Azərbaycanda mühacirətdə yaşamağa məcbur olmuşdur. Həmin vaxtdan fəal elmi və bədii yaradıcılıqla məşğul olmuş, dövri mətbuatda müntəzəm çıxış etmişdir. 1955-ci ildə "Şeirlər", 1963-cü ildə "Azadlıq baharı", 1970-ci ildə "İthaf", 1980-ci ildə "Könül baharı" və s. kitabları Bakıda və rus dilində Moskvada nəşr olunmuşdur.

1952-ci ildə ADU-nun (indiki BDU) filologiya fakültəsini bitirmiş, 1952-1954-cü illərdə Azərnəşrdə ədəbi-bədii şöbədə redaktor işləmiş, 1954-1956-cı illərdə Azərbaycan KP MK nəzdində partiya məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. Bu dövrdə o, iki dəfə Azərbaycan Demokrat Partiyası MK-nın üzvü seçilmişdir. 1956-1960-cı illərdə Azərbaycan Demokrat Partiyası MK-nın siyasi orqanı - "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışmışdır. 1960-1963-cü illərdə Moskvada Sov. İKP MK nəzdində olan İctimai Elmlər Akademiyasında təhsil almış, orada "İran Azərbaycanının realist-demokratik ədəbiyyatı" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi elmi dərəcəsini almışdır. 1964-cü ildən Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Yaxın və Orta Şərq Xalqları İnstitutunda baş elmi işçi vəzifəsində çalışmışdır. Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı və SSRİ medalları ilə təltif edilmişdir. 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Hökumə Billuri 1984-cü ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, 1985-ci ildə Əmək veteranı olmuşdur.

Sairə, ədəbiyyatşünas Hökumə Billuri 2000-ci il noyabr ayının 22-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /H.Billuri.- Bakı: Şərq-Qərb, 2005.- 224 s.

Dünya belə dünyadır: şeirlər /H.Billuri.- Bakı: Yazıçı, 1989.- 133,[1] s.: portr., 17 sm.

Məhəmmədhüseyn Şəhriyar /H.Billuri.- Bakı: Elm, 1984.- 156 s.

Nə qəribə dünya imiş... /H.Billuri; red. A.Bağırov.- Bakı: Azərbaycan, 1997.-224 s.

Fərəcov, S. Ayrılıq həsrətli, vətən soraqlı...: [H.Billuri haqqında] /S.Fərəcov //Mədəniyyət.- 2011.- 2 mart.- S.14.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

www.anl.az

110 illiyi

Süleyman Rüstəm 1906-1989

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 3 cilddə /S.Rüstəm.- Bakı: Şərq-Qərb, 2005.

Şeirlər /S.Rüstəm //Ədalət.- 2014.- 25 yanvar.- S.20.

Əsgərzadə, Q. Süleyman Rüstəm. Nəğmələrdə döyünən ürək: mahnılar, qəzəllər... /müəllif və kitabın tərt. Q.Əsgərzadə (ön söz. müəl.).- [Bakı]: Çaşıoğlu, 2015.- 268 s.

Ədilli, Ş. Güney dərdimizdən ən çox yazmış şair /Ş.Ədilli //Təzadlar.- 2015.- 6 yanvar.- S.10.

Şəymən. Azərbaycanı tərənnüm edən şair...: Süleyman Rüstəmin əsərlərində milli ideyanın təlqin və təbliği mühüm əhəmiyyət kəsb edir /Şəymən //Şərq.- 2014.- 12 noyabr.- S.11.

Избранное: стихотво-рения и поэмы /С.Рустам.- М.: Худож. лит., 1986.- 350 с.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.adam.az

www.anl.az

Süleyman Əliabbas oğlu Rüstəmzadə (Süleyman Rüstəm) 1906-cı il mart ayının 12-də Bakıda anadan olmuşdur. Rustatar məktəbini bitirmiş, N.Nərimanov adına Bakı Sənaye Texnikumunun elektrik mexanikası şöbəsində təhsil almışdır. Texnikumun ictimai həyatında fəal çalışmış, divar qəzetində felyeton və şeirlərlə, "Molla Nəsrəddin" məcmuəsində kiçik xəbərlərlə çıxış etmişdir. "Unudulmuş gənc" adlı ilk mətbu şeiri "Maarif və mədəniyyət" jurnalında dərc edilmişdir. Həmin vaxtdan dövri mətbuatda müntəzəm çıxış etməyə başlamışdır. 1924-cü ildə texnikumda təhsilini yarımçıq qoyaraq pedaqoji təmayüllü 18 saylı ikinci dərəcəli birləşmiş zəhmət məktəbinin son kursuna dəyişilmişdir. 1925-ci ildə həmin məktəbi bitirib "Gənc işçi" qəzeti redaksiyasında ədəbiyyat şöbəsinin müdiri kimi əmək fəaliyyətinə başlamış, eyni zamanda ADU-nun Şərq fakültəsinə (indiki BDU) daxil olmuşdur. Tələbəlik illərində ədəbiyyat və dram dərnəklərində fəal iştirak etmiş, dövri mətbuatda şeir, hekayə və felyetonlarını "S.R.", "Dəmirçi", "D.oğlu" və başqa imzalarla çap etdirmişdir. 1926-1934-cü illərdə "Maarif və mədəniyyət" jurnalında məsul katib vəzifəsində çalışmışdır. 1929-cu ildə Moskva Dövlət Universitetinin Ədəbiyyat və incəsənət fakültəsinə köçürülmüşdür. 1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olmuşdur. 1935-ci ildə Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinə üzv, 1938-ci ildə Birinci çağırış Azərbaycan Ali Sovetinə deputat seçilmişdir. Bundan sonra bütün çağırışlarda xalq elçisi olmuşdur. "Qaçaq Nəbi" pyesi üzərində işləmiş və 1940-cı ildə əsər tamaşaya qoyulmuşdur. 1941-ci ildə Sovet Ordusu tərkibində Cənubi Azərbaycanda olmuş, Təbrizdə çıxan "Vətən yolunda" qəzetində öz şeirlərini "Süleyman Hikmət" imzası ilə çap etdirmişdir. Şimali Qafqazda, Mozdok və Kerç ətrafında döyüşlərdə batalyon komissarı, eləcə də siyasi işçi kimi fəaliyyət göstərmişdir. 1945-ci ilin sentyabrında Səməd Vurğunla birgə Azərbaycan SSR Dövlət himninin sözlərini yazmışdır. Azərbaycan SSR Xarici ölkələrlə Dostluq və Mədəni Əlaqə Cəmiyyəti Sovet-Bolqar dostluğu şöbəsinin idarə heyətinin sədri, SSRİ Yazıçılar İttifaqı idarə heyətinin üzvü, Azərbaycan KP MK üzvü kimi fəal ictimai fəaliyyətlə məşğul olmuşdur. "Ədəbiyyat qəzeti"nin baş redaktoru olmuşdur. Xidmətlərinə görə 1943-cü ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 1960-cı ildə "Xalq şairi" fəxri adlarına layiq görülmüş, 1950-ci ildə SSRİ Dövlət Mükafatı laureatı, 1970-ci ildə Azərbaycan Dövlət Mükafatı laureatı, 1976-cı ildə "Sosialist Əməyi Qəhrəmanı", üç Lenin ordeni, iki "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif olunmuşdur. Bolqarıstan Xalq Məclisinin rəyasət heyəti tərəfindən "Xalq hakimiyyətinin 25 illiyi", "Georgi Dmitrovun anadan olmasının 90 illiyi" medallarına layiq görülmüşdür. Ömrünün sonunadək Azərbaycan SSR Ali Sovetinin sədri vəzifəsində çalışmışdır.

Süleyman Rüstəm 1989-cu il iyun ayının 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir. Bakıda adını daşıyan küçə var.

80 illiyi

Əmir Mustafayev 1936-2007

Yazıçı

Əmir Gülbala oğlu Mustafayev 1936-cı il mart ayının 12-də Qusar rayonunda anadan olmuşdur. Orada 4 saylı orta məktəbi bitirmiş, 1953-cü ildə BDU-nun filologiya fakültəsinə daxil olmuşdur. 1958-ci ildə universiteti bitirdikdən sonra Moskva Mərkəzi Komsomol Məktəbində təhsilini davam etdirmişdir.

"O gəldi" adlı ilk hekayəsi 1954-cü ildə çap olunmuş, həmin vaxtdan etibarən yazıları ilə müntəzəm çıxış etmişdir. 1957-1969-cu illərdə "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, 1971-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında məsul katib, 1976-1979-cu illərdə "Azərbaycan" jurnalı redaksiyasında məsul katib vəzifələrində çalışmışdır. Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında bir il ssenarist olmuş, yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasına qayıtmışdır.

1985-1989-cu illərdə Azərnəşrdə bədii ədəbiyyat şöbəsində müdir, 1989-1990-cı illərdə "Karvan" kitablar seriyası redaksiyasında məsul katib, 1990-1991-ci illərdə "Respublika" qəzeti redaksiyasında baş redaktorun müavini, 1991-1993-cü illərdə "Həyat" qəzetində mədəniyyət şöbəsinin müdiri, 1993-2002-ci illərdə "Azərbaycan" qəzetinin baş redaktoru vəzifələrində çalışmışdır.

Yazıçı "Qurd ürəyi", "Ürəkdən asılan yük", "Qara zolaq" kimi romanların, 20 povestin, 200 hekayənin, 500-dən artıq publisistik yazının və müxtəlif səpkili məqalələrin müəllifidir. Onun bir neçə povest və hekayəsi Türkiyədə, İranda, İraqda və Rusiyada nəşr edilmişdir.

Rəsmi nümayəndə heyəti tərkibində Türkiyədə, Kiprdə, Çində səfərlərdə olmuşdur.

60 illik yubileyi ilə əlaqədar ədəbiyyatda və jurnalistikada göstərdiyi xidmətlərinə görə yazıçı 1996-cı ildə "Tərəqqi" medalı ilə təltif edilmiş, "Araz" ali ədəbi mükafata, "Ustad" media mükafatına, "Kamil sənətkar" ali jurnalist mükafatına layiq görülmüşdür. Prezident təqaüdçüsü idi.

Əmir Mustafayev 2007-ci il iyul ayının 27-də Bakıda vəfat etmiş, Qusarda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Mustafayev.- Bakı: Azərnəşr, 1990.- 422, [2] s.

İçindən asılmış adam: povest və hekayələr /Ə.Mustafayev.- Bakı: Şuşa, 2004.- 503 s.

Sonuncu şeytan: (povest və hekayələr) /Ə.Mustafayev.- Bakı: Gənclik, 1994.- 240 s.

Ürəkdən asılan yük: roman /Ə.Mustafayev.- Bakı: Yazıçı, 1990.- 512 s.

Bizim Əmir müəllim: Azərbaycan mətbuatı - 135 //Azərbaycan.- 2010.- 17 iyul.- S. 6.

Əhmədov, T. Əmir Mustafayev //Azərbaycan yazıçıları (XX-XX1 yüzillikdə): ensiklopedik məlumat kitabı /T.Əhmədov.- Bakı, 2011.- S.300.

75 illiyi

İsa İsmayılzadə 1941-1997

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: şeirlər, poemalar /İ.İsmayılzadə.- Bakı: Azərnəşr, 1991.- 343 s.

Gözləyin, dünyaya qayıtmağım var...: şeirlər, seçmələr /İ.İsmayılzadə.- Bakı: Qanun, 2006.- 519 s.

Yelləncəkdə yellənən külək /İ.İsmayılzadə.- Bakı: Gənclik, 1985.- 99 s.

Abbaslı, T. Ziya dolu poeziya: Üzdə həlim, içdə tələtüm-İsa İsmayılzadə... /T.Abbaslı //Mədəniyyət.- 2014.- 14 mart.- S. 13.

Abdin, T. Geriyə baxanda, ikinci dönəm: İsa İsmayılzadə /T.Abdin //Ədalət.- 2013.- 24 avqust.- S.15.

Əhmədov, T. İsa İsmayılzadə //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı /T.Əhmədov.- Bakı, 2011.- S.482.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.adam.az

www.anl.az

İsa Mustafa oğlu İsmayılzadə 1941-ci il mart ayının 15-də Gürcüstanın Qarayazı (indiki Qardabani) rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1958-1963-cü illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır.

Ədəbi fəaliyyətə hələ tələbə olarkən, 1959-cu ildə "Aprel çiçəkləri" almanaxında və "Azərbaycan gəncləri" qəzetində (19 iyun 1961) çap etdirdiyi şeiri ilə başlamışdır.

1963-1964-cü illərdə Qardabanidə orta məktəbdə müəllim, 1966-1968-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor, Azərbaycan Sovet Ensiklopediyası baş redaksiyasında elmi redaktor, "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi, şöbə müdiri, baş redaktorun müavini, 1968-1981-ci illərdə "Ulduz" jurnalı redaksiyasında şöbə müdiri, 1981-ci ildən ömrünün sonunadək "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində çalışmışdır.

Eyni zamanda, 1994-cü ildən Azərbaycan Televiziya və Radio Verilişləri Şirkətinin musiqili veriliş baş redaksiyasında (müqavilə ilə) musiqi mətnləri şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir. Şeir və poemaları keçmiş SSRİ xalqlarının dillərinə və bir sıra xarici dillərə tərcümə edilmişdir.

Yaradıcılığında poetik tərcüməyə də xüsusi diqqət vermiş, 1977-ci ildə sosialist ölkələri yazıçılarının Moskvada keçirilən I Beynəlxalq simpoziumunda, 1978-ci ildə isə Asiya və Afrika ölkələri yazıçılarının Yurmalada keçirilən seminar-müşavirəsində iştirak etmişdir.

1960-cı ildən mətbuat səhifələrində öz şeirləri ilə çıxış etməyə başlamış, 1968-ci ildə onun "Ulduzların ad günü" adlı ilk şeirlər kitabı çapdan çıxmışdır.

Sonralar "İşıqlı yarpaqlar" (1972), "Torpaq nəğməsi" (1977), "Ömürdən keçən qatar" (1980), "Salam Yer kürəsi" (1982), "Yelləncəkdə yellənən külək" (1985), "Anamla söhbət" (1985), "Gedim anamdan soruşum" (1987), "Bir ömürlük gecə" (1989), "Seçilmiş əsərləri" (1991), "Vurağan, tutağan, yatağan" (1992) kitabları işıq üzü görmüşdür.

Bir neçə filmin yaradıcı heyətində yer almış - "Qarabağ bülbülləri" (1977), "Belə bir şəhər var" (1982), İntizar (1986) sənədli və bədii filmlərinin ssenari müəllifi, "Bəyin oğurlanması" (1986) komediya bədii filminin mahnı mətnlərinin müəllifi olmuşdur.

1969-cu ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

1980-ci ildə Azərbaycan Lenin komsomolu mükafatı laureatı olmuşdur.

Şair, tərcüməçi, publisist İsa İsmayılzadə 1997-ci il iyul ayının 14-də Bakı şəhərində vəfat etmişdir.

110 illiyi Səməd Vurğun 1906-1956

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 5 cilddə /S.Vurğun.- Bakı: Şərq-Qərb, 2005.

Aygün: poema /S.Vurğun; çapa haz. Aygün.-Bakı: Adiloğlu, 2004.-143 s.

Şeirlər /S.Vurğun //Ədalət.- 2015.- 20 mart.- S.13.

Bayramov, A. Səməd Vurğun: Milli və ümumbəşəri /A.Bayramov.- Bakı: Səda, 2006.- 315 s.

Vəliyev, F. Səməd Vurğun və Azərbaycan etnoqrafiyası /F.Vəliyev, R.Əfəndiyev; red. A.Vurğunqızı.- Bakı: Çinar-Çap, 2006.-202 s.

Səməd Vurğun-105 [İzomaterial]: [12 ədəd açıqca dəsti] /tərt. ed. və red. A.Vəkilova; dizayner Z.Məmmədov; foto E.Feyzullayev; S.Vurğun Fondu; "Aşıq Şəmşir" Mədəniyyət Ocağı İctimai Birliyi.- Bakı: Elm və təhsil, 2011.- 12 əd. ayrıca v. ill. bükmə və cild üzlüyündə.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.samadvurgun.com.az

Səməd Yusif oğlu Vəkilov (Səməd Vurğun) 1906-cı il mart ayının 21-də Qazax rayonunun Yuxarı Salahlı kəndində anadan olmuş, ibtidai məktəbi bitirib Qazax Müəllimlər Seminariyasına daxil olmuşdur. 1924-1929-cu illərdə Qazax, Gəncə və Quba məktəblərində müəllim kimi fəaliyyət göstərmişdir. Bu dövrdə "Qızıl qələm" ədəbiyyat cəmiyyətinin Gəncə şöbəsində fəal çalışmış və yeni şeirlərini dövri mətbuatda müntəzəm çap etdirmişdir. 1929-1931-ci illərdə Moskva Dövlət Universitetinin ədəbiyyat fakültəsində təhsil almışdır. Bakıya qayıdaraq Azərbaycan Pedaqoji İnstitutunu (indiki ADPU) bitirmiş, Dil və ədəbiyyat fakültəsində aspirant olmuşdur. 1930-cu ildə onun "Şairin andı" adlı ilk şeirlər kitabı çapdan çıxmışdır. 1934-cü ildə Azərbaycan Sovet yazıçılarının I qurultayında İttifaqın məsul katibi seçildiyindən aspiranturanı tərk etmişdir. 1934-cü ildə Ümumittifaq sovet yazıçılarının I qurultayında Yazıçılar Birliyi rəyasət heyətinin üzvü, 1935-ci ildə ZSFSR Mərkəzi İcraiyyə Komitəsinin üzvü seçilmişdir. 1938-ci ildə "Vaqif", 1939-cu ildə "Xanlar", 1942-ci ildə "Fərhad və Şirin", 1945-ci ildə yazdığı "İnsan" mənzum pyesləri ölkənin mədəni həyatında böyük hadisəyə çevrilmişdir.

Şair tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, 1935-ci ildə A.S.Puşkinin "Yevgeni Onegin" mənzum poemasını, 1937-ci ildə isə Şota Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" poemasının bir hissəsini, 1940-cı ildən başlayaraq Nizami Gəncəvinin "Leyli və Məcnun" poemasını Azərbaycan dilinə tərcümə etmişdir. 1942-ci ildə "Fərhad və Şirin" poemasına görə Stalin mükafatı laureatı olmuşdur.

Uzun müddət Azərbaycan Sovet Yazıçıları İttifaqı rəyasət heyətinə rəhbərlik etmişdir. 1954-cü ildə Azərbaycan EA prezidentinin müavini seçilmişdir. Xarici Ölkələrlə Mədəni Əlaqə Cəmiyyətinin sədri, Sovet Sülhü Müdafiə Komitəsinin üzvü olduğu illərdə sülh uğrunda mübariz kimi SSRİ nümayəndə heyətinin tərkibində beynəlxalq görüşlərdə zülmə, ədalətsizliyə və müstəmləkəçiliyə qarşı etiraz səsini ucaltmışdır. Onun əsərləri rus, gürcü, tacik, ukrayna, özbək, çin, ingilis, alman, polyak, bolqar və s. dillərə tərcümə olunmuşdur.

1941-1942-ci illərdə iki dəfə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1945-ci ildə Azərbaycan EA-nın həqiqi üzvü seçilmişdir.

1943-cü ildə "Əməkdar incəsənət xadimi", 1956-cı ildə filologiya elmləri fəxri doktoru və "Xalq şairi" (ilk Azərbaycan Xalq şairi) fəxri adına layiq görülmüşdür. İki "Lenin" ordeni, iki "Qırmızı Əmək Bayrağı" ordeni, "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir. Şairin yaradıcılığı haqqında bir neçə dissertasiya yazılmışdır.

Səməd Vurğun 1956-cı il may ayının 27-də vəfat etmiş, Bakı şəhərində, Fəxri Xiyabanda dəfn olunmuşdur.

MART
22

85 illiyi

Əli Kərim
1931-1969

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 2 cilddə /Ə.Kərim.- Bakı: Şərq-Qərb, 2013-2014.

Xəyal, S. Əli Kərim: yaradıcılığı əsasında /S.Xəyal; red. T.Həsənzadə; ön söz. müəl. F.Qoca.- Bakı: Elm və təhsil, 2011.-102 s.

Kələntərli, K. Bu səfər bitən deyil... /K.Kələntərli.- Bakı: Vektor, 2007.- 158 s.

Mustafayev, F. Dinmə, ey kədər /F.Mustafayev; red. S.Sarvan.- Bakı: Adiloğlu, 2007.- 140 s.

Əhmədov, T. Əli Kərim /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.267.

Yusifli, V. Əli Kərim novatorluğu: əbədi səfərdə /V.Yusifli //525-ci qəzet.- 2015.- 2 aprel.- S.6.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.adam.az

http://www.azyb.net/cgi-bin/jurn/main.cgi?id=2412

Əli Paşa oğlu Kərimov (Əli Kərim) 1931-ci il mart ayının 22-də Göyçayda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1949-1951-ci illərdə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsində üç il təhsil almış, 1951-ci ildə Moskva şəhərindəki M.Qorki adına Ədəbiyyat İnstitutunda oxumağa göndərilmiş, 1955-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. Bakıya qayıtdıqdan sonra "Azərbaycan" jurnalı redaksiyasında işləmiş, Şeir şöbəsinin müdiri olmuşdur.

Ədəbi yaradıcılığa 1948-ci ildə "Azərbaycan pioneri" qəzetində çap etdirdiyi "Təzə müəllim" şeiri ilə başlamışdır.

1957-ci ildə Moskvada keçirilən gənclərin və tələbələrin VI ümumdünya festivalında "İlk simfoniya" poeması mükafata layiq görülmüşdür. İlk kitabı 1958-ci ildə Azərbaycan Ədəbiyyatı Dekadası münasibəti ilə rus dilində çıxan "Два влюбленных" (İki sevgili) kitabı olmuşdur. "Həmişə səfərdə" (1963), "Qızıl qanad" (1965), "Qaytar ana borcunu" (1970), "Uşaqlar və ulduzlar" (1971), "Səfərdən sonra" (1972), "Pillələr" (1978, 1987), "Seçilmiş əsərləri" (I cild, 1974, II cild 1975; 2 cilddə, 1991), "Qayıt" (1983), "Mavi nəğmənin sahilində" (1991), "Neyləyim, şeirlə dərd söyləyirəm" (1999) və s. kitabları çap edilmiş, Azərbaycan şairi Əhməd Cəmildən və rus yazıçısı Lev Tolstoydan bəhs edən edən sanballı məqalələr çap etdirmişdir. Şairin əsərlərindən bir çoxu ölümündən sonra işıq üzü görmüşdür.

Bəşərilik Əli Kərim şeirinin mahiyyətini müəyyən edən əsas səciyyəvi xüsusiyyətlərdəndir. Şairin bədii yaradıcılığının tədqiqinə həsr edilmiş "Əli Kərim" (Sona Xəyal, 2011), "Azərbaycan poeziyasında Əli Kərim mərhələsi", "Əli Kərim üslubu, yaxud fərdi yaradıcılığından ədəbiyyat tarixinə baxış" (Cavanşir Yusifli - 2005, 2010) monoqrafiya və məqalələr çap edilmişdir.

Altay Məmmədovun "Tanıdığım Əli Kərim", Feyzi Mustafayevin "Dinmə, ey kədər", Elza Kərimin "Nə xoşbəxt imişəm" xatirələr kitabı çapdan çıxmışdır.

Əli Kərim 60-cı illər Azərbaycan ədəbiyyatında "İntibah dövrü" kimi qiymətləndirilən bir mərhələnin ən parlaq simalarından ola bildi...

Görkəmli şair Əli Kərim 1969-cu il iyun ayının 30-da Bakıda vəfat etmiş, Göyçayda dəfn olunmuşdur.

Göyçay şəhərində büstü qoyulmuş, Əli Kərim parkı salınmışdır. Sumqayıt şəhərində Əli Kərim poeziya klubu fəaliyyət göstərir.

95 illiyi

Nurəddin Babayev 1921-1991

Yazıçı



Nurəddin Həsən oğlu Babayev 1921-ci il mart ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi Bakı şəhərində bitirmiş, 1944-1949-cu illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. Ədəbi fəaliyyətə 1939-cu ildə başlamış, müxtəlif qəzetlərdə məqalə, oçerk və hekayələri dərc olunmuşdur. 1940-1941-ci illərdə jurnalistlik fəaliyyətinə "Azərbaycan pioneri" qəzeti redaksiyasında ədəbi işçi kimi başlamışdır.

1941-1943-cü illərdə II Dünya müharibəsi dövründə ön cəbhədə döyüşən orduda olmuş, vuruşlarda yaralanmış və baş leytenant rütbəsi ilə Bakıya qayıtmışdır. 1943-1945-ci illərdə "Kommunist" qəzeti redaksiyasında şöbə müdiri, 1945-ci ildə "Azərbaycan müəllimi" qəzetində redaktor müavini, 1953-cü ildə Uşaqgəncnəşrdə baş redaktor vəzifələrində çalışmışdır. "Əbədi qəhrəmanlıq" adlı ilk kitabı 1945-ci ildə çap olunmuşdur. 1954-cü ildən AYB-nin üzvü seçilmişdir.

C.Cabbarlı adına Bakı kinostudiyasında baş redaktor işləmiş, "Bacarıqlı əllər" (1963), "Nizami yurdu" (1968), "Azərbaycan elmi" (1969), "Həyatın mənası" (1979), "Axtaran tapar" və s. elmi-sənədli filmlərin ssenari müəllifi olmuşdur. 1958-ci ildə "Azərbaycanda bədii oçerkin inkişafı" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi, daha sonra filologiya elmləri doktoru alimlik dərəcəsi almış, 1981-ci ildə professor elmi rütbəsini almışdır.

1969-cu ildə tanınmış alim və yazıçılarımız, o cümlədən Nurəddin Babayevin səyləri nəticəsində jurnalistika fakültəsi yaradılmışdır. 50 illik elmi-pedaqoji və ədəbi-jurnalistik fəaliyyəti dövründə indiki BDU-da Jurnalistika kafedrasının müdiri, jurnalistika şöbəsinin müdiri, fakültənin ilk dekanı kimi vəzifələrdə çalışmışdır. Moskva Dövlət Universitetinin jurnalistika fakültəsində müxtəlif məzmunlu mühazirələrlə çıxış etmişdir. Elmi əsərlərin jurnalistika seriyasının və "Jurnalist" tədris qəzetinin təşkilatçısı olmuşdur. Bundan başqa Jurnalistlər İttifaqının təşkil olunmasında da onun xidmətləri əvəzsizdir.

Ömrünün sonunadək dövrünün ən çox çap olunan yazıçısı olmuşdur. Onun "Qızıl qələm" mükafatına layiq görülmüş "Oğluma məktublar" əsəri Bolqarıstanda "Ədəbiyyat" dərsliyinə daxil edilmişdir. 20-dən çox kitabı çapdan çıxmış, Azərbaycanda Ədəbiyyat və İncəsənət arxivinin təşkilində çox böyük rol oynamış, arxiv xəzinəsinə qiymətli materiallar vermişdir.

1961-1981-ci illərdə SSRİ döyüş medalları və Azərbaycan Respublikası Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanları ilə təltif edilmiş, 1982-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülmüşdür.

Nurəddin Babayev 1991-ci il sentyabr ayının 25-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Açıq söhbət: publisistik düşüncələr /N.Babayev; red. S.Məmmədova.- Bakı: Gənclik, 1982.- 308 s.

Gəlin kişilikdən danışaq /N.Babayev.- Bakı: Gənclik, 1986.- 357 s.

Əhmədov, T. Nurəddin Babayev //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı /T.Əhmədov.- Bakı, 2011.- S.724.

Həmidova, Z. Nağıllaşan ömür /Z.Həmidova //Mədəniyyət.- 2014.- 18 iyul.- S.11.

Jurnalistikanın ilk dekanı... //Azadlıq.- 2013.- 2 may.- S. 14.

Tərtərli, Q. Gödəlməz ömrün səhifələri /Q.Tərtərli //Ədalət.- 2014.- 4 dekabr.- S.4.

Звезды не гаснут: повесть и рассказы /Н.Бабаев.- М.: Сов. писатель, 1969.- 248 с.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

70 illiyi

Seyran Səxavət
1946

Şair

Seyran Əsgər oğlu Xanlarov (Seyran Səxavət) 1946-cı il mart ayının 23-də Füzuli rayonunun Yuxarı Yağlıvənd kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra, 1962-1964-cü illərdə Natəvan adına Füzuli şəhər məktəbində direktor köməkçisi vəzifəsində işləmişdir. 1964-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsini bitirmiş, 1970-1972-ci illərdə Sovet Ordusu sıralarında SSRİ Müdafiə Nazirliyində tərcüməçi işləmişdir.

1974-1976-cı illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında xüsusi müxbir, ədəbi işçi kimi çalışmışdır. İki il İranda tərcüməçi işləmişdir. 1976-1981-ci illərdə yenidən "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında ədəbi işçi kimi fəaliyyət göstərmiş, 1981-1991-ci illərdə "Ulduz" jurnalı redaksiyasında Nəsr şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1980-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

İlk bədii yazısı 1962-ci ildə "Qızıl Araz" qəzetində çap olunmuşdur. 1962-ci ildən bədii yaradıcılığa dövri mətbuatda çap etdirdiyi şeir, hekayə və publisistik yazıları ilə başlamış, mərkəzi və respublika mətbuatı səhifələrində müntəzəm çıxış etmişdir. Şair, nasir, dramaturq Seyran Səxavət "Adalar", "Mənim planetim", "Hamı elə bilirdi...", "Daş evlər", "Dar köynək", "Qızıl teşt", "Nekroloq", "Palıd toxumu", "Bəhanə", "Yəhudi əlifbası", "Qaça-qaça" kitablarının müəllifidir. Əsərlərində insan və vətən sevgisi, Qarabağ müharibəsi, qaçqınların yaşam tərzi, insan taleləri kimi bəşəri mövzular əsas yer tutur.

Əsərləri keçmiş SSRİ xalqları dillərinə və bir sıra xarici dillərə tərcümə olunmuşdur. 1988-ci ildə "Qızıl teşt" pyesi Akademik Dram Teatrında (indiki Azərbaycan Dövlət Akademik Milli Dram Teatrı), 1989-cu ildə "Büst" pyesi Lənkəran Dram Teatrında, 1990-cı ildə "Qapıların o üzündə qalan dünya" pyesi Füzuli Dram Teatrında tamaşaya qoyulmuşdur.

A.Ebanoidzedən tərcümə etdiyi "İki ay kənddə və ya imperatorsayağı evlənmə" romanı (A.Xanlarova ilə birlikdə) 1986-cı ildə "Gənclik" nəşriyyatı tərəfindən çap edilmişdir.

"Nekroloq" romanı Azərbaycan Yazıçılar Birliyinin 2002-ci ilin Y.Səmədoğlu adına "İlin ən yaxşı romanı" mükafatına layiq görülmüşdür.

Ədəbiyyat

Bəhanə : roman /S.Səxavət.- Bakı: Vektor, 2009.- 340 s.

Qaçhaqaç: avtobioqrafik roman /S.Səxavət.- Bakı: Qanun, 2010.- 462 s.

Palıd toxumu: Sənədsiz roman /Seyran Səxavət.- Bakı: Qanun, 2003.- 220 s.

Yəhudi əlifbası: roman /S. Səxavət.-Bakı: Qanun, 2009.- 287, [1] s.

Əhmədov, T. Seyran Səxavət //Azərbaycan yazıçıları (XX-XX1 yüzillikdə): ensiklopedik məlumat kitabı /T.Əhmədov.- Bakı: Nurlar NPM, 2011.- S. 836.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

www.anl.az

100 illiyi Zakir Bağırov 1916-1996

Bəstəkar

Zakir Cavad oğlu Bağırov 1916-cı il mart ayının 16-da Şuşada anadan olmuşdur. Ailə vəziyyəti ilə əlaqədar 1924-cü ildə onu Bakıdakı N.Nərimanov adına 8 saylı uşaq evinə vermişlər. 1929-cu ildən böyük qardaşının himayəsində yaşamış, 16 yaşında musiqi ilə ciddi məşğul olmağa başlamış və Azərbaycan Dövlət Konservatoriyasının nəzdindəki musiqi fəhlə fakültəsində fortepiano sinfinə qəbul olmuşdur. 1934-cü ildə musiqi təhsilini davam etdirmək P.İ.Çaykovski adına Moskva Dövlət Konservatoriyasına göndərilmişdir. 1939-cu ildə o, hərbi borcunu yerinə yetirmək üçün ordu sıralarına çağırılmış, 1939-1941-ci illərdə Ryazan şəhərində avtonəqliyyat alayında qulluq etmişdir. 1941-1945-ci illərdə Avstriya, Macarıstan, Rumıniya, Finlandiya və Mancuriyada xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra təhsilini davam etdirmiş, 1949-cu ildə Moskva Dövlət Konservatoriyasını bitirmişdir. Həmin ildən Azərbaycan Dövlət Konservatoriyasının müəllimi, 1950-1958-ci illərdə Azərbaycan Radio və Televiziya Verilişləri Komitəsinin bədii rəhbəri vəzifəsində çalışmışdır. Bu illər ərzində bəstəkar bir çox maraqlı əsərlər bəstələmiş, 1950-ci ildə S.Hacıbəyovla birlikdə "30 il" kantatasını yazmışdır. 1951-ci ildə Z.Bağırov, T.Quliyev və M.S.İsmayılovun birlikdə topladıqları "Azərbaycan xalq rəqsləri" məcmuəsində 22 qədim xalq rəqs melodiyaları indiyə qədər də ifa olunur. Azərbaycan musiqisi tarixində muğamın nota köçürülməsi ilk dəfə Z.Bağırov və T.Quliyev tərəfindən 1936-cı ildə böyük ustalıqla həyata keçirilmişdir. 1963-1965-ci illərdə M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında bədii rəhbər vəzifəsində çalışmışdır. 1970-ci ildən Musiqi nəzəriyyəsi kafedrasının müdiri olmuşdur. 1958-ci ildə "Kəndimizin mahnısı", 1964-cü ildə "Qayınana" operettalarını, 1956 və 1969-cu illərdə xalq çalğı alətləri orkestri üçün süitaları, 1970-ci ildə fortepiano ilə orkestr üçün konserti, 1972-ci ildə "Aygün" operasını, 1973-cü ildə orqan üçün improvizasiya və fuqanı, kamera-instrumental əsərlərini, mahnı və romansları yazmış, bir çox dram tamaşası və "Ağ qızıl ustaları", "Aygün", "Bərəkətli torpaq", "Nizami", "Sədaqət yolu ilə", "Təbiətin dostları", "Quba bağlarında", "Bizim Azərbaycan" kimi bədii, sənədli filmlərə musiqi bəstələmişdir. Ömrünün 45 ilini konservatoriyada tədris işinə sərf edən bəstəkar, bir çox musiqiçilər yetişdirmişdir.

Musiqi mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə 1961-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, "Şərəf" nişanı ordeni və "Yubiley medalı" ilə təltif edilmişdir.

Görkəmli bəstəkar Zakir Bağırov 1996-cı il yanvar ayının 8-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Aygün: 3 pərdəli opera: klavir /Z.Bağırov.- Bakı, 1973.- 337 s.

Tar və simfonik orkestr üçün konsert: partitura /Z.Bağırov.- Bakı, 1986.- 129 s.

Abbasova, İ. Bəstəkar Zakir Bağırovun həyat və yaradıcılıq yolu /İ.Abbasova.- Bakı, 2009.- 291 s.

Bağırov, N. Zakir Bağırov /N.Bağırov.- Bakı: Şur, 1993.- 21 s.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

65 illiyi Azad Əliyev 1951-2014

Dirijor

Azad Sabir oğlu Əliyev 1951-ci il mart ayının 29-da Bakıda anadan olmuşdur. 1974-cü ildə Azərbaycan Dövlət Konservatoriyasınının fortepiano sinfini, 1980-ci ildə isə vokal ixtisası üzrə bitirmişdir. Pedaqoji fəaliyyətə 1980-ci ildə 6 saylı musiqi məktəbində başlamış, sonralar A.Zeynallı adına orta ixtisas musiqi məktəbində və Sumqayıt orta ixtisas musiqi məktəbində dərs demişdir.

1974-1982-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının Simli alətlər kafedrasında konsertmeyster vəzifəsində çalışmışdır. 1972-1980-ci illərdə Respublika Sarayında baş musiqi rejissoru vəzifəsində çalışmış, bu illərdə maestro Niyazi ilə sıx əməkdaşlıq etmişdir. 1980-ci ildə Sumqayıt Musiqi Texnikumunda müdir müavini işləmiş, kamera orkestri yaratmış, bu orkestr ilə müxtəlif konsertlər vermişdir. Bakı Musiqi Akademiyasının Solo oxuma və opera hazırlığı kafedrasının dosenti olmuş, pedaqoji fəaliyyətlə yanaşı ifaçı kimi də fəaliyyət göstərmişdir. 1981-1985-ci illərdə Xalq artisti, skripka ifaçısı S.Qəniyevlə birgə pianoçu kimi keçmiş SSRİ-nin bütün respublikalarında çıxış etmişdir. 1992-ci ildən Ş.Məmmədova adına Opera studiyasının direktoru olmuş, Bakı Musiqi Akademiyasının Opera hazırlığı kafedrasının müəllimi vəzifəsində çalışmışdır. İşlədiyi müddətdə Verdinin "Traviata", "Trubadur", "Aida", Leonkovallonun "Payatsı", Rimski-Korsakovun "Tsarskaya nevesta", Bizenin "Karmen", Motsartın "Bastyen və Bastyena", Əmirovun "Sevil", Ü.Hacıbəylinin "Arşın mal alan", Raxmaninovun "Aleko" operalarını tamaşaya qoymuşdur. 1999-cu ildən Bülbül adına Musiqi məktəbində dərs demiş, kamera ansamblı və müşayiət sinfinin müəllimi olmuşdur.

2001-ci ildən Niyazi adına Radio və Televiziyanın Simfonik Orkestrinin və Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin II dirijoru vəzifəsində çalışmış, 2002-ci ildən maraqlı konsert proqramları ilə çıxış etmişdir. Opera hazırlığı sinfində 20-dən artıq məzun yetişdirmişdir. Onlardan əksəriyyəti Opera və Balet Teatrının solisti, bəziləri isə Azərbaycanın Xalq artistləridir.

2006-cı ildən "Azteleradio" Qapalı Səhmdar Cəmiyyətinin Niyazi adına Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru vəzifəsində çalışmışdır.

2012-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Dirijor Azad Əliyev 2014-cü il mart ayının 30-da vəfat etmişdir.

Ədəbiyyat

Violonçel məktəbi: ibtidai siniflər üçün dərslik /A.Əliyev; tərt. red. N.Abbaszadə; rəy.: T.Atakişiyev, A.Rzayev, A.Əliyev; Azərb. Resp. Təhsil Nazirliyi; Azərb. Resp. Təhsil Problemləri İn-tu, Bakı Musiqi Akad.- Bakı: Adiloğlu, 2009. 120 s.

Azərbaycan bəstəkarlarının yaradıcılığında xalq mahnılarının işləmələri /A.Əliyev //Musiqi dünyası.- 2011.- №2/47.- S.81-83.

Axundova, N. İfaçılıq: [Azad Əliyev haq.] /N.Axundova //Musiqi dünyası.- 2000.- №2 (3).- S.135.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

MART
31

155 illiyi

Cabbar Qaryağdı oğlu 1861-1944

Xanəndə

Cabbar Məşədi İsmayıl oğlu (Cabbar Qaryağdı oğlu) 1861-ci il mart ayının 31-də Şuşada anadan olmuşdur. O, uşaq yaşlarından xanəndəlik sənətinə həvəs göstərmiş və ilk təhsilini Şuşada Xarrat Qulunun məktəbində almışdır.

Muğam, dəsgah, təsnif, el mahnılarını xalq şənliklərində məharətlə oxumuş və tezliklə Qarabağda şöhrət qazanmışdır. Azərbaycanda opera sənətinin meydana gəlməsində onun rolu böyük olmuş, opera səhnəmizin ilk aktyoru kimi Əbdürrəhim bəy Haqverdiyevin 1887-ci ildə hazırladığı "Məcnun Leylinin məzarı üstündə" musiqili səhnəsində Məcnun rolunu ifa etmişdir. Bir müddət tarzən Sadıq Əsəd oğlunun (Sadıqcan) sazandalar dəstəsi ilə çıxış etmiş, məşhur xanəndə kimi Bakı, Gəncə şəhərlərinə, Şamaxı, Ağdaş rayonlarına dəvət olunmuşdur.

1900-1905-ci illərdə tarzən M.F.Rzayev və kamança ifaçısı Məşədi Qulu ilə Bakıda müvəffəqiyyətlə çıxış etmişdir.

1905-ci ildə xanəndə tarzən Q.Pirimov və kamançaçalan S.Oqanezaşvilidən ibarət trio yaratmışdır. Onun səsi 1906-1912-ci illərdə Kiyevdə "Qrammafon", Moskvada "Sportrekord" və Varşavada "Ekstrafon" aksioner cəmiyyətləri tərəfindən qrammafon valına yazılmışdır. 1912-ci ildə Varşavadan qayıdarkən C.Qaryağdı oğlu Moskvada "Şərq" konsertləri vermiş, "Kürd-şahnaz", "Mahur", "Bayatı-Qacar", "Heyratı", xüsusilə "Mənsuriyyə" muğamlarını müstəsna ustalıqla ifa etmişdir. C.Qaryağdı oğlu Azərbaycan Dövlət Konservatoriyasının yaradıcılarından olmuş, klassik xalq musiqisindən dərs demiş, gənc kadrların yetişdirilməsində böyük işlər görmüşdür. Azərbaycan Dövlət Konservatoriyasının nəzdində Bülbülün rəhbərlik etdiyi xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetində 300-ə yaxın mahnı və təsnif, təqribən 70 xalq musiqi parçası onun ifasında lentə yazılmış, S.Rüstəmov isə 50 xalq mahnısını nota köçürmüşdür.

Azərbaycan Dövlət Filarmoniyasının və Azərbaycan Radiosunun solisti olmuş xanəndə 30-dan artıq mahnı bəstələmişdir. Onu məşhur italyan müğənnisi E.Karuzo ilə müqayisə etmişlər.

F.Şalyapin və S.Yeseninlə tanış olmuşdur. Yesenin onu "Şərq musiqisinin peyğəmbəri" adlandırmışdır. Onun "Azərbaycan musiqisinin keçmişi haqqında xatirələr" əlyazmasında XIX əsrin xanəndə və musiqiçilərindən, muğamların tarixindən, təsnif və mahnılarından bəhs edilir.

1935-ci ildə "Azərbaycanın Xalq artisti" fəxri adına layiq görülmüş və bir qədər sonra "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Məşhur xanəndə Cabbar Qaryağdı oğlu 1944-cü il aprel ayının 20-də, 83 yaşında vəfat etmişdir.

Bakının Lökbatan qəsəbəsindəki 9 saylı uşaq musiqi məktəbi xanəndənin adını daşıyır.

Ədəbiyyat

Cabbar Qaryağdı-oğlu[Səsyazma]: Disk 6//Azərbaycan muğamı interaktiv audiovizual sistem:8 diskdə /Heydər Əliyev Fondu ; [tərtibat Çaşıoğlu Multimedia Regionların İnkişafı İctimai Birliyi].-Bakı: Heydər Əliyev Fondu, [2009].

Yusif qızı, Z. Şərq musiqisinin peyğəmbəri: C.Qaryağdı oğlunun həyat və yaradıcılığı /Z.Yusif qızı.- Bakı: Şərq-Qərb, 2008.- 159 s.

Пророк восточной музыки: жизнь и творчество Джаббара Гарягдыоглу: посвящается 150-летию со дня рождения Джаббара Гарягдыоглу; /Земфира Сафарова; ред. С. М. Ибрагимова / Фонд Гейдара Алиева; Фонд Культуры Азербайджана.-Баку: Şərq-Qərb, 2011.-215 с.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.musigi-dunya.az

80 illiyi

Rafiq Babayev 1936-1994

Pianoçu

Rafiq Fərzi oğlu Babayev 1936-cı il mart ayının 31-də Bakı şəhərində anadan olmuşdur.

1943-cü ildə musiqi məktəbinə daxil olan Rafiq ilk caz kvartetini məhz bu məktəbdə yaratmışdır. 1950-ci ildə həmin məktəbi bitirərək, A.Zeynallı adına Musiqi məktəbinin fortepiano sinfinə daxil olmuş, R.S.Levinanın sinfində təhsil almışdır. Bu məktəbdə təhsil almaqla yanaşı, Xalq Çalğı Alətləri Ansamblının musiqi rəhbəri vəzifəsində çalışmışdır. O, caz musiqisi ilə də maraqlanmış və improvizasiya ustalığını təkmilləşdirmişdir.

1954-cü ildə buraxılış imtahanında onun ifa etdiyi proqrama klassik əsərlərlə yanaşı, amerikalı caz pianoçusu Bill Evensin kompozisiyası da daxil edilmişdi. Sonradan özünü bütünlüklə caz musiqisinə həsr etmişdir. 1959-cu ildə Rafiq Babayev konservatoriyanı bitirib rəhbərlik etdiyi caz-instrumental ansamblı ilə keçmiş Sovet İttifaqı ölkələrinə uzunmüddətli qastrol səfərinə çıxmışdır.

Görkəmli müğənni Rəşid Behbudovla tanışlıq onun həyatında böyük rol oynamışdır. 1967-ci ildə Rəşid Behbudov Mahnı Teatrını yaradanda R.Babayev bu teatrın musiqi rəhbəri vəzifəsinə dəvət edilmişdir. R.Behbudovla birgə teatrlaşdırılmış böyük konsert proqramı hazırlamağa başlamışlar.

1967-ci ildə Tallin şəhərində keçirilən Beynəlxalq Caz Festivalında onun ansamblı laureat olmuş, "Bayatı-kürd" ladında ifa edilmiş kompozisiyası xüsusi qeyd edilmişdir. Müxtəlif illərdə bu kollektivin heyətində Gennadi Stepanişşev (fleyta, saksofon), Rauf Sultanov (bas-gitara), Ələsgər Abbasov (gitara), Səyavuş Kərimi (ud, klavişli alətlər), Cəmil Əmirov (klavişli alətlər), Tofiq Cabbarov (zərb alətləri), Firuz İsmayılov (sintezator), Ramin Sultanov (zərb alətləri), Emil Həsənov (bas-gitara), Vaqif Əliyev (zərb alətləri) və başqa peşəkar musiqiçilər fəaliyyət göstərmişlər.

1991-ci ildə Rafiq Babayev "Cəngi" folklor-caz kollektivini yaratmış və musiqi layihələrinin həyata keçirilməsinə kömək edən Səsyazma Studiyası təşkil etmişdir. Folklor çalğı alətlərindən istifadə etməklə, onları qeyri-adi harmoniya ilə zənginləşdirərək, dünyanın ilk baxışda bir-birinə zidd cəhətlərini - Qərbə və Şərqə xas olan musiqini melodik tərzdə birləşdirərək gözəl kompozisiyalar yaratmışdır.

1993-cü ildə görkəmli musiqiçi, bəstəkar, oranjimançı Rafiq Babayevə "Azərbaycanın Xalq artisti" fəxri adı verilmişdir.

1994-cü il mart ayının 19-da erməni ekstremistlərinin metro stansiyasında törətdikləri partlayış nəticəsində onlarla günahsız həmyerlimiz kimi Rafiq Babayev də faciəli şəkildə vəfat etmişdir.

25 saylı uşaq musiqi məktəbi onun adını daşıyır. Haqqında "Kədərimiz... Vüqarımız... (1998), "Günorta qatarı" (2003) filmləri çəkilmişdir.

Ədəbiyyat

Fərhadov, R. Rafiq Babayev: mövzu və improvizə /R.Fərhadov, F.Babayeva.- Bakı, 2012.- 245 s.

Rafiq Babayev [Elektron resurslar] /Heydər Əliyev Fondu; mətn R.Fərhadov; layih. koord. P.İsmayılova; prod. F.Babayeva; musiqi red. C.Əmirov.- Bakı: [mega basın], 2008.-8 elektron opt. disk. (CD ROM, DVD): musiqili, rəngli, 12 sm.+ [1] qoşma sənəd (96 s., şəkilli; 27 x 16 sm.)

Mehparə. Rafiq Babayev fenomeni /Mehparə //Mədəniyyət.- 2011.- 13 may.- 12.

Oktay. Böyük virtuoz sənətçi /Oktay //Xalq cəbhəsi.- 2012.- 18 yanvar.- S. 13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.heydar-aliyev-foundation.org

www.kepeztv.az

www.mugamradio.az

105 illiyi
Ağadadaş Qurbanov 1911-1965
Aktyor

Ağadadaş Gülməmməd oğlu Qurbanov 1911-ci il mart ayının 8-də Bakının Saray kəndində anadan olmuşdur. Uşaq ikən valideynlərini itirmiş, əmisinin himayəsində böyümüşdür. Hələ uşaq yaşlarından incəsənətə, teatra böyük maraq göstərmiş, 1927-ci il mart ayının 15-də "Dənizçilər klubu"nda Lətif Kərimlinin "Fırtına" pyesinin tamaşasında ilk rolunu oynamışdır. Bununla da Bakıda Fəhlə Uşaqlar Teatrının (sonralar Gənc Tamaşaçılar Teatrı) bünövrəsi qoyulmuşdur. Aktyor Gənc Tamaşaçılar Teatrında C.Cabbarlının "Aydın" (Aydın), M.F.Axundzadənin "Molla İbrahimxəlil kimyagər" (Molla İbrahimxəlil), N.Vəzirovun "Hacı Qəmbər" (Hacı Qəmbər), F.Şillerin "Qaçaqlar" (Karl Moor), N.Qoqolun "Müfəttiş" (Xlestakov), R.Taqorun "Qaneşin yolu" hekayəsi əsasında "Əfilər" (Qaneş) pyeslərinin tamaşalarında müxtəlif obrazlar yaratmışdır.

1952-ci ildən ömrünün sonunadək Milli Dram Teatrında çalışmışdır. O, bu teatrda Mirzə Səməndər, Əbu Übeyd, Ötgün ("Almaz", "Od gəlini" və "Dönüş", C.Cabbarlı), Şeyx Mərvan və Şeyx Sənan, Səyavuş ("Şeyx Sənan" və "Səyavuş", H.Cavid), Kamillo ("Qış nağılı", V.Şekspir), İbrahim xan və Vaqif ("Vaqif", S.Vurğun), Şults ("Uzaq sahillərdə", İ.Qasımov və H.Seyidbəyli), İvanov ("Göz həkimi", İ.Səfərli), Dəmirçi Musa ("Toy", S.Rəhman), Yəhudi ("Mariya Tüdor", V.Hüqo), Kamal ("Məhəbbətin hökmü", C.Məcnunbəyov), Hacı Qara ("Hacı Qara", M.F. Axundzadə), ("Yaxşı adam", M.İbrahimov), Professor Mudrov ("Şirvan gözəli", Ə.Məmmədxanlı), Akif ("Həyat", M.İbrahimov) kimi onlarca parlaq və yaddaqalan rollarda çıxış etmişdir.

O dövrün aktyorlarının əksəriyyəti kimi Ağadadaş Qurbanov da dəfələrlə kino çəkilişlərinə dəvət almış, çox maraqlı ekran əsərləri yaratmışdır. 1941-ci ildə "Səbuhi", 1956-da "Şamdan bəy", 1957-də "Qızmar günəş altında", 1959-da "Bir qalanın sirri", 1960-da "Koroğlu", 1961-də "Bizim küçə", "Kölgələr sürünür", 1965-də "Arşın mal alan" və s. filmlərə çəkilmişdir. Onun çox uğurlu kino qəhrəmanlarından biri Argentina yazıçısı O.Draqunun "İtə çevrilən adam" hekayəsi əsasında rejissor Kamil Rüstəmovun ekranlaşdırdığı "Zənçirlənmiş adam" filmindəki Alvardo obrazı olmuşdur.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının banilərindən biri, həm faciə, həm dram, həm də komediya janrlı tamaşaların ifaçısı Ağadadaş Qurbanov mədəniyyətimizin inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 27 fevral 1954-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

Görkəmli sənətkar 1965-ci il iyun ayının 25-də faciəli şəkildə həlak olmuş, Bakıda Fəxri xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Babayeva, Z. Ağadadaş Qurbanov: unudulmaz sənətkarlar /Z.Babayeva //Mədəniyyət.- 2011.- 11 mart.- S. 12.

Qurbanov Ağadadaş //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1979.- C.3.- S.276-277.

Qurbanova, F. Bir faciənin qurbanı /F.Qurbanova //Mədəni həyat.- 2014.- №5.- S.80-82.

Rəhimli, İ. Ağadadaş Qurbanov /İ.Rəhimli //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.347-348.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.youtube.com

105 illiyi Əyyub Haqverdiyev 1911-1996

Aktyor

Əyyub Məmmədəli oğlu Haqverdiyev 1911-ci il mart ayının 15-də Naxçıvanda anadan olmuşdur. 1930-cu ildə Naxçıvan Pedaqoji Texnikumunu bitirmişdir. Tələbə vaxtlarından, yəni 1929-cu ildən Naxçıvan teatrında aktyor işləmiş və heç vaxt səhnədən ayrılmamışdır.

Ömrünün altmış ilə yaxın dövrünü Naxçıvan teatrında keçirmişdir. Müxtəlif səpkili rollarda uğurlar qazanmış aktyorun yaradıcılıq imkanları komik personajların ifasında daha ifadəli şəkildə təcəssüm tapmışdır. Yaradıcılığı xarakter əlvanlığı və janr müxtəlifliyi ilə seçilən Əyyub Haqverdiyevin əsas rolları: Dövlət bəy, İmamverdi, Əmirqulu, Aqşin, Mazandaranski, Şərif, Məmmədəli bəy ("Aydın", "1905-ci ildə", "Yaşar", "Od gəlini", "Oqtay Eloğlu", "Almaz" və "Sevil", C.Cabbarlı), Serqo ("Şeyx Sənan", H.Cavid), Kürd Musa, Xosrov ("Vaqif" və "Fərhad və Şirin", S.Vurğun), Mehdi ("Qaçaq Nəbi", S.Rüstəm), Pardon Qurbanəli ("Həyat", M.İbrahimov), Qoca Moor ("Qaçaqlar", F. Şiller), Əhmədi Biqəm ("Adamın adamı", Anar), Taveriya ("Sevilya ulduzu", Lope de Veqa), Məşədi Oruc ("Ölülər", C.Məmmədquluzadə), Məmiş ("İtirilmiş sağlıq", H.İbrahimov) obrazlarıdır.

Aktyor teatrın opera və operetta tamaşalarında da səhnə obrazları ifa etmişdir. Bunların arasında Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (Məcnunun atası), "Əsli və Kərəm" (Keşiş) operalarında, "Məşədi İbad" (Məşədi İbad), "Arşın mal alan" (Vəli) operettalarında, Şıxəli Qurbanov və Süleyman Ələsgərovun "Olmadı elə, oldu belə" (Alanzadə), "Özümüz bilərik" (Bəbirli), Məhərrəm Əlizadə və Fikrət Əmirovun "Gözün aydın" (Qəhrəman), Süleyman Rüstəm və Səid Rüstəmovun "Durna" (Dursun) musiqili komediyalarında yaratdığı rollar tamaşaçılar tərəfindən böyük maraqla qarşılanmışdır.

Azərbaycan mədəniyyətinin inkişafındakı xidmətlərinə görə 17 iyun 1943-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 14 oktyabr 1964-cü ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Qocaman yaşında da səhnədən uzaq düşməyən aktyor Əyyub Haqverdiyev 1996-cı il iyul ayının 7-də Naxçıvanda vəfat etmişdir.

Ədəbiyyat

Haqverdiyev Əyyub //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S.125.

Haqverdiyev Əyyub //Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.- S.177-178.

Rəhimli, İ. Əyyub Haqverdiyev /İ.Rəhimli //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.229.

İnternetdə

www.anl.az

adam.az

www.az.wikipedia.org

www.musigi-dunya.az

120 illiyi Kazım Ziya 1896-1956

Aktyor

Kazım Cəfər oğlu Kazımzadə (Kazım Ziya) 1896-cı il mart ayının 21-də Ordubad rayonunun Yuxarı Əylis kəndində anadan olmuşdur. Yeniyetmə yaşlarından ərəb və fars dillərini mükəmməl öyrənmişdir. Sonralar rus və fransız dillərini də mənimsəyən gənc 1911-ci ildə əmisi Hüseynin ailəsi ilə Bakıya köçmüşdür. 1912-ci ilin payızında "İttihad" İran gimnaziyasına daxil olmuşdur. Bir il sonra Kazım məktəbdə ədəbiyyat dərnəyi yaratmış, 1914-cü ildə Hüseyn Ərəblinski başda olmaqla teatr fədailəri "İttihad" məktəbində xeyriyyə məqsədilə Əbdürrəhim bəy Haqverdiyevin "Bəxtsiz cavan" faciəsinin tamaşasını hazırlamış, bununla da öz taleyini teatr sənətinə bağlamışdır. Milli Dram Teatrının tamaşalarında fəal iştirak etsə də, truppanın ştatına 1922-ci ildə götürülmüşdür. Bir müddət Naxçıvana getmiş, 1925-ci ildə yenidən Bakıya qayıdaraq Bakı Türk İşçi və Kəndli Teatrının truppasına daxil olmuşdur. Bakı Türk İşçi Teatrı 1933-cü ildə Gəncəyə köçərkən Kazım Ziya da doğma kollektivdən ayrılmamışdır. 1936-cı ildən 1938-ci ilədək Tiflisdə və İrəvandakı dövlət teatrlarında aktyorluq etmiş, 1938-ci ildə Bakıya gələrək Milli Dram Teatrının truppasına daxil olmuşdur. Həm faciə, həm də məhəbbət qəhrəmanlarını, xeyirxah insan obrazlarını oynamış Kazım Ziya mürəkkəb səciyyəli xarakterik rollarda əsl sənət qələbələri qazanmışdır. Səlis səhnə danışığı, aydın və məftunedici diksiyası, yüksək səhnə mədəniyyəti, dərin mütaliəsi, geniş dünyagörüşü ilə işlədiyi bütün teatrlarda kollektivin böyük rəğbətini qazanmış Kazım Ziyanın zəngin yaradıcılığı öz dəyər və mənası ilə milli teatr sənətimizin parlaq səhifələrini təşkil edir. Səhnə səmimiyyəti və yüksək intellektuallığı ilə seçilən aktyorun Milli Dram Teatrında yaratdığı əsas rollardan: Arif, Dərviş ("İblis" və "Şeyx Sənan", H.Cavid), Vaqif, Söhbət ("Vaqif" və "Xanlar", S.Vurğun), Surxay, Usta Segah ("Toy" və "Xoşbəxtlər", S.Rəhman), Piri baba ("Eşq və intiqam", S.S. Axundov), Şeyx Nəsrulla ("Ölülər", C.Məmmədquluzadə) və b. göstərmək olar.

"Bismillah", "Səbuhi" filmlərinə çəkilmiş, L.Tolstoyun "Canlı meyit", H.İbsenin "Cəmiyyət sütunları", V.Sobkonun "İkinci cəbhə arxasında", A.Dümanın "Qanlı qala" ("Nel qülləsinin sirri") pyeslərini və digər dramları dilimizə tərcümə etmişdir.

Kazım Ziya 17 iyun 1943-cü ildə birbaşa "Azərbaycan Respublikasının Xalq artisti" fəxri adına layiq görülmüşdür. 1948-ci ildə "Şərqin səhəri" (Ənvər Məmmədxanlı) tamaşasının bir qrup yaradıcı heyəti ilə birgə Stalin mükafatı laureatı və "Lenin" ordeni laureatı olmuşdur.

Görkəmli sənətkar Kazım Ziya 1956-cı il noyabr ayının 20-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Səhnə dili haqqında /K.Ziya.- Bakı: AzSSR, 1947.- 77 s.

Kazımov, T. Kazım Ziya.- Bakı: Azərnəşr, 1968.- 95 s.

Böyük səhnənin unudulmaz adı - Kazım Ziya: həm gözəl aktyor, həm tərcüməçi //Azadlıq.- 2012.- S. 14.

Kazım Ziya //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1981.- C.5.- S.209.

Rəhimli, İ. Kazım Ziya /İ.Rəhimli //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.258-259.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

130 illiyi Sidqi Ruhulla 1886-1959 Aktyor



Ruhulla Fətulla oğlu Axundov (Sidqi Ruhulla) 1886-cı il mart ayının 28-də Bakıda anadan olmuşdur. İlk təhsilini molla məktəbində alan Sidqi Ruhulla sonralar Bakıda tacir şagirdi işləmişdir. İlk dəfə Hüseyn Ərəblinskinin quruluş verdiyi Nəcəf bəy Vəzirovun "Adı var, özü yox" tamaşasında Telli rolunda çıxış etmişdir. Aktyor Namiq Kamalın "Vətən" dramındakı Sidqi rolunda böyük uğur qazandığına görə həmin adı özünə təxəllüs götürmüşdür. Sidqi Ruhulla "Nicat", "Səfa", "Həmiyyət" cəmiyyətlərinin teatr truppalarında, Abbasmirzə Şərifzadənin rəhbərlik etdiyi "Müsəlman artistləri ittifaqı"nda, "Zülfüqar bəy və Üzeyir bəy Hacıbəyli qardaşlarının müdiriyyəti"ndə, Hüseyn Ərəblinskinin müxtəlif teatr dəstələrində, özünün yaratdığı dəstə-truppada müxtəlif rollarda çıxış etmişdir. 1913-cü ildə Moskva teatrlarında təcrübə keçən Sidqi İranda və Gəncədə "Ərəbli", "Ərəblinski" imzaları ilə tamaşalar hazırlamış və özü də baş rollarda çıxış etmişdir. Aktyor İranın Rəşt, Qəzvin, Xoy şəhərlərində ilk teatr təşkilatçısı olmuş, Təbrizdə səhnə sənətinin təbliği məqsədilə "Xeyriyyə" cəmiyyəti yaratmışdır. Azərbaycanın qədim paytaxtı olan Təbriz şəhərində peşəkar teatrın təşəkkülü və inkişafı onun adı ilə bağlıdır. Özbəkistan Respublikasının paytaxtı Daşkənddə Üzeyir bəy Hacıbəylinin "Leyli və Məcnun" (30 dekabr, 1916) və "Əsli və Kərəm" (13 yanvar, 1917) operalarını yerli özbək və tatar teatr həvəskarlarının iştirakı ilə tamaşaya hazırlamışdır. Tiflisdə isə məşhur bəstəkar Məşədi Cəmil Əlibəyovun "Seyfəlmülük" operasını səhnəyə qoymuşdur.

Üç yüzdən çox irili-xırdalı rol oynamış, həm ayrı-ayrı truppalarda, həm də dövlət teatrında rejissorluq etmişdir. O, Azərbaycan klassiklərindən demək olar, əksəriyyətinin pyeslərində bir neçə quruluşda əsas rolları oynamışdır. Akademik Milli Dram Teatrının 1948 və 1959-cu illərdə Moskva qastrolları zamanı Sidqi Ruhullanın oyunu dünya şöhrətli rus teatrşünasları tərəfindən çox yüksək qiymətləndirilmişdir. Aktyor "Şərqin səhəri" tamaşasındakı Ağalarov roluna görə 1938-ci ildə bir qrup yaradıcı heyətlə birgə Stalin mükafatına layiq görülmüşdür.

Milli teatrın inkişafındakı xidmətlərinə görə 1931-ci ildə "Respublikanın Əməkdar artisti", 1938-ci ildə "Xalq artisti" və 1949-cu ildə "SSRİ Xalq artisti" fəxri adları ilə təltif edilmişdir.

Azərbaycan teatrının ən cəfakeş, fədakar, maarifpərvər sənətkarı Sidqi Ruhulla 1959-cu il may ayının 5-də vəfat etmiş və Bakıda Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Cəfərov, M.C. Sidqi Ruhulla.- Bakı: Azərnəşr, 1956.- 44 s.

Böyük sənət yolçusu - Sidqi Ruhulla //Azadlıq.- 2011.- 30 iyul.- S. 14.

Rəhimli, İ. Sidqi Ruhulla /İ.Rəhimli //Rəhimli, İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.283-287.

Seyidzadə, T. Onun sənəti ölməzdir /T.Seyidzadə //Azad Azərbaycan.- 2013.- 3 aprel.- S.7.

Zümrüd. Azərbaycan teatr sənətinin böyük ustadı //Səs.- 2013.- 29 mart.- S.12.

İnternetdə

www.az.wikipedia.org

www.anl.az

www.youtube.com

50 illiyi Hikmət Nəzərli 1966-1992 Milli Qəhrəman

Hikmət Baba oğlu Nəzərli 1966-cı il mart ayının 7-də Bakı şəhərində ziyalı ailəsində dünyaya göz açmışdır. 1973-cü ildə Bakının Xətai rayonundakı 27 saylı orta məktəbdə ibtidai təhsilə başlamış, beşinci sinfə qədər burada təhsil almışdır. Sonra ailəsi ilə Daşkəndə köçmüş və orta təhsilini orada tamamlamışdır. 1982-ci ildə anası və bacıları ilə birlikdə yenidən Bakıya qayıtmışdır. 1984-cü ildə hərbi xidmətə çağırılmış və Gürcüstan Respublikasının Duşeti şəhərindəki kəşfiyyat məktəbinə göndərilmiş, 1986-cı ildə ordudan tərxis olunmuşdur. Yanğından mühafizə idarəsində işə düzəlmiş və eyni zamanda Azərbaycan Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) qəbul olunmuşdur. Bir vətənpərvər oğul kimi erməni təcavüzünə, soydaşlarımızın öz doğma yurdlarından qovulmasına biganə qala bilməmiş, könüllülərdən təşkil olunmuş müdafiə batalyonuna üzv yazılmış, 1991-ci ilin dekabrında xidmət etdiyi batalyonun tərkibində Ağdam istiqamətindəki cəbhəyə yola düşmüşdür. Həmin gündən Vətənin müdafiəsi uğrunda xidmətə başlamışdır. Umudlu kəndinin sakinlərini təhlükəsiz yerə apararkən ağır yaralanmış, bir müddət müalicə olunduqdan sonra yenidən döyüş yoldaşlarının yanına qayıtmışdır. 1992-ci il fevral ayının 25-26 tarixlərində Xocalıda misli görünməmiş faciə törədilmiş və Hikmət idarə etdiyi maşınla düşmən qarşısında manea yaradaraq uşaqların, qadınların təhlükəsiz yerə aparılmasında böyük şücaət göstərmişdir. Son məqamda bir neçə döyüş yoldaşı ilə meşəyə çəkilmiş və sonrakı taleyi barədə heç bir məlumat yoxdur.

Azərbaycan Respublikası Prezidentinin 9 sentyabr 1992-ci il tarixli 178 saylı Fərmanı ilə Nəzərli Hikmət Baba oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Hikmət Baba oğlu Nəzərliyə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sıravi - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 9 sentyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 17.- S.23. (Ölümündən sonra)

Əsgərov, V. Hikmət Baba oğlu Nəzərli /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S. 230.

Hikmət Baba oğlu Nəzərli //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.165.

İsmayılov, İ. Nəzərli Hikmət Baba oğlu (1966-1992) /İ.İsmayılov //Nəsimi rayonunun şəhidləri.- Bakı, 1997.- S.34.

Seyidzadə, M. Nəzərli Hikmət Baba oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.171.

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

www.zengilan.com

65 illiyi

Nurəddin İbrahimov 1951-1995

Milli Qəhrəman

Nurəddin İslam oğlu İbrahimov 1951-ci il mart ayının 16-da Bakı şəhərində anadan olmuşdur. 1969-cu ildə 125 saylı orta məktəbi bitirmiş, 1970-ci ildə ordu sıralarına çağırılmışdır. Hərbi xidmətdən sonra Bakı Aqreqatlar Zavodunun Texniki nəzarət şöbəsində əmək fəaliyyətinə başlamışdır. 1975-ci ilin iyulunda Baykal Amur Magistralının tikintisində işləməyə getmiş, 1978-ci ildə İrkutsk şəhər Daxili İşlər İdarəsində işə qəbul edilmiş, 1981-ci ilin mayında SSRİ Daxili İşlər Nazirliyinin Xabarovsk şəhər Ali Milis məktəbinə qəbul olmuşdur. O, 1982-ci ildə İrkutsk şəhərində baş sahə inspektoru vəzifəsini icra etmişdir.

1986-cı ildə ali təhsilini müvəffəqiyyətlə başa vuraraq həmin il "Əla xidmətə görə" medalı ilə təltif olunmuşdur. 1988-ci ildə onu daha bir məsul vəzifəyə - Cinayət axtarışı şöbəsinin rəisi vəzifəsinə təyin etmişlər. 1989-cu ildə o, İrkutsk Şəhər Sovetinə deputat seçilmişdir.

1990-cı ildə Azərbaycana qayıtmış, elə həmin il Laçın rayon Daxili İşlər Şöbəsinə (DİŞ) sahə müvəkkili göndərilmiş, burada gedən döyüşlərdə fəal iştirak etmişdir. Döyüşlərin birində yaralanaraq bir müddət hospitalda müalicə olunmuş, zədəsi ciddi olduğuna görə 1991-ci ildə işini Bakı şəhərində davam etdirmişdir. Nurəddin cəbhə xəttindən uzaqda olmasına baxmayaraq, tez-tez cəbhə bölgələrinə getmiş, polis yoldaşlarına yaxından köməklik göstərmişdir. 1993-cü ildə Kosalar kəndi və Cəbrayıl rayonu uğrunda gedən döyüşlərdə əsl qəhrəmanlıq göstərdiyinə görə polis mayoru rütbəsinə yüksəlmişdir.

Nurəddin İbrahimov 1995-ci il fevral ayının 10-da Binə qəsəbəsində cinayətkar dəstənin zərərsizləşdirilməsi zamanı xüsusi qəhrəmanlıq göstərmiş və həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 26 dekabr 1995-ci il tarixli 424 saylı Fərmanı ilə İbrahimov Nurəddin İslam oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Bakı şəhərinin Buzovna qəsəbə qəbiristanlığında dəfn edilmişdir.

Buzovna qəsəbəsində küçələrdən biri və buradakı mədəniyyət evi onun adını daşıyır. Mədəniyyət evinin qarşısında büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: [İbrahimov Nurəddin İslam oğlu - polis mayoru - Azərbaycan Respublikasının dövlətçiliyinin qorunmasında, əmin-amanlığın təmin edilməsində, qeyri-qanuni silahlı dəstələrin zərərsizləşdirilməsində, mütəşəkkil cinayətkarlığa, banditizmə və digər cinayətlərə qarşı mübarizədə öz xidməti borcunu şərəflə yerinə yetirərkən şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 26 dekabr 1995-ci il //Azərbaycan.- 1995.- 27 dekabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. İbrahimov Nurəddin İslam oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.136.

İbrahimov Nurəddin İslam oğlu //Azərbaycanın Milli Qəhrəmanları /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Milli Kitabxana.- Bakı, 2008.- S.102.

Seyidzadə, M. İbrahimov Nurəddin İslam oğlu //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S. 104.

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

Milli Qəhrəmanlar

55 illiyi

Rafiq Nəsrəddinov 1961-1992

Milli Qəhrəman

Rafiq Hüseyn oğlu Nəsrəddinov 1961-ci il mart ayının 18-də Bakı şəhərində anadan olmuşdur. 1968-1978-ci illərdə Nərimanov rayonundakı 39 saylı məktəbdə təhsil almışdır. 1979-cu ildə hərbi xidmətə çağırılmış, 1981-ci ildə tank qoşunlarında xidmətini başa vurmuş və Bakı Dövlət Universitetinə daxil olmuşdur. 1987-ci ildə təhsilini müvəffəqiyyətlə bitirmişdir. 1992-ci ildə Səbail rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır.

Təcrübəli döyüşçü olması cəbhədə onun işini nisbətən asanlaşdırırdı. Erməni quldurlarını dəfələrlə ağır itkilərə məruz qoyaraq geri çəkilməyə məcbur etmişdi. Göstərdiyi şücaətlərə görə qısa müddətdə tank bölüyünün rəisi vəzifəsinə təyin edilmişdir. 6 sentyabr 1992-ci il tarixində Ağdərənin Qızılqaya kəndində aparılan son döyüşdə Rafiq qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı fərmanı ilə baş leytenant Nəsrəddinov Rafiq Hüseyn oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Oxuduğu 39 saylı orta məktəb qəhrəmanımızın adını daşıyır, burada büstü qoyulmuş, yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəsrəddinov Rafiq Hüseyn oğlu - baş leytenant - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Nəsrəddinov Rafiq Hüseyn oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S. 229.

Nəsrəddinov Rafiq Hüseyn oğlu //Azərbaycanın Milli Qəhrəmanları /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Milli Kitabxana.- Bakı, 2008.- S.164-165.

Seyidzadə, M. Nəsrəddinov Rafiq Hüseyn oğlu //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S. 175.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

60 illiyi

Əsəd Əsədov
1956-1991

Milli Qəhrəman

Əsəd Soltan oğlu Əsədov 1956-cı il mart ayının 22-də Zəngilan rayonunun Turabad kəndində doğulmuşdur. 1975-ci ildə Mincivan qəsəbə orta məktəbini bitirdikdən sonra Sovet Ordusu sıralarına çağırılmışdır. Hərbi xidmətini başa vurduqdan sonra Saratov vilayətinin Krasnokutsk şəhərindəki Təyyarəçilik Məktəbinin mülki aviasiya şöbəsinə daxil olmuşdur. Amerikada ingilis dili kurslarında təhsil almış, təhsilini başa vurduqdan sonra Yevlax hava limanında 16 il çalışmışdır.

1991-ci il oktyabr ayının 29-da AN-2 təyyarəsinin komandiri Ə.Əsədov 7 nəfər uçuş və texniki heyətlə Xocalı hava limanına kömək məqsədilə Xanabad kəndi üzərindən uçarkən düşmən tərəfindən güclü atəşə tutulmuşdur. Cəsur komandir bu uçuş zamanı heyət üzvləri ilə birlikdə həlak olmuş, Zəngilan rayonunda dəfn edilmişdir.

Hazırda erməni işğalı altında olan Zəngilan rayonunda Turabad kənd orta məktəbi və Mincivan qəsəbəsindəki mərkəzi küçələrdən biri onun adını daşıyırdı.

Azərbaycan Respublikası Prezidentinin 25 noyabr 1992-ci il tarixli 337 saylı Fərmanı ilə Əsədov Əsəd Soltan oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

"Azərbaycan Hava Yolları" Dövlət Konserninin əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əsədov Əsəd Soltan oğlu - AN-2 təyyarəsinin komandiri - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 25 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 22.- S.68.- (Ölümündən sonra).

Əsgərov, V. Əsədov Əsəd Soltan oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S. 96.

Əsədov Əsəd Soltan oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.67-69.

Seyidzadə, M. Əsədov Əsəd Soltan oğlu //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S. 67.

Quliyev, F. Milli Qəhrəmanlar /F.Quliyev //Məktəb qəzeti.- 2014.- 20 oktyabr.- S. 1.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.milliqahraman.az

www.muallim.edu.az

160 illiyi

Əliyar bəy Haşımbəyov 1856-1920

Hərbi xadim

Əliyar bəy Mehdi oğlu Haşımbəyov 1856-cı il mart ayının 8-də Bakı şəhərində anadan olmuşdur. İlk təhsilini Ədadiyə (realnı) məktəbində almış, 1871-ci ildə Tiflisdəki hərbi-piyada məktəbinə daxil olmuş, çar ordusuna xidmət etmişdir. Hərbi xidmətinin otuzuncu ilində - 1908-ci il dekabr ayının 6-da general-mayor kimi yüksək rütbəyə layiq görülmüşdür. Əliyar bəy I Dünya müharibəsində III Qafqaz araba-karvan briqadasının komandiri olmuş, artilleriya qoşunlarının piyada hissələrində xidmətə başlamışdır.

1917-ci ildə istefaya çıxmış, 1918-ci ildə Azərbaycan Milli Ordusunda könüllü xidmətə başlamış, bir müddət Azərbaycan Xalq Cümhuriyyətinin Daxili İşlər nazirinin müavini vəzifəsində çalışmışdır. 1919-cu ildə Azərbaycan Xalq Cümhiriyyətinin Hərbi İntendant İdarəsinin rəisi vəzifəsində xidmət göstərmiş, 1920-ci ildə Zaqatala qəzasının general-qubernatoru, Cənub-Qərbi Azərbaycanın general-qubernatoru olmuşdur.

Azərbaycanda 1920-ci il 27-28 aprel işğalından sonra təqib edilmiş, Sovet hakimiyyətinin əsas cəza orqanlarından biri - XI ordunun Xüsusi şöbəsinin rəisi, cəllad S.A.Pankratovun rəhbərlik etdiyi Fövqəladə Komissiya (FK-ÇK) tərəfindən həbs olunmuş, istintaq işgəncələrinə məruz qalmışdır.

Əliyar bəy Haşımbəyov Azərbaycan Xalq Cümhuriyyətinin bir qrup xadimi sırasında Respublika Ali İnqilabi Tribunalının (sədri Teymur Əliyev idi) hökmü ilə 1920-ci il may ayının 29-da Nargin adasında güllələnmişdir.

Ordudakı qüsursuz xidmətinə görə 1889-cu ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav", 1894-cü ildə üçüncü dərəcəli "Müqəddəs Anna", 1895-ci ildə ikinci dərəcəli "Müqəddəs Stanislav", 1898-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna", 1904-cü ildə "Müqəddəs Vladimir" ordenləri ilə təltif olunmuşdur.

Ədəbiyyat

Haşımbəyov Əliyar bəy Mehdi oğlu //Azərbaycan Xalq Cumhuriyyəti Ensiklopediyası: 2 cilddə.- Bakı: Lider, 2004.- C.1.- S.418.

Nəzirli, Ş. General-mayor Əliyar bəy Mehdi oğlu Haşımbəyov /Ş.Nəzirli //Nəzirli Ş. Arxivlərin sirri açılır.- Bakı: Elm, 1999.- S. 210-211.

Nəzirli, Ş. General-mayor Əliyar bəy Mehdi oğlu Haşımbəyov /Ş.Nəzirli //Nəzirli Ş. Güllələnmiş Azərbaycan generalları.- Bakı, 2006.- S.74-75.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

www.azerbaijan.az

www.news.lent.az

MART
23

80 illiyi

Akif Rəfiyev 1936

Hüquqşünas

Akif Bəşir oğlu Rəfiyev 1936-cı il mart ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) hüquq fakültəsini bitirmişdir.

1960-1961-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Məhkəmə Ekspertizası İnstitutunda ekspert-kriminalist, 1961-1964-cü illərdə Şəmkir rayon prokurorunun köməkçisi, 1964-1966-cı illərdə Azərbaycan SSR Prokurorluğunda şöbə prokuroru, 1966-1970-ci illərdə İsmayıllı rayon prokuroru, 1970-1976-cı illərdə Mingəçevir şəhər prokuroru, 1976-1979-cu illərdə Zaqatala rayon prokuroru, 1979-1981-ci illərdə Sumqayıt şəhər prokuroru vəzifələrində çalışmışdır.

1982-ci ilin yanvarından 1989-cu ilin avqust ayına kimi Azərbaycan SSR Daxili İşlər Nazirliyinin İstintaq İdarəsinin rəisi, 1989-1991-ci illərdə Azərbaycan Respublikası Daxili İşlər nazirinin müavini, 1991-2002-ci illərdə isə Azərbaycan Respublikası Ədliyyə nazirinin müavini vəzifələrində çalışmışdır.

Hüquq mühafizə sahəsində 42 il fasiləsiz fəaliyyət göstərmişdir. 1989-cu ildə respublikada, xüsusilə Qarabağda cinayətkarlığa qarşı mübarizədə, eləcə də sabitliyin təmin olunmasında xidmətlərinə görə "Əməkdar hüquqşünas" fəxri adına layiq görülmüşdür. 1998-ci ildə ona Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə 3-cü dərəcəli Dövlət ədliyyə müşaviri (Ədliyyə general mayoru) rütbəsi verilmişdir. İşlədiyi müddət ərzində hüquq jurnallarında hüququn ayrı-ayrı aktual məsələləri və problemlərinə dair 100-dən artıq məqalə və müsahibələri çap olunmuşdur.

Akif Rəfiyev Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında pedaqoji fəaliyyətlə məşğul olur. Eləcə də dedektiv janrında hekayələrin müəllifidir.

Üç filmin ("Dronqo", "Sarıköynəklə Valehin nağılı", "O qızı tapın") baş məsləhətçisi olmuşdur.

Ə d ə b i y y a t

Beynəlxalq terrorizmin xronologiyası və kriminoloji aspekti /A.Rəfiyev, A.Abdullayev.- Bakı: İsmayıl, 2006.- 294 s.

Bir ailənin faciəsi: hekayə /A.Rəfiyev //525-ci qəzet.- 2011.- 9 iyul.- S.28

İ n t e r n e t d ə

www.anl.az

www. az.wikipedia.org

www. elibrary.az

140 illiyi Ziya Göyalp 1876-1924

Mehmet Ziya (Ziya Göyalp) 1876-cı il mart ayının 23-də Diyarbəkirdə doğulmuşdur. Təhsilinə Diyarbəkirdə başlamış, eyni şəhərdə 1890-1894-cü illərdə hərbi xidmətdə olmuşdur. Tibb məktəblilərinin despotizmə son vermək üçün qurduqları Qiyam Komitəsinə daxil olmuş, məktəbdəki fəaliyyətləri və oxuduğu fransızca kitabların zərərli sayılması səbəbilə həbs edilmişdir. İstanbula döndükdən sonra isə məktəbdən uzaqlaşdırılmışdır. "Zəbtiyə nəzarəti altında saxlanılmaq şərtilə" Diyarbəkirə göndərilmişdir.

Rüştiyə məktəbində oxuyarkən atası vəfat etmiş, onun yerini islam fəlsəfəsini yaxşı bilən, ziyalı əmisi Hasib əfəndi tutmuşdu. Bir il əmisi Hacı Nəsib Əfəndinin himayədarlığı və təşəbbüsü ilə dərs keçmiş, islamı, ərəb və fars dillərini öyrənmişdir. 1891-ci ildə Diyarbəkirdəki mülki liseyə daxil olur. Bu zaman o, artıq fransız dilini də öyrənmişdi. Artıq dünyanın fəlsəfi irsini yeni bir səviyyədə öyrənməyə başlayır, ancaq həyatında baş verən dəyişikliklər onu ciddi düşünməyə, tərəddüddən qurtulub qəti olaraq millətçilik yolunu seçməyə sövq edir.

O, İbn Sina, İbn Rüşd, İmam Qəzzali kimi böyük islam filosoflarını Ziyaya tanıtdırmış, ərəb, fars və digər vacib araşdırma metodlarını öyrətmişdir. Daha sonra vəfat etmiş əmisinin vəsiyyətinə əməl edərək, onun qızı ilə evlənmişdir.

İlk əsəri "Şaki İbrahim" dastanı olmuşdur. II Hökumətin elanından sonra, onun qurduğu gizli cəmiyyətin yerini Osmanlı İttihat və Tərəqqi Cəmiyyəti Diyarbəkir şöbəsi əvəz etmişdi. 1909-cu ildə partiyanın Selanikdəki konqresinə el nümayəndəsi kimi qatılmışdı.

Burada "Gənc qələmlər", "Yeni fəlsəfə", "Rumeli" kimi jurnal və qəzetlərdəki yazılarıyla Türkçülük və dildə sadələşmə hərəkatlarının qabaqcılları arasında iştirak edən Göyalp, milli duyğuları, tarix şüurunu, elmə və texnikaya dəyər verən düşüncələrini şeirləriylə təbliğ etmişdir. 1912-ci ildə İttihat və Tərəqqi Ümumi Mərkəzi İstanbula köçürülmüş, Z.Göyalp da İstanbula gəlmişdir. Həmin il Ergani mədənindən millət vəkili seçilmişdir.

1919-1921-ci illərdə İstanbulun işğalı nəticəsində həbs olunaraq iki il Maltada sürgündə olmuşdur. Sürgündən qayıtdıqdan sonra 1923-cü ildə Diyarbəkirdən millət vəkili seçilmişdir. "Hakimiyyəti Milliyə", "Yeni Gün", "Respublika" qəzetlərində müntəzəm olaraq məqalələr çap etdirmişdir.

II Hökumətdən başlayaraq Türkçülük axınının ən böyük nümayəndəsi kimi Türk düşüncə və siyasət həyatına güclü təsir etmiş, milli ədəbiyyat axını içində yazdığı əsərlərlə Türk ədəbiyyatının forma və dil cəhətdən yeniləşməsini təmin etmişdir.

1923-cü ildə "Qızıl işıq", "Türkçülüyün əsasları", "Türk adəti" kimi kitablarını nəşr etdirmişdir. Respublika Xalq Partiyasının proqramını araşdıran və şərh edən "Doğru Yol" (1923) adlı araşdırmasını da yenə bu dövrdə qələmə almışdır. O dövrdə yazdığı "Türk mədəniyyət tarixi" adlı kitabı isə 1926-cı ildə ölümündən sonra çap olunmuşdu. Yenə ölümündən sonra müxtəlif qəzet və jurnallarda çıxmış yazılarıyla məktubları müxtəlif kitablarda yığılmışdır. 1939-cu ildə "Çinaraltı", 1947-ci ildə "Təriqət nədir?", 1950-ci ildə "Ziya Göyalp deyir ki" adlı kitabları işıq üzü görmüşdür. Ziya Göyalpın nəşr edilməmiş yeddi əsəri və ailə məktubları olmuşdur.

Görkəmli ictimai xadim və yazıçı 25 oktyabr 1924-cü ildə vəfat etmişdir.

Ədəbiyyat

Türkçülüyün əsasları /Z.Göyalp; Azərb. türkcəsində hazır., ön söz, açıqlamaların müəl. E.Mustafa; red. Z.Bayramlı; rəyçi Ə.Elçibəy.-Bakı: "Xəzər Un-ti", 2010.- 208 s.

Aydın, A.A. Ziya Göyalp: Anadan olmasının 130 illiyi münasibətilə /Aydın Abi Aydın; red. R.Təhməzoğlu.-Bakı: [s.n.], 2006.- 64 s.

Aydın, A.A. Türkçü ideoloq Ziya Göyalp: Onun fəaliyyətinə Əlibəy Hüseynzadənin də təsiri olub /A.A.Aydın //Xalq cəbhəsi.-2013.- 29 noyabr.- S.14.

Nərimanoğlu, H. Ziya Göyalp /H.Nərimanoğlu //Turan aşiqləri.- Bakı, 2011.- S.47-75.

Ziya Göyalpın müəllimi Əli bəy Hüseynzadə //Azadlıq.-2011.- 22 yanvar.- S.14.

İnternetdə

www.az.wikipedia.org

www.adam.az

90 illiyi

Oqtay Əfəndiyev 1926-2013

Tarixçi

Oqtay Əbdülkərim oğlu Əfəndiyev 1926-cı il mart ayının 26-da Bakı şəhərində anadan olmuşdur. 1945-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) şərqşünaslıq fakültəsinə daxil olmuş, bir il sonra ali təhsilini Moskvada davam etdirmiş və 1946-1950-ci illərdə orada Şərqşünaslıq İnstitutunun İran bölməsində oxumuşdur. 1951-ci ildə Azərbaycan Elmlər Akademiyası (indiki AMEA) Tarix İnstitutunun aspiranturasına qəbul olunmuş, elə həmin il Moskvaya ezam edilərək 1955-ci ilədək SSRİ Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun aspirantı kimi təhsil almışdır.

Əmək fəaliyyətinə 1955-ci ildən Tarix İnstitutunda başlamış, kiçik elmi işçi, sonra baş elmi işçi olmuş, 1975-ci ildən isə "Azərbaycanın orta əsrlər tarixi" şöbəsinin müdiri kimi fəaliyyət göstərmişdir.

Oqtay Əfəndiyev 1955-ci ildə Moskvada namizədlik, 1969-cu ildə doktorluq dissertasiyalarını müvəffəqiyyətlə müdafiə etmiş, 1993-cü ildə professor elmi rütbəsini almışdır. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Azərbaycanın tarix elminə layiqli töhfələr verərək, onun nailiyyətlərlə zənginləşməsi və yeni mərhələyə yüksəlməsində rolu olan görkəmli alim respublikada sanballı elmi, ensiklopedik və elmi-kütləvi nəşrlərdə tariximizə dair çoxsaylı məqalələrin, orta əsrlər tarixinə dair xəritələrin müəllifi olaraq tanınmışdır. Səfəvilər dövlətinin sosial-iqtisadi, siyasi və mədəni tarixinə dair araşdırmaları alimə geniş şöhrət qazandırmışdır.

Gözəl tarixçi-şərqşünas və mənbəşünas kimi o, həm də fars dilindən tərcümələri ilə fərqlənmişdir. Səmərəli elmi yaradıcılığı pedaqoji fəaliyyətlə uğurlu şəkildə əlaqələndirərək ixtisaslı kadrların hazırlanmasına və elmin təşkilinə böyük qüvvə sərf etmişdir. Alimin Azərbaycan tarixinə, xüsusən Qarabağ probleminin tarixi aspektinə həsr olunmuş mühazirələri ölkəmizdə və onun hüdudlarından kənarda, mötəbər beynəlxalq konfrans və simpoziumlarda maraqla qarşılanmış, bu çıxışlar tarixi mənbələrə professional yanaşma tərzini nümayiş etdirmişdir.

Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə 1982-ci ildə "Şərəfli əməyə görə" medalı ilə, 1986-cı ildə "Şərəf nişanı" ordeni, 2004-cü ildə isə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Görkəmli alim Oqtay Əfəndiyev 2013-cü il fevral ayının 26-da vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycan Səfəvilər dövləti /O.Əfəndiyev.- Bakı: Şərq-Qərb, 2007.- 344 s.

Əliyeva, E. Qəlblərdə iz qoyub getdi: Azərbaycan dövlətçiliyi tarixinin görkəmli tədqiqatçısı Oqtay Əfəndiyevi xatırlayarkən /E.Əliyeva //Kaspi.- 2013.- 15 mart.- S.12.

Oqtay Əbdülkərim oğlu Əfəndiyev //Azərbaycan.- 2013.- 28 fevral.- S.3.

İnternetdə

www.science.gov.az

www.archaeology.org.az

www.anl.az

70 illiyi

Ağayar Şükürov 1946-2008

Filosof

Ağayar Məhəmməd oğlu Şükürov 1946-cı il mart ayının 25-də Biləsuvar rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1963-1967-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində təhsil almışdır.

1971-1974-cü illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Fəlsəfə və Hüquq İnstitutunun aspiranturasına daxil olmuşdur. 1975-ci ildə "Milli və dini ənənələr" mövzusunda dissertasiya müdafiə etmiş, fəlsəfə elmləri namizədi elmi dərəcəsi almışdır.

1975-1976-cı illərdə Bədən Tərbiyəsi İnstitutunun Fəlsəfə kafedrasında baş müəllim işləmiş, sonra Fəlsəfə və Hüquq İnstitutuna qayıtmışdır.

Əsasən fəlsəfə və din tarixi, mifologiya, mədəniyyət və ekoloji problemlərin tədqiqi ilə məşğul olmuşdur. 1984-cü ildə "Elm" nəşriyyatında çap etdirdiyi "Müasir dövrün qlobal, ekoloji və demoqrafik problemlərinin sosial-fəlsəfi mahiyyəti" adlı əsəri ilə Azərbaycan fəlsəfəsində yeni bir istiqamətin - qlobal problemlər istiqamətinin bünövrəsini qoymuşdur.

1989-cu ildə "Müasir qlobalistikada ekoloji problemlərin yeri və rolu" adlı doktorluq dissertasiyasını müdafiə edərək fəlsəfə elmləri doktoru elmi dərəcəsi almışdır.

1990-cı ildən Fəlsəfə və Siyasi-Hüquqi Tədqiqatlar İnstitutunda şöbə müdiri vəzifəsində çalışmışdır. 1991-ci ildə keçmiş SSRİ məkanında ilk dəfə olaraq "Ekologiyanın fəlsəfi problemləri" şöbəsini yaratmışdır. Şöbə yarandığı gündən məhsuldar fəaliyyət göstərmiş, 2006-cı ilə qədər "Ekologiya. Fəlsəfə. Mədəniyyət" adlı məcmuənin 42 buraxılışı çap olunmuşdur.

A.Şükürov bir sıra beynəlxalq konfranslarda iştirak və məruzələrlə çıxış etmişdir. Əsərləri Rusiya və Türkiyədə çap olunmuşdur. Onun 30-a qədər kitabı, o cümlədən, "Azərbaycan fəlsəfəsi" (qədim dövr), "Fəlsəfə", "Kulturologiya", "Sosial ekologiya" dərslikləri, 330-dən artıq elmi məqaləsi çapdan çıxmışdır. Alim 2 elmlər doktoru, 25 elmlər namizədi yetişdirmişdir. 4 mart 2003-cü il tarixində Beynəlxalq Ekologiya və Təbiətdən İstifadə Akademiyasının həqiqi üzvü, akademiki seçilmişdir.

Görkəmli filosof Ağayar Şükürov 2008-ci il noyabr ayının 7-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan mifologiyası: tədqiqi tarixindən /A.Şükürov.- Bakı: Çıraq, 2005.- 72 s.

Hamı üçün fəlsəfə /A.Şükürov, M.Şükürov.- Bakı: Mütərcim, 2010.-133 s.

Fəlsəfə:ali məktəblər üçün dərslik /A.Şükürov; elmi red.: İ.Əliyev, Z.Hacıyev.- Bakı: Adiloğlu, 2008.-485 s.

Fəlsəfə və qloballaşma /A.Şükürov; elmi red. İ.Əliyev.-Bakı: Adiloğlu, 2002.-442 s.

Müstəqil dövrün fəlsəfəsi və filosofları /A.Şükürov.- Bakı: Səda, 2007.- 396 s.

Ağayar Şükürov: biblioqrafiya /tərt.: Y.Babayev, A.Gözəlov.- Bakı: Ruh, 2000.- 107 s.

Ağayar Şükürov-60: fəlsəfəyə həsr olunmuş ömür /tərt. R.Əkbər, A.Əvəz oğlu.- Bakı: Mütərcim, 2006.- 256 s.

İnternetdə

www.elibrary.azlib.net

www.az.wikipedia.org

www.anl.az

www.muallim.edu.az

80 illiyi

Yaşar Qarayev 1936-2002

Tənqidçi



Yaşar Vahid oğlu Qarayev 1936-cı il mart ayının 5-də Şəki şəhərində anadan olmuşdur. 1946-cı ildə ailəsi ilə birgə Bakıya köçmüş, burada 31 saylı şəhər orta məktəbini bitirmişdir.

1954-1958-ci illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almış, 1987-ci ildə Azərbaycan EA-nın Nizami adına Dil və Ədəbiyyat İnstitutunda baş laborant, kiçik elmi işçi, baş elmi işçi, Nəzəriyyə və ədəbi proses şöbəsinin müdiri, institutun elmi işlər üzrə direktor müavini və direktoru vəzifələrində çalışmışdır.

1955-ci ildə "Lenin tərbiyəsi uğrunda" və "Azərbaycan gəncləri" qəzetlərində ədəbi fəaliyyətə başlamışdır. Ədəbiyyatşünaslıq, ədəbi tənqid, ədəbiyyat tarixçiliyi, teatrşünaslıq, estetika və nəhayət, humanitar elmlərin nəzəri-metodoloji problemləri əsas tədqiqat obyekti olmuşdur. 1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin (AYB) üzvü idi.

1976-1991-ci illərdə "Yaşar", "Q.Yaşar", "Y.Qarayev" imzaları ilə dərc olunmuşdur. 1990-cı ildən Ali Attestasiya Komissiyasının, Azərbaycan Milli Yaradıcılıq Akademiyası Rəyasət Heyətinin üzvü və humanitar bölməsinin həmsədri, 1991-ci ildən tənqid və ədəbiyyatşünaslıq üzrə AYB-nin katibi seçilmişdir. Həmçinin, 1993-cü ildən Azərbaycanda daimi fəaliyyətdə olan Şəhriyar konqresi komitəsinin sədri, "Ədəbi proses" adlı illik elmi-tənqidi məcmuənin təşəbbüsçüsü, müəlliflərindən biri və məsul redaktoru olmuşdur.

"Şərqin dahisi", "Tənqid: problemlər, portretlər", "Azərbaycan ədəbiyyatında faciə janrı", "Tarix: yaxından və uzaqdan" adlı əsərlərin müəllifidir.

Respublikanın elmi və ədəbi-mədəni inkişafında fəal çalışmış, "Dünya ədəbiyyatının inkişaf qanunauyğunluqları" problemi üzrə əlaqələndirmə şurasının sədri, Ədəbiyyat İnstitutu elmi şurasının sədri, Memarlıq və İncəsənət İnstitutunun, Türkmənistan EA Dil və Ədəbiyyat İnstitutu elmi şurasının, Azərbaycan Yazıçılar İttifaqı İdarə Heyətinin, Mədəniyyət Nazirliyi bədii şurasının, "Yazıçı" nəşriyyatının bədii şurasının, "Azərbaycan" və "Ulduz" jurnalı redaksiya heyətinin, "Bilik" cəmiyyəti redaksiya heyətinin, ensiklopediya elmi redaksiya heyətinin üzvü olmuşdur. Eyni zamanda SSRİ Yazıçılar İttifaqı Rəyasət Heyəti yanında Tənqid və ədəbiyyatşünaslıq şurasının, Azərbaycan Yazıçılar İttifaqı M.F.Axundov adına mükafat komissiyasının üzvü olmuşdur.

1994-cü ildən "Füzuli vəqfi" fondunun rəyasət heyətinin üzvü kimi fəaliyyət göstərmişdir. 1980-ci ildə Azərbaycan Dövlət mükafatı laureatı, 1982-ci ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 1985-ci ildə professor, 1990-cı ildə Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü, 2002-ci ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Yaşar Qarayev 2002-ci ildə vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Xarıbülbülün nağılı /Y.Qarayev.- Bakı: Azərnəşr, 1994.- 56 s.

Şərqin dahisi /Y.Qarayev.- Bakı: Azərbaycan Ensiklopediyası, 1996.- 52 s.

Tarix: yaxından və uzaqdan /Y.Qarayev.- Bakı, 1996.- 710 s.

Yaşar Qarayev: bibliooqrafik göstərici /tərt. ed. Ə.Əfəndiyev.- Bakı: Elm, 2001.- 215 s.

Yaşar Qarayevin Qarabağ düşüncələri [Mətn] /E. Mehrəliyev// Ədəbiyyat qəzeti .-2015.- 9 yanvar.- S.9.

Yaşar Qarayev Nizami adına Ədəbiyyat İnstitutunun qurucuları /Ş.Alışanlı//Ədəbiyyat məcmuəsi: Nizami adına Ədəbiyyat İnstitutunun Əsərləri .-2013.- C.XXIV. - S.157-160.

Uğur. Ədəbiyyatşünas, teatrşünas və tənqidçi /Uğur //Xalq cəbhəsi.- 2014.- 19 avqust.- S. 11.

İnternetdə

www.anl.az

90 illiyi

Böyükağa Hüseynov 1926-1983

Şərqşünas

Böyükağa Murtuza oğlu Hüseynov 1926-cı il mart ayının 7-də Bakıda anadan olmuşdur. 150 saylı orta məktəbi əla qiymətlərlə bitirmişdir. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Şərqşünaslıq fakültəsində təhsil almış, təhsilini davam etdirmək üçün Moskvaya göndərilmişdir. 1949-cu ildə Moskva Şərqşünaslıq İnstitutunun İran şöbəsini bitirərək Bakıya dönmüşdür. Əvvəlcə Dilçilik İnstitutunda, sonra isə keçmiş KP MK-nın təbliğat şöbəsində işləmişdir. 1959-cu ildə Sov. İKP MK-da və SSRİ EA-nın Asiya İnstitutunda məsul vəzifələrdə çalışmışdır. 1967-ci ildə "Mütərəqqi fars poeziyasında sovet mövzusu" adlı namizədlik dissertasiyası müdafiə etmişdir. 1962-1983-cü illərdə Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Yaxın və Orta Şərq Xalqları İnstitutunun elmi işlər üzrə direktor müavini, eyni zamanda İran filologiyası şöbəsinin müdiri vəzifələrində çalışmışdır. 1974-cü ildə "XX əsr fars şeirində ənənə və novatorluq" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək filologiya elmləri doktoru alimlik dərəcəsini almışdır. 1980-cı ildə ona professor elmi rütbəsi verilmiş, həmin il Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. Eyni zamanda 1966-cı ildən ömrünün sonuna kimi İran filologiyası şöbəsinə rəhbərlik etmişdir.

Görkəmli alim rus və fars dillərini mükəmməl bilməklə yanaşı, türk, ərəb, özbək xalqlarının ədəbiyyatı ilə də məşğul olmuş, Şərq dünyasının yazıçı və şairlərinin əsərlərini tərcümə etmişdir. Onun Nasir Xosrov, Ömər Xəyyam, Seyidəddin Urfi, Jalə, Ehsan Təbəri, Nizari, Lahuti, Nadir Nadirpur kimi fars-tacik ədib və şairləri haqqında Azərbaycan Ensiklopediyasına yazdığı məqalələri, habelə "Sülh uğrunda xalqların mübarizəsi", Q.Aristovun "Torpaq və Günəş", D.Sidorovun "Xurafata inanmağın zərəri haqqında" adlı tərcümə kitabları bu gün də sevilir. Alim XIX əsrin sonu, XX əsrin əvvəli İran ədəbiyyatının aktual-nəzəri problemlərinə dair tədqiqatların müəllifidir. Onun elmi əsərləri Azərbaycandan başqa İran, Türkiyə, Çexoslovakiya, Rusiya və başqa ölkələrdə çap olunmuşdur. Nəzəri cəhətdən yüksək səviyyədə geniş biliyə sahib olan alim 1970-ci ildə İranda, 1973-cü ildə Fransada, 1976-cı ildə Almaniya Demokratik Respublikasında, 1978-cidə Yəmən Ərəb Respublikasında, Yunanıstanda, Türkiyədə, Çexoslovakiyada beynəlxalq elmi konfranslarda məruzələr etmişdir.

Unudulmaz insan, görkəmli alim həm də bədii yaradıcılıqla məşğul olmuşdur. O, məqalə və satirik hekayələrini "Böyükağa Faiq" təxəllüsü ilə "Ədəbiyyat və incəsənət", "Bakı" qəzetlərində, "Kirpi" jurnalında dərc etdirmişdir.

Böyükağa Hüseynov 1983-cü il may ayının 31-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

XX əsr fars şeirində ənənə və novatorluq /B.Hüseynov.- Bakı: Elm, 1975.- 337 s.

Mütərəqqi fars poeziyasında sovet mövzusu /B.Hüseynov.- Bakı: Azərnəşr, 1961.- 154 s.

Böyükağa Hüseynov Murtuza oğlu //Azərbaycan Milli Elmlər Akademiyasının üzvləri haqqında məlumat kitabı /tərt. A.Əsədova.- Bakı, 2005.- K.II.- S. 261.

Hüseynov Böyükağa Murtuza oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilldə.- Bakı, 1987.- C.10.- S.284.

Поэты Ирана о Советском Союзе /Б.Гусейнов.- Москва: Наука, 1965.- 310 с.

İnternetdə

www.anl.az

www.orientalstudies.az

az.wikipedia.org

65 illiyi

İsmayıl Vəliyev 1951

Filoloq

İsmayıl Ömər oğlu Vəliyev (İsmayıl Ömərоğlu) 1951-ci il mart ayının 18-də Qərbi Azərbaycanda anadan olmuş, 1968-ci ildə orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Bakıda 8 nömrəli texniki-peşə məktəbini fərqlənmə diplomu başa vurmuşdur. 1970-1975-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinin əyani şöbəsində təhsil almışdır. 1975-ci ildən Azərbaycan Dövlət Nəşriyyatında işləmişdir. 1976-cı ildə Moskva Poliqrafiya İnstitutunda baş redaktor və redaksiya müdirlərinin ixtisasartırma kursunda təhsil almış və oranı "əlaçı" diplomu ilə bitirmişdir. 1978-ci ildən "Yazıçı" nəşriyyatında çalışmış, 1980-ci ildən Azərbaycan Dövlət Nəşriyyat, Poliqrafiya və Kitab Ticarəti İşləri Komitəsində Nəşriyyatlar İdarəsinin rəisi, 1984-cü ildən Azərbaycan KP Mərkəzi Komitəsinin təbliğat və təşviqat şöbəsi müdirinin mətbuat məsələləri üzrə müavini vəzifələrində işləmişdir. 1989-1991-ci illərdə Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyasında baş redaktorun birinci müavini, 1991-1992-ci illərdə baş redaktor, Azərbaycan-Türkiyə birgə müəssisəsi "Göytürk" Nəşriyyat, Poliqrafiya və Ticarət Şirkətinin baş direktoru olmuşdur. 1993-cü ildən 2004-cü ilin aprelinədək "Azərbaycan Ensiklopediyası" Nəşriyyat-Poliqrafiya Birliyinin baş direktoru və baş redaktoru olmuşdur.

1971-ci ildən Azərbaycan Radio və Televiziyası ilə əməkdaşlıq etmiş, on ilə yaxın "Bulaq" folklor verilişinin daimi müəlliflərindən biri olmuşdur. Onun hazırladığı verilişlərin bir çoxu radionun "Qızıl fond"unda saxlanılmaqdadır. Bundan əlavə, "Zəka" radio elmi proqramının uzun illər ssenari müəllifi və aparıcısı olmuşdur.

1983-cü ildə "Ədəbi portret: onun funksiyası və tipologiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 2001-ci ildə doktorluq dissertasiyasını uğurla müdafiə etmiş və filologiya elmləri doktoru adına layiq görülmüşdür. Həmin ildən BDU-nun "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasının professorudur.

"Dünya susur, tarix susmur", "Sarı buğda", "İnsan həyatda və sənətdə", "Burulğanlar içində" kimi 32 kitabın, 400-dən çox elmi, 500-dən çox elmi və publisistik məqalənin, elmi məruzə və çıxışın müəllifi, 9 kitabın tərcüməçisidir. İ.Vəliyevin bəzi əsərləri ingilis, alman, türk, ukrayna, rus və ərəb dillərinə tərcümə olunmuşdur.

1979-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin, 1985-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin, həmçinin Dövlət Dil Komissiyasının, Toponomiya Komissiyasının, Füzuli adına Dövlət Mükafat Komissiyasının üzvüdür. Azərbaycan Qaçqınlar Cəmiyyətinin yaradıcılarından biri və sədrin birinci müavini olmuşdur.

Ədəbiyyat

Dünya dövlətləri: ensiklopedik-soraq kitabı /tərt.-müəl.: İ.Vəliyev, K.Muxtarov.- Bakı: Azərbaycan Ensiklopediyası, 1999.- 216 s.

Ədəbiyyatda insan konsepsiyası: tarixi təşəkkülü və inkişaf mərhələlər /İ.Vəliyev.- Bakı: Günəş, 1999.- 360 s.

Mif: keçmişdən gələcəyə /İ.Vəliyev.- Bakı: Nurlan, 2013.- 307 s.

Redaktənin əsasları. Nəzəriyyə və təcrübə /İ.Vəliyev.- Bakı: Günəş, 2009.- 399 s.

Sevgi dünyam: şeirlər /İ.Vəliyev.- Bakı: Günəş, 2001.- 256 s.

Uzaq dağların adamı: (İ.Ö.Vəliyevin həyat və yaradıcılığı haq.) /tərt.: Ə.Şamil və başq.- Bakı: Azərbaycan Ensiklopediyası, 2002.- 320 s.

İnternetdə

www.anl.az

adam.az

www.folklorinstitutu.com/ismayil-veliyev.htm

www.ebooks.az

165 illiyi

İsmayıl bəy Qasprinski 1851-1914

Maarifçi ideoloq

İsmayıl bəy Mustafa ağa oğlu Qasprinski (Qaspralı) 1851-ci il mart ayının 21-də Baxçasaray yaxınlığındakı Avçıköy kəndində anadan olmuşdur. Qaspira onun atasının doğulduğu kəndin adıdır. İsmayıl bəy mükəmməl təhsil almış, orta məktəbi bitirdikdən sonra Voronej və Moskva ali məktəblərində oxumuş, öyrəndiyi fransız dili vasitəsilə Qərb mədəniyyətinin müsbət və mənfi cəhətlərinə bələd olmuşdur. 1867-ci ildə geri qayıtmış və Baxçasarayda Zəncirli mədrəsəsində rus dili müəllimi kimi çalışmışdır.

İki il Parisdə qaldıqdan sonra 1875-ci ildə Baxçasaraya dönmüş, üç il Krım yarımadasını gəzib-dolaşaraq xalqının həyatını öyrənmiş və 1879-cu ildə bələdiyyə sədri seçilmişdir. İsmayıl bəy türklərin, müsəlmanların cəhalət içində olduğunu görmüş, xüsusi təhsil layihəsi hazırlamış, 1881-ci ildə onu təqdim etmişdir. 1894-1905-ci illərdə 9 yeni mədrəsə açılmış, 1914-cü ildə bu məktəblərin sayı 5 minə çatmışdır. 1981-ci ildə Ağməsciddə çıxan "Tavrida" qəzetində "Gənc molla" imzası ilə ilk məqaləsini çap etdirmişdir.

Türkçülük ideyasını, bütün türklərin vahid millət olduqları ideyasını irəli sürmüş, bütün həyatını türk birliyinin yaradılması yolunda mübarizəyə həsr etmişdir. 1881-ci ildə çap olunmuş "Rusiya müsəlmanlığı" adlı məqaləsində bu ideyanı nəzərə çatdırmış və türkləri bir dil ətrafında birləşdirmək fikrini irəli sürmüşdür.

10 aprel 1983-cü ildə "Tərcüman" adlı qəzetin türk dilində nəşrinə başlamış və qəzet 32 il nəşr olunmuşdur. 1885-ci ildə "Avropa mədəniyyətinə bir nəzəri-məvazinə" adlı ilk kitabı İstanbulda çap olunmuşdur.

Qasprinskinin Azərbaycanla sıx ictimai-siyasi, elmi-ədəbi və şəxsi əlaqələri olmuşdur. Tərəqqipərvər Azərbaycan ziyalıları onun türk-müsəlman xalqlarının milli və mədəni intibahı yolunda fədakar fəaliyyətini yüksək qiymətləndirmiş, milli mətbuat onu "möhtərəm ustad", "fəxri-millət", "böyük İsmayıl bəy" adlandırmışdır. Onunla sıx əməkdaşlıqdan və onun yaradıcılığından bəhrələnən Ə.Hüseynzadə, Ə.Ağaoğlu, Ə.Topçubaşov, M.Ə. Rəsulzadə, N.Nərimanov, S.Qənizadə türkçülük ideya və siyasətini müdafiə və inkişaf etdirmişlər.

İsmayıl bəy Qasprinski Rusiya müsəlmanlarının 1905-1906-cı illərdə keçirilən iki qurultayına sədrlik etmiş, III qurultayın rəyasət heyətinə seçilmişdir.

Rusiya müsəlmanları arasında maarifçi türkçülük hərəkatının görkəmli xadimlərindən biri, Krım türklərinin (tatarlarının) ictimai-siyasi xadimi, maarif islahatçısı, milli nəşriyyat və mətbuatın banisi, alim, yazıçı İsmayıl bəy Qasprinski 1914-cü il sentyabr ayının 11-də İstanbulda vəfat etmiş və orada dəfn edilmişdir.

Ə d ə b i y y a t

Türküstan üləması /İ.Qasprinski.- Bakı: Örnək, 2001.- 55 s.

Kəngərli, A. İsmayıl bəy Qasprinski /A.Kəngərli.- Bakı: Nurlan, 2004.- 283 s.

Qaspralı İsmayıl bəy //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.- Bakı, 2005.- C.2.- S.140-142.

Tahirli, A. Bütün türklərin tərcümanı: İsmayıl bəy Qasprinski /A.Tahirli.- Bakı: Ozan, 2012.- 310 s.

Quliyev, V. İsmayıl bəy Qasprinski haqqında iki yazı /V.Quliyev //525-ci qəzet.-2013.- 2 mart.- S.24-25.

Quliyev, V. Əməl dostları: İ.Qasprinski və Ə.Topçubaşov /V.Quliyev //Kaspi.-2014.- 8 may.- S.22-23.

О национальной идее /И.Гаспринский.- Симферополь: ИД «Стилос»: Полуостров, 2010.- 111 с.

İ n t e r n e t d ə

www.anl.az
525.az/site/?name=xeber&news_id=6183

85 illiyi

İnayət Bəktaşi 1931-1989

Ədəbiyyatşünas

İnayət Heydər oğlu Bəktaşi 1931-ci il mart ayının 25-də Naxçıvanda anadan olmuşdur. 1952-1954-cü illərdə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Naxçıvan filialının dil-ədəbiyyat şöbəsini, 1954-1959-cu illərdə isə Bakı Dövlət Universitetinin filologiya fakültəsini bitirmişdir. Həmin ildə fakültənin Azərbaycan ədəbiyyatı tarixi kafedrasının aspirantı olmuş, 1961-ci ildə kafedrada baş müəllim təyin edilmişdir. 1963-cü ildə görkəmli yazıçı professor Mir Cəlalın elmi rəhbərliyi altında XX əsr romantizminin nümayəndələrindən biri olan "Abdulla bəy Divanbəyoğlunun həyat və yaradıcılığı" mövzusunda namizədlik, 1979-cu ildə isə "Firidun bəy Köçərlinin yaradıcılıq yolu" adlı doktorluq dissertasiyası müdafiə etmişdir. 1973-1976-cı illərdə Türkiyə Respublikasında müəllim-tərcüməçi işləmiş, 1980-ci ildən ömrünün sonuna qədər BDU-nun Azərbaycan ədəbiyyatı tarixi kafedrasının professoru olmuşdur.

Altı monoqrafiyanın, tərcümə və tərtib etdiyi bir neçə kitabın, respublika dövri mətbuatında, elmi məcmuələrdə çap olunmuş 100-dən artıq elmi məqalənin müəllifidir.

İ.Bəktaşi filologiya elmləri namizədi və filologiya elmləri doktoru alimlik dərəcəsi verən müxtəlif ixtisaslaşdırılmış elmi şuraların üzvü olmuşdur. İlk kitabı olan "XX əsr uşaq mətbuatında ədəbiyyat" 1965-ci ildə çapdan çıxmışdır. Müəllif kitabında 60-a yaxın qələm sahibinin əsərini tədqiqata cəlb etmişdir.

İnayət Bəktaşi ədəbiyyat tarixçisi idi. Onun tədqiqat obyekti əsasən lokal səciyyə daşımış, XX əsr Azərbaycan ədəbiyyatının bir sıra tədqiq olunmamış problemlərinin və şəxsiyyətlərinin araşdırılmasında mühüm işlər görmüşdür. O, Respublikanın, keçmiş ümumittifaq və beynəlxalq elmi konfranslarında məruzələr etmişdir.

1966-cı ildə onun "Ölülər və onun ilk tamaşası haqqında" qiyabiçi tələbələr üçün dərs vəsaiti kitabı çapdan çıxmışdır.

İnayət Bəktaşi 1989-cu il sentyabr ayının 9-da Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Abdulla bəy Divanbəyoğlu /İ.Bəktaşi.- Bakı: Gənclik, 1984.- 157 s.

"Azərbaycan ədəbiyyatı tarixi materialları" haqqında: F. Köçərlinin "Azərbaycan ədəbiyyatı tarixi materialları" /İnayət Bəktaşi; Elmi red.: X. Əlimirzəyev .-Bakı: S.M.Kirov adına ADU, 1978.-79 s.

Firidun bəy Köçərli irsi ədəbi tənqiddə I / İ. Bəktaşi // Ədəbiyyat. - 2013.-27 dekabr. - № 52. - S. 6 .

Firidun bəy Köçərli irsi ədəbi tənqiddə II / İ. Bəktaşi // Ədəbiyyat. - 2014.-17 yanvar. - № 2. - S. 4 .

Firidun bəy Köçərlinin yaradıcılıq yolu /İ.Bəktaşi.- Bakı: Yazıçı, 1986.- 182 s.

Bəktaşi İnayət Heydər oğlu //Naxçıvan Ensiklopediyası.- Bakı: AMEA, 2002.- S.65.

İnternetdə

www.anl.az

www.elibrary.az

90 illiyi

Faiq Bağırzadə 1926-1988

Akademik

Faiq Məmməd oğlu Bağırzadə 1926-cı il mart ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 132 saylı orta məktəbi bitirmiş və Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) geoloji-kəşfiyyat fakültəsində təhsil almışdır.

Əmək fəaliyyətinə "Qobustanneftqaz kəşfiyyatı" trestinin kontorunda mühəndis-geoloq kimi başlamış, 1951-ci ildə Azneft birliyinin Neft daşları kontorunda mühəndis işləmişdir. 1953-cü ildə "Abşeron yarımadasının sahilboyu və bitişik sahələrində Qala dəstəsinin kəşfiyyatı" mövzusunda dissertasiya müdafiə edərək geologiya-minerologiya elmləri namizədi elmi dərəcəsi almışdır. 1964-cü ildə isə "Abşeron neft-qazlı sahəsinin Şərq hissəsində məhsuldar qatın altşöbəsində neft və qaz yataqlarının yerləşmə və formalaşmasının qanunauyğunluqları" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1962-1970-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft və Kimya İnstitutunda assistent, baş müəllim, dosent, geoloji-kəşfiyyat fakültəsinin dekanı vəzifəsində çalışmışdır. 1964-1965-ci illərdə keçmiş SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin xətti ilə Ranqun Texnoloji İnstitutunda (Myanma Respublikası) məruzələr oxumuş və ingilis dilində "Neft və yeraltı geologiya" mühazirələr məcmuəsini çap etdirmişdir. 1970-ci ildə professor Azərbaycan Dövlət Universitetinin (indiki BDU) rektoru təyin edilmişdir. Rektor vəzifəsi ilə yanaşı ADU-nun Elmi Şurasının, Sovet-İraq dostluğu cəmiyyətinin Azərbaycan bölməsinin, Azərbaycan Ali məktəb rektorları Şurasının sədri vəzifələrini icra etmiş, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiya heyətinin üzvü kimi fəaliyyət göstərmişdir. Respublika Ali Sovetinin VIII, IX, X və XI çağırışlarında deputat seçilmişdir. 1971-1975-ci illərdə Azərbaycan Dövlət Universiteti ilə Bəsrə (İraq) və Sarayevo universitetləri, həmçinin Çexiya ali məktəbləri (Pardulitse, Bratislava, Praqa) arasında əlaqələrin yaranmasında, möhkəmləndirilməsində və inkişafında fəal iştirak etmişdir.

F.Bağırzadə 100-dən artıq elmi əsər, 15-ə qədər monoqrafiya, dərslik və dərs vəsaiti çap etdirmişdir. Onun elmi rəhbərliyi ilə Azərbaycan, keçmiş SSRİ respublikaları və xarici ölkələrdən xeyli aspirantlar namizədlik dissertasiyaları müdafiə etmişlər.

Elmin, təhsilin inkişafındakı xidmətlərinə görə S.İ.Vavilov adına medalla, "Oktyabr İnqilabı" və iki dəfə "Qırmızı Əmək Bayrağı" ordenləri ilə təltif edilmiş, 1980-ci ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş və Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuşdur.

Akademik Faiq Bağırzadə 1988-ci il mart ayının 24-də Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Azərbaycanın neftli-qazlı vilayətlərinin geologiyası: ali məktəblər üçün dərslik /F.Bağırzadə, H.Əhmədov, S.Salayev.- Bakı: Maarif, 1973.- 261 s.

Neftçilərə aid ümumi neft geologiyasının bəzi məsələləri /F.Bağırzadə.- Bakı: Azərneftnəşr, 1960.- 177 s.

Neftli-qazlı vilayətlərin geologiyası /F.Bağırzadə.- Bakı: Azərnəşr, 1962.- 275 s.

Bağırzadə Faiq Məmməd oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1979.- C.1.- S. 532.

F.M.Bağırzadə: biblioqrafiya /tərt. S.O.İbrahimova.- Bakı: Elm, 1986.- 53 s.

Zeynalov, Ə. Görkəmli geoloq-alim, elm fədaisi /Ə.Zeynalov //Respublika.- 2014.- 16 mart.- S. 7.

İnternetdə

www.anl.az

bsu.edu.az

105 illiyi

Nurəddin Kərəmov 1911-1981

Coğrafiyaşünas

Nurəddin Kərəm oğlu Kərəmov 1911-ci il mart ayının 20-də Şamaxı rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1930-1934-cü illərdə Zaqatala rayonunun Faldar, Qax rayonunun Qarabaldır, Zəyəm, Marcan kəndlərində ibtidai və natamam orta məktəblərdə müəllim, direktor vəzifəsində çalışmışdır.

1934-cü ildə Lenin adına APİ-nin (indiki ADPU) coğrafiya fakültəsinə daxil olmuş, 1938-ci ildə oranı 1-ci dərəcəli diploma layiq görülərək bitirmiş və institutda saxlanılmışdır.

1943-cü ildə institutun coğrafiya fakültəsi ADU-nun (indiki BDU) Geoloji-coğrafiya fakültəsi ilə birləşdirilmiş və Nurəddin müəllim də ADU-da işini davam etdirmişdir.

1947-ci ildə "Şəki-Zaqatala massivinin fiziki-coğrafiyası" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Bundan sonra gənc alim Geoloji-coğrafiya fakültəsinin dekan müavini və Fiziki-coğrafiya kafedrasının müdiri vəzifələrində çalışmışdır.

1967-ci ildə "Böyük Qafqazın landşaftı və fiziki-coğrafi rayonları" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, 1968-ci ildə isə professor elmi adına layiq görülmüşdür. Onun Azərbaycanda fiziki coğrafiyanın, xüsusilə landşaftşünaslıq elminin inkişafında xidmətləri böyükdür.

Əsərləri əsasən Böyük Qafqazın landşaftlarına, təbii komplekslərin yüksəklik zonallığına həsr olunmuşdur. Alimin coğrafiya elminin tarixinin öyrənilməsində də böyük xidmətləri olmuşdur. Belə ki, xalqımızın böyük səyyah və coğrafiyaşünasları haqqında elmi-tədqiqat işləri aparmış, onları təkcə ölkəmizdə deyil dünyada da tanıtmışdır. A.Bakıxanov və H.Z.Şirvanidən bəhs edən qiymətli əsərlərin müəllifi olmuş, respublikamızda və ondan kənarda keçirilən elmi konfranslarda dəfələrlə məruzə ilə çıxışlar etmişdir.

N.Kərəmov SSRİ Coğrafiya Cəmiyyətinin bütün qurultaylarının rəsmi nümayəndəsi, SSRİ Maarif Nazirliyinin elmi-metodiki sovetinin üzvü olmuşdur. Professor 200-dən artıq elmi əsərin müəllifidir. Bunlardan 11 ədədi monoqrafiya və elmi-kütləvi kitablardır.

1959-cu ildə çapdan çıxmış "Azərbaycan SSR-in fiziki-coğrafiyası" dərsliyinin müəlliflərindən biridir. 1981-ci ildə Əməkdar elm xadimi adına layiq görülmüşdür.

Nurəddin Kərəmov 1981-ci il avqust ayının 13-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan SSR-nin fiziki coğrafiyası /N.Kərəmov; S. M. Kirov ad. Azərb. Döv. Un-ti; red. və ön söz. Q. K. Gül.-Bakı: Azərbaycan Universiteti, 1959.366, [2] s.

Azərbaycana səyahət /N.Kərəmov.- Bakı: Azərnəşr, 1965.- 180 s.

Qüdsinin səyahətləri: A.Bakıxanov coğrafiyaşünas Səyyah kimi /N.Kərəmov.- Bakı: Azərnəşr, 1983.- 99 s.

Mirzə Ələkbər Sabirin səyahətləri /N.Kərəmov.- Bakı: Kür, 2000.- 14 s.

Odlar yurdunun səyyah və coğrafiyaşünasları: X-XIX əsrlər /N.Kərəmov.- Bakı: Azərnəşr, 1986.- 205 s.

İnternetdə

www. az.wikipedia.org

www.anl.az

405 illiyi

Evliya Çələbi 1611-1679

Səyyah

Evliya Çələbi ibn Dərviş Məhəmməd Zilli 1611-ci il mart ayının 25-də İstanbulda, saray zərgəri Dərviş Mehmet Zillinin ailəsində dünyaya göz açmışdır. Onun əslən abxaz olan anası Böyük vəzir Məlik Əhməd-paşanın doğma bacısı idi. Övliya mükəmməl təhsil almış, gəncliyində sufi təriqətinə qoşulmuşdur.

1640-cı ildə onun ömrünün sonuna qədər davam edən səyahətləri başlamışdır. İlkin olaraq Osmanlı imperiyasının ərazilərini gəzmiş, sonra Qafqaza gəlmişdir. XVII əsr Azərbaycanına dair ən qiymətli tarixi mənbələrindən biri məşhur türk səyyahı Övliya Çələbinin "Səyahətnamə" əsəridir. Bu 10 cildlik əsər 70 illik ömrünün 40 ilini səyahətlərdə keçirmiş müəllifin dərin və çoxsaylı müşahidələrinin məhsuludur. "Səyahətnamə"də Çələbi 1640-1650-ci illərin İrəvan, Gəncə, Ərəş, Şəki, Niyazabad, Şamaxı, Bakı, Şabran, Dərbənd şəhərləri haqqında ətraflı və bu gün də diqqətlə öyrənilən məlumatları ümumiləşdirmişdir.

Növbəti səfərlərini Avstriya və Macarıstana etmişdir. 1665-ci ildə Çələbi artıq Volqaboyunda, sonra isə Krımda olmuşdur. Krımda o, yerli xan IV Mehmet Gireylə dostlaşmış, buradan Frakiyaya, Makedoniyaya və Krit adasına yollanmışdır. Məkkəyə həccə gedəndən sonra artıq ömrünün sonlarında Misirdə məskunlaşmışdır.

Yarım əsrə yaxın müddətdə səyahətləri sayəsində dərin biliyə və təcrübəyə malik olan Evliya Çələbi ədib, şair, eyni zamanda xəttat, nəqqaş və musiqişünas idi. Onun incə ruhlu, zərif bir insan, öz ifadəsilə "evliyayı-biriya" olduğu məlumdur. Təvazökarlığı, səmimiliyi, hər kəslə xoş keçinməsi dostlarının sayını artırmışdır. Səyahətlərində məiyyətində qonağı olduğu vali və sərdarlarla da isti, daimi münasibətlər saxlamış, etibarı-etimadı qoruyub mühafizə etmişdir. Evliya Çələbi bir mədəniyyət tarixçisi və folklor tədqiqatçısı kimi gördüyü yerlərin mədəni vəziyyəti, adət-ənənələri, zövqləri, qidaları, dilləri, ləhcələri və s. ilə əlaqəli dəyərli məlumatlar vermiş, dini inanclar, məzhəblər, təriqətlər, ibadətlər haqqında müşahidə və dəyərləndirmələrini nəql etmiş, şəhərlərin, qəsəbələrin, qalaların, kəndlərin adlarından, fiziki-memari strukturlarından, çarşı bazarlarından bəhs etmişdir.

YUNESKO 2011-ci ili "Evliya Çələbinin anım ili" elan etmişdir.

Ölüm tarixi dəqiq məlum deyil. Böyük səyyahın 1679-cu ildə, (bəzi mənbələrdə 1679, 1682 və ya 1685) İstanbulda vəfat etdiyi güman olunur.

Ədəbiyyat

Bayramlı, Z. Azərbaycan Evliya Çələbinin 1654-cü il "Səyahətnamə"sində: dərslik /Z.Bayramlı, Z.V.Əzizli.- Bakı: Azərbaycan, 2000.- 160 s.

Evliya Çələbi səyahətnaməsində Azərbaycan /nəşrə hazırl. M.Rıhtım.- Bakı: Qafqaz Universiteti: Nurlar, 2012.- 291 s.

Vələdoğlu, E. Övliya Çələbi: "Səyyahi-aləm, xanədana dost allah bəndəsiyəm" /E.Vələdoğlu //Respublika.- 2013.- 25 aprel.- S. 14.

İnternetdə

www. az.wikipedia.org

www.anl.az

75 illiyi

Yaqub Məmmədov 1941

Həkim

Yaqub Cavad oğlu Məmmədov 1941-ci il mart ayının 3-də Gədəbəy rayonunun Əli-İsmayıllı kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1960-cı ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna (indiki ATU) qəbul olunmuşdur.

1966-cı ildən Azərbaycan Tibb İnstitutunun Patoloji fiziologiya kafedrasında Azərbaycan və rus bölmələrində praktik məşğələlər aparmış və mühazirələr oxumuşdur. 1969-cu ildə namizədlik, 1982-ci ildə doktorluq dissertasiyası müdafiə etmişdir. 1983-1992-ci illərdə Azərbaycan Tibb Universitetinin rektoru vəzifəsində çalışmışdır.

Y.Məmmədov 370-dən artıq elmi əsərin müəllifidir. Onlardan 205-i xaricdə çap olunmuşdur. Müəlliflik şəhadətnamələrinin və patentlərinin sayı 38-dir. Onun rəhbərliyi altında 24 elmlər namizədi, 8 elmlər doktoru yetişmişdir.

Elmi-tədqiqat işləri əsasən praktik limfologiyanın fundamental problemlərindən birinə - limfa mayesinin laxtalanması və onların müxtəlif xəstəliklər zamanı korreksiyası məsələlərinə həsr olunmuşdur. Aparılan elmi-tədqiqatlar nəticəsində, nəzəri və praktik təbabət üçün böyük əhəmiyyəti olan laxtalanma, əks-laxtalanma və fibrinoliz sistemlər haqqında yeni elmi konsepsiya irəli sürülmüşdür. Bu istiqamətdə 4 doktorluq və 20-dən çox namizədlik dissertasiyası müdafiə olunmuş və Azərbaycanda ilk dəfə bütöv bir limfoloqlar məktəbi yaranmışdır.

Onun təşəbbüsü ilə keçmiş SSRİ-də ilk dəfə limfatrop dərman preparatlarının hazırlanması və limfa sisteminin ümumi patologiyada rolunun öyrənilməsi ilə məşğul olan "Eksperimental limfologiya" elmi-tədqiqat laboratoriyası yaradılmış və burada Azərbaycanın təbii bitki və mineral ehtiyatlarından alınmış limfotrop təsir xüsusiyyətinə malik 40-a qədər bioloji fəal maddə aşkar edilmişdir. Bunlardan ikisi - nikomorfolin və qlisiram klinikalarda müxtəlif xəstəliklərin müalicəsində müvəffəqiyyətlə istifadə edilir.

1989-cu ildən AMEA-nın müxbir üzvü, 1993-cü ildən Azərbaycan Milli Yaradıcılıq Akademiyasının həqiqi üzvü seçilmişdir. Y.Məmmədov "Ürəyin öyrənilməsi" üzrə Beynəlxalq Cəmiyyətin, Beynəlxalq Patofizioloqlar və Limfoloqlar cəmiyyətinin, həmçinin "Ekstremal və terminal vəziyyətlər" beynəlxalq elmi komissiyasının üzvüdür.

1992-ci il fevral ayının 28-dən, 1992-ci il may ayının 15-dək Azərbaycan Respublikası Ali Sovetinin sədri kimi Prezidentin səlahiyyətlərini icra etmişdir.

1976-cı ildə "Səhiyyə əlaçısı", 1981-ci ildə "Əməkdar həkim", 1991-ci ildə "Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüş, "Qırmızı Əmək Bayrağı (1981), "Xalqlar dostluğu" (1986) ordenləri, Vavilov adına mükafat (1990), ABŞ Bioqrafiya Mərkəzini medalı (2003) ilə təltif edilmişdir.

Ədəbiyyat

Patoloji fiziologiya: dərslik /Y.Məmmədov, C.Təqdisi, F.İslamzadə.- Bakı: Müəllim, 2004.- 668 s.

Zaman və həyatla üzbəüz /Y.Məmmədov.- Bakı: Nurlan, 2009.- 762 s.

Məmmədov Yaqub Cavad oğlu: biblioqrafiya /tərt.: B.Aşurov və b.- Bakı: Təbib, 1993.- 100 s.

Xələfli, Ə. Siyasi gündəlikdən səhifələr: Yaqub Məmmədov-70 /Ə.Xələfli //Kredo.- 2011.- 28 may.- S. 6.

Süleymanoğlu, M. Yaqub Cavad oğlu Məmmədov //Azərbaycan Tibb Universitetinin rektorları.- Bakı, 2010.- S.220-259.

Практическая лимфология /Я.Мамедов.- Баку: Маариф, 1982.- 302 с.

Свёртываемость крови и лимфы, её коррекция при тромбозе /Я.Мамедов.- Баку: Азернешр, 1985.- 231 с.

İnternetdə

www.adam.az

www.anl.az

75 illiyi

Tofiq Nağıyev 1941

Akademik

Tofiq Murtuza oğlu Nağıyev 1941-ci il mart ayının 4-də Bakı şəhərində anadan olmuşdur. Atası, akademik Murtuza Fətulla oğlu Nağıyev zəmanəsinin tanınmış kimyaçı-alimi və mühəndislərindən sayılırdı.

1964-cü ildə Bakı Dövlət Universitetinin kimya fakültəsini bitirmiş, əmək fəaliyyətinə Azərbaycan Elmlər Akademiyasının M.F.Nağıyev adına Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda başlamışdır.

1967-ci ildə "Etilbenzolun stirola əlaqəli dehidrogenləşməsi reaksiyasının öyrənilməsi" mövzusunda namizədlik, 1973-cü ildə isə "Praktiki cəhətdən mühüm karbohidrogenlər sırasının və onların törəmələrinin əlaqəli dehidrogenləşməsi və hidrogenolizi reaksiyalarının kinetikasının və mexanizminin tədqiqi" mövzusunda doktorluq dissertasiyasını uğurla müdafiə etmiş, 1976-cı ildən professor elmi rütbəsini almış, 1989-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

2002-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının laboratoriya müdiri, 2004-cü ildən "Azərbaycan Milli Ensiklopediyası" Elmi Mərkəzinin direktoru, 2013-cü ilin aprelindən isə AMEA-nın vitse-prezidentidir.

T.M.Nağıyev neft, neft kimyası, kataliz üzrə nüfuzlu beynəlxalq konqreslərdə, simpoziumlarda, beynəlxalq konfranslarda milli elmimizi ən yüksək səviyyədə təmsil etmişdir.

400-dən artıq məqalə və konfrans materiallarının, keçmiş SSRİ-nin 32 müəlliflik şəhadətnaməsinin, Rusiya Federasiyasının bir, Azərbaycan Respublikasının dörd patentinin müəllifidir. Kimya elmi üzrə 20-dən çox fəlsəfə doktoru hazırlamışdır. Akademikin elmi monoqrafiyası 2007-ci ildə dünyanın ən nüfuzlu elmi nəşriyyatı olan "Elsevier" nəşriyyatında (Niderland) ingilis dilində çapdan çıxmışdır. "Böyük Rusiya ensiklopediyası"nın 2013-cü ildə işıq üzü görmüş 21-ci cildində də akademik Tofiq Nağıyev haqqında geniş məlumat verilmişdir.

"Azərbaycan Milli Elmlər Akademiyasının Məruzələri" jurnalının redaksiya heyətinin, həmçinin "Simurq" jurnalının redaksiya şurasının üzvüdür. AMEA-nın Rəyasət Heyəti yanında Terminologiya Komissiyasının və AMEA mətbuat-redaksiya şurasının büro tərkibində çalışır. "Azərbaycan Nefti və Qazı" Ensiklopediyasının tərtibatının kuratorudur. 1970-ci ildə "Şərəfli əməyə görə" medalı, 2004-cü ildə isə Azərbaycan Respublikasının "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

2014-cü ildə elm üzrə Dövlət mükafatı laureatı olmuşdur.

Ədəbiyyat

Взаимодействие синхронных реакций в химии и биологии /Т.Нагиев.- Баку: Элм, 2001.- 404 с.

Химическое сопряжение /Т.Нагиев.- Москва: Наука, 1989.- 216 с.

Tofiq Murtuza oğlu Nağıyev: biblioqrafiya /tərt. Z.Zaytseva.- Bakı: Elm, 2009.- 228 s.

Məhərrəmov, A. Dünya şöhrətli alim, böyük ziyalı: Dövlət mükafatı laureatları /A.Məhərrəmov; A.Əzizov //Azərbaycan.- 2014.- 22 iyun.- S.4.

Tofiq Nağıyev hidrogen-peroksidin kimyəvi reaksiyaları induksiya etmək qabiliyyətini üzə çıxarıb //Üç nöqtə.- 2014.- 23 dekabr.- S. 9.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.science.gov.az
www.irp.science.az

90 illiyi

Yunis Qəmbərov 1926-1991

Kimyaçı

Yunis Heydər oğlu Qəmbərov 1926-cı il mart ayının 5-də Füzuli rayonunun Kürdlər kəndində anadan olmuşdur. 1933-1943-cü illərdə orta məktəbdə təhsil almış, 1944-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kimya fakültəsinə qəbul olunmuş, 1949-cu ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir. 1950-1952-ci illərdə Azərbaycan EA-nın (indiki AMEA) Neft İnstitutunun aspiranturasında oxumuşdur. 1952-1956-cı illərdə Azxəzərneft Birliyinin Antikorroziya xidməti kontorunda istehsalat şöbəsinin rəisi vəzifəsində işləmişdir.

1959-1962-ci illərdə Dövlət Kimya Komitəsinin Bakı Təcrübə Zavodunun mərkəzi laboratoriyasının müdiri işləmış, 1962-ci ildə həmin zavod əsasında Ümumittifaq Elmi-Tədqiqat Olefinlər İnstitutu (VNİİOlefin) yarandıqdan sonra Piroliz laboratoriyasına müdir təyin edilmişdir. 1973-cü ildə Olefinlər İnstitutunda Karbohidrogen monomerləri şöbəsinin müdiri, 1976-cı ildə isə elmi işlər üzrə direktor müavini təyin edilmişdir. 1990-cı ildə həmin institutun direktoru olmuşdur.

1960-cı ildə "Neft fraksiyalarının və bəzi fərdi karbohidrogenlərin termiki parçalanmasının tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək kimya elmləri namizədi, 1968-ci ildə isə "Pirolizin səmərələşdirilmiş şəraitində aşağı molekullu doymamış və aromatik karbohidrogenlərin alınması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, texnika elmləri doktoru elmi dərəcəsi almışdır. 1971-ci ildə professor elmi rütbəsinə layiq görülmüşdür. 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilmiş, 1991-ci ildə ölümündən sonra Başkurdistan EA-nın həqiqi üzvü seçilmişdir.

Alimin tədqiqatlarının nəticələri 6 monoqrafiyada, 220 məqalədə, o cümlədən 40 ixtirada öz əksini tapmışdır. Onun rəhbərliyi altında bir elmlər doktoru, 25 elmlər namizədi hazırlanmışdır.

"Azərbaycan Neft Təsərrüfatı" jurnalının redaksiya heyətinin üzvü olmuşdur. Sistematik olaraq neft-kimya sintezinə dair keçirilən Beynəlxalq simpozium, qurultay və konfranslarda (Leypsiq, Alma-Ata, Moskva, Leninqrad, Bakı) respublika elmini ləyaqətlə təmsil etmiş və dərin məzmunlu məruzələrlə çıxış etmişdir. Keçmiş Sovet İttifaqının Neft-Kimya Sənayesi Nazirliyinin Elmi-Texniki Şurasının və sosialist ölkələrinin Qarşılıqlı İqtisadi Yardım Şurasının neft-kimya üzrə daimi işçi qrupunun üzvü kimi 1972-ci ildə Çexoslovakiya, 1973-cü ildə Polşa, ADR, Macarıstan, 1976-cı ildə Bolqariya, 1981-ci ildə Rumıniya, 1983-cü ildə Fransada olmuşdur.

Böyük elmi və elmi-ictimai fəaliyyətinə görə hökumət tərəfindən yüksək qiymətləndirilmiş "Qırmızı Əmək Bayrağı", "Xalqlar Dostluğu" ordenləri və bir sıra medallarla təltif edilmişdir.

Professor Y.Qəmbərov 1991-ci il sentyabr ayının 7-də vəfat etmişdir.

Ədəbiyyat

Operator köməkçisi: dərs vəsaiti /Y.Qəmbərov.- Bakı: Azərtədrisnəşr, 1963.- 134 s.

Qəmbərov Yunis Heydər oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S.593.

Олефиновые углеводороды и их примененые в нефтехимической промышленности /С.Мехтиев, Ю.Камбаров.- Баку: Азернешр, 1962.- 183 с.

Полиолефины /Ю.Камбаров, Н.Сеидов, А.Буниятзаде.- Баку Азернешр, 1966.- 185 с.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.science.gov.az
www.irp.science.az

70 illiyi Cəmil Əliyev 1946

Akademik

Cəmil Əziz oğlu Əliyev 1946-cı il mart ayının 30-da Bakı şəhərində görkəmli ictimai xadim, məşhur alim Əziz Əliyevin ailəsində anadan olmuşdur. 1968-ci ildə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunu bitirmiş (indiki Azərbaycan Tibb Universiteti), elə həmin ildən Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasında baş laborant vəzifəsinə təyin olunmuşdur. 1972-ci ildən isə həmin kafedrada assistent vəzifəsində çalışmışdır. 1973-cü ildə onkologiya ixtisası üzrə namizədlik, 1978-ci ildə isə Moskvada keçmiş SSRİ Tibb Elmləri Akademiyasının Ümumittifaq Onkologiya Elmi Mərkəzində həmin ixtisas üzrə doktorluq dissertasiyasını müdafiə etmiş, 1987-ci ildə professor elmi rütbəsini almışdır. 1978-ci ilin fevral ayında Respublika Səhiyyə Nazirliyinin Elmi Tədqiqat Rentgenologiya, Radiologiya və Onkologiya İnstitutunda İkinci cərrahiyyə şöbəsinin müdiri, 1980-ci ilin oktyabr ayından 1990-cı ilin mart ayınadək elmi işlər üzrə direktor müavini, 1990-cı ilin mart ayından isə Respublika Milli Onkologiya Mərkəzinin direktoru vəzifəsində çalışır. 1994-cu ildən C.Ə.Əliyev Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun onkologiya kafedrasının rəhbəridir.

Akademik Cəmil Əliyev respublikamızın hüdudlarından kənarda da tanınır. Bakı və Moskva şəhərlərində dərc olunmuş 17 monoqrafiyanın (bunlardan biri ingilis dilindədir), tələbələr üçün vəsaitin, 10 ixtiranın, 600-ə yaxın dərc olunmuş elmi məqalələrin müəllifidir.1994-cü ildən Həkimləri Təkmilləşdirmə İnstitutunun Onkologiya kafedrasının müdiri vəzifəsində çalışır. Bütün bunlarla yanaşı, professor Cəmil Əliyev Azərbaycanda ən görkəmli səhiyyə təşkilatçılarından biri, Respublika Onkoloqlar Cəmiyyətinin sədri, Səhiyyə Nazirliyinin baş onkoloqu, nazirliyin onkologiya üzrə Attestasiya Komissiyasının sədri, "Azərbaycan tibb jurnalı" redaksiya heyətinin üzvü, "Azərbaycan onkologiya və həmmərz elmlər jurnalı"nın baş redaktoru, MDB dövlətləri onkoloqları assosiasiyası idarə heyətinin, Avropa onkologiya cəmiyyətinin, Rusiya elmi-tibbi onkologiya cəmiyyəti idarə heyətinin üzvüdür.

Azərbaycan Milli Elmlər Akademiyasının Y.Məmmədəliyev adına mükafatın laureatı, London Universitetinin fəxri professoru, İngiltərə Hammersmit Kral Universitetinin fəxri professoru, Anderson xərçəng əleyhinə Mərkəzin professoru, Nyu-York Elmlər Akademiyasının üzvü, 2000-ci ildən Azərbaycan Respublikasının Əməkdar elm xadimi, 2001-ci ildən Rusiya Federasiyası Tibb Elmləri Akademiyasının həqiqi üzvü, 2010-cu ildən Avropa Təbiət Elmləri Akademiyasının, Gürcüstan Elmlər Akademiyasının akademiki, 2011-ci ildən Dağıstan Muxtar Respublikasının Əməkdar elm xadimidir. Rusiya Federasiyasının Təbiət Elmləri Akademiyasının həqiqi üzvü, Beynəlxalq Ekoenergetika Akademiyasının üzvü, Avropa Tibb Onkologiya Elmi Cəmiyyətinin üzvüdür.

C.Əliyev Azərbaycan tibb elminin inkişafındakı xidmətlərinə görə 2006-cı ildə "Şöhrət ordeni" ilə təltif edilmişdir.

2015-ci il sentyabrın 28-də Türkiyənin nüfuzlu elm ocağı - Türk Dünyası Araşdırmaları Beynəlxalq Elmlər Akademiyasının həqiqi üzvü - akademiki seçilib və "Türk dünyasına xidmət " Beynəlxalq Qızıl Medalına layiq görülüb.

Ədəbiyyat

Bədxassəli şişlərin şüa müalicəsi: nəzəri əsasları, tətbiqi, nəticələri /C.Ə.Əliyev, İ.H.İsayev.- Bakı, 2012.- 1227 s.

Süd vəzisi xərçənginin diaqnostikası və müalicəsi /C.Əliyev, C.Cəfərov, T.Nəcəfov.- Bakı: Elm, 1993.- 120 s.

Tibb aləminin unudulmaz şəxsiyyəti /C.Əliyev // Azərbaycan.- 2014.- 5 iyul.- S.5.

İnternetdə

www.anl.az
www.amu.edu.az
www.az.wikipedia.org
www.science.gov.az
www.mom.gov.az

Beynəlxalq Novruz Günü

BMT Baş Assambleyası 2010-cu il fevral ayının 21 mart tarixini mədəniyyətlərarası dialoq və qarşılıqlı anlaşmanı həvəsləndirməyə istiqamətləndirən bayram kimi Beynəlxalq Novruz Günü elan etmişdir. Beynəlxalq Novruz Günü münasibətilə hazırlanan qətnamənin preambula hissəsində bildirilir ki, "yeni gün" mənasını verən, martın 21-də, gecə və gündüzün bərabərləşdiyi gün qeyd olunan Novruz, bütün dünyada 300 milyon nəfərdən artıq şəxs tərəfindən yeni ilin başlanğıcı kimi qəbul olunur.

Bu bayram artıq 3000 ildir ki, Balkanlarda, Qara dəniz hövzəsi regionunda, Qafqazda, Mərkəzi Asiya, Yaxın Şərq və digər regionlarda qeyd olunur. Azərbaycan xalqının tarixin qədim qatlarında yaratdığı, dilimizi, zəngin folklorumuzu özündə yaşadan Novruz bayramı azərbaycançılıq ideyasını, xalqımızın milli-mənəvi irsini özündə təcəssüm etdirir. Novruz yeni günün, yeni arzuların, milli ruh və duyğuların bayramıdır. Təsadüfi deyil ki, Novruz bayramı dünyanın qeyri-maddi mədəni irsi kimi YUNESKO-nun siyahısına daxil edilmişdir.

Novruz ənənələrinə görə, çərşənbələrdə tonqalın üstündən tullanmaqla insanlar bütün ağırlığını-uğurluğunu, əziyyətlərini, eyni zamanda pis xasiyyətlərini, mənfi tərəflərini köhnə ildə qoyub yeni ilə, yeni günə qədəm qoyar, bayram günü küsülülər barışar, insanlar bir-birlərinə qonaq gedər. Bu dəyərlər geniş mənada təkcə cəmiyyət daxilində deyil, eyni zamanda ölkələr arasında anlaşmanı, sülhü təcəssüm etdirir. Bu baxımdan Novruz bayramını, onun milli özəllikləri ilə yanaşı, sülh və barış kimi bəşəri dəyərlərin təcəssümü olaraq dünyaya tanıtmaq, təbliğ etmək çox əhəmiyyətlidir.

Azərbaycan xalqının milli-mənəvi irsinin təcəssümü olan Novruz bayramının dövlət səviyyəsində təkcə ölkəmizdə deyil, dünyada soydaşlarımız yaşadıqları ölkələrdə də qeyd edilməsi çox sevindiricidir. Dünyada Novruz təntənələrini keçirməklə bu bayramın timsalında xalqımızın tarixi dəyərləri, adət-ənənələri təbliğ edilir. Bu isə nəticə etibarilə Azərbaycanın təbliği deməkdir.

Ə d ə b i y y a t

Azərbaycanda Novruz.- Bakı: Çıraq, 2012.- 271 s.

Azərbaycanın xalq bayramı Novruz: bələdçi kitab/layih. rəhb. Ə.Qarayev; mətnin müəl. Ə.Vəliyev, V.Bəhmənli.- Bakı: Təhsil, 2011.-208 s.

Əhmədov, Ə. Novruz süfrəsi /Ə.Əhmədov.- Bakı: Azərnəşr, 2011.- 80 s.

Навруз как явление мировой культуры: [исследование] /ред.-сост. А.Раджабов, М.Карим-заде; отв. ред. А.Раджабов АН Респ. Таджикистан, Ин-т истории, археологии и этнографии им. Ахмада Дониша, Гос. учреждение "Нац. б-ка Таджикистана", Междунар. науч. центр муз. культуры народов Востока (Борбад) ; [предисл. М. Илолов].-Душанбе: [Контраст] 2012.- 335 с.

Cenevrədə "Beynəlxalq Novruz Günü" //Mədəniyyət.-2014.- 28 mart.- S. 4.

Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü 1997

1918-ci ildə yaradılmış Azərbaycan Demokratik Respublikasında 1919-cu il martın 28-də müdafiə naziri Səməd bəy Mehmandarovun 157 saylı əmrinə əsasən kəşfiyyat və əks-kəşfiyyat xidməti təşkil olunmuşdu. Bu təşkilatın vəzifəsi terrorizmə, casusluğa, təxribatlara qarşı mübarizə aparmaq idi. Lakin cümhuriyyətinin süqutu və 1920-ci ildə sovet ordusu tərəfindən Azərbaycanın işğalı nəticəsində təşkilatın üzvləri repressiyalara məruz qalmış, M.Şeyxzamanlı başda olmaqla əksər rəhbər heyət güllələnmişdi.

Sovet dövründə qurum əvvəlcə Fövqəladə Komissiya ("ÇK") adlanmış, bir müddət Daxili İşlər Xalq Komissarlığının ("NKVD") tərkibində fəaliyyət göstərmiş, sonra Dövlət Təhlükəsizlik Komitəsi təşkil olunmuşdur.

50-ci illərin sonlarından etibarən respublika təhlükəsizlik orqanlarında milliləşmə və tarixi ədalətin bərpa edilməsi, repressiyaya məruz qalmış bir çox insanların hüquqi və mənəvi bəraət alması istiqamətində xeyli işlər görüldü. Bu proses bilavasitə ömrünün böyük bir hissəsini təhlükəsizlik orqanlarına həsr etmiş görkəmli dövlət xadimi Heydər Əliyevin adı ilə bağlıdır. Onun Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində əks-kəşfiyyata rəhbərlik etdiyi illər ərzində, xüsusilə də komitə rəhbərliyinə irəli çəkildiyi 1964-ci ildən sonrakı dövrdə orqana milli kadrların cəlb olunması, onların yetişdirilib, həlledici iş sahələrində rəhbər vəzifələrə təyin olunması nəzərəçarpacaq şəkildə geniş vüsət almağa başladı. 1967-ci ilədək respublikanın təhlükəsizlik orqanlarına qeyri-azərbaycanlılar rəhbərlik ediblər. Həmin il general Heydər Əliyev Azərbaycan DTK-nın sədri təyin olunmuşdur.

Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, 1991-ci il noyabrın 1-də Milli Təhlükəsizlik Nazirliyi yaranıb. Milli Təhlükəsizlik Nazirliyinin qarşısında duran vəzifələr Azərbaycan Respublikasının suverenliyinə, konstitusiya quruluşuna, iqtisadi, müdafiə, elmi-texniki potensialına, digər həyati əhəmiyyətli maraqlarına qarşı xarici dövlətlərin xüsusi xidmətlərinin və təşkilatlarının, cinayətkar qrupların və ayrı-ayrı şəxslərin kəşfiyyat və digər təxribat-pozuculuq fəaliyyətinin qarşısını almaqdan ibarətdir.

"Azərbaycan Respublikası Milli təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı gününün təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin 1997-ci il 23 mart tarixli Fərmanı ilə 28 mart - Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü elan olunmuşdur.

Ədəbiyyat

Qasımov, C.Milli təhlükəsizliyin əsasları : dərslik /C. Qasımov, N. Nağıyev; Azərb. Resp. Milli Təhlükəsizlik Nazirliyinin Heydər Əliyev ad. Akad-sı. Bakı: [MTN-nin H. Əliyev ad. Akad.], 2015.-407 s.

Fəaliyyətimiz informasiya əsrinin tələblərinə uyğun qurulub: Milli Təhlükəsizlik Orqanları-96 /S. Fərzəliyev// Xalq qəzeti .-2015.- 19 mart.- S.9.

Xalqın və dövlətin ehtimadını doğrultmaq vəzifəsi Milli Təhlükəsizlik orqanları - 96 /F.Abasoğlu//Kaspi.-2015.- 17 mart.- S.10.

Xüsusi tarix Milli təhlükəsizlik orqanları-96 /H. Ağamməd ov//Azad Azərbaycan .-2015.- 11 mart.- S. 3.

Milli təhlükəsizlik orqanları-96 /C. Qasımov//Səs .-2015.- 11 mart.- S. 7.

Təhlükəsizlik orqanlarının tarixi milli yaddaşın mühüm hissəsidir: Milli təhlükəsizlik orqanları-96 /R. Bağırov //İki sahil .-2015.- 10 fevral.- S.8.

İnternetdə

www.anl.az
wwwmtn.gov.az
www. ebooks.preslib.az

Azərbaycanlıların Soyqırımı Günü
1918

Azərbaycan xalqına qarşı dəfələrlə törədilmiş və uzun illərdən bəri öz siyasi-hüquqi qiymətini almamış soyqırımı tarixin açılmamış səhifələrindən biridir.

1813-cü və 1828-ci illərdə imzalanmış Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoymuşdu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırımı Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

İrəvan, Naxçıvan və Qarabağ xanlıqlarının ərazilərində məskunlaşdırılan ermənilər orada yaşayan azərbaycanlılarla müqayisədə azlıq təşkil etmələrinə baxmayaraq öz havadarlarının himayəsi altında "Erməni vilayəti" adlandırılan inzibati bölgünün yaradılmasına nail oldular. Belə süni ərazi bölgüsü ilə, əslində, azərbaycanlıların öz torpaqlarından qovulması və məhv edilməsi siyasətinin bünövrəsi qoyulmuş, "Böyük Ermənistan" ideyaları təbliğ olunmağa başlanmışdı. "Böyük Ermənistan" yaratmaq xülyasından ruhlanan erməni qəsbkarları 1905-1907-ci illərdə azərbaycanlılara qarşı açıq şəkildə genişmiqyaslı qanlı aksiyalar həyata keçirmişdilər. Ermənilərin Bakıdan başlanan vəhşilikləri Azərbaycanı və indiki Ermənistan ərazisindəki Azərbaycan kəndlərini əhatə etmişdi. Yüzlərlə yaşayış məntəqəsi dağıdılmış, yerlə yeksan edilmiş, minlərlə azərbaycanlı vəhşicəsinə qətlə yetirilmişdi.

Birinci Dünya müharibəsi, eləcə də Rusiyada baş vermiş 1917-ci il fevral və oktyabr çevrilişlərindən məharətlə istifadə edən ermənilər öz iddialarını bolşevik bayrağı altında reallaşdırmağa nail olmuşdular. 1918-ci ilin mart ayından etibarən əksinqilabçı ünsürlərlə mübarizə şüarı altında Bakı Kommunası tərəfindən ümumən Bakı quberniyasını azərbaycanlılardan təmizləmək məqsədi güdən mənfur planın həyata keçirilməsinə başlanılmışdı. Həmin günlərdə ermənilərin törətdikləri cinayətlər Azərbaycan xalqının yaddaşına əbədi həkk olunmuşdur. Minlərlə dinc azərbaycanlı əhali yalnız milli mənsubiyyətinə görə məhv edilmişdi. Ermənilər evlərə od vurmuş, insanları diri-diri yandırmışlar. Milli memarlıq incilərini, məktəbləri, xəstəxanaları, məscid və digər abidələri dağıtmış, Bakının böyük bir hissəsini xarabalığa çevirmişlər.

Azərbaycanlıların soyqırımı Bakı, Şamaxı, Quba qəzalarında, Qarabağda, Zəngəzurda, Naxçıvanda, Lənkəranda və Azərbaycanın başqa bölgələrində xüsusi qəddarlıqlarla həyata keçirilmişdir. Bu ərazilərdə dinc əhali kütləvi surətdə qətlə yetirilmiş, kəndlər yandırılmış, milli mədəniyyət abidələri dağıdılıb məhv edilmişdir.

Zaqafqaziyanın sovetləşməsindən öz çirkin məqsədləri üçün istifadə edən ermənilər 1920-ci ildə Zəngəzuru və Azərbaycanın bir sıra digər torpaqlarını Ermənistan SSR-in ərazisi elan etmişdilər. Sonrakı dövrdə bu ərazilərdəki azərbaycanlıların depor-

tasiya edilməsi siyasətini daha da genişləndirmək məqsədilə yeni vasitələrə əl atmışdılar. Bunun üçün onlar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il "Ermənistan SSR-dən kolxozçuların və başqa azərbaycanlı əhalinin Azərbaycan SSR-in Kür-Araz ovalığına köçürülməsi haqqında" xüsusi qərarına və 1948-1953-cü illərdə azərbaycanlıların öz tarixi torpaqlarından kütləvi surətdə deportasiyasına dövlət səviyyəsində nail olmuşdular.

Erməni millətçiləri öz havadarlarının köməyi ilə 50-ci illərdən etibarən Azərbaycan xalqına qarşı kəskin mənəvi təcavüz kampaniyasına başlamışdılar. Keçmiş sovet məkanında müntəzəm şəkildə yayılan kitab, jurnal və qəzetlərdə milli mədəniyyətimizin, klassik irsimizin, memarlıq abidələrimizin ən nəfis nümunələrinin erməni xalqına mənsub olduğunu sübut etməyə çalışırdılar. Eyni zamanda, onlar tərəfindən bütün dünyada azərbaycanlıların mənfi obrazını formalaşdırmaq cəhdləri də güclənmişdi. "Yazıq, məzlum erməni xalqı"nın surətini yaradaraq əsrin əvvəlində regionda baş verən hadisələr şüurlu surətdə təhrif olunmuş, azərbaycanlılara qarşı soyqırım törədənlər soyqırım qurbanları kimi qələmə verilmişdi.

Əsrin əvvəlində əksər əhalisi azərbaycanlı olan İrəvan şəhərindən və Ermənistan SSR-in digər bölgələrindən soydaşlarımız təqiblərə məruz qalaraq kütləvi surətdə qovulmuşlar. Azərbaycanlıların hüquqları ermənilər tərəfindən kobudcasına pozulur, ana dilində təhsil almasına əngəllər törədilir, onlara qarşı repressiyalar həyata keçirilirdi. Azərbaycan kəndlərinin tarixi adları dəyişdirilmiş, toponimika tarixində misli görünməyən qədim toponimlərin müasir adlarla əvəzolunma prosesi baş vermişdir.

1918-ci il martın 30-u gecə saatlarında Bakıda başlanan kütləvi qırğınlar 20 minə yaxın günahsız insanın, o cümlədən çoxlu sayda qoca, qadın və uşaqların öldürülməsi ilə nəticələnmişdir.

Martın 30-dan aprelin 2-dək davam edən kütləvi qırğınlarda Stepan Şaumyanın rəhbərlik etdiyi erməni bolşevik dəstələri Bakıda minlərlə insanı qətlə yetirmiş, müsəlman ziyarətgahlarını yandırmış, Bakı əhalisinin 400 milyon manatlıq əmlakını müsadirə etmişdir. Kütləvi qırğınlar zamanı şəhərin ən möhtəşəm məscidi sayılan Təzəpir məscidi aramsız top atəşinə tutulmuş, Bakının ən möhtəşəm memarlıq incilərindən olan "İsmailiyyə" binası yandırılmışdır.

Azərbaycanlılara qarşı həyata keçirilən soyqırımı siyasəti, təkcə Bakı şəhəri ilə məhdudlaşmamışdır. Martın 31-də erməni daşnakları Şamaxı qəzasının 53 kəndində 8027 azərbaycanlını, o cümlədən 2560 qadın və 1277 uşağı qətlə yetirmişlər. Qubanın 162 kəndində öldürülən günahsız azərbaycanlıların sayı isə 16 mindən artıq olmuşdur. Erməni daşnakları Lənkəran, Muğan bölgəsi və Dağlıq Qarabağda minlərlə kəndi yandırmış, on minlərlə insanı vəhşicəsinə qətlə yetirmişlər. 1918-ci il iyulun 15-də Azərbaycan Demokratik Respublikasının yaratdığı Fövqəladə Təhqiqat Komissiyası bu qırğınlarla bağlı çoxsaylı sənədləri toplayaraq hökumətə təqdim etmiş, 1919-cu ildə Azərbaycan Parlamenti 31 mart tarixinin - azərbaycanlıların soyqırımı günü kimi qeyd olunması barədə qərar qəbul etmişdir. Sovet hakimiyyəti illərində bu tarix yaddaşlardan silinsə də, müstəqillik dövründə tarixi sənədlər əsasında 31 mart 1918-ci ildə Azərbaycan xalqının başına gətirilən faciəvi hadisələrlə bağlı çoxsaylı araşdırmalar aparılmış, kitablar dərc olunmuşdur. 1998-ci il martın 26-da Prezident Heydər Əliyev "Azərbaycanlıların soyqırımı haqqında" Fərman imzalamışdır. Həmin gündən başlayaraq 31 mart tarixi Azərbaycanlıların Soyqırımı Günü kimi qeyd olunur.

Ə d ə b i y y a t

Azərbaycanlıların soyqırımı: tarixin qanlı salnaməsi /[müəl. İ.Hüseynli və b.]; ideya rəhbəri R.Mehdiyev; red. Ə.Həsənov; burax. məs. B.Sadıqov.- Bakı: [s.n.], 2012.- C.I.- 444 s.; C.II- 422 s.

İsgəndərov, A. Azərbaycanda türk-müsəlman soyqırımı probleminin tarixşünaslığı: 1918-1920 /A.İsgəndərov; elmi red.: Y.Mahmudov, F.İbrahimli; xüsusi red. Ş.Yaqubov.- Bakı: Adiloğlu, 2006.- 396 s.

Həmidov, H.Azərbaycanlıların soyqırımı erməni terrorizminin tərkib hissəsi kimi /H. Həmidov ; elmi red. R. Mirzəzadə ; red. T. Quliyev..-Bakı: Qartal, 2015.-58 s.

31 Mart Azərbaycanlıların soyqırımı günüdür : məqalələr toplusu : [elmi - praktik seminar] /Azərb. Resp. Nazirlər Kabineti yan. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi Elmi-Mədəni Mərkəz ; elmi red. V. Quliyeva .-Bakı: Elm və təhsil, 2015.-231 s.

Мархулия, Г. Геноцид Азербайджанцев /Г. Мархулия.-Тбилиси: [Мериди ани], 2015.-625 с.

1 aprel
Gün çıxır 07:26
Gün batır 20:21

30 aprel
Gün çıxır 06:42
Gün batır 20:52

APREL

21 mart-
20 aprel

Qoç bürcünün nişanəsi oddur. Marsın himayəsindədir. Günəşin Qoç bürcündən keçdiyi dövrdə doğulanlar qüvvətli və çevik olurlar.

C.	1
Ş.	**2**
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	**7**
C.	8
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	**14**
C.	15
Ş.	16
B.	17
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	**21**
C.	22
Ş.	23
B.	24
B.E.	25
Ç.A.	26
C.	27
C.	**28**
Ş.	29
B.	30

- *Ümumdünya Gülüş Günü (01.04.1564)*
- ***Kəlbəcər rayonunun işğalı günü (02.04.1993)***
- *Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)*
- *Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)*
- *Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996)*

875 il Nizami Gəncəvi 1141-1209

Ulu Nizaminin qəbrinin üstündə tarixi keçmişdən xəbər verən memarlıq quruluşunda tikilmiş, xarici görkəmi səliqəli olan abidə olmamışdır. 1940-cı ildə milli memarlıq üslubunda, əvvəlcədən işlənib hazırlanmış layihə əsasında Məqbərənin əsaslı inşasına başlanmışdır. Böyük Vətən müharibəsi bu işi bir qədər ləngitmiş, müharibədən sonra Məqbərənin tikintisi tamamlanmış və 1947-ci ildə Nizaminin anadan olmasının 800 illiyi münasibətilə hündürlüyü 15,2 metr olan abidənin təntənəli açılışı olmuşdur.

1979-cu ildə ulu öndər Heydər Əliyev respublikaya rəhbərlik edərkən "Azərbaycanın böyük şair və mütəfəkkiri Nizami Gəncəvinin ədəbi irsinin öyrənilməsini, nəşrini və təbliğini yaxşılaşdırmaq tədbirləri haqqında" Azərbaycan KP MK-nın qəbul etdiyi 6 yanvar tarixli qərarında bu məsələ də öz əksini tapmışdır.

Məqbərəni milli üslubda yenidən qurmaq və onun ətrafındakı ərazini abadlaşdırmaq haqqında konkret qərar 1981-ci ildə şairin 840 illik yubileyinin Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin diqqəti və cəsarətli mövqeyi sayəsində sovetlər birliyi məkanında böyük təntənə ilə qeyd olunduğu ərəfədə verilmişdir.

1991-ci ildə YUNESKO-nun təşəbbüsü ilə Nizami Gəncəvinin anadan olmasının 850 illik yubileyinin dünya miqyasında qeyd olunması ərəfəsində Heydər Əliyevin bilavasitə qərarı və təşəbbüsü ilə Nizami Məqbərəsinin yenidən qurulmasına xüsusi diqqət yetirilmişdir.

Nizami dünyasının böyüklüyü ilə həmahəng olan möhtəşəm Məqbərə kompleksi 1991-ci ilin sonunadək tikilib qurtarmışdır. Məqbərə Azərbaycanın XII əsr memarlıq üslubunda tikilmiş və milli bədii cizgiləri özündə cəmləşdirmişdir.

Abidənin silueti Gəncə şəhərinin embleması kimi qəbul edilmişdir. Gəncənin şərq istiqamətindəki girişində quraşdırılmış, şəhərin adını və simvolik rəmzlərini əks etdirən konstruksiyanın ümumi görünüşündə də Nizami Məqbərəsinin silueti təsvir edilmişdir. Məqbərənin ətrafı başdan-başa yenidən qurulmuş, abadlaşdırılaraq 6 hektar sahədə yaşıllıqlar yaradılmış və ağaclar əkilmiş, "Xatirə" parkı salınmışdır.

APREL 2016

Milli ədəbiyyat

Şair Əlibəyli Ənvər Əliverdi oğlunun (01.04.1916-07.05.1968) anadan olmasının 100 illiyi **125**

Şair, publisist, tərcüməçi Qarayeva Xanım İsmayıl qızının (10.04.1956) anadan olmasının 60 illiyi

Tənqidçi, ədəbiyyatşünas alim, nasir Eminov Allahverdi İsgəndər oğlunun (10.04.1941) anadan olmasının 75 illiyi

Maarif xadimi, yazıçı Qənizadə Sultanməcid Hacı Murtuzəli oğlunun (24.04.1866-1937(1942)) anadan olmasının 150 illiyi **126**

Dünya ədəbiyyatı

Tatar Xalq şairi Tukay Abdulla Məhəmmədarif oğlunun (26.04.1886-15.04.1913) anadan olmasının 130 illiyi **127**

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Hacıyev Altay Əmir oğlunun (02.04.1931) anadan olmasının 85 illiyi **128**

Xalq rəssamı Əliyev Hüseyn Əlirza oğlunun (22.04.1911-25.05.1991) anadan olmasının 105 illiyi **129**

Əməkdar incəsənət xadimi, teatr rəssamı Abbasov Əsgər Məmmədismayıl oğlunun (28.04.1916-09.02.1970) anadan olmasının 100 illiyi

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, baletmeyster Nəzirova Nailə Məmməd qızının (04.04.1936) anadan olmasının 80 illiyi

Pedaqoji elmlər doktoru, professor, Xalq artisti, bəstəkar Rəcəbov Oqtay Məmmədağa oğlunun (05.04.1941) anadan olmasının 75 illiyi **130**

Bəstəkar, Əməkdar incəsənət xadimi Hüseynli Qəmbər Muxtar oğlunun (16.04.1916-01.08.1961) anadan olmasının 100 illiyi **131**

Əməkdar incəsənət xadimi, ilk azərbaycanlı musiqişünas qadın Ağayeva Xurşid Həsən bəy qızının (20.04.1906-03.12.1953) anadan olmasının 110 illiyi

Əməkdar artist, tarzən Hüseynov Əlikram Həsən oğlunun (20.04.1926-2006) anadan olmasının 90 illiyi

Xalq artisti, pianoçu Mahmudova Tamilla Zahid qızının (21.04.1931-12.09.2014) anadan olmasının 85 illiyi

Əməkdar artist, kamança ifaçısı Vəzirov Ədalət Səfərəli oğlunun (27.04.1951-05.10.2002) anadan olmasının 65 illiyi **132**

Əməkdar incəsənət xadimi, bəstəkar Hüseynzadə Ədilə Hacağa qızının (29.04.1916-20.07.2005) anadan olmasının 100 illiyi 133

Teatr.Kino

Aktyor, rejissor Mirzəyev Ceyhun Cəmil oğlunun (09.04.1946-05.03.1993) anadan olmasının 70 illiyi 134

Xalq artisti, rejissor Mirzəyev Ramiz Həsənağa oğlunun (Ramiz Həsənoğlu) (13.04.1946) anadan olmasının 70 illiyi 135

Xalq artisti Zeynalova Nəsibə Cahangir qızının (20.04.1916-10.03.2004) anadan olmasının 100 illiyi 136

Xalq artisti, aktyor və teatr xadimi Muxtarov Yusif Mehdi oğlunun (23.04.-(07).1941-26.04.2010) anadan olmasının 75 illiyi 137

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Edilov Yelmar Şahmar oğlunun (10.04.1946-11.04.1994) anadan olmasının70 illiyi 138

Azərbaycanın Milli Qəhrəmanı Bağırov Allahverdi Teymur oğlunun (22.04.1946-24.02.1993) anadan olmasının 70 illiyi 139

Siyasət.Hərbi iş

Orta Asiya dövlət xadimi, sərkərdə, Teymurilər imperiyasının banisi Əmir Teymurun (Teymur ibn Tarağay Barlas) (09.04.1336-18.02.1405) anadan olmasının 680 illiyi 140

Türkiyə Respublikasının banisi və ilk prezidenti, Türkiyə dövlət, siyasi və hərbi xadimi Atatürk Qazi Mustafa Kamalın (19.04.1881-10.11.1938) anadan olmasının 135 illiyi 141

Mədəniyyət.Maarif.Təhsil

AMEA-nın müxbir üzvü, teatrşünas Kərimov İnqilab Saleh oğlunun (04.04.1931-22.07.2011) anadan olmasının 85 illiyi 142

Maarif və teatr xadimi Sultanov Mirzə Əbülqasımın (12.04.1866-1916) anadan olmasının 150 illiyi

Filologiya elmləri doktoru, professor, dilçi alim Tağıyev Məmməd Tağı oğlunun (28.04.1921-28.09.1994) anadan olmasının 95 illiyi

Coğrafiya.Geologiya

Akademik Əlizadə Ələşrəf Əbdülhüseyn oğlunun (24.04.1911-23.03.1985) anadan olmasının 105 illiyi 143

Geologiya-mineralogiya elmləri doktoru Babazadə Baba Qurbanqulu oğlunun (25.04.1911-18.08.1962) anadan olmasının 105 illiyi 144

Akademik Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlunun (30.04.1911- 1996) anadan olmasının 105 illiyi 145

Riyaziyyat.Fizika.Astronomiya

Seysmoloq, fizika-riyaziyyat elmləri namizədi Rəhimov Şamo Süleyman oğlunun (02.04.1931-24.07.1964) anadan olmasının 85 illiyi

Fizika-riyaziyyat elmləri doktoru, professor Abaszadə Abasqulu Ağabala

oğlunun (10.04.1906-18.02.1969) anadan olmasının 110 illiyi 146
Professor, Əməkdar elm xadimi Mirzəyev Bəhram Rüstəm bəy oğlunun (16.04.1891-1974) anadan olmasının 125 illiyi 147
Fizika-riyaziyyat elmləri doktoru, professor Abdullayev Aydın Həsən oğlunun (25.04.1951) anadan olmasının 65 illiyi

Kimya.Biologiya.Tibb

Seleksiyaçı alim, Dövlət mükafatı laureatı Vəlizadə İsgəndər Mahmud oğlunun (15.04.1896-11.05.1974) anadan olmasının 120 illiyi

İdman

Əməkdar idman ustası Dadaşov İbrahimpaşa Hüseyn oğlunun (10.04.1926-16.07.1990) anadan olmasının 90 illiyi

Texnika. Mühəndis işi

Akademik Nağıyev Vaqif Mirəsgər oğlunun (20.04.1941-03.12.1992) anadan olmasının 75 illiyi 148
Amerika rəssamı və teleqrafiya sahəsində ixtiraçı Morze Samuel Finli Brizin (27.04.1791-02.04.1872) anadan olmasının 225 illiyi 149

Tarixdə bu gün

Ümumdünya Gülüş Günü (01.04.1564)
Kəlbəcər rayonunun işğalı günü (02.04.1993) 150
Beynəlxalq Uşaq Kitabı günü (02.04.1953)
ABŞ Dövlət Departamenti Ermənistanın Azərbaycan torpaqlarını işğal etdiyini rəsmən bəyan edib (03.04.2001)
Afinada müasir dövrün ilk Olimpiya oyunlarının başlaması (06.04.1896)
"Molla Nəsrəddin" jurnalının nəşr olunmasının (07.04.1906) 110 illiyi 151
Ümumdünya Sağlamlıq Günü (07.04.1950)
İlk dəfə Yuri Qaqarin kosmosa uçmuşdur (12.04.1961)
Ümumdünya Aviasiya və Kosmonavtika Günü (12.04.1962)
Beynəlxalq Mədəniyyət Günü (15.04.1935)
Beynəlxalq Ailə Günü (15.05.1994)
"Dəbistan" həftəlik uşaq jurnalının (16.04.1906-03.1908) nəşrə başlamasının 110 illiyi
Ümumdünya Hemofiliya Günü (17.04.1964) 152-153
Tarixi Abidələrin Mühafizəsi Günü (18.04.1983)
Ümumdünya Yer Günü (22.04.1970)
Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü (23.04.1996) 154
Beynəlxalq Əqli Mülkiyyət Günü (26.04.2000)
Ukraynanın Çernobl şəhərində AES-də baş vermiş qəzanın (26.04.1986) 30-cu il dönümü
Ümumdünya Əməyin Mühafizəsi Günü (28.04.1996)
Beynəlxalq Rəqs Günü (29.04.1982)

100 illiyi

Ənvər Əlibəyli 1916-1968

Şair

Ənvər Əliverdi oğlu Əlibəyov (Ənvər Əlibəyli) 1916-cı il aprel ayının 1-də Bakıda anadan olmuşdur. Əvvəl Tibb Texnikumunda (indiki Tibb Kolleci), sonra Azərbaycan Dillər Universitetinin fəhlə fakültəsində, APİ-nin (indiki ADPU) filologiya fakültəsində təhsil almışdır. 1936-cı ildə kiçikyaşlı uşaqlar üçün şeirlər yazmış, dövri mətbuatda çap etdirmişdir. 1938-ci ildən İkinci Dünya müharibəsi başlayana qədər Azərbaycan radiosunda çalışmışdır. Tiflisdə Topçular Hərbi məktəbini bitirmiş, zabit rütbəsi ilə könüllü olaraq ön cəbhəyə getmişdir. İkinci Dünya müharibəsinin ilk günlərindən ordu sıralarında olan Ə.Əlibəyli artilleriya komandiri olmuş, məşhur 416-cı Taqanroq atıcı diviziyasında ağır döyüş yolu keçmiş, Qafqaz və Ukraynanın azad olunmasında fəal iştirak etmişdir. 1944-cü ildə ağır yaralandıqdan sonra yazıçı-jurnalist kimi cəbhəyə qayıtmışdır. XX əsrin 40-cı illərinin sonlarında "İnqilab və mədəniyyət", "Təbliğatçı" jurnallarının məsul katibi olmuş, 1948-1952-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının orqanı "Ədəbiyyat qəzeti"nin redaktoru, 1952-ci ildən ömrünün sonunadək Respublika Radio və Televiziya Verilişləri Komitəsinin sədri vəzifələrində çalışmışdır. 1939-cu ildən Sovet Yazıçılar İttifaqının üzvü olan Ənvər Əlibəylinin şeir və poemaları rus və keçmiş SSRİ xalqlarının dillərinə tərcümə edilmişdir. Onun "Qaranquş" adlı ilk şeirlər kitabı 1947-ci ildə işıq üzü görmüşdür. Sonrakı illərdə "Sənin adınla", "İlk məhəbbət", "Dostluq körpüsü", "Mingəçevir şeirləri", "Dalğalar arasında", "Elə xoşbəxtəm ki!", "Ədəbiyyat", "Nəğmələr", "Bir kitab şeir", "Ürəyimdəsən", "Seçilmiş əsərləri" və s. kitabları nəşr olunmuşdur.

Ənvər Əlibəyli həm də bir neçə poemanın müəllifidir. Samur çayının suyunu quraq torpaqlara çatdıran inşaatçıların bəhrəli əməyindən bəhs edən"Samur dastanı" poeması, 1941-1945-ci illərin hadisələrindən bəhs edən "Bacı", "Gözlər, ürəklər, əməllər" poemaları, dəniz neftçilərinin şücaətini tərənnüm edən "Dalğalar arasında", "Polad", "Dostluq körpüsü" və başqa poemalar buna nümunə ola bilər.

S.Rüstəmov, C.Cahangirov, R.Hacıyev, T.Quliyev, A.Rzayeva, Q.Hüseynli, Z.Bağırov, R.Mustafayev, İ.Topçubaşov, V.Adıgözəlov kimi dəyərli bəstəkarlar şairin şeirlərinə "Azərbaycan", "Gəlmədin", "İlk məhəbbət", "Lirik mahnı", "Gəl-gəl", "Xəzərim", "Qəşəng qızlar", "Narınc" və başqa mahnılar yazmışlar.

"Vətən müharibəsi" (II dərəcəli), "Qırmızı ulduz" ordenləri, "Qafqazın müdafiəsinə görə", "Almaniya üzərində qələbəyə görə" medalları ilə təltif olunmuşdur. Əməkdar incəsənət xadimidir.

Ənvər Əlibəyli 1968-ci il may ayının 7-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Ə.Əlibəyli.- Bakı: Şərq-Qərb, 2005.- 224 s.

Əhmədov, T. Ənvər Əlibəyli /T.Əhmədov //Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.303.

Fərəcov, S. "Səni tərənnüm edirəm, doğma Azərbaycanım" /S.Fərəcov //Mədəniyyət.- 2011.- 1 aprel.- S.11.

Əhmədalılar, T. Qəlbdən qələmə... /T.Əhmədalılar //Mədəniyyət.- 2014.- 2 aprel.- S.11.

Mirəhmədov, Ə. Ənvər Əlibəyli /Ə.Mirəhmədov //Azərbaycan jurnalist və naşirləri.- Bakı, 2013.- S.66.

Oktay. Mahnılarda yaşayan şair /Oktay //Xalq cəbhəsi.- 2012.- 28 mart.- S.13.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.azlib.net

150 illiyi Sultanməcid Qənizadə 1866-1937

Yazıçı

Sultanməcid (bəzi mənbələrdə Sultan Məcid) Hacı Murtuzəli oğlu Qənizadə 1866-cı il aprel ayının 24-də Şamaxıda anadan olmuşdur. 1872-1879-cu illərdə S.Ə.Şirvaninin "Məclis" məktəbində oxumuş, 1982-ci ildə Şamaxıda yeni açılmış üçüncü dərəcəli şəhər məktəbini və 1883-cü ildə birillik pedaqoji kursu bitirmişdir. Rus dilini mükəmməl bildiyindən 1883-cü ildə Tiflisdəki Aleksandrovski Müəllimlər İnstitutuna daxil olmuş, 1987-ci ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Həmin il Bakıda Həbib bəy Mahmudbəyovla "rus-müsəlman məktəbi" ibtidai təhsil ocağının yaradılmasına nail olmuş, 1887-1891-ci illərdə orada müəllim, 1891-1898-ci illərdə 2-ci rus-müsəlman məktəbində, 1898-1905-ci illərdə 2-ci dərəcəli ali ibtidai məktəbdə müdir, 1905-1908-ci illərdə Qori müəllimlər seminariyasının Azərbaycan şöbəsində müfəttiş, 1908-1917-ci illərdə Bakı quberniyası və Dağıstan vilayəti xalq məktəbləri idarəsinin 2-ci rayonu üzrə müfəttiş, 1917-1918-ci illərdə vilayət xalq məktəblərinin direktoru vəzifələrində çalışmışdır.

1905-1907-ci illər rus inqilabından sonra onun dünyagörüşündə islamçılıq və islam birliyi meylləri güclənmiş, 1917-ci ildə bütün müsəlmanların birliyini təbliğ edən "İttihad" partiyasının təşkilatçılarından olmuşdur. 1918-ci ildə Qənizadə ilk milli dövlətin quruculuq işlərində və Parlament iclaslarında fəal iştirak etmiş, 1919-cu il avqust ayında ADR-də Parlamentin sədr müavini seçilmişdir. Sovet hakimiyyəti dövründə, 1920-1925-ci illərdə respublikanın Xalq Maarif Komissarlığında şöbə müdiri, 1925-1929-cu illərdə Bakı şəhər Xalq maarifi idarəsində inspektor vəzifəsində çalışmış, hərbi məktəbdə və Sənaye İnstitutunda dərs demişdir.

1902-ci ildə nəşr edilən "Lüğəti-rusi və türki", "Samouçitel tatarskoqo yazıka" və başqa kitabların müəllifidir. Yaradıcılığında 1906-cı ildə "Dəbistan" jurnalında çap edilmiş "Allah xofu" hekayəsi xüsusi yer tutur. İlk qələmə aldığı pyes "Qönçə xanım" olmuş, 1894-cü ildə Lev Tolstoyun "Əvvəlinci şərabçı" pyesini tərcümə etmiş, həmin ilin may ayında Bakıda tamaşaya qoymuşdur. Bu tamaşa Azərbaycan səhnəsi tarixinə rus dramaturgiyasının ilk tamaşası kimi daxil olmuşdur.

Yazarın Əli İskəndər Cabbarovla birlikdə yazdığı "Kəlili ədəbiyyat" (müntəxabat), "İstilahi Azərbaycan" və s. əsərləri məktəblərdəki boşluğu qismən doldurmağa xidmət etmişdir. Ən orjinal əsəri "Məktubati Şeyda bəy Şirvani" ümumi başlığı altında yazdığı "Müəllimlər iftixarı" hekayəsi və "Gəlinlər həmayili" romanıdır. İlk dəfə məhz Sultanməcid Qənizadənin rejissorluğu ilə 1898-ci ildə hazırlanmış "Vəziri xani-Lənkəran" komediyasının tamaşasında Hüseyn Ərəblinski Mehtər Kərim rolunu oynamışdır.

1937-ci il repressiyaları Sultanməcid Qənizadədən də yan keçməmiş, xalq düşməni kimi həbs edilərək güllələnmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /S.Qənizadə.- Bakı: Avrasiya press, 2006.- 200 s.

Məmmədov, X. Sultan Məcid Qənizadə /X.Məmmədov.- Bakı: Yazıçı, 1983.- 211 s.

Əhmədov, T. Sultanməcid Qənizadə /T.Əhmədov //Azərbaycan yazıçıları XX-XXI yüzillikdə: ensiklopedik məlumat kitabı.- Bakı, 2004.- S.867-868.

Görkəmli maarifçi və elm fədaisi- Sultan Məcid Qənizadə //Azadlıq.- 2011.- 6 iyul.- S. 14.

Qənizadə Sultanməcid //Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.- Bakı, 2005.- C.2.- S.149-150.

Ганиев, С. Русско-тюркский словарь /С.Ганиев.- Бакy, 1922.- 500 с.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.elibrary.azlib.net

Dünya ədəbiyyatı

130 illiyi

Abdulla Tukay 1886-1913

Tatar şairi

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Abdulla Tukay; tatarcadan tərc ed.Ramiz Əsgər.- Bakı: Nağıl evi, 2011.- 267 s.

Millətim /Abdulla Tukay.- Bakı, 2011.- 267 s.

Saman bazarı, yaxud Yeni Kəsikbaş: poema /Q.Tukay.- Bakı: Elm və təhsil, 2011.- 150 s.

Qabdulla Tukay Azərbaycan ədəbiyyatşünaslığında: məqalələr toplusu /topl. M.Həsənova.- Bakı: Elm və təhsil, 2012.- 286 s.

Fərəcov, S. Tatar poeziyasının görkəmli nümayəndəsi /S.Fərəcov //Mədəniyyət.- 2014.- 12 dekabr.- S. 12.

Избранное: стихи и поэмы: [пер. с тат.] /Г.Тукай; составители. Г.Хасанова, С.Малышев.- Казань: Татарское Книжное Изд-во, 2006.-191 с.

Избранные произведения /Г.Тукай.- Казань, 2009.- 703 с.

İ n t e r n e t d ə

www.anl.az

Abdullah (Qabdulla) Məhəmmədarif oğluTukay 1886-cı il aprel ayının 26-da Kazan şəhəri yaxınlığındakı Kuşlaviç kəndində anadan olmuşdur. Kiçik yaşlarından valideynlərini itirmiş, 1895-ci ildən Uralsk şəhərində bibisinin yanında yaşamağa başlamışdır. Mədrəsədə oxuyarkən Abdulvəli adlı bir nəfərlə tanış olmuş, bu gənc vasitəsilə Türkiyədəki ədəbi cərəyanlar və fransız ədəbiyyatı ilə yaxından maraqlanmış, bir müddət sonra təhsilini rus məktəbində davam etdirmişdir. İstanbuldan gələn qəzet, jurnal və kitabları əldə etmiş, yenilikçi hərəkatın üzvləri ilə əlaqələr qurmuşdur. Hələ mədrəsədə oxuyarkən mətbəədə işə düzəlmiş, az sonra rus dilində nəşr olunan "Uralets" qəzetində korrektor işləməyə başlamışdır. Eyni zamanda yaradıcılıqla da məşğul olmuş, cəhaləti tənqid edən şeirlərini "Fikir" qəzetində, "Yeni əsr" jurnalında dərc etdirmişdir. Şeirlərində tatar və başqırd əfsanələrindən, nağıllarından poetik şəkildə yararlanmışdır. O, hələ uşaq yaşlarından öz yaddaşı, məntiqi, ağlı, fərasəti, dərin müşahidə qabiliyyəti ilə seçilmiş, nağılları, atalar sözlərini, xalq nəğmələrini, bir sözlə, zəngin tatar folklorunu diqqətlə öyrənmişdir.

1907-ci ildə çar hökumətinin sərt tədbirləri nəticəsində bir çox qəzet və jurnallar bağlanmış, işsiz qalan A.Tukay Kazana köçmüş və ömrünün sonunadək orada yaşamışdır.

Maddi və mənəvi sıxıntılara baxmayaraq şair "Əl-islah" və daha sonra da "Yeşin" (Q.Kamal ilə birlikdə) adlı satirik jurnal dərc etdirmiş, lakin bir il sonra dərgi hökumət tərəfindən bağlanmışdır. 1910-cu ilin martında "Yalt-Yult" ("Şəfəq") adlı jurnalın nəşrinə icazə almış, burada dərc etdirdiyi məqalələrində satirik şeir və həcvlərində din xadimlərini, xurafatı kəskin tənqid etmiş, xalqı qəflət yuxusundan oyanmağa səsləmişdir. Onun ədəbi maraq dairəsi geniş olmuş, klassik Şərq poeziyasını, eləcə də ingilis, alman və fransız ədiblərinin əsərlərini mütaliə etmişdir.

O dövrdə bütün Şərqdə məşhur olan "Molla Nəsrəddin" jurnalının və M.Ə.Sabir satirasının ədibin yaradıcılığına güclü təsiri olmuş, 1911-ci ildə Həştərxanda Nəriman Nərimanovla tanış olmuşdur.

Uşaqlar üçün "Ata ilə bala", "Su anası" kimi bir sıra şeirlər yazmış, tərcümə ilə də məşğul olmuş, rus klassiklərinin əsərlərini tərcümə etmişdir. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir.

Tatar ədəbiyyatında tənqidi realizmin banisi, tatar Xalq şairi Abdulla Tukay gənc yaşlarından vərəm xəstəliyinə tutulmuş, 1913-cü il aprel ayının 15-də vəfat etmişdir.

2011-ci ildə şairin 125 illik yubileyi geniş şəkildə qeyd edilmiş, yubiley münasibətilə Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı-TÜRKSOY 2011-ci ili "Abdulla Tukay ili" elan etmişdir. 2011-ci il aprelin 25-də Kazanda şairin anadan olmasının 125 illiyinə həsr olunmuş "Abdulla Tukay irsi milli mədəniyyətlər kontekstində" adlı beynəlxalq elmi-praktik konfrans keçirilmişdir.

Kazanda, Kırlay və Kışlavıç kəndlərində, Moskvada, Sankt-Peterburqda abidəsi ucaldılmışdır. Kazanda Ədəbiyyat muzeyi, Tatar Dövlət Filarmoniyası onun adını daşıyır. Ankarada Tukay küçəsində monumenti qoyulmuşdur. 1966-cı ildə Tatarıstan MSSR-da Tukay adına mükafat təsis edilmişdir. Bakıda adına küçə var.

85 illiyi

Altay Hacıyev 1931

Rəssam

Altay Əmir oğlu Hacıyev 1931-ci il aprel ayının 2-də anadan olmuşdur. 1951-ci ildə Əzim Əzimzadə adına rəssamlıq məktəbini, 1959-cu ildə isə Kiyev Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir.

1959-cu ildən beynəlxalq və respublika əhəmiyyətli sərgilərin iştirakçısıdır. 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvlüyünə qəbul edilmiş, 1962-1967-ci illərdə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Mətbuat Komitəsinin baş rəssamı vəzifəsində çalışmışdır.

Əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, xarici ölkə muzeylərində və nüfuzlu şəxsi kolleksiyalarda saxlanılır.

Altay Hacıyevin yaradıcılığı bir sıra özünəməxsus cəhətləri ilə diqqət çəkir. Ukraynada ali təhsil alan sənətkar klassik Avropa rəssamlıq ənənələrini dərindən öyrənmiş, eyni zamanda yaradıcılığında Azərbaycan təsviri sənətinin zəngin ənənələrindən faydalanmışdır. Belə ki, əsərlərinin mövzusu, ideya bədii məzmunu, orijinal üslubu, kompozisiya tərtibatı, kolorit həlli ilə yaradıcılığında iki istiqaməti paralel apardığı, bədii sintez etdiyi müşahidə edilir.

Altay Hacıyev yaradıcılığının böyük bir dövrünü kitab qrafikasının inkişafına sərf etmişdir. Neçə-neçə kitaba bədii tərtibat vermiş, bir çox əsərlərə illüstrasiyalar çəkmişdir.

XX əsrin 60-cı illərində Bakıda gedən tikinti-quruculuq, əsaslı təmir-bərpa işləri, Bakının inkişaf etmiş sənaye şəhərləri səviyyəsinə yüksəlməsi "Yeni Bakı" adlı ilk silsiləsini çəkməyə səbəb olmuşdur. "Xəzər", "Dənizin iftixarı" və "Xəzərin sahibi" adlı silsilələr rəssamın yaradıcılığının ilkin dövrünün məhsuludur. "Xalqımızın ulduzları" silsiləsindən olan "Tomris", "Məhsəti Gəncəvi", "Sara Xatun", "Xurşudbanu Natəvan", "Tuti Bikə", "Aşıq Pəri", "Ağa Bəyim Ağa" və b. əsərləri diqqətəlayiq əsərlərdir.

Rəssamın 1987-ci ildə qrafika əsərlərinin, 1991-ci ildə "Natəvan-Şuşa", 2001-ci ildə "Xalqımızın ulduzları" adlı tematik, 2006-cı ildə 75 illik yubiley sərgiləri, 2008-ci ildə "Şərqdən Şərqə" bədii sərgisi təşkil olunmuşdur.

Altay Hacıyev 1968-ci ildə AzSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə mükafatlandırılmış, 1982-ci ildə "Əməkdar rəssam", 2002-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 1995-ci ildə "Humay" mükafatı ilə təltif olunmuşdur. 2003-cü ildən Prezident təqaüdçüsüdür. 2013-cü ildə haqqında film çəkilmişdir.

Ədəbiyyat

Behbudova, İ. Azərbaycanın Xalq rəssamı Altay Hacıyevin 80 illik həyat və yaradıcılığı /İ.Behbudova //Təsviri və dekorativ-tətbiqi sənət məsələləri.- 2012.- № 1 (9).- S.100-106.

Hacızadə, E. Rəng, kompozisiya və plastik dəyərlər: Altay Hacıyev-80 /E.Hacızadə //Mədəni-maarif.- 2011.- №2.- S. 10-11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.uaa.az

105 illiyi

Hüseyn Əliyev 1911-1991

Rəssam

Ə d ə b i y y a t

Hüseyn Əliyev. 1911-1991 [İzomaterial]: [albom] /lay. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. L.Eldarova; ing.dilinə tərc.: İ.Peart, S.İbrahimova, Ə.Məlikova; fotolar Ə.Ağasiyev; baş dizayner İ.Eldarova.- Bakı: [Şərq-Qərb], 2013.-104 s.

Əliyev, Ə. Hüseyn Əliyev [İzomaterial] /Ə.H.Əliyev; [məsləhətçi Z.Salahova].-Bakı: [s. n.], 2011.-503 s.

Əliyev, Ə. Azərbaycanın Xalq rəssamı Hüseyn Əliyev /Ə.H.Əliyev.- Bakı, 2009.- 87 s.

Əliyev Hüseyn Əlirza oğlu //Naxçıvan ensiklopediyası.- Bakı.- 2002.- S. 142-143.

Əliyev, T. Xoşbəxt taleli sənətkar: Hüseyn Əliyev-100 /T.Əliyev // Xalq qəzeti.- 2011.- 22 aprel.- S. 5.

Xalq rəssamı Hüseyn Əliyevin 100 illiyi qeyd olunmuşdur //Azərbaycan.- 2011.- 23 aprel.- S.7.

Monteneqroda Xalq rəssamı Hüseyn Əliyevin fərdi sərgisi açılıb // Mədəniyyət.- 2011.- 15 iyun.- S. 7.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.uaa.az

Hüseyn Əlirza oğlu Əliyev 1911-ci il aprel ayının 22-də Zəngəzur qəzasının Comərdli kəndində anadan olmuşdur. 1918-ci ildə ailəsi ilə birlikdə Naxçıvana köçmüşdür. 1932-ci ildə Bakı Rəssamlıq Texnikumunu, 1935-ci ildə Leninqrad Boyakarlıq, Memarlıq və Heykəltəraşlıq Akademiyasının nəzdində 3 illik xüsusi kursu müvəffəqiyyətlə bitirmişdir. 1922-1931-ci illərdə "Molla Nəsrəddin" jurnalı ilə əməkdaşlıq etmiş, onun bir sıra karikaturaları jurnalın səhifələrində çap olunmuşdur. Hələ gənc yaşlarında dahi mütəfəkkir M.F.Axundzadənin portretinə görə Respublika müsabiqəsində birinci yerə layiq görülmüş və mükafat almışdır.

1935-ci il oktyabr ayının 4-dən təqaüdə çıxanadək "Xalq qəzeti"nin (keçmiş "Kommunist") bədii tərtibat şöbəsində əvvəlcə baş rəssam, sonra bədii tərtibat şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

İkinci Dünya müharibəsi başlayanda rəssam könüllü surətdə orduya yazılmış, Daxili İşlər Nazirliyinin tabeliyindəki 48 saylı təşviqat polkunda rəssam kimi fəaliyyət göstərmişdir. Musiqiçilər bölməsinin üzvləri ilə birlikdə dəfələrlə ön cəbhələrdə olmuş, neçə-neçə igid döyüşçünün portretini çəkmiş, müharibə mövzusunda plakatlar hazırlamışdır. 1944-cü ildə ordudan tərxis olunaraq redaksiyaya qayıtmış, sevimli peşəsi ilə məşğul olmağa başlamışdır.

Yaradıcılığında portret və mənzərələr mühüm yer tutmuş, Comərdli kəndində çəkdiyi "Yəhər Təpə" və "Mahmud bulağı" tabloları, Hüseyn Cavid, Nizami Gəncəvinin portretləri özünəməxsus keyfiyyətləri ilə fərqlənmişdir. Onun "Göygöl mənzərələri" adlı albomunda 17 mənzərəsi verilmişdir.

1944-cü ildə Göyçay çayının üzərindən salınan körpünün inşaatçılarına həsr etdiyi silsilə rəsm əsərləri, Zəngəzur mövzusuna həsr etdiyi akvarel seriyaları maraqla qarşılanmışdır. Görkəmli sənətkarın "Zəngəzur dağları", "Urud qalası", "Meşədə qış", Payız", "Qürub çağı", "İlanlı dağ" və s kimi əsərləri dərin müşahidə və incə zövqün, fitri istedadın məhsulu idi.

Rəssam yaradıcılığında mənzərələr, tablolar, portretlər, natürmortlarla bərabər, uzun müddət nəqqaşlıqla məşğul olmuş, alleqorik əsərlərə müxtəlif məzmunlu karikaturalar, təsvirlər çəkmiş, kitablara illüstrasiyalar işləmişdir.

Birləşmiş Ərəb Əmirliyində sərgisi təşkil edilmiş, sonralar həmin sərgi Rəssamlar İttifaqının "Qız qalası" qalereyasında nümayiş olunmuşdur.

Görkəmli rəssam "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə arxa cəbhədəki şərəfli əməyinə görə", "Böyük Vətən müharibəsinin 30 illiyi" medalları və "Xalqlar dostluğu" ordeni ilə təltif olunmuş, üç dəfə Azərbaycan, bir dəfə Ukrayna Ali Sovetinin fəxri fərmanlarına layiq görülmüşdür. 1940-cı ildən Rəssamlar İttifaqının üzvü olan Hüseyn Əliyev 1976-cı ildə "Əməkdar rəssam", 1982-ci ildə "Xalq rəssamı" fəxri adına layiq görülmüşdür.

Hüseyn Əlirza oğlu Əliyev 25 may 1991-ci il tarixində vəfat etmişdir.

75 illiyi Oqtay Rəcəbov 1941

Bəstəkar

Oqtay Məmmədağa oğlu Rəcəbov 1941-ci il aprel ayının 5-də anadan olmuşdur.

1963-cü ildə Azərbaycan Dövlət Pedaqoji İnstitutunun fizika fakültəsini bitirmiş, həmin ildə Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olmuşdur. Görkəmli bəstəkar, professor Cövdət Hacıyevin sinfində təhsil alması ona qısa zaman da böyük şöhrət gətirmişdir.

Yaradıcılığa başladığı ilk vaxtlardan irihəcmli vokal və instrumental əsərlər qələmə almışdır. 3 uşaq operasının, 2 operettanın, 6 simfoniyanın, müxtəlif janrlı vokal-instrumental əsərlərin, 17 filmin musiqi müəllifidir. "Anam Azərbaycanım", "Nəğmələr", "Necə unudum səni?", "Zəfəran", "Daha nə istəyirsən?" və digər qəlb oxşayan mahnıları bəstəkarın fitri istedadının parlaq nümunəsidir. Oqtay Rəcəbovun müxtəlif mövzularda qələmə aldığı 400-dən çox əsəri (bunların 250-si uşaqlar üçündür) Azərbaycan bəstəkarlarının mahnı antologiyasını zənginləşdirməkdə mühüm rol oynamışdır.

Yaradıcılığının mühüm istiqamətlərindən biri də onun pedaqoji fəaliyyəti ilə bağlıdır. Eksperimental musiqi proqramları müəllifi kimi tanınan bəstəkar-pedaqoq bu istiqamətdə işlərini bu gün də davam etdirir. Onun bilavasitə rəhbərliyi ilə 1996-2010-cu illərdə ümumtəhsil və musiqi məktəbləri üçün nəşr olunan 16 adda "Musiqi", "Musiqi ədəbiyyatı" dərsliyi, "Fortepianoda çalmaq üçün müntəxabat", "Elementar musiqi nəzəriyyəsi" tədris vəsaitləri 1,5 milyon tirajla çap olunmuşdur.

1985-ci ildə pedaqoji elmlər namizədi, 1992-ci ildə pedaqoji elmlər doktoru, 1995-ci ildə professor elmi rütbəsini almışdır.

Professorun təşəbbüsü ilə yaradılan və 1978-ci ildən 1992-ci ilədək Azərbaycan televiziyası ilə yayımlanan "Məktəblilərin musiqi klubu" verilişinin hər məşğələsi yadda qalmış, estetik tərbiyə üzrə bir sıra nəzəri-təcrübi məsələlərin həllinə təsir göstərmişdir.

Azərbaycan xalq nağılı əsasında 1992-ci ildə "Göyçək Fatma" cizgi film-opera, 1994-cü ildə Nizami Gəncəvinin "Xeyir və Şər", 2012-ci ildə "Sərçəcik" uşaq operalarını yazmışdır.

2001-ci ildə "Əlin cibində olsun", "Şeytanın yubileyi" musiqili tamaşaları səhnəyə qoyulmuşdur.

Böyüməkdə olan nəslin musiqi-estetik tərbiyəsinin inkişafı naminə yorulmadan çalışan Oqtay Rəcəbov "Qabaqcıl maarif xadimi", "Maarif əlaçısı" döş nişanlarına, 1982-ci ildə Azərbaycan Lenin komsomolu mükafatına, 1987-ci ildə isə "Əməkdar müəllim" fəxri adına layiq görülmüşdür. 2006-cı ildə Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalı ilə təltif edilmişdir. Daim yaradıcılıq axtarışında olan mahir bəstəkar, musiqi pedaqoqu O.Rəcəbov Rusiya Pedaqoji və Sosial Elmlər Akademiyasının həqiqi üzvü kimi də səmərəli fəaliyyət göstərir.

Ədəbiyyat

Azərbaycan xalq mahnıları [Notlar] /O.Rəcəbov.-Bakı: Çıraq, 2006.-C.2.-41, [2] s.

Pedaqoji təmayüllü orta ixtisas və ali məktəblərdə musiqi tədrisinin metodikası /O.Rəcəbov, G.Məmmədova.- Bakı: Şirvannəşr, 2009.- 202 s.

Ulu öndər [Notlar]: solist, xor və fortepiano ilə oxumaq üçün /O.Rəcəbov.-Bakı: Şirvannəşr, 2008.-62 s.

Ümumtəhsil məktəblərində musiqi tədrisi və tərbiyəsi metodikası /O.Rəcəbov, S.Zamanlı, R.Quliyeva.- Bakı: Mütərcim, 2010.- 132 s.

İmanov, R. Oqtay Rəcəbov /R.İmanov.- Bakı: Şərq-Qərb, 2014.- 32 s.

Oqtay Rəcəbovun yeni operası təqdim edildi //525-ci qəzet .-2015.- 15 may.- S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.youtube.com

www.mugamradio.az

100 illiyi

Qəmbər Hüseynli 1916-1961

Bəstəkar

Qəmbər Muxtar oğlu Hüseynli 1916-cı il aprel ayının 16-da Gəncə şəhərində anadan olmuşdur. Hələ gənc yaşlarından xalq musiqisinə sonsuz məhəbbəti, klassik muğamlarımızın əsaslarını dərindən öyrənməsi sonralar onun bəstəkarlıq fəaliyyətində mühüm rol oynamışdır. Gəncə Musiqi Texnikumunu tar sinfi üzrə fərqlənmə diplomu ilə bitirən Qəmbər təhsilini davam etdirmək məqsədilə 1935-ci ildə Bakıya gəlmiş, Bakı Musiqi Texnikumunda tanınmış musiqi pedaqoqu A.S.Şvartsın violonçel sinfində iki il müddətində təhsil almışdır. Lakin musiqi bəstələməyə olan hədsiz marağına görə orta ixtisas məktəbinin bəstəkarlıq şöbəsinə keçmişdir. Bu illərdə görkəmli dramaturq Cəfər Cabbarlının sözlərinə "Tellər oynadı" romans-mahnısını bəstələmişdir. 1939-cu ildə Qəmbər Hüseynli milli musiqimizin beşiyi olan Şuşanın Musiqi Texnikumuna direktor vəzifəsinə göndərilmişdir. Burada cəmi bir il çalışmış, sonra yenidən Bakıya qayıtmış, filarmoniyanın nəzdində fəaliyyət göstərən Azərbaycan Xalq Çalğı Alətləri Orkestrində dirijor köməkçisi vəzifəsində çalışmaqla yanaşı, Üzeyir bəyin tövsiyəsi ilə həmin illərdə yaranan Sazçı Qızlar Ansamblının həm təşkilatçısı, həm də bədii rəhbəri kimi fəaliyyətə başlamışdır. Aşıq Teymur Hüseynovun ifasında 55 ənənəvi aşıq havasını nota köçürmüş, onları Sazçı Qızlar Ansamblı üçün işləmişdir. Gənc bəstəkar 1951-ci ildə yenidən A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi məktəbinin bəstəkarlıq şöbəsinə daxil olaraq professor B.İ.Zeydmanın sinfində təhsilini davam etdirmiş, 1954-cü ildə həmin məktəbi müvəffəqiyyətlə bitirmişdir.

Q.Hüseynli Gəncə Dövlət Dram Teatrında tamaşaya qoyulmuş 6 pyesə, o cümlədən "Şeyx Sənan", "Qatır Məmməd", "Almaz", "Bəxtsiz cavan", "Solğun çiçəklər", "Namus" dramlarına musiqi yazmışdır. Üç yüzə qədər mahnı və romansın müəllifidir.

Bir sıra uşaq nəğmələrinin müəllifi kimi şöhrət qazanmış, xüsusilə 100-ə yaxın dildə oxunan "Cücələrim" mahnısı bəstəkara böyük şöhrət gətirmişdir. Onun "İlk məhəbbət", "Ay işığında", "Tel nazik", "Tellər oynadı", "Çeşmə başında", "Düşər yadıma", "Gecələr uzanaydı", "Dolanım başına" və digər mahnıları xalq tərəfindən sevə-sevə dinlənilir.

Bəstəkar 1961-ci ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni ilə təltif edilmişdir.

Qəmbər Hüseynli 1961-ci il avqust ayının 1-də, 45 yaşında vəfat etmişdir.

Ədəbiyyat

Hüseynli, B. Bəstəkar Qəmbər Hüseynli /B.Hüseynli, V.Xəlilov.- Bakı: Gənclik, 1997.- 99 s.

Qurbanəliyeva, S. Qəmbər Hüseynli yaradıcılığı milli ənənələr kontekstində /S.Qurbanəliyeva, L.Rəfibəyli, N.Seyfullayeva.- Bakı: Adiloğlu, 2006.- 203 s.

Dünyamızda gözəl səsi qalan bəstəkar: unudulmaz mahnılar müəllifi... //Azadlıq.- 2012.- 17 avqust.- S. 14.

Hüseynli Qəmbər //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S.284.

Zöhrabov, R. Nəğmələrdə yaşayan ömür /R.Zöhrabov //Bəstəkarlarımız haqqında söz.- Bakı, 1995.- Kitab 1.- S.44-47.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.youtube.com

www.mugamradio.az

65 illiyi

Ədalət Vəzirov 1951-2002

Kamança ifaçısı

Ədalət Səfərəli oğlu Vəzirov 1951-ci il aprel ayının 27-də Bakı şəhərində anadan olmuşdur.

1963-cü ildə Bülbül adına Orta İxtisas Musiqi Məktəbinə Elman Bədəlovun sinfinə qəbul olunmuş və 1969-cu ildə oranı müvəffəqiyyətlə bitirmişdir. Sonra Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, 1974-cü ildə oranı bitirmişdir.

Bakı Musiqi Akademiyasının dosenti kimi ixtisası sahəsində elmi metodiki işlə də geniş məşğul olmuşdur. Kamança sənətinin tədrisi ilə bağlı dəyərli elmi əhəmiyyətli müxtəlif metodiki tövsiyələrin, rəylərin, işləmələrin, köçürmələrin müəllifidir. Bunlardan Zakir Bağırovun, Hacı Xanməmmədovun kamança ilə simfonik orkestr ücün konsertlərin ifasına dair metodiki tövsiyələri, bakalavr dərəcəsi alanlar üçün ixtisas və muğam proqramını və başqalarını nümunə göstərmək olar. Bundan əlavə uşaq musiqi məktəblərində, musiqi texnikumlarında açıq-nümunəvi dərslərin keçirilməsi, sinif konsertlərinin, solo çıxışların təşkili kimi əyani metodiki işlər də Ədalət müəllimin pedaqoji fəaliyyətinin əsas qayəsini təşkil etmişdir.

1974-cü ildə Moskvada keçirilən V Beynəlxalq Musiqi müsabiqəsinin qalibi olmuş, 1980-ci ildən Azərbaycan Dövlət Konservatoriyasında və Sumqayıt Musiqi Texnikumunda (2000-2002-ci illərdə direktor) müəllim işləmiş, bir çox adlı-sanlı tələbələr yetişdirmişdir.

Uzun müddət Əməkdar artist Baba Salahovun rəhbərlik etdiyi xalq çalğı alətləri ansamblında, SSRİ Xalq artisti Zeynəb Xanlarovanın rəhbərlik etdiyi ansamblda çalışmışdır. Bir çox xarici ölkələrdə - ABŞ, Kanada, İraq, Misir, Türkiyədə ifaçılıq sənətimizi yüksək səviyyədə nümayiş etdirmişdir. Ədalət Vəzirov kamança ifaçılığından əlavə peşəkar fortepiano və qarmon ifaçısı idi.

1997-ci ildə Özbəkistanın Səmərqənd şəhərində keçirilən muğam simpoziumunda yüksək mükafata layiq görülmüş, QRAN PRİ mukafatını Azərbaycana gətirmişdir. Elə həmin il "Əməkdar artist" fəxri adina layiq görülmüşdür.

Ədalət Vəzirov 2002-ci il oktyabr ayının 5-də, ömrunun 51-ci ilində Turkiyənin İstanbul şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Azəri, L. On ildir, kamanın gözü yoldadır... /L.Azəri //Mədəniyyət.- 2012.- 5 oktyabr.- S. 15.

Dağlı, E. Tanınmış kaman ustası /E.Dağlı //Respublika.- 2013.- 19 may.- S.8.

Vəzirov Ədalət Səfərəli oğlu //Muğam Ensiklopediyası.- Bakı: Musiqi dünyası, 2008.- S.200-201.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.youtube.com

www.mugamradio.az

100 illiyi Ədilə Hüseynzadə 1916-2005

Bəstəkar

Ədilə Hacıağa qızı Hüseynzadə 1916-cı il aprel ayının 29-da Bakıda anadan olmuşdur. Uşaqlıqdan musiqi ilə məşğul olmağa başlamış, yeddiillik musiqi məktəbini bitirmişdir. Dəqiq elmlərə hədsiz marağı nəticəsində öncə N.Nərimanov adına Sənaye Texnikumuna, sonra isə Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuşdur. Hər iki təhsil ocağını əla qiymətlərlə başa vuran Ədilə yüksək səviyyəli mühəndis-texnoloq peşəsinə yiyələnmişdir. XX əsrin 40-cı illərində Üzeyir Hacıbəylinin təşəbbüsü ilə musiqi aləminə gəlmiş, 1942-1948-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasının (indiki Bakı Musiqi Akademiyası) xalq musiqisi şöbəsində Üzeyir bəydən dərs almışdır. 1953-cü ildə oranı bəstəkarlıq ixtisası üzrə bitirmiş ilk azərbaycanlı qadındır.

Bir çox janrlarda uğurla çalışaraq simfonik poema, simli kvartet, kantata, xor miniatürləri yaratmış, lakin bəstəkarın yaradıcılığında romans janrı üstünlük təşkil etmişdir. Milli musiqimizdə romans janrının təşəkküləndə onun özünəməxsus yeri vardır. Nizaminin sözlərinə yazılmış "Vəslin həvəsi" romansı, habelə Nəsimi, Füzuli, Natəvan, S.Vurğun, N.Xəzri, B.Vahabzadə, R.Rza, N.Rəfibəylinin şeirlərinə bəstələnmiş romansları və böyük nailiyyəti olan "Duyğular" vokal silsiləsi musiqimizin inciləri hesab edilir. Onun yaradıcılığının əsasını vokal əsərlərinin üstün olduğu kamera musiqisi təşkil etsə də, bir sıra irihəcmli əsərlər də yaratmışdır.

Pedaqoji fəaliyyətlə də məşğul olmuş, uzun illər (1953-1986) Bülbül adına Orta İxtisas Musiqi Məktəbində kompozisiyanın əsaslarını tədris etmiş, gənc istedadların aşkarlanması işində əlindən gələni əsirgəməmişdir. 1944-cü ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuşdur.

Ədilə Hüseynzadə gözəl səsə malik bir vokal ustası kimi də sənət tariximizdə iz qoymuşdur. 1945-ci ildə Ü.Hacıbəylinin ümumdünya şöhrətli "Arşin mal alan" operettası əsasında çəkilmiş bədii filmdə Asya rolunun vokal partiyasını səsləndirmişdir.

Onun Səməd Vurğunun sözlərinə bəstələdiyi xor və simfonik orkestr üçün "Gözəl vətən", Tofiq Mütəllibovun şeirinə yazdığı "Sülhün səsi" kantataları, pambıq ustası Bəsti Bağırovaya həsr etdiyi simfonik poeması və onlarla əsəri çox yüksək qiymətləndirilmişdir.

1982-ci ildə "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ədilə Hüseynzadə 2005-ci il iyul ayının 20-də vəfat etmişdir.

Ədəbiyyat

Duyğular: fortepiano ilə oxumaq üçün romanslar /Ə.Hüseynzadə; tərc. R.Şifrin.-Bakı: İşıq, 1980.- 41 s.

Hüseynzadə Ədilə Hacağa qızı //Üzeyir Hacıbəyli Ensiklopediyası.- Bakı, 2008.- S.114.

Fərəcov, S. Dahi bəstəkarın sevimli tələbəsi /S.Fərəcov //Mədəniyyət.- 2014.- 30 aprel.- S. 15.

O, "Arşın mal alan"da Asyanın partiyasını oxumuşdu...: Azərbaycanda bəstəkarlıq təhsili almış ilk qadın //Azadlıq.- 2013.- 7 mart.- S. 14.

Николаева, Р.Р. Адиля Гусейнзаде /Р.Р.Николаева.- Баку: Ишыг, 1985.- 47 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.youtube.com

www.mugamradio.az

70 illiyi

Ceyhun Mirzəyev 1946-1993

Aktyor

Ceyhun Cəmil oğlu Mirzəyev 1946-cı il aprel ayının 9-da Ağdamın Abdal-Gülablı kəndində anadan olmuşdur. M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakültəsini bitirmiş, sonra Moskvada təhsil almışdır. Tələbə ikən rejissor H.Seyidzadənin "Yenilməz batalyon" filmində Teymur və "Dəli Kür" filmində Osman, rejissor H.Seyidbəylinin "Cazibə qüvvəsi" novellasında Səməndər, rejissor M.Dadaşovun "Qanun naminə" filmində Absalam və digər obrazları yaratmışdır.

Onun 47 illik ömrünün 35 ili kino ilə bağlı olmuşdur. "Görüş" (1955) filmində Şıxəlinin oğlu obrazını yaradarkən cəmi doqquz yaşı var idi. On iki yaşı olanda isə "Ögey ana" (1958) filminə dəvət almış, İsmayıl obrazını peşəkar aktyor səviyyəsində yaratmışdır.

Kinostudiyada müxtəlif peşələrdə çalışmış 1971-ci ildən filmlərə çəkilməklə bərabər "Mozalan" kinojurnalında əvvəlcə rejissor assistenti olmuş, sonradan rejissor işləmiş, 100-ə yaxın oyun və "Keyfiyyət nişanı", "Dəyirman bildiyini eyləyir", "Qliserin qıtlığı", "Daş hələ də dözür", "Kəsə cavab", "Qunduzdan söhbət açaq", "İsrafçılar", "Bəxtəvər" və s. adlı sənədli süjetlər yaratmışdır.

Bütün rolları orijinallığı, səmimiyyəti, temperamenti, özünəməxsus xarakteri ilə fərqlənir. Bir aktyor kimi müxtəlif filmlərdə ərköyün, balaca İsmayıldan başlamış, öz əsgəri borcunu vicdanla yerinə yetirən zabit İsmayıl, satqınlıq üstündə atası tərəfindən cəzalandırılan Fortunato, vətənpərvər Manolo, inqilabçılara kömək etmək istəyən Teymur, xalqın maariflənməsinə xidmət edən Osman, Böyük Vətən müharibəsi başlayanda ön cəbhəyə yollanan əsgər, hər cür fırıldaq yolu ilə pul qazanan İbadulla, qaçaqlar tərəfindən malı əlindən alınmış tacir obrazlarını məharətlə oynamışdır.

"Bəyin oğurlanması" bədii filmi onun böyük ekranda ilk işidir. C. Mirzəyev bu filmə Vaqif Mustafayevlə birgə 1985-ci ildə quruluş vermişdir. Janrına görə əyləncəli kinokomediya olan filmdə hər şeydən əvvəl insan səadəti, bu səadət uğrunda aparılan mübarizədən söhbət açılmışdır.

Ceyhun Mirzəyevin son filmi ssenari müəllifi Vaqif Mustafayev olan "Fəryad" olmuşdur. 1993-cü ildə çəkilən "Fəryad" bədii filminə görə baş rolun ifaçısı Ceyhun Mirzəyev ölümündən sonra "Bakılı" cəmiyyətinin "Humay" mükafatına, Azərbaycan filmlərinin III festival-müsabiqəsində ekranda qəhrəmanlıq mövzusunun həllində fədakarlığa və yaradıcılıq axtarışlarına görə, ölümündən sonra, diplom və prizə layiq görülmüşdür. Təssüf ki, özü bu filmini görə bilməmişdi.

Studiyada çəkiliş vaxtı özünü pis his edən Ceyhun Mirzəyev 1993-cü il mart ayının 5-də vəfat etmişdir.

Ədəbiyyat

Ceyhun Mirzəyev əfsanəsi //Ədalət.- 2012.- 5 may.- S. 24.

Dadaşov, A. Ceyhun Mirzəyevin son "Fəryad"ı /A.Dadaşov //Mədəni həyat.-2014.- № 4.- S. 80-81.

Həsənova, R. Ceyhun Mirzəyev insanları heyrətə gətirəcək gözəl rollar oynayıb /R.Həsənova //Üç nöqtə.- 2014.- 9 aprel.- S. 13.

"Ögey ana"nın "fəryad" edən oğlu: Ceyhun Mirzəyev //Ekran-efir.- 2015.- 16 yanvar.- S.9.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

70 illiyi

Ramiz Həsənoğlu 1946

Rejissor

Ramiz Həsənağa oğlu Mirzəyev (Ramiz Həsənoğlu) 1946-cı il aprel ayının 13-də İrəvan şəhərində anadan olmuşdur. 1948-ci ildə ermənilərin yenidən azğınlaşması və bölgədə sabitliyin pozulması ilə əlaqədar 2 yaşlı Ramiz valideynləri ilə birlikdə Gəncə şəhərinə köçmüş, 1956-cı ildə isə Bakıya gəlmişdir. 1965-ci ildə orta məktəbi bitirib Azərbaycan Dövlət Teatr İnstitutunun mədəni-maarif fakültəsinin qiyabi şöbəsinə qəbul olunmuşdur. 1966-cı ildən Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində rejissor köməkçisi işləməyə başlamış, Ağaəli Dadaşov, Rauf Kazımovski, Arif Babayev kimi görkəmli sənətkarlardan bu sənətin sirlərini öyrənmişdir.

Yazıçı Anarın pyesləri əsasında "Mən, sən, o və telefon", "Dindirir əsr bizi", "Ötən ilin son gecəsi" teletamaşalarını ekranlaşdırmış, bu dövrdə sənət uğurları ilə yanaşı, təhsilini də davam etdirmişdir. 1973-cü ildə müsabiqə yolu ilə qəbul olunduğu Sankt-Peterburq Dövlət Teatr Musiqi və Kinematoqrafiya Akademiyasını 1978-ci ildə uğurla başa vurmuşdur.

Hamlet Xanızadənin, Həsən Əblucun, Yaşar Nurinin rol aldıqları "Qatarda" televiziya tamaşasından sonra populyarlıq qazanmışdır. Onun quruluş verdiyi teletamaşalar sırasında ən uğurlu alınanlardan biri də Hüseyn Cavidin eyniadlı əsəri əsasında ekranlaşdırdığı "Topal Teymur"dur. "Günahsız Abdulla" və ilk Azərbaycan telemüzikli "Ordan-burdan" ona daha geniş şöhrət gətirmişdir. Məşhur, bənzərsiz "Ac həriflər" televiziya tamaşası Ramiz Həsənoğlunun yaradıcılığında mühüm yer tutmuş, tamaşa "Humay" mükafatına layiq görülmüşdür.

R.Həsənoğlu Musiqili Komediya Teatrında "Məzəli əhvalat" və Milli Akademik Dram Teatrında "Brüsseldən məktublar" tamaşalarına quruluş vermiş, 200-dən artıq televiziya verilişi hazırlamışdır.

Rüstəm İbrahimbəyovun ssenarisi əsasında çəkdiyi "Ailə" bədii filmi 2000-ci ildə Moskvada keçirilən Avrasiya festivalının baş mükafatına layiq görülmüşdür. 2007-ci ildə Anarın ssenarisi əsasında "Cavid ömrü", 2012-ci ildə isə Mirzə Fətəli Axundzadənin 200 illik yubileyi ilə əlaqədar "Sübhün səfiri" bədii, tammetrajlı filmini çəkmişdir. 1993-cü ildən bu günə kimi Azərbaycan televiziyasında "Sabah" eksperimental yaradıcılıq emalatxanasına rəhbərlik edir. Azərbaycan Kinematoqrafçılar Birliyi İdarə Heyətinin və Azərbaycan Kinorejissorlar Gildiyası Bürosunun üzvüdür.

Azərbaycan televiziyası və radiosunun inkişafındakı xidmətlərinə görə Mirzəyev Ramiz Həsənağa oğlu 1989-cu ildə "Əməkdar incəsənət xadimi", 4 noyabr 2006-cı il tarixində isə Azərbaycan Respublikasının "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Ədəbiyyat

Bu sənət yolunda son bir döyüş var /R.Həsənoğlu //Ədəbiyyat qəzeti.- 2014.- 17 oktyabr.- S.8-9.

Talıbzadə, A. Ustad və Ayna: ruhun, çinarın, telefonun ekran estetikası: bədii-publisistik salnamə /A.Talıbzadə.- Bakı: Çinar-Çap, 2004.- 289 s.

Əzizbəyli, R. Yubiley ərəfəsində /R.Əzizbəyli //525-ci qəzet.- 2012.- 16 fevral.- S. 6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

www.uzeyirbook.musigi-dunya.az

100 illiyi

Nəsibə Zeynalova 1916-2004

Aktrisa

Nəsibə Cahangir qızı Zeynalova 1916-cı il aprel ayının 20-də Azərbaycan milli realist aktyor məktəbinin banisi Cahangir Zeynalovun ailəsində Bakıda anadan olmuşdur.

Bakıda orta məktəbi bitirdikdən sonra Bakı Teatr Texnikumuna daxil olmuş, burada M.Haşımov, A.Gəraybəyli və A.Tuqanovdan dərs almışdır.

1932-ci ildə Rza Təhmasibin dram dərnəyinə üzv olmuş, 1934-cü ildə mövsümi (aprel ayından oktyabr ayına kimi) fəaliyyət göstərən səyyar Kolxoz və Sovxoz Teatrında aktrisa işləməyə başlamışdır. 1941-ci ildə Azərbaycan Musiqili Komediya Teatrına işə qəbul olunmuşdur. Müharibə dövründə cəbhədə və hospitallarda əsgərlər qarşısında tamaşalarla çıxış etmişdir. S.Rüstəmovun "Beş manatlıq gəlin" tamaşasında Gülnaz, A.Məşədibəyovun "Toy kimindir?" tamaşasında Məsmə, F.Əmirovun "Gözün aydın" tamaşasında Nargilə, S.Ələsgərovun "Ulduz" tamaşasında Züleyxa, V.Dolidzenin "Keto və Kote" tamaşasında Kabato obrazları aktrisanı tamaşaçılara sevdirmişdir.

XX əsrin 50-ci illərində aktrisanın ifaçılıq qabiliyyəti daha da püxtələşmiş, onun bu dövrdə yaratdığı səhnə obrazları Azərbaycan komediya teatrı tarixinə iri hərflərlə yazılmışdır. T.Quliyevin "Qızılaxtaranlar" tamaşasında Rəxşəndə, S.Rüstəmovun "Rəisin arvadı" tamaşasında Afərin, Ş.Miloravanın "Tbilisi nəğməsi" tamaşasında Gesiya, A.Rzayevin "Hacı Kərimin Aya səyahəti" tamaşasında Kəblə Fatma, S.Ələsgərovun "Həmşəxanım" tamaşasında Həmşəxanım, "Sevindik qız axtarır" tamaşasında Xeyransa kimi birbirindən maraqlı obrazlar yaratmışdır.

Rəqs, mahnı (yaxud reçitativ) və hərəkətlərdən eyni epizodda, hətta eyni məqamda yüksək peşəkarlıqla istifadə etmiş, xalq yumorunun, "Qaravəlli" oyun tamaşalarının, lətifə söyləmələrinin estetik oyun-göstərmə prinsiplərindən həssaslıqla bəhrələnmiş, tipik xarakter yaratmağa üstünlük vermiş və bu istiqamətdə obrazın məzmun-forma vəhdətini vacib şərt kimi dəyərləndirmişdir.

Aktrisa "Ögey ana" (1959), "Böyük dayaq" (1963), "Ulduz" (1964), "Qanun naminə" (1969), "Bizim Cəbiş müəllim" (1970) filmlərində müxtəlif səpkili, yaddaqalan obrazlar yaratmışdır. Kinoda yaratdığı ən məşhur obrazı 1979-cu ildə "Qaynana" filmində oynadığı Cənnət xala - qaynana obrazıdır.

Teatr və kino sənətinin inkişafındakı xidmətlərinə görə 24 may 1960-cı il tarixində "Azərbaycan Respublikasının Əməkdar artisti", 1967-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. "Hicran" tamaşasındakı Qızbacı roluna görə Azərbaycan Dövlət mükafatı laureatı olmuşdur.

1974-cü ildə haqqında "Aktrisanın təbəssümü" televiziya filmi çəkilmişdir. 1961-1987-ci illərdə Xalq deputatı seçilmişdir.

1997-ci ildə "Şöhrət" ordeni və bir sıra medallarla təltif edilmişdir. 2000-ci ildə Moskvada onun adına Gənclər Teatrı açılmışdır.

Nəsibə xanım Zeynalova 2004-cü il mart ayının 10-da Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

2005-ci ildə "Qrand" Müstəqil Milli İctimai mükafata layiq görülmüşdür. Adını daşıyan tanker mövcuddur.

Ədəbiyyat

İsmayılova, A. Nəsibə Zeynalova /A.İsmayılova.- Bakı, 1966.- 79 s.

Rəhmanzadə, F. Nəsibə Zeynalova /F.Rəhmanzadə.- Bakı: İşıq, 1978.- 34.

Əhmədov, S. Nəsibə Zeynalova /S.Əhmədov //Azərbaycan tarixindən yüz şəxsiyyət.- Bakı, 2006.- S.256-257.

Rəhimli, İ. Nəsibə Zeynalova /İ.Rəhimli //Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.669-673.

Süleymanova, A. Milli komediyamızın klassiki: Nəsibə Zeynalova //Kaspi.- 2014.- 18 aprel.- S. 11.

Zümrüd. Sənət məktəbini yaradan aktrisa /Zümrüd // Səs.- 2012.- 10 mart.- S. 12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

75 illiyi

Yusif Muxtarov 1941-2010

Aktyor

Yusif Mehdi oğlu Muxtarov 1941-ci il aprel ayının 23-də (bəzi mənbələrdə 22 iyul) Sabirabad rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetini və Plexanov adına Moskva Dövlət Xalq Təsərrüfatı Akademiyasını bitirmişdir.

Əmək fəaliyyətinə 1964-cü ildən Azərbaycan Dövlət Radio və Televiziya Verilişləri şirkətində diktor kimi başlamışdır. 1994-cü ilə kimi orada diktor, ictimai-siyasi verilişlər redaksiyasının baş redaktoru vəzifəsində çalışmışdır. 1992-ci ildən 2010-cu ilə kimi Bakı Bələdiyyə Teatrının icraçı direktoru olmuşdur. Yusif Muxtarovun Bakı Bələdiyyə Teatrının yaranmasında, inkişafında və teatrın xarici ölkələrdə layiqincə təmsil olunmasında əvəzsiz xidmətləri olmuşdur.

Bir çox filmlərdə, televiziya tamaşalarında yaddaqalan rollar yaratmışdır. Onlardan N.Hikmətin "Qəribə adam", M.Y.Lermontovun "İki qardaş", S.Vurğunun "Vaqif", S.Rəhmanın "Xoşbəxtlər", N.Hikmətin "Bayramın ilk günü", Baycıyevin "Duel", Ç.Aytmatovun "Qırmızı yaylıqlı qovağım mənim", İ.Əfəndiyevin "On iki manatlıq lüstr", "Söyüdlü arx" kimi televiziya tamaşalarında və Azərbaycan kinostudiyasında çəkilən "Baladadaşın məhəbbəti", "Qatarda qətl" filmlərində yaddaqalan obrazları qeyd etmək olar. Azərbaycan radiosunun qızıl fondunda Yusif Muxtarovun səsi olan 350-dən artıq bədii veriliş saxlanmaqdadır. Azərbaycan dilində onun səsi ilə mindən artıq film səsləndirilərək, YUNESKO-nun iki qızıl diskində qorunur. Klassik poeziyamızın təbliğatçısı kimi səsində lentə alınmış Nizaminin, Füzulinin, Nəsiminin şeirləri, radionun aparıcı diktorları ilə birgə yazılmış digər verilişlər uzun müddət diləyicilərin yaddaşlarına həkk edilmişdir.

1991-ci ildə "Əməkdar artist" fəxri adına layiq görülmüş, 1999-cu ildə Türkiyənin İstanbul Hərbi Hava Akademiyasının qızıl medalı, 2003-cü ildə isə Tehranda keçirilən Beynəlxalq Teatr festivalının qızıl medalı ilə təltif edilmişdir. 2002-ci il noyabr ayının 7-də Bakı Bələdiyyə Teatrının 10 illiyi ilə əlaqədar Prezident Heydər Əliyevin Fərmanı ilə Yusif Muxtarova "Xalq artisti" fəxri adı verilmişdir. Bakı Bələdiyyə Teatrının Azərbaycan ordusunun hərbiçiləri qarşısında müntəzəm və davamlı çıxışlarının təşkilinə görə 2005-ci ildə Teatr Xadimləri İttifaqının təsis etdiyi "Qızıl Dərviş" mükafatına layiq görülmüşdür.

Yusif Mehdi oğlu Muxtarov 2010-cu il aprel ayının 26-da vəfat etmişdir.

Ədəbiyyat

Kərimov, İ. Onun işıqlı xatirəsi yaddaşlarda yaşayır: Yusif Muxtarov-70 /İ.Kərimov //Mədəniyyət.- 2011.- 22 iyul.- S. 12.

Qocayeva, Ə. Unudulmaz sənətkar /Ə.Qocayeva //Respublika.- 2011.- 27 aprel.- S. 7.

Oktay. "Nə xoşbəxt imişəm"!.. /Oktay //Xalq cəbhəsi.- 2012.- 15 mart.- S. 13.

Səməndər, R. Yusif Muxtarov-70 /R.Səməndər //Ayna.- 2011.- 23 iyul.- S. 20.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

Milli Qəhrəmanlar

70 illiyi

Yelmar Edilov
1946-1994

Milli Qəhrəman

Yelmar Şahmar oğlu Edilov 1946-cı il aprel ayının 10-da Ağdam rayonunda anadan olmuşdur. 1954-1964-cü illərdə Əlimədədli kənd orta məktəbində təhsil almış, sonra isə Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuşdur. 1964-cü ildə Minsk şəhərində hərbi xidmət keçmiş, hərbi xidmətdən ikinci qrup əlil kimi tərxis olunaraq texnikumda yarımçıq qalmış təhsilini davam etdirmişdir. 1988-ci ildə Qərbi Azərbaycan ərazisindən soydaşlarımızın deportasiya edilməsi zamanı Yelmar könüllü özünümüdafiə batalyonlarının yaradılmasını təkid etmiş və bu işə yalnız 1990-cı ildən sonra başlanmışdır.

1991-ci ilin əvvəllərindən başlayaraq Ağdamın bir çox kəndləri erməni işğalçıları tərəfindən gecə-gündüz atəşə tutulmuş, Yelmar Edilovun rəhbərliyi ilə Kolanı kəndində yaradılmış özünümüdafiə batalyonu Ağdamda dəfələrlə ermənilərə lazımi cavab vermişdilər. Qazançı, Sırxavənd, Manikli kəndləri uğrunda gedən döyüşlərdə rəşadətlə vuruşmuş, 1993-cü ilin iyununda Şahbulaq yüksəkliyi uğrunda döyüşə rəhbərlik etmiş, yüksəkliyi ələ keçirmiş, lakin əlavə kömək gəlmədiyinə görə geri çəkilməli olmuşdur. 1994-cü ilin aprelində "Çərik" istiqamətində düşmən hücumunun qarşısı alınmış, düşmənin iki tankı və onlarla canlı qüvvəsi məhv edilmişdir. Həmin döyüşdə komandir Yelmar Edilov həlak olmuş, lakin düşmənin irəliləməsinə imkan verməmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə Edilov Yelmar Şahmar oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Bakı şəhərindəki II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Edilov Yelmar Şahmar oğlu - sıravi - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Abbasoğlu, B. Yelmar Şahmar oğlu Edilov haqqında /B.Abbasoğlu //Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S.109-126.

Edilov Yelmar Şahmar oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana: tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.47-48.

Əsgərov, V. Edilov Yelmar Şahmar oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.63-64.

Seyidzadə, M. Edilov Yelmar Şahmar oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.48

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

70 illiyi Allahverdi Bağırov 1946-1993

Milli Qəhrəman

Allahverdi Teymur oğlu Bağırov 1946-cı il aprel ayının 22-də Ağdam şəhərində anadan olmuşdur. 1965-ci ildə 1 saylı Ağdam şəhər orta məktəbini bitirmişdir. Allahverdi uşaqlıqdan idmana böyük maraq göstərmiş, yüngül atletika, voleybol və futbolla məşğul olmuşdur. Qarabağ hadisələri başlayana qədər o, Ağdamda futbolçu kimi tanınmış, ad-san qazanmış, 1966-cı ildən 1983-cü ilədək Ağdam Uşaq-gənclər idman məktəbində məşqçi işləməklə yanaşı, "Qarabağ" futbol komandasında fəaliyyət göstərmişdir.

1988-ci ildə ermənilərin Qarabağa təcavüzünün ilk günlərindən xalq hərəkatına qoşulmuş və onun fəallarından olmuşdur. A.Bağırovun yaratdığı könüllülər batalyonu Ağdamın bir sıra kəndlərinin müdafiəsində mərdliklə vuruşmuşdur. 1992-ci ildə mühasirədə olan kəndlərə kömək etmək, ərzaq çatdırmaq, dinc əhalinin təhlükəsizliyini qorumaq və ən əsası var gücü ilə həmin kəndləri azad etməyə çalışırdı.

1992-ci ilin fevralında Xocalı faciəsi zamanı onun batalyonu Əsgəran yaxınlığında yüzlərlə soydaşımızı xilas edə bilmiş, 1992-ci il iyun ayının 12-də məhz bu batalyonun səyi nəticəsində Aranzəmin, Naxçıvanik, Dəhraz, Mirkənd, Pircamal kəndləri düşməndən azad edilmişdi. Cəsur komandir gözətçi məntəqəsini yoxlayıb qərargaha dönərkən sürücü ilə birlikdə minaya düşərək həlak olmuş, Ağdam rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 fevral 1993-cü il tarixli 476 saylı Fərmanı ilə Bağırov Allahverdi Teymur oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Allahverdi Teymur oğlu Bağırova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [E.Bağırov adına qoşun hissələrinin komandiri-Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 24 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- № 4.- S.15.- (Ölümündən sonra).

Abbasoğlu, B. Mətin komandir /B.Abbasoğlu //Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S.35-53.

Bağırov Allahverdi Teymur oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.38-40.

Əsgərov, V. Bağırov Allahverdi Teymur oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.49-50.

Seyidzadə, M. Bağırov Allahverdi Teymur oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.38.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

680 illiyi Əmir Teymur 1336-1405

Sərkərdə

Əmir Teymur 1336-cı il aprel ayının 9-da Özbəkistanda, indiki Şəhrisabz şəhərində anadan olmuşdur. O, türkləşmiş barlas tayfasındandır. Əmir Teymur 1361-ci ildə Toğluq Teymurun yanında xidmətə girmiş və Qaşqadərya vilayətini idarə etmişdir. Sağ dizindən və çiynindən aldığı yaradan ayağı qatlanmadığına görə ona "Teymurləng" (Topal Teymur) ləqəbi verilmişdir. Səmərqənd və Bəlx hakimi Hüseynlə ittifaq bağlayıb, uzun müddət Toğluq Teymura və onun oğlu İlyas Xocaya qarşı mübarizə aparmışdır. Hakimiyyət uğrunda mübarizədə 1370-ci ildə Hüseynə qalib gələn Teymur, əmir titulu qəbul edərək Çingiz xanın nəsli adından Mavəraünnəhri tək idarə etməyə başlamış və Səmərqəndi dövlətin paytaxtı elan etmişdir.

1380-ci ildən Teymurun işğalçılıq yürüşləri daha da genişlənmiş, 1386-cı ildə Sultaniyyəni tutub Təbrizə, Naxçıvana, Qarsa, Tiflisə, Şəkiyə, Qəbələyə hücum etmiş, 1387-ci ildə Salmas, Urmiya və Marağadan keçib Gilana, oradan isə məğlubedilməz sərkərdə kimi Səmərqəndə qayıtmışdır.

Qeyd etmək lazımdır ki, XIV əsrin 70-80-ci illərində Azərbaycandakı siyasi sabitlik Əmir Teymurun bu ölkəyə hücumu üçün əlverişli şərait yaratmış, 1386-cı ilin baharında Azərbaycan yenidən İrana və Cənubi Qafqaza yürüş etmiş Teymurun hücumuna məruz qalmışdır.

Əlincə qalası istisna olunmaqla bütün Azərbaycanı zəbt etmiş Teymur, oğlu Miranşahı Dərbənddən Bağdada, Həmədandan Ruma qədər olan böyük bir əraziyə hakim təyin etmişdir.

1398-ci ildə Teymur Hindistana hücum edərək Dehli şəhərini də tutmuşdur. 1402-ci ildə Ankara döyüşündə Türkiyə sultanı İldırım Bayazidə qalib gəlmişdir.

Miranşahın yeritdiyi mənfur siyasətdən xəbərdar olan Teymur Hindistan səfərindən qayıtdıqdan sonra yenidən Azərbaycana yürüş etmiş və yürüş tarixdə "yeddiillik müharibə" adlandırılmışdır. Teymurun bu yürüşü zamanı uzun müddət cəsarətlə müdafiə olunan Əlincə qalası da işğalçılara tabe edilmişdir.

Onun imperiyası şimalda Dərbənd keçidi, Volqa və İrtış çaylarından başlayaraq cənubda İran körfəzinədək, Şərqdə Qobi səhrasının hüdudları və Qanq çayı sahillərindən Qərbdə Balkan yarımadasınadək geniş bir ərazini əhatə edirdi. Teymurun işğalçılıq, talançılıq məqsədi daşıyan hərbi yürüşləri bir çox xalqların sosial-iqtisadi və mədəni inkişafına xeyli zərər vurmuşdur. Təkcə bu faktı göstərmək kifayətdir ki, o, 1383-cü ildə İsfahanda 70 min, 1401-ci ildə isə Bağdadda 90 min dinc əhalini qılıncdan keçirmiş, müharibələr zamanı əldə edilmiş var-dövlət, əsir alınmış sənətkarlar, memarlar və başqaları Səmərqəndə göndərilmiş və onlar burada dəbdəbəli saraylar, məscidlər və evlər tikmişdilər.

Əmir Teymur 1405-ci il, fevral ayının 18-də Çinə yürüşü ərəfəsində vəfat etmişdir. Səmərqənddə Əmir Teymur məqbərəsində dəfn olunmuşdur. Əmir Teymur tarixdə məğlubedilməz sərkərdə kimi ad qoymuşdur.

Ədəbiyyat

Əmir Teymurun vəsiyyətləri.- Bakı: Qanun, 2012.- 196 s.

Marozzi, C. Dünya fatehi Teymur /C.Marozzi.- Bakı: Qanun, 2012.- 487 s.

Oğuz, Y. Əmir Teymur: 2 kitabda /Y.Oğuz.- Bakı: Apostrof, 2011-2012.

Vamberi, G. Əmir Teymur /G.Vamberi.- Bakı: Elm və təhsil, 2013.- 131 s.

Əmir Teymur //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1986.- C.9.- S.186.

Деревьев, М. Тимур: Тамерлан: Исторические романы /М.Деревьев.- Москва: Армада, 1997.- 554 с.

Лэмб, Г. Тамерлан:правитель и полководец /Г.Лэмб; [пер. с англ. Л. А. Игоревского; отв. ред. Л. И. Глебовская].-Москва: Центрполиграф, 2014.- 286 с.

İnternetdə

www.az.wikipedia.org
www.anl.az

135 illiyi Mustafa Kamal Atatürk 1881-1938

Dövlət xadimi

Mustafa Kamal Atatürk 1881-ci il aprel ayının 19-da Osmanlı imperiyasına məxsus Səlanikdə (indiki Yunanıstanın Salonika şəhəri) anadan olmuşdur. 1896-1899-cu illərdə müasir Makedoniya ərazisində yerləşən Manastır Hərbi məktəbini bitirərək İstanbul Hərb Məktəbinə qəbul olunmuşdur. 1902-ci ildə zabit rütbəsi ilə məzun olmuş, Hərbi Akademiyada təhsilini davam etdirmişdir. 1905-ci il yanvar ayının 11-də kapitan rütbəsi ilə akademiyanı bitirmiş, 1905-1907-ci illər arasında Dəməşqdə 5-ci Orduda xidmət etmiş, 1907-ci ildə adyutant rütbəsi almışdır. 1909-cu il aprel ayının 19-da İstanbula daxil olan Hərəkat Ordusunda qərargah rəisi olaraq xidmət etmişdir. 1910-cu ildə Fransaya göndərilmiş, Pikardi Manevralarında iştirak etmiş, 1911-ci ildə İstanbulda Baş Qərargah Mərkəzində xidmətə başlamışdır.

1911-1912-ci illərdə baş vermiş Osmanlı-İtaliya müharibəsi zamanı Tobruk və Dərnə bölgəsində xidmət etmiş, 31 oktyabr 1918-ci ildə İldırım Orduları Qrupuna komandir təyin olunmuş, bu ordunun ləğvindən sonra 13 noyabr 1918-ci il tarixində İstanbula gələrək Müdafiə Nazirliyində çalışmışdır.

1919-cu ildə Samsuna getmiş, 23 iyul-7 avqust tarixləri arasında Ərzurum, 4-11 sentyabr tarixləri arasında isə Sivas Konqresini çağıraraq ölkənin işğal olunmuş ərazilərinin geri qaytarılması üçün görülməsi lazım olan işləri müəyyənləşdirmişdir. 1919-cu ilin dekabr ayında Ankarada böyük ruh yüksəkliyi ilə qarşılanmış, 1920-ci il aprel ayının 23-də Türkiyə Böyük Millət Məclisinin fəaliyyətə başlamasından sonra Türkiyə Respublikasının qurulması yolunda əhəmiyyətli addımlar atmışdır. Məclis və hökumət başqanlığına seçilmiş, Türkiyə Böyük Millət Məclisinin Qurtuluş Savaşının uğurla nəticələnməsi üçün lazımi qanunlar qəbul edib onların tətbiqinə başlanmasını təmin etmişdir.

Sakarya zəfərindən sonra 1921-ci il sentyabr ayının 19-da Türkiyə Böyük Millət Məclisi Mustafa Kamala marşal rütbəsi və qazi titulu vermişdir. Qurtuluş Savaşı 24 iyul 1923-cü ildə imzalanan Lozanna müqaviləsi ilə sona çatmışdır. Beləliklə, Sevr müqaviləsi ilə parçalanması nəzərdə tutulan, türk xalqına 5-6 vilayət böyüklüyündə ərazi verilən Türkiyə torpaqları üzərində, milli birliyə əsaslanan yeni türk dövlətinin qurulması üçün heç bir əngəl qalmamışdır.

1 noyabr 1922-ci il tarixində xilafət və monarxiya bir-birindən ayrılmış, monarxiya ləğv edilmiş, Osmanlı İmperiyasının mövcudluğuna son qoyulmuşdur. Türkiyə 1923-cü il oktyabr ayının 29-da respublika elan edilmiş, Atatürk yekdilliklə ilk prezident seçilmişdir. 30 oktyabr 1923-cü ildə İsmət İnönü tərəfindən respublikanın ilk hökuməti qurulmuşdur. Türkiyə Respublikası "Hakimiyyət qeyd-şərtsiz millətindir" və "Yurdda sülh, cahanda sülh" ideologiyası əsasları üzərində qurulmuşdur. 1927, 1931, 1935-ci illərdə Türkiyə Böyük Millət Məclisi tərəfindən yenidən prezident seçilmişdir.

Atatürk 1938-ci il noyabr ayının 10-da İstanbulda, Dolmabaxça sarayında vəfat etmişdir. Cənazəsi müvəqqəti olaraq Ankara Etnoqrafiya Muzeyində dəfn edilmiş, mavzoleyi tikildikdən sonra 10 noyabr 1953-cü ildə oraya köçürülmüşdür.

Ümummilli lider Heydər Əliyev Atatürkə, Türkiyəyə və türk dünyasına ehtiramının əlaməti olaraq, 9 mart 2001-ci il tarixli Sərəncamla qardaş Türkiyə ilə tarixi, millimənəvi, mədəni bağlılığımızın inkişafı üçün mühüm əhəmiyyət daşıyan Atatürk irsinin, ümumiyyətlə, türk tarixi və mədəniyyətinin daha dərindən öyrənilməsi və təbliğ olunması məqsədi ilə bir təsisat - Azərbaycanda Atatürk Mərkəzini yaratmışdır. Bakıda Atatürkün adını daşıyan prospekt və park salınmış, abidəsi ucaldılmışdır. Atatürk adına lisey fəaliyyət göstərir.

Ə d ə b i y y a t

Heydər Əliyev Atatürk haqqında /topl. tərt. ed. S.Nəzərli.- Bakı: AzAtaM, 2003.- 78 s.

Mustafa Kamal Atatürk və türkçülük: 29 oktyabr 2005-ci il: (Elmi konfransın materialları) /tərt. O.Musayev.- Bakı: AzAtaM, 2006.- 73 s.

Nəzərli, S. Müdrik Atatürk: gerçək hekayətlər.- Bakı: Nurlan, 2006.-108 s.

Atalı, İ. Atatürk bütün türklərin sevgisinə layiqdir /İ.Atalı //Türküstan.- 2014.- 18-24 may.- S.9.

Eyniyev, M. Atatürk /M.Eyniyev //Respublika.-2015.- 25 aprel.- S.6.

Владимирский, А.В. Великий Ататюрк: «Отец народа», «Человек Судьбы» /А.В.Владимирский.- М.: Яуза, Эксмо, 2014.-348 с.

İ n t e r n e t d ə

www.az.wikipedia.org
www.anl.az

85 illiyi

İnqilab Kərimov 1931-2011

Teatrşünas

İnqilab Saleh oğlu Kərimov 1931-ci il aprel ayının 4-də Göyçay rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1948-1953-cü illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun teatrşünaslıq fakültəsində təhsil almışdır. 1957-ci il noyabr ayının 25-dən taleyini Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutu ilə bağlamış, 1966-1985-ci illərdə kiçik elmi işçi, sonra baş elmi işçi kimi çalışmışdır. Alim-tədqiqatçı İnqilab Kərimov 1968-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutunda teatr tarixi, teatr tənqidi və dram nəzəriyyəsi fənlərini tədris etmiş, universitetin professoru olmuşdur. 1963-cü ildə "Sovet Azərbaycanının gənclər teatrı" adlı namizədlik dissertasiyasını, 1988-ci ildə "Azərbaycan teatrının yaranması, təşəkkülü və inkişafı problemləri (XIX əsrin sonu, XX əsrin əvvəlləri)" adlı doktorluq dissertasiyasını Moskvada müdafiə edərək sənətşünaslıq doktoru alimlik dərəcəsi almışdır.

Görkəmli alim, yorulmaz tədqiqatçı 200-ə yaxın elmi əsərin, o cümlədən 25 monoqrafiya və kitabın müəllifidir. Elmi əsərlərindən bir neçəsi rus dilində çap olunmuşdur. "Abdulla Şaiq və teatr", "Ağadadaş Qurbanov", "Azərbaycan və gürcü səhnə ustalarının dostluğu", "Xalq istedadları", "Sovet Azərbaycanının gənclər teatrı", "Azərbaycan Dövlət Dram Teatrı", "Əbdürrəhim bəy Haqverdiyev və teatr", "Cəfər Cabbarlı adına Kirovabad Dövlət Dram Teatrı", "Gənclik və gözəllik teatrı", "Sənət yolu, dostluq yolu", "Nəriman Nərimanov və teatr", "Azərbaycan teatrının təşəkkülü və inkişafı", "Türkiyə və Azərbaycan teatr əlaqələri", "Şuşa-Ağdam teatrı", "Azərbaycan teatrı 125" adlı kitabları çap edilmişdir. Alim mətbuatda "İnqilab" imzası ilə çıxış etmişdir.

Milli teatrşünaslıq elmimizdə mühüm yer tutan bu tədqiqat əsərləri Azərbaycan teatr tarixinin öyrənilməsində böyük əhəmiyyət kəsb edir. Teatrşünaslıq elminin yüksək obyektivlik və elmi dəqiqliklə seçilən sözügedən tədqiqat əsərlərində və monoqrafiyalarda milli teatr tarixinin böyük bir mərhələsinin əhəmiyyətli hadisələri əhatə olunmuşdur. Milli teatr tariximizin tədqiqinə həsr olunmuş bu əsərlər çox böyük elmi dəyərə malik olmaqla yanaşı, geniş təcrübi və nəzəri əhəmiyyət daşıyır.

2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

İnqilab Kərimov 2011-ci il iyul ayının 22-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri /İ.Kərimov; elmi red. M.Seyidov.- Bakı: Maarif, 2002.- 576 s.

Heydər Əliyev: sənət, sənətkarlar və sənətkarlıq haqqında /İ.Kərimov.- Bakı: ULU İKF, 2005.- 228 s.

Şuşa-Ağdam teatrı /İ.Kərimov.- Bakı: Elm, 2001.- 140 s.

Teatr: taleyin ömrümə yazdığı qismət /İ.Kərimov.- Bakı: Elm, 2009.- 465 s.

Əliyeva, K. İnqilab Kərimovun xatirəsinə ehtiramla /K.Əliyeva //Kaspi.- 2012.- 28-30 iyul.- S.23.

İnqilab Kərimov //Ədəbiyyat qəzeti.- 2011.- 29 iyul.- S.6.

Nərimanoğlu, M. Ömrün və sənətin zirvəsində: mədəniyyət xadimləri //Azərbaycan.- 2011.- 8 aprel.- S. 10.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

105 illiyi Əli Əşrəf Əlizadə 1911-1985

Akademik

Ə d ə b i y y a t

Ümumi geologiya: ali texniki məktəblər üçün dərslik /Ə.Əlizadə, M.Babayev; elmi red. A.Vəzirzadə.-Bakı: Maarif, 1973.- 371 s.

Səmədli, Ə. Romana bənzər həyat: bədii sənədli povest /Ə.Səmədli.- Bakı: Azərnəşr, 2001.- 168 s.

Ələşrəf Əbdülhüseyn oğlu Əlizadə: biblioqrafiya /AMEA Geologiya İn-tu; red. A.Əli-zadə.- Bakı: "Nafta-press", 2011.

Əlizadə Əliəşrəf Əbdülhüseyn oğlu //Azərbaycanın geoloq və geofizik alimləri /tərt. S.B.Axundova.- Bakı, 2004.- S.124-126.

Məmmədli, İ. Görkəmli akademikin yubileyinə həsr olunmuş elmi konfrans keçirildi /İ.Məmmədli //İki sahil.- 2011.- 3 may.- S. 13.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.orq
dspace.khazar.org
www.science.gov.az

Əli Əşrəf (Ələşrəf) Əbdülhüseyn oğlu Əlizadə 1911-ci il aprel ayının 24-də Şamaxıda anadan olmuşdur. 1930-1935-ci illərdə M.Əzizbəyov adına Azərbaycan Neft İnstitutunda (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsində təhsil almışdır. 1942-ci ildə Azərbaycan KP MK katibi, 1944-cü ildə Azərbaycan KP MK-nın ikinci katibi seçilmişdir. 1938-1946 və 1954-1959-cu illərdə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunda dərs demişdir. Akademiyanın yaradıcılarından biri olmuş, 1945-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir. 1946-1948-ci illərdə "Azneft" və "Azneftkəşfiyyat" birliklərinin rəisi, 1949-1954-cü illərdə M.Qorki adına Türkmənistan Dövlət Universitetində kafedra müdiri və Türkmənistan SSR EA faydalı qazıntılar bölməsinin müdiri vəzifələrində çalışmışdır. 1977-1985-ci illərdə Azərbaycan SSR EA İ.M.Qubkin adına Geologiya İnstitutunda (indiki AMEA Geologiya və Geofizika İnstitutu) "Regional geologiya və tektonika" şöbəsinin müdiri olmuşdur.

1938-1948-ci illərdə Azərbaycan SSR EA Geologiya İnstitutunun Elmi Şurasının üzvü olmuşdur. 1944-cü ildə geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almaq üçün "Azərbaycanın maykop lay dəstəsi və onun neftliliyi" mövzusunda dissertasiya müdafiə etmişdir. 1945-ci ildə professor elmi rütbəsini almışdır. 1946-cı ildə SSRİ Ali Sovetinin 2-ci çağırış deputatı seçilmişdir.

Azərbaycanın əsas neft rayonlarında geoloji tədqiqat işləri aparmış, bir sıra mühüm neft və qaz-kondensat (Siyəzən, Zəyli-Zeyvə, Buzovna-Maştağa, Şabandağ, Gürgan, Qaradağ, Qarabağlı, Sanqaçal, Duvannı, Qazanbulaq, Kürsəngi, Muradxanlı və s.) yataqlarının aşkar edilməsində bilavasitə iştirak etmişdir. Mezozoy çöküntülərinin neftlilik problemi ilə məşğul olmuş, Türkmənistan SSR-də apardığı tədqiqatlar nəticəsində Pliosen çöküntülərinin stratiqrafik sxemini tərtib etmiş, Akçaqılın faunasını öyrənmişdir. Elmi kadrların hazırlanmasında böyük xidmətləri olmuşdur.

Akademik Ə.Əlizadə regional geologiyanın, tektonikanın və neft geologiyasının müxtəlif problemlərinə aid Azərbaycan və rus dillərində 500-dən artıq elmi əsərin müəllifidir. "Yer və zəlzələlər", "Türkmənistanın Akçaqılı", "Azərbaycanın Sarmatı", "Azərbaycanın paleogen yataqları" və s. əsərlərin müəllifidir.

Alim 1976-cı ildə Ümumittifaq paleontologiya cəmiyyətinin fəxri üzvü, 1973-cü ildə Qubkin adına mükafatın laureatı olmuşdur. 1943-cü ildə yeni neft yataqlarının kəşfinə və mənimsənilməsinə görə, 1946-cı ildə isə kiçik həcmli elektroperforator cihazını işləyib hazırladığına görə SSRİ Dövlət mükafatına layiq görülmüşdür. İki dəfə "Lenin ordeni" (1942, 1946), "Qırmızı Əmək Bayrağı" ordeni (1966) və medallarla təltif edilmişdir. 1971-ci ildə "SSRİ-nin fəxri neftçisi" və "Türkmənistan SSR-in Əməkdar elm və texnika xadimi" fəxri adlarına layiq görülmüşdür.

Akademik Əli Əşrəf Əlizadə 1985-ci il mart ayının 23-də Bakıda vəfat etmişdir.

105 illiyi Baba Babazadə 1911-1962

Alim

Baba Qurbanqulu oğlu Babazadə 1911-ci il aprel ayının 25-də Bakının Ramana qəsəbəsində anadan olmuşdur. 1929-cu ildə N.Nərimanov adına Sənaye Texnikumunu, 1934-cü ildə isə Azərbaycan Sənaye İnstitutunu (hazırki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirmişdir.

B.Babazadə ölkəmizin neft tarixində müstəsna rol oynamış alimlərimizdəndir. Buzovna-Maştağa, Zirə, Kürsan, Qaradağ, Neft Daşlarının şimal-şərq qanadında və digər ərazilərdə zəngin neft yataqlarının kəşfi onun adı ilə bağlıdır. O, dənizdə və quruda neft hasil edən yeni bazaların yaradılmasında da fəal iştirak etmişdir ki, bu da Azərbaycanda qaz sənayesinin təməlinin qoyulmasına əsaslı təkan vermişdir.

Neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı işlərində yeni metodların yaradıcılarındandır. Onun elmi əsərlərində müxtəlif torpaq süxurlarında neft və qaz yataqlarının yerləşməsinin qanunauyğunluqları barədə geniş bilgilər toplanmışdır. Məhz bu tədqiqatlar bütün Sovet İttifaqının neft rayonlarında düzgün geoloji kəşfiyyat işlərinin aparılması istiqamətində nəzəri baza rolunu oynamışdır.

İkinci Dünya müharibəsi illərində SSRİ-nin tank və təyyarələrinin 90 faizi Bakı yanacağı ilə işləyirdi. 1942-ci ilin qışında geoloq "Buzovna-Maştağa" yatağının açılmasına nail olmuşdur ki, bu kəşfinə görə ona 1944-cü ildə SSRİ və Azərbaycan neftçiləri arasında ilk dəfə olaraq Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. 1953-1962-ci illərdə Azərneft Birliyinin baş geoloqu işləmiş, onu "Allahdan geoloq vergisi verilmiş adam" adlandırmışdılar.

Görkəmli alim pedaqoji fəaliyyətlə də məşğul olmuş, Azərbaycan Dövlət Neft Akademiyasında dərs demiş, 20-dən çox elmlər namizədi hazırlamış, gələcək geoloqlara öz peşələrinə məhəbbət aşılayaraq zəngin təcrübəsini onlarla bölüşmüşdür. Neft və qaz yataqlarının geoloji tədqiqat probleminə həsr edilmiş 80-dən artıq elmi əsərin müəllifidir.

Azərbaycan SSR Ali Sovetinin 3 və 5-ci çağırışında deputat seçilmişdir.

1959-cu ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü, 1962-ci ildə geologiya-mineralogiya elmləri doktoru elmi adını almış, 1947-ci ildə SSRİ Dövlət mükafatı laureatı olmuş, "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə Böyük Vətən müharibəsində rəşadətli əməyə görə" medalları, Lenin ordeni, 3 "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif olunmuşdur.

Görkəmli geoloq-neftçi Baba Babazadə 1962-ci il avqust ayının 18-də Bakıda vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Yaşadığı binanın qarşısına barelyefi vurulmuş, Xəzər dənizində geoloji struktura alimin adı verilmişdir.

Ədəbiyyat

Fətulla, F. Alın yazısı:bədii-sənədli-publisistik roman /F.Fətulla.- Bakı: Mütərcim, 2006.- 180 s.

Baba Qurbanqulu oğlu Babazadə //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1976.- C.1.- S.518.

Baba Qurbanqulu oğlu Babazadə //Fəxri Xiyaban: [soraq kitabı] /Heydər Əliyev Fondu.- Bakı, 2007.- S.24.

Sadıqlı, F. Şimşəkdən qopan işıq /F.Sadıqlı //Azərbaycan.- 2013.- 27 iyul.- S.7.

Классификация залежей и месторождений нефти и газа Азербайджана и рациональная методика их разведки /Б.Бабазаде.- М.: Недра, 1964.- 304 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

www.adam.az

105 illiyi Ədhəm Şıxəlibəyli 1911-1996

Akademik

Ə d ə b i y y a t

Геологическое строение и история тектонического развитие восточной части Малого Кавказа: [в 3-х т.] /Э.Ш.Шихалибейли.- Баку: Элм, 1964-1967.

Геологическое строение и развитие южного склона Большого Кавказа /Э.Ш.Шихалибейли.- Баку: Элм, 1956.- 223 с.

Некоторые проблемные вопросы геологическое строение и тектоники Азербайджана /Э.Ш.Шихалибейли.- Баку: Элм, 1996.- 216 с.

Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlu // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S.550.

Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlu "Azərbaycanın geoloq və geofizik alimləri", Bakı, "Nafta-Press", 2004, s. 333-334

Ədhəm Şahlarbəy oğlu Şıxəlibəyli 1911-ci il aprel ayının 30-da Ağsu rayonunun Bico kəndində anadan olmuşdur. 1937-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunu (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) bitirmişdir.

1947 ildə "Böyük Qafqazın cənub yamacının Azərbaycan hissəsinin geoloji quruluşu" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir.

1954 ildən Azərbaycan EA Geologiya İnstitutunda işləmişdir. 1965 ildə "Kiçik Qafqazın şərq hissəsinin geoloji quruluşu və tektonik inkişaf tarixi (Azərbaycan)" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Azərbaycan EA Yer haqqında Elm Bölməsinin akademik-katibinin müavini olmuşdur. Uzun illər Geologiya İnstitutunun geotektonika, stratiqrafiya və litologiya şöbəsinə başçılıq etmişdir. Şərqi Qafqazın qırışıqlıq sisteminin əmələ gəlməsinin mərhələlərini müəyyən etmiş, onları struktur zonalara bölmüş və yaranmasında şimali-qərbi kembridənqabaq və şimal-şərqi rifey yarıqlarının rolunun elmi əsaslarını vermişdir. O. şimal-şərq istiqamətdə uzanan Qərbi Xəzər gömülmüş qalxımını aşkar etmiş və bu qalxımın Qafqaz qırışıqlıq sisteminin müsbət strukturlarının Xəzər dənizinə yaxınlaşdıqca birləşmələrinə səbəb olmasını əsaslandırmışdır. İlk dəfə olaraq Balakən-Zaqatala regionunda polimetallik filiz yataqlarının aşkar edilməsi perspektivliyini sübut etmişdir.

1954-cü ildən ömrünün sonuna qədər Azərbaycan Respublikası EA-nın Geologiya İnstitutunda işləmişdir. Regional geologiya və tektonika sahəsində tədqiqatlar aparmışdır. Şimali Qafqaz və ona qonşu regionların geoloji inkişaf tarixini, tektonikasını, seysmikliyini, neotektonikasını və geomorfologiyasını öyrənmişdir. 20 min kv. kilometrdən artıq sahənin dəqiq geoloji xəritəsini tərtib etmişdir.

"Azərbaycanın geologiyası" adlı çoxcildli monoqrafiyanın və Azərbaycanın tektonik xəritəsinin (1:500000) müəlliflərindəndir. Elmi kadrlar hazırlanmasında xidmətləri olmuşdur.

1969-1971-ci illərdə Əlcəzairdə geoloji kəşfiyyat işləri aparmışdır.

ASE elmi redaksiya şurasının (1983), SSRİ EA Tektonika Komitəsinin və onun Qafqaz bölməsinin üzvü olmuşdur.

Alim 350-dən artıq elmi məqalənin, o cümlədən 15 monoqrafiyanın müəllifidir.

1983-cü ildən isə Azərbaycan EA-nın akademiki, Azərbaycanın Əməkdar elm xadimi olmuşdur.

Ədhəm Şıxəlibəyli 1996-cı ildə vəfat etmişdir.

110 illiyi Abasqulu Abaszadə 1906-1969

Alim

Abasqulu Ağabala oğlu Abaszadə 1906-cı il aprel ayının 10-da Cənubi Azərbaycanın Təbriz şəhərində, bənna ailəsində anadan olmuşdur. 1916-cı ildə ailəsi ilə birlikdə Bakıya köçmüşlər. Əvvəlcə birinci dərəcəli məktəbi (rus-tatar məktəbi), sonra isə N.Nərimanov adına Sənaye Texnikumunu bitirmişdir. A.Abaszadə 1926-cı ildə Ali Pedaqoji İnstitutu (indiki ADPU), 1930-cu ildə isə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Əmək fəaliyyətinə 1923-cü ildən, hələ tələbə ikən başlamış, 1923-1924-cü illərdə Bakının axşam məktəblərində, 1924-1928-ci illərdə Bakı və Bakıətrafı kəndlərdə (Qala-Maştağa), 1928-1931-ci illərdə Bakı Pedaqoji Texnikumunda müəllim kimi fəaliyyət göstərmişdir. S.M.Kirov adına ADU-nu (indiki BDU) bitirdikdən sonra 1931-1933-cü illərdə Azərbaycan Dövlət Tibb İnstitutunun fizika kafedrasında assistent, 1934-cü ilin sentyabrından ömrünün sonunadək APİ-də işləmiş, 1938-1969-cu illərdə Eksperimental və nəzəri fizika kafedrasına rəhbərlik etmişdir. 1939-cu ildən 1957-ci ilə kimi fizika-riyaziyyat fakültəsinin dekanı, 1957-1962-ci illərdə institutun elmi işlər üzrə prorektoru vəzifəsində çalışmışdır. 1932-1949-cu illərdə paralel olaraq, SSRİ EA-nın Azərbaycan filialında və Azərbaycan EA-nın Fizika və Riyaziyyat İnstitutunda fəaliyyət göstərmiş (fizika şöbəsinin elmi katibi, istilik və molekulyar fizika laboratoriyasının müdiri, elmi işlər üzrə direktor müavini), tədqiqat işləri aparmışdır. A.Abaszadə 1936-1941-ci illərdə Xəzər dənizi suyunun bir çox molekulyar-istilik xassələrini təyin etmiş, bir sıra qanunauyğunluqlar müəyyənləşdirmişdir. 1941-ci ildə Tbilisidə namizədlik, 1953-cü ildə isə M.V.Lomonosov adına MDU-da "Mayelərin və onların buxarlarının istilikkeçirməsinin temperatur və təzyiqdən asılılığının tədqiqi" mövzusunda dissertasiya müdafiə etmiş, fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi ilə bərabər professor elmi rütbəsi almışdır. 1968-ci ildə SSRİ Pedaqoji EA-nın müxbir üzvü seçilmiş və ilk azərbaycanlı müxbir üzv olmuşdur. 200-dən çox elmi, metodiki, fəlsəfi və publisistik məqalənin, 18 monoqrafiyanın müəllifidir. "Fizika və riyaziyyat tədrisi", "Politexnik təlim" jurnallarının hazırlanmasına böyük əmək sərf etmiş, 14 il bu jurnalların redaktoru olmuşdur. A.Abaszadənin bilavasitə iştirakı və rəhbərliyi ilə 100-ə yaxın elmlər namizədi və elmlər doktoru hazırlanmış, geniş elmi-pedaqoji təşkilatçılıq işi aparmışdır.

Elmin, təhsilin inkişafındakı xidmətləri yüksək qiymətləndirilmiş "Qırmızı əmək Bayrağı", "Şərəf nişanı" ordenləri, medalları ilə təltif edilmişdir.

Görkəmli alim Abasqulu Abaszadə 1969-cu il fevral ayının 2-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Fizika: ali məktəbə daxil olanlar üçün vəsait /A.Abaszadə.- Bakı: Maarif, 1970.- 206 s.

Molekulyar fizika və istilik: dərs vəsaiti /A.Abaszadə.- Bakı: Maarif, 1967.- 346 s.

Termodinamika: dərs vəsaiti /A.Abaszadə.- Bakı: APİ, 1959.-352 s.

Qaralov, Z. Abasqulu Abaszadə: bioqrafiyası, elmi pedaqoji irsi /Z.Qaralov, A.Abaszadə, C.Qəhrəmanov.- Bakı: Pedaqogika, 2005.- 127 s.

Abasqulu Ağabala oğlu Abaszadə //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1976.- C.1.- S.10.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

125 illiyi

Bəhram Mirzəyev 1891-1974

Alim

Bəhram bəy Rüstəm bəy oğlu Mirzəyev 1891-ci il aprel ayının 16-da Şuşa şəhərində anadan olmuşdur. orta təhsilini Şuşada dövrün ən nüfuzlu təhsil müəssisələrindən sayılan real məktəbdə almışdır.

1905-1906-cı illərdə Şuşada baş verən erməni-müsəlman davası Bəhram bəyə də realnı məktəbdə oxuyan bütün azərbaycanlı uşaqlar kimi oranı bitirməyə imkan vermədi. Təhsilini davam etdirmək üçün bir çox həmyerliləri kimi Bakı Real Məktəbinə dəyişildi.

1909-cu ildə Bakı Real Məktəbini başa vurmuş, 1911-ci ildə Peterburq universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur. 1916-cı ildə ali təhsilini başa vuran Bəhram bəy gimnaziyada pedaqoji fəaliyyətlə məşğul olmağa başlamışdır.

1917-ci ilin oktyabr ayında Donetsk şəhərinə gəlmiş, Donetsk vilayətinin Drujovski şəhərindəki zavodların nəzarətində məktəb kombinatının təşkilatçı-müdir vəzifəsinə düzəlmişdi. 1918-ci ilin yanvarında o, artıq üç məktəb açmağa nail olmuşdu.

Rusiyada Vətəndaş müharibəsi başlayanda, 1919-cu ildə Bəhram bəy də orduya çağırılmış, XII Qızıl Ordu hissələri tərkibində xidmətə başlamışdır. Müharibə başa çatandan sonra özünün əvvəlki iş yerinə qayıtmışdır. 1921-ci ildə Bakıya qayıtmışdır.

1922-ci ilin yazında Bakı Xalq Maarif Şöbəsinin 2 nömrəli məktəbinə göndərilmiş, bir il burda fizika və riyaziyyat müəllimi işləməklə yanaşı fəhlə fakültələrində və texnikumlarda da dərs demişdir. Azərbaycan Dövlət Universitetinə (indiki BDU) göndərilərək fizika kafedrasında tələbə laboratoriyaları təşkil etmiş, fakültədə optikaya dair ilk dəfə olaraq Azərbaycan dilində mühazirələr oxumağa başlamışdır.

1930-cu ildə ana dilində təcrübi məşğələlər üzrə azərbaycanca tədris vəsaiti hazırlayaraq nəşr etdirmiş, ona dosent vəzifəsi verilmişdir. Elə həmin il N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstutuna (indiki ATU) göndərilmiş, burada çoxlaboratoriyalı fizika kafedrası təşkil etmişdir. Azərbaycan Politexnik İnstitutu üçün molekulyar fizikaya, ADU üçün dalğalara və rəqslərə aid dərsliklər yazmış və bu dərsliklərdən digər ali məktəblərdə də istifadə olunmağa başlanmışdır.

1935-ci ildə yenidən ADU-ya qayıtmış, 1936-1938-ci illər ərzində burda yeni labarotriyaların təşkili işinə başlamış, xüsusi labarotoriyalar, nümayiş muzeyi, fizika kabineti yaratmışdır. 1938-ci ildə ona fizika elmləri namizədi alimlik dərəcəsi verilmiş, 1941-ci ildə isə təcrübi fizika kafedrasına müdir vəzifəsinə irəli çəkilmişdir.

1960-cı ildə Yarımkeçiricilər fizika kafedrası təşkil olunmuş və o, həmin kafedranın müdiri vəzifəsinə seçilmişdir. 1969-cu ildə professor elmi rütbəsini almışdır. Əllidən çox elmi əsərin, iki ixtiranın, Böyük Vətən müharibəsi illərində iki hərbi təklifin müəllifi olan Bəhram bəy Mirzəyev Azərbaycan elmi qarşısında xüsusi xidmətlərinə görə 1954-cü ildə "Lenin ordeni"nə layiq görülmüş, 1969-cu ildə ona "Əməkdar elm xadimi" fəxri adı verilmiş, bir neçə medalla və Azərbaycan SSRI Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Bəhram bəy Mirzəyev 1974-cü ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Loqarifm xətkeşi /B. R. Mirzəyev ; [red. F. Köçərli] ; S. M. Kirov ad. Azərb. Döv. Universiteti.-Bakı: ADU, 1959.-41 s.

Çingizoğlu, Ə. Mirzəyevlər //Ə.Çingizoğlu //"Soy" dərgisi: 8 (16).- Bakı, 2008.- S.17-27.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

75 illiyi

Vaqif Nağıyev 1941-1992

Akademik

Vaqif Mirəsgər oğlu Nağıyev 1941-ci il aprel ayının 20-də Lənkəranda anadan olmuşdur. Ailəsi ilə Bakıya köçmüş, burada 134 saylı orta məktəbdə oxumuşdur. 16 yaşında Neft və Kimya İnstitutuna qəbul olunmuşdur.

1963-cü ildə Neft-Kimya İnstitutunu elektromexanik-mühəndis ixtisası üzrə bitirdikdən sonra bir ilə yaxın Azərbaycan EA-da işləmişdir.

Sonra Moskvaya getmiş, 1965-ci ildən elektron sənayesi üçün mühüm əhəmiyyət kəsb edən yarımkeçiricilərin tədqiqi ilə məşğul olmuşdur. 27 yaşında Moskva Polad və Ərintilər İnstitutunun elmi şurasında namizədlik dissertasiyasını uğurla müdafiə etmişdir.

1970-ci ildə Siolkovski adına Moskva Aviasiya Texnologiya İnstitutunun Radio elektron aparatlarının istehsalı texnologiyası kafedrasında dosent kimi işləməyə başlamışdır. 1971-ci ildə EHM-lərin blok və qurğuları üçün termoelektrik sərinləşdirici qurğuların layihələşdirilməsinin maşın metodlarının hazırlanması və tətbiqi sahəsində kompleks işinə görə A.S.Popov adına Fəxri fərmana layiq görülmüşdür. 1986-cı il dekabrın 5-də ona texnika elmləri doktoru alimlik dərəcəsi verilmişdir. Bir il sonra SSRİ elektron sənayesinin fəxri işçisi olmuşdur. Elmi fəaliyyətində ultrasəs-diaqnostik tibbi texnikanın hazırlanması, klinikalarda tətbiqi əsas yer tuturdu. O, SSRİ-də bu sahənin yaradıcılarından biri idi.

5 monoqrafiyanın, 23 ixtiranın, 200-dən artıq elmi məqalənin müəllifidir. 23 ixtirası müəlliflik şəhadətnaməsi almışdır.

1988-ci ilin yanvarında SSRİ Səhiyyə Nazirliyinin tibbi texnika üzrə Umumittifaq Elmi Tədqiqat Sınaq İnstitutunda ultrasəs diaqnostik tibbi aparatların hazırlanması və koordinasiyası şöbəsinin müdiri, həm də Səhiyyə Nazirliyində bu sahənin rəhbəri təyin olunmuşdur. SSRİ dağılandan sonra hər iki vəzifə RF Səhiyyə Nazirliyinə keçmişdir.

V.Nağıyev həm də SSRİ Müdafiə Nazirliyində kosmosda diaqnostik tədqiqatlarla bağlı mühüm vəzifə daşımışdır. Ultrasəs vazolokator, elektron qurğularının termoelektrik sərinləşdirilməsi, inteqral sxemlərin tədqiqi və sınağı üçün termoelektrik cihazlar, allergiyalı dermotozların müalicə üsulları və ultrasəs texnologiyalarının perspektiv inkişafı ilə bağlı tədqiqatlar aparmışdır. Tədqiqatlarının əsas yönümü kosmosla bağlı olmuşdur.

1991-ci il yanvar ayının 25-də SSRİ EA-nın həqiqi üzvü seçilmişdir. Elmi fəaliyyətlə yanaşı keçmiş SSRİ hərb sənayesinə öz töhfəsini vermiş, general-mayor hərbi rütbəsi ilə təltif edilmişdir.

Vaqif Nağıyev 1992-ci il dekabr ayının 3-də, 51 yaşında vəfat etmişdir. Moskvada, Fəxri Xiyabanda dəfn edilməli olan akademik qohumları tərəfindən Bakıya gətirilmiş, Yasamal qəbiristanlığında dəfn edilmişdir.

Texnika elmləri doktoru, professor, SSRİ EA-nın və SSRİ Tibbi-Texniki Elmlər Akademiyasının akademiki, tibb xidməti general mayoru V.Nağıyevi Azərbaycanda çox az adam tanıyır.

İnternetdə

www.anl.az

www.adam.az

www.masallilar.az/article/a-69.html

files.preslib.az/projects/azerbaijan/gl6.pdf

225 illiyi Samuel Morze 1791-1872

İxtiraçı



Samuel Finli Briz Morze 1791-ci il aprel ayının 27-də ABŞ-ın Massaçusets ştatında anadan olmuşdur. On doqquz yaşında Yel kollecini bitirmiş, elektrik sahəsinə maraq göstərmişdir. Eyni zamanda tanışların miniatür portretlərini çəkməyi xoşlayırdı. Valideynləri onun bu həvəsini bəyənməsələr də, rəssamlığa meylinin güclü olduğunu görüb 1811-ci ildə İngiltərəyə göndərmişlər. 1813-cü ildə o, London Kral Akademiyasına "Ölən Herkules" bədii rəsm əsərini təqdim etmiş və qızıl medala layiq görülmüşdür. Londondan qayıtdıqdan sonra portret janrı gündəmdə olduğu üçün diqqətini portret çəkməyə yönəltmişdir. 1826-cı ildə Milli İncəsənət Akademiyasının qurulmasında yaxından iştirak etmiş və akademiyanın ilk rəhbəri olmuşdur. 1829-cu ildə rəssamlıq məktəbini yaratmaq və məşhur rəsm əsərlərini öyrənmək üçün 2-ci dəfə Avropaya səyahət etmişdir.

1832-ci ildə Nyu York Universiteti Şəkil və heykəl şöbəsində professor kimi fəaliyyət göstərmişdir. Morzenin mexaniki araşdırmalara marağı gənc yaşlarında başlamış, alim L.Daqerlə tanış olmuş, elektrik sahəsində olan yeniliklərlə maraqlanmışdır. 1832-ci ildə okean səyahətinə çıxmış, Çarles Tomas Ceksonun elektriklə bağlı son məqalələri və Nyu York Universitetində elektromaqnetik mövzusunda öyrəndikləri ilə əlaqədar onda elektrikli teleqraf hazırlamaq fikri yaranmışdır. İlk elektrikli teleqraf sınağını 1844-cü ildə Vaşinqton ilə Baltimor arasında 65 kilometrlik bir xətt çəkilişiylə etmişdir.

Morze bir daşı, ya da mərməri 3 fərqli ölçüdə yona bilən mərmərkəsmə maşınını da icad etmiş, 1820-ci ildə buna bənzər ixtira olduğu üçün patentini ala bilməmişdir.

1858-ci ildə Morze 10 Avropa dövlətindən teleqrafın istifadəsinə görə 400 000 frank almışdır. Osmanlı dövləti ilk dəfə 1855-ci ildə Krım döyüşü əsnasında Morzenin teleqraf sistemindən istifadə etmişdir. Ahıl yaşlarında Morze xeyriyyəçiliklə məşğul olmuş, məktəblərə, universitetlərə, dini icmalara, kilsələrə və kasıb rəssamlara himayədarlıq etmişdir.

Samuel Morze 1872-ci ildə, 80 yaşında Nyu Yorkda vəfat etmiş və Qrin-Vud qəbiristanlığında dəfn edilmişdir.

Ədəbiyyat

Morze Samuel Finli Briz //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1983.- C.7.- S.61-62.

Уилсон, М. Морзе Сэмюэл /М.Уилсон //Американские ученые и изобретатели.- Москва, 1975.- С.27-34.

İnternetdə

www.anl.az

www.az.wikipedia.orq

Tarixdə bu gün

Kəlbəcər rayonunun işğalı günü

Ərazisi: 3054 km²
Əhalisi: 85 228
İşğal tarixi: 02.04.1993
www. kelbecer-ih.gov.az

Kəlbəcər rayonu 1993-cü il aprel ayının 2-də Ermənistan təcavüzkar qüvvələri tərəfindən işğal olunmuşdur. Kəlbəcər rayonunun ərazisi 3054 km², əhalisinin sayı isə 85228 nəfərdir. Rayon sakinləri hazırda Azərbaycanın 59 bölgəsində məskunlaşmışlar.

Kəlbəcərin işğalı nəticəsində 511 nəfər həlak olmuş, 321 nəfər itkin düşmüş və girov götürülmüşdür, rayona 761 milyon ABŞ dolları məbləğində ziyan dəymişdir. Ermənistan hərbi birləşmələrinin martın 27-də başlanan genişmiqyaslı hücumu Kəlbəcər rayonunun işğalı ilə başa çatmışdır. Kəlbəcər Azərbaycanın işğal olunmuş rayonları arasında ərazicə ən böyüyüdür. İşğal nəticəsində rayon mərkəzi, 150-ə yaxın kənd, həmçinin onlarla tarixi-mədəniyyət abidəsi, bir muzey, "İstisu" sanatoriyası və s. Ermənistan silahlı qüvvələri tərəfindən məhv edilmişdir. Kəlbəcər rayonunun işğalı Qarabağ müharibəsində Azərbaycanın ən böyük hərbi-strateji məğlubiyyəti idi. Kəlbəcərin süqutu ermənilərin sonrakı işğalçılıq planlarının həyata keçməsinə - Azərbaycanın ayrılmaz, əzəli torpağı olan Dağlıq Qarabağ və onun ətrafındakı digər rayonların - Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı və Zəngilanın, ümumən 17 min kvadratkilometr ərazidə ən məhsuldar torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən zəbt olunmasına şərait yaratmışdır. Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi faktiki olaraq başa çatmışdır.

Kəlbəcərin işğalından sonra 3205 saylı iclasda BMT Təhlükəsizlik Şurası 822 saylı Qətnamə qəbul etmiş, qətnamədə bütün işğalçı qüvvələrin Kəlbəcər və Azərbaycanın digər işğal olunmuş rayonlarından dərhal çıxarılması tələb olunmuşdur. Lakin indiyədək həmin qətnamədən irəli gələn heş bir öhdəlik yerinə yetirilməmişdir. Sonradan BMT Təhlükəsizlik Şurasının Ağdam rayonunun azad edilməsi ilə bağlı 854-cü, Füzuli rayonunun azad edilməsi ilə bağlı 874-cü və digər işğal edilmiş rayonların azad edilməsi ilə bağlı 884-cü qətnamələri qəbul edilmiş, lakin həmin qətnamələr kağız üzərində qalmaqdadır. BMT-nin və ATƏT-in prinsiplərinə zidd olaraq 1999-cu ildən Kəlbəcər rayonu ərazisində ermənilərin məskunlaşdırılmasına başlanılmışdır. Ermənistan beynəlxalq sənədlərdə təsbit olunmuş müddəaları kobudcasına pozaraq, bütün dünyanın gözü qarşısında Azərbaycanın bənzərsiz mədəni sərvətlərini talamaqda, kütləvi şəkildə məhv etməkdə davam edir.

İki Cənubi Qafqaz ölkəsi arasında münaqişə 1988-ci ildə Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi zəminində yaranmışdır. Azərbaycan torpaqlarının iyirmi faizi, yəni Dağlıq Qarabağ ərazisi və bu əraziyə daxil olan yeddi rayon Ermənistan Silahlı Qüvvələrinin işğalı altındadır. 1994-cü ildə tərəflər atəşkəs rejiminə dair razılaşma əldə etmiş və o vaxtdan bəri ATƏT-in Minsk qrupunun himayəsi altında, Rusiya, Fransa və ABŞ-ın həmsədrliyi ilə hələ də nəticəsiz sülh danışıqları aparılır.

BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ və ətraf rayonların azad edilməsinə dair qəbul etdiyi dörd qətnaməni Ermənistan bu günə qədər yerinə yetirməmişdir.

Ermənistanın yürütdüyü bu işğalçılıq və terrorçuluq siyasəti uzun illərdən bəri dünya ictimaiyyətinin gözü qarşısında baş verir. Halbuki, beynəlxalq hüququn normalarına və prinsiplərinə əsasən dövlətlərin sərhədlərinin toxunulmazlığına hörmət edilməli, ərazi bütövlüyünün, suverenliyin pozulmasına yol verilməməlidir.

110 illiyi “Molla Nəsrəddin” jurnalı 1906



Azərbaycan mətbuatı tarixində ilk satirik jurnal olan “Molla Nəsrəddin” 1906-cı il aprel ayının 7-də Tiflisdə “Qeyrət” mətbəəsində nəşrə başlamışdır. XX əsrin əvvəllərində Rusiya və Azərbaycanda mövcud olan mürəkkəb ictimai-siyasi şəraitdə meydana gəlmiş jurnal müəyyən fasilələrlə iyirmi beş il çap olunmuşdur. Əvvəlcə Tiflisdə (370 nömrəsi), az bir müddət Təbrizdə (8 nömrəsi), sonra isə Bakıda (390 nömrəsi) fəaliyyət göstərmişdir. Jurnalın redaktoru böyük ədib, görkəmli satirik publisist Cəlil Məmmədquluzadə olmuşdur.

Həftədə bir dəfə hər sayı 8 səhifə həcmində nəşr olunan rəngli və şəkilli satira jurnalında ictimai bəlaların tənqid və ifşası əsas yer tuturdu. Dövrün ziyalıları jurnal vasitəsilə cəmiyyətdəki kəsirləri açıb göstərməklə doğma xalqın ictimai-siyasi şüurunu inkişaf etdirmək, onu dünyanın ən qabaqcıl, mədəni xalqları sırasına çıxarmaq istəyirdilər.

Jurnalın “Molla Nəsrəddin” adlandırılması həmişə zülmə, nadanlığa, haqsızlığa gülmüş, güldürmüş, düşündürmüş şifahi xalq ədəbiyyatı qəhrəmanı Molla Nəsrəddinin adı ilə bağlıdır. Mirzə Cəlil də Molla Nəsrəddinin dili ilə xalqın dediyini bəyan edir, onu güldürür, düşündürür, həm də yol göstərir.

Jurnal ilk nömrəsindən Azərbaycan dilinin varlığı və təmizliyi uğrunda mübarizə meydanına atılmış, bütün fəaliyyəti dövründə dil haqqında müxtəlif janrlarda saysız-hesabsız əsərlər çap olunmuşdur. “Molla Nəsrəddin”də atalar sözləri, lətifələr, poçt qutusu, satirik elanlar, tərcümeyihallar, lüğətlər, bir para hikmətli sözlər, tapmacalar, sual-cavab, etiraf və onlarla janrlardan istifadə edilmişdir.

Bir neçə qələm sahibi- poeziyamızda inqilabi satiranın banisi M.Ə.Sabir, ictimai tərəqqi yolunu maarif və mətbuatın inkişafında görən ziyalı Ö. F.Nemanzadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi və s. kimi ziyalılar “Molla Nəsrəddin” səhifələrində öz satirik əsərləri ilə fəal iştirak edirdilər.

“Molla Nəsrəddin”in yaradıcı heyətində realist rəssamların da çox böyük rolu olmuş, jurnalın dərin məzmunlu karikaturalarını Rötter, Şmerlinq, Ə.Əzimzadə çəkmiş, Təbriz nömrələrinin rəssamı isə Əli Behzad olmuşdur.

Molla Nəsrəddin jurnalı təkcə Azərbaycanda, Qafqazda və Rusiyada deyil, Asiya və Afrikanın, Şərqi Avropanın bir çox mərkəzlərində, Daşkənddə, Aşqabadda, Həştərxanda, Ufada, Səmərqənddə, Tehranda, İstanbul, Qahirə və s. yerlərdə yayılmış, onun müxtəlif millətlərdən milyonlarla oxucuları olmuşdur. Jurnalın tarixi dövrü, üslub və sənətkarlıq xüsusiyyətləri, fikirlərə, ağıllara təsiri ilə bir çox şərqşünas alimlər maraqlanmış, jurnal haqqında məqalələr, tədqiqat əsərləri yazmışlar.

“Molla Nəsrəddin” jurnalının yeni nəşrinin meydana çıxması Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin imzaladığı “Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında” 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə bağlıdır.

Ə d ə b i y y a t

“Molla Nəsrəddin” jurnalı və Gəncə ədəbi mühiti: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı : 5716.01 /S. A. Namazova; AMEA, Nizami ad. Ədəbiyyat İn-tu.-Bakı: 2014.-22 s.

“Molla Nəsrəddin” dərgisinin yaranma tarixi //Ədəbiyyat qəzeti .-2014.-11 aprel.- S.2.

“Molla Nəsrəddin” İslam dünyasında böyük bir yenilik idi//Mədəniyyət .-2015.- 23 yanvar.- S. 10.

www.anl.az/down/meqale/.../74185.htm

https://az.wikipedia.org/.../Molla_Nəsrəddin_(ju..

https://www.facebook.com/.../Molla-Nəsrəddin-...

Tarixi Abidələrin Mühafizəsi Günü 1983

Aprelin 18-i dünyada Beynəlxalq Abidələr və Tarixi Yerlər Günü kimi qeyd olunur.

Bu əlamətdar gün Tarixi Yerlər və Abidələrin Mühafizəsi Şurasının (İCOMOS) təklifi üzrə UNESCO tərəfindən 1983-cü ildə təsis olunmuşdur. Məqsəd insanların diqqətini abidələrin və tarixi yerlərin qorunmasına yönəltməkdir.

Abidələr və tarixi yerlər öz görkəmləri ilə xalqlara hər an kimliyini, nəyə qadir olduğunu xatırladır, vətən sevgisi və ona sadiqlik hisslərini aşılayır. Xalqın mənəvi xəzinəsinin, "mən"inin cəmləşdiyi bu maddiyyat insanlara ulu əcdadlarından danışır, milli özünüdərkin formalaşmasında mühüm rol oynayır. Abidələrin və tarixi yerlərin dağıdılması xalqın, millətin varlığının məhvi deməkdir.

Hazırda dünyada minlərlə abidə məhv olmaq təhlükəsindədir. Bu baxımdan Beynəlxalq Abidələr və Tarixi Yerlər Gününün təsis olunması böyük əhəmiyyətə malikdir.

Ölkəmizin hər yerində yaşı əsrləri və minillikləri əhatə edən tarixi abidələr mövcuddur. Bütün bunlar xalqımızı torpağa, əcdadlarına bağlayan qırılmaz bağlardır. Azıx mağarasından tapılmış və azıxantrop adlandırılan qədim insanın çənə sümüyü Azərbaycanın dünyada ən qədim ibtidai məskənlərindən biri olmasını sübut edir. Qobustanda aşkar edilmiş yaşayış məskənləri bu ərazidə ən qədim dövrlərdən insanların məskunlaşdığını təsdiqləyir.

Ölkəmizin ərazisində Manna, daha sonralar cənubda Atropatena dövlətlərinin yaranması ilə bağlı şəhərlər salınıb, müdafiə tikililəri, əzəmətli qala divarları inşa edilmişdir. Qafqaz Albaniyası dövründə şəhərsalma sahəsində mühüm addımlar atılmışdır. Qəbələ şəhərinin möhkəm qala divarları, saxsı borularla çəkilmiş su kəməri, Dəmirqapı keçidində daşdan tikilmiş müdafiə sistemi, Çıraqqala, Ləkit kəndindəki dairəvi xristian məbədi və digər yerlər şəhərsalma mədəniyyətinin yüksək səviyyəsini göstərir. Ümumiyyətlə, islamdan əvvəl və sonra ölkəmizin ərazisində qiymətli abidələr inşa olunmuşdur. Orta əsrlərə aid abidələr (Möminə Xatun, Qarabağlar, Gülüstan, Bərdə türbələri, Şirvanşahlar sarayı, Şəki xan sarayı, Şuşa şəhərinin abidələri və s.) nəinki Şərq, hətta dünya memarlığının ən gözəl incilərindəndir. Bu məqamda ulu öndər Heydər Əliyevin müdrik kəlamlarını qeyd etmək yerinə düşər: "Biz tarixi keçmişimizə nəzər salarkən, ulu babalarımızın yaratdığı və indiyə qədər yaşayan abidələrlə, qalalarla, şəhərlərlə, heykəllərlə, yollarla-yaradılan hər bir şeylə fəxr edir və bunları yaradanları daim xatırlayır, onlara öz minnətdarlığımızı bildiririk".

Abidələr və tarixi yerlərimizin məhv olmaq təhlükəsi ölkəmizin bəzi bölgələrindən də yan keçməyib. Tor-

paqlarımızın 20 faizini işğal etmiş Ermənistanın hərbi birləşmələri milli mədəniyyət abidələrimizi qəddarcasına dağıtmışlar. Erməni terrorçuları tərəfindən zəbt olunmuş qədim Azərbaycan torpaqları olan Dağlıq Qarabağ və ona bitişik rayonlarda 13 dünya əhəmiyyətli - 6 memarlıq və 7 arxeoloji, 292 ölkə, 330 yerli əhəmiyyətli memarlıq, arxeoloji, bağ, park, monumental və xatirə abidələri, 15 dekorativ sənət nümunəsi qalmışdır. Həmçinin bu ərazilərdə 40 mindən artıq əşyanın toplandığı 22 muzey, yüzlərlə mədəni-maarif müəssisələri də düşmən tapdağı altındadır.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 2 avqust tarixli Qərarı ilə təsdiq edilmiş dövlət tərəfindən mühafizə olunan daşınmaz tarix və mədəniyyət abidələrinin siyahısında Qobustan qoruğunda 1067 sayda dünya əhəmiyyətli, "İçərişəhər" Tarix-Memarlıq Qoruğunda 3 dünya, 93 ölkə, 2568 yerli əhəmiyyətli, "Qala" Tarix-Etnoqrafiya Qoruğunda 7 ölkə, 234 yerli, "Nardaran" Tarix-Mədəniyyət Qoruğunda 1 dünya, 5 ölkə, 7 yerli, "Atəşgah" Tarix-Memarlıq Qoruğunda 1 dünya əhəmiyyətli tarixi abidə qeydə alınmışdır. Son illər ərazidə 1700-dək yeni abidə aşkar olunub. Tariximizin təcəssümü olan bu abidələr turizm baxımından da böyük əhəmiyyət daşıyır.

Tarixi abidələrimizin qorunması və gələcək nəsillərə çatdırılması sahəsində dövlətimizin başçısı İlham Əliyevin, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın ölkə daxilində və xaricində həyata keçirdikləri böyük işlər hər kəs üçün ən gözəl örnəkdir.

İçərişəhər memarlıq kompleksi, Qobustan Dövlət Tarixi-Bədii Qoruğu UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmişdir. Qobustandakı muzey 2013-cü ildə Avropanın ən yaxşı muzeyləri sırasında olmuşdur. Hazırda digər tarixi yerlər və abidələrimizin də bu siyahıya daxil edilməsi istiqamətində böyük işlər aparılır.

Milli mədəni irsin qorunmasını təmin etmək, "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasını həyata keçirmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq olunmuş "Daşınmaz tarix və mədəniyyət abidələrinin bərpası, qorunması, tarix və mədəniyyət qoruqlarının fəaliyyətinin təkmilləşdirilməsi və inkişafına dair 2014-2020-ci illər üzrə Dövlət Proqramı" isə bundan sonra görüləcək işlərin istiqamətini dəqiq müəyyən edən qiymətli bir sənəddir. Bu sənədə daşınmaz tarix-mədəniyyət abidələrinin yeni siyahısının tərtibi, bərpa-konservasiya işlərinə dair normativ sənədlərin beynəlxalq standartlara uyğunlaşdırılması, qoruqların maddi-texniki bazasının gücləndirilməsi, yüksəkixtisaslı kadrların hazırlanması, beynəlxalq təşkilatlarla əməkdaşlığın inkişafı kimi vacib məsələlər daxil edilmişdir.

Ə d ə b i y y a t

Kazımzadə, E. Azərbaycanın qoruq-muzeyləri və onların milli mənəvi dəyərlər sistemində yeri: kulturol. üzrə fəls. d-ru e. dər. a. üçün təq. ed. dis-nın avtoreferatı: 24.00.03. /E.Kazımzadə; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Döv. Mədəniyyət və İncəsənət Un-ti.- Bakı, 2011.- 19 s.

Tarixin daş yaddaşı: metodik vəsait /tərtibçi G.Səfərəliyeva; red.: K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2009.- 67 s.

İlyasov, Z. Tarixi abidələrin ensiklopediyası hazırlanır /Z.İlyasov //İqtisadiyyat.-2012.- 27 aprel-3 may.- S.8.

Nərimanoğlu, M. Minilliklərin yadigarları, yaxud da daşlaşmış mədəniyyət nümunələri: 18 aprel Abidələrin Beynəlxalq Mühafizə Günüdür /M.Nərimanoğlu //Azərbaycan.- 2012.- 18 aprel.- S.7.

"Tarixi abidələr bu gün və sabah: mühafizə problemləri": Qoruq və tarixi abidələrin mühafizləri üçün seminar-treninq //Mədəniyyət.-2014.- 8 avqust.- S.4.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü 1996



Kitab və müəlliflik yaranma anından bir-biri ilə ayrılmaz əlaqədə, daimi təmasda olan və bir-birini tamamlayan anlayışlar, məfhumlardır. Əslində isə müəlliflik hüququ əsər anlayışı ilə bağlı olduğundan onun tarixi daha qədimdir, insan mədəniyyətinin və biliklərin uzaq keçmişindən bəhrələnən məhsuldur. Antik zamanlarda yazının kəşfi, ieroqlifik yazının əlifba yazısına çevrilməsi şəxsi müəlliflik dərketməsini təsdiqləmişdi. Elə bu səbəbdən də tam haqlı olaraq, müəlliflik hüququnun başlanğıcları antik zamanlardan hesablanır. Müasir müəlliflik hüququnun formalaşması isə məhz XV əsrdə kitab nəşri və tipoqrafiya işinin ixtirası ilə bağlıdır. Qutenberqin kəşfi müəllifliyi çap formasında kütləyə çatdırma imkanını yaratd və kitab nəşrinə olan marağı əqli ehtiyacları təmin edən XV əsrdə yaranan və kitabı əmtəə vasitəsinə çevirən bazar münasibətləri tərəfindən stimullaşdırıldı. UNESCO-nun 1996-cı il tarixli qərarı ilə hər il bütün dünyada 23 aprel Beynəlxalq Kitab və Müəllif Hüquqları Günü kimi qeyd edilir. YUNESKO-nun məlumatına əsasən 23 aprel tarixi İspaniya əyaləti Kataloniya ilə bağlıdır və Müqəddəs Georgi günü kimi səciyyələnir. Həmin gün hər hansı satılan kitaba ənənəvi olaraq bir qızılgül qoşulurmuş. Digər əsaslı səbəb bir sıra məşhur yazıçı və şairlərin anadan olma və ya vəfat etmə (Migel de la Servantesin, Vilyam Şekspirin, Moris Dryüonun, İnka Qarsilaso de la Veqa, Vladimir Nabokovun, Azərbaycanın məşhur sərkərdəsi, artilleriya üzrə dərsliklərin müəllifi general Şıxlinskinin) tarixi ilə bağlıdır.

Son illər Azərbaycan rəhbərliyinin uzaqgörən daxili və xarici siyasəti nəticəsində müəllif hüquqları sahəsində ölkəmizin beynəlxalq əlaqələri genişlənmişdir. Azərbaycan 1996-cı ildən Ümumdünya Əqli Mülkiyyət Təşkilatının üzvü, Ədəbi-bədii əsərlərin qorunması haqqında Bern Konvensiyasına və Müəlliflik hüququ haqqında Ümumdünya Konvensiyasına daxil olmuşdur. Eləcədə bir sıra digər ikitərəfli və çoxtərəfli müqavilələrin iştirakçısıdır.

"Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" (1996), "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılığa qarşı mübarizə haqqında" (2012) Azərbaycan Respublikasının Qanunları bu sahədə dövlət siyasətinin əsas göstəricisidir.Qeyd edək ki, dünyada "Ümumdünya kitab və müəllif hüquqları günü" mövzusunda tədbirlər 1996-cı ildən, Azərbaycanda isə 2001-ci ilin 23 aprel tarixindən keçirilir.

Ədəbiyyat

Əliyeva, M. Kitaba hörmət müqəddəs borcdur: 23 aprel Dünya Kitab və Müəllif Hüquqları Günüdür /M.Əliyeva //Mədəniyyət.- 2014.- 23 aprel.- S.15.

"Mədəni irsin qorunması və erməni saxtakarlıqları": Bakıda Dünya Kitab və Müəlliflik Hüququ Günü münasibətilə konfrans keçirilib // Mədəniyyət .-2014.- 25 aprel.- S. 4.

Mehparə. 23 aprel "Dünya kitab və müəllif hüquqları günü"dür /Mehparə //Mədəniyyət.- 2012.- 20 aprel.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

1 may
Gün çıxır 06:41
Gün batır 20:53

31 may
Gün çıxır 06:13
Gün batır 21:23

MAY

21 aprel-
21 may

Buğa bürcünün Nişanı Yerdir. Veneranın himay□sind□dir. Gün□şin Buğa bürcünd□n keçdiyi dövrd□ doğulanlar t□bi□tc□ emosional olurlar.

B.	1
B.E.	2
Ç.A.	3
Ç.	4
C.A.	5
C.	6
Ş.	7
B.	**8**
B.E.	9
Ç.A.	10
Ç.	11
C.A.	12
C.	13
Ş.	14
B.	15
B.E.	16
Ç.A.	**17**
Ç.	**18**
C.A.	19
C.	20
Ş.	21
B.	22
B.E.	23
Ç.A.	24
Ç.	25
C.A.	26
C.	27
Ş.	28
B.	29
B.E.	30
Ç.A.	31

- **Şuşanın işğalı günü (08.05.1992)**
- *Faşizm üzərində Qələbə Günü (09.05.1945)*
- *Beynəlxalq Ailə Günü (15.05.1994)*
- ***Laçın rayonunun işğalı günü (17-18.05.1992)***
- *Beynəlxalq Muzeylər Günü (18.05.1977)*
- *Respublika Günü (28.05.1990)*

875 il Nizami Gəncəvi 1141-1209

XX əsrin 70-ci illərində respublikamızda klassik ədəbi irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlamışdır. Həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə qarşıya kompleks vəzifələr qoyaraq dahi şairin irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır. 1981-ci ilin avqustunda şairin anadan olmasının 840 illiyi haqqında qərar isə nizamişünaslıqda əsaslı dönüş yaratmışdır. 2012-ci ildə isə demək olar ki, bütün dünyada Nizami sözünün təntənəsi yaşanırdı. YUNESKO-nun baş direktoru İrina Bokovanın Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə bəyanatı, həm də onu sübut etdi ki, Azərbaycan şairi bütün dünyaya məxsusdur. Baş direktor Nizaminin yubileyinin keçirilməsini mədəniyyətlərarası dialoqa çağırış kimi səciyyələndirmişdi...

68 illik ömründə oxumaqdan yorulmayan, hər gizli xəzinədən bir dürr çıxarıb onu ustalıqla sahmana salan, "Oxuyan bəyənib afərin desin" söyləyən Nizami indiyədək öz ünvanına ancaq "Əhsən!" dedirdir. Zaman və nəsillər dəyişir, onun yaradıcılığının dəyəri, kəlamlarının hikməti zərrə qədər də azalmır, şair dünya ədəbiyyatına bəxş etdiyi 5 poemadan ibarət "Xəmsə"si, "beşliyi" ilə dünyanın beş qitəsini 21-ci əsrdə də heyrətləndirməkdə davam edir...

MAY 2016

Milli ədəbiyyat

Yazıçı, publisist Sultanov Eynəli bəy Çölbəyi bəy oğlunun (05.05.1866-05.06.1935) anadan olmasının 150 illiyi 159

Əməkdar mədəniyyət işçisi, nasir Qurbanov Əhmədağa Əkbər oğlunun (Əhmədağa Muğanlı) (10.05.1926-04.08.2001) anadan olmasının 90 illiyi 160

Xalq şairi Rüstəmxanlı Sabir Xudu oğlunun (20.05.1946) anadan olmasının 70 illiyi 161

Folklor

Aşıq-şair Qarayev Bəhmən İbrahim oğlunun (Aşıq Bəhmən Göyçəli) (01.05.1901-13.11.1976) anadan olmasının 115 illiyi 162

Dünya ədəbiyyatı

Tacikistanın Xalq şairi Tursunzadə Mirzonun (02.05.1911-24.09.1977) anadan olmasının 105 illiyi 163

Hind yazıçısı, ictimai xadim Taqor Rabindranatın (07.05.1861-07.08.1941) anadan olmasının 155 illiyi 164

Rus yazıçısı Bulqakov Mixail Afanasyeviçin (15.05.1891-10.03.1940) anadan olmasının 125 illiyi 165

Qazaxıstanın Xalq yazıçısı, şair, ədəbiyyatşünas, ictimai-siyasi xadim Süleymenov Oljas Öməroviçin (18.05.1936) anadan olmasının 80 illiyi 166

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Ağabəyov Mayis Əlişir oğlunun (01.05.1941) anadan olmasının 75 illiyi 167

Əməkdar rəssam Əzimov Cəbrayıl Əlimuxtar oğlunun (07.05.1926-10.07.1969) anadan olmasının 90 illiyi 168

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, professor Əzimov Aydın Kərim oğlunun (Aydın Əzim Kərimoğlu) (01.05.1946) anadan olmasının 70 illiyi 169

Teatr.Kino

Xalq artisti, rejissor Dadaşov Soltan Baba oğlunun (27.05.1906-07.09.1969) anadan olmasının 110 illiyi 170

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Paşayev Baxşeyiş Xanəhməd oğlunun (01.05.1936-12.07.1992) anadan olmasının 80 illiyi 171
Azərbaycanın Milli Qəhrəmanı Əliyev İlham Müzəffər oğlunun (05.05.1961-19.08.1990) anadan olmasının 55 illiyi 172
Azərbaycanın Milli Qəhrəmanı Yəhyayev Elşad Məmmədhənifə oğlunun (05.05.1966-20.06.1992) anadan olmasının 50 illiyi 173
Azərbaycanın Milli Qəhrəmanı Həsənov İlham Gülbala oğlunun (06.05.1976-17.03.1995) anadan olmasının 40 illiyi 174

Siyasət.Hüquq.Hərbi iş

General-mayor Abbasov Akim Əli oğlunun (25.05.1911-29.02.1992) anadan olmasının 105 illiyi 175

Tarix

Tarix elmləri doktoru, professor Şükürov Kərim Kərəm oğlunun (10.05.1956) anadan olmasının 60 illiyi 176
İran tarixçisi Qumi Qazi Əhmədin (18.05.1546-1606) anadan olmasının 470 illiyi

Fəlsəfə.İqtisadiyyat

Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru, professor Ağamirov Midhət Mirmusa oğlunun (15.05.1921-1995) anadan olmasının 95 illiyi 177
Əməkdar elm xadimi, fəlsəfə elmləri doktoru Qasımov Mehbalı Məhəmməd oğlunun (18.05.1906-07.1963) anadan olmasının 110 illiyi 178

Mədəniyyət.Maarif.Təhsil

Akademik Hacıyev Tofiq İsmayıl oğlunun (01.05.1936) anadan olmasının 80 illiyi 179
Azərbaycanın ilk fizika alimi, tanınmış publisist və teatrşünas, milli ali təhsil qurucularından biri Məlikov Rəhim bəy Mehrəli bəy oğlunun (02.05.1886-23.02.1936) anadan olmasının 130 illiyi 180
İlk maarifçi qadınlardan biri Məlikova-Abayeva Hənifə xanım Aslanbəy qızının (05.05.1856-1929) anadan olmasının 160 illiyi 181
Teatrşünas, sənətşünaslıq doktoru, professor Allahverdiyev Mahmud Qara oğlunun (15.05.1931-02.12.1999) anadan olmasının 85 illiyi 182
Filologiya elmləri doktoru Hüseynov Akif Məmməd oğlunun (26.05.1941) anadan olmasının 75 illiyi
Xalq artisti Sənani Ofeliya Hacağa qızının (26.5.1941) anadan olmasının 75 illiyi 183

İdman

Basketbolçu, idman ustası Məmmədyarov Əliyar Müslüm oğlunun (11.05.1936-26.02.1970) anadan olmasının 80 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Mehdiyeva Səlimə İbrahim qızının (21.05.1941) anadan olmasının 75 illiyi

Fizika-riyaziyyat elmləri doktoru, professor Axundov Məhəmməd Bağır oğlunun (24.05.1951) anadan olmasının 65 illiyi

Akademik Hacıyev Asəf Hacı oğlunun (29.05.1951) anadan olmasının 65 illiyi **184**

Kimya.Biologiya.Tibb

Akademik Abdullayev Cahangir Məmməd oğlunun (01.05.1901-04.01.1973) anadan olmasının 115 illiyi **185**

AMEA-nın müxbir üzvü Qurbanov Maqsud Rüstəm oğlunun (09.05.1941) anadan olmasının 75 illiyi

Akademik Axundov Vəli Yusif oğlunun (14.05.1916-1986) anadan olmasının 100 illiyi **186**

Biologiya elmləri doktoru Allahverdiyev Surxay Rəhim oğlunun (21.05.1941) anadan olmasının 75 illiyi

Əməkdar ixtiraçı Məmmədov Məmmədağa Əhməd oğlunun (30.05.1926-23.01.1971) anadan olmasının 90 illiyi

Texnika.Mühəndis işi

AMEA-nın müxbir üzvü Əfəndiyev Qalib Məmməd oğlunun (09.05.1946) anadan olmasının 70 illiyi

Tarixdə bu gün

Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü (03.05.1993)

Əlillərin hüquqlarının müdafiəsi Günü (05.05.1992)

İnsan Alverinə Qarşı Mübarizə Günü (06. 05.2009)

Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü (08.05.1953)

Şuşa rayonunun işğalı günü (08.05.1992) **187**

Faşizm Üzərində Qələbə Günü (09.05.1945)

Beynəlxalq Ailə Günü (15.05.1994)

Ümumdünya İnformasiya Cəmiyyəti Günü (17.05.2006)

Laçın rayonunun işğalı günü (17-18.05.1992) **188**

Beynəlxalq Muzeylər Günü (18.05.1977)

Ümumdünya Metrologiya Günü (20.05.1875)Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik" Günü (21.05.2001)

Ekologiya və Təbii Sərvətlər Nazirliyi Əməkdaşlarının Peşə Bayramı Günü (23.05.2007)

M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının (25.05.1936) yaradılmasının 80 illiyi

Respublika Günü (28.05.1918) **189**

Ümumdünya Tütünlə Mübarizə Günü (31.05.1987)

Cənubi Qafqazın müsəlman-azərbaycanlı əhalisi arasında Rusiya imperiyasının I Dövlət Dumasına seçkilər keçirilib. Dumaya beş azərbaycanlı deputat seçilib (31.05.1906)

150 illiyi

Eynəli bəy Sultanov 1866-1935

Yazıçı

Eynəli bəy Çölbəyi oğlu Sultanov (Eynəli bəy Sultan) 1866-cı il may ayının 5-də (bəzi mənbələrdə 1862/1863) Naxçıvan şəhərində anadan olmuşdur.

Bəzi mənbələrdə təhsil aldığı yer qeyri-dəqiq göstərilsə də, akademik İsa Həbibbəylinin apardığı tədqiqatlarda onun 1880-1886-cı illərdə İrəvan kişi gimnaziyasında təhsil aldığı göstərilir. E.Sultanov qabaqcıl rus və Avropa mədəniyyətini dərindən mənimsəmiş və XIX əsrin 80-ci illərindən Naxçıvanda maarif və mədəniyyət sahəsində fəaliyyət göstərmişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə Naxçıvan şəhərində "Ziyalı məclisi" (bəzi mənbələrdə "Ziyalılar məclisi"), Naxçıvan teatrının təməlini qoyan "Müsəlman şiə incəsənəti və dram cəmiyyəti" (bəzi mənbələrdə "Müsəlman incəsənəti və dram cəmiyyəti") təşkil edilmiş, tamaşalar göstərilmişdir. Eynəli bəy ilk dəfə olaraq 1883-cü il may ayında Hacı Nəcəf Zeynalovun evində M.F.Axundzadənin "Müsyo Jordan və dərviş Məstəli şah" əsərini tamaşaya hazırlamışdır.

Onun "Ziyalı məclisi"ndə Naxçıvanın tanınmış sənət adamları, savadlı gənclər bir araya yığışaraq bölgənin maarif cəhətdən inkişafına dair müzakirələr aparır, nəcib və xeyirxah işlər görürdülər. Bu insanlar sonralar öz yaradıcılıqları ilə Azərbaycanın tanınmış ziyalıları kimi ad qazandılar.

1892-ci ildə Naxçıvanda yaxın dostu Əsəd ağa Kəngərli ilə birlikdə gizli mətbəə təşkil edərək müxtəlif məzmunlu bəyannamələr çap etdirmişdir. Lakin təqiblərə məruz qalan yazıçı Türkiyənin Qars şəhərinə getmiş, dörd ay orada işlədikdən sonra yenidən Naxçıvana qayıtmışdır.

XIX əsrin 80-ci illərindən başlayaraq Eynəli bəy bir çox qəzet, jurnal və məcmuələrdə müxtəlif mövzularda yazılar dərc etdirmiş və ictimaiyyət arasında peşəkar publisist kimi tanınmışdır. 1905-1908-ci illərdə "Kaspi" qəzetinin İrəvan və Naxçıvan üzrə xüsusi müxbiri, Tiflisdə yaşadığı illərdə isə bir çox mətbuat orqanlarının, o cümlədən "Molla Nəsrəddin" jurnalının ən mükəmməl yazarlarından biri olmuşdur. Öz hekayələrində, eləcə də "Tatarka" ("Azərbaycan qızı" 1884) pyesində hakim siniflərin özbaşınalığını, dini fanatizmi, qadın hüquqsuzluğunu kəskin tənqid etmişdir.

Din xadimlərinin və hökumət dairələrinin ciddi təqiblərinə rast gələn Eynəli bəy Tiflis şəhərinə köçmüş və ömrünün sonuna qədər orada "Sumbatov" (hazırda M.F.Axundzadə küçəsi) küçəsindəki 11 saylı mənzildə yaşamışdır. Uzun müddət Tiflisdə fəaliyyət göstərən qadın gimnaziyasında rus dili dərslərini tədris etmiş, sonralar isə ana dili müəllimi və sinif nəzarətçisi vəzifəsində çalışmışdır.

Eynəli bəy Sultanov 1935-ci il may ayının 6-da Tiflis şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş hekayələri /E.Sultanov.- Bakı:Azərnəşr, 1966.- 146 s.

Eynəli bəy Sultanov: taleyi və sənəti /elmi red. İ.Həbibbəyli; red. E.Yurdoğlu.- Bakı: Elm və təhsil, 2011.-239 s

Ədəbiyyat və teatrda silinməyən iz qoyan maarifçi ziyalı: Dəyərli qələm sahibi Eynəli bəy Sultanov //Azadlıq.- 2013.- 2 iyun.- S.14.

Məmmədov, E. Eynəli bəy Sultanovun bədii yaradıcılığında şifahi xalq şeiri /E.Məmmədov //AMEA Naxçıvan Bölməsinin Xəbərləri. İctimai və humanitar elmlər seriyası.-2014.- №1.- S.194-202.

Yurdoğlu, E. Azərbaycan folklorşünaslıq elmi və Eynəli bəy Sultanovun folklorşünaslıq görüşləri /E. Yurdoğlu //AMEA-nın Naxçıvan bölməsinin xəbərləri:İctimai və humanitar elmlər seriyası.-2014.- C.10.- № 1.- S.237-244.

90 illiyi

Əhmədağa Muğanlı 1926-2001

Nasir

Ə d ə b i y y a t

Dağ dağa söykənər /Ə. Qurbanov.- Bakı: Gənclik, 1996.- 224 s.

Gecikmiş etiraf: povestlər /Ə.Muğanlı; red. S.Məsiyev.-Bakı: Yazıçı, 1991.- 328 s.

Ömürdən yeddi yarpaq: hekayələr və povestlər /Ə.Muğanlı.- Bakı: Yazıçı, 1984.- 281 s.

Alarlı, B. Əhmədağa Muğanlının "Şəhriyar əfsanəsi" povesti...: Əsərdə qədim qəhrəmanlıq səhifələrindən söhbət açılır /B.Alarlı //Xalq cəbhəsi.-2015.- 5 may.- S.14.

Fərəcov, S. Əhmədağa Muğanlını yaşadan kino lentləri /S.Fərəcov //Mədəniyyət.-2013.- 2 avqust.- S. 15.

Kazımzadə, A. Ömrünü milli kinomuza həsr edən sənətkar: Əhmədağa Muğanlı - 85 /A.Kazımzadə //Mədəniyyət.- 2011.- 3 iyun.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Əhmədağa Əkbər oğlu (bəzi mənbələrdə Ələkbər) Qurbanov (Əhmədağa Muğanlı) 1926-cı il may ayının 10-da Biləsuvar rayonunda anadan olmuşdur. Orta məktəbin 10-cu sinfində oxuyarkən Böyük Vətən müharibəsi zamanı hərbi xidmətə çağırılmış, 1944-1946-cı illərdə ordu sıralarında xidmət etmişdir. Ordudan tərxis olunduqdan sonra orta məktəbi gümüş medalla bitirmişdir.

Əhmədağa Muğanlı 1947-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuş, 1952-ci ildə həmin fakültəni müvəffəqiyyətlə bitirmişdir. Əmək fəaliyyətinə Biləsuvar rayonunun Bəyunlu kənd məktəbində müəllimliklə başlamış, sonralar "Bakı kommunisti" qəzeti redaksiyasında ədəbi işçi kimi çalışmışdır.

Ədəbi fəaliyyətə 1951-ci ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunan "Biz qol çəkirik ki..." hekayəsi ilə başlamış, dövri mətbuatda müntəzəm olaraq yazıları getmişdir. "Vicdan" (1959), "Şəhriyar əfsanəsi" (1973), "Şikəstə" (1979), "Gecikmiş etiraf" (1991) və s. əsərləri çap olunmuşdur.

1953-cü ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Sənədli-xronikal və elmi-kütləvi filmlər şöbəsinin baş redaktoru vəzifəsində işləmişdir. 1962-ci ildə Azərbaycan Yazıçılar Birliyinin və Kinematoqrafçılar Birliyinin üzvü seçilmişdir. 20-yə yaxın sənədli filmin - "Alagöz yaylağında" (1955), "Nizami" (1959), "Sabir" (1962) "Muğanın dastanı" (1968), "Çobanbayatı" (1972), "Mən sərhədçiyəm" (1976) və s. filmlərin ssenari müəllifidir.

Onun ssenariləri əsasında "Dağlarda döyüş" (1968), "Od içində vahə" (1982), "Qocalar..., qocalar" (1982), "Doğma sahillər" (1988) bədii filmləri çəkilmişdir.

1985-ci ildə (bəzi mənbələrdə 1983-cü il) Xalq şairi S.Rüstəmlə birgə ssenarisi əsasında çəkilmiş xalq qəhrəmanı Qaçaq Nəbidən bəhs edən "Atları yəhərləyin" filmi nəinki Azərbaycanda, həm də respublikadan kənarda da böyük uğur qazanmış, 1986-cı ildə filmin yaradıcı qrupu, o cümlədən Əhmədağa Muğanlı Azərbaycan Dövlət mükafatı laureatı adına layiq görülmüşdür.

Görkəmli yazıçı ictimai fəaliyyətlə də məşğul olmuş, 1969-1971-ci illərdə Oktyabr (indiki Yasamal) rayon Xalq deputatlar Sovetinin deputatı seçilmişdir.

Azərbaycan ədəbiyyatı və kino tarixində xidmətlərinə görə 9 SSRİ medalı və SSRİ Dövlət Kinematoqrafiya Komitəsinin Fəxri fərmanı, "SSRİ-nin əlaçı kinematoqrafçısı", "Sərhəd qoşunları əlaçısı" döş nişanları ilə təltif olunmuş, 1991-ci ildə isə "Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Əhmədağa Muğanlı 2001-ci il avqust ayının 4-də Bakı şəhərində vəfat etmişdir.

MAY

20

70 illiyi

Sabir Rüstəmxanlı

1946

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /S.Rüstəmxanlı.- Bakı: Şərq-Qərb, 2004.-344 s.

Dərdə əyilmə: [publisistika] /S.Rüstəmxanlı.-[Bakı]: [Qanun], [2013].- 671 s.

Ölüm zirvəsi: roman /S.Rüstəmxanlı.- Bakı: Qanun, 2013.-527 s.

Sunami: roman /S.Rüstəmxanlı.- Bakı: Qanun, 2011.- 180 s.

Bəşirov, S. Sabir Rüstəmxanlı: sərhədsiz ruhumuzun yolçusu: Portret cizgiləri /S.Bəşirov.- Bakı, 2006.-228 s.

Xəyal, S. Sabir Rüstəmxanlı: yaradıcılığı əsasında: [kitab Xalq şairi Sabir Rüstəmxanlının 60 illik yubileyinə ithaf olunur] /S. Xəyal; red. A.Musabəyli; ön söz müəl. F.Qaraoğlu.- Bakı: [MBM], 2012.- 103 s.

İ n t e r n e t d ə

www.anl.azwww.az.wikipedia.org

www.azyb.net

Sabir Xudu oğlu Rüstəmxanlı 1946-cı il may ayının 20-də Yardımlı rayonunun Hamarkənd kəndində anadan olmuşdur. Onbirillik məktəbi bitirdikdən sonra 1963-1968-ci illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. On bir yaşında yazdığı "Kəndim" adlı ilk şeiri 1957-ci ildə "Yeni kənd" rayon qəzetində dərc edilmişdir. 1964-cü ildə "Azərbaycan gəncləri" qəzetində çıxan "Kənd yolu" şeiri ilə şair ədəbi mühitə qədəm qoymuşdur.

1967-1978-ci illərdə əmək fəaliyyətinə "Ədəbiyyat və incəsənət" qəzetində kiçik ədəbi işçi kimi başlamış, sonralar ədəbi işçi, xüsusi müxbir, teatr və kino, tənqid və ədəbiyyatşünaslıq şöbələrinin müdiri, 1978-1990-cı illərdə "Yazıçı" nəşriyyatında incəsənət redaksiyasının müdiri, baş redaktorun müavini və baş redaktor vəzifələrində çalışmışdır.

Sabir Rüstəmxanlı 1976-cı ildə "Molla Nəsrəddin və folklor" mövzusunda dissertasiya müdafiə edərək filologiya elmləri namizədi alimlik dərəcəsi almışdır. 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1991-ci ildən isə Azərbaycan Yazıçılar Birliyinin katibliyinə seçilmişdir.

1989-1991-ci illərdə Müstəqil demokratik mətbuatın öncüllərindən olan "Azərbaycan" qəzetinin təsisçisi və baş redaktoru olmuşdur. 1990-cı ildə Azərbaycan Xalq Cəbhəsindən (AXC) Parlamentə deputat seçilmiş, həmçinin Qaçqınlarla İş Üzrə Komissiyanın sədri vəzifəsində çalışmışdır. 1991-ci ildə Azərbaycan Respublikası Mətbuat və İnformasiya naziri olmuş, 1995-ci ildə keçirilən parlament seçkilərində qalib gələrək həmin vəzifədən istefa vermişdir. Sonra Milli Məclisin III və IV çağırış deputatı seçilmişdir.

Sabir Rüstəmxanlının Azərbaycan ədəbiyyatının inkişafında, onun zənginləşməsində xidmətləri əvəzsizdir. Onun "Tanımaq istəsən" (şeirlər, 1970), "Sevgim, sevincim" (şeirlər, 1974), "Ömür kitabı" (publisistika, 1988), "Atamın ruhu" (hekayə, povest və pyeslər, 2002), "Xətai yurdu" (roman, 2003) və başqa kitabları bu gün də Azərbaycan oxucusunun sevərək oxuduğu kitablardır.

1982-ci ildə Azərbaycan komsomolu mükafatı, 1989-cu ildə isə M.F.Axundzadə adına ədəbi mükafatın laureatı olmuş, 1990-cı ildə Azərbaycan Jurnalistlər Birliyinin mükafatına, 1993-cü ildə "Qızıl qələm" mükafatına layiq görülmüşdür. Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətlərinə görə 2005-ci ildə Xalq şairi fəxri adını almışdır.

Sabir Rüstəmxanlı "Müstəqillik yollarında" (1-ci film, 2004), "Baba Dağ" (film, 2006), "Payızın 17 anı" (2007), "Zəlimxan dastanı" (2007), "Cavad xan" və s. bədii filmlərin ssenari müəllifidir. Əsərləri dünya xalqlarının bir çox dillərinə tərcümə olunmuşdur.

1992-ci ildə "Vətəndaş həmrəyliyi" partiyasını yaratmış və bugünədək onun sədridir.

115 illiyi

Bəhmən Göyçəli 1901-1976

Aşıq

Bəhmən İbrahim oğlu Qarayev (Aşıq Bəhmən Göyçəli) 1901-ci il may ayının 1-də Qərbi Azərbaycanın Göyçə mahalının Nərimanlı kəndində anadan olmuşdur. Uşaq yaşlarından atasını itirən aşıq yaradıcılığa çox erkən başlamışdır. Onun ilk ustad müəllimi Göyçə aşıq məktəbinə yeni bir abuhava gətirənlərdən biri olan aşıq Xəstə Bayraməli olmuşdur.

Aşıq Bəhmən Göyçəli ustad müəllimin yaradıcılığından bəhrələnmiş və qısa zaman kəsiyində sənətə olan tükənməz marağı sayəsində kamil sənətkar kimi tanınmışdır. Aşıq şeirinin bütün janrlarında gözəl əsərlər yaratmış, 70-ə qədər saz havası bəstələmişdir.

Aşıq Bəhmən nəinki Göyçə mahalını, eləcə də Azərbaycanın kənd və şəhərlərini gəzib-dolaşır, toy və bayram mərasimlərində iştirak edir, saz çalıb nəğmə, dastan qoşur, şeirləri ilə xalqın ruhunu oxşayırdı.

Azərbaycanlıların öz doğma el-obalarından qovulması Aşıq Bəhmənin yaradıcılığından da yan keçməmiş, bu el faciəsini şeir, təcnislərində əks etdirmişdir. Onun "Başın qara dumanlıdı" təcnisində, "Küsmə məndən" (Göyçə köçə-köçündə, 1948-ci il) adlı şeirində ermənilərin azərbaycanlılara qarşı deportasiya siyasəti ifşa edilir və xalqı mübariz olmağa səsləyirdi.

1994-cü ildə "Elm" nəşriyyatı tərəfindən Aşıq Bəhmən Göyçəlinin "Vətən, küsmə məndən" kitabı işıq üzü görmüşdür. Kitab saz, söz sərrafının oğlu Qaçay Bəhmənoğlu tərəfindən tərtib edilmişdir. 130 səhifəlik kitabda Aşıq Bəhmənin şeirləri, təcnisləri, gəraylıları, deyişmələri, iki dastanı toplanmışdır.

Bu gün də Aşıq Bəhmən Göyçəlinin adı el-obanın hafizəsində, el aşıqlarının sırasında hörmətlə çəkilir və yad edilir.

Bəhmən Qarayev (Aşıq Bəhmən Göyçəli) 1976-ci il noyabr ayının 13-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Vətən, küsmə məndən: şeirlər, təcnislər, gəraylılar, dəyişmələr, dastanlar /Bəhmən Göyçəli; tərt. ed. və topl. Q.Bəhmən oğlu.- Bakı: Elm, 1994.- 130 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

105 illiyi Mirzo Tursunzadə 1911-1977

Tacik şairi

Mirzo Tursunzadə 1911-ci il may ayının 2-də Tacikistan Respublikasının Qaratağ kəndində anadan olmuşdur. İlk təhsilini sovet məktəbində almış, 1925-ci ildə pedaqoji texnikuma daxil olmuşdur. 1930-cu ildə Tacikistan Maarif İnstitutunu bitirmişdir. Əmək fəaliyyətinə "Tacikistan komsomolu" qəzetində başlamış, ümumi şöbənin müdiri və qəzetin məsul katibi vəzifələrində işləmişdir. A.S.Puşkin adına Musiqili dram teatrında ədəbi hissənin rəhbəri olmuşdur.

Yaradıcılığa gənc yaşlarında həvəs göstərmiş, əsərlərini rus və tacik dillərində yazmışdır. 1932-ci ildə kiçik hekayələri, şeir və oçerkləri toplanmış ilk "Qələbə bayrağı" məcmuəsi çapdan çıxmışdır. XX əsrin 30-cu illərində "Hökm", "Xosrov və Şirin" poemalarını yazmış, Böyük Vətən müharibəsi illərində isə folklor motivləri əsasında "Tahir və Zöhrə" poemasını çap etdirmişdir.

Ədibin ideya-bədii cəhətdən ən kamil əsəri olan "Şeirlər" (1939) adlı kitabında dünya müharibələrinin ağrı-acıları ifadə olunmuş, xalqlar dostluğu və vətənpərvərlik tərənnüm edilmişdir. Böyük Vətən müharibəsindən sonra M.Tursunzadə yaradıcılığının başlıca mövzularını tacik xalqının taleyi, onun azadlığı uğrunda mübarizə təşkil edirdi. Bu cəhətdəndə şairin "Hindistan balladası" (1947-1948), "Mən azad Şərqdənəm" (1950) silsilə əsərləri xüsusilə diqqət cəlb etmişdir. Sülh uğrunda mübarizə, azadlıq mübarizəsi "Asiyanın səsi" (1956), "Əbədi nur" (1957) və s. poemalarının başlıca mövzuları olmuşdur. "Arabaçı Həsən" (1954) adlı epik poemasında isə şair istedadındakı epik keyfiyyət bütün qabarıqlığı ilə özünü göstərmişdir.

Görkəmli şairin həmçinin Azərbaycana həsr edilmiş şeirləri və Azərbaycan poeziyasından nümunələri vardır. Onun şeirlərinin bir qismini Azərbaycan dilinə şair Qasım Qasımzadə tərcümə etmişdir.

1946-cı ildən Asiya və Afrika xalqları Həmrəylik Komitəsinin sədri və Tacikistan Yazıçılar İttifaqı İdarə Heyətinin sədri, 1959-cu ildən SSRİ Yazıçılar İttifaqı İdarə heyətinin katibi, həmçinin SSRİ Ali Sovetinin deputatı (2-9-cu çağrış) olmuşdur.

1948-ci ildə SSRİ Dövlət mükafatı, 1960-cı ildə Lenin mükafatı, 1961-ci ildə Tacikistanın Xalq şairi, 1967-ci ildə isə Sosialist Əməyi Qəhramanı adına, 1968-ci ildə "Hindistan balladası" şeirlər kitabına görə C.Nehru adına Beynəlxalq mükafata layiq görülmüşdür.

Mirzo Tursunzadə 1977-ci il sentyabr ayının 24-də vəfat etmişdir. 1978-ci ildə Reqar şəhəri onun adını daşımış, 1981-ci ildə isə beynəlxalq mükafat təsis edilmişdir. 1981-ci ildə Pamirin zirvələrindən birinə onun adı verilmişdir.

2011-ci ildə YUNESKO-nun qərarı ilə həm Tacikistanda, həm də bütün dünyada görkəmli tacik şairi M.Tursunzadənin 100 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

Ədəbiyyat

Asiyanın səsi: [şeirlər, poemalar] /M.Tursunzadə; tərc. ed. Q.Qasımzadə; [red. M.İbrahim].- Bakı: Azərnəşr, 1964.- 106 s.

M.Tursunzadə //Azərbaycan Sovet Ensiklopediyası.10 cilddə.- Bakı, 1986.- C.9.- S.384-385.

Избранные произведения: в 2-х томах /М.Турсунзаде.-М.: Худож. литература, 1985.

Вечный свет: стихотворения и поэмы /М.Турсунзаде.- М.: Худож. литература, 1981.- 431 с.

Махмодшоев, Ш.Ш. Традиции классической литературы в творчестве Мирзо Турсунзаде: автореферат ... канд.фил. наук.- Душанбе, 2000.- 35 с.

www.anl.az

www.az.wikipedia.org

155 illiyi Rabindranat Taqor 1861-1941

Hind yazıçısı

Rabindranat Taqor 1861-ci il may ayının 7-də Kəlküttə şəhərində anadan olmuşdur. İlk təhsilini Şərq seminariyasında almış, sonra təhsilini Benqaliya Akademiyasında davam etdirmişdir. Kəlküttə və London Universitetlərində ali təhsil almışdır. Benqal dilinin, tarix və mədəniyyətinin mahir bilicilərindən sayılırdı. Şeirlərini hələ uşaq ikən yazmağa başlamış, ilk şeir və məqalələri "Qyananker" jurnalında çap edilmişdir. Taqorun "Şairin tarixçəsi" adlı ilk poeması isə 1878-ci ildə işıq üzü görmüşdür.

XIX əsrin 80-ci illərinin əvvəllərində geniş ictimai-siyasi fəaliyyət göstərmiş, "Brahmo Çamac" dini-islahat və maarif cəmiyyətinin katibi olmuşdur.

1880-ci ildə Taqor "Mənzərələr və mahnılar", "Diyezlər və bemallar" adlı yeni şeirlər məcmuələrini nəşr etdirmişdir. 1883-cü ildə Hindistanın orta əsrlər həyatından bəhs edən "Bauthakuranir Hat" adlı ilk romanı və məhşur "Tərkidünya" pyesi çap olunmuşdur. Bu pyesdə tərkidünyalıq, mücərrəd fəlsəfi mühakimələr yazıçı tərəfindən pislənir, insan şəxsiyyəti və onun yer üzərində sevinci isə alqışlanırdı. Onun "Düşüncələr" adlı məqalələr və "Şəhər mahnıları" adlı şeir məcmuələri də məhz bu mövzuya həsr edilmişdir.

XX əsrin 90-cı illərində yetkin bir yazıçı, görkəmli ictimai xadim kimi tanınmış və "Manoşlar" (1890), "Qızıl qayıq" (1892), "Çitranqada" (1893), "Kotha" (1898) adlı bir sıra şeir məcmuələrini çap etdirmişdir. 1891-1892-ci illərdə ilk ictimai psixoloji romanlarından olan "Gözdə qum dənəsi" və "Fəlakət" romanlarını yazmış və bununla da benqal ədəbiyyatında bu janrın əsasını qoymuşdur.

1905-ci ildən Taqor Benqal Milli Azadlıq hərəkatının rəhbərlərindən biri olmuş, vətənpərvər ruhlu şeirlər, roman və pyeslərində dinindən asılı olmayaraq bütün hindliləri milli istiqlaliyyət uğrunda mübarizədə birliyə çağırmışdır. "Bağban", "Köçən quşlar" lirik şeir topluları da Taqora geniş şöhrət gətirmişdir.

1913-cü ildə Nobel mükafatına layiq görülmüşdür. Yazıçının böyük irsi hind ədəbiyyatının inkişafında tam bir əsri təşkil etmişdir. Hind ədəbiyyatında hekayə janrının əsasını qoymuşdur.

Taqorun "Fəlakət" romanı 1928-ci ildə Azərbaycan dilinə tərcümə olunmuş, 1958-ci ildə Əli Səbrinin tərcüməsində yenidən çap olunmuşdur. Həmçinin "Hekayələr" (1956), "Bibha sahili" (1959), "Məhəbbət çələngi" (1961) əsərləri də dilimizə tərcümə olunmuşdur.

Onun "Xalqın ruhu" ("Canaqanamana") şeiri Hindistanın milli himninə çevrilmişdir. 1912-1932-ci illərdə o, dünyanın beş qitəsinin 30-dan çox ölkəsinə səfər etmiş, dövlət başçıları, dini liderlər və görkəmli ziyalılarla görüşmüşdü. Asiyanın ilk Nobel laureatı (1913-cü il) Oksford universitetinin, habelə dörd Hindistan universitetinin fəxri doktoru seçilmişdir.

Rabindranat Taqor 1941-ci il avqust ayının 7-də Hindistanda, Kəlküttə şəhərində vəfat etmişdir.

1961-ci il may ayının 7-də Ümumdünya Milli Şurasının qərarı ilə böyük hind yazıçısı, görkəmli ictimai xadim Rabindranat Taqorun anadan olmasının 100 illiyi təntənəli şəkildə qeyd olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri /R.Taqor; tərc.ed. M.Beydulla, Ə.Səbri, M.Rzaquluzadə, M.Mirkişiyev.- Bakı:Şərq-Qərb, 2011-928 s.

Fəlakət: roman /R.Taqor.- Bakı: Şərq-Qərb, 2006.- 278 s.

Pyes /R.Taqor //Azərbaycan.-2012.- №11.- S.113-128.

Araz, P. Rabindranat Taqorun yaradıcılığında musiqi /P.Araz //Paritet.-2011.- 16-18 aprel.- S.14.

Крилалани К. Рабиндранат Тагор: [пер. с англ.] /Крилалани Кришна; послесл. И.Д.Серебякова.- М.: Молодая гвардия, 1989.- 285 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY
15

125 illiyi

Mixail Bulqakov 1891-1940

Rus yazıçısı

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /M.A.Bulqakov; tərc. ed.: S.Budaqlı, R.Duyğun, H.İlyas.-Bakı: Şərq-Qərb, 2011.- 623 s.

Hekayə /M.A.Bulqakov //Kaspi.-2012.- 8-10 sentyabr.- S.20.

Master və Marqarita /M.A.Bulqakov, rus dil. tərc. S.Budaqlı,-Bakı: Şərq-Qərb, 2006.-373 s.

Князь тьмы: редакции и варианты романа "Мастер и Маргарита" /М.А.Булгаков.-Санкт-Петербург: Азбука, Азбука-Аттикус, 2011.-792, [8] с.

Под пятой. Дневник: Письма и документы /М.А.Булгаков; сост., подгот. текстов, предисл., коммент., подбор ил. В.И.Лосева.- Санкт-Петербург: Азбука, 2011.- 729, [7] с.

Немцев, В. Михаил Булгаков становление романиста /В.И.Немцев ; под. ред. Н.П.Козлова.- Самара: Изд. Сар-го Ун-та, 1991.- 161, [3] с.

www.anl.az

www.az.wikipedia.org

www.m-a-bulgako.ru

Mixail Afanasyeviç Bulqakov 1891-ci il may ayının 15-də Kiyev şəhərində, ziyalı ailəsində anadan olmuşdur. İlk təhsilini Birinci Kiyev Gimnaziyasında almış, 1909-cu ildə gimnaziyanı bitirərək Kiyev Universitetinin tibb fakültəsinə daxil olmuş, 1916-cı ilin oktyabrında universiteti əla qiymətlərlə bitirmişdir. Könüllü olaraq cənub-qərb cəbhəsində Qırmızı Xaç cəmiyyətinin qospitallarında həkim kimi çalışmışdır. Sonra hərbi xidmətə çağırılaraq Smolensk quberniyasına köçürülmüş, əvvəlcə kənd xəstəxanasında, 1917-ci ilin sentyabrında Vyazma şəhər xəstəxanasında, dekabr ayından isə Moskvada həkim kimi fəaliyyətə başlamışdır. 1926-ci ildə yazdığı "Gənc həkimin qeydləri" adlı kitabında məhz həkim kimi fəaliyyət göstərdiyi illəri qələmə almış, həkimlik etdiyi illərdə rastlaşdığı hadisələrdən söz açmışdır.

1919-1920-ci illərdə bir neçə hekayə və felyeton yazmış, ədəbiyyata maraq ona həkimlik fəaliyyətinə həmişəlik son qoymağa vadar etmişdir. M.Bulqakov yerli qəzetlərlə əməkdaşlıq etməyə başlamışdır. 1921-ci ildən etibarən Moskvada yaşayan Bulqakovun "Ağ qvardiya" adlı ilk romanı (1925-1927; roman bütünlükdə yalnız 1966-cı ildə SSRİ-də çapdan çıxmışdır) işıq üzü görmüşdür. 1925-ci ildə "İblisnamə" adlı satirik hekayələr toplusu çapdan çıxmışdır. Hekayələrin əsas mövzusunu məişət eybəcərlikləri təşkil edirdi. 1926-cı ildə Moskva Bədii Akademik Teatrında yazıçının "Turbinlər ailəsinin günləri" pyesi, 1926-1929-cu illərdə Vaxtanqovun Teatr studiyasında "Zoykanın mənzili", 1928-1929-cu illərdə isə Moskva Kamera teatrında "Tünd qırmızı ada" pyesləri səhnəyə qoyulmuşdur. "Ağ qvardiya" və "Turbinlər ailəsinin günləri" əsərləri yazıçıya ən çox uğur gətirən əsərlərdən hesab olunur.

1936-cı ildə qələmə aldığı və ona dünya şöhrəti gətirən "Master və Marqarita" (Usta və Marqarita) əsəri geniş oxucu kütləsinin ixtiyarına - yazılandan 30 il sonra (1966-cı ildə) verilmişdir. Romanda mənəvi-əxlaqi problemlərə toxunulmuş, haqq-ədalət qarşısında hər kəsin məsuliyyət daşıdığı göstərilmişdir.

Mixail Bulqakov həyatının son illərində "Qara dəniz" (1937) operasının librettosunu, "Minin və Pojarski" (1937), "Dostluq" (1937-38) və başqa əsərlərini qələmə almışdır.

Görkəmli rus yazıçısı Mixail Bulqakov 1940-cı il mart ayının 10-da uzun sürən xəstəlikdən sonra, Moskva şəhərində vəfat etmişdir.

80 illiyi

Oljas Süleymenov
1936

Qazax yazıçısı

Ə d ə b i y y a t

Az-Ya /O.Süleymenov; tərc. N.Səfərov; red.: Q.Alxanova, T.Rüstəmova; [Azərb. Resp. Nazirlər Kabineti yanında Tərcümə Mərkəzi].- Bakı: Tərcümə Mərkəzi, 2015.- 358 s.

Kuman nəğməsi: [məqalələr, şeir və poemalar] /O.Süleymenov.- Bakı: [MBM], 2011.-271 s.

Şeirlər/O.Süleymenov //Ədəbiyyat qəzeti.- 2015.- 28 fevral.- S.22.

Axşamüstü: şeirlər /O.Süleymenov //Ədəbiyyat qəzeti.- 2015.- 13 iyun.- S.14.

Фейзуллаева, А. Олжас Сулейменов: опыт спектрального исследования творческой деятельности /А.Фейзуллаева; ответ. ред. Б.Набиев.- Баку: Şərq-Qərb, 2009.- 222 с.

Oljas Ömər oğlu Süleymenov 1936-cı il may ayının 18-də Alma-Ata şəhərində anadan olmuşdur. 1954-1959-cu illərdə Qazaxıstan Dövlət Universitetinin geologiya fakültəsində, 1961-1962-ci illərdə isə M.Qorki adına Ədəbiyyat İnstitutunda təhsil almışdır. 1962-ci ildə Qazaxıstan Dövlət Universitetinin aspiranturasına daxil olmuş, elə həmin il Yazıçılar İttifaqına üzvlüyə qəbul olunmuşdur. 1962-1971-ci illərdə "Kazaxskaya pravda" qəzetində ədəbiyyat məsələləri üzrə işçi və "Qazaxfilm" kinostudiyasında baş redaktor, "Prostor" jurnalında Jurnalistika şöbəsinin müdiri vəzifələrində çalışmışdır.

Əsərləri 1959-cu ildən etibarən işıq üzü görmüş, "Torpaq insana təzim et!" poeması (1961), "Yel qanadlı atlar" (1961), "Nurlu gecələr" (1962), "Gündoğana" (1964), "Gil kitabə" (1969) və başqa şeir kitabları nəşr edilmişdir. Kinostudiyada işlədiyi illərdə "Atalar yurdu" (1966), "Göy marşrut" (1968), "Qış çöl sezonu deyil" (1972), "Raketçi" (2007), "Mahabbat" (2008) və s. filmlərin ssenari müəllifi olmuşdur. 1975-ci ildə rus dilində yazdığı "Az i Ya" əsərində elmi-tarixi əsaslandırma yolu ilə türk xalqlarının tarixi və mədəniyyətinin qədimliyi və türk mədəniyyətinin şumer mədəniyyətinin varisi olduğunu sübuta yetirmişdir. Lakin kitab Qazaxıstan KP MK-nın 17 iyul 1976-cı il tarixli qərarı ilə siyasi xarakterli olduğuna görə satışdan yığışdırılmışdır.

1971-1981-ci illərdə Qazaxıstan Yazıçılar İttifaqının katibi, 1981-1983-cü illərdə Qazaxıstan Kinematoqrafçılar İttifaqı İdarə heyətinin birinci katibi, 1983-cü ildə isə Yazıçılar İttifaqının birinci katibi seçilmişdir. 1989-cu ildə "Nevada-Semipalatinsk nüvə əleyhinə hərakat"ın və Qazaxıstan Xalq Konqress Partiyasının əsasını qoymuşdur. 1990-cı ildə Türk Xalqları Konqresinin keçirilməsində onun müstəsna xidmətləri olmuş və həmin il Qazaxıstanın Xalq yazıçısı fəxri adını almışdır. 1991-ci ilə qədər bir neçə çağırış Qazaxıstan və SSRİ Ali sovetinin deputatı olmuşdur.

1990-cı ilin 20 yanvar faciəsi ilə əlaqədar olaraq Azərbaycan xalqına başsağlığı vermək üçün Bakıya gəlmiş və Kremlin Qurultaylar sarayında faciənin günahkarlarını tənqid etmişdir.

Türkologiya sahəsində qazandığı böyük nailiyyətlərə görə 2002-ci ildə Kül-Tegin mükafatına, "Otan" ordeni, Ukraynanın yüksək dövlət mükafatlarından "V dərəcəli Müdrik Yaroslav" ("Yaroslav Mudrı"), 2006-cı ildə Azərbaycanda "Şöhrət", 2011-ci ildə isə "Dostluq" ordenlərinə layiq görülmüşdür. İnquşetiya Respublikasının "Xidmətlərinə görə" ordeni (2004), Türkiyə Cümhuriyyətinin "Türk dünyasına qatqılarına görə" uluslararası ödülünə layiq görülmüşdür. Dialoq Avrasiya Platformasının yaradıcılarından və fəal iştirakçılarındandır. YUNESKO-da Qazaxıstanın səlahiyyətli nümayəndəsidir.

MAY

1

75 illiyi Mayis Ağabəyov 1941

Rəssam

Ə d ə b i y y a t

Kinoda rəssam işi /M.Ağabəyov; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, Dövlət Film Fondu; Azərbaycan Dövlət Rəssamlıq Akademiyası.- Bakı, 2008.- 82 s.

Abdullayev V. Mayis Ağabəyov. Xəyali rənglər işığında /V.Abdullayev; red. G.Zeynalova.- Bakı: Aspoliqraf, 2011.- 140 s.

Xalq rəssamı Mayis Ağabəyovun yubiley sərgisi //Mədəniyyət.- 2011.-18 may.-S.3.

Hüsniyyə. Kinorəssam Mayis Ağabəyovun 70 illik yubileyi qeyd olunur /Hüsniyyə //525-ci qəzet.- 2011.- 17 may.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.az.wikipedia.ru

Mayis Əlişir oğlu Ağabəyov 1941-ci il may ayının 1-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1956-cı ildə Ə.Əzimzadə adına Rəssamlıq məktəbinə, görkəmli rəssam Vəcihə Səmədovanın sinfinə daxil olmuşdur. Elbəy Rzaquliyevlə tanışlıq isə onda kino rəssamlığına həvəs oyatmışdır. Rəssamlıq məktəbini bitirdikdən sonra Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutuna qəbul olunmuş, 1969-cu ildə institutun rəssamlıq fakültəsini bitirmişdir.

Kinoda ilk işinə kinorejissor E.Quliyevin çəkdiyi "Biri vardı, biri yox" bədii filmində rəssam assistenti kimi başlamış, 1970-ci ildə kinorejissor T.Tağızadənin "Yeddi oğul istərəm" bədii filminə geyim eskizləri çəkmişdir.

1970-ci ildə E.Rzaquliyevlə birgə C.Cabbarlının "Sevil" kinooperasına rəssam assistenti kimi dəvət almış, sonralar "Həyat bizi sınayır" (1972), "Nəsimi" (1973), "Babək" (1979), "Nizami" (1982), "Ötən ilin son gecəsi" (1983), "İntizam" (1983), "Gümüşgöl əfsanəsi" (1984) və s. filmlər onu Azərbaycanın görkəmli kinorəssamı kimi tanıtdırmışdır.

30-dan artıq bədii və sənədli filmə rəssam kimi quruluş vermişdir. 2008-ci ildə gənc kino rəssamlarına sənətin incəliklərini öyrətmək məqsədil "Kinoda rəssam işi" monoqrafiyasını yazmışdır.

"Ana uşaqları", "Nardaran mənzərələri", "Sükut", "Qırmızı ay", "Qadınlar" və s. kimi əsərlərində müasir rəngkarlığın bütün elementlərindən istifadə edərək maraqlı kompozisiyalar yarada bilmişdir. Qrafika sahəsində də uğurlu əsərlərin müəllifidir. Onun 40-dan çox qrafik işlərində parlaq rənglərlə çəkilmiş ştrixlərdən istifadə olunmuşdur.

Əsərləri Almaniya, Türkiyə, Fransa, İspaniya, Vyana, London, Moskva və digər ölkə və şəhərlərdə sərgilənir, Moskvada Şərq Xalqları Muzeyi və Bədii Fondda, Azərbaycan muzeylərində, eləcə də İspaniya, Yaponiya, Fransa, Almaniya, Rusiya, Türkiyə kimi ölkələrdə şəxsi kolleksiyalarda saxlanılır.

1996-cı ildən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim kimi fəaliyyət göstərir. Halhazırda Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Akademik rəngkarlıq kafedrasının professorudur.

Kino sənətindəki xidmətlərinə görə müxtəlif mükafatlara layiq görülmüşdür. Onun quruluşçu rəssam kimi işlədiyi filmlər "Qızıl Sibilla" (1977, İspaniya), "Gümüş Sibilla" (1997, İspaniya), "Qızıl Zanbaq"(1997, Daşkənd), "Humay" (1997, Bakı), "Anapa" prizi (1997, MDB və Latviya) kimi mükafatlara layiq görülmüşdür. 2006-cı ildə Azərbaycan Kinematoqrafçılar İttifaqının V "Qızıl Çıraq" mükafatını almışdır.

1990-cı ildə "Əməkdar rəssam", 2000-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Xalq rəssamı" fəxri adına layiq görülmüşdür.

2004-cü ildən Prezident təqaüdçüsüdür.

90 illiyi

Cəbrayıl Əzimov 1926-1969

Rəssam



Cəbrayıl Əlimuxtar oğlu Əzimov 1926-cı il may ayının 7-də Bakı şəhərində anadan olmuşdur.

Hələ uşaq ikən rəssamlığa böyük maraq göstərmiş, 1946-cı ildə 15 yaşında ikən Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinə, 1947-ci ildə isə Moskva Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun bədii dekorativ tərtibatçılıq fakültəsinə qəbul olmuşdur. Burada sovet kinosunun görkəmli rəssamları F.Boqorodski, Y.Pimenov və Q.Şeqaldan sənətin incəliklərini öyrənmişdir.

O, Moskvada tələbəlik illərində öz rəngkarlıq əsərləri ilə bir sıra sərgilərdə iştirak etmiş, uğur qazanmışdı.

1953-cü ildə İnstitutu müvəffəqiyyətlə bitirən Cəbrayıl Əzimov elə həmin ildə Bakıya qayıtmış və "Azərbaycanfilm" kinostudiyasında quruluşçu rəssam kimi fəaliyyətə başlamışdır. Kinostudiyada ilk yaradıcılıq işi "Doğma xalqıma" (1954) rəngli bədii-sənədli filmi olmuşdur. O, bu film üzərində dostu E.Rzaquliyevlə birgə çalışmışdır.

Sonrakı illərdə rəssam "Bəxtiyar" (1954), "O olmasın, bu olsun" (N. Zeynalovla birgə, 1956), "Qızmar günəş altında" (1957), "Uzaq sahillərdə" (1958), "Onu bağışlamaq olarmı" (1959), "Mən rəqs edəcəm" (1963), "Romeo mənim qonşumdur" (1963), "İnsan məskən salır" (1967) və s. filmlərə bədii tərtibat vermişdir. O, həmçinin "Şahsənəm və Qərib"filmində quruluşçu rəssam olmuşdur.

Onun müxtəlif filmlərə çəkdiyi eskizlərə, eləcədə, bu eskizlər əsasında filmlərə qurulan dekorasiyalara baxdıqda sənətkarın güclü rəssamlıq duyumu, hadisələrə bədii yanaşma keyfiyyətləri açıq-aydın hiss olunur və onun peşəkar kino rəssamı olduğunu bir daha sübut etmiş olur.

Rəssamı olduğu bədii filmlərdə daha çox naturaya üstünlük vermiş, "Görüş", "Qızmar günəş altında", "O olmasın bu olsun", "Uzaq sahillərdə" filmləri bu qəbildəndir.

Cəbrayıl Əzimov sənətdəki uğurlarına görə 1964-cü ildə respublikanın Əməkdar rəssamı fəxri adına layiq görülmüşdür.

1966-cı ildə "İnsan məskan salır" filminə verdiyi bədii tərtibata görə Ümumittifaq Kino və Teatr rəssamları sərgisinə, eyni zamanda "Leyli və Məcnun" filminə çəkdiyi eskizlərə görə isə Azərbaycan teatr və kino rəssamlarının kataloquna salınmışdır.

Cəbrayıl Əzimov 1969-cu il iyul ayının 7-də Bakıda vəfat edmişdir.

Ədəbiyyat

Əzimov Cəbrayıl // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1980.-C. IV.-S.149.

Fərəcov S. Filmlərin bədii tərtibat ustası /S.Fərəcov // Mədəniyyət.- 2015.- 13 may.- S. 13.

Kazımzadə, A. "Uzaq sahillərdə", "Qızmar günəş altında" yaşayan sənətkar: [Kino rəssamı Cəbrayıl Əzimov haqqında] /A.Kazımzadə // Mədəniyyət.-2011.- 28 oktyabr.- S. 10.

Reyhan. Kino rəssamı Cəbrayıl Əzimovun 85-illik yubileyi qeyd edildi: Reyhan // Mədəniyyət.-2011.-2 noyabr.-S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.karabakh.az

MAY

1

70 illiyi

Aydın Əzim Kərimoğlu 1946

Bəstəkar

Aydın Kərim oğlu Əzimov (Aydın Əzim Kərimoğlu) 1946-cı il may ayının 1-də Bakı şəhərində anadan olmuşdur. 1964-cü ildə A.Zeynallı adına Musiqi Texnikumunun (indiki A.Zeynallı adına Musiqi Kolleci) nəzəriyyə fakültəsini bitirmiş, elə həmin il Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsinə, bəstəkar Qara Qarayevin sinfinə daxil olmuş, 1972-ci ildə konservatoriyanı bitirmişdir. 1976-cı ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür.

1968-1996-cı illərdə Azərbaycan Dövlət Teleradio Komitəsində çalışmış, radionun Musiqi verilişləri baş redaksiyasında kiçik redaktor, böyük redaktor, şöbə müdiri, radionun səsyazma evində səs rejissoru, baş rejissor, Azərbaycan Dövlət Teleradio Komitəsi bədii kollektivlərinin və səsyazma evinin müdiri, "Azərbaycantelefilm" yaradıcılıq birliyinin baş məsləhətçisi vəzifələrini icra etmişdir.

1996-cı ilin sonundan Türkiyə Respublikası Mersin Universiteti Dövlət Konservatoriyasına işləməyə dəvət olunmuş, 2005-ci ilə qədər orada çalışmış, orada Bəstəkarlıq şöbəsini təşkil etmişdir.

2005-ci ildən Bakı Musiqi Akademiyasının Bəstəkarlıq kafedrasının professoru, eyni zamanda BMA-nın elmi laboratoriyasının fəal əməkdaşıdır. Azərbaycan bəstəkarlarının skripka əsərlərindən ibarət skripka və fortepiano üçün "Sonata-poema" əsərini yazmış və bu 11 illik musiqi və incəsənət məktəblərinin tədris proqramlarına salınmışdır.

"Həyatın dibində" simfonik lövhələr (1991), simfonik orkestr üçün "Böyük Romul" (1992), "Qaboy və vibrafon üçün 2 pyes" (1992), "Ağılar" simfonik quramalar (1994), "Qətl günü" (1994), simfonik orkestr üçün 10 əsgər marşı (1996-1998), Nazim Hikmətin və Vaqif Səmədoğlunun sözlərinə vokal silsilələr (1997), piano üçün variasiyalar (2001) və s. simfonik əsərlərin müəllifidir. Bununla yanaşı görkəmli bəstəkar bir sıra teatr tamaşalarına ("Həyatın dibində" (1991), "Lənkəran xanın vəziri" (1992), "Yayda qartopu oyunu" (1993), "Qətl günü" (1994) və s.) və kinofilmlərə ("Daş saat" (1975), "Üzeyir ömrü" (1981), "Uşaq və külək" (1982), "Ümid" (1995), "Naməlum səs" (1997), "Qobustan" (1997), "Əmir Teymur" (2003), "Yalan" (2006), "Sirr" (2012) və s.) musiqilər bəstələmişdir. "Əmanət" (1993), "Yay gecəsinin yuxusu" (1995) və "Karmen" (1995) müzikllərinin müəllifidir.

Müstəqilliyimizin ilk dövrlərində Müdafiə Nazirliyinin orkestrinin təşkil olunmasında bəstəkarın da əvəzsiz xidmətləri olmuşdur. Onun təklifi ilə həmin orkestrə milli alətimiz olan on zurnaçı daxil edilmişdir. Həmçinin Üzeyir Hacıbəylinin Azərbaycan Respublikasının Dövlət Himnini bərpa etmiş və işləmişdir.

Aydın Kərim oğlu Əzimov "Azərbaycan Respublikasının Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Ədəbiyyat

Bayrağım: oda [Notlar] /A.Əzimov.-Bakı, 1992.-4 s.

Simfoniya [Notlar] /A.Əzimov.- Bakı, 2012.- 57 s.

Aydın Kərim oğlu Əzimov //Azərbaycan bəstəkarlarının skripka əsərləri: dərs vəsaiti /tərt. ed. H.Əliyeva.- Bakı: Mütərcim, 2014.- C.1.- S.22.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY
27

110 illiyi

Soltan Dadaşov 1906-1969

Rejissor

Soltan Baba oğlu Dadaşov (Zaki) 1906-cı il may ayının 27-də Bakı şəhərində anadan olmuşdur.

Hələ gənc yaşlarından aktyorluq sənətinə böyük maraq göstərmiş, 1920-1921-ci illərdə Bakıdakı "Mərkəzi fəhlə klubu"nun dram dərnəyinin ən fəal üzvü kimi təbliğat və təşviqat briqadalarının tərkibində Azərbaycanın əksər rayonlarına səfər etmişdir. 1923-cü ildə milli səhnə mədəniyyətimizi ixtisaslı kadrlarla təmin etmək məqsədilə açılmış Bakı Teatr Məktəbinin (Texnikumunun) ilk məzunlarından biri olmuşdur. 1924-cü ildə Milli Dram Teatrının yardımçı heyətində aktyorluq etmişdir. 1927-ci ildə Moskvada Mərkəzi Teatr Sənəti Texnikumunda oxumuş, təhsil aldığı illərdə Böyük Teatrda təcrübə keçmiş, A.Popov, A.Petrovski, B.Suşkeviç kimi məşhur pedaqoqlardan dərs almışdır. 1931-ci ildə texnikumu bitirdikdən sonra Azərbaycana qayıtmış, Azərbaycan Xalq Maarif Komissarlığının sərəncamı ilə Opera Teatrına (indiki Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı) quruluşçu rejissor vəzifəsinə təyin edilmişdir.

Ömrünün 38 ilini bu teatra həsr edən S.Dadaşov quruluş verdiyi və hazırladığı tamaşalar sırasında "Leyli və Məcnun", "Əsli və Kərəm", "Koroğlu" (Ü.Hacıbəyli), "Şah İsmayıl", "Nərgiz", (M.Maqamayev), "Demon" (A.Rubinşteyn), "Traviata" (C.Verdi), "Boris Qodunov" (M.Musorqski), "Faks" (Ş.Qunu) və s. əsərlər, müxtəlif illərdə Azərbaycan Musiqili Komediya Teatrında "Arşın mal alan", "O olmasın, bu olsun" (Ü.Hacıbəyli), "Durna" (S.Rüstəm), Gənc Tamaşaçılar Teatrında isə "Qaçaq Səməd" və başqa tamaşalar hazırlamışdır. Rejissorun quruluşu əsasında 1938-ci ildə Aşqabad teatrında Müslüm Maqomayevin "Şah İsmayıl" operası təqdim edilmiş, tamaşa mədəni hadisə kimi qiymətləndirilmişdir. Azərbaycan sirkinin yaradılmasında da böyük xidmətləri olmuşdur. 1967-ci ildə sirk proqramında milli folklorumuzun bütün gözəlliklərini özündə əks etdirən Novruz proqramı hazırlamışdır.

Uzun illər pedaqoji fəaliyyətlə məşğul olan S.Dadaşov 1934-cü ildən Azərbaycan Dövlət Teatr İnstitutunda (indiki ADMİU) dərs demişdir. "Mirzə Fətəli Axundzadə adına Lenin ordenli Azərbaycan Dövlət Opera və Balet teatrı" və "Azərbaycan SSR Xalq artisti Hüseynağa Hacıbabəyov" kitabının müəllifidir.

Azərbaycan Teatrının inkişafındakı əvəzsiz xidmətlərinə görə Qırmızı Əmək Bayrağı ordeni və medallarla təltif olunmuşdur. 1940-cı ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi", 1958-ci ildə isə "Azərbaycan SSR Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Soltan Dadaşov 1969-cu il sentyabr ayının 7-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan teatrının "Zaki" təxəllüslü rejissoru: Teatrımızda ilklərə imza atanlardan biri //Azadlıq.- 2012.- 30 mart.- S.14.

Dadaşov Soltan //Azərbaycan Sovet Ensiklopediyası.-10 cilddə.- Bakı, 1979- C.3.-S.313.

Fərəcov, S. Teatr sənəti tariximizdən: Soltan Dadaşov /S.Fərəcov //Mədəniyyət.-2012.- 19 sentyabr.- S.14.

Rəhimli, İ. Dadaşov Soltan //Rəhimli İ.Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı.- Bakı, 2008.- S.119-120.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kinozal.az

www.mct.gov.az

MAY

1

80 illiyi

Baxşeyiş Paşayev 1936-1992

Milli Qəhrəman

Baxşeyiş Xanəhməd oğlu Paşayev 1936-cı il may ayının 1-də Ağdam rayonunun Əhmədavar kəndində doğulmuşdur. Burada orta məktəbi bitirdikdən sonra Ağdam Kənd Təsərrüfatı Texnikumuna daxil olmuş, 1954-cü ildə texnikumu bitirərək, Ağdam Atçılıq Sovxozunda işləməyə başlamışdır. 1988-ci ildə xalq hərəkatına qoşularaq "Qarabağ Müdafiə Şahinləri" dəstəsinin ən fəal döyüşçülərindən biri olmuşdur.

Qarabağ uğrunda gedən döyüşlərdə böyük şücaətlər göstərmişdir. Ağdam rayon Xramort kəndinin erməni təcavüzkarlarından təmizlənməsi zamanı xüsusi fərqlənmişdir. "Ağsaqqal" ləqəbi ilə tanınan döyüşçü peşəkar atıcı olduğundan quldurların xeyli canlı qüvvəsini məhv etmiş, dəfələrlə Fərrux, Xanabad, Naxçıvanik, Aranzəmin kəndlərinə kəşfiyyata getmişdir. 1992-ci il Xocalı faciəsi zamanı onlarla dinc sakini xilas etmişdir.

1992-ci il iyul ayının 12-də erməni işğalçıları Xanabad kəndinə böyük qüvvə ilə hücuma keçmişlər. Əks hücumla başda Baxşeyiş Paşayev olmaqla döyüşçülərimiz düşmənin 7 postunu ələ keçirmişdir. Lakin gərgin keçən döyüşlərdə qəhrəmancasına həlak olmuş, Ağdam rayonunun Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 7 dekabr 1992-ci il tarixli 350 saylı Fərmanı ilə Paşayev Baxşeyiş Xanəhməd oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Paşayev Baxşeyiş Xanəhməd oğlu-bölük komandiri- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 dekabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 24.- S.50.- (Ölümündən sonra).

Abbasoğlu, B. Ermənilərin qənimi /B.Abbasoğlu //Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S.95-109.

Əsgərov, V. Paşayev Baxşeyiş Xanəhməd oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.237.

Paşayev Baxşeyiş Xanəhməd oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.170-171.

Seyidzadə, M. Paşayev Baxşeyiş Xanəhməd oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.183.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

55 illiyi İlham Əliyev 1961-1990 Milli Qəhrəman

İlham Müzəffər oğlu Əliyev 1961-ci il may ayının 5-də Gədəbəy rayonunda anadan olmuşdur. Orta məktəbi 1978-ci ildə bitirmiş, 1980-ci ildə hərbi xidmətə çağırılmışdır. 1982-ci ildə ordudan tərxis olunduqdan sonra Gədəbəy rayonunda Kommunal Təsərrüfat İdarəsində, sonra isə İsmayıllı rayonunda mexanikləşdirilmiş dəstədə çalışmışdır. 1983-cü ildə Daxili İşlər Nazirliyinin (DİN) təyinatı ilə İsmayıllı rayon Daxili İşlər Şöbəsinə (DİŞ) qəbul edilmiş, bir müddətdən sonra işini Gədəbəy rayon DİŞ-nin mühafizə bölməsinə dəyişmişdir. 1985-ci ildə Bryansk Xüsusi Orta Milis Məktəbinə daxil olmuş, təhsilini bitirdikdən sonra 1987-ci ildə Gədəbəy rayonunda sahə müvəkkili, Gəncə şəhər DİŞ-də sahə müfəttişi, sonra isə cinayət-axtarış bölməsində əməliyyatçı vəzifələrində çalışmışdır. Rəhbərlik tərəfindən dəfələrlə mükafatlandırılmış, "Milis əlaçısı" döş nişanına layiq görülmüşdür.

1988-1990-cı illərdə erməni quldurları müxtəlif səmtlərdən Azərbaycanın ayrı-ayrı bölgələrinə silahlı basqınlar edir, dinc əhalini güllələbarana tuturdular. 19 avqust 1990-cı il tarixində Qazax rayonunun Ermənistanla həmsərhəd olan Aşağı Əskipara kəndi fasiləsiz olaraq erməni yaraqlıları tərəfindən atəşə tutulmuş və leytenant İlham Əliyev torpaqlarımızın müdafiəsinə göndərilmişdir. Ağır döyüşdə qəhrəmancasına həlak olmuş, Gədəbəy rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 iyun 1992-ci il tarixli 831 saylı Fərmanı ilə İlham Müzəffər oğlu Əliyev ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. "Qırmızı Ulduz" ordeni ilə təltif edilmişdir.

Gədəbəy şəhərindəki 1 saylı orta məktəb qəhrəmanın adını daşıyır. Məktəbin önündə İlham Əliyevin büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev İlham Müzəffər oğlu - Gəncə şəhəri PDİŞ Cinayət axtarış bölməsinin əməliyyat müvəkkili, milis leytenantı - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.- S.24.- (Ölümündən sonra).

Əliyev İlham Müzəffər oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.60.

Əsgərov, V. Əliyev İlham Müzəffər oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.84.

Seyidzadə, M. Əliyev İlham Müzəffər oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.59.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

5 MAY

50 illiyi

Elşad Yəhyayev 1966-1992

Milli Qəhrəman

Elşad Məmmədhənifə oğlu Yəhyayev 1966-cı il may ayının 5-də Şəki şəhərində anadan olmuşdur.

1973-cü ildə orta təhsilinə Şəkidəki 12 saylı məktəbdə başlamış, lakin 1977-ci ildə ailəsinin Bakıya köçməsi ilə əlaqədar olaraq təhsilini Xətai rayonundakı 56 saylı orta məktəbdə başa vurmuşdu.

1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur. 1987-ci ildə Saratov Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuş, 1991-ci ildə leytenant rütbəsi ilə Vətənə dönmüşdür. Elşad könüllü olaraq DİN-ə müraciət etmiş və onu N saylı hissəyə taqım komandiri təyin etmişlər. Cəsur komandir Sırxavənd, Naxçıvanik, Papravənd kəndlərində gedən döyüşlərdə iştirak edərək azğın ermənilərə öz şücaətini göstərmiş, xeyli qulduru məhv etmişdir. 20 iyun 1992-ci ildə Naxçıvanik kəndində gedən qaynar döyüşlərdə Elşad xeyli düşməni məhv etmiş, lakin qəfil snayper gülləsi alaraq qəhrəmancasına şəhid olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Yəhyayev Elşad Məmmədhənifə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Şəki rayonundakı 12 saylı məktəb qəhrəmanın adını daşıyır. Bakı şəhərindəki 56 saylı orta məktəbdə isə onun büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Yəhyayev Elşad Məmmədhənifə oğlu - daxili qoşunların poçta komandiri - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov V. Yəhyayev Elşad Məmmədhənifə oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S. 190.

Seyidzadə M. Yəhyayev Elşad Məmmədhənifə oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.218.

Yəhyayev Elşad Məmmədhənifə oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.199-200.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

40 illiyi

İlham Həsənov
1976-1995
Milli Qəhrəman

İlham Gülbala oğlu Həsənov 1976-cı il may ayının 6-da Ağstafa rayonunun Xətai kəndində anadan olmuşdur.

1994-cü ilin sentyabrında Milli Orduya çağırılan İ.Həsənov Bakıda hərbi hissələrin birində xidmətə başlamışdır.

1995-ci ilin 13 martında bir qrup silahlı dəstə xəyanət yolunu tutaraq, dövlət çevrilişinə cəhd göstərdi. Təbii ki, dövlətçiliyimiz naminə bu cəhdin qarşısı vaxtında alınmalı idi və alındı da! Artıq mart ayının 17-də qiyamçı dəstə təmamilə tərksilah edilmişdi. Çox təəssüf ki, bu çətin əməliyyat neçə-neçə Vətən oğlunun qanı bahasına başa gəlmişdi. Həmin qarşıdurmada öz vətəndaşlıq borcunu vicdanla yerinə yetirən İlham Həsənov qarşı tərəfdən atılan güllə ilə həlak oldu.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Həsənov İlham Gülbala oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Ağstafa şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ağstafa rayonunda İlham Həsənovun adına küçə var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Həsənov İlham Gülbala oğlu - Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Həsənov İlham Gülbala oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.111.

Həsənov İlham Gülbala oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S. 81-82.

Seyidzadə, M. Həsənov İlham Gülbala oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.85.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

105 illiyi

Akim Abbasov 1911-1992

Hərbçi

Akim Əli oğlu Abbasov 1911-ci il may ayının 25-də Naxçıvan Muxtar Respublikasında anadan olmuşdur. 1927-ci ildən ordu sıralarında xidmət etmiş, 1930-cu ildə Bakı, 1932-ci ildə Tiflis hərbi məktəblərini, 1956-cı ildə isə M.V.Frunze adına Hərbi Akademiyanı bitirmişdir. 1934-cü ildə Tiflis Hərbi Dairəsinin bölmələrinin birində xidmət etməyə başlamışdır. Hərbi qulluğunun ilk illərində taqım komandiri təyin olunmuşdur. Böyük Vətən müharibəsində (1941-1945) 76-cı diviziyanın heyətində Qərb cəbhəsində döyüşlərdə iştirak etmiş, 1942-ci ildə 402-ci milli atıcı diviziyası qərargahında əməliyyat şöbəsinin rəisi, sonralar polk komandiri təyin olunmuşdur. Müharibədən sonrakı illərdə polk komandiri, taqım komandirinin müavini və komandir vəzifəsində işləmişdir. 1956-cı ildə general-mayor hərbi rütbəsi almışdır. 1956-1967-ci illərdə bir sıra hərbi birləşmənin komandiri olmuşdur.

1967-ci ildə ehtiyata çıxandan sonra Akim Abbasov Azərbaycan SSR Avtomobil Nəqliyyatı (indiki AR Nəqliyyat Nazirliyi) nazirinin müavini, sonralar Azərbaycan Sülhü Müdafiə Komitəsi Sülh fondunun məsul katibi vəzifəsində işləmişdir. Nəqliyyat Nazirliyində 9 ildən artıq çalışmışdır. Kadrların seçilməsi, onların tərbiyə edilməsi və fəaliyyətinə nəzarət işi məhz Akim Abbasova həvalə edilmişdi.

General mayor Akim Abbasov Azərbaycan SSR Ali Sovetinin (4-6-cı çağırış) deputatı olmuş, Azərbaycan KP-nin 22 və 24-cü qurultaylarında MK-nın üzvü seçilmişdir.

İstər müharibə illərində, istərsə də müharibədən sonrakı dövrdə Akim Abbasovun xidmətləri yüksək qiymətləndirilmişdir. 7 dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı, 3 dəfə Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin Fəxri fərmanı ilə təltif olunmuşdur. Bununla yanaşı gənclər arasında hərbi vətənpərvərlik tərbiyəsi işinin genişləndirilməsində xidmətlərinə görə Azərbaycan LKGİ MK-nın 3 Fəxri fərmanına layiq görülmüşdür. İki "Qırmızı Bayraq", iki "Qırmızı Ulduz" ordenləri, habelə medallarla təltif olunmuşdur.

Akim Abbasov 1992-ci il fevral ayının 29-da Bakı şəhərində vəfat etmişdir. 1989-cu ildə Bakı şəhər Veteranlar şurasının sədri, həmin ildə Sovet Müharibə Veteranları Komitəsinin üzvü olmuşdur.

Ədəbiyyat

Kazımov, İ. General Akim Abbasov.- Bakı: Qorqud, 1995.- 40 s.

Akim Abbasov: Azərbaycan Sovet Ensiklopediyası:10 cildə.-Bakı, 1976.- C.1.- S.13.

Abbasov Akim Əli oğlu (25.05.1911-29.02.1992) //Naxçıvan ensiklopediyası /red. hey. C.Əliyev [və b]; AMEA.- B.: AMEA, 2002.- S.8.

Абасов М. Дороги генерала Акима Аббасова /М.Абасов.- Баку, 1996.-56 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

60 illiyi

Kərim Şükürov 1956

Alim

Kərim Kərəm oğlu Şükürov 1956-cı il may ayının 10-da Bərdə rayonunda anadan olmuşdur. 1962-1972-ci illərdə Bərdə rayon 1 saylı orta məktəbdə təhsil almış, sonra ADU-nun (indiki BDU) tarix fakültəsinə daxil olmuşdur. 1977-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirərək, 1977-1980-ci illərdə Bərdə şəhər 1 saylı orta məktəbdə müəllim, direktor müavini, Bərdə rayon Komsomol Komitəsinin ikinci katibi vəzifələrində çalışmışdır.

1980-ci ilin sentyabrında ADU-nun aspiranturasına daxil olmuş, 1983-cü ildə burada müəllim kimi fəaliyyət göstərmişdir. 1983-1989-cu illərdə SSRİ tarixi, 1990-cı ildən isə Azərbaycan tarixi kafedrasında pedaqoji fəaliyyətini davam etdirmişdir.

BDU-nun Tarix fakültəsinin nəzdində "Dünya azərbaycanlıları: tarixi-demoqrafiya" elmi-tədqiqat laboratoriyasının təşkilatçılarından olmuş və bu təşkilata rəhbərlik etmişdir.

1984-cü ildə namizədlik, 2007-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmişdir. "Türk xalqları XVI-XX yüzilliklərdə: say dinamikası (Çar Rusiyası və Sovetlər İttifaqı üzrə)" (Bakı, 1997), "Azərbaycan tarixi: üç hissədə", I-III hissələr (Bakı, 1994-2004), "Azərbaycan əhalisi: öyrənilməsi tarixi və qaynaqları (qədim zamanlardan müasir dövrədək)" (Bakı, 2004), "Türkmənçay-1828. Tarixi xronika" (Bakı, 2006), "Qarabağ: real tarix, faktlar və sənədlər" (Bakı, 2005, Y.Mahmudovla birgə), "Naxçıvan: tarixi və abidələri", (Bakı, 2007. Y.Mahmudovla birgə) adlı 11 kitab və monoqrafiyanın, 280 məqalənin müəllifidir. Kitab və məqalələri rus, ingilis, alman, ərəb və fars dillərində də nəşr edilmişdir.

Görkəmli alim həm respublika, həm də beynəlxalq elmi konfranslarda iştirak etmişdir. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının Tarix və Siyasi elmlər üzrə Ekspert şurasının və AMEA-nın Tarix İnstitutunun Elmi Şurasının üzvüdür.

Tarix elminin təbliği sahəsində də geniş iş aparmış, AzTV-də həftəlik "Azərbaycan tarixi" verilişinin aparıcısı, "Erməni soyqırımı. Türkün sözü" (2001), "Azərbaycan xanlıqları: Naxçıvan və İrəvan xanlıqları" 5-ci film (2003), "Azərbaycan xəritəsi" (2006) və bir sıra sənədli filmlərin redaktoru olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 25 may 2012-ci il tarixli Sərəncamı ilə Qarabağın, Naxçıvanın və İrəvan xanlığının tarixinə dair silsilə əsərlərin müəlliflərindən biri kimi ona Azərbaycan Respublikasının elm sahəsində Dövlət mükafatı təqdim edilmişdir.

Kərim Şükürov AMEA T.Bakıxanov adına Tarix İnstitutunun əməkdaşı, Azərbaycan Turizm İnstitutunun professorudur.

Ədəbiyyat

Azərbaycan əhalisi haqqında (əhali poblemlərinə dair ən mühüm əsərlərlə birgə) ədəbiyyat: (qədim zamanlardan müasir dövrədək): biblioqrafik göstərici /K.Şükürov.- Bakı: Azərbaycan Dövlət Kitab Palatası, 1997.- 368 s.

Azərbaycan tarixi: üç hissədə /K.Şükürov.- Bakı,1998.- H.1. Elmi-nəzəri və praktik problemləri.- Bakı: Bakı Universiteti, 2004.-233 s.; H.2. Ən qədim zamanlardan bizim günlərədək: dövrlər, hadisələr, sinxronlaşdırılmış cədvəllər.- Bakı: Şirvannəşr, 1998.- 480 s.

Türkmənçay-1828: Tarixi xronika /K.Şükürov; elmi red. Y.Mahmudov; red. S.Turabova, T.Həmid.- Bakı: [s.n.], 2006.- 188 s.

20 Yanvar 1990-cı il - dövrümüzün ən böyük milli-azadlıq hərəkatlarından birinin tarixidir /K.Şükürov //Səs.-2011.- 20 yanvar.- S.6.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

95 illiyi

Midhət Ağamirov 1921-1995

Filosof

Midhət Mirmusa oğlu Ağamirov 1921-ci il (bəzi mənbələrdə 1920) may ayının 15-də Bakı şəhərində (bəzi mənbələrdə Şuşa şəhəri göstərilir) anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra S.M.Kirov adına Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olmuşdur. Gənc yaşlarından "Gənc işçi" qəzetində işləmişdir. Təhsilini bitirdikdən sonra "Gənc bolşevik" jurnalında məsul katib, Marksizm-leninizm İnstitutunun Azərbaycan filialında (indiki Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası) çalışmışdır. 15 il həmin institutda böyük elmi işçi vəzifəsində işləməklə bərabər, respublikanın bir sıra ali məktəblərində fəlsəfə elminin tədrisi ilə məşğul olmuş, fəlsəfə kafedralarında assistent, baş müəllim, dosent və professor vəzifələrində işləmişdir.

1947-ci ildə "Mirzə Ələkbər Sabirin siyasi baxışları" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir.

1972-ci ildə M.V.Lomonosov adına Moskva Dövlət Universitetində "Azərbaycanda marksist-leninçi təlim uğrunda mübarizə tarixindən" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

20 il Azərbaycan SSR EA Fəlsəfə və Hüquq İnstitutunda baş elmi işçi vəzifəsində işləmişdir. 1986-cı ildən ömrünün sonuna kimi Fəlsəfə və ictimai fikir tarixi şöbəsinin müdiri olmuşdur.

Görkəmli alim XX əsrin əvvəllərində Azərbaycanda fəlsəfi və ictimai-siyasi fikrin aparıcı tədqiqatçılarından biri olmuşdur. Fəlsəfə və Hüquq İnstitutunda işlədiyi müddətdə "Mirzə Ələkbər Sabirin dünyagörüşü" (1962), "Azərbaycan ictimai fikrində milli məsələ" (1963), "Abdulla Şaiqin dünyagörüşü" (1983), "Məhəmməd Hadinin fəlsəfəsi" (1987), "Azərbaycan romantiklərinin dünyagörüşü" (1989) kimi 10 monoqrafiya və 100-dən çox elmi məqaləsi çap olunmuşdur. Onun məqalələri Moskvada "Fəlsəfə məsələləri" jurnalında, "Moskva Universitetinin Xəbərləri"ndə çap olunmuşdur.

Azərbaycanın elm və təhsilinin, mədəniyyətinin inkişafındakı xidmətlərinə görə professor Midhət Ağamirov 1970-ci ildə "Əməkdar mədəniyyət işçisi", 1982-ci ildə isə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Midhət Ağamirov 1995-ci ildə Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Abdulla Şaiqin dünyagörüşü /M.Ağamirov, elmi red. Y.Qarayev.- Bakı: Maarif, 1983.- 244 s.

Məhəmməd Hadinin fəlsəfəsi /M.Ağamirov, rəyçi. F.Ramazanov.- Bakı:Azərnəşr, 1987.- 270 s.

Ağayev, M. Azərbaycan fəlsəfəsi tarixinin görkəmli tədqiqatçısı /M.Ağayev //Azərbaycan.- 2013.- 16 avqust.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY

18

110 illiyi

Mehbalı Qasımov 1906-1963

Filosof

Mehbalı Məhəmməd oğlu Qasımov 1906-cı il may ayının 18-də Naxçıvan Muxtar Respublikasının Culfa rayonunda anadan olmuşdur. İlk təhsilini doğma Xoşkeşin kəndində almış, sonra Naxçıvan Kənd Təsərrüfatı Texnikumunu bitirmişdir. 1932-ci ildə Moskva Tarix-Fəlsəfə İnstitutunun fəlsəfə fakültəsinə qəbul olunmuş və 1937-ci ildə institutu müvəffəqiyyətlə bitirmişdir. Pedaqoji fəaliyyətlə məşğul olmuş, respublikanın bir sıra ali təhsil ocaqlarında dialektik və tarixi materializmdən dərs demişdir.

1940-cı ildə ordu sıralarına çağırılan Mehbalı Qasımov İkinci Dünya müharibəsinin son günlərinədək cəbhədə vuruşmuşdur. Müharibədən qayıtdıqdan sonra 1945-ci ildən Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Fəlsəfə İnstitutunda elmi işçi kimi fəaliyyətə başlamış və maraqlı tədqiqatlar aparmışdır. 1946-cı ildə "Ömər Xəyyamın fəlsəfi dünya görüşü" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. Onun "Ömər Xəyyamın rübailərində materializm" (1947), "V.Belinski XIX əsr rus klassik fəlsəfəsinin görkəmli nümayəndəsidir", "M.F.Axundov və XIX əsrin rus inqilabi-demokratik estetikası" (1954) kimi əsərləri mütəxəsissislərin böyük marağına səbəb olmuşdur.

1956-cı ildə Moskva şəhərində "Rusiyanın XIX əsr qabaqcıl ideyalarının Azərbaycanda ictimai fikrin inkişafına təsiri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək fəlsəfə elmləri doktoru elmi adını, 1957-ci ildə isə professor elmi rütbəsini almışdır.

Mehbalı Qasımov filosof kadrların yetişməsində böyük xidmətlər göstərmiş, 40-dan artıq elmlər namizədi və elmlər doktoru yetişdirmişdir. Onun təşəbbüsü ilə SSRİ EA Fəlsəfə İnstitutu və M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasına azərbaycanlı kadrlar göndərilmişdir. Görkəmli alim-filosof respublikanın ictimai-siyasi həyatında da fəal iştirak etmiş, Azərbaycan SSR Nazirlər Soveti yanında Ali və Orta İxtisas Təhsili Komitəsinin İctimai elmlər şöbəsinə başçılıq etməklə yanaşı, SSRİ Ali Attestasiya Komissiyasının Fəlsəfə elmləri bölməsinin, bir sıra elmi jurnalların redaksiya heyətinin üzvü olmuşdur.

1953-1962-ci illərdə Azərbaycan Dövlət Universitetində (indiki BDU) Fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışmışdır. 6 cildlik "Fəlsəfə tarixi" dərs vəsaitinin müəlliflərindən biridir.

Fəlsəfə elminə verdiyi əvəzsiz xidmətlərə, ictimai-siyasi fəaliyyətinə görə 1963-cü ildə görkəmli alim "Əməkdar elm xadimi" kimi yüksək fəxri ada layiq görülmüşdür.

Mehbalı Qasımov 1963-cü ilin iyul ayında Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycanda estetik fikir tarixindən /M.Qasımov, C.Cəfərov; red. S.Tarverdiyev.-Bakı: Azərnəşr, 1964.-79 s.

M.F.Axundov və XIX əsrin rus inqilabı-demokratik estetikası /Azərb. SSR EA Tarix və Fəlsəfə İnstitutu; [red. Ə.Əhmədov].- Bakı: Azərb. SSR EA nəşriyyatı, 1954.-82 s.

Fəlsəfi fikir tariximizdə Qasımov imzası: Ömər Xəyyamın fəlsəfi dünyasını öyrənən alim //Azadlıq.- 2013.- 22 iyul.- S.14.

Qasımov Mehbalı Məhəmməd oğlu //Naxçıvan ensiklopediyası.- Bakı, 2002.- S.264.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

80 illiyi

Tofiq Hacıyev 1936

Akademik

Ə d ə b i y y a t

Azərbaycan dili: ümumtəhsil məktəblərinin 10-cu sinfi üçün dərslik /T.Hacıyev, N.Cəfərov, N.Xudiyev; elmi red. T.Müzəffəroğlu; metod. cəhətdən işləyəni Ə.Abbasov; rəy.: E.Əzizov, E.Piriyev, S.İbrahimov.- Bakı: Aspoliqraf, 2009.- 143 s.

Mikayıl Baştunun "Şan qızı dastanı" və poetikası /T.Hacıyev; red. N.Qurbanov; AMEA, Folklor İn-tu.- Bakı: Təhsil, 2005.- 312 s.

"Molla Nəsrəddin"in dili və üslubu /T.Hacıyev; rəy. Q.Xəlilov.- Bakı: Yazıçı, 1983.- 270 s.

Türk dünyasının böyük oğlu: [Əli bəy Hüseynzadə haqında] /T. Hacıyev //Ədəbiyyat qəzeti.-2015.- 4 aprel.- S.5.

Nəbibəyli, Z. Professor Tofiq Hacıyev Turanın ziyalısıdır /Z.Nəbibəyli //Kredo.- 2014.- 25 yanvar.- S.5.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Tofiq İsmayıl oğlu Hacıyev 1936-cı il may ayının 1-də Cəbrayıl rayonunun Soltanlı kəndində anadan olmuşdur. 1953-cü ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə qəbul olunmuş, 1958-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. 1962-ci ildə "Azərbaycan dilinin Cəbrayıl şivəsi" mövzusunda namizədlik, 1969-cu ildə isə "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir. 1962-1964-cü illərdə M.F.Axundov adına Azərbaycan Dövlət Xarici Dillər İnstitutunda (ADU) baş müəllim, 1968-1974-cü illərdə ADU (BDU) filologiya fakültəsində dosent, 1971-1985-ci illərdə isə professor kimi çalışmışdır.

Azərbaycan türk ədəbi dili tarixi sahəsində görkəmli mütəxəssis sayılan T.Hacıyev "Azərbaycan ədəbi dili tarixi" (1976, II hissə 1987), "XX əsrin əvvəllərində Azərbaycan ədəbi dili" (1977), "Azərbaycan dili tarixi" (1983, K.Vəliyevlə birgə), "Azərbaycan dili" (1993, həmmüəllif), "Molla Nəsrəddinin dili və üslubu" (1983), "Füzuli: dil sənətkarlığı" (1994) kimi 20-dən çox kitab, monoqrafiya və dərs vəsaitlərinin, 400-ə yaxın elmi məqalənin müəllifidir.

Bir müddət Azərbaycan Respublikasının Maarif naziri (indiki Təhsil naziri) vəzifəsində işləmiş, Azərbaycan dili dərsliklərinin tərtibi və redaktəsi işində səmərəli əmək sərf etmişdir. Onun rəhbərliyi ilə "Orta ümumtəhsil məktəblərinin V-XI sinifləri üçün türk dili proqramı" (1993-cü ildə yeniləşdirilmişdir), "Türk dili" (IX, X, XI sinif - 1994, həmmüəllif) və s. kitablar çap olunmuşdur. 1993-cü ildə Tofiq Hacıyev BDU-nun Türkologiya kafedrasına qayıtmışdır.

Görkəmli akademik Türkiyə Atatürk Qurumunun hazırladığı 30 cildlik "Türk dünyasının ədəbiyyat tarixi", "Üzeyir Hacıbəyov ensiklopediyası" (1996), AMEA-nın altı cildlik "Azərbaycan ədəbiyyatı tarixi" və s. əsərlərin müəllifi, ikicildlik "Dədə Qorqud kitabı ensiklopediyası"nın aparıcı müəlliflərindən və birinci cildinin (2000) redaktoru olmuşdur.

Tofiq Hacıyev 1998-ci ildə Türkiyə Cümhuriyyətinin "Ləyaqət nişanı" ordeni ilə təltif olunmuş, 2002-ci ildə Türkiyənin Sanatçılar və Yazarlar Vəqfinin "Türk dünyasına xidmət" ödülünə, 2004-cü ilin mayında Qaraman Türk dili mükafatına, iyulun 17-də isə Atatürk Dil Qurumunun üstün Hizmət Baratına layiq görülmüşdür.

1999-cu ildə "Azərbaycan Respublikasının Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2014-cü ildə AMEA-nın həqiqi üzvü seçilmişdir.

Hazırda AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktorudur.

130 illiyi

Rəhim bəy Məlikov 1886-1936

Alim

Rəhim bəy Mehrəli bəy oğlu Məlikov 1886-cı il may ayının 2-də Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab rayonu) anadan olmuşdur. Atası Mehrəli bəy ermənilər tərəfindən qətlə yetirildiyindən yetim qalmış yeddi yaşlı Rəhim əmisi - görkəmli maarifçi, ziyalı Həsən bəy Zərdabinin himayəsində böyümüşdür. 1906-cı ildə Bakıda realnı gimnaziyanı bitirib Kazan Universitetinin fizika-riyaziyyat fakültəsinə daxil olmuşdur.

1912-ci ildə təhsilini başa vuran Rəhim bəy təyinata uyğun olaraq Şimali Qafqazın bir sıra şəhərlərində fəal pedaqoji iş aparmış, 1912-1913-cü illərdə Qroznı, Maykop və Pyatiqorsk şəhərlərində ali kurslarda fizika və riyaziyyat, 1920-1923-cü illərdə isə M.Lermontov adına Xalq Universitetində fizika fənnini tədris etmişdir.

1923-cü ildə Azərbaycan Xalq Komissarları Sovetinin sədri Nəriman Nərimanovun dəvəti ilə Bakıya gəlmiş və Ali Pedaqoji İnstitutda fizika müəllimi kimi fəaliyyətə başlamışdır. 1927-ci ildə Ali Pedaqoji İnstitutun (indiki ADPU) Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tərkibinə qatılması ilə əlaqədar olaraq (1930-cu ilə qədər) Rəhim bəy fəaliyyətini orada davam etdirmişdir. 1930-1936-cı illərdə Pedaqoji İnstitutun fizika kafedrasının müdiri olmuşdur.

1935-ci ildə institutun elmi şurası alimin elmi və pedaqoji sahədəki xidmətlərini nəzərə alaraq ona fizika üzrə professor elmi rütbəsinin verilməsi barədə qərar çıxarmışdır. Pedaqoji İnstitutun tarixində Rəhim bəy Məlikov bu ada layiq görülmüş ilk azərbaycanlı alim idi.

Onun yaratdığı fizika kabineti tələbələrin pedaqoji təcrübəsinə xidmət etmiş, eyni zamanda o, ilk dəfə fizika terminləri lüğətini də hazırlamışdır.

Görkəmli pedaqoq olmaqla yanaşı, mətbuat səhifələrində xalqımızın adət-ənənələrindən, mənəvi dəyərlərindən bəhs edən maraqlı məqalələr dərc etdirmiş, demokratik ideyalı tədqiqatçı kimi məşhurlaşmışdır. Kazan Universitetində təhsil alarkən "Molla Nəsrəddin" jurnalının Kazan regionu üzrə müxbiri kimi "Bayquş" imzası ilə də çıxış etmişdir.

Nəcəf bəy Vəzirovun "Müsibəti Fəxrəddin" və "Ailə tərbiyəsi" əsərlərinin tatar dilinə tərcümə edilib səhnələşdirilməsi də Rəhim bəyin adı ilə bağlıdır. Onun ilk teatr resenziyaları 1905-ci ildə "Kaspi" qəzetində dərc olunmuşdur.

Repressiya Rəhim bəydən də yan keçməmiş, Zərdabilər ailəsinin digər üzvləri kimi, o da bu amansız prosesin qurbanı olmuşdur. Azərbaycanın fizika elmi üzrə ilk professoru Rəhim bəy təzyiq və ittihamlara dözə bilməyərək 1936-cı il fevral ayının 23-də vəfat etmişdir.

Ədəbiyyat

Aydınoğlu, T. Azərbaycanın ilk fizika alimi /T.Aydınoğlu //Xalq qəzeti.- 2011.- 9 iyul.- S.7.

İlyasoğlu, R. Azərbaycanın fizika elminin görkəmli xadimi /R.İlyasoğlu // Respublika.- 2011.- 23 iyun.- S.8.

Qurbanov, Ş. Azərbaycanda ilk fizika professoru - Rəhim bəy Məlikov /Ş.Qurbanov // Müəllimlər.- Bakı, 2003.- S.75-108.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

160 illiyi

Hənifə Məlikova-Abayeva 1856-1929

Maarifçi

Hənifə Aslan bəy qızı Məlikova (Abayeva) 1856-cı il may ayının 5-də Şimali Qafqazda, Nalçik şəhərində anadan olmuşdur. Azərbaycanın ilk maarifçi qadınlarından biri olan Hənifə xanım 1872-ci ildə Tiflisdə "Müqəddəs Nina" qız məktəbini bitirmişdir.

Həyat yoldaşı Həsən bəy Zərdabi ilə birlikdə Azərbaycanın ilk mətbu orqanı olan "Əkinçi" qəzetinin formalaşması və nəşrində fəal iştirak etmişdir.

1880-ci ildə Həsən bəy Zərdabi ilə birgə, öz mənzilində Xalq məktəbi açmış, təqib və təzyiqlərə baxmayaraq, heç bir təmənna ummadan kimsəsiz uşaqlara sahib çıxaraq, həyat yoldaşı ilə birlikdə onlara elm, savad öyrətmişdir. 1904-1908-ci illərdə yaşlılara da dərs demişdir.

Hənifə xanım Bakıda "Nicat" Cəmiyyətinin qadın bölməsinin yaradıcılarından biri olmuş, türk qadınlarının mədəni səviyyəsini yüksəltmək, onları təhsilli, ziyalı şəxsiyyət kimi yetişdirmək üçün çalışmışdır.

Böyük xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin köməyi ilə 1901-ci ildə Bakıda ilk qızlar məktəbi açılmış, 1901-1905-ci illərdə Hənifə xanım həmin məktəbin müdiri olmuşdur. 1909-cu ildən 1919-cu ilədək Bakı şəhər Dövlət birinci rus-tatar (rus-Azərbaycan) qız məktəbinin müdiri vəzifəsində çalışmışdır.

Hənifə xanım Məlikovanın (Abayeva) maarifçilik fəaliyyəti qısa bir zamanda bütün Cənubi Qafqazda geniş vüsət almış, 1920-1926-cı illərdə Azərbaycan Xalq Maarif Komissarlığında məsul vəzifədə çalışmışdır.

Milli maarif və mədəniyyətimizin inkişafında misilsiz xidmətləri olmuş Hənifə xanım Məlikova (Abayeva) 1929-cu ildə Bakıda vəfat etmişdir. Əvvəlcə şəhər qəbiristanlığında dəfn edilən Hənifə xanımın cəsədi sonralar həyat yoldaşı Həsən bəy Zərdabinin məzarının yanına köçürülmüşdür.

2011-ci ildə Hənifə xanım Məlikova-Abayeva Zərdabinin anadan olmasının 155 illiyi ilə əlaqədar AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda elmi-nəzəri konfrans keçirilmişdir.

Ədəbiyyat

Məlikova-Abayeva Hənifə //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar=Role Models: Women daring to change /M.Vəzir; Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC).- Bakı, 2008.- S.63.

Məlikova-Abayeva Hənifə xanım //Azərbaycan qadını ensiklopediyası /red. hey. R. Mehdiyev [və b.]; baş red. İ.Vəliyev; [müəl. X.Abbasov [və b.]].-Bakı, 2002.- S.272.

Məlikova-Abayeva Hənifə xanım //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1982.- C.6.- S.491.

Fərəcov, S. Müqəddəs əməllərin böyüklüyü /S.Fərəcov //Mədəniyyət.- 2012.-27 iyul.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi Mahmud Allahverdiyev 1931-1999

Teatrşünas

Mahmud Qara oğlu Allahverdiyev 1931-ci il may ayının 15-də Gürcüstan Respublikasının Bolnisi rayonunun Mirhəsənli kəndində anadan olmuşdur.

1952-1956-cı illərdə Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) aktyorluq fakültəsində təhsil almış, sonra M.Əzizbəyov adına Azərbaycan Dövlət Dram Teatrına aktyor kimi qəbul edilmişdir.

Onun səhnədə ilk rolu 1955-ci il dekabr ayının 27-də "Tədris" Teatrının səhnəsində rejissor Mehdi Məmmədovun quruluşunda F.Şillerin "Qaçaqlar" pyesindəki Karl Moor obrazı olmuşdur. Həmin vaxtdan Ədil İsgəndərov bu gənc aktyorda yüksək istedadı duyaraq onun Azərbaycan Dövlət Dram Teatrında aktyor kimi işləməsinə razılıq vermişdir.

Lakin elmi işə marağı olduğundan Azərbaycan Elmlər Akademiyasının (indiki AMEA) Memarlıq və İncəsənət İnstitutunun Teatr və kino şöbəsinin aspiranturasına qəbul olunmuşdur.

1966-cı ildə "Müasir aktyor yaradıcılığı - Ələsgər Ələkbərov" mövzusunda namizədlik dissertasiyası, 1991-ci ildə Daşkənddə "Azərbaycan xalq teatrının kökləri və müasirlik" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

1970-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu (indiki ADMİU) Teatr tarixi kafedrasında (indiki Teatrşünaslıq) fəaliyyətini davam etdirmişdir. 1972-ci ildə ilk elmi əsəri olan "Ələsgər Ələkbərov" monoqrafiyasını, 1988-ci ildə isə SSRİ Xalq artisti Mirzağa Əliyevin həyat və yaradıcılığına həsr olunmuş monoqrafiyanı nəşr etdirmişdir.

1993-cü ildə Teatr tarixi kafedrasının müdiri, həmçinin universitetin tədris və elmi işlər üzrə prorektoru (1978-1993) vəzifələrində işləmişdir. 1993-cü ildə İstanbul şəhərindəki Memar Sinan Universitetinə dərs deməyə dəvət almışdır.

Mahmud Allahverdiyev teatr prosesini izləyən, onu müasir tələblər baxımından təhlil edən nəzəriyyəçi, tədqiqatçı, böyük alim idi. İstər müasir teatr, istərsə də milli teatrımızın qaynaqlarını araşdıran mütəxəssislər üçün sanballı mənbələr hesab olunan "Azərbaycan xalq teatr tarixi" (1978), "Teatr tənqidi və müasirlik" (1990), "Müasir teatrda ənənə və novatorluq məsələləri" (1974) və digər əsərləri ilə milli teatrşünaslığımızı zənginləşdirmişdir.

Kitablarla yanaşı, həmçinin bir sıra resenziyaların da müəllifidir. Buna misal olaraq "Şəbehkərdanlıq haqqında bir neçə söz", "Gənc kollektivin axtarışları", "İki pyes, iki tamaşa", "Kiçik torpağın böyük qəhrəmanları", "Kimdir müqəssir?", "Şəhərin yay günləri", "Mənsiz dünya" və s. adlarını çəkmək olar.

Görkəmli teatrşünas alim Mahmud Allahverdiyev 1999-cu il dekabr ayının 2-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan teatrı bu gün /M.Allahverdiyev; AzSSR "Bilik" Cəmiyyəti.- Bakı: [Kommunist], 1984.- 54 s.

Azərbaycan və xalq teatr tarixi /M.Allahverdiyev.-Bakı: Marif, 1978.- 238 s.

Mirzağa Əliyev: [monoqrafiya] /M.Allahverdiyev.-Bakı: İşıq, 1988.-110 s.

Teatr tənqidi və müasirlik: İncəsənət institutunun tələbələri üçün dərs vəsaiti /M.Allahverdiyev; rəyçi: İ.Rəhimli; elmi red. A.Səfiyev.- Bakı: Maarif, 1990.- 192 s.

Rəis, X. Görkəmli teatrşünas Mahmud Allahverdiyev /Xəyalə Rəis //Kaspi.- 25-27 avqust.- S.22.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY

26

75 illiyi

Ofeliya Sənani
1941

Diktor

Ofeliya Hacağa qızı Sənani 1941-ci il may ayının 26-da Bakı şəhərində anadan olmuşdur. Hələ 10-cu sinifdə oxuyarkən Respublika Radiosunda təcrübəçi diktor kimi fəaliyyətə (1959) başlamışdır.

1959-1975-ci illərdə bir sıra radio tamaşalarında baş rolları səsləndirən Ofeliya Sənani 1975-ci ildə televiziyada diktor kimi fəaliyyətə başlamış və 1978-ci ildə ali dərəcəli diktor adına layiq görülmüşdür. Eyni zamanda 1960-1990-cı illərdə "Azərbaycanfilm" kinostudiyasının dublyaj şöbəsində işləmiş, 100-dən artıq filmin baş qəhrəmanını - "Yeddi oğul istərəm" (1970 - Humay), "Tütək səsi" (1978 - İsmət), "Qaynana" (1978 - Sevda) və b. qəhrəmanları səsləndirmişdir.

Bir neçə filmdə rol almış - "Dağlarda döyüş" (1967), "O qızı tapın" (1970), "Ulduzlar sönmür" (1971) və s. bədii filmlərində, "Mücrü" (1973), "Bakı bulvarı" və s. televiziya filmlərində çəkilmişdir.

Ofeliya Sənani 1975-ci ildə "Əməkdar artist", 1991-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan efir məkanında diktor məktəbinin aparıcı şəxsiyyətlərindən biri kimi yeni diktor nəslinin yetişməsində böyük rol oynamışdır.

Kütləvi informasiya vasitələrinin mühüm qollarından biri olan Milli Televiziyanın inkişafındakı xidmətlərinə görə Ofeliya Sənani 1994-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamına əsasən Fərdi təqaüdə layiq görülmüşdür.

Ə d ə b i y y a t

Sənani Ofeliya Hacağa qızı //Azərbaycan qadını ensiklopediyası Azərbaycan Milli Ensiklopediyası Nəşriyyat –Poliqrafiya birliyi/ Bakı, 2002.- S.357.

Allahverdiyev, E. Bizim ali dərəcəli diktorumuz /E.Allahverdiyev //Ekran.Efir.- 2011.- 30 may-5 iyun.- S.7.

Əhmədli, Z. Ekran və efirin Ofeliyası /Z.Əhmədli //Ədəbiyyat qəzeti.-2013.- 1 noyabr.- S.6.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.kino-teatr.ru

65 illiyi Asəf Hacıyev 1951

Akademik

Asəf Hacı oğlu Hacıyev 1951-ci il may ayının 29-da Gəncə şəhərində anadan olmuşdur.

1968-ci ildə Gəncədə 4 saylı orta məktəbi bitirdikdən sonra M.V. Lomonosov adına Moskva Dövlət Universitetinin mexanika-riyaziyyat fakültəsinə daxil olmuş, 1973-cü ildə fərqlənmə diplomu ilə bitirmişdir. 1979-cu ildə Moskva Dövlət Universitetinin ixtisaslaşdırılmış şurasında "Cihazları hərəkətdə olan kütləvi xidmət sistemləri" mövzusunda namizədlik dissertasiyası, 1992-ci ildə isə N.Bauman adına Moskva Dövlət Texniki Universitetinin Elmi Şurasında "Cihazları əlaqəli olan mürəkkəb kütləvi xidmət sistemlərinin analizi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1996-cı ildən AMEA-nın Kibernetika İnstitutunda laboratoriya müdiri, 2001-ci ildən Bakı Dövlət Universitetində kafedra müdiri vəzifələrində çalışır.

130 dan çox elmi əsərin, bir neçə monoqrafiyanın müəllifidir. Asəf Hacıyev dünyanın aparıcı elmi mərkəzlərinin dəvəti ilə - 1998-ci il Lissabon Universitetində, 2002, 2003, 2008-ci illərdə Stokholm Kral Universiteti, 2000, 2001, 2004, 2009-cu illərdə Cənubi Kaliforniya Universitetində, mütəmadi olaraq Türkiyə və digər ölkələrin universitetlərində mühazirələr oxumuşdur.

Dörd dildə (Azərbaycan-ingilis-rus-türk) "Ehtimal nəzəriyyəsi və riyazi statistika üzrə terminlər lüğəti"nin (2002) həmmüəlliflərindəndir. Azərbaycan əlifbası hərflərinin optimal düzülüşünün yaradılması üçün yeni universal statistika metodu təklif etmiş və bu istiqamətdə tədqiqatları başa çatdırmaq üçün ABŞ-ın CRDF fondunun qrantına layiq görülmüşdür. Görkəmli alim 2000-ci ildən İsveçrədə yerləşən Ümumdünya İntellektual Mülkiyyətinin qorunma təşkilatının üzvüdür.

Ehtimal Nəzəriyyəsi və Riyazi Statistika üzrə Ümumdünya Cəmiyyətinin, 2004-cü ildə isə Nobel Mükafatı Laureatı Abdüs Salmanın yaratdığı İnkişafda olan ölkələrin Elmlər Akademiyasının Qafqaz və Orta Asiya regionlarından ilk və hələ yeganə üzvü seçilmişdir.

1980-cı ildə Asəf Hacıyev ehtimal nəzəriyyəsi və riyazi statistika sahəsində əldə etdiyi elmi nəticələrə görə Azərbaycan Lenin Komsomolunun mükafatına layiq görülmüşdür.

1995-2005-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. 2001-ci ildə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyasının vitse-prezidenti seçilmişdir. Bu təşkilatdakı səmərəli fəaliyyətinə görə xüsusi diplomla təltif edilmişdir.

2001-ci ildə AMEA-nın müxbir üzvü, 2014-cü ildə həqiqi üzvü seçilmişdir.

Ədəbiyyat

Azərbaycanca-Türkcə-rusca-ingiliscə ehtimal nəzəriyyəsi və riyazi statistika terminləri lüğəti /tərt. ed.: A.Hacıyev və b.- Bakı: Gənclik, 2002.- 436 s.

Ehtimal nəzəriyyəsi və riyazi-statistika ensiklopediyası /A.Hacıyev, C.Allahverdiyev; H.Əhmədova (tərt ed).-Bakı: Elm, 2010.- 1183 s.

Hacıyev Asəf //Ə. Əli-zadə XX əsr Gəncənin görkəmli elm, mədəniyyət, partiya və dövlət xadimləri.- Bakı, 2008.- S.116-118.

İnternetdə

www.anl.az

cs.bsu.edu.az/az/content/_hacyev_asf_hac_olu

www.az.wikipedia.org

adam.az/index.php?option=com...61

MAY

1

115 illiyi

Cahangir Abdullayev 1901-1973

Akademik

Cahangir Məmməd oğlu Abdullayev 1901-ci il may ayının 1-də Gəncə şəhərində anadan olmuşdur. Gəncə gimnaziyasında təhsil almışdır. Azərbaycan Dövlət Universitetinə (indiki BDU) qəbul olunmuş, 1925-ci ildə oranı fərqlənmə diplomu ilə bitirdikdən sonra Leninqrad (indiki Sankt-Peterburq) kardioloji mərkəzində məşhur kardioloq-akademik K.F.Langenin rəhbərliyi altında fəaliyyətə başlamış və ürək-damar xəstəlikləri üzrə 14 elmi əsər çap etdirmişdir.

1932-ci ildə Bakıya qayıtmış və Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ADTU) dosent vəzifəsində çalışmışdır. 1936-cı ildə "Malyariya xəstəliyi zamanı ürək-damar sisteminin vəziyyəti" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, 1-ci Qospital terapiya kafedrasının professoru seçilmiş, 1943-cü ildən ömrünün sonuna qədər 2-ci Qospital terapiya kafedrasının müdiri vəzifəsində çalışmışdır. Eyni zamanda Azərbaycan Elmi Tədqiqat Klinik və Eksperimental Tibb İnstitutunun Kardiologiya şöbəsinə rəhbərlik etmişdir.

Böyük Vətən müharibəsi illərində Semaşko adına xəstəxananın (indiki M.Nağıyev ad. 1 saylı Şəhər Klinik Xəstəxanası) baş həkimi olmuşdur.

Terapevtlərin (1960) və Hematoloqların (1963) Beynəlxalq Assosiasiyalarının, Terapevtlərin (1961) və Kardioloqların (1965) Ümumittifaq Elmi Cəmiyyətlərinin üzvü, Respublika Kardioloqlar Cəmiyyətinin sədri (1966) və "Kardiologiya" jurnalının, eləcə də "Azərbaycan tibb jurnalı"nın redaksiya heyətinin üzvü olmuşdur.

RSFSR terapevtlərinin 1958-ci ildə keçirilən I qurultayında professor Cahangir Abdullayev "Koronor çatızmazlığı zamanı strofantin tətbiqinin bəzi təsirləri" mövzusunda məruzə ilə çıxış etmişdir. Həmin çıxış tibb elmi ictimaiyyəti tərəfindən maraqla qarşılanmış və dövri mətbuatda dərc olunmuşdur.

150-dən artıq elmi işin, o cümlədən 10 monoqrafiya və dərsliklərin müəllifi olmuş, kardiologiya sahəsində öz məktəbini yaratmış, 13 tibb elmləri doktoru, 46 tibb elmləri namizədi hazırlamışdır.

Akademikin Azərbaycan dilində nəşr etdirdiyi "Daxili xəstəliklər" dərs vəsaiti bu gün də həkim və tələbələr üçün əsas dərs vəsaiti hesab olunmaqdadır.

"Qırmızı Əmək bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir. 1940-cı ildə "Azərbaycan SSR Əməkdar elm xadimi", 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasının müxbir üzvü, 1968-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Cahangir Abdullayev 1973-cü il yanvar ayının 4-də 72 yaşında vəfat etmiş, Bakıda I Fəxri Xiyabanda dəfn edilmişdir.

Bakıda Elmi-Tədqiqat Kardiologiya İnstitutu onun adını daşıyır. Gəncədə büstü qoyulmuş, küçələrdən birinə onun adı verilmişdir. 2001-ci ildə 100 illik yubileyi Bakıda və Gəncədə təntənəli şəkildə qeyd olunmuşdur.

Ə d ə b i y y a t

Daxili xəstəliklər /C.Abdullayev; red. M.Mustafayev.- Bakı: Azərnəşr, 1967.-381 s.

Ürək-damar xəstəliklərinin diaqnostikası və müaliçəsi: tibb institutu üçün dərs vəsaiti /C.Abdullayev; [red.: H.İsazadə, M.Əhmədov].- Bakı: Azərtədrisnəşr, 1963.- 215 s.

Abdullayev Cahangir: Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı,1976.-C.1.- S.19.

Abdullayev Cahangir Məmməd oğlu //Əlizadə Ə. XX əsr Gəncənin görkəmli elm, mədəniyyət, partiya və dövlət xadimləri.-Bakı, 2008.- S.15-17.

Abdullayev Cahangir Məmməd oğlu //Azərbaycanın 100 tanınmış həkimi: ensiklopedik nəşr /tərt. ed. və ön söz. müəl. E.İsgəndərzadə; red. X.Əhmədov.- Bakı, 2001.- S.16.

İ n t e r n e t d ə

www.anl.az

az.wikipedia.org

100 illiyi Vəli Axundov 1916-1986

Akademik

Vəli Yusif oğlu Axundov 1916-cı il may ayının 14-də Bakı quberniyasının Saray kəndində (indiki Saray qəsəbəsi) anadan olmuşdur. İlk təhsilini Saray kənd məktəbində almış, 1929-cu ildə Biləcəri stansiyasında fabrik-zavod məktəbində oxumuş, 1931-ci ildə isə Bakı Sənaye Texnikumuna daxil olmuşdur. 1935-ci ildə texnikumun kimya şöbəsini bitirmişdir. Ali təhsil almaq məqsədilə əvvəlcə Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) hazırlıq kursunda oxumuş, 1937-ci ildə isə Azərbaycan Tibb İnstitutuna (indiki ADTU) daxil olmuşdur. İnstitutda oxumaqla yanaşı ATİ-nin İctimai elmlər kafedrasının laborantı, "Tibbi kadrlar uğrunda" qəzetin redaktoru və komsomol komitəsinin katibi vəzifəsində çalışmışdır.

1941-ci ildə hərbi xidmətə çağırılmış, Böyük Vətən müharibəsi illərində 20-ci atıcı diviziyasının tərkibində həkim kimi çalışaraq xüsusi tibbi-sanitar batalyonunun komandiri vəzifəsinədək yüksəlmiş, Rusiya, Belorusiya, Almaniya, Çexoslovakiya ərazisində gedən döyüşlərdə iştirak etmişdir.

1946-cı ildə ordudan tərxis olunandan sonra ATİ-yə qayıtmış, Tibb tarixi kafedrasında assistent kimi çalışmışdır. Epidemiologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun elmi işçisi, daha sonra direktoru olmuşdur. 1946-1949-cu illərdə Azərbaycan Tibb İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri, 1949-1952-ci illərdə Azərbaycan SSR Səhiyyə nazirinin müavini, 1952-1953-cü illərdə isə Bakı Vilayəti Səhiyyə şöbəsinin müdiri olmuşdur.

1953-1954-cü illərdə Azərbaycan KP MK-da İnzibati, ticarət maliyyə və plan orqanları şöbəsi müdirinin müavini, 1954-1958-ci illərdə Azərbaycan SSR Səhiyyə naziri, 1958-ci ilin fevral ayından Azərbaycan KP MK katibi, 1958-1959-cu illərdə Azərbaycan SSR Nazirlər Sovetinin sədri, 1959-1969-cu illərdə isə Azərbaycan KP MK-nin birinci katibi olmuşdur. 1969-1972-ci illərdə Azərbaycan SSR EA prezidentinin müavini vəzifəsində çalışmışdır.

1956-cı ildə namizədlik, 1964-cü ildə isə tibb elmləri doktoru dissertasiyalarını müdafiə etmişdir. 1969-cu ildə Azərbaycan SSR EA-nın akademiki seçilmişdir.

1969-cu il iyul ayının 14-də birinci katib vəzifəsindən azad edilmiş, 1972-1986-cı illərdə Q.M.Musabəyov adına Virusologiya, Mikrobiologiya və Gigiyena İnstitutunun direktoru olmuşdur.

İctimai və siyasi fəaliyyət göstərdiyi dövrdə Sov.İKP-nin 22-23-cü qurultaylarında Sov.İKP MK üzvü seçilmiş, SSRİ Ali sovetinin (6 və 7-ci çağırış), Azərbaycan SSR Ali Sovetinin (4 və 7 çağırış) deputatı olmuşdur. Lenin ordeni, II dərəcəli Vətən müharibəsi, Qırmızı Ulduz ordenləri və müxtəlif medallarla təltif olunmuşdur.

Vəli Axundov 1986-cı il avqust ayının 22-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

1996-cı ildə ulu öndər Heydər Əliyev akademikin xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalamışdır. 1999-cu ildə Saray qəsəbəsinin mərkəzində Vəli Axundovun adını əbədiləşdirən barelyef abidə və istirahət parkının açılışı olmuşdur. Adını daşıyan küçə var.

Ədəbiyyat

Həsənli, C. Vəli Axundov: işıqlı on il /C.Həsənli //525-ci qəzet.- 2011.- 14 may.- S.28-29.

Rəhimzadə, M. Böyük şəcərənin həlqələri - Axundovlar nəsli /M.Rəhimzadə //Ədalət.-2012.- 12 may.- S.13.

Vəli Axundov //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1976.- C.1.- S.495.

Vəli Yusif oğlu Axundov //Qasımlı M., Hüseynov C. Azərbaycanın Baş nazirləri.- Bakı, 2005.- S.40-41.

Некоторые вопросы гигиены сельских населенных мест Азербайджанской ССР /В.Ахундов.- Баку, 1972.- 315 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

MAY
8

Şuşanın işğalı günü 1992



Ərazisi: 289 km²
Əhalisi: 31499 nəfər
İşğal tarixi: 08.05.1992

Azərbaycanın dilbər guşəsi, musiqi və mədəniyyət ocağı olan Şuşa şəhəri dünyanın bəzi aparıcı dövlətlərinin məzlum xalq kimi tanıdıqları, əslində nəinki xalqımıza, bütün insanlığa qarşı terror siyasəti həyata keçirən məkrli ermənilər tərəfindən keçmiş sovet ordusunun 366-cı alayının 40 zirehli texnikasının bilavasitə iştirakı və köməyi ilə işğal edilmişdir.

289 kvadrat kilometr ərazisi olan Şuşa şəhərində həmin dövrdə 24.900 nəfər əhali yaşayırdı. İşğal zamanı 480 nəfər insan qətlə yetirilmiş, 600 nəfər yaralanmış, 150 nəfər əlil olmuş, 552 körpə yetim qalmış, 20 mindən artıq əhali isə məcburi köçkün vəziyyətinə düşmüşdür.

Qeyd etmək lazımdır ki, Şuşaya hücumdan bir neçə saat öncə Tehranda İran Prezidentinin vasitəçiliyilə Ermənistan və Azərbaycan dövlət başçıları Qarabağ münaqişəsinin dinc yolla həllinə dair saziş imzalamışdır.

İşğal nəticəsində Şuşadakı bir sıra tarixi-mədəniyyət abidələri düşmən tərəfindən talan edilmişdir. Beş minə yaxın eksponatı olan Şuşa Tarix Muzeyi, Dövlət Xalça muzeyinin filialı və Xalq Tətbiqi Sənəti Muzeyi, Qarabağ Dövlət Tarix Muzeyi, həmçinin Laçın rayonundakı Ağoğlan məbədi, dünya əhəmiyyətli arxeoloji abidə sayılan Paleolit dövrünə aid Azıx mağarası, Xocalıdakı Əsgəran qalası, Kəlbəcər Tarix Muzeyinin və digər mədəniyyət ocaqlarının, rəsm qalereyalarının bənzərsiz ekspozisiyaları dağıdılmış və talan olunmuş, müqəddəs məbəd və məscidlər təhqir edilmiş, kitabxanalar yandırılmış, misilsiz əlyazma nümunələri məhv edilmişdir.

Bu siyahıya Xan mağarası, Qaxal mağarası, Şuşa qalası da olmaqla bütövlükdə 279 dini, tarixi və mədəni abidə daxildir. Şuşada 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, 8 mədəniyyət evini, 14 klubu, 20 kitabxananı, 2 kinoteatrı, 3 muzeyi, Şərq musiqi alətləri fabrikini dağıtmışlar.

Artıq Şuşanın işğalından 24 il ötür. Tezliklə qədim Azərbaycan torpağının işğaldan azad olunacağı günü arzulayır və Allahdan bütün şəhidlərə rəhmət diləyirik!

Ədəbiyyat

Hüseynov, F.Şuşanın dağları başı dumanlı...: Şuşanın işğalından 23 il ötür /F.Hüseynov //Mədəniyyət .-2015.- 8 may.- S. 9.

Xalid.Şuşanin işqalindan 23 il ötür/ Xalid.//Üç nöqtə .-2015.- 8 may.- S.5.

8 may Şuşanın işğalı günüdür//P.S.Elm, təhsil və həyat .-2015.- 8-15 may.- S.9.

Sevgili gözəl Şuşam, dərdim, kədərim Şuşam: Şuşanın işğalından 22 il ötür Ç.Fərəcov //Azərbaycan 2014.- 7 may.- S.14.

Şuşa rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.23-48.

may.- S.4-5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.shusha-ih.gov.az

www.voanews.com

MAY

17

Laçın rayonunun işğalı günü 1992



Ərazisi: 1835 km²
Əhalisi: 72 228 nəfər
İşğal tarixi: 17.05.1992

Bu gün Azərbaycanın strateji cəhətdən mühüm əhəmiyyət kəsb edən Laçın rayonunun işğalından 24 il keçir.

Şuşa şəhərinin Turşsu deyilən ərazisindən və Ermənistan istiqamətindən hücuma keçən düşmən mayın 17-də Laçını işğal etmişdir. Əhəmiyyətli geostrateji mövqeyə malik olan Laçının işğalı Azərbaycan iqtisadiyyatına ciddi ziyan vurmuşdur.

Rayonun yüzlərlə mədəni-məişət obyektini, onlarla qəsəbə, kənd və tarixi abidələrini dağıdılaraq talan edilmişdir. İşğal nəticəsində 72 min 228 Azərbaycan vətəndaşı öz yurdundan didərgin düşmüş, 300-dən artıq hərbi və mülki şəxs həlak olmuş və itkin düşmüşdür. Rayonda 8950 bina, o cümlədən 7 sənaye və tikinti müəssisəsi, 471 xidmət idarəsi, 154 məktəb, yüzlərlə tarix-mədəniyyət abidəsi işğal altında qalmışdır.

Təbii sərvətlərlə zəngin olan Laçın rayonunda Turşsu, Qaladərəsi, Ağanus, Xırmanlar, Tiqiq, Turş-tiqiq, Nurəddin, Nağdalı, Hacıxanlı kimi müalicəvi əhəmiyyətli bulaqlar mövcuddur.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin rayonun işğalı ilə bağlı yaydığı məlumatda bildirilmişdir ki, Laçın rayonu ərazisində ümumi ehtiyatları 1124 ton olan 3 civə (Narzanlı, Çilgəzçay, Sarıbulaq), ehtiyatları 4457 min ton olan və əhəng istehsalına yararlı Laçın əhəngdaşı, ehtiyatları 2533 min kubmetr olan və istismara cəlb edilən üzlük daşı istehsalına yararlı Qoçaz mərmərləşmiş əhəngdaşı, mişar daşı istehsalına yararlı 2 tuf (Ağoğlan, Əhmədli), 2 əlvan bəzək daşı, vulkan külü və digər təbii sərvətləri var.

Laçın rayonundakı Qaragöl Dövlət Təbiət Qoruğu və Dövlət Təbiət Yasaqlığı da hal-hazırda işğal altındadır. Ümumi sahəsi 240 hektar olan qoruqda 68 növdən və 27 ailədən ibarət bitki örtüyü var. 1961-ci ilin noyabr ayında heyvan və quşları qoruyub saxlamaq və artırmaq məqsədilə yaradılan Dövlət Təbiət Yasaqlığının ərazisində cüyür, qaya keçisi, çöl donuzu, ayı, turac, kəklik, qaratoyuq kimi nadir fauna növləri məskunlaşmışdır. 1989-cu ildə yasaqlıqda aparılan yoxlama zamanı dağ-keçisi (bezoar keçisi) 96, qaban 360, cüyür 320, ayı 110 baş, eləcə də çoxlu sayda canavar, porsuq, dələ, qırqovul, kəklik qeydə alınmışdır.

İşğalçı dövlət beynəlxalq hüquq normalarına, zəbt olunan Azərbaycan torpaqlarından Ermənistan qoşunlarının qeyd-şərtsiz çıxarılmasına dair BMT-nin qətnamələrinə məhəl qoymayaraq hazırda Laçında qanunsuz məskunlaşma aparır.

Bu gün hər bir azərbaycanlı Qarabağın işğal altından qurtulacağı günü gözləyir.

Qarabağa böyük qayıdışın olacağına hamımız inanırıq.

Ə d ə b i y y a t

Ağamirzə, T. Ermənilər həmişə Laçına yiyələnmək arzusunda olmuşlar /T.Ağamirzə //Vətən səsi.- 2011.- 13 may.- S.3.

Qaraca, B.Şuşadan, Ağdamdan keçən yol : Laçının işğalından 23 il keçir /B.Qaraca //Azərbaycan .-2015.- 17 may.- S.11.

Laçın rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən işğal edilməsinin iyirmi ikinci ildönümü ilə əlaqədar Bakıda anma mərasimi keçirilmişdir //Azərbaycan .-2014.- 17 may .- S.3.

Laçın rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.63-82.

Sarıyeva, İ.Laçının işğalı - Azərbaycan dövlətçilik tarixində erməni təcavüzünün ən ağır təzahürlərindən biri kimi.../İ.Sarıyeva //Bakı xəbər .-2015.- 18 may.- S. 11.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.lachin-ih.gov.az

Respublika Günü 1990

1918-ci il may ayının 28-də Azərbaycan Xalq Cümhuriyyəti (1918-1920) – müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət yaradılmışdı. Bu respublika millətimizin tarixi yaddaşında Azərbaycan dövlətçiliyinin ilk təcrübəsi kimi iz qoymuşdur.

Məmməd Əmin Rəsulzadə tərəfindən əsası qoyulan Demokratik Cümhuriyyət Türk və İslam dünyasında ilk Parlamentli Respublika və ilk demokratik, hüquqi və dünyəvi dövlət nümunəsi idi.

1918-ci il may ayının 28-də Azərbaycan milli Şurası İstiqlaliyyət Bəyannaməsi ilə Azərbaycanın şimal torpaqlarında Azərbaycan Demokratik Cümhuriyyəti yarandığını elan etmişdi. Bu tarixi sənədə görə Azərbaycan qonşu xalqlar və dövlətlərlə dostluq münasibəti quracaqdı. Müstəqil Azərbaycan dövlətinin təşkil idarəsi xalq cümhuriyyəti idi. Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif və cins fərqi görməmiş və bütün vətəndaşların siyasi hüquqlarını təmin etmişdi.

Azərbaycan müvəqqəti hökumətinin ilk başçısı isə Fətəli Xan Xoyski seçilmişdi. 10 gün Milli Şura Tiflisdə işlədikdən sonra Gəncəyə köçürülmüş, yalnız 1918-ci ilin sentyabrında Türkiyə ordusunun rəhbərliyi ilə Bakı daşnak-rus qüvvələrindən təmizləndikdən sonra milli hökumət Gəncədən Bakıya köçmüşdü.

Müstəqil Azərbaycan Cümhuriyyəti qısa ömründə böyük nailiyyətlər və qalibiyyətlər əldə etmişdir. 96 il bundan əvvəl ilk dəfə qadınlara seçim hüququ tanıyan və qadın-kişi bərabərliyini təmin edən Müstəqil Azərbaycan Cümhuriyyəti, o cümlədən milli ordu, milli pul, demokratlaşma, milli bank, azad seçkilər, beynəlxalq əlaqələr və beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan istiqlalının tanınması, Azərbaycanın bütövlüyünü təmin etmək, iqtisadi islahatları həyata keçirmişdir.

Azərbaycan Demokratik Respublikasını rəsmi surətdə 1918-ci il iyun ayının 4-də tanıyan ilk dövlət Osmanlı dövləti olmuşdur.

1918-ci il 9 noyabr tarixində M.Ə.Rəsulzadənin təklifi əsasında Azərbaycan Demokratik Respublikasının üç rəngli bayrağı qəbul edilmişdir. O zamana qədər Azərbaycan Demokratik Respublikasının bayrağı qırmızı rəngdə idi.

Azərbaycan Demokratik Respublikası gərgin və mürəkkəb ictimai-siyasi şəraitdə cəmi 23 ay fəaliyyət göstərə bilmişdi. Təəssüflər olsun ki, Müstəqil Azərbaycan Cümhuriyyəti iki yaşına çatmadan bolşeviklərin hücumuna məruz qalmış, müvəqqəti olaraq devrilmişdi. Sovetlər Birliyi Azərbaycanı məcburi surətdə öz tərkibinə daxil etmişdi. Bolşeviklər tərifindən devrilməsinə baxmayaraq, istiqlal ideyası yenilməmiş və M.Ə.Rəsulzadənin "BİR KƏRƏ YÜKSƏLƏN BAYRAQ, BİR DAHA ENMƏZ" şüarı öz əksini tapmış və nəhayət, 1991-ci ildə Sovet İmperiyasının dağılması ilə Azərbaycan yenidən öz müstəqilliyini elan etmişdir.

1990-cı ildən Respublika günü – dövlət müstəqilliyinin bərpa edilməsi günü, dövlət bayramı kimi qeyd edilir.

Ə d ə b i y y a t

Müstəqilliyimizin təntənəsi: [Mətn] Müdafiə Nazirliyinin hərbi hissə və birləşmələrində 28 May-Respublika Günü geniş qeyd olunub//Azərbaycan ordusu .-2015.- 30 may.- S.4.www.anl.az

www.az.wikipedia.org

1 iyun

Gün çıxır 06:123
Gün batır 21:24

30 iyun

Gün çıxır 06:13
Gün batır 21:35

İYUN

22 may

21 iyun

Əkizlər bürcünün Nişanı Havadır. Merkurinin himayəsindədir. Günəşin əkizlər bürcünə keçdiyi dövrdə doğulanlar çox ağıllı olub hər şeyi bilməyə həvəs göstərir, şəraitə asanlıqla uyğunlaşırlar.

Ç.	1
C.A.	2
C.	3
Ş.	4
B.	5
B.E.	6
Ç.A.	7
Ç.	8
C.A.	**9**
C.	10
Ş.	11
B.	12
B.E.	13
Ç.A.	14
Ç.	15
C.A.	**16**
C.	17
Ş.	18
B.	19
B.E.	20
Ç.A.	21
Ç.	22
C.A.	**23**
C.	24
Ş.	25
B.	26
B.E.	27
Ç.A.	28
Ç.	29
C.A.	**30**

- *Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)*
- *Ətraf Mühitin Mühafizəsi Günü (05.06.1972)*
- *Milli Qurtuluş Günü (15.06.1993)*
- *Milli Silahlı Qüvvələr Günü (26.06.1918)*
- *Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.)*

875 il Nizami Gəncəvi 1141-1209



Nizami irsinin daim aktual olduğu nəzərə alınaraq, hazırkı mərhələdə respublikamızda gənc nəslə mənsub nizamişünas kadrların yetişdirilməsi, şairin əsərlərinin filoloji tərcüməsinin təkmilləşdirilərək yenidən nəşrə hazırlanması və müxtəlif dillərə tərcümə edilməsi, habelə dünyanın mötəbər kitabxana və arxivlərində şairin yeni əlyazmalarının üzə çıxarılması Azərbaycan mədəniyyətinin öyrənilməsi işində bu gün xüsusilə mühüm əhəmiyyət daşıyır. Nizami dövrü, ədəbi irsi və məktəbi problemləri müasir humanitar düşüncənin tələbləri kontekstində və azərbaycançılıq məfkurəsi işığında tədqiqini gözləyir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

İYUN

2016

Dünya ədəbiyyatı

Rus yazıçısı, ədəbi tənqidçi, publisist Belinski Vissarion Qriqoryeviçin (11.06.1811-07.06.1848) anadan olmasının 205 illiyi 194

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Rzaquliyev Elbəy Mirzə Həsən oğlunun (17.06.1926-15.09.2007) anadan olmasının 90 illiyi 195

Əməkdar memar Yüzbaşov Faiq Hüseyn oğlunun (25.06.1946) anadan olmasının 70 illiyi

Musiqi.Opera.Balet

Xalq artisti, dirijor, professor Əzimov Nəriman Abbasqulu oğlunun (01.06.1936) anadan olmasının 80 illiyi

Əməkdar artist, xanəndə Mehrəliyeva Fatma Yusif qızının (04.06.1926-04.01.2000) anadan olmasının 90 illiyi 196

Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Qasımova Xuraman Əkrəm qızının (06.06.1951) anadan olmasının 65 illiyi 197

Xalq artisti, tarzən Bayramov Həbib Əbdülhüseyn oğlunun (14.06.1926-15.08.1994) anadan olmasının 90 illiyi 198

Xalq artisti, bəstəkar Cahangirov Cahangir Şirgəşt oğlunun (20.06.1921-25.03.1992) anadan olmasının 95 illiyi 199

Teatr.Kino

Xalq artisti Xanızadə Hamlet Bəbir oğlunun (05.06.1941-23.02.1990) anadan olmasının 75 illiyi 200

Əməkdar incəsənət xadimi, ssenarist, rejissor, kino redaktoru Fətəliyev Ramiz Məmmədəli oğlunun (07.06.1946) anadan olmasının 70 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Salahov Şakir Şamil oğlunun (15.06.1966-28.01.1992) anadan olmasının 50 illiyi 201

Azərbaycanın Milli Qəhrəmanı Sədiyev Vəzir İsa oğlunun (06.06.1961-19.02.1993) anadan olmasının 55 illiyi 202

Azərbaycanın Milli Qəhrəmanı Məcidov Zakir Nüsrət oğlunun (26.06.1956-06.08.1992) anadan olmasının 60 illiyi 203
Azərbaycanın Milli Qəhrəmanı Əliyev Yavər Yaqub oğlunun (27.06.1956-29.02.1992) anadan olmasının 60 illiyi 204
Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Elşən İbrahim oğlunun (30.06.1976-17.03.1995) anadan olmasının 40 illiyi 205

Siyasət.Hüquq.Hərbi iş

Daxili xidmət general-leytenantı Heydərov Arif Nəzər oğlunun (28.06.1926-29.06.1978) anadan olmasının 90 illiyi 206

Mədəniyyət.Maarif.Təhsil

Filologiya elmləri doktoru Əliyeva-Kəngərli Aybəniz İbrahim qızının (06.06.1946) anadan olmasının 70 illiyi 207
Əməkdar müəllim Məlikova Qəribsoltan Həsən bəy qızının (11.06.1886-09.03.1967) anadan olmasının 130 illiyi 208

Fəlsəfə.İqtisadiyyat

AMEA-nın müxbir üzvü, professor Abdullayev Mahmud Abdulla oğlunun (30.06.1941) anadan olmasının 75 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Fizika-riyaziyyat elmləri doktoru, professor Səlimov Arif Ağacan oğlunun (07.06.1956) anadan olmasının 60 illiyi 209
Əməkdar elm xadimi, professor Əsgərov Şahlar Qaçay oğlunun (15.06.1941) anadan olmasının 75 illiyi 210

Kimya.Biologiya.Tibb

Biologiya elmləri doktoru, professor Hacıyeva Nina Alekseyevnanın (14.06.1926) anadan olmasının 90 illiyi
AMEA-nın müxbir üzvü, professor Qasımov Rafiq Yunis-Əli oğlunun (26.06.1931) anadan olmasının 85 illiyi

Texnika.Mühəndis işi

Əməkdar inşaatçı mühəndis, Sosialist Əməyi Qəhrəmanı Abdullayev Məzahir Ağaverdi oğlunun (03.06.1911) anadan olmasının 105 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Gözdən Əlillər üçün Respublika Kitabxanasının (01.06.1981) yaradılmasının 35 illiyi
BDU-nun Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı, fizika-riyaziyyat elmləri üzrə fəlsəfə doktoru, dosent Qurbanov Azad İsa oğlunun (26.06.1966) anadan olmasının 50 illiyi 211

Tarixdə bu gün

Uşaqların Beynəlxalq Müdafiəsi Günü (01.06.1950)
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü (02.06.2006)
Ümumdünya ətraf mühitin mühafizəsi günü (05.06.1972)
Beynəlxalq Qan Donor Günü (14.06.2001)
Milli Qurtuluş Günü (15.06.1993) **212**
Səhiyyə İşçiləri Günü (17.06.2001)
İnsan Hüquqları Günü (18.06.2007)
Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında fərman verilmişdir (18.06.2001)
Ümumdünya Qaçqınlar Günü (20.06.2000) **213**
Prezident Heydər Əliyevin fərmanı ilə Azərbaycanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmışdır (21.06.2001)
"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman imzalanmışdır (22.06.1996)
Beynəlxalq Olimpiya Günü (23.06.1967) **214**
Dövlət Qulluqçularının Peşə Bayramı Günü (23.06.2006)
Azərbaycan Respublikasının Prezidenti iyun ayının 25-nin "Dənizçi günü" peşə bayramının təsis edilməsi haqqında Sərəncam imzalamışdır (19.06.2014)
Milli Silahlı Qüvvələr Günü (26.06.1918) **215**
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü (26.06.1987)
Birləşmiş Millətlər Təşkilatı qurulmuşdur (26.06.1945)

205 illiyi
Vissarion Belinski
1811-1848

Rus yazıçısı

Vissarion Qriqoryeviç Belinski 1811-ci il iyun ayının 11-də Finlandiyanın Sveaborq şəhərində, həkim ailəsində anadan olmuşdur. 1829-cu ildə Moskva Universitetinə daxil olmuş, lakin təhkimçilik əleyhinə yazdığı "Dmitri Kalinin" dramına görə 1832-ci ildə universitetdən xaric edilmişdir.

1833-1836-cı illərdə "Teleskop" jurnalında və "Molva" qəzetində işləmiş, "Ədəbi xəyallar" (1834), "Rus povesti və cənab Qoqolun povestləri haqqında" (1835) adlı ilk irihəcmli məqalələrini məhz bu qəzetlərdə çap etdirmişdir.

Belinski 1838-1839-cu illərdə "Moskovski nablyudatel" jurnalının redaktoru olmuş, 1839-cu ilin sonunda Peterburq şəhərinə köçərək "Oteçestvennıe zapiski" jurnalında çalışmışdır. 1847-ci ilin yanvarından 1848-ci ilin mayınadək "Sovremennik" jurnalının Tənqid şöbəsinə rəhbərlik etmişdir.

Rus realist estetikası və ədəbi tənqidinin banisi sayılan Belinski yaratdığı əsərlərlə nəinki rus ədəbiyyatına, eləcə də dünya ədəbiyyatına əvəzsiz töhfələr vermişdir. Rus milli mədəniyyətinin inkişafında böyük tarixi xidmətləri ilə yanaşı, həmçinin rus ictimai fikrində inqilabi-demokratik ideyalara əsaslanan materialist fəlsəfənin yaranmasında misilsiz xidmətləri olmuşdur.

Belinski inqilabi demokratik ruhlu "Rus povesti və Qoqolun povestləri haqqında" (1835), "M.Lermantovun şeirləri" (1841), "Tənqid haqqında" (1842), "Çiçikovun sərgüzəştləri, yaxud "Ölü canlar" poeması haqqında bir neçə söz", (1842) "A.Puşkinin əsərləri" (11 məqalə (1843-46)), "1846-cı il rus ədəbiyyatına bir nəzər" (1847), "1847-cı il rus ədəbiyyatına bir nəzər" (1848) və s. əsərlərini yazmışdır. Əsərlərində ədəbiyyatın elmi təfəkkürdən fərqli olaraq həyatın bədii-obrazlı idrak forması olduğunu oxucunun nəzərinə çatdırırdı. Onun fikrincə ədəbiyyat xalqın, vətənin müqəddəratı ilə bağlı olmalı, onun arzu və ideallarını əks etdirməlidir.

Belinski səhhəti ilə bağlı 1847-ci ilin may ayında müalicə üçün Almaniyanın Zalsbrun şəhərinə getmiş və orada məhşur "Qoqola məktub" əsərini yazmış, yazıçının yaradıcılığındakı səhvləri kəskin tənqid etmişdir.

Azərbaycan ədəbi və ictimai fikrinin inkişafına, o cümlədən M.F.Axundzadənin ədəbi-estetik və fəlsəfi görüşlərinin formalaşmasına Belinskinin çox böyük təsiri olmuşdur. Heç təsadüfi deyil ki, M.F.Axudzadənin bir sıra ədəbi-tənqidi fikirləri Belinskinin fikirləri ilə səsləşirdi. Yazıçı Azərbaycan şərqşünas alim və şairi Mirzə Cəfər Topçubaşovun elmi, ədəbi fəaliyyətini yüksək qiymətləndirmişdir.

Rus ədəbi tənqidçisi, publisist Vissarion Belinski 1848-ci il iyun ayının 7-də Peterburq şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /V.Belinski; tərc. ed. Ə.Ağayev.- Bakı: Gənclik, 1979.- 226 s.

"Kim yanmırsa his verir": Məktub-monoloq [Ölməz Ruha - Belinskiyə həsr olunub] /Ə.R.Xələfli // Kredo.-2013.- 26 oktyabr .- S.1;16

Собрание сочинений: в 9-ти томах /В.Белинский; ред. кол.: Н.Гей [и др.]; ред. тома Н.Гей; подгот. текста В.Бограда; статья и примеч. В.Кулешова.- Москва: Современник, 1977-1983.

Взгляд на русскую литературу /В.Г. Белинский; общ. ред. кол. А.С. Бушмин [и др.].- 1983.- 607 с.

Статьи о М.Ю. Лермонтове /В.Г.Белинский; сост., вст. статья, примеч. и общ. ред. П.Максяшева.- Саратов: Приволжское кн. изд-во, 1981.- 156 с.

www.anl.az

www.azerbaycanli.org

www.az.wikipedia.org

90 illiyi

Elbəy Rzaquliyev 1926-2007

Rəssam

Elbəy Mirzə Həsən oğlu Rzaquliyev 1926-cı il iyun ayının 17-də Bakıda, ziyalı ailəsində anadan olmuşdur. 1946-cı ildə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbini (indiki ADRA), 1953-cü ildə isə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirmişdir.

1953-cü ildə təhsilini başa vurduqdan sonra C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında quruluşçu və geyim üzrə rəssam işləmişdir.

Kinostudiyada işlədiyi müddətdə "Bəxtiyar" (1955), "Görüş" (1955), "Ögey ana" (1958), "Uşaqlığın son gecəsi" (1968), "Gün keçdi" (1971), "Tütək səsi" (1975), "Arxadan vurulan zərbə" (1977), "Bəyin oğurlanması" (1986) və s. filmlərin quruluşçu rəssamı, "Əsl dost" (1959), "Torpaq. Dəniz. Od. Səma" (1967), "Dərviş Parisi partladır" (1976) filmlərinin geyim üzrə rəssamı olmuşdur.

Geniş yaradıcılıq imkanlarına malik olan rəssam yaratdığı əsərləri ilə Azərbaycanda formalaşan yeni nəsil gənc rəssamlar üçün böyük məktəb rolunu oynamışdır. Yaratdığı tablolarda Azərbaycan təbiətinin gözəlliyini öz incəlikləri ilə təsvir etmişdir. Onun "Qırmızı və ağ qızılgüllər", "Çiçəklər arasında", "İnsanların torpağı" və digər əsərləri böyük maraqla qarşılanmışdır.

Milli təsviri sənətin inkişafında mühüm rol oynamış rəssam "Şirvanşahlar sarayı", "İçərişəhər", "Bakı kəndində" və s. bir-birindən maraqlı əsərləri ilə daima diqqət mərkəzində olmuşdur.

Dünyanın 30-dan artıq ölkəsində olan rəssam öz təəssüratlarını kətan üzərində həkk edərək bir sıra silsilə əsərlər yaratmışdır. Bu silsiləyə Meksika, Hindistan, Yaponiya, Yəmən və İsrailin şəhər həyatını, mədəniyyətini əks etdirən tablolar daxildir. 1951-ci ildən Respublika və Ümumittifaq sərgilərində iştirak edən rəssamın sənət əsərləri dünyanın müxtəlif ölkələrində nümayiş etdirilmiş, 1960-cı ildə Bakıda, 1960-1967-ci illərdə isə Moskvada və Kaunasda fərdi sərgilərlə çıxış etmişdir. İnqilabi və tarixi mövzuda silsilə əsərlərinə görə 1972-ci ildə SSRİ Rəssamlıq Akademiyasının Fəxri diplomuna, 1976-cı ildə isə Ümumittifaq Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisinin (XTNS) qızıl medalına, 1986-cı ildə "Azərbaycan cəbhəyə" və "1945-ci il May. Qələbə bayramı" əsərlərinə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür. Azərbaycan incəsənətinin inkişafındakı xidmətlərinə görə 1964-cü ildə "Əməkdar rəssam", 1977-ci ildə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüş, 1998-ci ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Keçmiş Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun bədii film üzrə quruluşçu rəssamlıq fakültəsini bitirən ilk azərbaycanlı kimi də tarixə düşmüşdür.

Görkəmli rəssam Elbəy Rzaquliyev 2007-ci il sentyabr ayının 15-də Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Elbəy Rzaquliyev, 1926-2007 [İzomaterial]: rəngkarlıq, qrafika, kino rəssamlığı /layih. rəhb. Ç.Fərzəliyev.- Bakı: Sərvət, [Şərq-Qərb], 2013.- 104 s.

Şəfizadə, Ş. Elbəy Rzaquliyevin yaradıcılığı XX əsr Azərbaycan incəsənəti kontekstində: sənətşün. üzrə fəls. d-ru a.dər. al. üçün təq.ol. dis-nın avtoreferatı: 6215.01 /S.Şəfizadə; Azərb. Resp. Təhsil Nazirliyi, Azərb. Dövlət Rəssamlıq Akademiyası.- Bakı, 2013.-22 s.

Əliyeva, L. Rənglər kəhkəşanında əbədi imza /L.Əliyeva // Mədəniyyət.- 2015.- 17 iyun.- S.13.

Orucova, V. Yaddaşlardan silinməyən Elbəy... /V.Orucova //Palitra.- 2013.- 3 iyul.- S. 13.

Şəfizadə, S. Elbəy Rzaquliyev yaradıcılığı XX əsr Azərbaycan incəsənəti kontekstində /S.Şəfizadə //Mədəni həyat.- 2013.- №9.- S.8-11.

www.anl.az

90 illiyi

Fatma Mehrəliyeva 1926-2000

Xanəndə

Fatma Yusif qızı Mehrəliyeva 1926-cı il iyun ayının 4-də Quba şəhərində anadan olmuşdur. Hələ orta məktəbdə təhsil alarkən müəllimlərinin təkidi ilə 11 yaşlı Fatma Bakıya musiqi festivalında iştirak etmək üçün getmiş, onun ifasında "Qubanın ağ alması" mahnısı Üzeyir Hacıbəylinin diqqətini cəlb etmişdir.

1938-ci ildə Fatma Mehrəliyeva Üzeyir bəyin təşəbbüsü ilə Bakıya gəlmişdir. Görkəmli bəstəkar istedadlı qızın yaxşı musiqi təhsili alması, muğamları mükəmməl mənimsəməsi üçün hər cür şərait yaratmış, Fatmanı öz himayəsinə götürərək, ona atalıq etmiş və sənətin sirlərini ona öyrətməyə nail olmuşdur. F.Mehrəliyeva Azərbaycan Dövlət Konservatoriyasının fortepiano və vokal sinfini bitirmişdir.

Əmək fəaliyyətinə 1940-cı ildə "Sazçı qızlar" ansamblında başlayan Fatma xanım elə həmin ildən Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuş, geniş konsert proqramları ilə fəaliyyətini davam etdirmişdir.

1941-1945-ci illərdə, Böyük Vətən müharibəsi zamanı Fatma xanım tez-tez cəbhədə hərbçilər qarşısında çıxış edir, repertuarında Üzeyir bəyin vətənpərvərlik nəğmələrinə geniş yer verirdi. Bəstəkarın Səməd Vurğunun sözlərinə bəstələdiyi "Şəfqət bacısı" mahnısının ilk ifaçısı məhz Fatma Mehrəliyeva olmuş, lakin təəssüflər olsun ki, həmin ifanın lent yazısı qalmamışdır.

Lirik soprano səsə malik olan müğənni, 1945-ci ildə dahi Üzeyir bəyin məsləhəti ilə "Arşın mal alan" filmində Telli roluna çəkilmiş, yaratdığı bu obrazın onun yaradıcılığında böyük rolu olmuşdur.

Fatma xanımın oxuduğu muğamlar arasında "Kəsmə şikəstə"nin məxsusi yeri olmuşdur. Heç təsadüfi deyil ki, professor Ramiz Zöhrabov "Zərbi muğamlar" kitabında "Kəsmə şikəstə"ni məhz Fatma Mehrəliyevanın ifasında nota köçürmüşdür.

"Azərbaycan maralı", "Muğan qızı", "Lay-lay", "Getmə dayan", "Ceyranım", "Qubanın ağ alması" kimi xalq və bəstəkar mahnılarını özünəməxsus məharətlə oxuyan müğənni "Qatar", "Segah-zabul" muğamlarının da təkrarsız ifaçısı olaraq musiqi mədəniyyəti tariximizdə özünəməxsus yer tutmuşdur.

Onun "Ahu kimi", "Qaragilə", "Qurban adına" və digər bir-birindən gözəl ifa etdiyi xalq və bəstəkar mahnıları Azərbaycan Milli Radiosunun Qızıl fonduna daxildir.

1956-cı ildə "Azərbaycan SSR Əməkdar artisti" fəxri adına layiq görülmüşdür.

Zəngin xalq musiqimizi yumşaq tembirli, ruha yatan xoş səslə ifa edən Fatma Mehrəliyeva bu gün də xalqımız tərəfindən böyük hörmətlə anılmaqda, yad olunmaqdadır.

Fatma Mehrəliyeva 2000-ci il yanvar ayının 4-də vəfat etmişdir.

Ədəbiyyat

Abbaslı, T. Fatma şikəstə...: Bu sözü mənə diktə edən - "Kəsmə şikəstə" tanrısı Fatma xanımın Səsi!... /T.Abbaslı //Mədəniyyət.- 2015.- 3 iyun.-S. 13.

Əhmədalılar, T. Ahəstə-ahəstə. Səslənib, könülləri yar ağacından asma... səbirləri kəsim-kəsim kəsmə, ay "Kəsmə şikəstə!" /T. Əhmədalılar //Mədəniyyət.-2014.- 4 iyun.- S. 11.

Fərəcov, S. Keçən ömrün sorağında: Fatma Mehrəliyeva /S.Fərəcov //Mədəniyyət.-2011.- 3 iyun.- S. 12.

Mikayılqızı, P. Bir səsin sehrində /P.Mikayılqızı //İki sahil.- 2014.- 20 may.- S.27.

Nizamiqızı, H. Fatma Mehrəliyeva dünyasına xəyali səfər: Ötən illərin mahnıları /H.Nizamiqızı //Mədəniyyət.-2012.- 6 iyun.- S. 15.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org

www.az.wikipedia.org

65 illiyi Xuraman Qasımova 1951 Opera müğənnisi

Xuraman Əkrəm qızı Qasımova 1951-ci il iyun ayının 6-da Bakı şəhərində anadan olmuşdur. 1975-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir. 1976-cı ildən Azərbaycan Opera və Balet Teatrının solistidir.

1977-ci ildə İfaçıların 5-ci Zaqafqaziya müsabiqəsinin laureatı adını qazanmışdır. Həmin ildə Vokalistlərin M.Qlinka adına 7-ci Ümumittifaq müsabiqəsinin, 1981-ci ildə isə Afinada keçirilən Mariya Kallas adına Beynəlxalq müsabiqənin laureatı olmuş, "Qran pri" mükafatına layiq görülmüşdür. 1982-ci ildə Moskvada keçirilən ifaçıların P.Çaykovski adına 8-ci Beynəlxalq müsabiqəsinin laureatı, 1988-ci ildə isə həmin müsabiqənin gümüş medalına layiq görülmüşdür.

Opera və Balet Teatrının səhnəsində bir-birindən maraqlı rollar ifa etmişdir. Onun F.Əmirovun "Sevil" operasında Sevil və Dilbər, Ü.Hacıbəylinin "Koroğlu" operasında Nigar, C.Puççininin "Bohema" operasında Mimi və Müzetta, C.Verdinin "Otello" və "Aida" operasında Dezdemona və Aida, P.Çaykovskinin "Yevgeni Onegin" operasında Tatyana, Covanni Perqomzininin "Xanımın qulluqçusu" operasında Serpina, Şarl Qunonun "Faust" operasında Marqarita, Zakir Bağırovun "Qoca Xottabıç" operasında Leyla və b. partiyalar Xuraman Qasımovanın sənət axtarışlarının parlaq nailiyyətləri olmuşdur.

"Arşın mal alan" (1965) bədii filmində Asyanın partiyasını ifa etmişdir.

Bir sıra xarici ölkələrdə - Bolqarıstanda, Çexoslovakiyada, Maltada, Fransada, Avstriyada, Norveçdə, Türkiyədə, Finlandiyada geniş konsert proqramları ilə çıxışlar etmişdir. Xuraman Qasımova kino aktrisası kimi də populyar olmuşdur. Hələ orta məktəbdə oxuyarkən "Liftçi qız" filmində (1966) baş rolu ifa etmiş, sonralar "Mən ki, gözəl deyildim" (1968), "Həyat bizi sınayır" (1972), "Nəğməkar torpaq" (1981), "Üzeyir ömrü" (1981), "Gələcəyin quruculları" (1982) kimi filmlərdə rol almışdır.

1982-ci ildən Bakı Musiqi Akademiyasında pedaqoji fəaliyyətlə məşğuldur. 1994-cü ildən (bəzi mənbələrdə 1992; 1996) Bakı Musiqi Akademiyasının professoru, Opera və solo oxu kafedrasının müdiridir. 1994-cü ildən isə İstanbul Dövlət Universitetinin Konservatoriyasının professorudur.

Xuraman Qasımova Azərbaycan musiqi sənətinin inkişafındakı xidmətlərinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1986-cı ildə Azərbaycan SSR-in Xalq artisti fəxri adına layiq görülmüşdür. 2001-ci ildə "Şöhrət" ordeni ilə, 2011-ci ildə isə "Şərəf" ordeni ilə təltif edilmişdir.

Görkəmli vokalçı, professor Xuraman Qasımova bu gün də öz şərəfli sənət yolunu yorulmadan davam etdirməkdədir.

Ədəbiyyat

Xalq mahnıları [Səsyazma]: ["Musiqi dünyası" beynəlxalq, elmi-pedaqoji, tənqidi-publisistik və mədəni-maarif musiqi jurnalının 3-4/2010-cu il buraxılışına əlavə] /ifa edir F.Qasımova, X.Qasımova; fortepianoda Ç.Sadıqov.-Bakı: Gilan holdinq, 2010.-1 elektron. opt. disk. [CD-ROM]: 12 sm.

Həm şərəflidir, həm də məsuliyyətli /X.Qasımova //Azərbaycan.-2015.- 30 may.- S 6

Son nəfəsədək sənətdə olmaq:Xuraman Qasımova: "Mən və Fidan hər zaman musiqi sənətinin inkişafı üçün çalışmışıq"/X.Qasımova // Ekran-efir.-2015.-6 mart.- S.19-22.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Həbib Bayramov 1926-1994

Tarzən

Həbib (Həbibulla) Əbdülhüseyn oğlu Bayramov 1926-cı il iyun ayının 14-də Bakı şəhərində anadan olmuşdur. Kiçik yaşlarından musiqiyə olan böyük həvəs Həbib Bayramovun sənətə gəlməsinə səbəb olmuş, 13 yaşında musiqi məktəbinə getmiş, Əhməd Bakıxanovun sinfində təhsil almışdır.

Həbib Bayramov 1941-ci ildən Əhməd Bakıxanovun rəhbərlik etdiyi Xalq Çalğı Alətləri ansamblında çalışmışdır. 1943-cü ildə Asəf Zeynallı adına Orta İxtisas Musiqi Məktəbində müəllim çatışmadığı üçün, həm muğam sinfində dərs demiş, həm də əlaçı tələbə kimi təhsil almışdır.

1949-cu ildən M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının, Azərbaycan Qastrol-konsert Birliyi təşkil olunandan sonra isə bu birliyin solisti olmuşdur.

İstedadlı tarzənin xaricə ilk səfəri 1951-ci ildə olmuşdur. Berlində keçirilən tələbələrin 3-cü Ümumdünya festivalında iştirak etmiş, festivalın laureatı adına layiq görülmüşdür. Sonralar Polşa, Kanada, İraq, Suriya, Yəmən, Küveyt, İordaniya, Əfqanıstan, Türkiyə, Danimarka, Avstriya, İngiltərə, Hindistan, Nepal, İtaliya, İspaniya və Fransaya qastrol səfərləri etmiş, Azərbaycan musiqisini, Azərbaycan tarını həmin ölkələrdə təbliğ etmiş, sevdirmiş, gözəl ifaları ilə yadda qalmışdır.

Sənət aləmində əsasən "Xaric-Segah"la tanınan görkəmli tarzən həmçinin "Rast", "Şur", "Çahargah", "Segah", "Orta mahur" və digər Azərbaycan muğamlarını da böyük ustalıqla ifa etmişdir.

Həbib Bayramov eyni zamanda gözəl saz ifaçısı olmuşdur. Onun sazda ifa etdiyi "Segah", "Humayun", "Bayatı-Qacar" muğamları radionun qızıl fondunda saxlanılmaqdadır.

1973-cü ildən ömrünün sonunadək Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin Əhməd Bakıxanov adına Xalq Çalğı Alətləri ansamblının bədii rəhbəri olmuşdur. Uzun illər ərzində Bülbül, Xan Şuşinski, Zülfü Adıgözəlov, Yavər Kələntərli, Həqiqət Rzayeva, Tükəzban İsmayılova, Şövkət Ələkbərova, Əbülfət Əliyev, Rübabə Muradova, Zeynəb Xanlarova, Sara Qədimova kimi sənətkarları tarda müşayiət etmişdir.

Həbib Bayramov sənəti yüksək ifaçılıq mədəniyyəti ilə daim fərqlənmişdir. Azərbaycan incəsənətinin və mədəniyyətinin inkişafında göstərdiyi xidmətlərə görə 1983-cü ildə "Azərbaycan SSR-in Xalq artisti" fəxri adına layiq görülmüşdür.

Görkəmli tarzən Həbib Bayramov 1994-cü il avqust ayının 15-də Bakı şəhərində vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Bayramov Həbib //Azərbaycan musiqi dünyası: ensiklopedik albom-kataloq /layih. rəhb. F.Ramazanov; baş red. S.Firudinli; red. Ş.Qabulov; tərc. G.Pənahi.- Bakı, 2001.- S.79.

Bayramov Həbib Əbdülhüseyn oğlu //Muğam ensiklopediyası.-Bakı, 2009.- S.39.

Bayramov Həbib Əbdülhüseyn oğlu //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.33.

Tarı dünyaya sevdirən sənətkar: Həbib Bayramov //Mədəniyyət.-2011.- 15 iyun.- S. 12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

95 illiyi

Cahangir Cahangirov 1921-1992

Bəstəkar

Cahangir Şirgəşt oğlu Cahangirov 1921-ci il iyun ayının 20-də Bakının Balaxanı kəndində, neftçi ailəsində anadan olmuşdur. 7 illik musiqi məktəbini bitirdikdən sonra 1937-ci ildə Teatr Texnikumunda təhsil almışdır.

Üzeyir Hacıbəyli onu Azərbaycan Dövlət Filarmoniyasında yaratdığı xor kapellasına dəvət etmişdir. Azərbaycan Dövlət Konservatoriyasının hazırlıq kursunda oxumuş, 1940-cı ildə isə (bəzi mənb. 1941) Azərbaycan Dövlət Konservatoriyasının Xalq musiqisi şöbəsinə daxil olmuşdur. Ü.Hacıbəylinin rəhbərliyi ilə Azərbaycan xalq musiqisinin əsaslarını öyrənmiş, bəstəkarlıq ixtisası üzrə B.İ.Zeydmandan dərs almışdır. Müharibə illərində təhsilini yarımçıq qoymalı olmuş, yalnız 1951-ci ildə Azərbaycan Dövlət Konservatoriyasını bitirmişdir.

1940-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında Mahnı və Rəqs Ansamblının Xor qrupuna, 1942-ci ildə "Sazçı qızlar" ansamblına, 1944-1960-cı illərdə isə Azərbaycan Radio Verilişləri Komitəsi nəzdindəki xora rəhbərlik etmişdir.

1949-cu ildə "Arazın o tayında" vokal-simfonik poeması, 1956-cı ildə "Dostluq nəğməsi" süitası, 1959-cu ildə "Füzuli", 1973-cü ildə "Nəsimi" kantataları, 1962-ci ildə "Sabir", 1984-cü ildə Hüseyn Cavid "59" və 1985-ci ildə yazdığı faşizm üzərində qələbənin 40 illiyinə həsr edilmiş "Böyük qələbə" oratoriyaları böyük uğur qazanmışdır.

"Almas" (C.Cabbarlı), "Xəyyam" (H.Cavid), "Od içində" (Ə.Məmmədxanlı) və s. teatr tamaşaları ilə yanaşı, həmçinin, "Koroğlu" (1960), "Yenilməz batalyon" (1965), "Dağlarda döyüş" (1967), "Dəli Kür" (1969), "Qatır Məmməd" və s. filmlərinə də musiqilər bəstələmişdir.

Onun "Azad" (1957 - M.İbrahimovun "Azad qız" povestinin motivləri əsasında) və "Xanəndənin taleyi" (1978) operaları, "Təzə gəlin" (1976) operettası, skripka ilə orkestr üçün konserti (1951), Azərbaycan Xalq çalğı alətləri orkestri üçün "Osetin süitası", "Misir lövhələri", xor üçün əsərləri, "Nazənin", "Xəzər", "Dan ulduzu, bir də mən", "Ana", "Zəriflik", "Necə əl çəkim", "Zərif gülüşlüm", "Ana yurdum", "Bahar olsun", "Bakım" və s. mahnıları bu gün də Azərbaycanın misilsiz sənət əsərləri hesab olunmaqdadır.

Azərbaycan musiqisinin inkişafında göstərdiyi xidmətlərə görə 1950-ci ildə SSRİ Dövlət mükafatı laureatı olmuş, 1959-cu ildə "Azərbaycan SSR-in Əməkdar incəsənət xadimi", 1963-cü ildə isə "Azərbaycan SSR-in Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1978-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni və bir sıra medallarla təltif edilmişdir.

Cahangir Cahangirov 1992-ci il mart ayının 25-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Quliyeva, L. Cahangir Cahangirov /L.Quliyeva; AR Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Şərq-Qərb, 2014.-90 s.

Cahangir Cahangirov "Füzuli" kantatasının dirijorluq xüsusiyyətləri: metodiki vəsait /AR Təhsil Nazirliyi, Təhsil Məsələləri İn-tu., Ü.Hacıbəyli ad. Musiqi Akad.; tərt. ed. S.Hacıyeva; elmi red. G.İmanova.- Bakı: [s.n.], 2014.- 27 s.

Cahangir Cahangirov: biblioqrafiya /Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi, M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. T.Məmmədova.- Bakı: M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2011.-169 s.

Məmmədova, Ş.Cahangir Cahangirov yaradıcılığında "Bakı" xor miniatürünün yeri /Ş.Məmmədova //Mədəni həyat.- 2014.- № 9.- S. 59-61

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.mugamradio.az

75 illiyi

Hamlet Xanızadə
1941-1990

Aktyor

Hamlet Bəbir oğlu Xanızadə 1941-ci il iyun ayının 5-də Bakıda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Teatr İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə qəbul olunmuş, 1965-ci ildə oranı bitirmişdir.

Hamlet Xanızadə hələ tələbə ikən (1961) Azərbaycan Dövlət Dram Teatrında işə başlamış, teatrda ilk obrazı V.Şekspirin "Antoni və Kleopatra" pyesində Sezarın sərkərdəsi Qall obrazı olmuşdur.

Mehdi Məmmədov, Əliağa Ağayev, Ağasadıq Gəraybəyli, İsmayıl Osmanlı, Hökumə Qurbanova, İsmayıl Dağıstanlı və başqa görkəmli sənət korifeyləri ilə birgə işləmiş, onlardan sənətin sirlərini mənimsəmişdir.

Dram Teatrında işlədiyi illərdə birbirindən maraqlı obrazlar yaratmışdır. "Çandana" ("Hind gözəli"), Kotoviç ("Tufanlı illər"), "Xəstə" ("Ölülər"), "Bertron" ("Orlean qızı") və s. tamaşalarda irili-xırdalı rollar ifa etmişdir.

1970-ci ildə teatrda "Xəyyam" tamaşası hazırlanarkən rejissor Mehdi Məmmədov ona Həsən Səbbah rolunu təklif etmiş və bu rol Hamlet Xanızadəyə çox böyük uğur gətirmişdir. Sonlarar o, İblis (İblis - H.Cavid), Qacar (Vaqif - S.Vurğun), Molla Abbas (Dəli yığıncağı - C.Məmmədquluzadə), Topal Teymur (Topal Teymur - H.Cavid) kimi maraqlı, yaddaqalan obrazlar yaratmışdır.

1984-cü ildə Hüseyn Cavidin "İblis" faciəsindəki İblis roluna görə Azərbaycan SSR Dövlət mükafatına layiq görülmüşdür.

İstedadlı aktyor Dram Teatrından ayrıldıqdan sonra C.Cabbarlı adına Azərbaycanfilm Kinostudiyasında kino aktyoru kimi fəaliyyətə başlamışdır. Hamlet Xanızadə filmlərə daha çox çəkilmiş, tarixi və müasir qəhrəman surətlərini yaratmışdır. Məlikov ("Əlavə iz" - 1981), Əbu Bəkr ("Nizami" - 1982), Nadir ("Avqust gələndə..." - 1984), Hacı ("Qəm pəncərəsi" - 1986), Murtuzov ("Araqarışdıran" - 1987), Qiyas Zeynallı ("İmtahan" - 1987), Molla Cəfər ("Pirverdinin xoruzu" - 1987), Paşayev ("Şeytan göz qabağında" - 1987), Zavod direktoru ("Yaramaz" - 1988), Şair, Sədi Əfəndi, Xəstə ("Qətl günü" - 1990) və s. rollar aktyorun kinoda yaratdığı fərqli obrazlardır.

Hamlet Xanızadə 1982-ci ildə Azərbaycan Respublikasının Əməkdar artisti fəxri adına layiq görülmüşdür.

1990-cı ilin 20 Yanvar hadisələri onu da dəhşətli dərəcədə sarsıtmış, səhhətinə ağır zərbə vurmuşdur. Görkəmli aktyor Hamlet Xanızadə 1990-cı il fevral ayının 23-də Bakıda vəfat etmiş, doğma kəndi Şağanda dəfn edilmişdir.

Ədəbiyyat

Əhmədalılar, T. Böyük aktlar aktyoru: Özgələri özündən çox yaşatmış Hamlet Xanızadə... /T.Əhmədalılar //Mədəniyyət.- 2013.- 6 fevral.- S. 13.

Əliyeva, İ. Qəhrəmanları tarixin, özü isə sənətin zirvəsində əbədiləşdi /İ.Əliyeva //Azərbaycan.- 2015.-20 yanvar.- S.9.

Hamlet Xanızadə adlı bir aktyor vardı... //Üç nöqtə.- 2011.- 9 fevral.- S.13.

Xəlilzadə, F. Sənət tarixində əbədiləşən aktyor /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 5 iyun.- S.5.

Rəis, X. Hamlet Xanızadə: Yaşasaydı 73 yaşı olacaqdı /X.Rəis //Kaspi.- 2014.- 6 iyun.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

50 illiyi

Şakir Salahov 1966-1992

Milli Qəhrəman

Şakir Şamil oğlu Salahov 1966-cı il iyun ayının 15-də Xocalı rayonunun Cəmilli kəndində anadan olmuşdur. 1981-ci ildə Cəmilli kənd səkkizillik məktəbini bitirdikdən sonra, təhsilini həmin kənddəki orta məktəbdə davam etdirmişdir. 1984-cü ildə hərbi xidmətə çağırılmış, 1986-cı ildə xidmətini müvəffəqiyyətlə başa vuraraq Xankəndi şəhər Daxili İşlər İdarəsinin Mühafizə şöbəsinə işə qəbul edilmişdir.

1991-ci ildə Azərbaycan Dövlət Pedaqoji Universitetinin Şuşa şəhər filialında fizika-riyaziyyat fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

1990-cı ildə Yuxarı Qarabağda yaşayan azərbaycanlıların təhlükəsizliyini təmin etmək üçün Azərbaycan Daxili İşlər Nazirliyi Cəmilli kəndində polis bölməsi yaratmışdır. Bölmə əsasən Kosalar və Cəmilli kəndlərini mühafizə edirdi. Bu kəndi Xankəndindən cəmi 3 kilometr məsafə ayırırdı.

Şakir Salahov elə ilk gündən həmin bölmədə fəaliyyətə başlamış, ermənilər tərəfindən olan hücumların qarşısının alınmasında əsl hünər göstərmişdir.

1991-ci il fevral ayının 26-da ermənilər üç tərəfdən - Ballıca, Xənəzək və Xankəndi istiqamətlərindən Cəmilli kəndinə güclü hücuma keçmiş, döyüşdə Şakir Salahov erməni quldurlarını məhv etmişdir.

1991-ci il avqust ayının 23-də erməni quldurları Kosalar-Cəmilli kəndləri arasındakı "Darlı" adlanan yerdə, içərisində 21 nəfər sərnişin olan "UAZ" markalı maşını atəşə tutmuş, üç nəfər şəhid olmuşdur. Cəmilli kəndi işğal olunduqdan sonra Şakir 1992-ci il yanvarın 28-də yenidən Kosalar kəndinin müdafiəsinə yollanmış və Kosalar kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Milli Qəhrəman Bərdə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Salahov Şakir Şamil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Salahov Şakir Samir oğlu - polis nəfəri - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Seyidzadə, M. Salahov Şakir Şamil oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.-S.195.

Əsgərov, V. Salahov Şakir Şamil oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.252.

Salahov Şakir Şamil oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova - Bakı, 2008.- S.182.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az
www.zengilan.com

55 illiyi

Vəzir Sədiyev 1961-1993

Milli Qəhrəman

Vəzir İsa oğlu Sədiyev 1961-ci il iyun ayının 6-da Gürcüstan Respublikasının Marneuli rayonunun Aşağı Qullar kəndində anadan olmuşdur. İbtidai təhsilini doğma kəndlərində, orta təhsilini isə Qərbi Azərbaycanın Körpülü kəndində almışdır. Orta məktəbi bitirdikdən sonra Tbilisi Ali Hərbi Artilleriya Məktəbinə daxil olmuşdur.

Hərbi məktəbi müvəffəqiyyətlə bitirdikdən sonra onu təyinatla Rusiyanın Qorki şəhərindəki hərbi məktəblərdən birinə müəllim göndərmişlər. Burada üç il müəllimlik etdikdən sonra könüllü olaraq Əfqanıstana getmiş, Batalyon komandiri kimi Əfqanıstan müharibəsində 2 il 4 ay iştirak etmiş, döyüşlərin birində ağır yaralanaraq müalicə almışdır. Yenidən Zabaykal hərbi dairəsinə qayıdaraq, mayor rütbəsi ilə 122 saylı artilleriya və raket qoşunları məktəbində hərbi hissənin qərargah rəisinin müavini vəzifəsinə təyin edilmiş, ikinci dərəcəli "Peşəkar zabit" döş nişanına layiq görülmüşdür.

Xocalı Soyqırımı xəbərini eşidən Vəzir İsayev Azərbaycan Respublikası Müdafiə Nazirliyinə müraciət etmiş və nazirliyin Artilleriya və Hərbi Hava Qüvvələri İdarəsində Döyüş hazırlığı şöbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir.

Vəzir Sədiyev Laçın, Qubadlı, Füzuli, Ağdərə rayonlarında gedən döyüşlərdə iştirak etmişdir. Milli Orduda artilleriyanın yaradılmasında böyük rolu olmuş, xüsusilə, Ağdərə uğrunda gedən dəhşətli döyüşlərdə əsl hərbçi olduğunu bir daha sübut etmişdir.

1993-cü il fevral ayının 19-da cəsur komandir Ağdərənin Aterk kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Hərbi xidməti zamanı 2 orden, 3 medal və eləcə də keçmiş SSRİ Ali Sovetinin Fəxri fərmanları ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə mayor Sədiyev Vəzir İsa oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sədiyev Vəzir İsa oğlu-mayor-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunu şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995 ci il //Azərbaycan.- 1995.-17 yanvar.- S.1 (Ölümündən sonra)

Əsgərov, V. Sədiyev Vəzir İsa oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.259.

Seyidzadə, M. Sədiyev Vəzir İsa oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.198.

Sədiyev Vəzir İsa oğlu //Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.187.

www.az.wikipedia.org

www.milliqahraman.az

60 illiyi

Zakir Məcidov 1956-1992

Milli Qəhrəman

Zakir Nüsrət oğlu Məcidov 1956-cı il iyun ayının 26-da Neftçala rayonunun Həsənabad qəsəbəsində anadan olmuşdur. 1963-cü ildə 17 saylı Bakı şəhəri orta məktəbinə getmiş, təhsilini 70 saylı orta məktəbdə tamamlamışdır. 1974-cü ildə Ryazan vilayətinin Sasovo şəhərinə gedərək Ali Hərbi Aviasiya məktəbinə daxil olmuşdur. 1977-ci ildə leytenant rütbəsi ilə hərbi məktəbi bitirmiş və Yevlax aviadəstəsində AN-2 təyyarəsinin ikinci pilotu kimi əmək fəaliyyətinə başlamışdır. 1978-ci ildə isə Bakı aviabölüyündə mexanik, 1979-cu ildə isə Zabrat aviabölüyündə AN-2 təyyarəsində yenidən yay uçuşlarında işləmişdir.

1980-ci ildə (1982) təyinatla Zabrat aviadəstəsində AN-2 təyyarəsinin komandiri təyin edilmişdir. 7 il bu müəssisədə çalışmış, istehsalatdan ayrılmadan 1984-cü ildə ixtisasını artırmaq üçün Ukraynanın Kremençuq Təyyarəçilər Məktəbində Mİ-2 vertolyotu üzrə 6 ay təkmilləşdirmə kursu keçmişdir.

1985-ci ildə Mİ-2 vertolyotunda heyətin komandiri təyin olunmuş, az müddət ərzində Azərbaycan Respublikası Müdafiə Nazirliyinin təyinatı ilə yüksək sərişdə və bacarığına, göstərdiyi uçuş keyfiyyətinə görə Mİ-2 vertolyotuna baş komandir təyin edilmişdir.

1992-ci ilin fevral ayında Milli Ordunun Bakının Qala qəsəbəsində təşkil olunan 843 saylı hərbi hava hissəsində Mİ-24 vertolyotlarından birinə komandir təyin olunmuşdur. Həmin vertolyotla Ağdərənin Aterk kəndində ermənilərin yerləşdiyi qərargahı darmadağın etmiş, düşmənin xeyli texnikasını sıradan çıxarmışdır.

1992-ci il avqust ayının 6-da ekipaji ilə birgə üç dəfə uçuş edərək, ermənilərin döyüş əhəmiyyətli Kasapet yüksəkliyindəki mövqələrini darmadağın etmiş, növbəti, dördüncü dəfə uçuş əmrini də böyük hünər, igidlik göstərərək yerinə yetirmişdir. Bir-birinin ardınca ona tuşlanan raket zərbələri vertolyotu ciddi zədələmiş, 1992-ci il avqust ayının 6-da Mİ-24 vertolyotunun cəsur heyət üzvləri və baş komandir Zakir Məcidov 36 yaşında Vətən uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı Fərmanı ilə Məcidov Zakir Nüsrət oğlu ölümündən sonra "Azərbaycan Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Bakıda Şəhidlər Xiyabanında dəfn edilmişdir. Neftçala rayon Uşaq Yaradıcılıq Mərkəzi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Hərbi Hava Qüvvələrinin hərbi qulluqçularına "Azərbaycan Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Məcidov Zakir Nüsrət oğlu-baş leytenant-xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.-№ 17.-S.33.-(Ölümündən sonra)

Əsgərov, V. Məcidov Zakir Nüsrət oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.-Bakı, 2010.- S.185.

Məcidov Zakir Nüsrət oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.131.

Seyidzadə, M. Məcidov Zakir Nüsrət oğlu /M. Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.156.

İnternetdə

www..anl.az; www.az.wikipedia.org; www.infocenter.gov.az; www.milliqahraman.az

60 illiyi

Yavər Əliyev
1956-1992

Milli Qəhrəman

Yavər Yaqub oğlu Əliyev 1956-cı il iyun ayının 27-də Bakı şəhərində anadan olmuşdur. Pirallahı adasında yerləşən 235 saylı orta məktəbi bitirdikdən sonra Kremençuq Aviasiya Məktəbinə daxil olmuşdur. Zabrat hava limanında işə düzələn Y.Əliyev ilk gündən bacarığı və peşəkarlığı ilə diqqəti cəlb etmişdir. Tükənməz səyi nəticəsində müxtəlif tipli vertolyotların idarə olunmasını dərindən öyrənmiş, qısa zaman kəsiyində əvvəlcə Mİ-4, Mİ-2 vertolyotlarına pilot, sonra Mİ-8 vertolyotuna ikinci pilot və daha sonra isə komandir təyin edilmişdir.

Azərbaycan Hərbi Hava Qüvvələrinin yaranmasında onun böyük xidmətləri olmuşdur. 1992-ci il fevral ayının 14-də MDB hərbi hissələrindən Azərbaycana bir neçə vertolyotun göndərilməsində Yavər Əliyevin xüsusi əmək sərf etmişdir. Dəfələrlə Qarabağa Mİ-24 vertolyotunda uçuşlar etmiş, həmçinin aşağı yüksəklikdə uçaraq düşmən mövqelərinə ağır zərbələr endirmişdir.

1992-ci ilin yanvar ayının 22-də yoldaşlarının idarə etdiyi Mİ-8 vertolyotunun düşmən tərəfindən vurulduğu zaman Şuşaya gələrək düşmən atəşi altında qalan Azərbaycanın igid oğullarının cəsədlərini götürə bilmişdir.

1992-ci il fevral ayının 26-da, Xocalı faciəsi baş verən zaman dərhal Xocalıya gedərək şəhid olmuş həmyerlilərimizin cəsədlərini Ağdama gətirmişdir.

1992-ci il fevral ayının 29-da döyüş manevrlərini təkrarlamaq üçün təlim uçuşları keçən Sergey Senyuşkin və Yavər Əliyevin idarə etdiyi Mİ-24 vertolyotunun məşqi zamanı qəzaya uğramış və hər iki qəhrəman həlak olmuşdur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 14 sentyabr 1992-ci il tarixli 204 saylı Fərmanı ilə Əliyev Yavər Yaqub oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Yavər Əliyevin adı 843-cü vertolyot alayının siyahısına düşmüş, Hərbi Hava Qüvvələrinin birinci xüsusi vertolyot eskadrilyasına, Milli Aviasiya Akademiyasına və vaxtilə təhsil aldığı Artyom adasındakı 235 saylı orta məktəbə onun adı verilmişdir. Bakıxanov qəsəbəsindəki orta məktəbdə Yavər Əliyevin adını daşıyan muzey də fəaliyət göstərir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Hərbi Hava qüvvələrinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əliyev Yavər Yaqub oğlu-kapitan-xidməti borcunu yerinə yetirərkən şəxsi igidlik və şücaət göstərdiyinə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 14 sentyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1992.-№17.-S.33.- (Ölümündən sonra)

Əsgərov, V. Əliyev Yavər Yaqub oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.91.

Seyidzadə, M. Əliyev Yavər Yaqub oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.61.

Əliyev Yavər Yaqub oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.64.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az

40 illiyi

Elşən Hüseynov 1976-1995

Milli Qəhrəman

Elşən İbrahim oğlu Hüseynov 1976-cı il iyun ayının 30-da Saatlı rayonunun Qıraqlı kəndində anadan olmuşdur.

1993-cü ildə Qıraqlı kənd orta məktəbi bitirmiş, 1994-cü ildə Saatlı rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. Hərbi hissədə xidmətdə olan Elşən Hüseynov tez bir zaman ərzində hamının hörmətinin qazanmışdır.

1995-ci ildə mart hadisələri zamanı Elşən Hüseynov öz vətəndaşlıq borcunu yerinə yetirərək Milli Ordu sıralarına qoşulmuş, qəhrəmanlıq nümayiş etdirmişdir. 1995-ci il mart ayının 17-də qeyri-qanuni silahlanmış, dövlət çevrilişinə cəhd edən bir qrup qiyamçı ilə qarşıdurmada qəhrəmancasına həlak olmuşdur. Saatlı rayon Qıraqlı kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Hüseynov Elşən İbrahim oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Saatlı rayon Mərkəzi Xəstəxanası qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Elşən İbrahim oğlu-Müdafiə Nazirliyi, sıravi- Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- (Ölümündən sonra)

Əsgərov, V. Hüseynov Elşən İbrahim oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.-Bakı, 2010.- S.122.
Hüseynov Elşən İbrahim oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.88.
Seyidzadə, M. Hüseynov Elşən İbrahim oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.94.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az

90 illiyi

Arif Heydərov 1926-1978

General-leytenant

Arif Nəzər oğlu Heydərov 1926-cı il iyun ayının 28-də Ağdaş rayonunda anadan olmuşdur. Əmək fəaliyyətinə 1942-ci ildə başlamış, M.Əzizbəyov adına neft trestində çilingər şagirdi işləmişdir. 1943-1944-cü illərdə keçmiş SSRİ Dövlət Təhlükəsizliyi Komitəsinin (DTK) Moskvada yerləşən xüsusi məktəbində təhsil almışdır.

1944-1945-ci illərdə İkinci Dünya müharibəsinə yollanmış, Berlinə hücum əməliyyatında iştirak etmişdir. Müharibədən sonra 1945-1947-ci illərdə Polşa və Almaniyada müttəfiqlərin qoşunlarının heyətində xidmətdə olmuş, keçirilən əməliyyat qruplarının tərkibində işləmişdir.

1947-ci ildə Azərbaycana qayıtdıqdan sonra Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində (indiki MTN) Mühafizə şöbəsində əməliyyat işçisi kimi fəaliyyətə başlamışdır.

1949-1970-ci illərdə DTK-nın Kəşfiyyat şöbəsində işləmiş, operativ tapşırıqlarla əlaqədar dəfələrlə xarici ölkələrdə səfərdə olmuşdur.

1957-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirmişdir. Rus, alman, türk və fars dillərini mükəmməl bildiyi üçün diplomat qismində bir sıra xarici ölkələrə göndərilmişdir.

1967-1970-ci illərdə SSRİ-nin Türkiyədəki konsulu vəzifəsində çalışan Arif Heydərov bacarıqlı diplomat kimi şöhrət qazanmış, iki dövlət arasında münasibətlərin inkişafında mühüm rol oynamışdır.

Ümummilli lider Heydər Əliyevin 1969-cu ildə respublikaya rəhbər təyin olunması milyonlarla insan kimi, onun da taleyində də yeni bir mərhələnin başlanğıcına çevrilmişdir. Heydər Əliyevin təklifi ilə 1970-1978-ci illərdə A.Heydərov Azərbaycan SSRİ-nin Daxili İşlər naziri vəzifəsinə təyin olunmuşdur.

1967-ci ildə Dövlət Təhlükəsizliyi Orqanlarının fəxri əməkdaşı, 1970-ci ildə SSRİ Daxili İşlər Nazirliyinin Əməkdar işçisi, "Qırmızı Bayraq", "Şərəf nişanı" ordenləri, həmçinin SSRİ və xarici ölkə medalları ilə təltif edilmişdir. Azərbaycan SSR Ali Sovetinin (8-9 çağırış) deputatı olmuşdur.

1971-ci ildə general-leytenant rütbəsini almışdır.

Arif Heydərov 1978-ci il iyun ayının 29-da xidməti vəzifəsini yerinə yetirərkən faciəli şəkildə həlak olmuşdur.

1996-cı ildə general-leytenantın anadan olmasının 70 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsi keçirilmişdir. Bakının küçələrindən və Xəzər Gəmiçiliyi İdarəsinin gəmilərindən birinə onun adı verilmişdir.

Ədəbiyyat

Heydərov Arif general /Naşir: E. Şahmar; Ön söz: A. Şərif, C. Əlibəyov.- Bakı: Əbilov, Zeynalov və oğulları, 2006.- S. 230.

Heydərov Arif Nəzər oğlu //Azərbaycan Sovet Ensklopediyası: 10 cilddə.-Bakı, 1987.- C.10.- S.161-162.

Heydərov Arif Nəzər oğlu //Fəxri xiyaban: [soraq kitabı] /Heydər Əliyev Fondu.- Bakı, 2007.-S.85.

Аббасова, Р. Уроки жизни /Р.Аббасова //Yol.-2014.- C.79-86.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

70 illiyi

Aybəniz Əliyeva-Kəngərli 1946

Alim

Aybəniz İbrahim qızı Əliyeva-Kəngərli 1946-cı il iyun ayının 6-da Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda anadan olmuşdur. 1968-ci ildə Azərbaycan Dövlət Universitetinin Kitabxanaçılıq fakültəsini (indiki BDU, Kitabxanaçılıq-informasiya fakültəsi) bitirmişdir. 1968-2002-ci illərdə Nizami Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyində kitabxana müdiri vəzifəsində çalışmış, 1992-ci ildə "Azərbaycan nağıllarında qadın obrazı" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1996-cı ildə "Elmlər Akademiyaları Beynəlxalq Assosiasiyasının nəzdində yaradılmış elmi kitabxanalar və informasiya mərkəzlərinin direktorlar şurası"nın üzvü seçilmişdir.

2002-2014-cü illərdə AMEA Mərkəzi Elmi Kitabxanasının direktoru vəzifəsində çalışmış, 2003-2014-cü illərdə AMEA Mərkəzi Elmi Kitabxanasının "Elmi əsərləri" məcmuəsinin baş redaktoru olmuşdur. 2014-cü il noyabr ayından AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun elmi işlər üzrə direktor müavini vəzifəsini icra edir.

2003-cü ildə V.İ.Vernadski adına Ukrayna Milli Kitabxanasının nəşri olan "Milli Elmlər Akademiyaları kitabxanaları: fəaliyyət problemləri, inkişaf meyilləri" elmi-nəzəri məcmuənin beynəlxalq redaksiya heyətinin üzvü, 2008-ci ildən Yeni Azərbaycan Partiyasının üzvü, 2008-ci ildə Azərbaycan qadınlarının Milli Konfederasiyasının AMEA üzrə İdarə Heyətinin sədri, 2008-ci ildə "Kitabxanaların modernləşdirilməsi və davamlı inkişafı Konsepsiya və Dövlət Proqramlarının hazırlanması üzrə Milli İdarələrarası Koordinasiya Şurası"nın üzvü, 2009-2014-cü illərdə Azərbaycanda "Kitabxanaşünaslıq, kitabşünaslıq və biblioqrafiya" üzrə Problem Şurasının sədri, 2009-cu ildə "Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri, metodik və təcrübi jurnal"ının, "Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri jurnalı"n redaksiya heyətlərinin (BDU) və "Beynəlxalq Elmi Araşdırılmalar Jurnalı"nın redaksiya heyətinin üzvü, 2010-cu ildə Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir.

2010-cu ildə "Azərbaycan folklor kitabı: qaynaqları, təşəkkülü və inkişaf mərhələləri" adlı doktorluq dissertasiyasını müdafiə etmişdir. Kitabxanaşünaslıq, biblioqrafiyaşünaslıq, kitabşünaslıq və ədəbiyyatşünaslıq elminin aktual məsələlərinə həsr olunmuş "Məhəmməd Füzuli-500" (1996), "Bəşəriyyət qadınla yüksələcək" (2001), "Müasir Azərbaycanda elmin informasiya təminatı və kitabxanalar" (2007), "Azərbaycan folkloru və kitab mədəniyyəti" adlı monoqrafiya (2008), "Heydər Əliyev və Azərbaycan elmi" biblioqrafik göstərici (2010), "Azərbaycan folkloru" biblioqrafik göstəricisi (2010), "Mənəvi dəyərlərimiz: yaradanlar və yaşadanlar" (2011) "Heydər Əliyev. Müstəqilliyimiz əbədidir" çoxcildliyinin elmi biblioqrafik göstəricisi (2013) kimi 15 kitab və monoqrafiyanın, 170-dən çox elmi məqalənin müəllifi, 120-ə yaxın biblioqrafik göstəricinin tərtibçi-müəllifi, elmi redaktorudur. 8 doktorant, 15 dissertantın elmi rəhbəridir.

2006-cı və 2010-cu illərdə kitabxanaşünaslıq elminin inkişafındakı xidmətlərinə görə AMEA-nın Fəxri fərmanı ilə təltif olunmuşdur. 2011-ci ildə D.S.Lixaçev mükafatı uğrunda müsabiqənin nəticələrinə əsasən "Milli kitab mədəniyyəti kontekstində Azərbaycan folklor kitabının öyrənilməsinə bəxş etdiyi qiymətli xəzinəyə görə" diplomuna layiq görülmüşdür. 2012-ci il də KİV-in Həmkarlar Birliyinin "Xalqın nüfuzlu ziyalısı" diplomu ilə təltif olunmuşdur.

Ədəbiyyat

Arif Mir Cəlal oğlu Paşayev: biblioqrafiya /tərt. müəl. A.Əliyeva-Kəngərli, Ə.Həzərxanov; red.: F.Hüseynova, İ.Səfərov; AMEA, Mərkəzi Elmi Kitabxana.- Bakı: Şərq-Qərb, 2011.- 239 s.

Nailə Məmmədəli qızı Vəlixanlı: biblioqrafiya /Azərb. Milli EA, Mərkəzi Elmi Kitabxana ; tərt.-müəl. A.Əliyev-Kəngərli; red. N.Seyidəliyev, İ.Səfərov.- Bakı: Elm, 2012.- 237, [3] s.

Səlahəddin Sədrəddin oğlu Xəlilov: biblioqrafiya /tərt. müəl. A.K. Əliyeva, E. Yüzbaşov; AMEA, Mərkəzi Elmi Kitabxana.- Bakı: Elm, 2013.- S 340.

Milli və elmi irsimizin yaddaşı /A.Əliyeva-Kəngərli //Respublika.- 2014.- 8 iyun.- S.3

Ценный научно-исторический источник /А.Алиева-Кенгерли //Бакинский рабочий.-2011.- 3 июня. - С.4

www.anl.az

www.az.wikipedia.org

11

130 illiyi

Qəribsoltan Məlikova 1886-1967

Pedaqoq

Qəribsoltan Həsən bəy qızı Məlikova 1886-cı il (bəzi mənbələrdə 1896) iyun ayının 11-də Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhərində), maarifpərvər ziyalı, Azərbaycan mətbuatının banisi Həsən bəy Məlikov-Zərdabinin ailəsində anadan olmuşdur.

Qəribsoltan Məlikova orta məktəbi bitirdikdən sonra Tiflisdə rus qızlar gimnaziyasında təhsil almışdır. Atası Həsən bəy Zərdabinin vəfatından 3 il sonra onun arzusu ilə Bakıya köçməyə məcbur olmuş və 1910-cu ildə pedaqoji fəaliyyətə başlamışdır.

1915-1918-ci illərdə Bakıdakı rus-tatar (Rus-Azərbaycan) qız məktəbində dərs demiş, 1918-1920-ci illərdə bir sıra çətinliklərə sinə gərərək Bakıdakı Üçüncü rus qız gimnaziyasında, sonra isə ikinci rus-qız gimnaziyasında Azərbaycan dilindən dərs demiş, həm də pedaqoji kursda öz təhsilini artırmışdır. Hətta bəzi tarixi mənbələrdə Qəribsoltan xanımın İmperator üçüncü Aleksandr adına Birinci Bakı kişi gimnaziyasının Pedaqoji Şurasında bütün sınaqlardan keçərək "Xalq məktəblərinin müəllimi" adına layiq görüldüyü də göstərilir. Bu nailiyyət nəinki Qəribsoltan xanımın, eləcə də bütün Azərbaycanlı qadınlarının irəliləyişi, onların oxumaq imkanlarının təsdiqi idi.

Ailə üzvlərinin repesiyası səbəbindən Gəncəyə köçərək bir müddət burada sakit həyat yaşamaq istəmişdir. İkinci Dünya müharibəsi illərində görkəmli bəstəkar Rauf Hacıyevin anası Nanə xanımla (Nanə xanım Zərdablı olduğu üçün) Zərdaba getmiş və hər ikisi orta məktəblərdə müəllim kimi çalışmışlar.

Bu cəfakeş xanım ailə həyatı qurmamış, ömrü boyu ədəbi irsi təqib olunmuş, yasaq edilmiş atasının, repressiya qurbanı olan qardaşının, Fransada yaşamağa məcbur olan bacı və qardaşının, yeznəsi Əlimərdan bəy Topçubaşovun, bu üzüntülərə dözə bilməyən anası Hənifə xanımın dərdi ilə yaşamışdır. Həsən bəyin ailəsindən tək yadigar qalmış Qəribsoltan xanımı qardaşı Midhətin faciəli həyatı, anası Hənifə xanımın vaxtsız ölümü, Bibiheybət məscidinin yanından atası Həsən bəyin məzarı yerləşən qəbiristanlığın dağıdılması xəbəri çox sarsıtmışdır. Çox çətinliklə də olsa cənazənin qalıqlarını Həsən bəyin ömür-gün yoldaşı Hənifə xanım Məlikova-Abayevanın yanında basdırmışdır.

Bütün bu çətinliklərə baxmayaraq vətənpərvər müəllimə Azərbaycanda Sovet hakimiyyəti qurulan ilk illərdə yeni yaradılan məktəblərin, savad kurslarının təşkilində yaxından iştirak etmiş, qabaqcıl bir pedaqoq kimi respublikada maarifin inkişafında əlindən gələn köməyi əsirgəməmişdir.

1956-cı ilədək Bakının bir sıra orta məktəblərində yorulmaq bilmədən çalışmış, neçə-neçə nəslin yetişməsində böyük rol oynamışdır.

Azərbaycan elm və mədəniyyətinin inkişafındakı əvəzsiz xidmətlərinə görə Qəribsoltan Məlikovaya 1948-ci ildə "Azərbaycan SSR-in Əməkdar müəllimi" adı verilmiş, Lenin ordeni ilə təltif edilmişdir.

Maarifpərvər ziyalı Qəribsoltan Məlikova 1967-ci il mart ayının 9-da Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Məlikova Qəribsoltan Həsən bəy qızı //Azərbaycan qadını ensiklopediyası /red. hey. R.Mehdiyev [və b.]; baş red. İ.Vəliyev; [müəl. X. Abbasov [və b.]].- Bakı, 2002.- S.270.

Məlikova Qəribsoltan Həsən bəy qızı //Azərbaycan Sovet Ensklopediyası: 10 cilddə.- Bakı, 1982.- C.6.- S.490.

Məmmədov, S. Bu xalq sənsizdir /S.Məmmədov //Nurlu ömrümün dastanı.- Bakı, 1975.- S.43-49.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.zerdab.com

60 illiyi

Arif Səlimov 1956

Alim

Ə d ə b i y y a t

Квази А-голоморфное сечение гибридного подрасслоения /А.Салимов //Тр. геом. сем., Казанск. Ун-т.- Вып. 21.- 1991.- 85-93.

Лифты полиаффинорных структур на чистых сечениях тензорного расслоения /А.Салимов //Изв. вузов Матем., 1996.- №10.- С.55-62.

Новый метод в теории лифтов тензорных полей в тензорное расслоение /А.А. Салимов.-Изв. вузов Матем.- 1994.- № 3.-С 69-75.

Norden structures of Hessian type /A.Salimov, A.Gezer //Turkish J.Math.- Turkey, 2014.- №. 3(38).- 462-469.

On deformed Riemannian extensions associated with twin Norden metrics /A.Salimov, R.Cakan //Chin. Ann. Math. Ser. B.-China, 2015.- №3(36).- 345-354.

Some notes on paracontact structures /Salimov A.A., Cayir H //Acad. Bulgare Sci..- Bulgaria, 2013.- №.3 (66).- 331-338.

www.anl.az

www.az.wikipedia.org

Arif Ağacan oğlu Səlimov 1956-cı ildə Ağsu rayonunda anadan olmuşdur. 1973-cü ildə Ağsu şəhər 1 saylı orta məktəbi bitirmiş və 1973-1978-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) mexanika-riyaziyyat fakültəsində təhsil almışdır.

1978-1980-ci illərdə Azərbaycan EA-nın (indiki AMEA) Kibernetika İnstitutunda mühəndis-riyaziyyatçı kimi çalışmış, 1980-1983-cü illərdə isə Rusiyanın Kazan Dövlət Universitetinin aspiranturasında həndəsə və topologiya ixtisası üzrə təhsil almışdır.

1984-cü ilin yanvar ayında Kazan şəhərində məşhur sovet həndəsə alimi V.Vişnevskinin elmi rəhbərliyi altında namizədlik dissertasiyasını müdafiə etmişdir. 1984-1995-ci illərdə ADU-nun Həndəsə kafedrasında assistent və dosent vəzifələrində çalışmışdır.

1998-ci ilin sentyabr ayında isə Kazan Dövlət Universitetində həndəsə və topologiya ixtisası üzrə doktorluq dissertasiyasını müdafiə etmişdir.

Norden (anti-Hermit) strukturaları və tenzor operatorları nəzəriyyələrində aldığı fundamental nəticələr və lift nəzəriyyəsində yaratdığı yeni metod ilə diferensial həndəsə sahəsində dünyada tanınmış bir alimdir.

Arif Səlimovun 163-dən çox elmi əsəri var. Bu əsərlərdən 150-si xaricdə çap olunmuş, 25 əsəri "Springer", "Birkhauser Verlag", "Elsevier", "World Scientific" kimi məşhur nəşriyyatlarda işıq üzü görmüşdür. Əsərləri ABŞ, Yaponiya, Cənubi Koreya, Çin, Hindistan, Sinqapur, Meksika, Rusiya, İngiltərə, İtaliya, Fransa, Hollandiya, Polşa, Türkiyə və s. ölkələrin nüfuzlu elmi jurnallarında nəşr olunmuşdur.

"American Mathematical Society" və "European Mathematical Society" tərəfindən təftiş edilən "International Electronic Journal of Geometry" və "TWMS Jour. of Pure Appl. Math." adlı beynəlxalq jurnalların redaksiya heyətinin üzvüdür.

Kazan Dövlət Universitetində həndəsə üzrə keçirilən Lobaçevski konfranslarında 4 dəfə baş məruzəçilərdən biri olmuşdur. Arif Səlimov 2006-cı ildə 4-ci Beynəlxalq Həndəsə konfransında və 2011-ci ildə isə Türkiyə Riyaziyyatçılar Cəmiyyətinin 24-cü illik konfransında baş məruzəçi olmuşdur.

Tələbə və magistrlər üçün çap olunmuş 3 kitabın (1-i Azərbaycanda, 2-si isə Türkiyədə) müəlliflərindən biridir. Onun rəhbərlik etdiyi 3 elmi layihə (TBAG-105T551, TBAG-108T590, TBAG-112T111) 2006, 2008 və 2012-ci illərdə, Türkiyənin Elm və Texnika Komitəsinin qrantlarına layiq görülmüş, 14 məqaləsi isə eyni Komitənin müxtəlif illərdə təşviq mükafatlarını almışdır. Arif Səlimov 1995-ci ildən Türkiyənin Atatürk Universitetində müqavilə ilə çalışmağa başlamış, hazırda bu universitetin Matematik Bölümündə müqavilə ilə professor vəzifəsində çalışmaqdadır.

A.Səlimovun Bakı Dövlət Universiteti ilə sıx əlaqələri bu gün də davam etməkdədir. Bu illər ərzində onun rəhbərliyi altında 8 tələbəsi fəlsəfə doktorluğu dissertasiyasını müdafiə etmişdir, bunlardan 2-si Azərbaycandan, 6-sı isə Türkiyədəndir. Bundan başqa, fəlsəfə doktoru olan daha 8 Türkiyəli elm adamı onun rəhbərliyi altında post-doktora (PhD) tədqiqatları aparmışdır. Onlardan 6-sı hal-hazırda professordur.

75 illiyi Şahlar Əsgərov 1941

Alim

Şahlar Qaçay oğlu Əsgərov 1941-ci il iyun ayının 15-də Kəlbəcər rayonunda anadan olmuşdur.

1958-1963-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika fakültəsində təhsil almış, təyinatla Universitetdə çalışmışdır.

1964-1967-ci illərdə ADU-nun əyani aspirantı olaraq Leninqrad Sabit Cərəyan İnstitutunda professor L.A.Senanın rəhbərliyi altında fiziki-elektronika sahəsində tədqiqatlar aparmışdır. Aspiranturanı bitirdikdən sonra ömrünü doğma universitetinə bağlayaraq burada müəllim, dosent, dekan müavini və prorektor vəzifələrində çalışmışdır. 1970-ci ildə "Alçaq enerjili ionlarla metalların katod tozlanması" mövzusunda namizədlik, 1992-ci ildə isə Bakı Dövlət Universitetində "Toxunma sərhədinin qeyri bircinslilik dərəcəsinin metal-vakuum və metal-yarımkeçirici strukturlarının elektrofiziki xassələrinə təsiri" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsi almışdır. 1994-cü ildən professordur. 1990-cı ildə yaratdığı "Amorf təbəqələr" elmi-tədqiqat laboratoriyasının elmi rəhbəridir.

Elmi fəaliyyəti dövründə bir sıra uğurlara Alçaq enerjili ionlarla tozlanmanın öyrənilməsi istiqamətində əldə etdiyi elmi nəticələr 40 ildir ki, müntəzəm olaraq böyük elmi-texniki layihələrin həllində (ion mühərriklərində və termonüvə reaktorlarında) geniş tətbiq olunmaqdadır. Xüsusilə ABŞ-ın kosmik tədqiqatlar üzrə baş idarəsi NASA və AİAA (Amerika Astronavtika İnstitutu) əməkdaşları kosmik gəmilər üçün ion mühərrikləri hazırlanmasında bu nəticələrdən geniş istifadə edirlər. Onun Azərbaycanda əsasını qoyduğu ikinci elmi istiqamət fiziki elektronika və mikroelektronikaya aid olan "Metal-yarımkeçirici kontakt"ının (MYK) öyrənilməsidir.

1974-cü ildə Danimarkanın Texniki Universitetində birillik stajkeçmədə olarkən katod tozlanması sahəsində əldə etdiyi nəticələri metal-yarımkeçirici kontaktına tətbiq etmiş və kontakt üçün qeyri-bircins model təklif etmişdi. Bu istiqamətlərdə onun aldığı nəticələr çoxsaylı elmi məqalələrdə və ixtiralarda əks olunmuşdur.

Ş.Əsgərov 200-dən çox elmi, 700-dən artıq publisistik məqalənin, 11 kitabın, 3 monoqrafiyanın müəllifidir. Onun numizmatika, kriminalistika və tətbiqi incəsənət sahələrində ixtira və patentləri vardır.

20-yə qədər dissertasiya işinə, 100-dən çox diplom işinə rəhbərlik etmişdir. Bir sıra beynəlxalq akademiyaların üzvüdür.

Tanınmış alimin fəlsəfi mövzulara da həsr olunmuş "Keçid dövrünə fəlsəfi baxış" (1998), "Milli birlik probleminə fəlsəfi baxış" (2001), "Təhsilimiz dünən, bu gün və sabah" (2003), "Düşüncə tərzi" (2008) və digər kitabları özünün yüksək ideya-məzmunu, analitik səviyyəsi, aktuallığı, problemlərə yanaşma üslubu, mənəvi-əxlaqi dəyərləri önə çəkməsi ilə diqqəti cəlb edir.

1995-2000 və 2000-2005-ci illərdə millət vəkili, 2000-2005-ci ildə Parlamentdə Elm və Təhsil məsələləri Daimi Komissiyasının sədri olmuşdur.

Elmi fəaliyyəti və xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmiş, 1999-cu ildə "Şöhrət" ordeni, 2001-ci ildə "Əməkdar elm xadimi" fəxri adıyla təltif edilmişdir. 2011-ci ildən Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

Hamımızın bir vətəni var, bu da Azərbaycandır /Ş.Əsgərov; red. Y.Əsgərov.- Bakı: Azərbaycan Universiteti, 2000.-179 s.

Kamilləşən düşüncə /Ş.Əsgərov; red. Ə.Cabbarlı.- Bakı: [E.L], 2013.- 230 s.

Təhsilimiz dünən, bu gün, sabah /Ş.Əsgərov; red. S.Ağababayeva; rəs. N.Rzaquliyev.- Bakı: Azərbaycan, 2003.-280 s.

"Tolerantlıq Şərqdə, xüsusən də Azərbaycanda mədəni dəyərə, əxlaq normasına çevrilib": /Ş.Əsgərov; müsah. apardı S.Mürvətqızı //525-ci qəzet.- 2013.- 12 aprel.- S.6.

Yaşam fəlsəfəsi /Ş.Əsgərov //525-ci qəzet.-2015.- 6 iyun.- S.27.

Şahlar Qaçay oğlu Əsgərov: Bibliooqrafik göstərici /[red.: G.Adıgözəlqızı, E.Əsgərova, R.Cəfərov; rəssam. N.Rzaquliyev].- Bakı: Azərbaycan, 2007.- 144 s.

50 illiyi
Azad Qurbanov 1966

Alim

Azad İsa oğlu Qurbanov 1966-cı il iyun ayının 26-da Göyçə mahalının Cil kəndində anadan olmuşdur. 1973-1983-cü illərdə Bakı şəhərindəki 45 saylı orta məktəbdə oxumuş, 1983-1991-ci illərdə BDU-nun Mexanika-riyaziyyat fakültəsində, 1992-1995-ci illərdə isə Azərbaycan Dövlət Neft Akademiyasında (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) aspiranturada təhsil almışdır.

1997-ci ildə "Maye, qaz və plazma mexanikası" ixtisası üzrə "Mürəkkəb reoloji mühitin gərginlik-deformasiya halının mayenin süzülməsinə təsirinin tədqiqi" mövzusunda namizədlik dissertasiyası müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi almışdır. Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının 06.04.2004-cü il tarixli qərarı ilə ona dosent elmi adı verilmişdir.

Əmək fəaliyyətinə hələ tələbə olarkən başlamış, 1987-1991-ci illərdə BDU-nun Hesablama mərkəzində texnik, 1995-1999-cu illərdə "Tətbiqi riyaziyyat" Elmi-Tədqiqat İnstitutunda elmi işçi, 1999-2000-ci illərdə Kompüter mərkəzində şöbə müdiri, 2000-2001-ci illərdə İnformatika kafedrasında müəllim və 2001-2012-ci illərdə dosent vəzifəsində çalışmışdır. Hazırda Kitabxanaçılıq-informasiya fakültəsinin dekanı və Kitabxanaşünaslıq kafedrasının dosentidir.

"İnformatika", "Elmdə və təhsildə kompüter texnologiyası", "Kitabxanaçılıq informatikası", "Kitabxanalarda informasiya xidməti" fənlərindən dərs deyir. Kitabxana - informasiya texnologiyaları, verilənlər bazasının idarəetmə sistemləri, riyazi modelləşdirmə, ədədi üsullar, hidrodinamika sahələri üzrə tədqiqat aparır.

30-dan artıq elmi əsərin, o cümlədən ali məktəb tələbələri üçün "Kitabxana informatikası" (I-II cild, 2001-2002; M.Xəlilov və N.Musayeva ilə birgə), "Kitabxana proseslərinin kompüterləşdirilməsinin əsasları" (2007, A.Xələfov ilə birgə), "Kompüter texnikası və proqramlaşdırma" (2010, E.Məmmədov, A.Hüseynova ilə birgə), "İnformatika" (2011, İ.Qurbanov və R.Abdullayeva ilə birgə), "Kitabxana-informasiya fəaliyyətinin menecmenti və marketinq" (2012, M.Məmmədov, P.Kazımi ilə birgə), "Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı" (2012, P.Kazımi, N.İsmayılova ilə birgə) və s. kimi 13 kitabın, 6 tədris proqramının müəllifidir.

2002-ci ildə Fransa Respublikasının Nitsa "Sofiya-Antipolis" Universitetində ixtisasartırma kursu keçmişdir. Bir sıra respublika və İran, Almaniya, Türkiyə, İordaniya, Rusiya, Özbəkistan kimi xarici ölkələrdə keçirilmiş beynəlxalq elmi konfranslarda, seminar və simpoziumlarda iştirak etmişdir.

Ə d ə b i y y a t

İnformatika /A. İ. Qurbanov, İ.Ə. Qurbanov, R. A. Abdullayeva.-Bakı: [Ərgünəş], 2012.-420 s.

Kitabxana-informasiya fəaliyyətinin iqtisadiyyatı:dərs vəsaiti /A.İ. Qurbanov, P.Kazımi, N.İsmayılova.- Bakı: Mütərcim, 2012.- 306 s.

Kompüter texnikası və proqramlaşdırma [Elektron resurs]: dərs vəsaiti /A. İ. Qurbanov, E. M. Məmmədov, A. S. Hüseynova.-Bakı: Təhsil, 2010.- 169 s.

İnformasiya cəmiyyəti və mərkəzləşdirilmiş kitabxana sistemləri /A.Qurbanov//Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri və praktiki jurnal.-2014.- № 2.(14)-S.18-22.

Sadıqova S.A. Qurbanov Azad İsa oğlu //Kitabxanaçılıq-informasiya fakültəsi: biobiblioqrafik lüğət /S.A. Sadıqova.-Bakı: Mütərcim, 2012.-219 s.

ww.anl.az

www.az.wikipedia.org

Milli Qurtuluş Günü
1993

1991-ci ilin oktyabrında Azərbaycan müstəqillik əldə etsə də, Ermənistanın işğalçılıq niyyəti güdən təcavüzü respublikada vəziyyəti gərginləşdirmişdir. 1993-cü il iyunun 4-də Gəncədə polkovnik Surət Hüseynovun nəzarəti altında olan hərbi hissənin hakimiyyətə itaətsizliyi ölkəni tamamilə xaosa sürükləmişdi. Situasiyanı nəzarətə almaq üçün hakimiyyətin atdığı tələsik addımlar vəziyyəti düzəltməmiş, əksinə, Gəncəyə yola düşən dövlət nümayəndələri girov götürülmüşdür. Qiyamçı hərbi hissənin rəhbərliyi, Baş nazir və Milli Məclis Sədrinin, sonra isə Prezidentin istefasını tələb etmişdir. Vəziyyət nəzarətdən çıxmış, ətraf rayonların icra başçıları zorla dəyişdirilmiş, Surət Hüseynovun qiyamı məhdud Gəncə civarlarından çıxaraq, üzü Bakıya doğru geniş miqyas almışdır. Belə böhranlı və ağır vəziyyətdə ölkə vətəndaşları yeganə çıxış yolunu yenə də müdrik rəhbərinin hakimiyyət sükanı arxasına keçməsində görmüşdür. Bu taleyüklü sınaq anında xalqın çağırışına səs verən, dövlətin gələcək taleyinə biganə qalmayan böyük strateq Heydər Əliyev Bakıya dönərək respublikada yaranmış hakimiyyət böhranının aradan qaldırılması istiqamətində əməli fəaliyyətə başlamışdır. Ümummilli liderin bir qrup ziyalı ilə Gəncəyə səfər etməsi və heç bir riskdən çəkinməyərək silahlanmış qüvvələrlə danışıqlar aparması vətəndaş müharibəsi təhlükəsinin qarşısının alınmasında mühüm addım olmuşdur. Bundan bir neçə gün sonra - iyun ayının 15-də isə ulu öndər parlamentdə səslənən təkidli xahişləri, ən əsası xalqın istəyini nəzərə alaraq o zamankı Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçilməsinə razılıq vermişdir. Bu tarixi hadisə respublika həyatında xaos və anarxiyadan qurtuluşa doğru yeni mərhələnin başlanğıcına çevrilmişdir. Beləliklə də, 15 iyun Azərbaycanın tarixinə Milli Qurtuluş Günü kimi daxil edilmişdir.

Ulu öndərin Ali Sovetin Sədri seçilməsi Azərbaycanda eyni zamanda mütərəqqi parlamentarizm ənənələrinin formalaşmasını təmin etmişdir. Heydər Əliyev parlamentin cəmiyyətdəki nüfuzunun sağlamlaşdırılması tədbirlərinə başlamış, yüksək idarəçilik keyfiyyətləri sayəsində ali qanunverici orqanda xoşagəlməz siyasi çəkişmələrin, qeyri-etik davranışların qarşısını almışdır. Müzakirə və diskussiyaların sivil, demokratik meyarlar çərçivəsində aparılması üçün şəxsi nümunə göstərmiş, parlament idarəçiliyinə yeni ruh və müasirlik gətirmişdir. Milli Məclisin iclasları, mətbuat konfransları, respublika əhəmiyyətli müşavirələr birbaşa yayımla televiziya ekranlarına verilmişdir.

Sonralar millət vəkilləri 15 iyun tarixinin təqvimə Azərbaycanın Qurtuluş günü kimi salınması təklifi ilə çıxış etmişlər və Milli Məclis bu təklifi bəyənmişdir. O vaxtdan Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Milli Qurtuluş günü kimi qeyd edilir.

Ədəbiyyat

Əliyeva, N. Milli Qurtuluş Günü - millətin özünə inamının bərqərar olduğu gün /N.Əliyeva //Səs .-2015.- 13 iyun.- S. 11.

Nağıyev, M.15 İyun Milli Qurtuluş Günü Müstəqilliyimizin zəfər yürüşü /M.Nağıyev //Səs .-2015.- 10 iyun.- S. 6.

Rəhimzadə, A. 15 İyun-Milli Qurtuluş Günü ölkəmizə və xalqımıza dirçəliş, intibah gətirdi /A.Rəhimzadə //Yeni Azərbaycan 2014.- 14 iyun.- S.6.

Rəhimzadə, V. Milli Qurtuluş Günü Azərbaycanın inkişafının və yüksəlişinin əsas istinad nöqtəsidir: 15 iyun Milli Qurtuluş Günüdür /V.Rəhimzadə //Respublika 2014.- 14 iyun.- S.6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Ümumdünya Qaçqınlar Günü 2000

Hər il iyun ayının 20-də BMT Ümumdünya Qaçqınlar Gününü qeyd etməklə bütün dünyanı qaçqınların və məcburi köçkünlərin vəziyyətinə diqqət ayırmağa çağırır. Ümumdünya Qaçqınlar Günü 2000-ci il 4 dekabr tarixində BMT Baş Assambleyası tərəfindən yekdilliklə qəbul olunmuş qətnamə ilə müəyyən edilmişdir. 20 iyunda qaçqınların və məcburi köçkünlərin cəsurluğu, mətanət və iradəsi qeyd olunmaqla onlara mənəvi dəstək verilir.

Bu gün BMT QAK 6300 nəfər heyətlə 120 ölkədə fəaliyyət göstərir. Heyətin 80 faizdən çoxu dünyanın müxtəlif yerlərindəki sahə ofislərində, tez-tez isə ailələrindən ayrı, çətin şərtlər altında çalışır.

BMT-nin açıqlamasına görə dünyada 15.4 milyon qaçqının beşdə dördü kasıb ölkələrin payına düşür. Qaçqınların ümumi sayının dördə birindən bir qədər çox isə 3 ölkəyə - Pakistan, İran və Suriyaya aiddir. Bu göstəriciyə Şimali Afrika və Yaxın Şərqdə baş verən son ixtişaşlardan qaçqın düşən insanlar daxil edilməmişdir. Onların sayı isə artmaqda davam edir. Dünya qaçqınları sırasında Azərbaycanın da 20 faiz torpaqları erməni yaraqlıları tərəfindən işğal edilib. Bu işğal nəticəsində 1 milyondan artıq azərbaycanlı öz yurd-yuvasından qaçqın düşüb.

Azərbaycanda BMT QAK-ın 20 nəfərlik heyəti qaçqın və sığınacaq axtaran şəxslərə zəruri maddi yardımın göstərilməsi və mümkün olduqca fəal şəkildə davamlı həll yollarını təmin etməkdən ibarətdir. Azərbaycan hökumətinin 250 mindən çox qaçqının inteqrasiya edilməsi və yarım milyondan artıq məcburi köçkünün yaşayış şəraitinin yaxşılaşdırılması BMT-nin Qaçqınlar üzrə Ali Komissarı və BMT Baş Katibinin məcburi köçkünlərin hüquqları üzrə xüsusi nümayəndəsi tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilmişdir. Təşkilat məcburi köçkünlərin hələ də üzləşdikləri humanitar problemlərin aradan qaldırılmasında və onların hüquqlarının, o cümlədən Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həlli nəticəsində öz doğma yurdlarına qayıtma hüququnun qorunması sahəsində hökumətin səylərinə fəal şəkildə qoşulmuş və dəstək vermişdir.

20 iyunda biz dünya qaçqınlarını yada salır, həyata ruhlandırır, onlara mənəvi dəstək göstəririk. Bu şərəf və ləyaqətini ən çətin şəraitdə qorumaq üçün mücadilə edən didərgin və yurd yuvasından məhrum olmuş insanların həmrəyliyi günüdür.

Ümumdünya Qaçqınlar gününün qeyd edilməsində əsas məqsəd dünya ictimaiyyətinin diqqətini bu insanların yaşadıqları ağır şəraitə cəlb etməkdir.

Ədəbiyyat

Dünyada hər 4 saniyədə bir insan qaçqına və ya məcburi köçkünə cevrilir //Azərbaycan.- 2013.- 21 iyun.- S.3.

Rəşad, R.Qaçqın və məcburi köçkünlərin problemlərinin həlli: 20 iyun - Ümumdünya qaçqınlar günüdür /R.Rəşad //Ekspress .-2015.- 20-22 iyun S. 14.

Zümrüd. 20 İyun - Ümumdünya Qaçqınlar Günüdür /Zümrüd //Səs .-2015.- 20 iyun.- S.11.

İnternetdə

www.azadliq.org

www.refugees-idps-committee.gov.az

Beynəlxalq Olimpiya Günü 1967

1947-ci ildə Beynəlxalq Olimpiya Komitəsinin (BOK) Stokholmda keçirilən 41-ci sessiyasında təşkilatın Çexoslovakiyadan olan üzvü doktor Qruss Dünya Olimpiya Günü bayramını keçirmək təklifi ilə çıxış etmişdi. Onun təklif etdiyi layihə bəyənilmiş və BOK-un 1948-ci ilin yanvarında Sankt-Moritsdə keçirilmiş 42-ci sessiyasında Olimpiya Gününün keçirilməsi haqqında qərar qəbul olunmuşdur.

Birinci Olimpiya Günü 1948-ci il iyun ayının 23-də - Beynəlxalq Olimpiya Komitəsinin yaradılması günü - dünyanın 9 ölkəsində - Portuqaliya, Yunanıstan, Avstriya, Kanada, İsveçrə, Böyük Britaniya, Uruqvay, Venesuela və Belçikada qeyd olunmuşdur. Həmin gün BOK-un prezidenti Ziqfrid Edstrom dünyanın bütün gənclərinə müraciətlə çıxış etmişdir. Sonralar BOK prezidentinin Olimpiya Günü ərəfəsində bayram iştirakçılarına müraciət etməsi ənənə şəklini almışdır.

Olimpiya Gününü daha təntənəli şəkildə və bütün Milli Olimpiya Komitələrinin iştirakı ilə qeyd etmək məqsədi ilə 1987-ci ildə Olimpiya Qaçış Günü (OQG) təsis edilmişdir. Birinci OQG-də qadınlar və kişilər arasında 10 km məsafəyə qaçış təşkil olunmuşdur. OQG-ü BOK-un himayəsi altında, onun Kütləvi İdman Komissiyasının rəhbərliyi ilə keçirilir. Azərbaycanda Beynəlxalq Olimpiya Qaçış Günüilk dəfə 1996-cı ildə keçirilmişdir. Elə həmin ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya oyunlarına qatılmışdır. Olimpiya Qaçış Günü hər ilin iyun ayında Bakı və Gəncə şəhərlərində keçirilir. Proqrama müxtəlif məsafələrə qaçış, master klass, bədii hissə və s. daxildir. Tədbirdə iştirak edən hər bir iştirakçıya üzərində Olimpiya Gününün loqosu olan maykalar, BOK-un xüsusi sertifikatları, qaliblərə sponsorların hədiyyələri və MOK-un diplomları verilir. 2012-ci ildə Beynəlxalq Olimpiya Günü MOK-un 20 illik yubileyinə həsr olunmuşdu. 7 gün ərzində ilk dəfə olaraq "Olimpiya Yol Yürüşü" adlı layihə Azərbaycanın 9 bölgəsində, daha sonra Bakıda "Olimpiya Qaçış Günü" keçirilmiş, bu tədbirlərdə idman yarışları, əyləncəli proqramlar, viktorinalar təşkil edilmişdi. Ümumi hesabla 12000-dən artıq iştirakçı bu tədbirlərdən faydalanmışdı.

Bu il 2015-ci ildə tarixdə ilk dəfə olaraq Azərbaycan "Birinci Avropa Oyunları"na (ing. 2015 European Games) ev sahibliyi etdi. Birinci Avropa Oyunları 12 iyun - 28 iyun 2015-ci il tarixində Azərbaycanın paytaxtı Bakıda və Mingəçevirdə keçirilmişdir. Bir çox innovativ idman növünü özündə cəmləşdirən ilk Avropa oyunları Avropanın 50 Milli Olimpiya Komitəsini birləşdirən Avropa Olmipiya Komitəsi tərəfindən keçirilmişdir. Oyunlarda 50 ölkədən 20 idman növü üzrə 6000-dən çox idmançı yarışmışdır.

Aktivində 56 medal olan idmançılarımız 21 qızıl, 15 gümüş və 20 bürünc medalla qitənin 2-cisi olmuşdu.

Ə d ə b i y y a t

Beynəlxalq Olimpiya Komitəsinin prezidentləri: 1895-2006: Dərs vəsaiti /A.Əliyev, N.Əsgərova, J.Ağayeva; rəy.: A.Qurbanov, E.Acalov; elmi red. R.Quliyev; Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası.- Bakı: [AzDBTİA], 2006.- 118 s.

Qoca, F. Bakı-2015: Birinci Avropa Oyunlarına /F.Qoca //Ədəbiyyat qəzeti.-2015.- 13 iyun.- S.1

Sarıyeva, İ. Bakı-2015-in möhtəşəm açılışı - Azərbaycan folklorunun, mədəniyyətinin təcəssümü... /İ.Sarıyeva //Bakı xəbər .-2015.- 17 iyun.- S. 10.

Vəlibəyov, R. Bakı-2015: etimad, məsuliyyət, özünütəsdiq /R.Vəlibəyov //Azərbaycan.-2015.- 11 iyun.- S.9

İ n t e r n e t d ə

www.azadliq.org

www.refugees-idps-committee.gov.az

Milli Silahlı Qüvvələr Günü
1992

26 iyun tariximizin əlamətdar səhifələrindən biri - Azərbaycan Milli Ordusunun yarandığı gündür. 1918-ci il iyun ayının 26-da Azərbaycan Xalq Cümhuriyyəti hökuməti ilk milli diviziyanın və Hərbi Nazirliyin yaradılması barədə qərar qəbul etmişdir.

Milli Ordunun yaranması Azərbaycan xalqının milli dövlətçilik və milli özünütəsdiq tarixinin ən önəmli mərhələlərindən biri idi. Məhz güclü, nizami ordu 1918-ci il may aının 28-də elan edilmiş istiqlalın bütün ölkə ərazisində qələbə çalmasını təmin edə bilərdi. Artıq iyun ayının əvvəlində Şaumyanın başçılıq etdiyi Bakı Xalq Komissarları Soveti əksəriyyəti ermənilərdən ibarət olan 20 minə yaxın döyüşçü ilə cümhuriyyətə qarşı savaşa başlamışdı. Məqsəd milli hökumətin Tiflisdən Gəncəyə köçməsinə mane olmaq idi. Lakin daşnaklar buna nail ola bilmədilər.

İyun ayının 26-da ilk hərbi korpusun (diviziya statusunda) yaradılması barədə qərar qəbul edilmiş, Azərbaycan Milli Ordusunun təməli qoyulmuşdur. General Səməd ağa Mehmandarov hərbi nazir, general Əli ağa Şıxlinski hərbi nazirin müavini, general Süleyman Sulkeviç isə baş qərargah rəisi təyin olunmuşdu.

1919-cu il milli ordu quruculuğunda həlledici mərhələ olmuşdu. Ordunun yaradılması prosesi 1920-ci il yanvar ayında əsasən başa çatdırılmışdı. 40 min nəfərlik nizami ordunun 30 mini piyada, 10 mini isə süvari qoşun hissələrindən ibarət idi

1920-ci ilin aprel ayında XI Qızıl Ordu Azərbaycan sərhədlərinə yaxınlaşmış və A.Mikoyan başda olmaqla Bakı bolşevikləri rus ordusunu Bakıya çağırmışdı. Milli Ordunun sərhəddəki azsaylı hissələri ruslara müqavimət göstərə bilməmişdi. Aprelin 27-də Bakı buxtasına yan alan XI ordunun hərbi gəmiləri artıq toplarını parlament binasına tuşlamış, Bakıda milli hökumət süqut etmişdi. Azərbaycan istiqlaliyyətinin süqutu ilə Milli Ordunun mövcudluğuna da son qoyulmuşdu. Bolşevik hökuməti isə artıq 1920-ci il mayın 7-də Azərbaycanda ordu və donanmanın yenidən təşkil edilməsi barədə dekret vermişdi. Milli Ordunun ləğvindən sonra 21 generaldan 15-i bolşeviklər tərəfindən güllələnmiş, komandirlərin böyük hissəsi repressiyaya məruz qalmışdı.

İlk dəfə Azərbaycan Respublikası Prezidentinin 1992-ci il 18 sentyabr tarixli Fərmanı ilə təsis edilmiş və 1991-ci ildə Azərbaycanın dövlət müstəqilliyinin bərpasından sonra Azərbaycan ordusunun yaradılması barədə Azərbaycan Ali Sovetinin qərarının qəbul edildiyi tarix - 9 oktyabr, Azərbaycan Respublikası Silahlı Qüvvələri günü elan edilmişdir.

Məhz Heydər Əliyev Azərbaycana rəhbərliyə qayıdandan sonra ölkədə gerçək ordu quruculuğuna başlanmışdı.

Azərbaycan Respublikası Prezidentinin 22 may 1998-ci il tarixli Fərmanına əsasən Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün - 26 iyun tarixi Azərbaycan Respublikası Silahlı Qüvvələri günü kimi elan edilmişdir. Hər il bu tarix rəsmi dövlət bayramı kimi qeyd edilir.

1 iyul

Gün çıxır 06:14
Gün batır 21:35

31 iyul

Gün çıxır 06:36
Gün batır 21:16

İYUL

23 iyun
21 iyul
Xərcəng bürcünün Nişanı sudur. Ayın himayəsindədir. Günəşin Xərçəng bürcündən keçdiyi dövrdə doğulanlar daha çox açıq xasiyyətli, xəyalpərəst olurlar.

C.	1
Ş.	2
B.	3
B.E.	4
Ç.A.	5
Ç.	6
C.A.	**7**
C.	8
Ş.	9
B.	10
B.E.	11
Ç.A.	12
Ç.	13
C.A.	**14**
C.	15
Ş.	16
B.	17
B.E.	18
Ç.A.	19
Ç.	20
C.A.	**21**
C.	22
Ş.	**23**
B.	24
B.E.	25
Ç.A.	26
Ç.	27
C.a	**28**
C.	29
Ş.	30
B.	31

- *Azərbaycan Polisi Günü (02.07.1998)*
- *"Əkinçi" qəzetinin ilk sayı çapdan çıxmışdır (22.07.1875)*
- *Milli Mətbuat və Jurnalistika Günü (22.07.)*
- ***Ağdam rayonunun işğalı günü* (23.07.1993)**

875 il Nizami Gəncəvi 1141-1209

Nizami Gəncəvinin Xatirə ev-muzeyi

Nizami Gəncəvinin 840 illiyi münasibəti ilə "Nizami" adlı 2 seriyalı bədii filmin çəkilişi əsasında Nizaminin evi, həyəti maket formasında tikilmişdir.
1984-cü ildən N.Gəncəvinin Ev Muzeyi həmin binaya köçürülmüşdür. Bina maket kimi tikildiyi üçün 2003-cü ildən əsaslı təmirə dayandırılmışdır.
Hal-hazırda muzey Qızıl Hacılı məscidinin binasında öz fəaliyyətini davam etdirir. Qızıl Hacılı Məscidi məhəllə məscidi kimi tikilmiş memarlıq abidəsidir.
Nizami Gəncəvinin Xatirə Ev Muzeyinin fondunda 190 eksponat var, onlardan 147-si ekspozisiyada nümayiş etdirilir.

İYUL

2016

Milli ədəbiyyat

Yazıçı, publisist, geoloq alim Rəhimov Arif Süleyman oğlunun (Şamo Arif) (09.07.1936-16.06.2012) anadan olmasının 80 illiyi **220**

Dünya ədəbiyyatı

İngilis dramaturqu, Nobel mükafatı laureatı Şou Corc Bernardın (26.07.1856-02.11.1950) anadan olmasının 160 illiyi **221**

Türk yazıçısı, dövlət xadimi Uşaqlıgil Xalid Ziyanın (31.07.1866-27.03.1945) anadan olmasının 150 illiyi **222**

Rəssamlıq. Heykəltəraşlıq. Memarlıq

Xalq rəssamı Nərimanbəyov Vidadi Yaqub-Fərman oğlunun (13.07.1926-13.12.2001) anadan olmasının 90 illiyi **223**

Holland boyakarı və qrafiki Rembrandt Harmens Van Reynin (15.07.1606-04.10.1669) anadan olmasının 410 illiyi **224**

Xalq rəssamı, qrafik Rəhmanzadə Maral Yusif qızının (23.07.1916-16.03.2008) anadan olmasının 100 illiyi **225**

Musiqi.Opera.Balet

Bəstəkar Rüstəmov Eldar Səid oğlunun (13.07.1946-23.04.2010) anadan olmasının 70 illiyi

Xalq artisti, müğənni Kərimova Flora Ələkbər qızının (23.07.1941) anadan olmasının 75 illiyi **226**

Bəstəkar,Əməkdar müəllim, professor Yusifova Adilə Niyazi qızının (30.07.1956) anadan olmasının 60 illiyi **227**

Teatr. Kino

Əməkdar incəsənət xadimi, kinooperator İsmayılov Rasim Rza oğlunun (13.07.1936-03.03.2004) anadan olmasının 80 illiyi **228**

Xalq artisti Mustafayeva Sədayə İsmayıl qızının (15.07.1926-13.08.2004) anadan olmasının 90 illiyi **229**

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Kərim Məhəmməd oğlunun (02.07.1971-05.05.1992) anadan olmasının 45 illiyi **230**

Azərbaycanın Milli Qəhrəmanı Zülfüqarov Samir Xəlil oğlunun (03.07.1976-17.03.1995) anadan olmasının 40 illiyi **231**

Azərbaycanın Milli Qəhrəmanı Hüseynov Sadıq Dayandur oğlunun (29.07.1961-13.04.1992) anadan olmasının 55 illiyi **232**

Siyasət.Hüquq.Hərbi iş

Azərbaycan Respublikası Fövqəladə Hallar naziri, general-polkovnik Heydərov Kəmaləddin Fəttah oğlunun (15.07.1961) anadan olmasının 55 illiyi

Tarix

Tarix elmləri doktoru, professor Tağıyeva Şövkət Əzizağa qızının (11.06.1926-11.06.2015) anadan olmasının 90 illiyi **233**

AMEA-nın müxbir üzvü, professor Əliyev Vəli Hüseyn oğlunun (20.07.1936) anadan olmasının 80 illiyi **234**

Fəlsəfə.İqtisadiyyat

Fəlsəfə elmləri doktoru, professor Aslanova Rəbiyyət Nurulla qızının (04.07.1951) anadan olmasının 65 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Lalayev Əliqismət Hümmət oğlunun (05.07.1956) anadan olmasının 60 illiyi **235**

Əslən azərbaycanlı olan İran müəllimi, ruhanisi, siyasətçi və mühərriri Hacı Mirzə Həsən Rüşdiyyənin (05.07.1851-10.12.1944) anadan olmasının 165 illiyi **236**

Jurnalist, alim və ictimai xadim Şahtaxtinski İsasultan Nəcəfqulu oğlunun (05.07.1851-18.10.1894) anadan olmasının 165 illiyi **237**

Əməkdar ali məktəb işçisi Əhmədov Hüseyn Mustafa oğlunun (17.07.1926) anadan olmasının 90 illiyi **238**

Coğrafiya.Geologiya

AMEA-nın müxbir üzvü, professor Cavanşir Rəşid Cəmil oğlunun (17.07.1951) anadan olmasının 65 illiyi **239**

Rus alimi, səyyah və etnoqraf Mikluxo-Maklayın (17.07.1846-14.04.1888) anadan olmasının 170 illiyi

Geologiya-mineralogiya elmləri doktoru Salmanov Fərman Qurban oğlunun (28.07.1931-31.03.2007) anadan olmasının 85 illiyi **240**

Riyaziyyat.Fizika. Astronomiya

Akademik Rəsulov Məcid Lətif oğlunun (06.07.1916-1.02.1993) anadan olmasının 100 illiyi **241**

Kimya. Biologiya.Tibb

Tibb elmləri doktoru, Əməkdar elm xadimi, professor Fərəcov Zülfüqar Həsən oğlunun (07.07.1951) anadan olmasının 65 illiyi
Kimyaçı alim Rəfiyev Mahmud Məmmədtağı oğlunun (20.07.1916-) anadan olmasının 100 illiyi

Texnika.Mühəndis işi

AMEA-nın müxbir üzvü Məmmədov Firuddin İbrahim oğlunun (01.07.1936) anadan olmasının 80 illiyi **242**
Texnika elmləri doktoru Sadıqov İsmayıl Rza oğlunun (15.07.1941) anadan olmasının 75 illiyi
Əməkdar elm xadimi Məmmədov Əliqulu Məmmədqulu oğlunun (09.07.1906-10.03.1982) anadan olmasının 110 illiyi
İsveçli ixtiraçı, sahibkar, dəzgah konstruktoru Nobel Lüdviqin (27.07.1831-12.04.1888) anadan olmasının 185 illiyi
Əməkdar elm və texnika xadimi Mustafayev Əbdüləli Cabbar oğlunun (23.07.1906) anadan olmasının 110 illiyi
Akademik Abbasov Midhət Teymur oğlunun (31.07.1926-23.04.2012) anadan olmasının 90 illiyi **243**

İdman

Əməkdar idman ustası, beynəlxalq dərəcəli hakim, boksçu Ağalarov Abbas Fərhad oğlunun (15.07.1911-05.03.1969) anadan olmasının 105 illiyi

Tarixdə bu gün

Azərbaycan Polisi Günü (02.07.1998)
Beynəlxalq İdman Jurnalistləri Günü (02.07.1995)
RK(b)P Qafqaz Bürosu Dağlıq Qarabağın Azərbaycanın tərkibində saxlanılması və mərkəzi Şuşa şəhəri olmaqla muxtar vilayətin yaradılması barədə qərar qəbul edilib (05.07.1921)
Bakı-Sabunçu-Suraxanı xəttində SSRİ-də ilk dəfə olaraq elektrik qatarının hərəkət etməsinin (06.07.1926) 90 illiyi **244**
Ramazan bayramı (07.07.)
Ağdərə rayonunun işğalı günü (07.07.1993)
Türkiyənin Aralıq dənizi sahilindəki Ceyhan (Adana vilayəti) limanında Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təntənəli açılışı keçirilib (13.07.2006)
Bakı dənizçilik məktəbi əsasında Azərbaycan Dövlət Dəniz Akademiyası **245** yaradılmışdır (15.07.1996)
"Torpaq islahatı haqqında" Qanun qəbul edilmişdir (16.07.1996)
C.Naxçıvanski adına Hərbi Liseyin yaradılmasının (20.07.1971) 45 illiyi
Milli Mətbuat və Jurnalistika Günü (22.07.)
Almaniya SSRİ-yə hücum etmişdir (22.07.1941) **246**
Ağdam rayonunun işğalı günü (23.07.1993)

80 illiyi

Şamo Arif 1936-2012

Nasir

Ə d ə b i y y a t

Anamın yuxusuna girməsin: Mənim payız çiçəyim /Şamo Arif; red. M.Ələkbərli.- Bakı: Gənclik, 1977.- 303 s.

Dədə Süleyman dünyası: xatirələr /tərt. ed. və ixtisas red. Ş.Arif; red. Ə.Sadıqov.- Bakı: Mars Print, 2010.- 500 s.

Qınamayın məni: [roman] /Ş.Arif; red. Ə.Sadıqov.- Bakı: Mars-Print, 2010.- 583 s.

Böyük ürəkli - böyük Azərbaycanım! Ziyalı sözü /Ş.Arif //Azərbaycan.- 2011.- 24 iyun.- S.6.

Tarixi yaddaşımıza qayıdaq /Ş.Arif //İki sahil.- 2011.- 20 yanvar.- S. 13.

Əhmədov, T. Şamo Arif //Əhmədov T.Azərbaycan yazıçıları XX-XXI yüzillikdə .- Bakı, 2011.- S.892.

İ n t e r n e t d ə

www.anl.az

www. adam.az

www.az.wikipedikia.org

www.meneviservetimiz.az

Arif Süleyman oğlu Rəhimov (Şamo Arif) 1936-cı il iyul ayının 9-da Qubadlı rayonunda anadan olmuşdur. Böyük qardaşı Şamo gənc yaşında vəfat etmiş, bir müddət sonra ədib onun şərəfinə Şamo adını özünə təxəllüs götürmuşdür.

Bakıda 7 saylı orta məktəbi bitirdikdən sonra, Moskva Dövlət Universitetinə qəbul olunmuş, 1953-cü ildə təhsilini başa çatdırmışdır. 1954-1959-cu illərdə Azərbaycan Dövlət Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji kəşfiyyat fakültəsində təhsil almışdır. Azərbaycan Neft Sənayesi Elmi-Tədqiqat Layihə İnstitutunda çalışan alim 1959-2003-cü illərdə fəhlə, texnik, baş texnik, mühəndis, baş mühəndis, kiçik elmi işçi, baş elmi işçi, aparıcı elmi işçi, eyni zamanda "Azərekspertiza" Birliyinin direktoru vəzifəsində çalışmışdır. 1965-ci ildə "Kiçik Qafqazın şimal-şərq dağətəyinin geotektonik inkişafının riyazi üsulla öyrənilməsi və Mezozoy çöküntülərinin neft-qazlılıq perspektivliyi" mövzusunda namizədlik dissertasiyası müdafiə etmişdir. Səthi dalğaların ikinci və üçüncü qruplarını kəşf etmiş, Yerin laylı modeli şəraitində bu dalğalar qrupunun mövcudluğunu göstərmiş, zəlzələnin episentr azimutunun təyin olunması və Yer qabığında dərinlik qırılmalarının vəziyyətinin müəyyən edilməsi üçün yeni metod hazırlamışdır.

Ədəbi fəaliyyətə 1957-ci ildə "Azərbaycan qadını" jurnalında çap olunan "Qoşa çinar" hekayə-əfsanəsi ilə başlamış, dövri mətbuatda əsərləri vaxtaşırı dərc edilmişdir. 1964-cü ildə "Göz dağı" povesti və "Anamın yuxusuna girməsin" romanını çap etdirmişdir.

1964-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü seçilmişdir. Sonuncu romanı "Qınamayın məni" olmuşdur. Bundan başqa tez-tez publisistik və elmi məqalələr dərc etdirmiş, "Dədə Süleyman dünyası" adlı xatirələr toplusunu hazırlamışdır. Onun 1961-ci ildə R.Rəhimovla birgə çap etdirdiyi "Xəzər və neft" kitabı bu günə gədər öz aktuallığını saxlayır. Ədib 1965-ci ildə "Qızıl qələm" mükafatı laureatı olmuşdur.

Bakıda Qanlı yanvar günlərində "Azadlıq" radiosu ilə "İnsanlığa bəla gəlir", "Qorbaçova açıq məktub" ittiham bəyanatlarına və etiraz əlaməti olaraq Kommunist Partiyası sıralarını tərk etdiyinə görə təqib olunmuş, tutduğu vəzifələrdən kənar edilmişdir. Sonradan ona qarşı səhvən cinayət işi açılması rəsmən etiraf edilmiş və nəhayət, 1995-ci ildə doğma institutuna bərpa olunmuşdur. Geologiya-mineralogiya elmləri namizədi Arif Rəhimov Neft geologiyasına dair 50-dək elmi əsərin müəllifidir. Respublikamızın seysmik rayonlaşdırılması xəritəsinin müəlliflərindəndir. Mərkəzi "Bakı" seysmologiya stansiyasına onun adı verilmişdir.

Şamo Arif 2012-ci il iyun ayının 16-da vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

160 illiyi
Corc Bernard Şou
1856-1950
İrland yazıçısı



Ə d ə b i y y a t

Serenada /B.Şou //Ədəbi Nobel antologiyası / tərt. ed. və nəşrə hazırl. N.Əbdülrəhmanlı (tərc.); red. N.Qoşalı; layih. rəhb. Q.Paşayeva; Avrasiya Beynəlxalq Araşdırmalar İnstitutu İB.- Bakı, 2012.- S.125-132.
Sonetlərin Əsmər ledisi /B.Şou //İngilis ədəbiyyatı antologiyası: 2 cilddə / tərt. ed. Z.Ağayev; tərc. ed. Z.Ağayev, E.Şıxlı, V.Musayev [və b.].- Bakı, 2007.- C.2.- S.19-38.
Məmmədova, Ə. İngilis və Azərbaycan dramaturgiyasında sosial problemin qoyuluşu (Bernard Şou və Cəfər Cabbarlının əsərləri əsasında): filol. e. n. al. dər. a. üçün təq. ed. dis-nın avtoreferatı: 10.01.03.; 10.01.01 /Ə.Məmmədova.- Bakı, 2008.- 161 s.
Пьесы; Статьи о театре; Автобиографические заметки; Литературные портреты; Новеллы /Д.Б.Шоу; [пер. с англ. А.Кудрявцева].- М.: Пушк. б-ка, АСТ, 2004.- 1084 с.
www.adam.az
www.anl.az

Corc Bernard Şou 1856-cı il iyul ayının 26-da İrlandiyada Dublin şəhərində anadan olmuşdur. Mənşəcə irland olan Şou 1871-ci ildə kolleci bitirmiş, lakin maddi çətinlik üzündən universitetə daxil ola bilməmişdir. 1876-cı ildə Bernard Londona köçmüş, jurnalistlik fəaliyyəti ilə məşğul olmuşdur. "Ağılsız kəbin" (1880), "Artistin məhəbbəti" (1881), "Keşel Bayronun sənəti" (1882) və kəskin sosial mövzulu "Həvəskar sosialist" (1883) romanları ilə ədəbi ictimaiyyətin rəğbətini qazanmışdır. 1884-cü ildə ingilis sosialistlərinin "Fabian" cəmiyyətinə üzv olmuş, 27 il bu cəmiyyətin sıralarında çalışan məşhur dramaturq sosialist ideyalarını təbliğ etmişdir.

Bernard Şou 1885-1890-cı illərdə Londonun "Uorld", "Star" kimi populyar qəzetlərinin teatr və musiqi tənqidçisi olmuş, XX əsrin 90-cı illərindən isə dramaturq kimi tanınmışdır. Əsərləri - "Dul kişinin evləri" (1892), "Arvadbaz" (1893), "Xanım Uorrenin sənəti" (1894) pyesləri ailə-məişət məsələlərinə, "Silah və insan" (1894), "Kandida" (1894), "Taleyin sevimlisi" (1895), "Yaşayarıq, görərik" (1895) pyesləri isə aktual sosial-etik problemlərə həsr edilmişdir. Şounun bədii metodunun novator mahiyyəti "Şeytanın şagirdi" (1896-1897), "Sezar və Kleopatra" (1898), "Kapitan Brasbaundun müraciəti" (1899) pyeslərində bariz ifadəsini tapmışdır. "İnsan və fövqəlbəşər" (1901-1903), "Mayor Barbara" (1905), "Həkimin dilemması" (1906), "Piqmalion" (1913), "Ürək sındırılan evdə" (1913-1919), "Alma arabası" (1929), "Əngəl" (1933), "Milyoner arvadı" (1936), "Cenevrə" (1938) və s. pyeslərində kapitalist cəmiyyətinin antihumanist mahiyyəti, burjua demokratiyası ifşa olunmuşdur.

1923-cü ildə yeganə faciə əsərini-Fransa milli qəhrəmanı Janna Darka həsr olunmuş "Müqəddəs İoanna" dramını, ömrünün son illərində "Bayantın milyardları" (1948), "Uydurma təmsillər" (1950) pyeslərini yazmışdır.

1925-ci ildə Bernard Şou "İdealizm və humanizmlə səciyyələnən yaradıcılığına, əksər hallarda müstəsna poetik gözəlliklə müşayiət olunan sirayətedici satirasına görə" Nobel mükafatı laureatı olmuş, pul mükafatını isə İsveç ədəbiyyatını ingilis dilinə tərcümə etmək üçün fondun yaradılmasına ayırmışdır.

1938-ci ildə "Piqmalion" pyesinin motivləri əsasında çəkilən filmə görə Şou həm də Oskar mükafatı almışdır. O, Uilyam Şekspirdən sonra ingilis teatrının ən məşhur dramaturqu hesab edilir.

Böyük Oktyabr sosialist inqilabını alqışlamış, 1931-ci ildə SSRİ-də olmuşdur. 1931-ci ildə "Proletariat diktaturası" məqaləsində, "Acı da olsa, həqiqət" pyesində keçmiş Sovet ittifaqına rəğbətini ifadə etmişdir. Uzun və məhsuldar həyatı boyu 250 mindən çox məktub yazmışdır. İngilis dramaturqunun "Şeytanın şagirdi" pyesi Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur.

Corc Bernard Şou 1950-ci il noyabr ayının 2-də Eyot-Sent-Lorensdə vəfat etmişdir.

Dünya ədəbiyyatı

150 illiyi

Xalid Ziya Uşaqlıgil 1866-1945

Türk yazıçısı



Ə d ə b i y y a t

Aşk-ı memnu /H.Z. Uşaklıgil.-İstanbul:Özgür Yayınları, 2011.- 246 s.

Kırık hayatlar /H.Z. Uşaklıgil.- İstanbul:Özgür yayınları, 2012.- 254 s.

Saray ve ötesi /H.Z. Uşaklıgil.-İstanbul:Özgür yayınları, 2012.-154 s.

Deveci, M. Halit Ziya Uşaklıgilin öykülerinde yapı ve izlek /M.Deveci.- Elazığ: [yayl.y.], 2013.- 121 s.

Hacıyeva, M. Gizli eşqin aşkar görüntüləri: ["Aşkı-Memnu" əsəri haqqında] /M.Hacıyeva //Ədəbiyyat qəzeti.- 2010.- 9 iyul.- S.5.

Sevda, A. Halit Ziya Uşaklıgilin romanlarında kadın ve kadın eyitimi: Türk dili ve edebiyatı öğretmenliği programı. Yüksek lisans tezi.- İzmir, 2007.

Алькаева, Л.О. Творчество Халида Зиа /Л.О.Алькаева.- Москва, 1966.- 201 с.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedikia.org

Xalid Ziya Uşaqlıgil (Halid Ziya Uşaklıgil) 1866-cı il (bəzi mənbələrdə 1865) iyul ayının 31-də İstanbulda anadan olmuşdur. İlk təhsilini orta məktəbdə aldıqdan sonra Fatih Hərbi Rüştiyesinde oxumuşdur. Müharibənin başlanması ilə əlaqədar ailəsi ilə birgə İzmirə köçmüş, təhsilini İzmir Rüştiyəsində davam etdirmişdir. Fransız dilini təkmilləşdirmək üçün internat məktəbinə getmiş, fransız ədəbiyyatını yaxından öyrənmişdir. İlk yazılarını İstanbulda "Xəzine-i-Evrak" adlı jurnalda "Məhməd Xalid" adıyla dərc etdirmişdir. Sonuncu sinifdə oxuyarkən məktəbdən ayrılmış, atasının katibi olarak işə başlamışdır. Həmin ildə "Novruz" adlı jurnal dərc etdirmiş, burada tərcümə, şeir, hekayə, mənsur şeir və elmi yazılarını dərc etdirmişdir. Fransız ədəbiyyatı tarixi ilə bağlı "Qərbdən Şərqə Səyyale-i Ədəbiyyə: Fransa Ədəbiyyatının nümunə və tarixi" adlı kitabı 1885-ci ildə nəşr olunmuşdur. İzmir Rüştüyəsində fransız dili müəllimi kimi çalışmış, eyni zamanda Osmanlı bankında işləməyə başlamışdır. İzmir məktəbi açıldıqdan sonra müəllimliyə bu məktəbdə davam etmiş, fransız dili ilə yanaşı türk ədəbiyyatından da dərs demişdir.

1886-cı ildə dostu Tevfik Nevzat ilə birlikdə "Hizmet" (Xidmət) adlı bir qəzet nəşr etmişlər. Bu qəzet Vali Xəlil Rüfət Paşa və hüquq dairəsi rəisinin himayəsində yayımlanmış, şəhərin mədəniyyət həyatına yenilik gətirmiş, yazıçıya isə geniş yaradıcılıq imkanı açmışdır. İlk əsərləri - "Nemide" (1889), "Bir ölünün defteri" (1889), "Ferdi ve Şürekasi" (1894) "Xidmət" qəzetində dərc olunmuşdur. 1885-ci ildə ardıcıl olaraq dərc olunan "Sefile" adlı ilk romanı qadağan edilmişdir. Romanlarla yanaşı "Mezardan sesler" adlı mənsur şeirləri də oxucular tərəfindən maraqla qarşılanmışdır. Övladları üçün "Kırık oyuncaq", "Kırık hayatlar" və "Bir acı hikaye" kitablarını yazmışdır.

1893-cü ildə ədib İstanbula getmiş baş katiblik vəzifəsində 16 il işləmiş, vaxtının çoxunu mütaliəyə və yaradıcılığa ayırmışdır.

1897-ci ildə çap olunan "Mavi və siyah" adlı romanında kədərli eşq macərası mövzusunu geri plana almış, dövrün mətbuat dünyasını, "Edebiyyat-e Cedide" ədəbiyyat birliyinin bu dünyaya baxışını əks etdirmişdir. İlk böyük türk romanı sayılan "Puç olmuş həyatlar" ("Aşk-ı Memnu") romanını 1898-1900-cü illərdə yazmışdır. "Mavi və siyah" əsərinin qazandığı rəğbətdən sonra yazıları əsasən tirajı yüksək olan "İkdam" və "Sabah" qəzetlərində dərc olunmuşdur.

1930-cu ildən etibarən yaradıcılığında canlanma başlamış, "Cümhuriyet" və "Son Posta" qəzetlərində yazıları çap edilmişdir.

Xalid Ziya Uşaqlıgil 1945-ci il mart ayının 27-də vəfat etmiş, İstanbulda Bakırköy qəbiristanlığında dəfn olunmuşdur.

90 illiyi

Vidadi Nərimanbəyov
1926-2001

Rəssam

Vidadi Yaqub oğlu Nərimanbəyov 1926-cı il iyul ayının 13-də Fransanın Kann şəhərində anadan olmuşdur. Ailəsi ilə birlikdə Bakıya qayıtmış, 1943-1944-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində oxumuş, 1944-1950-ci illərdə Sovet Ordusu sıralarında xidmət etmişdir. 1950-1953-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Məktəbində təhsilini davam etdirmişdir. 1953-1956-cı illərdə V.Muxin adına Leninqrad Ali Rəssamlıq-Sənaye Məktəbində və 1957-1960-cı illərdə Tbilisi Rəssamlıq Akademiyasında təhsil almışdır.

Gənc rəssam tələbə ikən açıq səmanın, günəşin fonunda qara bulud layları təsvir edilmiş, öndə isə biri yağış, digəri quraqlıq arzulayan iki insan obrazı əks olunmuş "Düşmənin sevinci..." tablosu ilə şöhrət qazanmışdır.

İkinci Dünya müharibəsi rəssamın yaradıcılığına da təsir etmiş, əsərlərində müharibə və hərbi-vətənpərvərlik mövzusu əsas yer tutmuşdur. "Ağır illər" (1960), "Yolda" (1963), "Müharibə yolları" (1965), "Xatirələr" (1967), "And" (1969), "Bakılılar. Qırx birinci il" (1970), "Böyük Vətən müharibəsi" (1971), "Sovet İttifaqına xidmət edirəm!" (1973), "Bayraq" (1975), "Adsız təpədə" (1978), "İthaf" (1980), "Vidalaşma" (1981) və s. tematik tablolarında müharibənin fəlakətləri, sovet xalqının faşizmə qarşı qəhrəmanlıq mübarizəsi öz əksini tapmışdır.

1961-ci ildən SSRİ Rəssamlar İttifaqının üzvü olmuşdur. 1963-cü ildə "Yolda" monumental, irihəcmli tablosu ilə şöhrət qazanmışdır. Əsər R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyinin daimi eksponatıdır.

Rəssam portret və natürmort janrlarında da özünü sınamış, "Nəzifənin portreti" (1965), "Natürmort" (1969), "Oğlumun portreti" (1972), "Tələbə qız" (1977), "Tələbə Nigar" (1980) və s. rəsmlərini çəkmişdir. Yalnız keçmiş SSRİ məkanında deyil, Macarıstan, Çexiya, Bolqarıstan, Rumıniya, Almaniya, Əlcəzair, Finlandiya, İtaliya, Avstriya, Türkiyə, Hindistan, İraq və s. ölkələrdə fərdi sərgisi təşkil edilmişdir.

1972-1986-cı illərdə Azərbaycan SSR Rəssamlar İttifaqının İdarə Heyətinin sədr müavini vəzifəsində işləmişdir.

1992-2000-ci illərdə Fransanın Bordo, Po, Biarritz şəhərlərində "Buskayrol" ("Bouscayrol") Qalereyasında fərdi rəssamlıq sərgisi keçirilmişdir.

20 Yanvar faciəsinə həsr etdiyi "Qatillər" tablosu dünyanın bütün sərgi salonlarında nümayiş etdirilmişdir.

Görkəmli rəssamın yaradıcılığı, ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1977-ci ildə "Əməkdar rəssam", 1982-ci ildə "Xalq rəssamı" fəxri adlarına, ulu öndər Heydər Əliyevin 2001-ci il tarixli Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

Vidadi Nərimanbəyov 2001-ci il dekabr ayının 13-də vəfat etmiş, Bakı şəhərində dəfn olunmuşdur.

2006-cı ildə Vidadi Nərimanbəyovun xatirəsinə "Sənətə həsr olunmuş ömür" filmi lentə alınmışdır.

Ədəbiyyat

Nərimanbəyov Vidadi Yaqub oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1983.- C.7.- S.225.

Асадова, И. История гения, писавшего портреты на фоне рвущихся снарядов: Видади Нариманбеков был единственным азербайджанским художником, романтически воспевшим подвиг азербайджанского солдата в ВОВ /И.Асадова //Эхо.- 2015.- 9 мая. - С. 10.

Нигяр Нариманбекова: "Последнейего картиной была стая белых лебедей, улетающих в сияющую вечность..." //Эхо.-2014.- 28 июня.- С.10..

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.lit.az

410 illiyi Rembrandt van Reyn 1606-1669

Holland rəssamı

Rembrandt Harmens van Reyn 1606-cı il iyul ayının 15-də Hollandiyanın Leyden şəhərində anadan olmuşdur. 1613-cü ildə latın məktəbində təhsil almış, sonra rəssamlıq məktəbinə getmişdir. 1620-ci ildə istedadlı gənc 14 yaşında Leyden universitetinə daxil olmuşdur. 1624-cü ildə Amsterdama köçərək orada Piter Lastmandan, Yan və Yakob Peynas qardaşlarından rəssamlıq dərsi almışdır. Burada altı ay yaşamış, rəssam kimi formalaşaraq əsrinin ən uğurlu rəssamı kimi tanınmış, yenidən Leydenə qayıtmış, ata evində Yan Livenslə birlikdə emalatxana açmışdır.

1630-1640-cı illər Rembrandt yaradıcılığının uğurlu dövrü və şəxsi həyatının xoşbəxt çağları olmuşdur. Bu illərdə qrup portretlər ustası kimi şöhrət qazanan rəssam külli miqdarda sifariş almış, yanına çoxlu şagird gəlmişdir. Yaratdığı portretlərdə ("Doktor Tülpün anatomiya dərsi" (1632), Mauritshöys muzeyi, Haaqa; "Saskiyanın portreti" (1634), Kassel Şəkil Qalereyası və s.) obrazların səciyyəvi cizgilərini məharətlə verə bilmişdir. Rəssamın bu dövrdə çəkdiyi "Çarmıxdan endirilmə" (1634), "İbrahimin qurban verməsi" (1635), "Danaya" (1636) (Ermitaj - Sankt-Peterburq), "Samsonun gözlərinin çıxarılması" (1636, Ştedel Rəssamlıq İnstitutu - Frankfurt-Mayn) kimi süjetli kompozisiyalarda bir tərəfdən barokko incəsənətinə xas dekorativ əlamətlər, digər tərəfdən isə obrazların realist şərhi özünü büruzə vermişdir. 1639-cu ildə Breenştrass şəhərinə köçmüş, həyatının ən mürəkkəb dövrünü yaşamışdır. 1642-ci ildə "Gecə gözətçiləri" (Amsterdam Dövlət Muzeyi) əsərini başa çatdırmış, lakin tablo sifarişçilərin (atıcı rotanın zabitləri) etirazına səbəb olmuş, sifarışlərin arası tamamilə kəsilmiş, emalatxanasında şagirdlərin sayı azalmışdır.

Əsasən Bibliya süjetləri əsasında kompozisiyalar üzərində işləmişdir. 1657-1658-ci illərdə yaratdığı "Assur, Aman və Esfir" (1660, A.S.Puşkin adına Təsviri Sənət Muzeyi) və "Fərsiz oğulun qayıtması" (təqr. 1668-1669, Ermitaj) dini kompozisiyalarında emosional gərginlik, obrazların psixoloji dramatizmi güclüdür. Rembrandt həmçinin görkəmli rəsm və ofort ustası kimi də tanınmışdır.

Holland boyakarı və qrafiki təqribən 800 tablo, 300 ofort və 2000 rəsm əsəri çəkmişdir.

Dünya incəsənətinin ən görkəmli nümayəndələrindən biri olan Rembrandt van Reyn 1669-cu il oktyabr ayının 4-də Amsterdamda vəfat etmiş, yurdsuzlar qəbiristanlığında dəfn olunmuşdur.

1956-cı ildə rəssamın anadan olmasının 350 illiyi ümumdünya miqyasında, keçmiş SSRİ-də, o cümlədən Azərbaycanda da qeyd edilmişdir.

Ədəbiyyat

Vahid, T. Dəyirmançının dahi oğlu: Dünya rəssamları /T.Vahid //Mədəniyyət.- 2013.- 12 iyul.- S.12.

Геташвили, Н. Рембрандт: Галерея гениев /автор текста и сост. Н.Геташвили.- Москва: Олма Медиа Групп, 2010.- 298 с.- Сокровища живописи.

Геташвили, Н. Рубенс, Веласкес, Рембрандт: гении эпохи барокко: [альбом] /Н.Геташвили; вт. текста и сост. А.Королева, М.Торопыгина.- Москва: Олма Медиа Групп, 2013.- 298 с. 298 с.- Сокровища живописи.

Жабцев, В. Харменс ван Рейн Рембрандт: [Изоматериал]: [альбом] /В.Жабцев.- Минск: Харвест, 2007.- 127 с.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

100 illiyi

Maral Rəhmanzadə 1916-2008

Rəssam

Maral Yusif qızı Rəhmanzadə 1916-cı il iyul ayının 23-də Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. 1922-ci ildə Bakıdakı H.Cavid adına 8 saylı qız məktəbinə getmişdir. Hələ məktəbli ikən "Ana dili" kitabındakı xalq nağıllarına və "Aran köçü" hekayəsinə ilk şəkillərini çəkmişdir.

1930-1933-cü illərdə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, 1934-1940-cı illərdə Moskva Rəssamlıq İnstitutunda təhsil almışdır. Yaradıcılığının erkən dövründə çəkdiyi "Azərbaycan qadını keçmişdə və indi" (1940), "Qadınlar müharibə illərində" (1942) dəzgah rəsmləri silsilələrində Azərbaycan qadınlarının həyatı, məişəti, qəhrəmanlığı və s. öz əksini tapmışdır. Böyük Vətən müharibəsindən sonrakı illərdə, əsasən qrafika sahəsində (litoqrafiya, linoqravüra) fəaliyyət göstərmiş, "Bizim Xəzərdə" (1953-1960), "Sosialist şəhəri Bakı" (1959-1960), "Sumqayıt-Rustavi" (1962) və s. linoqravüra silsilələrini çəkmiş, yaradıcılığında əmək və məişət mövzuları xüsusi yer tutmuşdur.

1957-ci ildə Moskvada təşkil edilmiş şəxsi sərgisindən sonra "Sovetskiy xudojnik" nəşriyyatı tərəfindən rəssamın xüsusi albomu nəşr edilmişdir. 1965-1982-ci illərdə Azərbaycan kəndinin həyatı, doğma təbiət "Bizim qızlar", "Doğma vətənim", "Azərbaycan", "Mənim bacılarım" rəngli linoqravüra silsilələrində sənətkarlıqla əks olunmuşdur. 1964-cü ildə çəkdiyi "Xınalıq. Sıldırım qaya üzərində" rəngli linoqravüra R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyində saxlanılır.

"Dəniz nefti" mövzusu Maral Rəhmanzadə yaradıcılığında özünü işıqlı xətlə göstərmiş, "Neftin daşınması", "Neftçilər tankerdə", "Rezervuar parkı", "Yeddi gəmi adası", "Günəş şüaları", "Fırtınada" və "Ərzaq gətiriblər" kimi qrafik miniatürləri energetikası və romantikası ilə digər işlərindən çox fərqlənmiş və rəssama uğur gətirmişdir.

Təsviri sənətimizin zəngin ənənələrini davam etdirən rəssam kitab qrafikası sahəsində də geniş fəaliyyət göstərmiş, M.S.Ordubadinin "Qılınc və qələm" (1955); Füzulinin "Qəzəllər", Nizaminin "Leyli və Məcnun" (hər ikisi 1958) bədii əsərlərinə illüstrasiyalar çəkmişdir.

1964-cü ildə "Azərbaycan SSR Xalq rəssamı" fəxri adına layiq görülmüşdür. 1965-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri, həmçinin medallarla təltif edilmişdir. 1996-cı ildə ulu öndər Heydər Əliyevin imzaladığı Fərmana əsasən "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Görkəmli rəssam Maral Yusif qızı Rəhmanzadə 2008-ci il mart ayının 16-da Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Maral Rəhmanzadə. 1916-2008 [İzomaterial]: qrafika, rəngkarlıq /layih. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. X.Əsədova; foto. Ə.Ağasiyev; ing. dilində tərc.: İ.Peart, S.İbrahimova, Ə. Məlikova.-Bakı: Sərvət, [Şərq-Qərb], 2013.- 104 s.

Maral Rəhmanzadə: [rəngkarlıq və qrafika] /ideya Xalq Bank; layih. rəhb. R.Həşimov; tərt. E.Məmmədova; bədii tərt. və dizayn T.Qorçu mətnin müəl. Ş.Məlikova; tərc.: E.Eynullayev; red. S.Babullaoğlu.- Bakı: Xalq Bank, 2011.-238 s.

Abbaslı, T. Rəhmanzadə Maral xanım: Uzun ömür, uzunömürlü əsərlər müəllifi /T.Abbaslı //Mədəniyyət.- 2012.- 20 iyul.- S. 12.

Gözü ilə deyil, qəlbi ilə görən xanım: Maral Rəhmanzadənin rənglər dünyası haqqında düşüncələr... //Kaspi.-2013.- 1 mart.- S.9.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

75 illiyi

Flora Kərimova
1941

Müğənni

Flora Ələkbər qızı Kərimova 1941-ci il iyul ayının 23-də Bakıda anadan olmuşdur. 1964-cü ildə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunu bitirmiş, 1965-1971-ci illərdə Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki ATU), 1972-1977-ci illərdə Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) təhsil almışdır.

Səhnəyə ilk gəlişi 1956-1957-ci illərdə keçirilən Azərbaycan gənclərinin festivalında iştirakı ilə başlamışdır. Şmidt zavodunun bədii özfəaliyyət kollektivində, Azərbaycan Dövlət Tibb İnstitutunun "Çinar" ansamblında, 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasında çıxış etmişdir.

1983-cü ildən Azərbaycan Teleradio Verilişləri Şirkətinin solistidir. Repertuarında görkəmli Azərbaycan bəstəkarları T.Quliyev, R.Hacıyev, F.Əmirov, E.Sabitoğlu, F.Sücəddinovun bəstələdiyi mahnılar başlıca yer tutur. Bəstəkar Elza İbrahimova məxsusi olaraq F.Kərimovanın səsi üçün "Afət" operasını bəstələmişdir. 1966-cı ildə Azərbaycan Dövlət Opera və Balet Teatrında Leyli ("Leyli və Məcnun", Üzeyir Hacıbəyli) partiyasında 6 tamaşada çıxış etmiş, 1969-cu ildə "Qanun naminə" bədii filmində Züleyxa roluna çəkilmişdir. "Böyük Dayaq" (1962), "O qızı tapın" (1970), "Gün Keçdi" (1971), "Həyat bizi sınayır" (1972), "Qız, oğlan və şir" (1974), "Payız melodiyaları" (1974), "Şahzadə-qara qızıl" (1974), "Alma almaya bənzər" (1975), "Toplan və kölgəsi" (1977), "Sonrakı peşmançılıq" (1978), "Qayınana" (1978), "Yollar görüşəndə..." (1979), "Onun bəlalı sevgisi" (1980), "Ağ atlı oğlan" (1995) və s. adlı film və tamaşalarda səslənən mahnıların ifaçısı kimi çıxış etmişdir.

Füsunkar səsə malik Flora xanımın ifasında səslənən "Yoxluğunu bilə bilə", "Yalan imiş", "İlahi", "Ruhumuz qovuşacaq", "Qarabağ", "Əzizim", "Bakı sabahın xeyir", "Bir axşam taksidən...", "Bir daha", "Dünya köhnə dünyadır", "Əlvida", "Onun bəlalı sevgisi", "Unut sən məni", "Saçlarına gül düzüm", "Unutma", "Sən uzaq yaşıl ada" mahnıları bu gün də tamaşaçılar tərəfindən sevə-sevə dinlənilir.

Azərbaycan musiqi ifaçılığı sənətinin inkişafındakı xidmətlərinə görə Flora Ələkbər qızı Kərimova 1990-cı ildə "Əməkdar artist", 17 noyabr 1992-ci il tarixində "Xalq artisti" fəxri adına layiq görülmüşdür.

1994-ci ildə ABŞ-ın Sülh və Demokratiya İnstitutu tərəfindən İnsan hüquqları Müdafiəsi Departamentinin "Ən mübariz müğənni", "İnsan haqlarının müdafiəçisi" baş mükafatını almış, 2014-cü ildə "Borçalı" cəmiyyətinin "Şərəf medalı" ilə təltif edilmişdir.

Ədəbiyyat

Xəlilzadə, F. Bənövşə ətirli səs /F.Xəlilzadə; red. V.Quliyev.- Bakı: Azərbaycan, 1993.- 48 s.

Ol, Ə.Səsindən tanınan /Ə.Ol (Cəbiyev); red. Q.İsabəyli.- Bakı: Cikcik, 1993.-48 s.

Cəbrayıloğlu, E. Flora Kərimovanın özü və səsi /E.Cəbrayıloğlu //Ədalət.-2011.- 23 iyul.- S.11.

Cəlaloğlu, E. Gözəllik mücəssəməsi-Flora Kərimova /E.Cəlaloğlu //Türküstan.- 2015.- 7-13 iyun.- S.13.

Flora Kərimova //Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar /Rasional İnkişaf uğrunda Qadınlar Cəmiyyəti (RİQC); kitabın müəllifi. Mehriban Vəzir; layihənin müəllifi və rəhbəri. Ş.İsmayılova.-Bakı, 2008.- S.83-84.

İnternetdə

www.anl.az
www.az.wikipedia.org
www.kino-teatr.ru
www.kultaz.com

60 illiyi

Adilə Yusifova
1956

Bəstəkar

Ə d ə b i y y a t

Adilə Yusifovanın "Uşaqlara məhəbbətlə" uşaq xoru üçün əsərləri [Notlar]: "xor dirijorluğu" ixtisası üzrə təhsil alan tələbələr üçün dərs vəsaiti /A.Yusifova, G.İmanova; red. G.Abdullazadə; Azərb. Resp. Təhsil Nazirliyi, Ü. Hacıbəyov ad. Bakı Musiqi Akad.- Bakı: Adiloğlu, 2009.- 100 s.

Azərbaycan bəstəkarlarının işləmələri: ali musiqi məktəbləri üçün: dərs vəsaiti /A.Yusifova; elmi red. R.Zöhrabov.- Bakı: Adiloğlu, 2009.- 154 s.

Milli naxışlar [Notlar] : fortepiano üçün 10 konsert pyesi /A.Yusifova; red. L.Kazımova; rəssam Ə.Nərimanbəyova; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: Təhsil, 2012.- 64 s.

Paralellər [Notlar] : violino, violonçello, piano və balaban üçün /A.Yusifova.- Bakı, 2009.- 58 s.

İ n t e r n e t d ə

www.anl.az
www.az.wikipedia.org
www.kino-teatr.ru
www.kultaz.com

Adilə Niyazi qızı Yusifova 1956-cı il iyul ayının 30-da Bakı şəhərində anadan olmuşdur. 1975-1980-ci illərdə Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının bəstəkarlıq şöbəsində, professor C.Hacıyevin sinfində təhsil almış, təhsilini fərqlənmə diplomu ilə başa vurmuşdur. 1975-1999-cu illərdə Asəf Zeynallı adına Bakı Musiqi Texnikumunda konsertmeystr, nəzəriyyə fənnlərindən dərs demişdir. 1991-ci ildən Üzeyir Hacıbəyov adına Bakı Musiqi Akademiyasının Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi kafedrasında müəllim, 2006-cı ildən dosent, 2012-ci ildən professor vəzifəsində çalışır.

1992-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvüdür. 1997-ci ildə dissertasiya işini müdafiə edərək, sənətşünaslıq namizədi alimlik dərəcəsini almışdır.

Adilə Yusifova fortepiano ilə orkestr üçün konsert (1980), fleyta və fortepiano üçün üç miniatür (1981), qoboy və fortepiano üçün "Triptix" (1981), Azərbaycan xalq rəqs işləmələri (1981), kamera orkestri üçün beş konsert pyesi (1984), "Milli naxışlar" (1993), İ.Tapdıq və B.Vahabzadənin sözlərinə uşaq xoru, kvartet və fortepiano üçün "Bahar nağılı"-7 hissəli kantata (1993), fleyta və fortepiano üçün "Unudulmuş duyğu" pyesi (1994), simli kvartet, səs, klarnet və fortepiano üçün "Biz eyni səma altındayıq" (1997), tar və fortepiano üçün "Alov" fantaziyası (2003), R.Mirzəyevanın sözlərinə "Qadın obrazlarının siluetləri" süitası (2003), (2007), truba, violin və fortepiano üçün "Reqtaym ruhunda" (2007), soprano, tenor və fortepiano üçün "Nənə çin sandığında" süitası (2009), fortepiano üçün "İthaf" (Cövdət Hacıyevə həsr olunub (2012), R.Mirzəyevanın sözlərinə səs, simli kvartet, qoboy, balaban və fortepiano üçün "Xəyallarımdakı şəhər" fantaziyası (2014) və s. əsərlərini yazmışdır.

Bundan əlavə bəstəkar N.Kərimovla birlikdə rus dilində "Azərbaycanda professional təhsilin salnaməsi (1985-1995-ci illər)", musiqi təhsil ocaqlarının tələbələri üçün "Azərbaycan xalq melodiyalarının işləməsi və aranjimanı", "Azərbaycan bəstəkarlarının işləmələri" adlı kitablar, Azərbaycan və rus dillərində "Soltan Hacıbəyov. Azərbaycan xalq melodiyalarının işləməsi" adlı dərs vəsaitini və rus dilində "Cövdət Hacıyev. Həyat salnaməsi. Məqalələr. Mülahizələr" adlı kitabını yazmışdır.

Adilə Yusifova 2011-ci ildə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adına layiq görülmüşdür.

80 illiyi

Rasim İsmayılov 1936-2004

Kinooperator



Rasim Rza oğlu İsmayılov 1936-cı il iyul ayının 13-də Bakıda anadan olmuşdur. Kinoya olan sevgisi 1958-ci ildə onu Bakı kinostudiyasına gətirmiş, orada operator assistenti kimi işləməyə başlamışdır. 1958-1962-ci illərdə Moskvada Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun operatorluq fakültəsini, məşhur operator Boris Volçekin sinfini bitirmişdir. Rasim İsmayılovun Moskvada təhsil aldığı illərdə çəkdiyi kurs işləri artıq onun peşəkarlığından xəbər verirdi.

1962-ci ildən Azərbaycan Televiziyasında çalışmışdır. Burada gənc operatorun ssenariləri əsasında "Azərbaycan raport verir", "Daha iki nəfər" qısametrajlı bədii televiziya filmləri istehsal olunmuşdur. Rejissor kimi "Mavi ekranın yolları", "Şəhərin ritmləri" və başqa sənədli filmlər çəkmişdir.

Azərbaycan televiziyasında animasiya filmlərinin yaradıcılarından biri kimi də tanınmışdır. 1965-ci ildə "Danışan işıqlar", 1969-cu ildə "Qırmızılar, qaralar və başqaları" cizgi filmlərinə quruluş vemişdir. Onun ssenarisi əsasında çəkilən bu film-alleqoriya Kiyevdə "Prometey - 69" festivalında ən yaxşı rejissor işinə görə diploma layiq görülmüşdür. Bədii kinoda operator kimi debüt işi "Cazibə qüvvəsi" kinoalmanaxında "Dağ meşəsindən keçərkən" novellasıdır.

Sonralar böyük kinoya vəsiqə almış, görkəmli rejissor Hüseyn Seyidzadənin quruluş verdiyi tarixi-inqilabi janrda çəkilən "Yenilməz batalyon" (1965) filminin quruluşçu operatoru olmuşdur. Bu onun böyük kinoda ilk işi idi.

Azərbaycan kinosunun qızıl fonduna daxil olan bir çox filmlərə operator kimi quruluş vermişdir. "Sevil", "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Gün keçdi", "Nəsimi", "Dədə Qorqud", "Sevinc buxtası", "Babək" və başqa filmlərin uğurlu ekran həllini tapmasında onun xidmətləri əvəzsizdir.

Sənətkar 68 illik ömrünün 46 ilini milli kinomuzun inkişafına həsr etmiş, bu illər ərzində operator kimi 20 bədii, 10 sənədli film, rejissor və ssenari müəllifi kimi dörd "Mozalan", iki animasiya filmi çəkmişdir.

Quruluş verdiyi son ekran əsəri 1990-cı ildə lentə alınan "Tələ" filmidir.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoji fəaliyyət göstərmişdir. Görkəmli kinooperator, kinorejissor, ssenari müəllifi Rasim İsmayılov 1976-cı ildə Azərbaycan SSR-in "Əməkdar incəsənət xadimi" fəxri adına, 1978-ci ildə Dövlət mükafatına layiq görülmüşdür.

Rasim İsmayılov 2004-cü il mart ayının 3-də vəfat etmişdir.

"Uçan çinarlar" kitabı ölümündən sonra işıq üzü görmüşdür.

Ədəbiyyat

Bürcəliyeva, Ş. "Xoşbəxtəm ki, həyatım boyu sevdiyim işlə məşğul olmuşam" :[kinorejissor Rasim İsmayılov haqqında]/Ş.Bürcəliyeva //Mədəniyyət.- 2013.- 17 iyul.- S. 12.

Kazımzadə A. Filmləri ilə kino tarixində yaşayan sənətkar /A.Kazımzadə //Mədəniyyət.- 2011.- 30 sentyabr.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.librarything.com

90 illiyi

Sədayə Mustafayeva 1926-2004

Aktrisa

Sədayə İsmayıl qızı Mustafayeva 1926-cı il iyul ayının 15-də Nuxa (indiki Şəki) şəhərində anadan olmuşdur. Beş illik orta təhsilini bitirdikdən sonra Şəkidə fəaliyyət göstərən İpəkçilik kombinatında usta köməkçisi işləməyə başlamışdır. Sonra 12 yaşında səhnəyə qədəm qoymuş və ilk obrazı Süleyman Rüstəmin "Qaçaq Nəbi" tamaşasında Çimnaz rolu olmuşdur. Bir müddət Şəki Dövlət Dram Teatrında bir-birinin ardınca maraqlı obrazlar qalereyası yaradan Sədayə Mustafayeva daha sonra fəaliyyətini Ağdaş və Göyçay teatrlarında davam etdirmişdir. 1950-ci ilin mart ayında Gəncə Dövlət Dram Teatrının direktoru, respublikanın Xalq artisti, rejissor Məhəmməd Bürcəliyevin dəvəti ilə Sədayə xanım Gəncə Dövlət Dram Teatrına aktrisa kimi dəvət almışdır.

Teatrın səhnəsində Sədayə xanım 400-dən artıq maraqlı obrazlar qalereyası yaratmışdır. "Vaqif" (Xuraman, Gulnar); "Aydın" (Gültəkin); "Pəri Cadu" (Pəri); "Solğun çiçəklər" (Sara, Pəri, Gülnisə); "Otello" (Emilya); "III-Riçard" (Yelizaveta); "Sokratla söhbətlər" (Ksantipa); "İtkin gəlin" (Səbihə); "Yad qızı" (Həcər xanım); "Dairəni genişləndirin" (Aliyə); "Dəli Kür" (Şahnigar); "Atayevlər ailəsi" (Dilşad xanım); "Xurşudbanu Natəvan" (Natəvan); "Mahnı dağlarda qaldı" (Rəxşəndə xanım) və s. pyeslərdə oynadığı obrazlar aktrisanın yaradıcılığının ən gözəl nümunələrindəndir. Bu gün Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərən əksər aktyor və aktrisa truppası məhz Sədayə Mustafayeva məktəbinin yetirməsidir.

Həmçinin "Azərbaycanfilm"in istehsalı olan 20-dən artıq bədii filmə çəkilmişdir. "Biri vardı, biri yoxdu..."da Qadın, "Qanun naminə"də Xatun, "Mən ki, gözəl deyildim"də Gözəl, "Şərikli çörək"də Şamama, "Gün keçdi"də Əsmərin anası, "Qızıl qaz"da Şəfiqənin anası, "Var olun, qızlar..."da Rüstəmin anası, "Firəngiz"də Məsmə, "Ad günü"ndə Əlinin anası, "Qaynana"da Mülayim, "Gümüşü furqon"da Mədinənin anası, "Cin mikrorayonda"da Ana, "Ölsəm bağışla"da Yusifin anası, "Ağ atlı oğlan"da Mirvari nənə, "Dağıdılmış körpülər"də Əsmər, "Acılar bitməz"də Orxanın nənəsi, amerika kinematoqrafçılarının istehsal etdiyi "İlk körpü" filmində Əsmər və s. rollarını nümunə göstərmək olar.

O, 1958-ci ildə Əməkdar artist, 1981-ci ildə isə Xalq artisti fəxri adlarına, həmçinin 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərdi təqaüdünə layiq görülmüşdür.

Görkəmli aktrisa Sədayə Mustafayeva 2004-cü il avqust ayının 13-də Gəncə şəhərində vəfat etmişdir.

2000-ci ildə "Əsgəroğlu" nəşriyyatı tərəfindən Azərbaycanın xalq artisti Sədayə Mustafayeva haqqında teatrşünas-tənqidci Anar Bürcəliyevin "Səhnə həyat nurumdur" adlı monoqrafiyası çap edilmişdir.

Ədəbiyyat

Bürcəliyev, A.Səhnə həyat nurumdur!: Azərbaycan Respublikasının Xalq artisti Sədayə Mustafayeva-75; Azərbaycan Teatrı-125; Gəncə Dövlət Dram Teatrı 80 /A.Bürcəliyev; red. Ş.Əmirli.- Gəncə: Əsgəroğlu, 2000.- 116 s.

Sədayə Mustafayeva /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: İşıq, 1982.-[6] s.

Ana obrazlarının mahir ifaçısı: Unudulmaz aktrisa //Azadlıq.-2012.- 3 avqust.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.librarything.com

45 illiyi Kərim Kərimov 1971-1992 Milli Qəhrəman

Kərim Məhəmməd oğlu Kərimov 1971-ci il iyul ayının 2-də Şərur rayonunun Qarahəsənli kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra Tümendə Ali Hərbi Mühəndis Komandirləri Məktəbinə qəbul olunmuşdur. Qarabağ hadisələri başlayanda K.Kərimov azərbaycanlı tələbələrlə birlikdə vətənin müdafiəsi üçün Azərbaycana gəlmişdir. Təhsilini Bakı Ali Birləşmiş Komandirlər Məktəbində davam etdirmiş, 1992-ci ildə Biləcəridə təlim keçdikdən sonra aprel ayının 15-də Goranboy rayonuna yollanmışdır. 21 yaşlı K.Kərimov istehkamçılar bölməsinə komandir təyin olunmuşdur.

1992-ci il may ayının 1-də Tap-Qaraqoyunlu kəndi ətrafında minalanmış sahələrin zərərsizləşdirilməsi əməliyyatında Kərim də iştirak etmişdir. Mayın 5-də Goranboy döyüşlərində qəhrəmancasına həlak olmuşdur. Doğma kəndi Qarahəsənlidə dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 sentyabr 1992-ci il tarixli 193 saylı Fərmanı ilə Kərimov Kərim Məhəmməd oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Qarahəsənli kəndində büstü qoyulmuşdur. Goranboy və Şərur rayonunda adına məktəb və küçə var.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Kərim Məhəmməd oğlu - istehkamçılar bölməsinin komandiri - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, Vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Kərim Məhəmməd oğlu /Əsgərov V. //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.152-153.

Kərimov Kərim Məhəmməd oğlu (1971-1992) //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.113-114.

Seyidzadə M. Kərimov Kərim Məhəmməd oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.116.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az

40 illiyi

Samir Zülfüqarov 1976-1995

Milli Qəhrəman

Samir Xəlil oğlu Zülfüqarov 1976-cı il iyul aynın 3-də Dəvəçi rayonunun Ağbaş kəndində anadan olmuşdur. Səkkizinci sinfə kimi burada təhsil almış, lakin ailə vəziyyəti ilə əlaqədar məktəbi yarımçıq qoymuşdur. 1994-cü ilin avqustunda Dəvəçi rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına həqiqi hərbi xidmətə göndərilmişdir.

Samir Zülfüqarov Yaşma qəsəbəsində yerləşən hərbi hissələrin birində xidmət etmişdir. Komandirləri nizam-intizamlı, nümunəvi əsgər olduğunu nəzərə alaraq ona qısamüddətli məzuniyyət vermişdilər. Həmin vaxt respublikada vəziyyət yenidən gərginləşmişdi. Bir qrup cinayətkar ünsürlərdən ibarət silahlı dəstə hakimiyyəti ələ keçirmək üçün dövlət çevrilişi etmək istəyirdi. Baş verən hadisələrə biganə qala bilməyən Samir, məzuniyyətini yarımçıq qoyub döyüş yoldaşlarının yanına qayıtmış, Milli Ordunun əsgərləri dövlət çevrilişinə cəhd edən qüvvələrlə mübarizə aparmış və 1995-ci il 17 mart tarixində Samir dövlətçiliyimiz uğrunda şəhid olmuşdur. Dəvəçi rayonunun Ağbaş kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Zülfüqarov Samir Xəlil oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Dəvəçi rayon 3 saylı orta məktəb Milli Qəhrəmanın adını daşıyır. Məktəbdə büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Zülfüqarov Samir Xəlil oğlu-Müdafiə Nazirliyi, sıravi -Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Zülfüqarov Samir Xəlil oğlu /Əsgərov V. //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.281.

Seyidzadə M. Zülfüqarov Samir Xəlil oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.223.

Zülfüqarov Samir Xəlil oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.203.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az

55 illiyi

Sadıq Hüseynov 1961-1992

Milli Qəhrəman

Sadıq Dayandur oğlu Hüseynov 1961-ci il iyul ayının 29-da Ağcabədi rayonunun Xocavənd kəndində anadan olmuşdur. 1968-1978-ci illərdə həmin kənddə orta məktəbdə təhsil almışdır. 1980-ci ildə Xankəndi Pedaqoji İnstitutunun İbtidai metodika fakültəsinin qiyabi şöbəsinə daxil olmuş, elə həmin il ordu sıralarına çağırılmışdır.

Sadıq Hüseynov hərbi xidmətini başa vurduqdan sonra yarımçıq qalmış təhsilini davam etdirmiş, 1987-ci ildə institutu bitirərək doğma kəndlərinə qayıtmışdır. Vaxtilə təhsil aldığı məktəbdə əvvəl pioner baş dəstə rəhbəri, sonra isə müəllim işləmişdir. 1989-cu ildə DİN-in sərəncamı ilə Şuşa rayon Daxili İşlər Şöbəsində sahə müvəkkili vəzifəsinə təyin edilmişdir. Erməni quldurları Şuşaya hücum edəndə Sadıq da digər polis əməkdaşları kimi şəhərin müdafiəsində yaxından iştirak etmiş, düşmənə ağır zərbələr endirmişdir. 29 mart 1992-ci ildə ağır yaralansa da, yenə də döyüşə davam etmişdir.

13 aprel 1992-ci ildə erməni silahlı birləşmələri Şuşanı ağır raket atəşinə tutmuş, Sadıq Hüseynov yaralı yoldaşlarını xilas edərək qəhrəmancasına həlak olmuşdur. Ağcabədi rayonunun Xocavənd kəndində dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli Fərmanı ilə Hüseynov Sadıq Dayandur oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir.

Xocavənd kənd orta məktəbi onun adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Hüseynov Sadıq Dayandur oğlu- Şuşa polis şöbəsinin sahə inspektoru - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Hüseynov Sadıq Dayandur oğlu /Əsgərov V. //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.126.

Hüseynov Sadıq Dayandur oğlu //Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası; tərt. H.Həmidova.- Bakı, 2008.- S.91.

Seyidzadə, M. Hüseynov Sadıq Dayandar oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.97.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

www.muallim.edu.az

90 illiyi

Şövkət Tağıyeva 1926-2015

Tarixçi

Şövkət Əzizağa qızı Tağıyeva 1926-cı il iyul ayının 11-də Bakı şəhərində anadan olmuşdur.

1948-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi, baş elmi işçi, 1958-1976-cı illərdə Şərqşünaslıq İnstitutunda baş elmi işçi, 1976-cı ildən akademiyanın Yaxın və Orta Şərq Xalqları İnstitutunda Azərbaycanın Şərq ölkələri ilə tarixi əlaqələri şöbəsinin, 1981-1992-ci illərdə Cənubi Azərbaycan şöbəsinin müdiri olmuşdur. İranın, o cümlədən Cənubi Azərbaycanın yeni və ən yeni tarixi, milli azadlıq hərəkatı, aqrar münasibətlər və s. məsələlərin tədqiqatçılarındandır.

Elmi fəaliyyətə İranda, o cümlədən, Cənubi Azərbaycanda milli azadlıq hərəkatları tarixi üzrə tədqiqatlarla başlamışdır. "1920-ci il Təbriz üsyanı" (1990) monoqrafiyasında Cəlil Məmmədquluzadənın Təbrizə gəlişinə xüsusi yer vermişdir. Müəlliflərindən biri olduğu "Cənubi Azərbaycan tarixinin oçerki (1828-1917)" kitabında Cənubi Azərbcandakı ədəbi-mədəni inkişafa C.Məmmədquluzadənin və "Molla Nəsrəddin" jurnalının təsiri, satirasının ictimai fikrə nüfuzu məsələləri öz əksini tapmışdır.

2 monoqrafiyası və 50-dən çox məqaləsi respublikada dərc olunmuşdur. 16 məqaləsi keçmiş Sovetlər Birliyi, Polşa, Türkiyə, Kanada və İranda çap edilmişdir. Ölkəmizdə baş verən hadisələrlə bağlı respublikada və xaricdə elmi konfrans və seminarlarda məruzə və çıxışlar etmişdir.

Elmi fəaliyyətində aparıcı istiqamətlərdən biri İranda aqrar münasibətlər barəsində idi. Bu sahədə axtarışlarını 1967-ci ildə Bakıda müdafiə etdiyi "XIX əsrin sonu və XX əsrin əvvəllərində İranda aqrar münasibətlər" adlı doktorluq dissertasiyasında cəmləmişdir. Elmi yığıncaqlarda Cənubi Azərbaycanla bağlı fəaliyyəti aparıcı yer tutmuşdur. Respublikada və ondan kənarda Güney azərbaycanşünaslıq elmi məktəbinin yaradıcısı kimi tanınır.

1976-1991-ci illərdə Azərbaycan EA-nın Şərqşünaslıq İnstitutunda fəaliyyət göstərmiş, Cənubi Azərbaycan tarixi şöbəsinin yaradıcısı və rəhbəri olmuş, bu sahədə elmlər namizədləri yetişdirmişdir.

2000-ci ildə yetirmələrindən elmlər namizədləri Ə.Bije və S.Bayramzadə ilə birlikdə "Güney Azərbaycan" ensiklopedik, elmi sorğu kitabını çap etdirmişdir.

"Güney Azərbaycan tarixi"nin 3 cildini hazırlamış, XIX-XX yüzilliklər tarixinə aid araşdırmalarının elmi nəticələrini ali və orta məktəblər üçün hazırlanmış "Azərbaycan tarixi" dərsliklərinin Cənubi Azərbaycana aid fəsillərində əks etdirmişdir.

Görkəmli tarixçi alim Şövkət Əzizağa qızı Tağıyeva 2015-ci il iyun ayının 11-də vəfat etmişdir.

Ədəbiyyat

1920-ci il Təbriz üsyanı /Ş.Tağıyeva; red. R.Seyidov; AzSSR EA, Şərqşünaslıq İnstitutu.-Bakı: Elm, 1990.- 147 s.

XIX əsrin sonu və XX əsrin əvvəllərində İran kəndlilərinin vəziyyəti /Ş.Tağıyeva; red. Z.Abdullayev; AzSSR EA, Yaxın və Orta Şərq Xalqları İn-tu.- Bakı: Elm, 1969.- 197 s.

Bütöv Azərbaycançılıq ideyası: Bu ideya həm Güney, həm də Quzey Azərbaycanda düşüncələrə hakim idi /Ş.Tağıyeva //Xalq cəbhəsi.- 2013.- 25 dekabr.- S.14.

Bütöv Azərbaycançılıq ideyası: 1941-46-cı illər milli-azadlıq hərəkatının güneyli-quzeyli bütöv xalqımız üçün əhəmiyyəti /Ş.Tağıyeva //Xalq cəbhəsi.- 2013.- 26 dekabr.- S.14.

Rəhimli, Ə. Elmə, vətənə həsr edilmiş ömür: Şövkət Tağıyeva-85 /Ə.Rəhimli //Türküstan.-2011.-10-16 aprel.- S. 13.

Демократические республики Юго-Восточного Кавказа (Азадистан и Гилянская Советская Республика) /Ш. Тагиева; научный ред. Э. Исмайлов.-Баку: Кавказ, 2005.- 240 с.

80 illiyi

Vəli Əliyev
1936

Tarixçi-arxeoloq

Vəli Hüseyn oğlu Əliyev 1936-cı il iyul ayının 20-də Şəki şəhərində anadan olmuşdur. Əslən naxçıvanlı olan ailə bir müddət Zəngəzur mahalının Şıxlar kəndində yaşamış, sonra Şəki şəhərinə köçmüşdür.

1959-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsini bitirmişdir.

"Azərbaycanın tunc dövrü boyalı qablar mədəniyyəti" namizədlik, 1984-cü ildə "Azərbaycanda orta tunc dövrü" doktorluq dissertasiyasını müdafiə etmişdir. 1998-ci ildən professordur.

1990-1997-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunda elmi və baş elmi işçi, Tunc və ilk dəmir dövrü şöbəsinin müdiri olmuşdur. 1997-ci ildən ADPU-nun Ümumi tarix kafedrasının müdiridir.

Cənubi Qafqazda və Ön Asiyada yayılmış Kür-Araz erkən tunc dövrü mədəniyyətinin Azərbaycanda eneolit mədəniyyəti əsasında yaranmasını və Azərbaycanda e.ə. II minillikdə erkən şəhərlərin yaranmasını müəyyən etmiş, orta tunc dövrü boyalı qablar mədəniyyətinə, son tunc və ilk dəmir dövrü mədəniyyətinə, qədim tayfa ittifaqlarının təşəkkülünə və s. problemlərə dair tədqiqatlar aparmış, Naxçıvan Muxtar Respublikasının maddi mədəniyyət abidələrinin əsas tədqiqatçısı və Naxçıvan arxeoloji ekspedisiyasının rəhbəri olmuş, Naxçıvan şəhərinin 4000 ilə yaxın tarixə malik olduğunu sübuta yetirmişdir. Gəmiqaya petroqliflərini kəşf etmiş, Azərbaycanın e.ə. V-I minilliklərdə qədim əhalisinin türk mənşəli olduğunu sübuta yetirmişdir. Bu sahədə 40 ilə yaxın elmi iş aparan alim Naxçıvan Muxtar Respublikası ərazisində 500-dən çox tarixi abidə aşkara çıxarmışdır.

Vəli Əliyev 6 monoqrafiyanın, 200-ə qədər elmi məqalənin müəllifidir. Əsərləri bir sıra ölkələrdə - Rusiya, Ukrayna, Gürcüstan, Özbəkistan, Pakistan və s. dərc olunmuşdur. Beynəlxalq və regional elmi konfrans və seminarlarda məruzələr etmişdir. Tarixçi-arxeoloq Azərbaycanşünaslar Birliyinin, Pakistan və Mərkəzi Asiya Elmi Assosiasiyasının üzvü, Azərbaycan Beynəlxalq Diaspora mərkəzinin elmi rəhbəri, "Miras" mədəni irsin öyrənilməsinə kömək ictimai birliyinin üzvüdür.

2003-cü ildə AMEA-nın müxbir üzvü seçilmişdir.

Ə d ə b i y y a t

Ağsunun tarixi səhifələri /V.Əliyev, F.Xəlilov; elmi red. F.Osmanov.- Bakı: Adiloğlu, 2001.- 94 s.

Gəmiqaya abidələri /V.Əliyev; red. M.Əsədova; rəssam N.Zavoraçayev.- Bakı: Azərnəşr, 1993.- 80 s.

Qarabağ: qədim dövr /V.Əliyev.- Bakı: Çaşıoğlu, 2010.- 204 s.

Naxçıvan /V.Əliyev; red. İ.Babayev.-Bakı: XXI - Yeni Nəşrlər Evi, 2002.- 320 s.

Naxçıvanın qədim qala şəhərləri /V.Əliyev, R.Bağırov; elmi red. İ.Babayev.- Bakı: Elm, 2012.- 191 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

60 illiyi

Əliqismət Lalayev 1956

Ə d ə b i y y a t

Azərbaycan-Orta Asiya teatr əlaqələri: [monoqrafiya] /Ə.Lalayev; elmi red. İ.Kərimov; red. V.Qafarlı; [ön söz müəl. İ.Rəhimli].-Bakı: [Nağıl Evi], 2009.- 195 s.

Milli dəyərləri ucaldan insan /Ə.Lalayev //Baku Post.-2013.- 12 dekabr.- S.10.

Sadıq, Q. Əliqismət Lalayev - həyat rejissoru /tərt ed. Q.Sadıq; red. S.Sədaqətoğlu.- Bakı: Qanun, 2010.- 247 s.

Asimqızı, A. "Yaxşıların yaxşısı" Əliqismət Lalayev seçildi /A.Asimqızı //Üç nöqtə.- 2012.- 9 may.- S.13.

Pənahqızı, T. Ümidlə, inamla zirvəyə doğru!: Əliqismət Lalayevin ömür-gün yoluna yazılan arzular /T.Pənahqızı //Kaspi.- 2015.- 2 iyul.- S.9.

İ n t e r n e t d ə

www.anl.az

https://az.wikipedia.org/wiki/Əliqismət_Lalayev

www.proline-az.com/?id=93162

Əliqismət Hümmət oğlu Lalayev 1956-cı il iyul ayının 5-də Salyan rayonunda anadan olmuşdur. Azərbaycan Dövlət Teatr İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) rejissorluq fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir.

C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Dram Teatrında səkkiz il quruluşçu rejissor kimi çalışmışdır. Dahi Hüseyn Cavidin həyat və yaradıcılığından bəhs edən "Mənim tanrım gözəllikdir, sevgidir" tamaşasında baş rolun ifaçısı olmuşdur. Naxçıvan teatrında H.Cavidin "Ana", "Uçurum", A.Dudarevin "Astana", A.Ostrovskinin "Günahsız müqəssirlər", R.İbrahimbəyovun "Ultimatum", H.Orucovun "Məni qınamayın", L.Rəşidzadənin "Toya bir gün, bir günorta qalmış" dramlarının, S.Rəhman və E.Sabitoğlunun "Hicran" musiqili komediyasının quruluşçu rejissoru olmuşdur.

1988-ci ildə Salyana qayıdan Ə.Lalayev bir müddət yerli "Qələbə" qəzetində məsul katib işləmiş, sonra rayon mədəniyyət şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1993-cü ildə Bakıya köçmüş, burada M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının direktor müavini olmuşdur. Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin İncəsənət Baş İdarəsinin rəisi kimi çalışmışdır. Nazirliyin strukturundakı dəyişiklikdən sonra Mədəniyyət və Turizm Nazirliyinin İncəsənət şöbəsinin müdiri olmuşdur. Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayevin 2008-ci il 6 may tarixli Əmri ilə Ş.Qurbanov adına Dövlət Musiqili Komediya Teatrının direktoru vəzifəsinə təyin edilmişdir.

Onun rəhbərlik etdiyi kollektiv Rusiyanın tanınmış kollektivləri - Novosibirsk və Yekaterinburq Musiqili Komediya Teatrları ilə sıx əməkdaşlıq etməyə başlamış, həmin kollektivlərin aparıcı sənətkarları Bakıya dəvət edilmişdir. Azərbaycan teatrları arasında ilk dəfə məhz Musiqili Komediya Teatrı beynəlxalq qurumda təmsil olunmaq fürsəti qazanmış, 2008-ci ildə Musiqili Teatrların Beynəlxalq Assosiasiyasına üzv qəbul edilmişdir.

Bu gün teatrın tamaşalarına dünyanın 20-dən çox xarici ölkəsində, o cümlədən, ABŞ-da, Türkiyədə, İranda, Rusiyada maraqla tamaşa edirlər. Teatrda Ə.Nesinin "Öldür məni, əzizim" əsəri əsasında O.Qurbanovla S.Fərəcovun yazdıqları "Şəhərdə manyak var", M.Məmmədovun "Matəm marşı, yaxud gözünüz aydın" tamaşası uğurla oynanılmışdır. Ə.Lalayevin rəhbərliyi dövründə ilk dəfə olaraq Avropanın klassik operettası - S.Prokofyevin "Petya və canavar" adlı simfonik əsəri azərbaycanca səslənmiş, "Biri vardı, bir yox" adı altında tamaşaya hazırlanmışdır. T.Ağayevanın "Bankir adaxlı", M.F.Axundzadənin "Kimyagər", Ü.Hacıbəylinin "O olmasın, bu olsun", "Ər və arvad" əsərləri tamaşaya qoyulmuşdur.

Əliqismət Lalayev 1986-cı ildə Naxçıvan MR-nın "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülmüşdür.

Azərbaycan Jurnalistlər Birliyinin, Azərbaycan Teatr Xadimləri İttifaqının üzvü, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin dosentidir.

Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin Mədəniyyət və İncəsənət Departamentinin direktorudur.

165 illiyi

Rüşdiyyə Təbrizi 1851-1944

Maarifçi

Həsən Mehdi oğlu Rüşdiyyə (Rüşdiyyə Təbrizi, Hacı Mirzə Həsən Mehdi oğlu) 1851-ci il iyul ayının 5-də Təbrizdə anadan olmuşdur. İlk təhsilini ərəb və fars dillərini mükəmməl bilən, dövrünün görkəmli ziyalılarından olan maarifpərvər atası Molla Mehdidən almışdır. Mütərəqqi təlim-tərbiyə üsullarını öyrənib, İranda yaymaq məqsədi ilə XIX əsrin 80-ci illərində Qafqaza gəlmiş, 1883-cü ildə İrəvanda azərbaycanlılar üçün yeni üsullu məktəb açmışdır.

1887-ci ildə İrana qayıdan Rüşdiyyənin 1888-ci ildə Təbrizdə "Dəbistani-Rüşdiyyə", "Mədrəseyi-Rüşdiyyə" (sonralar "Rüşdiyyəyi-Müzəffəriyyə" adlandırılmışdır) və 1897-ci ildə Tehranda açdığı yeni üsullu məktəbləri mürtəce ruhanilər və mövhumatçılar dəfələrlə bağlamış və qarət etmişlər. Buna baxmayaraq, Rüşdiyyə məktəbləri İranda yeni tədris üsulunun yayılmasında mühüm rol oynamışdır. Bu məktəblərin tədris planına Azərbaycan, fars, fransız dilləri, sərf-nəhv, ədəbiyyat, riyaziyyat, fizika və s. fənlər daxil idi. Tədris Azərbaycan dilində aparılırdı. Dövrün ziyalı şəxsləri, o cümlədən Məhəmmədəli Tərbiyət, Əhməd Müdərris, Hüseyn Kamal Təbibzadə və başqaları bu məktəbin müəllimləri olmuşlar.

Rüşdiyyənin Uşinski təliminə uyğun qabaqcıl təlim üsulu İranda geniş yayılmışdır. Onun 1902-1903-cü illərdə Tehranda nəşr etdirdiyi "Məktəb" və "Tehran" qəzetlərində metodiki məqalələri ilə yanaşı, mütləqiyyət üsul-idarəsini ifşa edən yazıları da dərc edilmişdir.

1894-cü ildə M.Rüşdiyyə özünün ilk "Vətən dili" adlı əsərini yazmış, "Rüşdiyyəyi-Müzəffəriyyə"də tədris olunan ana dili dərsləri məhz bu kitab üzrə aparılmışdır. Sadə və aydın dildə yazılan bu dərslik onu qavramaqda məktəblilər üçün heç bir çətinlik yaratmır və sövti (səs) üsulu ilə ərəb əlifbasının öyrənilməsini xeyli asanlaşdırırdı. Bu kitab Cənubi Azərbaycanda sövti üsulu ilə yazılmış ilk əlifba dərsliyi idi.

Mürtəce mütləqiyyət rejiminə qarşı çıxdığı üçün həbs edilərək Xorasan əyalətinə sürgün edilən Rüşdiyyə 1905-1911-ci illərdə İran inqilabı dövründə Tehrana qayıtmış, ictimai-pedaqoji fəaliyyətini davam etdirmişdir. Türk (Azərbaycan) və fars dillərində də bir çox əsərləri - "Bədayətüt-təlim", "Kifayətüt-təlim", "Nehayətüt-təlim", "Təkmelətüs-sərf", "Ana dili", "Əlifbayi-Rüşdiyyə", "Üsuli-əqaid və ya ittihadi-bəşər" İranda oxunur və bir çox məktəblərdə dərs vəsaiti kimi istifadə olunurdu.

Rüşdiyyənin ən böyük xidmətlərindən biri də qadın azadlığı və qadın təhsili uğrunda mübarizə aparıb qızlar məktəbi açması, korlar üçün yeni oxumaq üsulu ixtira edib, onlar üçün də məktəb təsis etməsi olmuşdur.

Cənubi Azərbaycan maarifpərvəri, pedaqoq, publisist Həsən Mehdi oğlu Rüşdiyyə 1944-cü il dekabr ayının10-da vəfat etmişdir.

Ədəbiyyat

Məmmədli, P. Həsən Rüşdiyyə //Məmmədli P. Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər: [portret oçerklər].- Bakı, 2015.- Hissə 1.- S.26-32.

Rüşdiyyə Təbrizi, Hacı Mirzə Həsən Mehdi oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1984.- C.8- S.238.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

165 illiyi

İsasultan Şahtaxtinski 1851-1894

İctimai xadim

İsasultan Nəcəfqulu oğlu Şahtaxtinski 1851-ci il iyul ayının 5-də İrəvanda anadan olmuşdur. 1865-1867-ci illərdə Tiflisdə D.Kipianinin pansionunda təhsil almışdır. 1871-ci ildə Tiflisdə realni gimnaziyanı bitirmiş, rus, fars, ingilis, fransız və alman dillərini öyrənmişdir.

Şaxtaxtinski 1872-1875-ci illərdə Peterburq Əkinçilik İnstitutunda təhsil almış, Parisdə və Londonda siyasi iqtisadi, Sürixdə isə təbiətşünaslığa dair mühazirələri dinləmişdir.

1875-ci ildə "Təbiətdə və cəmiyyətin iqtisadiyyatında meşənin əhəmiyyəti" mövzusunda dissertasiya müdafiə etmiş, kənd təsərrüfatı elmləri namizədi diplomu ilə Tiflisə qayıtmışdır. Həmin vaxtdan Tiflisdə jurnalistlik fəaliyyətinə başlamış, "Tiflisskiy vestnik" qəzeti redaksiyasında siyasi məsələlər şöbəsinin müdiri olmuş, "Kavkazskiy almanax"ı (1877) nəşr etdirmişdir. İki nömrəsi çıxmış almanaxda müxtəlif təqvimlər, bayramlar, Qafqazın coğrafiyası, inzibati bölgüsü, astronomiya, metrologiya, habelə dövlət idarələri, maarif xadimləri haqqında məlumat verilmişdir. Şaxtaxtinskinin almanaxda dərc olunmuş irihəcimli "Şərqin böhranı" məqaləsində Şərqın ictimai-siyasi və iqtisadi həyatına, xüsusilə Türkiyənin beynəlxalq münasibətlərinə dair maraqlı mülahizələri irəli sürülmüşdür.

İsasultan Şaxtaxtinski 1878-ci ildən ömrünün sonunadək Qars şəhərində inzibati işdə çalışmış, xüsusi tapşırıqlar üzrə məmur, hərbi qubernator dəftərxanasında müdir işləmiş, 1883-cü ildən çıxan "Qars" həftəlik rus qəzetinin əsas əməkdaşlarından olmuşdur.

Zəmanəsinin yüksək mədəniyyətli və alicənab şəxsiyyətlərindən olan Şaxtaxtinski ənənəvi olaraq bir-birinə qarşı qoyulan Qərb-Şərq tarixi-mədəni regionlarının yaxınlaşmasına, qovuşmasına çalışan açıq fikirli ziyalı olmuşdur.

Qürbətdə əbədiyyətə qovuşan həmyerlimiz bütün həyatını imperiya əsarətinə qarşı mübarizəyə həsr etmişdir.

Azərbaycan jurnalisti, alim və ictimai xadim İsasultan Nəcəfqulu oğlu Şaxtaxtinski 1894-cü il oktyabr ayının 18-də Qars şəhərində vəfat etmişdir.

Onun haqqında ədəbiyyatşünas alim Vilayət Quliyev "İsa Sultan Şaxtaxtinskinin qəribə həyatı" (Bakı, 1999) adlı monoqrafiya yazmışdır.

2010-cu ilin may ayının 13-də Kəngərli rayonunun Şahtaxtı kəndində Şahtaxtinskilərin ev-muzeyi istifadəyə verilmişdir.

Ədəbiyyat

İsa-Sultan kimdir, onun "Azərbaycan ədəbiyyatına dair tədqiqlər (XIX-XX əsrlər) kitabında /Ə.Mirəhmədov.- Bakı, 1983.- 203 s.

Quliyev, V. İsa Sultan Şaxtaxtinskinin qəribə həyatı /Vilayət Quliyev.-Bakı: Ozan, 1999.- 88 s.

Şahtaxtinski İsasultan Nəcəfqulu oğlu //Cəlil Məmmədquluzadə ensiklopediyası.-Bakı, 2008.- S.266.

Şahtaxtinski İsasultan Nəcəfqulu oğlu // Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.X.- S.480.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Hüseyn Əhmədov 1926

Alim

Hüseyn Mustafa oğlu Əhmədov 1926-cı il iyul ayının 17-də Qərbi Azərbaycanın qədim Göyçə mahalında - Krasnoselo rayonunun Toxluca kəndində anadan olmuşdur.

1947-1951-ci illərdə H.Zərdabi adına Kirovabad (indiki Gəncə) Pedaqoji İnstitutunun tarix fakültəsində təhsil almışdır. 1952-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) aspiranturasına daxil olmuş, 1958-ci ildə professor Ə.Y.Seyidovun rəhbərliyi altında "İbtidai məktəb şagirdlərinin kommunist əxlaqı tərbiyəsində nümunənin rolu və ondan istifadə etmək yolları" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər namizədi alimlik dərəcəsi almışdır.

1957-1958-ci illərdə Azərbaycan Elmi-Tədqiqat Pedaqogika İnstitutunda (indiki APTPİ) kiçik elmi işçi vəzifəsində işləmişdir. 1972-ci ildə akademik Mehdi Mehdizadənin məsləhəti ilə "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Professor məktəb və təhsil problemlərinin tədqiqinə həsr edilmiş "XIX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi və məktəb" (1967), "XIX əsrin 40-cı illərində Azərbaycanda xalq maarifi və məktəb" (1968), "Azərbaycanda "rus-tatar" məktəbinin tarixinə dair" (rus dilində, 1969), "Ana dili" dərsliyi tərtibində ilk mərhələ (1930-1980)" (1970), "Azərbaycanda kənd ümumtəhsil məktəbləri tarixi" (1970), "Azərbaycanda orta təhsil müəssisələrinin meydana gəlməsi tarixinə dair" (1970), "XIX əsrdə Azərbaycan dilində dərslik və tədris vəsaitləri tərtibi tarixindən" (1970), "Azərbaycanda sənət məktəblərinin təşkili tarixinə dair" (1971), "XIX əsrdə Azərbaycanda məktəb təhsilinin inkişaf tarixi" (1972) adlı onlarla kitab, dərslik və dərs vəsaiti yazmışdır. Onun "XIX əsr Azərbaycan məktəbi" monoqrafiyası millətimizin yüzillik təhsil tarixinin salnaməsidir.

Moskvada çap olunmuş "Azərbaycan pedaqoji fikir antologiyası"nın müəlliflərindən biri olmaqla milli məktəb və pedaqogikamızı doğma Vətənimizin hüdudlarından kənarda da təbliğ etmişdir.

500-dən artıq elmi-pedaqoji əsərin müəllifidir. Əsərləri bir sıra xarici ölkələrdə, o cümlədən Rusiya, İran, BƏƏ, Çexiya, Gürcüstan, Özbəkistanda çap edilmişdir. Onun rəhbərliyi və məsləhəti ilə 50-dən artıq elmlər namizədi və doktoru yetişmişdir.

2005-ci ildə Türk Dünyası Araşdırmaları Uluslararası Elmlər Akademiyası tərəfindən "Türk Dünyasına Hizmet" qızıl medalı ilə təltif edilmiş, 2006-cı ildə Amerika Beynəlxalq Ekspert və Bioqrafiya Araşdırmalar İnstitutu tərəfindən pedaqogika elminin məharətli bilicisi elan edilmiş və ona ixtisaslaşdırılmış bilik sertifikatı göndərilmişdir.

Ə d ə b i y y a t

Seçilmiş pedaqoji əsərləri: 12 cilddə /H.Əhmədov.- Bakı: Təhsil, 2006.- C.1.- C.12.

Avrasiya xalqlarının məktəb və pedaqoji fikir tarixinə dair oçerklər /H.M. Əhmədov; [red. M. İlyasov].-Bakı: [Maarif], [Nurlar], 2012.-541 s

XIX əsr Azərbaycan məktəbi /H.Əhmədov; elmi red. Ə.Ağayev, A.Bayramoğlu; Azərbaycan Beynəlxalq Universiteti.-Bakı: ABU Təhsil, 2006.- 580 s.

Maarif fədailəri: Firidun bəy Köçərli-150, Rəşid bəy Əfəndiyev-150 : [qoşa qanad] /Hüseyn Əhmədov.- Bakı: ADPU, 2013.-199, [1] s.

Rüstəmov F. Akademik Hüseyn Əhmədov və yetirmələri /F.Rüstəmov; elmi red.: Ə. Ağayev.- Bakı: Təhsil, 2004.- 202 s.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

65 illiyi

Rəşid Cavanşir 1951

Alim

Rəşid Cəmil oğlu Cavanşir 1951-ci il iyul ayının 17-də Bakıda anadan olmuşdur. 1973-cü ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) geoloji-kəşfiyyat fakültəsini bitirmişdir. 1984-1997-ci illərdə AMEA-nın Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda şöbə müdiri, 1988-1995-ci illərdə institutda elmi işlər üzrə direktor müavini vəzifələrində çalışmışdır. 1995-2009-cu illərdə bir neçə nüfuzlu beynəlxalq neft şirkətlərində rəhbər vəzifələr tutmuş, 2009-cu ilin sentyabr ayında "BP Exploration (Shah Deniz) Ltd." şirkətinin prezidenti, 2012-ci ildə Böyük Britaniyanın "BP" neft şirkətinin Strategiya və inteqrasiya üzrə vitse-prezidenti təyin edilmişdir.

Sistemli yanaşma əsasında neft-qaz geologiyası və geofizikası sahəsində mühüm elmi tədqiqatlar aparmışdır. İlk dəfə olaraq çöküntülərin nəzəri sıxılma modelləri, dağ süxurlarının kollektor, ekranlaşdırıcı və fiziki xassələrinin termobarik, struktur-litoloji və geotektonik amillərin ayrı-ayrılıqda olan təsiri nəzərə alınmaqla fiziki-riyazi modelləşdirmə üsulları təklif olunmuşdur.

Elektron mikroskopiya əsasında tam sıxılmaya uğramamış gillərin məsamə fəzası strukturu və mineraloji xüsusiyyətləri öyrənilmiş, ilk dəfə allotigen mineral yaranmaların geokimyəvi və termodinamik şəraitli kompüter modelləşdirilməsi həyata keçirilmişdir. Azərbaycan SSR Elmlər Akademiyasında elmi-tədqiqat, Neft Akademiyasında bir neçə il müəllimlik fəaliyyəti ilə məşğul olmuşdur.

212 elmi əsərin, 8 monoqrafiyanın, 12 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir. 2001-ci ildən AMEA-nın müxbir üzvüdür.

1988-ci ildən Azərbaycan EA-nın Geologiya İnstitutu və Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunun doktorluq elmi dərəcəsini vermək üçün ixtisaslaşdırılmış şuralarının üzvü olmuş və 1993-cü ildən Azərbaycan Respublikası Prezidenti yanında AAK-nın Yer haqqında elmlər üzrə ekspert Şurasının üzvüdür.

1984-ci ildən indiyədək Amerika Geoloq-Neftçilər Cəmiyyətinin üzvü, 1989-1995-ci illərdə "Energy Sources" (ABŞ) beynəlxalq elmi jurnalının regional redaktoru, 1989-1996, 2001-ci ildən indiyədək "Journal of Petroleum Science and Engineering" (Hollandiya) beynəlxalq elmi jurnalının redaksiya heyətinin üzvü, Member of Editorial Board of the "Azerbaijan Geologist", Member of Editorial Board of "Seismoprognosis observations in the territory of Azerbaijan" beynəlxalq və xarici ölkələrin elmi qurumlarının üzvüdür.

Azərbaycan neft sənayesinin inkişafında xidmətlərinə görə Rəşid Cəmil oğlu Cavanşir 2011-ci ildə Azərbaycan Prezidenti tərəfindən "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Ədəbiyyat

Моделирование систем нефтегазовой геологии /Р.Джаваншир.- Москва: Недра, 1990.- 295 с.

Прогнозирование физических свойств коллекторов и покрышек нефти и газа /Р.Джаваншир.- Москва: Недра, 1998.- 200 с.

South Caspian Basin Petroleum Production (editor) //Journal of Petroleum: Science & Engineering.-Vol. 28 (2000).- The Netherlands, 2000.

R.C.Cavanşirin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, 14 iyul 2011-ci il] // Azərbaycan.- 2011.- 15 iyul.- S. 2.

Zamanov, A. Mücərrəd təməldən ali mükafata doğru: Dövlət Mükafatına təqdim olunmuşdur [R.C.Cavanşir haqqında] /A.Zamanov, S.Əliyev //Respublika.- 2014.- 13 may.- S.10.

85 illiyi

Fərman Salmanov 1931-2007

Fərman Qurban oğlu Salmanov 1931-ci il iyul ayının 28-də Şəmkir rayonunun Morul kəndində anadan olmuşdur. Orta məktəbi 1947-ci ildə başa vurmuş, əvvəl Şirvan Kompleks Ekspedisiyasında kollektor işləmiş, sonra Azərbaycan Sənaye İnstitutunun (indiki ADNSU) geoloji-kəşfiyyat fakültəsinə daxil olmuşdur. 1954-cü ildə həmin institutu bitirmişdir.

Əmək fəaliyyətinə hələ erkən yaşlarından geoloji ekspedisiyada sıravi işçi kimi başlamış, 1954-1959-cu illərdə Novosibirsk geologiya idarəsində geoloq, böyük geoloq, neft kəşfiyyatı ekspedisiyasının rəisi olmuşdur. 1959-cu ildə Tümen Ərazi Geologiya İdarəsi Surqut neft kəşfiyyatı ekspedisiyasının rəisi vəzifəsinə təyin edilmiş, 1962-1964-cü illərdə Ust-Balık ekspedisiyasının baş geoloqu, 1964-1970-ci illərdə Pravdinsk neft kəşfiyyatı ekspedisiyasının rəisi, 1970-1987-ci illərdə Tümen Baş Geologiya İdarəsinin rəis müavini və rəisi vəzifələrində çalışmışdır. 1987-1991-ci illərdə SSRİ geologiya nazirinin müavini olmuş, 1992-ci ildə "Rospan İnternəşnl" Qapalı Səhmdar Cəmiyyətinin prezidenti, 2002-ci ildə isə "İtera" şirkəti Direktorlar şurası sədrinin müşaviri, eləcə də "Yuqneftqaz" cəmiyyəti Direktorlar şurasının sədri vəzifəsində çalışmışdır.

Fərman Salmanovun adı dünya neft tarixinə Tümenin zəngin təbii sərvətlərinin ilk kəşfiyyatçılarından biri kimi daxil olmuşdur. O, heç bir neft ehtiyatının olmadığı iddia edilən Qərbi Sibirdə 1961-ci ildə ilk neft yataqlarını üzə çıxarmışdır. Rəhbərliyi altında karbohidrogen ehtiyatları ilə zəngin yüzdən artıq irihəcmli yataq kəşf edilərək istismara verilmişdir. İstehsalatda uğurlarını elmi fəaliyyətlə səmərəli şəkildə əlaqələndirən alim 1972-ci ildə doktorluq dissertasiyası müdafiə edərək geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almış, 1989-cu ildə Rusiya EA-nın müxbir üzvü seçilmişdir. 160-dan çox elmi əsərin, 10 monoqrafiyanın müəllifidir. Xanti-Mansi və Yamalo-Nenets Muxtar dairələrinin, Surqut şəhəri, Texas ştatı və Çinin Çzinçjou şəhərinin fəxri vətəndaşı seçilmişdir.

Neft sənayesinin inkişafındakı xidmətlərinə görə 1966-cı ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına, 1970-ci ildə Lenin mükafatı laureatı adına layiq görülmüş, "Oktyabr inqilabı", iki dəfə "Qırmızı Əmək Bayrağı" ordenlərilə təltif edilmiş, İ.M.Qubkin adına mükafatın laureatı, Rusiya Federasiyasının Əməkdar geoloqu, neft və qaz sənayesinin fəxri işçisi olmuşdur. 2001-ci ildə Azərbaycanın ali mükafatına - "Şöhrət" ordeninə layiq görülmüşdür.

Fərman Salmanov 2007-ci il martın 31-də vəfat etmiş, öz vəsiyyəti ilə Moskvada Vaqankovsk qəbiristanlığında dəfn edilmişdir.

Onu "Rusiya neftinin atası" adlandırmış, haqqında film çəkmişlər. Sibirin Tümen şəhərində xatirə lövhəsinin təntənəli açılış mərasimi olmuşdur. Surqutda ev-muzeyi qarşısında Heydər Əliyev Fondunun Rusiyadakı nümayəndəliyinin təşəbbüsü ilə 2009-cu ildə büstü qoyulmuşdur.

Ədəbiyyat

Hüseynzadə, F. Rusiya neftinin azərbaycanlı fatehi /F.Hüseynzadə //Paritet.- 2012.- 23-24 fevral - S.11.

Məmmədli, İ. Tümen neftinin banisi: Neft tariximizdən /İ.Məmmədli //İki sahil.- 2011.- 26 avqust.- S. 5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

100 illiyi

Məcid Rəsulov 1916-1993

Akademik

Məcid Lətif oğlu Rəsulov 1916-cı il iyul ayının 6-da Şəki şəhərində anadan olmuşdur. Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) məzunu və Azərbaycan Dövlət Universitetinin (indiki BDU) aspirantı olmuşdur.

Məcid Rəsulovun ilk elmi araşdırmaları onun 1946-1948-ci illərdə "Diferensial tənliklər üçün bəzi qarışıq məsələlərin həllinin çıxıqlar üsulu ilə araşdırılması " mövzusunda yazdığı namizədlik dissertasiyasında ümumiləşdirilmişdir. O, bu işdə xətti funksionalın altfəzasında bütün Banax fəzasına davamının yeganəliyinin zəruri və kafi şərtlərini almış və baxılan birölçülü xətti diferensial operatorun normallığı üçün zəruri və kafi şərti isbat etmişdir.M.L.Rəsulov 1960-cı ildə SSRİ EA-nın V.A.Steklov adına Riyaziyyat İnstitutunun Elmi Şurasında "Xüsusi törəməli xətti diferensial tənliklər üçün qarışıq və sərhəd məsələlərinin həllinin çıxıqlar üsulu" mövzusunda doktorluq dissertasiyasını müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru elmi dərəcəsini almışdır.

Məcid Rəsulovun 1967-ci ildə "Kontur inteqralı üsulu" monoqrafiyası İngiltərə Kral Riyaziyyat Cəmiyyətinin sifarişi ilə ingilis dilinə tərcümə olunmuş və Hollandiyada, Amerika Birləşmiş Ştatlarında, Kanadada çap olunmuşdur. Qeyd edək ki, bununla da o, xaricdə monoqrafiyası çap olunan ilk azərbaycanlı riyaziyyatçı olmuşdur.

1975-ci ildə Moskvanın "Nauka" nəşriyyatında alimin "Kontur inteqrallar üsulunun tətbiqi" adlı ikinci monoqrafiyası çıxmışdır. Bunlardan başqa professor M.L.Rəsulov 180-ə qədər elmi məqalənin müəllifidir. Yüksəkixtisaslı kadrların hazırlanmasında M.L.Rəsulovun xidmətləri böyükdür. Onun rəhbərliyi altında 20-dən çox namizədlik və doktorluq dissertasiyaları yazılmış və müdafiə edilmişdir.

M.L.Rəsulov Böyük Vətən müharibəsi iştirakçısı olmuşdur. 1960-cı ildən Azərbaycan Dövlət Universitetinin Riyazi fizika tənlikləri kafedrasının müdiri, 1961-ci ildə professor, 1968-ci ildən Azərbaycan EA-nın müxbir üzvü, 1983-cü ildən həqiqi üzvü olmuşdur.

1976-cı ildən Azərbaycan Sovet Ensiklopediyasının elmi redaksiya şurasının üzvü olmuşdur.

Akademik M.L.Rəsulovun elmi pedaqoji və ictimai fəaliyyəti dövlət tərəfindən yüksək qiymətləndirilmiş və o, 1980-ci ildə "Qırmızı Əmək Bayrağı" ordeni və bir neçə medallarla təltif edilmişdir. 1989-cu ildə "Azərbaycan SSR Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Riyazi-fizika tənlikləri üzrə görkəmli mütəxəssis, diferensial tənliklər və funksional analiz kimi sahələrdə çalışmış riyaziyyatçı-alim, akademik Məcid Lətif oğlu Rəsulov 1993-cü il fevral ayının 11-də Bakı şəhərində vəfat etmişdir.

Ədəbiyyat

Метод контурного интеграла и его применение к исследованию задач для дифференциальных уравнений /М.Расулов.- Москва: Наука, 1964.- 462 с.

Приложения метода контурного интеграла /М.Расулов.-Москва: Наука, 1975.- 321 с.

Methods of contour integration.- Amsterdam, 1975.- 387 p.

Rəsulov Məcid Lətif oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1982.- C.8.- S.137-138.

Riyazi ədəbiyyatda müstəsna hadisə yaratmış alimimiz...: XX əsrdə Azərbaycanın yetişdirdiyi nadir şəxsiyyətlərdən biri //Azadlıq.- 2013.- 20 sentyabr.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

80 illiyi

Firudin Məmmədov 1936

Alim

Firudin İbrahim oğlu Məmmədov 1936-cı il iyul ayının 1-də Naxçıvan Muxtar Respublikası Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur.

1958-ci ildə Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) energetika fakültəsini, sonra "Neftkimyaavtomatika" Elmi-Tədqiqat Layihə İnstitutunun (Sumqayıt) aspiranturasını bitirmişdir.

1958-1968-ci illərdə Azərbaycan Neft və Kimya İnstitutunun Sumqayıt filialında baş müəllim, 1968-1970-ci illərdə dosent, 1971-1974-cü illərdə dekan və 1974-1985-ci illərdə kafedra müdiri vəzifələrində çalışmışdır.

1996-cı ildə professor elmi rütbəsinə layiq görülmüşdür. Həmin ildən Azərbaycan Sənaye İnstitutunda (indiki Sumqayıt Dövlət Universiteti) Elektrotexnika kafedrasının müdiridir. 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvüdür.

İnformasiya nəzəriyyəsinə, idarəetmə sistemlərinin hesablama və məlumat-ölçü texnikasının ilkin vericilərinin nəzəriyyəsi, islənilməsi və tətbiqinə, neftçıxarma dərinlik nasosları üçün elektromaqnit vericilərlə işləyən tezlik teleölçü nəzəriyyəsinə dair tədqiqatlar aparmışdır.

İnformasiya nəzəriyyəsi sahəsində mütəxəssis, texnika elmləri doktoru Firudin İbrahim oğlu Məmmədov 180-dan çox elmi işin, 24 ixtiranın müəllifidir.

Onun rəhbərliyi altında beş namizədlik dissertasiyası müdafiə edilmişdir.

Ə d ə b i y y a t

Исследование дифференциального электромагнитного датчика со сплошным магнитопроводом в нагрузочном режиме:Электротехника /Ф.И.Мамедов, Р.Б. Дадашева, Р.А. Гусейнов //Знак.- 2006.- №6.- С.25-50.

Исследование магнитного поля двухмерного измерительного электромагнитного преобразователя: Известия высших учебных заведений. Южно-Российский государственный технический университет (Новочеркасский политехнический институт) /Ф.И.Мамедов, Р.Б. Дадашева //Электромеханика.- 2007.- №2.- С.40-44.

Определение основных электромагнитных параметров датчика расстояния: Электротехника /Ф. И.Мамедов, Т. А. Ахмедова //Знак.- 2009.- №4.- С.24-28.

Получение математической модели двухтактного вибровозбудителя с низкой механической частотой.mht: Электротехника /Ф.И. Мамедов, Р.Б. Дадашева //Знак.- 2010.- № 8.- С.51-56.

Məmmədov Firudin İbrahim oğlu // Naxçıvan ensiklopediyası.-Bakı, 2002.- S. 311.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Midhət Abasov 1926-2012

Akademik

Ədəbiyyat

Изучение и прогнозирование параметров сложных природных резервуаров нефти и газа Южно-Каспийской впадины /М.Абасов (в соавт. Кондрушкин Ю.М. и др.).- Баку, 2007.- 67 с.

Повышение эффективности ограничения водопритоков в нефтяных скважинах /М.Абасов (в соавт.Стреков А.С.,Эфендиев Г.М.).- Баку, 2009.- 125 с.

Фильтрационные процессы и идентификация параметров в многопластовых месторождениях /М.Абасов (в соавт.Азиов Э.Х.,Джалалов Г.И. и др.).- Баку, 2008.- 178с.

Midhət Teymur oğlu Abasov: biblioqrafiya /AMEA Geol. İn-tu; tərt. ed. D.R.Mirzəyeva, A.A. İsrafilova; red. Z.A. Kərimov, T.Ş. Kazımova.- Bakı: Nafta-Press, 2006.- 220, [1] s.

Abasov Midhət Teymur oğlu=Абасов Митат Теймур оглы=Abasov Mitat Teymur ogly //Azərbaycanın neftçi alimləri /AMEA Geologiya İnstitutu; tərt.ed. Ə.M.Dadaşov.- Bakı: "Nafta-Press", 2007.- S.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Midhət Teymur oğlu Abasov 1926-cı il iyul ayının 31-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1943-1949-cu illərdə ali təhsilini Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) neft-mədən fakültəsində almış, 1949-1952-ci illərdə isə həmin institutun aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1949-cu ildə "Azneft" İstehsalat Birliyinin Qaradağ Neft Trestində mədən ustası kimi başlayan Midhət Abasov 1952-1953-cü illərdə Azərbaycan Sənaye İnstitutunda assistent, 1953-1958-ci illərdə Azərbaycan Elmlər Akademiyasında neft ekspedisiyasının yeraltı hidrodinamika laboratoriyasında kiçik elmi işçi, böyük elmi işçi, rəis müavini və laboratoriya rəhbəri, 1958-1960-cı illərdə isə Azərbaycan Elmi Tədqiqat Neftçıxarma İnstitutunda laboratoriya rəisi vəzifələrində çalışmışdır.

1953-cü ildə namizədlik, 1962-ci ildə "Neft və qaz yataqlarının işlənməsi və istismarı" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir. 1960-cı ildən etibarən elmi fəaliyyətini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlamış, 2003-cü ilədək Dərin Neft və Qaz Yataqları Problemləri İnstitutunda (indiki Geologiya və Geofizika İnstitutu) laboratoriya müdiri, elmi işlər üzrə direktor müavini və direktor vəzifələrini tutmuş, 2003-cü ildən ömrünün sonuna qədər Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutunun baş elmi işçisi olmuşdur.

1976-1990-cı illərdə Azərbaycan Elmlər Akademiyasının Yer Elmləri Bölməsinin akademik-katibi, 1990-1997-ci illərdə akademiyanın vitse-prezidenti vəzifələrində çalışmışdır. 1989-cu ildə 12-ci çağırış SSRİ Ali Sovetinə xalq deputatı seçilmişdir.

1991-1992-ci illərdə isə Azərbaycan Respublikasının dövlət katibi işləmişdir.

Midhət Abasov 1968-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, 1980-ci ildə həqiqi üzvü, 1984-cü ildə keçmiş SSRİ Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

660-dan artıq elmi məqalənin və 16 monoqrafiyanın, 43 müəlliflik şəhadətnaməsinin və 6 patentin müəllifidir. Onun rəhbərliyi altında 21 elmlər doktoru və 40 elmlər namizədi hazırlanıb.

Azərbaycan Dövlət mükafatı laureatı olmuş, "Qırmızı Əmək Bayrağı" ordeni ilə, Akademik İ.M.Qubkin adına mükafatla, Azərbaycan SSRİ Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmişdir.

"SSRİ Fəxri neftçisi", "SSRİ qaz sənayesinin fəxri işçisi", "SSRİ ixtiraçısı", 1990-cı ildə "Azərbaycanın Əməkdar elm xadimi" fəxri adlarına layiq görülmüşdür.

Akademik Abasov Midhət Teymur oğlu 2012-ci il aprel ayının 23-də vəfat etmişdir.

İYUL
7

Tarixdə bu gün

Ramazan bayramı

İslam dininin müqəddəs bayramları arasında Ramazan bayramı mühüm yer tutur. Bu bayramın tarixi müsəlman təqvimi ilə hicrinin 2-ci ilindən (miladi 622-623-cü il) başlanmışdır.

İslamda ilin ayları arasında Ramazan ayı ən şəfqətli və ən müqəddəs ay hesab edilir. Onu "on bir ayın sultanı" da adlandırırlar. Ramazan ayı insanlara Allahı sevmək prinsiplərini öyrədir, onlara öz iradə qüvvələrini, dözümlüyünü yoxlamaq imkanı verir, onları gözüaçıq, təmiz vicdanlı olmağa yönəldir və oruc tutmaqla ifadə olunur. Oruc ramazan ayında tutulduğu üçün ona "Ramazan orucu" da deyirlər.

Orucluq ayında günün işıqlı vaxtı yemək, içmək, siqaret çəkmək, və s. olmaz. Oruc tutmaqdan yalnız uşaqlar, xəstələr, hamilə qadınlar, cəbhədə vuruşanlar, uzaq yola çıxanlar azad olunurlar. Orucluq Ramazan ayında təzə ay çıxandan başlanır və 29-30 gün davam edir. Qurani-Kərimdə yazılır: "Sübh açılınca, ağ sap qara sapdan fərqlənincəyə qədər yeyib için; sonra gecəyə qədər orucunuzu tamamlayın." ("Bəqərə" surəsi, 187)

Məhəmməd peyğəmbər (s.ə.s.) buyurmuşdur ki, Ramazan ayı gələndə cənnətin qapıları açılar, cəhənnəmin qapıları bağlanar, şeytanlar da zəncirdə olar. Döyüşdə və ya əsirlikdə olduğuna görə oruc tutmayanlar sonra münasib bir vaxtda onun əvəzinə oruc (qəzasını) tutmalı və ya fidyə verməlidirlər.

Orucu qəsdən pozanlar isə onun əvəzini tutmaqla yanaşı, tövbə etməli və kəffarəsini ödəməlidirlər. Kəffarə isə 60 gün oruc tutmaq, yaxud 60 yoxsulu yedirtməkdir. 60 günlük kəffarə orucuna bir günlük qəza orucu da əlavə olunur.

Məhz Ramazan ayının axırıncı on gecələrinin birində Quran hədiyyə edilmişdir. Deyilənə görə bu, həmin ayın ya 22-dən 23-nə, ya da 26-dan 27-nə keçən gecə baş vermişdir. Bu gecə "leylət al-Qadr" - qüdrətli, əzəmətli gecə adlanır. Quranda bu gecə haqqında belə yazılır: "Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi salamatlıqdır!" ("Qədr" surəsi, 3-5)

Orucluğun başa çatdığı gün fitr bayramı adlanır. Həmin gün bütün müsəlmanlar bir-birlərini təbrik edir, vəfat edənlərin qəbirlərini ziyarət edir, ruhlarına dualar oxuyurlar. Bayram günü hər kəs öz himayəsində olanlar üçün təqribən 3 kq buğda, yaxud xurma və ya kişmiş miqdarında kasıblar üçün fitrə zəkatı verməlidir.

Sovet hakimiyyəti dövründə İslamın başqa ayinləri və ibadətləri kimi, orucluq da qadağan edilmişdi. Lakin imanlı adamlar gizlicə də olsa, öz borclarını yerinə yetirirdilər. Bir çoxları isə vəzifə və iş yerlərini itirmək, təqiblərə məruz qalmamaq üçün orucluqdan imtina etməyə məcbur olmuşdular. Azərbaycan öz dövlət müstəqilliyini bərpa etdikdən sonra insanların vicdan azadlığı bərpa olunmuş, İslam dininə, onun ibadət və ayinlərinə olan münasibət də dəyişmişdi. Ramazan (Orucluq) bayramı Azərbaycanda Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən 1993-cü ildən dövlət səviyyəsində qeyd olunmağa başlamışdır.

Ə d ə b i y y a t

Hicrani, Ə.T. Orucun tarixi və mənəvi dəyərləri /Əli Təbrizi Hicrani.-[Yersiz]:[Məhdiyar], 2005.-141 s.
Ramazan bayramı başlayır /A.Mehdiyev //Azərbaycan .-2015.- 16 iyul.- S.8.
Ramazan bayramı münasibətilə Azərbaycan xalqına təbrik /İ.Əliyev //Azərbaycan .-2015.- 16 iyul.- S.1.

Azərbaycan Dövlət Dəniz Akademiyası 1996

Azərbaycanda dənizçi kadrların hazırlanmasına 1881-ci ilin noyabrından başlanılmış və çox şərəfli tarixi inkişaf yolu keçmişdir.

Həmin vaxtdan başlayaraq hər il 25-30 tələbə gəmi sürücüsü və 15-18 tələbə şkiper ixtisası üzrə dənizçilik siniflərini bitirirdi. 1896-cı ildə dənizçilik sinifləri nəzdində mexanika kursları açılmışdır. 1902-ci ildə həmin siniflərin əsasında üçillik Bakı Uzaq Səfərlər Məktəbi yaradılmışdır. 1924-cü ildə Bakı Su Nəqliyyatı Texnikumu Bakı Su Yolları Texnikumu (BSYT) adlandırılaraq Xəzər Dəniz Gəmiçiliyinin tabeliyinə verilmişdir. BSYT 1930-cu ildə Bakı Dənizçilik Texnikumuna, 1944-cü ildə isə Bakı Dəniz Yolları Məktəbi (BDYM) adlandırılmışdır. 1996-cı ildə BDYM-in bazasında Azərbaycan Dövlət Dəniz Akademiyası yaradılmışdır.

Azərbaycan Dövlət Dəniz Akademiyası gəmiçilik, dəmirqayırma və gəmi təmiri, gəmiqayırma və dəniz texnikası və s. ixtisaslar üzrə mütəxəssis hazırlayan ali təhsil müəssisəsi olub Bakı şəhərində yerləşmişdir. Bir fakültəsi (dəniz texnikası və gəmiçilik), on bir kafedrası, dörd elmi tədqiqat laboratoriyası, kitabxanası var. Burada on iki ixtisas üzrə kadr hazırlanır. Akademiyanın əyani və qiyabi şöbələrində 564 tələbə təhsil alır (2008-2009). Akademiyanın nəzdində sıravi heyət üçün mütəxəssis hazırlayan Dənizçilik məktəbi fəaliyyət göstərir. Dəniz Akademiyasının təhsil diplomuna əsasən Dövlət Dəniz Administrasiyası tərəfindən verilən işçi diplomlar dünyanın 160-dan çox ölkəsində tanınır və məzunlara dünya sularında üzmək üçün beynəlxalq sertifikatlar verilir.

Akademiya Rusiya, Türkiyə, Almaniya, Polşa, Bolqarıstan, Qazaxstan, Gürcüstan, Ukrayna, Latviya və digər xarici dövlətlərin ali dənizçilik məktəbləri ilə əməkdaşlıq edir. Professor-müəllim heyəti İngiltərədə, Rusiyada, Polşada və Kiprdə ixtisasartırma kursları keçmiş və müvafiq Beynəlxalq sertifikatlar almışlar. Akademiyanın on bir kafedrasında 98 müəllim, o cümlədən, 4 professor, elmlər doktoru və 37 dosent, elmlər namizədi, 24 nəfər baş müəllim, 31 assistent, 2 müəllim çalışır.

Azərbaycan Respublikasının dövlət müstəqilliyinin möhkəmləndirilməsi, onun xarici əlaqələrinin genişləndirilməsi, beynəlxalq nüfuzunun güclənməsi Dəniz Akademiyası qarşısında inkişaf üçün perspektivlər açır, yüksəkixtisaslı dənizçi kadrları hazırlamaq sahəsində onun məsuliyyətini artırır. Hazırda Akademiyada Qazaxıstan, Türkümənistan və Gürcüstandan da xarici tələbələr təhsil alır.

2003-cü ildən "Azərbaycan Dövlət Dəniz Akademiyasının Elmi Əsərləri" nəşr edilir.

Ədəbiyyat

«Azərbaycanda enerji və dənizçilik hüququ: Beynəlxalq və milli perspektivlər» mövzusunda hüquq konfransı keçirilmişdir //Azərbaycan .-2013.- 25 may.- S.8.

Əliyev, N.Azərbaycanın hərbi-dənizçilik tarixi : ən mühüm hərbi-siyasi hadisələrin tarixi xronoloji xülasəsi : ən qədim zamanlardan XXI əsrin əvvəllərinədək /N. A. Əliyev ; Azərb. Ali Hərbi Dənizçilik Məktəbi.-Bakı: [s. n.], 2008. 298 s.

Əliyev, N.Azərbaycanda Hərbi-Dəniz qüvvələri ücün kadır hazırlığı (1918-1997) : Hərbi məktəblər ücün dərs vəsaiti /N. A. Əliyev; Elmi red.: M.N. Çobanov; Rəyçilər: M.Abbasov, R.Darabadi.-Bakı: Səda, 1999.-140 s.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

İYUL
23

Tarixdə bu gün

Ağdam rayonunun işğalı günü 1993

Ərazisi: 1154 km²
Əhalisi: 175400
İşğal tarixi: 23.07.1993

Bu gün Azərbaycanın Ağdam rayonunun işğalından 23 il keçir.

1993-cü il 23 iyul tarixində birinci Qarabağ müharibəsinin ən geniş miqyaslı əməliyyatlarından biri baş tutmuş, 1993-cü ilin iyun-iyul aylarında Gəncə və Bakıda baş verən hadisələr ermənilərə Qarabağ cəbhəsində hücum əməliyyatlarını genişləndirmək imkanı vermişdir.

Ağdama edilən birinci hücum nəticəsiz qalmış, ermənilər qüvvəni Ağdərə istiqamətində cəmləşdirmiş, iyun ayının 26-da Ağdərə düşmən əlinə keçmişdir.

Bunun ardınca ermənilərin iki ordu korpusu Ağdam istiqamətində əməliyyata başlamışdır. 600 minlik erməni ordusuna qarşı əsasən könüllülərdən ibarət və düşməndən sayca az olan Azərbaycanın milli ordusu durmuş, 42 gün davam edən döyüş Ağdamın işğalı ilə sona çatmışdır.

Ərazisi 1154 kvadrat kilometr olan Ağdamın 882 kvadrat kilometri, rayon mərkəzi ilə birgə 90 kəndi işğal olunmuş, işğal nəticəsində 128 min insan məcburi köçkün həyatını yaşayır. Bunların 17 mini yaşlı nəslin nümayəndəsidir.

İşğal nəticəsində Ağdam rayonunun 38 kolxozu, 12 sənayesi, 74 məktəbi, 271 mədəniyyət evi, bütün dünyada yeganə olan Çörək muzeyi, 67 idarə və 99 klubu düşmən əlinə keçmişdir.

Ağdam uğrunda gedən döyüşlər zamanı 6 mindən artıq insan şəhid olmuş, minlərlə insan fiziki şikəstlik qazanmış, əhali öz doğma ev-eşiyindən qovularaq məcburi köçkün kimi Azərbaycanın 59 rayonunun 875 yaşayış məntəqəsində məskunlaşmışdır.

Ərazisinin 70 faizdən çoxunu itirən Ağdamın işğalı ilə Azərbaycan iqtisadiyyatı 3 milyard manat vəsait itirmişdir. 40 min ha-dan çox əkin sahəsi olan və ölkənin ən iri aqrar rayonlarından sayılan Ağdamda indi 17 min ha sahədə əkin aparılır.

Ermənistan Silahlı Qüvvələri tərəfindən Azərbaycanın Ağdam rayonunun işğalı nəticəsində ölkəmizə ümumilikdə 6 milyard 179 milyon dollar məbləğində ziyan dəymişdir.

Hər bir azərbaycanlı, hər bir ağdamlı əmindir ki, onun müqəddəs ziyarətgahı, dəyişməz qibləgahı olan, bu gün azan səsinə həsrət qalmış məscidimiz, musiqi səslərinə möhtac qalmış bərli-bərəkətli torpaqlarımız, ata-babalarımızın uyuduqları məzarıstanlıqlarımız tezliklə azad ediləcək.

O gün uzaqda deyil.

Ədəbiyyat

Abbasoğlu, B. Ağdam ağrıları: [məlumat kitabı] /B.Abbasoğlu; red. V.Quliyev.- Bakı: Şuşa, 2003.- 151 s.

Abbasoğlu, B. Seyidlidə bitən qeyrət /B.Abbasoğlu; red. S.Ağayev.- Bakı: Azərbaycan, 1998.- 128 s.

Tofiqli, V. XX yüzilin Ağdamı /Tofiqli Vüqar (Cəfərov).- Bakı: MHS-Poliqraf, 2014.- 223 s.

Tofiqli, V. Ağdam çörək muzeyi: dünəni, bu günü və sabahı /V.Tofiqli.-Bakı: Adiloğlu, 2011.- 139 s.

Ağdam rayonu //Qarabağ: yaddaş.- Bakı, 2010.- S.105-122.

Sayadoğlu, P. Ağdam rayonunun ermənilər tərəfindən işğal olunmasından 21 il ötür /P.Sadayoğlu// Yeni Azərbaycan 2014.- 23 iyul.- S.6.

İnternetdə

www.anl.az

www.az.trend.az.new

www.az.wikipedia.org

www.milli.az

1 avqust

Gün çıxır 06:37
Gün batır 21:15

31 avqust

Gün çıxır 07.06
Gün batır 20:32

AVQUST

22 iyul-
23 avqust

Şir bürcünün Nişanəsi oddur. Ulduzlar padşahı olan Günəşin himayəsindədir. Günəşin şir bürcündən keçdiyi dövrdə doğulanlar hökmlü və daxilən zəngin olurlar.

B.E.	1
Ç.A.	2
Ç.	3
C.A.	**4**
C.	5
Ş.	6
B.	7
B.E.	8
Ç.A.	9
Ç.	10
C.A.	**11**
C.	12
Ş.	13
B.	14
B.E.	15
Ç.A.	16
Ç.	17
C.A.	**18**
C.	19
Ş.	20
B.	21
B.E.	22
Ç.A.	**23**
Ç.	24
C.A.	**25**
C.	26
Ş.	27
B.	28
B.E.	29
Ç.A.	30
Ç.	**31**

- *Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001)*
- *Azərbaycan Kinosu Günü (02.08.)*
- ***Cəbrayıl rayonunun işğalı günü (23.08.1993)***
- ***Füzuli rayonunun işğalı günü (23.08.1993)***
- ***Qubadlı rayonunun işğalı günü (31.08.1993)***

875 il Nizami Gəncəvi 1141-1209

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, (lakin divan bizə tam şəkildə çatmamış) qəzəl və qəsidələr müəllifi kimi şöhrət qazanmışdır. Lakin Şərq təzkiraçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şeirlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır.

Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı 5 poemadan ibarət "Xəmsə" ("Beşlik") müəllifi kimi daxil olmuşdur. 1176-1178-ci illərdə "Məxzənül-əsrar" ("Sirlər xəzinəsi"), 1180-ci ildə "Xosrov və Şirin", 1188-ci ildə "Leyli və Məcnun", 1197-ci ildə "Yeddi gözəl", 1203-cü ildə "İsgəndərnamə" poemasını qələmə almışdır.

Nizami əsərlərini fars dilində yazmışdır. O, türk dilində yazmamasını "Leyli və Məcnun" əsərində özünə qüsur tutmuş, sonra "Yeddi gözəl"də bu məsələyə bir daha toxunmuşdur. Nizami Gəncəvinin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri bir çox şəhərlərin (Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd,Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və s.) məşhur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılır.

Heydər Əliyev Fondu Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin və Gəncə şəhər İcra Hakimiyyətinin dəstəyi ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi ilə bağlı "Xəmsə"-ni, "Nizami məqbərəsinin tarixi və taleyi" kitabını və buklet nəşr etmişdir.

Yeni formatda nəşr olunan "Xəmsə"də topluya daxil olan əsərlər ayrılıqda təqdim olunur. Nizami Gəncəvi nin "Xəmsə"si Avstriya Milli Kitabxanasının "Azərbaycan əlyazmaları" sərgisində nümayiş etdirilir.

AVQUST

2016

Milli ədəbiyyat

Xalq şairi, nasir, publisist Tahiri Söhrab (Söhrab Tahir) Əbülfəz oğlunun (06.08.1926) anadan olmasının 90 illiyi **251**

Şair, nasir Hüseynov Əlisa Qulam oğlunun (Əlisa Nicat) (10.08.1936) anadan olmasının 80 illiyi **252**

Əməkdar mədəniyyət işçisi, yazıçı Babayeva Ələviyyə Hənifə qızının (12.08.1921-23.09.2014) anadan olmasının 95 illiyi **253**

Xalq şairi İmamverdiyev Qabil Allahverdi oğlunun (12.08.1926-03.04.2007) anadan olmasının 90 illiyi **254**

Yazıçı, dramaturq Abbasov Seyfəddin Əliağa (Seyfəddin Dağlı) oğlunun (21.(27).08.1921-28.01.1983) anadan olmasının 95 illiyi **255**

Dünya ədəbiyyatı

İngilis yazıçısı Skot Valterin (15.08.1771-21.09.1832) anadan olmasının 245 illiyi **256**

Amerika yazıçısı Drayzer Teodorun (27.08.1871-28.12.1945) anadan olmasının 145 illiyi **257**

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Əməkdar incəsənət xadimi, teatr rəssamı və qrafiki Mustafayev Həsənağa Hacağa oğlunun (01.08.1896-22.04.1977) anadan olmasının 120 illiyi

Əməkdar rəssam Səfərova Xalidə Ələkbər qızının (25.08.1926-23.12.2005) anadan olmasının 90 illiyi

Musiqi.Opera.Balet

Xalq artisti, baletmeyster Axundova Rəfiqə Hacı qızının (07.08.1931) anadan olmasının 85 illiyi **258**

Xalq artisti, müğənni Rəhimova Elmira Allahverdi qızının (13.08.1941) anadan olmasının 75 illiyi

Xalq artisti, xanəndə Cavanşirov İsfəndiyar Aslan oğlunun (Xan Şuşinski) (20.08.1901-18.03.1979) anadan olmasının 115 illiyi **259**

Bəstəkar Əliverdibəyov Nazim Ağalar oğlunun (24.08.1926-17.02.1985) anadan olmasının 90 illiyi **260**

Teatr.Kino

Rejissor və teatr xadimi, aktyor Hidayətzadə İsmayıl Hüseyn oğlunun (19.08.1901-11.11.1951) anadan olmasının 115 illiyi **261**

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Quliyev Emin Ələkbər oğlunun (12.08.1976-13.03.1995) anadan olmasının 40 illiyi **262**

Azərbaycanın Milli Qəhrəmanı Aznaurov İsgəndər Söhrab oğlunun (16.08.1956-22.04.1992) anadan olmasının 60 illiyi **263**

Azərbaycanın Milli Qəhrəmanı Xəlilov Eldar Xəlil oğlunun (19.08.1976-17.03.1995) anadan olmasının 40 illiyi **264**

Azərbaycanın Milli Qəhrəmanı Mehdiyev Fazil Umud oğlunun (20.08.1966-24.09.1991) anadan olmasının 50 illiyi **265**

Siyasət.Hərbi iş

Dövlət xadimi Cəlilov Afiyəddin Cəlil oğlunun (01.08.1946-29.09.1994) anadan olmasının 70 illiyi **266**

Tarix

AMEA-nın müxbir üzvü, professor Məmmədova Fəridə Cəfər qızının (08.08.1936) anadan olmasının 80 illiyi

İqtisadiyyat.Fəlsəfə

Fəlsəfə elmləri doktoru, professor Quliyev Həsən Hüseyn oğlunun (01.08.1941-24.02.2008) anadan olmasının 75 illiyi

AMEA-nın müxbir üzvü, professor Məmmədov Zakir Cabbar bəy oğlunun (16.08.1936-02.03.2003) anadan olmasının 80 illiyi

İqtisad elmləri doktoru, professor Axundov Şəmsəddin Əhməd oğlunun (28.08.1936) anadan olmasının 80 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Xalq artisti, aparıcı, kino redaktoru Hüseynov (Hüseynli) Rafiq Eyyub oğlunun (04.08.1946) anadan olmasının 70 illiyi **267**

Filologiya elmləri doktoru, professor Vəliyev Kamil Nəriman oğlunun (Kamil Vəli) (18.08.1946) anadan olmasının 70 illiyi **268**

Ədəbiyyatşünas, tənqidçi, fəlsəfə elmləri doktoru Ağa oğlu Məhəmmədin (Məhəmməd Ağaoğlu) (24.08.1896-04.06.1949) anadan olmasının 120 illiyi

Nasir, ictimai xadim, Əməkdar mədəniyyət işçisi Xanbabayev Əjdər Rza oğlunun (25.08.1931-30.05.1990) anadan olmasının 85 illiyi

Filologiya elmləri doktoru, professor, Əməkdar müəllim Əliyeva Nurlanə Müzəffər qızının (28.08.1946) anadan olmasının 70 illiyi

Coğrafiya.Geologiya

Coğrafiya elmləri doktoru, professor Əyyubov Əsgər Cabbar oğlunun (03.08.1926-2000) anadan olmasının 90 illiyi

Coğrafiya elmləri doktoru, professor, hidroloq Rüstəmov Saleh Hacı oğlunun (25.08.1911-1985) anadan olmasının 105 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Əməkdar elm və texnika xadimi, riyaziyyatçı Hüseynzadə Məcid Əziz oğlunun (16.08.1916) anadan olmasının 100 illiyi

Kimya.Biologiya.Tibb

Əməkdar müəllim, kimya elmləri doktoru, professor Ağdamski Telman Əhməd oğlunun (06.08.1936) anadan olmasının 80 illiyi
Tibb elmləri doktoru, professor Məmmədov Əbülfəz Meybulla oğlunun (15.08.1926) anadan olmasının 90 illiyi
AMEA-nın müxbir üzvü, professor Salahov Mustafa Səttar oğlunun (29.08.1931) anadan olmasının 85 illiyi

Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor Məmmədova Məsumə Hüseyn qızının (07.08.1951) anadan olmasının 65 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Ş.İ.Xətai adına kütləvi kitabxananın (01.08.1991) yaradılmasının 25 illiyi
Azərbaycan Milli Konservatoriyasının kitabxanasının (10.08.2001) yaradılmasının 15 illiyi

Tarixdə bu gün

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (01.08.2001) **269**
Azərbaycan Respublikası ərazisində bütün idarə və müəssisələrin, dövlət və qeyri-dövlət qurumlarının, Azərbaycan dilində olan bütün nəşrlərin latın qrafikalı əlifbaya keçməsi (01.08.2001)
"Nəşri-Maarif" mədəni-maarif işləri sahəsində fəaliyyət göstərmiş xeyriyyə cəmiyyətinin (01.08.1906) yaradılmasının 110 illiyi
Azərbaycan Kinosu Günü (02.08.1898)
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü (05.08.1996)
Hərbi Donanma Günü (05.08.1992) **270**
Ermənistandakı azərbaycanlıların sonuncu nümayəndələri Meğri rayonunun Nüvədi kəndindən silah gücünə qovulmuşdur (08.08.1991)
Beynəlxalq Gənclər Günü (12.08.1999)
Azərbaycan Sərhəd Qoşunlarının Yaranması Günü (18.08.1994)
Beynəlxalq Humanitar Yardım Günü (19.08.2003)
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü (23.08.2008)
Cəbrayıl rayonunun işğalı günü (23.08. 1993) **271**
Füzuli rayonunun işğalı günü (23.08. 1993) **272**
Beynəlxalq Azərbaycan Muğamı Günü (26.08.2010)
Azərbaycan Dövlət Pedaqoji Universitetinin (26.08.1921) təsis edilməsinin 95 illiyi
Türkiyə Cümhuriyyətinin Zəfər Bayramı Günü (30.08.1936)
Qubadlı rayonunun işğalı günü (31.08.1993) **273**

90 illiyi

Söhrab Tahir
1926

Şair



Ədəbiyyat

Əsərləri /Əbülfəz oğlu Söhrab Tahiri.- 20 cilddə.- Bakı: [Zərdabi LTD], 2005- 2012.

Seçilmiş əsərləri / Söhrab Tahir Azərazər; ön sözün müəl. S. Rüstəmxanlı.- Bakı: Şərq-Qərb, 2005.- 272 s.

Ata: Poema-epos /Söhrab Tahir Azərazər.- Bakı: Ağrıdağ, 2002.-II kitab.- 208 s.

Pənah, G. Söhrab Tahir Azər Azərin lirikası /G.Pənah; elmi red. E. Əlibəyzadə, Q. Namazov; red. Y. Əhmədov.-Bakı: Şur, 2012.-447 s.

Sonuncu şah: Üç kitabdan ibarət tarixi-sənədli-bədii roman /Söhrab Tahir Azərazər.-Bakı: Ağrıdağ, 2001.-500 s.

Yusifli, V. Söhrab əmi... /V.Yusifli //Ədəbiyyat qəzeti.-2015.- 14 mart.- S.13.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Söhrab Əbülfəz oğlu Tahiri (Söhrab Tahir) 1926-cı il avqust ayının 6-da (bəzi mənbələrdə may ayının 27) Cənubi Azərbaycanın Astara şəhərində anadan olmuşdur. 1939- 1943-cü illərdə "Səadət" və "Şahpur" məktəblərində 9-cu sinfədək təhsil almış, ailə vəziyyətinin ağırlığı üzündən atası ilə "İran-İngilis neft şirkəti"ndə tornaçı, qaynaqçı, motorçu işləmişdir.

1941-ci ildə ailəsi ilə Təbrizə getmiş, bir müddət atasının qaynaqçı sexində işləmişdir. Cənubi Azərbaycanda Milli hökumət quru-lan zaman Azərbaycan Demokrat Partiyası Mərkəzi Komitəsi təşkilat şöbəsinin partiya bilet bölməsində möhürdar vəzifəsində işləmişdir.

İlk mətbu şeiri olan "Yaşa qüdrətli qoşun" 1949-cu ildə "Azərbaycan" qəzetində dərc olunmuşdur. O vaxtdan müntəzəm olaraq dövri mətbuatda "Ərdəbil", "Təbrizim", "Savalanım", "Ərk qalası", "Mərənd" və s. şeirləri, hekayə, ədəbi-tənqidi və publisistik məqalələrini dərc etdirmişdir. 1946-cı ildə Bakıya təhsil almağa göndərilmiş, Bakıda diş həkimliyi və feldşerlik məktəbini bitirmişdir. 1952-1957-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almış, 1959-1961-ci illərdə Moskvada M.Qorki adına Ali Ədəbiyyat kurslarında müdavim olmuşdur. 1959-1961-ci illərdə eyni zamanda Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsində (ADF MK-da) təlimatçı, ADF-nin Bakı şəhər komitəsinin birinci katibi, Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. 1962-1966-cı illərdə ADF-in Bakı komitəsində birinci katib, 1967-1973-cü illərdə "Azərbaycan" jurnalı redaksiyasında məsul katib, 1974-1980-ci illərdə ADF MK orqanı "Azərbaycan" qəzetinin və "Azərbaycan" jurnalının redaksiyalarında bədii şöbədə müdir, ADF-in nəzdində çıxan "Səhər" ədəbi-tarixi jurnalında baş redaktor müavini, 1981-1984-cü illərdə isə ADF MK-nın siyasi-nəzəri orqanı olan "Azərbaycan" jurnalının redaktoru olmuşdur.

1993-cü ildən Yeni Azərbaycan Partiyasının üzvüdür. 1993-2003-cü illərdə Azərbaycan Respublikası Elmlər Akademiyasının Milli Münasibətlər İnstitutunda aparıcı elmi işçi olmuşdur. 2003-cü ildən hal-hazıra kimi Azərbaycan Milli Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutunun böyük elmi işçisidir.

İndiyə qədər 1000-dən çox şeiri, 57 poeması, 8 romanı, 10 povesti, 70-dən çox hekayəsi, 800-dən artıq ədəbi-elmi-publistik məqaləsi çap olunmuşdur. Bununla yanaşı, xarici ölkələrdə də kitabları nəşr edilmişdir. İnqilabi, ədəbi-ictimai fəaliyyətinə görə Təbrizdə "21 Azər" medalı və bir sıra medallarla, Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə, 2010-cu ildə Rusiya Yazıçılar İttifaqı və onun Moskva şəhər təşkilatı nəzdində fəaliyyət göstərən Yazıçı-tərcüməçilər İttifaqının qərarı ilə Beynəlxalq V.V.Mayakovski ordeni ilə təltif olunmuşdur. 1984-cü ildən Azərbaycanın Əməkdar mədəniyyət işçisi, 1998-ci ildən Xalq şairidir. 2006-cı ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə "Şöhrət" ordeninə layiq görülmüşdür.

80 illiyi

Əlisa Nicat 1936

Şair

Ə d ə b i y y a t

Əsərləri: 24 cilddə. Şeirlər /Ə.Nicat; red. F.Ağazadə.- Bakı: Adiloğlu, 2009.- C.I.- 394 s.

Mələklər və iblislər: tarixi, siyasi roman: 1918-20-ci illər /Ə.Nicat; red. və ön sözün müəl. T.Hüseynoğlu.- Bakı: Adiloğlu, 2007.-306 s.

Müdriklik məbədi /Ə.Nicat.-Bakı: Nərgiz, 2005.-1107, [1] s.

Qızıl fəlsəfə: Dünyanın 100 ən dərin aforizmi və onların şərhi /Əlisa Nicat; red.: Hacıqafarlı; ön söz: Ə.Abbasov.-Bakı: Adiloğlu, 2003.-202 s.

Karvan: Seçilmiş əsərlər /Ə.Nicat.- Bakı: Qanun, 2000.- 759 s.

Kafkanın gündəlikləri /Ə.Nicat //Hürriyyət.- 2012.- 16-19 aprel.- S.14.

Bir suallı müsahibə: Əlisa Nicat-75 /Ə.Nicat //Hürriyyət.- 2011.- 5-7 avqust.- S.12.

İ n t e r n e t d ə

www.anl.az

www.kitabxana.net

Əlisa Qulam oğlu Hüseynov (Əlisa Nicat) 1936-cı il avqust ayının 10-da Azərbaycanın Lerik rayonunun Yuxarı Gədik kəndində anadan olmuşdur. 1957-1963-cü illərdə Lənkəran şəhər orta məktəbini bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır.

Bədii yaradıcılığa orta məktəbdə oxuyarkən başlamış, "Bircə söz" adlı ilk şeiri 1955-ci ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc olunmuşdur. 1961-ci ildə "Gecəniz xeyrə qalsın, ulduzlar" adlı ilk hekayəsi, 1964-cü ildə ilk şeirlər kitabı olan "Yay axşamı", 1970-ci ildə isə "Bir qız, üç çinar" adlı ilk hekayələr kitabı nəşr edilmişdir.

1967-1972-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində redaktor vəzifəsində çalışmışdır. 1974-1983-cü illərdə "Elm və həyat" jurnalında ədəbi işçi və daha sonra şöbə müdiri olmuşdur. Bir müddət Lənkəran rayonunun Şağlaküçə kəndində yaşamış, yaradıcılıqla məşğul olmuş "Zərdüşt", "Əsarət bayramı", "Gərəksiz" povestlərini qələmə almışdır. 1990-cı ildən Bakıya köçüb mətbuat sahəsində çalışmış, 1991-1992-ci illərdə "Turan" adlı müstəqil ədəbi, siyasi, tarixi, fəlsəfi jurnal təsis etmiş və onun baş redaktoru olmuşdur.

"Nağıllara dönən tarix" (1993), "Ruhların söhbəti" (1994), "Dünya sərkərdələri" (1995), "Dünya filosofları" (1995), "Kədər şərabı" (1997), "Dünya tarixçiləri" (1998), "Yüz böyük Azərbaycanlı" (1999), "Karvan" (2000), "Tarixin qürubu" (2009) kitablarını nəşr etdirmiş, Azərbaycan ədəbiyyatına fəlsəfi hekayə və pritça janrını gətirmişdir. Tarixi romanlar və fəlsəfi antologiya-ensiklopediyalar müəllifi kimi tanınır. Əsərləri 24 cilddə külliyyat halında nəşr olunmuşdur.

Görkəmli yazıçı tərcüməçilik fəaliyyəti ilə də məşğul olmuş, Plutarxın "Makedoniyalı İskəndər" (1982), Məhəmməd Tahirin "Şeyx Şamil" (1983), Alber Kamünün "Yad", Ceyma Coysun "Dublinlilər" və başqa əsərləri doğma dilimizə tərcümə etmişdir.

Şair, nasir, filosof Əlisa Nicat 1998-ci ildən "Hürriyyət" qəzetinin əməkdaşı kimi çalışır.

1999-cu il aprel ayının 28-də Azərbaycan Milli Elmlər Akademiyasının Fəlsəfə və Hüquq İnstitutunun Elmi şurasının qərarı ilə səmərəli elmi və elmi-maarifçilik fəaliyyətinə görə fəlsəfə elmləri üzrə Fəxri Doktor adına layiq görülmüşdür.

95 illiyi

Ələviyyə Babayeva 1921-2014

Yazıçı

Ə d ə b i y y a t

Rəngbərəng yuxular: 60 ildə gördüklərim, sevdiklərim və sevmədiklərim:Həyat-behişt və cəhənnəm əzabı /Ə.Babayeva; red. Arif Şamo.- Bakı: Araz, 2000.- 232 s.

Son döngə: roman /Ə.Babayeva; red. V.Quliyev.- Bakı: Azərnəşr, 2000.- 430 s.

Yanar su: roman /Ə.Babayeva; red. Z.Şahsevənli.- Bakı: Qapp-Poliqraf, 2003.- 225 s.

Gəncəli, S. Ələviyyə Babayeva /S.Gəncəli //Qadın, Gözəllik və Ülviyyət: ensiklopedik toplu.- Bakı, 2001.- S. 265.

Xəlilzadə, F. Qəhrəmanlarına bənzəyən yazıçı /F.Xəlilzadə// Kaspi.-2014.- 27 sentyabr.- S. 18.

Xəlilzadə, F. Sabah mütləq olacaq: Ələviyyə Babayeva - 90 /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 11 avqust.- S. 5.

Yerfi, R. Nəsrimizin ağbirçəyi /R.Yerfi //Kaspi.-2013.- 12-14 yanvar.- S. 21.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Ələviyyə Hənifə qızı Babayeva 1921-ci il avqust ayının 12-də Bakıda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır.

1951-1973-cü illərdə "Azərbaycan qadını" jurnalında məsul katib, 1973-1976-cı illərdə "Gənclik" nəşriyyatında Müasir ədəbiyyat şöbəsinin müdiri, 1976-1985-ci illərdə baş redaktor olmuşdur. 1951-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

Ələviyyə xanım bədii yaradıcılığa 1936-cı ildə "Ədəbiyyat qəzeti"ndə dərc olunmuş "İki həyat" adlı hekayəsi ilə başlamışdır. Onun kiçikyaşlı uşaqlar üçün "Mənim müəllimim", "Kənd yolları", "Yenə baharda", "Sehrli pillələr" hekayə kitabları çap edilmişdir. Uşaq yazıçısı kimi uzun illər kiçik hekayələr yazmış, uşaqların mənəvi dünyasının zənginləşməsinə, vətənpərvərlik ruhunda tərbiyələnmələrinə xidmət etmişdir.

"Kölgə", "Yarpaqlar nə haqda pıçıldaşır", "Tut" adlı hekayələr kitabını, "Adamlar və talelər", "Hardasan dost, harada", "Anadil ağlayırdı", "Yanar su", "Ölürəm, a dağlar" povest və romanlarını bu mövzuya həsr etmişdir.

Onun müasir rus ədəbiyyatından tərcümələri də var. A.Qaydarın "Uzaq ölkələr" (1950), V.Biankinin "İz ilə" (1947), "Ayı balası" (1959), "Qırmızı təpə" (1963), K.Paustovskinin "Oğru pişik" (1951), V.Q.Korolenkonun "Satın alınmış uşaqlar" (1962), Y.Sotnikin "Əcaib quş" (1964), V.Astafyevin "Ulduz xəzanı" (1970), Y.Çaruşinin "Nikitanın oyuncaqları" (1984) və s. onun tərcüməsində kütləvi tirajla çap olunmuşdur.

25-dən artıq kitabın müəllifidir. Bir sıra əsərləri rus, ingilis, türk, bolqar, çin, yapon və başqa dillərə tərcümə olunmuş və həmin ölkələrin nəşriyyatlarında çapdan çıxmışdır. Moskvada Azərbaycan ədəbiyyatı ongünlüyündə, həmçinin ölkəmizin bir çox yerlərində ədəbi tədbirlərdə iştirak etmişdir. Azərbaycan Yazıçılar İttifaqında qəbul komissiyasının üzvü, tərcümə seksiyasının rəhbəri olmuşdur.

2011-ci ilin avqust ayında Ələviyyə Babayevanın 90 illik yubileyi təntənəli şəkildə qeyd edilmişdir.

1979-cu ildə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Ələviyyə Babayeva 2014-cü il sentyabr ayının 23-də vəfat etmişdir.

90 illiyi

Qabil 1926-2007

Şair

Qabil Allahverdi oğlu İmamverdiyev 1926-cı il avqust ayının 12-də Bakıda anadan olmuşdur. 1948-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) dil və ədəbiyyat fakültəsini bitirmişdir. "Gəl, baharım!" adlı ilk şeiri 1944-cü il aprelin 2-də "Ədəbiyyat qəzeti"ndə çap olunmuşdur. Bir müddət öz şeirlərini "Qabil Nikbin" təxəllüsü ilə çap etdirmişdir. 1948-1951-ci illərdə M.F.Axundov adına Yardımlı rayon orta məktəbində müəllimlik etmiş, sonra isə Bakıdakı 40 saylı fəhlə-gənclər orta məktəbində dərs hissə müdiri, APİ-nin Azərbaycan ədəbiyyatı kafedrasında laborant, yenidən Yardımlı rayonunda müəllim kimi çalışmışdır. 1950-ci ildə "Səhər açılır" adlı ilk kitabı nəşr olunmuşdur. 1951-1954-cü illərdə "Azərbaycan müəllimi", "Kommunist" qəzeti redaksiyalarında əməkdaşlıq etmişdir.

1954-1956-cı illərdə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutu nəzdində olan ikiillik ali ədəbiyyat kurslarında müdavim olmuşdur. 1957-ci ildə Bakıya gəlmiş, Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində ədəbi-dram verilişləri redaksiyasının məsul redaktoru, 1960-1972-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasında Poeziya şöbəsinin müdiri, 1975-1979-cu illərdə "Azərbaycan" jurnalının redaksiyasında şeir üzrə ədəbi işçi, baş redaktorun müavini vəzifələrində işləmişdir. 1977-ci ildə İtaliyada keçirilən Azərbaycan günlərində, 1980-ci ildə "Literaturnaya qazeta"nın Daşkənddə təşkil etdiyi "dəyirmi masa"da, Türkiyənin Bursa, Qars, Ankara şəhərlərində keçirilən böyük ədəbi-ictimai tədbirlərdə, 1990-cı ildə Qeysəriyyədə Millətlərarası Böyük Azərbaycan konqresində, 1992-ci ildə Tehranda (İran), Şəhriyar poeziya günlərində, 1994-cü ildə Azərbaycan Prezidenti nümayəndə heyəti tərkibində Çində səfərdə olmuşdur.

Uşaq şairi kimi məşhur olmasa da, onun uşaqlar və yeniyetmələr üçün əsərlərindən ibarət "Nağaraçı" adlı kitabı, klassik ənənələrimizə əsaslanıb yeni məzmun aşıladığı minə yaxın rübailəri, "Nəsimi" mənzum romanı, "Ömür həbləri" satirik romanı, bir sıra ədəbi məqalələri ayrıca kitabda nəşr edilmişdir. Əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə çevrilmişdir.

Qabil 1976-cı ildə Azərbaycan Dövlət mükafatı laureatı olmuş, 1984-cü ildə "Əməkdar incəsənət xadimi", 1992-ci ildə isə "Azərbaycanın Xalq şairi" fəxri adlarına layiq görülmüşdür. 1980-ci ildə "Əmək igidliyinə görə" medalı və Azərbaycan Ali Soveti Rəyasət Heyətinin fəxri fərmanı ilə təltif edilmişdir. 1996-cı ildə Azərbaycan ədəbiyyatının inkişafındakı xidmətləri və anadan olmasının 70 illiyi münasibətilə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Fərmanı ilə "Şöhrət" ordeninə, 1998-ci ildə Ədəbiyyat Fondunun Rəsul Rza mükafatına layiq görülmüş, 2006-cı ildə "İstiqlal" ordeni ilə təltif edilmişdir. 1996-cı ildə 70 illik yubileyi təntənəli şəkildə Azərbaycan Opera və Balet Teatrında keçirilmişdir. 2001-ci ildə "Azərbaycan Telefilm Yaradıcılıq Birliyi"ndə şairə həsr edilən "Qabil" adlı film istehsal edilmişdir.

Xalq şairi Qabil 2007-ci il aprel ayının 3-də vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri /Qabil.- Bakı: Şərq-Qərb, 2004.- 247 s.

Dənizlər mavidir, meşələr yaşıl: Şeirlər və hekayə /Qabil.- Bakı: Şirvannəşr, 2003.-216 s.

Ömrün gecə qatarı: diqqət, vətəndaş sərnişinlər! ömrün gecə qatarına minik başlanır /Qabil; [red. A. İsabəyli].-Bakı: Şirvannəşr, 2007.-280 s.

Ömür həbləri: roman / Qabil.-Bakı: Şirvannəşr, 2005.- 228 s.

Rübailər /Qabil.- Bakı: Şirvannəşr, 2004.-280 s.

Xəyal, S. Qabil: yaradıcılığı əsasında /Sona Xəyal; red. və ön sözün müəl. Fikrət Sadıq.- Bakı: Yurd, 2006.-200 s.

Məmmədov, Ə. Poeziyamızın görkəmli nümayəndəsi: Qabilin anım gününə /Ə.Məmmədov//Xalq qəzeti.-2014.- 3 aprel.- S. 6.

www.anl.az

www.az.wikipedia.org

95 illiyi Seyfəddin Dağlı 1921-1983

Yazıçı



Ə d ə b i y y a t

Seçilmiş əsərləri: iki cilddə /S. Dağlı; (ön söz) Ağasəfa; [red. A. Hüseynova]Bakı: Azərnəşr, 1992.-379 s.

Məşəl yanır: hekayələr, povest və roman /S. Dağlı; red. Ağasəfa.-Bakı: Yazıçı, 1985.- 359, [1] s.

Şirin duz: roman /S. Dağlı ; rəyçi. R. Əliyeva ; [red. Ü. Kürçaylı].-Bakı: Azərnəşr, 1988.- 214 s.

Bahar oğlu... Novruza yetişmədi... /S. Dağlı// Qobustan: sənət toplusu.- 2014.- № 1/162.- S.19-21.

Abbaslı, T. Seyfəddin Dağlı : fizio-ideoloji surəti, şəxsiyyəti, özünə (və hamıya) məxsusluğu ilə seçilmiş Obraz... /T.Abbaslı //Mədəniyyət.- 2013.- 16 yanvar.- S. 13.

Xəlilzadə, F. Ustad və cəsarətli sənətkar: Seyfəddin Dağlı - 90 /F.Xəlilzadə//Azərbaycan.- 2011.- 23 avqust.- S. 5.

Unudulmaz satira ustası Seyfəddin Dağlı: Məşhur "Kirpi" jurnalının redaktoru//Azadlıq.- 2012.- 31 iyul.- S.14.

Seyfəddin Əliağa oğlu Abbasov (Seyfəddin Dağlı) 1921-ci il avqust ayının 27-də (bəzi mənbələrdə avqust ayının 21) Abşeronun Xızı kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur. 1927-ci ildə Bakıda yeddiillik məktəbi bitirdikdən sonra N.Nərimanov adına Sənaye Texnikumunun kimya fakültəsində təhsil almışdır. Tələbə ikən "Kommunist" qəzeti redaksiyasında müxbir, ədəbi işçi, şöbə müdiri və məsul katib vəzifələrində işləmişdir. 1941-1956-cı illərdə Sovet Ordusunda xidmət etmiş - avtomexanik, "Ordu" qəzetində ədəbi işçi, "Diviziya" qəzetinin redaktoru olmuşdur. Sovet ordusunun tərkibində İrana getmiş, sonra Moskvada Hərbi Akademiyaya qəbul olunmuşdur. Təhsilini başa vurub Bakıya qayıtdıqdan sonra həm jurnalistlik, həm də yaradıcılıq fəaliyyəti ilə məşğul olmuş, 1956-1959-cu illərdə Dövlət Radio Komitəsində baş redaktor, "Bakı" telestudiyasının direktoru və sədr müavini, "Kirpi" satirik jurnalının baş redaktoru olmuşdur.

1965-1973-cü illərdə Bakı zəhmətkeş deputatları Sovetinin X, XI, XII, XIII, XIV çağırışlarında deputat seçilmiş, 1976-cı ildə "Azərbaycanfilm" kinostudiyasında ssenari redkollegiyasının üzvü, 1980-cı ilin may ayından ömrünün sonuna qədər "Yazıçı" nəşriyyatında redaktor vəzifəsində çalışmışdır.

Yaradıcılığa şeirlə başlasa da sonralar bunu ardıcıl şəkildə davam etdirməmişdir. Onun satirik şeirlərindən bəzilərinə hətta musiqi də yazılmışdır. Bunlardan bəstəkar Cahangir Cahangirovun bəstələdiyi, müğənni Mirzə Babayevin oxuduğu "Çayçı" mahnısı çox məşhurdur. Sonralar respublika dövri mətbuatında çap etdirdiyi felyetonlarla yaradıcılığa davam etmiş, İkinci Dünya müharibəsi dövründə felyetonları və satirik hekayələri "Vətən uğrunda" jurnalında, "Ədəbiyyat qəzeti"ndə və Təbrizdə "Vətən yolunda" adlı hərbi qəzetdə çap olunmuşdur. 1948-ci ildə Azərbaycan dövlət nəşriyyatı "Dəniz kəşfiyyatçısı" adlı ilk kitabını sonralar isə "Bahar oğlu", "Məşəl", "Kəcil qapısı", "Sabiqlər" kitablarını nəşr etdirmiş və geniş oxucu kütləsinin rəğbətini qazanmışdır.

Əsərləri rus və digər xarici dillərə tərcümə olunmuşdur. Yazıçının dram əsərləri "Adı sənin, dadı mənim" (1963), "Aydınlığa doğru" (1965), "Mənziliniz mübarək" (1971), "Təzə gəlin" (1975), "Kölgələr pıçıldaşır" (1976) respublikanın müxtəlif teatrlarında tamaşaya qoyulmuşdur. "Bahar kimi solmaz" (1979) ədəbi ssenarisi əsasında film çəkilmişdir.

Azərbaycan ədəbiyyatının, mətbuatının inkişafında özünəməxsus xüsusi yeri olan görkəmli nasir, publisist, dramaturq, tərcüməçi, yumoristik novellalar, hekayələr müəllifi Seyfəddin Dağlı 1983-cü il yanvar ayının 28-də vəfat etmişdir. Bakı küçələrindən birinə onun adı verilmişdir.

245 illiyi Valter Skott 1771-1832

İngilis yazıçısı

Ə d ə b i y y a t

Ayvənhəu: [roman] /V. Skott; ing. dil. tərc. ed. Q. Bayramov; red. İ. Qasımov.- Bakı: Şərq-Qərb, 2013.- 518, [2] s.

Valter Skott. Bir saat sənınlə.Kventin Dorvard. //İngilis ədəbiyyatı antologiyası: 2 cilddə /tərt. ed. Z. Ağayev; tərc. ed. S. Mustafa, Ş. Nağıyeva, A. Hacıyev [və b.].- Bakı: Şərq-Qərb, 2007.- C. 1.- S.171-187 s.

Собрание сочинений: в 10 т. /В. Скотт ; [пер. с англ. И. Лихачева ; вступ. ст. Е. Кузнеца; ред. Ю. Григорьян, Э. Артемьева-Скворцова].-Москва: Терра, Книжный клуб Книговек, 2015.

Айвенго /Вальтер Скотт; [пер. с англ. Е. Г. Бекетовой].-Санкт-Петербург: Нева, Москва: 2006.- 608 с.

Эдинбургская темница: [роман] /В. Скотт; [пер. с англ. З. Е. Александровой, С. П. Мирлиной].-Москва: АСТ, Транзиткнига, 2004.-525, [3] с.

Skott Valter 1771-ci il avqust ayının 15-də İngiltərənin Şotlandiya vilayətində anadan olmuşdur. Milliyyətcə şotlanddır. 1779-1984-cü illərdə Edinburq məktəbində təhsil almış, 1785-ci ildə Edinburq kollecinə qəbul olunmuşdur. Tələbəlik dövründən çox mütaliə etmiş, antik dövrün ədəbiyyatı və Şotlandiya poeziyası, alman dili və alman yazıçılarının əsərləri ilə maraqlanmış, tələbə yoldaşları ilə birgə "Poetik cəmiyyət" dərnəyi təşkil etmişdir. 1792-ci ildə Edinburq Universitetini hüquqşünas ixtisası üzrə bitirmişdir.

Yaradıcılığa XVIII əsrin 90-cı illərində poeziya ilə başlamış 1800-cü ildən etibarən bir neçə il ərzində Şotlandiyanın ucqar yerlərini gəzərək topladığı xalq nəğmələrini 1802-ci ildə "Şotlandiyanın sərhəd nəğmələri" adı ilə ikicilddə, nəğmələrin üçüncü cildini isə 1803-cü ildə çap etdirmişdir. Bu topluya daxil edilmiş xalq şeirinin əsl nümunələrində Şotlandiya tarixinə aid çox zəngin materiallar vardır. Bu topludan sonra yazıçı dalbadal "Sonuncu menestrelin mahnısı", "Marmion", "Göl qızı", "Rokbi" adlı romantik poemalarını yazmışdır. Xüsusən, "Sonuncu menestrelin mahnısı" (1805) əsəri müəllifə, qədim Şotlandiyanı çox gözəl təsvir etdiyinə görə böyük şöhrət qazandırmışdı.

Tarixi roman janrının yaradıcısı olmuşdur. Otuzdan çox roman və povestin müəllifidir. Romanlarını gizli imzalarla dərc etdirmiş, müəllifliyini yalnız 1829-cu ildə, əsərlərinin tam külliyatının nəşri ilə əlaqədar açıq elan etmişdir.

Mühüm sosial-tarixi konfliktlərin təsiri, xalqın və dövlətin taleyi, cəmiyyətin inkişafı, sosial ədalətsizlik, milli və sinfi mübarizə problemləri ilə bağlılıq Skottun tarixi romanlarının əsas xüsusiyyətləri idi. "Ueverli" (ilk romanı, 1814, anonim nəşr), "Puritanlar" (1816), "Rob Roy" (1818), "Edinburq məhbəsi" (1818),"Ayvenqo", "Abbat" (1820), "Kenilvord" (1821), "Vudstok" (1826) və s. romanları İngiltərə, "Kventin Dorvard" (1823), "Parisli qraf Robert" (1832) və s. romanları Avropa ölkələrinin tarixindən bəhs edir.

Yaradıcılığında romantizmdən realizmə keçid özünü göstərmiş, 1816-cu ildə yazdığı "Puritanlar" və "Lammermurlu gəlin" romanlarında tənqidi-realist meyillər xüsusilə güclü olmuşdur. "Napoleon Bonapartın həyatı" (1827), "Şotlandiyanın tarixi" (1829-1830), "Lord Bayronun ölümü" (1824), "Romançıların həyatı" (1821-1824) və s. tarixi-ədəbi əsərləri məşhurdur.

Valter Skottun yaradıcılığı Avropa və Amerika ədəbiyyatında sosial roman janrının inkişafına güclü təsir göstərmiş, Stendal onu "bizim ümumi atamız" adlandırmış, O.Balzak, A.S.Puşkin, V.Q.Belinski və başqaları yaradıcılığını yüksək qiymətləndirmişlər.

Valter Skott 1832-ci il sentyabr ayının 21-də Abbotsford şəhərində vəfat etmişdir.

145 illiyi Teodor Drayzer 1871-1945

Amerika yazıçısı

Ə d ə b i y y a t

Cenni Herhart: roman /T.Drayzer; tərc. C.Bağır.- Bakı: [Qanun], [Əli və Nino], [2014].- 398 s.

Dahi:roman /T.Drayzer; tərc. ed. C.Bağır.-[Bakı]: [Qanun], [2014].- 806 s.

Kerri bacı: roman /T.Drayzer; tərc. C.Bağır.-[Bakı]: [Qanun], [Əli və Nino], [2014].- 540 s.

Böyük şəhərlərdə tənhalıq /T.Drayzer//Ədəbiyyat qəzeti.- 2015.- 6 fevral.- S.11.

Американская трагедия: роман /Т.Драйзер; [пер. с англ. З.Вершининой, Н.Галь].- Москва: Эксмо, 2006.-793 с.

Финансист: роман /Т.Драйзер; пер. с англ.: М. Волосова; Серийное оформление художника: А.Яковлева.-Москва: Эксмо, 2006.- 604 с.

Rəcəbli, Ə.Ə. T.Drayzer və onun "Amerika faciəsi" romanı /Ə.Ə.Rəcəbli; elmi red. Z.Ağayev.- Bakı: Nurlan, 2004.- 152 s.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

Drayzer Herman Albert Teodor 1871-ci il avqust ayının 27-də İndiana ştatının Teppe-Xot şəhərində anadan olmuşdur.

1886-1891-ci illərdə Çikaqoda çalışmış, 1889-cu ildə İndiana universitetinə qəbul olsa da maddi vəziyyəti üzündən təhsilini yarımçıq qoymuş, 1892-1894-cü illərdə Çikaqo, Sent-Lui, Pitsburq şəhərlərinin qəzetlərində jurnalist kimi ədəbi fəaliyyətə başlamışdır. 1894-cü ildə Nyu-Yorka köçmüş və burada qardaşının təsis etdiyi «Every month» jurnalında 1897-ci ilədək redaktor kimi çalışmışdır. Sonra sifarişlə "Metropoliten", "Harpers", "Kosmopoliten" əsərlərini yazmışdır.

İlk oçerk və hekayələri 1897-ci ildə çap olunmuşdur. 1900-cü ildə ilk irihəcmli əsəri olan "Kerri bacı", 1911-ci ildə "Cenni Herhardt" romanlarında sadə insanların mənəviyyatını pozan Amerika həyat tərzini tənqid etmişdir. 1912-ci ildə "Arzular trilogiyası" epopeyasına daxil olan "Maliyyəçi", həmin ildə yazdığı "Dözümlü adam" və 1914-cü ildə "Titan" romanlarında Amerika inhisarçı kapitalizmi ifşa olunmuş, 1915-ci ildə yazdığı "Dahi" romanında burjua cəmiyyətində sənətkarın mənəvi faciəsi göstərilmişdir.

1915-ci ildən sonra Drayzer ictimai qaydaların adi insanlara göstərdiyi əzici təsiri əks etdirən hekayə və esselər yazmağa başlayır. Bu ideya bir məhkəmə prosesinin protokoluna əsaslanan, Amerika ədəbiyyatında realizmin zirvəsi və ədibin ən məşhur əsəri olan "Amerika faciəsi"nin mövzusunu təşkil edirdi.

1927-ci ildə dəvətlə SSRİ-yə gəlmiş, 1928-ci ildə "Drayzer Rusiyaya baxır" kitabını yazmışdır. Həmin vaxtdan fəhlə sinifinin mübarizəsinə qoşulmuş, 1929-cu ildə "Ernita" povestində Amerika ədəbiyyatında ilk kommunist surətini yaratmışdır.

1930-cu ildə ədəbiyyat üzrə Nobel mükafatı almaq üçün namizədliyi irəli sürülsə də bu ona qismət olmamışdır. 1932-ci ilin noyabr ayında Drayzer "Paramount" şirkəti ilə "Cenni Herhardt" romanı əsasında film çəkilişi barədə müqavilə imzalamışdı. 1944-cü ildə ədəbiyyat və incəsənət sahəsindəki xidmətlərinə görə Amerika İncəsənət və Ədəbiyyat Akademiyası yazıçını fəxri qızıl medalla təltif etmişdir.

Drayzer faşizm əleyhinə mübarizədə iştirak etmiş, 1945-ci ildə ABŞ Kommunist Partiyasına daxil olmuşdur.

Amerika yazıçısı, ictimai xadim, Amerika ədəbiyyatında realizmin ən görkəmli nümayəndələrindən biri Teodor Drayzer 1945-ci il dekabr ayının 28-də Hollivudda (Kaliforniya ştatı) vəfat etmişdir.

85 illiyi Rəfiqə Axundova 1931

Baletmeyster

Rəfiqə Hacı qızı Axundova 1931-ci il avqust ayının 7-də Bakıda anadan olmuşdur. 1950-ci ildə Bakı Xoreoqrafiya məktəbini yüksək qiymətlərlə bitirmişdir. Təhsilini bitirən kimi Moskvada Böyük Teatrda təkmilləşmə kursu keçmişdir. 1951-ci ildən ömrünü Azərbaycan Opera və Balet Teatrına bağlayan Rəfiqə Axundova 20 il burada solist kimi çalışmışdır. Uzun müddət həmin teatrın baletmeysteri olmuş, 1990-cı ildə isə baş baletmeysterliyə yüksəlmişdir.

l998-2000-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində plastika və baletmeyster sənəti fənlərindən dərs demişdir. Onun təşəbbüsü və rəhbərliyi ilə universitetdə "rəqs laboratoriyası" yaradılmışdır.

"Qız qalası" (Ə.Bədəlbəyli), "Yeddi gözəl", "İldırımlı yollarla" (Q.Qarayev), "Gülşən" (S.Hacıbəyov), "Məhəbbət əfsanəsi" (A.Məlikov), "Baxçasaray fontanı" (B.Asafyev), "Jizel" (A.Adan) və s. baletlərdə əsas partiyaların ifaçısı olmuşdur.

M.Məmmədovla birlikdə Azərbaycan Opera və Balet Teatrında "Xəzər balladası" (T.Bakıxanov), "Qobustan kölgələri" (F.Qarayev), "Yallı", "Azərbaycan süitası" (R.Hacıyev), "Babək" (A.Əlizadə), "Şelkunçik" (P.Çaykovski), hətta 1975-1978-ci illərdə Qara Qarayevin "İldırımlı yollarla" və "Yeddi gözəl" baletlərinə quruluş da vermişdir.

Uzun müddət Əlcəzair, İsveç, Misir və Belçikada pedaqoq-baletmeyster işləmiş, Əlcəzairdə "Üç inqilab" adlı baletini (R.Hacıyev, M.Məmmədovla birgə) və "Muğam" musiqili xoreoqrafiya lövhəsini tamaşaya qoymaqla adını bu ölkənin mədəniyyət tarixinə həkk etdirmişdir. XX əsrin 70-ci illərində Novosibirskdə "İldırımlı yollarla" baletinin quruluşunu vermiş, Qahirədə "Yeddi gözəl", Antverpendə "Kaleydoskop" baletlərini (M.Məmmədovla birgə) tamaşaya qoymuşdur.

1969-cu ildə Parisdə keçirilən VII Beynəlxalq Rəqs Festivalında onun iştirakı ilə "Xəzər balladası", "Qobustan kölgələri", "Azərbaycan süitası" nümayiş etdirilmişdir. Paris Rəqs Akademiyasının diplomuna layiq görülən Rəfiqə Axundovanın özünəməxsus sənəti və istedadı haqqında Fransa mətbuatı maraqlı rəylər dərc etdirmişdir.

1994-cü ildə Qara Qarayevin "Yeddi gözəl" baletini (M.Məmmədovla birgə) Ankarada tamaşaya qoymuşdur. "Doğma xalqıma", "Dədə Qorqud", "Qərib cinlər diyarında", "Qayınana", "Yeddi gözəl", "Bəyin oğurlanması", "Bir qəlbin iki dastanı" və s. filmlərdə Rəfiqə Axundovanın özünəməxsus, şux milli rəqsləri yaddaşlara həkk olunmuşdur.

Azərbaycan baletinin inkişafındakı xidmətlərinə görə Rəfiqə Axundova 26 aprel 1958-ci ildə Azərbaycan Respublikasının "Əməkdar artisti", 21 may 1970-ci ildə "Xalq artisti" fəxri adlarına, "Şərəf nişanı" ordeninə layiq görülmüşdür.

Azərbaycan Dövlət Televiziyası 2001-ci ildə qüdrətli balet ustaları Rəfiqə Axundovanın və Maqsud Məmmədovun yaradıcılığına həsr olunmuş "İki qəlbin bir dastanı" sənədli filmini çəkmişdir.

Ədəbiyyat

Xəlilzadə, F. Xoreoqrafiya sənətinin ulduzu: Xalq artisti, baletmeyster Rəfiqə Axundovanın anadan olmasının 80 illiyi münasibətilə /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 7 avqust.- S.5.

İradə. "Məhəbbət əfsanəsi"ndən məhəbbət dastanınadək /İradə //Mədəniyyət.- 2011.- 5 avqust.- S.12.

Rəhimli, İ. Maqsud Məmmədov və Rəfiqə Axundova //Rəhimli İ. Azərbaycan teatr tarixi: dərslik.- Bakı, 2005.- S.298-299.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

115 illiyi Xan Şuşinski 1901-1979

Xanəndə

İsfəndiyar Aslan oğlu Cavanşirov (Xan Şuşinski) 1901-ci il avqust ayının 20-də Şuşa şəhərində anadan olmuşdur. Qarabağ xanəndəlik məktəbinin nadir simalarından biridir. On altı yaşında olarkən ustadı İslam Abdullayevlə birgə iştirak etdiyi məclisdə "Kürdü-Şahnaz" muğamını heyrətamiz bir tərzdə ifa etdiyinə görə müəllimi ona "Xan Şuşinski" adını vermişdir. Xanın bir xanəndə kimi yetişməsində Cabbar Qaryağdıoğlunun və Seyid Şuşinskinin də böyük təsiri olmuşdur.

1920-ci ildə Bakıya gələrək öz ifaçılıq fəaliyyətini daha da genişləndirmişdir. 1934-cü ildə Tiflis şəhərində keçirilən Zaqafqaziya xalqlarının birinci incəsənət olimpiadasında birinci mükafata layiq görülmüş və Zaqafqaziya Mərkəzi İcraiyyə Komitəsinin birinci dərəcəli Fəxri fərmanı ilə təltif edilmişdir. 1944-cü ildə Azərbaycanın bir qrup incəsənət nümayəndələri ilə birlikdə İrana getmiş, Tehran, Təbriz, Ərdəbil, Qəzvin, Rəşt və s. şəhərlərdə müvəffəqiyyətlə çıxış etmişdir. Xanəndənin səsi 25 yaşında necə qüdrətli və təravətli idisə, 70-75 yaşlarında da eyni əzəmət, eyni nikbinliklə səslənirdi. Xan Şuşinski bir sıra mahnı ("Şuşanın dağları", "Məndən gen gəzmə", "Ay gözəl" və s.) və təsniflər bəstələmişdir. Onun ifasında səslənən "Mirzə Hüseyn segahı", "Şahnaz", "Qarabağ şikəstəsi", "Kürd-şahnaz", "Rast", "Bayatı-Şiraz", "Qatar", "Cahargah", "Mahur", "Heyratı", "Şur", "Segah Zabul" ritmik muğamları, bir sıra təsniflər, "Qara qaşın vəsməsi", "Süsən-sünbül", "Alma almaya bənzər", "Girdim yarın bağçasına", "Apardı sellər Saranı" və s. xalq mahnıları musiqi fonotekamızın qızıl fonduna daxil olmuşdur.

Xan Şuşinski 1939-cu ildən Bakıda yaşamış, qırx ilə yaxın Azərbaycan Dövlət Filarmoniyasının solisti olmuşdur. 1960-cı ildə Azərbaycan Dövlət Filarmoniyasının nəzdində Muğam studiyası yaratmış və burada gənc xanəndələrə muğamın sirlərini öyrətmişdir. Xanəndə, həmçinin A.Zeynallı adına Musiqi Məktəbində də dərs demişdir. Əsl yaradıcı sənətkar kimi Azərbaycan muğamlarını, milli musiqi xəzinəsini yeni mahnılarla zənginləşdirmiş, bir neçə muğama yeni xallar, guşə və şöbələr əlavə etmişdir. Bu baxımdan onun "Qəmərim", "Şuşanın dağları" mahnıları dillər əzbəri olmuşdur. 1971-ci ildə Azərbaycanın musiqi ictimaiyyəti Xanın 70 illik yubileyini keçirmişdir.

1943-cü ildə "Xalq artisti" fəxri adına layiq görülmüş, "Şərəf nişanı" ordeni və bir çox medallarla təltif edilmişdir.

Böyük xanəndə Xan Şuşinski 1979-cu il mart ayının 18-də Bakıda vəfat etmişdir.

2013-cü il aprel ayının 29-da Beynəlxalq Muğam Mərkəzində Xan Şuşinskinin virtual muzeyinin və memorial saytının təqdimatı keçirilmişdir. Adına muğam festivalı keçirilmiş, fond yaradılmış, haqqında film çəkilmişdir.

Ədəbiyyat

Çəmənli, M. Muğam dünyasının xanı: Xatirələr /M.Çəmənli; red. G.Ələkbərqızı.- Bakı: Gənclik, 2001.- 272 s.

Şuşinski F. Xan Şuşinski: [monoqrafiya] /F.Şuşinski; red. S.İsmayılova; ön söz. T.Quliyev.-Bakı: İşıq, 1989.-104 s.

Abdullayeva, T. Səsin və ifanın Xan ucalığı /T.Abdullayeva //525-ci qəzet.-2014.- 23 avqust.- S.16.

Əhmədalılar, T. Xan! /T.Əhmədalılar //Mədəniyyət .-2013.- 21 avqust.- S.10.

Xan Şuşinski //Muğam ensiklopediyası; Heydər Əliyev Fondu /red. hey. sədri, baş redaktor Mehriban Əliyeva.- Bakı, 2008.- S.188-189.

Muğamın Xanı... : Böyük Xan Şuşinskidən 9 əhvalat //Ekspress.- 2014.- 21 avqust.- S.15.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

90 illiyi

Nazim Əliverdibəyov
1926-1985

Bəstəkar

Ə d ə b i y y a t

Bir hissəli əsərlər [Notlar] /Ü. Hacıbəyov; işləyəni N. Əliverdibəyov.- Bakı: 1985.- 43 s.

İki romans və mahnı [Notlar] : səs və fortepiano üçün /N. Əliverdibəyov; H. Cavid.- Bakı: 1982.- 13 s.

Mahnılar [Notlar]: fortepiano ilə oxumaq və xor üçün /mus. N. Əliverdibəyov.- Bakı: İşıq, 1979.- 51, [1] s.

Əliverdibəyov Nazim Ağalar oğlu //Üzeyir Hacıbəyli ensiklopediyası; Azərbaycan Mədəniyyətinin Dostları Fondu.- Bakı, 2008.- S.47.

Əliverdibəyov Nazim Ağalar oğu //Muğam ensiklopediyası; Heydər Əliyev fondu.- Bakı, 2008.- S.64.

İbrahimova, S. Nazim Əliverdibəyovun A-capella xor üçün işlədiyi "Bayatı-şiraz"ın ladstruktur xüsusiyyətləri /S.İbrahimova // Musiqi dünyası.- 2011.- №2/47.- S.36-44.

Nazim Ağalar oğlu Əliverdibəyov 1926-cı il avqust ayının 24-də Kislovodsk şəhərində anadan olmuşdur.

İlk musiqi təhsilini 1938-1944-cü illərdə Bakı Musiqi Texnikumunda, sonra onillik musiqi məktəbində (indiki Bülbül adına Orta-ixtisas Musiqi Məktəbi) V.Anşeleviçin violonçel sinfində almışdır. Onillik musiqi məktəbinin buraxılış imtahanı zamanı özünün bəstələdiyi ilk pyeslərindən birini çalmışdır. Daha sonra Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasının bəstəkarlıq fakültəsində təhsilini davam etdirərək 1952-ci ildə professor Cövdət Hacıyevin bəstəkarlıq sinfini bitirmişdir.

Musiqinin müxtəlif janrlarına müraciət etmiş, uşaqlar üçün "Cırtdan" nağıl-operasının, "Nazxanım naz edir" musiqili komediyasının, "Muğan" xoreoqrafik lövhələrinin, iki balet süitasının, "Mingəçevir" simfonik poemasının, xalq çalğı alətləri orkestri üçün "İçəri şəhər" adlı musiqi lövhələrinin, A.Puşkinin sözlərinə "Çiçək" romanının, Hüseyn Cavidin sözlərinə silsilə romansların, çoxlu sayda kamera-instrumental və xor əsərlərinin, kinofilmlərə və teatr tamaşalarına yazılmış musiqilərin müəllifidir. Onun, xüsusilə "Bayatı-Şiraz" muğamının akapella xor üçün işləməsi çox orijinaldır.

Nazim Əliverdibəyov Ü. Hacıbəylinin "Leyli və Məcnun" və "Əsli və Kərəm" operalarının klavir və partiturasının yeni redaktəsini hazırlamışdır. Hazırda bu operalar onun redaktəsi ilə Azərbaycan Dövlət Opera və Balet Teatrında tamaşaya qoyulur.

1951-ci ildən Bülbül adına Orta-ixtisas Musiqi Məktəbində nəzəriyyə və bəstəkarlıq üzrə müəllimlik etmiş, 1964-1985-ci illərdə - 20 ildən artıq bu məktəbə rəhbərlik edərək gənc nəslin musiqi-estetik tərbiyəsi sahəsində əzmlə çalışmışdır. 1960-cı ildən Azərbaycan Dövlət Konservatoriyasında "Azərbaycan xalq musiqisinin əsasları" fənnindən dərs demişdir.

Nazim Əliverdibəyov 1956-cı ildə Azərbaycan Bəstəkarlar İttifaqının üzvü olmuş, respublikanın musiqi həyatında fəal iştirak etmişdir.

Simli kvartet (1950), "Qəhrəmanlıq"- Simfonik orkestr üçün uvertüra (1951), Simfonik orkestr üçün Balet süitası (1956), Simfonik orkestr üçün "Rəqs suitası" (1978), violançel ansamblı və simfonik orkestr üçün "Skertso" və "Vals" (1978) və başqa əsərləri məşhurdur.

Görkəmli bəstəkar Nazim Ağalar oğlu Əliverdibəyov 1985-ci il fevral ayının 17-də Bakı şəhərində vəfat etmişdir.

115 illiyi İsmayıl Hidayətzadə 1901-1951

Rejissor

İsmayıl Hüseyn oğlu Hidayətzadə 1901-ci il avqust ayının 19-da (bəzi mənbələrdə 1 sentyabr) Bakıda anadan olmuşdur.

Ailə vəziyyəti ilə əlaqədar olaraq "İttihad" məktəbində güzəştlə oxumağa izn verilmiş, lakin 1917-ci ildə atasının vəfatından sonra təhsildən uzaqlaşmaq məcburiyyətində qalmışdır. Elə həmin ildən də Bakıdakı müxtəlif dram həvəskarları dərnəklərində aktyorluq etmiş, hətta tamaşalar hazırlamışdır. 1919-cu ilin payızında müxtəlif teatr truppaları birləşib "Dövlət Teatrosu" kimi fəaliyyətə başlayanda kollektivin nəzdində İsmayıl Hidayətzadə də vardı.

Rejissorluq sənətinə də maraq göstərmiş, Azərbaycan teatrında çalışan rus rejissorlardan olan İvanovun yanında müavin işləmişdir. 1926-ci ildə arabir özünü rejissorluqda sınamış, sonra Mirzə Rza Vaizzadənin "Səyavuş" pyesini tamaşaya qoymuşdur.

İndiki Milli Dram Teatrında 1937-ci ilədək aktyor, sonra həm də rejissor işləmişdir. Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının məşqləri ilə bağlı Azərbaycan Dövlət Opera və Balet Teatrına rejissor ştatına keçmiş, az sonra kollektivə baş rejissor təyin olunmuşdur. Teatr tənqidçilərinin bəyəndiyi "Siyavuş"dan sonra Opera və Balet Teatrında "Koroğlu" və "Karmen" operalarını, Rus Dram Teatrında "1905-ci ildə", "Vaqif" tamaşalarını səhnələşdirmişdir. 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günlərində onun quruluş verdiyi "Koroğlu" və "Arşın mal alan" tamaşaları böyük uğur qazanmışdır. Bu, İsmayıl Hidayətzadənin rejissor kimi şöhrətini artırmış və Moskvadan qayıdandan sonra o, Opera və Balet Teatrının rəhbəri təyin edilmişdir.

Rejissor və teatr xadimi İsmayıl Hidayətzadə aktyor kimi coşğun ehtirasa, tükənməyən enerjiyə malik idi. Səhnədə çevik və həssas görünürdü. Şərif, Mazandaranski, Əmiraslan bəy Salamov və Xosməmməd ("Almaz", "1905-ci ildə", "Oqtay Eloğlu" və "Dönüş", Cəfər Cabbarlı), Şvandiya ("Lyubov Yarovaya", Konstantin Trenyov), Şmaqa ("Günahsız müqəssirlər", Aleksandr Ostrovski), Hacı Qara ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Cücə və Şakro ("Topal Teymur" və "Knyaz", Hüseyn Cavid), Pyer ("İki yetimə", Adolf Denneri və Germon), Rəmzi ("Tələbələrin kələyi", Brandon Tomas), Şeyx Nəsrulla ("Ölülər", Cəlil Məmmədquluzadə), rolları aktyorun parlaq sənət qələbələri kimi qiymətləndirilmişdir.

Görkəmli aktyor, rejissor 1933-cü ildə "Əməkdar artist", 1938-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

İsmayıl Hidayətzadə 1951-ci il noyabr ayının 1-də Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Cəfərov, C. İsmayıl Hidayətzadə /C.Cəfərov; red. İ.Rəhimli.- Bakı: Çaşıoğlu, 2005.- 132 s.

"Balaca Ərəblinski" ləqəbli böyük sənətkar //Azadlıq.- 2013.- 13-14 yanvar.- S.14.

Xəlilzadə, F. "Balaca Ərəblinski"nin böyük arzuları: Sənət dünyası /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 19 avqust.- S.5.

Mükərrəmoğlu, M.O, sənətini həyatı qədər sevirdi: İsmayıl Hidayətzadə - 110 /M.Mükərrəmoğlu //Xalq qəzeti.- 2011.- 14 avqust.- S. 6.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

40 illiyi

Emin Quliyev 1976-1995

Milli Qəhrəman

Emin Ələkbər oğlu Quliyev 1976-cı il avqust ayının 12-də Bakının Qaradağ rayonunun Sahil qəsəbəsində anadan olmuşdur. 1993-cü ildə 273 saylı məktəbi bitirmiş, 25 avqust 1994-cü ildə Qaradağ rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılmışdır. Yalamada hərbi təlim keçdikdən sonra 776 saylı hərbi hissəyə göndərilmişdir. Emin Quliyev xidmət etdiyi batalyonun əsgərləri ilə birlikdə 1995-ci ilin fevral ayının əvvəllərində Şubanıya ezam olunmuşdur. Burada özünün əsgəri keyfiyyəti ilə fərqlənmiş, daim komandirin diqqət mərkəzində olmuşdur. 1995-ci ilin 17 mart hadisələrində Emin vətəndaşlıq və əsgəri borcunu yerinə yetirərək dövlət çevrilişinə cəhdin qarşısının alınmasında xüsusi fəallıq göstərmişdir. Yaralıların döyüş meydanından çıxarılmasında, aparılan döyüş əməliyyatlarında fəal iştirak etmiş, özü də bu döyüşdə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Quliyev Emin Ələkbər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Məzarı doğulduğu Sahil qəsəbəsindəki Şəhidlər Xiyabanındadır.

Bakının Qaradağ rayonunun Sahil qəsəbəsindəki 14 saylı xüsusi internat məktəbi, Qaradağ rayonunda bir küçə və park Milli Qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Quliyev Emin Ələkbər oğlu-Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Əsgərov, V. Quliyev Emin Ələkbər oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.165.

Quliyev Emin Ələkbər oğlu //Azərbaycanın Milli Qəhrəmanları /tərt. ed. H.Həmidova; M.F.Axundov adına Milli Kitabxana.- Bakı, 2008.- S.121-122.

Seyidzadə, M. Quliyev Emin Ələkbər oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.126.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

60 illiyi İsgəndər Aznaurov 1956-1992

Milli Qəhrəman

İsgəndər Söhrab oğlu Aznaurov 1956-cı il avqust ayının 16-da Özbəkistan Respublikası Buxara vilayətində anadan olmuşdur. 1963-1973-cü illərdə orta məktəbdə təhsil almış, sonra əmək fəaliyyətinə başlamışdır. 1975-ci ildə Akkurqan rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmış, 1977-ci ildə ordudan tərxis olunmuşdur. Nümunəvi hərbi xidmətə görə dəfələrlə komandanlığın təşəkkürlərinə və fəxri fərmana layiq görülmüşdür. İsgəndər 1978-ci ildə Daşkənd İrriqasiya İnstitutuna daxil olmuş, 1983-cü ildə ali təhsilini başa vurub təyinatla Daşkənd vilayəti Axanqaran rayonu Qalyakudur sovxozuna göndərilmişdir.

1990-cı ildə ailəsi ilə birlikdə Azərbaycanın Şəmkir rayonunun Kür qəsəbəsinə köçmüş, burada cihazqayırma zavodunda çalışmışdır. Erməni işğalçılarının torpaqlarımıza basqını İsgəndəri narahat etmiş, 21 aprel 1992-ci ildə könüllü Milli Ordu sıralarına yazılmışdır. 861 saylı hərbi hissənin artilleriya üzrə komandir müavini təyin edilmişdir. Baş leytenant Gədəbəy rayonunun Şınıx bölgəsində peşəkar hərbçi kimi düşmənin mühüm hərbi bazalarının məhv edilməsində şücaət göstərmişdir. Ağır döyüşlərin birində düşmənin dörd topunu sıradan çıxararaq onlarla erməni yaraqlısını məhv etmişdir. Onun rəhbərliyi altında keçirilən əməliyyat zamanı sərrast top atəşləri ilə düşmən mövqelərinə ciddi zərbələr vurulur, silah-sursat anbarları dağıdılırdı. 18 aprel 1993-cü ildə igid zabit son döyüşə girmiş və bu döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 15 yanvar 1995-ci il tarixli 262 saylı Fərmanı ilə baş leytenant Aznaurov İsgəndər Söhrab oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Bakının Şəhidlər Xiyabanında dəfn edilmişdir. Onun adına Şınıx bölgəsində "İsgəndər qalası" var. Kür qəsəbəsindəki 1 saylı məktəb qəhrəmanın adını daşıyır. Məktəbin girişində büstü qoyulmuşdur, 2 saylı orta məktəbdə isə onun şərəfinə "Xatirə guşəsi" yaradılmışdır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının bir qrup hərbi qulluqçusuna və polis işçilərinə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında [Aznaurov İsgəndər Söhrab oğlu - Müdafiə Nazirliyi, baş leytenant - Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi səxsi igidlik və şücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun şərəflə yerinə yetirilməsindəki misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 15 yanvar 1995-ci il //Azərbaycan.- 1995.- 17 yanvar.- S.1. (Ölümündən sonra)

Aznaurov İsgəndər Söhrab oğlu //Azərbaycanın Milli Qəhrəmanları / M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.32-33.

Əsgərov, V. Aznaurov İsgəndər Söhrab oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşri.- Bakı, 2010.- S.43-44.

Seyidzadə, M. Aznaurov İsgəndər Söhrab oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.23.

www.anl.az; www.az.wikipedia.org; www.milliqahraman.az; www.muallim.edu.az

40 illiyi

Eldar Xəlilov 1976-1995

Milli Qəhrəman

Eldar Xəlil oğlu Xəlilov 1976-cı il avqust ayının 19-da Qərbi Azərbaycanın Zəngibasar rayonunun Zəngilər kəndində dünyaya göz açmışdır. 1983-cü ildə burada məktəbə getmiş, altıncı sinifə qədər öz doğma kəndlərində təhsil almışdır. 1988-ci ildə yüz minlərlə soydaşlarımız kimi öz doğma yurdlarından zorla çıxarıldıqdan sonra ailəsi ilə birlikdə Bakının Bakıxanov qəsəbəsində məskunlaşmışdır. Təhsilini 96 və 252 saylı orta məktəblərdə davam etdirmiş, sonra Bakıdakı 10 saylı Texniki-peşə məktəbini bitirmişdir. 29 sentyabr 1994-cü ildə Sabunçu rayon Hərbi Komissarlığı tərəfindən Milli Ordu sıralarına çağırılmışdır.

17 mart 1995-ci il tarixində dövlət çevrilişinin qarşısının alınmasında Milli Ordumuzun əsgərləri arasında Eldar Xəlilov da öz vətəndaşlıq borcunu yerinə yetirmişdir. Azərbaycan əsgərinə xas olan döyüş əzmkarlığı nümayiş etdirmiş, daxili irticanın tərksilah edilməsində mərdlik və şücaət göstərmişdir. Təəssüf ki, qarşıdurma itkisiz ötüşməmiş və gənc əsgər Eldar Xəlilov 17 mart 1995-ci ildə həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Xəlilov Eldar Xəlil oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Bakıdakı II Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Bakının Bakıxanov qəsəbəsindəki küçələrdən biri onun adını daşıyır. Vaxtilə oxuduğu 252 saylı orta məktəbdə isə qəhrəmana həsr olunmuş guşə yaradılmışdır. Qəsəbədə büstü qoyulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Xəlilov Eldar Xəlil oğlu -Müdafiə Nazirliyi, sıravi - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanılması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.- (Ölümündən sonra).

Ənsər, B. Əbədiyyətə qovuşan Eldar /B.Ənsər //Ağrıdağlı qəhrəmanlar.- Bakı, 2004.- S.78-81.

Əsgərov, V. Xəlilov Eldar Xəlil oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.132.

Xəlilov Eldar Xəlil oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.100-101.

Seyidzadə, M. Xəlilov Eldar Xəlil oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.101.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.e-qanun.az

50 illiyi

Fazil Mehdiyev
1966-1991

Milli Qəhrəman

Fazil Umud oğlu Mehdiyev 1966-cı il avqust ayının 20-də Laçın rayonunun Ələkçi kəndində doğulmuşdur. Ailəsi ilə birgə Ağdam rayonunun Abdal-Gülablı kəndinə köçmüş, 1983-cü ildə orta təhsilini həmin kənddə almışdır. 1984-1986-cı illərdə hərbi xidmətdə olmuşdur. Sverdlovsk şəhərində hərbi xidmətini başa vurub, Abdal-Gülablı kəndinə qayıtmışdır. İşləmək üçün Rusiyaya getmiş, sonra Vətənə qayıdıb sürücülük peşəsinə yiyələnmişdir. Abdal-Gülablıda yerləşən sanatoriyada sürücü işləmişdir. Erməni təcavüzkarlarının ölkəyə hücumları zamanı Fazil 1990-cı ildə Ağdam rayon Daxili İşlər Şöbəsində yaradılmış polis batalyonuna yazılmış, tezliklə ən ağır, ən çətin döyüşlərə qatılmışdır. 1991-ci ildə Ağdərənin Canyataq, Mehmanə, Qazançı, Sırxavənd kəndlərində gedən qızğın döyüşlərdə iştirak etmişdir. Qaradağlı kəndində ayağından ağır yaralanmışdır. 1991-ci ilin avqustunda ermənilərin "Niva" markalı bir maşınını ələ keçirərək, Ağdam rayon polis şöbəsinə təhvil vermişdir. 1991-ci il sentyabrın 23-dən 24-nə keçən gecə ermənilər böyük qüvvə ilə Abdal-Gülablı kəndinə hücuma keçmiş, köməyə gələn Fazil Ağdamdan gələn yolda pusquya düşmüş və Ağbulaq kəndi yaxınlığında ermənilərin qəfil hücumuna məruz qalmışdır. Bu döyüşdə faciəli şəkildə həlak olmuşdur. Ağdam rayonunun Qarağacı qəbiristanlığında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 8 oktyabr 1992-ci il tarixli 264 saylı Fərmanı ilə Mehdiyev Fazil Umud oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakının Nəsimi rayonunda, Xətai prospektində büstü qoyulmuşdur. Səbail rayonunda adına küçə var.

Ədəbiyyat

Azərbaycan Respublikası Daxili işlər orqanlarının bir qrup əməkdaşına Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: Mehdiyev Fazil Umud oğlu polis nəfəri - [Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 8 oktyabr 1992-ci il //Azərbaycan.- 1992.- 9 oktyabr.- S.1.- (Ölümündən sonra).

Abbasoğlu, B. Gülablı qartalı /B.Abbasoğlu //Ölərkən dünyaya gələn oğullar.- Bakı, 2004.- S.199-212.

Əsgərov, V. Mehdiyev Fazil Umud oğlu //V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşri.-Bakı, 2010.- S.183.

Mehdiyev Fazil Umud oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.129-130.

Seyidzadə, M. Mehdiyev Fazil Umud oğlu /M.Seyidzadə //Milli Qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.101.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.muallim.edu.az

70 illiyi

Afiyəddin Cəlilov 1946-1994

Dövlət xadimi

Afiyəddin Cəlil oğlu Cəlilov 1946-cı il avqust ayının 1-də Naxçıvan şəhərində anadan olmuşdur.

1969-cu ildə Leninqrad (indiki Sankt-Peterburq) Dağ Mədən İnstitutunu, 1981-ci ildə Moskvada Sov.İKP MK yanında İctimai Elmlər Akademiyasını bitirmişdir. 1969-1973-cü illərdə Naxçıvan duz mədənlərində mühəndis-mexanik işləmişdir. 1973-1979-cu illərdə məsul komsomol, partiya və dövlət işində çalışmış, Naxçıvan Vilayət Komsomol Komitəsinin birinci katibi və Azərbaycan Lenin Komsomol Gənclər İttifaqı Mərkəzi Komitəsinin katibi işləmişdir. 1989-1992-ci illərdə Naxçıvan Muxtar Respublikası Nazirlər Sovetinin sədri, Vilayət Partiya Komitəsinin birinci katibi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Prezidentinin müşaviri olmuşdur.

Afiyəddin Cəlilov Naxçıvanda işlədiyi dövrdə Ermənistanın təcavüzü nəticəsində blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının iqtisadi-sosial problemlərinin həlli, muxtar respublikada vətəndaş həmrəyliyinin yaranması və sabitliyin qorunub saxlanması sahəsində önəmli fəaliyyət göstərmişdir.

1992-ci ildən Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini olan Afiyəddin Cəlilov ölkəmizin dövlət müstəqilliyinin möhkəmləndirilməsində, onun daxili və xarici siyasətinin formalaşmasında fəal iştirak etmişdir. 1994-cü ildə Qara dəniz İqtisadi əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının vitse-prezidenti seçilmişdir. Bir neçə çağırış Azərbaycan SSR və Naxçıvan MSSR Ali Sovetlərinin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı olmuşdur. 1991-ci ildən Azərbaycan Respublikası Milli Məclisinin deputatı idi. İki "Şərəf nişanı" ordeni və medallarla təltif olunmuşdur.

Dövlət xadimi Afiyəddin Cəlilov 1994-cü il sentyabr ayının 29-da Azərbaycan dövlətçiliyinin düşmənləri tərəfindən qəddarcasına qətlə yetirilmişdir. Bakı şəhərində, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Cəlilov Afiyəddin Cəlil oğlu //Naxçıvan Ensiklopediyası.- Bakı, 2002.- S.84.

"Gecə yarısı qətl" kitabının təqdimat mərasimi: İsa Nəcəfovun Ali Sovetin sədr müavini Afiyəddin Cəlilovun və Prezident yanında xüsusi idarənin rəisi Şəmsi Rəhimovun qətlinə,1994,1995-ci il dövlət çevrilişinə həsr olunmuş kitabı haqqında //Azərbaycan .- 2002.- 10 iyul.-S.2.

Seyidzadə,T.H. Yaşasaydı, çox işlər görərdi: Afiyəddin Cəlilovun parlaq gələcəyindən qorxanlar ona atəş açdı, qəddarcasına qətlə yetirdi /T.H.Seyidzadə //Azad Azərbaycan.- 2015.- 7 yanvar.- S.7.

Vitse spikerin sifarişli qətli //Yeni Azərbaycan .- 2002.- 12 may.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

70 illiyi Rafiq Hüseynli 1946

Diktor

Rafiq Eyyub oğlu Hüseynov (Rafiq Hüseynli) 1946-cı il avqust ayının 4-də Şuşa şəhərində anadan olmuşdur. Məktəbdə oxuyan vaxtlardan "Azərbaycanfilm" dövlət kinostudiyasında uşaq rollarını dublyaj etmiş, 100-dən çox filmlərin səsləndirilməsində iştirak etmiş, televiziyaya gələndən sonra kinostudiya ilə əlaqəsi daha da sıxlaşmışdır.

Milli televiziyanın ilk diktorlarından olan Rafiq Hüseynli 18 yaşından Azərbaycan televiziyasında çalışmışdır.

Azərbaycan televiziyasında öz məktəbini yaratmış bu görkəmli diktor 1960-cı ildən etibarən diktorluq fəaliyyətinə başlamış, səsinin ahəngi, diksiyası, gözəl natiqlik qabiliyyəti ilə seçilmişdir. O, hər bir mətni məzmunundan asılı olaraq inandırıcı şəkildə çatdırmağı bacaran, danışıq texnikasından ustalıqla bəhrələnən, tamaşaçı yaddaşında qalan diktor olmuşdur. "Televiziyanın qonaq otağı" adlı müəllif proqramı da olmuşdur.

Xalq artistı, aparıcı, kino redaktoru Rafiq Hüseynli 1990-cı ildən Azərbaycan televiziyasından uzaqlaşsa da fəaliyyətini dayandırmamış, kinostudiyada fəaliyyətini davam etdirmişdir. Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində, Politologiya və Sosial İdarəetmə İnstitutunda dərs demiş, professor elmi adını almışdır. "Yurd" jurnalının baş redaktoru vəzifəsində çalışmışdır. Müxtəlif illərdə dublyajla məşğul olmuş, dərs demiş, jurnalist kimi fəaliyyət döstərmiş, hətta bir arada mahnı da oxumuş, disk buraxdırmışdır. 2007-ci ildə Aztv aparıcılarının bədii rəhbəri vəzifəsinə təyin edilmişdir. Bu gün onun çoxsaylı yetirmələri var.

Diktorluq sənətinin görkəmli nümayəndələrindən olan Rafiq Hüseynov bir sıra filmlərin də müəllifi kimi öz adını mədəniyyət tariximizə yazmışdır. 1991-ci ildə "Ölü zona" filminə görə Azərbaycan Dövlət mükafatına layiq görülmüşdür.

Azərbaycan efiri üçün Rafiq Hüseynli çox dəyərli bir şəxsiyyətdir. Göstərdiyi xidmətlərə görə Xalq artisti fəxri adına layiq görülən diktor bu gün Azərbaycan diktorlarının müəllimi sayılır.

Ədəbiyyat

Xəlilzadə, F. Sənətin ucalığında //Ruhumuzun ünvanı Şuşa: [puplisistika] /F. Xəlilzadə; red. Q. Paşayev.-Bakı: [Zərdabi LTD MMC], 2013.-S.176.

Zakirqızı, Z. İmkanım olsaydı, evdəki bütün güzgüləri yığışdırardım: Rafiq Hüseynli / Zakirə Zakirqızı //ATV Maqazin.-2012.-№1.-8-11.

İnternetdə

www.anl.az

70 illiyi

Kamil Vəli Nərimanoğlu 1946

Tənqidçi

Ə d ə b i y y a t

Azərbaycan dövlət dili siyasəti: dil-poetika araşdırmaları /K.V.Nərimanoğlu.- Bakı: Çinar-Çap, 2006.-257 s.

Azərbaycan eposunun poetik sintaksisi: monoqrafiya /K.V.Nərimanoğlu; elmi red. V.Aslanov.-Bakı: Oskar, 2009.- 316 s.

Eşqin sözü: Düşüncələr: sistemli-sistemsiz, məntiqli-absurd, aydın-bulanıq /K.Vəli; red. L.Cəbrayıllı.- Bakı: Nurlan, 2011.- 182 s.

Səs: muğam işığında təksəsli, çoxsəsli düşüncələr: esse-kollaj /K.Vəli; red. Q.Ağsəs.- Bakı: Nurlan, 2011.191 s.

Çelişki ve yenilik dehası Mirza Fathali Ahuntzade: Doğumunun 200. yılı anısına deneme /K.V. Nerimanoğlu; editör Y.Akpınar; red. A.F.Erkolor.- İstanbul: Doğu Kütuphanesi, 2013.- 85 s.

Kamil Vəli Nərimanoğlu: biblioqrafiya /tərt. M.Vəliyeva; red. N.Nağıyeva.- Bakı: AzATam, 2007.-304 s.

www.anl.az

www.az.wikipedia.org

Kamil Nəriman oğlu Vəliyev (Kamil Vəli Nərimanoğlu) 1946-cı il avqust ayının 18-də Cəbrayıl rayonunda anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1965-1970-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. Elmi və publisistik yaradıcılığa tələbəlik illərindən başlamış, "Vaqif dili, Vaqif üslubu" adlı ilk məqaləsi "Lenin tərbiyəsi uğrunda" çoxtirajlı universitet qəzetində çap edilmişdir. 1970-ci ildə universiteti fərqlənmə diplomu ilə bitirdiyinə və mətbuatda müntəzəm çıxış etdiyinə görə filologiya fakültəsinin Azərbaycan dilçiliyi kafedrasında müəllim saxlanılmışdır.

1976-1981-ci illərdə həmin kafedrada baş müəllim, 1981-1988-ci illərdə dosent, 1989-cu ildə professor, 1988-1998-ci illərdə universitetin filologiya fakültəsində Azərbaycan dilçiliyi kafedrasının müdiri olmuşdur.

1974-cü ildə "Azərbaycan dilində "ki" şəkilçisi" mövzusunda namizədlik, 1988-ci ildə "Azərbaycan qəhrəmanlıq eposunun poetik sintaksisi" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

1990-cı ildə Türkiyə Folklor Araşdırmaları Vəqfinin nümayəndəsi, Səlcuq Universitetinin (Konya şəhəri) fəxri doktoru seçilmişdir. Türkiyə linqvistika cəmiyyətinin müxbir üzvüdür. 1977-ci ildən "Azərbaycan" jurnalı redaksiya heyətinin, 1981-ci ildə Azərbaycan Yazıçılar Birliyinin və Jurnalistlər Birliyinin üzvü olmuşdur.

1993-cü ildə Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində işləmişdir.

1991-1992-ci illərdə Türkiyədə İzmir Eğey Universitetində, 1999-2000-ci illərdə Şimali Kipr Respublikasında Doğu Ağdəniz Universitetinin professoru olmuş, mühazirələr oxumuşdur.

Hazırda Avrasiya Strateji Araşdırmalar Mərkəzinin sədri, çoxcildli "Türk Dünyası ədəbiyyatı" kitabının redaksiya şurasının üzvü, Türkiyədə çap olunan "Bilgi", "Yol", "Milli folklor", "Türkologiya" (Qazaxıstan) dərgilərinin redaksiya heyətinin, Çingiz Aytmatov Akademiyasının üzvüdür. Türk Dil Qurumunun Atatürk Kültür Mərkəzinin və Türk Folklor Qurumunun fəxri üzvüdür. Yedditəpə Universitetinin müəllimidir. Azərbaycan Avrasiya Araşdırmaları Mərkəzinə rəhbərlik edir.

Kamil Vəliyev 2002-ci ildə "Ey Füzuli" esse-romanı, Məhəmməd Füzulinin "Türk divanının dibaçəsi"ni, Əlişir Nəvainin "İki dilin mübahisəsi", Yusif Balasaqunlunun "Qutatqu bilik" əsərini (müştərək tərcümə) ön sözlə kütləvi tirajla nəşr etdirmişdir. İndiyədək 40 elmi monoqrafik əsərin, çoxlu tərcümələrin, 500-dən cox məqalənin müəllifidir. 20-dən çox ölkədə konfrans və simpoziumlarda iştirak etmişdir.

Kamil Vəliyev xidmətlərinə görə Türkiyə Respublikasının "Şərəf və Ləyaqət nişanı" ilə təltif olunmuşdur.

Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü 2001

1 avqust ölkəmizdə ən əziz günlərdən biri kimi qeyd olunur. Çünki milli varlığımızın əsas atributlarından olan Ana dilimizlə bağlıdır. Dil millətin simasını səciyyələndirən amillərdən biri, onun milli sərvətidir. Millətin dilinin dövlət dili statusuna yüksəlməsi isə tarixi hadisə, milli dövlətçilik tarixinin qızıl səhifəsidir. Ulu öndər milli-mənəvi dəyərlərimizin ən qiymətlisi və bir millət kimi milli varlığımızın rəmzi olan Azərbaycan dilinin saflaşdırılması və inkişafı istiqamətində çox mühüm addımlar atmışdır. Ölkəmizdə Azərbaycan dilinin hərtərəfli inkişafı, işlək dilə çevrilməsi, beynəlxalq münasibətlər sisteminə yol tapması Ana dilimizin gözəl bilicisi, mahir natiq, ulu öndər Heydər Əliyevin dilin qorunmasına yönələn düşünülmüş siyasətinin nəticəsidir.

Azərbaycan SSR-in 1978-ci il Konstitusiyasında Azərbaycan dilinin dövlət dili kimi qəbul edilməsi isə həmin dövr üçün əhəmiyyətli hadisə idi. 1993-cü ildə Heydər Əliyevin Azərbaycanda ikinci dəfə hakimiyyətə qayıdışından sonra Azərbaycan dili öz inkişafında yeni mərhələyə qədəm qoymuşdur. 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul edilən müstəqil dövlətimizin ilk Konstitusiyası ilə dövlət dilinin adı bərpa edildi. Bu, ulu öndərin Ana dilimizə dəyişməz mövqeyinin daha bir parlaq nümunəsi olmuşdur.

Bundan sonra hökumət səviyyəsində Ana dilinin inkişafı və qorunması istiqamətində əhəmiyyətli sənədlər qəbul edilmişdi. "Dövlət dili işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli Fərman, yeni əlifbaya keçidin 2001-ci ilin avqustuna kimi ölkəmizdə bütünlüklə təmin edilməsi ulu öndərin öz doğma dilinə bağlılığını bir daha təsdiq etmişdi.

Ümummilli liderin 9 avqust 2001-ci il tarixli Fərmanı ilə avqustun 1-i ölkəmizdə "Azərbaycan dili və Azərbaycan əlifbası günü" kimi qeyd olunur. 2002-ci il 30 sentyabr tarixində "Azərbaycan Respublikasında Dövlət dili haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul edilməsi Azərbaycan dilinin dövlət dili kimi işlədilməsi, onun tətbiqi, qorunması və inkişaf etdirilməsi istiqamətində daha bir addımdır. Bu ənənələri ölkə Prezidenti İlham Əliyev uğurla davam etdirməkdədir. Dövlət başçısının müxtəlif vaxtlarda imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" və "Azərbaycan Milli ensiklopediyasının hazırlanması haqqında" Sərəncamları və bu istiqamətdə görülən işlər də dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Ədəbiyyat

1 Avqust Azərbaycan Dili və Əlifbası Günüdür /N.Əlləddinqızı //Səs .-2015.- 1 avqust.- S. 11.

Xalqın alın yazısı : 1 avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günüdür /F.Yunisli //Mədəniyyət .-2015.- 31 iyul.- S. 11.

Mahmudov, M. Azərbaycan əlifbası türk kontekstində. 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günüdür /M.Mahmudov //Respublika.- 2013.- 31 iyul.- S.5.

...Özü haqda - "1 Avqust Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü" barədə - elə özü ilə... /T.Abbaslı //Mədəniyyət .-2014.- 1 avqust.- S.11.

İnternetdə

www.anl.az

www.azterm.az

www.aztv.az

www.files.preslib.az

www.yeniazerbaycan.com

Hərbi-Dəniz Qüvvələri Günü 1996

Azərbaycanın Hərbi Dəniz Qüvvələri 1919-cu ilin avqustunda ingilislər Azərbaycanı tərk etdikdən sonra formalaşmağa başlamışdır. Bu vaxta qədər Xəzər dənizinin qərb sahillərində müdafiəni ingilis hərbi gəmiləri təmin edirdi. Xəzər hərbi donanmasının gəmiləri isə Bakı azad olunarkən Port-Petrovsk limanına qaçırılmış və yalnız 1918-ci il noyabr ayında ingilislər Bakıya gəldikdən sonra geri qaytarılmışdır.

Yeni yaranmış Azərbaycan hərbi donanmasında yüksək rütbəli zabitlərdən yalnız "Ərdahan" və "Astrabad" gəmilərində xidmət edən dəniz xidməti kapitanı Həsən Çilingərzadə və 1-ci dərəcəli kapitan Gitançızadə azərbaycanlı idi. Hərbi Nazirlikdə donanma ilə məğul olan bölmə olmadığından Xəzər hərbi donanması ilə bağlı məsələlərə Nəqliyyat Nazirliyində baxılırdı.

1919-cu ilin sonlarında Baş qərargahın nəzdində 6 ştat vahidindən ibarət xüsusi hərbi dəniz şöbəsi yaradılmışdı. Ümumilikdə Azərbaycan Xəzər hərbi donanmasının tərkibində 75, 100 və 120 mm çaplı toplarla silahlanmış iki kanoner gəmisi – "Ərdahan" və "Kars", "Astrabad", "Göytəpə", "Araz", "Nargen" xidməti və köməkçi gəmiləri, "Oryol" nəqliyyat gəmisi, silahlı "Puşkin" paraxodu, həmçinin kater var idi.

Hərbi donanma üçün kadrların hazırlanması məqsədilə Bakı Dəniz Aviasiyası məktəbinin bazasında Xüsusi hərbi-dəniz aviasiyası məkəbi, 1919-cu ilin oktyabrın 14-də isə dəniz aviasiyası dəstəsi yaradıldı.

Yenidən müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikası Parlamentinin 9 oktyabr 1991-ci ildə qəbul etdiyi "Azərbaycan Respublikası Silahlı Qüvvələri haqqında" qanuna əsasən Silahlı Qüvvələrin tərkib hissəsi kimi Hərbi Dəniz Qüvvələrinin yaranmasının hüquqi bazası müəyyən olunmuşdu. Keçmiş Sovetlər ittifaqı tərkibində olan müstəqilliyini əldə etmiş Rusiya, Qazaxıstan, Türkmənistan və Azərbaycan Xəzəryanı dövlətləri arasında əldə olunan razılığa görə Azərbaycan onun ərazisində yerləşən sabiq Xəzər hərbi donanmasının bütün bazalarına və 25% hərbi gəmilərinə sahib olmuşdu.

İkinci dəfə dövlət müstəqilliyini əldə etdikdən sonra 26 iyul 1992-ci ildə "Bakılı" gözətçi gəmisində ilk dəfə olaraq müstəqil Azərbaycanın üçrəngli Dövlət bayrağı qaldırılmış və Azərbaycan öz Hərbi Dəniz Qüvvələrini yaratmağa başlamışdı. İlk mərhələdə Hərbi Dəniz Qüvvələrinə müxtəlif tipli gəmilərlə komplektləşdirilmiş beş divizion və sahil bölmələri daxil olmuş, Xəzər hövzəsində yerləşən müşahidə postları və mayakların fəaliyyəti bərpa olunmağa başlanmışdı. 4 noyabr 1997-ci il tarixli "Azərbaycan Respublikasının Hərbi Dəniz Bayraqları haqqında" qanuna əsasən hərbi və köməkçi gəmilərdə qaldırılan bayraqlar haqqında əsasnamə qəbul edilmişdi. 7 avqust 2000-ci ildən etibarən Hərbi Dəniz Qüvvələrinin bütün gəmilərində Hərbi Dəniz Qüvvələrinin bayrağı qaldırılmışdı.

1996-cı ildə Ali Hərbi Dənizçilik Məktəbi əsasında Dəniz Akademiyası təşkil olunmuş və həmin ildə ulu öndər Heydər Əliyevin fərmanı əsasında 5 avqust tarixi - Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü kimi qeyd olunmağa başlamışdır.

Ədəbiyyat

Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi-Donanmanın xidmətində 70 [Mətn] /N. Əliyev; elmi red. P.Q. Darabadi; rəyçi Ş. Ə. Sultanov [və b.]; Azərbaycan Ali Hərbi Dənizçilik Məktəbi.- Bakı: [s.n.], 2009.-430 s.

Azərbaycan Hərbi Dəniz Qüvvələrinin yaranmasından 97 il keçir //Azərbaycan.-2015.- 5 avqust.- S. 3.

Qaraca, B. Havada, quruda, dənizdə... :5 avqust Azərbaycan Hərbi Dəniz Qüvvələrinin yaranma günüdür / Bəxtiyar Qaraca // Azərbaycan .-2013.- 4 avqust.- S. 1.

Qaradağ rayonunda Hərbi Dəniz Qüvvələrinin yeni bazasının və "N" saylı hərbi hissənin açılışı olub // Azərbaycan .-2015.- 26 iyun.- S.2, 3.

Cəbrayıl rayonunun işğalı günü 1993

Ərazisi : 1049 km²
Əhalisi: 54430 nəfər
İşğal tarixi: 23.08.1993

1993-cü il avqust ayının 23-də Cəbrayıl rayonu işğalçı erməni silahlı qüvvələri tərəfindən zəbt edilmişdir.

1994-cü il Horadiz əməliyyatı zamanı Milli Ordunun hərbi silahlı qüvvələri şəhər mərkəzinə və Xudafərin körpüsü istiqamətində irəliləsə də, Cəbrayılın yalnız Cocuq-Mərcanlı kəndi düşmən işğalından azad olunmuşdur.

İşğaldan əvvəl rayonda 72 orta və natamam orta məktəb, 3 musiqi məktəbi, 12 mədəniyyət evi, 32 klub, 10 mədəni çadır və avtoklub, 78 kitabxana, 3 daimi, 4 səyyar kinoqurğu fəaliyyət göstərmişdi. Zəngin eksponatları olan tarix-diyarşünaslıq muzeyi olmuşdu. Əhaliyə 210 çarpayılıq mərkəzi xəstəxana və ümumi çarpayı sayı 245 yer olan kənd xəstəxanaları, Dağ Tumas, Quycaq, Balyand kəndlərində 11 həkim, 52 feldşer - mama məntəqəsi xidmət göstərirdi.

Cəbrayıl rayonunda respublika və rayon əhəmiyyətli 120-dək tarixi memarlıq abidəsi, qiymətli ağac növlərindən ibarət meşələr, böyük ehtiyata malik yeraltı sərvətlər, qeyri-adi flora və faunası ilə seçilən Dirida-ğın özünəməxsus təbiət guşələri, mineral maddələrlə zəngin su mənbələri erməni işğalçıları tərəfindən dağıdılaraq məhv edilmişdir.

Ümumiyyətlə, döyüşlərdə 180, atəşkəs dövründə isə 16 nəfər həlak olmuş, 14 nəfər polis, 60 nəfər mülki şəxs dünyasını dəyişmiş, 90 nəfərə yaxın isə əsir və itkin düşmüşdür. Cəbrayıllılar içərisində 180 nəfər Qarabağ müharibəsi əlili statusu almış, 6 nəfər isə "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. Cəbrayıllılar arasında 351 nəfər şəhid ailəsi var.

2006-2007-ci illər ərzində erməni işğalçıları tərəfindən rayonun 16 min hektardan artıq ərazisində yanğınlar törədilmişdir.

Ölkənin 58 bölgəsinə səpələnən cəbrayıllılar daha çox Beyləqan, İmişli, Sabirabad, Saatlı, Biləsuvar rayonlarında məskunlaşmışlar.

Biz inanırıq ki, qələbə uzaqda deyil. Ali baş komandanın yürütdüyü uzaqgörən siyasət, apardığı danışıqlar nəticəsində torpaqlarımız işğaldan azad olacaq, bütün həmvətənlərimiz öz yurd-yuvalarına dönəcəklər.

Ə d ə b i y y a t

Abuzərov, A. Cəbrayılın qəm karvanı /A.M. Abuzərov.- Bakı: Ulu, 2000.-180 s

Əlimiz çatmayan yurd yerlərimiz Cəbrayıl və Füzulinin işğalından 22 il ötür //Mədəniyyət .-2015.- 19 avqust.- S. 15.

Xalid.Bu gün iki rayonun işğal tarixi anılır Cəbrayıl və Füzulinin işğalı ilə daha 191 600 Azərbaycanlı məcburi köçkün düşüb /Xalid //Üç nöqtə .-2013.- 23 avqust.- S. 10.

Tarixin dedikləri və demədikləri Cəbrayılın işğalından 22 il keçir /B.Qaraca //Azərbaycan .-2015.- 22 avqust.- S. 5.

Tapdıqoğlu, N.Qapısı bağlı yollar Füzuli və Cəbrayıl rayonlarının işğalından 22 il keçir /N.Tapdıqoğlu //Kredo .-2015.- 4 sentyabr.- S. 14-15.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.files.preslib.az

AVQUST

23

Tarixdə bu gün

Füzuli rayonunun işğalı günü 1993

- **Ərazisi: 1386 km²**
- **Əhalisi: 105 000**
- **125368 hektar ərazisi işğal olunub**
- **İşğal tarixi: 23.08.1993**

23 avqust 1993-cü ildə ümumi sahəsi 1386 km² olan Füzuli rayonunun qərb hissəsindən 125368 hektar ərazinin erməni bədxahları tərəfindən işğal olunmasından 23 il ötür.

Rayonun əsası 1827-ci ildə qoyulmuş və ilkin adı Qarabulaq olmuşdur. Rayon 8 avqust 1930-cu ildə yenidən təşkil olunmuş və Qaryagin adlandırılmışdır. 1959-cu ilin aprelində böyük şairimiz Məhəmməd Füzulinin anadan olmasının 400 illiyi şərəfinə Qaryagin rayonunun adı dəyişərək Füzuli rayonu adlandırılmışdır.

Qarabağımızın dilbər guşəsi olan Füzuli rayonu ərazisində müxtəlif vaxtlarda Qaraköpəktəpə, Qarabulaq kurqanlarında, Günəştəpədə, Quruçay sahillərində tədqiqatlar aparılmış, Azərbaycanın qədim kökə sahib olduğu sübut edilmişdir. 1968-ci ilin yayında mərhum arxeoloq-alim Məmmədəli Hüseynov tərəfindən aşkar olunmuş preneandertal – Azıxantrop adamının alt çənəsinin sümükləri rayon mərkəzindən 15 km aralı məsafədə yerləşən Azıx mağarasında tapılmışdır. Azərbaycan arxeologiya elminin böyük nailiyyətləri olan bu abidə Qarabağın Füzuli rayonu ərazisində vaxtilə qədim paleolit dövrünün mövcudluğunu aşkarlamışdır.

İşğaldan əvvəl rayonda 1 şəhər, 1 şəhər tipli qəsəbə, 75 kənd, 70 kitabxana, 20 mədəniyyət evi, 45 klub, xalq və dövlət dram teatrları, 685 çarpayılıq 13 xəstəxana, 40 feldşer-mama məntəqəsi, vərəm və dəri - zöhrəvi xəstəlikləri dispanseri, 20 kinoqurğu, texnikum, 2 texniki peşə məktəbi, 38 məktəbəqədər müəssisə, 2 muzey, stadion, 65 kolxoz və sovxoz, 12 fermer təsərrüfatı və s. obyektlər var idi.

Məhsuldarlıq baxımından kənd təsərrüfatına yararlı boz, şabalıdı, boz-qəhvəyi kimi torpaq sahələri olan rayonda taxılçılıq, heyvandarlıq, üzümçülük, qoyunçuluq, quşçuluq, baramaçılıq geniş inkişaf etmişdi. Kənd təsərrüfatı ilə yanaşı, tikinti tresti, 6 nəqliyyat təşkilatı, 13 sənaye müəssisəsi və s. fəaliyyət göstərirdi.

1988-ci ildən başlayan erməni təcavüzünə qarşı mübarizədə minlərlə Füzuli sakini döyüşmüş, yüzlərlə insan şəhid olmuş, yaralanmış, itkin düşmüşdür. Qarabağ müharibəsində ölkəmizdə ən çox itkin və şəhid verən Füzuli rayonunun əhalisi olmuşdur. Füzulinin 1100-dən çox şəhid və itkini, 113 girovu, 1450 nəfər müxtəlif dərəcəli əlili var. Erməni təcavüzü nəticəsində 36 361 nəfər uşaq zərər çəkmiş, onlardan 155 nəfəri yetim qalmışdır. Müharibənin əsas ağırlığını Qacar, Divannalar, Yuxarı Veysəlli, Aşağı Veysəlli, Qaradağlı, Üçbulaq, Arış, Qoçəhmədli, Cuvarlı, Güzdək, Gorazıllı, Cəmilli, Dilağarda, Yağlıvənd, Govşad, Xələfşə, Mollavəli kəndlərinin əhalisi çəkmişlər. Hazırda 51 kənd və rayon mərkəzi erməni tapdağı altında zillət çəkir, 55 min nəfərə yaxın füzulili köçkün həyatı yaşayır.

Rayonun işğaldan azad olunmuş ərazisində 13 qəsəbə və 20 kənd vardır. Qəsəbələrdən 12-si yeni salınmış və məcburi köçkün ailələri müvəqqəti olaraq burada yerləşdirilmişlər. Hazırda ərazidə 51 min nəfər məcburi köçkün məskunlaşmışdır.

2006-2009-cu illər ərzində rayonun 35 000 hektardan artıq ərazisi ermənilər tərəfindən yandırılmışdır.

Ümid edirik ki, işğal olunmuş torpaqlarımız yaxın zamanlarda erməni zülmündən azad ediləcək, Minlərlə köçkün öz yurd-yuvalarına qayıdacaqdır.

Qubadlı rayonunun işğalı günü 1993

- **Ərazisi: 802 km²**
- **Əhalisi: 37 400**
- **İşğal tarixi: 31.08.1993**

Qubadlı rayonunun 31 avqust 1993-cü il tarixində ermənilər tərəfindən işğalından artıq 23 il ötür.

Qubadlı rayonu 1933-cü ildə yaradılmışdır. İnzibati mərkəzi Qubadlı şəhəridir. İnzibati bölgüsünə 1 şəhər, 93 kənd, 31 inzibati-ərazi dairəsi aid idi. Qubadlı rayonu şimaldan Laçın, cənubdan Zəngilan, şərqdən Xocavənd və Cəbrayıl rayonları, qərbdən Ermənistanla həmsərhəddir.

Qubadlının iqtisadiyyatının əsasını taxılçılıq, heyvandarlıq, tütünçülük, baramaçılıq və üzümçülük təşkil etmişdir. Rayonda 27-si mexanikiləşdirilmiş olan 31 süd-əmtəə ferması mövcud olmuşdur. Rayonda üzümün ilkin emalı üzrə 2 zavod fəaliyyət göstərmişdi. Tam gücü ilə işləyən asfalt zavodu təkcə Qubadlıya deyil, eyni zamanda qonşu rayonlara da xidmət etmişdir. Daş karxanası və mərmər sexi əhalinin tələbatını əsaslı şəkildə ödəmişdi. Qubadlıda 21 rabitə müəssisəsi olmuş, avtomat stansiyası quraşdırılmışdı. 1950 nömrəlik həmin stansiyalar gecə-gündüz xalqın xidmətində dururdu.

Ümumiyyətlə, Qubadlı rayonunda 62 idarə və müəssisə fəaliyyət göstərmişdir.

Rayonun 33 səhiyyə müəssisəsində 56 həkim və 511 tibb işçisi fəaliyyət göstərirdi. 4 xəstəxana, 5 həkim ambulatoriyası, 54 feldşer-mama məntəqəsi, 4 əczaxana əhalinin sağlamlığının keşiyində durmuşdu. Rayon gigiyena-epidemiologiya mərkəzi və profilaktik dezinfeksiya şöbəsi yüksək səviyyədə iş aparırdı.

Erməni işğalçıları Qubadlıda 94 kənd və qəsəbəni, 205 mədəni-məişət obyektini, 12 tarixi abidəni yandırmış və talan etmişlər. İşğala qədər 33 800 nəfər əhalisi olan Qubadlıda 21 orta, 15 səkkizillik, 15 ibtidai məktəb, 7 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir, bu təlim-tərbiyə və təhsil müəssisələrində 1280 nəfər müəllim çalışırdı. Qubadlının işğalı zamanı 5 mindən çox nadir eksponat saxlanılan Qubadlı Tarix-diyarşünaslıq Muzeyi də ermənilər tərəfindən talan edilmişdir.

IV əsrə aid "Gavur dərəsi"ndəki ibadətgah, 5-ci əsrə aid "Qalalı" və "Göyqala" abidələri, 14-cü əsrdə tikilmiş "Dəmirçilər" türbəsi, Hacı Bədəl körpüsü, Laləzar körpüsü, eləcə də Əyin, Yusifbəyli, Seytas, Qarağaclı, Xocamsaxlı kəndlərindəki digər tarixi abidələr hazırda işğal altındadır.

Rayonda 111 mədəni-maarif müəssisəsi, o cümlədən 60 kitabxana, 10 mədəniyyət evi və 28 klub, 6 avtoklub olmuşdur. Qubadlı uğrunda gedən döyüşlərdə 54 nəfər şəhid olmuş, Qarabağ müharibəsində isə Qubadlının ümumilikdə 232 sakini şəhid, 146-sı əlil olmuşdur.

22 ildir ki, rayonun 30 min əhalisi məcburi köçkün həyatı yaşayır.

Ə d ə b i y y a t

Düşmənə sipər Qarağac Bir ildə 16 şəhid verən bu kəndin sakinləri 22 ildir ki, Sumqayıt şəhərində səbirsizliklə torpaqlarına qayıdacaqları günü gözləyirlər /Ə.Səlimov //Azərbaycan .-2015.- 29 avqust.- S.7.

Qubadlı ictimaiyyəti rayonun Ermənistan tərəfindən işğalının 22-ci ildönümü ilə əlaqədar tədbir keçirib /P.Sadayoğlu //Yeni Azərbaycan .-2015.- 1 sentyabr.- S. 6.

Mərd və əməksevər insanların diyarı Qubadlının işğalından 22 il ötür /B.Qaraca

//Azərbaycan .-2015.- 30 avqust.- S.7.

Nigar. Qubadlı rayonunun işğalından 21 il ötür /Nigar //Palitra.- 2014.- 30 avqust.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.azeri.net

www.karabakhblog.com

www.milliqahraman.az

1 sentyabr

Gün çıxır 07:07
Gün batır 20:31

30 sentyabr

Gün çıxır 07:35
Gün batır 19:42

SENTYABR

24 avqust-
23 sentyabr

Qız bürcü Nişanəsi yerdir. Günəşin Qızlar bürcünün keçdiyi dövrdə doğulanlar hər işdə aydınlıq, dəqiqliyin olmasını istəyirlər.

C.A.	**1**
C.	2
Ş.	3
B.	4
B.E.	5
Ç.A.	6
Ç.	7
C.A.	**8**
C.	9
Ş.	10
B.	11
B.E.	12
Ç.A.	13
Ç.	14
C.A.	**15**
C.	16
Ş.	17
B.	18
B.E.	19
Ç.A.	20
Ç.	21
C.A.	**22**
C.	23
Ş.	24
B.	25
B.E.	26
Ç.A.	27
C.	28
Ç.A.	**29**
Ç.	30
Ş.	
B.	

- *Bilik Günü (15.09.2004)*
- *Milli Musiqi Günü (18.09.1995)*
- *Neftçilər Günü (20.09.1994)*
- *Beynəlxalq Sülh Günü (21.09.1981)*
- *Beynəlxalq Turizm Günü (27.09.1970)*

875 il Nizami Gəncəvi 1141-1209

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Gəncə Regional Elmi Mərkəzi Nizamişünaslıq institutunda Nizamişünaslığın aktual problemləri, Nizami Gəncəvi ensiklopediyasının yaradılması, Dünya Nizamişünaslığının araşdırılması, Nizami Gəncəvi irsində sənətşünaslıq, Nizami Gəncəvinin elmi fəlsəfi görüşləri kimi mühüm sahələr tədqiq olunur.

Nizamişünaslıq institutunda dahi şairin "Sirlər Xəzinəsi", "Xosrov və Şirin" poemaları yenidən tərcümə edilmiş, "Nizami Gəncəvi xələflər və sələflər", "Nizami məqbərəsinin tarixi", "Nizami Gəncəvi yaradıcılığına "Əxilik" ideologiyasının təsiri" adlı monoqrafiyalar yazılmış və bu istiqamətdə tədqiqatlar davam etdirilməkdədir

Azərbaycan Milli Elmlər Akademiyası rəyasət heyətinin qərarı ilə Gəncə Regional Elmi Mərkəzinin (AMEA Gəncə Bölməsi) nəzdində fəaliyyət göstərən Nizamişünaslıq şöbəsinin bazasında Nizami Gəncəvi Mərkəzi yaradılmışdır. Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin 870 illik yubileyi münasibətilə "Nizamişünaslıq" jurnalı nəşr edilməyə başlamışdır. Jurnalda ölkəmizdə və xaricdə olan görkəmli nizamişünas alimlərin fundamental elmi məqalələri öz əksini tapır. "Nizamişünaslıq" jurnalı nizamişünaslıq elminin koordinasiyası rolunu oynamaqdadır.

SENTYABR

2016

Milli ədəbiyyat

Publisist, yazıçı Abdinov Tofiq Məhərrəm oğlunun (Tofiq Abdin) (01.09.1941-24.02.2014) anadan olmasının 75 illiyi **277**

Şair, dramaturq Sadıqov Novruz İsmayıl oğlu (Novruz Gəncəli) (12.09.1921-19.10.1995) anadan olmasının 95 illiyi **278**

Şair Nəsirli Müzəffər Qasım oğlunun (14.09.1911-01.01.1980) anadan olmasının 105 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Şıxəliyev Oqtay Yusif oğlunun (03.09.1931-30.01.2012) anadan olmasının 85 illiyi **279**

Əməkdar incəsənət xadimi, boyakar Hüseynov Əyyub Müseyib oğlunun (03.09.1916-17.04.1998) anadan olmasının 100 illiyi **280**

Musiqi.Opera.Balet

Çex bəstəkarı, çex klassik musiqisinin banilərindən biri Dvorjak Antoninin (08.09.1841-01.05.1904) anadan olmasının 175 illiyi

Əməkdar incəsənət xadimi, fəlsəfə elmləri doktoru, professor Abdullazadə Gülnaz Abutalıb qızının (07.09.1946) anadan olmasının 70 illiyi **281**

Xanəndə Abdullayev İslam Əbdül oğlunun (09.09.1876-22.09.1964) anadan olmasının 140 illiyi

Xalq artisti, müğənni Əhmədov Mobil Salman oğlunun (10.09.1931-03.06.2006) anadan olmasının 85 illiyi **282**

Əməkdar artist, müğənni Haqverdiyev Xanlar Məmməd oğlunun (25.09.1906-05.12.1980) anadan olmasının 110 illiyi **283**

Rus bəstəkarı, SSRİ Xalq artisti Şostakoviç Dmitri Dmitriyeviçin (25.09.1906-09.08.1975) anadan olmasının 110 illiyi

Teatr.Kino.Sirk

Xalq artisti Nuriyev Yaşar Məmmədsadıq oğlunun (Yaşar Nuri) (03.09.1951-22.11.2012) anadan olmasının 65 illiyi **284**

Xalq artisti Əminə Yusifqızının (24.9.1936) anadan olmasının 80 illiyi

Xalq artisti Məmmədov Ramiz Soltanəli oğlunun (26.09.1956) anadan olmasının 60 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Kərimov Kazımağa Mövsüm oğlunun (01.09.1951-15.06.1992) anadan olmasının 65 illiyi **285**

Azərbaycanın Milli Qəhrəmanı Məmmədov Seymur Qəhrəman oğlunun (18.09.1971-01.04.1992) anadan olmasının 45 illiyi **286**

Azərbaycanın Milli Qəhrəmanı Qubadov Arif Vəliş oğlunun (20.09.1966-25.09.2009) anadan olmasının 50 illiyi **287**

Azərbaycanın Milli Qəhrəmanı Yusifov Zakir Tofiq oğlunun (29.09.1956-11.10.1992) anadan olmasının 60 illiyi 288
Azərbaycanın Milli Qəhrəmanı İbrahimov Mirələkbər Mirələsgər oğlunun (30.09.1961-05.03.1994) anadan olmasının 55 illiyi 289

Siyasət

Hüquq elmləri doktoru Hacıyev Xanlar İrşad-Faiq oğlunun (09.09.1956) anadan olmasının 60 illiyi 290

Mədəniyyət.Maarif.Təhsil

Şərqşünas, filologiya elmləri doktoru Nağısoylu (Nağıyev) Möhsün Zellabdin oğlunun (01.09.1946) anadan olmasının 70 illiyi 291

Riyaziyyat.Fizika.Astronomiya

Akademik Sultanov Hacıbəy Fərəculla oğlunun (20.09.1921-05.03.2008) anadan olmasının 95 illiyi 292

Kimya.Biologiya.Tibb

Akademik Namazova Adilə Əvəz qızının (09.09.1926) anadan olmasının 90 illiyi 293
Akademik Quliyev Ələkbər Məmməd oğlunun (27.09.1911-1983) anadan olmasının 105 illiyi 294

Texnika.Mühəndis işi

Əməkdar mühəndis, neft və qaz quyuları qazılması sahəsində mütəxəssis Rüstəmbəyov Əsəd Fətulla oğlunun (02.09.1911-17.10.1982) anadan olmasının 105 illiyi
Texnika elmləri doktoru Babazadə Fikrət Ələkbər oğlunun (19.09.1931-08.05.2000) anadan olmasının 85 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Sədərək rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (04.09.1991) yaradılmasının 25 illiyi

Tarixdə bu gün

Erməni separatçıları qondarma dövlətin – "Dağlıq Qarabağ Respublikası"nın yaradıldığını elan ediblər (02.09.1991)
Heydər Əliyev Naxçıvan MR Ali Məclisinin sədri seçilmişdir (03.09.1991)
Azərbaycan Respublikası Müdafiə Nazirliyi təşkil edilmişdir (05.09.1991)
Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü (08.09.1958)
Azərbaycanda ilk Prezident seçkiləri keçirilmişdir (08.09.1991)
Bakı müsəlman qız məktəbinin təntənəli açılışının (09.09.1901) 115 illiyi 295
Qurban bayramı (12-13.09) 296
Azərbaycan Kommunist Partiyası ləğv edilmişdir (14.09.1991) 297
Bilik Günü (15.09.2004)
Milli Musiqi Günü (18.09.1995)
Neftçilər Günü (20.09.1994)
Beynəlxalq Sülh Günü (21.09.)
Beynəlxalq Lal-Kar Günü (24.09.1951)
Beynəlxalq Turizm Günü (27.09.1980)

75 illiyi

Tofiq Abdin 1941-2014

Yazıçı

Tofiq Məhərrəm oğlu Abdinov (Tofiq Abdin) 1941-ci il sentyabr ayının 1-də Salyan rayonunun Qırmızıkənd kəndində anadan olmuşdur.

Orta məktəbi bitirdikdən sonra 1959-1960-cı illərdə Salyan rayonunun "Bolşevik" kolxozunda sıravi işçi, 1960-cı ildə isə Qırmızıkənd kənd kitabxanasının müdiri vəzifəsində çalışmışdır.

1960-1966-cı illərdə Bakı Komvol fabrikində usta köməkçisi kimi çalışmış, 1962-1968-ci illərdə M.A.Əliyev adına Azərbaycan İncəsənət İnstitutunun (indiki ADMİU) Teatrşünaslıq fakültəsində təhsil almışdır.

1967-ci ildə Azərbaycan Sovet Ensiklopediyasında (ASE) korrektor, kiçik redaktor vəzifələrində işləmişdir.

1968-ci ildən "Qobustan" jurnalında teatr və kino redaksiyasının müdiri vəzifəsində çalışmış, istedadlı jurnalist və şair kimi nüfuz qazanmışdır.

1969-cu ildə Böyük Vətən müharibəsində itkin düşmüş sənət adamları haqqında ilk sənədli "Etüd" oçerklər kitabı çap olunmuşdur.

1984-cü ildə "Bəlkə bir də görüşdük" adlı oçerklər toplusu, 1986-cı ildə "Günlər Bəşirsiz keçir" adlı kitabı işıq üzü görmüşdür.

"Nəğməli gecələr" (şeirlər - 1972), "Ata sevgisi" (şeirlər - 1978), "Sahilsiz dünya" (şeirlər və poema - 1986), "Bəşir Səfəroğlu" (1986), "Səhərimiz ayaq açır" (şeirlər - 1991) və s. bu kimi ədəbi, publisistik kitabları çap olunmuşdur.

2005-ci ildə "Ah, İstanbul... İstanbul...: Türkiyə İstanbul 1993-1998 " adlı son kitabı işıq üzü görmüşdür. Naxçıvan Poeziya Teatrında Rəsul Rzanın şeirləri əsasında hazırladığı "Bir gün də insan ömrüdür" kompozisiyası tamaşaya qoyulmuşdur.

Tofiq Abdin 1993-2001-ci illərdə Türkiyədə yaşamışdır. Türkiyədə çalışarkən "Orta doğu" və "Asiya" qəzetləri ilə əməkdaşlıq etmişdir. Lakin 2001-ci ildən doğma jurnalı olan "Qobustan"a qayıtmış, burada 2005-ci ilə kimi məsul katib vəzifəsində işləmiş, həmin jurnalda maraqlı yazılarla çıxış etmişdir.

2005-2006-cı illərdə "Ulduz" jurnalında ədəbi işçi, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyində Teatr sektorunda aparıcı məsləhətçi, 2006-cı ildə isə "Mədəniyyət" qəzetində baş redaktorun müavini vəzifələrində işləmişdir.

Həmçinin bu illər ərzində şairin "Şeirlər" (2001), "Proza" (2006), "Poeziya" (2009) və bu kimi kitabları çap olunmuşdur.

Respublika mətbuatında birbirindən maraqlı yazılarla çıxış etmişdir. 2002-ci ildə Xalq şairi Rəsul Rza adına Beynəlxalq ədəbiyyat mükafatına, 2010-cu ildə isə "Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Tofiq Abdin 2014-cü il fevral ayının 24-də vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Ədəbiyyat

Ah, İstanbul... İstanbul...: Türkiyə İstanbul 1993-1998. İki kitab birlikdə / Tofiq Abidin.- Bakı: Avropa, 2005.- 496 s.

Poeziya /T.Abdin.- Bakı: Vektor, 2009.- 350 s.

Proza /T.Abdin - Bakı: Yazıçı, 2006.- 256 s.

Xocalıda bir gecə /T.Abdin //Ədalət.- 2012.- 25 fevral.- S.15.

Cəfərzadə, K. Tofiq Abdinə gecikmiş vida sözü /K.Cəfərzadə //525-ci qəzet.- 2014.- 11 aprel .- S.8.

Əhmədov, T. Tofiq Abdin //Əhmədov T. Azərbaycan yazıçıları: XX-XXI yüzilliklərdə.- Bakı, 2011.- S.938-939.

Paşayeva, A. Tofiq Abdin yaradıcılığı /A.Paşayeva //Palitra.- 2015.- 18 iyun.- S.13.

Tofiq Məhərrəm oğlu Abdin: //525-ci qəzet .-2014.- 26 fevral.- S.8.

İnternetdə

www.anl.az

www.az.wikipedikia.org

www.kitab.az

95 illiyi

Novruz Gəncəli
1921-1995

Şair

Novruz İsmayıl oğlu Sadıqov (Novruz Gəncəli) 1921-ci il sentyabr ayının 12-də Bakı şəhərində anadan olmuşdur. 8 yaşında ikən atasını itirmiş, qardaşının himayəsində yaşamışdır.

1929-1934-cü illlərdə H.Z.Tağıyev adına Toxuculuq fabriki nəzdindəki 63 saylı orta məktəbdə ibtidai təhsil almışdır. Sonra Gəncədə toxuculuq fabrikində işləmiş, Gəncə şəhərindəki 3 saylı beynəlmiləl orta məktəbdə təhsilini davam etdirmişdir.

Novruz Gəncəli 1939-cu ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsinə daxil olmuşdur. Universitetin II kursunda oxuyarkən qardaşının ölümü ilə əlaqədar olaraq əyani təhsildən qiyabi təhsilə keçmişdir.

1941-1943-cü illərdə Lerik rayonunun kəndlərində müəllim və məktəb müdiri vəzifələrində işləmiş, 1943-1946-cı illərdə Bakıda Dövlət Təhlükəsizliyi orqanlarında, 1946-1949-cu illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında, Azərbaycan Baş Mətbuat İdarəsində, 1949-1950-ci illərdə isə Azərbaycan Yazıçılar İttifaqının "Natəvan" klubunda çalışmışdır.

1950-1960-cı illərdə Novruz Gəncəli "Ədəbiyyat" qəzeti redaksiyasında Tənqid şöbəsinin müdiri, "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi, Azərbaycan KP MK Təbliğat və təşviqat şöbəsində təlimatçı, 1960-1976-cı illərdə isə "Azərbaycan" jurnalı redaksiyasında baş redaktorun müavini vəzifələrində işləmişdir. 1976-cı ildən Azərbaycan Yazıçılar İttifaqında poeziya üzrə məsləhətçi olmuşdur.

Yaradıcılığa erkən yaşlardan başlamışdır. Hələ 22 yaşı olarkən şairin "Odlu ürəklər" (1943) adlı ilk kitabı işıq üzü görmüşdür.

Ömrünün sonuna kimi yazıb-yaradan şairimiz Novruz Gəncəlinin sağlığında 14 kitabı çap olunmuşdur. "Unudulmaz günlər" (1949), "Şeirlər" (1950), "Üç dost" (1953), "Könüllər açılanda" (poema-1954), "Unuda bilmirəm..." (şeirlər-1958), "Dalğalar" (şeirlər-1959), "Mənim mahnılarım" (şeirlər-1963), "İnsan və qızılgül" (şeirlər və poema-1968), "Pyeslər" (1971), "Şah və tutuquşu" (1973), "Əbədi dost" (şeirlər və poema-1984) və s. şeir kitabları nəşr edilmişdir. 1945-ci ildən Yazıçılar Birliyinin üzvü olmuşdur.

Novruz Gəncəli həmçinin bir sıra xarici ölkə ədəbiyyatından dilimizə nümunələr də tərcümə etmişdir. C.Bayronun "Gavur", Y.Çarentsin "Hamı üçün" poemalarını, A.Makayonokun "Tribunal", C.Patrikin "Missis Səvinc", B.Brextin "Kuraj ana və onun uşaqları", Abayın "İsgəndər", Eminesku Mixayın "Qəriblikdə" (şeirlər) və s. əsərləri doğma dilimizə çevirmişdir. Görkəmli şair bir sıra keçmiş SSRİ medalları ilə təltif edilmişdir.

Novruz Sadıqov (Novruz Gəncəli) 1995-ci il oktyabrın 19-da Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Əbədi dost: Şeirlər və poemalar /N.Gəncəli.- Bakı: Yazıçı, 1984.- 384 s.

Hürmüz babanın davacatı /N.Gəncəli; red. M.Namaz.- Bakı: Gənclik, 1993.- 80 s.

Zərdüşt Peyğəmbər: [iyirmi şəkildə, iki hissəli drama] /N.Gəncəli; red. S.Nəzərli.- Bakı, 1994.- 184 s.

Əhmədov T. Novruz Gəncəli //Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə): Ensiklopedik məlumat kitabı.- Bakı, 2011.- S.722-723.

Xəlilzadə F. Üfüqdən qalxan səhər: Novruz Gəncəli-90 //Azərbaycan.- 2011.- 13 sentyabr.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

www.en.wikipedia.org

85 illiyi

Oqtay Şıxəliyev 1931-2012

Rəssam



Oqtay Yusif oğlu Şıxəliyev 1931-ci il sentyabr ayının 3-də Bakı şəhərində anadan olmuşdur. 1939-cu ildə Bakı şəhər 1 saylı orta məktəbdə təhsil almışdır.

1947-ci ildə Ə.Əzimzadə adına Rəssamlıq məktəbinə (indiki Azərbaycan Dövlət Rəssamlıq Akademiyası) daxil olmuşdur. 1952-ci ildə rəssamlıq məktəbini fərqlənmə diplomu ilə bitirmişdir. 1952-1958-ci illərdə V.İ.Muxina adına Leninqrad Ali Bədii Sənaye Məktəbinin bədii keramika şöbəsində dekorativ-tətbiqi sənət ixti-sası üzrə təhsil almışdır.

1957-ci ildə Gənclərin Ümumittifaq Sərgi Festivalında dekorativ sənət üzrə birinci mükafata layiq görülmüşdür.

1960-cı ildə Azərbaycan Rəssamlar İttifaqına üzv qəbul olunmuşdur. 1963-1967-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində müəllim, 1967-ci ildə Azərbaycan Teatr İnstitutunda (indiki ADMİU) müəllim, 1969-cu ildən baş müəllim vəzifələrində işləmişdir. 1983-cü ildə Azərbaycan İncəsənət Universitetinin Rəsm kafedrasının dosenti, 1993-cü ildə həmin kafedranın professoru elmi rütbəsini almışdır. 2001-ci ildən Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Rəsm kafedrasının, 2005-ci ildən Akademik rəsm kafedrasının, 2011-ci ildən ömrünün sonunadək isə Rəsm kafedrasının professoru vəzifələrində çalışmışdır.

XX əsrin 60-cı illərindən etibarən bir çox ictimai binaların-idman sarayı, məktəb, zavod, metro stansiyası, park və s. bədii tərtibatını vermiş və binaların interyerində müxtəlif formalı kompozisiyalar yaratmışdır.

Rəssamın monumental yaradıcılıq nümunələrinə misal olaraq Bakıdakı 18 saylı məktəb, Bakı məişət kondisionerləri zavodu, "Azərbaycan" nəşriyyatının binası, Bakıda "Uşaq dünyası" universal mağazası və digərlərini göstərmək olar.

Rəngkarlıq sahəsində çalışmış, çoxlu portret və mənzərə təsvirləri, plakatlar işləmiş, dekorativ vazalara və boşqablara tərtibat vermişdir. Daha çox lokal rənglərə üstünlük verən rəssam bu rənglərin ahəngini onların təzadı ilə birgə yaratmışdır.

"Mənim qaracam", "Nigar", "Qız", "Kimyaçı" kimi portretlərdə, həmçinin, "Qobustan", "Müharibənin nəticələri" adlı mənzərələrində buna rast gəlmək mümkündür.

Rəssam dəzgah rəngkarlığının müxtəlif janrlarında bir-birindən maraqlı əsərlər yaratmışdır. "Çənlər" (1969), "Kürün ram edilməsi" (1970), "Ancaq sülh" (1970), "Sallaqxana" (1970), "Mənim buketim" (1971), "Kapella" (1980), "Muğam" (1982) və s. əsərləri onun tematik tablolarının əsas bədii xüsusiyyətlərini əks etdirir.

Portret və mənzərə janrında yaratdığı "Qobustan daşları" (1966), "Sumqayıt boruları" (1970), "Tarzən Bəhram Mansurov" (1972), "SSRİ Xalq artisti Mirzağa Əliyev" (1974), "Aydın səma" (1974), "Rəssam Rasim Babayev" (1975), "Nigar" (1975), "Rəssamın ailəsi" (1976), "Meksika həyəti" (1982) və s. rəssamın yaddaqalan uğurlu əsərlərindəndir.

Bir çox xarici ölkələrdə - Meksika, Almaniya, Kanada və s. yaradıcılıq səfərlərində olmuşdur. Əsərləri dünyanın müxtəlif ölkələrində nüfuzlu muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır.

1982-ci ildə Azərbaycan Respublikasının "Əməkdar rəssamı", 1992-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülmüşdür. Prezident təqaüdçüsü idi.

Oqtay Şıxəliyev 2012-ci il yanvar ayının 30-da Bakı şəhərində vəfat et-

Ə d ə b i y y a t

Oqtay Şıxəliyev: monoqrafiya /mətnin müəl. və tərt. M.Tərlanov.- Bakı: İşıq, 1988.- 68 s.

Abbasov, T. Oqtay Şıxəliyevin yaradıcılığı /T.Abbasov //Qobustan.- 2011.- №2.- S.45-47.

Araplı, Y. Gözəl bir insan kimi... /Y.Araplı //Mədəni həyat.-2014.- №9.- S.22-26.

Azəri, L. Paytaxtda iz qoyan rəssam /L.Azəri //Mədəniyyət.- 2013.- 6 noyabr.- S.12

Quliyev, Ə. Ustad rəssam: Oqtay Şıxaliyev /Ə.Quliyev //Azərbaycan.-2011.-4 sent.- S.5.

Oqtay Yusif oğlu Şıxəliyev //Mədəniyyət.-2012.- 1 fevral.- S.4; Xalq qəzeti.- 2012.-1 fevral.-S. 6

Sadıqov, S. Monumentalist rəssamın dəzgah rəngarlığı əsərləri /S.Sadıqov // Palitra.-2015.- 8 may.- S.15.

İ n t e r n e t d ə

www.anl.az

100 illiyi

Əyyub Hüseynov 1916-1998

Rəssam

Əyyub Müseyib oğlu Hüseynov 1916-cı il sentyabr ayının 3-də Naxçıvan vilayətinin (Naxçıvan MR) Noraşen rayonunun (indiki Şərur) Xok kəndində anadan olmuşdur.

Əyyub Hüseynovun yaradıcılığının erkən dövrü onun Bakı Rəssamlıq Texnikumunda təhsil aldığı illərdən başlanır. O, 1931-ci ildə texnikuma daxil olmuş, buranı bitirdikdən sonra təhsilini Tbilisi Rəssamlıq Akademiyasında davam etdirmişdir. Təhsilini başa vurduqdan sonra bir müddət Naxçıvan Dövlət Dram Teatrında quruluşçu rəssam işləyən Əyyub Hüseynov müxtəlif tamaşalar üçün dekorasiya və eskizlər hazırlayırdı. Lakin rəssam kimi dəzgah rəngkarlığına daha çox meyl etmişdir.

Əyyub Hüseynov zəhmət və kənd mövzularında rəngarəng tablolar yaratmış, yaradıcılığının bütün dövrlərində mənzərə, portret, məişət janrlarına müraciət etmiş, özünəməxsus bədii xüsusiyyətləri, geniş rəng yaxmaları ilə seçilən üslub nümayiş etdirmişdir.

Zaman etibarilə Əyyub Hüseynovun yaradıcılığını üç dövrə bölmək olar: sənət fəaliyyətinə başladığı erkən (30-50-ci illər), yaradıcılığının məhsuldar mərhələsi olan inkişaf (60-80-ci illər) və bədii sənətkarlıq baxımından cilalanmış yetkin dövrü (80-90-cı illər). Bu dövrlərin hər birinin özünəməxsus cəhətləri, sənət dünyagörüşü, bədii üslub xüsusiyyətləri olmuşdur.

Yağlı boya ilə çoxlu sayda mənzərə, məişət-tematik və digər mövzularda əsərlər yaradan rəssamın yaradıcılığında milli-tarixi tematika mühüm yer tutur. Daha çox mənzərəçi, portretçi rəssam kimi tanınsa da, tablolarında bu tematika olduqca ifadəli, təsirli məzmuna, dərin məna yükünə, ciddi ideya-bədii tutuma malikdir.

1948-1998-ci ildə pedaqoji fəaliyyətə başlamış, 1956-1965-ci illərdə Əzim Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq məktəbinin (indiki ADRA) direktoru işləmişdir. Ömrünün 50 ilini bu gün adları, yaradıcılıqları ilə şöhrət qazanan neçə-neçə fırça ustalarının əhatəli bilgi qazanmalarına sərf etmişdi.

Əyyub Hüseynovun əsərlərində torpaq, səma, təbiət təsvirləri üstünlük təşkil edir. "Araz vadisində" mənzərə tablosunun yaranmasından 70 ildən artıq vaxt keçməsinə baxmayaraq, bu gün də məşhurdur. Əyyub Hüseynov sovet dövründə əsərləri ilə Azərbaycanı dünyada tanıtdıranlardan biri olmuşdu. Müxtəlif janrlarda çəkdiyi rəsmlərində milli dəyərlərimizi təsvir etmişdi. Yaratdığı tablolar bu gün də dünya muzeylərini bəzəyən eksponatlardandır.

Əmək mövzusunda çəkdiyi "Kömək gəlib", "Yaylaqda", "Çobanlar", mənzərə janrında "Şahbuz", "Yağışdan sonra", "Aşıq Ələsgər", "Əmək qəhrəmanı" portretləri məşhurdur.

1980-ci ildə o, Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür.

Görkəmli fırça ustası Əyyub Hüseynov 1998-ci il aprel ayının 17-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Hüseynov Əyyub Müseyib oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S. 285.

Hüseynov Əyyub Müseyib oğlu //Naxçıvan ensiklopediyası; Azərbaycan Milli EA.- Bakı, 2002.- S.192 .

Tarixin rəngləri əməkdar incəsənət xadimi Ə. Hüseynovun yaradıcılığına milli-tarixi tematika/ E. Hüseynov// Mədəniyyət 2014.- 5 oktyabr.- S.12.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

70 illiyi

Gülnaz Abdullazadə
1946 *Bəstəkar-musiqişünas*

Gülnaz Abutalıb qızı Abdullazadə 1946-cı il sentyabr ayının 7-də Bakı şəhərində anadan olmuşdur.

1971-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki AMK) bəstəkarlıq sinfini bitirmişdir. Görkəmli bəstəkar Cövdət Hacıyevin tələbəsi olmuşdur.

1976-1979-cu illərdə M.Lomonosov adına Moskva Dövlət Universitetinin aspiranturasında (fəlsəfə fakültəsinin Estetika kafedrası) təhsil almışdır. Aspiranturanı bitirdikdən sonra "Hegelin estetikasında musiqi incəsənətinin problemləri" mövzusunda namizədlik, 1990-cı ildə doktorluq dissertasiyasını uğurla müdafiə etmişdir. "Qədim və orta əsrlər musiqi mədəniyyətinin tarixi-fəlsəfi təhlili" (Şərq-Qərb kontekstində) mövzusunda elmi işi yüksək qiymətləndirilmiş və 1992-ci ildə professor elmi rütbəsini almışdır.

Gülnaz xanım 1 saylı musiqi məktəbində, A.Zeynallı adına Musiqi Texnikumunda, Azərbaycan Pedaqoji Xarici Dillər İnstitunda (indiki ADXDU) kafedra müdiri vəzifəsində çalışmışdır.

1991-ci ildən Bakı Musiqi Akademiyasının elmi-tədqiqat və yaradıcılıq işləri üzrə prorektorudur.

Gülnaz Abdullazadə Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq muğamların fəlsəfi mahiyyətini araşdırmışdır.

Azərbaycan və dünya musiqisinin fəlsəfi problemlərinə və Azərbaycan bəstəkarlarının yaradıcılığına dair bir sıra əsərlərin müəllifidir.

"Azərbaycan muğamlarının fəlsəfi mahiyyəti" (1983), "Musiqi sənətinin fəlsəfi mahiyyəti" (1985), "Musiqi, insan, cəmiyyət" (1991), "Azərbaycan fəlsəfəsi" (həmmüəllif, 1993), "Qədim və orta əsrlərin musiqi mədəniyyəti" (1996) "Hegelin musiqi estetikası" (1999) və s. monoqrafiyalarını yazarkən bütövlükdə muğamların və folklor musiqisinin fəlsəfi mahiyyətinə əsaslanmışdır.

IV Uluslararası Türk Kültürü Konqresində (Ankara, Atatürk Kültür Mərkəzi. 1997, 4-7 noyabr), Uluslararası Avropada və Türk Cümhuriyyətlərində musiqi mədəniyyəti və tədrisi konqresində (Ankara, Qazi Universiteti. 2002,13-16 noyabr), bir sıra konfrans və seminarlarda məruzələrlə çıxış etmişdir.

Gülnaz Abdullazadə 1999-cu ildə akademik Yusif Məmmədəliyev adına mükafatın laureatı olmuşdur.

Ə d ə b i y y a t

Qədim və orta əsrlərin musiqi mədəniyyəti: tarixi-fəlsəfi təhlil /G.Abdullazadə; elmi red. A.Şükürov.- Bakı: Qartal, 1996.- 292 s.

Simfoniya [Notlar]: fortepiano üçün 4 əlli köçürmə /G.Abdullazadə.- Bakı: Adiloğlu, 2004.- 80 s.

Azərbaycan milli musiqisinin tədqiqi problemləri: məqalələr toplusu /red.: G.Abdullazadə, E.Abasova; məsul red. A.Abduləliyev; Ü.Hacıbəyov adına BMA.- II buraxılış.- Bakı: Elm və həyat, 1996.- 78 s.

Abdullazadə Gülnaz Abutalıb qızı //Muğam ensiklopediyası /Heydər Əliyev Fondu.- Bakı, 2008.- S.11-12.

İ n t e r n e t d ə

www.anl.az

85 illiyi

Mobil Əhmədov 1931-2006

Müğənni

Mobil Salman oğlu Əhmədov 1931-ci il sentyabr ayının 10-da Gəncə şəhərində anadan olmuşdur. 1955-ci ildə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbinə (indiki ADRA) daxil olmuşdur. Bir il sonra isə Azərbaycan Dövlət Konservatoriyasına (indiki AMK) qəbul olmuş və Bülbülün sinfində oxumuşdur. 1961-ci ildə təhsilini başa vuraraq Dövlət Radiosunun xorunda işləməyə başlamış, həmin ilin sentyabr ayında Musiqili Komediya Teatrına solist kimi dəvət olunmuşdur.

Mobil Əhmədov teatrın səhnəsində bir-birindən maraqlı, təkrarolunmaz obrazlar yaratmış, xalqın yaddaşına həkk olunmuşdur. Şıxəli Qurbanovun əsəri əsasında Süleyman Ələsgərovun "Milyonçunun dilənçi oğlu" operettasında Yetim obrazı ilə çox böyük uğur qazanmışdır.

O, klassik operettalarda və klassik milli dramaturgiya əsasında yazılmış musiqili komediyalarda bir-birindən maraqlı rollar ifa etmişdir: Sərvər və Rüstəm bəy, Əsgər ("Məşədi İbad" və "Arşın mal alan", Ü. Hacıbəyli), Heydər bəy ("Hacı Qara", M.F.Axundzadənin eyniadlı əsəri əsasında libretto müəllifi Ş.Bədəlbəyli. R.Mustafayev və V.Adıgözəlov), Məhəmmədhəsən əmi ("Danabaş kəndinin əhvalatları", C.Məmmədquluzadənin eyniadlı əsəri əsasında libretto müəllifi C.Səlimova, bəstəkar O.Kazımov) və s.

Mobil Əhmədov həmçinin Tuğay ("Bir dəqiqə", M.Əlizadə və H.Xanməmmədov), Nadir ("Qızılaxtaranlar", H.Seyidbəyli və T.Quliyev), Ayaz ("Qaynana", M.Şamxalov və Z.Bağırov), Alay ("Gözün aydın", M.Əlizadə və F.Əmirov), Bəxtiyar ("Ulduz" S.Rəhman və S.Ələsgərov), Arzu, Zəfər, Yetim, Toğrul ("Olmadı elə, oldu belə", "Özümüz bilərik", "Milyonçunun dilənçi oğlu","Sevindik qız axtarır", Ş.Qurbanov və S.Ələsgərov), Cəsarət, Çingiz ("Nənəmin şahlıq quşu", "Boşanaq, evlənərik", Ə.Kürçaylı və V.Adıgözəlov), Sahib ("Ləpələr", Ə.Kürçaylı və A.Məlikov), Etibar ("Qızılgül", M.Əlizadə və S.Hacıbəyov) və s. obrazlarını yaratmışdır.

Şirin, məlahətli, coşğun səsə və zəngin çalarlı aktyorluq ifadə vasitələrinə, eləcə də həssas obraz duyumuna malik olan Mobil Əhmədovun bu gün Azərbaycan Teleradiosunun qızıl fondunda 600-ə yaxın lent yazısı saxlanmaqdadır.

1978-ci ildə Azərbaycan SSR-in "Əməkdar artist", 2000-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Mobil Əhmədov 2006-cı il iyun ayının 3-də Bakı şəhərində vəfat etmiş, Gəncədə dəfn olunmuşdur.

Ədəbiyyat

Vahidoğlu, Ü. Aktyorun tale ləpirləri /Ü.Vahidoğlu.- Bakı: Tural-Ə NPM, 2001.- 55 s.

Qasımov, R. Ruhun şad olsun, Ustad! /R.Qasımov //525-ci qəzet .-2011.- 3 iyun.-S.7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az www.genceinformsiya.com

110 illiyi
Xanlar Haqverdiyev 1906-1980

Opera müğənnisi

Xanlar Məmməd oğlu Haqverdiyev 1906-cı il sentyabr ayının 25-da Ağdam rayonunun Seyidli kəndində, bəy ailəsində anadan olmuşdur.

1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasının (indiki AMK) Vokal şöbəsinə daxil olmuş, professor H.Speranskidən rus və Avropa musiqisini, Seyid Şuşinskidən isə klassik mu-ğamlarımızın incəliklərini öyrənmişdir.

1929-cu ildə Azərbaycan Dövlət Opera və Balet Teatrına xorda oxumaq üçün qəbul edilmişdir. Ona "Əsli və Kərəm" operasında Sofi rolu, Hüseynqulu Sarabski (Kərəm) kimi sənətkarın tərəf müqabili olmaq tapşırılmışdır.

1932-1933-cü illərdə Türkmənistanda Azərbaycan Dövlət Opera və Dram Teatrı yaradılmışdır. Aşqabad Azərbaycan Teatrının inkişafında bir çox sənətkarlarla yanaşı görkəmli aktyor Rza Əfqanlının, opera müğənnisi Xanlar Haqverdiyevin də rolu olduqca böyük olmuşdur. O, türkmən xalqının böyük rəğbətini qazanmışdır. Məhz bunun nəticəsi olaraq müğənninin əməyi yüksək qiymətləndirilmiş, 1939-cu ildə ona "Türkmənistan SSR-in Əməkdar artisti" fəxri adı verilmişdir.

Xanlar Haqverdiyev 1959-cu ildə Moskvada Azərbaycan incəsənəti və ədəbiyyatı ongünlüyündə iştirak etmiş, "Sevil", "Koroğlu" operalarında çıxış etmişdir.

Teatr incəsənəti sahəsində fəaliyyətinə və zəhmətkeşlər qarşısında mədəni xidmətlərinə görə 1956-cı ildə ona "Azərbaycan SSR Əməkdar artisti" fəxri adı verilmişdir.

Xanlar Haqverdiyev Azərbaycan Teatr Cəmiyyətinin üzvü idi.

Lirik-dramatik tenor səs tembrinə malik olan Xanlar Haqverdiyev Məcnun, İbn Salam ("Leyli və Məcnun - Ü.Hacıbəyli), Kərəm ("Əsli və Kərəm" - Ü.Hacıbəyli), Şah İsmayıl, Əlyar ("Şah İsmayıl", "Nərgiz"- M.Maqomayev), Qərib ("Aşıq Qərib" - Z.Hacıbəyli), aşıq ("Şahsənəm" - R.Qlier) və s. partiyalar ifa etmişdir.

Musiqili səhnə sənətini inkişaf etdirmək sahəsində göstərdiyi xidmətlərinə görə o, dəfələrlə Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin, keçmiş Sovet İttifaqı respublikalarının fəxri fərmanları ilə təltif edilmiş, "Əməkdə fərqlənməyə görə" medalına layiq görülmüşdür.

1962-ci ilin dekabr ayında Xanlar Haqverdiyev təqaüdə çıxsa da, bir neçə il yenidən opera teatrında fəaliyyət göstərmiş, gənc müğənnilərin yetişməsində yaxından kömək etmişdir.

Xanlar Haqverdiyev 1980-ci il dekabr ayının 5-də vəfat etmişdir.

Ədəbiyyat

Çəmənli, M. Sənətkar ömrünün izləri /M.Çəmənli.- Bakı: Adiloğlu, 2006.- 128 s.

Rəhimli, İ. Xanlar Məhəmməd oğlu Haqverdiyev //Rəhimli İ. Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrı.- Bakı, 2008.- S.332.

Xanlar Haqverdiyev //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1987.- C.10.- S.125.

Xanlar Haqverdiyev //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.109.

İnternetdə

www.anl.az

www.uzeyirbook.musigidunya.az

65 illiyi Yaşar Nuri 1951-2012

Aktyor

Yaşar Məmmədsadıq oğlu Nuriyev (Yaşar Nuri) 1951-ci il sentyabr ayının 3-də Bakıda tanınmış və unudulmaz aktyorumuz Məmmədsadıq Nuriyevin ailəsində anadan olmuşdur. Səhnədə ilk dəfə on bir yaşında "Toy kimindir?" (dramaturq Məhərrəm Əlizadə) tamaşasında Tapdıq rolunda çıxış etmişdir. Məktəbli vaxtlarında dövlət televiziyasının "Yelkən" verilişinin aparıcılarından olmuşdur. Bundan başqa o, "Buratino", "Qaranquş", "Pioner" uşaq verilişi-teatrlarında müntəzəm iştirak etmiş, müxtəlif dram dərnəklərinə getmişdir.

1968-ci ildə Bakıdakı 173 saylı orta məktəbi bitirmiş, Azərbaycan İncəsənət İnstitutunun (indiki ADMİU) dram və kino aktyorluğu fakültəsinə daxil olmuşdur. Kurs rəhbərləri tanınmış səhnə xadimləri Rza Təhmasib və Əliheydər Ələkbərovdan aktyorluq sənətinin incəliklərini öyrənmişdir. Tələbəlik illərində Balaş ("Sevil" C.Cabbarlı), Salmanov ("Toy"S.Rəhman), Neznamov ("Günahsız müqəssirlər" A.N.Ostrovski) və s. obrazlar yaratmışdır.

1974-cü il dekabr ayının 1-də Akademik Dram Teatrının baş rejissoru Tofiq Kazımovun dəvəti ilə kollektivin aktyor truppasına qəbul olunmuşdur.

Yaşar Nuri Milli Dram Teatrında işlədiyi gündən repertuarda olan bir çox tamaşalarda iştirak etmişdir. Akademik Milli Dram Teatrının səhnəsində ilk rolu Aleksandr Vampilovun "Övlad" ("Böyük oğul" 1974) komediyasının tamaşasında Silva rolu olmuşdur. Bundan başqa o, Pərviz ("Bağlardan gələn səs" İ.Əfəndiyev - 1975), Qasım ("Quşu uçan budaqlar" Ə.Əylisli - 1978), Sərsəm Salman ("Dəli yığıncağı" C.Məmmədquluzadə - 1978), Əbdüləli bəy ("Sevil" C.Cabbarlı - 1978) və s. obrazlarını yaratmışdır.

Yaşar Nuri həm də məşhur kino ustası idi. Əlliyə yaxın bədii filmə çəkilmiş, Azərbaycan Dövlət Televiziyasında hazırlanmış yüzdən çox tamaşada, bədii kompozisiyada, satirik səhnəciklərdə iştirak etmişdir. Onun əsasən baş rolları ifa etdiyi teletamaşalar televiziyanın qızıl fondunda daimi sənət nümunələri kimi qorunur. Bunlara R.Həsənoğlunun hazırladığı R.Qasımovanın "Yollar görüşəndə...", "Ömrün yolları", İsi Məlikzadənin "Qatarda", Anarın "Evləri köndələn yar", Mövlud Süleymanlının "Kökdən düşmüş piano", H.Cavidin "Topal Teymur", A.Qəhrəmanovun əsərləri əsasında lentə alınmış "Səni axtarıram", "Bağışla", "Səndən xəbərsiz" trilogiyası və s. televiziya tamaşalarını misal göstərmək olar. Aktyor özünü həm kinoda, həm də teatrda rejissor kimi sınamış, teatrda İ.Məlikzadənin "Subaylarınızdan görəsiniz" əsərinə quruluş vermiş, kinoda isə "Spasibo" filmini ekranlaşdırmışdır.

1981-ci ildə "Azərbaycan SSR-in Əməkdar artisti", 1989-cu ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 1991-ci ildə 40 illik yubileyində "Yaramaz" filmindəki roluna görə Dövlət mükafatı laureatı olmuş, 1992-ci ildə isə "Qızıl dərviş" mükafatına layiq görülmüşdür. 2005-ci ildən Azərbaycan Respublikasının Fərdi təqaüdçüsü idi. 2011-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Yaşar Nuriyev 2012-ci il noyabr ayının 22-də vəfat etmişdir.

Ədəbiyyat

Rəhimli, İ. Yaşar Nuriyev (3 Sentyabr 1951) /İ.Rəhimli //Azərbaycan teatr tarixi: Dərslik /İ.Rəhimli.- Bakı, 2005.- S. 388-389.

Yaşar Nurisiz 3 il... Ramiz Həsənoğlu: "Azərbaycan ekranının böyük istedadları var. Ancaq Yaşarın olduğu yeri heç kim doldura bilməz" /T.Məhərrəmova //Kaspi .-2015.- 4 sentyabr.- S.9.6.

Yaşar Nuri-63:İlham Namiq Kamal: "Yaşar Nuri böyük sənətkar olmaqla bərabər, insan kimi dəyərli, ləyaqətli idi"//Üç nöqtə .-2014.- 4 sentyabr.- S. 13.

Yaşar Nurinin son filmi...: "Mən evə qayıdıram" bədii filminin təqdimatı keçirildi /R. İbrahimov //Bizim yol .-2014.- 28 fevral.- S. 13.

İnternetdə

www.medeniyyet.az

www.teatrmuzeyi.musigi-dunya.az

65 illiyi Kazımağa Kərimov 1951-1992 Milli Qəhrəman

Kazımağa Mövsüm oğlu Kərimov 1951-ci il sentyabr ayının 1-də Qubadlı rayonunun Sarıyataq kəndində, ziyalı ailəsində anadan olmuşdur. Qubadlı rayon orta məktəbini bitirdikdən sonra rayonun "Avanqard" qəzetinin mətbəəsində yığıcı işləmişdir.

1970-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinə daxil olmuşdur. Beş il müddətində təhsil aldığı universitetin bütün ictimai işlərində fəallıq göstərmiş, tez-tez həm respublika, həm də rayon qəzetlərində maraqlı yazıları dərc olunmuşdur.

Universiteti bitirdikdən sonra təyinatla "Azərbaycan məktəbi" jurnalında, sonra isə "Azərbaycan müəllimi" qəzetində çalışmışdır. Sonralar Goranboy rayon Qızılhacılı kəndində Aqrar Sənaye Birliyində hüquq məsləhətçisi kimi işə qəbul olunmuşdur.

1988-ci ildə vətəndaşlıq borcunu yerinə yetirmək üçün cəbhə bölgəsinə yollanmışdır.

1991-ci ildə Goranboy rayonunda yaradılan könüllü özünümüdafiə batalyonlarından birinə komandir müavini təyin olunan Kazımağa baş leytenant rütbəsi ilə doğma torpaqlarımızın müdafiəsinə qalxmışdı.

İlk günlərdən bir çox mühüm hərbi əməliyyatlarda iştirak etmiş, Goranboy rayonunun Gülüstan, Qaraçinar, Manas, Şəfəq, Tapqaraqoyunlu kəndləri uğrunda gedən döyüşlərə komandanlıq etmişdir.

Kazımağa Kərimov 1992-ci ilin 12-13 iyun tarixlərində Goranboy rayonunun azad olunması uğrunda həyata keçirilən döyüşdə ayağından ağır yaralanmış, lakin çox qan itirdiyindən onun həyatını xilas etmək mümkün olmamışdır. 1992-ci il iyun ayının 15-də vəfat etmişdir.

Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 23 iyun 1992-ci il tarixli 6 saylı Fərmanı ilə Kərimov Kazımağa Mövsüm oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Qızılhacılı kənd Mədəniyyət evi onun adını daşıyır. Goranboy şəhərində büstü qoyulmuşdur.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Silahlı Qüvvələri hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Kərimov Kazımağa Mövsüm oğlu-baş leytenant- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 23 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 12.- S.35.- (Ölümündən sonra).

Əsgərov, V. Kərimov Kazımağa Mövsüm oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.150-151.

Kərimov Kazımağa Mövsüm oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.112.

Seyidzadə, M. Kərimov Kazımağa Mövsüm oğlu /M. Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.115.

45 illiyi

Seymur Məmmədov
1971-1992 Milli Qəhrəman

Seymur Qəhrəman oğlu Məmmədov 1971-ci il sentyabr ayının 18-də Füzuli rayonunda anadan olmuşdur. 1988-ci ildə Füzuli rayonu 2 saylı orta məktəbi bitirmişdir. Elə həmin ildə Azərbaycan Texniki İnstitutunun (indiki ADTU) elektrotexnika fakültəsinə (qiyabi təhsil) daxil olmuşdur. Təhsil almaqla yanaşı həm də Füzuli şəhər Rabitə şöbəsində çalışmışdır.

1991-ci ildə hərbi xidmətə çağırılaraq Vladimir vilayətinin Kovrov şəhərində artilleriya üzrə kurs keçmiş, sonra isə Almaniyaya göndərilmişdir. Bir müddətdən sonra xidmətini Ukraynanın Çerniqov şəhərində davam etdirmişdir.

Hərbi xidmətini yerinə yetirdikdən sonra Vətənə qayıdan Seymur Məmmədov könüllü olaraq Füzuli rayonunda 814 saylı özünümüdafiə batalyonuna yazılmışdır. İstər kəşfiyyatçı kimi, istərsə də sıravi döyüşçü kimi döyüş əməliyyatlarında xüsusi fəallıq göstərmişdir.

1992-ci ilin ilk aylarında Qacar, Divanallar, Govşad, Yuxarı Veysəlli, Dilağarda kəndlərinin müdafiəsi uğrunda gedən ağır döyüşlərdə iştirak etmişdir. Xocalıdan Qırmızı Bazara gətirilən 14 azərbaycanlının əsirlikdən qurtarılmasında, Govşadlı yaxınlığında mühasirəyə düşən 11 nəfər döyüş yoldaşının xilas edilməsində böyük fəallıq göstərmişdir.

1992-ci il aprelin 1-də Xocavənd rayonu Məlikcan kəndi uğrunda gedən son döyüşlərdə Seymur 2 saat ərzində öz qumbaraatanı ilə bir düşmən tankını, bir PDM-i, 50-dən çox qulduru məhv etmiş, qəhrəmancasına həlak olmuşdur.

Bakı şəhərində Şəhidlər Xiyabanında dəfn olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 11 avqust 1992-ci il tarixli 131 saylı Fərmanı ilə Məmmədov Seymur Qəhrəman oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Təhsil aldığı orta məktəb Milli Qəhrəmanın adını daşıyır.

Ə d ə b i y y a t

Seymur Qəhrəman oğlu Məmmədova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Sıravi - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 11 avqust 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı. - 1992.- № 15.- S.70.- (Ölümündən sonra)

Əsgərov, V. Məmmədov Seymur Qəhrəman oğlu /V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.206.

Məmmədov Seymur Qəhrəman oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.143.

Seyidzadə, M. Məmmədov Seymur Qəhrəman oğlu /M.Seyidzadə // Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.149.

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

50 illiyi

Arif Qubadov
1966-2009

Milli Qəhrəman

Arif Vəliş oğlu Qubadov 1966-cı il sentyabr ayının 20-də Cəlilabad rayonunun Əliqasımlı kəndində anadan olmuşdur. 1983-cü ildə Əliqasımlı kənd orta məktəbini bitirmiş, 1984-cü ildə isə Cəlilabad rayon Hərbi Komissarlığı tərəfindən hərbi xidmətə çağırılmışdır. Xidmətini SSRİ-nin müxtəlif yerlərində keçmişdir.

Erməni quldurlarının Qərbi Azərbaycanda və Qarabağda törətdikləri vəhşiliklər Arif Qubadovu çox narahat etmiş, 1992-ci ildə Azərbaycana gələrək Milli Ordumuzda xidmət etməyə başlamışdır.

1992-ci ilin iyun ayında Naxçıvan MR-nın Sədərək bölgəsində gedən qanlı döyüşlərdə Arif qəhrəmancasına vuruşaraq düşmənin xeyli canlı qüvvəsini və döyüş texnikasını məhv etmişdir.

Onun dəstəsi 1993-cü ilin iyun ayında Ağdam rayonuna göndərilmiş, rayonun Əfətli, Yusifcanlı kəndlərinin düşmən tapdağından azad edilməsində böyük qəhrəmanlıq göstərmiş, kəndlər tezliklə azad edilmişdir.

1993-cü ilin avqustunda öz taboru ilə Füzuli bölgəsinə yollanaraq Əhmədbəyli, Aşağı və Yuxarı Kürd-Mahmudlu, Alxanlı kəndlərini düşməndən təmizləmişdir.

1994-cü ildə Tərtər və Ağdərə döyüşlərində də fəal iştirak edərək, öz döyüşkənliyi və rəşadəti ilə fərqlənmişdir.

Xidmətlərinə görə Azərbaycan Respublikası Prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı Fərmanı ilə Qubadov Arif Vəliş oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

1996-cı ildə Bakı Ali Birləşmiş Komandirlər Məktəbinə, 2001-ci ildə isə Azərbaycan Respublikası Sərhəd Qoşunları Hərbi Akademiyasına daxil olmuş, 2003-cü ildə oranı müvəffəqiyyətlə bitirmişdir.

Polkovnik-leytenant rütbəsinədək yüksələn Arif Qubadov N saylı hərbi hissənin komandir müavini vəzifəsində işləmişdir.

2009-cu il sentyabr ayının 25-də uzun sürən xəstəlikdən sonra vəfat etmişdir.

Doğulduğu Cəlilabad rayon Əliqasımlı kəndində dəfn edilmişdir.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının hərbi qulluqçularının və polis işçilərinin bir qrupuna "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Qubadov Arif Vəliş oğlu - Müdafiə Nazirliyi, baş leytenant - Azərbaycan Respublikasının Konstitusiya, dövlət quruluşunun müdafiəsi, onun müstəqilliyinin qorunub saxlanması və dövlət çevrilişi cəhdinin qarşısının alınması zamanı şəxsi qəhrəmanlıq və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 4 aprel 1995-ci il //Azərbaycan.- 1995.- 5 aprel.- S.1.

Əsgərov, V. Qubadov Arif Vəliş oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S 161-162.

Qubadov Arif Vəliş oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.119-120.

Seyidzadə, M. Qubadov Arif Vəliş oğlu /M. Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.123.

İ n t e r n e t d ə

www.adam.az
www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az

60 illiyi

Zakir Yusifov
1956-1992

Milli Qəhrəman

Zakir Tofiq oğlu Yusifov 1956-cı il sentyabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur.

1974-cü ildə 194 saylı orta məktəbi bitirdikdən sonra Sasovski adına Mülki Təyyarəçilik Məktəbinə daxil olmuşdur.

1977-ci ildə təhsilini başa vuraraq, Yevlax Aviadəstəsində əmək fəaliyyətinə başlamışdır. AN-2 təyyarəsinin komandiri, eskadrilya komandirinin müavini, eskadrilya komandiri, uçuşu təşkil və təminetmə müfəttişliyinin təyyarəçi-müfəttişi vəzifələrində çalışmışdır.

Zakir Yusifov 1988-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsinin qiyabi şöbəsinə daxil olmuşdur.

Azərbaycanda ilk hərbi vertolyot eskadrilyası Milli Qəhrəman Yavər Əliyevlə Zakir Yusifovun əməyi nəticəsində yaradılmışdır. Qısa zamanda Qarabağda və digər döyüş bölgələrinə uçuşlar etmiş, ən uğurlu uçuşunu isə Füzuli-Xocavənd istiqamətində yerinə yetirmişdir.

Cəsur komandir yüzədək hərbi uçuş keçirərək Əsgəran, Füzuli, Xocavənd, Tərtər, Ağdərə, Şuşakənd uğrunda gedən döyüşlərdə iştirak etmiş və Azərbaycan Hərbi Aviasiyasının döyüş salnaməsinə şanlı səhifələr yazmışdır.

1992-ci il oktyabr ayının 11-də Səfiyan kəndində növbəti əməliyyat keçirən zaman Zakir Yusifovun vertolyotu vurulmuş və bütün heyət həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Yusifov Zakir Tofiq oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Vaxtilə oxuduğu 194 saylı orta məktəb və Bakının Nizami rayonundakı küçələrdən biri onun adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında:-[Yusifov Zakir Tofiq oğlu-mayor-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1993.- №3.- S.11.- (Ölümündən sonra).

Əsgərov,V. Yusifov Zakir Tofiq oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.279.

Seyidzadə, M.Yusifov Zakir Tofiq oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.219.

Yusifov Zakir Tofiq oğlu //Azərbaycanın Milli Qəhrəmanları: biblioqrafiya /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.201-202.

İnternetdə

www.adam.az
www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az

55 illiyi Mirələkbər İbrahimov 1961-1994 Milli Qəhrəman

Mirələkbər Mirələsgər oğlu İbrahimov 1961-ci il sentyabr ayının 30-da Qərbi Azərbaycanın Vedibasar mahalının Xalisa kəndində, ziyalı ailəsində anadan olmuşdur. Birinci sinifə doğma kəndlərində getmişdir. Sonra ailəsi ilə birgə Bakıya köçmüşdür.

1978-ci ildə Bakıdakı 158 saylı orta məktəbi bitirdikdən sonra hərbi xidmətə getmişdir.

1980-ci ildə hərbi xidmətini başa vurmuş, Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) idman və hərbi hazırlıq fakültəsinə daxil olmuşdur. Təyinatı ilə Lənkəranda üç il müəllim işləmiş, sonra Bakıya qayıdaraq 153 saylı orta məktəbdə ibtidai hərbi hazırlıq müəllimi kimi pedaqoji fəaliyyətini davam etdirmişdir.

1990-cı ilin 20 Yanvar hadisəsindən və eləcə də Daşaltı, Malıbəyli, Kərkicahan qırğınlarından sonra cəbhəyə getməyi qərara alan Mirələkbər İbrahimov Yasamal rayon Hərbi Komissarlığına müraciət etmişdir.

1993-cü ildə onu yenicə yaradılmış 5-ci Yasamal taboruna komandir təyin edirlər. Mirələkbər öz taboru ilə Füzuli rayonunun Alxanlı, Kürdmahmudlu, Aşağı Seyidəhmədli kəndləri uğrunda gedən döyüşlərdə iştirak edərək, mərdliklə vuruşmuşdur.

Mirələkbər İbrahimov 1994-cü il mart ayının 5-də Qorqan kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına həlak olmuşdur. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1994-cü il tarixli 203 saylı Fərmanı ilə kapitan İbrahimov Mirələkbər Mirələsgər oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Vaxtilə dərs dediyi 153 saylı orta məktəb onun adını dayışır.

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [İbrahimov Mirələkbər Mirələsgər oğlu-kapitan- Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, vətənimizin torpaqlarının erməni işğalçılarından müdafiə edilməsində gedən döyüşlərdə qəhrəmanlıqla vuruşaraq göstərdiyi şəxsi igidlik və sücaətə, öz müqəddəs əsgəri və xidməti borcunun yerinə yetirilməsində göstərdiyi misilsiz xidmətlərə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 16 sentyabr 1994-cü il //Azərbaycan.- 1994.- 21 sentyabr.- S.1. (Ölümündən sonra).

Əsgərov, V. İbrahimov Mirələkbər Mirələsgər oğlu /V. Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.133.

İbrahimov Mirələkbər Mirələsgər oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.101-102.

Seyidzadə, M. İbrahimov Mirələkbər Mirələsgər oğlu /M. Seyidzadə // Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.103.

İ n t e r n e t d ə

www.adam.az
www.anl.az
www.az.wikipedia.org
www.milliqahraman.az

60 illiyi

Xanlar Hacıyev 1956

Hüquqşünas

Xanlar İrşad-Faiq oğlu Hacıyev 1956-cı il sentyabr ayının 9-da Gəncə şəhərində anadan olmuşdur.

1978-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) hüquq fakültəsini bitirmişdir.

1978-1980-ci illərdə SSRİ Elmlər Akademiyasının Dövlət və Hüquq İnstitutunda təcrübə keçmişdir.

1980-ci ildən M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin hüquq fakültəsinin aspiranturasında təhsil almış, 1983-cü ildə dissertasiya müdafiə edərək hüquq elmləri namizədi alimlik dərəcəsi almışdır.

1983-1985-ci illərdə RSFSR Ali Məhkəməsində məsləhətçi olmuş, 1985-1988-ci illərdə isə "Sovet ədliyyəsi" jurnalında cinayət hüququ və cinayət prosesi şöbəsinin redaktoru vəzifələrində işləmişdir.

1988-1990-cı illərdə SSRİ Ali Məhkəməsində baş məsləhətçi vəzifəsində çalışmışdır.

1990-1992-ci illərdə Azərbaycan Respublikası Ali Məhkəməsinin hakimi, 1992-1993-cü illərdə Ali Məhkəmənin sədrinin birinci müavini vəzifələrində işləmişdir. 1993-cü ilin noyabr ayından 1998-ci ilin iyul ayına qədər Azərbaycan Respublikası Ali Məhkəməsinin Sədri olmuşdur.

1998-ci ilin iyul ayının 14-də Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi, Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Sədri vəzifəsinə təyin olunmuşdur.

Avropa Şurası Venesiya Komissiyasının, Azərbaycan Respublikasının Dövlət İdarəetmə sistemində islahatlar aparılması üzrə Dövlət Komissiyasının, Azərbaycan Respublikası Prezidenti yanında hüquq islahatları komissiyasının, habelə Azərbaycan Respublikası Məhkəmə Hüquq Şurasının üzvü olmuşdur.

2002-ci ildə hüquq elmləri doktoru alimlik dərəcəsini almışdır.

2003-cü ilin aprel ayının 2-dən İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin hakimi vəzifəsində fəaliyyət göstərir.

2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ə d ə b i y y a t

İnsan hüquq və azadlıqlarının müdafiəsinə həsr olunmuş qərarların toplusu (Azərbaycan, ingilis və rus dillərində) /red. X.Hacıyev; Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi.- Bakı: Səda, 2001.- 204 s.

Beynəlxalq humanitar hüquqda məsuliyyət məsələləri /V.Ə.İbayev; red. X.Hacıyev, rəy.: S.Qayıbov, R.Məmmədov.- Bakı: Elm, 2000.- 166 s.

Hakimdə sağlam düşüncə və ədalət olmalıdır /X.Hacıyev //İki sahil.- 2012.- 14 avqust.- S.10.

İ n t e r n e t d ə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

70 illiyi

Möhsün Nağısoylu 1946

Şərqşünas

Möhsün Zellabdin oğlu Nağısoylu (Nağıyev) 1946-cı il sentyabr ayının 1-də Şərur rayonunun Xok kəndində anadan olmuşdur. Orta təhsilini bitirdikdən sonra 1963-cü ildə indiki BDU-nun şərqşünaslıq fakültəsinin İran filologiyası şöbəsinə daxil olmuş, 1971-ci ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1972-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutunda çalışır. 1976-1980-ci illərdə kiçik elmi işçi, 1981-1988-ci illərdə baş elmi işçi vəzifələrində çalışmış, 1988-1992-ci illərdə mənbəşünaslıq və elm tarixi şöbəsinin müdiri olmuşdur. 1993-cü ildən Farsdilli əlyazmaların tədqiqi şöbəsinin müdiridir. 1967-1970, 1972-1975 və 1982-1986-cı illərdə Əfqanıstanda fars dili tərcüməçisi kimi çalışmışdır.

Hazırladığı elmi təsvirlər farsdilli əlyazmalar kataloqunun 1, 2 və 3-cü cildlərinə daxil edilmişdir. M.Z.Nağısoylu 1979-cu ildə "XVI əsr Azərbaycan tərcümə əsəri "Şühədanamə" (poleoqrafiya, orfoqrafiya və tərcümə məsələləri)" mövzusunda namizədlik, 1994-cü ildə "XV-XVI əsrlər Azərbaycan tərcümə abidələri (tekstoloji tədqiqi və dil xüsusiyyətləri)" mövzusunda doktorluq dissertasiyasını müdafiə etmişdir.

Onun "Orta əsrlərdə Azərbaycanda tərcümə sənəti" (Bakı, 2000), "M.Füzulinin "Hədiqətüs-süəda" əsəri" (Bakı, 1993; 2002), "XVI əsr Azərbaycan tərcümə abidəsi "Şühədanamə" (Bakı, 2003), "Şirazinin "Gülşəni-raz" tərcüməsi" (Bakı, 2004), "Əhmədinin "Əsrarnamə" tərcüməsi" (Bakı, 2005), "Həzininin "Hədisi-ərbəin" tərcüməsi" (Bakı, 2008) kitabları milli Azərbaycan elminin inkşafında mühüm rol oynamış, elmi ictimaiyyət tərəfindən yüksək qiymətləndirilmişdir. Elmi araşdırmaları əsasən orta yüzilliklərdə fars dilindən Azərbaycan türkcəsinə edilmiş tərcümə əlyazmalarının mətnşünaslıq və dilçilik baxımından tədqiqinə həsr olunmuşdur. Abituriyentlər üçün "Azərbaycan dili" (1999), "Ədəbiyyat" (2000), "Azərbaycan dili və ədəbiyyat" (2003) dərs vəsaitlərinin də müəllifi, M.Nəsirinin "Lisanüt-teyr" (2000), "Şeyx Səfi təzkirəsi" (2006) əsərlərini tərtib və çap edənlərdən biridir.

Bir sıra beynəlxalq elmi konfranslarda elmi məruzələrlə çıxış etmişdir. Məqalələri Tehran, Kabil, Sankt-Peterburq, İrəvan, Qazan, Ankara, Konya şəhərlərində nəşr olunan elmi toplularda çapdan çıxmışdır. Tərtibçisi olduğu "Nizami. İncilər" kitabı Türkiyədə, "Farsca əlyazmalar kataloqu" kitabı isə İranda nəşr olunmuşdur. Azərbaycan tərcümə tarixi problemlərinə və yazılı abidələrə dair 28 kitab və monoqrafiyanın müəllifi, tərtibçisi və tərcüməçisi, 200-dən çox elmi və elmi-kütləvi məqalənin müəllifidir. 4 namizədlik dissertasiyasına rəhbərlik etmişdir.

AMEA-nınakademikZ.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu nəzdindəki ixtisaslaşdırılmış müdafiə şurasının, eləcə də Əlyazmalar İnstitutu nəzdində yaradılan birdəfəlik müdafiə şurasının üzvüdür. 1996-2002-ci illərdə Qafqaz Universitetində "Azərbaycan dili" və "Türk İslam ədəbiyyatı tarixi" fənlərini tədris etmişdir. 2005-ci ildən Sumqayıt Dövlət Universitetinin xarici ölkələr ədəbiyyatı kafedrasının professorudur.

Ədəbiyyat

Abbasqulu Ağa Bakıxanovun "Riyazül-qüds" əsəri : [monoqrafiya] /M. Z. Nağısoylu ; AMEA, M. Füzuli ad. Əlyazmalar İn-tu.-Bakı: Elm və təhsil, 2014.-172 s.

XVI əsr Azərbaycan tərcümə əsəri "Kəvamilüttəbir": filoloji-tekstoloji araşdırma, əsərdən parçalar /M. Nağısoylu; elmi red. N. Göyüşov; AMEA, Məhəmməd Füzuli ad. Əlyazmalar İn-tu.-Bakı: Elm və təhsil, 2011.-246 s.

Türk dillərinə ilkin klassik tərcümələr: ortaq nöqtələr və problemlər /M.Nağısoylu//Ədəbiyyat qəzeti .-2015.- 11 iyul.- S.18.

Yusif Vəzir Çəmənzəminlinin ədəbi-tənqidi görüşləri haqqında dəyərli araşdırma /M.Nağısoylu //Ədəbiyyat qəzeti.-2015.- 6 iyun.- S.23.

Möhsün Nağısoylu: biblioqrafiya /AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İn-tu.; tərtibçi L.Əliyeva ; red. N. Göyüşov.-Bakı: Elm və təhsil, 2012.- 95, [1] s.

ww.az.wikipedia.org

www.sience.gov.az

95 illiyi

Hacıbəy Sultanov 1921-2008

Akademik

Hacıbəy Fərəculla oğlu Sultanov 1921-ci il sentyabr ayının 20-də Bakının Şağan kəndində anadan olmuşdur. 1942-ci ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsini bitirmişdir.

Universiteti bitirdikdən sonra İkinci Dünya müharibəsində iştirak etmək üçün cəbhəyə yollanmışdır.

Berlinin alınmasına qədər şanlı döyüş yolu keçən Hacıbəy Sultanov "Vətən müharibəsi" ordeni və "İgidliyə görə", "Qafqazın müdafiəsinə görə", "1941-1945-ci illərdə Almaniya üzərində qələbəyə görə", "Praqanın azad edilməsinə görə" medalları ilə təltif olunmuşdur.

1946-cı ildə ordudan tərxis edildikdən sonra Azərbaycan Dövlət Universitetinin Astronomiya kabinetində işə qəbul olunaraq elmi tədqiqatlara başlamışdır.

1947-ci ildə Azərbaycan SSR Elmlər Akademiyasının (indiki AMEA) aspirantı kimi M.Lomonosov adına Moskva Dövlət Universitetinə ezam edilmişdir.

Aspiranturanı bitirdikdən sonra Akademiyanın Fizika və Riyaziyyat İnstitutunda işləməyə başlayan Hacıbəy Sultanov 1953-cü ildən burada yaradılmış Astrofizika sektoruna rəhbərlik etmişdir.

1959-cu ildə həmin sektorun əsasında Şamaxı Astrofizika Rəsədxanası təşkil edilmiş, Hacıbəy Sultanov 1981-ci ilədək onun direktoru olmuşdur. 1981-ci ildən ömrünün sonunadək Şamaxı Astrofizika Rəsədxanasında şöbə müdiri vəzifəsində işləmişdir.

1976-1981-ci illərdə Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti vəzifəsinə seçilmişdir.

Hacıbəy Sultanov 1951-ci ildə fizika-riyaziyyat elmləri namizədi elmi dərəcəsi almış, 1967-ci ildə isə Moskva Dövlət Universiteti nəzdindəki Şternberq adına Astronomiya İnstitutunun Elmi Şurasında doktorluq dissertasiyası müdafiə etmişdir.

1972-ci ildə Azərbaycan Elmlər Akademiyasının həqiqi üzvü seçilmişdir.

Hacıbəy Sultanov Beynəlxalq Astronomiya İttifaqının, Avropa Astronomiya Cəmiyyətinin, SSRİ Elmlər Akademiyası nəzdində Ümumittifaq Astronomiya və Geodeziya Cəmiyyəti Mərkəzi Şurasının üzvü və onun Azərbaycan bölməsinin sədri olmuşdur.

Müasir dövrdə Azərbaycanda astronomiya sahəsində tədqiqatların yenidən qurulması Hacıbəy Sultanovun adı ilə bağlıdır. Alimin bilavasitə rəhbərliyi və iştirakı ilə Şamaxı Astrofizika Rəsədxanasının işi formalaşdırılmış, o dövr üçün müasir olan teleskopların alınıb quraşdırılması və astronomiya sahəsində yüksəkixtisaslı kadr hazırlığı həyata keçirilmişdir.

Onun elmi fəaliyyətinin əsas sahələri səma mexanikası və Günəş sisteminin kosmoqoniyası ilə bağlı idi. Asteroidlərin mənşəyinə dair riyazi nəzəriyyənin qurulması istiqamətində orijinal işlər yerinə yetirmişdir.

Hacıbəy Sultanovun elmi fəaliyyəti yüksək qiymətləndirilmişdir. 2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanına əsasən Azərbaycan elminin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Hacıbəy Sultanov 2008-ci il mart ayının 5-də vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycanın ilk riyaziyyatçı filosofu /Həqiqət Kərimova; elmi red.: H.Sultanov, Q.Əliyev.- Bakı: Nurlan, 2002.- 128 s.

Sultanov, H.Görkəmli alim, fəal ziyalı /H.Sultanov; red. A.Əliyev.- Bakı: Gənclik, 1997.- S. 80.

Yolun cazibəsi: Elşad Abdullayev - 50 /tərt. H.Sultanov.- Bakı: Təhsil, 2004.- 296 s.

Zeynalov, R. Unudulmaz alimin ömür yolu /R.Zeynalov //Respublika.- 2011.- 11 oktyabr.- S.11.

İnternetdə

www.az.wikipedia.org

www.sience.gov.az

azertag.az

90 illiyi

Adilə Namazova 1926

Akademik

Ə d ə b i y y a t

Uşaqlarda bronxit və pnevmoniyanın klinika və müalicəsinə müasir baxışlar/A.Ə.Namazova, T.Q.Tağızadə.- Naxçıvan: Qeyrət, 2003.- 54 s..

Adilə ömrü... /M. Süleymanoğlu.- Bakı: Günəş, 2006.-148 s.

Ana haqqı-Tanrı haqqı: [ensiklopedik məlumat] / tərtibçi-müəllif. T. Zeynalova, red. S. Nəzərli, ön söz. Z. Quliyeva.- Bakı: İsmayıl NPM, 2003. S. 7-11.

Namazova Adilə

//Azərbaycanın görkəmli təbibləri /Şövkət Hüseynova; Red. M. Əmirova; Rəyçi və elmi red. N. Əliyev.- Bakı: İşıq, 1994.-S. 38-44.

İncə bədəndə böyük ürək daşıyan akademik: Azərbaycan səhiyyəsinin korifeyi, görkəmli elm xadimi, qayğıkeş insan: akademik Adilə Namazova /Təhminə//Azad Azərbaycan .-2015.- 22 iyul.- S. 7

Ağdama akademik baxış:/V.Tofiqli //525-ci qəzet .-2013.- 13 sentyabr.- S.4

Adilə Əvəz qızı Namazova 1926-cı il sentyabr ayının 9-da Ağdam rayonunun Seyidli kəndində anadan olmuşdur. 1934-1944-cü illərdə Ağdam rayonu orta məktəbində təhsil almışdır. Orta məktəbi bitirdikdən sonra 1944-cü ildə Azərbaycan Tibb İnstitutuna (indiki ADTU) pediatriya fakültəsinə daxil olmuşdur. İnstitutu bitirdikdən sonra 1949-1953-cü illərdə Ağdam rayonu uşaq məsləhətxanasında müdir vəzifəsində çalışmışdır. 1954-1957-ci illərdə Moskva Həkimləri Təkmilləşdirmə Mərkəzi İnstitutunun aspiranturasında təhsil almışdır.

Moskvada təhsil aldığı illərdə məşhur akademik G.N.Speranskinin klinikasında alim kimi formalaşmış, namizədlik dissertasiyasını müdafiə etmişdir. 1960-cı ildə dünya şöhrətli alim, akademik B.V.Petrovskinin klinikasında o dövrə qədər hələ də qaranlıq qalan və tam ümidsiz hesab olunan anadangəlmə ürək qüsurlarının tədqiqatına başlamış, ilk dəfə olaraq uşaqlarda anadangəlmə ürək qüsurlarının düzgün topik diaqnozunu dəqiqləşdirərək ürək üzərində cərrahi əməliyyatın aparılması göstərişini və əks-göstərişini təyin etmişdir. 1960-1965-ci illərdə Moskva şəhərində SSRİ Tibb Elmləri Akademiyasının doktoranturasında təhsil alan Adilə Namazova 1965-ci ildə I Moskva Tibb İnstitutunda doktorluq dissertasiyasını müdafiə etmiş və bununla da pediatriya üzrə tibb elmləri doktoru olan ilk azərbaycanlı qadın kimi tarixə düşmüşdür.

ATİ-nin Uşaq xəstəlikləri kafedrasında assistent (1958-1960), müalicə profilaktika fakültəsi Uşaq xəstəlikləri kafedrasının müdiri (1966-1969), Hospital-pediatriya kafedrasının müdiri (1969) olmuşdur. SSRİ Tibb Elmləri Akademiyasının müxbir üzvü (1971), Azərbaycan Səhiyyə Nazirliyi Elmi-Tibbi Şurasının sədri (1971-1992), Azərbaycan Respublikası uşaq həkimləri cəmiyyətinin sədri (1972), Azərbaycan EA (indiki AMEA) həqiqi üzvü (1983), SSRİ Xalq Deputatı (1989-mart), iki dəfə SSRİ Ali Sovetinin üzvü, (2002), Azərbaycan Uşaq Fondunun həmsədri (2005), Rusiya Pediatrlar İttifaqının Elmi-Təcrübi "Pediatriçeskaya Farmokologiya" jurnalının redaksiya şurasının üzvü (2006) seçilmişdir.

Adilə Namazova Azərbaycan Səhiyyə Nazirliyi və Azərbaycan Respublika Tibb İşçiləri Həmkarlar Komitəsinin Fəxri fərmanı (1974), "SSRİ Səhiyyə əlaçısı" (1975), Azərbaycan SSRİ Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı (1976), "Əməkdar elm xadimi" fəxri adı (1981), Azərbaycan SSR Dövlət mükafatı laureatı (1982), Azərbaycan Respublikası "Bilik" cəmiyyətinin Fəxri fərmanı və medalı (1983) ilə təltif olunmuşdur.

1995-ci ildə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Fəxri fərmanı, 1996-cı ildə isə səhiyyənin inkişafındakı nailiyyətlərinə görə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Adilə Namazova 2000-ci ildə ADTU-da Etika proqramının tərtibinə görə Albert Şveyserin-SOROS qrantına layiq görülmüş, 2002-ci ildə isə "Ziyalı Azərbaycan Qadını Simvolu" diplomu ilə təltif olunmuşdur.

Bu gün də akademik Adilə Namazova əvvəllər olduğu kimi, yorulmadan elmi axtarışlar aparır, gənc pediatrlar nəslinin yetişməsi üçün bütün səyini və bacarığını sərf edir.

105 illiyi

Ələkbər Quliyev 1911-1983

Akademik

Ələkbər Məmməd oğlu Quliyev 1911-ci il sentyabr ayının 27-də Tiflis şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1930-cu ildə Gəncə şəhərinə gələrək Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna qəbul olmuşdur. 1937-ci ilədək Botanika kafedrasında assistent kimi çalışmış, bir müddətdən sonra baş müəllim vəzifəsinə keçirilmişdir. 1941-ci ildə akademik A.A.Qrossqeymin rəhbərliyi ilə namizədlik dissertasiyası müdafiə edərək biologiya elmləri namizədi alimlik dərəcəsi və dosent elmi adı almışdır. 1938-ci ildə Gəncə şəhərindəki H.Zərdabi adına Dövlət Pedaqoji İnstitutunda kafedra müdiri vəzifəsinə seçilmişdir. Həmin illərdə pedaqoji fəaliyyəti ilə yanaşı, o, Azərbaycan Elmi-Tədqiqat İpəkçilik İnstitutunda tutçuluq şöbəsinə də rəhbərlik etmişdir.

Tanınmış alim Kənd Təsərrüfatı İnstitutunda Botanika kafedrasının müdiri (1941-1955), AKTİ-nin aqronomluq fakültəsinin dekanı (1946), həmin institutun elmi işlər üzrə direktor müavini (1955-1959), Gəncə Dövlət Pedaqoji İnstitutunun rektoru (1960), Azərbaycan SSR-in Kənd Təsərrüfatı naziri (1961-1962), Azərbaycan SSR Elmlər Akademiyası (indiki AMEA) Genetika və Seleksiya İnstitutunun direktoru (1962-1970) vəzifəsində çalışmışdır. 1950-ci ildə SSRİ EA-nın V.L.Komarov adına Botanika İnstitutunda "Azərbaycanda bal və toz verən bitkilərin öyrənilməsi" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək biologiya elmləri doktoru alimlik dərəcəsinə, 1952-ci ildə isə SSRİ AAK-ın qərarı ilə professor elmi rütbəsinə layiq görülmüşdür.

Elmi fəaliyyəti çoxsahəli olmuşdur. Onun yaradıcılığını şərti olaraq üç sahəyə bölmək olar. Həmin sahələrdən biri yem bitkilərinin öyrənilməsi olmuşdur. Akademik Ə.Quliyev bu istiqamətdə apardığı elmi işlərin nəticələrini beş monoqrafiyada və yüzdən çox elmi məqalədə çap etdirmişdir. Arıçılıq sahəsində apardığı tədqiqat işləri keçmiş SSRİ-də Ə.Quliyevi görkəmli alimlər sırasında məşhurlaşdırmışdır. Xüsusilə, uzun illər ərzində apardığı tədqiqatların nəticəsi olan "Bal və toz verən bitkilərin öyrənilmə məsələləri" monoqrafiyası ona böyük şöhrət gətirmişdir. Ölkənin otlaq və çəmənliklərində zərərli və zəhərli bitkilərin müəyyən edilməsində və otlaqların yaxşılaşdırılması sahəsində geniş tədqiqatlar aparmışdır. Ə.Quliyev bu xidmətlərinə görə Ümumittifaq Kənd Təsərrüfatı Akademiyasının üzvü seçilmişdir. Elmi fəaliyyətinin ikinci hissəsi çiçəkli bitkilərin təkamülünə aid bəzi məsələlərin öyrənilməsinə həsr edilmişdir. O, müəyyən etmişdir ki, çiçəyin nektar orqanının forması və nektar verməsi bir-birindən kəskin fərqlənir. Ə.Quliyevin elmi fəaliyyətinin üçüncü istiqaməti Azərbaycanın əsas kənd təsərrüfatı bitkilərinin biologiyasına, genetik xüsusiyyətlərinin və seleksiya məsələlərinin öyrənilməsinə həsr edilmişdir. Bu sahədə apardığı qiymətli tədqiqat işlərinin nəticəsində alim onlarca yeni bitki sortu yaratmışdır ki, onlardan ASXL-1 yonca, Azərbaycan-3 qarğıdalı və Ağdaş-3 pambıq sortları respublikamızın kənd təsərrüfatının davamlı inkişafında mühüm rol oynamışdır.

Ə.Quliyevin xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, o, bir çox mükafatlarla, orden və medallarla təltif olunmuş, "Əməkdar ixtiraçı" fəxri adına layiq görülmüşdür. 1960-cı ildə ona "Əməkdar elm xadimi" adı verilmişdir.

1962-ci ildə Azərbaycan EA-nın (AMEA) müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir. Uzun illər Genetika və Seleksiya İnstitutunun elmi məcmuəsinin, AKTİ, Gəncə Pedaqoji İnstitutunun elmi yazarları məcmuələrinin redaktoru, redaktor müavini, Azərbaycan EA-nın Xəbərlər bölməsində redaksiya heyətinin üzvü, Azərbaycan Genetiklər və Seleksiyaçılar Cəmiyyətinin Rəyasət Heyətinin üzvü olmuşdur. Onun yerli və xarici mətbuatda 250-yə qədər elmi əsəri, o cümlədən 14 kitabı, 11 monoqrafiyası çap edilmişdir.

Akademik Ələkbər Quliyev 1983-cü ildə vəfat etmişdir.

Ə d ə b i y y a t

Azərbaycan yaylaqlarının zəhərli və zərərli bitkiləri və onlarda mübarizə tədbirləri /Ə.Quliyev, V.Quliyev.- Bakı: Azərnəşr, 1961.- 183 s.

Azərbaycanın balverən bitkiləri və kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artmasında bal arılarının rolu /Ə.Quliyev.- Bakı: Elm, 1979.-202 s.

Azərbaycanın yay otlaqları və onları yaxşılaşdırma yolları /Ə.Quliyev, V.Quliyev.- Bakı: Azərnəşr, 1962.- 164 s.

Yonca /Ə.Quliyev, S.Hüseynov.- Bakı: Azərnəşr, 1986.- 76 s.

AMEA-da akademik Ələkbər Quliyevin 100 illiyi qeyd edilmişdir //Elm.-2012.- 30 yanvar.

Quliyev Ələkbər Məmməd oğlu //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1979.- C.III.- S.266.

www.anl.az

115 illiyi

Bakı Müsəlman Qız Məktəbi 1901

Ə d ə b i y y a t

Cabbarov, F. H.Z.Tağıyevin qız məktəbinin tarixindən /F.Cabbarov; elmi red. N.Vəlixanlı; Azərb. Milli Elmlər Akad., Milli Azərb. Tarixi Muzeyi.- Bakı: Ziya, 2011.-390 s.

Müsəlman Şərqində ilk dünyəvi qız məktəbinin yaradılmasının 110 illiyinə həsr olunmuş Beynəlxalq Elmi Simpoziumun məruzələri: Bakı, 06-07-2011 /AMEA, Milli Azərb. Tarixi Muzeyi; məsul red. N.Vəlixanlı; tərt. F.Cabbarov.- Bakı: [Ziya], 2012.- 166 s.

Bayramqızı, Ə. İlk dünyəvi qız məktəbinin yaradılmasından 110 il ötür /Ə.Bayramqızı //Xalq qəzeti.- 2011.- 23 oktyabr.- S.6.

Rzalı, R. Görkəmli mesenat Zeynalabdin Tağıyevin təşəbbüsü və dəstəyi ilə müsəlman aləmində ilk dünyəvi qız məktəbi 110 il öncə Bakıda açıldı /R.Rzalı //Azərbaycan.- 2011.- 23 noyabr.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

Azərbaycanın XX əsr siyasi-ictimai və mədəni həyatında ömrünün sonunadək təmənnasız olaraq xidmət göstərən, millətin inkişafı yolunda var-dövlətini əsirgəməyən böyük oğullardan biri - Bakı milyonçusu Hacı Zeynalabdin Tağıyev idi.

Bakıda qız məktəbi açmaq istəyən H.Z.Tağıyev əvvəlcə imperator III Aleksandrdan icazə istəsə də "yox" cavabı alır. II Nikolay taxta çıxanda o, yenə müraciət edir. 1895-ci ildə Nikolayın tacqoyma mərasimində Zaqafqaziya müsəlmanlarını təmsil edən H.Z.Tağıyev çarın xanımı Aleksandra Fyodorovnaya çox bahalı hədiyyə bağışlayır və Bakıda onun adına qız məktəbinin açılmasını xahiş edir.

1896-cı ildə şifahi, 2 il sonra isə rəsmi razılıq alan Tağıyev məktəb binası üçün müvafiq yer seçir. Müsəlman qızlar məktəbi üçün bina İsmailiyyə binasının yanında (Keçmiş Nikolayevski, indiki İstiqlaliyyət küçəsində) tikilir. O, bu işi memar İ.V.Qoslavskiyə həvalə edir. Məktəb binasının tikilişinə 4 il vaxt sərf olunur.

H.Z.Tağıyev bu işə 183 min 533 rubl pul xərcləyir. Dövrün böyük ziyalıları, eləcə də Həsən bəy Zərdabinin ömürgün yoldaşı Hənifə xanım (qeyd edək ki, məktəbin direktoru Hənifə xanım olur), Sona xanım Tağıyeva, Əlimərdan bəy Topçubaşov və başqa ziyalılar bu işi alqışlayır, məktəbin tez açılması üçün əllərindən gələni edirdilər.

Nəhayət, 1901-ci ilin payızında Aleksandra imperator rus-müsəlman qız məktəbinin təntənəli açılış mərasimi olur.

Məktəbin tədris kursu müsəlman ailəsinin tələbləri nəzərə alınmaqla əl işləri və evdarlıq üzrə əlavə siniflə rus ibtidai məktəblərindəki kurs əsasında qurulmuşdu. Qızlar təhsilə 7 yaşında başlamalı və 4 il oxumalı idi. Dərslər rus dilində aparılırdı. Bərabər Azərbaycan dili və din dərsləri keçirilirdi. İlk vaxtlarda 50 şagirdin qəbulu nəzərdə tutulmuşdu ki, onların 20-si H.Z.Tağıyevin ianəsi hesabına təhsil alır və onlar da pansionda qalırdılar. Lakin qəbul üçün 50 nəfər nəzərdə tutulsa da, elə birinci il ərizə verənlərin sayı 58-ə çatmışdı.

Müsəlman Şərqində yaradılan ilk qız məktəbi müsəlman ənənələrini Avropa modernizmi ilə bacarıqla birləşdirərək Azərbaycanda dünyəvi qadın təhsilinin əsasını qoymuşdur. Keyfiyyətli tədris üçün Rusiyanın müxtəlif bölgələrindən müəllimlər dəvət olunurdu. Qızlar Avropa üslubunda olan ağ yaxalıqlı, başlıqlı yaraşıqlı uniforma geyinirdilər. H.Z.Tağıyev kasıb ailələrdən olan qızların təhsil alması üçün varlı ailələrdən olan qızların qəbulunu məhdudlaşdırır. Bir neçə ildən sonra o, böyük məbləğdə pul verib məktəbə "Qızlar seminariyası" statusu alır və məktəb 6 illik olur.

Maarifçilik tariximizdə, dünyəvi təhsilin inkişafında, Azərbaycan qadınının təhsil almasında H.Z.Tağıyevin "Qızlar seminariyası"nın böyük rolu olmuşdur. Bu məktəbi bitirən onlarla azərbaycanlı qız sonradan millətimizin tərəqqisində yaxından iştirak edir, cümhuriyyət fəallarından olurlar. Rəhilə Hacıbababəyova, Şəhrəbanu Şabanova, Şəfiqə Əfəndizadə, Səkinə Axundzadə, Məryəm Qembitskaya, Naxçıvanda qızlar məktəbi açan Nazlı Tahirova, Bakıda "Qadın Xeyriyyə Cəmiyyəti"ni yaradan Liza Muxtarova və onlarla başqaları belə fəallardandır.

Tarixdə bu gün

Qurban Bayramı 1992

Bütün müsəlman aləmində Qurban bayramı hər il hicri təqvimi ilə Zilhiccə ayının 10-cu günündən başlayır və adətən üç gün davam edir. Dini qurban kəsmə İbrahim Peyğəmbərin həyatında baş verən əhvalatdan sonra yaranmışdır. Belə ki, yuxuda Allah (c.c.) İbrahim peyğəmbərə oğlu İsmayılı qurban verməyi (onların Allaha imanını yoxlamaq üçün) əmr etmişdi. İbrahim əsl dindar kimi Allahın əmrini yerinə yetirməyə hazır olmuş, İsmayıl özü də qurban olmağa razılaşmışdı. Lakin uca Allah bunu öz elçisinə rəva bilməmiş və qurbanlıq üçün ona bir qoç göndərmişdi. Buna görə də bu bayramda kəsilən qurbana "İsmayıl qurbanı" da deyirlər.

Çox sevdiyi övladını Allah yolunda qurban verməyə hazır olması peyğəmbərin Allah qarşısında imanının, səmimiliyinin və mütiliyinin bariz sübutudur. Odur ki, din tarixində dərin iz salmış bu hadisə Allaha imanın, dərin etiqadın nümunəsidir. Bu rəvayətin başqa bir fəlsəfi-əxlaqi mənası ondan ibarətdir ki, İslamda insanın Allah yolunda qurban kəsilməsi qəbul olunmur. İslama qədər bir çox dinlərdə insanları qurban vermə ayinlərinə rast gəlmək mümkündür. Məsələn, atəşpərəstlər insanı odda yandırırdılar. Onlar bu yolla Allaha yaxın olduqlarını göstərirdilər. Qədim Çində də insanları tanrılara qurban vermək adəti olmuş, ölkədə təbii fəlakətlərdən, daşqınlardan hifz olunmaq üçün uşaqları suya atırmışlar.

İsmayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə, bu, ən azı altı aylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır. Kəsilən heyvanın sağlam olması da vacib şərtdir. Əzalarında hər hansı nöqsanı olan, buynuzunun, yaxud qulağının biri olmayan, axtalanmış heyvanın qurban kəsilməsi İslamda məsləhət görülmür. Qurbanın bir hissəsindən din xadimlərinə pay göndərilir, bir hissəsi isə kasıblara paylanır. Hamıya bərabər pay verilir, qurban kəsən özü də bərabər pay götürə bilər. Ənənəyə görə ehtiyacı olanlar bayram günü ac qalmasınlar deyə daha çox onlara qurban payı verilməsi məqsədəuyğun hesab edilir.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. İmkanı olmayan adama isə qurban kəsmək vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq İslamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlərlə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar - Allaha xoş gedən əməli icra etdikləri və ehtiyacı olanları sevindirdiklərinə görə, kasıblar isə - dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmət və qayğıya görə.

Azərbaycan müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramları haqqında" Qanuna əsasən Qurban bayramı ölkəmizdə də dövlət səviyyəsində bayram edilir.

Allah kəsilən bütün qurbanlarımızı qəbul etsin!

Milli Musiqi Günü 1995

Sentyabr ayının 18-də Azərbaycan xalqının dahi oğlu, musiqi mədəniyyətimizin korifeyi Üzeyir bəy Hacıbəylinin doğum günüdür.

XX əsrin 70-80-ci illərində maestro Niyazinin təşəbbüsü ilə həmişə bu gün dahi bəstəkarın anadan olduğu gün kimi respublikamızda xüsusi təntənə ilə qeyd edilirdi. XX əsrin 90-cı illərində qarışıqlıq və hərc-mərclik vaxtında bu ənənə də unuduldu.

Unudulmaz Niyazinin təşəbbüsü 1995-ci ildə ulu öndər Heydər Əliyevin dahi bəstəkarın anadan olmasının 110 illik yubileyi ərəfəsində imzaladığı 18 sentyabrın Milli Musiqi Günü kimi qeyd olunması haqqında fərmanı ilə rəsmi status aldı. Bu nəcib qərar bütün insanların, musiqisevərlərin ürəyincə oldu.

Ü.Hacıbəyli bəstəkar, alim, yazıçı, publisist və siyasi xadim kimi çoxşaxəli fəaliyyəti ilə yanaşı, Şərqdə ilk operanın banisi kimi də məşhurdur. Məhz onun fədakar əməyi sayəsində Azərbaycan milli opera sənətinin tarixi Ü.Hacıbəylinin "Leyli və Məcnun" operası ilə başlandı.

Bütün ömrü boyu Azərbaycan mədəniyyətinə, musiqisinə xidmət edən bu unudulmaz şəxsiyyət 300-dən çox xalq mahnısını nota salmış, marş, kantata, fantaziya, mahnı və romanslar, kamera və xor əsərlərini yazmışdır.

Azərbaycan və dünya musiqi mədəniyyətinin inkişafında misilsiz xidmətləri olmuş Ü.Hacıbəylinin anadan olmasının 100 illik yubileyi YUNESKO-nun qərarı ilə beynəlxalq miqyasda qeyd olunmuşdur.

Bu gün Azərbaycan musiqisi əsl çiçəklənmə dövrünü yaşayır. Ölkəmizdə davamlı olaraq keçirilən beynəlxalq musiqi festivalları, müxtəlif müsabiqələr bütövlükdə, Azərbaycan mədəniyyətinin, Azərbaycan musiqisinin daha geniş miqyasda təbliğinə xidmət edir.

Üzeyir Hacıbəyli həm də Azərbaycan Dövlət himninin müəllifi kimi tarixi bir hadisəyə imza atmışdır. Bu gün Azərbaycan bayrağı məhz həmin himnin sədaları altında dünyanın ən mötəbər salonlarında ucalır, şəhərlərimiz, həmçinin, bütün tədbirlərimiz bu himnin sədaları ilə başlayır.

Ü.Hacıbəylinin kimliyi barəsində düşünərkən ilk növbədə, bu dahi insanın öz sözləri yada düşür: "Bəşəriyyət tarixində elə şəxslər var ki, onlar özləri üçün anadan olmayıblar, bəlkə bütün xalqa və hətta ümuminsaniyyətə xeyir gətirmək və tərəqqisinə səbəb olmaq üçün yaranıblar. Bu cür adamlar nəinki sağlığında, bəlkə öləndən sonra da camaata mənfəət verirlər".

Ə d ə b i y y a t

Milli musiqimizin "Üzeyir Günü" /T.Turqut //İki sahil .-2015.- 18 sentyabr.- S.23.

Milli Musiqi Günü təntənəli şəkildə qeyd edilib // Azərbaycan .-2015.-19 sentyabr.- S.7.

Xəlilzadə, F. Əbədi şöhrətin işığı /F.Xəlilzadə //Mədəni həyat.- 2012.- №9.- S.5-8.

Qocayev, Ə. 18 sentyabr - Milli Musiqi Günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.23.

"Odlar yurdunun böyük musiqi bayramı": /Lalə //Mədəniyyət .-2015.- 18 sentyabr.- S. 4.

Sarıyeva, İ.18 sentyabr - Milli Musiqi Günümüz... : 1995-ci ildən Heydər Əliyevin Fərmanı ilə qeyd edilən bayram mədəniyyətimizin təbliğində böyük rol oynayır /İ.Sarıyeva//Bakı xəbər .-2015.- 19-21 sentyabr.- S.15

Zərbəliyev, C. Üzeyir musiqisinin işığında: 18 sentyabr - Milli Musiqi Günü təntənəli şəkildə qeyd olundu /C.Zərbəliyev //Mədəniyyət 2013.- 20 sentyabr.- S. 3.

OKTYABR

1 oktyabr

Gün çıxır 07:36
Gün batır 19:41

31 oktyabr

Gün çıxır 07:08
Gün batır 17:57

24 sentyabr-
23 oktyabr

Tərəzi bürcü
Nişanı havadır.
Veneranın
himayəsindədir.
Günəşin Tərəzi
bürcündən keçdiyi
dövrdə doğulanlar
yumşaq xasiyyətli,
parlaq zəkalı
olurlar.

Ş.	1
B.	2
B.E.	3
Ç.A.	4
Ç.	5
C.A.	**6**
C.	7
Ş.	8
B.	9
B.E.	10
Ç.A.	11
Ç.	12
C.A.	**13**
C.	14
Ş.	15
B.	16
B.E.	17
Ç.A.	18
Ç.	19
C.A.	**20**
C.	21
Ş.	22
B.	23
B.E.	24
Ç.A.	25
Ç.	26
C.A.	**27**
C.	**28**
Ş.	**29**
B.	30
B.E.	31

- Beynəlxalq Musiqi Günü (01.10.1975)
- ***Xocavənd rayonunun işğalı günü (02.10.1992)***
- *Beynəlxalq Müəllimlər Günü (05.10.1966)*
- *Dövlət Müstəqilliyinin bərpasının 25-ci ildönümü (18.10.1991)*
- ***Zəngilan rayonunun işğalı günü (29.10.1993)***

875 il Nizami Gəncəvi 1141-1209

2013-cü il noyabr ayının 6-da Azərbaycan Milli Elmlər Akademiyasının Rəyasət Heyətinin iclasının qərarı ilə "Nizami Gəncəvi adına Qızıl medal" təsis olunmuşdur.

Əsasnaməyə görə, medal AMEA-nın ən yüksək mükafatıdır. Bu mükafatın hər il bir Azərbaycan aliminə və bir əcnəbi tədqiqatçıya mühüm əhəmiyyətli fundamental və tətbiqi elmi nəticə, əsər, kəşf və ixtiralarına, habelə elmin inkişafında xüsusi xidmətlərinə görə verilməsi nəzərdə tutulur.

Alimlərin "Nizami Gəncəvi adına Qızıl medal"a namizədliyini irəli sürmək hüququ AMEA-nın Rəyasət Heyəti və elmi bölmələrinə şamil edilir.

OKTYABR

2016

Milli Ədəbiyyat

Nasir Ələkbərzadə Çingiz Əbülhəsən oğlunun (17.10.1936-07.01.1999) anadan olmasının 80 illiyi
Xalq yazıçısı, akademik, ictimai xadim İbrahimov Mirzə Əjdər oğlunun (28.10.1911-17.12.1993) anadan olmasının 105 illiyi **302**

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Əliyev Kamil Müseyib oğlunun (22.10.1921-01.03.2005) anadan olmasının 95 illiyi **303**
Fransız rəssamı Pikasso Pablonun (25.10.1881-08.04.1973) anadan olmasının 135 illiyi **304**

Musiqi.Opera.Balet

Xalq artisti, professor Mustafayev Ramiz Hacı oğlunun (16.10.1926-10.04.2008) anadan olmasının 90 illiyi **305**

Teatr.Kino

Xalq artisti Quliyev Nurəddin Əzulla oğlunun (Nurəddin Mehdixanlı) (06.10.1956) anadan olmasının 60 illiyi
SSRİ Xalq artisti, rejissor Raykin Arkadi İsaakoviçin (24.10.1911-17.12.1987) anadan olmasının 105 illiyi
Xalq artisti Məlikova Nəcibə Haşım qızının (25.10.1921-06.07.1992) anadan olmasının 95 illiyi **306**
Xalq artisti Salmanlı Ağaxan Əli oğlunun (29.10.1941) anadan olmasının 75 illiyi
Əməkdar incəsənət xadimi, rejissor Babazadə Oqtay Ələkbər oğlunun (30.10.1941) anadan olmasının 75 illiyi

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Nəsibov Kamil Balədə oğlunun (08.10.1946-29.06.1992) anadan olmasının 70 illiyi **307**
Azərbaycanın Milli Qəhrəmanı Bayramov Soltanağa Nəhmət oğlunun (17.10.1936-23.08.1993) anadan olmasının 80 illiyi **308**
Azərbaycanın Milli Qəhrəmanı Makeyev İqor Vladimiroviçin (27.10.1971-02.08.1992) anadan olmasının 45 illiyi **309**

Siyasət.Hərbi iş

İlk azərbaycanlı hərbi pilot, poruçik Qayıbov Fərrux ağa Məmmədkərim ağa oğlunun (02.10.1891-12.09.1916) anadan olmasının 125 illiyi **310**

Dövlət xadimi Quliyev Teymur İmanqulu oğlunun (17.10.1896-18.11.1865) anadan olmasının 120 illiyi

Fəlsəfə.İqtisadiyyat

Fəxri neftçi, Əməkdar mühəndis, Sosialist Əməyi Qəhrəmanı Abbasov Qurban Abbasqulu oğlunun (Neftçi Qurban) (26.10.1926-14.09.1994) anadan olmasının 90 illiyi **311**

Fəlsəfə elmləri doktoru, professor, Əməkdar elm xadimi Əhmədli Cəmil Teymur oğlunun (27.10.1931-10.02.2010) anadan olmasının 85 illiyi **312**

Tarix

Tarix elmləri doktoru, professor, arxeoloq Nuriyev Aləm Bayram oğlunun (07.10.1936-2004) anadan olmasının 80 illiyi

Mədəniyyət.Maarif.Təhsil

AMEA-nın müxbir üzvü, ədəbiyyatşünas alim, tənqidçi Zamanov Abbas Fəttah oğlunun (10.10.1911-01.04.1993) anadan olmasının 105 illiyi **313**

Maarifçi Qaspiralı (Qasprinskaya) Şəfiqə İsmayıl bəy qızının (14.10.1886-31.08.1975) anadan olmasının 130 illiyi

Filologiya elmləri doktoru, professor Musayeva-İbrahimova Azadə Şahbaz qızının (28.10.1946) anadan olmasının 70 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Akademik Mehdiyev Məhəmməd Fərman oğlunun (02.10.1941) anadan olmasının 75 illiyi

Fizika-riyaziyyat elmləri doktoru, professor Mərdanov Misir Cumayıl oğlunun (03.10.1946) anadan olmasının 70 illiyi **314**

Fizika-riyaziyyat elmləri doktoru, professor Qocayev Niftalı Mehralı oğlunun (18.10.1936) anadan olmasının 80 illiyi **315**

Kimya.Biologiya.Tibb

Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Əliyev Tamerlan Əziz oğlunun (03.10.1921-1997) anadan olmasının 95 illiyi **316**

Pediator, tibb elmləri doktoru, professor İsrafilova Nelufər Möhsün qızının (04.10.1926-31.01.1996) anadan olmasının 90 illiyi

Texnika

Texnika elmləri doktoru, professor Qasımzadə Məmmədcavad Süleyman oğlunun (16.10.1911-1992) anadan olmasının 105 illiyi
Texnika elmləri doktoru, professor Əli-zadə Rasim İsmayıl oğlunun (29.10.1941) anadan olmasının 75 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Azərbaycanın ilk görkəmli biblioqraf alimi, dövlət biblioqrafiyası və ədəbiyyat sahəsində mütəxəssis Qəhrəmanov Əliheydər Baba oğlunun (25.10.1911-23.03.1959) anadan olmasının 105 illiyi **317**

Tarixdə bu gün

Prokurorluq İşçiləri Günü (01.10.1998)
Beynəlxalq Ahıllar Günü (01.10.1992) **318**
Beynəlxalq Musiqi Günü (01.10.1975)
Xocavənd rayonunun işğalı günü (02.10.2008) **319**
Beynəlxalq Müəllim Günü (05.10.1994)
Ümumdünya Poçt Günü (09.10.1970)
Azərbaycan Respublikası Ali Soveti "Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" Qanun qəbul etmişdir (09.10.1991)
Gender bərabərliyinin təminatları haqqında Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir (10.10.2006)
Naxçıvanı Azərbaycanın ayrılmaz hissəsi kimi təsbir edən Qars müqaviləsi imzalanıb (13.10.1921)
Ümumdünya yoxsulluqla mübarizə Günü (17.10.1992)
Rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra hakimiyyəti başçısı vəzifəsi təsis edilmişdir (18.10.1991)
Dövlət Müstəqilliyinin bərpasının 25-ci ildönümü (18.10.1991) **320**
Beynəlxalq Kulinariya Günü (20.10.2007)
Birləşmiş Millətlər Təşkilatı Günü (24.10.1945)
Moskvada Nizami Gəncəvinin abidəsi açılmışdır (25.10.1991)
Zəngilan rayonunun işğalı günü (29.10.1993) **325**
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü (30.10.1974)

105 illiyi

Mirzə İbrahimov 1911-1993

Akademik

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 2 cilddə /M. İbrahimov; tərt. ed. və ön sözün müəl. V. Yusifli.- I Cild Bakı: Şərq-Qərb, 2005.- S. 432.

Dilimizin fədakar qoruyucusu Mirzə İbrahimov/ Cənubi Azərbaycan: ədəbi şəxsiyyətlər, portretlər: [portret oçerklər] /Pərvanə Məmmədli; elmi red. T.Əhmədov. Hissə1 Bakı: Sabah, 2015.-S.54-66.

Azərbaycanın xalq yazıçısı, ictimai-siyasi xadim, akademik Mirzə İbrahimov: albom-kitab/müəl., tərt.ed. çapa haz., ön söz T.Ə.Əhmədov; red. R.Əliyev ; lay. rəhbəri Ə.Qarayev; naşir İ. Allahverdi; dizayn və tex. tərt. R.Kərimli ; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi.-. Bakı: Nurlar, 2014.- S. 639.

Mirzə İbrahimov və xalq yaradıcılığı: monoqrafiya /F. B. Əliyev;elmi red. P.Əfəndiyev.- Bakı: Elm və təhsil, 2013.-155

www.anl.az

www.az.wikipedia.org

Mirzə Əjdər oğlu İbrahimov 1911-ci il oktyabr ayının 28-də Cənubi Azərbaycanın Sərab şəhəri yaxınlığındakı Evə kəndində, yoxsul kəndli ailəsində anadan olmuşdur. 1918-ci ildə Mirzə İbrahimov atası və qardaşı ilə birgə Bakıya gəlmişdir. 1919-cu ildə atası vəfat etdikdən sonra kişik yaşlarında Balaxanı və Zabrat kəndlərində muzdurluq etmişdir. Azərbaycanda sovet haki-miyyəti qurulduqdan sonra fabrik-zavod məktəbində oxumuş və işləmişdir. Bədii yaradıcılığa Zabrat fəhlə ədəbiyyat dərnəyinin üzvlüyündən başlamışdır. "Qazılan buruq" adlı ilk şeiri 1930-cu ildə "Aprel alovları" məcmuəsində dərc olunmuşdur.

Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun ikiillik hazırlıq şöbəsində təhsil aldıqdan sonra 1933-cü ildə Naxçıvan MTS siyasi şöbəsində "Sürət" qəzetinin redaktoru vəzifəsində işləmişdir. 1935-1937-ci illərdə SSRİ EA-nın Leninqraddakı (Sank-Peterburq) Şərqşünaslıq İnstitutunun aspiranturasında təhsil almışdır.

Bu dövrdən başlayaraq "Həyat" (1935), "Madrid" (1937), "Məhəbbət" (1941), "Kəndçi qız" (1961), "Yaxşı adam" (1963), "Közərən ocaqlar" (1967) və s. pyeslərini qələmə almışdır. Həmçinin görkəmli yazıçı V.Şekspirin "Kral Lir", "On ikinci gecə", A.N.Ostrovskinin "Quduz pullar", "Müdrik olan hər kəsə kifayətdir sadəlik", A.P.Çexovun "Üç bacı", Molyerin "Don Juan" və digər pyeslərini Azərbaycan dilinə tərcümə etmişdir.

1942-1946-cı illərdə Azərbaycan SSRİ Xalq Maarif Komissarı (XMK) vəzifəsində çalışmışdır. 1945-ci ildə Azərbaycan EA (indiki AMEA) təsis edilərkən onun ilk həqiqi üzvlərindən biri olmuş, eyni zamanda Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin sədri (1946-1954), birinci katibi (1965-1975), SSRİ Yazıçılar İttifaqı İdarə heyətinin katibi (1965-1975), Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini (1946-1950), Azərbaycan SSR Ali Soveti Rəyasət heyətinin sədri (1954-1958) vəzifələrində işləmiş, Azərbaycan KP XIV-XIX, XXII-XXVIII qurultaylarında MK Büro üzvü seçilmişdir.

Azərbaycan Yazıçılar İttifaqı İdarə heyətinin sədri və SSRİ Yazıçılar İttifaqı katibi (1970-1986) olmuşdur. 1991-ci ildə Ağsaqqallar Şurasının üzvü seçilmişdir.

1941-ci ildə "Azərbaycan SSR Əməkdar incəsənət xadimi" fəxri adını almış, 1950-ci ildə SSRİ Dövlət mükafatı laureatı olmuşdur. 1961-ci ildə "Azərbaycanın Xalq yazıçısı" fəxri adına layiq görülmüş, 1965-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1979-cu ildə Beynəlxalq Nehru mükafatı laureatı olmuşdur. 1981-ci ildə "Sosialist Əməyi Qəhrəmanı" fəxri adına layiq görülmüşdür. 1989-cu ildə SSRİ Xalq deputatı seçilmiş, 3 dəfə "Lenin ordeni", "Oktyabr inqilabı" ordeni və digər orden və medallarla təltif olunmuşdur.

Ömrünün axırınadək Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun Cənubi Azərbaycan ədəbiyyatı şöbəsinin müdiri, çoxcildli "Azərbaycan ədəbiyyatı tarixi"nin redaksiya heyətinin üzvü olmuşdur. Əsərləri keçmiş SSRİ xalqlarının dillərinə və bir çox xarici dillərə tərcümə edilmişdir.

Görkəmli yazıçı, akademik Mirzə İbrahimov 1993-cü il dekabr ayının 17-də Bakıda vəfat etmişdir. Fəxri Xiyabanda dəfn olunmuşdur.

95 illiyi Kamil Əliyev 1921-2005

Rəssam

Kamil Müseyib oğlu Əliyev 1921-ci il oktyabr ayının 22-də Qərbi Azərbaycanda, İrəvan şəhərində anadan olmuşdur. 1936-cı ildə Bakı Rəssamlıq Məktəbinə (indiki ADRA) daxil olmuş və görkəmli rəssam Ə.Əzimzadənin sinfində təhsil almışdır. Burada 3 il dekorasiya şöbəsində oxu-duqdan sonra müəllimlərinin məsləhəti ilə təhsilini davam etdirməklə yanaşı «Azərxalça» birliyində eksperimental laboratoriyada köçürücü rəssam kimi işləməyə başlamışdır.

Böyük Vətən müharibəsində (1941-1945) iştirak etmiş, cəbhədən 22 orden və medalla dönmüşdür.

Müharibədən sonra "Soyuz-Torq reklam"ın baş direktoru və baş rəssamı (1954) təyin olunmuş, daha sonra Bədii Fondun Yaradıcı-İstehsalat Kombinatının direktoru (1961), Bakı Zərgərlik Fabrikinin direktoru (1964-1971), Yerli Sənaye Nazirliyi İstehsalat şöbəsinin müdiri (1971-1993) vəzifələrini icra etmişdir.

İlk portret-xalçasını 1958-ci ildə böyük Azərbaycan şairi M.Füzuliyə həsr etmişdir. Sənətkar xalçanın təravətli, şux rəngli naxışları ilə Füzuli lirikasını tamaşaçıya çatdırmışdır. Xalçanın uğuru rəssamı daha da ruhlandırmış, İ.Nəsimi və Nizami Gəncəviyə həsr edilmiş xalçalarını yaratmışdır. Xalça üzərində yaratdığı portretlərdən görkəmli türk dövlət xadimi Atatürkün, Turqut Özalın, Süleyman Dəmirəlin portretləri toxunmuş xalçalar xüsusilə məşhurdur.

Portret təsvirli xalılar, adətən, "Türkbaf" ilməsi ilə toxunur. Bu da rəsmin dəqiq, real təsvirini təmin edir. Rəssamın 1999-cu ildə yaratdığı, yüksək bədii xüsusiyyətlər kəsb edən, böyük dövlət xadimi, ümummilli lider Heydər Əliyevin portreti də belə əsərlərdəndir. Portret-xalça ictimaiyyət arasında böyük rəğbətlə qarşılanmışdır. Müəllif həmin xalça barədə demişdir: «Bu əsər üzərində uzun illər işlədim və onu Heydər Əliyevin 75 illik yubileyinə tamamladım. Onun minnətdarlıq dolu, dərin ifadəli baxışlarını, həmin gün mənə söylədiyi xoş sözləri heç zaman unutmaram».

Azərbaycanda ilk dəfə xalça muzeyinin açılması da Kamil Əliyevin adı ilə bağlıdır. Daha çox Abşeron ornamentlərinə üstünlük verən Kamil Əliyev ümumilikdə bütün milli naxışlar üzərində işləyərək onlara yeni bir ruh, yeni nəfəs verirdi.

Mədəniyyətimizin ən qədim növlərindən olan xalçaçılıq sənətini XX əsrin sonlarında yüksək zirvəyə qaldırmış, ömrünün son illərini gənc xalçaçıların yetişməsinə həsr etmiş Kamil Əliyevin çeşniləri əsasında toxunmuş xalçalar respublikamız müstəqillik qazandıqdan sonra dünyanın bir çox ölkələrində uğurla nümayiş etdirilmişdir. Azərbaycan xalçasının şöhrətini daha da artıran bu qədim el sənətinin nümunələri ən mötəbər muzeylərdə, o cümlədən Londonun məşhur "Viktoriya və Albert" muzeyində saxlanılır.

Rəssamın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, "Xalq rəssamı" adına layiq görülmüşdür. Dövlət mükafatı laureatı olmuş, "İstiqlal" ordeni ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Ə d ə b i y y a t

Kamil Əliyev 1921-2005 [İzomaterial]: xalça sənəti /layih. rəhb. Ç.Fərzəliyev; mətnin müəl. X.Əsədova; ing. dilinə tərc.: İ.Peart, S.İbrahimova, Ə.Məlikova; foto. Ə.Ağasiyev; dizayner və komp. yığımı K.Bayramzadə.- Bakı: Şərq-Qərb, 2013.- 104 s.

Bir ömrün naxışları: poema /A.Qurbani; red V.Əliyev; tərtibat E.Talışxanov.- Bakı: Əbilov, Zeynalov və oğulları, 2005.- 79 s.

Fuad, E. Azərbaycan xalçaçılıq məktəbinin müdrik müəllimi: Kamil Əliyev yaratdığı hər xalçanı sevirdi, onları övladları kimi əzizləyirdi /E.Fuad //Xalq cəbhəsi.- 2014.- 4 mart.- S.14

Xalçalarda ilmələnən ömür //Mədəni həyat.- 2013.- №12.- S.86-87.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

135 illiyi Pablo Pikasso 1881-1973

Rəssam

Pablo Ruis Pikasso 1881-ci il oktyabr ayının 25-də İspaniyanın Malaqa şəhərində anadan olmuşdur. Pablo Pikasso rəssamlığı atası X.Ruisdən öyrənmişdir. Təhsilini artırmaq üçün 1894-1895-ci illərdə La-Korunya, 1895-ci ildə Barselona, 1897-1898-ci illərdə isə Madrid şəhərlərində Zərif sənətlər məktəbində oxumuşdur. 1904-cü ildən Parisdə yaşamışdır.

Yaratdığı əsərlərdə realizmin zəngin və rəngarəng qaynaqlarına əsaslanan Pikassonun yaradıcılığı mürəkkəb, ziddiyyətli və eyni zamanda çoxcəhətli olmuşdur. Müxtəlif dövrlərdə yaratdığı əsərlərdə ekspressionizm, neoklassizm, kubizm, sürrealizm və s. cərəyanların yaradıcılıq prinsiplərinə əsaslanmışdır.

Pikasso yaradıcılığı əsasən iki dövrə- "mavi" və "çəhrayı" dövrlərə ayrılır. "Mavi dövr" (1901-1904) tablolarında rəssam əsasən mavi, göy, yaşıl rəng çalarlarından, "Çəhrayı dövr" (1905-1906) tablolarında isə çəhrayı-qızılı, çəhrayı-boz koloritdən istifadə etmişdir. Bu əsərlərdə cəmiyyətin ictimai ziddiyyətləri ilə qarşılaşan insanların psixoloji aləmi təsvir olunurdu. "Dilənçi qoca oğlan ilə" (1903), "Şar üstündə dayanmış qız" (1905) (hər iki əsər A.S.Puşkin adına Təsviri Sənət Muzeyi, Moskvada saxlanılır) və s. əsərlərində zavallı insanların həyatına xas olan tənhalıq motivləri əsas yer tuturdu.

1910-cu ildən başlayaraq Pikasso neoklassizm və realizm üslubunda yaratdığı əsərlərdə lirik motivlərə geniş yer verməyə başladı. "Üç qadın bulaq başında" (1921 - Müasir İncəsənət Muzeyi, Nyu-York), "Ana və Körpə" (1922 - İncəsənət Muzeyi, Baltimor) və s. əsərləri bu üslubda işlə-nən əsərlərdir.

Pikasso İkinci Dünya müharibəsi illərində Fransa Müqavimət hərəkatına qoşulmuş, müharibədən sonrakı illərdə isə daim sülh və demokratiya uğrunda mübarizə aparmışdır. Onun mütərəqqi, humanist görüşləri əsərlərində də öz əksini tapmışdır.

"Gernika" (1937-Prado, Madrid), "Sülh göyərçini" (1947), "Sülh" və "Müharibə" (1952-Val-loris, Sülh məbədi) əsərləri sülh uğrunda mübarizə rəmzinə çevrilmişdir.

Pablo Pikasso rəsm əsərləri ilə yanaşı heykəltəraşlıq ("İnsan quzu ilə" - tunc heykəl - 1944, Val-loris), keramika və qrafika əsərləri də yaratmışdır. Bunlarla yanaşı, həmçinin bir sıra əsərlərə də illüstrasiyalar (P.Elüarın "Sülhün çöhrəsi" poeması 1950) və silsilə əsərlər ("Bəşəri ko-mediya" rəsm və litoqrafiya silsiləsi-1953, "Öküz döyüşü" qrafika silsiləsi-1959-1960) çəkmişdir.

Mürəkkəb yaradıcılıq yolu keçmiş rəssam 1950-ci ildə "Beynəlxalq Sülh mükafatı", 1962-ci ildə "Xalqlar arasında sülhü möhkəmləndirməyə görə" Lenin mükafatı laureatı olmuşdur.

Pablo Pikasso 1973-cü il aprel ayının 8-də Fransanın Mujen şəhərində vəfat etmişdir. Madriddə Pikassonun abidəsi və adına meydan vardır.

Ə d ə b i y y a t

Судьбы художественных коллекций и закон:[монография]/А. Т. Боннер;отв. ред. Э.С. Ненашева (предисл.).- Москва: Проспект, 2015.- С. 391-406.

Самые пикантные истории и фантазии знаменитостей /Р. Амиллс; [пер. с исп. А.Н. Степановой ; отв. ред. Е.Дудник] ; худож. оформ. Е. Гузняковой Ч. 1.- Москва: Эксмо, 2014.- С. 202

Мастера испанской живописи [Изоматериал]: [альбом] /Е. М. Елисеева; [оформ. переплета С. Ф. Щавелева; отв. за вып. А. Ромушкевич]. - Москва: ОЛМА Медиа Групп, 2012.- С 199

Великие мужчины XX века /В. В. Вульф, С.П.Чеботарь.- Москва: Яуза, Эксмо, 2010.- С 703.

90 illiyi

Ramiz Mustafayev 1926-2008

Bəstəkar

Ramiz Hacı oğlu Mustafayev 1926-cı il oktyabr ayının 16-da Türkmənistan Respublikasının Cərcou şəhərində anadan olmuşdur. Bir il sonra ailəsi Bakıya köçmüşdür. Uşaq yaşlarından teatra böyük həvəs göstərən Ramiz Mustafayev 15 yaşına qədər müxtəlif özfəaliyyət dram dərnəklərində fəal iştirak etmişdir.

1941-ci ildə Bakı teatr texnikumunun aktyorluq şöbəsinə daxil olmuşdur. Əvvəl Gənc Tamaşaçılar Teatrında, texnikumu bitirdikdən sonra isə Azərbaycan Dövlət Akademik Dram Teatrında aktyorluq etmişdir.

Vokal sənətinə olan həvəsi onu 1948-ci ildə Üzeyir Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına gətirmiş, burada professor Bülbülün vokal sinifində sənətin sirlərinə yiyələnmişdir.

O, 1952-1957-ci illərdə konservatoriyanın bəstəkarlıq fakultəsində, görkəmli pedaqoq, professor Boris Zeydmanın sinfində təhsilini davam etdirmiş və konservatoriyanı bəstəkar kimi bitirmişdir. 50 ildən artıq yaradıcılığı dövründə bəstəkar musiqinin müxtəlif janrlarında dəyərli əsərlər yaratmışdır. O, 6 opera, 5 musiqili komediya, 9 oratoriya, 7 kantata, 5 vokal-simfonik poema, 8 simfoniya, 500-ə qədər mahnı və romansların, 200-dən artıq xalq mahnılarının xor üçün işləmələrinin müəllifi olmuşdur. Ramiz Mustafayevin vokal sənətinə olan marağı sayəsində onun yaradıcılığında vokal musiqi janrları daha geniş yer tutur. Diplom işi kimi təqdim etdiyi bir pərdəli "Şirin" operasından sonra onun bir sıra operaları - o cümlədən, "Vaqif", "Aydın", "Polad", "Xan və əkinçi", "Tərs keçi" uşaq operası yaranır. Lakin bəstəkarın ən uğurlu səhnə əsəri Səməd Vurğunun eyniadlı dramı əsasında yazılmış "Vaqif" operası olmuşdur. Bu operaya görə bəstəkar 1962-ci ildə Gənc Bəstəkarların Ümumittifaq Müsabiqəsində laureat adına layiq görülmüşdür. Ramiz Mustafayev bəstəkarlıq və dirijorluqla yanaşı təcrübəli pedaqoq və tanınmış ictimai musiqi xadimi kimi xatırlanır. O, Bakı Musiqi Akademiyasının və Azərbaycan Dövlət Milli Konservatoiyasının professoru kimi çalışaraq gənc musiqiçi kadrların yetişməsində əlindən gələni əsirgəməmişdir. Ramiz Mustafayev 1957-ci ildən Azərbaycan Bəstəkarlar İttifaqının üzvü, bu təşkilatın İdarə Heyətinin üzvü, habelə «Musiqili səhnə əsərləri» bölməsinin sədri kimi Respublikanın musiqi həyatında fəal iştirak etmişdir.

Görkəmli bəstəkarın yaradıcılığı dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1973-cü ildə "Azərbaycanın Əməkdar incəsənət xadimi", 1987-ci ildə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 2001-ci ildə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

Ramiz Mustafayev 2008-ci il aprel ayının 10-da Bakı şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Azərbaycanın görkəmli bəstəkarları [İzomaterial]: [portretlər] /Toplayıb tərtib edəni: Əli İbrahimbəyli; Az. Res.-sı Mədəniyyət Nazirliyi; Az. Res.-si Bəstəkarlar İttifaqı; Az.Musiqi Mədəniyyəti Dövlət Muzeyi portretlər.-Bakı: Nurlar, 2007.-32 portr.

Ramiz Mustafayev /R.Zöhrabov.- Bakı: Ergün, 1995.- 23 s.

Abbasova, Ə. Ürəklərdə yaşayan bəstəkar /Ə.Abbasova //Kaspi.-2012.- 21-23 iyul.- S.8.

Aktyorluqdan bəstəkarlığa //Bəstəkarlarımız haqqında söz.- Bakı, 1995.- S.59-62.

Fərəcov, S. Xatirələrdə yaşayan sənətkar "Mən yaradıcılıq dövrümdə milli musiqimizin saflığını daim qorumağa çalışmışam" /S.Fərəcov //Mədəniyyət.- 2012.- 17 oktyabr.- S.14.

Mustafayev Ramiz //Üzeyir Hacıbəyli ensiklopediyası.- Bakı, 2008.- S.161.

Təhmirazqızı, S. Klassik irsimizi yaşadan sənətkar /S.Təhmirazqızı //Respublika.- 2012- 8 iyul.- S.3

95 illiyi

Nəcibə Məlikova 1921-1992

Aktrisa

Nəcibə Haşım qızı Məlikova 25 oktyabr 1921-ci ildə Bakının Buzovna kəndində anadan olmuşdur. İlk təhsilini də burada almışdır.

1940-1943-cü illərdə Bakı Teatr Məktəbində Xalq artisti Fatma Qədrinin sinfini bitirmiş öz istəyi ilə Gəncə Dövlət Dram Teatrında işləməyə getmişdir. Burada bir neçə tamaşada çıxış edərək Bakıya qayıtmış və təzəcə təşkil olunmuş Azərbaycan Dövlət Teatr İnstitutuna daxil olmuş, 1951-ci ildə oranı bitirmişdir.

Texnikumda təhsil aldığı illərdə Milli Dram Teatrının tamaşalarında epizodik rollar oynayan aktrisa kinolara çəkilişlə bağlı kiçik fasilələrdən sonra 1952-ci ildən yenə teatrda işləmişdir. Nəcibə Məlikova klassik və çağdaş Azərbaycan dramaturqlarının, dünya ədiblərinin dram əsərlərində və bir qədər də komediyalarda müxtəlif rollar oynamışdır. H.Cavidin "Şeyx Sənan" (Xumar), "Səyavuş" (Firəngiz), Ə. Haqverdiyevin "Pəri cadu" (Şamama cadu), C.Cabbarlının "Aydın" (Böyükxanım), "1905-ci ildə" (Sona), "Sevil" (Edilya), M. İbrahimovun "Həyat" (Atlas), "Kəndçi qızı" (Ayxanım), İ. Əfəndiyevin "Büllur sarayda" (Qönçə), "Qəribə oğlan" (Məlahət), N.Xəzrinin "Əkssəda" (Zərifə), "Mirzə Şəfi Vazeh" (Zübeydə), S. Vurğunun "Vaqif" (Xuraman), M.İbrahimbəyovun "Kərgədan buynuzu" (Diləfruz), S.Rəhmanın "Əliqulu evlənir" (Yasəmən), "Küləklər" (Firuzə), Ş.Qurbanovun "Əcəb işə düşdük" (Məlahət), M.F.Axundzadənin "Lənkəran xanının vəziri" (Şölə xanım və Ziba xanım), "Müsyö Jordan və dərviş Məstəli şah" (Şəhrəbanı), "Türkiyədə" (Nazir qızı), K.Haldoninin "Məzəli hadisə" (Marianna), A.Şirvanzadənin "Namus" (Süsənbər), F.Şillerin "Orlean qızı" (Aqnessa), L.Veqanın "Sevilya ulduzu" (Estrelya) və s. pyeslərin tamaşalarında çıxış etmişdir.

Nəcibə xanım teatrla yanaşı kinoda da uğurlu rollar yaratmış, onların arasında "Ögey ana"da Dilarə, "Aygün"də Aygün, "Arşın mal alan"da Cahan xala, "Əhməd haradadır?"da Nərgiz xala rollarının ifası aktrisanın yaradıcılıq nailiyyətləri kimi dəyərləndirilir.

14 fevral 1956-cı ildə SSRİ-də Bakı televiziya studiyası fəaliyyət göstərməyə başlayanda ilk veriliş günü ekranda sonradan Azərbaycanın tanınmış sənətkarına çevriləcək, o dövrdə isə gənc aktrisa olan Nəcibə Məlikova görünmüş, çıxışını "Göstərir Bakı!" kəlməsi ilə açan Nəcibə Məlikova tamaşaçıları televiziyanın fəaliyyətə başlaması münasibətilə təbrik etmişdi.

O, 10 iyun 1959-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1 iyun 1974-cü ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Görkəmli aktrisa Nəcibə Məlikova 27 iyul 1992-ci ildə Bakıda vəfat etmiş, II Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t

İsmayılova, A. Məlikova Nəcibə Haşım qızı // Azərbaycan qadınları səhnədə /A. İsmayılova.- Bakı:İşıq, 1977.- S.142-147.

Rəhimli, İ. Nəcibə Məlikova //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.351-352.

Rəhimli, İ. Nəcibə xanım Məlikovaya xitab //Cavabsız suallar /İ.Ə.Rəhimli; red. Ə.Orucəli.- Bakı: Avrasiya Press, 2014.- S. 286-287.

Abbaslı, T. Gözəl, nəcib aktrisa : doğmadan-doğma "ögey ana", vəfalı "Aygün" yar, cəfakeş "Cahan", mübariz "Nərgiz xala" - Nəcibə xanım Məlikova /T.Abbaslı //Mədəniyyət .-2015.- 23 oktyabr.- S. 15.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.medeniyyet.az

Milli Qəhrəmanlar

70 illiyi

Kamil Nəsibov
1946-1992

Milli Qəhrəman



Kamil Baladə oğlu Nəsibov 1946-cı il oktyabr ayının 8-də Laçın rayonunun Bozlu kəndində anadan olmuşdur. 1963-cü ildə orta məktəbi Minkənd kəndində bitirib, ordu sıralarına çağırılmışdır. Üçillik hərbi xidmətdən sonra Vətənə qayıtmışdır.

Kamil Nəsibov 1973-cü ildə Azərbaycan Texniki İnstitutuna (indiki ADTU) daxil olmuşdur. Ali təhsilini başa vurduqdan sonra Minkənddə yerləşən Tikinti Materialları Bazasına müdir təyin edilmişdir.

1992-ci ildə Laçın erməni silahlı dəstələrinin hücumlarına məruz qalarkən Kamil könüllü özünümüdafiə bölüyü yaratmış və bölüyün komandiri olmuşdur. 30 nəfərdən ibarət bölük Qarabağ uğrunda gedən döyüşlərdə böyük rəşadət göstərmişdir.

Onun döyüşçülərlə birgə Fərəcan, Səfiyan, Çağazur, Malıbəy, Cicimli, Qızdərə kəndlərinin müdafiəsində böyük xidmətləri olmuşdur.

Kamil Nəsibov 1992-ci il iyun ayının 29-da Qonaqgörməz yüksəkliyi uğrunda gedən qanlı döyüşlərdə aldığı snayper gülləsindən qəhrəmancasına həlak olmuşdur. Ağcabədi rayonunda dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 5 fevral 1993-cü il tarixli 457 saylı Fərmanı ilə Nəsibov Kamil Baladə oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

Doğulduğu Bozlu kəndindəki Mədəniyyət evi qəhrəmanın adını daşıyır.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Nəsibov Kamil Baladə oğlu-baş leytenant-Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 5 fevral 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1993.- №3.- S.11.(Ölümündən sonra).

Əsgərov,V. Nəsibov Kamil Baladə oğlu /V. Əsgərov // Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.226.

Nəsibov Kamil Baladə oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt.ed. H.Həmidova.- Bakı, 2008.- S.162-163.

Seyidzadə, M. Nəsibov Kamil Baladə oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.172.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

80 illiyi

Soltanağa Bayramov
1936-1993 *Milli Qəhrəman*

Soltanağa Nəhmət oğlu Bayramov 1936-cı il oktyabr ayının 17-də Lənkəran rayonunun Şürük kəndində anadan olmuşdur. Orta təhsilini Astara rayonunda almışdır. 1957-ci ildə Lənkəran Tibb Məktəbini bitirərək, təyinatla hərbi hospitalda əmək fəaliyyətinə başlamışdır. 1967-ci ildə fizio-terapevt, sonra isə rentgenoloq-texnik vəzifəsində işləmişdir.

Soltanağa Bayramov hərbi hospitalda çalışdığı müddətdə kollektivin dərin hörmətini qazanmış, Milli Ordumuzun neçə-neçə əsgərinin sağalıb fəal həyata qaytarılmasında böyük əməyi olmuşdur.

1990-cı ildə xalqımız çətin sınaqlarla üz-üzə durmuşdu. "Talış Muğan Respublikası" yaratmaq xülyası ilə yaşayan Əlikram Hümbətov öz quldur dəstəsi ilə Azərbaycanın cənub bölgələrində ağır cinayətlər törədirdi.

Soltanağa Bayramov da neçə-neçə igid oğullar kimi separatçı dəstənin şəxsi ambisiyasının qurbanı oldu. 1993-cü il avqust ayının 23-də silahlı dəstələr Soltanağa Bayramovun çalışdığı hospitala basqın etmişdilər. O, burada əsl vətənpərvərlik nümayiş etdirərək silahlılara müqavimət göstərmiş və qəhrəmancasına həlak olmuşdur.

Lənkəran şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 24 avqust 1993-cü il tarixli 740 saylı Fərmanı ilə Bayramov Soltanağa Nəhmət oğlu ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adına layiq görülmüşdür.

Lənkəran şəhərindəki küçələrdən birinə onun adı verilmiş və büstü qoyulmuşdur. Yaşadığı binanın önünə xatirə lövhəsi vurulmuşdur.

Ə d ə b i y y a t

Soltanağa Nəhmət oğlu Bayramova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Lənkəran hərbi hospitalının rentgen-texniki-Azərbaycan Respublikasının dövlətçiliyinin, müstəqilliyinin və ərazi bütövlüyünün qorunmasında, Azərbaycan xalqına təcavüz edən cinayətkar ünsürlərə qarşı mübarizədə göstərdiyi igidlik və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 24 avqust 1993-cü il//Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1993.-№16.-S.19;Azərbaycan.- 1993.- 26 avqust.- S.1.-(Ölümündən sonra).

Əsgərov, V. Bayramov Soltanağa Nəhmət oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.52.

Seyidzadə, M. Bayramov Soltanağa Nəhmət oğlu /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.39.

İ n t e r n e t d ə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

45 illiyi

İqor Makeyev
1971-1992

Milli Qəhrəman

İqor Vladimiroviç Makeyev 1971-ci il oktyabr ayının 27-də Gəncə şəhərində, fəhlə ailəsində anadan olmuşdur. 1979-cu ildə Mir Cəlal Paşayev adına Kəpəz rayon 39 saylı məktəbin birinci sinfinə getmiş, 1987-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirmişdir.

1987-1990-cı illərdə 8 saylı Texniki-peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnmişdir. 1990-ci il noyabrın 26-da Kəpəz Rayon Hərbi Komissarlığından hərbi xidmətə göndərilmişdir.

İqor Makeyev Bakıda desant qoşunları hissəsində xidmət edirdi. Sonralar Rusiyanın Rostov vilayətinə göndərilmiş və burada 6 ay çavuş məktəbində təhsil almışdır.

Azərbaycanda baş verən hadisələrlə əlaqədar olaraq hərbi xidmətini yarımçıq qoyan İqor Gəncəyə qayıtmış, Bakıya gələrək Daxili İşlər Nazirliyinin qoşun hissələrindən birinə yazılaraq, elə həmin gündən də həyatını cəbhəyə bağlamışdır.

Cəsur döyüşçü tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənir. Çox keçmir ki, onu taqım komandirinin müavini vəzifəsinə təyin edirlər.

1992-ci il iyunun 5-də erməni quldurları Naxçıvanik kəndinə qəflətən hücuma keçmişdilər. İqorun qoruduğu post kənd qəbiristanlığının yaxınlığında yerləşirdi.

Bir saata yaxın davam edən döyüşdə İqor öz əsgərləri ilə postu qəhrəmancasına qorumuş, ağır döyüşdə ermənilər Naxçivanik kəndini 3-4 saatlıq əllərinə keçirsələr də onun başçılıq etdiyi özünümüdafiə dəstəsi yenidən hücuma keçərək tez bir zamanda kəndi geri almışdır.

1992-ci il avqust ayının 2-də "Vışka" yüksəkliyi uğrunda ağır döyüşlərdə 28 nəfərin mühasirədən çıxmasına kömək etmiş, özü isə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı Fərmanı ilə Makeyev İqor Vladimiroviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Sadıllı qəsəbəsində onun adına küçə var.

Ə d ə b i y y a t

Azərbaycan Respublikası Daxili işlər orqanlarının əməkdaşlarına "Azərbaycanın Milli Qəhrəmanı adı verilməsi haqqında: [Makeyev İqor Vladimiroviç - sıravi - Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidliyə və şücaətə görə]:Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 19 oktyabr 1992-ci il// Azərbaycan Respublikası Ali Sovetinin məlumatı.-1992.-. №21.-S.27.-(Ölümündən sonra)

Əsgərov, V. Makeyev İqor Vladimiroviç /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.-Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.180-181.

Makeyev İqor Vladimiroviç //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.129.

Seyidzadə, M. Makeyev İqor Vladimiroviç /M.Seyidzadə //Milli qəhrəmanlar zirvəsi.- Bakı, 2010.- S.134.

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

125 illiyi Fərrux Qayıbov 1891-1916

Hərbi pilot

Fərrux ağa Məmmədkərim ağa oğlu Qayıbov 1891-ci il oktyabr ayının 2-də Qazax qəzasının (indiki Qazax şəhəri) Qıraq Salahlı kəndində, hərbçi ailəsində anadan olmuşdur. Ailədə dörd uşaq atası olan Məmmədkərim ağa özü də hərbçi idi.

Atasını çox erkən yaşlarında itirən Fərrux ağa dövrünün görkəmli maarifçisi, əmisi Səməd ağa Qayıbovun himayəsində böyümüşdür. Doğma kəndi Salahlıda beşsinifli Rus-Azərbaycan məktəbini bitirərək general Əliağa Şıxlinskinin məsləhəti ilə Tiflis Kadet Korpusunda oxumağa göndərilir.

1910-cu il iyun ayının 16-da Tiflis Kadet Korpusunu əla qiymətlərlə bitirdikdən sonra, Peterburqdakı üçillik Konstantin Topçuluq Məktəbinə daxil olur.

Məktəbdə iti zehni, gözlə dəqiq ölçmə qabiliyyəti, igidliyi ilə fərqlənən Fərrux ağa xüsusilə topdan bacarıqla atəş açdığı üçün İsveçrənin "Pavel Bure" firmasında hazırlanmış, arxasında "Yunker Fərrux ağa Qayıbov, 1913-cü il" sözləri həkk olunmuş "Qızıl saat" mükafatı almışdır.

Podporuçik Fərrux ağa Qayıbov Konstantin Topçuluq Məktəbini əla qiymətlərlə bitirdikdən sonra 1913-cü il avqustun 6-da Aleksandrapoldakı 39-cu artilleriya briqadasında xidmət etmiş, Birinci Dünya müharibəsi (1914-1918) başlananda Qərb cəbhəsindəki 11-ci aviasiya korpusuna göndərilmişdir.

Fərrux Qayıbovun daxil olduğu "İlya Muromets N16" təyyarəsinin 4 nəfərlik heyəti ilk döyüş uçuşunda Neman çayındakı strateji əhəmiyyətli körpünü dağıtmış, 1916-cı ilin sentyabrında rus təyyarələrinin Vilnodakı (Vilnus) alman hərbi məntəqələrinə hücumunda iştirak etmişdir. Vuruşmada almanların üç təyyarəsi məhv edilmişdir.

Lakin 1916-cı il sentyabr ayının 12-də gedən qeyri-bərabər döyüş vaxtı igid poruçik Fərrux Qayıbov və onun heyəti "İlya Muromets N16"da aldığı ciddi zədədən təyyarəsi ilə bərabər yerə düşərək həlak olmuşlar.

Fərrux ağa Qayıbovun "IV dərəcəli Müqəddəs Georgi" ordeni ilə təltif olunması haqqında sənədin surəti Azərbaycan Tarix Muzeyində qorunub saxlanılır.

Həlak olmuş poruçik Fərrux Qayıbovu və onun heyətini alman əsgərləri bütün hərbi ənənələrə uyğun olaraq ehtiram və şərəflə Almaniyanın Boruno kəndinin qəbiristanlığında dəfn etmişlər.

25 illik ömür yaşamasına baxmayaraq Fərrux Qayıbov şərəfli döyüş yolu keçmişdir. 1915-ci ildə üçüncü dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), yenə həmin ilin dekabr ayında dördüncü dərəcəli "Müqəddəs Anna" (üzərində "İgidliyə görə" yazısı ilə), 1916-cı ildə ikinci dərəcəli "Müqəddəs Stanislav" (qılınc və bantla birgə), 1917-ci ildə ikinci dərəcəli "Müqəddəs Anna" (qılıncla birgə), 1917-ci ilin martında üçüncü dərəcəli "Müqəddəs Anna" (qılınc və bantla birgə) və 1917-ci ilin mart ayında isə dördüncü dərəcəli "Müqəddəs Georgi" ordenlərinə layiq görülmüşdür.

Poruçik Qayıbovun hünəri 1916-cı ilin qəzetlərində, hətta alman mətbuatında da öz əksini tapmışdır. Onlar arasında general Ə.Şıxlinskinin "İlk Azərbaycan pilotu" yazısı xüsusi dəyərə malikdir.

Ə d ə b i y y a t

Nəzirli, Ş. Azərbaycanın ilk hərbi təyyarəçisi Fərrux ağa Qayıbov /Ş.Nəzirli; tərt. O.Bədəlov; ön söz. müəl. F.Axundova.- Bakı, 2007.- 40 s.

Kazımlı, K. Dünyaya mərd gəlib, mərd gedənlər... /K.Kazımlı //Mədəni həyat.-2013.- №1/2.- S.39.

Qayıbov Fərrux ağa Məmmədkərim oğlu /Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1979.- C.III.- S.5.

Назирли, Ш. Первый военный летчик Азербайджана Фаррух Ага Гаибов /Назирли Ш.; [вступ. ст. Ф.Ахундова (Гаибова)].- Баку: [б.и.], 2007.- 40 с.

Мамедов, М. Авиаторы Азербайджана в годы первой мировой войны /М.Мамедов //IRS Наследие.-2014.- №5 (71).- С.60-62.

Фаррух Гаибов – первый летчик Азербайджана //Новое время.- 2014.- 6 июня.- С.5.

www.adam.az

www.anl.az

90 illiyi

Qurban Abbasov 1926-1994

Neftçi

Qurban Abbasqulu oğlu Abbasov (Neftçi Qurban) 1926-cı il oktyabr ayının 26-da Naxçıvan MSSR (Naxçıvan MR) Babək rayonunun Paiz (indiki Payız kəndi) kəndində anadan olmuşdur. Əmək fəaliyyətinə 1944-cü ildə "Artyomneft" trestində fəhlə kimi başlamışdır. Sonrakı illərdə Qurban Abbasov "Azərneft" Birliyinin qazma kontorunda qazmaçı, buruq ustası, "Gürganneft" Neft Mədənləri İdarəsinin (NMİ) Şimal qazma sahəsi kontorunun rəisi vəzifələrində işləmişdir.

1967-1983-cü illərdə "Xəzərdənizneftkəşfiyyat" trestinin müdiri, "Xəzərdənizneft" İstehsalat Birliyinin (İB) baş direktor müavini, "Neft daşları" Neft və Qazçıxarma İdarəsinin rəisi vəzifələrində işləmişdir.

1980-1988-ci illərdə "Xəzərdənizneftqazsənaye" Ümumittifaq İB-nin baş direktoru, 1988-1992-ci illərdə "Xəzərdənizneft" İB-nin baş direktoru, 1992-1994-cü illərdə isə Azərbaycan Dövlət Neft Şirkətinin baş müşaviri olmuşdur.

Qurban Abbasov açıq dənizdə neft və qaz çıxarılmasının ilk təşkilatçılarından biri idi. "Şelf-1" tipli yarımdalma üzən qazma qurğularının Xəzər dənizi şəraitində mənimsənilməsində onun xüsusi xidmətləri olmuşdur. Bu qurğular 200 metrlik dəniz dərinliyində işləyə bilmiş, Kaveroçkin adına (indiki "Çıraq" yatağı) yatağı kəşf etməyə və yeni, dərin perspektivli strukturlarda kəşfiyyat işləri aparmağa imkan yaratmışdır.

Onun bilavasitə rəhbərliyi altında dərin dəniz stasionar özüllərin inşasının istehsalat bazası yaradılmış, Xəzər dənizinin dərin sahələrində stasionar özüllərin quraşdırma işlərinin prinsipcə yeni üsulu işlənib hazırlanmışdır. Qurban Abbasovun "Günəşli", "Azəri", "Kəpəz" və s. iri yataqların kəşf edilməsindəki xidmətləri isə əvəzsizdir.

Qurban Abbasov SSRİ Ali Sovetinin (6-11-ci çağırış) və Azərbaycan SSR Ali Sovetinin (6-9-cu çağırış) deputatı olmuşdur.

"Neft Daşları" dəniz yatağının kəşfi və mənimsənilməsinə görə 1951-ci ildə Qurban Abbasov SSRİ Dövlət mükafatı, 1972-ci ildə isə maili quyuların qazılmasına görə Azərbaycan SSR Dövlət Mükafatına, 1959-cu ildə "Sosialist Əməyi Qəhrəmanı", həmçinin "Azərbaycanın neft ustası", "SSRİ-nin Əməkdar neftçisi", 1975-ci ildə "Azərbaycanın Əməkdar mühəndisi" fəxri adlarına layiq görülmüş,"SSRİ-nin fəxri neftçisi", 2 dəfə "Lenin", "Qırmızı Əmək Bayrağı", "Şərəf Nişanı", "Oktyabr İnqilabı" ordenləri və medalları ilə təltif edilmişdir.

Neftçi Qurban fəaliyyətinin 50 illik yubileyini qeyd edərkən Azərbaycanın ən yüksək mükafatını - "Şöhrət" ordenini alan ilk neftçi olmuşdur.

Qurban Abbasov 1994-cü il sentyabr ayının 14-də Bakı şəhərində vəfat etmişdir.

Onun adına kran-gəmi, mədəniyyət sarayı, küçə, məktəb, körpü var. Bəstəkar A.Rzayevanın məşhur "Neftçi Qurban" mahnısı ona həsr olunmuşdur. Tələbə və aspirantlar üçün "Neftçi Qurban" təqaüdü təsis edilmişdir.

Ədəbiyyat

Qurban Abbasov // Naxçıvan Milli Ensiklopediyası.- Bakı, 2005.- S.9.

Бурение глубоких скважин с плавучей буровой установки "Хазар" /К.А.Абасов и др.-Мосва.: ВНИИОЭНГ,1975.- С 83.

Опыт работы буровиков-новаторов Нефтяных Камней /К. А. Абасов, Э. Б. Караш; ред. Г. Е. Карасик;Гос. Научно-Тех. Комитет Совета Мин. Азерб. ССР Ин-т Научно-Тех. Информации.- Баку: Азнефтеиздат,1957.- С 60.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Cəmil Əhmədli 1931-2010

Filosof

Cəmil Mirzə Teymur oğlu Əhmədli 1931-ci il oktyabrın 27-də Gədəbəy rayonunun Söyüdlü kəndində, müəllim ailəsində anadan olmuşdur. Orta məktəb illəri (1938-1948) İkinci Dünya müharibəsi illərinə təsadüf etmişdir. Buna baxmayaraq elmə böyük maraq göstərmiş, 10-cu sinifdə oxuyarkən respublikada keçirilən riyaziyyat olimpiadasının (1948) qalibi olmuşdur. Həmin il yeni yaradılmış Moskva Fizika-Texnika İnstitutunun nümayəndəsi C.Əhmədlinin oxuduğu məktəbin buraxılış imtahanlarında iştirak etmiş və onun həmin instituta qəbul olunduğunu bildirmişdir. Lakin maddi çətinliklərə görə Moskvaya gedə bilməmiş, sənədlərini Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fəlsəfə şöbəsinə verərək qəbul olunmuş və universiteti fərqlənmə diplomu ilə bitirmişdir.

Cəmil Əhmədli 1953-cü ildə SSRİ Elmlər Akademiyasının Fəlsəfə İnstitutunun aspiranturasına qəbul olunmuş, 1956-cı ildə akademik Teodar Oyzermanın rəhbərliyi ilə "Azadlıq və zərurət" mövzusunda dissertasiya müdafiə edərək, fəlsəfə elmləri namizədi alimlik dərəcəsini almışdır.

1960-cı ildə Bakıda nəşr edilən "Azadlıq və zərurət" (rus dilində) kitabı keçmiş SSRİ məkanında ilk monoqrafiya idi.

1954-1956-cı illərdə Moskva Dövlət Universitetində, 1958-1962-ci illərdə Azərbaycan Sənaye İnstitutunda (indiki ADNSU), 1963-1972-ci illərdə Bakı Ali Partiya Məktəbində (AR DİA), 1959-1974-cü illərdə Azərbaycan SSR EA-nın aspiranturasında fəlsəfə kursundan dərs demişdir.

1957-ci ildə Azərbaycan SSR EA-nın Fəlsəfə və Hüquq İnstitutunda elmi katib kimi fəaliyyət göstərmiş, baş elmi işçi, şöbə müdiri vəzifələrində işləmişdir. 1958-ci ildən etibarən "Materialist dialektikanın qanun kateqoriyası" mövzusu üzərində çalışmış, 1964-cü ildə bu əsər filosofun doktorluq dissertasiyasının əsasını təşkil etmişdir.

Cəmil Əhmədlinin təşəbbüsü və rəhbərliyi ilə 1969-cu ildə Azərbaycanda ilk sosioloji laboratoriya yaradılmışdır.

16 monoqrafiyanın, 400-dən artıq məqalənin müəllifi olan Cəmil Əhmədli 12 doktor, 100-ə yaxın namizəd yetirmişdir. Alim "Azərbaycan Sovet Ensiklopediyası"nda 54 məqalənin müəllifidir.

1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki ADİU) 1990-cı ilə qədər Fəlsəfə kafedrasının müdiri vəzifəsində çalışmışdır.

1990-cı ildən 2000-ci ilə qədər Bakı Dövlət Universitetinin Fəlsəfə və sosiologiya kafedrasının müdiri vəzifəsində işləmiş, BDU-nun professoru olmuşdur.

1990-cı ildə "Əməkdar elm xadimi" fəxri adını almış, 1997-ci ildə Rusiya Pyotr Elmlər və İncəsənət Akademiyasının müxbir üzvü, 2000-ci ildə isə akademiki seçilmişdir. 2009-cu ildə Azərbaycanın "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Cəmil Əhmədli 2010-cu il fevral ayının 10-da vəfat etmişdir.

Ədəbiyyat

İnsan və cəmiyyət: 10-cu sinif üçün dərslik /red. C. Əhmədli.- Bakı: Təhsil, 2004.- S.144.

İnsan və cəmiyyət: 10-cu sinif üçün dərslik /red.: Cəmil Əhmədli.- Bakı: Təhsil, 2003.- S 144.

İnsan və cəmiyyət: 9-cu sinif üçün dərslik /Red.: C. Əhmədli.- Bakı: Təhsil, 2003.- S. 192. Siyasət institutuna kompleks baxış/V.Hacıyeva; elmi red. C.T.Əhmədli.- Bakı:Azərbaycan Universiteti,2003.-S 186.

Cəmil Əhmədli ucalığı: Görkəmli Azərbaycan filosofu Cəmil Əhmədlinin 70 illiyinə /Naşir: N.Hüseynli; Tərt.ed., çapa hazırlayan, red. və ön sözün müəllifi:N. Hacızadə; Red.:N.Xanlarova.- Bakı: Diplomat, 2001.- S. 285

Nəzəriyyə, onun tipləri və funksiyaları. B.:Azərnəşr, 2001

Sosiologiya: nəzəriyyə və tədqiqat metodologiyası: dərs vəsaiti /R.Quliyev ; elmi red. C.T. Əhmədli.-. Bakı: Siyasət, 1995.- S.424.

www.adam.az

www.istoriya.az

105 illiyi Abbas Zamanov 1911-1993

Ədəbiyyatşünas

Abbas Fəttah oğlu Zamanov 1911-ci il oktyabr ayının 10-da Naxçıvan MR-nın Şərur rayonunun Maxta kəndində anadan olmuşdur. 1921-1927-ci illərdə Naxçıvan və Bakı şəhərlərində uşaq evlərində yaşamışdır. Bakı Pedaqoji Texnikumunu bitirdikdən sonra, 1929-1937-ci illərdə rəhbər komsomol işçisi kimi çalışmış, 1933-34-cü illərdə isə "Gənc işçi" qəzeti redaksiyasında məsul redaktorun müavini vəzifəsində işləmişdir.

1937-1939-cu illərdə "Ədəbiyyat" qəzetində məsul katib və Azərnəşrin Bədii ədəbiyyat şöbəsinin müdiri olmuşdur. 1939-cu ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Dil-ədəbiyyat fakültəsini qiyabi bitirmiş və institutda müəllim saxlanılmışdır.

Abbas Zamanov 1940-1941-ci illərdə M.F.Axundov adına Opera və Balet Teatrının direktoru olmuş, 1941-ci ildə teatrın Təbrizə qastrol səfərinə rəhbərlik etmişdir. İkinci Dünya müharibəsi illərində ordu sıralarında xidmət etmişdir. Tərxis olunduqdan sonra 1948-1960-cı illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində baş müəllim, 1960-68-ci illərdə Azərbaycan EA (indiki AMEA) Nizami adına Ədəbiyyat İnstitutunun elmi əməkdaşı, 1968-1971-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat Muzeyinin direktoru, 1971-1979-cu illərdə isə ADU-nun Azərbaycan ədəbiyyatı kafedrasının müdiri vəzifələrində çalışmışdır.

Ədəbi fəaliyyətə 1937-ci ildə çap etdirdiyi publisist və elmi-kütləvi məqalələrlə başlamışdır. Həmin vaxtdan ölkəmizdə və ölkəmizin hüdudlarından uzaqlarda XX əsr Azərbaycan ədəbiyyatına dair elmi-tədqiqat əsərləri müntəzəm dərc olunmuş, "Sabir və müasirləri" adlı monoqrafiyası Əsəd Behrənginin tərcüməsində Təbrizdə, "Cəlil Məmmədquluzadə" oçerki isə Ələkbər Qəhrəmaninin tərcüməsində Tehranda fars dilində nəşr olunmuşdur.

Akademik C.Məmmədquluzadənin, M.Ə.Sabirin, Ə.Haqverdiyevin, N.Nərimanovun, S.S.Axundovun, S.Hüseynin, H.Nəzərlinin, S.Ə.Şirvaninin, S.M.Qənizadənin və Q.Zakirin əsərlərini rus və Azərbaycan dillərində tərtib və nəşr etdirmişdir.

1968-ci ildə filologiya elmləri doktoru elmi adını almış, 1971-ci ildə professor elmi rütbəsini qazanmışdır. 1980-ci ildə Azərbaycanın Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

1982-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1983-cü ildə Azərbaycan EA-nın müxbir üzvi olmuşdur. I dərəcəli "Vətən müharibəsi" ordeni, döyüş xidmətlərinə görə medalı və bir sıra digər medallarla təltif edilmişdir.

Abbas Zamanov 1993-cü il aprelin ayının 1-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /A.Zamanov.- Bakı: Çinarçap, 2003.- 310 s.

Abbas Zamanov/Naxçıvan Ensiklopediyası //AMEA ; red. hey. C. Ə. Əliyev, A. A. Əlizadə, İ. Ə. Həbibbəyli [və b.].- Bakı: AMEA, 2002.-S.586-587.

Professor Abbas Zamanov:(həyatı və yaradıcılığı) /F.Kazımova; elmi məsləhətçi və red. İ. Həbibbəyli; AMEA, Naxçıvan bölməsi, İncəsənət Dil və Ədəbiyyat İn-tu, ədəbiyyatşünaslıq şöbəsi.- Bakı: Mütərcim, 2012.- S.361.

Cavidi xatırlarkən:məqalələr və xatirələr /tərt. ed. İ.(Orucəliyev)Atilla; red. A.Zamanov, H. Məmmədzadə; qeydlərin müəl. A.Zamanov, İ.Orucəliyev; lüğətin tərtibçisi H.Məmmədzadə.- Bakı: Zərdabi LTD, 2012.- S. 591.

Abbas Zamanov olmasaydı /K. Əliyev; elmi red. Ş.Alışanlı.- Bakı: Elm, 2011.-S. 138

70 illiyi Misir Mərdanov 1946

Alim

Ədəbiyyat

Azərbaycan təhsil tarixi /M.C.Mərdanov;elmi red. F. Rüstəmov..- Bakı:Təhsil,2011.-C.I.S 295.;C.2.-702 s.; C.3.-671 s.;C.4.- 2012.-S 909.

Azərbaycan təhsili:islahatların uğurlu nəticələri.2009-2010-cu illər/M.Mərdanov;red. F. Qədirov; [burax. məs. A. Əzizov] Azərb. Resp. Təhsil Nazirliyi.- Bakı: Şərq-Qərb, 2010.- S 243

Azərbaycan təhsili dünən, bu gün, sabah /Misir Mərdanov.-Bakı: Təhsil, 2006.-300 s.

Azərbaycan təhsili yeni inkişaf mərhələsində /M. Mərdanov .-Bakı: Çaşıoğlu, 2009.-526 s.

Təhsil millətin gələcəyidir... /H.Ə.Əliyev; Tərt.edənlər: Misir Mərdanov, Əsgər Quliyev .-Bakı: Təhsil, 2002.-580 s.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

Misir Cumayıl oğlu Mərdanov 1946-cı il oktyabr ayının 3-də Ermənistan SSR İcevan rayonunun Göyərçin kəndində, ziyalı ailəsində anadan olmuşdur. 1964-cü ildə orta məktəbi bitirmiş, ADU-nun (indiki BDU) mexanika riyaziyyat fakültəsinə daxil olmuş, 1969-cu ildə universiteti fərqlənmə diplomu ilə bitirmişdir. Təyinatla Gəncə Pedaqoji İnstitutuna göndərilmiş, riyaziyyat fakültəsində baş laborant kimi əmək fəaliyyətinə başlamışdır. 1969-cu ildə ADU-nun aspiranturasına daxil olmuşdur. 1973-cü ildə "Optimal idarəetmənin bəzi məsələləri" mövzusunda namizədlik dissertasiyası müdafiə etmiş, fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsini almışdır.

1972-ci ildən universitetdə müəllim işləyən Misir Mərdanov 1978-ci ildə mexanika-riyaziyyat fakültəsində dekan müavini vəzifəsinə təyin olunmuşdur. 1984-1985-ci illərdə universitetin qəbul komissiyası məsul katibinin müavini, ölkədən kənarda oxumağa göndərilən tələbələrin işi üzrə məsul katib vəzifəsində işləmişdir. 1986-1987-ci illərdə ADU-nun qəbul komissiyasının məsul katibi olmuşdur.

1989-cu ildə Kiyev şəhərində Riyaziyyat İnstitutunun elmi şurasında "Məhdudiyyətləri olan gecikən orqumentli proseslərdə optimallığın tədqiqi" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir.

Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyində Ali Təhsil İdarəsinin rəisi və Təhsil nazirinin müavini (1989-1992), BDU-nun tədris işləri üzrə prorektoru (1992-1996), BDU-nun rektoru (1997-1998) kimi məsul vəzifələrdə çalışmışdır.

1998-2013-cü illərdə Azərbaycan Respublikasının Təhsil naziri olmuşdur.

M.Mərdanov ümummilli lider Heydər Əliyevin sərəncamı ilə 1998-ci ildə yaradılan "Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası"nın sədri kimi, Azərbaycan təhsil tarixində ilk dəfə olaraq "Azərbaycan Respublikasının təhsili sahəsində islahat proqramı"nın hazırlanmasına bilavasitə rəhbərlik etmiş, onun rəhbərliyi altında "Milli Kurikulum-Milli Təhsil Konsepsiyası" sənədi hazırlanmışdır.

Azərbaycan təhsilinin inkişafındakı xidmətlərinə görə 1999-cu ildə "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüş, 2006-cı ildə isə "Şöhrət" ordeni ilə təltif olunmuşdur.

2013-cü ildən AMEA Riyaziyyat və Mexanika İnstitutunun direktorudur.

2011-2014-cü illərdə Türk dünyası Riyaziyyat Cəmiyyətinin prezidenti, 2014-cü ildən fəxri prezidenti, 1996-cı ildən isə Azərbaycan Riyaziyyat Cəmiyyətinin vitse-prezidentidir.

"AMEA Xəbərləri" jurnalının fizika-texnika və riyaziyyat elmləri seriyasının riyaziyyat və mexanika buraxılışının redaktor müavini, "AMEA Riyaziyyat və Mexanika İnstitutunun Əsərləri" jurnalının baş redaktoru, eyni zamanda "Azerbaijan journal of Mathematics" jurnalının redaksiya heyətinin üzvüdür.

15-dən artıq kitabın, 100-dən çox elmi məqalənin müəllifidir.

80 illiyi

Niftalı Qocayev 1936

Alim

Ədəbiyyat

Niftalı Mehrəli oğlu Qocayev: biblioqrafiya /tərt. İ. N. Əliyeva.- Bakı: Qafqaz Universiteti, 2006.- S 73.

Qocayev N.M. Ümumi fizika kursu I C. Bakı: Bakı Universiteti, 2007.- S. 472

Qocayev N.M. Ümumi fizika kursu. II C. Bakı: Çaşıoğlu, 2008.-S. 431.

Qocayev N.M. Ümumi fizika kursu. IV C.- Bakı: Çaşıoğlu, 2009.- S.623.

Физика 9 : учебник для 9 класса общеобразовательной школы /М. Мургузов, С. Абдуллаев, Р. Абдуразагов, Н. Алиев ; науч. ред. Н. Годжаев ; ред. О. Гасанов ; пер. К. Нуриева ; ред. пер. Р. Касумова ; рец. О. Гасанов, А. Аббасзаде, Б. Насирова.- Bakı: Bakınəşr, [М-во образования Азерб. Респ.], [2012].-С.208.

www.adam.az

www.anl.az

Niftalı Mehrəli oğlu Qocayev 1936-cı il oktyabr ayının 18-də Qərbi Azərbaycanın Dilican rayonunun Salah kəndində anadan olmuşdur. 1953-cü ildə orta məktəbi qızıl medalla bitirərək ADU-nun (indiki BDU) fizika fakültəsinə daxil olmuşdur. 1958-ci ildə ADU-nun fizika fakültəsini nəzəri fizika ixtisası üzrə fərqlənmə diplomu ilə bitirdikdən sonra elmi fəaliyyətini davam etdirmək üçün Molekulyar fizika kafedrasında saxlanılmışdır. Bir il işlədikdən sonra SSRİ EA-nın Sank-Peterburq şəhərində yerləşən Yüksək Molekullu Birləşmələr İnstitutunun aspiranturasına daxil olmuş, akademik M.V.Volkenşteynin elmi rəhbərliyi altında molekulyar fizika ixtisası üzrə elmi fəaliyyətini davam etdirmişdir. 1962-ci ildə "Dezoksiribonuklein turşusu (DNT) molekulunun reduplikasiyasının bəzi termodinamik və kinetik məsələləri" mövzusunda namizədlik dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək ADU-nun Molekulyar fizika kafedrasına qayıtmışdır. 1967-ci ildə ADU-nun nəzdində "İttifaq universitetləri müəllimlərinin ixtisasını artırma fakültəsi" yaradılmasında bilavasitə iştirak etmiş və həmin fakültənin qurucu dekanı olmuşdur. Onun ADU-da 1959-cu ildən başlayaraq davam edən uzunmüddətli və məhsuldar elmi-pedaqoji fəaliyyəti nəticəsində "Molekulyar Biofizika" istiqamətində Elmi Məktəb yaranmışdır. 1980-ci ildə N.Qocayevin təşəbbüsü ilə SSRİ Ali Təhsil Nazirliyinin tövsiyəsinə əsasən SSRİ Nazirlər Soveti yanında Elm və Təhsil Komitəsinin xüsusi qərarı ilə Molekulyar Biofizika Elmi-Tədqiqat Problemlər Laboratoriyası açılmışdır. Yaradıldığı gündən 2006-cı ilədək laboratoriyanın müdiri, 2006-cı ildən bu günə qədər isə BDU-nun nəzdində yaradılmış Fizika problemləri ETİ-nin həmin laboratoriyanın daxil olduğu Nəzəri fizika şöbəsinin müdiri və Optika və molekulyar fizika kafedrasının professorudur.

300-dən çox məqalənin, 16 monoqrafiya, dərslik və dərs vəsaitinin müəllifi olan N.Qocayev beynəlxalq simpozium və konfranslarda 52 məruzə (onlardan 12-si Plenar məruzələrdir) ilə çıxış etmişdir.

N.Qocayev Azərbaycan SSR Ali Təhsil Nazirliyi nəzdində fəaliyyət göstərən Elmi-Metodik Şuranın Fizika və astronomiya seksiyasının sədri (1980-1984), Azərbaycan Respublikası "Elm" cəmiyyətinin Fizika seksiyasının üzvü (1967-1994), Azərbaycan Qaçqınlar Cəmiyyətinin sədri (1989-1993) vəzifəsində işləmişdir. Onun təşəbbüsü ilə 1997-ci ildə yaradılmış Azərbaycan Biofizika Cəmiyyəti özünün ilk konfransında onu Cəmiyyətin prezidenti seçmiş və alim, bu günədək həmin vəzifədə müvəffəqiyyətlə çalışmaqdadır.

N.Qocayev Türkiyədə Ərzurum Atatürk və İstanbul Universitetlərində professor vəzifəsində çalışaraq yüksək səviyyədə elmi pedaqoji-fəaliyyət göstərmişdir.

Fizika elminin inkişafındakı nailiyyətlərinə görə professor N.Qocayev iki dəfə Amerikanın "Şərəf Qızıl Medalı"na layiq görülmüşdür

N.Qocayev 2001-ci ildən Qafqaz Universitetində Elmi işlər üzrə prorektor vəzifəsində işləyir. Qafqaz Universitetinin Elmi şurasının üzvü, "Journal of Qafqaz University" dərgisinin baş redaktorudur.

95 illiyi

Tamerlan Əliyev 1921-1997

Alim

Tamerlan Əziz oğlu Əliyev 1921-ci il oktyabr ayının 3-də Naxçıvan MSSR-in Şərur rayon Şaxtaxtı kəndində, görkəmli dövlət xadimi Əziz Əliyevin ailəsində anadan olmuşdur. 1923-cü ildə ailəsi ilə birgə Bakıya köçən T.Əliyev ilk təhsilini Bakıdakı 3 saylı ibtidai məktəbdə almış, sonra isə Bakının Oktyabr rayonundakı (indiki Yasamal rayonu) 176 saylı orta ümumtəhsil məktəbini bitirmişdir. Orta təhsilini əla qiymətlərlə başa vurduğu üçün o dövrün qaydalarına uyğun olaraq qəbul imtahanlarından azad edilmişdir. Elə həmin ildə Azərbaycan Tibb İnstitutunun (indiki ADTU) müalicə-profilaktika fakültəsinə daxil olmuşdur.

İkinci Dünya müharibəsi ilə əlaqədar olaraq ATİ-da təhsil müddəti 4 ilə qədər azaldığına görə Tamerlan Əliyev 1944-cü ildə institutu bitirmiş, əmək fəaliyyətinə başlamışdır.

Hələ institutda təhsil aldığı illərdə Bakı şəhərində Elmi-Tədqiqat Epidemiologiya və Mikrobiologiya İnstitutunda (1943) epidemioloq vəzifəsini yerinə yetirmiş, 1944-cü ildə isə Azərbaycan Tibb İnstitutunun Mikrobiologiya kafedrasında assistent kimi fəaliyyət göstərmişdir. Gənc məzun 1945-ci ildən etibarən ATİ-nin Fakültativ terapiya kafedrasında əvvəlcə kliniki ordinator, sonra isə assistent, 1969-cu ildən dosent, 1970-90-cı illərdə isə professor və kafedra müdiri vəzifələrində çalışmışdır.

Bütün ömrünü tibb elminin inkişafına sərf edən görkəmli alim endokrinologiya, diaqnostika və s. sahələrdə 250-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiya və dərsliklərin müəllifi olmuşdur.

T.Əliyevin müəllifi olduğu "Klinik-diaqnostik laborator tədqiqat üsulları" (1974), "Şəkərli diabet haqqında ətraflı məlumat" (1977), "Biokimyəvi tədqiqat üsulları" (1979), "Şəkərli diabet" (1979), "Prediabet" (1982), "Şəkərli diabet zamanı qan dövranı pozulmaları və onların tənzimi" (1985), "Endokrinologiya" (1993) və s. bu kimi əsərlər indi də öz aktuallığını saxlayır. 1954-cü ildə "Heyvan orqanizminin immun reaktivliyinin Naftalan neftinin təsiri altında dəyişməsinin xarakteristikası" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. 1969-cu ildə isə "Şəkərli diabetin müxtəlif formaları olan xəstələrdə, periferik damarların vəziyyəti: metabolizmin və qanın laxtalanmasının bəzi göstəriciləri" mövzusunda doktorluq dissertasiyası müdafiə edərək tibb elmləri doktoru elmi dərəcəsinə layiq görülmüşdür.

Azərbaycan Endokrinoloqlar Cəmiyyətinin sədri olan T.Əliyev SSRİ-də Ümumittifaq Endokrinoloqlar, Kardioloqlar və Nefroloqlar Elmi Cəmiyyəti İdarə Heyətinin üzvü seçilmişdir.

Görkəmli alim, professor T.Əliyev Azərbaycanda tibb elminin inkişafında göstərdiyi xidmətlərinə görə 1981-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1985-ci ildə "Səhiyyə əlaçısı" döş nişanına, "Əməkdar elm xadimi" fəxri adına, həmçinin müxtəlif illərdə "Şərəf nişanı" və "Oktyabr İnqilabı" ordenlərinə layiq görülmüşdür.

Tamerlan Əliyev 1997-ci ildə vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

Ədəbiyyat

Kliniki-diaqnostik laboratoriya tədqiqat üsulları: tibb institutu üçün dərs vəsaiti /T. Əliyev, İ. Hüseynov.- Bakı: Maarif, 1974.-S 349.

Şəkərli diabet /T. Əliyev, Ə. Abdullayev ; elmi red. D. Hüseynov ; rəyçilər Z. A. Zeynalova, M. Ə. Ələkbərov.- Bakı: Azərnəşr, 1980.- S 114.

Respublika Dövlət Mükafatı laureatı, əməkdar elm xadimi, professor Tamerlar Əziz oğlu Əliyevin anadan olmasının 85-illiyinə həsr edilmiş elmi konfransın materialları:/Elmi red.: Ə.T. Əmiraslanov, R.M. Məmmədhəsənov; Buraxılışa məsul: T.T. Əliyeva.- Bakı: ATU, 2006.- S 445

Əliyeva İ. Nəcib nəslin görkəmli nümayəndəsi // Azərbaycan 2014.-30 aprel.- S 6

İnternetdə

www.anl.az

www.science.gov.az

www.mir-azerbaydjana.

105 illiyi Əliheydər Qəhrəmanov 1911-1959

Biblioqrafiyaşünas

Ə d ə b i y y a t

Rus-Azərbaycan ədəbi əlaqələrinə dair /Ə.Qəhrəmanov.- Bakı: Azərnəşr, 1962.- 123 s.

Fərəcov, S. Xalqa fədakar xidmətdə keçən ömür /S.Fərəcov //Mədəniyyət .-2013.- 26 iyul.- S.15.

Görkəmli biblioqraf-alim Əliheydər Qəhrəmanov 100 /N.İsmayılov //Kitabxanaçılıq və informasiya. Elmi nəzəri praktiki jurnal.- 2012.- N2.- S.129-143.

Hicran, N. Yaşasaydı...: Görkəmli alim Əliheydər Qəhrəmanovun dünyaya gəlməsindən 100 il ötür /N.Hicran //Təzadlar.- 2011.- 15 sentyabr.- S.7.

İsmayılov, N. Əliheydər Qəhrəmanov // Kitabxanaçılıq-informasiya fakültəsi - 60: biblioqrafik məlumat kitabı /Azərb. Resp. Təhsil Nazirliyi, BDU ; tərt. N. İ. İsmayılov, S. A. Sadıqova- Bakı, 2008.- S.7-11.

Qəhrəmanov Əliheydər //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1979.- C.3.- S.145.

Əliheydər Baba oğlu Qəhrəmanov 1911-ci il oktyabr ayının 25-də Bakının Biləcəri kəndində anadan olmuşdur. 1925-ci ildə 50 saylı məktəbi bitirdikdən sonra Bakı Xalq Maarif Şöbəsinin Pedaqoji Texnikumuna daxil olmuş, 1929-cu ildə təhsilini başa vurmuşdur. Texnikumda təhsil aldığı illərdən A.Səhhət adına Kitabxanada kitabxanaçı vəzifəsində çalışmış, 1933-1940-cı illərdə həmin kitabxananın direktoru olmuşdur.

Azərbaycan ədəbiyyatına xüsusi həvəs göstərən Ə.Qəhrəmanov 1932-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun (indiki ADPU) Azərbaycan dili və ədəbiyyatı fakültəsinə daxil olmuş, 1936-cı ildə oranı bitirmişdir. 1940-cı ildən Bakı Mədəni-Maarif Texnikumunda pedaqoji fəaliyyət göstərmiş, 1942-1948-ci illərdə texnikumun direktoru vəzifəsində çalışmışdır.

1944-cü ildən başlayaraq həm ADU-da (BDU), həm də APU-da (ADPU) müəllimlik etmişdir. 1947-ci ildə ADU filologiya fakültəsinin nəzdində kitabxanaşünaslıq şöbəsi açılmış və həmin ildən Ə.Qəhrəmanov orada biblioqrafiya kursu üzrə mühazirələr oxumağa başlamışdır. 1948-ci ildən ömrünün sonuna qədər ADU-nun Kitabxanaşünaslıq və biblioqrafiya kafedrasına rəhbərlik etmişdir.

1937-ci ildən Kitab Palatasında işləməyə dəvət edilmiş, həmin vaxtdan etibarən onun adı Azərbaycan dövlət biblioqrafiyası ilə ayrılmaz surətdə bağlı olmuşdur.

Ə.Qəhrəmanov bütün qüvvəsini Kitab Palatası fəaliyyətinə və kitabxanaçı kadrlarının hazırlanması işinə sərf etmişdir. 1942-ci ildə Kitab Palatasında elmi katib, 1941-1942-ci illərdə palatanın çap etdirdiyi "Azərbaycan kitab letopisi", "Azərbaycan qəzet məqalələri letopisi"nin tərtibçisi, 1943-cü ildə palatanın direktoru, 1946-cı ildən başlayaraq ömrünün axırına kimi müntəzəm olaraq Kitab Palatasının çapdan buraxdığı letopislərin redaktoru olmuşdur.

S.Əliyevin tərtibi ilə Respublika Kitab Palatası tərəfindən çap edilən "Azərbaycan kitabı" (1951) adlı ümumi retrospektiv biblioqrafik göstəricinin və Ə.Əliyevin tərtib etdiyi "Nə oxumalı?" (1949) biblioqrafik göstəricisinin redaktoru Ə.Qəhrəmanov olmuşdur. Eyni zamanda S.Əliyevin tərtib etdiyi "Azərbaycan kitabı" biblioqrafik göstəricisinə giriş məqaləsini də Ə.Qəhrəmanov yazmışdır.

Onun tərtib etdiyi biblioqrafiyalar və şəxsi göstəricilər gərgin əmək sayəsində ərsəyə gəlmişdir. Müharibə dövründə, 1942-1946-cı illərdə Respublika Kitab Palatası salnamələrinin nəşri müvəqqəti olaraq dayandırıldığından Ə.Qəhrəmanov "Böyük Vətən müharibəsi günlərində Azərbaycan ədəbiyyatı (22 iyun 1941-ci il-3 sentyabr 1945-ci il)" sahəvi biblioqrafik göstəricisini çap etdirmişdir.

1953-cü ildə Ə.Qəhrəmanovun "Ümumi biblioqrafiyadan müxtəsər məlumat" adlı metodik vəsaiti çap olunmuşdur.

Əliheydər Qəhrəmanov 1959-cu il mart ayının 23-də vəfat etmişdir.

Beynəlxalq Ahıllar Günü 1992

BMT-nin inkişaf proqramında son illər ərzində ahıllar problemi geniş yer tutmuşdur. 2002-ci ilin aprel ayında İspaniyanın paytaxtı Madrid şəhərində BMT-nin ahıllar üzrə II Ümumdünya məclisinin keçirilməsi də buna misaldır. Bu Ümumdünya tədbirində belə bir fikir səslənmişdi ki, yaşlılar da cəmiyyətin bərabərhüquqlu vətəndaşlarıdır, onlara ehtiram göstərmək yüksək insani keyfiyyətdir.

Adı-sanı, nəcib əməlləri ilə tanınan, bəlkə də heç tanınmayan, lakin ləyaqətlə yaşayan, həyat təcrübəsi ilə yeni nəsillərə nümunə olan ahıllar, həqiqətən hörmətə layiqdirlər.

İnsanın qocalıq dövründə heç nəyə qadir olmadığını söyləmək səhv olardı. Lap qədim zamanlardan ağsaqqal, ahıl insanlar ən hörmətli, müdrik adamlar hesab olunmuşlar. Onlara cavanlar da, böyüklər də hörmətlə yanaşmış, fikirləri ilə hesablaşmışlar. Qocaların sərvəti onların həyat təcrübəsidir. Onlara qulaq asıb, dediklərinə əməl etməklə bu sərvətə sahib olmaq mümkündür.

BMT-nin Baş Məclisi 1992-ci ildə Ahılların müdafiəsi ilə bağlı Qətnamə qəbul etmişdir. Həmin Qətnamənin prinsiplərinə uyğun olaraq hər il oktyabr ayının 1-i Beynəlxalq Ahıllar Günü kimi qəbul edilmiş, həmçinin 1999-cu il Beynəlxalq Ahıllar ili elan olunmuşdur.

Bu məsələyə respublikamızda da ciddi diqqət yetirilir.

1993-cü ildən başlayaraq hər il oktyabr ayının 1-i respublikamızda "Beynəlxalq Ahıllar Günü" kimi qeyd olunur. Həmin günün keçirilməsində məqsəd ahıl vətəndaşların sosial problemləri ilə tanış olmaq, ehtiyaclarını müəyyənləşdirərək imkanlı müəssisələr, təşkilatlar və qeyri-hökumət təşkilatları ilə birlikdə əməli tədbirlər görməkdən ibarətdir.

2001-ci il iyun ayının 22-də "Ahıllara sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmişdir. Qanuna əsasən ölkədə 70 yaşına çatmış Azərbaycan Respublikası vətəndaşları, habelə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl sayılır. Beynəlxalq Ahıllar Günü ərəfəsində bütün dünyada olduğu kimi, respublikamızın şəhər və rayonlarında İcra hakimiyyətləri, əmək kollektivləri, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları rayon ərazisində yaşayan ahıl vətəndaşların ehtiyaclarını öyrənərək onlar üçün bayram süfrələri, ərzaq bağlamaları təşkil edir, müxtəlif xeyriyyə, şəfqət və mədəni-kütləvi tədbirlər həyata keçirirlər. Həmin tədbirlərdə respublika üzrə 10 minlərlə ahıl və əlil vətəndaş bayram süfrələrinə dəvət olunur, onlara ərzaq paylanır, maddi yardım göstərilir.

Ədəbiyyat

Qocayev, Ə. 1 oktyabr-Beynəlxalq ahıllar günü //Qocayev Ə. Bayramlar və tarixi günlər.- Bakı, 2006.- S.53.

Məmmədli, Q.Ahıllar dövlət qayğısı ilə əhatə olunublar /Q.Məmmədli //Ekspress .-2015.- 1 oktyabr.- S.10.

Mustafayev, M.Azərbaycanda ahıl insanların sosial müdafiəsi dövlət siyasətinin dəyişməz əsas istiqamətidir : /M. Mustafayev //Respublika .-2015.- 1 oktyabr.- S.6.

Vəliyev, M.Ahıl vətəndaşlar diqqət və qayğı ilə əhatə olunmuşlar : /M.Vəliyev // Respublika .-2015.- 1 oktyabr.- S.6.

İnternetdə

www.anl.az

www.azadliq.org

Xocavənd rayonunun işğalı günü 1992

Ərazisi: 1458 km²
Əhalisi: 41725 nəfər
İşğal tarixi: 02.10.1992

Xocavənd rayonunun erməni qəsbkarları tərəfindən işğalından 24 il ötür.

Azərbaycan Respublikasının 26 noyabr 1991-ci il tarixli Qanununa əsasən Dağlıq Qarabağ Muxtar Vilayəti ləğv edilmiş, Martuni şəhəri Xocavənd şəhəri, Martuni rayonu Xocavənd rayonu adlandırılmışdır. Hadrut rayonu isə ləğv edilərək ərazisi Xocavənd rayonunun tərkibinə verilmişdir.

Ərazisi alçaq dağlıq və düzənlikdən ibarət olan Xocavənd rayonunun ümumi sahəsi 1458 km², əhalisi 41725 (o cümlədən azərbaycanlılar-10.648) nəfər olmuşdur. Rayonda 1 şəhər (Xocavənd şəhəri-rayon məkəzi), 2 iri qəsəbə (Qırmızı Bazar və Hadrut), 81 kənd vardı.

Olduqca əlverişli coğrafi mövqeyə və şəraitə malik Xocavənd rayonu Ağdam, Ağcabədi, Füzuli, Cəbrayıl, Qubadlı, Laçın, Şuşa, Xocalı rayonları ilə həmsərhəddir.

Qədim yaşayış məskənlərindən sayılan Xocavəndin ərazisi təbii sərvətlərlə - tikinti materialları və faydalı qazıntılarla, meşə zolaqları və şirin su ehtiyatları ilə zəngindir. Dəniz səviyyəsindən 900 metr hündürlükdə yerləşən, uzunluğu 190 metr olan Azıx mağarası Xocavəndin Füzuli rayonuna yaxın, Azıx kəndinin 1 kilometr cənub-şərqində yerləşir.

1988-ci ilin fevralından başlayan Qarabağ müharibəsində Xocavənd rayonu 145 şəhid vermiş, 3600 uşaq zərər çəkmişdir.

2 oktyabr 1992-ci il tarixində Xocavənd rayonu Ermənistan Silahlı Qüvvələri tərəfindən işğal olunmuşdur.

İşğal nəticəsində Xocavənddə 71 arxeoloji-memarlıq abidəsi, 41 klub, 40 kitabxana, 12 ziyarətgah, 10 məktəbəqədər müəssisə, 21 səkkizillik məktəb məhv edilmişdir. İşğal altında olan Xocavəndin ərazisi bütövlükdə ekoloji terrora məruz qalmış, Azıx mağarasını ermənilər silah anbarına çevirmişlər.

Rayonun ərazisində yerləşən və ümumi sahəsi 25,5 min hektar olan meşədəki palıd ağacları qırılaraq daşınmış, Xonaşen çayının kənarlarında bitən təbii meşə isə tamamilə məhv edilmişdir. Xocavəndin Yelli Gədik sahəsində Füzuliyə gedən yolun sağ və sol tərəflərində avtomobil yollarının mühafizəsi məqsədilə əkilən ağaclar da kəsilmişdir.

Ə d ə b i y y a t

Tapdıqoğlu, N. Xocavənd ensiklopediyası /N.Tapdıqoğlu.- Bakı: [Zərdabi LTD], 2009.- 543 s.

Xocavənd rayonu // Qarabağ. Yaddaş.- Bakı, 2010.- S.179-186.

Muradlı, E. Xocavənddən Şuşaya yol var... /E.Muradlı //Üç nöqtə.- 2012.- 6 mart.- S.8-9.

Mədətoğlu, Ə.Yuxularımın gerçəkləşdiyi ünvan /Ə.Mədətoğlu // Ədalət .-2014.- 20 sentyabr.- S. 4.

Mədətoğlu, Ə.Bu ellər bizim ellər /Ə.Mədətoğlu// Ədalət .-2015.- 10 iyun.- S. 7

Nərgiztəpədən baxanda... 2 oktyabr 1992-ci il Xocavənd rayonunun işğal günüdür /B.Qaraca //Azərbaycan .-2015.- 2 oktyabr.- S. 7.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

25 illiyi
Dövlət Müstəqilliyinin bərpası 1991

Müstəqillik hər bir xalqın tarixində onun özünüifadəsinin və özünütəsdiqinin ən ümdə əlaməti kimi səciyyələndirilir. 28 may 1918-ci ildə Şərqdə ilk dəfə olaraq Demokratik Respublikanın - Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının elan edilməsi Azərbaycan xalqının müstəqilliyə, milli azadlığa və istiqlaliyyətə qovuşması uğrunda apardığı gərgin mübarizənin məntiqi nəticəsi olmuşdur. Lakin Azərbaycan Demokratik Respublikası cəmi 23 ay fəaliyyət göstərmişdir. Fəaliyyətdə olduğu müddətdə Azərbaycan Demokratik Respublikasının Milli Hökuməti iqtisadi, siyasi, sosial, mədəni, təhsil və bir çox digər sahələrdə ciddi irəliləyişlər əldə etmişdir. Azərbaycanın dövlət atributları qəbul edilmiş, ilk parlament fəaliyyətə başlamış, milli valyuta olan manat dövriyyəyə buraxılmışdır.

XX əsrin sonlarında 1991-ci ildə sovet imperiyasının süquta uğraması nəticəsində digər müttəfiq respublikalar kimi, Azərbaycan da özünün dövlət müstəqilliyinə nail oldu. Amma digər ölkələrdən fərqli olaraq respublikamızı bu müstəqilliyə, azadlığa aparan yollarda qanlar töküldü, şəhidlər verildi. 1990-cı il iyulun 22-də xalqımızın dahi oğlu, görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıtması və 1990-cı il noyabrın 17-də Heydər Əliyevin sədrliyi ilə öz işinə başlayan Naxçıvan Ali Məclisinin sessiyasında tariximizdə Azərbaycan dövlətçiliyinin dirçəlişi prosesinin həyata keçirilməsi ilə bağlı bir çox məsələlər müzakirə olundu. 1990-cı ilin noyabrında Naxçıvan Ali Məclisi müstəqilliyimizin əsas atributlarından olan üçrəngli bayrağımızın Naxçıvan MR-in dövlət bayrağı olması barədə qərar qəbul etdi. Qərarda həmçinin Azərbaycan Respublikasının ali qanunverici orqanına Azərbaycanın dövlət rəmzləri haqqında məsələyə baxması, respublikamızın milli tarixi ənənələrə uyğun olaraq yeni dövlət rəmzlərinin - bayrağın, gerbin, himnin qəbul olunması təklif edilmişdir.

1991-ci il avqustun 30-da ali qanunverici orqanın xalqın tələbi ilə çağırılmış növbədənkənar sessiyasında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında bəyannamə qəbul edildi. Azərbaycan Respublikasının Ali Sovetinin həmin ilin 18 oktyabr tarixli sessiyasında "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edildi.

Lakin 1991-1993-cü illərdə hakimiyyətdə olanların hakimiyyət çəkişmələrinin məntiqi nəticəsi kimi cəbhədəki uğursuzluqlar və daxildə separatçı meyillərin güclənməsi dövlətçiliyimizin və müstəqilliyimizin məhvini qaçılmaz edirdi.

Belə bir ağır vəziyyətdə 1993-cü ilin iyunundan dövlətimizin idarəçilik sükanının arxasına keçən Heydər Əliyev xilaskarlıq missiyasını müdrikliklə, yenilməz iradə, qətiyyət və böyük uzaqgörənliklə yerinə yetirməyə başladı. Heydər Əliyev ölkəni gözləyən bütün təhlükələri dəf etməklə Azərbaycanın müstəqilliyinin möhkəm təməlini qoydu. İlk növbədə, hakimiyyət boşluğu aradan qaldırıldı, separatçı qüvvələr zərərsizləşdirildi, vətəndaş müharibəsi təhlükəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə və ərazi bütövlüyünə qəsdlər hazırlayan cinayətkar dəstələr cəmiyyətdən təcrid edildi.

Ölkənin nizami silahlı qüvvələrinin yaradılması ilə bağlı tədbirlər həyata keçirildi.

Xalqın istək və arzusu ilə Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra həyata keçirilən siyasət Azərbaycanın müstəqil dövlət kimi dünya birliyi sıralarına öz adını yazmasını təmin etdi. Əsl müstəqil, demokratik, hüquqi və dünyəvi dövlət quruldu. Bütün bunlar isə böyük tarixi nailiyyətlərdir.

Dövlət müstəqilliyimizin təminatçısı 18 oktyabr Dövlət Müstəqilliyi Günüdür//Azərbaycan .-2015.- 18 oktyabr.- S. 1.

Tarixdə bu gün

Zəngilan rayonunun işğalı günü 1993

- **Ərazisi: 707 km²**
- **Əhalisi: 33900 nəfər**
- **İşğal tarixi: 29.10.1993**

Zəngilan rayonu 1993-cü il oktyabr ayının 29-da erməni işğalçıları tərəfindən işğal olunmuşdur. Zəngilan ərazisi ən qədim insanların yaşayış məskənlərindən hesab olunur. Bölgə ərazisində mövcud olan bir neçə mağara (Əsgülüm və Süsən dağlarında) burada ibtidai insanların yaşayışından xəbər verir.

Zəngilan rayonu 1930-cu ildə təşkil olunmuşdur. Rayonun sahəsi 707 km², əhalisi isə 33900 nəfərdir. Rayonda bir şəhər, bir şəhər tipli qəsəbə, bir qəsəbə, 81 kənd var idi. Mərkəzi Zəngilan şəhəridir.

XX əsrin sonu Azərbaycan xalqının tarixinə faciələrlə dolu bir dövr kimi yazılmışdı. Ölkədə mövcud ictimai-siyasi vəziyyət, daxili çəkişmələr, bir-birinə xəyanət edən silahlı birləşmələrin bəd əməlləri torpaqlarımızın itirilməsi ilə nəticələndi. Zəngilan da, digər rayonlarımız kimi xəyanətin qurbanı olmuş, təqvimimizdə daha bir qara günün sayı artmışdı - 29 oktyabr 1993-cü il.

Zəngilanın işğalı artıq 1992-ci ildə faktiki olaraq reallaşmışdı. Ermənilərin hücumu iyunun 29-da olmuş, çox ağır və qanlı döyüşlər iki saat çəkmişdi. Artıq iyulun 6-da düşmən rayon mərkəzini atəşə tutmuş, bütün yayı Zəngilanın kəndləri və rayon mərkəzi düşmən atəşinə məruz qalmışdı. Bir müddət fasilə verdikdən sonra oktyabrın 20-də ermənilərin döyüş təyyarələri rayon mərkəzini bombalamışdı. Beləliklə də, 1992-ci ilin sonuna Zəngilanın 13 yaşayış məntəqəsi, bir çox strateji yüksəklikləri düşmənin əlinə keçmişdi. Oktyabrın sonuna yaxın rayon tam mühasirə vəziyyətinə düşmüşdü. Oktyabrın 25-26-da Sığırt və Bartaz yüksəklikləri işğal olunmuş, bununla da Zəngilanın mühasirəsi başa çatmışdı.

Təxminən 34 min əhali İran sərhədinə - Araz çayının kənarına toplaşmışdı. Gur sulu Araz çayını isə keçmək mümkün deyildi. Xalqımızın xilaskarı, ulu öndərimiz H.Əliyev bu dəfə də xalqın köməyinə gəlmişdi. O, İran hökuməti ilə danışıqlar aparmış və Araz çayı üzərindəki bənddə suyu bağlatdırmışdı. Yalnız bundan sonra əhali çayı keçib xilas olmuşdu. Buna görə də, zəngilanlılar Heydər Əliyeva daim minnətdardırlar.

Zəngilanda nəyimiz qaldi?

Zəngilan boyda Vətən;

Dünyada II, Avropada I Nadir Çinar meşələri;

Torpaq üzərində olan bütün var-dövlət;

67 məktəb, 56 kitabxana, 34 klub, 9 mədəniyyət evi, 7 xəstəxana, 6 iri dəmiryol stansiyası, 2 şərab zavodu, konserv zavodu, dəmiryol deposu...

Hazırda Zəngilan rayonunun məcburi köçkünləri Bakıda və respublikamızın 43 rayonunda müvəqqəti məskunlaşmışdır. Zəngilan rayonunda erməni təcavüzü nəticəsində Milli Ordunun 33 nəfər döyüşçüsü qəhrəmancasına həlak olmuş, 7 nəfər polis işçisi itkin düşmüşdür. Zəngilan 200 nəfərdən çox şəhid vermiş, 12800 uşaq zərər çəkmiş, 395 uşaq yetim qalmışdır. 44 nəfərin aqibəti bəlli deyil, 127 nəfər isə müharibə əlilidir.

Ə d ə b i y y a t

Qaraca, B.Bu ağrını yaşadıqca...: /B.Qaraca//Ədalət .-2014.- 30 oktyabr.- S.6.

Qara həsrət və yaxud ağla, Rəşid Faxralı: [Mətn] 29 oktyabr Zəngilanın işğalı günüdür /R. Faxralı //İki sahil .-2014.- 29 oktyabr.- S.16.

Zəngilan rayonunun erməni hərbi birləşmələri tərəfindən işğalının 20 illiyi ilə bağlı anma mərasimi keçirilmişdir //Azərbaycan.- 2013.- 30 oktyabr.- S.3.

İ n t e r n e t d ə

www.anl.az

www.azerbaycanli.org

www. az.wikipedia.org

www.zengilan-ih.gov.az

www.zengilan.com

1 noyabr

Gün çıxır 07:09
Gün batır 17:56

30 noyabr

Gün çıxır 07:43
Gün batır 17:34

NOYABR

24 oktyabr-
22 noyabr

Əqrəbin Nişanı sudur. Marsın və Neptunun himayəsindədir. Günəşin Əqrəb bürcündən keçdiyi dövrdə doğulanlar güclü xarakterli olurlar.

Ç.A.	1
Ç.	2
C.A.	**3**
C.	4
Ş.	5
B.	6
B.E.	7
Ç.A.	8
Ç.	9
C.A.	**10**
C.	11
Ş.	12
B.	13
B.E.	14
Ç.A.	15
Ç.	16
C.A.	**17**
C.	18
Ş.	19
B.	**20**
B.E.	21
Ç.A.	22
Ç.	23
C.A.	**24**
C.	25
Ş.	26
B.	27
B.E.	28
Ç.A.	29
Ç.	30
C.A.	

- *Azərbaycan Bayrağı Günü (09.11.2009)*
- *Konstitusiya Günü (12.11.1995)*
- *Milli Dirçəliş Günü (17.11.1992)*
- ***Qarakənd faciəsi (20.11.1991)***
- *Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)*
- *Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)*

875 il Nizami Gəncəvi 1141-1209

"Bütün Azərbaycan xalqı Nizami Gəncəvi ilə fəxr edir. Ancaq gəncəlilər xüsusi iftixar hissi keçirirlər. Birincisi, ona görə ki, Nizami gəncəlidir. Gəncənin adını dünyada məşhur edibdir, bu torpaqda yaşayıbdır, bu torpaqda yazıbdır. Onun yazdığı əsərlər bütün dünyada məşhurdur. Təsəvvür edin, 850 il bundan öncə bu qədər böyük əsərlər yaratmaq!.. Bu əsərlər təkcə şeirdən ibarət deyildir, onların hər birində böyük elm var, böyük fəlsəfə var, dahi fikirlər var. Buna görə onun əsərləri də yaşayır, özü də yaşayır".

Heydər Əliyev,
Azərbaycan xalqının ümummilli lideri

NOYABR

2016

Milli ədəbiyyat

Şair, nasir, jurnalist Mehdiyev Tofiq Mahmud oğlunun (Tofiq Mahmud) (06.11.1931-04.04.1997) anadan olmasının 85 illiyi **326**

Xalq şairi, ictimai xadim Abizadə Balaş Allahbaxış oğlunun (Balaş Azəroğlu) (11.11.1921-24.04.2011) anadan olmasının 95 illiyi **327**

Ədəbiyyatşünas, nasir, dramaturq, professor Babayev Aqşin Əlisəttar oğlunun (23.11.1936) anadan olmasının 80 illiyi **328**

Ədəbiyyatşünas, tənqidçi Mahmudzadə Ələkbər Mahmud oğlunun (Əli Nazim) (24.11.1906-23.08.1941) anadan olmasının 110 illiyi

Dünya ədəbiyyatı

Rus yazıçısı Dostoyevski Fyodor Mixayloviçin (11.11.1821-09.02.1881) anadan olmasının 195 illiyi **329**

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Kazımov Davud Mehti oğlunun (09.11.1926-14.02.2015) anadan olmasının 90 illiyi **330**

Əməkdar rəssam, boyakar Mustafayeva Güllü Hacağa qızının (12.11.1921-1993) anadan olmasının 95 illiyi

Xalq rəssamı, ornamentçi rəssam, xalçaşünas və sənətşünas Kərimov Lətif Hüseyn oğlunun (17.11.1906-09.09.1991) anadan olmasının 110 illiyi **331**

Xalq rəssamı Xəlilov Fərhad Qurban oğlunun (26.11.1946) anadan olmasının 70 illiyi **332**

Musiqi.Opera.Balet

Bəstəkar Nəcəfova Hökumə Yusif qızının (19.11.1911-2002) anadan olmasının 105 illiyi

Teatr.Kino

Xalq artisti Davudova Mərziyyə Yusif qızının (25.11.1901-06.01.1962) anadan olmasının 115 illiyi **333**

Xalq artisti, sirk artisti, akrobat Axundov Tofiq Hüseyn oğlunun (28.11.1941) anadan olmasının 75 illiyi

Siyasət.Hərbi iş

Dövlət xadimi Xəlilov Qurban Əli oğlunun (15.11.1906-20.03.2000) anadan olmasının 110 illiyi
Türk hərbçisi və siyasi xadim Ənvər Paşa Hacı Əhməd oğlunun (İsmail Enver) (23.11.1881-04.08.1922) anadan olmasının 135 illiyi **334**

Fəlsəfə.İqtisadiyyat

Neft sənayesi yenilikçisi Nemətulla Ağanın (15.11.1896-01.01.1958) anadan olmasının 120 illiyi **336**

Mədəniyyət.Maarif.Təhsil

Ədəbiyyatşünas, publisist, filologiya elmləri doktoru Vəlixanov Nadir İsmayıl oğlunun (21.11.1926-27.06.1995) anadan olmasının 90 illiyi **337**

Coğrafiya.Geologiya

Akademik Məmmədov Ələşrəf Veysəl oğlunun (01.11.1931-26.08.2003) anadan olmasının 85 illiyi
Əməkdar mühəndis, geoloq Məmmədov Mirkazım Mirəhəd oğlunun (06.11.1911-1997) anadan olmasının 105 illiyi **338**

Kimya.Biologiya.Tibb

AMEA-nın müxbir üzvü, professor Qurbanov Telman Xudam oğlunun (06.11.1936-17.10.1990) anadan olmasının 80 illiyi
Rus alimi-təbiətşünası, kimyaçı Lomonosov Mixail Vasilyeviçin (19.11.1711-15.04.1765) anadan olmasının 305 illiyi
Tibb elmləri doktoru, professor Kərimov Əflatun Xudkar oğlunun (23.11.1941) anadan olmasının 75 illiyi
Biologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi Qafarova Roza Zeynal qızının (29.11.1926-23.06.1996) anadan olmasının 90 illiyi **339**

Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor Ağayev Nuhəli Hacıbala oğlunun (01.06.1941) anadan olmasının 75 illiyi
AMEA-nın müxbir üzvü, professor Kəlbəliyev Qüdrət İsfəndiyar oğlunun (13.11.1946) anadan olmasının 70 illiyi

340

Kitabxanaşünaslıq.Biblioqrafiya

N.Gəncəvi adına Lökbatan qəsəbə kütləvi kitabxanasının (16.11.1976) yaradılmasının 40 illiyi **341**

Tarixdə bu gün

Kənd Təssərrüfatı İşçilərinin Peşə Bayramı Günü (01.11.2008)
Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin təsis edilməsi günü (01.11.1991)
"Füyuzat" jurnalının nəşr olunmasının 110 illiyi (01.11.1906)
Televiziya və Radio İşçiləri Günü (06.11.) **342**
Azərbaycan radiosunun yaradılmasının (06.11.1926) 90 illiyi
Beynəlxalq Şən və Hazırcavablar Klubunun ilk oyunu (08.11.1961) **343**
Azərbaycan Bayrağı Günü (09.11.2009)
Azərbaycan Respublikasının dövlət müstəqilliyi dünya dövlətləri içərisində ilk olaraq Türkiyə Cümhuriyyəti tərəfindən tanınmışdır (09.11.1991) **344**
Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmişdir (09.11.2001)
Konstitusiya Günü (12.11.1995)
Beynəlxalq Gözdən əlillər günü (13.11.2002) **345**
Ümumdünya Diabet Günü (14.11.1991)
Beynəlxalq Tolerantlıq günü (16.11.1995)
Milli Dirçəliş Günü (17.11.1992) **346**
Qarakənd faciəsi (20.11.1991) **347**
Beynəlxalq Uşaq Günü (20 noyabr)
Ümumdünya Salam Günü (21.11.1973)
Ədliyyə İşçilərinin Peşə Bayramı Günü (22.11.2000)
Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü (25.11.1999)
Dünya İnformasiya Günü (26.11.1994)
Azərbaycan Respublikasının Ali Soveti tərəfindən DQMV-nin statusu ləğv olunmuşdur (26.11.1991)
Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü (30.11.1988) **348**

85 illiyi

Tofiq Mahmud
1931-1997

Şair

Tofiq Mahmud oğlu Mehdiyev (Tofiq Mahmud) 1931-ci il noyabr ayının 6-da Naxçıvan Muxtar Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. Orta təhsilini Bakıda 31 saylı məktəbdə almış, 1949-1954-cü illərdə Bakı Dövlət Universitetinin filologiya fakültəsində oxumuşdur. Əmək fəaliyyətinə 1954-cü ildə indiki Mədəniyyət və Turizm Nazirliyinin Mədəni-Maarif Müəssisələri İdarəsində metodiki kabinetin metodisti kimi başlamış, sonra 1958-1961-ci illərdə "Azərbaycan müəllimi" qəzeti redaksiyasında xüsusi müxbir, 1961-ci ildə "Göyərçin" jurnalı redaksiyasında ədəbi işçi olmuşdur. 1958-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

"Gəzməsəm də, görməsəm də" adlı ilk şeiri 1953-cü ildə "İnqilab və mədəniyyət" jurnalında dərc olunmuşdur. 1976-cı ildən "Göyərçin" jurnalının redaktoru vəzifəsində işləmişdir. Azərbaycan Respublikası Uşaq Fondunun Bakı şöbəsinin sədri, 1989-cu ildən həm də rəyasət heyətinin üzvü olmuşdur. Azərbaycan Yazıçılar Birliyi Uşaq və gənclər ədəbiyyatı şurasının sədri seçilmişdir.

Tofiq Mahmudun lirikası səmimi və təbii hisslərin poetik tərcümanı kimi diqqət çəkmişdir. Həmişə gözəlliyi vəsf edən, ana yurdun şəninə şeirlər qoşan, qəlbi ülvi məhəbbətin eşqi ilə çırpınan şairin ətrafda müşahidə etdiyi nöqsan və qüsurlara, mənəviyyatsızlara öz baxışı, tənqidi münasibəti olmuş, şeirlərində belə "simasiz"ları tənqid etmişdir.

Onun uşaqlar üçün qələmə aldığı "Utancaq oğlan", "Leylək yuvası", "Dibçək", "Qızımın sualları" kimi şeirləri də yığcam, lakonik və maraqlıdır. Kiçikyaşlı oxucuların bilik səviyyəsinə, dünyagörüşünə, maraq dairəsinə çox uyğun olan bu şeirlərdə verilən suallarda uşaq təbiətinin sadəliyi, cavablarda isə şair müdrikliyinin çalarları görünür.

Şairin yaradıcılığında ilhamla qələmə aldığı poemalar da xüsusi yer tutur. "Meşədə qalan nəğmə", "Üç qız", "Fırtına gözəlliyi", "Sədaqətli günlər" adlı poemalarda müəllifin duyğu və düşüncələri oxucuda olduqca xoş ovqat yaradır.

Tofiq Mahmud bədii tərcümə ilə də məşğul olmuşdur. Onun tərcüməsində Xuta Berulavanın "Quş südü", İsabəy İshaqovun "Hər şeyi öyrənmək istəyən" kitabları indi də oxunur. Şairin öz əsərləri də xarici ölkə xalqları dillərinə tərcümə olunmuşdur.

1984-cü ildə Azərbaycan Komsomolu mükafatı laureatı adına layiq görülmüş, Azərbaycan Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir.

Görkəmli şair Tofiq Mahmud 4 aprel 1997-ci ildə Bakıda vəfat etmişdir. Şairin adına "Tofiq Mahmud mükafatı" (hər il ən yaxşı uşaq şeirlərinin müəlliflərinə təqdim olunur) təsis edilmişdir.

Ədəbiyyat

Seçilmiş əsərləri: 3 cilddə /T.Mehdiyev; tərt. Y.Əsgərova; red. R.Yusifoğlu.- Bakı: Tuna, 2013.- C.1.- 712 s.

Gecə qapı döyülür: povestlər, hekayələr, nağıllar, əfsanələr /T.Mahmud.- Bakı: Yazıçı, 1988.- 366 s.

Xeyirxah adam: Nağıllar /T.Mahmud; tərt. ed. və red. R.Yusifoğlu; rəs. İ.Tofiqoğlu.-Bakı: Azərbaycan, 2001.- 45 s.- "Göyərçin"in kitabxanası.

Məhəbbətim sirr deyil: şeirlər və poemalar /T.Mahmud.- Bakı: Yazıçı, 1981.- 215 s.

Uzaqda ucalan dağlar: Povest və hekayələr /T.Mahmud.- Bakı: Yazıçı, 1991.- 312 s.

Xəlilzadə, F. İşıqlı, nəğməli, yağışlı dünya: Tofiq Mahmud-80 /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 11 noyabr.- S. 7.

Xəlilzadə, F. Uşaq ədəbiyyatının inciləri /F.Xəlilzadə //Azərbaycan.- 2013.- 31 may.- S.12.

95 illiyi

Balaş Azəroğlu 1921-2011

Şair

Balaş Allahbaxış oğlu Abizadə (Balaş Azəroğlu) 1921-ci il noyabr ayının 11-də Bakı şəhərində anadan olmuşdur. Orta təhsilini də burada almışdır. 1938-ci ildə ailəsi ilə birgə Cənubi Azərbaycanın Ərdəbil şəhərinə köçmüşdür. 1941-ci ildə İranda Milli azadlıq hərəkatına qoşulmuş, 1942-ci ildə İran Xalq Partiyasına daxil olmuşdur. 1943-cü ildə "Ziddi faşist" təşkilatı Ərdəbil Komitəsinə sədr seçilmişdir. 1946-cı ildə Təbrizdə Milli Hökumət tərəfindən Azərbaycan Dövlət Radio Verilişləri Komitəsinin sədr müavini təyin olunmuş, həmçinin İran Azərbaycanı Milli Məclisinin deputatı seçilmişdir. 1947-1952-ci illərdə Bakıda ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almış, eyni zamanda, Cənubi Azərbaycan Yazıçılar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. 1954-1955-ci illərdə Azərbaycan Demokrat Firqəsinin Mərkəzi Komitəsinin mətbu orqanı olan "Azərbaycan" qəzetinin redaktoru, 1959-1964-cü illərdə ADF MK-nın sədr müavini olmuşdur.

"Dnepr" adlı ilk şeiri 1937-ci ildə Bakıda çapdan çıxmış, ilk şeir kitabları isə 1943-1945-ci illərdə Ərdəbildə və Təbrizdə nəşr olunmuşdur. "Vətən yolunda" qəzeti redaksiyasının müsabiqəsində "Səttarxan" şeirinə görə mükafata layiq görülmüşdür.

1966-cı ildə filologiya elmləri namizədi elmi adını almış, 1963-1982-ci illərdə Azərbaycan EA Ədəbiyyat İnstitutunun Orta əsrlər ədəbiyyatı şöbəsində baş elmi işçi işləmişdir. 1981-1991-ci illərdə Azərbaycan Yazıçılar İttifaqının katibi vəzifəsində çalışmışdır. 1991-ci ildə Azərbaycan Yazıçılar Birliyinin İdarə Heyətinin Cənubi Azərbaycan ədəbiyyatı üzrə baş müşaviri təyin olunmuşdur. Azərbaycan Yazıçılar Birliyi Ağsaqqalar Şurasının üzvü seçilmişdir.

Şairin qırxdan çox kitabda toplanmış ("Mübarizə yollarında" (1950), "Mənim nəğmələrim"(1952), "Səhər şəfəqləri" (1953), "Elə oğul istəyir vətən..." (1964), "İllərdən illərə" (1971), "Sinəm Savalan dağıdır" (1984), "Seçilmiş əsərləri" (1991) və s.) və müxtəlif janrlarda qələmə alınmış əsərlərinin əsas leytmotivini Vətənə bağlılıq, milli oyanış və azadlıq uğrunda mübarizənin tərənnümü təşkil edir. Çoxcildlik "Azərbaycan ədəbiyyatı"nın müəlliflərindən biridir. Farscadan Nizaminin "Yeddi gözəl" poemasını, Füzulinin qəzəllərini, Şəhriyarın şeirlərini tərcümə etmişdir. Əsərləri SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur. Ədəbi və ictimai fəaliyyətinə görə "Şərəf nişanı", "Xalqlar dostluğu" ordenləri ilə "21 Azər", "Firdovsi" və digər medallarla, iki dəfə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanı ilə təltif edilmişdir. 1981-ci ildə "Azərbaycanın Xalq şairi" fəxri adı verilmişdir. Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü idi.

Balaş Azəroğlu 2011-ci ildə Bakıda vəfat etmişdir.

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: Şeirlər. Poemalar /B.Azəroğlu.- Bakı: Öndər, 2004.- 288 s.- (Müasir Azərbaycan ədəbiyyatı).

Xatirələrim /Balaş Azəroğlu; Nəşrə hazırlayanı və elmi red.V.Sultanlı.- Bakı Nurlan 2008.-224 s.

Lirika: poeziya /B.Azəroğlu; tərt. ed. B.Bərdəli.- Bakı: Şirvannəşr, 2004.- 96 s.

Ömür bizə bir nemətdir / Balaş Azəroğlu; red: Səid Bəxtçu.-Bakı, 2003.- 148 s.

Bərdəli, B. Balaş Azəroğlunun yaradıcılıq yolu /B.Bərdəli; elmi red. S.Əmirov.- Bakı: Nurlan, 2007.-175 s.

Xalq şairi Balaş Azəroğlu son mənzilə yola salınmışdır //Azərbaycan.-2011.- 26 aprel.- S. 6.

İsmayıl. Vətənpərvər qələm sahibi:Balaş Azəroğlu imzası həmişə azərbaycançılıq ideyasının təbliğinə işıq tutub İsmayıl//Şərq.- 2014.- 19 iyul.- S.11.

80 illiyi

Aqşin Babayev
1936

Yazıçı-dramaturq

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /Babayev A.Ə. I cild.- Bakı: Səda, 2005.-C.1.- 316 s.

Bir içim su istədim...: Şeirlər /A.Baba(Babayev Aqşin).-Bakı:Qapp-Poiliqraf, 2002.-192 s. portr. 17 sm.

Səhnə. Ekran. Efir /A.Babayev.-Bakı: Borçalı, 2008.-436 s.

Abasova S. Aqşin Babayev-həyatı, yaradıcılığı: [monoqrafiya] /S.Abasova.-Bakı: Elm və təhsil, 2011.- 221, [1] s.

Aqşin Babayev - 75 / Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi; red. G. Babayev.-Bakı, 2011.- 321, [3] s.

Aqşin Babayev: Soraq kitabçası Elmi red.: V. Məmmədəliyev; Tərt və red: Ceyhun Quliyev; Naşiri: M. Borçalı.- Bakı:Borçalı, 2004.- 152 s.

İ n t e r n e t d ə

www.anl.az

Aqşin Əlisəttar oğlu Babayev 1936-cı il noyabr ayının 23-də anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra 1954-1959-cu illərdə ADU-nun (indiki BDU) filologiya fakültəsində təhsil almışdır.

Ədəbi yaradıcılığa 1958-ci ildə "Oktyabr işıqları" almanaxında çap olunmuş "Azadlıq uğrunda" hekayəsi ilə başlamışdır. 1958-1959-cü illərdə "Avtomobil nəqliyyatçısı" qəzetində korrektor işləmişdir. 1961-1965-ci illərdə ADU-nun Şərqşünaslıq fakültəsində Türk ədəbiyyatı üzrə qiyabi aspirantura-nı bitirmişdir. "Nazim Hikmətin dramaturgiyası" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmişdir. 1959-1972-ci illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor, baş redaktorun müavini, baş redaktor olmuşdur. 1961-ci ildən Azərbaycan Jurnalistlər Birliyinin üzvüdür.

1964-cü ildə onun "Cazibəli üfüqlər" adlı ilk hekayələr kitabı çapdan çıxmışdır. "Həmişəbahar", "Bir parça həyat", "Ağ ulduzlar", "Bir ürəyin hərarəti", "Ayrılıq", "Söz gülləsi", "Dünyanın axırı", "Qələm və mikrofon", "Bir içim su istədim" adlı kitabların müəllifidir.

1972-1975-ci illərdə Türkiyənin İskəndərun şəhərində tərcüməçilik fəaliyyəti ilə məşğul olmuşdur. 1975-1990-cı illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Şirkətində sədr müavini işləmişdir. 1996-cı ildən filologiya elmləri doktoru, 1998-ci ildən professordur. Onun "Yaralar", "Cəza", "Tufan", "Düşmən", "Bir parça həyat" əsərləri tamaşaya qoyulmuşdur. 1986-cı ildə "Kişilər az yaşadı" povest və hekayələr toplusu Moskvada rus dilində, "Nazim Hikmət və yaşamı" əsəri 1989-cu ildə kütləvi tirajla nəşr olunmuşdur.

1969-1979-cu illərdə 10 il ingilis, fransız, ərəb və ispan dillərində çap olunan "Moskow news" ("Moskva xəbərləri") qəzetinin Azərbaycan üzrə xüsusi müxbiri olmuşdur. 1991-2006-cı illərdə Azərbaycan Respublikası Milli Məclisinin Mətbuat xidməti şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

O, 1978-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1987-ci ildən Azərbaycanın Əməkdar Jurnalistidir.

Xidmətlərinə görə 1970-ci ildə "Əmək rəşadətinə görə" medalı, 1980-ci ildə "SSRİ televiziya və radio əlaçısı" nişanı, 1986-cı ildə "Əmək Veteranı" medalı, Azərbaycan SSR Ali Sovetinin Fəxri fərmanı ilə təltif edilmiş, 1993-cü ildə "Qızıl qələm" və 1994-cü ildə "Həsən bəy Zərdabi", eləcədə "Yusif Məmmədəliyev", "Ustad sənətkar", "Nurlu qələm ustası" ali ədəbi mükafatı laureatı olmuşdur.

2004-cü ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə II dərəcəli Dövlət müşaviri rütbəsinə layiq görülmüşdür.

195 illiyi Fyodor Dostoyevski 1821-1881

Rus yazıçısı

Ə d ə b i y y a t

Seçilmiş əsərləri: 3 cilddə/ F.M. Dostoyevski; tərc. ed. H. Şərif ; red. Ə. Nəsirli ; bədii tərt. və dizayn müəl. T. Qorçu.- Bakı Şərq-Qərb 2009-2011.

Cinayət və cəza : [roman] /F. M. Dostoyevski; tərc ed. B. Musayev.- Bakı: [Qanun], [Əli və Nino], 2011.- 591 s.

Qumarbaz /F. Dostoyevski; tərc. N. Əbdülrəhmanlı.-Bakı, 2013.- 182 s. portr. 20 sm.

Baxtin, M. Dostoyevski poetikasının problemləri /M.Baxtin.- Bakı: "Kitab aləmi" NPM, 2005.- 381 s. Rus dilində

Umudova K. Oxumalı olduğumuz kitab: "Dostoyevski ətrafında düşüncələr"/K. Umudova //525-ci qəzet.- 2014.- 30 yanvar.- S.7.

Философия и религия Ф. М. Достоевского / Преподобный Иустин (Попович).-Минск Издво Дмитрия Харченко, 2014.- 439 с.

Fyodor Mixayloviç Dostoyevski 1821-ci il noyabr ayının 11-də (bəzi mənbələrdə 30 oktyabr) Moskva şəhərində anadan olmuşdur. 1837-ci ildə, anasının ölümündən sonra Sankt-Peterburqa köçmüş və orada hərbi mühəndislik məktəbində təhsil almışdır. Mühəndislik departamentində çertyojçu işləmiş, lakin bir il sonra 1844-cü ildə istefaya çıxmışdır.

1846-cı ildə ilk romanı "Yoxsul insanlar"ın çap olunması ilə, gənc yazarlar arasında ən böyük gələcək vəd edən yazıçı kimi şöhrət qazanmış, N.V.Qoqol ədəbi məktəbinin davamçısı kimi tanınmışdır. 1845-ci ildə Belinski dərnəyinin, 1846-cı ildə Petraşevski dərnəyinin, bir qədər sonra Beketov qardaşlarının ədəbi-fəlsəfi dərnəyinin üzvü və fəallarından olmuşdur. XIX əsrin 40-cı illərində "Oxşar", "Bəyaz gecələr" adlı əsərlərini yazmışdır.

Lakin tədricən dərnək pərdəsi altında inqilabi fəaliyyətə başlayan ziyalılar və bir sıra digər dərnək üzvləri 1849-cu il aprel ayının 23-də "Petraşevskiçilər" kimi hökumətə və çara qarşı inqilabda günakar bilinərək həbs edilmiş və ölüm cəzasına məhkum edilmişlər. Lakin çar güllələnmə ərəfəsində edamı Sibirə sürgünlə əvəz etmişdir. Yaşanmış iztirablar Dostoyevskinin dünyagörüşünü büsbütün dəyişdirmişdir. 10 ildən sonra Peterburqa qayıtmağa icazə verilmiş Dostoyevski ədəbi yaradıcılığını davam etdirmiş, 1859-cu ildə "Dayının yuxusu", "Stepançikova kəndi və onun sakinləri" povestlərini, "Alçaldılmış və təhqir edilmiş insanlar" (1861) romanını yazmışdır.

1859-cu ildə qardaşı Mixail və dostu N.Straxov ilə birlikdə "Vremya" və "Epoxa" adlı jurnalları nəşr etdirmişdir. 1861-1862-ci illərdə sürgün həyatından bəhs edən "Ölü evdən qeydlər" əsərini, 1864-cü ildə "Yer altından məktublar" adlı romanını nəşr etdirmişdir. 1863-cü ildə Avropaya səfər etmiş, XIX əsrin 60-70-ci illərində dünya şöhrətli "Cinayət və cəza", "Qumarbaz" (1866), "İdiot" (1868), "Şeytanlar" (1871-1872), "Yeniyetmə" (1875) və "Karamazov qardaşları" adlı romanlarını nəşr etdirmişdir. Bu əsərlərdə yazıçının fəlsəfi, ictimai və əxlaqi axtarışları, Rusiyada və Qərbi Avropada ictimai münasibətlərin dərin təbəddülata uğradığı dövrün ziddiyyətləri əksini tapmışdır. "Bir böyük günahkarın həyatı" adlı əsəri isə yarımçıq qalmışdır. Əsərləri dünya xalqlarının dillərinə tərcümə olunmuşdur.

Böyük rus yazıçısı Fyodor Mixayloviç Dostoyevski 1881-ci il yanvar ayının 28-də vəfat etmiş, doğma şəhəri Sankt-Peterburqda dəfn edilmişdir. Yazıçının xatirəsinə ucaldılmış abidələr, xatirə lövhəsi, büstü, barelyefi, Sankt-Peterburqda adını daşıyan metro stansiyası açılmış, küçə, ev-muzeyi yaradılmış, müxtəlif illərdə poçt markaları hazırlanmışdır.

90 illiyi

Davud Kazımov 1926-2015

Rəssam

Davud Mehti oğlu Kazımov 1926-cı il noyabr ayının 9-da Bakı şəhərində anadan olmuşdur. İlk ixtisas təhsilini 1941-1945-ci illərdə Ə.Əzimzadə adına Bakı Rəssamlıq Məktəbində almış, 1979-cu ildə isə M.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunun (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) teatrşünaslıq fakültəsini bitirmişdir. 1947-ci ildən 1966-cı ilədək Bakı Rəssamlıq Məktəbində pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1946-cı ildən Azərbaycan Rəssamlar İttifaqının üzvü idi. 1984-2001-ci illərdə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində müəllim işləmiş, 1994-cü ildən həmin universitetin dosenti, 1996-cı ildən isə professoru olmuşdur. 2001-ci ildən isə Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının Akademik rəngkarlıq kafedrasının professoru idi.

Sərbəst yaradıcılıq fəaliyyətinə II Dünya müharibəsindən sonrakı dövrdə başlamışdır. İlk dəfə ictimaiyyətin diqqətini ordudan tərxis olunmuş əsgərin qarşılanma mərasimini əks etdirən "Əsgərin qarşılanması" adlı əsəri ilə özünə cəlb etmişdir. Daha sonra "Konsert-tapmaca" (1953), "Çimərlikdə" (1954), "Uşaq konsultasiyası" (1955) kimi əsərlərində uşaqlara aid olan məsələ və mövzulara toxunan rəssam kimi çıxış etmişdir. "Xəzərin təkində", "Sağıcılar", "Yollar" və s. kimi rəsmlərində rəssamın öz təbiətinə xas səmimiyyəti, insanlara məhəbbəti rənglərin dili ilə inandırıcı təsir bağışlayır.

Azərbaycan təsviri sənətində istedadlı qrafika ustası kimi də tanınmış, kitab illüstrasiyası sahəsində daha çox çalışmışdır. Onun illüstrasiyaları arasında Cəlil Məmmədquluzadənin, Cəfər Cabbarlının hekayələrinə, Mirzə Əli Möcüzün şeirlərinə çəkilmiş rəsmləri ayrıca qeyd olunmalıdır.

Dəniz neftçilərinin romantik həyatı, fədakar əməyi rəssamın sevimli mövzularından idi. Bir çox xarici ölkələrdə yaradıcılıq ezamiyyələrində olmuş, 1979-cu idə Bolqarıstan, 1980-ci ilin sonunda İspaniya səfərlərinin nəticəsi olaraq yaradıcılığında xüsusi yer tutan "Bolqarıstan silsiləsi" və "İspaniya silsiləsi"nə daxil olan əsərlərini yaratmışdır. Sənətkarın əsərləri Azərbaycan Milli İncəsənət Muzeyi, Azərbaycan Dövlət Rəsm Qalereyası, Azərbaycan Rəssamlar İttifaqının bədii fondu, Rusiya, Türkiyə, İran, Macarıstan, Almaniya və digər ölkələrdəki şəxsi kolleksiyalarda saxlanılır.

Davud Kazımovun yaradıcılığı hər zaman sənətsevərlərin diqqət mərkəzində olmuş və dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. 1978-ci ildə "Azərbaycan Respublikasının Əməkdar rəssamı", 1992-ci ildə isə "Xalq rəssamı" fəxri adlarına layiq görülməsi, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olması onun sənətinə, şəxsiyyətinə diqqət və ehtiramın parlaq ifadəsidir.

Azərbaycanın Xalq rəssamı Davud Kazımov 2015-ci il fevral ayının 14-də vəfat etmişdir.

Ədəbiyyat

Əliyev, Z. Azərbaycanın Xalq rəssamı Davud Kazımov 85 [İzomaterial] /Z.Əliyev.- Bakı: Təhsil, 2012.- 215 s.

Xalq rəssamı Davud Kazımov vəfat edib //Mədəniyyət.-2015.- 18 fevral.- S.4.

Yusufov, B. Xalq rəssamı Davud Kazımovun yaradıcılıq yolu /B.Yusufov //Təsviri və dekorativ-tətbiqi sənət məsələləri.- 2014.- №2 (14).- S.6-10.

Zəminə. Davud Kazımovun fərdi sərgisi açıldı: Onun "səyahət coğrafiyası" genişdir /Zəminə //Ayna.- 2012.- 22 sentyabr.- S.20.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

110 illiyi Lətif Kərimov 1906-1991

Rəssam



Lətif Hüseyn oğlu Kərimov 1906-cı il noyabr ayının 17-də Şuşa şəhərində anadan olmuşdur. 1912-ci ildə 6 yaşında olarkən valideynləri ilə birlikdə ailə vəziyyəti ilə əlaqədar olaraq İranın Məşhəd şəhərinə köçməyə məcbur olmuşdur. 1922-ci ildə məktəbi bitirdikdən sonra, Mirzə Ələkbər Hüseynzadənin xalça emalatxanasında əvvəlcə köməkçi, sonra təlimatçı, daha sonra xalça eskizləri üzərində işləyən rəssam kimi püxtələşmişdir.

1929-cu ildə öz doğma diyarına - Şuşaya qayıtmış, bir il sonra "Azərxalça" birliyində əvvəl Şuşaya, Tiflisə və nəhayət 1932-ci ildə Bakıya rəssam-təlimatçı təyin edilmişdir. 1945-ci ildən Azərbaycan Respublikası Elmlər Akademiyası (indiki AMEA) Memarlıq və İncəsənət İnstitutunun xalça sənəti şöbəsinin dəyişməz müdiri və eyni zamanda Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetində pedaqoq kimi fəaliyyət göstərmişdir.

Onun milli ənənələrlə aşılanmış əsərləri kompozisiya bütövlüyü, təsvir vasitələrinin rəngarəngliyi və yeniliyi ilə fərqlənmişdir. Sənətkarın "Əfşan", "Əcəmi Naxçıvani", "Xətai", "Ağaclı", "Bəndi-rumi", "Firdovsi", "Şəbi-hicran", "Əsrlərin nəğməsi", "Zərxara", "Nəsimi" və s. xalçaları müasir Azərbaycan xalçaçılığının inkişafında mühüm mərhələ sayılır.

L.Kərimov Azərbaycan mədəniyyətini dünyanın bir çox ölkələrində ləyaqətlə təmsil etmişdir. 1937-ci ildə öz əsərləri ilə Ümumdünya Paris sərgisində, 1938-ci ildə Nyu-York sərgisində iştirak etmişdir. Rəssamın fərdi sərgiləri 1954-cü ildə Moskvada, 1976-cı ildə Bakıda, 1978-ci ildə Tiflisdə, 1986-cı ildə Londonda böyük müvəffəqiyyətlə keçirilmişdir.

Lətif Kərimov təkcə xalçaçılıq sahəsində deyil, dekorativ tətbiqi sənətin başqa sahələrində də fəaliyyət göstərmişdir. Azərbaycan xalçaçılığının müxtəlif növlərinə aid kompozisiya və naxışları toplamış və beləliklə Quba, Şirvan, Bakı, Qazax, Gəncə, Qarabağ, Təbriz və Borçalı xalça qruplarına daxil olan 150-dən artıq xovlu və xovsuz xalça məmulatı çeşidlərini yığıb, onların rəngli reproduksiyasını hazırlamışdır. Lətif Kərimov tanınmış rəssamlarımız K.Kazımzadə, İ.Axundov və başqaları ilə birlikdə 1940-1941-ci illərdə dahi Azərbaycan şairi Nizami Gəncəvinin yubileyinə həsr edilmiş beş xalça hazırlamışdır. 1947-ci ildə Lətif Kərimovun eskizi ilə "Moskvanın 800 illiyinə" xalçası toxunmuşdur.

1950-ci ildə böyük elmi əhəmiyyəti olan "Azərbaycan xalçalarında ornament" kitabına görə Lətif Kərimova Sankt-Peterburq şəhərində sənətşünaslıq namizədi alimlik dərəcəsi verilmişdir. 1967-ci ildə Bakıda Lətif Kərimovun təşəbbüsü ilə yaradılmış dövlət xalça və xalq tətbiqi sənəti muzeyinə onun adı verilmişdir.

1949-cu ildə Stalin mükafatı laureatı adına layiq görülmüş, "Xalqlar Dostluğu" ordeni ilə təltif olunmuşdur.

Azərbaycan xalça sənətinin yorulmaz təbliğatçısı, rəssam Lətif Kərimov 1991-ci il sentyabr ayının 9-da, Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Azərbaycan xəlçəsı: 3 cilddə /AzSSR EA Memarlıq İncəsənət İn-tu; Lətif.- Bakı; Leninqrad [s.n.] 1961.-1983.

Azərbaycan xalçası:fotoalbom /tərtibçi və ön sözün müəllifi: L.Kərimov; elmi red.: M.Nəcəfov; Rəssamı: N.Babayev, Y.Salnikov.-Bakı: Yazıçı, 1985.- 236 s.

Azərbaycan xalçalarının naxış elementlərindən nümunələr /L.Kərimov.- Bakı, 1983.-130 s.

Əliyeva K. Lətif Kərimov: həyat və yaradıcılığı /K. Əliyeva, E. İbrahimov.-Bakı: Aspoliqraf, 2007.- 248 s.

Lətif Kərimov.1906-1991: [İzomaterial] /xalça sənəti lay. rəhb. Ç.Fərzəliyev; .-Bakı: Şərq-Qərb, 2013.- 104 s.

Şəymən. Lətif Kərimov-Azərbaycan xalçasını dünyaya tanıdan sənətkar / Şəymən //Şərq.- 2014.- 15 yanvar.- S.11.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

70 illiyi

Fərhad Xəlilov
1946

Rəssam

Fərhad Qurban oğlu Xəlilov 1946-cı il noyabr ayının 26-da anadan olmuşdur. 1961-1966-cı illərdə Əzim Əzimzadə adına Rəssamlıq məktəbində təhsil almışdır. 1966-cı ildə Moskvada Ali Rəssamlıq-sənaye Texnikumunda (keçmiş S.Q.Stroqanov Rəssamlıq məktəbi) oxumuş və 1969-1975-ci illərdə Moskvada Poliqrafiya İnstitutunda təhsilini davam etdirmişdir. Moskva mühiti rəssamın yaradıcılığına müsbət təsir göstərmiş, T. Nazarenko, N.Nesterova, A.Sitnikov kimi gənc və istedadlı rəssamların, S.Yamşikov, Y.Kolpinski kimi sənətşünasların əhatəsində olmuşdur.

Hələ yaradıcılığa başladığı ilk illərdən novatorluğa meyil göstərən rəssam bütün yaradıcılığı boyu öz ideyalarına sadiq qalmışdır. F.Xəlilovun yaradıcılığında rus və Avropa rəssamlıq ənənələri Şərq mədəniyyəti ilə vəhdət təşkil edir. Əsərlərində Abşeron motivləri əhəmiyyətli yer tutur. Çimərliklər, dəniz və Abşeron görüntüləri, həmçinin Abşeron yarımadasının yaşayış məntəqələri - Nardaran, Buzovna, Zağulba, Maştağa, Mərdəkan və başqaları buna misal ola bilər. Onun əsərləri üçün rənglərin və fəzanın real vəhdəti xarakterikdir. Təsvirləri mücərrəd minimalizmə yaxındır və əsasən cənub təbiətindən gələn təəssüratların obrazlı şəkildə ifadəsi əks olunur.

1987-ci ildən Azərbaycanın Rəssamlar İttifaqının sədridir.

Əsərləri dəfələrlə keçmiş SSRİ-də, Avropada, dünyanın müxtəlif qalereya və sərgilərində nümayiş etdirilmişdir. 2008-ci ildə Moskvada - Dövlət Tretyakov Qalereyasında Fərhad Xəlilovun fərdi sərgisinin açılışı ilə əlaqədar təntənəli mərasim keçirilmiş, yaradıcılığının 30 ildən artıq dövrünü əhatə edən retrospektiv sərgidə 80-nə yaxın rəsm əsəri nümayiş etdirilmişdir. Bunlardan silsilə olaraq "Görüş" (1983-2007), "Xatirə" (2003-2006), "Torpaq naxışları" (1999-2006), "1984-cü ilin baharı" (1984), "Axşamın gec saatları" ("Поздние вечера" (1984)) və müxtəlif illərin ayrı-ayrı əsərlərini qeyd etmək olar.

2008-ci ildə Rusiya Bədaye Akademiyasının həqiqi üzvü seçilmişdir.

2012-ci ildə Moskvada Mərkəzi Rəssamlar Evində növbəti fərdi sərgisi açılmış və 20-dən artıq işi təqdim edilmişdir. F.Xəlilov Rusiya Rəssamlıq Akademiyasının qızıl medalı ilə mükafatlandırılmışdır.

Fərhad Xəlilov 2002-ci ildə "Azərbaycanın Xalq rəssamı" fəxri adına layiq görülmüş, Azərbaycan incəsənətinin inkişafındakı xidmətlərinə görə "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 13 aprel 2009-cu il tarixli Sərəncamı ilə fərdi Prezident təqaüdçüsüdür.

Ədəbiyyat

"Rəssam əsərlərinin satılması üçün bir siyasət qurmalıdır": Azərbaycan Rəssamlar İttifaqının sədri Fərhad Xəlilovun APA-ya müsahibəsi //Xalq Cəbhəsi.- 2013.- 9 fevral.- S.15.

Hacızadə, A. Azərbaycanın Xalq rəssamı Fərhad Xəlilov Rusiya Rəssamlıq Akademiyasının qızıl medalına layiq görülmüşdür /A.Hacızadə //Azərbaycan.-2012.- 31 mart.- S. 11.

Фархад Халилов, председатель Союза художников Азербайджана: "Ничто не может заменить мне мою мастерскую": Интервью с Ф. Халиловым /Ф.Халилов //Азербайджанские известия.- 2014.- 10 сентября.- С.1.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

115 illiyi

Mərziyə Davudova 1901-1962

Aktrisa

Mərziyə Yusif qızı Davudova 1901-ci il noyabr ayının 25-də (bəzi mənbələrdə 08 dekabr) Həştərxanda kəndində anadan olmuşdur. 1908-ci ildə kəndlərindəki dördillik "Darültəhsil" tatar məktəbində oxumuş, "Qaliyə" və "İqbal" rus-tatar məktəblərində təhsilini davam etdirmiş, təhsil illərində həvəskarların hazırladıqları tamaşalarda oynamışdır.

İlk dəfə 1917-ci ildə, 16 yaşında olarkən Həştərxanda "İqbal" məktəbində "Birinci teatr" adlı ikipərdəli tamaşada Əfifə rolunu ifa etmişdir. 1920-ci ildə Bakıya gələn və taleyini əbədi olaraq teatra bağlayan Mərziyə Davudova Azərbaycan mədəniyyətinin, xüsusilə də teatr sənətinin inkişafında misilsiz xidmətlər göstərmişdir.

XX əsrin 20-ci illərindən sonra Azərbaycan səhnəsində Fatma Muxtarova, Şövkət Məmmədova, Həqiqət Rzayeva, Sürəyya Qacar, Münəvvər Kələntərli kimi aktrisaların sırasında Mərziyə xanım da özünəməxsus yer tuturdu. Üzeyir Hacıbəylinin "Arşın mal alan" musiqili komediyasında əvvəlcə Gülçöhrə, sonra isə Cahan xala, Cəfər Cabbarlının pyeslərində Gültəkin (Aydın), Firəngiz (Oqtay Eloğlu), Solmaz (Od gəlini), Gülüş və Sevil (Sevil), Yaxşı və Almaz (Almaz), Gülnisə (Solğun çiçəklər), Gülsabah və Turac (Dönüş), Nabat və Sona (1905-ci ildə), M.İbrahimovun "Həyat" dramında Həyat, İ.Rüstəmbəyovun "Dövləti-bisəmər" əsərində Nisə, S.Rüstəmin "Qaçaq Nəbi" dramında Həcər, H.Mehdinin "Nizami" dramında Məhsəti, R.Rzanın "Vəfa" əsərində Ülkər, Ə.Məmmədxanlının "Şərqin səhəri" əsərində Gülzar, C.Məcnunbəyovun "Yanar dərə" əsərində Hicran rollarında çıxış etmişdir. H.Cavidin "İblis" əsərinin tamaşasında Abbas Mirzə Şərifzadə ilə tərəf müqabili olması onun səhnə yaradıcılığında yeni səhifələr açmışdır. Qısa müddətdə mürəkkəb, ziddiyyətli müxtəlif qadın obrazlarının, xüsusilə də qüdrətli xarakterlərin yaradıcısı kimi parlamışdır. M.Davudovanın teatra gəlişi ilə çox şey dəyişmiş, o, səhnədə yalnız Azərbaycan qadınlarının surətini deyil, Qərb teatrından gələn dezdemonalar, amalyalar, ofelyalar, violalar... kimi neçə-neçə mürəkkəb obrazlar yaratmışdır.

"Hacı Qara", "Bir ailə", "Bakının işıqları", "Bir məhəlləli iki oğlan", "Koroğlu" və digər filmlərə çəkilmişdir. Mərziyyə xanım Davudova 1956-1962-ci illərdə Azərbaycan Teatr Cəmiyyətinə (indiki Azərbaycan Teatr Xadimləri İttifaqı) rəhbərlik etmişdir.

Bir neçə çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. Yaradıcılıq nailiyyətləri yüksək qiymətləndirilərək 25 aprel 1933-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 4 aprel 1936-cı ildə "Xalq artisti", 22 iyul 1949-cu ildə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmuş, orden və medallara təltif olunmuşdur.

Mərziyə Davudova 1962-ci il yanvar ayının 6-da vəfat etmiş, Bakıda Fəxri Xiyabanda dəfn olunmuşdur. Mingəçevir Dövlət Dram Teatrı aktrisanın adını daşıyır.

Ədəbiyyat

Məmmədov, C. Mərziyə Davudova /C.Məmmədov; [red. R.Şahvələd]; Azərb. SSR, Azərb. Teatr Cəmiyyəti.-Bakı: Azərnəşr, 1949.- 33 s.

Xəlilzadə, F. Zülmətdə parlayan ulduz: Mərziyə Davudova – 110 /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 8 dekabr.- S.7.

Mükərrəmoğlu, M. Mərziyə xanımın səhnə fəaliyyəti əsl qəhrəmanlıq idi /M.Mükərrəmoğlu // Xalq qəzeti.- 2014.- 12 avqust.- S.7.

Rəhimli, İ. Mərziyə Davudova //Rəhimli İ. Azərbaycan teatr tarixi: dərslik.- Bakı, 2005.- S.149-151.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

135 illiyi Ənvər Paşa 1881-1922

Dövlət xadimi

Ənvər Hacı Ahmet oğlu (İsmail Enver) 1881-ci il noyabr ayının 23-də İstanbulda anadan olmuşdur. Hərbi akademiyada təhsil almış, 1904-cü ildə kapitan, 1907-ci ildə mayor, 1914-cü ildə - 34 yaşında ikən polkovnik və bir qədər sonra general-mayor, 1916-cı ildə isə general-leytenant rütbəsi almışdır. 1914-cü ildə Osmanlı ordusunun Baş qərargah rəisi, 1916-cı ildə Osmanlı sultanının xüsusi yaveri, 1917-ci ildə hərbi nazir və baş komandanın müavini təyin edilmişdir. "İttihad və tərəqqi" partiyasının liderlərindən biri, türk xalqlarının mənəvi-siyasi birliyi ideyasının - turançılığın fəal tərəfdarlarından olmuşdur. Rusiyanın türk-müsəlman xalqlarının, o cümlədən, Azərbaycan xalqının həyatında baş verən ictimai-siyasi prosesləri yaxından izləmiş, Qafqaz İslam Ordusunun yaradılması ilə Azərbaycan və Dağıstandakı milli azadlıq hərəkatını dəstəkləməyə müvəffəq olmuşdur. Ənvər paşa Qafqaz İslam Ordusu adı altında Azərbaycan türklərinə hərbi yardım göstərmək qərarına gəlmiş və ordunun komandanı vəzifəsini qardaşı Nuru paşaya etibar etmişdir. 1918-ci il iyunun 4-də Batumda Azərbaycan Xalq Cümhuriyyəti ilə Osmanlı dövləti arasında imzalanan müqavilədən sonra Ənvər paşa Azərbaycana hərbi qüvvələr göndərilməsinə dair göstəriş vermişdir. Osmanlı dövlətinin müttəfiqi olan Almaniyanın təzyiqlərinə və etirazına baxmayaraq Ənvər paşa Bakının azad olunması əməliyyatını qələbə ilə başa çatdırmaq üçün 15-ci türk diviziyasının da Azərbaycana göndərilməsinə nail olmuşdur. Müttəfiqlər tərəfindən məğlub edilmiş Osmanlı dövləti üçün təslim aktı olan Mudros barışığı (1918) imzalanandan sonra Ənvər paşanın həyatına təhlükə yaranmış və o, 1918-ci il noyabrın 8-də hökumətin bir neçə üzvü ilə birlikdə Azərbaycana gəlmək üçün gizlicə Türkiyəni tərk etmişdir. Alman gəmisi ilə Krıma gələn Ənvər paşa Şimali Qafqazda hərbi şəraitin kəskinləşməsi üzündən Azərbaycana gələ bilməmiş və Moskvaya getmişdi. Orada "İslam ihtilal cəmiyyətləri ittihadı"nı yaratmışdır. Bu cəmiyyətin nümayəndəsi kimi Azərbaycana gəlmiş və 1920-ci il sentyabrın 1-7-də Bakıda keçirilən Şərq xalqlarının qurultayında iştirak etmişdir. Bolşevik hökuməti ilə əməkdaşlığın onun əqidəsinə zidd olduğunu anlayan Ənvər paşa 1922-ci ildə yenidən Bakıya gəlmiş və buradan Tacikistana keçmiş, sovet-bolşevik işğalçılarına qarşı azadlıq mübarizəsinə qoşulmuşdur. Göstərdiyi şücaətə görə bir sıra orden və medallarla təltif edilmişdir.

Ənvər paşa 1922-ci il avqust ayının 4-də Tacikistan ərazisində, Abi-Dərya çayı kənarında bolşevik qüvvələrinə qarşı döyüşdə şəhid olmuşdur. XX əsrin 90-cı illərində nəşi İstanbula gətirilərək torpağa tapşırılmışdır.

Ədəbiyyat

Yaver S. Enver paşanın son günleri /Suphi bey Yaver.- İstanbul, 2011.- 304 s.

Aşırlı, A.Ənvər paşa "Şərq eli"ndə /A.Aşırlı //Şərq.- 2011.- 20 dekabr.- S.4.

Əliyeva, Y. Türk dünyasının vurğunu- Ənvər paşa /Y.Əliyeva //Həftə içi.- 2011.- 15-17 yanvar.- S.5.

Ənvər Paşa //Azərbaycan Xalq Cümhuriyyəti ensiklopediyası:2 cilddə.- Bakı, 2004.- C.1.- S.393-395.

Gülayə. Ənvər Paşanın son məktubu /Gülayə // Kaspi.-2015.- 14-16 fevral.- S.24.

İnternetdə

www.adam.az

www.az.wikipedia.org

120 illiyi
Ağa Nemətulla 1896-1958
Neftçi

Ağa Nemətulla 1896-cı il noyabr ayının 15-də Cənubi Azərbaycanın Sərab şəhərində anadan olmuşdur. Uşaqlıq illəri ağır və məşəqqətli keçmiş, 4 yaşında ikən anasını itirmiş, atası ilə birgə işləmişdir. 1915-ci ildə Bakıya gəlmiş və 1932-ci ilə qədər bir sıra rayonların qazma idarələrində fəhlə, çilingər, qazmaçı köməkçisi və qazmaçı işləmişdir. 1927-ci ildən Sov. İKP üzvü olmuşdur. 1932-ci ildə qazma ustası olmuş, sonralar Putada sahə rəisi, qazma kontorunun direktoru vəzifələrində çalışmışdır. 1956-1958-ci illərdə Azərbaycan dəniz neft kəşfiyyatı trestinin 1 nömrəli Gürgan qazma kontorunda buruq ustası işləmişdir.

Hansı vəzifədə işləməsindən asılı olmayaraq görkəmli neftçinin dəmir iradəsi və özünə qarşı tələbkarlığı ona ən çətin tapşırıqların belə öhdəsindən gəlməyə imkan vermişdir. Ağa Nemətulla həmişə yeni ideyalarla və səmərəli təkliflərlə çıxış etmişdir. Hətta bu təkliflərə görə ona "SSRİ neft sənayesinin yenilikçisi" fəxri adı verilmişdir.

A.Nemətulla turbinlə mayili və iki lüləli qazmanın yaradıcısı hesab edilir. 1941-ci ildə Bibiheybətdə dünyada ilk dəfə olaraq turbinlə mayili quyu qazmışdır. Onun briqadası turbin qazmasında bir sıra yeni, səmərələşdirici təkliflər verərək həyata keçirmişdir. Bunun nəticəsində qaldırma-endirmə və təmir işlərinə sərf olunan vaxt azalmışdır.

Məşhur ustanın qabaqcıl iş təcrübəsi nəinki Azərbaycan neftçiləri arasında, habelə Dağıstan, Şimali Qafqaz, Türkmənistan, Başqırdıstan, Tatarıstan, Özbəkistan və başqa yerlərdə də tətbiq olunmuşdur. Təsadüfi deyil ki, o, 1942-1943-cü illərdə Özbəkistan SSR-də neft quyularının qazılmasında iştirak etmişdir.

Ağa Nemətulla tutduğu vəzifələrdə və gördüyü işlərdə sələflərinin yolu ilə getməyərək yeni məktəbin təməlini qoymuşdur. Bu məktəb istehsalat mədəniyyətinin yüksəldilməsinə, məhsuldarlığın artırılmasına, fəhlələrin iş şəraitinin yaxşılaşdırılmasına, onların təhlükəsizliyinə xidmət etmişdir.

A.Nemətulla sağlığında Azərbaycan neft sənayesi tarixinə iz qoymuş şəxsiyyətlərdən olmuşdur. 1937-ci ildə Naxçıvandan Azərbaycan SSRİ Ali Sovetinin (1-ci çağırış), sonrakı illərdə isə Azərbaycan SSRİ Ali Sovetinin (2-4-cü çağırış) deputatı seçilmişdir. 1947 - 1951-ci illərdə SSRİ dövlət mükafatına layiq görülmüş, 2 dəfə Lenin ordeni, 2 dəfə Stalin mükafatı, Qırmızı Əmək Bayrağı, "Şərəf nişanı" ordenləri, "Əmək şücaətinə görə" medalı, başqa ordenlər və medallarla təltif edilmişdir.

Ağa Nemətulla 1958-ci ildə yanvar ayının 1-də Bakıda vəfat etmişdir. Bakıda mərkəzi küçələrdən və Xəzər Gəmiçiliyi İdarəsinin gəmilərindən biri onun adını daşıyır.

Ədəbiyyat

Ağazadə, A. Ağa Nemətulla /A. Ağazadə; [red. M. Əziz].- Bakı: Azərnəşr, 1948.-26 s.

Ağa Nemətulla //Fəxri xiyaban: [soraq kitabı] /Heydər Əliyev Fondu.- Bakı: 2007.-S.18.

Ağa Nemətulla //Azərbaycan Sovet Ensiklopediyası: 10 cilddə.- Bakı, 1976.- C.1.- S.94

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

85 illiyi

Ələşrəf Məmmədov 1931-2003

Akademik

Ələşrəf Veysəl oğlu Məmmədov 1931-ci il noyabr ayının 1-də Qax rayonunun İlisu kəndində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1948-1953-cü illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) geoloji-coğrafiya fakültəsinin geologiya şöbəsində almışdır.

Təhsilini başa vurduqdan sonra həyatını bütünlüklə AMEA ilə bağlamışdır. Burada Geologiya İnstitutunda kiçik elmi işçi kimi əmək fəaliyyətinə başlamış, 1953-1956-cı illərdə institutun aspiranturasında oxumuş, 1956-1958-ci illərdə AMEA-nın Neft Ekspedisiyasında işçi qrupuna rəhbərlik etmiş, 1958-1970-ci illərdə Geologiya İnstitutunun tektonika laboratoriyasında baş elmi işçi vəzifəsində çalışmışdır.

1956-cı ildə namizədlik, 1970-ci ildə isə doktorluq dissertasiyası müdafiə etmiş, geologiya-mineralogiya elmləri doktoru elmi dərəcəsi almışdır.

1971-ci ildən həyatının sonunadək - fasiləsiz olaraq 30 ildən artıq bir müddət ərzində AMEA-nın Coğrafiya İnstitutunda Paleocoğrafiya şöbəsinin müdiri vəzifəsində çalışmışdır. 1989-cu ildə Azərbaycan EA-nın müxbir üzvü, 2001-ci ildə isə həqiqi üzvü seçilmişdir.

Akademik Ələşrəf Məmmədovun Kür çökəkliyinin regional geologiyası və tektonikası, stratiqrafiya, paleocoğrafiya, Azərbaycanın və Qafqazın geoloji inkişafının tarixi, neft-qazlılıq perspektivləri məsələlərinə həsr olunmuş fundamental tədqiqatları Qafqaz bölgəsinin geologiyasının öyrənilməsində mühüm rol oynamış, Azərbaycanın və bir çox xarici ölkələrin geologiya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmişdir. Alimin yaxından iştirakı ilə Azərbaycanın geoloji, tektoniki və geotektoniki xəritələri tərtib edilərək dərc olunmuşdur. Onun tərtib etdiyi xəritələr İngiltərədə nəşr olunmuş "Avrasiya şelflərinin mezo-kaynozoyda paleocoğrafiyası" atlasına daxil edilmişdir. 200-dən çox elmi əsərin, o cümlədən 12 monoqrafiyanın müəllifidir. Onun rəhbərliyi altında bir çox elmlər namizədi və doktoru hazırlanmışdır.

Alim elmi yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuşdur. 30 ildən çox BDU-nun coğrafiya fakültəsinin professoru kimi səmərəli fəaliyyət göstərmişdir.

Bir çox beynəlxalq elmi konqres, simpozium və konfransların təşkilatçısı və iştirakçısı olmuş, xarici ölkələrdə, o cümlədən Amerika Birləşmiş Ştatlarında, Rusiyada, Fransada, İranda, Türkiyədə Azərbaycan elmini həmişə yüksək səviyyədə və ləyaqətlə təmsil etmişdir.

Görkəmli alim, akademik Ələşrəf Məmmədov 2003-cü il avqust ayının 26-da vəfat etmişdir.

Ədəbiyyat

Məmmədov Ələşrəf Veysəl oğlu: biblioqrafiya /AMEA, Geologiya və Geofizika İnstitutu.- Bakı: «Nafta-Press», 2002.- 79 s. Azərbaycanın elm və mədəniyyət xadimləri.

Геологическое строение Среднекуринской впадины /А.Мамедов.- Баку: Элм, 1973.- 102 с.

Геология четвертичных отложений Азербайджана /А.Мамедов.- Баку: Элм, 1978.- 135 с.

Палеогеография и история геологического развития Среднекуринской впадины в связи с нефтегазоносности /А.Мамедов.-Баку: Элм, 1977.- 86 с.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

75 illiyi

Əflatun Kərimov 1941

Alim

Əflatun Xudkar oğlu Kərimov 1941-ci il noyabr ayının 23-də Bakı şəhərində anadan olmuşdur. 1960-1966-cı illərdə N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki Azərbaycan Tibb Universiteti) Müalicə-profilaktika fakültəsində təhsil almışdır. 1968-1971-ci illərdə Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun Döş qəfəsi cərrahiyyəsi kafedrasının aspirantı olmuş, 1971-ci ildə respublikada ilk dəfə olaraq bronxoqrafiya və bronxoskopiya - ağ ciyərlərdə müxtəlif xəstəliklərin bronxoloji müayinəsinə aid "Müxtəlif ağciyər xəstəlikləri zamanı bronxoloji tədqiqat metodları" mövzusu üzrə dissertasiyasını müdafiə etmiş, tibb elmləri namizədi alimlik dərəcəsi almışdır.

1972-1974-cü illərdə Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun klinikası Uşaq döş qəfəsi xəstəlikləri şöbəsinin müdiri, 1976-1978-ci illərdə Efiopiyada Hərbi Hospitalda Cərrahiyyə şöbəsinin müdiri vəzifəsində çalışmış və orada 1000-ə yaxın müxtəlif (travmatologiya, qarın boşluğu, döş qəfəsi, urologiya, ginekoloji xəstəliklər) cərrahiyyə əməliyyatları aparmışdır. Səmərəli fəaliyyətinə görə SSRİ-nin müvafiq səfirliyi tərəfindən Fəxri Fərmanla təltif edilmişdir.

1983-1987-ci illərdə isə Sankt-PeterburqdaHəkimləriTəkmilləşdirmə İnstitutunda doktorantura pilləsində təhsili almışdır. 1988-ci ildən Azərbaycan Dövlət Tibb İnstitutunda (indiki Azərbaycan Tibb Universiteti) Onkologiya kafedrasında çalışır. 1989-cu ildə isə SSRİ Mərkəzi Pulmonoloji İnstitutunda «Аспергиллез легких» mövzusunda doktorluq dissertasiyasını müdafiə etmiş, tibb elmləri doktoru elmi dərəcəsi almışdır. 2003-cü ildən Milli Onkoloji Mərkəzinin abdominal şöbəsinin professorudur. Dəfələrlə mühüm cərrahiyyə əməliyyatları aparmış, kütləvi informasiya vasitələrində bu fəaliyyəti geniş əks etdirilmişdir.

Görkəmli cərrah əsasən süd vəzisinin və mədə-bağırsaq xərçənginin-klinikası, diaqnostikası, cərrahi müalicəsi ilə məşğul olur. Cərrahiyyənin müxtəlif sahələrinə aid 263-dən çox elmi əsərlərin, 22 metodik tövsiyyənin, 6 səmərəşdirici təklifin, o cümlədən 1989-cu ildə «Süd vəzisində I-II dərəcəli xərçəng zamanı yeni cərrahiyyə orqansaxlayıcı üsulun» müəllifidir.

Onun rəhbərliyi altında 6 nəfər tibb üzrə fəlsəfə elmləri doktoru müdafiə etmişdir. Hazırda Onkologiya kafedrasının professoru, Respublika Ali Attestasiya Komissiyasının üzvü, Ə.Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun cərrahiyyə fakültəsinin elmi şura-

Ədəbiyyat

Xərçəng yönlü xəstəliklər hələ xərçəng deyil /Bakı şəhərinin baş onkoloqu, tibb elmləri doktoru, professor Əflatun Kərimovun tibb haqqında mülahizələri // Xalq qəzeti.-1998.-4 oktyabr.-S. 5.

Бронхологические методы исследования при различных заболеваниях легких. автореф. дис….канд. мед. наук:14777-Хирургия / А.Х.Керимов; Азерб.гос.ин-т усовершенствования врачей им. А.М.Алиева.-Б., 1971.-22,(1) с.

Микотические поражения легких: (Клинико-эксперимент. исслед) / Керимов.А.Х. Автореф.дис. д-ра мед.наук.14.00.43.-Л.,1986.-34 с.

İnternetdə

www.az.wikipedia.org

www.science.gov.az

70 illiyi

Qüdrət Kəlbəliyev
1946

Alim

Qüdrət İsfəndiyar oğlu Kəlbəliyev 1946-cı il noyabr ayının 13-də Naxçıvan Muxtar Respublikasının Babək rayonunda anadan olmuşdur. 1969-cu ildə Azərbaycan Neft və Kimya İnstitutunun (indiki Azərbaycan Neft Akademiyası) Neft mexanikası fakültəsini bitirdikdən sonra 1971-ci ilə kimi Sumqayıtda Dövlət Xlor Sənaye Layihə İnstitutunda texnik və mühəndis, 1971-1976-cı illərdə Neft-Kimya Avtomatlaşdırma və Layihələşdirmə İnstitutunda mühəndis, 1976-1988-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında M.F.Nağıyev adına Kimya Texnologiyasının Nəzəri Problemləri İnstitutunda mühəndis, kiçik və böyük elmi işçi vəzifələrində çalışmışdır. 1987-ci ildə "İstilik və kütlə mübadiləsi səthlərində çoxfazalı axımlardan bərk fazanın çökməyi ilə gedən qeyri-stasionar proseslərin modelləşdirilməsi və intensivləşdirilməsi" mövzusunda dissertasiya işi müdafiə edərək kimya elmləri doktoru alimlik dərəcəsi, 1993-cü ildə isə professor elmi adı almışdır. 1988-ci ildən həmin institutda İstilik və kütlə mübadiləsi proseslərinin nəzəriyyəsi laboratoriyasının rəhbəridir. Professor pedaqoji sahədə də fəaliyyət göstərmiş, 1999-2006-cı illərdə Türkiyə cümhuriyyətinin Malatya şəhərində İnönü Universitetində Kimya mühəndisliyi fakültəsində müəllimlik etmişdir.

Elmi tədqiqatları kimya texnologiyası proseslərinin optimallaşdırılması metodlarına həsr olunmuşdur. Professor Q.Kəlbəliyevin rəhbərliyi ə yaradılmış bərk fazanın çöküntüsü ilə əlaqələnən qeyri-stasionar çoxfazalı sistemlərdə istilik, kütlə, mübadiləsi və hidrodinamikanın kimya texnologiyasında müstəsna əhəmiyyəti vardır.

Dispers sistemlərdə hidrodinamika, kütlə və istilik mübadiləsi, kimya proseslərinin modelləşdirilməsi, intensivləşdirilməsi və yeni texnologiyaların, apparat tərtibatının işlənib hazırlanması. Suspenziyalarda və emulsiyalarda fiziki-kimya və kütlə mübadiləsi proseslərinin (koaquliyasiya, birləşmə, ayrılma və parçalanma) modelləşdirilməsi və texnoloji proseslərdə tədbiqi onun əsas elmi nailiyyətləridir.

Onun elmi tədqiqat işlərinin nəticələri 215 elmi əsərdə, bir neçə monoqrafiyada, 7 patent, bir neçə müəlliflik şəhadətnaməsində öz əksini tapmışdır. Bir sıra beynəlxalq konfrans və simpoziumlarda məruzələrlə çıxış etmişdir.

Alim Qüdrət Kəlbəliyev kadr hazırlığı ilə də məşğul olmuş, 4 fəlsəfə doktoru, 1 fəlsəfə elmləri doktorunu yetişdirmişdir.

Görkəmli kimyaçı alim 2001-ci ildən Azərbaycan Milli Elmlər Akademiyasının Kimya texnologiyasının proses və aparatları ixtisası üzrə müxbir üzvüdür.

Ədəbiyyat

Гидродинамика и массоперенос в дисперсных средах /Г.И. Келбалиев, С.Р. Расулов.- Санкт-Петербург: ХимИздат, 2014.- 567 с.

Массообмен между каплем или газовым пузырем и изотропным турбулентным потоком //Теор. осн. хим. техн.- 2012.- т.46.- №5.- С. 554-562.

The deformation and break up of drops and bubbles in the isotropic turbulent flows /G.Kelbaliyev, S.R.Rasulov, G.Z. Suleymanov //Science and Applied Engineering Quarterly.- 2014.-№ 3.-P. 44-50.

Kəlbəliyev Qüdrət İsfəndiyar oğlu //Naxçıvan ensiklopediyası/ Azərbaycan Milli Elmlər Akademiyası.- Bakı, 2002.- S.224.

İnternetdə

www.az.wikipedia.org

www.science.gov.az

110 illiyi "Füyuzat" jurnalının nəşri 1906

Ədəbiyyat

"Füyuzat" jurnalı [Mətn]: Biblioqrafiya / tərt. ed.: A. Xəlilov; elmi red.: N. Q. Cəfərov, M. M. Adilov; Azərbaycanda Atatürk Mərkəzi; AMEA Füzuli adına Əlyazmalar İnstitutu.-Bakı, 2002.-34 s.

İsrafil H. "Füyuzat" və milli dramaturgiya problemləri: [Monoqrafiya] /Hüseyn İsrafil; elmi red. Y.Qarayev.-Bakı: Elm, 2007.-156 s.

Veliyev Ş. Füyuzat edebi mektebi /Şamil Veliyev (Körpülü); elmi red.: Ə. Saraçlı.- Ankara: Ejdat yayınları, 2000.-388 s.

Əhməd D. "Füyuzat" dərgisinin manşet fotoları /D.Əhməd // Türküstan.-2012.-20-26 may.- S. 13.

Vəliyev Ş. Əli bəy Hüseynzadə və füyuzatçılıq /Ş.Vəliyev //525-ci qəzet.-2014.- 17 aprel.- S.4.

İnternetdə

www.anl.az

www.azerbaycanli.org

www.gov.az

www.mct.gov.az

"Füyuzat" jurnalının ilk sayı 1906-cı il noyabr ayının 1-də dərc olunmuşdur. Jurnal ictimai xarakter daşımış və il ərzində 32 sayı işıq üzü görmüşdür. "Füyuzat" kəlməsi mənşəcə ərəb sözu olub, mənası həyat gerçəklərini duymaq, dərk etmək, onlardan zövq almaq deməkdir.

Maarifpərvər, milyonçu-mesenat Hacı Zeynalabdin Tağıyevin maddi dəstəyi ilə çap olunan jurnalın baş redaktoru Əli bəy Hüseynzadə idi. Burada dövrünün görkəmli ziyalılarından M.Hadinin, M.Ə.Sabirin, H.Cavidin, S.Səlmasinin, A.Şaiqin, Ə.Kamalın, Ə.Raiqin və başqa müəlliflərin müxtəlif mövzulu yazıları dərc edilirdi. Jurnal Azərbaycanda neoromantizmi yaradan mətbuat orqanı kimi xarakterizə olunur.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə dövlət bayrağında üç rənglə (mavi, qırmızı, yaşıl) simvollaşan Azərbaycan vətəndaşının ideya-mənəvi dəyərləri jurnalın redaktoru Əli bəy Hüseynzadənin müvafiq tezisi və füyuzatçıların tarixi xidmətləri ilə bağlı olmuşdur.

"Füyuzat" jurnalı füyuzatçılıq jurnalistika məktəbindən əlavə, Azərbaycanda müstəqil dövlətçilik ideyasını, konstitusiyalı azad vətəndaş cəmiyyətini yaratmaqda mühüm rol oynamışdır. Çar Rusiyasının monarxizmi və müstəmləkəçilik əleyhinə mübarizə aparan füyuzatçılar başqalarının yeni cəmiyyət quruculuğu təcrübəsindən istifadə etmiş, Azərbaycanda demokratizmin qələbəsinə çalışmış, ictimai həyatda, milli ədəbiyyat və mədəniyyətdə islahatların-reformaların aparılmasını qarşılarına məqsəd qoymuşdular.

"Füyuzat" və füyuzatçıların məşğul olduğu əsas problemləri qısa şəkildə belə təsnif etmək olar: türkləşmək, islamlaşmaq, avropalaşmaq (müasirləşmək), azərbaycançılıq, demokratik axtarışlar, neoromantik ədəbiyyatın yaradılması, füyuzatçı jurnalistika məktəbinin təsisi, dildə, fikirdə, işdə birlik konsepsiyasına əsaslanan ortaq türk dili, ədəbiyyatı və mədəniyyətinin yaradılması, "İttihad və tərəqqi" ideyasını yürütmək və turançılığı təbliğ etmək, ictimai-siyasi şüurda reformaların aparılması, parlament və konstitusiya əsasında özünüidarə formasının yaradılması, yenilikçilik hərəkatını gücləndirmək, söz və mətbuat azadlığını müstəqil dövlət, sivil cəmiyyət və bütöv vətən ideyasına paralel şəkildə inkişaf etdirmək və s.

Azərbaycan oxucuları ilk dəfə Tolstoy, Höte, Russo, Monteskye kimi görkəmli simalar haqqında nisbətən ətraflı və dəqiq məlumatı bu jurnalda çap olunan məqalə və tərcümələrdən almışdılar. Ə.Hüseynzadənin hələ "Füyuzat"ın nəşrindən əvvəl təbliğ və şərh etdiyi "türklük, müsəlmanlıq və avropaçılıq" şüarı, mahiyyət etibarı ilə bu gün ictimai həyatımızda özünə yer tapan "azərbaycançılıq, müsəlmançılıq və müasirlik" doktrinasının yaranmasında mühüm rol oynamışdı. Ə.Hüseynzadənin başçılıq etdiyi "Füyuzat" jurnalı və eyni adlı ədəbi cərəyan əsrimizin əvvəllərində Azərbaycan ədəbiyyatı və mədəniyyətinin inkişafında ciddi xidmətlər göstərmişdir.

90 illiyi

Azərbaycan radiosu 1926

Azərbaycan Dövlət Radiosu 1926-cı il noyabr ayının 6-da yaradılmışdır. Həmin gün ölkə paytaxtının küçələri və meydanlarında qurulmuş reproduktorlardan ilk dəfə "Danışır Bakı!" ifadəsi ətrafa yayılmışdır. Bu, Azərbaycan xalqının siyasi və mədəni həyatında böyük bir yenilik, əlamətdar hadisə idi. Əvvəllər Bakı studiyası Azərbaycan Milli Elmlər Akademiyasının əsas binasının (keçmiş İsmailliyyə) üçüncü mərtəbəsində (indiki İstiqlaliyyət küçəsi 10) cəmi 3 otaqda fəaliyyət göstərirdi.

Proqramlar və konsertlər Azərbaycan, rus və erməni dillərində hazırlanırdı. Studiyadan əsasən partiya qəzetlərinin baş məqalələri oxunur, partiya konfransları, qurultaylar, konsert proqramları, xanəndələrin çıxışları, elanlar, ədəbiyyatımızda, incəsənətimizdə baş verən mühüm hadisələr səslənirdi.

İlk verilişlərin hazırlanmasında Azərbaycan ədəbiyyatı və incəsənətinin görkəmli xadimləri fəal iştirak etmiş, bədii və musiqili verilişlərin müəllifləri Üzeyir Hacıbəyli, Müslüm Maqomayev, Məmməd Səid Ordubadi, Cəfər Cabbarlı, Səməd Vurğun, Hüseynqulu Sarabski, Bülbül, Mustafa Mərdanov və başqaları olmuşdur.

Radionun publisistik və ədəbi dram verilişlərinin Azərbaycan dilinin saflaşmasında, qorunub inkişaf etdirilməsində böyük rolu olmuşdur. "Satira atəşilə", "Ədəbiyyatın vəzifələri", "Yeni həyat uğrunda", "Radio saatı" kimi verilişləri misal göstərmək olar.

Radionun ilk azərbaycanlı kişi diktoru İsmayıl Əlibəyov, ilk qadın diktoru isə Raya İmanzadə olmuşdur.

1928-ci il may ayının 13-də Azərbaycan Xalq Komissarları Soveti radionun Əsasnaməsini təsdiq etmişdir. 1932-ci ilin aprelində Radio yayımı orqanı Mərkəzi İcraiyyə Komitəsindən alınaraq Xalq Komissarları Sovetinin tabeliyinə verilmiş və 1933-cü il mayın 5-də Azərbaycan Xalq Komissarları Soveti yanında Radiolaşdırma və Radio Verilişləri Komitəsi yaradılmışdır. 1939-cu ilin avqustunda Radiolaşdırma və Radio Verilişləri Komitəsi Radioinformasiya Komitəsinə çevrilmiş, 1953-cü ildə Radioinformasiya Komitəsi Mədəniyyət Nazirliyinin tabeliyinə verilmiş və Mədəniyyət Nazirliyinin Radioinformasiya İdarəsi adlandırılmışdır. 1957-ci ildə Radioinformasiya İdarəsi və Bakı Televiziya Studiyası birləşdirilərək Azərbaycan SSR Nazirlər Soveti yanında Radio və Televiziya Verilişləri Komitəsi, 1970-ci ildə Dövlət Radio və Televiziya Verilişləri Komitəsi təsis edilmiş, 1991-ci ildə Dövlət Televiziya və Radio Verilişləri Komitəsi şirkətə çevrilmişdi.

2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Dövlət Televiziya və Radio Verilişləri Şirkətinin bazasında "Azərbaycan Televiziya və Radio Verilişləri" Qapalı Səhmdar Cəmiyyəti yaradılmışdı. Hal-hazırda Azərbaycan Dövlət Radiosunun 3 proqramı və 1 səsyazma evi mövcuddur. Azərbaycan Dövlət Radiosu (indiki adıyla Radio Respublika) 105 FM dalğasında yayımlanır.

Ədəbiyyat

50 il efirdə /Azərbaycan SSR Nazirlər Sovetinin Dövlət Televiziya və Radio Verilişləri Komitəsi; AzSSR Nazirlər Sovetinin Dövlət Televiziya və Radio Verilişləri Komitəsi.-Bakı, 1976.- 14, [2] s.: 20 sm.

Əlizadə Y. Azərbaycan efiri: tarix və müasirlik /Y. M. Əlizadə, Q. M. Məhərrəmli; red. Ə. Həsənov.- Bakı: Nurlan, 2006.- 184 s.

Xudiyev N. Azərbaycan radio və televiziyası bu gün /Nizami Xudiyev; elmi red.: K. Abdullayev.- Bakı: Elm, 2000.- 210 s.

Xudiyev N. Radio, televiziya və ədəbi dil /N. M. Xudiyev; elmi red.: M. Məmmədov.- Bakı: Azərbaycan, 2002.- 656 s.

Məhərrəmov, Q. Radio dalğalarında /Qulu Məhərrəmov; elmi red.: C.Həsənli, N.Əhmədli; red.: Z.Məhərrəmli.- Bakı: Azərnəşr, 1999.- 304 s.

Azərbaycan Bayrağı Günü 2009

Azərbaycan Respublikasının Dövlət Bayrağı haqqında ilk hökumət qərarı 1918-ci il iyunun 24-də verilmişdir. Həmin qərara görə Azərbaycan bayrağını qırmızı materialdan, üstündə ağ aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul etmək nəzərdə tutulmuşdu. Bu qərar qəbul edilərkən Azərbaycan hökuməti hələ Gəncə şəhərində yerləşirdi. Hökumət Bakıda yalnız 15 sentyabr - şəhər türk qoşunlarının köməyi ilə düşmən qüvvələrdən təmizləndikdən sonra fəaliyyət göstərə bilmişdi. Azərbaycan Xalq Cümhuriyyətinin Bakıda fəaliyyətə başlamasından az sonra, bayraq haqqında ikinci qərar qəbul edilmişdi.

1918-ci il noyabr ayının 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası milli bayraq haqqında qərar vermişdir. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı həmin qərarda deyilir: "Milli bayraq kimi yaşıl, qırmızı, mavi rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin".

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti süqut etdikdən və Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycanda bu bayraqdan imtina edilmişdir.

İkinci dəfə 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə bu bayraq bərpa edilmiş və Muxtar Respublikanın dövlət bayrağı kimi qəbul edilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Azərbaycan SSR Ali Soveti qarşısında üçrəngli bayrağın Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırmışdır.

1991-ci il fevral ayının 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxmış və üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar vermişdir.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan ibarətdir. Yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir.Mavi rəng - Azərbaycan xalqının türk mənşəli olmasını, qırmızı rəng - müasir cəmiyyət qurmaq, demokratiyanı inkişaf etdirmək istəyini, yaşıl rəng - islam sivilizasiyasına mənsubluğunu ifadə edir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın eninin uzunluğuna nisbəti 1:2-dir.

Azərbaycan bayrağının dalğalandığı dirək dünyada ən hündür bayraq dirəyi hesab olunur. "Ginnes"in dünya rekordları təşkilatı Azərbaycan dövlət bayrağı dirəyinin dünyada ən hündür bayraq dirəyi olduğunu təsdiq edib.

Qeyd edək ki, bayrağın çəkisi 350 kiloqramdır. İnşa olunmuş dayağın hündürlüyü isə 162, bünövrəsinin diametri 3,2, bünövrənin üst hissəsinin diametri isə 1,09 metrdir. Qurğunun ümumi çəkisi 220 tondur.

Prezident İlham Əliyev 2009-cu il 17 noyabr tarixli Sərəncamla noyabr ayının 9-nu Azərbaycanda Dövlət Bayrağı Günü elan etmiş və bu bayram ölkədə qeyri-iş günü olan bayramların siyahısına daxil edilmişdir.

Ədəbiyyat

Əhmədov, S. Azərbaycan Respublikasının Dövlət Bayrağı /S.Əhmədov, V.Məmmədov; elmi red. və ön sözün müəl. N.Vəlixanlı.- Bakı: Mega basım, 2010.- 153 s.

Cəfərov,S."Dövlət bayrağımız-milli qürurumuz" mövzusunda elmi-praktik konfrans /Ş. Cəfərov//Azərbaycan müəllimi .-2014.- 7 noyabr.- S.3.

9 Noyabr Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür : Üçrəngli bayrağımız dövlətimizin müstəqilliyinin, xalqımızın milli mənsubiyyətinin, tarixinin və mənəvi dünyasının rəmzidir //Yeni Azərbaycan .-2014.- 8 noyabr S. 2.

Quliyev, M.Üçrəngli bayrağımız qürur mənbəyimizdir/M.Quliyev//Yeni Azərbaycan .-2014.- 8 noyabr S. 10.

Turan, A. Azərbaycan bayrağında Ay-ulduz /A.Turan //Türküstan.- 2013.- 21-27 iyul.- S.9.

www.anl.az

Konstitusiya Günü 1995

Azərbaycan Respublikasının 1995-ci ildə qəbul olunmuş Konstitusiyası, müstəqil Azərbaycanın ilk Konstitusiyası idi.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti, dövlətin əsas Qanununu qəbul edə bilməmişdi. Beləliklə, Azərbaycan Respublikasının Konstitusiya quruluşunun tarixi əsasən SSRİ-nin tərkibində olduğu dövrə düşmüşdür.

Azərbaycanın birinci Konstitusiyası 1921-ci il may ayının 19-da I Ümumazərbaycan Sovetlər qurultayında qəbul edilmişdir. Azərbaycan SSR Konstitusiyasının 1921-ci il SSR Konstitusiyasına uyğunlaşdırılmış yeni redaksiyası 1925-ci il martın 14-də IV Ümumazərbaycan Sovetlər qurultayında qəbul olunmuşdur. Azərbaycan SSR-in 1978-ci il aprelin 21-də qəbul edilmiş son Konstitusiyası da əvvəlki Konstitusiyalar kimi SSRİ Konstitusiyasına uyğunlaşdırılmış şəkildə idi.

Azərbaycan müstəqillik əldə etdikdən sonra yeni Konstitusiyanın hazırlanması zərurəti yaranmış, ulu öndər Heydər Əliyev başda olmaqla xüsusi komissiya təşkil edilmiş və Konstitusiya layihəsi ümumxalq müzakirəsinə verilmişdi. 1995-ci il noyabr ayının 12-də ümumxalq referendumu ilə, müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olunmuşdur.

Müstəqil Azərbaycanın dövlət quruculuğunun əsaslarını qoymuş yeni Konstitusiya 5 bölmədən, 12 fəsildən və 158 maddədən ibarətdir.

2009-cu il martın 18-də keçirilən referendumda isə Konstitusiyaya əlavə və dəyişikliklər qəbul olunmuşdur.

Ölkəmizdə 12 noyabr Azərbaycan Respublikasının Konstitusiyası Günü kimi qeyd olunur.

Konstitusiya - dövlətin ali qanunudur, ali hüquqi qüvvəyə malikdir, dövlətin siyasi, hüquqi və iqtisadi sistemlərinin əsaslarını təsbit edir.

Konstitusiyanın yaranma tarixinə nəzər salsaq görərik ki, dünyada Konstitusiya ilk dəfə 1215-ci ildə İngiltərədə təsbit olunmuş, ölkədə qəbul olunan Azadlıqların Böyük Toplusu ilk konstitusiya aktı sayılmışdır. İlk yazılı ali qanun isə ABŞ Konstitusiyasıdır.

"Azərbaycanın hər bir vətəndaşı, onun ərazisində fəaliyyət göstərən hər bir ictimai-siyasi qurum özünün dövlət və xalq qarşısındakı Konstitusiya ilə müəyyən edilmiş vəzifə və borcunu vicdan və ləyaqətlə yerinə yetirməli, vətənini, dövlətini sevməli, onu qorumalı və tərəqqisinə çalışmalıdır".

Heydər Əliyev, ümummilli lider

Ə d ə b i y y a t

Azərbaycan Respublikasının Konstitusiyası /burax. məsul. E.Əfəndiyev.- Bakı: Hüquq ədəbiyyatı, 2011.- 365 s.

Abdullayev, F.Azərbaycan Respublikasının Konstitusiyası mütərəqqi dəyərləri əks etdirən ali hüquqi sənəddir/F.Abdullayev // Azərbaycan .-2014.- 12 noyabr.- S.4.

Azərbaycan Respublikasının Konstitusiyası Günü [Mətn]: Bu ali hüquqi sənədin memarı ulu öndər Heydər Əliyevdir//Ekran-efir .-2014.- 14 noyabr.- S.3.

Abbasov, İ.Müstəqil dövlətimizin konstitusiyası xalqımızı sivil həyata qovuşdurur /İ. Abbasov //Xalq qəzeti .-2014.- 14 noyabr.- S.5.

Əliyeva, Y.Ali qanunumuz ölkədə sabitliyin, vətəndaşların yüksək səviyyədə yaşamasının təminatçısıdır: 12 noyabr Konstitusiya günüdür /Y. Əliyeva//İki sahil .-2014.- 12 noyabr.- S.6.

www.anl.az

www.dia.edu.az

Milli Dirçəliş Günü 1992

1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Moskvanın, xüsusən də SSRİ-nin rəhbəri M.Qorbaçovun buna biganə münasibətini görən ermənilər planlı şəkildə, Ermənistan hökumətinin tapşırığı və göstərişilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlını öz ata-baba yurdlarından kütləvi surətdə qovmuşdular. Ermənilər azərbaycanlıları təkcə öz ev-eşiklərindən qovmayırdılar, həm də onları cismən öldürmüş, diri-diri yandırmışdılar. Ermənilərin tarixdə görünməmiş bu vandalizminə M.Qorbaçov və onun ətrafı heç bir reaksiya verməmişdilər. Ermənilər bununla da kifayətlənməmiş, 1988-ci il fevral ayının əvvəllərində Azərbaycanın Dağlıq Qarabağ bölgəsində ixtişaşlar törətmişdilər. Onlar Azərbaycanın tarixi torpağı olan Dağlıq Qarabağın Azərbaycandan qoparılıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırmışdılar.

Belə bir vaxtda Azərbaycan xalqı ayağa qalxmış, xalq öz etirazını şəkildə rəhbərliyə bildirmiş, respublikanın hər yerindən insanlar axın-axın Bakıya gəlir, Azadlıq meydanına (o vaxt V.İ.Lenin adını daşıyırdı) toplaşır, ermənilərin və Sovet hökumətinin belə münasibətinə qarşı mitinqlər keçirir, öz etirazlarını bildirirdilər.

1988-ci ilin noyabrın 17-də Bakının əsas meydanı sayılan Azadlıq meydanında Sovet dövlətinin xalqımıza qarşı apardığı antiazərbaycan siyasətinə etiraz əlaməti olaraq Azərbaycan ictimaiyyətinin sonu bilinməyən mitinqi başlanmışdı. O, vaxt bütün xalq bir yumruq kimi düyünlənmişdi. Bu, əsl xalq hərəkatı, milli azadlıq hərəkatı idi. Dekabrın əvvəllərində sovet qoşunları tərəfindən ümumxalq mitinqi dağıdılmışdı. 1992-ci ildən 17 noyabr Milli Dirçəliş Günü kimi qeyd olunur.

"XX əsri sona vuraraq, 2000-ci ilə gedərək qürur hissi ilə deyə bilərəm ki, həyatımızın nə qədər çətin, faciəli bir dövrünü yaşadıqsa, eyni zamanda ölkəmizin dirçəlişini, inkişafını, daha da gözəl gələcəyini təmin edə bildik".

Heydər Əliyev, ümummilli lider

Ə d ə b i y y a t

Cəfərli,R.Müstəqilliyimizin banisi 17 noyabr Milli Dirçəliş Günüdür /R.Cəfərli //Azərbaycan .-2014.- 16 noyabr.- S.5.

Əhmədov, A.17 noyabr milli birliyimizin əsasını qoydu [Mətn] /A.Əhmədov//Olimpiya dünyası .-2014.- 18-20 noyabr.- S.5.

Rəhimzadə, A.15 İyun-Milli Qurtuluş Günü ölkəmizə və xalqımıza dirçəliş, intibah gətirdi: /A.Rəhimzadə // Yeni Azərbaycan .-2014.- 14 iyun.- S.6.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.azadliq.org

Tarixdə bu gün

Qarakənd faciəsi 1991

Qarakənd faciəsi və ya 20 noyabr faciəsi - 1991-ci il 20 noyabrda Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində hərbi vertolyotun erməni quldurları tərəfindən vurulduğu gündür. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatmış, lakin nə qədər maraqlı olsa da bu faciə haqqında xəbər Xankəndindən erməni dilində yayımlanan "Vətən və vətəndaş" verlişinin xəbərlər bölümündə, saat 15:30-də yayımlanmışdır. Həmin gün bu məlumatı saat 16:15-də Tehran radiosu, 17:00-da Moskva radiosu açıqlamışdır.

1991-ci il noyabr ayının 20-də Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında Mİ-8 N72 hərbi helikopterinin erməni silahlıları tərəfindən atəşə tutulması nəticəsində heyət və sərnişinlər – Azərbaycanın görkəmli dövlət və hökumət nümayəndələri, Rusiya və Qazaxıstandan olan müşahidəçilər – dövlət katibi Tofiq Kazım oğlu İsmayılov, Baş prokuror İsmət İsmayıl oğlu Qayıbov, dövlət müşaviri Məhəmməd Nəbi oğlu Əsədov, Baş nazirin müavini Zülfi Saleh oğlu Hacıyev, deputatlar Vaqif Cəfər oğlu Cəfərov və Vəli Hüseyn oğlu Məmmədov, Prezidentin İcra Aparatının şöbə müdiri Osman Hüseyn oğlu Mirzəyev, nazir müavini Qurban Hüseyn oğlu Namazəliyev, DQMV prokuroru İqor Aleksandroviç Plavski, DQMB Daxili İşlər İdarəsinin rəisi Vladimir Vladimiroviç Kovalyov, Dağlıq Qarabağ üzrə milli təhlükəsizlik şöbəsinin rəisi Sergey Semyonoviç İvanov, fövqəladə vəziyyət rayonunun komendantı Nikolay Vladimiroviç Jinkin, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Dasumoviç Serikov, milis general-mayoru Mixail Dmitriyeviç Lukaşov, polkovnik-leytenant Oleq Nikoloyeviç Koçerev, dövlət katibinin köməkçisi Rafiq Məmməd oğlu Məmmədov, telejurnalist Alı Mustafa oğlu Mustafayev, AzTV-nin işıqçısı Arif İsmayıl oğlu Hüseynzadə, videooperator Fəxrəddin İbrahim oğlu Şahbazov, vertolyot heyətinin komandiri Vyaçeslav Vladimiroviç Kotov, heyət üzvləri Gennadi Vladimiroviç Domov, Dmitri Borisoviç Yarovenko həlak olmuşlar.

Əvvəlcə rəsmi olaraq helikopterin dumana düşərək qayaya çırpılması ehtimalı irəli sürülsə də, bir neçə gündən sonra onun vurulması faktı təsdiqlənmişdir.

Üstündən iyirmi dörd il keçməsinə baxmayaraq, hadisə ilə bağlı bir sıra qaranlıq məqamlara bu günə qədər aydınlıq gətirilməmişdir. Məsələn, nə üçün bu qədər dövlət rəsmisi eyni zamanda bir helikopterdə toplanmışdır? Nə üçün döyüş zonasında mühafizə üçün onu hərbi helikopter müşayiət etməmişdir? Uçuşun dəqiq marşrutunu ermənilər haradan bilmişdir? Yeri gəlmişkən, həmin məlumata yalnız Qarabağda sovet silahlı qüvvələrinin komandanlığı malik olmuşdur. Helikopterin vurulduğu raketin mənbəyi də məlum deyil. Qarabağda o zaman ən çox istifadə edilən silah təyyarəvuran zenit raketləri və eyninövlü "Alazan" raketləri idi. İstilik raketlərindən istifadə edilmirdi. Aviaqəzalarda bütövlüyünü saxlayan və zədəsiz qalan qara qutudakı lentin "yanması" da qaranlıq məsələ olaraq qalmışdır.

Bu terror aktı ilə erməni separatçıları özlərinin terrorçu mahiyyətini bir daha sübut etmişdilər. Faktla bağlı 1991-ci ildə Azərbaycanın Hərbi Qarnizon Prokurorluğu tərəfindən cinayət işi açılmış, istintaqın aparılması Respublika Prokurorluğuna verilmişdir. Hazırda isə cinayət işi üzrə istintaq dayandırılmış və buna səbəb terror aktının baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələrinin işğalı altında olmasıdır.

Ə d ə b i y y a t

Alıoğlu, S.20 noyabr faciəsindən 23 il ötür Jurnalist Salman Alıoğlu:"Vertolyot Qarakənd üzərində olarkən ruslarla bizimkilər arasında atışma baş verib" /S.Alıoğlu; Müsahibəni apardı Ceyhun Abbasov //525-ci qəzet .-2014.- 20 noyabr- S. 4.

Verdizadə, S.Qarakənd səmasında donan kadr:Azərbaycanın milli qəhrəmanı, şəhid operator Fəxrəddin Şahbazovun xatirəsinə /S.Verdizadə//Zaman .-2015.- 25 iyul.- S.6.

NOYABR

30

Tarixdə bu gün

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988

Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü 1988-ci ilin 30 noyabrından qeyd olunur. Məhz həmin ilin noyabrında universitetlər, elmi-tədqiqat institutları və hərbi idarələr də daxil olmaqla ARPANET-in minlərlə qovşağını sıradan çıxaran ilk kompyuter virusu meydana gəldi və nəhəng itkilərə səbəb oldu. Yaradıcısının adı ilə "Morris soxulcanı" adlandırılan bu virusun vurduğu ziyan təxminən 100 milyon dollar həcmində qiymətləndirilmişdir.

"Morris soxulcanı" göstərdi ki, informasiya təhlükəsizliyi həqiqətən də çox ciddi məsələdir və insanlar tərəfindən böyük səylər və müvafiq tədbirlərin həyata keçirilməsini tələb edir. Buna görə də dünya ictimaiyyəti informasiya təhlükəsizliyinin təmin edilməsinə kompleks yanaşmanın zəruriliyi haqqında ciddi düşünməyə başladı. Həmin vaxtdan bəri informasiya texnologiyaları, təbii olaraq informasiya cəmiyyəti inkişaf etdikcə bu problem daha da aktuallaşır. Bunları əsas tutaraq 1988-ci ildə Kompyuter avadanlığı üzrə Amerika Assosiasiyası 30 noyabrı Beynəlxalq İnformasiya Təhlükəsizliyi Günü elan etmişdi. Ona görə ki, informasiya təhlükəsizliyi bir ölkəni yox, bütün bəşəriyyəti təhdid edən problemdir.

İnformasiya Təhlükəsizliyi Günü çoxdan istifadə olunan parolların yeniləşdirilməsi, sistemdə virusların mövcudluğunun yoxlanması, verilənlərin arxivləşdirilməsi, lazımsız informasiyanın silinməsi, vacib informasiyaların mühafizə səviyyəsinin auditi, kompleks təhlükəsizliyin və digər bu kimi tədbirlərin həyata keçirilməsi, ictimaiyyətin diqqətinin artırılması, müvafiq qurumların və mütəxəssislərin məsuliyyətinin xatırlanması və ümumiyyətlə, bir monitorinq günüdür. Həmin vaxtdan etibarən informasiya təhlükəsizliyi problemlərinin müxtəlif aspektlərinə həsr olunmuş beynəlxalq tədbirlər keçirilir.

Keçən müddət ərzində bu günün əhəmiyyəti daha da artmışdır. Cəmiyyətin bütün sahələrinin və insanların informasiya-kommunikasiya texnologiyalarından (İKT) asılılığı gücləndikcə informasiya təhlükəsizliyinin əhəmiyyəti özünü daha çox büruzə verir. İnformasiya təhlükəsizliyi dövlətin, cəmiyyətin və şəxsiyyətin təhlükəsizliyinin təmin edilməsinin əsas istiqamətlərindən birinə çevrilir.

İnternetin sürətli inkişafı və kütləvi halda istifadəçilərin meydana çıxması ilə kompyuter və kommunikasiya sistemlərinə olan təhdidlər daha ehtimallı olur və onların realizəsinin nəticələri daha da geniş miqyas alır.

İnformasiya təhlükəsizliyinin təmin edilməsinin ən vacib vəzifələrindən biri də yüksək ixtisaslı mütəxəssislərin hazırlanmasıdır. Bu istiqamətdə ölkədə müəyyən işlər görülür. Bir sıra ali məktəblərdə müvafiq ixtisaslar üzrə kadr hazırlanmasına başlanmışdır.

Vətəndaşlarda informasiya mədəniyyətinin vacib hissəsi olan informasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması istiqamətində davamlı və məqsədyönlü tədbirlərin görülməsi zəruriyyəti də dövrümüzün reallıqlarıdır. Belə ki, istifadəçilərdə informasiya-kommunikasiya sistemlərində iş zamanı təhdidlərin vura biləcəyi ziyan, həmin təhdidlərdən mühafizə mexanizmləri haqqında zəruri bilikləri və onlarla işləmək bacarıqları olmalıdır. İnternet şəbəkəsindən istifadə mədəniyyətini formalaşdırmaq, neqativ təsirlərə qarşı "immunitet"in möhkəmləndirilməsi üçün bu mədəniyyət normalarını təbliğ etmək lazımdır.

30 noyabr - Beynəlxalq İnformasiya Təhlükəsizliyi Gününün əsas məqsədlərindən biri də elə budur.

Ə d ə b i y y a t

Əliquluyev, R.İnformasiya təhlükəsizliyi insidentləri /R. M. Əliquliyev, Y. N. İmamverdiyev ; elmi red. R. Ələkbərov ; AMEA İnformasiya Texnologiyaları İn-tu.-Bakı: [İnformasiya Texnologiyaları], 2012.-218 s.

1 dekabr

Gün çıxır 07:44
Gün batır 17:34

31 dekabr

Gün çıxır 08:03
Gün batır 17:42

DEKABR

23 noyabr-
21 dekabr

Oxatan bürcünün Nişanı oddur. Yupiterin himayəsindədir. Günəşin Oxatan bürcündən keçdiyi dövrdə doğulanlar təmkinli, fəal olurlar.

C.A.	1
C.	2
Ş.	3
B.	4
B.E.	5
Ç.A.	6
Ç.	7
C.A.	**8**
C.	9
Ş.	10
B.	11
B.E.	12
Ç.A.	13
Ç.	14
C.A.	**15**
C.	16
Ş.	17
B.	18
B.E.	19
Ç.A.	20
Ç.	21
C.A.	**22**
C.	23
Ş.	24
B.	25
B.E.	**26**
Ç.A.	27
Ç.	28
C.A.	**29**
C.	30
Ş.	31

- *QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)*
- *Beynəlxalq Əlillər Günü (03.12.1992)*
- ***Xankəndinin işğalı günü (28.12.1991)***
- *Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında ümumxalq referendumu keçirilmişdir (29.12.1991)*
- *Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)*

875 il Nizami Gəncəvi 1141-1209

Azərbaycan Milli Elmlər Akademiyası Əlyazmalar İnstitutunun ən dəyərli sənət incilərindən biri də 12-ci əsr Azərbaycan şairi Nizami Gəncəvi tərəfindən yazılmış "Xəmsə"nin tam əlyazmasıdır. Əlyazmanın üzü 1636-cı ildə Dust Məhəmməd ibn Dərviş Məhəmməd Dərəxtiçi tərəfindən köçürülmüşdür.

Mətn 15-ci əsrdə yayılmış yazı üslubu olan nəstəliq xətti ilə yazılıb.Əlyazmada hər bir şeirin başlığı parlaq rənglərlə və nəfis qızılı naxışlarla bəzədilib. Burada İsfahan miniatür məktəbinə aid miniatürlər var. Nizaminin "Xəmsə"sinə çəkilmiş ən ilkin miniatürlər 15-ci əsrə təsadüf edir. Nizaminin hekayələri Şiraz və Heratdan olan rəssamlar tərəfindən bəzədilmişdi.

DEKABR

2016

Milli ədəbiyyat

Əməkdar incəsənət xadimi, şair, publisist, dramaturq Qurbanov (Qurbani) Abdulla Novruz oğlunun (13.12.1956) anadan olmasının 60 illiyi

Şair, kinodramaturq Əliyev Rövşən Məmmədəli oğlunun (Ramiz Rövşən) (15.12.1946) anadan olmasının 70 illiyi **354**

Əməkdar incəsənət xadimi, yazıçı Vəliyev Süleyman Vəli oğlunun (21.12.1916-07.03.1996) anadan olmasının 100 illiyi **355**

Şair, jurnalist Əkbərzadə Şahmar Əkbər oğlunun (28.12.1941-30.08.2000) anadan olmasının 75 illiyi **356**

Şair, publisist Kəsəmənli Nüsrət Yusif oğlunun (29.12.1946-16.10.2003) anadan olmasının 70 illiyi **357**

Folklor

Əməkdar mədəniyyət işçisi Pənahov Əlipənah Ələsgər oğlunun (Aşıq Pənah) (12.12.1926-26.08.1978) anadan olmasının 90 illiyi **358**

Dünya ədəbiyyatı

Rus yazıçısı, ictimai xadim Tixonov Nikolay Semyonoviçin (04.12.1896-08.02.1979) anadan olmasının 120 illiyi

İran şairi, filoloq və ictimai xadim Bahar Məhəmmədtağı Məlik Üş-şüəranın (10.12.1886-21.04.1951) anadan olmasının 130 illiyi

Rus şairi Nekrasov Nikolay Alekseyeviçin (10.12.1821-08.01.1878) anadan olmasının 195 illiyi

Rus yazıçısı, publisist, tarixçi Karamzin Nikolay Mixayloviçin (12.12.1766-03.06.1826) anadan olmasının 250 illiyi

Rus yazıçısı, ictimai xadim Fadeyev Aleksandr Aleksandroviçin (24.12.1901-13.05.1956) anadan olmasının 115 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Xalq rəssamı Abdullayev Mikayıl Hüseyn oğlunun (19.12.1921-21.08.2002) anadan olmasının 95 illiyi **359**

Musiqi.Opera.Balet

Əməkdar incəsənət xadimi, professor Dadaşov Azər İsmayıl oğlunun (01.12.1946) anadan olmasının 70 illiyi

Xalq artisti, balerina Şirəliyeva Tamilla Xudadat qızının (08.12.1946) anadan

olmasının 70 illiyi
Xalq artisti, müğənni Sadıqov Əliövsət Şirəli oğlunun (22.12.1906-17.10.1971) anadan olmasının 110 illiyi 360
Xalq artisti, balerina Babayeva Çimnaz Məmməd qızının (23.12.1946) anadan olmasının 70 illiyi
Əməkdar artist, balaban və klarnet ifaçısı Zeynalov Bəhruz Mahmud oğlunun (24.12.1926-25.05.1998) anadan olmasının 90 illiyi
Azərbaycanın və keçmiş SSRİ-nin Xalq artisti Xanlarova Zeynəb Yəhya qızının (28.12.1936) anadan olmasının 80 illiyi 361
Xalq artisti, müğənni Əliyev Əbülfət Əsəd oğlunun (30.12.1926-1990) anadan olmasının 90 illiyi 362

Teatr.Kino

Xalq artisti, aktyor Yusifzadə Əşrəf Əmrah oğlunun (05.12.1906-07.03.1963) anadan olmasının 110 illiyi 363
Amerika kino rejissoru, prodüser Disney Uoltun (05.12.1901-15.12.1966) anadan olmasının 115 illiyi
Xalq artisti, aktyor Salayev Həsənağa Dərya oğlunun (05.12.1921-02.10.1981) anadan olmasının 95 illiyi 364
Əməkdar incəsənət xadimi, kino operatoru, rejissor və rəssam Atakişiyev Əlisəttar Ələsgər oğlunun (25.12.1906-07.11.1990) anadan olmasının 110 illiyi 365
Xalq artisti Əliyeva Zemfira Məmmədəli qızının (25.12.1941-26.11.1995) anadan olmasının 75 illiyi 366

Milli Qəhrəmanlar

Azərbaycanın Milli Qəhrəmanı Əsgərova Salatın Əziz qızının (16.12.1961-09.01.1991) anadan olmasının 55 illiyi 367
Azərbaycanın Milli Qəhrəmanı Əhmədov Riad Fikrət oğlunun (20.12.1956-22.01.1992) anadan olmasının 60 illiyi 368
Azərbaycanın Milli Qəhrəmanı Orucov Vəzir Surxay oğlunun (26.12.1956-22.03.1993) anadan olmasının 60 illiyi 369

Siyasət.Hərbi iş

Dövlət xadimi, general-mayor Əsədov Məhəmməd Nəbi oğlunun (05.12.1941-20.11.1991) anadan olmasının 75 illiyi 370
Azərbaycan Respublikasının Prezidenti, görkəmli siyasi və dövlət xadimi Əliyev İlham Heydər oğlunun (24.12.1961) anadan olmasının 55 illiyi 371-372

Tarix

Tarix elmləri doktoru, professor Abbasbəyli Ağalar Nəriman oğlunun (31.12.1941) anadan olmasının 75 illiyi 373
Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi Musayeva Tamilla Həşim qızının (31.12.1931) anadan olmasının 85 illiyi 374

Fəlsəfə.İqtisadiyyat.Hüquq

Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Əliyev Aqil Əlirza oğlunun (10.12.1926-07.03.2006) anadan olmasının 90 illiyi **375**

İqtisad elmləri doktoru, professor, Əməkdar elm xadimi Qasımov Əbülfəz Cəbrayıl oğlunun (20.12.1931) anadan olmasının 85 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Görkəmli jurnalist, elm xadimi və ictimai xadim, pedaqoq İmanquliyev Nəsir Əsəd oğlunun (22.12.1911-07.03.1998) anadan olmasının 105 illiyi **376**

Şair və mütərcim, Əməkdar elm xadimi, professor Əlizadə Məmməd Mübariz Əli oğlunun (23.12.1911-08.04.1994) anadan olmasının 105 illiyi

Filologiya elmləri doktoru, professor Sultanlı Əli Abdulla oğlunun (25.12.1906-18.07.1960) anadan olmasının 110 illiyi

Filologiya elmləri doktoru, professor Cəfərzadə Əzizə Məmməd qızının (29.12.1921-04.09.2003) anadan olmasının 95 illiyi **377**

Əməkdar elm xadimi, filologiya elmləri doktoru, professor Babayev Həbib Bayram oğlunun (30.12.1926-02.07.1994) anadan olmasının 90 illiyi

Coğrafiya.Geologiya

Akademik Əhmədov Həsən Əbdüləli oğlunun (15.12.1906-1981) anadan olmasının 110 illiyi

Geologiya-mineralogiya elmləri doktoru, professor Ağalarova Dünya Ələkbər qızının (15.12.1906-1981) anadan olmasının 110 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Akademik Quliyev Nəriman Ağaqulu oğlunun (28.12.1926-20.05.2014) anadan olmasının 90 illiyi **378**



Kimya.Biologiya.Tibb

Əməkdar həkim, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Əlikişibəyov Mustafa Məmməd oğlunun (07.12.1901-?) anadan olmasının 115 illiyi

Azərbaycanda patoloji anatomiyanın banilərindən biri, professor Hüseynov Cəlil Yusif oğlunun (20.12.1896-21.03.1979) anadan olmasının 120 illiyi

İlk qadın travmatoloq, tibb elmləri doktoru Seyidova Həqiqət Əli qızının (26.12.1916-?) anadan olmasının 100 illiyi

Tibb elmləri doktoru, professor Novruzov Manaf Əbdülrəhim oğlunun (26.12.1926) anadan olmasının 90 illiyi

Akademik Musayev Musa Əbdürrəhman oğlunun (27.12.1921-04.12.2010) anadan olmasının 95 illiyi **379**

AMEA-nın müxbir üzvü, biologiya elmləri doktoru, professor Səmədov Niyazi Həmid oğlunun (31.12.1916) anadan olmasının 100 illiyi

Texnika.Mühəndis işi

Texnika elmləri doktoru, professor, Əməkdar mühəndis Hacıyev Bəhmən Əbiş oğlunun (02.12.1926-1998) anadan olmasının 90 illiyi **380**
Texnika elmləri doktoru, professor, Əməkdar elm xadimi Abdullayev Kamal Mehman oğlunun (19.12. 1936) anadan olmasının 80 illiyi
Texnika elmləri doktoru, professor Abdullayev Faiq Məmmədəli oğlunun (26.12.1936) anadan olmasının 80 illiyi
Texnika elmləri doktoru, Əməkdar mühəndis Süleymanov Ələkbər Bağır oğlunun (31.12.1916-2000) anadan olmasının 100 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Tarix elmləri doktoru, professor, Əməkdar elm xadimi, Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının akademiki Xələfov Abuzər Alı oğlunun (25.12.1931) anadan olmasının 85 illiyi **381-382**

Tarixdə bu gün

QİÇS-ə Qarşı Mübarizə Günü (01.12.1988)
Beynəlxalq Əlillər Günü (03.12.1992)
ATƏT-in Lissabon sammitində Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində nizamlanması barədə bəyanat qəbul olunub (03.12.1996)
Beynəlxalq Könüllülər Günü ((05.12.1985)
Bakıda ilk telefon rabitə qurğusu istifadəyə verilib (06.12.1881)
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi İşçilərinin Peşə Bayramı Günü (06.12.2006)
Keçmiş SSRİ-i süqut etmişdir (08.12.1991)
“Müstəqil Dövlətlər Birliyi”nin (MDB) yaradılması haqqında müqavilə bağlanmışdır (08.12.1991)
Azərbaycan İslam Konfransı Təşkilatına üzv qəbul olunmuşdur (09.12.1991)
İnsan hüquqları günü (10.12.1950)
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü (12.12)
Azərbaycan Respublikası Pensiya Fondu (16.12.1991) yaradılmışdır
Naxçıvan MR Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçən iclasında 31 dekabrın dünya azərbaycanlılarının həmrəylik bayramı kimi qeyd olunması barədə qərar qəbul edilib (16.12.1991)
Azərbaycanla Ermənistan arasında dəmir yolu nəqliyyatı tamamilə dayandırılıb (19.12.1991)
Latın qrafikalı Azərbaycan əlifbasının bərpa olunması haqqında qanun qəbul edilib (25.12.1991) **383**
Xankəndinin işğalı günü (28.12.1991)
Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında ümumxalq referendumu keçirilib (29.12.1991) **384**
Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31.12.1991)

70 illiyi Ramiz Rövşən 1946

Şair

Ə d ə b i y y a t

Sevgi məktubu kimi: şeirlər /R.Rövşən.-Bakı: Mütərcim, 2009.-52 s.

Yağışlı nəğmə: şeirlər /R.Rövşən.- Tehran, 2009.- 312 s.

Nefes - kitablar kitabı: şiir-nesr-esse /R.Rövşən.-Ankara: Bengü, 2008.- 226 s.

Şeir /R.Rövşən //Ədəbiyyat qəzeti.- 2015.- 13 fevral.- S.1.

Şeirlər /R.Rövşən //Ədalət.-2014.- 21 iyun.- S.13.

Aytel, İ. Ramiz Rövşən nəsri /İ.Aytel //Ədalət.- 2014.- 22 yanvar.- S.5.

Əliağaqızı, G. Ramiz Rövşən poeziyası /G.Əliağaqızı //Kredo.- 2014.- 1-8 fevral.- S.16.

İ n t e r n e t d ə

www.az.wikipedia.org

www.azerbaycanevi.com

www.bakunights.net

www.legend.az

Ramiz Məmmədəli oğlu Əliyev (Ramiz Rövşən) 1946-cı il dekabr ayının 15-də Bakının Əmircan kəndində anadan olmuşdur. Orta təhsilini Suraxanı rayonundakı 208 saylı şəhər orta məktəbində almışdır. 1964-1969-cu illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almış, 1976-1978-ci illərdə Moskvada Ali Ssenari kurslarını bitirmişdir. Şairin "Bir yağışlı nəğmə" adlı şeirlər kitabı 1970-ci ildə işıq üzü görmüşdür. 1971-ci ildə Cəfər Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında, "Mozalan" satirik kinojurnal studiyasında redaktor, 1974-1975-ci illərdə kinostudiyanın ssenari emalatxanasında ssenarist, 1979-1987-ci illərdə ssenari redaksiya heyətinin üzvü, 1987-1992-ci illərdə kinostudiyanın baş redaktoru işləmişdir. "Göy üzü daş saxlamaz" (1987), "Kəpənək qanadları" (1999), "Gedək biz olmayan yerə" (2006) adlı kitabların müəllifidir.

Ramiz Rövşən şeirinin qüdrəti onun sadəliyində, lokanikliyində, fəlsəfiliyindədir. Onun hər bir şeiri sənətkarlıq, fikir dərinliyi, rəvanlıq cəhətdən ana dilimizin zənginliyini, gözəlliyini, incəliyini bir daha sübut edən parlaq bir nümunədir. Şeirlərində vətənpərvərlik, bəşəri məhəbbət, məslək eşqi, dərin etiqad, vüqar və sadəlik, xalq ruhuna yaxınlıq, dərin sənətkarlıq, müdriklik, həyata və insana məhəbbətin tərənnümü poetik şəkildə təcəssüm etmişdir. Özünəməxsusluq, bənzərsizlik onun şeirlərinin qayəsindədir. O poeziyamızda yeni irs, yeni cığır açmış və bu irsə öz möhürünü vurmuş, əvəzedilməz təkrarolunmaz bir şairdir.

1992-ci ildən Azərbaycan Tərcümə Mərkəzində çalışmış, S.Yeseninin "Qara adam" poemasını və şeirlərini, A.Blokun şeirlərini, V.Mayakovskinin "Şalvarlı bulud" poemasından parça və başqa əsərləri tərcümə etmişdir. 1985-ci ildə R.Rövşən haqqında "Üç çinar yarpağı", 1987-ci ildə "Burax gedim, ay işığı", 1993-cü ildə "Ağrı" adlı televiziya verilişləri lentə alınmışdır. "Bağışla", "Bu qatarın dalınca baxma", "Unudacaq" (F.Kərimova), "Novruz gəlir, yaz gəlir"(A.Kazımova), "Ayrılıq"(Azərin), "Yalquzaq" (Ş.Əlizamanlı) adlı mahnıların mətnlərinin müəllifidir. "Divlərin mahnısı" (Əzablı yollar), "Yaraşmıram mən sənə" (İşarəni dənizdən gözləyin), "Şimşimə" (Girişmə, öldürər), "Yağış yuyur, gün qurudur" (Əlvida, cənub şəhəri. Mehriban Zəki), "Dilin yansın, dil yiyəsi" (Qala) adlı şeirləri filmlərdə səsləndirilmişdir. "Babamızın babasının babası" (1981), "Şəhərli biçinçilər" (1986), "Süd dişinin ağrısı" (1987), "Özgə vaxt" (1996), "Məkanın melodiyası" (2004), "Qala" (2008) kimi tammetrajlı bədii filmlərin, "Şəhidlərdən şəhidlərə" (1990) qısametrajlı sənədli filmin ssenari müəllifi; "Bulud niyə ağlayır?" (1973), "Pıspısa xanım və siçan bəy" (1974), "Lovğa fil balası" (1987) cizgi filmlərinin, "Əzablı yollar" (1982) "Evlənmək istəyirəm" (1983), "Xüsusi vəziyyət" (1986), "Kişi sözü" (1987), "Araqarışdıran" (1987), "Gecə qatarında qətl" (1990), "Kamança" (1993), "Etimad telefonu" (2001), "Hacı Qara" (2002), "Küçələrə su səpmişəm" (2004) tammetrajlı bədii filmlərində mahnı mətnlərinin müəllifidir.

Şeir və hekayələri keçmiş SSRİ-nin bir çox dillərinə tərcümə edilmiş, ABŞ-da, Almaniyada, Fransada, Polşada, Bolqarıstanda, Türkiyədə, İranda çap olunmuşdur. Ramiz Rövşən 1981-ci ildən Azərbaycan Yazıçılar Birliyi idarə heyətinin və Azərbaycan Mətbuat Şurasının üzvüdür.

100 illiyi

Süleyman Vəliyev 1916-1996

Yazıçı



Süleyman Vəli oğlu Vəliyev 1916-cı il dekabr ayının 21-də Bakı yaxınlığındakı Ramana qəsəbəsində anadan olmuşdur. Ramana məktəbində səkkizillik təhsil aldıqdan sonra, təhsilini məşhur "Qulam şqolası"nda davam etdirmişdir.

"Əmanət kassası" adlı ilk hekayəsi 1932-ci ildə "Hücum" jurnalında çap olunmuşdur. Ədəbi mühitə çox tez gələn Süleyman Vəliyev 1937-ci ildə hərbi qulluğa çağırılana qədər Lökbatanda çıxan aztirajlı "Neft uğrunda" qəzetində jurnalistlik fəaliyyətinə başlamışdır. Yazıçının 1937-ci ildə yazıb çap etdirdiyi "Bığlı ağa" povesti həmin ildə Azərnəşrdə ayrıca kitabça şəklində çapdan çıxmışdır. Bu kitab onu həmişəlik ədəbiyyata bağlamış, ədəbi mühitdə tanıtmışdır. Bir müddət "Azərbaycan gəncləri", "Kommunist" qəzetlərinin müxbiri olmuş, "İnqilab və mədəniyyət" jurnalında ədəbi işçi kimi çalışmışdır. 1937-ci ilin payızında hərbi xidmətə çağırılmış, 2 il Ukraynada hərbi xidmətdə olmuşdur. 1940-cı ilin oktyabrında Xalq şairi S.Vurğunun köməyi ilə Azərbaycan Yazıçılar İttifaqının Hərbi vətənpərvərlik şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

İkinci Dünya müharibəsi illərində Almaniya, Yuqoslaviya və İtaliyada müqavimət hərəkatında iştirak etmişdir. 1946-1949-cu illərdə M.F.Axundov adına Pedaqoji İnstitutda (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) təhsil almışdır. 1958-1963-cü illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" studiyasında redaktor vəzifəsində çalışmış, 1963-1987-ci illərdə Azərbaycan Yazıçılar Birliyində məsləhətçi işləmişdir.

Onun yaradıcılığında Stalin repressiyaları, müharibə mövzusu, azərbaycanlı döyüşçülərin Avropa müqavimət hərəkatında iştirakı mövzuları əsas yer tutur. "Mübahisəli şəhər", "Şor cüllütü", "Əncir ağacı", "Qanadı qırıq quş da uçarmış", "Bir səhəng su", "Düyünlər" əsərlərinin müəllifidir.

Müasir nəsrimizdə müharibə mövzusunun görkəmli nümayəndəsi olan yazıçının əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə də tərcümə olunmuşdur. Bədii yaradıcılığında S.Marşak, A.Qaydar, M.Q. Mixaylovski, V.Vasilyevskayadan tərcümələr etmişdir.

1976-cı ildə əmək veteranı, 1981-ci ildə müharibə veteranı olmuşdur. 1967 və 1986-cı illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Fəxri fərmanına, 1977-ci ildə "Azərbaycan Əməkdar mədəniyyət işçisi", 1987-ci ildə "Əməkdar incəsənət xadimi" fəxri adlarına layiq görülmüş, 1984-cü ildə "Xalqlar dostluğu" ordeni və bir sıra medallarla təltif olunmuşdur.

Süleyman Vəliyev 1996-cı il mart ayının 7-də Bakı şəhərində, 80 yaşında vəfat etmişdir. Məzarı İkinci Fəxri Xiyabandadır.

Ədəbiyyat

Seçilmiş əsərləri: iki cilddə: romanlar /S.Vəliyev.- Bakı: Yazıçı, 1983.

Daşlı bulaq: [romanlar] /S.Vəliyev; ön sözün müəl. C.Əhmədov.-Bakı: Yazıçı, 1987.- 686 s.

"Qanadı sınmış quş" da uçarmış: Sənədli nəsr, roman, povest və hekayələr /S.Vəliyev; red. Z.Əsgərov.- Bakı: Gənclik, 1989.- 427 s.

Mənə "sən" de /S.Vəliyev.- Bakı: Gənclik, 1985.- 325 s.

Süleyman Vəliyev //Əhmədov T. Azərbaycan yazıçıları (XX-XXI yüzillikdə):ensiklopedik məlumat kitabı.- Bakı, 2011.-S.875.

İnternetdə

www.adam.az

www.anl.az

www.az.wikipedia.org

www.kataloq.net

75 illiyi

Şahmar Əkbərzadə
1941-2000

Şair, publisist



Ə d ə b i y y a t

Haqqa pəncərə: [şeirlər] /Ş.Əkbərzadə.- Bakı: Dünya, 1998.- 304 s.

Sev məni: [şeirlər] /Ş.Əkbərzadə; red. T.Zahidoğlu.-Bakı: Azərbaycan, 2000.- 64 s.

Şeir /Ş.Əkbərzadə //Azərbaycan.- 2012.- 26 fevral.- S.10.

Abbaslı, T. Şahmar: "Səndən zülümlər görsəm - Zülümdən gözəl nə var?.." /T.Abbaslı //Mədəniyyət.- 2012.- 31 avqust.- S.7.

Gülayə. Ölüm ondan ötrü ölümə getdi /Gülayə //Kaspi.-2013.- 27-29 iyul.- S.17.

Məmmədzadə, R. Şahmar Əkbərzadə ilə bir gecəlik görüş /R.Məmmədzadə //Ədalət.- 2011.- 8 yanvar.- S.16.

Yusifli, V. Şahmarı unutmaq olar?! /V.Yusifli //525-ci qəzet .-2011.- 3 sentyabr.- S.20.

İ n t e r n e t d ə

www.anl.az

Şahmar Əkbər oğlu Əkbərzadə 1941-ci il dekabr ayının 28-də Ağdam rayonunun Çəmənli kəndində, ziyalı ailəsində anadan olmuşdur.

1958-ci ildə Mahrızlı kənd orta məktəbini bitirdikdən sonra Şuşa Pedaqoji Texnikumuna daxil olmuş, 1960-cı ildə oranı bitirmişdir. Elə həmin il M.F.Axundov adına Dillər İnstitutunun rus dili və ədəbiyyatı şöbəsinə daxil olmuş, 1965-ci ildə rus dili müəllimi ixtisası üzrə təhsilini başa vurmuşdur. Bir neçə il Çəmənli kənd orta məktəbində müəllim işləmiş, 1968-ci ildə Bakı şəhərinə köçmüşdür. Burada Azərittifaqın əməyin elmi təşkili mərkəzi laboratoriyasında tərcüməçi, 1968-1973-cü illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin Nəşriyyat şöbəsində redaktor, 1973-1978-ci illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında publisistika şöbəsinin müdiri, 1978-1990-cı illərdə "Kommunist" qəzeti redaksiyasında Mədəniyyət şöbəsinin böyük ədəbi işçisi vəzifələrində çalışmışdır.

1990-cı ildə "Mədəniyyət" qəzetini təsis etmiş və ömrünün sonunadək qəzetin baş redaktoru olmuşdur.

Bədii yaradıcılıqla 1985-ci ildən məşğul olmuş, dövri mətbuatda vaxtaşırı olaraq şeir, məqalə və tərcümələrini çap etdirmişdir. "Anama layla" (1978), "Sevgi borc verilməz" (1982), "Ona yanıram ki" (1988), "Haqqa pəncərə" (1998), "Sev məni" (2000) kitabları işıq üzü görmüşdür.

Əsərləri keçmiş SSRİ və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. 1978-ci ildə Azərbaycanın yaradıcı gənclərinin tərkibində Çexoslovakiyada, 1984-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının xüsusi qrupu tərkibində Türkiyədə olmuşdur.

1983-cü ildə Azərbaycan Jurnalistlər İttifaqının mükafatına, 1986-cı ildə "Qızıl qələm" mükafatına, 1996-cı ildə şeirlərinə görə "Araz" ali ədəbi mükafatına layiq görülmüşdür.

Görkəmli şair, publisist Şahmar Əkbərzadə 2000-ci il avqust ayının 30-da, Bakı şəhərində vəfat etmişdir.

Şairin adına beynəlxalq ədəbiyyat mükafatı təsis edilmiş, "Şahmar Əkbərzadə adına Beynəlxalq Ədəbiyyat Mükafatı laureatlarının şeir antologiyası" kitabı çap olunmuşdur.

2014-cü il fevral ayının 10-da "Şahmar Ədəbi Məclisi" (ŞƏM) təsis olunmuşdur.

70 illiyi

Nüsrət Kəsəmənli
1946-2003

Şair

Ə d ə b i y y a t

Seçilmiş əsərləri /N.Kəsəmənli; tərt. ed. R.Kəsəmənli.- Bakı: Şərq-Qərb, 2004.- 256 s.

Hamısı sevgidəndir...: [şeirlər] /N.Kəsəmənli.- Bakı: Gənclik, 1991.- 294 s.

Heyf, o sevgiyə...: [şerlər] /N.Kəsəmənli; red. Ə.Əliyev.- Bakı: Gənclik, 2000.- 368 s.

Kimə inanasan?: [şeirlər] /N.Kəsəmənli; red. T.Muxtarova.- Bakı: Gənclik, 1995.-160 s.

Qapamayın gözlərimi /N.Kəsəmənli.- Bakı: Maarif, 2006.- 287 s.

Kitabxanalarda Nüsrət Kəsəmənlinin anadan olmasının 60 illik yubileyi ilə əlaqədar keçirilən tədbirlər: metodik tövsiyələr /M.F.Axundov ad. Azərb. Milli Kitabxanası; tərt. ed. S.İsayeva.- Bakı, 2006.- 12 s.

Yusifli V. Yaddan çıxmır Nüsrət Kəsəmənli... /V.Yusifli //525-ci qəzet.- 2012.- 6 oktyabr.- S.26.

İ n t e r n e t d ə

www.anl.az

Nüsrət Yusif oğlu Kəsəmənli 1946-cı il dekabr ayının 29-da Qazax rayonunda anadan olmuşdur. Orta təhsilini burada aldıqdan sonra Bakıya gəlmiş, 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) jurnalistika fakültəsinə daxil olmuşdur. Universitetin II kursunda ikən "Bakı" və "Baku" qəzetlərində müxbir, ədəbi işçi vəzifəsinə işə qəbul edildiyinə görə 1969-cu ildə qiyabi şöbəyə keçmişdir. Universiteti bitirdikdən sonra 1978-1985-ci illərdə Azərbaycan Yazıçılar İttifaqında referent və ədəbi məsləhətçi olmuşdur.

Bədii yaradıcılığa XX əsrin 60-cı illərinin əvvəllərindən başlamışdır.

Nüsrət Kəsəmənlinin poeziyası obrazlı təfəkkürün ifadəsidir. Onun şeirlərinin əsas mövzusu məhəbbət olsa da, insanpərvərliyə, yer üzərində əmin-amanlığa, vətənə, torpağa aid müxtəlif əsərlər yaratmışdır. "Sevgi hələ ölmüş deyil", "Dəli bir ağlamaq keçir könlümdən", "Sənə güvəndiyim dağlar", "Sevə-sevə", "Bəlkə bu təsadüf" kimi məhəbbət mövzusunda, "Torpaq haqqında nəğmə", "Vətən alov etsin odunu sənin", "Cıdır düzü", "İsa bulağı", "Ağlama Təbrizim, ağlama", "Bu bizim vətənimizdir" kimi şeirləri doğma torpağa, vətənə məhəbbəti əks etdirən çox dəyərli poeziya nümunələridir. Şair öz yaradıcılığında ictimai-siyasi hadisələrlə bağlı düşüncələrinə də yer ayırmış, onun "Xocalı", "20 Yanvar", "Yaddan çıxmaz Qarabağ" kimi əsərləri məhz bu mövzuda yazılmışdır.

"Dünya köhnə dünyadır", "Unut kədərini", "Allahım, ayırma bizi", "Unuda bilməyəcəksən", "Özümü aldadıram", "Biri vardı, biri yox..." kimi yüzlərlə şeirinə musiqi bəstələnmişdir. "Boş kəndlərin harayı", "Mövzu üzrə improvizasiya", "Ənbizlərin keşiyində", "Sovet Azərbaycanına səyahət" və s. sənədli filmlərin, "Afroditanın qolları", "Qarabağ əhvalatı" bədii filmlərin ssenari müəllifidir. Moskvada gənc yazıçıların VI, VII Ümumittifaq müşavirələrində iştirak etmişdir.

1977-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

Fəal ictimaiyyətçi olmuş, 1981-1984-cü illərdə Azərbaycan Yazıçılar İttifaqında Həmkarlar Komitəsinin sədri, Azərbaycan Tarix və Mədəniyyət Abidələri Mühafizə Cəmiyyətinin üzvü, Azərbaycan Yazıçılar İttifaqının VI, VII qurultayında idarə heyətinin üzvü, Poeziya şurasının sədri seçilmişdir. 1985-ci ildən C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında baş redaktor, "Dünyaya pəncərə" sənədli televiziya verilişinin ssenari müəllifi və aparıcısı kimi çalışmışdır. 1982-ci ildə respublika Lenin komsomolu mükafatı laureatı olmuşdur.

Şair Nüsrət Kəsəmənli 2003-cü il oktyabr ayının 17-də, Təbrizdə vəfat etmişdir.

90 illiyi

Aşıq Pənah 1926-1978

Aşıq şair

Ə d ə b i y y a t

Mənim sazım: şeirlər /Aşıq Pənah; [red. Ç.Əlioğlu].- Bakı: Gənclik, 1977.- 46 s.

Sözlərimi saxla yadda /Aşıq Pənah; tərt. ed. Ə.Pənahov; ön söz. müəl. İ.Əbilov.- Bakı: Yazıçı, 1991.- 144 s.

Təzə söz, təzə mahnı: Qoşmalar /Aşıq Pənah Pənahov; red. M.İskəndərzadə.- Bakı: Azərnəşr, 1971.- 50 s.

Aşıq Pənah //Əhmədov T. Azərbaycan yazıçıları XX-XXI yüzillikdə.- Bakı, 2011.- S.85.

Hacımusalı, O. Aşıq Pənah yaradıcılığı /O.Hacımusalı //Xalq cəbhəsi.-2012.- 7 dekabr.- S.14.

İ n t e r n e t d ə

www.anl.az

Əlipənah Ələsgər oğlu Pənahov (Aşıq Pənah) 1926-cı il dekabr ayının 1-də Salyan rayonunda anadan olmuşdur. Gənc yaşlarından şeirə, sənətə, saza böyük həvəs göstərən Aşıq Pənah sonralar bütün həyatını bu sənətə bağlamış, zaman keçdikcə onun sənət meydanı genişlənmişdir. Aşıqlıq sənətinə 15 yaşında ikən - 1941-ci ildə başlamış, Salyanda "Kür" aşıqlar ansamblını təşkil etmişdir. 1941-1947-ci illərdə Salyan Dövlət Dram Teatrında çalışmışdır. Teatrın repertuarında həmişə baş rolların ifaçısı olmuş, Məcnun, Kərəm, Qərib, Əsgər, Vaqif obrazlarını məharətlə yaratmışdır. 1947-1951-ci illərdə Salyan rayon pionerlər evində və mədəniyyət evində musiqi dərnəyinə rəhbərlik etmişdir.

1974-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü idi.

Yaradıcılığında dörd və beş bəndlik gəraylılar və qoşmalar əsas yer tutur. Onun şeirlərində vətənpərvərlik, əməksevərlik, təbiətə, yurda bağlılıq, yüksək insani keyfiyyətlər ifadə olunur. Məşhur gəraylılarından "Dilbər", "İnciyər", "Vurulmuşam", "Bizim qızlar", "Ana Kürüm", qoşmalarından isə "Desin", "Uşaqlar", "De danış", "Aşiqin", "Bu yanda dur", "Gördüm" və s. adlarını çəkmək olar.

Aşıq Pənah iki dastanın ("Sülh", "Pambıqçılar"), 18 aşıq havasının, 128-ə qədər qoşmanın müəllifi olmuşdur.

Aşıq Pənahın gəraylı və qoşmaları melodik cəhətdən də xüsusi əhəmiyyətə malikdir. Burada melodik prinsiplər Rast, Şur, Segah ladlarına əsaslanır. Onun yaradıcılığında instrumental söz ifaçılığı, vokal ifaçılıq prinsipləri ilə vəhdət təşkil edir.

Aşıq Pənah keçmiş SSRİ-nin müxtəlif şəhərlərində, bir sıra xarici ölkələrdə - Finlandiya, Bolqarıstan, Rumıniya, Polşa, Çexoslovakiya, Hindistan və s. Azərbaycan mədəniyyətini, aşıq sənətini təbliğ etmişdir.

Azərbaycan mədəniyyətinin inkişafı sahəsindəki xidmətlərinə görə 1967-ci ildə "Azərbaycanın Əməkdar mədəniyyət işçisi" fəxri adına layiq görülmüşdür.

Aşıq Pənah 1978-ci il avqust ayının 8-də, 52 yaşında vəfat etmişdir.

95 illiyi Mikayıl Abdullayev 1921-2002

Rəssam

Ə d ə b i y y a t

Mikayıl Abdullayev [İzomaterial]: rəngkarlıq və qrafika / layih. rəhb. R.Həşimov; tərt. E.Məmmədov; bədii tərt. və dizayn. T.Qorçu; mətnin müəl. Ş.Məlikova.- [Bakı]: [s.n.], [2013].- 277 s.

Mikayıl Abdullayev 90 il [İzomaterial] /[ön söz əvəzi Ə.Qarayev].-Bakı: [s.n.], [2011].- 36 s.

Nəcəfov, M. Mikayıl Abdullayev /M.Nəcəfov.- Bakı: Yazıçı, 1983.- 54 s.

Əliyeva, L. Rənglər aləminə əbədi məhəbbət: Mikayıl Abdullayev həyatı da, insanları da gördüyü və duyduğu kimi kətan üzərində əks etdirirdi /L.Əliyeva //Mədəniyyət.- 2014.- 19 dekabr.- S.12.

Xəlilzadə, F. Sehrli fırça, sirli rənglər: Mikayıl Abdullayev /F.Xəlilzadə //Azərbaycan.- 2011.- 17 dekabr.- S.6.

www.anl.az

www.az.wikipedia.org

Mikayıl Hüseyn oğlu Abdullayev 1921-ci il dekabr ayının 19-da Bakı şəhərində anadan olmuşdur. 1935-1939-cu illərdə ilk rəssamlıq təhsilini Azərbaycan Rəssamlıq Texnikumunda (indiki Azərbaycan Rəssamlıq Akademiyası nəzdində İncəsənət Kolleci) görkəmli rəssam Ə.Əzimzadədən almışdır. Hələ tələbəlik illərində müstəqil sərgilərdə iştirak edən gənc rəssam 1939-cu ildə ilk dəfə ənənəvi "Bahar" sərgisinə qatılmış, nümayiş olunan tabloları böyük rəğbətlə qarşılanmışdır.

V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna daxil olmuş, İ.Y.Qrabar, V.V.Favorskaya, S.V.Gerasimov kimi görkəmli rəssamlardan dərs almışdır. Lakin Böyük Vətən müharibəsi başladığından təhsilini yarımçıq qoyaraq Bakıya qayıtmışdır. 1944-cü ildə təhsilini başa vurmaq üçün yenidən Moskvaya getmiş və 1949-cu ildə Moskva Dövlət Rəssamlıq İnstitutunu bitirmişdir. İlk fərdi sərgisi 36 yaşında, Moskvada keçirilmişdi.

M.Abdullayevin mənzərə janrı, portret boyakarlığı, qrafikası, kitab rəssamlığı təqdirəlayiqdir. Rəssam dahi Nizamidən başlamış müasir şair və nasirlərimizə qədər bir çox sənətkarların portretlərini yaratmış, ya da onların əsərlərinə illüstrasiyalar çəkmişdir. Bunların arasında "Əminə Dilbazi" (1954), "Şair Rəsul Rza" (1960), "M.F.Axundov" (1961), "Molla Pənah Vaqifin portreti" (1967), "İmadəddin Nəsimi" (1972), "Aşıq Ələsgərin portreti" (1975) və başqalarını nümunə göstərmək olar. Yaradıcılığında kitab qrafikasında Azərbaycan ədəbiyyatı nümunələri böyük yer tutmuşdur. Şifahi xalq ədəbiyyatından "Kitabi-Dədə Qorqud", "Molla Nəsrəddin lətifələri", yazılı ədəbiyyatımızdan "Leyli və Məcnun", "Danabaş kəndinin məktəbi", "Poçt qutusu", "Gələcək gün", "Şamo", "Şəbihicran" əsərlərinə çəkdiyi illüstrasiyalar Azərbaycan kitab qrafikası sənətinin bitkin nümunələrindəndir.

Əsərləri ölkəmizin sənət muzeylərini bəzədiyi kimi, xarici ölkələrin Paris, London, Berlin, Praqa, Budapeşt, Belqrad, Sofiya, Varşava, Dehli, Qahirə, Brüssel kimi şəhərlərin sərgi salonlarında nümayiş etdirilmişdir. 1956-1971-ci illərdə Hindistan, Əfqanıstan, Macarıstan, Polşa, İtaliya və başqa ölkələrə səfərlər zamanı çəkdiyi rəsmlər silsiləsində "Benqal qızları", "Racəstan qadınları", "Qoca əfqan", "Vatikan darvazası", "Qanqa sahillərində", "Tac-Mahal" və s. rəsm əsərlərində milli və fərdi xarakteristika, plastika, kolorit zənginliyi əsas yer tutmuşdur.

Yaradıcılığında Bakı metrosunun "Nizami" stansiyasının interyerinin tərtibatı xüsusi yer tutmuşdur. Ölkədə baş verən ictimai-siyasi hadisələrə də biganə qalmayan rəssam XX əsrin böyük cinayəti hesab etdiyi 20 Yanvar faciəsindən təsirlənmiş və 1992-ci ildə "Nakamların dəfni" əsərini yaratmışdır.

Azərbaycan mədəniyyətinin, rəssamlıq sənətinin inkişafındakı xidmətlərinə görə müxtəlif fəxri adlara, təltiflərə layiq görülmüşdür. O, SSRİ Rəssamlıq Akademiyasının akademiki, 1973-cü ildə professor olmuş, 1960-cı ildə SSRİ Rəssamlar İttifaqının üzvü, daha sonra katibi seçilmişdir. 1955-ci ildə Azərbaycan SSR-in Əməkdar İncəsənət xadimi, 1963-cü ildə Azərbaycan SSRİ Xalq rəssamı olmuşdur.

1971-ci ildə C.Nehru adına Beynəlxalq mükafatlar laureatı olmuş, Lenin ordeni, "Oktyabr inqilabı", "Xalqlar dostluğu", "İstiqlal" ordenlərinə, müxtəlif medal və fəxri fərmanlara layiq görülmüşdür.

Mikayıl Abdullayev 2002-ci il avqust ayının 21-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn edilmişdir.

110 illiyi
Əliövsət Sadıqov 1906-1971

Opera

Əliövsət Şirəli oğlu Sadıqov 1906-cı il dekabr ayının 22-də qədim Şəki torpağında, zəhmətkeş ailəsində anadan olmuşdur. İlk təhsilini Şəkidə mədrəsədə almış, sonra atası ilə birgə 3 saylı Şəki İpək fabrikində çalışmağa başlamışdır.

1926-cı ildə məşhur xanəndə Hüseynqulu Sarabski Şəki ipək fabrikində zəhmətkeşlərin qonağı olarkən fabrikin rəhbərliyi 20 yaşlı usta Əliövsəti təqdim etmiş və o, özünəməxsus tərzdə "Bəh-bəh" xalq mahnısını oxumuşdur. İfaçının səsi və oxusu H.Sarabskinin xoşuna gəlmiş və onu Bakıya dəvət etmişdir. Bu hadisə Əliövsətin həyatında önəmli bir dönüş yaratmış, onun sənət yolu bu tarixdən başlamışdır.

1927-ci ildə Bakıya gələn Əliövsət "Ay qız" xalq mahnısını məharətlə ifa etmiş, zahiri görünüşü və səs diapazonu opera sənəti üçün məqbul sayıldığından o, ustad sənətkarlar M.Maqomayev, C.Qaryağdıoğlunun rəyi ilə Opera və Balet Teatrına qəbul olunmuşdur. Əliövsət Sadıqov musiqi təhsili almağı da vacib saymış və 1928-ci ildə Azərbaycan Dövlət Konservatoriyasında 2 il professor Sferonskidən vokal dərsi almışdır.

Opera səhnəsinə xor kollektivinin üzvü kimi daxil olan sənətkara az müddətdən sonra solo obrazlar həvalə edilmiş, ilk rolları "Leyli və Məcnun" operasında Zeyd və İbn Səlam, "Aşıq Qərib"də Vəli, "Nərgiz"də Əliyar, "Koroğlu"da Eyvaz obrazları olmuşdur.

1930-cu ildən etibarən isə muğam operalarında baş rolların mahir ifaçısına çevrilmiş, ilk baş qəhrəman kimi çıxışı Zülfüqar Hacıbəylinin "Aşıq Qərib" operasında Qərib obrazı olmuşdur. 1931-ci ilin teatr mövsümündə M.Maqomayevin "Şah İsmayıl" operasında Şah İsmayıl obrazı Əliövsətə həvalə edilmişdir. Tamaşadan sonra müəllif "Mən əsl Şah İsmayılı tapdım" deyərək onu ürəkdən təbrik etmişdir. Bu obraz Əliövsət Sadıqovun yaradıcılığında mühüm yer tutmuş, 30 ilə qədər bu rolu ustalıqla oynamışdır.

1963-cü ilə qədər Əliövsət Sadıqov Azərbaycan operasının səhnəsində görkəmli sənətkarlarımız Həqiqət Rzayeva, Rübabə Muradova, Gülxar Həsənova, Xanlar Haqverdiyev, Şirzad Hüseynov və başqaları ilə çiyin-çiyinə çalışaraq opera sənətimizi inkişaf etdirmiş və gənc nəslə örnək olmuşdur.

Onun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, 1940-cı ildə "Əməkdar artist", 1956-cı ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüş, 2 dəfə "Şərəf nişanı" ordeni və medallarla təltif edilmişdir.

Xalq artisti Əliövsət Sadıqov 1971-ci il oktyabr ayının 17-də vəfat etmişdir.

Ədəbiyyat

Təhmirazqızı, S. Sənətin Əliövsət zirvəsi /S.Təhmirazqızı; red. R.Zöhrabov.- Bakı: "E.L", 2007.- 176 s.

Təhmirazqızı, S. Sənətin Əliövsət zirvəsi /S.Təhmirazqızı //Mədəniyyət.-2010.- 22 dekabr.- S. 12.

İnternetdə

www.anl.az

80 illiyi

Zeynəb Xanlarova 1936

Müğənni

Zeynəb Yəhya qızı Xanlarova 1936-cı il dekabr ayının 28-də Bakıda anadan olmuşdur. Məktəb vaxtlarından ədəbiyyata və musiqiyə böyük maraq göstərmiş, Bakıdakı Mərkəzi pioner və məktəblilər sarayında bədii özfəaliyyət dərnəyinə üzv yazılmış və dərnəkdə "Cücələrim"in ilk dəfə xorla səslənməsində iştirak etmişdir. 1956-cı ildə M.Ə.Sabir adına Bakı Məktəbəqədər Pedaqoji Məktəbə (indiki Azərbaycan Dövlət Pedaqoji Kolleci) qəbul olunmuşdur. Pedaqoji Məktəbi bitirdikdən sonra, Ə.Bədəlbəylinin təkidi ilə A.Zeynallı adına Bakı Orta İxtisas Musiqi Məktəbinə, böyük vokal ustadı Seyid Şuşinskinin sinfinə daxil olmuşdur. 1960-cı ildə qadın müğənniləri arasında ilk dəfə olaraq Z.Xanlarova "Çahargah" muğamını oxumuş və lentyazısı efirdə səslənmişdir.

"Çahargah"la yanaşı, "Şur" və "Dilkəş" təsniflərini, "Mahur-hindi", "Qatar", "Xaric segah", "Humayun", "Bayatı-kürd" muğamlarını ciddi-cəhdlə öyrənib oxumuşdur. Əsl novator ifaçı kimi hər bir vokal əsərini uzun illər boyu davam edən ənənəvi halda oxuma tərzində deyil, tamamilə yeni səpkidə ifa etmişdir. 1961-ci ildə məktəbi qurtardıqdan sonra görkəmli rejissor Şəmsi Bədəlbəyli onu Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına solist götürmüş və elə həmin ildə ölməz sənətkarımız Ü.Hacıbəylinin "Leyli və Məcnun" operasında Leyli obrazını ifa etmişdir. Leylidən sonra "Əsli və Kərəm"dəki Əsli də Zeynəb yaradıcılığında çox uğurlu rol kimi yadda qalmışdır.

Onun ifaçılığında ümumiləşdirmə, emosionallıq, sərrast səs həmləsi, plastiklik, mütənasiblik, aydın tələffüz, zəngin səs palitrası hamını heyran qoyur. Müğənninin repertuarında F. Əmirovun, C. Cahangirovun, T. Quliyevin, A. Məlikovun, R. Mustafayevin, Ş. Axundovanın, E. Sabitoğlunun, T. Hacıyevin, T. Bakıxanovun, R. Mirişlinin, O. Kazımovun, O.Rəcəbovun və onlarca başqalarının mahnıları mühüm yer tutmuşdur. Lirik soprano səsi olan müğəninin ifa tərzində temperament, gur zəngulələr onu xalqın sevimlisinə çevirmişdir.

ABŞ, Fransa, İsveç, İtaliya, Kanada, Yaponiya, Türkiyə, Danimarka və s. dünyanın müxtəlif yerlərində qastrol səfərində olmuş, konsertlər vermişdir.

1967-ci il musiqi ifaçılıq mədəniyyəti qarşısında mühüm xidmətlərinə görə istedadlı sənətkar "Azərbaycan SSR-in Əməkdar artisti", 1975-ci ildən "Azərbaycanın Xalq artisti", 1980-ci ildən isə "SSRİ Xalq artisti" fəxri adlarına layiq görülmüşdür. 1985-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı olmuş, 1986-cı ildə ona Ümumittifaq "Melodiya" firmasının "Qızıl valı" verilmiş, 2006-cı ildə "İstiqlal" və "Şöhrət" ordenləri ilə təltif olunmuşdur.

Z.Xanlarova haqqında üç seriyalı "Zeynəb" sənədli-musiqili film çəkilmişdir. Görkəmli müğənni Azərbaycan SSR Ali Sovetinin XI-XII çağırış deputatı olmuş və Azərbaycan Respublikası Milli Məclisinin I-V çağırış deputatıdır. 2011-ci ildə "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilmişdir.

Ədəbiyyat

Rəhmanzadə, F. Nəğmə dolu könül... /F.Rəhmanzadə; red.: R.Zöhrabov, S.İsmayılova.-Bakı: İşıq, 1989. -242 s.

Daşkənd mediası Zeynəb Xanlarovadan yazıb //525-ci qəzet.- 2015.- 9 yanvar.- S.7.

Zümrüd. Zeynəb Xanlarova təkrarolunmaz ifası ilə ümumxalq məhəbbəti qazanıb /Zümrüd //Səs .-2013.- 29 dekabr.- S. 13.

Багирзаде, Л. Кумир двух столетий /Л. Багирзаде //Каспий.- 2011.- 29 декабря.- С.8.

İnternetdə

www.anl.az

90 illiyi Əbülfət Əliyev 1926-1990

Xanəndə

Əbülfət Əsəd oğlu Əliyev 1926-cı il dekabr ayının 30-da Şuşada anadan olmuşdur. Ailəsi ilə Füzuli rayonuna köçmüş 4 il orada yaşamışdır. Bu müddətdə Bahadur bəyin məktəbində təhsil almışdır. Kiçik yaşlarından musiqi ilə maraqlanmış, Xan Şuşinskinin, Zülfünün, Bülbülün, Seyidin vallarına qulaq asmış, 1 saylı şəhər məktəbinin musiqili dram dərnəyinə yazılmışdır.

1938-1939-cu illərdə Ağdam Müəllimlər evində Xan Şuşinskinin rəhbərliyi altında muğam sinfi açılmış, Xan Şuşinski Əbülfəti dinləyib onun məşqlərə gəlməsini məsləhət görmüşdür. 1939-cu ildə səkkiz ay Məşədi Nərimanın dərnəyində tar çalmağı öyrənmişdir. 1942-ci ildə Böyük Oktyabr Sosialist İnqilabının 25-ci ildönümü münasibətilə onu həmyaşıdları ilə birgə Bakıya - Opera və Balet Teatrında keçirilən konsertə dəvət etmişlər. Konsertdə onu məşhur tarzən Qurban Pirimov, kamançada Hafiz Mirzəliyev müşayiət etmişdir. Bu konsertdə iştirak ona böyük uğur gətirmiş, 16 yaşından başlayaraq Qarabağın toylarında tarzən Məşədi Nərimanla, kamançaçı Elman Bədəlovla xalq mahnıları, muğamları ifa etmişlər.

Yaradıcılığa 1943-cü ildə Ağdam Mədəniyyət evində başlamışdı. O illərdə Əbülfət teatrda epizodik rollarda oynamış, tamaşalara yazılmış mahnıları məharətlə oxumuşdu. Bakıya gələndən sonra Respublika radiosunda solist işləmiş və radiodakı çıxışları onu bir xanəndə kimi daha da məşhurlaşdırmışdı.

1945-ci ildə böyük sənət məbədi olan Azərbaycan Dövlət Filarmoniyasının solisti kimi X.Şuşinski, Z.Adıgözəlov, Ş.Ələkbərova, S.Qədimova, F.Mehrəliyeva, T.İsmayılova kimi geniş diapazonlu, gözəl səsli müğənnilərlə birgə çalışmışdı. Onun repertuarında 400-ə qədər xalq və bəstəkar mahnıları var idi. Xanəndənin səsinin ilk dəfə lentə köçürülməsi 1956-cı il 7 oktyabrda "Pəri" xalq mahnısı ilə başlamışdır. Əbülfət bəstəkar mahnılarının da gözəl ifaçısı idi. Xanəndənin ifasında səslənən "Segah-zabul", "Rast", "Şur", "Hümayun", "Rahab", "Mahur hindi", "Bayatı-Şiraz", "Çahargah", "Zabul" muğamları radio və televiziyanın fonotekasında saxlanılır.

Ə.Əliyev 1956-1962-ci illərdə Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuşdur. Ü. Hacıbəylinin "Leyli və Məcnun" operası Ə.Əliyevin iştirakı ilə lentə alınaraq Azərbaycan Respublikası radiosunun qızıl fondunda saxlanılır. 1971-ci ildə Moskada 153 ölkədən gəlmiş sənətkarların iştirakı ilə keçirilən "Xalqların musiqi mədəniyyəti: ənənə və novatorluq" adlı VII Ümumdünya musiqi konqresində Ə.Əliyev Azərbaycan professional musiqi ifaçılığını ləyaqətlə təmsil etmiş, YUNESKO-nun döş nişanına və diplomuna layiq görülmüşdür. Xanəndənin musiqimizin inkişafındakı xidmətləri yüksək qiymətləndirilərək ona 1958-ci ildə Respublikanın Əməkdar, 1964-cü ildə isə Xalq artisti fəxri adı verilmişdir.

Görkəmli xanəndə Əbülfət Əliyev 27 dekabr 1990-cı ildə vəfat etmişdir.

Ədəbiyyat

Çəmənli, M. Nəğməli xatirələr /M.Çəmənli.- Bakı: "El" NPŞ MMC, 2007.- 183 s.

Əliyev Əbülfət Əsəd oğlu //Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.- Bakı, 1980.- C.4.- S.172.

Rəhimli, İ. Əbülfət Əliyev //Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.577-578.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.elibrary.az

110 illiyi

Əşrəf Yusifzadə 1906-1963

Aktyor

Əşrəf Əmrah oğlu Yusifzadə 1906-cı il dekabr ayının 5-ində Şərur rayonunun Sərxanlı kəndində anadan olmuşdur. On dörd yaşına kimi kənddə yaşamış, 1921-1925-ci illərdə Şərurdakı birinci dərəcəli məktəbdə oxumuşdur. Ədəbiyyata, dramaturgiyaya coşğun həvəs göstərən Əşrəf məktəbdəki dram dərnəyinin fəallarından olmuşdur. Beşillik təhsilini uğurla başa vuraraq müəllimlərinin tövsiyəsi ilə İrəvana gəlmiş, təhsilini davam etdirmişdir. İrəvanda Azərbaycan teatrının canlı klassiklərindən olan Yunis Nurinin dram dərnəyinə gedən aktyor, onun zəmanəti ilə İrəvan Dram Azərbaycan teatr dəstəsinin aktyor heyətinə qəbul olunmuşdur. Burada epizodik rollar oynamış, kütləvi səhnələrdə iştirak etmişdir. Bu kollektivdə ilk dəfə Jan Batist Molyerin "Zorən təbib" komediyasında nökər rolunu ifa etmişdir. 1930-cu ildə teatr sənətindən ayrılaraq Bakıya ali təhsil almağa gəlmiş, burada Politexnik İnstitutuna (indiki Azərbaycan Texniki Universiteti) daxil olmuşdur. Məşhur aktyor Rza Təhmasiblə, şair-dramaturq H.Cavidlə dostluğu onu yenidən teatr sənətinə bağlamış, 1932-ci il oktyabr ayında isə Bakı Türk İşçi Teatrının truppasına aktyor götürülmüşdür. 1933-cü ildə kollektivlə birgə Gəncəyə gəlmiş və ömrünün sonunadək Gəncə Dövlət Dram Teatrında fəaliyyət göstərmişdir. Gur səsi, pafoslu danışıq ahəngi klassik faciə obrazlarının və çağdaş romantik duyğulu xarakterlərin səhnə təcəssümündə daha qabarıq nəzərə çarpmışdır. Gəncə tamaşaçılarının rəğbət və məhəbbətini, ehtiram və hörmətini qazanmış, teatrda tamaşalar hazırlamış rejissorlardan H. İsmayılov, M.Məmmədov, H.Ağayev, H.Sultanov, T.Kazımov, N.Sadıqzadə, Y.Bağırov, V.Şərifov, Ə.Quliyevin bədii cəhətdən daha kamil quruluşlarında əsas rolları ifa etmişdir.

Məşhur aktyorun zəngin və əlvan yaradıcılıq xəzinəsinin əsas rolları: Mirzə Rəhim ("Özgə uşaqları", V.Şkvarkin), Balarza, Atakişi, Mirzə Rza, Aqşin, General-qubernator, Dövlət bəy (C.Cabbarlı "Almaz", "Sevil", "Nəsrəddin şah", "Od gəlini", "1905-ci ildə" və "Aydın"), Məktəb naçalniki (Tur qardaşları və Lev Şeynin "Üzləşdirmə"), Frans Moor ("Qaçaqlar", F.Şiller), Vaqif və Qacar, Xosrov (S.Vurğun "Vaqif" və "Fərhad və Şirin"), Dəmirçi Musa, Mirzə Qərənfil, Gülümov, Qasım (S.Rəhman "Toy", "Xoşbəxtlər", "Aşnalar" və "Nişanlı qız"), Yaqo (V.Şekspir "Otello"), Veysəl və Qaya (M.Təhmasib "Bahar"), Nizami (M.Hüseyn "Nizami"), Tofiq (İ.Əfəndiyev və M.Hüseyn "İntizar"), Əhmədi Biqəm, Məşədi Hüseyn (M.İbrahimov "Məhəbbət" və "Həyat"), Hacı Qara (M.F.Axundzadə "Hacı Qara"), Xosrov Atayev, Nəcəf (İ.Əfəndiyev "Atayevlər ailəsi" və "Bahar suları"), Con Rayt (İ.Mosaşvili "Qərq edilmiş daşlar"), Şeyx Nəsrulla (C.Məmmədquluzadə "Ölülər"), Vilyams (N.Hikmət "Kəllə"), Sultan Zöhrabov (B.Vahabzadə "Vicdan"), Şeyx Sənan və Özdəmir, Keykavus (H.Cavid "Şeyx Sənan" və "Səyavuş"), Ezop (G.Fiqeyredu "Tülkü və üzüm"), Səməd Vurğun (İ.Coşqun "Komsomol poeması").

17 iyun 1943-cü ildə "Azərbaycanın Əməkdar artisti", 30 aprel 1955-ci ildə isə "Xalq artisti" fəxri adları ilə təltif edilmişdir.

Əşrəf Əmrah oğlu Yusifzadə 1963-cü il mart ayının 7-də Gəncə şəhərində vəfat etmişdir.

Ə d ə b i y y a t

Məmmədov, A.Əşrəf Yusifzadə /A.Məmmədov; red. Y.Əzimzadə; Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: Azərnəşr, 1974.- 23 s.

Yusifzadə Əşrəf /[red. C.Səfərov].- Bakı: Azərbaycan teatr cəmiyyətinin nəşri, 1961.- [2] qat. v.

Yusifzadə Əşrəf //Naxçıvan ensiklopediyası / AMEA; red. hey. C.Əliyev, A.Əlizadə, İ.Həbibbəyli [və b.].- Bakı: AMEA, 2002.- S.585.

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.bahlulzade.az

www.medeniyyet.az

95 illiyi

Həsənağa Salayev 1921-1981

Aktyor

Həsənağa Dərya oğlu Salayev 1921-ci il dekabr ayının 5-də Bakıda, qulluqçu ailəsində doğulmuşdur. Bakıdakı 6-cı Şura məktəbində təhsil almış, 1937-ci ildə oranın doqquzuncu sinfini yüksək qiymətlərlə bitirmişdir. Elə həmin il Bakı Teatr Texnikumuna daxil olmuşdur. Tələbə ikən 1938-ci ildə Akademik Milli Dram Teatrının aktyor heyətinə qəbul edilmiş, 1941-ci ildə təhsilini başa vurduğu günlərdə müharibəyə getmiş, müharibənin qanlı-qadalı günlərindən keçmiş, qələbədən sonra 1946-cı ildə yenidən doğma kollektivə qayıtmış, səhnədə onlarla müxtəlif xarakterli obrazlar yaratmışdır. Klassik dramaturgiya ilə yanaşı, müasirlərinin də əsərlərindən təqdim etdiyi rollar həm həmkarları, həm də sənətsevərlər tərəfindən rəğbətlə qarşılanmışdır.

Səhnədə ilk rolu Səməd Vurğunun "Xanlar" pyesindəki jandarm obrazı olmuşdur. Tamaşada tərəf-müqabili, görkəmli səhnə ustası Mərziyə Davudova Həsənağa Salayevin bu rolunu yüksək qiymətləndirmişdir.

Müxtəlif illərdə S.Vurğunun "Fərhad və Şirin" (Fərhad), "Vaqif" (Eldar, Qacar və Vaqif), Z.Xəlilin "Qatır Məmməd" (Əziz), Ənvər Məmmədxanlının "Şərqin səhəri" (Mustafa), V.Şekspirin "Otello" (Montano), "Antoni və Kleopatra" (Sezar), "Qış nağılı" (Florizel və Leont), N.Hikmətin "Türkiyədə" (Hüseyn Həlim), M.İbrahimovun "Həyat" (Abbas), M.Hüseynin "Cavanşir" (Qartal və Söhrab), "Alov" (Əmin Bəxtiyarov) və başqa neçə-neçə əsərlərin tamaşalarında xarakterik səhnə surətləri yaratmışdır.

H.Salayevin bir aktyor kimi yetişməsində teatrın rejissorlarından Xalq artistləri A.İsgəndərovun, M.Məmmədovun, Ə.Şərifovun, Əməkdar incəsənət xadimi T.Kazımovun və başqalarının böyük əməyi olmuşdur. O, dolğun, psixoloji xarakterə malik mürəkkəb obrazları müvəffəqiyyətlə yaratmış, rolları birbirinə bənzəməmişdir.

"Oqtay Eloğlu" (C.Cabbarlı) tamaşasında yaratdığı baş qəhrəman haqqında uzun illər mətbuatda müxtəlif fikirlər səslənmişdir. Səhnə fədaisinin yaratdığı həmin monumental obraz bu günə kimi əvəzedilməz olaraq qalmaqdadır.

Teatrla yanaşı, kino sahəsində də çalışmış, "Azərbaycanfilm" kinostudiyasının istehsal etdiyi "Fətəli xan", "Görüş", "O olmasın, bu olsun", "Onu bağışlamaq olarmı?", "Koroğlu", "İstintaq davam edir" bədii və "Aygün" televiziya filmlərində Süleyman, Musa, Əzim Əzimzadə, Qüdrət, Eyvaz, Mayor Rüstəmov, Əmirxan rollarına çəkilmişdir. "İstintaq davam edir" bədii filmində həm baş rolda oynamış, həm də bu ekran əsərinin rejissoru olmuşdur.

Təkcə Azərbaycanda deyil, keçmiş SSRİ-nin bütün müttəfiq respublikalarında tanınırdı. Oynadığı rollara görə hətta qastrollara getdiyi yerlərin mükafatlarını almışdır.

Milli teatrın inkişafındakı xidmətlərinə görə bir sıra mükafatlara layiq görülmüş, 10 iyun 1959-cu ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1974-cü ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

Görkəmli aktyor, Xalq artisti Həsənağa Salayev 1981-ci il oktyabr ayının 2-də vəfat etmişdir.

Ədəbiyyat

Həsənağa Salayev [İzomaterial] /Azərbaycan Teatr Cəmiyyəti.- Bakı: Elm, 1974.-[1] qat. v. Azərbaycan Dram Teatrı-100.

Atayev, M. Həsənağa Salayev /M.Atayev; red. C.Səfərov; Azərb. Teatr Cəmiyyəti.- Bakı: Azərnəşr, 1974.- 57, [3] s.

Unudulmaz obrazlar ustası Həsənağa Salayev: Səhnədə ilk uğurlar... //Azadlıq.-2012.- 9 aprel.- S.14.

Hüseynova, G. Həsənağa Salayev: Romantik və realist aktyor məktəbinin yetişdirməsi /G.Hüseynova //Mədəni həyat.- 2013.- №9.- S.85-88.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

110 illiyi

Əlisəttar Atakişiyev 1906-1990

Kinorejissor



Ə d ə b i y y a t

Bəxtiyar: nağıl-povest /Ə.Atakişiyev; [red. T.Cəmilova].- Bakı: Gənclik, 1980.- 88, [4] s.

İbrahim və oğlu Bəxtiyarın sərgüzəştləri: [povest-nağıl] /Ə.Atakişiyev.- Bakı: Gənclik, 1985.- 192 s.

Kazımzadə, A. Əbədi ölməzlik zirvəsi: Azərbaycanın Əməkdar incəsənət xadimi, kinooperator və kinorejissor Əlisəttar Atakişiyevin anadan olmasının 100 illiyinə həsr edilir /A.Kazımzadə; red. M.Bəyişli; Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- Bakı: E.L. NPŞ MMC, 2006.- 134 s.

Bürcəliyeva, Ş. Kino bilicisi /Ş.Bürcəliyeva //Mədəniyyət.- 2011.- 30 dekabr.- S.10.

Kazımzadə, A. Uşaqlar üçün nağıl, böyüklər üçün klassika /A.Kazımzadə //Kaspi.- 2014.- 8-10 noyabr.- S.16.

www.anl.az

www.az.wikipedia.org

Əlisəttar Ələsgər oğlu Atakişiyev 1906-cı il dekabr ayının 25-də Bakıda anadan olmuşdur. 8 yaşında valideynlərini itirmiş, 1924-cü ildə orta məktəbi bitirdikdən sonra jurnallarda rəssam kimi fəaliyyət göstərmiş, Moskva Ali Rəssamlıq-Texniki Məktəbinin rəngkarlıq şöbəsində təhsil almışdır. Azərbaycan dilində nəşr olunan "Şərq qadını" və "Həmkarlar İttifaqı" jurnalları redaksiyasında rəssam-illüstrator işləmişdir. 1926-cı ilin sonunda Moskvaya getmiş, SSRİ Xalq Komissarları Sovetinin İşlər İdarəsində tərcüməçi kimi çalışmışdır. 1930-cu ildə Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunun Kinooperatorluq fakültəsinə qəbul olunmuş, 1936-cı ildə təhsilini başa vuraraq "Mosfilm" kinostudiyasında operator kimi fəaliyyətə başlamışdır.

"Azərfilm" studiyasına dəvət olunan operator ilkin olaraq "Bakılılar" filmində baş operator işləmişdir. Daha sonra isə yenə də "Mosfilm"ə qayıtmışdır. Burada ilk rəngli filmlərin yaradılmasında iştirak etmişdir. Əlisəttar Atakişiyev müharibə illərində Bakıya gəlmiş, burada "Arşın mal alan" filminin çəkilişlərində iştirak etmişdir. Müstəqil operator kimi Əlisəttar Atakişiyev "Fətəli xan" filmində işləmişdir. 1953-cü ildə Tallinə göndərilmiş və burada müharibədən sonra kino istehsalının bərpa edilməsində xüsusi xidmət göstərmişdir. Estoniyanın ilk rəngli ("Axşam düşəndə", 1955, filmkonsert) filmini çəkmişdir. 1956-cı ildə Azərbaycana qayıtdıqdan sonra "O olmasın, bu olsun", "Uzaq sahillərdə" və bir neçə sənədli filmdə operator kimi fəaliyyət göstərmişdir. Rejissor kimi "Bir qalanın sirri", "Sehrli xalat", "Qərib cinlər diyarında" kimi filmləri ilə Azərbaycan uşaq kinosunun əsasını qoymuşdur.

Kinorejissor Əlisəttar Atakişiyevin istər operator, istərsə də rejissor kimi çəkdiyi filmlər Azərbaycan kino tarixində öz layiqli yerini tutmuşdur. Görkəmli sənətkar incəsənətdə heyran olunacaq dərəcədə sadə, lakin ciddi, güzəştsiz və ibrətamiz ömür yaşamışdır. O, özünü təkcə operator və rejissor kimi deyil, həm də dekorasiya rəssamı, geyim rəssamı, quraşdırma çəkilişləri rəssamı, ssenarist, dublyaj rejissoru kimi də təsdiqləmişdi. Özünə xas ustalıqla filmlərinə fərqli aktyorlar seçmiş, ekranda təkrarsız nağıl dünyası yaratmışdır. "Bizim küçə", "İstintaq davam edir" filmləri ilə Azərbaycan kinosunu zənginləşdirməklə, rəssam kimi də fəaliyyətini davam etdirmişdir. Əsərləri keçmiş ümumittifaq və respublika sərgilərində dəfələrlə nümayiş olunmuşdur. Eləcə də uşaqlar üçün "İbrahimin sərgüzəştləri" adlı nağıllar kitabını da çap etdirmişdir.

Azərbaycan kinosunun inkişafında əvəzsiz xidmətlərindən biri də dublyaj sənətinin inkişafına təkan verməsi olmuşdur. 50-yə yaxın filmi peşəkar səviyyədə Azərbaycan dilinə dublyaj etmişdir. Ümumiyyətlə, Ə.Atakişiyev "Azərbaycanfilm" kinostudiyasında işlədiyi 45 il ərzində operator kimi 11, 2 bədii-sənədli, 4 sənədli, rejissor kimi 5 bədii film çəkmişdir.

1960-cı ildə "Əməkdar incəsənət xadimi" fəxri adını almışdır.

Əlisəttar Atakişiyev 1990-cı il noyabr ayının 7-də Moskvada, Kino Veteranları evində vəfat etmişdir.

75 illiyi

Zemfira Əliyeva 1941-1995

Aktrisa

Zemfira Məmmədəli qızı Əliyeva 1941-ci il dekabr ayının 25-də Gəncə şəhərində anadan olmuşdur. Anası Firuzə Bədirbəyli Gəncə Dövlət Dram Teatrının aktrisası olmuşdur. Aktrisa da kiçik yaşlarından teatrın tamaşalarında uşaq rollarını ifa etmişdir. Rolları emosional və xüsusi məharətlə yaratma qabiliyyəti və istedadı olduğu üçün 17 yaşında ona Cəfər Cabbarlının "Solğun çiçəklər" melodramasında Sara rolu tapşırılmışdır. Gənc aktrisa bu roluna görə böyük uğur qazanmışdır. Bundan sonra teatra işə götürülmüş və qısa müddətdə Səməd Vurğunun "Vaqif" (Gülnar), Viktor Rozovun "Sabahın xeyir" (Liza), Evripidin "Medeya" (Medeya), Əfqan Əsgərovun "Qız atası" (Məryəm) əsərlərinin tamaşalarında mürəkkəb rollar oynamış, "Böyük dayaq" filmində Pərişan obrazına çəkilmişdir.

Füsunkar səhnə görkəmi, məlahətli danışığı, zəngin və əlvan ifadə vasitələri, coşqun daxili ehtirası onun əsas keyfiyyətlərindən idi. Bu yaradıcılıq keyfiyyətləri aktrisanın yaratdığı səhnə surətlərinə xüsusi emosional təravət, psixoloji dərinlik və fəlsəfi bütövlük vermişdir.

Zemfira Əliyeva bir sıra tamaşalarda aşağıdakı baş rolları ifa etmişdir: Almaz, Sara, Firəngiz, Yaqut ("Almaz", "Solğun çiçəklər", "Oqtay Eloğlu" və "Yaşar", Cəfər Cabbarlı), Səlma, Roza, Xumar, Anjel ("Ana", "Şeyda", "Şeyx Sənan" və "Uçurum", Hüseyn Cavid), Sona ("Hacı Qara", Mirzə Fətəli Axundzadə), Reyhan ("Yağışdan sonra", Bəxtiyar Vahabzadə), Maral ("Sənsiz", Şıxəli Qurbanov), Mədinə, Azadə ("Mənim nəğməkar bibim" və "Bir cüt bədmüşk ağacı", Əkrəm Əylisli), Pırpız Sona ("Dəli yığıncağı", Cəlil Məmmədquluzadə), Zinyət ("Toy", Sabit Rəhman), Söylü ("Bəxt üzüyü", Vaqif Səmədoğlu ,) Nərmin, Anjel ("Unuda bilmirəm" və "Məhv olmuş gündəliklər", İlyas Əfəndiyev), Kleya ("Tülkü və üzüm", Gilerma Fiqeyredu), Pəricahan və Zöhrə ("Laçın yuvası" və "Eşq və intiqam", Süleyman Sani Axundov), Zəhra ("Bayramın birinci günü", Nazim Hikmət), Elektra ("Elektra", Sofokl), Dilbər ("Yenə o bağ olaydı...", Mlkayıl Müşfiqin şeirləri əsasında bədii kompozisiya), Vəfa ("Siz xoşbəxt yaşayın", Əlyar Yusifli).

1972-ci ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının truppasına daxil olmuşdur. Bu teatrda qazandığı sənətkarlıq nailiyyətlərinə görə 1 iyun 1974-cü ildə "Azərbaycan Respublikasının Əməkdar artisti", 1 dekabr 1982-ci ildə isə "Xalq artisti" fəxri adlarına layiq görülmüşdür.

1988-1995-ci illərdə Akademik Milli Dram Teatrında çalışmışdır.

Televiziya tamaşalarında da yaddaqalan obrazlar ("Yad qızı", Orxan Kamal, "Manas" və s.) yaratmışdır. "Azərbaycanfilm"in "Pəncərə", çoxseriyalı "İtkin gəlin" filmlərində çəkilmişdir.

Xalq artisti Zemfira Məmmədəli qızı Əliyeva 16 noyabr 1995-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Zemfira Əliyeva /Naxçıvan MSSR, Mədəniyyət Nazirliyi.- Bakı: İşıq, 1981.-[4] s.

Rəhimli, İ. Zemfira Əliyeva ///İ.Rəhimli İ. Azərbaycan teatr tarixi.- Bakı, 2005.- S.235.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

Milli Qəhrəmanlar

55 illiyi

Salatın Əsgərova 1961-1991

Milli Qəhrəman

Salatın Əziz qızı Əsgərova 1961-ci il dekabr ayının 16-da Bakıda anadan olmuşdur. 1979-cu ildə M.Müşviq adına 18 saylı orta məktəbi əla qiymətlərlə başa vurmuşdur. Elə həmin il Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş, mühəndislik ixtisası üzrə təhsil alsa da, ədəbiyyata olan həvəsi onu jurnalistika aləminə yönəltmişdir.

Əvvəlcə qələmini ştatdankənar müxbir kimi sınamış, 1984-cü ildə müqavilə ilə "Bakı" qəzetində, 4 il sonra isə "Молодежь Азербайджана" (Azərbaycan gəncləri) qəzetində çalışmış, müxtəlif mövzularda çıxışlar etməyə başlamışdır. Onun işıqlandırdığı məsələlər ölkənin ən vacib problemləri ilə bağlı olmuş, Qarabağ dərdi, torpaqlarımızın bütövlüyü yazılarının başlıca mövzularına çevrilmişdi. Tez-tez cəbhə xəttinə gedərək qaynar nöqtələrdən operativ materiallar hazırlayan Salatının ailəsi, iş yoldaşları dəfələrlə qarşısını almağa çalışsalar da, ona mane ola bilməmişdilər.

1991-ci il yanvar ayının 9-da içərisində Salatın Əsgərovanın olduğu maşın Laçından Şuşaya gələrkən, yolun 6-cı kilometrində, Qaladərəsi kəndi yaxınlığında erməni quldurları tərəfindən yaxın məsafədən atəşə məruz qalmışdır. Tanınmış jurnalist vəhşicəsinə qətlə yetirilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 294 saylı Fərmanı ilə Əsgərova Salatın Əziz qızına ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmiş, Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Bakı şəhərində adına küçə var. Bakı buxtasındakı gəzinti kateri onun adını daşıyır. "Təfəkkür" Universitetində büstü qoyulmuşdur. Yaşadığı binaya barelyefi vurulmuşdur. Yaxınlığında həlak olduğu kənd "Salatınkənd" adlanır.

Ə d ə b i y y a t

S.Ə.Əsgərovaya, A.M.Mustafayevə "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Əsgərova Salatın Əziz qızı - "Молодежь Азербайджана" qəzetinin müxbiri - Qarabağın Dağlıq hissəsində baş verən hadisələrin respublika və dünya ictimaiyyətinə çatdırılmasında xüsusi xidmətlərinə, xidməti borcunu yerinə yetirərkən göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 6 noyabr 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- № 21.- S.27. (Ölümündən sonra).
Əsgərov, V. Əsgərova Salatın Əziz qızı /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.100.
Əsgərova Salatın Əziz qızı //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.71.
Odlu nöqtələrdən yazan qəhrəman xanım: Salatın Əsgərova həmişə ucuz ölümdən qorxurdu //Şərq.- 20
Şəymən. Şəhid jurnalist - Salatın Əsgərova /Şəymən //Şərq.-2013.- 17 dekabr.- S.11.

İ n t e r n e t d ə

www.anl.az
www.adam.az
www.az.wikipedia.org
www.milliqahraman.az
www.e-qanun.az

60 illiyi

Riad Əhmədov 1956-1992

Milli Qəhrəman

Riad Fikrət oğlu Əhmədov 1956-cı il dekabr ayının 20-də Bakı şəhərində anadan olmuşdur. 1972-ci ildə Bakıdakı 134 saylı məktəbi bitirmiş, Azərbaycan Dövlət Universitetinə (indiki Bakı Dövlət Universiteti) daxil olmuşdur. 1976-cı ildə hüquq fakültəsini bitirərək 1981-ci ilə qədər Azərbaycan Respublikası Ədliyyə Nazirliyində hüquq məsləhətçisi vəzifəsində işləmişdir. 1982-ci ildə Minsk Ali Hərbi Məktəbini bitirmiş, Bakıya qayıdaraq Milli Təhlükəsizlik Nazirliyinin əks kəşfiyyat idarəsində fəaliyyətə başlamışdı. Azərbaycan torpağında gedən müharibə bir zabit kimi onu rahat buraxmamış, 1989-cu ildən etibarən tez-tez Qarabağın sərhəd bölgələrinə getmiş, döyüşlərin fəal iştirakçısına çevrilmişdi. 1991-ci ildə erməni yaraqlılarının mühüm strateji dayaq məntəqələrindən biri sayılan Çaykəndin azad edilməsi əməliyyatında xüsusi xidmət göstərdiyinə görə yüksək mükafata layiq görülmüşdü. 1992-ci ilin yanvar ayında keçmiş Əfqanıstan döyüşçülərindən xüsusi təyinatlı dəstə yaradan polkovnik-leytenant R.Əhmədov Şuşaya göndərilmişdir. Yanvarın 26-da ona daha bir çətin döyüş tapşırılmış, Riad dəstədən 11 nəfər götürərək Şuşa-Laçın yolunun üstündə ən böyük maneə olan Daşaltının düşməndən təmizlənməsində iştirak edənlərə kömək göstərmişdir. Qeyri-bərabər gedən döyüşdə Riad itkin düşmüşdür. Sonrakı taleyi haqqında məlumat yoxdur.

Azərbaycan Respublikası Prezidentinin 7 iyul 1992-ci il tarixli 833 saylı Fərmanı ilə Əhmədov Riad Fikrət oğluna "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir.

203 saylı orta məktəb onun adını daşıyır. Yaşadığı binaya və adını daşıdığı məktəbə xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Azərbaycan Respublikasının Müdafiə Nazirliyinin hərbi qulluqçularına "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında [Əhmədov Riad Fikrət oğlu - podpolkovnik - Azərbaycan Respublikasının suverenliyi və ərazi Dekabr 55 illiyi Riad Əhmədov 1956-1992 Milli 20 Qəhrəman 341 bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaətə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 7 iyun 1992-ci il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.- 1992.- №13.-S.25.-(Ölümündən sonra).

Cavadlı M. Riad: poema /M.Cavadlı; red. və ön sözün müəl. F.Qoca.-Bakı: Qismət, 2011.- 115, [5] s.

Əhmədov Riad Fikrət oğlu //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.52.

Əsgərov, V. Əhmədov Riad Fikrət oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Yenidən işlənmiş II nəşr.- Bakı, 2010.- S.71-72.

Xaçınçaylı, Q. Qan yaddaşımıza çevrilən Daşaltı harayı: Azərbaycanın Milli Qəhrəmanı, polkovnik-leytenant Riad Əhmədovun döyüş yolu /Q. Xaçınçaylı //Həftə içi.-2014.- 28 yanvar.- S.7.

Nazirlər Kabineti Milli Qəhrəman Riad Əhmədovun xatirəsinin əbədiləşdirilməsi barədə qərar qəbul etmişdir //Azərbaycan.- 2012.- 2 fevral.- S.1.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

60 illiyi

Vəzir Orucov 1956-1993

Milli Qəhrəman

Vəzir Surxay oğlu Orucov 1956-cı il dekabr ayının 26-da Tərtər rayonunun Xoruzlu kəndində anadan olmuşdur. Orta təhsilini burada almış, 1974-cü ildə Bakı Yüngül Sənaye Texnikumuna daxil olmuş və bir ildən sonra hərbi xidmətə çağırılmışdır. 1977-ci ildə hərbi xidmətdən tərxis olunaraq, yarımçıq qalmış təhsilini davam etdirmişdir.

İlk əmək fəaliyyətinə Tərtər Çörək Zavodunda başlamışdır. 1984-cü il Rusiyanın Arxangelsk vilayətinə köçmüş, lakin 1992-ci ildə Qarabağ müharibəsində iştirak etmək üçün könüllü olaraq Vətənə dönmüşdür. 1992-ci il 4 may Tərtər özünümüdafiə batalyonlarından birinə daxil olmuşdur. Vəzir sıravi döyüşçü olduğu halda komandir müavini vəzifəsinədək yüksəlmişdir. Batalyonun kəşfiyyat bölməsinin rəhbərliyini öz üzərinə götürmüşdür. Onun həmişə uğurlu keçən əməliyyatları döyüş yoldaşlarını ruhlandırmış, onları qələbəyə səsləmişdir.

V.Orucov Marquşevan, Drombon, Levonarx, Madagiz, Akop Komari, Sərsəng su ambarı, Çıldıran, Vaqauz kəndləri uğrunda gedən döyüşlərdə kəşfiyyatçı olaraq düşmənin saysız planlarını puç etmişdir. 1 sentyabr 1992-ci il Çıldıran kəndi uğrunda gedən döyüşdə ağır yaralanmışdır. Bir müddət müalicə olunan Vəzir yenidən cəbhəyə dönmüşdür. Cəsur bir döyüşçü kimi həmişə döyüş əməliyyatlarının önündə getmiş, əfsanəvi qəhrəman kimi tanınmışdır.

22 mart 1993-cü ildə Ağdərənin Qlobus yüksəkliyi uğrunda gedən ağır döyüşdə qəhrəmancasına həlak olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 27 mart 1993-cü il tarixli 495 saylı Fərmanı ilə Orucov Vəzir Surxay oğluna ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adı verilmişdir. Bakı şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir.

Ə d ə b i y y a t

Vəzir Surxay oğlu Orucova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməsi haqqında: [Batalyon komandirinin müavini- Azərbaycan Respublikasının suverenliyi və ərazi bütövlüyünün qorunmasında, dinc əhalinin təhlükəsizliyinin təmin edilməsində göstərdiyi şəxsi igidlik və şücaət göstərdiyinə görə]: Azərbaycan Respublikası Prezidentinin Fərmanı, 27 mart 1993-cü il //Azərbaycan Respublikası Ali Sovetinin Məlumatı.-1993.- № 6.- S.7.- (Ölümündən sonra).

Əsgərov V. Orucov Vəzir Surxay oğlu /V.Əsgərov //Azərbaycanın Milli Qəhrəmanları.- Bakı, 2010.- S.235-236.

O, vətən torpağı üçün doğulmuş bir qəhrəman idi...: Orucovların faciəvi ailə dramı //Azadlıq.-2011.- 27 oktyabr.- S.14.

Orucov Vəzir Surxay oğlu: (1963-1993) //Azərbaycanın Milli Qəhrəmanları /M.F.Axundov adına Milli Kitabxana; tərt. ed. H.Həmidova.- Bakı, 2008.- S.168.

Səmədov, V. Vəzir Surxay oğlu Orucov (1963-1993) /V.Səmədov, S.Aslanov //Təki vətən yaşasın.- Bakı, 19

Zeynalov, R. Orucov Vəzir Surxay oğlu: (1963-1993) /R.Zeynalov //Azərbaycanın Milli Qəhrəmanları.- B

İ n t e r n e t d ə

www.anl.az

www.az.wikipedia.org

www.milliqahraman.az

www.e-qanun.az

75 illiyi

Məhəmməd Əsədov 1941-1991

İctimai xadim

Məhəmməd Nəbi oğlu Əsədov 1941-ci il dekabr ayının 5-də Zəngilan rayonunun Baharlı kəndində anadan olmuşdur. 1958-ci ildə orta məktəbi Zəngilan rayonunun Mincivan qəsəbəsində bitirmiş, həmin ildə Bakı Statistika Texnikumuna daxil olmuşdur. 1960-cı ildə texnikumu müvəffəqiyyətlə başa vuraraq Zəngilan rayonunda inspektor vəzifəsində çalışmışdır.

1961-1964-cü illərdə orduda xidmət etmiş, tərxis olunduqdan sonra Sumqayıt şəhərində 1 saylı trestdə çalışmışdır.

1965-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olmuşdur. Eyni zamanda 2 saylı trestdə mühasib işləmiş, 1967-1968-ci illərdə trestdə plan şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

1968-ci ildə Sumqayıt Şəhər Partiya Komitəsinin Sənaye şöbəsinə təlimatçı vəzifəsinə irəli çəkilmişdir. 1970-ci ildə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Maliyyə və kredit ixtisası üzrə tam kursunu bitirmişdir. 1973-1975-ci illərdə Sumqayıt Şəhər Partiya Komitəsində sənaye şöbəsinin, 1975-1978-ci illərdə isə Təşkilat şöbəsinin müdiri olmuşdur.

1978-1980-ci illərdə Ağsu Rayon İcraiyyə Komitəsinin sədri kimi fəaliyyət göstərmişdir. 1982-ci ildə Moskva Təhlükəsizlik Akademiyasını qırmızı diplomla başa vurmuş, Azərbaycan Təhlükəsizlik Nazirliyində məsul vəzifədə çalışmışdır.

1983-1986-cı illərdə Jdanov (indiki Beyləqan) Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmiş, işlədiyi müddətdə göstərdiyi işgüzarlığına, biliyinə, qabiliyyətinə görə onu Mərkəzi Komitəyə dəvət etmişlər. 1986-1988-ci illərdə İnzibati orqanlar şöbəsinə müdirlik etmişdir.

1988-1989-cu illərdə Ağdaş Rayon Partiya Komitəsinin birinci katibi vəzifəsində işləmiş, öz təşkilatçılıq qabiliyyəti ilə təsərrüfatın bütün sahələrini ön cərgəyə çıxarmışdır. 1989-1990-cı illərdə fəaliyyətini Quba Rayon Partiya Komitəsinin birinci katibi kimi məsuliyyətlə davam etdirmişdir.

M.Əsədov 1990-cı ilin may ayında Azərbaycan Respublikasının Daxili İşlər naziri vəzifəsinə təyin edilmişdir. Nazir işlədiyi müddətdə vaxtının çoxunu Qarabağ bölgəsində keçirmiş, əsgərlərlə çiyin-çiyinə səngərlərdə gecələmişdir.

1990-cı il noyabr ayının 5-də general-mayor rütbəsini almışdır. 1991-ci ilin noyabr ayına qədər Daxili İşlər naziri vəzifəsində çalışmış, göstərdiyi şücaətə görə müşavir kimi yüksək vəzifəyə təyin edilmişdir.

Məhəmməd Əsədov 1991-ci il noyabr ayının 20-də dövlət xadimləri ilə birlikdə öz vəzifə və vətəndaşlıq borclarını yerinə yetirmək üçün vertolyotla Ağdam şəhərinə uçmuş və Qarakənd səmasında dəhşətli, yaddaşlardan silinməyən və xalqımızı həmişə ağrıdan o qanlı vertolyot faciəsi baş vermişdir. Vertolyot ermənilər tərəfindən vurulmuş və xalqımızın azadlığı, torpaqlarımızın bütövlüyü uğrunda gedən mübarizədə Məhəmməd Nəbi oğlu Əsədov da qəhrəmanlıqla, faciəli şəkildə həlak olmuşdur.

Adına Qarabağ müharibəsinin ilk günlərində Famil Mehdi tərəfindən yaradılmış "Nicat" cəmiyyətinin təsis etdiyi "General Məhəmməd Əsədov" mükafatı yaradılmışdır.

Ədəbiyyat

Mehrəliyev, E. General Məhəmməd Əsədov /E.Mehrəliyev; Qərib Ə.-R. Qarannı.-Bakı: Elm və təhsil, 2011.- 606 s.

Yolunu gözləyirik / tərt. ed.: T.Mehdixanlı, N.Əsədov, R.Əsədov; red. S.Kəlbixanlı.- Bakı: Mütərcim, 2000.-280 s.

Abdullayev, S. General Məhəmməd Əsədov: böyük vətənpərvər, unudulmaz şəxsiyyət /S.Abdullayev //525-ci qəzet.- 2013.- 17 yanvar.- S.4.

Abdullayev, S. Unudulmayan şəxsiyyət - general Məhəmməd Əsədov /S.Abdullayev //Ədalət.- 2013.- 18 yanvar.- S.4.

Əliyarlı, İ. Soykökü türk, nəsil şəcərəsi Qaraqoyunlu: Məhəmməd Əsədov-70 /İ.Əliyarlı //Kaspi.-2011.- 7 dekabr.- S.12.

İnternetdə

www.anl.az

İlham Əliyev
55 illiyi 1961
Azərbaycan Respublikasının Prezidenti

Görkəmli dövlət xadimi, dünya şöhrətli siyasətçi, Azərbaycan Respublikasının Prezidenti İlham Heydər oğlu Əliyev 1961-ci il dekabr ayının 24-də Bakı şəhərində anadan olmuşdur. 1967-1977-ci illərdə orta təhsilini Bakıda almışdır. 1977-ci ildə Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutuna (MDBƏİ) qəbul olunmuşdur. MDBƏİ-ni bitirdikdən sonra 1982-ci ildə institutun aspiranturasına daxil olmuş, 1985-ci ildə dissertasiya müdafiə edərək tarix elmləri namizədi elmi dərəcəsi almışdır. İlham Əliyev 1985-1990-cı illərdə MDBƏİ-də müəllim kimi çalışmışdır. 1991-1994-cü illərdə özəl biznes sahəsində çalışmış, bir sıra istehsal-kommersiya müəssisələrinə rəhbərlik etmişdir.

Cənab İlham Əliyev 1994-cü ildən 2003-cü ilin avqust ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, sonra isə birinci vitse-prezidenti olmuşdur. Ulu öndər Heydər Əliyevin neft strategiyasının həyata keçirilməsində fəal iştirak etmişdir. Azərbaycanın neft siyasətinin geosiyasi aspektlərinə dair bir sıra tədqiqat işlərinin müəllifidir. Siyasi elmlər doktorudur. İlham Əliyev iki dəfə - 1995-ci və 2000-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinə millət vəkili seçilmişdir. 1997-ci ildən Azərbaycan Milli Olimpiya Komitəsinin prezidentidir. İdmanın və Olimpiya hərəkatının inkişafında böyük xidmətlərinə görə Beynəlxalq Olimpiya Komitəsinin ali ordeni ilə təltif edilmişdir. 1999-cu ildə "Yeni Azərbaycan Partiyası" sədrinin müavini, 2001-ci ildə sədrin birinci müavini, 2005-ci ildə isə partiyanın sədri seçilmişdir. 2001-2003-cü illərdə Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan Respublikası Milli Məclisinin nümayəndə heyətinin rəhbəri olmuşdur. 2003-cü ilin yanvarında Avropa Şurası Parlament Assambleyası sədrinin müavini, AŞPA-nın Büro üzvü seçilmişdir. 2004-cü ilin aprelində AŞPA-nın fəaliyyətində fəal iştirakına və Avropa ideallarına sədaqətinə görə AŞPA-nın Fəxri üzvü diplomu və AŞPA medalı ilə təltif edilmişdir.

2003-cü il avqustun 4-də Milli Məclis tərəfindən təsdiq edildikdən sonra İlham Əliyev Azərbaycan Respublikasının Baş Naziri təyin edilmişdir. 2003-cü ilin oktyabr ayının 15-də Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Prezident seçkilərində seçicilərin 76%-dən çoxu İlham Əliyevin lehinə səs vermişdir. XXI əsrin ilk Prezident seçkilərində xalqımızın iradəsinə arxalanan, siyasətini milli maraqlarımızın tam təmin olunması üzərində quran, ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi dinamik inkişaf strategiyasını rəhbər tutan və regionda çox böyük nüfuza malik olan İlham Əliyevin dövlətimizin başçısı seçilməsi ilə müasir tariximizdə keyfiyyətcə yeni mərhələnin başlanğıcı qoyulmuşdur. 2003-cü il oktyabrın 31-də cənab Prezident vəzifəsinin icrasına başlamışdır. Prezidentliyinin ilk günlərindən özünü peşəkar siyasətçi kimi təsdiqləyən İlham Əliyevin siyasi-psixoloji portretinin əsasını təşkil edən komponentlər onun Azərbaycan siyasi arenası üçün son dərəcə uğurlu dövlət başçısı olduğunu sübut etdi. O, öz siyasi simasında Qərb standartlarının, aristokratik siyasi rəftarın, rasional düşüncə tərzinin, praqmatizmin milli mentalitetlə son dərəcə dəqiqliklə uzlaşdırılmış ansamblını yaratmağa nail olmuşdur. Cənab İlham Əliyev bu keyfiyyətləri ilə Azərbaycan siyasətinə yeni nəfəs, siyasi abu-hava və müasirlik gətirdi. Başqalarından fərqli olaraq siyasi

romantizm, saxta vətənpərvərlik, arxaik siyasi ideologiyalar kimi amillər onun bir siyasətçi kimi formalaşmasına zəmin yaradan komponentlər sırasında mövcud deyildir. On ildən artıq hakimiyyəti ərzində ümummilli lider Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı olan Prezident İlham Əliyevin apardığı məqsədyönlü siyasət ictimai tərəqqiyə yeni güclü təkan verməklə, cəmiyyətin bütün təbəqələrinin maraq və mənafelərini özündə əks etdirmişdir. Cənab İlham Əliyev 2008-ci ildə 2-ci dəfə, 2013-cü ildə isə 3-cü dəfə yenidən Prezident seçilmişdir. Prezident İlham Əliyev seçki qabağı platformasının bütün istiqamətləri üzrə xalqa verdiyi vədləri ardıcıl olaraq yerinə yetirdiyi üçün seçicilər məhz növbəti 5 ildə də taleyini ona etibar etdilər. Azərbaycanın hərtərəfli və dinamik inkişafı, yeni iş yerlərinin açılması, enerji sahəsi ilə yanaşı, qeyri-neft sektorunun tərəqqisinə nail olmaq, milli sahibkarlığın formalaşması və inkişafı, əhalinin aztəminatlı hissəsinin, bütövlükdə isə hər bir vətəndaşın maddi rifah halının yüksəldilməsi, diaspor və lobbiçilik fəaliyyətinin gücləndirilməsi, Azərbaycanın milli mənafeyinə cavab verən balanslaşdırılmış xarici siyasətin yürüdülməsi, Qərbə inteqrasiya prosesinin sürətləndirilməsi vahid siyasi platformaya söykənən, çoxşaxəli və genişmiqyaslı bu qlobal strateji xəttin prioritet istiqamətləridir.

Cənab Prezident rus, ingilis, fransız və türk dillərini bilir.

Prezident İlham Əliyev çoxsaylı orden, mükafat və fəxri adlarla təltif olunmuşdur: "Heydər Əliyev" ordeni (Azərbaycan Respublikası), Beynəlxalq münasibətlər və sülh naminə İhsan Doğramacı mükafatı (Türkiyə), "Rumıniya Ulduzu" ordeni (Rumıniya), "Kral Əbdüləziz" ordeni (Səudiyyə Ərəbistanı Krallığı), "Şərəf" ordeni (Gürcüstan), "Şərəf Legionunun Böyük Xaçı" ordeni (Fransa), "Şeyxülislam" ordeni (Azərbaycan Respublikası), Rusiya Pravoslav Kilsəsinin "Prepodobnıy Serqiy Radonejskiy" birinci dərəcəli ordeni, "Böyük Kordon" Şərəf ordeni (Beynəlxalq Hərbi-İdman Şurası), MDB ölkələrinin İdman Təşkilatlarının Beynəlxalq Konfederasiyasının "Şərəf" ordeni, FİLA-nın Şərəf Zalının ən yüksək "İdman Əfsanəsi" ordeni, Polşa Respublikasının "Xidmətlərə görə" Böyük Xaç ordeni (Polşa), "I dərəcəli Knyaz Yaroslav Mudrı" ordeni (Ukrayna), "Mübarək əl-Kəbir" ordeni (Küveyt dövləti), Yunanıstan Parlamentinin Qızıl medalı (Yunanıstan), Avropa Ədalətli Oyunlar Hərəkatının "Şərəf" nişanı, "Üç ulduz" ordeninin "Böyük xaç kavaleri" dərəcəsi; Linkoln Universitetinin Fəxri doktoru (ABŞ), Moskva Dövlət Beynəlxalq Münasibətlər Universitetinin Fəxri doktoru, L.N.Qumilyov - Avrasiya Milli Universitetinin professoru (Qazaxıstan), Bilkənt Universitetinin Fəxri doktoru (Türkiyə), Vergilər üzrə Milli Akademiyanın Fəxri doktoru (Ukrayna), Ploesti Neft və Qaz Universitetinin Fəxri doktoru (Rumıniya), Milli və Dünya İqtisadiyyatı Universitetinin Fəxri professoru (Bolqarıstan), Kyung Hee Universitetinin Fəxri doktoru (Cənubi Koreya), İordaniya Universitetinin Fəxri doktoru (İordaniya), Korvinus Universitetinin ictimai elmlər üzrə Fəxri doktoru (Macarıstan), M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin Fəxri professoru (Rusiya Federasiyası), Taras Şevçenko adına Kiyev Milli Universitetinin Fəxri doktoru (Ukrayna), Məhdumqulu adına Türkmənistan Dövlət Universitetinin Fəxri professoru (Türkmənistan Respublikası), Bakı Dövlət Universitetinin Fəxri doktoru (Azərbaycan), Belarus Dövlət Universitetinin Fəxri professoru (Belarus Respublikası).

Ə d ə b i y y a t

İnkişaf məqsədimizdir:çıxışlar, nitqlər, bəyanatlar, məktublar, məruzələr, fərmanlar /İ.Əliyev; [bur. məs. R.Mehdiyev].- Bakı: Azərnəşr, 2008-

Azərbaycan Respublikası Prezidenti İlham Əliyev-50 /[Azərb. Resp. "Kitab" cəmiyyəti].-Bakı: [s. n.], 2011.- 67, [1] s.

Prezident İlham Əliyev və mədəniyyət (2003-2008): 2 cilddə.- Bakı: [Şərq-Qərb], 2013.-C.1.- 506 s.; C.2.-568 s.

Prezident İlham Əliyevin seçilmiş nitqləri 2003-2013 /məsləhətçi: E.Aslanov, F.Məmmədov; tərc. ed.: Rəşad, S. Kərimov, Xu Fenxua.-Bakı: [Strateji Araşdırmalar Mərkəzi SAM], 2013.-191, [1] s.

Каспийская нефть Азербайджана /И.Алиев; науч. ред. А.Х.Мирзаджанзаде; [отв. ред.: Л.Гусейнов, Р.Аббасов, М.Ахмедов].-Москва: Известия, 2003.- 710, [2] с.

Алиева, Л. С днём рождения, дорогой Президент!: 24 декабря 2011 года /[Л.Алиева].- Баку: [б. и.], 2011.- 182, [2] с.

Озерев, М. Ильхам Алиев: Я верю в мой Азербайджан /[М.Озерев].- Москва: Бослен, 2007.- 352 с.

Президент Ильхам Алиев: [многотомник] /сост. Н.Мамедов; гл. конс. Н.Джафаров; Фонд поддержки политики тюркоязычных государств.- Бишкек: Бийиктик, 2011-

Цыганов, О. Ильхам Алиев: Открытий мир /О.В.Цыганов; сост. А.В.Караев; перевод на англ. ООО "Первая Переводческая Компания".-Москва: Хроникер, 2008.- 291, [6] с.

75 illiyi

Ağalar Abbasbəyli 1941

Tarixçi alim

Ə d ə b i y y a t

Beynəlxalq münasibətlər tarixi: ən qədim dövrlərdən XIX yüzilliyin 70-ci illərinin sonuna qədər/ A. N. Abbasbəyli, S.Z.Yusifzadə.-Bakı:BDU-nun nəşriyyatı, 2009.-309 s.

Dünya siyasəti: XX əsrin ikinci -XXI əsrin əvvəlləri : dərslik /A. N. Abbasbəyli ; elmi red. Q. H. Məmmədov, R. Ə. Sadıqov ; rəyçi Z. M. Həsənalıyev [və b.].-Bakı: [Nurlar], 2011.- 582, [1] s.

История международных отношений: после окончания I мировой войны и до окончания II мировой войны. 1918-1945 : учебное пособие /А. Н. Аббасбейли, М. В. Баба-заде ; науч. ред. С. З. Юсиф-заде, З. М. Гасаналиев.Аббасбейли, Агалар Нариман оглы. д-р ист. наук, проф.-Баку: [Изд. Бакинского Ун-та], 2014.- 186, [2] с.: 20 см.

Abbasbəyli Ağalar Nəriman oğlu // Azərbaycan Milli Ensiklopediyası.-C.1.-Bakı, 2009.-S. 15.

Ağalar Nəriman oğlu Abbasbəyli 1941-ci il dekabr ayının 31-də Bakı şəhərində anadan olmuşdur. 1957-ci ildə Bakı şəhəri 6 nömrəli orta məktəbi fərqlənmə attestatı ilə bitirmişdir. 1957-1962-ci illərdə M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin tələbəsi, 1967-1968-ci illərdə aspirantı olmuşdur. 1968-ci ildə Moskva Dövlət Universitetində namizədlik dissertasiyasını müdafiə etmişdir.

1968-1986-cı illərdə indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetində kafedra müdiri kimi fəaliyyət göstərmişdir. 1980-ci ildə doktorluq dissertasiyasını müdafiə etmişdir.

Tarix elmləri doktoru elmi dərəcəsi və iki - tarix və beynəlxalq münasibətlər istiqamətləri üzrə professor elmi adı var. 500-dək elmi əsərin müəllifidir. Bunlardan 50-si monoqrafiya və dərsliklərdir. Elmi-pedaqoji fəaliyyət dövründə 30-a yaxın alim - elmlər namizədi və elmlər doktoru hazırlamış, o cümlədən Azərbaycan Respublikasında ilk dəfə siyasi elmlər istiqamətində 10 siyasi elmlər namizədi və 3 elmlər doktorunun elmi rəhbəri və məsləhətçisi olmuş, Beynəlxalq münasibətlər ixtisası üzrə 50 nəfər magistrin ərsəyə gəlməsində mühüm rol oynamışdır. 100-dən yuxarı elmi-nəzəri konfransda, o cümlədən xarici ölkələrdə keçirilən 30 konfransda iştirak etmişdir. Müxtəlif illərdə müxtəlif dövlət və partiya vəzifələrində çalışmış, xarici ölkələrdə Sovet səfirliyində müşavir, uzun müddət SSRİ Sülh Fondunun sədr müavini və Azərbaycan Respublikası Sülh Fondunun sədri olmuş, Azərbaycan KP Bakı şəhər Partiya Komitəsinin katibi, Azərbaycan SSR Ali və Orta İxtisas Təhsil naziri, Azərbaycan KP Təşviqat Komissiyasının sədr müavini və sədr əvəzi, MSK-nın üzvü və s. vəzifələrdə çalışmışdır. Uzun müddət Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Dissertasiya Şurasının üzvü, dəfələrlə Birdəfəlik Elmi Müdafiyə Şuraların sədri olmuş, beş elmi jurnalın redaksiya heyətinin, BDU-nun və AMEA - İnsan Hüquqları İnstitutunun Elmi Şuralarının üzvüdür. 1991-ci ildən BDU-nun Beynəlxalq münasibətlər kafedrasına rəhbərlik edir. Rus, ingilis, portuqal, serb və ispan dillərində sərbəst danışır.

Görkəmli alim, tarix elmləri doktoru, professor Ağalar Abbasbəyli "Heydər Əliyev və dünya siyasəti", "Azərbaycan mənim ürəyimdir" (Heydər Əliyevin siyasi tərcümeyi-halından səhifələr), "Azərbaycanın gələcəyi naminə", "Azərbaycan müasir dövrdə", "Azərbaycan beynəlxalq və regional təşkilatlar sistemində", "XXI əsrin astanasında Rusiyanın Qafqaz siyasəti", "XXI əsrdə Rusiya Federasiyasının xarici siyasəti", "XXI əsrin geostrategiyası", "Qloballaşma və müasir beynəlxalq münasibətlər sistemi", "Qafqaz müasir geostrategiyada", "Konfliktologiya", "Beynəlxalq münaqişələr: nəzəri və konseptual yanaşmalar", "Beynəlxalq münasibətlərin proqnozlaşdırılması nəzəriyyəsinin bəzi problemləri", "Diplomatik protokol", "Diplomatiya terminləri lüğəti" və s. əsərlərin müəllifidir.

85 illiyi

Tamilla Musayeva 1931

Tarixçi alim

Tamilla Həşim qızı Musayeva 1931-ci il dekabr ayının 31-də Bakıda anadan olmuşdur. 1939-1949-cu illərdə Bakı şəhərində 46 saylı məktəbdə təhsil almış, məktəbi bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsinə daxil olmuşdur. 1954-cü ildə təhsilini fərqlənmə diplomu ilə bitirmişdir.

Tamilla Musayeva 1962-ci ildə "Birinci beşillik illərində Azərbaycanda xalq təhsilinin inkişafı uğrunda mübarizə (1928-1932-ci illər)" mövzusunda namizədlik dissertasiyasını müdafiə etmiş, 1980-ci ilin dekabrında isə doktorluq dissertasiyasını tamamlamışdır. Həmin ildə nəşr olunmuş "İnqilab və Azərbaycanda xalq təhsili (1920-1940-cı illərdə Azərbaycanda xalq təhsilinin inkişafı tarixinin oçerkləri)" monoqrafiyası dissertasiya kimi müdafiəyə təqdim olunmuşdur. Bu monoqrafiyaya görə ona tarix elmləri doktoru elmi dərəcəsi verilmişdir.

Elmi axtarışlarının əsas istiqamətlərindən biri 1920-1940-cı illərdə Azərbaycanda xalq təhsilinin inkişaf tarixi, bu sistemin yaranması və onun respublika zəhmətkeşlərinin ümumtəhsil səviyyəsinin yüksəldilməsində rolunun tədqiqi olmuşdur. Azərbaycanda xalq təhsilinin inkişaf tarixinin elmi cəhətdən əsaslandırılmış dövrləşdirilməsi, onun əsas mərhələlərinin müəyyən edilməsi, xalq təhsilinin yaranmasının spesifik xüsusiyyətlərinin təhlili, xalqımızın keçdiyi tarixi yolun xüsusiyyətlərinin öyrənilməsi T.Musayevanın Azərbaycan tarixşünaslığına dəyərli töhfəsidir. T.Musayeva bir sıra ümumiləşdirilmiş, o cümlədən ümumittifaq əhəmiyyətli əsərlərin yazılmasında iştirak etmişdir. Üçcildlik "Azərbaycan tarixi" kitabının müəlliflərindən biri, 2000-ci ildə çap olunmuş "Azərbaycan tarixi"nin VI cildinin müəllifi və redaksiya heyətinin üzvü, 2003-cü ildə nəşr olunmuş "Ermənilərin Azərbaycan torpaqlarında törətdikləri əməllər barədə tarixi həqiqətlər" adlı əhəmiyyətli əsərin tərtibçi redaktoru və müəlliflərindən biri, Azərbaycan MEA-nın 60 illik yubileyi ilə bağlı 2005-ci ildə nəşr olunmuş "Azərbaycan Milli Elmlər Akademiyasının yaradılması və elmi ziyalı kadrların formalaşması yollarında (1920-1945-ci illər)" adlı monoqrafiyanın və Birinci Türkoloji qurultayın 80 illiyinə həsr olunmuş "Azərbaycan xalqının əlifbasının inkişafı yolunda mühüm mərhələ" adlı 2006-cı ildə çap olunmuş kitabın həmmüəllifidir. Ümumilikdə 100-dən artıq elmi əsərin, o cümlədən dörd monoqrafiyanın müəllifidir. T.Musayeva 1984-cü ildə "İnqilab və Azərbaycanda xalq təhsili" monoqrafiyasına görə Azərbaycan SSR Dövlət mükafatı laureatı adına layiq görülmüş, 1992-ci ildə professor elmi rütbəsini almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 4 iyul 2005-ci il tarixli sərəncamı ilə T.Musayeva "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Ə d ə b i y y a t

Ermənilərin Azərbaycanın tarixi torpaqlarına iddialarının ifşasına dəyərli töhfə /T.Musayeva // Azərbaycan.-2012.- 16 oktyabr.- S.10.

Борьба за развития народного образования в Азербайджане в годы первой пятилетки /Т.Мусаева.- Баку, 1964.- 134 с.

Важная веха на пути развития письменности азербайджанского народа: к 80-летию Первого Тюркологического съезда /Т.Мусаева, А.Мамедов; НАН Азерб. Ин-т Истории им. А.А.Бакиханова.- Баку: Тахсил, 2006.- 67 с.

На путях создания Национальной Академии Наук и формирования кадров научной интеллигенции Азербайджана: 1920-1945 гг. /Т.Мусаева, А.Мамедов; НАНА Институт Истории им. А.А.Бакиханова.- Баку: Нурлан, 2005.-

90 illiyi Aqil Əliyev 1926-2006

İqtisadçı alim

Ədəbiyyat

Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti: [monoqrafiya] /A.Əliyev, A.Şəkərəliyev.- Bakı: [İqtisad Universiteti], 2002.- 440 s.

Dünya iqtisadiyyatı: müasir dövrün problemləri: [monoqrafiya] /A.Əliyev, A.Şəkərəliyev, İ.Dadaşov.- Bakı: [Bakı Universiteti], 2003.- 455 s.

Sosial sferanın iqtisadi və metodoloji əsasları /A.Əliyev, A.Quliyev.-Bakı: Adiloğlu, 2005.- 304 s.

Kərimova, H. Görkəmli iqtisadçı alim Aqil Əliyev /H.Kərimova, N.Allahverdiyev.- Bakı: Nurlan, 2006.-120 s.

Əliyev, İ. Gözəl alim, xeyirxah insan - Aqil Əliyev /İ.Əliyev //Azad Azərbaycan.- 2013.- 10 dekabr.- S.2.

Əliyev, Q. Əsl vətəndaş və görkəmli iqtisadçı alim /Q.Əliyev //Azərbaycan.- 2014.- 10 dekabr.- S.6.

İnternetdə

www.anl.az
www.adam.az
www.az.wikipedia.org

Aqil Əlirza oğlu Əliyev 1926-cı il dekabr ayının 10-da Naxçıvan şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1946-1951-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) tarix fakültəsində təhsil almışdır. Əmək fəaliyyətinə 1951-ci ildə Azərbaycan Elmlər Akademiyasının Tarix İnstitutunda elmi işçi kimi başlayan Aqil Əliyev sonralar Azərbaycan Politexnik İnstitutunda çalışmışdır. 1953-cü ildən taleyini Azərbaycan Tibb Universiteti ilə bağlayaraq burada müxtəlif vəzifələr tutmuşdur. 1973-cü ildən ömrünün sonunadək Tibb Universitetində İqtisadiyyat və Hüququn Əsasları kafedrasının müdiri işləmişdir.

1970-ci ildə elmlər namizədi, 1983-cü ildə iqtisad elmləri doktoru alimlik dərəcəsi almış, 1973-cü ildə dosent, 1979-cu ildə isə professor vəzifələrinə irəli çəkilmişdir. 2001-ci ildə Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir.

Elmi fəaliyyətində Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu, əhalinin həyat səviyyəsinin yüksəldilməsinin aktual problemlərinin araşdırılması mühüm yer tutmuşdur. İqtisadçıların bir sıra beynəlxalq konfrans və simpoziumlardakı çıxışları ilə Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişdir.

Professor Aqil Əliyev 190-dan artıq elmi əsərin, o cümlədən 32 monoqrafiya və kitabın müəllifi olmuşdur. Azərbaycanda ilk dəfə olaraq "Şəxsi istehlakın iqtisadiyyatı və problemləri", "Aqrar iqtisadiyyatın aktual problemləri", "Kənd əhalisinin həyat səviyyəsinin yüksəldilməsi problemləri", "Səhiyyədə iqtisadiyyat, planlaşdırma, idarəetmə, maliyyələşdirmə və əməyin elmi təşkili" və s. sanballı monoqrafiyaların, "Azərbaycanın sosial-iqtisadi inkişafında islahatların rolu", "İpək Yolunun bərpası bəşəriyyətin tərəqqi yoludur", "Azərbaycanda bazar münasibətləri şəraitində əhalinin sosial problemləri", "Səhiyyənin iqtisadiyyatı", "Azərbaycanda əhalinin səviyyəsinin yüksəldilməsinin aktual problemləri", ikicildlik "Naxçıvan Muxtar Respublikası: nailiyyətlər, problemlər", "Bazar iqtisadiyyatına keçid: dövlətin iqtisadi siyasəti", "Bələdiyyələr. Metodik kömək", "Dünya iqtisadiyyatı: müasir dövrün problemləri", "Müstəqil Azərbaycan iqtisadiyyatının aktual problemləri" və başqa elmi əsərlərin müəllifidir.

Elmin inkişafındakı xidmətlərinə görə 1946-cı ildə "Əmək igidliyinə görə" medalı, 1959-cu ildə "Səhiyyə əlaçısı" döş nişanı, 1970-ci ildə "Fədakar əməyə görə" medalı, 1982-ci ildə "Əməkdar elm xadimi" fəxri adı, 1976-cı ildə "Qırmızı Əmək Bayrağı" ordeni, 1990-cı ildə "Əmək veteranı" medalı, 1997-ci ildə "Sovet İttifaqı Marşalı Jukov" medalı, 2000-ci ildə "Şöhrət ordeni" ilə təltif olunmuşdur.

Əliyev Aqil Əlirza oğlu 2006-cı il mart ayının 8-də Bakı şəhərində vəfat etmiş, Fəxri Xiyabanda dəfn olunmuşdur.

105 illiyi Nəsir İmanquliyev 1911-1998

Jurnalist, ictimai xadim

Nəsir Əsəd oğlu İmanquliyev 1911-ci il dekabr ayının 22-də Bakıda anadan olmuşdur. 1925-1926-cı illərdə Bakı şəhərində peşə məktəbini bitirərək, çilingər peşəsinə yiyələnmişdir. 1934-cü ildə "Lassal" adına Neft Texnikumuna daxil olmuşdur. Texnikumda təhsil aldığı müddətdə dövri mətbuatda ilk yazıları çap olunmağa başlamış, "Kommunist", "Yeni yol", "Gənc işçi" qəzetlərində çalışmışdır. 1932-ci ildən etibarən müxtəlif illərdə bu qəzetlərdə ədəbi işçi, redaktor, məsul katib, şöbə müdiri kimi fəaliyyət göstərmişdir.

İkinci Dünya müharibəsi zamanı 1942-ci ildə Nəsir İmanquliyev siyasi işçi kimi Krım cəbhəsinə göndərilmiş, təkcə süngüsü ilə deyil, həm də qələmi ilə döyüşmüşdür. Orada "Vuruşan Krım" qəzetinin məsul katibi kimi çalışmış, həmçinin hərbi hissədə tərcüməçi kimi kömək etmişdir.

1943-cü ilin sonunda ordudan tərxis olunmuş N.İmanquliyev "Kommunist" qəzetinə məsul katib təyin edilmiş, burada "Döyüşən səhifələr" guşəsi yaratmaqla hərbi vətənpərvərlik ideologiyasının təbliğinə xidmət göstərmiş, vətənpərvərlik mövzusuna həsr edilmiş bir çox məqalələri işiq üzü görmüşdür.

1946-cı ildə Moskva Mərkəzi Qəzet Kursunu bitirərək 1948-1950-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almış, eyni zamanda pedaqoji fəaliyyətə başlamışdır. Həmin illərdə BDU-nun filologiya fakültəsinin nəzdində jurnalistika fakültəsi yaradılmış, Nəsir İmanquliyevin adı həm də universitetin ilk qurucularının cərgəsinə yazılmışdır.

1941-1945-ci illər Böyük Vətən müharibəsi zamanı mətbuatın roluna dair namizədlik dissertasiyası yazmış, dərslikləri, dərs vəsaitləri, həmmüəllifi olduğu sanballı monoqrafiyaları, tərcümə ədəbiyyatının ən gözəl nümunələri sayılan kitabları ilə tanınmışdır.

1958-ci ildə "Bakı" axşam qəzetini yaratmış, yanvar ayının 10-u qəzetin ilk nömrəsi işıq üzü görmüşdür. 1963-cü ildə isə rus dilində "Baku" qəzeti fəaliyyətə başlamışdır. Uzun illər yaratdığı hər iki qəzetin baş redaktoru vəzifəsində çalışmışdır. Bu qəzetlər 1960-1970-ci illərdə mətbuatımızın inkişafında böyük rol oynamışdır. Bakı şəhər Partiya Komitəsində, sonra Mərkəzi Komitədə təbliğat-təşviqat şöbələrində rəhbər vəzifələrdə işləyən Nəsir İmanquliyev təkcə jurnalist, ictimai xadim kimi deyil, həm də radio-televiziya və mədəniyyət qurucusu kimi milli-mənəvi dəyərlərimizin inkişafına xidmət göstərmişdir.

87 il ömür sürmüş professor Nəsir İmanquliyev Böyük Vətən müharibəsindəki, quruculuq illərindəki fədakar əməyinə görə dəfələrlə orden və medallarla təltif olunmuş, milli mətbuatımızın inkişafındakı xidmətlərinə görə iki dəfə 1967-ci ildə "Qızıl qələm" mükafatına, 1976-cı ildə "Əməkdar mədəniyyət işçisi", 1990-cı ildə "Əməkdar jurnalist" fəxri adlarına layiq görülmüşdür.

Azərbaycan milli mətbuatının görkəmli nümayəndəsi, professor Nəsir İmanquliyev 1998-ci il mart ayının 3-də Bakı şəhərində vəfat etmişdir.

2011-ci ildə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə Nəsir İmanquliyevin 100 illik yubileyi təntənəli şəkildə keçirilmişdir.

Ədəbiyyat

Zəhmətkeşlərin əmək qəhrəmanlığı uğrunda: Böyük Vətən müharibəsi illərində sənaye və nəqliyyat işçilərinin əmək fəallığını yüksəltməkdə mətbuatın rolu haqqında /N.İmanquliyev.-Bakı: Azərnəşr, 1967.- 236, [4] s.

Gülgün, R. Xəbərin rəngi: Milli mətbuatın Nəsir İmanquliyev fenomeni /R.Gülgün; red. R.Məcid; Azərb.Resp.Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: Kür-Araz, 2009.- 219, [5] s.

Mansurzadə, A.Nəsir İmanquliyev məktəbi: xatirə-povest /A.Mansurzadə.- Bakı: Adiloğlu, 2007.- 290, [2] s.

Mətbuatımızın klassiki /tərt. Ş.Cəlilli; red. N.Paşayeva.- Bakı: Öndər, 2006.- 352 s.

Nəsir İmanquliyev: biblioqrafiya /tərt. ed. Y.Əlizadə, V.Əliyev, S.X.Mirzəyev; elmi red. C.Məmmədli.- Bakı: [Şərq-Qərb], 2011.- 87 s.

İnternetdə

www.anl.az

www.muallim.edu.az

95 illiyi

Əzizə Cəfərzadə 1921-2003

Ədəbiyyatşünas

Ə d ə b i y y a t

Aləmdə səsim var mənim: tarixi roman /Ə.Cəfərzadə.- Bakı: Şərq-Qərb, 2006.- 432 s.

Bəla: tarixi povest /Ə.Cəfərzadə; nəşrə hazırl. və red. V.Sultanlı.- Bakı: Şirvannəşr, 2001.- 140 s.

Eldən-elə: tarixi roman /Ə.Cəfərzadə.-Bakı: Şərq-Qərb, 2006.- 384 s.

Eşq sultanı: roman /Ə.Cəfərzadə; red. V.Sultanlı.- Bakı: Şirvannəşr, 2005.- 204 s.

Əliyeva, İ. El anası-Əzizə Cəfərzadə /İ.Əliyeva.- Bakı: Elm, 2001.- 64 s.

Fərəcov, S. Zərif qəlbin yazdığı tarixi həqiqətlər /S.Fərəcov //Mədəniyyət.- 2013.- 29 dekabr.- S. 13.

Rəsulova, Ə. Əzizə Cəfərzadənin tarixi romanlarında tarixlik və müasirlik /Ə.Rəsulova //Respublika.- 2015.- 28 yanvar.- S.11.

Seyidzadə, T. Azərbaycan ədəbiyyatı tarixinin bilicisi - Əzizə Cəfərzadə /T.Seyidzadə //Azad Azərbaycan.-2012.- 15 yanvar.- S.7.

İ n t e r n e t d ə

www.anl.az

www.muallim.edu.az

Əzizə Məmməd qızı Cəfərzadə 1921-ci il dekabr ayının 29-da Bakı şəhərində anadan olmuşdur. İbtidai təhsilini 25 saylı məktəbdə almış, peşə məktəbində və ikiillik müəllimlər institutunda oxumuş, 1942-1944-cü illərdə Ağsu rayonundakı Çaparlı kəndində müəllim işləmişdir. 1946-1947-ci illərdə ekstern yolu ilə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) filologiya fakültəsində təhsil almışdır. 1944-1946-cı illərdə C.Cabbarlı adına "Azərbaycanfilm" kinostudiyasında Ssenari şöbəsinin rəisi, 1947-1949-cu illərdə teatr texniki məktəbinin müdiri, 1950-1955-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunda (indiki ADPU) dosent, kafedra müdiri, 1956-cı ildə Kamçatka Pedaqoji İnstitutunda dosent, 1957-1974-cü illərdə Azərbaycan EA Əlyazmalar İnstitutunda baş elmi işçi, şöbə müdiri vəzifələrində çalışmışdır. 1974-cü ildə BDU-nun professoru olmuşdur. XIX əsr Azərbaycan ədəbiyyatı tarixinin bilicisi kimi tanınmış və bu sahədə 1950-ci ildə "XIX əsr Azərbaycan ədəbiyyatında maarifçi-ziyalı surətləri" mövzusunda namizədlik, 1970-ci ildə "XIX əsr Azərbaycan poeziyasında xalq şeiri üslubu" mövzusunda doktorluq dissertasiyaları mudafiə etmişdir.

Ədəbi fəaliyyətə 16 yaşında başlamış, 1937-ci ildə "Əzrayıl" adlı ilk hekayəsini "Ədəbiyyat" qəzetində çap etdirmişdir. İlk kitabı 1948-ci ildə nəşr edilmiş, lakin Moskvanın xüsusi qərarı ilə satışa çıxmamışdan əvvəl qadağan olunub yandırılmışdır. Nəsr əsərləri əsasən tarixi roman janrında yazılmışdır. Əsərləri Azərbaycan dilinin saflığı və təmizliyi uğrunda mübarizənin bariz nümunəsinə çevrilmişdir. Yüzlərlə oçerk, elmi tədqiqat və publisistik məqalələri dövri mətbuatda çap edilmişdir. "Bayatı düşüncələrim", "Xızır Nəbi", "Novruz" və başqa Azərbaycan adət-ənənələri, etnoqrafiyası ilə bağlı yazıları, televiziya və radioda çıxışları onu xalqın sevimlisi etmişdi.

Yaradıcılığında tarixi mövzulu əsərlər aparıcı yer tutmuş, "Aləmdə səsim var mənim", "Vətənə qayıt", "Yad et məni", "Bakı-1501", "Cəlaliyyə", "Ağlayan-güləyən Sabir", "Eldən-elə", "Gülüstandan öncə", "Zərintac-Tahirə", "Bir səsin faciəsi", "İşığa doğru", "Bəla", "Rübabə-Sultanım", "Şirvan" kimi tarixi roman və povestləri yazmışdır.

Əsərləri bir çox xarici dillərə - rus, fars, tacik, ərəb, qazax və s. tərcümə edilib nəşr edilmişdir. Radioda Cənubi Azərbaycan üçün yayımlanan proqramların və "Ana" radio jurnalının uzun illər daimi iştirakçısı olmuşdur. 1981-1989-cu illərdə Respublika Qadınlar Şurasının sədri vəzifəsində çalışmışdır. Müxtəlif fəxri fərmanlarla, "Xalqlar dostluğu" ordeni və müstəqil Azərbaycanın ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir, 2001-ci ildə "Xalq yazıçısı" fəxri adına layiq görülmüş, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü olmuşdur.

Əzizə Cəfərzadə 2003-cü il sentyabr ayının 4-də vəfat etmiş, vəsiyyətinə əsasən Hacıqabul rayonunun Tağılı kəndində dəfn edilmişdir.

Həyat və yaradıcılığı haqqında "Azərtelefilm" birliyi tərəfindən iki film çəkilmişdir.

90 illiyi

Nəriman Quliyev 1926-2014

Akademik

Nəriman Ağaqulu oğlu Quliyev 1926-cı il dekabr ayının 28-də Bakı şəhərində anadan olmuşdur. Orta məktəbi başa vurduqdan sonra 1943-cü ildə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutuna daxil olmuş, lakin fizikaya hədsiz marağı səbəbindən burada təhsilini yarımçıq qoymuş, 1947-1952-ci illərdə Azərbaycan Dövlət Universitetinin (indiki BDU) fizika-riyaziyyat fakültəsində ali təhsil almışdır. 1952-ci ildə həmin universitetin aspiranturasına qəbul olunan Nəriman Quliyev 1953-cü ildə Lomonosov adına Moskva Dövlət Universitetinə köçürülmüş, 1955-ci ildə burada fizika ixtisası üzrə aspiranturanı bitirmişdir.

Əmək fəaliyyətinə 1956-cı ildə Azərbaycan Dövlət Universitetində başlamış, Nəzəri fizika kafedrasında assistent və baş müəllim vəzifələrində çalışmışdır. 1959-cu ildən etibarən taleyini Azərbaycan Milli Elmlər Akademiyası ilə bağlamışdır. 1959-1981-ci illərdə Fizika İnstitutunda direktorun elmi işlər üzrə müavini, 1981-2001-ci illərdə AMEA-nın vitse-prezidenti, 2001-2007-ci illərdə isə AMEA-nın birinci vitse-prezidenti olmuşdur. 2007-ci ildən AMEA prezidentinin müşaviri idi.

Nəriman Quliyev 1957-ci ildə Moskva şəhərində namizədlik, 1975-ci ildə doktorluq dissertaSiyalarını müdafiə etmişdir.

1976-cı ildə AMEA-nın müxbir üzvü, 1983-cü ildə isə həqiqi üzvü seçilmişdir.

Ömrünün altmış ilə yaxın bir dövrü ərzində akademik öz səmərəli yaradıcılığı ilə Azərbaycanda fizika elminin inkişafına töhfələr vermişdir. Bu sahə üzrə ana dilində yazılmış ilk sanballı elmi-kütləvi nəşrin müəlliflərindəndir. Alimin gəldiyi qənaətlər nəzəri əhəmiyyəti ilə səciyyələnmiş və mütəxəssislər tərəfindən dəyərləndirilmişdir. Azərbaycanda nüvə fizikasının inkişafının mühüm mərhələsi akademikin adı ilə bağlıdır.

Müstəqil Azərbaycanın dünyanın tanınmış nüvə tədqiqatları mərkəzləri ilə elmi-texniki əməkdaşlıq əlaqələrinin coğrafiyasının genişləndirilməsində onun xidmətləri təqdirəlayiqdir.

Alimin çoxillik zəhmətinin məhsulu olan silsilə araşdırmalarının nəticələri ölkəmizdə və onun hüdudlarından kənarda çap edilmiş 100-dən artıq sanballı elmi əsərdə öz əksini tapmışdır. Mötəbər beynəlxalq forumlarda Azərbaycan elmini layiqincə təmsil etmişdir. Akademik Nəriman Quliyevin uzunmüddətli elmi və elmi-təşkilatçılıq fəaliyyəti yüksək qiymətləndirilmiş, bir sıra mükafatlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatları - "Şöhrət" və "İstiqlal" (2005) ordenləri ilə təltif edilmiş, "Əməkdar elm xadimi" fəxri adına layiq görülmüşdür.

Akademik Nəriman Quliyev 2014-cü il may ayının 20-də vəfat etmişdir.

Ədəbiyyat

Neytrino /İ. H. Cəfərov ; N. A. Quliyev; elmi red. Ş. M. Nağıyev; rəyçilər S. A. Hacıyev; R. E. Hüseynov.- Bakı: Elm, 2005.-116 s.

Nəriman Ağaqulu oğlu Quliyev //Azərbaycan.- 2014.- 21 may.- S.3.

Görkəmli alim Nəriman Quliyev son mənzilə yola salınmışdır //Azərbaycan.- 2014.- 21 may.- S.3.

İnternetdə

www.anl.az

www.adam.az

www.az.wikipedia.org

95 illiyi

Musa Musayev 1921-2010

Akademik

Musa Əbdürrəhman oğlu Musayev 1921-ci il dekabr ayının 27-də Gəncə şəhərində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra, 1940-1945-ci illərdə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun baytarlıq fakültəsində ali təhsil almış, 1946-1948-ci illərdə Moskva Baytarlıq Akademiyasının aspiranturasında oxumuşdur.

Əmək fəaliyyətinə 1949-cu ildə Moskvada Baytarlıq Akademiyasının assistenti kimi başlayan Musa Musayev elə həmin il Bakıya dəvət olunmuş və Azərbaycan Respublikası Elmlər Akademiyasının Zoologiya İnstitutunda baş elmi işçi vəzifəsinə təyin edilmişdir. 1957-ci ildən burada fasiləsiz çalışaraq ayrı-ayrı illərdə laboratoriya müdiri, sonra şöbə müdiri işləmiş, 1960-cı ildən etibarən isə Zoologiya İnstitutunun direktoru olmuşdur. 1997-2007-ci illərdə Azərbaycan Milli Elmlər Akademiyasında Biologiya elmləri bölməsinin akademik-katibi vəzifəsini icra etmişdir.

Musa Musayev 1948-ci ildə namizədlik, 1957-ci ildə doktorluq dissertasiyalarını müdafiə etmiş, 1960-cı ildə professor elmi rütbəsini almışdır. 1959-cu ildə Azərbaycan Respublikası Elmlər Akademiyasının müxbir üzvü, 1967-ci ildə isə həqiqi üzvü seçilmişdir. Azərbaycanda protozoologiyanın elmi məktəb olaraq formalaşmasına böyük əmək sərf etmiş, öz araşdırmaları ilə sitologiya, biokimya və molekulyar biologiyanın müasir metodlarının tətbiqi sayəsində elmin inkişafına təkan vermişdir. Akademik 350-dən artıq elmi əsərin, o cümlədən 14 monoqrafiya, dərslik və metodik vəsaitin, 10 müəlliflik şəhadətnaməsi və patentin müəllifidir.

Musa Musayev səmərəli elmi yaradıcılıqla yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olmuş və yüksəkixtisaslı kadrların hazırlanması işində bilik və bacarığını əsirgəməmişdir. Alimin rəhbərliyi altında 50-yə yaxın elmlər namizədi və elmlər doktoru yetişdirilmişdir. Beynəlxalq və xarici ölkələrin elmi qurumlarında üzv olmuş, 1976-1991-ci illərdə SSRİ Elmlər Akademiyası nəzdində Ümumittifaq Protozooloqlar Cəmiyyətinin vitse-prezidenti, 1967-1988 "Parazitologiya" jurnalının redaksiya heyətinin üzvü, Ukrayna Parazitoloqlar Cəmiyyətinin fəxri üzvü seçilmişdir.

Azərbaycanda biologiya elminin inkişafındakı xidmətlərinə görə bir çox orden və medallarla - 1991-ci ildə Azərbaycan SSR Dövlət mükafatı laureatı, 1996-cı ildə H.Əliyev adına "Ekologiya sahəsindəki nailiyyətlərə görə" medal və mükafat, 2001-ci ildə AMEA-nın Fəxri Fərmanı, eləcə də müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan "Şöhrət" ordeni ilə təltif edilmişdir.

Tanınmış bioloq alim, bacarıqlı elm təşkilatçısı, akademik Musa Əbdürrəhman oğlu Musayev 2010-cu il dekabr ayının 4-də vəfat etmişdir.

Ə d ə b i y y a t

Azərbaycanda quşların qan parazitləri /M.Ə.Musayev, N.R.Zeyniyev; red.Y.Y. Yolçiyev; AzEA Zoologiya İnstitutu.-Bakı: Elm, 1994.- 64 s.

Zoologiya: Ümumtəhsil məktəblərinin 8-ci sinfi üçün dərslik /Musayev M.Ə., Mustafayev Q.T., Mikayılov T.K., Əliyev T.R.; ümumi redaktə. M.Ə. Musayev; rəyçilər. Z.A. Aslanova, M.Ə. Əliyeva, D.Ə. Məmmədova.-Bakı: Çaşıoğlu, 2007.- 128 s.

Зоология: учебник для 8-го класса общеобразовательных школ /М. А. Мусаев, (под. ред.), Г. Т. Мустафаев, Т. К. Микаилов; пер. Т. А. Керимли.-Баку: Чашыоглу, 2010.- 119 с.

Musa Əbdürəhman oğlu Musayev: Biblioqrafiya / tərtib edənlər: Y. Y. Yolçiyev, H. D. Qaibova; red.: Ş. Alışanlı; AMEA Zoologiya İnstitutu; Mərkəzi Elmi Kitabxana.-Bakı: Elm, 2002.-215 s.

90 illiyi

Bəhmən Hacıyev 1926-1998

Neftçi alim

Bəhmən Əbiş oğlu Hacıyev 1926-cı il dekabr ayının 2-də Sisyan rayonunun Qızıl Şəfəq kəndində anadan olmuşdur. 1939-cu ildə natamam orta məktəbin 7-ci sinfini bitirdikdən sonra Bakıya gəlmiş, Sabunçu rayonunun 148 nömrəli orta məktəbində təhsilini davam etdirmişdir. Əmək fəaliyyətinə 1943-cü ildə keçmiş "Əzizbəyovneft" trestinin (indi H.Z.Tağıyev adına NQÇİ) ikinci mədənində operator köməkçisi kimi başlamış, 1945-ci ildə istehsalatdan ayrılmadan Azərbaycan Sənaye İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universiteti) daxil olmuş, burada 1950-ci ildə neft və qaz yataqlarının işlənməsi üzrə dağ mühəndisi ixtisasına yiyələnmişdir.

1950-ci ildə "Bibiheybətneft" trestinin 6-cı mədənində neft və qaz hasilatı üzrə usta, 1953-cü ildən 1960-cı ilədək "Gürganneft" trestinin baş mühəndisi vəzifəsində çalışmışdır. Sonralar həmin trest Sov.İKP-nin XXII qurultayı adına Neft və Qazçıxarma İdarəsinə çevrilmiş və Bəhmən Hacıyev 1962-ci ilədək bu NQÇİ-nin baş mühəndisi, 1977-ci ilə kimi rəisi olmuşdur.

Neft Daşlarında XX əsrin 50-ci illərin sonu - 60-cı illərin əvvəllərində qapalı istismar sisteminin yaradılması Bəhmən Hacıyevin xidmətlərindən biridir.

1961-ci ildə "Dənizdə neft yataqlarının işlənilməsi və istismarı məsələləri" ("Neft Daşları" timsalında) mövzusunda dissertasiya işini müdafiə edən B.Hacıyevə texnika elmləri namizədi alimlik dərəcəsi verilmişdi. Tanınmış neftçi-alimin elmi tədqiqatları onun "Dənizdə neft yataqlarının işlənilməsi və istismarı məsələləri" monoqrafiyasında öz əksini tapmışdı.

İstehsalatda istedadlı təşkilatçı və püxtələşmiş rəhbər kimi tanınmış, 1977-ci ilin mart ayında "Azneft" İB-nin baş direktoru vəzifəsinə təyin edilmişdir. 1984-cü ildə Zaqafqaziya Ümumittifaq Təhlükəsizlik Texnikası İnstitutunun direktoru təyin olunmuşdur. 1990-cı ildə doktorluq dissertasiyasını müdafiə etmiş, texnika elmləri doktoru alimlik dərəcəsini almışdır. 105 elmi əsərin, 50-dən çox ixtiranın müəllifidir.

1991-ci ildə ona professor elmi rütbəsi verilmişdir.

Azərbaycan neft sənayesinin inkişafındakı xidmətlərinə görə 1959-cu ildə Qırmızı Əmək Bayrağı ordeni ilə, 1960-cı ildə "Azərbaycan SSR-in neft ustası" fəxri adı, 1961-ci ildə Lenin mükafatı, 1965-ci ildə Almaniya Demokratik Respublikasının fəxri Qızıl diplomu, Lenin ordeni, 1966-cı ildə SSRİ Neft Nazirliyi tərəfindən "SSRİ neft sənayesinin əlaçısı", 1970-ci ildə isə "Fəxri Neftçi" adı, 1971-ci ildə 2-ci dəfə Qırmızı Əmək Bayrağı, Oktyabr inqilabı ordenləri ilə təltif olunmuş, 1972-ci ildə Azərbaycan SSR Dövlət mükafatına, 1975-ci ildə "Azərbaycan SSR Əməkdar Mühəndisi" fəxri adına, 1996-cı ildə Yusif Məmmədəliyev adına mükafata layiq görülmüşdür.

Bəhmən Hacıyev 1998-ci ildə vəfat etmişdir. Xatirəsini əbədiləşdirmək məqsədilə yaşadığı binaya xatirə lövhəsi vurulmuşdur.

Ədəbiyyat

Mirzəyev, M. Məşhur neftçi Bəhmən Hacıyev /M.Mirzəyev, C.Mirzəliyev; elmi red. B.Yusifzadə.- Bakı: Azərbaycan nəşriyyatı, 2002.- 200 s.

Yusifzadə, X. Peşəkar neftçi, yaradıcı mühəndis, istedadlı alim //Azərbaycan.- 2011.- 2 dekabr.- S. 6.

İnternetdə

www.anl.az

www.muallim.edu.az

www.edu.gov.az

85 illiyi Abuzər Xələfov 1931

Alim

Abuzər Alı oğlu Xələfov 1931-ci il dekabr ayının 25-də Qərbi Azərbaycanın Göyçə mahalının Cil kəndində anadan olmuşdur. 1938-1945-ci illərdə Cil kənd yeddiillik məktəbində təhsil almış, 1945-1946-cı illərdə Krasnoselo rayonunun Cil kəndindəki Əli Bayramov adına kolxozda çalışmışdır. 1950-1955-ci illərdə Azərbaycan Dövlət Universitetinin filologiya fakültəsinin kitabxanaçılıq şöbəsində təhsil almışdır. Müxtəlif illərdə kitabxanaçılıq fakültəsində müəllim, baş müəllim, dosent olmuş, 1978-ci ildən professordur.

1962-ci ildə A.A.Xələfovun fəal iştirakı və təşəbbüsü ilə BDU-nun Kitabxanaçılıq şöbəsi müstəqil Kitabxanaçılıq fakültəsinə çevrilmiş və o, bu fakültənin ilk dekanı olmuş, 25 il bu vəzifədə səmərəli fəaliyyət göstərmişdir. 1962-ci ildən bu günə kimi BDU-nun Böyük Elmi Şurasının üzvü, 1963-cü ildən isə Kitabxanaşünaslıq kafedrasının müdiridir.

Abuzər Xələfov SSRİ məkanında kitabxana işinin tarixi sahəsində ilk elmlər doktoru kimi şöhrət qazanmış və Azərbaycan kitabxanaşünaslıq elmi məktəbinin əsasını qoymuşdur. Respublikamızda XX əsrin 60-cı illərindən başlayaraq kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq sahəsində doktorluq və namizədlik müdafiə etmiş alimlərin demək olar ki, hamısı A.Xələfov elmi məktəbinin yetirmələridir. Azərbaycanda kitabxana işinin tarixinin ilk tədqiqatçısı, respublikamızda ali təhsilli kitabxanaşünas biblioqraf və kitabşünas kadrlar hazırlayan fakültənin yaradıcısı kimi professor A.Xələfovun adı vətənimizin sərhədlərindən çox-çox uzaqlarda da məşhurdur.

Azərbaycanda kitabxanaşünaslıq elminin banisi, ali kitabxanaçılıq təhsilinin təşkilalçılarından biri, respublikanın görkəmli elm və mədəniyyət xadimi Abuzər Xələfovun fəaliyyəti 2001-ci ildə Amerika Bioqrafiya İnstitutunun nəşr etdirdiyi "Görkəmli liderlərin beynəlxalq soraq kitabı"nın XI nəşrinin nominantı seçilmiş, fəxri fərman və qızıl medalla təltif edilmişdir. 1995-ci ildən bu günə kimi BDU-nun Veteranlar şurasının sədr müavini, 1998-ci ildən BDU-nun Nəşriyyat Şurasının sədri, "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayan işçi qrupunun sədridir. 1999-cu ildə ölkəmizdə ilk dəfə olaraq Azərbaycan Kitabxanaçılar Cəmiyyəti yaratmış və onun ilk prezidenti olmuş və "Kitabxana proseslərinin kompüterləşdirilməsi" elmi-tədqiqat laboratoriyasının (ETL) müdiri; 2000-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının müxbir üzvü; 2001-ci ildə BMT yanında Beynəlxalq İnformasiyalaşdırma Akademiyasının həqiqi üzvü (akademiki); 2008-ci ildə Təhsil haqqında Azərbaycan Respublikası Qanununun layihəsini hazırlayan işçi qrupunun üzvü olmuşdur.

Mədəniyyət və kitabxana işi quruculuğunun tarixi problemləri, kitabxanaşünaslığın nəzəriyyəsi və metodologiyası, ali kitabaxanaçılıq-biblioqrafiya təhsili məsələləri, habelə kitabxana işi nəzəriyyəsi, informasiya cəmiyyətində kitabxanaların fəaliyyəti, elektron kitabxanaşünaslıq və bir sıra digər aktual elmi problemlərin tədqiqi alimin elmi fəaliyyətinin əsasını təşkil edir. Görkəmli

alim 300-ə yaxın elmi əsərin, 10 monoqrafiya, 30-dan artıq kitabın - dərslik və dərs vəsaitlərinin müəllifidir. 20-dən çox elmlər namizədi və doktor yetişdirmişdir.

Onun xalqımızın mədəniyyət tarixinə verdiyi qiymətli töhfələrindən "Heydər Əliyev və Azərbaycanda kitabxana işi", "XXI əsrin əvvəllərində Azərbaycanda kitabxana işinin inkişaf istiqamətləri (mülahizələr, təkliflər və proqnozlar)" (2006), Kitabxanaların kompüterləşdirilməsinin əsasları (2007), "Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir" (2009), 2004-2010-cu illərdə çap etdirdiyi 3 cildlik "Azərbaycanda kitabxana işinin tarixi", "Kitabxana və cəmiyyət" (2011), "Kitabxanaşünaslığın tarixi və metodologiyası" (2014) və başqa kitabları nümunə göstərmək olar.

2010-cu ildən nəşr olunan və kitabxanaşünaslığa, kitabxana işinin tarixi, nəzəriyyəsi və təcrübi problemlərinə dair elmi məqalələr dərc edən, nüfuzlu elmi jurnallardan hesab edilən "Kitabxanaşünaslıq və informasiya" adlı elmi-nəzəri və praktiki jurnalın təsisçisi və baş redaktoru da məhz Abuzər Xələfovdur.

Azərbaycan elminin, mədəniyyətinin inkişafındakı yüksək xidmətlərinə görə 2000-ci ildə "Şöhrət" ordeni, "1941-1945-ci illər müharibəsi veteranı" nişanı, "Xeyriyyəçilik və maarifçilik" medalı, 2002-ci ildə "Təhsil sahələri üzrə nailiyyətlərə görə" mükafatı almış, 2004-cü ildə Amerikada "İlin adamı-2004" seçilmiş, 2006- cı ildə "Əlaçı təhsil işçisi" döş nişanı ilə təltif edilmişdir.

2001-ci ildə "Əməkdar elm xadimi", 2005-ci ildə "İlin müəllimi" fəxri adlarını almışdır. 2007-ci ildən Azərbaycan Respublikası Prezidentinin Fəxri təqaüdçüsüdür.

Ə d ə b i y y a t

Azərbaycanda kitabxana işinin tarixi: Dərslik (üç hissədə) /A.Xələfov.-Bakı: Bakı Universiteti Nəşriyyatı, 2004-2010. H.1. Ən qədim dövrdən XX əsrə qədər.- Bakı, 2004- 328 s.; H. 2. XX əsrin birinci yarısında Azərbaycanda kitabxana işininin tarixi.- Bakı, 2007.- 552 s.; H. 3. XX əsrin ikinci yarısında və XXI əsrin əvvələrində Azərbaycanda kitabxana işinin tarixi.- Bakı, 2010.- 431 s.

Heydər Əliyev: Biblioqrafik məlumat kitabı /A.Xələfov, S.A. Sadıqova; red. və ön söz. müəl. A.Məhərrəmov.- Bakı: Bakı Universiteti Nəşriyyatı, 2003.- 434 s.

Azərbaycanda kitabxana işinə dair Heydər Əliyev doktrinası uğurla davam edir /A.Xələfov; lay. rəhb. Ə.Qarayev; elmi məsləhətçi. S. Məmmədəliyeva; elmi red. L.Məmmədova; red. K.Tahirov.- Bakı, 2009. -185, [1] s.

Kitabxana və cəmiyyət: Monoqrafiya /A.Xələfov.- Bakı: Azərnəşr, 2011.- 348 s.

Kitabxanaşünaslığın tarixi və metodologiyası /A.Xələfov.- Bakı, 2014.- 408 s.

Söz, kitab, mütaliə, kitabxana və kitabxanaçı haqqında müdrik fikirlər /tərt. ed. və ön söz müəl. A. Xələfov ; red. K. Aslan.-

Bakı: Mütərcim, 2014.- 187, [1] s.: 20 sm.

Kitabxanaşünaslığın müasir problemləri /A.Xələfov //Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri və praktiki jurnal .-2013.- № 1 (10).- S. 7-27.

Müasir kitabxanaların konseptual modeli (ideya və anlayışlar) /A.Xələfov //Kitabxanaşünaslıq və İnformasiya: Elmi-nəzəri praktiki jurnal.-2014.- № 1.(13)- S. 3-19.

Aslan, K. Elm və təhsil fədaisi: Abuzər Alı oğlu Xələfov /K.Aslan; elmi red. R.Kazımov; rəy.: X.İsmayılov və b.; Bakı Dövlət Universiteti.-Bakı: [Bakı Universiteti], 2006.- 240 s.

Mənalı ömür yolu: Abuzər Alı oğlu Xələfov /Bakı Dövlət Universiteti; tərt. ed. K.Aslan (red.), M.Bağırov.- Bakı: Bakı Universiteti, 2001.- 229 s.

Sadıqova, S. Abuzər Xələfov: Biblioqrafik məlumat kitabı /S.Sadıqova.- Bakı: Nagıl Evi nəsriyyatı, 2011.- 342 s.

80 yaşın ucalığı: Azərbaycan Respublikasının görkəmli elm və mədəniyyət xadimləri prof. A.A.Xələfov haqqında.- Bakı: "Bakı Universiteti" nəşriyyatı, 2011.- 228 s.

İ n t e r n e t d ə

www.anl.az

www.bsu.edu.az

Tarixdə bu gün

Xankəndinin işğalı 1991

Ərazisi: 1048 km²
Əhalisi: 57 000 nəfər

Yuxarı Qarabağın mərkəzi olan Xankəndi şəhəri 28 dekabr 1991-ci il tarixində Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunmuş, separatçı rejim yaradılmışdır.

1991-ci il dekabr ayının 28-da Xankəndinin itirilməsi, qarşıda Xocalı soyqırımı, Şuşa, Laçın, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli, Qubadlı, Zəngilanın işğalına yol açdı.

Yuxarı Qarabağın mərkəzi, Qarqar çayının sahilində, Qarabağ silsiləsinin Şərq ətəyində, Bakıdan 329 km aralıda yerləşən Xankəndi, Azərbaycanın inkişaf etmiş sənaye mərkəzi idi. Şəhərdə yüngül və yeyinti sənayesi müəssisələri var idi. Elektrotexnika, avtomobil təmiri və asfalt-beton zavodları, mebel fabriki, tikinti materialları, sənaye, istehsalat və tədris istehsalat kombinatları belə müəssisələrdən idi.

Tarixi sənədlərə görə Xankəndi şəhəri XVIII əsrin axırlarında, o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığının xanlarının istirahəti üçün yaşayış məskəni kimi salınmışdı. Elə şəhərin adı da buradan yaranmışdır. 1813-cü ilədək bircə nəfər ermənin də yaşamadığı Xankəndində sonralar çar Rusiyası tərəfindən etnik təmizləmə siyasəti aparılmış və bura İrandan köçürülən ermənilər yerləşdirilmişdir.

SSRİ dövründə Xankəndində azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti daha da güclənmiş, şəhərdə erməni ailələrinin sayı süni surətdə artırılmışdır. 1923-cü ildə Rusiya İmperiyasının siyasətilə Azərbaycanın tərkibində mərkəzi şəhəri Xankəndi olan Dağlıq Qarabağ Muxtar Vilayəti yaradılmışdı. Bundan sonra vilayətin ermənileşdirilməsi siyasəti aktivləşmiş, 6 oktyabr 1923-cü ildə ermənilərin müraciəti nəzərə alınaraq Xankəndinin adı dəyişdirilərək Azərbaycan xalqına qarşı genosid törətmiş cinayətkar Stepan Şaumyanın şərəfinə Stepanakert adlandırılmışdır. Muxtar Vilayətdə rəhbər vəzifələrə ermənilər irəli çəkilmiş, beləliklə də, Xankəndi erməni işğalı altına düşmüş, keçmiş SSRİ dövründə Xankəndində yaşayan azərbaycanlılar tədricən buradan didərgin salınmışlar.

1988-ci il hadisələri başlayanda Xankəndində erməni əhalisi azərbaycanlılara nisbətdə xeyli çoxluq təşkil edirdi. Həmin vaxt azərbaycanlıların sayı 17 minə yaxın idisə, ermənilər artıq 40 min nəfərədək artmışdılar.

1988-1989-cu ildə Xankəndi artıq erməni separatizminin mərkəzinə çevrilmişdi. Moskvanın himayəsilə güclənən erməni separatizmi sonuncu azərbaycanlıları 28 dekabr 1991-ci ildə Xankəndindən qovmağa nail olmuş, şəhərin işğalı və etnik təmizləmə tam başa çatdırılmışdı.

Ə d ə b i y y a t

Qaraca ,B.Xankəndinin işğalı Kərkicahandan başladı /B.Qaraca //Azərbaycan .-2014.- 28 dekabr.- S.7.

Qaraca, B.Xankəndi - işğaldan əvvəl və sonra /B.Qaraca //Azərbaycan .-2013.- 26 dekabr.- S.11.

İ n t e r n e t d ə

www.anl.az

www.xankendi.az

DEKABR
31

Tarixdə bu gün

Dünya Azərbaycanlılarının Həmrəylik Günü 1991



31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik günü - Azərbaycan millətinin birlik şüarının simvolik günüdür. Bu bayram ayrı-ayrı ölkələrdə yaşayan azərbaycanlılarla əlaqələr qurmaq, onlar arasında birlik və həmrəylik yaratmaq işində mühüm rol oynayır. Dünya Azərbaycanlılarının Həmrəylik gününün qeyd edilməsi bütün dünya azərbaycanlıları tərəfindən artıq bir zərurətə və mənəvi ehtiyaca çevrilmişdir.

Azərbaycanlıların yaşadıqları, fəaliyyət göstərdikləri və çoxluq təşkil etdikləri Avropa ölkələrində bu tendensiya özünü yüksək səviyyədə göstərir. Bu da ondan irəli gəlir ki, Avropadakı Azərbaycan diaspor təşkilatları öz qüvvələrini səfərbər etməkdə ardıcıldırlar və bu ayrı-ayrı cəmiyyət üzvləri üçün bir araya gəlmək, cəmiyyət və qurumlar halında birləşmək baxımından dünyanın sivil nöqtələrindən biri olan Avropada mühüm əhəmiyyət kəsb edir.

31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü bayramı dünyanın 70-dən çox ölkəsində azərbaycanlılar tərəfindən qeyd olunur. Həmrəylik günü Azərbaycan diasporu üçün ən mühüm bayrama çevrilmiş, Yeni il isə ikinci plana keçmişdir. Həmrəylik gününü hətta milliyyətcə azərbaycanlı olmayıb, lakin Azərbaycanda doğulub böyümüş, Azərbaycan əsilli diaspor nümayəndələri də qeyd edirlər.

Azərbaycanlılar minilliklər boyu özlərinin doğma torpağı olan tarixi Azərbaycan ərazisində yaşayaraq dünya sivilizasiyasına böyük töhfələr vermişlər. Müharibələr, inqilablar, hərbi münaqişələr, dünyada gedən müxtəlif ictimai-siyasi proseslər nəticəsində Azərbaycan parçalanmış, azərbaycanlıların bir qismi öz yurd-yuvalarından didərgin salınmış, deportasiyalara məruz qalmış, bir-birindən ayrı düşmüşdür. İş tapmaq, təhsil almaq məqsədilə doğma yurdu tərk edərək başqa ölkələrdə qərar tutub yaşayan azərbaycanlılar da vardır. Beləliklə də, azərbaycanlılar tarixi Azərbaycan torpaqlarından bütün dünyaya yayılmışlar. Hazırda onlar dünyanın bir çox ölkələrində yaşayırlar. Rusiyada, Ukraynada, Müstəqil Dövlətlər Birliyinin digər ölkələrində, Baltikyanı ölkələrdə, Avropada, Amerikada, Şərq ölkələrində iri Azərbaycan icmaları yaranmışdır.

SSRİ-nin son günləri, Azərbaycan millətinin, Arazın hər iki sahilində sərhəd yürüyüşü, dəmir tikanlı məftilləri qırması, özünü suya vurub öz doğma qardaş bacısına qovuşmaları iki totalitar dövlətin ciddi təzyiqlərinə baxmayaraq, o taylı-bu taylı millətin həftələrlə Araz qırağında gecə-gündüz birləşmək şüarı, azərbaycanlıların bir millət olduğunu dünya çapında bir daha canlandırdı. Həmrəylik günü, bu birləşmək istəyinin simvolik nişanıdır.

Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası 1989-cu il dekabrın axırlarında Naxçıvanda, sərhədlərin (SSRİ-İran sərhədləri) dağılması zamanı qoyulmuş, Şimali və Cənubi Azərbaycan arasındakı sərhəd dirəkləri dağıdılmışdı. Bu vaxt İstanbulda türkdilli xalqların Konfransı keçirilirdi. Konfransda dünya azərbaycanlılarının həmrəyliyinin qeyd olunmasına qərar verilmişdi.

1991-ci ilin 16 dekabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri Heydər Əliyev dünya azərbaycanlılarının birliyini yaratmağın əhəmiyyətini nəzərə alaraq dekabrın 31-ni Dünya Azərbaycanlılarının Həmrəylik Günü elan etmiş, beləliklə, bütün azərbaycanlılar üçün əziz olan bu gün bütün dünyada bayram edilir.

• ***Bu bölmədə 2016-ci ildə qeyd olunacaq, lakin tarixi dəqiq bilinməyən yubileylər haqqında məlumat əldə edəcəksiniz.***

875 il Nizami Gəncəvi 1141-1209

Nizami yaradıcılığa lirika ilə başlamış, öz lirik əsərləri ilə qüdrətli bir sənətkar kimi tanındıqdan sonra yaradıcılıq meydanını genişləndirmiş, lirik və epik ünsürlərin sıx vəhdətindən yaranmış olan, həmçinin daha böyük lövhələr, zəngin fikirlər ifadə etməyə imkan verən poemalarını yazmışdır. Böyük şair poemaları ilə yanaşı bütün yaradıcılığı dövründə lirik şeirlər yazmaqda davam etmiş, hətta öz yaradıcılığına Azərbaycan lirik poeziyasının ən gözəl nümunələrindən olan məşhur "Qocalıq" şeiri ilə yekun vurmuşdur.

Məşhur "Qocalıq" qəsidəsində onun yazılma tarixinə aid konkret bir işarə olmasa da, oradakı bir çox işarələr göstərir ki, bu şeir şairin axırıncı əsərlərindən biridir.

Bəşər tarixində unudulmaz adlar, dünyaya son dərəcə böyük mənəvi sərvətlər vermiş dahilər vardır: Dante, Şekspir, Şiller, Puşkin, Balzak, Tolstoy, Qorki… Onlar yaradıcılıqlarında öz dövrlərini bütünlüklə əks etdirərək cəmiyyət üzvlərini mənəvi tələbləri olan humanizmə, yüksək mənəviyyata və yaxşı əməllərə səsləmişlər. Əsərləri ilə Şərq bədii fikri tarixində yeni səhifə açmış, böyük Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin də adı bu ədəbiyyat ustadları ilə yanaşı zirvədə durur.

Əlavələr

2016

Milli ədəbiyyat

Şair, mütəfəkkir Əfzələddin İbrahim ibn Əli Nəccar Şirvaninin (Xaqani Şirvani) (1126-1199) anadan olmasının 890 illiyi

Dünya şöhrətli şair və mütəfəkkir Gəncəvi İlyas Yusif oğlunun (tam adı Cəmaləddin İlyas ibn Yusif Nizami Gəncəvi) (Nizami Gəncəvi) (1141-1209) anadan olmasının 875 illiyi **392-393**

Şair, görkəmli mütəfəkkir Şah Qasim Ənvarın (tam adı Seyyid Əli bin Harun bin Əbülqasim Hüseyni Təbrizi) (1356-1433) anadan olmasının 660 illiyi **394**

Şair Mirzə Məhəmmədəli Mirzə Əbdürrəhim oğlunun (Saib Təbrizi) (1601-1676) anadan olmasının 415 illiyi **395**

Şair Şıxızadə Kazım ağa Şıxı ağa oğlunun (1781-1842) anadan olmasının 235 illiyi

Şair Mirzəyev Rəhim bəy Mirzə Məmmədbağır oğlunun (Mirzə Rəhim Fəna) (1841/44-1929) anadan olmasının 175 illiyi

Şair Sədrəddinbəyov İsmayıl bəy Hacı Məhəmməd oğlunun (Nakam) (1841-1906) anadan olmasının 175 illiyi

Şairə Fatma xanım Kəminə Mirzə Bəybaba Fəna qızının (1841-1898) anadan olmasının 175 illiyi **396**

Yazıçı, jurnalist, teatr tənqidçisi Qasımov Hacı İbrahim oğlunun (1886-1936) anadan olmasının 130 illiyi

Şair, publisist, dramaturq Şamçızadə Əli Yəhya oğlunun (Əli Razi) (1886-1938) anadan olmasının 130 illiyi

Ədəbiyyatşünas alim, folklorşünas, tənqidçi Zeynallı Məmmədhənəfi (Hənəfi) Baba oğlunun (1896-13.10.1937) anadan olmasının 120 illiyi **397**

Şair Yusifzadə Əbdülbaqi Yusif oğlunun (Fövzi) (1901-10.01.1956) anadan olmasının 115 illiyi

Şair Seyid Məhəmmədhüseyn Behcət Təbrizinin (Seyid Məmmədhüseyn Şəhriyar) (1906/07-18.09.1988) anadan olmasının 110 illiyi **398**

İranlı şairə Pərvin xanım Ehtisaminin (1906-1941) anadan olmasının 110 illiyi

Şair, dramaturq, tərcüməçi Əyyubov Tələt Ömər oğlunun (1916-21.02.1977) anadan olmasının 100 illiyi

Folklor

Anadolu Türk aşığı Qaracaoğlanın (1606-1674) anadan olmasının 410 illiyi **399**

Aşıq Haqverdiyev Alı Mirzə oğlunun (Aşıq Alı) (1801-1911) anadan olmasının 215 illiyi **400**

Aşıq Pərinin (1811-1847) anadan olmasının 205 illiyi **401**

Aşıq Ələsgər Alməmməd oğlunun (Aşıq Ələsgər) (1821-07.03.1926) anadan olmasının 195 illiyi **402**

Şair-aşıq Əliyev Hüseyn Mikayıl oğlunun (Aşıq Hüseyn Cavan) (1916-14.11.1985) anadan olmasının 100 illiyi

Dünya ədəbiyyatı

Türk yazıçısı, publisist Şinasi İbrahimin (1826-13.09.1871) anadan olmasının 190 illiyi

Rəssamlıq.Heykəltəraşlıq.Memarlıq

Qədim Şərq rəssamı Nəqqaş Maninin (216-274 (276)) anadan olmasının 1800 illiyi

Əməkdar incəsənət xadimi, rəssam Məmmədov Hafiz Məmməd oğlunun (1921-1995) anadan olmasının 95 illiyi

Musiqi.Opera.Balet

Şərqin böyük musiqiçisi və musiqişünası Səfiəddin Əbdül Mömin ibn Yusif ibn Faxir əl-Urməvinin (1216-1294) anadan olmasının 800 illiyi **403**

Xanəndə, teatr xadimi Məmmədov Mirzə Muxtar Mirzə Əli Əsgər oğlunun (1841-16.01.1929) anadan olmasının 175 illiyi

Xanəndə Zülalov Əbdülbağı Kərbəlayı Əli oğlunun (Bülbülcan) (1841-08.1927) anadan olmasının 175 illiyi

Tarzən, müasir Azərbaycan tarının yaradıcısı Sadıq Əsəd oğlunun (Sadıqcan) (1846-1902) anadan olmasının 170 illiyi **404**

Tarzən Haqverdiyev Məşədi Zeynalın (1861-1918) anadan olmasının 155 illiyi

Xanəndə Abdullayev Ələsgər Baba oğlunun (Şəkili Ələsgər) (1866-01.04.1929) anadan olmasının 150 illiyi

Qarmon ifaçısı Kərbəlayı Lətif Hüseyn oğlunun (1876-06.12.1944) anadan olmasının 140 illiyi

Balaban ifaçısı Mövsümov Məhərrəm Ağabala oğlunun (1916-04.10.1957) anadan olmasının 100 illiyi

Xanəndə Haşımov Bakir Musa oğlunun (1926-1989) anadan olmasının 90 illiyi

Teatr.Kino

Görkəmli aktyor və rejissor Xələfov Hüseynbala Məmməd oğlunun (Hüseyn Ərəblinski) (1881-17.03.1919) anadan olmasının 135 illiyi **405**

Siyasət.Hərbi iş

Dövlət xadimi, böyük sərkərdə Cavanşir Varaz Qriqor oğlunun (Cavanşir) (616-680/81) anadan olmasının 1400 illiyi **406**

Dövlət xadimi, diplomat, sərkərdə və Quba xanı Fətəli xan Hüseyn Əli xan oğlunun (1736-1789) anadan olmasının 280 illiyi **407**

Təbriz üsyanının rəhbərlərindən biri Bağır xanın (1861/62-1916) anadan olmasının 155 illiyi

İctimai-siyasi və dövlət xadimi Yusifbəyli Nəsib bəy Yusif oğlunun (1881-31.05.1920) anadan olmasının 135 illiyi

Diplomat Şahtaxtinski Behbud ağanın (1881-30.05.1924) anadan olmasının 135 illiyi

Dövlət xadimi Heydərov Nəzər Heydər oğlunun (1891-30.12.1968) anadan olmasının 125 illiyi

Görkəmli elm və dövlət xadimi, professor Seyidov Həsən Əli oğlunun (1906-08.06.1999) anadan olmasının 110 illiyi **408**

Tarix

Tarixçi Mir Yəhya əl Hüseyni Qəzvininin (1481-1555) anadan olmasının 535 illiyi

Görkəmli tarixçi Bəhmən Mirzə Qacarın (1811-1884) anadan olmasının 205 illiyi

Fəlsəfə.Din

Qədim yunan filosofu və alimi Aristotelin (Ərəstun) (e.ə. 384-322) anadan olmasının 2400 illiyi

Fəlsəfə.İqtisadiyyat

Neft maqnatı, milyonçu Əsədullayev Şəmsi Əsədulla oğlunun (1840/41-21.04.1913) anadan olmasının 175 illiyi **409**

Neftçi, qazma sahəsində mütəxəssis, Əməkdar mühəndis Rüstəmov Nəbi Rüstəm oğlunun (1911-1964) anadan olmasının 105 illiyi

Mədəniyyət.Maarif.Təhsil

Alim və mütəfəkkir Naxçıvani Həsən İbn Ömərin (Şeyx Həsən Naxçıvani Bulquri və ya Təbrizi kimidə tanınmışdır) (1206-1298) anadan olmasının 810 illiyi

Publisist, şərqşünas, pedaqoq, ictimai xadim Şahtaxtlı (Şahtaxtinski) Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlunun (Məhəmməd ağa Şahtaxtinski) (1846-12.12.1931) anadan olmasının 170 illiyi **410**

Maarifpərvər ziyalı, kitabşünas alim və ictimai xadim Naxçıvani Hacı Məhəmməd Hacı Abbas oğlunun (1881-1963) anadan olmasının 135 illiyi

İlk azərbaycanlı ziyalı qadınlardan biri Şahtaxtinskaya Leyla İsa Sultan qızının (1886-1907) anadan olmasının 130 illiyi

Dilçi, filologiya elmləri doktoru, professor Bayramov Hüseyn Abbas oğlunun (1916-04.11.1982) anadan olmasının 100 illiyi

Coğrafiya.Geologiya

Geologiya-mineralogiya elmləri doktoru, professor, Əməkdar mühəndis Əliyev Ağa Qurban oğlunun (1911-1997) anadan olmasının 105 illiyi

Riyaziyyat.Fizika.Astronomiya

Əməkdar elm xadimi, fizika-riyaziyyat elmləri doktoru, professor Şirinov Xanlar Cəbrayıl oğlunun (1906-) anadan olmasının 110 illiyi



Kimya.Biologiya.Tibb

Təbiətşünas alim, təbib, filosof, musiqiçi Şirazi Qütbəddin Mahmud ibn Məsudun (1236-1321) anadan olmasının 780 illiyi

Azərbaycanda ilk nəbatat alimi Ağamirov Mirmusa Haşim oğlunun (1886-1947) anadan olmasının 130 illiyi

Tibb elmləri doktoru, professor, Əməkdar elm xadimi, Əməkdar həkim Axundova-Bağırbəyova Sona Əbdül qızının (1896-1982) anadan olmasının 120 illiyi

Baytarlıq və biologiya elmləri doktoru, professor Əhmədov Əmir Məmmədbağır oğlunun (1926-1990) anadan olmasının 90 illiyi

Kitabxanaşünaslıq.Biblioqrafiya

Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanasının (1921) yaradılmasının 95 illiyi

Polis Akademiyasının Ümumi kitabxanasının (1921) yaradılmasının 95 illiyi

Bakı Musiqi Akademiyasının kitabxanasının (1921) yaradılmasının 95 illiyi

M.Əzizbəyov adına kütləvi kitabxananın (Nəsimi rayon MKS) (1921) yaradılmasının 95 illiyi

Buzovna qəsəbə kütləvi kitabxanasının (Xəzər rayon MKS-nin 3 saylı filialı) (1926) yaradılmasının 90 illiyi

A.A.Bakıxanov adına Əmircan (Suraxanı rayon MKS-nin 1saylı filialı) qəsəbə kütləvi kitabxanasının (1926) yaradılmasının 90 illiyi

M.Ə.Sabir adına Balaxanı qəsəbə kütləvi kitabxanasının (Sabunçu rayon MKS-nin 11 saylı filialı) (1936) yaradılmasının 80 illiyi

Nizami adına Ədəbiyyat İnstitutunun kitabxanasının (1936) yaradılmasının 80 illiyi

Nəsimi adına Dilçilik İnstitutunun kitabxanasının (1936) yaradılmasının 80 illiyi

Binəqədi qəsəbə uşaq kitabxanasının (Binəqədi rayon MKS-nin 7 saylı filialı) (1951) yaradılmasının 65 illiyi

Şahbuz rayon Mərkəzi kitabxanasının (1951) yaradılmasının 65 illiyi

Zirə qəsəbə kütləvi kitabxanasının (Xəzər rayon MKS-nin 4 saylı filalı) (1956) yaradılmasının 60 illiyi

A.P.Çexov adına kütləvi kitabxananın (Nərimanov rayon MKS-nin 1saylı filialı) (1956) yaradılmasının 60 illiyi

A.Şaiq adına Maştağa qəsəbə uşaq kitabxanasının (Sabunçu rayon MKS-nin 13 saylı filialı) (1956) yaradılmasının 60 illiyi

T.Şahbazi adına kütləvi kitabxananın (Nərimanov rayon MKS-nin 3 saylı filialı) (1961) yaradılmasının 55 illiyi

Sumqayıt Dövlət Universitetinin kitabxanasının (1961) yaradılmasının 55 illiyi

Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasının (1966) yaradılmasının 50 illiyi

Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1976) yaradılmasının 40 illiyi

Laçın rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1976) yaradılmasının 40 illiyi

Oğuz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1976) yaradılmasının 40 illiyi

Mingəçevir Şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1956-cı ildə yaranan M.P.Vaqif adına şəhər mərkəzi kitabxanası əsasında) (1976) yaradılmasının 40 illiyi

Xaçmaz rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1976) yaradılmasının 40 illiyi

Babək rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1976) yaradılmasının 40 illiyi

N.Gəncəvi adına Naftalan şəhər kitabxanasının (1981) yaradılmasının 35 illiyi

Naxçıvan şəhər Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1981) yaradılmasının 35 illiyi

Bakı şəhəri H.Cavid adına kütləvi kitabxananın (Binəqədi rayon MKS 4 saylı filial) (1981) yaradılmasının 35 illiyi

Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzinin (1991) yaradılmasının 25 illiyi

Bakı şəhəri Nizami rayonu Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1991) yaradılmasının 25 illiyi

Qobustan rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin (1991) yaradılmasının 25 illiyi

Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Tədris Mərkəzinin kitabxanasının (2001) yaradılmasının 15 illiyi

Tarixdə bu gün

Mömünə Xatun türbəsinin inşasının (Naxçıvan, 1186) 830 illiyi

Gəncə sənətkarlarının və şəhər yoxsullarının üsyanı (1231) baş vermişdir.

Səfəvi hökmdarı I Şah İsmayıl Xətainin hakimiyyətə gəlməsinin (1501-1524)

515 illiyi
Şah Abbas məscidinin (Cümə Məscidi) inşa edilməsinin (1606) 410 illiyi
Şah İsmayıl Xətai tərəfindən poçt rabitəsinin dövlət səviyyəsində təşkilinin təməli qoyulmasının (1501) 515 illiyi
İlk telefon aparatının ixtirasının (1876, A.Q.Bell) 140 illiyi
Zaqafqaziyada Qori Müəllimlər Seminariyasının (1876) yaradılmasının 140 illiyi
"Kaspi" qəzetinin (1881) nəşr edilməsinin 135 illiyi
Bakı Vaqon Təmiri zavodunun (1891) yaradılmasının 125 illiyi
İlk Beynəlxalq Nobel mükafatının verilməsinin (1901) 115 illiyi **413**
Bakı kommersiya məktəbinin yaradılmasının (1901) 115 illiyi
"Orucov Qardaşları" mətbəə-nəşriyyatının (1906-1917) yaradılmasının 110 illiyi **414-415**
"Bakinskiy raboçiy" qəzetinin (05.1906) nəşr olunmasının 110 illiyi **416**
"Nicat" maarif cəmiyyətinin yaradılmasının (1906) 110 illiyi
"Məktəb" ədəbi, elmi jurnalın nəşr olunmasının (1911) 105 illiyi
"Ölülər" əsərinin Bakıda ilk dəfə səhnəyə qoyulmasının (1916) 100 illiyi
Bakı Azad Tənqid-Təbliğ Teatrının (1921) yaradılmasının 95 illiyi
Beynəlxalq Yazıçılar Birliyi - "PEN-KLUB"un yaradılmasının (1921) 95 illiyi **416**
Bakı Rabitə Elektrotexnikumunun (2002-ci ildən Bakı Dövlət Rabitə və Nəqliyyat Kolleci) (1931) təsis edilməsinin 85 illiyi
Şərqdə ilk notlu xalq çalğı alətləri orkestri və indiki Niyazi adına simfonik orkestri (1931) yaradılmasının 85 illiyi
Azərbaycan Kukla Teatrının (1931) təşkil edilməsinin 85 illiyi
Azərbaycan Milli İncəsənət Muzeyinin (1936) yaradılmasının 80 illiyi **417**
Bakı Zərgərlik zavodunun (1936) yaradılmasının 80 illiyi
Bakı Biskvit Fabrikinin (1941) istifadəyə verilməsinin 75 illiyi
Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin (1946) yaradılmasının 70 illiyi
Bülbülün ev-muzeyinin yaradılmasının (1976) 40 illiyi
Hüseyn Cavidin ev-muzeyinin yaradılmasının (1981) 35 illiyi
"Azərbaycan-İrs" mədəni-maarifçilik yönümlü jurnalın (1996) çap olunmasının 20 illiyi
Teleqramların poçt şöbələrində kompüter şəbəkəsi vasitəsilə ötürülməsinə başlanmasının (05.2001) 15 illiyi
YARAT Müasir İncəsənət Məkanı Azərbaycanın paytaxtı Bakıda yerləşən qeyri-kommersiya təşkilatı təsis edilmişdir (2011)

875 illiyi Nizami Gəncəvi 1141-1209

Şair

İlyas Yusif oğlu Nizami Gəncəvi (tam adı Cəmaləddin İlyas ibn Yusif) 1141-ci ildə Gəncə şəhərində anadan olmuşdur.

Təhsilini Gəncə mədrəsəsində almış, daha sonra şəxsi mütaliə yolu ilə o dövrün elmlərini mükəmməl öyrənmiş, xüsusən də Yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur. Ana dili ilə yanaşı o dövrün elm dili olan ərəb dilini və şeir dili olan fars (dəri) dilini mükəmməl öyrənmiş, dövrünün kamil bir aliminə çevrilmişdir. Buna görə də müasirləri onu "hər şeyi kamil bilən alim" anlamına gələn "Həkim" adlandırırdılar.

Nizami Gəncəvi dünya ədəbiyyatı tarixinə məsnəvi formasında fars dilində yazdığı 5 poemadan ibarət "Xəmsə" ("Beşlik") ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") müəllifi kimi daxil olmuşdur.

"Məxzənül-əsrar" ("Sirlər xəzinəsi" 1176-1178) adlı ilk poeması şairə böyük şöhrət qazandırmışdır. Yaxın və Orta Şərq ədəbiyyatında didaktik poema janrının ən qiymətli nümunəsi olan bu əsər şairin yaradıcılığında epik şeir sahəsində ilk qələm təcrübəsi idi. Şairin ədalətli insan cəmiyyəti, əməksevərlik, verilən sözün üstündə durmaq, rəhmli olmaq, qızıla nifrət, həqiqi dostluq haqqında ictimai-əxlaqi fikir və düşüncələri bu əsərdə öz əksini tapmışdır.

Xəmsənin ikinci poeması olan "Xosrov və Şirin" poemasını 1180-ci ildə bitirmişdir. Nizami bu əsəri Atabəy Şəmsəddin Məhəmməd Cahan Pəhləvan Eldəgizə (1173-1186) ithaf etmişdir. Cahan Pəhləvanın ölümündən sonra taxta çıxan Qızıl Arslan Gəncənin yaxınlığında öz çadırında şairlə görüşmüş və onun nəsihətlərini dinləmiş, şairə Həmdünyan adlı bir kənd bağışlamışdır.

Nizami Şirvan hökmdarı I Axistanın sifarişi ilə 1188-ci ildə "Leyli və Məcnun" poemasını yazmış, Yaxın və Orta Şərq xalqları arasında geniş yayılmış məhəbbət əfsanəsini ilk dəfə ədəbiyyata gətirmiş, vicdan və sevgi azadlığı haqqında ölməz bir dastan yaratmışdır. Şair bu poemada ülvi sevgini təsvir etməklə yanaşı qadın hüquqsuzluğundan, qadının əşya kimi satılıb-alınmasından, feodal adət-ənənələrindən söhbət açmış, insan adını uca tutmağa, ali məqsədlərə qulluq etməyə, mərd və mübariz olmağa çağırmışdır.

Nizami Ağsunqurlar sülaləsindən olan Marağa hakimi Əlaəddin Körpə Arslana həsr etdiyi "Yeddi gözəl" poemasını 1197-ci ildə yazmışdır. Nəhayət, ömrünün sonlarına yaxın bütün ədəbi-estetik, ictimai-fəlsəfi görüşlərini, mütərəqqi ideyalarını yekunlaşdırdığı "İsgəndərnamə" (təqr. 1203) poemasını qələmə almışdır.

Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi tanınmışdır. Lakin Şərq təzkirəçilərinin 20 min beyt həcmində olduğunu qeyd etdikləri bu divandakı şeirlərin çox az hissəsi dövrümüzədək gəlib çatmışdır. Bütün yaradıcılığı boyu lirik şeirlər yazmış, sonralar poemalarında irəli sürdüyü mütərəqqi ictimai-fəlsəfi fikirlərini ilk dəfə həmin şeirlərində ifadə etmişdir.

Nizami Gəncəvi üçün şəxsiyyətin ən yüksək meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qətiyyətlə rədd edən bu şairin qəhrəmanları içərisində türk, fars, ərəb, çinli, hindli, zənci, yunan, gürcü və s. xalqların nümayəndələrinə rast gəlmək olar. Hümanist şair müxtəlif dinlərə mənsub bu qəhrəmanların heç birinin milliyətinə, dini görüşlərinə qarşı çıxmamış, onun qəhrəmanları ədalət, xalq xoşbəxtliyi, yüksək məqsədlər uğrunda mübarizə aparmışdır. İnsan şəxsiyyətinə, in-

san əməyinə ehtiram şairin yaradıcılığının aparıcı mövzularındandır.

Nizami əsərlərini fars dilində yazmış, bu əsərlər dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri bir çox şəhərlərin (Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd, Təbriz, Tehran, Qahirə, İstanbul, Dehli, London, Paris və s.) məhşur kitabxana, muzey və əlyazmaları fondlarında qiymətli incilər kimi qorunub saxlanılır.

Şair 1209-cu il mart ayının 12-də vəfat etmişdir. Bu tarix qəbir daşı üzərində qeyd edilmişdir. Əsrlər uzunu xalq kütlələri tərəfindən əziz və müqəddəs sayılaraq mühafizə edilən Nizami qəbri üzərində möhtəşəm məqbərə tikilmişdir.

XX əsrin 70-ci illərində respublikamızda klassik ədəbi irsimizin öyrənilməsi baxımından tamamilə yeni mərhələ başlamış, həmin mərhələ bilavasitə xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlı olmuşdur. Məhz Ulu Öndərin təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvi irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə qarşıya kompleks vəzifələr qoyaraq dahi şairin irsinin və ümumən orta əsrlər Azərbaycan mədəniyyətinin sistemli araşdırılması üçün geniş perspektivlər açmışdır.

1981-ci ildə şairin 840 illik yubileyi Azərbaycan Respublikasının rəhbəri Heydər Əliyevin diqqəti və cəsarətli mövqeyi sayəsində sovetlər birliyi məkanında böyük təntənə ilə qeyd olunmuş, həmin ərəfədə Məqbərənin milli üslubda yenidən qurulması və onun ətrafındakı ərazini abadlaşdırmaq haqqında qərar verilmişdir. 1991-ci ildə YUNESKO-nun təşəbbüsü ilə Nizami Gəncəvinin anadan olmasının 850 illik yubileyi dünya miqyasında qeyd olunmuşdur. Mədəniyyət və incəsənətə daim qayğı və diqqət göstərən ümummilli liderimiz Heydər Əliyev 2000-ci ildə Avstriyaya rəsmi səfər edən zaman Xəmsənin bərpası barədə tapşırıq vermiş, 2002-ci ildən bərpa olunan "Xəmsə"nin əlyazması əsasında 2008-ci ildə multimedia diskinin təqdimatı keçirilmişdir. Əlyazmanın üzü XVII əsrdə Dust Məhəmməd ibn Dərviş Dərəxtiçi tərəfindən köçürülmüş, mətn XV əsrdə geniş yayılan nəstəliq xətti ilə yazılmışdır. "Xəmsə"yə çəkilən ilkin miniatürlər də bu əsrə təsadüf edir.

Dahi şairin irsinin öyrənilməsinə diqqət və qayğı bu gün də Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. 2011-ci ildə dahi şairin anadan olmasının 870 illik yubileyini dövlət səviyyəsində qeyd etmək üçün Azərbaycan Respublikasının prezidenti İlham Əliyev 30 dekabr 2011-ci il tarixində xüsusi Sərəncam vermişdir. Həmin sərəncamda N.Gəncəvinin yaradıcılığı "bəşər bədii fikrinin nadir hadisəsi" kimi qiymətləndirilmiş, onun 870 illik yubileyini ölkə miqyasında geniş qeyd etmək üçün əlaqədar nazirlik və təşkilatlara, Gəncə şəhər icra hakimiyyətinə tapşırıq verilmişdir. Təbii olaraq, şairin yubileyi ilə əlaqədar ən genişmiqyaslı tədbirlər onun vətəni Gəncə şəhərində həyata keçirilmişdir. İlk növbədə dahi Nizaminin Məqbərə kompleksi yenidən təmir edilmiş, ətrafında geniş park salınmış, burada "Nizami Gəncəvi Mərkəzi"nin bünövrəsi qoyulmuş, açıq havada muzey yaradılmış, Azərbaycan Milli Elmlər Akademiyasının Gəncə Regional Mərkəzində "Nizami İnstitutu" təsis olunmuş, "Nizami Gəncəvi" adlı jurnal nəşrə başlamış, silsilə elmi-praktik konfranslar keçirilmiş, təhsildə fərqlənən tələbələrə "Nizami adına təqaüd" təsis edilmiş, "Xəmsə" bağında yenidənqurma işləri aparıldıqdan sonra burada şairin şəhərdə ikinci heykəli ucaldılmışdır.

20 Aprel 2012-ci ildə İtaliyanın paytaxtı Roma şəhərində Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycanın İtaliyadakı səfirliyinin iştirakı ilə Roma şəhərindəki məşhur "Villa Borghese" parkında Nizami Gəncəvinin abidəsinin açılışı olmuşdur. 2014-cü il yanvarın 21-də Gəncədə Heydər Əliyev Fondunun dəstəyi ilə Nizami Gəncəvi Muzeyi inşa olunmuş,. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev muzeyin açılışında iştirak etmişdir.

Ə d ə b i y y a t

Azərbaycanca yazmış olduğu divan /N. Gəncəvi; red. S.Eloğlu; çapa haz., qeydlər və ön sözün müəl. S. İbrahimov, H.Səbuhi; naşir R.İmanlı; üz qapağını haz. V. Topkaya; mətni tərt. ed. E. Əbilov.-Bakı: İqra Nəşriyyat Evi, 2013.-191 s.

Leyli və Məcnun: [poema] /Nizami Gəncəvi; red. Ə. Səfərli; farscadan tərc., ön söz və izahların müəl. X. Yusifli; AMEA Nizami Gəncəvi Mərkəzi.-Bakı: Elm və təhsil, 2012.-355 s.

Sirlər xəzinəsi /Gəncəvi Nizami.-Bakı: Qanun, 2014.-327 [] s.

Yeddi gözəl /N. Gəncəvi; tərc. ed. M. Rahim; izahların müəl. R. Əliyev; ön sözün müəl. və elmi red. X. Yusifli.-Bakı: Adiloğlu, 2011.-327 s.

İlyas Yusif oğlu Nizami Gəncəvi /Ə. N.Gəncəvi.-Gəncə: [s. n.], 2013.-239 s.

Nizami Gəncəvi: biblioqrafiya /tərt. ed.: M.İbrahimova, G.Misirova; ixt. red. və burax. məsul K.Tahirov; red. M.Vəliyeva; M.F.Axundov ad. Azərbaycan Milli Kitabxanası. - Bakı,-2012.- 632 s.

Nizami Gəncəvi və folklor /red. M. Kazımoğlu; tərt. edən S. Rzasoy; AMEA, Folklor İn-tu.-Bakı: [Nurlan], 2013.-212 s.

www..anl.az

660 illiyi

Şah Qasim Ənvar 1356-1433

Şair

Şah Qasim Ənvar (tam adı Seyyid Əli bin Harun bin Əbülqasim Hüseyni Təbrizi "Qasim", "Qasimi", "Qasimi Ənvar" təxəllüslü şair) 1356-cı ildə Cənubi Azərbaycanın Sərab məhəlləsində anadan olmuşdur.

Şah Qasim Ənvar orta əsrlər ədəbiyyatımızın görkəmli şəxsiyyətlərindəndir. Lakin onu yalnız bir şair, bədii təfəkkür sahibi kimi təqdim etmək yanlışlıq olardı. İstedadlı şair olmaqla yanaşı, həm də görkəmli təriqət şeyxi, böyük iman adamı, təsəvvüf ideoloqu kimi tanınmışdır. Ürfani-fəlsəfi poeziyamızın, dini-təsəvvüfi fikir tariximizin zənginləşməsində onun danılmaz xidmətləri vardır.

İlk gəncliyində şeyxlər şeyxi Sədrəddin Ərdəbilinin müridi olmuşdur. Sonralar Şeyxin tapşırığı və razılığı ilə Gilana getmiş, bir müddət o ölkədə yaşamışdır. O, söz sənətinin şöhrəti və kamalının tərifi aləmə yayılana qədər burada qalmış, sonra isə Xorasana getmişdir.

Bədii söz, fikir münəvvəri Şah Qasimin həyat və fəaliyyətinin 1426-cı ilə qədərki sürəkli bir dövrü Heratla bağlı olmuşdur. Həmin ildə baş verən mühüm bir hadisə onu teymurilər paytaxtını tərk etmək məcburiyyəti ilə üzləşdirmişdir. Həmin ildə Heratda cümə məscidində hökmdar Şahruxa qarşı hürufi müridlərinin sui-qəsdi baş vermişdir. Hakimiyyət dairələri sui-qəsddə Qasim Ənvarın da əlaqəsi olmasından şübhələnmiş və o, Heratdan çıxarılmışdır.

Şah Qasim Heratı tərk edib Səmərqəndə gəlmişdir. Təqribən iki il Səmərqənddə yaşayan sənətkar yenidən Herata qayıdıb az bir vaxtdan sonra oranı birdəfəlik tərk etmişdir. Xorasanda Xərcüd kəndində məskən salmış, ömrünün sonuna qədər bu kənddə yaşayıb öz sufi təriqətinin təbliği ilə məşğul olmuşdur.

Şah Qasim Ənvar 1433-cü ildə Xərcürddə vəfat etmiş və burada da dəfn olunmuşdur.

Bir sıra qəzəllərini həm Azərbaycan, həm də fars dillərindən istifadə etməklə yazmışdır. Onun şeirlər divanından başqa "Ənisül-aşiqin", "Ənisül-arifin", "Təvəccahnamə", "Risaleyi-vücud", "Sual-cavab", "Risalətül-Əmanə" adlı əsərləri də məlumdur.

Sənətkarın istər həyatının, istərsə də əsərlərinin öyrənilməsi və nəşri tanınmış İran filoloqu Səid Nəfisiyə məxsusdur. S.Nəfisi 1958-ci ildə Tehranda Qasim Ənvarın "Külliyat"ını tərtib və nəşr etdirmişdir. "Külliyat"a İran alimi tərəfindən Şah Qasimin həyat və fəaliyyətini əhatə edən geniş ön söz də əlavə olunmuşdur.

Ədəbiyyat

Divani-Ənvar [əlyazma] / Şah Qasım Ənvar; xəttat Mahmud ibn Hacı -[Avstriya]: [s.n], 2002.-224 v. ; (4 qutuda).

Qasim Ənvar // Azərbaycan klassik ədəbiyyatından seçmələr: üç cilddə. C.2 : XIII-XVI əsrlər Azərbaycan şeri / tərt. ed. C. Qəhrəmanov; red. A.Dadaşzadə.-Bakı: Şərq-Qərb, 2005.-S.184-190.

Babayev, Y. Şah Qasım Ənvar: tənqid və ədəbiyyatşünaslıq /Y.Babayev //Azərbaycan. - 2012. - №4.- S.194-201.

Şah Qasım Ənvar //Babayev Y. Azərbaycan ədəbiyyatı tarixi (XIII - XVIII əsrlər): Ali məktəblər üçün dərslik.- Bakı, 2014.- S.312-326.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azyb.net

415 illiyi Saib Təbrizi 1601-1676

Şair



Mirzə Məhəmməd Əli Mirzə Əbdürrəhim oğlu (Saib Təbrizi) 1601-ci ildə Təbriz şəhərində doğulmuş, ibtidai təhsilini də burada almışdır. Onun atası Mirzə Əbdürrəhim tacir idi. Məşhur təzkiräçi Nəsrabadin onun dərin nüfuz qazanmış bir şəxs olduğunu yazırdı. Onun ata babası Şəms əd-Din Məhəmməd Təbrizi isə bütün Şərq dünyasında "Qələmi şirin" adı ilə tanınmış çox mahir xəttat idi.

Klassik Azərbaycan ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan Saib Təbrizi XVII əsrdə yaşayıb-yaratmışdır. O, mənşəcə Azərbaycan türkü idi. Təbrizi həm Azərbaycan türkcəsində, həm fars dilində gözəl əsrlər yaratmışdır.

Saib öz təhsilini və poetik fəaliyyətini İsfahanda davam etdirmişdir. Dövrün görkəmli alimlərindən Kaşi və Şəfaidən dərs almışdır. Təhsilini bitirəndə artıq İsfahanda savadlı ziyalı və istedadlı şair kimi tanınmışdı. Saib dövrünün ənənələrinə uyğun olaraq, təhsilini səyahətlərdə davam etdirmiş, Məkkə və Mədinə ziyarətində olmuş, oradan da Osmanlıya getmişdir, ölkənin tanınmış şair və alimləri ilə ta

nış olur, yaradıcılıq söhbətləri aparır.

Saib ömrünün son on ilini öz əsərlərinin sistemləşdirilməsinə və qaydaya salınmasına həsr edib. Şeirlərini mövzular üzrə ayıraraq, "Miratülcamal", "Arayişe-nigar" və "Vacibülhifz" adlı toplular təşkil etmişdir.

Təbrizi özündən sonra böyük bir poetik irs qoyub getmişdir. Bəzi tədqiqatçılar belə hesab edirlər ki, onun irsi təqribən 300 min beyt təşkil edib. Görkəmli Azərbaycan alimi Məhəmməd Əli Tərbiyət özünün "Azərbaycanın görkəmli adamları" kitabında yazır ki, o özü Saibin 120 minbeytlik "Divan"ını (poemaları daxil olmadan) gözü ilə görüb. O nəhəng irsin cüzi bir hissəsi xalqımıza çatıb. Farsca bilənlər, əlbəttə, Saib «Külliyyat»ının İran nəşrlərini daha geniş biçimdə mütaliə etmək imkanına malikdirlər. Lakin Saibin farsca irsinin kiçik bir hissəsi dilimizə çevrilib. Saibin türkcə 17 şeiri əlimizə çatıb.

Saib Təbrizi öz şeirləri ilə yanaşı istər sələflərindən, istərsə də müasirlərindən bəyənib seçdiyi 800 şairin şeirindən 25 min beytlik bir gülçin hazırlamışdır ki, bu kitab "Səfineyi-Saib" adı ilə məşhurdur.

Saib Təbrizinin yaradıcılığı ilə müxtəlif dövrlərdə Seyid Əzim Şirvani, Hüseyn Əfəndi Qayıbov, Firidun bəy Köçərli, akademik Həmid Araslı, şair-ədəbiyyatşünas Balaş Azəroğlu, tədqiqatçılar Həsən Bicari və Məsiağa Məhəmmədi maraqlanmış və onun irsini tədqiq etmişlər.

XVII yüzillikdə Füzuli ədəbi məktəbinin davam və inkişaf etdirilməsində Saib Təbrizinin böyük xidmətləri olub. Əsərlərini Azərbaycan və fars dillərində qələmə alan şair ədəbi mühitdə "Əsrinin Füzulisi" adlandırılıb, eyni zamanda təzkiräçi kimi də tanınıb.

Saib Təbrizi 1676-cı ildə İsfahanda vəfat etmişdir, məşhur "Saib təkyəsi"ndə dəfn olunmuşdur.

Ədəbiyyat

Seçilmiş əsərləri /Saib Təbrizi; tərt. və tərc. B.Azəroğlu; red. M.Adilov.-Bakı: Öndər, 2004.-256 s.

Hüseyni, M. Saib Təbrizi: türkcə şeirlərinin elmi-tənqidi mətni /M.Hüseyni; elmi red. P.Kərimov; AMEA, Məhəmməd Füzuli adına Əlyazmalar İn-tu .-Bakı: Elm və təhsil, 2013.-26 s.

Əlioğlu, P. Saib Təbrizinin ana dilindəki şeirlərinin elmi-tənqidi mətni /P.Əlioğlu //Ədəbiyyat qəzeti.- 2013.- 6 sentyabr.- S.7.

Fərəcov, S. "Özünlə şeir apar, Saib..." /S.Fərəcov //Mədəniyyət.- 2013.- 29 noyabr.- S.15.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.kitablar.org

www.haqqinda.az

175 illiyi

Fatma xanım Kəminə 1841-1898

Şairə

Ədəbiyyat

Kəminə xanım Fatma /[ön söz. Ə.Cəfərzadə; red. M.Sultanov].-Bakı: Gənclik, 1971.- 96 s.

Fatma xanım Kəminə //Azərbaycan qadın şairləri antologiyası /tərtib ed. Ə.Cəfərzadə; ön sözün müəl. N.Rəfibəyli; red.: T.Qaraqaya, L.Əliyeva.-Bakı, 2005.- S.96-100.

Kəminə xanım Fatma //Azərbaycanın aşıq və şair qadınları /[toplayıb tərt.ed. Ə.Cəfərzadə; rəssam M. Rəhmanzadə].-Bakı, 1974.- S.77.-94.

Xəlilzadə, F. Klassik irsimizin Şuşa qanadı: Yarı Haqq olan şair /F.Xəlilzadə //Kaspi.- 2012.- 29 sentyabr -1 oktyabr.- S.19.

Xəlilzadə, F. Yarı Haqq olan şair /F.Xəlilzadə //Azərbaycan.-2012.- 25 avqust.- S. 7.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadqadin.az

Fatma xanım Mirzə Bəybaba Fəna qızı Kəminə 1841-ci ildə Şuşa şəhərində "Qafqaz qitəsinin Şirazı mənziləsində" (F.Köçərli) Mirzə Bəybaba Tahirzadənin ailəsində anadan olmuşdur. Onun ilk sənət müəllimi də atası olmuşdur.

Fatma xanım kiçik yaşlarından molla-xana təhsili almış, fars dilini mükəmməl öyrənmiş, sonralar təhsilini artırmaq üçün Türkiyəyə getmiş, bir neçə il İstanbulda oxumuşdur. Dövrünün ziyalıları Fatma xanıma ağlına, dərrakəsinə görə dərin ehtiram bəsləyər, "şairə Mirzə Fatma" - deyə ona müraciət edərdilər. Fatma xanım kiçik yaşlarından etibarən şeirə maraq göstərmişdir. Şairənin atası Mirzə Bəybaba Fəna da şair olmuş və "Fəna" təxəllüsü ilə şeir yazmışdır.

Kəminə xanımın həyat və yaradıcılığı haqqında XIX əsr təzkirələrində az da olsa məlumat var. Mir Möhsün Nəvvab "Təzkireyi-Nəvvab" əsərində Kəminə xanım haqqında məlumat verərək bildirir ki, o, dörd yüzə yaxın şeir yazmış, zəngin yaradıcılığı ilə dövrünün işıqlı insanlarından biri olmuşdur.

XIX əsr təzkirələri arasında da şairənin şeirlərinə rast gəlinir. Şairənin əsərlərinin böyük bir qismi fars dilində yazılmışdır. O dövrdə Fatma xanım Azərbaycanın ən məşhur 3-5 şairəsindən biri olmuşdur.

Şairə onunla bir dövrdə yaşayan bir çox aşığın şeirlərinə nəzirələr yazmışdır. Amma dövrümüzə onun əsasən klassik şəkildə yazılmış şeirləri gəlib çatmışdır.

Firudin bəy Köçərli "Azərbaycan ədəbiyyatı" kitabında Fatma xanımın şəxsiyyətini və yaradıcılığını yüksək qiymətləndirərək onu "Qarabağın üçüncü şaireyi-möhtərəməsi" adlandırmışdı: "...Həqiqətdə çox gözəl, zərif bir can idi və zahiri gözəlliyinə müvafiq batini və mənəvi tərəfdən dəxi-əxlaqi-həsənə sahibəsi olub, ziyadə xoşxülq, mülayim və xoşrəftar bir nadireyi-zəmanə idi".

Fatma xanım ömrü boyu Xurşidbanu Natəvanın sənət və qəlb dostu, yaxın rəfiqəsi, həmdərdi olmuş, düz otuz il onlar xeyirdə-şərdə, müxtəlif tədbirlərdə, şeir və musiqi məclislərində birgə iştirak etmişlər.

Fatma xanım Kəminə Şuşada Mir Möhsün Nəvvabın başçılıq etdiyi "Məclisi-fəramuşan" və şairə Natəvanın başçılıq etdiyi "Məclisi-üns" ədəbi məclisinin ən fəal üzvlərindən biri olmuş, onun bir şairə kimi yetişməsində bu ədəbi məclislərin böyük rolu olmuşdur, burada sənətkarlıq dərsləri alaraq püxtələşmişdir.

Şairə yüksək poetik istedada malik olmaqla yanaşı Şərq poeziyasına dərindən bələd olmuş, Füzuli lirikasını, demək olar ki, əzbərdən bilmiş, böyük ustadının təsiri ilə klassik üslubda yazıb-yaratmışdı.

Fatma xanım Kəminə 1898-ci ildə vəfat etmişdir.

120 illiyi Hənəfi Zeynallı 1896-1937

Ədəbiyyatşünas

Məmmədhənəfi (Hənəfi) Baba oğlu Zeynallı 1896-cı ildə Bakının Mərdəkan qəsəbəsində anadan olmuşdur. Mədrəsədə oxumuş, rus-müsəlman orta məktəbini bitirmişdir.

1916-cı ildə Bakıdakı Orta Politexnik məktəbini bitirmiş və elə həmin il müsabiqə imtahanını uğurla verərək İmperator Texniki Peşə məktəbinə daxil olmuş, 1917-ci ildə fevral inqilabından sonra təhsilini dayandırmışdır.

H.Zeynallı 1922-ci ildə Azərbaycan Dövlət Universitetinə (indiki BDU) daxil olmuş, oranı 1927-ci ildə bitirmiş və təyinatını Şərq fakültəsinin Azərbaycan türk ədəbiyyatı tarixi kafedrasına, sonra isə Azərbaycan Pedoqoji İnstitutuna almışdır. 1930-cu ildə dosent olmuşdur.

1923-cü ildən Azərbaycan Dövlət Nəşriyyatının əsas yaradıcılarından biri kimi fəaliyyət göstərmişdir. 1930-cu ildən Azərbaycan DETİ-nin ədəbiyyat bölməsində işləmiş, folklor qrupuna, 1934-cü ildən Azərbaycan SSR Elmlər Akademiyasında folklor bölməsinə rəhbərlik etmiş və həm də Azərnəşrdə redaktor kimi çalışmışdır.

1923-1931-ci illərdə Azərnəşrdə işləyərkən "Kommunist", "Maarif və Mədəniyyət", "İnqilab və Mədəniyyət", "Maarif işçisi" jurnalları ilə əməkdaşlıq etmiş, orada geniş ədəbi publisistik yazılarla çıxış etmişdir.

Hənəfi Zeynallı ədəbiyyat tarixinə müstəqil əsər həsr etməmiş, lakin klassik irsə dair bütün məqalələrini ədəbiyyatımızın tarixi vəziyyətini nəzərə alaraq yazmışdır. O, ədəbiyyat tariximiz haqqında keçən əsrin 20-ci illərində meydana çıxmaqda olan nəzəriyyələrə, dövrünün mövcud ədəbiyyat tarixlərinə laqeyd deyildi.

Hənəfi Zeynallının əsərləri içərisində 1926-cı ildə yazdığı "Azərbaycanın atalar sözləri və məsəllər" kitabının xüsusi dəyəri var. Burada dörd minədək atalar sözü və məsəl toplanıb. O, hələ nə qədər xalq incisi - folklor nümunəsi toplayacaq, neçə tədqiqat əsərinin altında "Hənəfi Zeynallı" imzası qoyulacaqdı.

Ancaq Stalin rejimi heç bir əsası olmadan onu "xalq düşməni" elan etdi. Hənəfi Zeynallının məhkəməsi cəmi 15 dəqiqə çəkmişdir. Bütün repressiya qurbanlarının məhkəməsi kimi... Burada Hənəfi Zeynallı özünü tam günahkar hesab etdiyini, təslim olduğunu və mərhəmət dilədiyini söyləyir.

Hərbi kollegiya Hənəfi Baba oğlu Zeynallını ən yüksək cəzaya - güllələnməyə məhkum etmişdir.

Lakin 1957-ci il martın 30-da SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının qərarına görə 1937-ci il sentyabrın 12-də SSRİ Ali Hərbi Kollegiyasının Hənəfi Baba oğlu Zeynallının istintaq işi üzrə çıxartdığı hökm dəyişdirildi və cinayət tərkibi olmadığı üçün iş xətm edildi...

Ədəbiyyat

Azərbaycan nağılları: 5 cilddə /toplayıb tərt.ed. H. Zeynallı; nəşrə hazırlayanlar. İ.Abbaslı, R.Xəlilov, M.Teymurov; red. İ.Abbaslı.-Bakı: Şərq-Qərb, 2005.-C.I.-360 s.

Hənəfi Zeynallı//Fikrin karvanı: Görkəmli Azərbaycan tənqidçi və ədəbiyyatşünasları /tərt. ed., red. və ön sözün müəl. Elçin.-Bakı: Yazıçı, 1984.-S. 160-174.

Qurbanova, N. Hənəfi Zeynallı: Ədəbi-tənqidi görüşləri /N.Qurbanova; rəyçi. Y. Qarayev; red. M.Axundov.-Bakı: Yazıçı, 1989.-144 s.

Oktay."Azərbaycanın atalar sözləri və məsəlləri":Hənəfi Zeynallının Azərbaycan folklorunun toplanması, tərtibi və nəşrində müstəsna xidmətləri olub /Oktay //Xalq cəbhəsi.-2013.- 27 aprel.- S. 13.

110 illiyi Məmmədhüseyn Şəhriyar 1906/07-1988

Şair



Ə d ə b i y y a t

Seçilmiş əsərləri: [2 cilddə] / Səhənd; [ön söz. Ş.Məmmədhüseyn].- Bakı: Şərq-Qərb, 2006.-280 s.

Heydərbabaya salam: [poema] /M.Şəhriyar; red. və ön söz müəl. M.Çəmənli.-Bakı: Təhsil, 2009.-39 s.

Ağayev, Ə. Məhəmmədhüseyn Şəhriyar: pedaqoji görüşləri /Ə.Ağayev, Q.Ədaləti; red. Ə.Yəqubi.-Bakı: Mütərcim, 2013.-161 s.

Dağkəsəmənli, R.Sönməz günəşdir Şəhriyar: [Şeirlər və poemalar] /Rafiq Dağkəsəmənli; red. Z.Qafarlı.-Bakı: 2008.-163 s

Əhməd, V. Azərbaycanı candan artıq sevən Şəhriyar: "Heydərbabaya salam" poemasının Quzey Azərbaycana da böyük təsiri oldu /V. Əhməd //Xalq cəbhəsi.-2014.-4-8 oktyabr.- № 181.- S.14.

Seyid Məhəmmədhüseyn Behcət Təbrizi (Məmmədhüseyn Şəhriyar) 1906/7-ci ildə Təbriz şəhərinin Bağmeşə bölgəsində, Xoşginab kəndində anadan olmuşdur. O, Behcət təxəllüsü ilə də şeirlər yazmışdır.

İlk təhsilini Xoşginabda axund Molla İbrahimdən almış, sonralar 1912-ci ildə Təbrizə köçmüş və burada "Talibiyyə" mədrəsəsində oxumuşdur. Ərəb, fars, evdə isə fransız dillərini öyrənmiş, şair Həbib Sahirlə tanış olmuş, M.Ə.Sabirin şeirlərini oxumaq imkanı əldə etmişdir. Ana dilində ilk şeirini 1913-cü ildə mədrəsədə oxuduğu müddətdə yazmışdır.

Şəhriyar Təbrizdə orta təhsil almış, Tehran Universitetinin tibb fakültəsini bitirsə də 1920-ci illərin ortalarından etibarən artıq istedadlı bir şair kimi tanınmağa başlamışdı. İlk şeirini Təbrizdəki "Məhəmmədiyyə" orta məktəbinin buraxdığı "Ədəb" adlı jurnalda dərc etdirmişdir. Sədinin "Gülüstan"ı, Hafizin qəzəlləri, Qurani-Kərim, bəzi ərəb-fars lüğətləri Şəhriyarın hələ uşaq yaşlarında öyrəndiyi əsərlərdən olmuşdur. XX əsrin 20-ci illərin ortalarından etibarən artıq istedadlı bir şair kimi tanınmağa başlayan Şəhriyar bəzi səbəblərdən ali təhsilini yarımçıq qoymağa məcbur olmuş, bir müddət İranın müxtəlif şəhərlərində, o cümlədən Məşhəddə yerli idarələrdə məmurluq etmişdir. XX əsrin 30-cu illərin ortalarında Tehrana qayıdıb banklardan birinə işə düzəlmişdir.

İlk şeir kitabı 1931-ci ildə Tehranda - üç böyük şair və alimin - Məlikuşşüəra Baharın, Səid Nəfisinin və Pəjman Bəxtiyarinin müqəddimələri ilə nəşr olunmuşdur.

M.Şəhriyarı XX əsr Azərbaycan poeziyasının nəhəngləri sırasına ucaldan ilk növbədə onun ölməz "Heydərbabaya salam" poeması olmuşdur.

Milli ədəbiyyatın və mədəniyyətin qorunması və inkişafı uğrunda fədakarlıqla çalışan vətənpərvərlərin səyi ilə 2003-cü ilin mart ayında "Heydərbabaya salam" əsəri çap olunmuşdur. Həmin nəşrə müqəddimə yazmış alimlər - Mehdi Rövşənzəmir və Əbdüləli Karəng onu yüksək qiymətləndirmiş, haqlı olaraq bu poemanın dünya ədəbiyyatının bir sıra nadir əsərləri ilə eyni səviyyədə dayandığını göstərmişlər.

Məhəmmədhüseyn Şəhriyar 1988-ci il sentyabr ayının 18-də Tehranın "Mehr" xəstəxanasında vəfat etmişdir. Vəsiyyətinə əsasən cənazəsi Təbrizə gətirilmiş və Surxabdakı məşhur "Şairlər qəbiristanı"nda dəfn edilmişdir. Burada İran xalqının mədəniyyət tarixini nümayiş etdirən gözəl bir muzey də yaradılmışdır. Məqbərənin önündə qonaqlar Şəhriyarın öz abidəsi ilə yanaşı Azərbaycan Respublikası hökumətinin Bakıdan hədiyyə göndərdiyi Nizami Gəncəvinin heykəlini də ehtiramla seyr edirlər.

Məhəmmədhüseyn Şəhriyarın vəfat etdiyi gün, yəni 18 sentyabr hər il İranda "Milli şeir günü" kimi qeyd edilir.

410 illiyi Qaracaoğlan 1606-1674/1676

Türk aşığı

Ə d ə b i y y a t

Aramızda qarlı dağlar dayanıb: şeirlər /Qaracaoğlan; ön söz. müəl.: İ.Ömərоğlu, Q.Namazov; red. İ.Türkay.-Bakı: Yazıçı, 1991.- 216 s.

Şeirlər /Qaracaoğlan; tərt. ed. və ön sözün müəl.: İ.Ömərоğlu, Q.Namazov.-Bakı: Şərq-Qərb, 2006.256 s.

Quliyeva-Qafqazlı, X. Qaracaoğlan /X.Quliyeva-Qafqazlı; red. H.Araslı; AzSSR EA, Şərqşünaslıq İnstu.-Bakı: Elm, 1985.- 112 s.

Tatyüz, H.A. Qaracaoğlan yaradıcılığında aşıq havaları: sənətşün. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı: 17.00.02 /H.A.Tatyüz; Azərb. Resp. Təhsil Nazirliyi, Ü.Hacıbəyli ad. BMA.- Bakı, 2012.-34 s.

Uğur. XVI yüzil türk aşıq poeziyası: Pir Sultan Abdal və Qaracaoğlan /Uğur //Xalq cəbhəsi.- 2012. - 27 sentyabr. - S.14.

Tədqiqatçıların araşdırmalarına görə, Qaracaoğlan 1606-cı ildə Mut elinin Çuxur obasında, tanınmış Sayıoğlu nəslinə mənsub ailədə anadan olmuşdur. Kiçik yaşlarından yayı Anadolu yaylalarında keçirən Qaracaoğlan ömrü boyu xalqa bağlı olmuş, gəzərgi həyat keçirmiş, Balkan ölkələrini, Şərq vilayətlərini, Azərbaycanı, İranı gəzmiş, şeirlərində də bu yerlərdən bəhs etmişdir.

Qaracaoğlanın həyatı və yaradıcılığı haqqında ilk məlumatı türk ədəbiyyatının qurucularından olan Fuad Köprülü 1915-ci ildə "Türk saz şairləri" adlı kitabında vermişdir. 1927-ci ildə isə Sadettin Hüzhüt Güney "Qaracaoğlanın həyatı və şeirləri" kitabını nəşr etdirdi. Sonrakı illirdə Ahmet Kutsi Tecer, Mustafa Necati Karayer, Refik Ahmet Sevengil, Jahit Özbelli, İlhan Başgöz, Ali Rza Yalçın, Ahmet Tevhid kimi görkəmli alimlərin tədqiqatlarında Qaracaoğlan, onun yaradıcılığı haqqında qiymətli fikirlər irəli sürülmüşdür. Bu da bir həqiqətdir ki, Qaracaoğlan aşıq ənənələrə uyğun olaraq sazı və sözü ilə Osmanlı imperatorluğunun Konya, İçel, Kayseri, Mardin, Karaman, Adana, Diyarbekir, Hama, Hələb, Misir, Tokkat, Ankara, Bursa, Simas kimi yerlərinin kənd və yaylalarına qədər gəzib-dolaşmış, hər yerdə də şairlik və aşıqlıq gücünü göstərmişdir. Öz adının gah Hasan, gah da Halil (Xəlil), "Qaracaoğlan"ın isə onun təxəllüsü olduğunu aşıq şeirlərində ifadə edir. Qaracaoğlanın tədqiqatçıları onun bir qürbətçi, qərib bir aşıq olduğunu yazırlar. Şeirlərində də bunu təsdiq edən tutarlı misralar vardır. Şerlərində Dunay boylarından Avstriya müharibələrinə qədər söz etdiyinə görə onun Osmanlı imperatorluğunun Qərb hüdudlarına, hətta xarici ölkələrə də getdiyi ehtimal olunur. "Dilləri var dilimizə bənzər" şeiri bu ehtimalın doğruluğunu təsdiqləyir.

Qaracaoğlan xalq dilinin incəliklərini və gözəlliklərini bütün təravəti ilə şeirə gətirdiyi kimi, heca vəzninin də ən yayqın və klassik formalarında şeirlər yazmışdır. Ən çox qoşma, səmai, varsağı şəkillərindən istifadə etmişdir. Qaracaoğlanın istifadə etdiyi nəzm şəkillərindən biri də qoşmadır. Aşığın tədqiqatçılarının yazdığına görə onun yazdığı 500-dən yuxarı şeirin 322-si qoşma biçimində olmaqla bərabər, bu şeirlər klassik qoşma şəklinin ən mükəmməl nümunələrindəndir.

Azərbaycan Qaracaoğlanın ikinci vətənidir. Qaracaoğlanın Gədəbəydə olması, Göyçədə yaşaması haqqında rəvayətlər də dolaşmaqdadır. XVI-XVII yüzillikdə yaşayıb yaratmış Qurbaninin, Sarı Aşığın təsiri Qaracaoğlan yaradıcılığında hiss olunduğu kimi, özündən sonrakı aşıqların – Aşıq Alının, Aşıq Ələsgərin və başqa sənətkarların yaradıcılığında da Qaracaoğlanın təsiri aydınca duyulmaqdadır.

Mənbələrdə onun 1674/76-cı və ya 1689-cu illərdə vafat etdiyi söylənilir. Təxminən 80 ilə yaxın ömür sürən sənətkar yenə də öz ana torpağına qismət olub, uca bir təpədə dəfn edilmişdir. İndi "Qaracaoğlan təpəsi" adlanan həmin yer sənətsevərlərin ziyarətgahına dönüb.

215 illiyi

Aşıq Alı 1801-1911

Aşıq-şair

Ə d ə b i y y a t

Əsərləri /Aşıq Alı; tərt. ed. və red. Q.Zimistanoğlu.-Bakı: [OL MMC], 2013.-336 s.

Əsərləri /Aşıq Alı; tərt. ed. və ön sözün müəl. H.İsmayılov.-Bakı: Avrasiya press, 2006.-192 s.

Şeirlər/Aşıq Alı; tərt. ed. Ə.Əmirov, Ş.Əsgərov, M.Həkimov.-Bakı: Yazıçı, 1981.-140 s.

Təcnislər /Aşıq Alı; tərt.ed. və ön sözün müəllifi. Ə. Əbülhəsənoğlu; red. İ.Sadıq.-Bakı: Azərnəşr, 1995.-416 s.

Aşıq Alı //El çələngi: xalq şeirindən seçmələr /tərt. ed. Q.Namazov.-Bakı: Şərq-Qərb, 2004.-S.176-181.

Aşıq Alının irsi və şəxsiyyəti //Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri /H.İsmayılov; AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Folklor Elmi-Mədəni Mərkəzi.-Bakı: Elm, 2002.-S.253-276.

Alı Mirzə oğlu Haqverdiyev (Aşıq Alı) 1801-ci ildə Göyçə mahalında, Qızılvəng kəndində anadan olmuşdur.

16-17 yaşlarından aşıqlıq etməyə başlamış, qısa zaman içində məşhurlaşmışdır. Çoxlu sayda şagirdi olmuş, onlardan ən tanınmışı XIX əsr Azərbaycan aşıq şerinin tanınmış nümayəndələrindən biri Aşıq Ələsgərdir. Rəvayətə görə müəllim və tələbə günlərin bir günü bir məclisdə deyişmişlər və aşıq Alı Ələsgərə məğlub olub.

Böyük bir ədəbi irs qoyub gedən Aşıq Alı vaxtında axtarılıb tədqiq olunmadığından külliyyatı itmiş, şeirlərinin çoxu təhrif olunmuş, bəzən də başqalarının adına getmişdir. Təsadüfi deyil ki, Alı irsinə ilkin üz tutanlardan Hümbət Əlizadə 30-cu illərdə çap etdirdiyi "Aşıqlar" kitabında Göyçəli Aşıq Alının yaradıcılığından çox az nümunələr qaldığına təəssüflənirdi.

Aşıq Alı irsinin öyrənilməsində Hüseyn Arifin ciddi səyləri olub. Xüsusilə, "Aşıq Alını axtarıram" məqaləsindən sonra bu sahədə dönüş yaranıb. Hüseyn Arifin axtarışları nəticəsində böyük sənətkarın hafizələrdə yaşayan 54 şeiri yazıya alınmış və 1975-ci ildə "Aşıq Alı" adlı kitabçada nəşr olunmuşdur. Bu nümunələr bir daha çeşidlənərək aşığın 180 illik yubileyi ərəfəsində çapa hazırlanmış və 1982-ci ildə yenidən nəşr olunmuşdur. Kitabın uğurlu cəhəti kimi təcnislərin nəşri xüsusi qeyd olunur.

Aşıq Alı gəraylı, qoşma, təcnis, divani, müxəmməs kimi şeir növlərində çoxsaylı şeirlər yazmışdır.

Aşıq Alı eyni zamanda musiqi yaradıcılığı və bəstəkar fəaliyyəti ilə də geniş şöhrət qazanmışdır. Onun yaratdığı saz havalarına "Göyçə şərili", "Göyçəgülü", "Ağır şərili", "Göyçə qaytağı", "Qəhrəmanı", "El bayatısı" ("Köç bayatı"), "Gilənar" aid edilir. Aşıq Alı "Koroğlu aşığı" kimi məşhur olmuş, "Koroğlu"nun klassik ifa tərzinin də ondan qalması ehtimal olunur. Aşıq Alının ədəbi irsinin sağ qalmış nümunələrinin nəşr olunduğu etibarlı mənbələrdən biri İ.Ələsgərin tərtib etdiyi "Sazlı-sözlü Göyçə" kitabıdır. Kitabda Aşıq Alının "Ağrı dağı", "Bənzərsən", "Bu gün", "Dedi", "Dolandırır", "Düşər", "Düzələ bilməz", "İstər könlüm", "Keçdi", "Qızların", "Qoca dünya çoxun yola salıbdı", "Nə qaldı", "Oldu getdi", "Özgələrdən bizə xata yetişməz" qoşmaları, "Ay ağ almasın", "Dalı dayansın", "Başa-baş", "Dal dala" təcnisləri, "Gözlə, gözlə sən", "Qırmızı", "Verir" divaniləri təqdim edilmişdir.

Aşıq Alının təxminən 93-94 yaşlarında gözləri tutulmuş və 16-17 il dünya işığına həsrət yaşamışdır. Aşıq uzun müddət Kəlbəcərdə yaşamış və ömrünün sonunda doğma kəndi Qızılvəngə qayıtmışdır.

1911-ci ildə vəfat etmiş və kənd qəbiristanlığında dəfn olunmuşdur. Ermənilər sənətkarın qəbrini və qəbir üstü abidəsini vəhşiliklə dağıdıblar.

205 illiyi Aşıq Pəri 1811-1847

Şairə

Aşıq Pəri 1811-ci ildə Qarabağın Arazüstü guşəsində – Cəbrayıl elinin Dizaq mahalının Maralyan kəndində anadan olmuşdur. Hələ uşaq ikən bədahətən şeirlər deyər, aşıq şeiri üslubunda yazar, söz qoşarmış. Şeirlərinin ruhu sevgidən nəşət etmişdi: Aşıq Pərinin şeirləri tez əzbərlənir, dillərə düşür, ağızlarda dolaşırdı. Təxminən 1830-cu ildə Şuşaya köçüb və ömrünün sonuna qədər burada yaşayıb.

Onun yaradıcılığını araşdıranlar – həm Azərbaycan, həm də Avropa şərqşünasları Aşıq Pərini işvəli bir nazənin kimi təqdim edərək bədahətən şeirlər deyən, azad ruhlu, həyatsevər bir qadın olduğunu yazıblar. Deyilənə görə, Aşıq Pəri nakam ömür sürmüş, çox böyük ustalıqla dövrünün kişi şairləri ilə deyişmişdir. O, dərin düşüncəsinə, rəvan təbli və hazırcavablığına görə müasirləri arasında izzət sahibi idi. Aşıq Pərinin Mirzəcan bəy Mədətov, Cəfərqulu xan Nəva, Mirzə Həsən, Məhəmməd bəy Aşiq, Abdulla Canızadə və başqaları ilə deyişmələri ədəbiyyat aləminə məlumdur. Bu deyişmələrin hamısında da qalib özü olardı.

Firidun bəy Köçərlinin tədqiqatlarından aydın olur ki, Aşıq Pəri 25 yaşında Məhəmməd adlı bir mollaya ərə getmiş, lakin xoşbəxtlik ona nəsib olmamışdır. Şeir yazması, poeziya məclislərində iştirakı Molla Məhəmmədin xoşuna gəlmədiyindən danlağa məruz qalmışdır.

Firidun bəy Köçərli onun bilikli, gözəl bir xanım olduğunu yazır. Hələ XIX əsrdə Rusiyada və Avropada çap edilən məcmuələrdə onun haqqında məlumat verilirdi. Deyilənə görə Aşıq Pəri eyni zamanda cəsarətli, yeri gəldikdə kəskin danışmağı bacaran, o cümlədən yumşaq yumora malik, çox həssas qadın olub. Gözəl şeirləri və hazırcavablığı ilə az bir zamanda Qarabağ şairlərinin diqqətini cəlb etmiş, tez-tez Şuşada keçirilən şeir məclislərinin iştirakçısı olmuşdur.

Aşıq Pərinin yazdığı əsərlərin çox az hissəsi bizə gəlib çatmışdır. Yalnız 40-50 şeiri məlumdur. Şeirləri ilk dəfə Mirzə Yusif Qarabağinin "Məcmueyi-divani-Vaqif və müasirini-digər" (1856) məcmuəsində, sonralar isə A.Berjenin tərtib etdiyi "Qafqaz və Azərbaycanda məşhur olan şüəranın əşarına məcmuədir" (Leypsiq, 1867) kitabında dərc olunmuşdur.

Əlimizdə əsasən qoşmaları var. Bu qoşmalar sadə və anlaşıqlı bir dillə söylənilmişdir. Əlimizdə olanları da diqqətlə nəzərdən keçirdikdə Azərbaycan poeziyasında öz yeri olan Aşıq Pərinin bədii portreti aydın görünür.

Aşıq Pəri təxminən 1847-ci ildə Şuşa şəhərində vəfat etmişdir.

Azərbaycan aşıq qadınlarının təşəbbüsü ilə uzun illər respublikamızda "Aşıq Pəri" məclisi fəaliyyət göstərirdi. Məclis üzvləri Aşıq Pəri ədəbi irsini ləyaqətlə qoruyaraq bu unudulmaz xanımın adını öz yaradıcılıqlarında yaşatmağa və tanıtmağa çalışırdılar.

Ədəbiyyat

Əroğul, Ə. Aşıq Pəri: həyatı, mühiti və sənəti /Ə.Əroğul; red. Ş.Əlifoğlu; Azərb.Resp. Mədəniyyət və Turizm Nazirliyi.-Bakı: Şərq-Qərb, 2014.- 199 s.

Aşıq Pəri //Aşıq qadınların antologiyası /layih. rəhb. G.Azaflı; red.: Ə.Nəsirli, S.Məhəmmədqızı; toplayıb tərt. ed. Y.Maral.- Bakı, 2010.- S. 4-8.

Aşıq Pəri //Azərbaycan aşıqları /tərtib ed.: İ.Abbaslı, B.Abdulla; Ön söz. müəl. İ.Abbaslı; red. Q.Namazov.- Bakı, 2004.- S.159-162.

Xəlilzadə, F. Qarabağın ilk qadın şairi /F.Xəlilzadə // Mədəniyyət .-2012.- 29 avqust.- S.13.

Vahid, T. Aşıq Pərinin azad ruhu /T.Vahid //Mədəniyyət.-2012.- 20 yanvar.- S.14.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadqadin.az

195 illiyi

Aşıq Ələsgər 1821-1926

Aşıq şair

Ə d ə b i y y a t

Əsərləri /Aşıq Ələsgər; tərt. ed., ön sözün və qeydlərin müəl. İ.Ələsgər.- Bakı: Şərq- Qərb, 2004.- 400 s.
Bütün əsərləri/Aşıq Ələsgər; tərt. Q. Zimistanoğlu.-Bakı: [Qanun], 2008.-486 s.
Şeirlər, dastan-rəvayətlər, xatirələr/Aşıq Ələsgər.- Bakı: Çinar-Çap, 2003.- 496 s.
Aşıq Ələsgər: O, eşq pərvanəsi deyil, eşqin əbədiyanar Şamıdır! /L. Babacanlı.-Bakı: [Vətən], 2013.-620 s.
Aşıq Ələsgər/Azərbaycan Aşıqlar Birliyi; tərt.ed. və nəşrə haz. M.Nəbioğlu.- Bakı: Elm və təhsil, 2012.- 279 s.
Dədə Ələsgər poeziyasının sufi mahiyyətinə dair// Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri /H. İsmayılov; AMEA Nizami adına Ədəbiyyat İnstitutu.- Bakı: Elm, 2002.- S.277-309.
Aşıq Ələsgər – 190: biblioqrafiya /ixt. red. və burax. məsul K.Tahirov; M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası.- Bakı, 2011.- 149 s.

Ələsgər Almənməd oğlu (Aşıq Ələsgər) 1821-ci ildə İrəvan xanlığının Göyçə mahalının Ağkilsə kəndində anadan olmuşdur. Ailəsi böyük olduğundan Almənməd kişi Ələsgəri 14 yaşında Kərbəlayi Qurban adlı bir varlıya nökər vermiş, Ələsgər onun həyətində 4 il nökərçilik etmişdir.

Aşıq Ələsgər xüsusi təhsil ala bilməmiş, sənətin sirlərini el sənətkarlarının və ağsaqqalların yanında öyrənmiş, ilk şeirini də yeniyetməlik çağlarında aşıqların, xalq sənətkarlarının təsiri ilə söyləmişdir. Aşıq qoşmalar, təcnislər, gəraylılar, dodaqdəyməzlər yazıb, onları şövqlə sazda ifa etmiş, dastanlar söyləmişdir. O, aşıq sənətini müəllimi - böyük ustad Aşıq Alıdan öyrənmişdir. Aşıq Alının yanında şəyirdlik edən Ələsgər aşıqlıq sənətinin sirləri ilə bərabər ondan ədəb və mərifət qaydalarını da öyrənmişdir.

Şəyirdlik dövrünü başa vurduqdan sonra Ələsgər Göyçə ilə yanaşı İrəvanda, Naxçıvanda, Qazaxda, Qarabağda, Gəncədə də məşhurlaşmış, Göyçə aşıq məktəbinə rəhbərlik etmişdir. Ömrünün çoxunu xalqın içərisində, toy, şadlıq məclislərində keçirən Aşıq Ələsgər təkcə Azərbaycanda yox, Türkiyədə, İranda və Dağıstanda da ustad sənətkar kimi tanınmışdır.

Aşıq Ələsgərin ilk mətbu əsərləri - "Dağlar", "Bizim dağlar" şeirləri 1927-ci ildə "Yeni kənd" jurnalında (№3) çap olunmuşdur. Hümmət Əlizadənin onun haqqında ilk dəfə tərtib etdiyi "Aşıq Ələsgər" adlı kitabı isə 1934-cü ildə nəşr olunmuşdur. Aşıq Ələsgərin sözlərinə yüzlərlə mahnı və romanslar bəstələnmişdir. 1918-1919-cu illərdə daşnakların türklərə qarşı törətdiyi qırğın nəticəsində Göyçə mahalı talanmış, əhali öz dədə-baba yurdunu tərk edib başqa yerlərə köçməyə məcbur olmuşdur. İki ilə qədər Yanşaqda yaşayan Aşıq Ələsgər sonra Tərtərə köçmüş, bir neçə ay da orada qalmışdır. Bu yerlərin hər birində aşığı hörmətlə qarşılasalar da, onun ürəyi-gözü Göyçədə idi. O gözünü açıb gördüyü doğma yerlər: Srınər, Murov, Muşoy dağları, Xaçbulaq yaylaqları üçün çox darıxırdı. Nəhayət, 1921-ci ildə o, Ağkilsəyə qayıtmış, ömrünün son illərini doğma kəndində yaşamışdır.

Aşıq Ələsgər 1926-cı il mart ayının 7-də doğulduğu Ağkilsə kəndində vəfat etmiş və burada da dəfn edilmişdir. Lakin Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar olaraq XX əsrin 90-cı illərin əvvəllərində Azərbaycanın böyük aşıq-şairinin qəbri ermənilər tərəfindən vəhşicəsinə yerlə yeksan edilmişdir.

Görkəmli aşıq xalq tərəfindən bu gün də sevə-sevə dinlənilir. 1972-ci ildə Aşıq Ələsgərin anadan olmasının 150 illiyi, 1998-ci ildə isə 175 illiyi Azərbaycanın hər yerində böyük təntənə ilə qeyd olunmuş, bu münasibətlə Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən onun əsərlərinin iki cildlik elmi nəşri hazırlanmış və çap edilmişdir. Aşıq Ələsgərin xatirəsi dövlətimiz tərəfindən əbədiləşdirilmiş, adına küçə, mədəniyyət sarayı, respublika Xalq Yaradıcılığı evi fəaliyyət göstərir, Bakıda isə Hüseyn Hacı Qulu oğlu tərəfindən "Aşıq Ələsgər muzeyi" yaradılmışdır.

800 illiyi

Səfiəddin Urməvi 1216-1294

Musiqişünas

Səfiəddin Əbdülmömin ibn Yusif ibn Faxir Urməvi Azərbaycanın qədim mədəniyyət mərkəzi Urmiya şəhərində, 1216-cı ildə anadan olmuşdur. Onun adı və soyadı qaynaqlarda Səfi-əd-Din Əbdülmömin ibn Yusif ibn Faxir Urməvi kimi yazılır. O, Urmiya şəhərində doğulduğunu və nəslinin bu şəhərdə yaşadığını bildirmək üçün "Urməvi" soyadını götürmüşdür.

Orta əsr Şərq musiqi mədəniyyətini zinətləndirən ən qüdrətli musiqişünas olmuşdur. İbtidai təhsilini öz vətənində almış, musiqi savadının əlifbasını və udda çalmağı da burada öyrənmişdir. Sonradan Ərəb Xilafətinin paytaxtına, bütün Yaxın və Orta Şərqin elm və mədəniyyət mərkəzi olan əfsanəvi Bağdad şəhərinə gələrək, dövrünün ən yaxşı universitetlərindən sayılan "Müstənsəriyyə"də təhsilini davam etdirmişdir. Burada fəlsəfənin, məntiqin, tibbin, riyaziyyatın, astronomiyanın və dillərin əsasları ilə tanış olmuşdur. Musiqi sənətini öyrənməkdə davam edən Səfiəddin xəttatlıqda da böyük uğur qazanmışdır. Əvvəlcə musiqi sahəsində deyil, xəttat kimi şöhrət tapmış və Abbasilər sülaləsinin son nümayəndəsi xəlifə əl Müstəsimin sarayına dəvət olunmuşdu. Az vaxtda xəlifənin yaxın əhatəsinə daxil olan sənətkar bir müddətdən sonra saray kitabxanasının rəhbəri və baş xəttatı təyin olunmuşdur. Bütün Şərq aləmində ünlü sənətçilər kimi ad çıxarmış bir çox musiqişünaslar onun şagirdləri olmuşlar. Bunların sırasında Şəms əd-Din Söhrəvərdi, Əli Sitan, Həsən Zəfər və Hüsam əd-Din Qutluq Buğa kimi tanınmış musiqişünasların adları çəkilir.

Səfiəddin iki yeni musiqi aləti yaratmışdı - "Nüzhə" və "Müğni". Nüzhə müasir arfa (çəng) və kanona bənzəyirdi. Bu alətin 81 simi vardı. Söyüd, sərv və ya şümşaddan dördbucaq şəklində düzəldilirdi. Müğninin 33 simi vardı və xarici oxşarlıq baxımından rübaba bənzəyirdi. Sadəcə çanağı iri idi. Müğni ərik ağacından düzəldilirdi.

Bundan başqa Səfiəddin həm də istedadlı bəstəkar idi. Təbrizdə qələmə aldığı beşhissəlik məşhur "Risaleyi-Şərəfi" adlı musiqi risaləsini Şərafəddinə ithaf etmişdir. Hələ Bağdadda sarayda ikən 1252-ci ildə "Kitab-əl Ədvar" adı ilə məşhur olan musiqi risaləsini tamamlamışdır. Ərəb dilində yazılmış və on beş fəsildən ibarət kitabda ümumiyyətlə, 12 muğam dəstgahının adı çəkilir ki, bunların da çoxusu bizə məlumdur. O, musiqi elminə "Sistemçilik" məktəbinin yaradıcısı kimi, tabulaturanın banisi kimi daxil olmuşdur. Ondan sonra gələn alimlər XVI əsrə qədər bu not yazı sistemindən geniş istifadə etmişlər.

Səfiəddin ömrünün son illərini yoxsulluq içində keçirmiş və 1294-cü ildə Bağdaddakı borclular həbsxanasında vəfat etmişdir.

Ədəbiyyat

Səfərova, Z. Səfiəddin Urməvi /Z.Səfərova; Azərbaycan EA, Memarlıq və İncəsənət İnstitutu.-Bakı: Ergün, 1995.-160 s.

Azərbaycan diasporunun tarixi şəxsiyyətlərindən Səfiəddin Urməvi //Olaylar.-2013.- 5 sentyabr.- S.15.

"Musiqi səmasında parlaq bir ulduz...": Şərqin məşhur musiqi bilicisi Urməvi //Azadlıq.- 2012.- 3 noyabr.- S.14.

Sultanova, M. Səfiəddin Urməvi fenomeni /M.Sultanova //Mədəniyyət.- 2012.- 18 yanvar.- S.13.

İnternetdə

www.anl.az

www. adam.az

170 illiyi

Sadıqcan 1846-1902

Tarzən

Mirzə Sadıq Əsəd oğlu Sadıqcan 1846-cı ildə Şuşa şəhərində, kasıb bir ailədə anadan olmuşdur. Bütün şuşalılar kimi Sadıq da kiçik yaşlarından öz gücünü xalq mahnılarının və muğamlarımızın ifası sahəsində sınamışdır. Mirzə Sadığı o vaxt Şuşada seçilib-sayılan müəllimlərdən biri Xarrat Qulu Məhəmməd oğluna şagird vermişlər. On səkkiz yaşında səsini itirsə də, ustasının yanında qazandığı biliklər Mirzə Sadıqın gələcək fəaliyyətində müstəsna rol oynamışdır. Bundan sonra o, tütək, ney, kamança və tar çalmağı öyrənmişdir. Bunların hamısında öz gücünü sınayandan sonra tarın üzərində dayanmışdır.

Mirzə Sadıq Mirzə Əli Əskərin ansamblında ikinci rolda olan kamança çalırmış. Lakin bir dəfə müəllimi xəstələnir və Sadıq tarda çalıb öz fenomenal bacarıqını nümayiş etdirmək imkanı tapır. Mirzə Sadıq Şuşadakı məşhur ədəbi və musiqili məclislərin işində fəal iştirak etmişdir.

Onu xalq arasında Sadıqcan çağırırdılar. Mirzə Sadıq əvvəlcə kamança ifaçısı Ata Bağdagül oğlu ilə birlikdə Şərqin böyük müğənnisi Hacı Hüsünü müşaiyət etmişdir, sonra isə Şuşalı xanəndə Məşədi İsinin üçlüyünə keçmişdir. 1880-ci ildə onu üçlüyün tərkibində İrana - Təbrizə, Nəsrəddin şahın oğlu Müzəffərəddin Qacar Mirzənin toy məclisinə dəvət etmişlər. Toyda çox sənətkarlar çalıb-oxuyur, lakin Hacı Hüsü ən yaxşı xanəndə, Sadıqcan isə ən gözəl tarzən sayılaraq, fəxri "Şiri-Xurşid" ordeni ilə təltif olunurlar.

Sadıqcan qısa bir müddətdə bütün Qafqazın birinci tarzəni olmuşdur. Sadıqcana qədər tarı diz üstündə çalırdılar. O, özünün virtuoz bacarığından istifadə edərək, ilk dəfə tarı sinəsinə qaldırdı. Mirzə Sadıq həmçinin tarın simlərini çoxaldaraq onların yerləşməsini dəyişdi. Bundan başqa o, həm də tarın çanaq quruluşunu dəyişərək, onun möhkəmliyini artırmaqla alətin ümumi çəkisini azaltmış oldu. Sadıqcanın rekonstruksiyasına qədər tarın 5 simi vardı. Simlərin sayını on birə çatdırdı, artıq tonları götürüb, tarda cəmisi 17 ton saxladı. Musiqiçilər bundan sonra yeniləşmiş tarı "möcüzə", Sadıqcanı isə "tarın atası" adlandırmağa başladılar.

Tarzən 1901-ci ildə Şuşada təşkil olunmuş Birinci Şərq konsertində iştirak etmişdir. Orada ilk dəfə tarda "Mahur" muğamını tək, solo ifa etmişdir.

Mirzə Sadıq Əsəd oğlu Sadıqcan 1902-ci ildə doğma şəhəri Şuşada vəfat etmişdir.

Ədəbiyyat

Şuşinski, F. Sadıqcan /F.Şuşinski; tərt. ed., nəşrə haz. və ön sözün müəl. A.Kənan; elmi məsl. A.Paşayev; red. M.Teymur.- Bakı: Azərnəşr, 2007.- 124 s.

Xəlilzadə, F. Naleyi-ney, nəğmeyi-tar /F.Xəlilzadə //Mədəniyyət.-2012.- 6 iyul.- S. 13.

Quliyev, R. Azərbaycan milli musiqi aləti - tarın formalaşması və təkmilləşməsində Mirzə Sadıq Əsədoğlunun rolu /R.Quliyev //Musiqi dünyası .-2012.- №3/52.- S.137-139.

Paşazadə, S. Sadıqcan və Azərbaycan musiqi sənəti /S.Paşazadə //Mədəni həyat.-2012.- №12.- S.61-63.

Sarıyeva, İ. Tarı diz üstdən sinəyə qaldıran virtuoz musiqiçi - Sadıqcan... /İ.Sarıyeva //Bakı xəbər.-2014.- 26 noyabr.- S.15.

www.anl.az

www.az.wikipedia.org

135 illiyi

Hüseyn Ərəblinski 1881-1919

Aktyor

Hüseyn Məmməd oğlu Xələfov (Hüseyn Ərəblinski) 1881-ci ildə Bakı şəhərində anadan olmuşdur. Tam adı Hüseynbala, soyadı Xələfovdur. Təxəllüsünü general Balakişi Ərəblinskidən götürmüşdür. İlk təhsilini mollaxanada alan gələcəyin görkəmli aktyoru maddi çətinliklə əlaqədar məktəbi buraxmağa məcbur olmuşdur. Yoxsul uşaqlarının məktəbə götürülməsinə şərait yaradan Həbib bəy Mahmudbəyov gənc Hüseynin də özünün müəllim işlədiyi "Üçüncü rus-tatar" məktəbinə qəbul edilməsinə yardım etmişdir.

Hüseyn Ərəblinskinin teatr sənətinə gəlişinin səbəbkarı da məhz Həbib bəy olmuşdur. O, Cahangir Zeynalovla birgə Mirzə Fətəli Axundovun əsərlərindən birini tamaşaya qoymaq istərkən epizodik rollar üçün aktyor tapmamış və bu işə Hüseyn də daxil olmaqla öz şagirdlərini cəlb etmişdir. Səhnəyə ilk dəfə 16 yaşında çıxmış, "Lənkəran xanının vəziri"ndə mehtəri oynamışdır. Ona bu rolu tapşıran Cahangir Zeynalov aktyorun istedadına heyran qalmışdır.

1897-ci ildən 1900-cü ilədək yalnız kiçik rollarda çıxış edən aktyor teatrdakı uğurları 1903-1904-cü illərdə yaradılan Müsəlman Artistləri Cəmiyyəti ilə sıx bağlıdır. Belə ki, 1905-ci ildə Lənkərana qastrol zamanı "Müsibəti-Fəxrəddin" tamaşasında əsas rolu oynayacaq aktyor qəflətən xəstələnir. Məcburiyyət qarşısında qalan truppa rəhbərliyi bu rolu Hüseynə tapşırır. Bu rolu böyük məharətlə oynayan Hüseyn Ərəblinski çox keçmədən istedadlı aktyor kimi tanınmağa başlayır. Şöhrətin zirvəsinə Otello roluyla yüksəlmiş Ərəblinskini "ürək və zəka sənətkarı" adlandırıblar. Gur səsi, boy-buxunu, yaraşığı və əlbəttə, fitri istedadı onun səhnə uğurunda az rol oynamayıb.

Aktyor "Nicat" Teatr Cəmiyyətində baş rejissor kimi fəaliyyət göstərmiş və teatr mühitində bir sıra yeniliklərə imza atmışdır. O, əldə bilet satmağı, qapı-qapı gəzib tamaşaçı toplamağı qadağan etmiş, aktyorlara məvacib müəyyənləşdirmiş, mövhumatı təbliğ edən əsərləri repertuardan çıxarmışdır. Bir çox dünya klassiklərinin, eləcə də, rus dramaturqlarının əsərlərini ilk dəfə Azərbaycan səhnəsinə gətirən, 1908-ci ildə "Leyli və Məcnun" operasının ilk quruluşçu rejissoru da Hüseyn Ərəblinski olmuşdur.

"Neft və Milyonlar Səltənətində" filmi Ərəblinskinin çəkildiyi ilk və son filmdir.

Hüseyn Ərəblinski 1919-cu il mart ayının 17-də dayısı oğlu Əbdülxalıq tərəfindən qətlə yetirilmişdir. Məzarı Bakıdakı Fəxri Xiyabandadır.

Ədəbiyyat

Hacıbabayev, A. Səhnə andı: Hüseyn Ərəblinski haqqında xatirələr /A.Hacıbabayev; red. Q.Məmmədli.-Bakı: Yazıçı, 1982.-126 s.

Məmmədov, M. Hüseyn Ərəblinski: həyatı və yaradıcılığı /M.Məmmədov; red. S.Hüseynova.-Bakı: Azərnəşr, 1973.-59 s.

Cəbrayıloğlu, E. Sənətkarların faciəli taleyi //Ədalət.- 2013.-13 aprel.-S.9.

Elçin. Sənətkarın taleyi (Ərəblinski) /Elçin //Azərbaycan.- 2012.- №11.- S.11-48.

Zümrüd. Bu gün Hüseyn Ərəblinskinin xatirə günüdür /Zümrüd //Səs.- 2011.- 17 mart.- S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

1400 illiyi

Cavanşir 616-680/81

Sərkərdə

Cavanşir 616-cı ildə Mehranilər nəslindən olan Varaz Qriqorun (638-642) ailəsində anadan olmuşdur. Atası Mehrani Qriqor Varaz Girdman dövlətinin ilk hakimi və bütün Albaniyanın knyazı olub. 638-ci ildə ərəb ordusu Sasani dövlətinin paytaxtı Ktesifonu mühasirəyə aldığı zaman Cavanşir 6 ay sasanilərin tərəfində şəhərin müdafiəsində dayanıb. Lakin Sasanilərin sonunun yaxınlaşdığını, Ərəb Xilafətinin isə gücləndiyini görərək müqavimət göstərməyin faydasız olduğunu dərk edərək Girdimana qayıdıb.

Atası Qriqor Varazın vəfatından sonra hakimiyyətə keçən Cavanşir hökmdarlığın paytaxtını Partav (Bərdə) şəhərinə köçürüb. Albaniya taxt-tacına sahib duranda Cavanşirin cəmi 21 yaşı var idi. Gənc olmasına baxmayaraq, o, artıq tanınmış sərkərdə kimi Albaniyada və ondan çox-çox uzaqlarda kifayət qədər məşhur idi. 637-ci ildən 681-ci ilədək Alban dövlətini idarə etmiş, öz ölkəsinin qüdrət və nüfuzunu qaldırmağa müvəffəq olmuşdur.

667-ci ildə Dəməşqdə aparılan danışıqlarda xəlifə Albaniyanın daxili müstəqilliyini tanıyır. Bu o demək idi ki, ərəb qoşunları Albaniyaya yeridilməyəcək, Albaniyanın daxilində heç bir işə qarışmayacaqlar. Əvəzində Cavanşir hər il müəyyən məbləğdə vergi ödəyəcək. Vətəninə qayıdan Cavanşir qısa zaman ərzində ölkənin həyatını normallaşdırmağa nail olur. Albaniya iqtisadi baxımdan çox inkişaf edir. İri feodalların hakimiyyətini məhdudlaşdıran Cavanşir ölkəsində sabitlik yaratmağa müvəffəq olur. Ölkədə yeni-yeni qalalar tikilir (onlardan Cavanşir qalası öz möhtəşəmliyi ilə seçilir), şəhərlərdə yeni binalar inşa edilir.

Cavanşirin müsəlman xilafəti ilə yaxınlaşması Azərbaycan tarixində, ölkənin islamlaşması baxımından mühüm rol oynayır. Bəlkə də xristian meylli feodalların ona qarşı sui-qəsd hazırlamaları da elə bununla şərtlənirdi.

Cavanşir həmin qəsd iştirakçılarından birinin ona vurduğu ağır yaralardan 681-ci ildə vəfat etmişdir.

Cavanşir Azərbaycan tarixinə olduqca çətin şəraitdə ölkənin müstəqilliyini qoruyub saxlamış və möhkəmləndirmiş sərkərdə və dövlət xadimi, özünün ərəblər, xəzərlər, bizanslılarla qarşılıqlı münasibətlərində ortaya çıxan problemləri sülh və danışıqlar yolu ilə yoluna qoymuş diplomat kimi daxil olub. Cavanşir xüsusən özünün Xilafət və Bizansla münasibətləri sayəsində Albaniyanın maddi və mənəvi mədəniyyətinin inkişafı üçün çox iş görmüşdür.

On üç əsrdən çox bir müddətdir ki, Cavanşirin hünəri və xidmətləri xalqın yaddaşında yaşamaqdadır. İsmayıllı rayonu ərazisində VII əsrin yadigarı olan Cavanşir qalası, alban hökmdarlarının yay iqamətgahı kimi tanınan Girdiman qalası, Cavanşirin təşəbbüsü ilə orada tikilmiş müqəddəs Allah evi, onun şəxsi feodal mülklərindən hesab edilən Ağsu rayonu ərazisindəki Cavanşir kəndi (ötən əsrin 50-ci illərində həmin kənd köçürülərək yerində su anbarı tikilib), Ağsu, İsmayıllı, Qəbələ və Oğuz rayonları ərazisindəki bir sıra qədim toponimlər də qüdrətli alban hökmdarının adının və xidmətlərinin bu günə qədər yaşadığından və xalq tərəfindən unudulmadığından xəbər verir.

Ədəbiyyat

Səmədov, A. 100 böyük azərbaycanlı /A.Səmədov; red. Ə.Qurbanov.-Bakı: Mütərcim, 2010.- S.13-15.

Həbiboğlu, V. Türk dünyasının qüdrətli hökmdarları, xaqanları, sərkərdələri / Vəli Həbiboğlu; red. S.Hüseynqızı; elmi red. E.Əlibəyzadə.-Bakı, 1995.-K.I.- S.113-118.

Cəbiyev, Q. Cavanşir – görkəmli dövlət xadimi, cəsur sərkərdə, mahir diplomat /Q.Cəbiyev //Xalq qəzeti.-2014.- 13 aprel.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

280 illiyi Fətəli xan 1736-1789

Sərkərdə

Fətəli xan Hüseynəli xan oğlu 1736-ci ildə Quba şəhərində anadan olmuşdu. Fətəli xan öz dövrünün görkəmli dövlət xadimi olmuşdur.

1758-ci ildə atası öldükdən sonra iyirmi üç yaşında hakimiyyətə gələn gənc Fətəli xan Quba, Dərbənd və Salyan xanlıqlarını birləşdirməklə Şərqi Qafqazın qüvvətli hökmdarı kimi tanınmışdır. Vahid Azərbaycan naminə 40 min qoşun yaradan Fətəli xan Şamaxı,Şəki, Bakı xanlıqlarını, Car-Balakən azad cəmiyyətini və Ərəş sultanlığını ittifaqa çağırmışdır. Nadir şah Avşarın öldürülməsindən sonra xırda xanlıqlara bölünən Azərbaycaın müstəqil və abad bir ölkə kimi görmək istəyən Fətəli xan Qubalı ittifaqa gəlməyən xanlıqları birləşdirinək üçün silaha əl atmağa məcbur olmuşdur.

Fətəli xan mərkəzi hakimiyyəti möhkəmləndirmək məqsədilə mahal naiblərinin hakimiyyətini məhdudlaşdırdı, vergi toplanmasını nizama saldı, xəzinənin gəlirini artırdı.

Fətəlixanhərbiişəciddiyanaşırdı,onun xeyli qoşunu var idi. O, qonşu xanlıqların torpaqlarını ilhaq etmək yolu ilə öz ərazilərini genişləndirmək istəyirdi. Fətəli xanın bu siyasəti geniş miqyas aldı və şimali-şərqi Azərbaycan torpaqlarının birləşdirilməsi ilə nəticələndi.

1757-ci ildə Salyan xanlığı qubalıların hücumuna məruz qaldı və tutularaq Quba xanlığına birləşdirildi.1759-cu ildə Fətəli xan bir sıra şimali Qafqaz hakimləri ilə birləşərək Dərbənd xanlığına yürüş etmişdi və noyabr ayında isə şəhəri ələ keçirmişdi.

Dərbənddən sonra Fətəli xan Baki xanlığını birləşdirmək siyasəti yürütməyə başladı. 1766-cı ildə Bakı xanlığı Qubadan asılı vəziyyətə düşdü.

1768-ci ildə Fətəli xanın qoşunu Şamaxıya hücuma keçdi. Eyni vaxtda Fətəli xanın müttəfiqi Şəki xanı da Şamaxıya hücum etdi.Şamaxılılar məğlub oldu və birləşmiş qoşun Şamaxıya daxil oldular.

1768-ci ildə Cavad xanlığı da Quba xanlığından asılı vəziyyətə salınır.1780-ci illərdə Fətəli xan dəfələrlə Qarabağ xanlığı üzərinə yürüş etsə də bu yürüşlər uğursuz olmuşdu. O,1784-cü ildə Azərbaycanın cənub xanlıqlarına hücum etmişdir. O, Ərdəbil və Meşini tutsada burada möhkəmlənə bilməmişdi.1785-ci ildə Fətəli xan Şəki xanlığını özünə tabe etmişdi. Talış və Dağıstanın bir sıra torpaqları da ondan asılı vəziyyətə düşdülər. 1788-ci ildə Fətəli xan Gəncəyə daxil olur.

Lakin 1789-cu ilin martında Fətəli xan qəflətən vəfat edir və onun Azərbaycan torpaqlarını birləşdirmək siyasəti yarımçıq qalır.

Müasirləri Fətəli xanı mahir və istedadlı dövlət xadimi kimi xarakterizə edirlər. Görkəmli tarixçi Abbasqulu ağa Bakıxanov yazırdı ki, Fətəli xan öz ağlı, səxavəti və bacarığı nəticəsində yüksəlmişdi. O, hakimiyyət başına keçəndən sonra ağıllı və çalışqan hakim olduğunu göstərmişdi; bütün ətrafindakı adamları özünə cəlb etmişdi, düşmənlərinin fəaliyyətini zəiflətmişdi və ən çətin vəziyyətdən çıxa bilmişdi.

Ədəbiyyat

Fətəli xanın Azərbaycanı birləşdirmə siyasətinə başlaması //Quba xanlığı /Tofiq Mustafazadə; elmi red. V.Z. Piriyev; Azərbaycan Milli Elmlər Akademiyası, A.A.Bakıxanov adına Tarix İnstitutu.-Bakı: Elm, 2005.-S.101-164.

Quba xanlığl // Azərbaycan xanlıqlarının qısa tarixi: [ali məktəb tələbələri üçün dərs vəsaiti] /T. Mustafazadə ; elmi red. C. M. Mustafayev, İ. M. Məmmədova ; rəyçilər F. R. Ağamalı, F. N. Məmmədov, R. H. İbadov.-Bakı: [s. n., 2011.- S.10-71.

Fətəli xan və Tuti Bikə / Oktay //Xalq cəbhəsi.- 2012.- 6 iyun.- S. 13.

Фатали-хан Кубинский /Н. Валиев; отв. за вып. В. Бахманлы; ред. А. Асадзаде; дизайн Н. Махмудов; М-во Культуры и Туризма Азерб. Респ., Нац. Библиотека Азербайджана им. М. Ф. Ахундова. -Баку: Нагыл Еви, 2011.-26 с.

110 illiyi

Həsən Seyidov 1906-1999

Elm xadimi

Həsən Əli oğlu Seyidov 1906-cı ildə İrəvan şəhərində, fəhlə ailəsində anadan olmuşdur.

İlk əmək fəaliyyətinə 1925-ci ildə (19 yaşında) Bakı şəhərində, H.Z.Tağıyevin toxuculuq fabrikində başlamışdır.

1928-ci ildə Gəncə (Kirovabad) şəhərində Azərbaycan Kənd Təsərrüfatı İnstitutuna daxil olmuş, 1931-ci ildə oranı bitirərək aqronom ixtisasına yiyələnmişdir.

1931-ci ildə Vartaşen (Oğuz) rayon torpaq şöbəsində aqronom, 1931-34-cü illərdə Moskva Ümumittifaq Elmi-Tədqiqat Gübrə və Aqrotorpaqşünaslıq İnstitutunun aspirantı olmuşdur.

1934-1937-ci illərdə Azərbaycan Kimyalaşma stansiyasının aqronomiya şöbəsinin müdiri, 1937-1941-ci illərdə Gəncə şəhərində yerləşən Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunda direktor vəzifəsində çalışaraq bacarıqlı kənd təsərrüfatı alimi kimi yetişmiş, idarəçilik səriştəsi zənginləşmişdir.

1928-ci ildən Kommunist partiyasının üzvü olan Həsən Seyidov 1942-1943-cü illərdə Gəncə Şəhər Xalq Zəhmətkeş Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri, 1943-1944-cü illərdə Azərbaycan KP MK-nın kənd təsərrüfatı şöbəsinin müdiri vəzifəsində çalışmışdır.

Həsən Seyidov 1944-1946-cı illərdə Azərbaycan KP MK-nın üçüncü katibi, 1944-1950-ci illərdə ikinci katibi, 1950-1952-ci illərdə Azərbaycan SSR Ali Soveti sədrinin birinci müavini, 1952-1953-cü illərdə Bakı Şəhər Xalq Deputatları Sovetinin İcraiyyə Komitəsinin sədri, 1953-1954-cü illərdə Dövlət Plan Komitəsinin sədri, 1954-1959-cu illərdə Kənd Təsərrüfatı naziri, 1959-1970-ci illərdə Moskvada, SSRİ hökuməti yanında Azərbaycan Respublikası Nazirlər Sovetinin daimi nümayəndəliyinin sədri vəzifələrində çalışmışdır.

1970-ci ildən fərdi təqaüdə çıxmışdır.

Zəngin təcrübəsi, işgüzarlığı ilə daim Azərbaycan iqtisadiyyatının yüksəlişinə xidmət edən Həsən Seyidov gərgin və fədakar əməyinə görə Lenin, iki dəfə Qırmızı Əmək Bayrağı və Şərəf Nişanı ordenləri ilə mükafatlandırılmışdır.

Əməkdar elm və dövlət xadimi, D.İ.Mendeleyev adına Kimyaçılar Cəmiyyətinin bölmə sədri olmuşdur.

Məsul dövlət vəzifələrində çalışmaqla yanaşı, ictimai xadim kimi də fəaliyyət göstərmişdir. 1944-45-ci illərdə Azərbaycan KP MK-nın Büro üzvü seçilən Həsən Seyidov Azərbaycan Kommunist partiyası qurultayına 6 dəfə nümayəndə seçilmiş, II, III, VII çağırış Azərbaycan Ali Sovetinin, II, III, IV, V çağırış SSRİ Ali Sovetinin deputatı seçilmişdir.

1970-ci ildən İttifaq əhəmiyyətli fərdi təqaüdçü olmasına baxmayaraq, 1972-ci ildən həyatının son anlarına qədər Azərbaycan Dövlət Torpaq Komitəsinin Yerquruluşu Layihə İnstitutunda baş məsləhətçi vəzifəsində işləmişdir.

H.Ə.Seyidov 1999-cu il iyun ayının 8-də vəfat etmişdir.

Ədəbiyyat

"Tam məxfi" (araşdırma) //"İrəvan" qəzeti.- 2-8 oktyabr.- 2011.-S.12.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

iravangazeti@box.az

175 illiyi Şəmsi Əsədullayev 1840/41-1913

Mesenat-xeyriyyəçi

Şəmsi Əsədulla oğlu Əsədullayev 1841-cı ildə Bakının Əmircan kəndində, yoxsul bir ailədə anadan olmuşdur. Hələ yeniyetmə ikən, böyük neft sənayeçisi V.Kokorevin Suraxanıdakı mədənlərində arabaçı işlədiyi vaxtlarda işgüzarlığı və qənaətcilliyi ilə fərqlənirdi. Bir neçə il işlədikdən sonra müəyyən məbləğ pul toplayıb özünə araba almış və 1960-cı ildə V.Kokorevin müəssisəsində işlər müdiri vəzifəsinə yüksəlmişdir. Duz podratında ilkin kapital yığan Əsədullayev 1892-ci ildə neft veriminə görə perspektivli sayılan bir torpaq sahəsi almışdır.

1892-ci ildə ilkin kapitalı 500 rubl olan şirkətini tezliklə inkişaf etdirir. Onun şirkəti 1909-cu ildə 10 milyon rubl məbləğində dəyərləndirilirdi. 1893-cü ildə öz şirkətini açanda onun 50 yaşı vardı. Artıq böyük təcrübə qazanmışdı.

1895-ci ildə təzə aldığı torpaq sahələrindən birində neft quyusu fontan vurmuş, 56 gün davam edən fontan hər gün bir milyon altı yüz min pud məhsul vermişdi. Bu Bakı neft sənayesi tarixində ən məşhur fontanlardan biri idi.

Neft hasilatı artdıqca onun Volqa boyu şəhərlərində, Moskvada, Polşada, habelə Orta Asiyada, İranda neft anbarlarının sayı artırdı. O, neftin ecazkar qüdrətindən milyonçu olmuş, həm neft mədəni, həm də neft daşıyan dəniz və çay donanması yaratmışdı. Şəhərin mərkəzində əsas fasadı Qoqol küçəsinə, digər iki yan fasadların biri Gimnaziya (Tolstoy) küçəsinə, digəri Karantin (Həzi Aslanov) küçəsinə baxan əzəmətli bina tikdirmişdir.

Ş.Əsədullayevin ictimai və xeyriyyəçilik fəaliyyəti milli ziyalı təbəqəsinin formalaşmasında böyük rol oynamışdır. Bakı realni məktəbi (indiki Dövlət İqtisad Universiteti) binasının tikintisinə sərf olunan vəsaitin əsas hissəsi Ş.Əsədullayev tərəfindən ayrılmışdı. Zaqafqaziyada ən böyük təhsil ocağı olan Tiflis Aleksandr Müəllim İnstitutunu himayəyə götürmüş, burada təhsil alan azərbaycanlı tələbələr üçün öz adına təqaüd təsis etmişdi. Müsəlman tələbələr üçün kvotanın artırılmasına nail olmuşdu. Məşhur memar Z.Əhmədbəyov onun təqaüdü hesabına 1901-ci ildə Sankt-Peterburq Mülki Mühəndislər İnstitutunu bitirmişdi.

Əsədullayevin vəsaiti hesabına Moskvada, Sankt-Peterburqda, Bakıda, Kaluqada, Yaltada, Baxçasarayda, Volqaboyu şəhərlərində, praktiki olaraq onun neft imperiyasının filiallarının yerləşdiyi bütün şəhərlərdə bir sıra möhtəşəm binalar tikilmişdir. Əsədullayevin sahibkarlıq fəaliyyətinin coğrafiyası İrandan Lodza (Polşa) qədər uzanırdı. O, Moskvanın Vozdvijenka küçəsindəki malikanələrindən birini şəhərin müsəlman icmasına bağışlamışdı.

Azərbaycanın neft maqnatı, xeyriyyəçi Şəmsi Əsədullayev 1913-cü il aprel ayının 21-də Yaltada vəfat etmiş, Bakıda dəfn olunmuşdur.

Ədəbiyyat

Mahmudov, C. Şəmsi Əsədullayev //Mahmudov C. Bakı nefti, neft milyonçuları və Nobel qardaşları: elmi-publisistik monoqrafiya /elmi red. Z.Abdullayev.- Bakı, 2006.- S.128-140.

Mirbabayev, M. Şəmsi Əsədullayev //Mirbabayev M. Azərbaycan neftinin qısa tarixi.-Bakı, 2008.- S.77-79.

Şəmsi Əsədullayev //Azərbaycanın ilk qeyri-hökümət təşkilatları /layih. həyata keçirən təşkilat "Milli Jurnalistika Konqresi" İctimai Birliyi; materialları hazırl. və elmi red. N.Yaqublu.-Bakı, 2013.- S.59-60.

Xəlilov, Q. Şəmsi Əsədullayev /Q.Xəlilov //Zaman.- 2012.- 21-22 fevral.- S.6.

Səymən. Azərbaycan maarifçiliyinə pul xərcləyən sahibkar...: Şəmsi Əsədullayev tariximizdə silinməz izlər buraxıb /Şəymən //Şərq.- 2014.- 23 oktyabr.- S.11.

170 illiyi

Məhəmməd ağa Şahtaxtinski 1846-1931

İctimai xadim

Ə d ə b i y y a t

Türkiyəni necə xilas etməli? /M.Şaxtaxtlı; fransız dil. tərc. və ön sözün müəll. Ə.Əliyev; red. C.Yusifli.- Bakı: Ağrıdağ, 1999.- 52 s.

Əliyev, Ə. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan-Fransa ədəbi əlaqələri (Məhəmməd ağa Şahtaxtinski yaradıcılığında): filol. e. n. a. dər. al. üçün təq. ed. dis.: 10.01.03.; 10.01.05. /Ə.Əliyev.- Bakı, 1998.- 187 s.

Həsənova, S. Məhəmməd Ağa Şahtaxtlının dilçilik görüşləri: filol. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı: 10.02.01 /S.Həsənova; Azərb. Resp. Təhsil Nazirliyi, Naxçıvan Dövlət Unti.- Naxçıvan: 2012.- 23 s.

Quliyev, Ə. Məhəmməd ağa Şahtaxtlının tərcüməçilik fəaliyyəti /Ə.Quliyev //AMEA-nın Naxçıvan bölməsinin xəbərləri: İctimai və humanitar elmlər seriyası.-2014.- C.10.- №1.- S.170-177.

Məhəmməd ağa Məhəmmədtağı Sultan oğlu Şahtaxtinski (Şahtaxtlı)1846-cı ildə indiki Şərur rayonunun Şahtaxtı kəndində anadan olmuşdur. 1863-cü ildə Naxçıvan şəhər məktəbini və Tiflis klassik kişi gimnaziyasını bitirdikdən sonra, Peterburqda müstəqil yolla alman dilini öyrənmişdir. 1869-cu ildə Leypsiq Universitetitinin fəlsəfə, tarix və hüquq fakültəsini bitirmişdir.

1873-1875 illərdə Parisdə Şərq dilləri məktəbində mühazirələr dinləmiş, fransız dilini öyrənmişdir. Azərbaycan, rus, alman, fransız, ingilis, ərəb, türk, fars dillərində ədəbi və elmi əsərlər yazmışdır. Elmi fəaliyyətə Almaniyada Şərq tarixinə dair tədqiqatlarla başlamışdır. Əlifba islahatı sahəsində M.F.Axundovun ardıcıllarındandır. 1879-cu ildə Şərqdə əlifba islahatı tarixində ilk kitab - "Təkmilləşmiş müsəlman əlifbeyi"ni Tiflisdə nəşr etdirmişdir. Bir müddət "Moskovskiye vedomosti" qəzetinin əməkdaşı və İstanbulda xüsusi müxbiri işləmişdir.

1891-1893-cü illərdə "Kaspi" qəzetinin müvəqqəti redaktoru təyin edilmişdir. 1898-cu ildə Azərbaycan dilində "Tiflis" adlı qəzet çıxarmağa çalışmış, lakin çar senzurası buna icazə vermədiyi üçün yenidən Avropaya getmiş, 1902-ci ilədək Parisdə yaşamış, Fransa kollecində və Ali Təcrübi Təhsil Məktəbində Şərq dillərindən dərs demişdir. Bu dövrdə fransız dilində nəşr etdirdiyi əsərlər Qərbi Avropa və Amerika mətbuatında müzakirə və mübahisələrə səbəb olmuşdu. Sorbonna Universitetində professor P.Passinin rəhbərliyi ilə fonetika sahəsində tədqiqat aparmış, 1901-ci ildə Fransa Maarif Nazirliyinin fəxri diplomunu almışdır.

Beynəlxalq Fonetika Cəmiyyəti (1899), Beynəlxalq "Asiya cəmiyyəti" (1900) və Rusiya İmperator Coğrafiya Cəmiyyəti Qafqaz şöbəsinin (1903) həqiqi üzvü olmuşdur.

1902-ci ildə Tiflisdə xüsusi mətbəə açmış (sonralar "Qeyrət" adlanmışdır), 1903-cü ilin martında ictimai-siyasi, iqtisadi, elmi, ədəbi "Şərqi-rus" qəzetinin nəşrinə başlamışdır. Qəzetin Azərbaycanda ictimai fikir tarixinin inkişafında xüsusi xidməti olmuşdur. Onun səhifələrində dünyəvi elmlər, ana dili, qadın azadlığı ilə bağlı mütərəqqi fikirlər öz əksini tapırdı.

1907-ci ildə İrəvan quberniyasından II Dövlət Dumasına deputat seçilmiş, Duma bağlandıqdan sonra "Rossiya" (Peterburq) qəzeti redaksiyasında işləmiş, 1908-1918-ci illərdə, xaricdə (əsasən,Türkiyə, İran və İraqda) yaşamışdır.

1919-cu ildə vətənə qayıtmış, Bakı Universitetinin yaradılmasında fəal iştirak etmiş, burada Şərq dilləri və ədəbiyyatından mühazirələr oxumuşdur. 1920-ci ildə universitetin professor elmi rütbəsini almışdır. O, BDU-nun ilk azərbaycanlı professoru idi.

1920-ci illərdə "Kommunist", "Bakinski raboçi", "Qızıl Şərq" (Moskva) qəzetlərində məqalələr dərc etdirmiş, Ümumittifaq Yeni Türk Əlifbası Komitəsinin işində yaxından iştirak etmişdir. 1922-ci ildə ona fərdi pensiya təyin olunmuşdu.

Elmi, tənqidi və publisist əsərlərində müstəmləkəçilik, irqçilik, qadın əsarəti, dövlət quruluşu, din və s. haqqında mütərəqqi fikirlər irəli sürmüşdür.

M.Şahtaxtlı 12 dekabr 1931-ci ildə Bakı şəhərində vəfat etmişdir.

105 illiyi Ağa Əliyev 1911-1997

Mühəndis geoloq

Ağa Qurban oğlu Əliyev 1911-ci ildə Göyçay şəhərində anadan olmuşdur.

O, 1936-cı ildə Azərbaycan Sənaye İnstitutunu bitirmiş, neft və qaz yataqları geologiyası və kəşfiyyatı üzrə mühəndis-geoloq ixtisasına yiyələnmişdir.

Gənc geoloqun təyinatı Suraxanı rayonundakı Kaqanoviç NMİ-yə verilmiş və tezliklə baş geoloq vəzifəsinə təyin olunmuşdur. Geologiya-mineralogiya elmləri doktoru və Azərbaycan Respublikasının əməkdar mühəndisi olan A.Q.Əliyev apardığı geoloji tədqiqatlar nəticəsində Abşeron və Bakı arxipelaqları sahəsində neft və qaz yataqlarının proqnozunu vermiş və geoloji axtarış və kəşfiyyat işlərinin harada aparılmasını əsaslandırmışdır.

1945-ci ildə dəniz kəşfiyyatının xüsusi tresti yaradılarkən dənizdə geoloji kəşfiyat işlərinə rəhbərlik Ağa Əliyevə tapşırılmışdır.

Əfsanəvi Neft Daşlarının kəşfçisi Ağa Qurban oğlu Əliyevin rəhbərliyi və bilavasitə iştirakı ilə Xəzər dənizində bir sıra neft və qaz yataqları aşkar edilib ki, bunlardan ‘’Neft Daşları’’, ‘’Gürgəndəniz’’, ‘’Qum adası’’, ‘’Bahar’’ və başqalarını göstərmək olar, Küryanı vilayətdə isə ‘’Kürovdağ’’, ‘’Mişovdağ’’ və s., Abşeron yarımadasında ‘’Şabandaq’’, ‘’Qaradaq’’, ‘’Qaraçuxur’’ neft və qaz yataqları kimi 20-yə yaxın-zəngin neft və qaz yataqları açılıb. ‘’Neft Daşları’’nın kəşfindən sonra bu böyük antiklinal xəttin üstündəki Neft Daşlarının ardınca ‘’Günəşli’’, ‘’Çıraq’’, ‘’Azəri’’, ‘’Kəpəz’’ kimi böyük ehtiyata malik neft yataqları aşkar olunub.

Ağa Əliyev neft geologiyası sahəsində təkcə tədqiqatlar aparmaqla kifayətlənmişdir. O, istehsalatda rəhbər vəzifədə çalışmaqla bərabər, həm də neftçi mütəxəssislərin hazırlanmasına qayğı göstərmişdir. İndiki Neft Akademiyasında 20 il pedaqoji fəaliyyətlə məşğul olmuşdur. 1966-cı ildə professor Azərbaycan Dövlət Neft Sənaye Elmi Tədqiqat Layihə İnstitutuna baş geoloq-direktorun elmi işlər üzrə müavini vəzifəsinə təyin edilmişdir. Onun neft və qaz yataqlarında flüidlərin yerləşmə qanunauyğunluqlarına həsr etdiyi tədqiqatlar həm nəzəri, həm də təcrübə baxımdan görkəmli neft alimlərinin böyük marağına səbəb olmuşdur.

Ağa Əliyevin 150-dən çox elmi əsəri və 3 monoqrafiyası çap olunmuşdur. Onun rəhbərliyi altında 15 nəfər geologiya-mineralogiya elmləri üzrə namizədlik dissertasiyası müdafiə etmişdir. O, iki Qırmızı Əmək Bayrağı, Şərəf Nişanı ordenləri ilə, SSRİ Dövlət Mükafatı laureatı və dörd Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə qiymətləndirilmişdir. İki çağrış Azərbaycan SSR Ali Sovetinin həm də Rəyasət heyəyinin üzvü olmuşdur.

S. Orucov, Y.Səfərov və başqaları ilə birgə Neft Daşlarına gələn desantlardan olan Ağa Qurban oğlu Əliyev ömrünün 60 ildən çoxunu neft və qaz yataqlarının kəşfinə və səmərəli işlənməsinə sərf etmişdir ki, bu da közəl insanın, peşəkar bir neftçinin, öz sənətini sevməsinin və ondan zövq almasının parlaq bir nümənəsidir.

Xalq arasında Neftçi Qurban adı ilə məşhur olan görkəmli neftçi-geoloq, bacarıqlı istehsalat təşkilatçısı, Azərbaycanın əməkdar mühəndisi, SSRİ-nin fəxri neftçisi, SSRİ dövlət mükafatı laureatı, geologiya-mineralogiya elmləri doktoru, professor olmuşdur.

Görkəmli neftçi 1997-ci ildə Bakıda vəfat etmişdir.

Ədəbiyyat

Закономерности размещения и условия формирования залежей нефти и газа Предкавказья и Азербайджана /А.Алиев.- М., 1976.- Т.5.

Hacıyev, V. Geologiya elmimizin iftixarı /V.Hacıyev //Respublika.-2011.-21 may.- S.7.

Əliyev Ağa Qurban oğlu //Azərbaycan sovet ensiklopediyası:10 cilddə.-Bakı, 1980.- C.4.-S.171.

Yusifzadə, X.Böyük alim və neftçi geoloq /X.Yusifzadə //Azərbaycan.-2001.-25 may.- S.5.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.adam.az

830 illiyi

Mömünə Xatun türbəsi 1186

Əcəmi Əbubəkr oğlunun dövrümüzə çatmış ən gözəl əsəri olan Mömünə xatun türbəsi bu gün də orta əsrlər Naxçıvan şəhərinin əzəmətini əks etdirir.

Abidənin üzərindəki kitabədən türbənin 1186-cı ildə Atabəy Şəmsəddin Eldənizin oğlu Məhəmməd Cahan Pəhləvanın arvadı Mömünə xatunun şərəfinə tikildiyi məlum olur. Monumental, əzəmətli bir tikinti olan türbə Naxçıvana gələn səyyah və tacirlərin diqqətini çoxdan bəri özünə cəlb etmiş və abidə bir çox əsərlərdə öz əksini tapmışdır. Hələ XIX əsrin əvvəllərində Naxçıvana gələn Dübua de Monper abidəyə diqqət yetirmiş və onun kitabələrinin üzünü çıxararaq Peterburqa, akademik Frenə göndərmişdir.

Türbə bürcvari Azərbaycan türbələrinin ən görkəmli nümunəsidir. Zəmanəmizə qədər qalmış hissəsinin hündürlüyü 26 metr olan türbənin xarici örtüyü dağılmışdır. Onun da 8 metr olduğunu nəzərə alsaq türbə keçmişdə 34 metr hündürlüyü olan dairəvi bir tikinti olmuşdur.

Abidə yeraltı hissədən və yerüstü qurğudan ibarətdir. Yeraltı sərdabə hissəsi planda onbucaqlıdır. Mərkəzdə yerləşmiş sütundan onbucaqlının hər küncünə bir tağ atılmışdır. Türbənin nəfis divar naxışları türbənin əsas hissəsini təşkil edən yerüstü abidə xaricdən ongüşəli, daxildən isə dairəvidir. Kərpicdən tikilmiş türbənin quruluşu Yusif Küseyir oğlu türbəsinə oxşardır. Burada da türbənin bucaqları çıxıntı şəklində həll edilmiş, səthlər isə batıq vəziyyət almışdır. Lakin burada memarlıq sxemi olduqca zəngin surətdə işlənmiş, bütün səthlər memarlıqla rəssamlığın sintezi şəklində təzahür etmişdir. Türbənin bucaqlarındakı çıxıntılar əsas etibarı ilə kufi xətlə işlənmiş kitabə ilə örtülmüşdür. Kitabələrin ümumi uzunluğu 500 metrə çatır.

Türbənin üzərindəki ornament bəzəkləri sənətkarın tükənməz fantaziyaya malik olduğunu göstərir. Səthlərin ornamentləri müxtəlifdir. Lakin memarın məharəti orasındadır ki, müxtəlifliklə bərabər bütün ornamentləri eyni səciyyədə yaratmış və beləliklə, abidənin ümumi vəhdətini saxlaya bilmişdir. Səthlərin həndəsi ornamentinin əsasını çoxuclu ulduz və ondan gedən süvari xəttlər təşkil edir. Burada 5, 6, 8 uclu ulduzlara və 6, 8 bucaqlı quruluşlara təsadüf edilir.

Türbənin ancaq Qərb səthi başqa şəkildə həll edilmişdir. Burada səth iki yerə bölünmüş, aşağı hissəsində giriş qapısı baştağ şəklində həll edilmiş, yuxarı hissəsində, başqa səthlərdə olduğu kimi ornamental bəzəklər verilmişdir. Memarın adını və abidənin inşaat tarixini göstərən kitabələr türbənin Qərb səthində, portaldan yuxarıda göstərilmişdir. Türbənin yuxarı hissəsindəki qurşaq bütün səthləri əlaqələndirir və orada yerləşdirilmiş kufi xəttin firuzəyi kaşı yerli üzərində olması bu kitabə qurşağını binanın əhəmiyyətli bir kompozisiya elementinə çevirir.

Mömünə xatun türbəsinin daxilindəki yeganə bəzək ünsürü türbənin günbəzinin iç tərəfində yerləşdirilmiş dörd böyük qönçədir. Dairəvi şəkildə olan bu qönçələrin içərisində nəbati naxışlı rəsmlər və son zaman aydınlaşdırılmış yazılar ornament şəklində yerləşdirilmişdir. Burada Allah (c.c.), Ömər, Osman, Əli sözləri yazılmışdır. Görünür memar öz adını da bu adlarla birləşdirmişdir. Onu da qeyd etmək lazımdır ki, I xəlifə Əbubəkrin adının memarın atasının adı ilə eyni olması onu belə mürəkkəb kompozisiya yaratmağa sövq etmişdir.

Ədəbiyyat

Salamzadə, A. Əcəmi Əbubəkr oğlu və Naxçıvan memarlıq abidələri /A.Salamzadə.-Bakı: İşıq, 1976.- 82 s.

Əzimova, S. Naxçıvanın baş tacı: Möminə Xatın türbəsi /S.Əzimova //İki sahil.- 2011.- 6 avqust.- S.13.

Məhərrəmova, T. Memar Əcəminin şah əsəri /T.Məhərrəmova //Kaspi.- 2011.-9 fevral.-S. 12.

Rəhimoğlu, M. Möminə xatın məqbərəsi və onunla bağlı aparılan araşdırmalar /M.Rəhimoğlu //525-ci qəzet.-2014.- 15 may.- S.8.

İnternetdə

www.anl.az

www.az.wikipedia.org

www.azadqadin.az

www.nrb.nakhchivan.az

115 illiyi

İlk Beynəlxalq Nobel mükafatı 1901

Alfred Nobel (1833-1896) isveç ixtiraçı, sənayeçi, linqvist, filosof və humanist idi. Əldə etdiyi gəlirin böyük hissə onun 355 ixtirasının (o cümlədən dinamitin kəşfinin) payına düşür. 1895-ci ilin noyabr ayının 27-də Parisdə Nobel vəsiyyətnamə yazır, onun vəsiyyətnaməsi əsasında əsasında bu mükafat təsis edilmişdir.

Alfred Bernard Nobelin ölümündən sonra qalan kapital Nobel fondunu təşkil etmişdir. Həmin kapital və fondun yaranmasında Nobel qardaşları şirkətinin səhmindən əldə edilən gəlir Nobel fondunun çox hissəsini təşkil etmişdir. Fond 1900-cü ildə özəl, müstəqil qeyri-hökumət təşkilatı olaraq yaradıldı.

Bu mükafat namizədlərin milliyətindən asılı olmayaraq Alfred Nobelin vəsiyyətinə əsasən aşağıdakı alti sahə üzrə verilməlidir: Kimya üzrə, Fizika üzrə,Fiziologiya və tibb üzrə,Ədəbiyyat üzrə, Nobel Sülh mükafatı, İqtisadiyyat üzrə. Nobel mükafatı 1901-ci ildən verilməyə başlayıb. Xüsusi yaardılmış Nobel komitəsi tərəfindən bütün il boyu namizəd siyahısı üzərində iş aparılır. Müxtəlif ölkələrin professorlarına, akademik təşkilatlara, keçmiş Nobel mükafatı sahiblərinə məktublar göndərilərək namizədlərin seçilməsi üçün dəvət olunurlar.Laureatlara verilən mükafata medal, şəxsi diplom və böyük həcmdə (10 milyon İsveç kronu- təxminən 1,5 mln. ABŞ dolları) pul mükafatı daxildir. Kimya, fizika, ədəbiyyat, tibb və fiziologiya üzrə Nobel mükafatlarının medalları Erik Lindberq, Nobel sülh mükafatının medalı Qustav Vigeland və Alfred Nobelin şərəfinə verilən İqtisadiyyat üzrə Svoriges Riksbank mükafatının medalı isə Qunver Svensson Lundqvist tərəfindən dizayn edilib. Dekabrın 10-da mükafatın yaradıcısının ölüm günündə mükafatın təqdimat mərasimi keçirilir. İsveçdə təşkil olunan mərasimdə laureatlara mükafatı İsveç kralı özü şəxsən təqdim edir, eyni gündə Norveçdə keçirilən tədbirdə isə Norveç kralının iştirakı ilə Nobel sülh mükafatını Norveç Nobel Komitəsinin direktoru təqdim edir. Diplomlar hər laureat üçün fərdi olaraq tərtib edilir, diplomun bir hissəsi hər hansı bir təsvir, digər hissəsi isə yazı ilə tamamlanır. Fizika və kimya üzrə Nobel mükafatlarını, iqtisadiyyat üzrə Riksbank Nobel mükafatını laureatlara İsveç Kral Elmlər Akademiyası təqdim edir.

Nobel sülh mükafatı Norveç Nobel Komitəsi tərəfindən verilir. Nobel sülh mükafatı "xalqlar arasında qardaşlığın təbliği, daimi qoşunların azaldılması, yaxud tamamilə aradan qaldırılması və ya sülh konqreslərinin keçirilməsinin irəli sürülməsi və həvəsləndirilməsi sahəsində görülmüş ən yaxşı işlərə görə" verilir. Ümumilikdə 95 fərd və 23 təşkilat Nobel sülh mükafatına layiq görülüb.

İsveçin Karolinski İnstitutunun Nobel Assambleyası fiziologiya və tibb sahəsində Nobel laureatlarının seçilməsinə görə cavabdehdir. Stokholmda yerləşən Nobel Assambleyasının tibb sahəsində mütəxəssis və səsvermə hüququ olan 5 professoru var. Bu təşkilatın əsas işçi orqanı Nobel Komitəsidir, onun üzvləri hər üç ildən bir seçilir.

Bundan başqa vəsiyyətdən kənar 1969-cu ildən başlayaraq İsveç Bankının təşəbbüsü ilə İqtisadiyyat üzrə Nobel mükafatı da verilir. Onun təltif qaydası digər sahələrdə olduğu kimidir.

Laureat "Nobel xatirə mühazirəsi" söyləməlidir. O sonradan Nobel Fondu tərəfindən xüsusi cilddə nəşr edilir.

Ədəbiyyat

Nobel mükafatı almış iqtisadçılar və onların nəzəriyyələri: elmi-ensiklopedik nəşr /tərt. müəl.: A.Şəkərəliyev, Ş.Əliyev, M.Cavadov.- Bakı: Elm, 2004.-240 s.

Quliyev, R. İqtisadi araşdırmalara görə Nobel mükafatı və daha bir neçə xırdalıqlar barəsində /R.Quliyev //Respublika.-2014.- 21 dekabr.- S.3.

Mirseyid, A. Nobel mükafatı və Nobel tənhalığı /A.Mirseyid //Ekspress.- 2012.- 28-30 aprel.- S.14.

Нобелевская премия. Лауреаты: [иллюстрированная энциклопедия] /ред. О.Шевнина; пер. с англ. Л.Гуськовой.- Москва: Эксмо, 2009.- 293 с.

İnternetdə

www.anl.az

az.wikipedia.org

110 illiyi "Orucov Qardaşları" mətbəə-nəşriyyatı 1906-1917

XX əsrin əvvəllərində nəşriyyat işini xalqımızın maarif və mədəniyyətinin yüksəldilməsində əsas amillərdən biri hesab edən görkəmli ziyalılardan Orucov qardaşları, H.B.Zərdabi, İ.B.Aşurbəyli, Ə.Müznib, M.Mikayılov, M.Mirbağırov və başqaları nəşriyyat işi sahəsində böyük fəallıq göstərir, kitab çapı üçün mətbəələr təşkil edirdilər. Bu mətbəələr içərisində öz nəşriyyatçılıq fəaliyyətinin hərtərəfliliyi, maddi-texniki bazası, poliqrafiya baxımından daha keyfiyyətli kitablar nəşr etməsi ilə fərqlənən mətbəə Orucov qardaşlarının elektrik mətbəəsi olmuşdur. 1906-cı ilin yazında mətbəə açmaq üçün Varşavadan çap maşını gətirilmişdir. 1906-1917-ci illərdə "Günəş", "Həqiqət", "Məlumat", "Kəliniyyət" və s. kimi müxtəlif ideyalı qəzet və jurnalları nəşr edən Orucov qardaşlarının elektrik mətbəəsi Azərbaycan kitab mədəniyyəti və nəşriyyat işi tarixində olduqca mühüm rol oynamış, milli Azərbaycan kitabının formalaşmasında faydalı işlər görmüşdür. Orucov qardaşları - Oruc, Qənbər və Abuzər öz dövrünün təhsilli ziyalılarından olmuş, 1905-ci ildə Bərdə şəhərindən Bakıya gəlmişlər. Kitab mədəniyyətinə, cəmiyyətdə kitabın roluna yüksək qiymət verən bu qardaşlar dünyagörüşü baxımından bir-birindən fərqlənsələr də onları kitaba, kitab çapına yüksək münasibət birləşdirirdi. Məhz buna görədir ki, onlar ata-babalarından qalma mülk və əmlakı satıb əldə etdikləri vəsait hesabına Bakıda bina kirayə götürmüş, mətbəə avadanlığı, çap maşınları alıb nəşriyyatçılıq işinə başlamışlar. Mətbəə keçmiş Nikolayevski küçəsində, milyonçu H.Z.Tağıyevin binasında yerləşirdi. Orucov qardaşları mətbəəsi öz dövrünün ən müasir çap maşınları, çap işinin son nailiyyətləri olan mətbəə avadanlığı ilə təmin edildiyindən poliqrafiya baxımından ən keyfiyyətli kitablar nəşr etmək imkanına malik idi. Həmçinin bu mətbəə o dövrün ən müasir mətbəələri kimi elektriklə işlədiyindən "Orucov qardaşlarının elektrik mətbəəsi" kimi tanınırdı. Mətbəənin bu böyük üstünlükləri və imkanları onlara daha çox sifarişlər qəbul etmək, kitab repertuarını tədricən genişləndirmək imkanı vermişdi. Orucov qardaşları öz nəşriyyatçılıq fəaliyyətində kitab çap etməklə yanaşı, onun təbliğinə, daha çox tələbat olan kitabları çap etməyə üstünlük verirdilər. Bu mətbəə ilk dəfə olaraq kitab biznesini təşkil etmək üçün Bakıda və Azərbaycanın ayrı-ayrı regionlarında kitab mağazaları və müvəkkillər şəbəkəsi yaratmışdı. Orucov qardaşları, həmçinin nəşr etdikləri hər bir kitabı satmaq, onları oxucuların diqqətinə çatdırmaq üçün nəşriyyat kataloqları nəşr edirdilər. Mətbəənin 1912-ci ildə nəşr etdiyi "Bəradərani Orucov kütübxanəsinin əsamulkütübü" adlı ticarət kataloqu böyük maraq doğurur. Bu kataloq mətbəənin kitab mağazalarında olan kitablarını alıcılar arasında təbliğ etməklə yanaşı, biblioqrafik mənbə kimi böyük mədəni əhəmiyyət kəsb edir. Orucov qardaşlarının mətbəəsində Azərbaycan, rus, gürcü və fransız dillərində şriftlərin olması bir neçə dildə kitab çap etmək imkanı verirdi ki, bu da nəşriyyatın başqa mətbəələrə nisbətən daha məhsuldar işləməsi üçün şərait yaradırdı. Digər tərəfdən, müasir çap texnikasının tətbiq edilməsi mətbəənin məhsuldarlığını artırmış, yüksək keyfiyyətli, böyük tirajlarla kitablar çap etməyə, kitab çapı sahəsində inhisarçıya çevrilməsinə səbəb olmuşdu. Mətbəənin maliyyə vəziyyətinin yaxşılaşması kitab nəşrinin repertuarının genişlənməsinə, ideya istiqamətinin müxtəlifliyinə gətirib çıxarmışdı. Orucov qardaşlarının mətbəəsi müxtəlif elm sahələrinə dair kitablar nəşr edirdi. Nəşr edilən ədəbiyyatın mündəricatı çox geniş idi. Burada bədii, elmi, kütləvi, siyasi, inqilabi, dini ədəbiyyat geniş yer tuturdu. Orucov qardaşlarının 1913-1914-cü illərdə təkrar nəşr etdiyi "Bəradarani Orucov kütübxanasının əsamülkütübü" adlı ticarət kataloqları ilə tanışlıq bu nəşriyyatın Azərbaycan kitab nəşri tarixində çox böyük xidmətlərindən

xəbər verir. Bu kataloqdan məlum olur ki, Orucov qardaşları Azərbaycanın görkəmli şair və yazıçılarının, elm, mədəniyyət və incəsənət xadimlərinin, maarifçilərinin əsərlərini çap etməklə öz doğma xalqı qarşısında böyük xidmətlər göstərmişlər. Nəşriyyatın çap etdiyi kitablar içərisində H.Zərdabinin, C.Məmmədquluzadənin, N.Nərimanovun, M.Ə.Sabirin, S.Ə. Şirvaninin, M.Hadinin, A.Ş.Talıbzadənin, Ə.B. Haqverdiyevin, Ü.Hacıbəylinin, A.Səhhətin, M.S.Ordubadinin, Y.V.Çəmənzəminlinin və s. əsərləri mühüm yer tuturdu. Mətbəədə, həmçinin rus və xarici ölkə klassiklərindən tərcümələr, məlumat kitabları, lüğətlər və s. nəşr edilmişdir. Orucov qardaşları nəşriyyatının fəaliyyətində milli dərsliklərin, dərs vəsaitlərinin, müxtəlif qiraət kitablarının nəşri Azərbaycan maarifi qarşısında böyük xidmət kimi qiymətləndirilməlidir. Heç də təsadüfi deyil ki, 1905-ci il rus inqilabından sonra keçirilən Azərbaycan müəllimlərinin birinci qurultayı ana dilində təlimi həyata keçirmək üçün maarif xadimləri qarşısında milli dildə dərsliklər və dərs vəsaitləri yaratmaq vəzifəsini qoymuşdu. Bu sahədə Azərbaycanın görkəmli maarif xadimlərindən A.Şaiq, R.Əfəndiyev, S.M.Qənizadə, A.Səhhət, M.Mahmudbəyov, S.S.Axundov, Ü.Hacıbəyov, F.Ağazadə böyük xidmətlər göstərmişlər. XX 19 20əsrin əvvəllərində Orucov qardaşları nəşriyyatı A.Şaiqin "Gülşəni ədəbiyyat", "Uşaq gözlüyü", "Gülzar", R.Əfəndiyevin "Uşaq bağçası", M.Mahmudbəyov, S.S.Axundov, F.Ağazadə, A.Talıbzadə, Ə.Əfəndizadənin tərtib etdikləri "İkinci dil", M.Mahmudbəyov və A.Səhhətin "Yeni məktəb" və "Üçüncü el", Q.R.Mirzəzadənin "Qafqaz coğrafiyası" dərsliklərini çap milli məktəblərimizin dərsliyə olan tələbatını ödəməkdə onlara böyük fayda vermişdi. Orucov qardaşları nəşriyyatının xalqımızın böyük oğlu, bəstəkar, yazıçı, publisist, Şərqdə ilk operanın banisi Üzeyir Hacıbəylinin əsərlərini nəşr etmək sahəsində xidmətləri təqdirəlayiqdir. Nəşriyyat 1907-ci ildə Ü.Hacıbəylinin tərtib etdiyi "Türk-rus və rus-türk" lüğətini və "Hesab məsələləri" kitabını nəşr etmişdi. O dövrdə bu kitabların nəşri böyük mədəni əhəmiyyətə malik idi. "Türk-rus və rus-türk" izahlı lüğəti uzun müddət oxucuların stolüstü kitabı olmuşdur. Nəşriyyat 1914-1915-ci illərdə Ü.Hacıbəylinin "Arşın mal alan", "Harun və Leyla" əsərlərini, həmçinin "Əsli və Kərəm", "O olmasın, bu olsun" əsərlərini nəşr etməklə Azərbaycan musiqisinə böyük xidmət göstərmiş oldu.

1917-ci ildən sonra Orucov qardaşlarının nəşriyyatı daşnak-bolşevik hökuməti olan Bakı Xalq Komissarları Soveti tərəfindən milliləşdirmə adı ilə ləğv edilmişdir.

Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra isə qardaşlar cümhuriyyətin tərəfdarlarından olmuş, mətbəə bütün avadanlıqları ilə birlikdə hökumətin sərəncamına verilmişdir. Belə ki, 1919-cu il sentyabr ayının 18-də hökumət respublikada fəaliyyət göstərən bütün dövlət və ictimai mətbəələrin bütün avadanlıqları ilə birlikdə Xalq Maarif Komissarlığının sərəncamına verilməsi haqqında qərar qəbul etmişdir. AXC hökuməti 1919-cu il mart ayının 20-də Orucov qardaşlarının müsadirə edilmiş, sonralar hökumətin sərəncamına keçmiş mətbəəsinin pulunu ödəmək üçün Xalq Maarif Komissarlığına 468380 manat pul ayrılması haqqında qanun qəbul etmişdi. Lakin cümhuriyyətin devrilməsindən sonra qardaşlara qarşı təqiblər başlamış, onlar yenidən Bərdəyə qayıtmışlar. Bütün bunlar O.Orucovu repressiyadan xilas edə bilməmiş, Ruhulla Axundovla birlikdə sürgünə göndərilmişdir. Lakin repressiya qurbanlarının əfvindən sonra vətənə qayıtmış, 1954-cü il mart ayının 2-də isə vəfat etmişdir.

Ə d ə b i y y a t

Zeynalov, Ə. XX əsrin əvvəllərində Azərbaycanda kitab nəşri: Orucov qardaşları nəşriyyatının fəaliyyəti /Ə.Zeylanov; elmi red. T.Əhmədov.- Bakı: Azərbaycan, 1997.-92 s.

Xələfov, A. XX əsrin əvvəllərində Azərbaycanda xalq maarifi, mətbuat və kitab nəşri //Xələfov A. Azərbaycanda kitabxana işinin tarixi: dərslik. - Bakı, 2007.-H.2.-S.18-21.

Orucov qardaşları //Azərbaycanda nəşriyyat işi /tərt. R.İsmayılov; red. Ş. Sərkəroğlu; Naşir Assosiasiyası.- Bakı, 2000.- S.64-67.

Əhməd, D. Fədakar Orucov qardaşları /D.Əhməd //Naşir: Azərbaycan Naşirlər və Poliqrafçılar birliyinin jurnalı.- 2014.- S.24-27 .

İ n t e r n e t d ə

www.anl.az

www.elibrary.bsu.az

110 illiyi

“Bakinskiy raboçiy” qəzeti 1906

“Bakinski raboçi” (rusca «Бакинский рабочий) - 1906-cı ilin may ayından bəri çap olunan Azərbaycan ictimai-siyasi qəzetidir. Qəzet rus dilində çap olunur. Azərbaycan mətbuatı tarixində ən uzunömürlü qəzet sayılır. Birinci rus inqilabından sonrakı dövrdə yaranmış bu qəzet bolşeviklərin ideyalarını yayır, xalqı burjuaziyaya qarşı mübarizəyə səsləyirdi. Qəzetin ilk nömrəsinin hazırlanmasında M.İ.Batırev, V.P.Noqin, V.F.Yefimov, B.A.Radus-Zenkoviç, S.D.Vulfson, A.A.Caparizde və başqa şəxslər iştirak etmişlər. Müxtəlif vaxtlarda N.Nərimanov, S.M.Kirov, Q.K.Ordenikidze, S.M.Yafyandiyev, A.P.Serebrovski, P.A.Axundov, Q.M.Musabəyov və başqaları bu qəzetin səhifələrində çıxış etmişlər. Qəzet dəfələrlə dövlət mükafatına layiq görülmüşdür. “Bakinski raboçi” müasir dövrümüzdə də fəaliyyətini davam etdirir.

Ə d ə b i y y a t

Şahverdiyev, A. Azərbaycan mətbuatı tarixi /A.Şahverdiyev.- Bakı: Təhsil, 2006.- 248 s.

www.br.az

95 illiyi

Beynəlxalq Yazıçılar Birliyi - “PEN-KLUB” 1921

Beynəlxalq PEN-Klubun 48-ci konqresinin qərarına əsasən, bu gün 1986-cı ildən etibarən keçirilir. 1921-ci ildə təşkil edilən PEN-Klub isə yazarların beynəlxalq birliyi olaraq müəyyənləşdirilib. Maraqlı tarixi olan bayram PEN-klub (bu ad ingiliscə üç sözün-poets (şair), essayists (oçerkçi) və nvelists (novella, roman müəllifi) - ilk hərflərindən yaranan qısaltmadır) qeyd olunmağa başlayıb. 1923-cü ildə isə Londonda PEN-klubun ilk beynəlxalq konqresi keçirilib. 1986-cı il yanvarın 12-dən 18-dək artıq PEN-klubun sayca 48-ci beynəlxalq konqresi baş tutub. Məhz həmin konqresin iştirakçıları mart ayının 3-nün “Yazıçının Ümumdünya Sülh Günü” elan edilməsi barədə qərar qəbul ediblər. Həmin vaxtadək artıq dünyanın yüzdən çox ölkəsində PEN-mərkəzləri fəaliyyət göstərirdi. Bizim günlərdə, bir sıra ölkələrdə bu bayram sadəcə, “Yazıçı günü” adlanır və bir növ daha çox fərqlənmiş ədibləri təbrik etmək və mükafatlandırmaq üçün münasib gün kimi qeyd olunur.

Bayramı keçirməkdə məqsəd “Dördüncü hakimiyyət”in - demokratik mətbuatın mənfi aspektlərinə qarşı çıxmağa, yalan yazılara, məqsədli təhriflərə, faktların bilərəkdən saxtalaşdırılmasına, yaxud siyasi, qrup və şəxsi maraqlar naminə gerçəyin vicdansızcasına yozulmasına yol verməməyə çağıran peşə bayramıdır.

Ə d ə b i y y a t

Məhərrəmova, T. Hər gün yazıçının günüdür //Kaspi.-2012.-2 mart.-S.9

İ n t e r n e t d ə

www.anl.az

80 illiyi

Azərbaycan Milli İncəsənət Muzeyi 1936

Azərbaycan Milli İncəsənət Muzeyi milli dəyərlərimizin və ümumbəşəri mədəni irsin qorunub saxlandığı xəzinədir. 17.000 artıq sənət abidəsinin mühafizə edildiyi bu xəzinənin fəaliyyət tarixi zəngindir. 1936-cı ildə incəsənət şöbəsi Azərbaycan Dövlət Muzeyinin tərkibindən ayrılıb, Xalq Komissarları Sovetinin qərarı ilə müstəqil muzey kimi təşkil edilib. Muzeyə ilk eksponatlar ekspedisiyalar zamanı və əhalidən satın alınma yolu ilə toplanıb. 1937-ci ildə muzeyin ilk ekspozisiyasının açılışı olmuş, muzey 1951-ci ildə isə XIX əsrin axırlarında barokko üslubunda inşa edilmiş Deburun malikanəsinə köçürülüb. 2006-cı ildə muzeyə ayrılmış yeni binada asaslı təmir işləri başlanmış və 2009-cu ildə yeni ekspozisiyanın açılışı olmuşdur. 2011-ci ildə muzeyə Milli, eləcə də həmin ildə Brüsseldə yerləşən Avropa İqtisadiyyat, Sənaye və Ticarət Palatasının (European Economic Chamber of Trade, Commerce and Industry - EEIG) Direktorlar Şurasının yekdil qərarı ilə beynəlxalq standart və kriteriyalara cavab verən, muzey anlayışına uyğun, keyfiyyətli muzey xidməti göstərən və peşəkar təcrübəyə malik Avropa Muzey Standartı (EUMS) statusları verilmişdir.

Muzeyə ötən illər ərzində Azərbaycanın tanınmış Xalq rəssamı S.Salam-zadə (1936-1943), sonra Xalq rəssamı K.Kazım-zadə (1943-1992) başçılıq etmiş, hazırda isə Azərbaycanın Əməkdar incəsənət xadimi, prof. Çingiz Fərzəliyev rəhbərlik edir.

Muzeyin fəaliyyətindəki bütün işləri icra edən elmi şöbələr bunlardır: Fond şöbəsi, Ekspozisiya şöbəsi, Elmi-kütləvi işlər şöbəsi (məktəb bölməsi), Elmi araşdırmalar şöbəsi, Muzey işində innovasiyaların tətbiqi şöbəsi, Sərgi və tərtibat şöbəsi, Elmi bərpa şöbəsi. Muzey 9000-dək elmi kitab və monoqrafiyaların, kataloq, albom və d. ixtisasyönlü ədəbiyyatın toplandığı zəngin kitabxanaya malikdir. Burada qədim nəşrlərin toplandığı xüsusi "Nadir kitablar" fondu da mövcuddur.

Azərbaycan Milli İncəsənət Muzeyinin fondlarında qorunan eksponatlar isə öz qədimliyinə görə e.ə. IV minilikdən başlayaraq günümüzədək davam edən sənət əsərləridir. Naxçıvan, Mingəçevir, Füzuli, Xanlardan (indiki Göy-Göl) tapılmış üzəri ən arxaik bədii təsvirlərlə bəzədilmiş saxsı qablar, səlcuqlu dövrünə məxsus dekorativ çıraqlar, kaşılar, XIII əsrə aid Bayıl qəsrinin frizindən hissələr, XIV-XVIII əsrlərə aid Abşeron və Şamaxıdan aşkarlanmış sənduqələr, XVI əsrə aid nəfis Quran və nücum elminə dair əlyazma kitabları, XVII-XVIII əsrlərə aid tempera, qızıl suyu və sulu boyayla çəkilmiş orijinal Təbriz miniatürləri, XIX əsrin tanınmış rəssamları Mir Möhsün Nəvvabın, Mirzə Qədim İrəvaninin, Usta Qəmbər Qarabağinin, Azərbaycanın ilk peşəkar rəssamları və müasirlərimizin əsərləri, XVI-XVII əsrə aid bədii metal əşyaları, XVIII-XX əsrlərə aid ipək və yundan toxunmuş orijinal parça, tikmə, milli geyim və xalça nümunələri, zərgərlik əşyaları mühafizə edilir. Bu milli dəyərlərlə yanaşı topluda saxlanan Qərbi Avropa (Fransa, Almaniya, Avstriya, İtaliya, Yunanıstan, Flandriya, Danimarka, İspaniya), Şərq (İran, Türkiyə, Yaponiya, Çin, Hindistan, Misir, Orta Asiya) və Rus incəsənətinə məxsus heykəltaraşlıq, rəngkarlıq, qrafik əsərlər və başqa dekorativ-tətbiqi sənət nümunələri müxtəlif xalqların sənət tarixini əks etdirir.

Muzeyin zəngin elmi və maddi bazası əsasında respublikamızda və MDB ölkələrində fəaliyyət göstərən bir çox tanınmış muzeylərin fondları yaranmış və zənginləşmişdir. 1967-ci ildə Nizami adına Azərbaycan Ədəbiyyatı muzeyinə, 1968-ci ildə Ə.Əzimzadənin ev-muzeyinə, 1985-ci ildə Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyinə, 2001-2005-ci illər ərzində isə Naxçıvan MR-da fəaliyyət göstərən Bəhruz Kəngərli adına Rəsm Qalereyasına, eyni zamanda Sankt-Peterburqda fəaliyyət göstərən Rusiya Etnoqrafiya Muzeyinə sənət nümunələri daimi istifadəyə verilmişdir.

Muzeyin elmi potensialı əsasında zəngin fondlar daima araşdırılır, beynəlxalq və respublika miqyaslı sərgilər təşkil edilir.

R.Mustafayev adına Azərbaycan Dövlət İncəsənət Muzeyi: [broşür] /Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi.- [Bakı]: Digital Age production, 2007.- [8] s.

Əlifba göstəricisi

A

A.A.Bakıxanov adına Əmircan (Suraxanı rayon MKS-nin 1saylı filialı) qəsəbə kütləvi kitabxanası ---------- 389
A.P.Çexov adına kütləvi kitabxana (Nərimanov rayon MKS-nin 1saylı filialı) ---------- 390
A.Şaiq adına Maştağa qəsəbə uşaq kitabxanası (Sabunçu rayon MKS-nin 13saylı filialı) --- 390
Abaszadə Abasqulu Ağabala oğlu ---------- 123
Abbasbəyli Ağalar Nəriman oğlu 351, ------ 373
Abbasov Akim Əli oğlu ---------- 157, 175
Abbasov Əsgər Məmmədismayıl oğlu ------ 122
Abbasov Məmməd Əsgər oğlu ---------- 6
Abbasov Midhət Teymur oğlu ---------- 219, 243
Abdinov Tofiq Məhərrəm oğlu (Tofiq Abdin) ---------- 275, 277
Abdul-Qədirov İsmayıl Qafar oğlu ------- 37, 67
Abdullayev Aydın Həsən oğlu ---------- 124
Abdullayev Cahangir Məmməd oğlu -- 158, 185
Abdullayev Faiq Məmmədəli oğlu ---------- 353
Abdullayev Xosrov Abdulla oğlu ---------- 6
Abdullayev İslam Əbdül oğlu ---------- 275
Abdullayev Mahmud Abdulla oğlu ---------- 192
Abdullayev Məzahir Ağaverdi oğlu --------- 192
Abdullayev Mikayıl Hüseyn oğlu ----- 350, 359
Abdullazadə Gülnaz Abutalıb qızı ----- 275, 281
Abizadə Balaş Allahbaxış (Balaş Azəroğlu) oğlu ---------- 323, 327
ABŞ Dövlət Departamenti ---------- 124
Adıgözəlzadə Həsənağa Əfrasiyab oğlu ------- 5
Afinada müasir dövrün ilk Olimpiya oyunları 124
Ağabəyov Mayis Əlişir oğlu ---------- 156, 167
Ağalarov Abbas Fərhad oğlu ---------- 219
Ağalarova Dünya Ələkbər qızı ---------- 352
Ağamirov Midhət Mirmusa oğlu ------ 157, 177
Ağamirov Mirmusa Haşim oğlu ---------- 389
Ağaoğlu Məhəmməd ---------- 249
Ağayev Ağadadaş Həmid oğlu ---------- 5
Ağayev Faiq Firidun oğlu ---------- 7
Ağayev Nuhəli Hacıbala oğlu ---------- 324
Ağayeva Xurşid Həsən bəy qızı ---------- 122
Ağdam rayonunun işğalı ---------- 219, 246
Ağdamski Telman Əhməd oğlu ---------- 250
Ağdərə rayonunun işğalı günü ---------- 219
Azərbaycan Televiziyasının fəaliyyətə başlamasının ----------38
Axundov Məhəmməd Bağır oğlu ---------- 156
Axundov Şəmsəddin Əhməd oğlu ---------- 249
Axundov Tofiq Hüseyn oğlu ---------- 323
Axundov Vəli Yusif oğlu ---------- 158, 186
Axundova Rəfiqə Hacı qızı ---------- 248, 258
Axundova-Bağırbəyova Sona Əbdül qızı --- 389
Axundzadə Yusif Yevgenyeviç ----------35
Allahverdiyev Mahmud Qara oğlu ---- 157, 182
Allahverdiyev Surxay Rəhim oğlu ---------- 158
Almaniya SSRİ-yə hücum etmişdir --------- 219
Aristotel (Ərəstun) ---------- 388
Aslanova Rəbiyyət Nurulla qızı ---------- 218
Aşıq Alı ---------- 386, 400
Aşıq Bəhmən Göyçəli ---------- 156, 162
Aşıq Ələsgər ---------- 387, 402
Aşıq Hüseyn Cavan ---------- 387
Aşıq Pənah ---------- 350, 358
Aşıq Pəri ---------- 386, 401
Aşurbəyli Sara Balabəy qızı ----------6, 22
Atakişiyev Əlisəttar Ələsgər oğlu ----- 351, 368
Atatürk Qazi Mustafa Kamal ---------- 123, 141
Aydın Əzim Kərimoğlu ---------- 156, 169
Azərbaycan Bayrağı Günü ---------- 325, 344
Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanası ---------- 390
Azərbaycan Dövlət Pedaqoji Universiteti -- 250
Azərbaycan Dövlət Pedaqoji Universitetinin kitabxanası ---------- 389
Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü ---------- 250
Azərbaycan Hərbi Hava Qüvvələri günü -----38
Azərbaycan Kinosu Günü ---------- 250
Azərbaycan Kommunist Partiyasının ləğvi - 276
Azərbaycan Kukla Teatrının (1931) təşkil edilməsi ---------- 391
Azərbaycan qadınlarının birinci qurultayı ---38
Azərbaycan Milli İncəsənət Muzeyi --- 392, 417
Azərbaycan Polisi Günü ---------- 219
Azərbaycan radiosunun yaradılması --- 325, 343

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi ---------- 7, 32-33
Azərbaycan Respublikası Pensiya Fondu --- 353
Azərbaycan Respublikasının Ali Soveti tərəfindən DQMV-nin statusunun ləğvi ---------- 325
Azərbaycan Respublikasının Avropa Şurasına tam hüquqlu üzvü ---------- 7, 31
Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında ümumxalq referendumu ---------- 353
Dünya Azərbaycanlılarının Həmrəylik Günü ---------- 353, 384
Azərbaycan Sərhəd Qoşunlarının Yaranması Günü ---------- 250
"Azərbaycanda gənc istedadlara dövlət qayğısı haqqında" fərman ---------- 193
Azərbaycanda Hərbi-Dəniz Qüvvələri Günü ---------- 250, 270
Azərbaycanda ilk rəsmi telefon xətti ---------- 38
Azərbaycanda Mülki Aviasiya İşçilərinin Peşə Bayramı Günü ---------- 193
Azərbaycanda yeni prezident seçkiləri ------ 276
Azərbaycanın BMT-yə qəbul olunması ------- 78
Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyəti ---------- 391
Azərbaycanın İslam Konfransı Təşkilatına üzv qəbul olunması ---------- 353
"Azərbaycanın milli özünümüdafiə qüvvələri haqqında" Qanun ---------- 301
"Azərbaycan-İrs" mədəni-maarifçilik yönümlü jurnalın çapı ---------- 391
Azərbaycanlıların Soyqırımı Günü 79, 119-120
Aznaurov İsgəndər Söhrab oğlu ------- 249, 263

B

Babayev Aqşin Əlisəttar oğlu ---------- 323, 328
Babayev Həbib Bayram oğlu ---------- 352
Babayev Nurəddin Həsən oğlu ---------- 76, 86
Babayev Rafiq Fərzi oğlu ---------- 76, 91
Babayeva Çimnaz Məmməd qızı ---------- 351
Babayeva Ələviyyə Hənifə qızı --------- 248, 253
Babazadə Baba Qurbanqulu oğlu ------ 123, 144
Babazadə Fikrət Ələkbər oğlu ---------- 276
Babazadə Oqtay Ələkbər oğlu ---------- 299
Babək rayon MKS ---------- 390
Bağırxan ---------- 388
Bağırov Allahverdi Teymur oğlu ------- 123, 139
Bağırov Zakir Cavad oğlu ---------- 76, 88
Bağırova İradə Səid qızı ---------- 36
Bağırzadə Faiq Məmməd oğlu ---------- 78, 110
Bahar Məhəmmədtağı Məlik Üş-şüəra ------ 350
Bakı Azad Tənqid-Təbliğ Teatrı ---------- 391
Bakı Biskvit Fabriki ---------- 391
Bakı dənizçilik məktəbi əsasında Azərbaycan Dövlət Dəniz Akademiyası ---------- 219, 245
Bakı İslam İnstitutu ---------- 7
Bakı kommersiya məktəbi ---------- 391
Bakı Musiqi Akademiyasının kitabxanası -- 389
Bakı müsəlman qız məktəbinin açılışı 276, 295
Bakı Rabitə Elektrotexnikumu ---------- 391
Bakı şəhəri H.Cavid adına kütləvi kitabxana (Binəqədi rayon MKS 4 saylı filial) --------- 390
Bakı şəhəri Nizami rayonu Mərkəzləşdirilmiş Kitabxana Sistemi ---------- 390
Bakı-Tbilisi-Ceyhan neft kəməri ---------- 219
Bakı Vaqon Təmiri zavodu ---------- 391
Bakı Zərgərlik zavodu ---------- 391
Bakıda I Beynəlxalq Türkoloji Qurultay 38, 73-74
"Bakinskiy raboçiy" qəzeti ---------- 391, 416
Bakı-Sabunçu-Suraxanı xəttində SSRİ-də ilk dəfə olaraq elektrik qatarı ---------- 219
Bayramov Həbib Əbdülhüseyn oğlu -- 191, 197
Bayramov Hüseyn Abbas oğlu ---------- 388
Bayramov Soltanağa Nəhmət oğlu ---- 299, 308
Bayramzadə Əlirza Baxşəli oğlu ---------- 78
Belinski Vissarion Qriqoryeviç -------- 191, 194
Beynəlxalq Azərbaycan Muğamı Günü ----- 250
Beynəlxalq Əqli Mülkiyyət Günü ---------- 124
Beynəlxalq Humanitar Yardım Günü -------- 250
Beynəlxalq İnf.Təhl. Günü ---------- 325, 348
Beynəlxalq İnternet Təhlükəsizliyi Günü ----- 37
Beyn.Kitab və Müəllif Hüq.Günü ----- 124, 154
Beynəlxalq Kulinariya Günü ---------- 301
Beynəlxalq Qan Donor Günü ---------- 212
Beynəlxalq Lal-Kar Günü ---------- 276
Beynəlxalq Mədəniyyət Günü ---------- 124
Beynəlxalq Musiqi Günü ---------- 301
Beynəlxalq Müəllim Günü ---------- 301
Beynəlxalq Novruz Günü ---------- 79, 117
Beynəlxalq Olimpiya Günü ---------- 191, 214
Beynəlxalq Poeziya Günü ---------- 79

Beynəlxalq Rəqs Günü ---------- 124
Beynəlxalq Sülh Günü ---------- 276
Beynəlxalq Şən və Hazırcavablar Klubu --- 325
Beynəlxalq Teatr Günü ----------79
Beynəlxalq Tolerantlıq günü ---------- 325
Beynəlxalq Uşaq Kitabı günü ---------- 124
Beynəlxalq Yazıçılar Birliyi ---------- 390, 416
Bədəlbəyli Şəmsi Bədəl oğlu ---------- 36, 54
Bədən Tərbiyəsi və İdman Günü ----------79
Bəhmən Mirzə Qacar ---------- 388
Bəktaşi İnayət Heydər oğlu ----------78, 109
I Dövlət Duması ---------- 158
Bilik Günü ---------- 276
Billuri Hökumə İbrahim qızı ---------- 76, 80
Binəqədi qəsəbə uşaq kitabxanası (Binəqədi rayon
MKS-nin 7 saylı filialı) ---------- 389
Birləşmiş Millətlər Təşkilatı qurul.---------- 212
Birləşmiş Millətlər Təşkilatı Günü ---------- 301
Bulqakov Mixail Afanasyeviç ---------- 156, 165
Buzovna qəsəbə kütləvi kitabxanası (Xəzər rayon
MKS-nin 3 saylı filialı) ---------- 389
Bülbülcan ---------- 387
Bülbülün ev-muzeyinin yaradılması --------- 391
Beynəlxalq Ahıllar Günü ---------- 301, 318
Beynəlxalq Ailə Günü ---------- 158
Beynəlxalq Ana Dili Günü ---------- 38, 70
Beynəlxalq Əlillər Günü ---------- 353
Beynəlxalq Gənclər Günü ---------- 250
Beynəlxalq Qadınlar Günü ----------79
Beynəlxalq Muzeylər Günü ---------- 158
Beynəlxalq Söz və Mətbuat Azadlığı Günü 158
Beynəlxalq Uşaq Günü ---------- 325

C

C.Naxçıvanski adına Hərbi Litseyi ---------- 219
Cabbar Qaryağdı oğlu ---------- 76, 90
Cahangirov Cahangir Şirgəşt oğlu ----- 191, 199
Cavanşir ---------- 387, 406
Cavanşir Rəşid Cəmil oğlu ---------- 218, 239
Cəbrayıl rayonunun işğalı günü -------- 250, 271
Cəfərzadə Əzizə Məmməd qızı -------- 352, 377
Cəlil Musa ---------- 35, 44
Cəlilov Afiyəddin Cəlil oğlu ---------- 249, 266
Cuvarlı (Cuvarlinski) Cavad ---------- 36, 60

Ç

Çernobl AES-də baş vermiş qəza ---------- 124

D

Dadaşov Azər İsmayıl oğlu---------- 350
Dadaşov İbrahimpaşa Hüseyn oğlu ---------- 124
Dadaşov Rafael Məlik oğlu ----------5, 14
Dadaşov Soltan Baba oğlu ---------- 156, 170
Dadaşzadə Araz Məmməd oğlu---------- 6, 23
Dağlı Seyfəddin ---------- 248, 255
Daxili Qoşunlar Günü ----------79
Davudova Mərziyə Yusif qızı ---------- 323, 333
"Dəbistan" adlı həftəlik uşaq jurnalı -------- 124
"Dənizçi günü" peşə bayramı ---------- 212
Disney Uolt ---------- 351
Dostoyevski Fyodor Mixayloviç ------- 323, 329
Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi
haqqında fərman ---------- 212
Dövlət Qulluqçularının Peşə Bayramı ------ 212
Dövlət Müstəqilliyi Günü ---------- 301,320
Dövlət müstəqilliyimizin Türkiyə Cümhuriyyəti
tərəfindən tanınması ---------- 325
Dünya Azərbaycanlılarının I Qurultayı ------ 325
Drayzer Teodor---------- 248,257
Dünya İnformasiya Günü ---------- 325
Dvorjak Antoni ---------- 275

E

Edilov Yelmar Şahmar oğlu ---------- 123, 138
Ekologiya və Təbii Sərvətlər Nazirliyi
Əməkdaşlarının Peşə Bayramı ---------- 158
Elcanlı Sadıq ---------- 5, 8
Eminov Allahverdi İsgəndər oğlu ---------- 122

Ə

Ədliyyə İşçilərinin Peşə Bayramı Günü ---- 325
Əfəndiyev Qalib Məmməd oğlu ---------- 158
Əfəndiyev Oqtay Əbdülkərim oğlu ------ 77,103
Əhmədli Cəmil Teymur oğlu---------- 300, 312
Əhmədov Əmir Məmmədbağır oğlu -------- 389
Əhmədov Həsən Əbdüləli oğlu ---------- 352
Əhmədov Hüseyn Mustafa oğlu --------218,238

Əhmədov Mobil Salman oğlu ---------- 275, 282
Əhmədov Riad Fikrət oğlu ---------- 351,368
Əkbər Tahir ----------5,13
Əkbərzadə Şahmar Əkbər oğlu --------- 350, 356
Ələkbər Salahzadə ----------76
Ələkbərzadə Çingiz Əbülhəsən oğlu -------- 299
Əli Razi ---------- 386
Əlibəyli Ənvər Əliverdi oğlu ---------- 122,125
Əlikişibəyov Mustafa Məmməd oğlu ------- 352
Əlillərin hüquqlarının müdafiəsi Günü ------ 158
Əlisa Nicat---------- 248,252
Əliverdibəyov Nazim Ağalar oğlu ----- 248, 260
Əliyev Ağa Qurban oğlu ---------- 389,411
Əliyev Aqil Əlirza oğlu ---------- 352,375
Əliyev Azad Sabir oğlu ---------- 76,89
Əliyev Cəmil Əziz oğlu ----------78,116
Əliyev Əbülfət Əsəd oğlu ---------- 350,362
Əliyev Hüseyn Əlirza oğlu ---------- 122,129
Əliyev İlham Heydər oğlu ----------351,371-372
Əliyev İlham Müzəffər oğlu---------- 157,172
Əliyev Kamil Müseyib oğlu ---------- 299,303
Əliyev Tamerlan Əziz oğlu ---------- 300,316
Əliyev Vəli Hüseyn oğlu ---------- 218,234
Əliyev Yavər Yaqub oğlu ---------- 191,204
Əliyeva Nurlanə Müzəffər qızı ---------- 249
Əliyeva Zemfira Məmmədəli qızı ------ 351,366
Əliyeva-Kəngərli Aybəniz İbrahim qızı 192,207
Əlizadə Əbdülkərim Əli oğlu ----------6,20
Əlizadə Əli Əşrəf Əbdül Hüseyn oğlu - 123,143
Əlizadə Məmməd Mübariz Əli oğlu --------- 352
Əli-zadə Rasim İsmayıl oğlu ---------- 301
Əlizadə Zəkəriyyə Mabud oğlu ----------37
Əmir Teymur ---------- 123,140
Ənvar Şah Qasim ---------- 386,394
Ənvər Paşa ---------- 324,334
Ərəblinski Hüseyn---------- 387,405
Əsədov Əsəd Soltan oğlu ---------- 77,99
Əsədov Məhəmməd Nəbi oğlu ---------- 351,370
Əsədullayev Şəmsi Əsədulla oğlu ------ 388,409
Əsgərov Şahlar Qaçay oğlu ---------- 192,210
Əsgərova Salatın Əziz qızı ---------- 351,367
Əyyubov Əsgər Cabbar oğlu ---------- 249
Əyyubov Tələt Ömər oğlu ---------- 386
Əzimi Səfurə Əli qızı ---------- 5
Əzimov Cəbrayıl Əlimuxtar oğlu------- 156,168
Əzimov Nəriman Abbasqulu oğlu---------- 191
Əzizbəyov Şamil Əbdürrəhim oğlu ------- 37,62

F

Fadeyev Aleksandr Aleksandroviç ---------- 350
Faşizm Üzərində Qələbə Günü ---------- 219
Fətəli xan Hüseyn Əli xan oğlu --------- 387,407
Fətəliyev Ramiz Məmmədəli oğlu ---------- 191
Fövzi ---------- 386
Franklin Bencamin ----------6,19
“Füyuzat” jurnalı ---------- 325,342
Füzuli rayonunun işğalı günü ---------- 250,272

G

Gender (kişi və qadınların) bərabərliyi ------ 301
Gəncə sənətkarlarının və şəhər yoxsullarının üsyanı---------- 390
Gəncə şəhər MKS---------- 390
Gəncəvi Nizami ----------386, 392-393
Gənclər Günü ---------- 37,68
Gənclərin I Ümumrespublika Forumu --------37
Gömrük İşçiləri Günü ---------- 7
Göyalp Ziya ----------77,102
Gözdən Əlillər üçün Respublika Kitabxanası 192
Gülgün Mədinə ---------- 5,9

H

Hacı Mirzə Həsən Rüşdiyyə ---------- 218,236
Hacıbəyli Ceyhun bəy Əbdülhüseyn oğlu 36,59
Hacıyev Altay Əmir oğlu ---------- 122,128
Hacıyev Asəf Hacı oğlu ---------- 158,184
Hacıyev Bəhmən Əbiş oğlu ---------- 353,380
Hacıyev Etibar Firudin oğlu ---------- 36,56
Hacıyev Xanlar İrşad-Faiq oğlu -------- 276,290
Hacıyev İsmayıl Muxtar oğlu ---------- 6,21
Hacıyev Tofiq İsmayıl oğlu---------- 157,179
Hacıyeva Nina Alekseyevna ---------- 192
Haqverdiyev Əyyub Məmmədəli oğlu ---- 77,93
Haqverdiyev Xanlar Məmməd oğlu ---- 275,283
Haqverdiyev Məşədi Zeynal ---------- 387
Haşımbəyov Əliyar bəy Mehdi oğlu -----77,100
Haşımov Bakir Musa oğlu ---------- 387
Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinin sədri seçilməsi ---------- 276

Azərbaycan Respublikası Müdafiə Nazirliyi 276
Heydərov Arif Nəzər oğlu ---------- 192,206
Heydərov Kəmaləddin Fəttah oğlu ---------- 218
Heydərov Nəzər Heydər oğlu ---------- 388
Hənəfi Zeynallı ---------- 386,397
Hərbi Donanma Günü ---------- 250
Həsənoğlu Ramiz ---------- 123,135
Həsənov İlham Gülbala oğlu ---------- 157,174
Həsənzadə Nəriman Əliməmməd oğlu ---- 35,40
Hidayətzadə İsmayıl Hüseyn oğlu ------ 248,261
Hüseyn Cavidin ev - muzeyinin yaradılması 391
Hüseynli Qəmbər Muxtar oğlu---------- 122,131
Hüseynli Rafiq ---------- 249,267
Hüseynov Akif Məmməd oğlu ---------- 157
Hüseynov Böyükağa Murtuza oğlu -------78,106
Hüseynov Cəlil Yusif oğlu---------- 352
Hüseynov Elşən İbrahim oğlu ---------- 192,205
Hüseynov Əlikram Həsən oğlu ---------- 122
Hüseynov Əyyub Müseyib oğlu -------- 275,280
Hüseynov Sadıq Dayandur oğlu -------- 218,232
Hüseynova Nəsibə Ağa İsmayıl qızı ---------7,26
Hüseynova Sofiya Həsən qızı ---------- 36,52
Hüseynzadə Ədilə Hacağa qızı ---------- 122,133
Hüseynzadə Məcid Əziz oğlu ---------- 250

X

Xaçmaz rayon MKS ---------- 390
Xanbabayev Əjdər Rza oğlu ---------- 249
Xanızadə Hamlet Bəbir oğlu ---------- 191,200
Xankəndinin işğalı günü ---------- 353,383
Xanlarova Zeynəb Yəhya qızı ---------- 351,361
Xələfov Abuzər Alı oğlu ----------353, 381-382
Xəlilov Eldar Xəlil oğlu ---------- 248,264
Xəlilov Fərhad Qurban oğlu ---------- 323,332
Xəlilov Qurban Əli oğlu ---------- 324
Xəlilov Zahid İsmayıl oğlu ----------6,25
Xəzər Universitetinin Kitabxana İnformasiya Mərkəzi ---------- 390
Xocavənd rayonunun işğalı günü ------- 301,319
Xüsusi Dövlət Mühafizə Xidməti Əməkdaşlarının Peşə Bayramı Günü---------- 250
Xocalı Soyqırımı günü ---------- 38, 71-72

İ

İbrahimov Mirələkbər Mirələsgər oğlu276,289
İbrahimov Mirzə Əjdər oğlu ---------- 299,302
İbrahimov Nurəddin İslam oğlu ---------- 77,97
İlk Beynəlxalq Nobel mükafatı --------- 391,413
İlk Olimpiya oyunlarının başlaması --------- 124
İlk telefon aparatı ---------- 391
İmanquliyev Nəsir Əsəd oğlu ---------- 352,376
İmanova Gülbacı Əliəkbər qızı ---------- 36,49
İnsan Alverinə Qarşı Mübarizə Günü ------- 158
İnsan Hüquqları Günü ---------- 193
İrqi ayrı-seçkiliyin (diskriminasiyanın) ləğv edilməsi uğrunda Beynəlxalq Mübarizə Günü 79
İsgəndərli Anar Camal oğlu ---------- 6
İsmayılov Həbib Ələkbər oğlu ---------- 36,53
İsmayılov Nadir İslam oğlu ---------- 37,66
İsmayılov Rasim Rza oğlu ---------- 217,228
İsmayılova Səkinə Qulu qızı ---------- 36,50
İsmayılzadə İsa Mustafa oğlu ---------- 76,83
İsmayılzadə Rauf Yusif oğlu ---------- 5
İsrafilov Aftandil Eynulla oğlu ---------- 5
İsrafilova Nelufər Möhsün qızı ---------- 300
İstiqlal Muzeyi ----------7,29

J

Jurnalistlərin Beynəlxalq Həmrəylik Günü - 276

K

Karamzin Nikolay Mixayloviç ---------- 350
“Kaspi” qəzeti ---------- 391
Kazımov Davud Mehti oğlu ---------- 323,330
Kazımov Əli İmran oğlu ----------36
Keçmiş SSRİ-nin süqutu ---------- 353
Kəlbəcər rayonunun işğalı günü -------- 124,150
Kəlbəliyev Qüdrət İsfəndiyar oğlu ----- 324,340
Kənd Təssərüfatı işçiləri günü ---------- 325
Kərbəlayı Lətif Hüseyn oğlu ---------- 387
Kərəmov Nurəddin Kərəm oğlu ----------78,111
Kərim Əli ---------- 76,85
Kərimov Bəşir Bəylər oğlu ---------- 36,55
Kərimov Elgiz Kərim oğlu ----------6,16
Kərimov Əflatun Xudkar oğlu ---------- 324,339
Kərimov İnqilab Saleh oğlu ---------- 123,142
Kərimov Kazımağa Mövsüm oğlu ------ 275,285
Kərimov Kərim Məhəmməd oğlu ------ 218,230
Kərimov Lətif Hüseyn oğlu ---------- 323,331
Kərimova Flora Ələkbər qızı ---------- 217,226

Kəsəmənli Nüsrət Yusif oğlu ---------- 350,357
Konstitusiya Günü ---------- 325,345

Q

Qadın Zorakılığına Qarşı Beynəlxalq Mübarizə Günü ---------- 325
Qafarova Roza Zeynal qızı ---------- 324
Qaracaoğlan ---------- 386,399
Qarakənd faciəsi ---------- 325,347
Qaradağlı kəndinin işğalı ---------- 38,69
Qarayev Yaşar Vahid oğlu ---------- 78, 105
Qarayeva Xanım İsmayıl qızı ---------- 122
Qasımov Böyükağa Məmməd oğlu ---------- 76
Qasımov Əbülfəz Cəbrayıl oğlu ---------- 352
Qasımov Hacı İbrahim oğlu ---------- 386
Qasımov Mehbalı Məhəmməd oğlu---- 157, 178
Qasımov Rafiq Yunis-Əli oğlu ---------- 211
Qasımova Xuraman Əkrəm qızı -------- 191, 197
Qasımzadə Məmmədcavad Süleyman oğlu - 301
Qasımzadə Nadir Hacı Yusif oğlu ---------- 37
Qaspiralı Şəfiqə İsmayıl bəy qızı ---------- 300
Qasprinski İsmayıl bəy Mustafa ağa oğlu 78,108
Qayıbov Fərrux ağa---------- 300, 310
Qədirov Əliabbas Gülabbas oğlu ---------- 36, 51
Qəhrəmanov Əliheydər Baba oğlu ----- 301, 317
Qəmbərov Yunis Heydər oğlu----------78,115
Qənizadə Sultanməcid ---------- 122, 126
QİÇS-ə Qarşı Mübarizə Günü ---------- 353
Qızıl Aypara Günü ---------- 79
Qobustan rayon Mərkəzləşdirilmiş Kitabxana Sistemi---------- 390
Qocayev Niftalı Mehralı oğlu ---------- 300, 315
Qubadlı rayonunun işğalı günü --------- 250, 273
Qubadov Arif Vəliş oğlu ---------- 275, 287
Quliyev Eldar Tofiq oğlu---------- 5, 15
Quliyev Emin Ələkbər oğlu ---------- 249, 262
Quliyev Ələkbər Məmməd oğlu --------- 276,294
Quliyev Həsən Hüseyn oğlu---------- 249
Quliyev Məmməd Mehdi oğlu ---------- 35, 47
Quliyev Nəriman Ağaqulu oğlu--------- 352, 378
Quliyev Teymur İmanqulu oğlu---------- 300
Qumi Qazi Əhmədin ---------- 157
Qurban bayramı ---------- 276, 296
Qurbanov (Qurbani) Abdulla Novruz oğlu-- 350
Qurbanov Ağadadaş Gülməmməd oğlu--- 77, 92
Qurbanov Azad İsa oğlu ---------- 192, 211
Qurbanov Maqsud Rüstəm oğlu ---------- 158
Qurbanov Telman Xudam oğlu ---------- 324
Qutqaşınlı İsmayıl bəy ----------5, 10

L

Laçın rayon MKS ---------- 390
Laçın rayonunun işğalı günü ---------- 158, 188
Lalayev Əliqismət Ümmət oğlu -------- 218, 235
Latın qrafikalı Azərbaycan əlifbasının bərpası haqqında qanun ---------- 353
Leskov Nikolay Semyonoviç ----------35
Lomonosov Mixail Vasilyeviç ---------- 324
London Cek----------5, 11
Lütfi Zadə ---------- 37,65

M

M.Ə.Sabir adına Balaxanı qəsəbə kütləvi kitabxanası (Sabunçu rayon MKS-nin 11 saylı filialı) ---------- 389
M.Əzizbəyov adına kütləvi kitabxana (Nəsimi rayon MKS) ---------- 389
Mahmudbəyova Məryəm Fərəməz qızı-----7, 26
Mahmudova Tamilla Zahid qızı---------- 122
Makeyev İqor Vladimiroviç---------- 299, 309
Mansurov Bəhram Süleyman oğlu -------- 35, 48
Meğri rayonunun Nüvədi kəndindən azərbaycanlıların qovulması---------- 250
Mehdixanlı Nurəddin---------- 299
Mehdiyev Fazil Umud oğlu ---------- 249, 265
Mehdiyev İmran Əzim oğlu ---------- 6
Mehdiyev Məhəmməd Fərman oğlu --------- 300
Mehdiyev Tofiq Mahmud oğlunun (Tofiq Mahmud)---------- 323, 326
Mehdiyeva Səlimə İbrahim qızı ---------- 158
Mehrəliyeva Fatma Yusif qızı---------- 191, 196
Məcidov Zakir Nüsrət oğlu---------- 192, 203
“Məktəb” adlı ədəbi, elmi jurnal---------- 391
Məlik-Aslanova Püstə Süleyman bəy qızı 37, 64
Məlikov Rəhim bəy Mehrəli bəy oğlu - 157, 180
Məlikova Qəribsoltan Həsən bəy qızı-- 192, 208
Məlikova Nəcibə Haşım qızı---------- 299, 306
Məlikova-Abayeva Hənifə xanım ------ 157, 181
Məmmədov Abbas Zaman oğlu----------77
Məmmədov Əbülfəz Meybulla oğlu -------- 250

Məmmədov Ələşrəf Veysəl oğlu-------- 324, 338
Məmmədov Əliqulu Məmmədqulu oğlu ---- 219
Məmmədov Firuddin İbrahim oğlu----- 219, 242
Məmmədov Hafiz Məmməd oğlu ---------- 387
Məmmədov Məmmədağa Əhməd oğlu------ 158
Məmmədov Mirkazım Mirəhəd oğlu -------- 324
Məmmədov Mirzə ---------- 387
Məmmədov Ramiz Soltanəli oğlu---------- 275
Məmmədov Rəşid Rza oğlu----------35
Məmmədov Seymur Qəhrəman oğlu--- 275, 286
Məmmədov Yaqub Cavad oğlu ---------- 78, 113
Məmmədov Zakir Cabbar bəy oğlu ---------- 249
Məmmədova Fəridə Cəfər qızı---------- 249
Məmmədova Məsumə Hüseyn qızı ---------- 250
Məmmədyarov Əliyar Müslüm oğlu--------- 157
Mərdanov Misir Cumayıl oğlu---------- 300, 314
Mikluxo-Maklay ---------- 218
Milli Dirçəliş Günü---------- 325, 346
Milli Konservatoriyanın kitabxanası--------- 250
Milli Qurtuluş Günü---------- 193, 212
Milli Mətbuat və Jurnalistika Günü ---------- 219
Milli Musiqi Günü---------- 276, 297
Milli Silahlı Qüvvələr Günü---------- 193, 215
Milli Təhlükəsizlik Nazirliyi ---------- 325
Milli Təhlükəsizlik Orqanları İşçilərinin Peşə Bayramı Günü----------79, 118
Milli Teatr Günü ----------79
Mingəçevir Şəhər MKS---------- 390
Hüseyni Qəzvini ---------- 388
Mirzəyev Bəhram Rüstəm bəy oğlu---- 124, 147
Mirzəyev Ceyhun Cəmil oğlu---------- 123, 134
Mirzəzadə Böyükağa Məşədi oğlu -------- 35, 45
“Molla Nəsrəddin” jurnalı (110 il) ----- 124, 151
Morze Samuel Finli Briz---------- 124, 149
Moskvada N.Gəncəvi abidəsi açılmışdır ---- 301
Motsart Volfqanq Amadey---------- 5
Mömünə Xatun türbəsi---------- 390, 412
Mövsümov Məhərrəm Ağabala oğlu--------- 387
Muğanlı Əhmədağa---------- 156, 160
Muxtarov Yusif Mehdi oğlu ---------- 123, 137
Musayev Musa Əbdürrəhman oğlu----- 352, 379
Musayeva Tamilla Həşim qızı---------- 351, 374
Musayeva-İbrahimova Azadə Şahbaz qızı -- 300
Mustafayev Əbdüləli Cabbar oğlu---------- 219
Mustafayev Əmir Gülbala oğlu---------- 76, 82
Mustafayev Həsənağa Hacağa oğlu ---------- 248
Mustafayev Ramiz Hacı oğlu ---------- 299, 305
Mustafayeva Güllü Hacağa qızı ---------- 323
Mustafayeva Sədayə İsmayıl qızı------- 217, 229
Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyası---------- 158
“Müstəqil Dövlətlər Birliyi”yaradılmışdır -- 353

N

N.Gəncəvi adına Lökbatan qəsəbə kütləvi kitabxanası---------- 325
N.Gəncəvi adına Naftalan şəhər kitabxanası 390
Nağıyev Faiq Həbib oğlu----------36
Nağıyev Möhsün Zeynalabdin oğlu --- 276, 291
Nağıyev Tofiq Murtuza oğlu----------78, 114
Nağıyev Vaqif Mirəsgər oğlu---------- 124, 148
Naxçıvan şəhər Mərkəzləşdirilmiş Kitabxana Sistemi---------- 390
Naxçıvani Hacı Məhəmməd ---------- 388
Naxçıvani Həsən İbn Ömər (Bulquri)-------- 388
Nakam ---------- 386
Namazova Adilə Əvəz qızı ---------- 276, 293
Narkomaniya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü---------- 193
Nazim Əli---------- 323
Neftçi Qurban ---------- 300, 311
Neftçilər Günü ---------- 276
Nekrasov Nikolay Alekseyeviç ---------- 350
Nemətulla Ağa ---------- 324, 336
Nəcəfova Hökumə Yusif qızı---------- 323
Nəqqaş Mani ---------- 387
Nərimanbəyov Vidadi ---------- 217, 223
Nəsibov Kamil Balədə oğlu ---------- 299, 307
Nəsimi adına Dilçilik İns k/x---------- 389
Nəsirli Müzəffər Qasım oğlu---------- 275
Nəsirov Yalçın Canhəsən oğlu ----------6, 18
Nəsrəddinov Rafiq Hüseyn oğlu---------- 77, 98
“Nəşri-Maarif” xeyriyyə cəmiyyəti ---- 250, 269
Nəvai Əlişir---------- 35, 43
Nəzərli Hikmət Baba oğlu---------- 77, 96
Nəzirova Nailə Məmməd qızı---------- 122
“Nicat” adlı maarif cəmiyyəti---------- 391
Nizami adına Ədəbiyyat İns.k/x ---------- 389
Nobel Emmanuel (böyük) ----------78
Nobel Lüdviq---------- 219

Novruz bayramı ---------- 79
Novruzov Manaf Əbdülrəhim oğlu---------- 352
Nuri Yaşar---------- 275, 284
Nuriyev Aləm Bayram oğlu ---------- 300

O

Oğuz rayon MKS ---------- 390
Olimpiya muzeyinin yaradılması ---------- 79
“Orucov Qardaşları” nəşriyyatı ---- 390, 414-415
Orucov Vəzir Surxay oğlu---------- 351, 369
“Ölülər” əsəri ilk dəfə səhnəyə qoyulması -- 391
Evliya Çələbi ---------- 78, 112

P

Paşayev Baxşeyiş Xanəhməd oğlu ----- 157, 171
Pərvin xanım Ehtisami ---------- 386
Pikasso Pablo ---------- 299,304
Polis Akademiyasının Ümumi kitabxanası -- 389
Prokurorluq İşçiləri Günü---------- 301
Rabitə və İnformasiya Texnologiyaları
Nazirliyinin T.Mər. kitabxanası ---------- 390
Rabitə və İnformasiya Texnologiyaları Sahəsi
İşçilərinin Peşə Bayramı Günü ---------- 353
Ramazan bayramı ---------- 219, 244
Ramazanov Şamil Ağasəf oğlu ---------- 6, 17
Raykin Arkadi İsaakoviç ---------- 299
Rayonlarda, şəhərlərdə və şəhər rayonlarında icra
hakimiyyəti başçısı vəzifəsi ---------- 301
Rembrandt Harmens Van Reyn --------- 217, 224
Resp.Elmi Kənd Təsərrüfatı K/x---------- 7, 27
Rəcəbov Oqtay Məmmədağa oğlu ----- 122, 130
Rəfiyev Akif Bəşir oğlu ---------- 77, 101
Rəfiyev Mahmud Məmmədtağı oğlu--------- 219
Rəhimov Arif ---------- 217, 220
Rəhimov İlham Məmmədhəsən oğlu---------- 6
Rəhimov Şamo Süleyman oğlu ---------- 123
Rəhimova Elmira Allahverdi qızı---------- 248
Rəhmanzadə Maral Yusif qızı ---------- 217, 225
Rəsulov Məcid Lətif oğlu---------- 218, 241
Rövşən Ramiz ---------- 350, 354
Ruhulla Sidqi ---------- 77, 95
Rüstəm Süleyman---------- 76,81
Rüstəmbəyov Əsəd Fətulla oğlu ---------- 276
Rüstəmxanlı Sabir Xudu oğlu---------- 156, 161
Rüstəmov Eldar Səid oğlu ---------- 217
Rüstəmov Nəbi Rüstəm oğlu---------- 388
Rüstəmov Saleh Hacı oğlu ---------- 249
Rzaquliyev Elbəy Mirzə Həsən oğlu--- 191, 195
Respublika Günü---------- 158, 189

S

Sadıqcan---------- 387, 404
Sadıqov Əliövsət Şirəli oğlu ---------- 351, 360
Sadıqov İsmayıl Rza oğlu ---------- 219
Sadıqov Novruz ---------- 275, 278
Sadıqzadə Oqtay Seyid Hüseyn oğlu ----- 35, 46
Salahov Mustafa Səttar oğlu ---------- 250
Salahov Şakir Şamil oğlu ---------- 191, 201
Salamzadə Əbdülvahab Rəhim oğlu ----- 37, 61
Salayev Həsənağa Dərya oğlu ---------- 351, 364
Salmanlı Ağaxan Əli oğlu ---------- 299
Salmanov Fərman Qurban oğlu--------- 218, 240
Saltıkov-Şedrin Mixail Yevqrafoviç--------- 5, 12
Seyidov Həsən Əli oğlu---------- 388, 408
Seyidova Həqiqət Əli qızı ---------- 352
Sədərək rayon MKS ---------- 276
Sədiyev Vəzir İsa oğlu ---------- 191, 202
Səfərova Xalidə Ələkbər qızı ---------- 248
Səfəvi hökmdarı I Şah İsmayıl Xətainin
hakimiyyətə gəlməsi---------- 390
Səhiyyə İşçiləri Günü ---------- 193
Səxavət Seyran ---------- 76, 87
Səlimov Arif Ağacan oğlu ---------- 192, 209
Səmədov Niyazi Həmid oğlu---------- 352
Sənani Ofelya Hacağa qızı ---------- 157, 183
Skot Valter ---------- 248, 256
Sultanlı Əli Abdulla oğlu ---------- 352
Sultanov Eynəli bəy Çölübəy oğlu ----- 156, 159
Sultanov Hacıbəy Fərəculla oğlu ------- 276, 292
Sultanov Mirzə Əbülqasım ---------- 123
Sumqayıt Döv. Universi.kitabxanası --------- 390
Süleymanov Ələkbər Bağır oğlu---------- 353
Süleymenov Oljas Ömərovič---------- 156, 166

Ş

Ş.İ.Xətai adına kütləvi kitabxana ---------- 250
Şadlinski Abbasqulu bəy Xanbala oğlu--- 36, 57
Şah Abbas məscidi (Cümə Məscidi) --------- 391
Şah İsmayıl Xətai tərəfindən poçt rabitəsi--- 391
Şahbuz rayon Mərkəzi kitabxanası ---------- 389

Şahtaxtinskaya Leyla İsa sultan qızı --------- 388
Şahtaxtinski Behbud ağa---------- 388
Şahtaxtinski İsasultan Nəcəfqulu oğlu - 218, 237
Şahtaxtinski Məhəmməd ağa---------- 388
Şaiq Abdula---------- 35, 41
Şedrin Silvestr Feodosiyeviç ----------35
Şəhriyar Seyid Məmmədhüseyn ------- 386, 398
Şəkili Ələsgər ---------- 386, 398
Şərqdə ilk notlu xalq çalğı alətləri orkestri və indiki Niyazi adına simfonik orkestr --------- 391
Şıxəlibəyli Ədhəm Şahlarbəy oğlu ----- 123, 145
Şıxəliyev Oqtay Yusif oğlu ---------- 275, 279
Şıxızadə Kazım ağa Şıxı ağa oğlu ---------- 386
Şinasi İbrahim ---------- 387
Şirazi Qütbəddin Mahmud ibn Məsud ------- 389
Şirəliyeva Tamilla Xudadat qızı ---------- 350
Şirinov Xanlar Cəbrayıl oğlu---------- 389
Şirvani Xaqani ---------- 386
Şostakoviç Dmitri Dmitriyeviç ---------- 275
Şou Corc Bernard---------- 217, 221
Şuşa rayonunun işğalı günü ---------- 158, 187
Şuşinski Xan---------- 248, 259
Şükürov Ağayar Məhəmməd oğlu--------77, 104
Şükürov Kərim Kərəm oğlu ---------- 157, 176

T

T.Şahbazi adına kütləvi kitabxana ---------- 390
Tağıyev Məmməd Tağı oğlu---------- 123
Tağıyeva Şövkət Əzizağa qızı---------- 218, 233
Tahir Söhrab ---------- 248, 251
Taqor Rabindranat ---------- 156, 164
Tarixi Abidələrin Mühafizəsi Günü124, 152-153
Teleqramların poçt şöbələrində kompyuter şəbəkəsi vasitəsilə ötürülməsi ---------- 391
Təbrizi Saib ---------- 386, 395
Tixonov Nikolay Semyonoviç ---------- 350
Torpaq islahatı haqqında Qanunu ---------- 219
Tukay Abdulla---------- 122, 127
Tursunzadə Mirzo---------- 156, 163
Tusi Nəsirəddin Məhəmməd ibn Həsən -- 36, 58
Türkiyə Cüm.Zəfər Bayramı Günü ---------- 250
Televiziya və Radio İşçiləri Günü---------- 325
Təbrizi Saib---------- 386, 395

U

Urməvi Səfiəddin ---------- 387,403
Uşaqların Beynəlxalq Müdafiə Günü -------- 193
Uşaqların Beynəlxalq Televiziya və Radio Verilişləri Günü---------- 353
Uşaqlıgil Xalid Ziya ---------- 217, 222

Ü

Ümumdünya "Dialoq və İnkişaf üçün Mədəni Müxtəliflik" Günü ---------- 158
Ümumdünya Aviasiya və Kosmonavtika Günü - ---------- 124
Ümumdünya Diabet Günü---------- 325
Ümumdünya Əməyin Mühafizəsi Günü----- 124
Ümumdünya ətraf mühitin mühafizəsi günü 193
Ümumdünya Gülüş Günü ---------- 124
Ümumdünya Hemofiliya Günü ---------- 124
Ümumdünya Xərçənglə Mübarizə Günü -----37
Ümumdünya İnformasiya Cəmiyyəti Günü - 158
Ümumdünya İstehlakçılar Günü ----------79
Ümumdünya Qaçqınlar Günü---------- 193
Ümumdünya Qızıl Xaç və Qızıl Aypara Günü 158
Ümumdünya Metrologiya Günü---------- 158
Ümumdünya Mülki Müdafiə Günü----------78
Ümumdünya Poçt Günü ---------- 301
Ümumdünya Sağlamlıq Günü ---------- 124
Ümumdünya Salam Günü ---------- 325
Ümumdünya siyasi repressiya qurbanlarının xatirə günü ---------- 301
Ümumdünya Tütünlə Mübarizə Günü ------ 158
Ümumdünya Yazıçılar günü ----------79
Ümumdünya Yer Günü---------- 124
Ümumdünya yoxsulluqla mübarizə Günü -- 301
Ümumxalq Hüzn Günü ----------7, 30

V

Veysəlli Nemət Bayramalı oğlu----------76
Vəli Kamil ---------- 249, 267
Vəlixanov Nadir İsmayıl oğlu---------- 324
Vəliyev Əli Qara oğlu---------- 35, 42
Vəliyev İsmayıl Ömər oğlu----------78, 107
Vəliyev Süleyman Vəli oğlu ---------- 350, 355
Vəliyev Teymur Süleyman oğlu ----------6, 24
Vəlizadə İsgəndər Mahmud oğlu ---------- 124

Vəzirov Ədalət Səfərəli oğlu ---------- 122, 132
Vurğun Səməd ---------- 76, 84

Y

Yaqubov Məmməd Haqverdi oğlu --------- 37, 63
YARAT Müasir İncəsənət Məkanı ---------- 391
Yeni il bayramı ---------- 7, 28
Yəhyayev Elşad Məmmədhənifə oğlu - 157, 173
Yuri Qaqarinin kosmosa uçuşu ---------- 124
Yusifbəyli Nəsib bəy Yusif oğlu ---------- 388
Yusifqızı Əminə ---------- 275
Yusifov Zakir Tofiq oğlu ---------- 276, 288
Yusifova Adilə Niyazi qızı ---------- 217, 227
Yusifzadə Əşrəf Əmrah oğlu ---------- 363
Yüzbaşov Faiq Hüseyn oğlu ---------- 191

Z

Zaqafqaziyada Qori Müəllimlər Seminariyası 391
Zamanov Abbas Fəttah oğlu ---------- 300, 313
Zeynalov Bəhruz Mahmud oğlu ---------- 351
Zeynalova Nəsibə Cahangir qızı -------- 123, 136
Zəngilan rayonunun işğalı günü ------- 301, 325
Zirə qəsəbə kütləvi kitabxanası (Xəzər rayon MKS-nin 4 saylı filalı) ---------- 389
Ziya Kazım ---------- 77, 94
Zülfüqarov Samir Xəlil oğlu ---------- 218, 231

İstifadə olunmuş ədəbiyyat

1.Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası: 2 cilddə.-Bakı, 2004-2005.
2.Azərbaycan XX əsrin informasiya məkanında: I və II cild.-Bakı, 2007.- 820 s.
3.Azərbaycan qadını ensiklopediyası.- Bakı, 2002.-404 s.
4.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə. C.1-2 .-Bakı, 2009-2010.
5.Azərbaycan Milli Ensiklopediyası: 25 cilddə: "Azərbaycan cildi" .-Bakı, 2007.- 884 s.
6.Azərbaycan Sovet Ensiklopediyası:10 cilddə.-Bakı, 1976-1986.
7.Azərbaycan tarixi günbəgün: kitab-təqvim.- Bakı, 2008.-368 s.
8.Azərbaycanda kim kimdir: ensiklopedik sorğu kitabı.- Bakı, 2010.- 392 s.
9.Azərbaycanın elmi elitası-elmlər doktorları: məlumat kitabçası.- Bakı, 2011.- 320 s.
10.Azərbaycanın tanınmış xanımları=Famous ladies of Azerbaijan.-Bakı, 2002.- 270 s.
11.Cəfərov,T. Məktəblinin ədəbiyyat lüğəti.- Bakı, 2007.- 219 s.
12.Cəlil Məmmədquluzadə ensiklopediyası.- Bakı: Şərq Qərb, 2008.- 320 s.
13.Dəyişikliklərə cəsarəti çatan örnək xanımlar=Role models: Women daring to change.- Bakı, 2008.-135 s.
14.Əhmədov, S. Azərbaycan tarixindən 100 şəxsiyyət.- Bakı, 2006.- 267 s.
15.Əhmədov, T. Azərbaycan Yazıçıları (XX-XXI yüzillikdə).- Bakı, 2011.-1056 s.
16.Əlizadə,Y.M. Azərbaycan efiri:tarix və müasirlik.- Bakı: Nurlan, 2006.- 184 s.
17.Əsgərov, V. Azərbaycanın Milli Qəhrəmanları .- Bakı, 2010.- 288 s.
18.Fəxri Xiyaban=The Honorary Cemetery.- Bakı, 2007.- 208 s.
19.Qarabağ:Yaddaş.-Bakı, 2010.-192 s.
20.Qocayev, Ə. Bayramlar və tarixi günlər.- Bakı: Altun Kitab, 2006.- 152 s.
21.Mərdanov, M.Azərbaycan təhsil tarixi:3 cilddə.-Bakı, 2011.
22. Muğam ensiklopediyası.- Bakı, 2008.- 215 s.
23.Naxçıvan Ensiklopediyası.-Bakı, 2002.- 594 s
24.Nicat, Ə. Müdriklik məbədi /Əlisa Nicat.- Bakı, 2005.-1108 s.
25.Rəhimli, İ. Azərbaycan teatr tarixi.-Bakı: Çaşıoğlu, 2005 - 864 s.
26.Rəhimli, İ. Üç əsrin yüz otuz ili.-Bakı: "Qapp-poliqraf" korporasiyası, 2003.-264 s.
27.Seyidzadə, M. Milli Qəhrəmanlar Zirvəsi.- Bakı, 2010.- 252 s.
28.Şərif, A. XX əsr Azərbaycanın yaradıcı nəsilləri=Творческие династии Азербайджана в XX веке.- Bakı, 2007.-120 s. +120 s.
29.Üzeyir Hacıbəyli Ensiklopediyası.-Bakı: Şərq-Qərb, 2008.-239 s.
30.Varlıq: ensiklopedik toplu.- Bakı, 1998.- 283 s.
31.İnternet resursları

Mündəricat

Meymun ili 3

Yanvar 4-33

Qan yaddaşımız 39

Fevral 34-74

Mart 75-120

Aprel 121-154

May 155-189

İyun 190-215

İyul 216-246

Avqust 247-273

Sentyabr 274-297

Oktyabr 298-321

Noyabr 322-348

Dekabr 349-384

Əlavələr 385-417

Əlifba göstəricisi 418-427

Ədəbiyyat siyahısı 428

2016

Əlamətdar və tarixi günlər təqvimi

Təqvim Milli Kitabxananın
Kitabxanaların
metodik təminatı şöbəsi
tərəfindən hazırlanmışdır.

Nəşriyyat redaktoru:
Mehriban Cəfərova
Kompyuter dizayneri:
İlham Zəkəryəyev

Ünvan:
AZ-1000 Bakı ş., Xaqani küç.57
E-mail: contact@anl.az
URL: www.anl.az

Sifariş №: 28
Çapa imzalanmışdır: 16.11.2015
Tiraj: 300
Pulsuz

Mətbəənin direktoru:
Elman Qasımov

"Zərdabi LTD" MMC
Nəşriyyat Poliqrafiya müəssisəsi.
Sifariş №44
Tel.: iş (012) 514 73 73